**Azərbaycan Milli Elmlər Akademiyası**
**ak. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu**

# İSLAM
# ensiklopedik lüğət

**Bakı-2013**

**Hazırlayanlar:** f. üzrə e.d., prof. G.B.Baxşəliyeva
t.üzrə fəl.dok. Ə.S.Abbasov

**Elmi redaktor:** f. üzrə e.d., prof. G.B.Baxşəliyeva

Kitab AMEA ak. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Din və ictimai fikir tarixi" şöbəsinin müdiri, fəl. üzrə fəl. doktoru E.Y.Həsənovanın və şöbə əməkdaşlarının köməyi ilə hazırlanmışdır.

Respublikamızda müstəqillik dönəmində dini maarifçiliyin genişləndiyi, plüralizm və söz azadlığının bərqərar olduğu, İslama marağın artdığı hazırkı vaxtda İslam haqqında doğru və düzgün məlumatı geniş kütlələrə çatdırmaq üçün İslam ensiklopedik lüğətinin nəşr olunması zərurəti yaranmışdır. Lüğət «Ислам. Энциклопедический словарь» Москва, «Наука», ГРВЛ, 1991 kitabının tərcüməsi əsasında bir sıra yerli mənbə və ədəbiyyat, Azərbaycanın şeyxülislamları, müftiləri, axundları və s. din xadimləri haqqında məlumatlar, habelə, bəzi istilahlar haqqında əlavələrlə hazırlanmışdır.

Kitab dinşünaslar, filosoflar, şərqşünaslar və ümumiyyətlə, islamla maraqlananlar üçün nəzərdə tutulmuşdur.

**İSBN 978-995**

© AMEA Şərqşünaslıq İnstitutu, 2013

## Ön söz

Müasir dinşünaslığın ən mühüm məsələlərindən biri dinşünaslıq terminologiyasının dəqiqləşdirilməsinə və dinlərin müxtəlif təyinatlarının qaydaya salınmasına yüksək diqqət və maraq göstərməkdir. Bununla əlaqədar olaraq qərb dinşünaslığı üçün xarekterik olan yevro-xristosentrizmin aradan qaldırılması problemi aktuallıq kəsb edir.

Dinlərin bir çox məfhumları, qaydaları, rəmzləri, ritualları müasir dinşünaslığın kateqoriya-məfhumi aparatında yer tutmuşlarla uyğun gəlmirlər. Belə ki, məsələn, dinşünaslıqda mövcud olan xristian məfhumları (günah və xilasolma) şərq dinləri ilə uyğun gəlmir, dinşünaslıq məfhumu «dünyəviləşdirmə» (sekulyarizasiya) islam aləmi və ya hinduizmdə işlənmir. Bununla əlaqədar olaraq dinşünaslıq terminologiyasının dəqiqləşdirilməsində dinşünaslıq ensiklopediyalarının, lüğətlərin və soraq kitablarının yaradılması çox böyük rol oynayır.

XX əsrin əvvəllərində «Din və etika ensiklopediyası» (Ensiklopedia of Religion and Ethics, Edinburq, 1941) işıq üzü gördü. «İctimai elmlər lüğəti» (A Dictinoray of Sosial Scences, N.Y, 1964) dinşünaslıq xarakterli məlumatları özündə cəm edir. Dinşünaslıq bilgilərin (istilahların) sistemləşdirilməsi üzrə fundamental iş 16 cildlik «Din eniklopediyası»dır (The Ensyclopedia of Religion, N.Y.L., 1987).

XX əsrin ikinci yarısında Rusiya və Avropada ayrı-ayrı dini icma və dinlərə həsr olunmuş bir çox ensiklopediyalar və lüğətlər nəşr olunmuşdur. Sovetlər dövründə «Fəlsəfə ensiklopediyası», «Fəlsəfi ensiklopedik lüğət», dini terminlər və dinə aid çoxlu məqalələr nəşr olunmuşdur. «Müasir Rusiya xalqlarının lüğəti» (M. 1999), habelə SSRİ EAŞİ tərəfindən dərc olunmuş «İslam Ensiklopedik lüğəti» (M. 1991) mühüm əhəmiyyət kəsb edir. Ensiklopediya 578 məqaləni ehtiva edir (Ensiklopediyanın tərtibatçısı S.M.Prozorovdur). Lüğətin mateialları bütün lokal etnomədəni variantların özəyini təşkil edən islam dininin ümumməfhum aparatı haqqında olduqca müfəssəl təsəvvür

yaradır. Qeyd olunan Ensiklopediyanın müəllifləri müsəlman adət-ənənələrinin yerli forma müxtəlifliyi və xüsusiyyətlərini açmağı öz qarşılarına məqsəd qoymadıqlarını etiraf edirlər.

Təqdim olunan lüğətdə islam ideologoyasının nəzəri və praktiki aspektlərini şərh edən əsas adlar, islam dininin anlayışı, məktəblər, məzhəblər, icmaların şəxsiyyətləri haqqında əlifba sırası ilə məlumat verilir.

Ötən əsrin sonlarında müstəqilliyini bərpa etmiş Respublikamızda azərbaycançılıq ideologiyasının əhatə etdiyi milli, elmi, mədəni sahələrin öyrənilməsinə xüsusi diqqət yetirilir və ənənəvi dəyərlərin qorunmasına böyük əhəmiyyət verilir. Milli mədəniyyətimizin tərkib hissələrindən biri də din-İslamdır. O, həm də xalqımızın milli dəyəridir. Respublikamızın Konstitusiyasında təsbit edilmiş etiqad azadlığı insanları dinləri daha dərindən öyrənməyə sövq edir. Bu ehtiyacdan doğan hazırkı kitabı hörmətli oxucuların diqqətinə təqdim edirik.

**Həsənova Esmeralda Yusif qızı,**
*fəl. üzrə fəl. d., AMEA ak. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun*
*"Din və ictimai fikir tarixi" şöbəsinin müdiri*

# İSLAM
# ensiklopedik lüğət

# A

**Abbas, əl-Abbas ibn Əbdül-Müttəlib** - Peyğəmbərin (s) əmisi. Peyğəmbərdən (s) iki və ya üç yaş böyük idi. Qardaşları Əbu Talib və Abdulladan fərqli olaraq böyük sərvət sahibi, tacir, sələmçi, saqi (həccə gedənlərə su paylayıb haqq alan) idi. Abbasilər ona aid bir sıra rəvayətlər uydurmuşlar. Məkkədə olanda onun Peyğəmbərə (s) müxalif olduğuna aid rəvayətlər var. Lakin o, Peyğəmbərə kəskin düşmən olanların işlərində iştirak etməyib. Abbas Mədinədə h. 632-ci ildə vəfat edib. Abbasi xəlifələri onun oğlu Abdullanın nəslindəndir.

**Ədəbiyyat:** Ziya Bünyadov. Dinlər, təriqətlər, məzhəblər. Bakı, 2007, 7 (Sonralar: Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər).

**Abbasilər-əl-Abbasiyyun** (və ya bənu əl-Abbas) – İslamı gec qəbul eləsə də, qardaşı oğluna kömək etmiş Məhəmməd (s) peyğəmbərin (653-cü ildə vəfat etmiş) əmisi əl-Abbas b. Əbdül-Müttəlib b. Haşimin birbaşa nəslindən olan xəlifələrin ikinci sülaləsi (749-1258).

Kişi xətti ilə Əli (ə) nəsli kimi Məhəmmədlə (s) də qohum olan Haşimilərin bu qolu VIII əsrin əvvəllərinə qədər icmada yuxarı hakimiyyətə iddia etmirdi. Əl-Abbasın oğlu Abdulla (vəf. 686-cı il) Siffin vuruşunda Əli (ə) ordusunun hissələrindən birinə başçılıq edirdi, lakin Əlinin (ə) vəfatından sonra Əməvilərə loyal-yumşaq münasibət bəslədi. Abdullanın oğlu Əlinin xəlifə Əbdül-Məliklə münasibətləri yaxşı idi. Buna görə də Əlinin oğlu Məhəmmədin Süleymanın hökmranlığının axırı və ya II Ömərin hökmranlığının əvvəllərində (təqr. 717) Əməvilər əleyhinə yönəldilmiş hərəkata qoşulması gözlənilməz görünür. Müsəlman tarixşünaslığında bunun səbəbi imamətliyin ona Əli (ə) tərəfdarı Əbu Haşim Abdulla b. əl-Hənəfi tərəfindən verilməsi sayılır. Bu məlumatlar nə qədər birtərəfli olsa da, şübhə yoxdur ki, Məhəmməd b. Əli Əməvilərlə mübarizə etmək və öz nəslinin hökmranlığını qurmaq üçün tam həqiqi gizli təşkilata varis olmuşdu. Onu Əbu Haşimin vəsiyyətini (vərəsəliyini) qəbul etməsinə sövq edən səbəb görünür, xəlifə əl-Vahid tərəfindən onun atasının təhqir olunması olmuşdur.

Əlinin təşkilatı çox dəqiq məxfiləndirilmişdi: idarəedici mərkəz Kufədə yerləşmişdi (747-ci ilədək ona Büğeyr b. Məhan, sonra isə Əbu Sələmə əl-Halləl başçılıq edirdi), imamla ancaq ən inanılmış şəxslər görüşürdü, özü də adətən həcc zamanı Məkkədə təbliğat peyğəmbər nəslindən olan, Allahın razılığı olan naməlum imam üçün aparılırdı. Qeyri-müəyyən xoşməramlı «Quran və Peyğəmbər (s) yolu ilə getmək» şüarı müsəlman müxalifətinin müxtəlif dairələrinin dəstəyini Əməvilərə təmin etdi. Məhəmməd b. Əli öz

tərəfdarlarını vaxtı çatmamış çıxışlardan daha sərfəli ana qədər qətiyyətdə saxlayırdı.

Təbliğatın əsas obyekti müxalifət qüvvələrinin çox olduğu və mərkəzi hakimiyyətin az nəzarət etdiyi Xorasan seçilmişdi.

İlk nümayəndələr oraya 718-19-cu illərdə göndərilmişdi, lakin müvəffəqiyyət ancaq 743-cü ildə xəlifə Hişamın ölümündən sonra – Əməvilər arasında daxili çəkişmələr (Xorasanda xaricilərin mübarizəsində çətinləşən şimal və cənub ərəb qrupları arasındakı çəkişmələr) vaxtı qeyd olundu. 747-ci ilin martında Məhəmməd b.Əlinin (vəf. 743-cü il) oğlu İbrahim oraya inqilabı hazırlamaq üçün öz şəxsi nümayəndəsi Əbu Müslimi göndərdi. O, düşmənçilik edən qruplar arasında manevr edərək Xorasan canişinini aradan götürməyi bacardı və 748-ci ilin əvvəlində Mərvə daxil oldu.

Üsyançılar bütün Qərbi Xorasanı tutub Reyə çatandan sonra xəlifə II Mərvan vəziyyətin ciddiliyini başa düşdü. O, hərəkatın başçısını aşkar edə bildi. İbrahim tutulub (Şimali Suriyada) Hərranda həbsə salındı və Əlinin İraqa yol açan Nəhavənddəki qələbəsindən sonra (26 iyun 749-cu il) zəhərləndirildi. Rəhbərlik onun qardaşı Əbu-l-Abbas Abdullaha keçdi. 29 avqust 749-cu ildə abbasi ordusu Kufəyə daxil oldu, oktyabrda isə gizlicə olaraq Əbu-l-Abbas bütöv ailəsi ilə birlikdə ora gəldi. Təxminən ay yarım abbasi hərəkatının rəhbəri Əbu Sələmə Əbu-l-Abbasın gəlişini gizlətdi, o, şiə liderləri ilə razılaşaraq hakimiyyəti onlara vermək niyyətində idi, lakin nəzərdə tutulan iddiaçılar Əbu Sələmənin təklifini rədd etdikdə və imam Əbu-l-Abbasın gəlişi çoxuna bəlli olduqda o, came (cümə) məscidində camaatın arasına çıxıb öz proqram çıxışını etdi (28 noyabr 749-cu il). İştirakçılar ona and içdilər.

Bu günü yeni sülalənin təsdiqlənməsinin (yaranmasının) tarixi hesab etmək olar, əslində II Mərvan xilafətin qərb hissəsində yarım il də hökmranlıq etməkdə davam edirdi. Əbu-l-Abbas bu çıxışda özünü səxavətli (və ya «günahları bağışlayan») – əs-səffah adlandırdı və bu epitet özünəməxsus bir ad oldu. Sonralar onu başqa xəlifələr də qəbul etdilər (əs-səffah termininin «qantökən» mənalandırılması şübhəlidir).

A. hakimiyyətə «Əhli beyt» xeyrinə olan şiə təbliğatının dalğası üzərində gəldilər, ancaq ikitərəfli oyun oynayırdılar: onlar üzdə Əli (ə) tərəfdarlarının, gizlində isə öz xeyirlərinə işləyirdilər. A. Əməvilərin demək olar ki, hamısını qırdılar, canını qurtaran tək-tək adamlar oldu, belə ki, Hişamın nəvəsi Əbdürrəhmana Məğribə qaçmaq müyəssər oldu. O, Əndəlüsdə əməvi hökmdarlarının yeni sülaləsini yaratdı və 929-cu ildə yenidən özlərini xəlifə elan etdilər. Dövlət çevrilişinin ən mühüm nəticəsi ərəblər tərəfindən imtiyazlı mövqenin və hakimiyyətdə monopoliyanın itirilməsi və müsəlmanların hüquqlarında müxtəlif etnik mənşələrin bərabərləşdirilməsi idi ki, bu da İran və Orta Asiyada sürətlə islamlaşmağa

və xilafətin siyasi və mənəvi həyatında İran elementinin rolunun qüvvətlənməsinə gətirib çıxartdı.

A. yerlərini möhkəmləndirən kimi hərəkatın çox güclü rəhbərlərini məhv etdilər: Əbu Müslümün köməyi ilə Əbu Sələmə (750-ci il), sonra isə Əbu Müslüm özü öldürüldü (755-ci il). Abbasilərin özlərinin hökmranlıq uğrunda mübarizə dövründə dini-siyasi əqidələri aydın deyil.

Öz hökmranlıqlarının qanuniliyini əsaslandırmaq üçün onlar şiə qruplarının müxtəlif təmsilçilərindən istifadə edirdilər.

İlk A. şiələrin mübariz qolunu əzərək onların mülayimləri ilə ümumi dil tapmağa cəhd edirdilər. 817-ci ildə əl-Məmun (813-833) hətta öz kürəkəni, 8-ci şiə imamı Əli bin Musa ər-Rzanı varis elan etdi, onun adına pul kəsdirdi, lakin bu Bağdad və başqa yerlərdə sünnilərin narahatçılığına səbəb oldu. Ər-Rzanın gözlənilməz (yəqin ki, təsadüfi olmayan) ölümündən sonra bu iş tamam unuduldu. Şiələrə yaxınlıq göstərmək əl-Məmun tərəfindən mötəzili təliminin qanuni olduğunu hesab etmək kimi qəbul olunub (827-ci il), lakin bu təlimin təmiz şiə təlimi olduğu ilə razılaşmaq çətindir. 850-851-ci illərdə əl-Mütəvəkkil bu fərmanı ləğv etdi və Quranın yaranması təlimini qəbul edərək bir neçə şiə müqəddəs ocaqlarını dağıtdı, eyni vaxtda mömin canfəşanlığı ilə əhli zimmə məhdudiyyətlərini çətinləşdirdi.

X əsrə yaxın A. ərazilərinin əhəmiyyətli hissəsi üzərində öz siyasi hökmranlıqlarını itirmişdilər, lakin sünni hökmdarları onların dini süverenliyini tanımaqda davam edir və onların yanına investitura üçün gəlirdilər. X əsrin ortalarında Büveyhilərin gəlişi ilə A. özlərinin qalan torpaqlarından da məhrum oldular, bəzi vaxt isə hətta öz şəxsi malikanələrindən də məhrum oldular və ancaq müavinət alırdılar, lakin hətta onda da Bui şiələri onları hər hansı bir şiənin xeyrinə xəlifə məqamından məhrum etməyə qərar verə bilmirdilər. A.-in siyasi hökmranlığının XI əsrin I yarısında bərpası sünnilik «dindarlığı»nın yaranması və ehkamçılığın güclənməsi ilə paralel gedirdi. Buna parlaq misal əl-Qadir vaxtı 1041-42-ci ildə dinin rəsmi simvolunun elan edilməsidir. XI əsrin ikinci yarısında İraq ərazisində A. dövləti bərpa olundu.

İslamın səlibçilərə qarşı mübarizəsində A. təşkilatçı rolu oynamadılar.

Xilafətin monqollar tərəfindən məhv edilməsindən sonra Misir və Suriyanın məmlük hakimləri öz hökmranlıqlarının nüfuzlu sayılması üçün A. nəslindən (bir nəfər) tapıb onu xəlifə, özlərini isə onun vassalı elan etməyi zəruri hesab etdilər. 1368-ci ildə A.-in bu qolu da kəsildi.

A. müsəlman xalqlarının nəzərində müsəlman birliyinin simvolu kimidir. Makedoniyalı İskəndərin şərq dövləti imperiyasından sonra ən böyük ərəb xilafəti onların vaxtında yarandı. A. dövrü müsəlman dövlətçiliyi və mədəniyyətinin çiçəklənmə dövrü kimi qəbul edilir.

**Ədəbiyyat:** Ислам: Энциклопедический словарь. – М.: Наука, 1991, с. 5-7 (Sonralar: İslam); ən-Naubaxti. Шиитские секты, 28-46, 90-93, 134-136, 146-148; Anonim: J.Wellhausen. Das arabische Reich und sein Sturz. B., 1902; R.Hartmann. Zur Vorgeschichte des Abbasidischen Schein-Chalifates von Cairo- AAWB. 1947, 9; Cl.Cahen. Points de vul sur «revolution Abbaside». – RH. 1963, 230, 295-338, RMHM, 105-160; M.A.Shaban. The Abbasid revolution. Oxf., 1970; F.Omar. Abbasiyyat: Studies in the history of early Abbasids. Baghdad, 1976; J.Lassner. The shaping of Abbasid rule Princeton, 1980; B.Lewis. `Abbasids. – EI, NE, 1, 15-23.

**Abd (cəmdə ′ibād)** – ümumi məfhumda «qul», məcazi mənada da işlənir, ikili (mürəkkəb) adların düzəldilməsində iştirak edir (məs: Abd Allah-Abdulla, Abd ur-Rəhman-Əbdürrəhman), toplum mənası «qullar» (kişilər və qadınlar) raqiq (cəmdə ariqqa`) və ya ′abid.

Ərəbcə abd sözü «ayn» hərfi ilə yazılır və həmin hərflə başlanan sözlərin 99%-i «a» səsi ilə tələffüz olunduğu üçün «ayn»la başlayan sözlərin çoxunu «a» hərfi ilə yazmağı münasib bildik.

Quranda insan və Allah əlaqəsi qul və onun sahibinin əlaqəsinə oxşadılır – necə ki, Allah insanların qayğısına qalır, onlar da (sahiblər) öz qullarının qayğısına qalmalıdırlar. O biri dünyada günaha görə cəza və qul taleyinə itaətə görə hədiyyə veriləcəyi xristian anlayışında yoxdur. Qullar hər yerdə abd və ya əmə (cariyə-kəniz) adlandırılır. Lakin təkcə bir yerdə (Quran 16: 75/77) ′abd məmlük qeyd olunur ki, bu da başqa mənbələrə görə hərbi əsir mənasını verməlidir, o, qul doğulmuşdan (kinn) fərqli olaraq satın alına bilər. Qulların vəziyyətini təyin etmə (qanunu) yoxdur, lakin bəzi kontekstlərdə deyilir ki, müsəlman qul azad bütpərəstdən yaxşıdır, azad bütpərəst qadınla evlənməkdənsə müsəlman kəniz qadınla evlənmək yaxşıdır (Quran, 2: 220/221; 4: 25/29), lakin azad müsəlmanlarla müqayisədə onlar iki dəfə pisdirlər və öz əməllərinə görə o qədər də az cavab verirlər, buna görə də qul qadın sədaqətsizliyə görə azad qadından iki dəfə az cəza çəkir (Q. 4:25/30). Qulun könüllü azad edilməsi (i′taq) – savab işdir. O, aclıq vaxtı yetimlər və kasıbları yedizdirmək kimi yaxşılığa bərabər tutularaq mükafatlandırılacaqdır (Q. 90: 13-18). Qulun azad edilməsi sahib üzərinə onun andı pozduğu və ya müsəlmanı qərəzlə öldürdüyü üçün qoyulan cərimənin bir növü kimidir (Q. 5:89/91; 4:92/94; 58:3/4). Azadetmə yazılı sənədlə qeyd olunur (Q. 24; 33). Məhəmmədin (s) özünün (adı məlum olan) 20-yə yaxın qulu vardı, o, müxtəlif vaxtlarda onları azad etmişdi; onun arvadlarından ikisi qul idi – azadlardan fərqli olaraq onlar mehr almamışdılar.

Müsəlman hüquq elmi bütün müsəlmanların təbii halda azadlıq fərziyyəsinə əsaslanır (əl-asl huva əl-hurriyyə: «əzəli azad hal»). Onları

müsəlman ölkələrində, o cümlədən, borca görə qul etmək olmaz. Bu fərziyyə tapılan uşaqların statusunu təyin edir: hənəfilərin təliminə görə müsəlman yaşayış məntəqəsində tapılan, mənşəyi bilinməyən uşaq müsəlman və azad sayılır, hər-hansı bir adamın uşağı qul elan etməsi sübutsuz qəbul olunmur. Lakin qulun islamı qəbul etməsi onu avtomatik olaraq azad etmir.

Bütün məktəblərin hüquqşünasları tərəfindən qəbul olunan müsəlmanları qula çevirməyin qeyri-mümkünlüyü haqqındakı qərar təcrübədə tez-tez pozulurdu, çünki hər bir qiyamçını mömin müsəlman saymamaq olardı və üsyanların yatırılması vaxtı tutulan əsirləri tez-tez qul kimi satırdılar; hüquq qaydalarından yan keçərək borca görə də qula çevirmək həyata keçirilirdi.

Müsəlman hüquqşünasların rəyinə görə, qul şeylərin və insanın xüsusiyyətlərini özündə cəmləşdirir, belə ki, o, ev heyvanı ilə eynidir. Qul ticarəti ilə məşğul olanla heyvan ticarəti ilə məşğul olan şəxslər eyni cür - nəxxas adlanırdılar, bu eyniliyə görə qul qadının uşağı hərdən qalla (artım, gəlir) adlanırdı. Sahibkar qulun həyatına qərar verə bilməzdi, onu yaxşı yedirtməli idi və onu çox ağır iş ilə əldən sala bilməzdi, lakin bu normaların pozulmasına görə cəza tədbirləri nəzərə alınmırdı. Başqasının qulunu öldürən azad adam həyatından məhrum olmurdu, ancaq sahibinə vira (diyə) verirdi onun qədəri qanunla müəyyən edilmirdi, ancaq sahibkara zərərin ödənilməsi ilə başa gəlirdi.

Mənbələrdə ümumi abd, amə, raqiq (qul qadınlar üçün cariyə və vasifə, qullar üçün qulam, vasif və məmlük) adlarından başqa çoxlu müxtəlif qul adlarına rast gəlinir, lakin onların çoxu hüquqi istilahlar deyillər. Tam və şərtsiz sahibkar mülkiyyətində olan qulun – (kinn) mülkiyyətə malik olmaq və azad hərəkət etməyə ixtiyarı yoxdur, yararsız kimi o, öz borclarına da cavabdeh deyil. Sahibindən ticarət etmək və ya sənətkarlıqla məşğul olmaq üçün icazə almış qul (və ya qul qadın) mə`zun («icazə almış» q.c. mə`zunə) adlanır, lakin onun səlahiyyəti sahibinin icazə verdiyinədək məhdudlanır. Belə qulun qazandığının ona çatacağı müxtəlif cür həll olunurdu – varis həmişə sahibkar olurdu. Özünüsatınalma – mukətəb (mövcud sənəd q.c. mukətəbə) haqqında yazılı müqavilə bağlayan qul (qul qadın) qulun azad olunmasının ən çox yayılmış forması özünüsatınalma deyil, sahibkarın öz razılığı ilə azadetmə idi: və`də görə, bağışlama yolu ilə göstərilən qulluğa minnətdarlığa və ya ölümdən qabaq öz ruhunu xilas etməkdən ötrü vəsiyyətə görə (tədbir). Varislərin maraqlarını müdafiə edərək qanun qulların 1/3 hissəsindən çoxunu vəsiyyət yolu ilə azad etməyə icazə vermirdi. Azad edilmiş qul (məulə) keçmiş sahibi və ya onun varisi ilə xüsusi əlaqə saxlayırdı, hətta azad edilmiş qul qadının ana bətnindəki uşaq da sahibkarın məuləsi sayılırdı.

Kəniz qadınla yaşamaq – onun üzərində mülkiyyətə sahib olma hüquqlarının həyata keçirilməsi formalarından biridir. Sahibkardan uşağın doğulması halında (əgər sahibkar onu özününkü qəbul etsə) qadın umm valəd (uşağın anası) olur və bir neçə üstünlüklər əldə edir. Əgər sahibkarın azad arvadı olmasa o, azad qadının yarı hüquqlarını qazanmış qul qadınla evlənə bilərdi. Onun (kəniz qadının) uşaqları azad olurdular, çünki uşaqlar varisliyi atadan alırdılar. Buna görə əsli kəniz qadından olmaq (doğulmaq) ayıb sayılmırdı, xəlifələrdən bir çoxu (məs. məşhur ər-Rəşid) kəniz qadınların uşaqları idilər.

Qulların ailə həyatına hüquqları var idi (bu hətta Quranda tövsiyə olunur, 24:32), lakin bu, sahibkarın razılığı ilə olmalı idi (malikilər hesab edirdilər ki, həddi-buluğa çatmış qul onun razılığını soruşmaya bilərdi, kəniz qadın isə razılıq almalı idi, belə ki, o ərə gedərsə, sahibkar onunla yaşamaq hüququnu itirirdi). Boşanmağa görə sahibkarın razılığı tələb olunmurdu, sahibkar öz qullarının nikahını poza bilməzdi.

Hər bir mülkiyyət kimi qul da bir neçə sahibkara məxsus ola bilərdi, onların hər biri öz payını sata və ya azad edə bilərdi (bu halda qalan sahibkarlar üçün qulun işləmə müddəti və ya satınalınma pulun qədəri azalırdı).

Lakin bir neçə sahibkarın bir kəniz qadınla yaşamalarına icazə verilmirdi.

Dinə görə müsəlman qul azad müsəlmanlara bərabər tutulur, lakin onun cümə namazında iştirakı, zəkat və sədəqə verməsi vacib deyildi. Namaza başçılıq etməyi bacaran azad müsəlman olmadıqda qul pişnamaz (imam) ola bilərdi, lakin azadlıq tələb edən vəzifələrdən heç biri ona həvalə oluna bilməzdi (maaş alan hakim, mühtəsib, imam).

Qulların həqiqi vəziyyəti müsəlman qanunvericiləri tərəfindən təsvir edilən mənzərədən pis tərəfə fərqlənirdi, lakin çox qul yuxarı mövqeni sahibkarın mövqeyi ilə əlaqədar qazanmışdır. Qulların çoxu ev işlərində məşğul idilər (qullar ucuz olarkən istilaçı müharibələr vaxtı istisna olmaqla onların əməyi istehsalatda geniş surətdə istifadə olunurdu).

Quldarlıq müsəlman aləmində XX əsrin ortalarına qədər qalmışdı. Əlcəzairdə o, 1848, Orta Asiyada onun Rusiyaya birləşməsindən sonra, Xivə və Buxara xanlıqlarında o, 1873-cü il müqaviləsi ilə ləğv olundu, lakin faktiki olaraq, o, ancaq Sovet hökumətinin qurulması ilə məhv edildi, Əfqanıstan, İran, İraqda 1923-1929-cu illərdə, Səudiyyə Ərəbistanında XX əsrin 70-ci illərində ləğv olundu.

**Ədəbiyyat:** İslam, 6-7; И.П.Петрушевский. Применение рабского труда в Иране и сопредельных странах в позднее средневековье – МКБ, 25 (Sonralar: И.П.Петрушевский. Применение рабского труда); Л.И.Надирзаде. Вопрос о рабстве а Аравии VII в. НАА, 1968, 5, 75-85;

И.П.Петрушевский. К истории рабстсва в халифате VII –X веков. – NAA, 1971, 3; A.Wekwarth. Der Slave in Muhammedanishchen Recht. B., 1909; Abd Elwahed. Contribution a une theorie sosiologiqe de lesclavage. P., 1931; R.Brunschvig Abd. – EI, NE, 1, 24-40.

**Abdəst** (fars. abdast, ərəb. vudu, azərb. dəstəmaz) - namaz qılmaqdan əvvəl təmizlənmə. Maidə surəsində (V) dəstəmazın alınması qaydası verilib: Üzü və əlləri dirsəklərədək yumaq (yaş əllə), başa məsh çəkmək, ayaqları topuğa qədər yumaq (şiələr pəncələrə məsh çəkirlər). Qurana görə hər namazdan əvvəl dəstəmaz alınmalıdır, (xəstə, natəmiz-cunub olub, su tapmayanda) təyəmmüm etmək olar. Bu, təmiz torpağa əl vurub baş, alın və üzə və əllərin üstünə məsh çəkməklə edilir. Hazırda məscidlər və namazgahların yanında su kranları (müslüklər) və şadirvanlar var.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 7-8, 287-288.

**Abdulla b. Abbas** (və ya əl-Abbas) Əbu-l-Abbas (619-686) – İslamın əsasını qoyan Məhəmmədin (s) əmisi oğlu, adətə görə – Quran ekzeqezinin banisi. Müsəlman rəvayətinin onu qeyri-adi bilik sahibi kimi təqdim etməsi onun icmanın xəbir al-ummə (alim adam) ləqəbinin əsası oldu. Məhəmməd (s) və onun silahdaşlarının hərəkətləri və dedikləri (hədis) haqqında hekayətləri yığmaq fikrini ona aid edirlər. A.b.A. Quranın şərhçisi, hüquq məsələlərinin təfsirçisi (o özü hüquqi məsələlərə rəy verirdi), islamaqədərki tarixin hekayətləri və Məhəmmədin (s) yürüşləri haqqında xəbər verən kimi məşhurdur.

A.b.A.-a əsaslı və ya əsassız aid edilən Qurana yazılmış bir və ya bir neçə şərhi (indi bu haqda son fikir söyləmək mümkün deyil, çünki lazımi tədqiqat edilməyib) esxatoloji, tarixi və hüquqi aydınlaşdırmaları ehtiva edir, onlarda o, «əhlül-kitabın» hekayələrini istifadə edib. Onun şərhlərini islamın müqəddəs yazısının ilk filoloji interpretasiyasına cəhd hesab edirlər: aydın olmayan və ya yaddilli sözlər orada islamaqədərki şairlərin şerlərindən misallar kimi aydınlaşdırılır.

Quran ekzeqezinin işlənməsində A.b.A.-ın xidmətləri müsəlman adətinə görə çox şişirdilib, bu da onun nəslindən olan xəlifələrin xeyrinə idi. L.Kaetani və A.Lamens kimi tədqiqatçılar onu birbaşa saxtakarlıqda günahlandırıb, ona aid edilən Quran təfsirləri – Təfsir əl Quran, Kitab qarib fi-l-Quran, Bəyan lüğət əl-Quran, Lüğət fi-l-Quranı şübhə altına alırlar. T.Sezqin əks nöqteyi-nəzər irəli sürərək onun Təfsir əl-Quranının orijinal mətnini ət-Təbərinin tarixi əsəri əsasında qismən bərpa etmək mümkün olduğunu qeyd edir.

**Əbəbiyyat:** İslam, 7-8; GAS, 1, 25-28 və göst. əs.; Fr. Buhl. Abd Allah b. al-Abbas. – E, 1, 20-21; L.Veccia Vaglieri. Abd Allah b. al-Abbas. – EI, NE, 1, 40-41.

**Abdulla b. Səba** (onu tez-tez anasına görə İbn əs-Səudə (səvdə, sevda), d.d., «qara qadının oğlu» adlandırırdılar), o, islamda ən erkən olan səbailər (əs-səbaiyyə) icmasının banisi, Əli b. Əbi Talibə aid olan qatı görüşlərin təbliğatçısı idi. O, Əlinin (ə) aktiv siyasi tərəfdarı olub, açıq surətdə ilk xəlifələri inkar etmiş, Əlinin (ə) imamətə tam hüququnu müdafiə edirdi. Rəvayətə görə A.b.S. islamı qəbul etmiş Yəmən yəhudilərindəndir, bu da şiələrin rəqiblərinə «şiəliyin əsası (rafidizm) yəhudilərdən götürülmüşdür» deməyə əsas verir. (Bütün şiələrin A.b.S.-dan törədiyini söyləmək əsassızdır). O, Tövrata əsaslanaraq deyirdi ki, hər bir peyğəmbərin dini (mənəvi) vəsiyyətinə görə varisi (vasi) olmuşdur. Əli (ə) Məhəmməd peyğəmbərin (s) vəsiyyətinin varisi idi, Məhəmməd (s) peyğəmbərlərin yaxşısı olduğuna görə Əli (ə) vəsiyyətə görə varislərin ən yaxısıdır. Bəzi müəlliflər A.b.S.-nın adına Əlini (ə) ilahiləşdirməyi yazırdılar. Əli (ə) rəvayətə görə A.b.S.-nı öz həmfikirləri ilə birlikdə yandırmağı əmr etdi. Başqaları A.b.S.-nı Əlinin (ə) imamətinin «dayanmaq» (təvəqqüf) ideyasının ilk yazıçısı hesab edirdilər. O, Əlinin (ə) ölümünü rədd edir və onun xilaskar kimi «dönəcəyini» (ər-racə) gözləyirdi.

**Ədəbiyyat:** İslam, 8; an-Naubaxti. Шиитские секты, 127-128; əl-Bağdadi. Əl-Fərq, 225, 235-236; I.Friedlander. ‘Abdallah b. Saba’, der Begründer der Si’a, und seine judische Ursprung. – ZA. 1909, 23, 296-327; 1910, 24, 1-46; M.G.S. Hodgson. ‘Abd Allah b. Saba’. – EI, NE, 1, 52-53.

**Abdulla ibn Əbdül-Müttəlib** - Məhəmməd peyğəmbərin (s) atası. Doğum tarixinin 555-ci il olduğu rəvayət olunur. Qüreyş qəbiləsi içərisində ən gözəl kişi olub. Atasının onu qurban verəcəyi, onun Əminə ilə evlənməyi haqqında rəvayət də var. O, Məhəmməd kiçik ikən ticarət səfərində 25 yaşında vəfat edib.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 9.

**Abdulla ibn Cəhş** - Peyğəmbərin qardaşı oğlu və ilk müsəlman olanlardan biri. Həbəşistana hicrət edənlərdən biridir. Sonradan Mədinəyə gəlib Bədr və Uhud döyüşlərində iştirak edib, Uhudda şəhid olub.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 9.

**Abdu (Abdo, Abdoh)** Məhəmməd (1849-1905) – Misir ilahiyyatçısı və ictimai xadimi, Cəmal əd-din əl-Əfqaninin şagirdi və silahdaşı - ‘Urabi (Orabi, Arabi) paşa üsyanında iştirakına görə Misirdən sürgün edilmişdir

(1883-1888); 1884-cü ildə əl-Əfqani ilə birlikdə Parisdə müsəlman ziyalıları arasında böyük təsirə malik olan, eyni adlı qəzet buraxan «əl-Urva əl-Vusqa» gizli təşkilatını yaratdı. Misirə qayıdandan sonra A. dövlət aparatında və təhsil sistemində bir neçə vəzifə tutdu, əl-Əzharın inzibati şurasına başçılıq edir, eyni zamanda mühazirələr oxuyurdu; 1899-cu ildən Misirin baş müftisi oldu. O, əl-Əzharda təhsil sistemində islahat keçirtdi, müsəlman qanunvericiliyi və mühakimə üsulu sahəsində islahatlar, təkliflər irəli sürdü; müsəlmanlara banklara pul qoyub oradan faiz götürməyə icazə verən fətva verdi.

A. müsəlman xilafətinin yaradılması uğrunda çıxış edirdi və onu başda Osmanlı sultanı olmaqla islamı yayan ölkələrin birliyi kimi başa düşürdü. Bəzi ilahiyyat məsələlərində o, İbn Teymiyyənin təlimini izləyirdi, burada o, Quran mətnlərinə və hədislərə şərtsiz üstünlük verirdi. O, sonrakı din nüfuz sahiblərinin dalınca getməyi (təqlid) rədd edir və ictihadı çox geniş mənada ona qarşı qoyurdu. Onun rəyinə görə hər tarixi dövrə görə, zamanın şərtlərinə cavab verən Quranın müstəqil şərhi olmalıdır. ‘A. insan zəkasının aliliyi, dünyanın və onun qanunlarının inkişafının dərk edilməsi haqqında tezis (fikir) irəli sürürdü.

A. ən çox nüfuzlu müasir təfsirlərdən biri - «Təkallahlıq haqqında risalə» (Risalət ət-tövhid), «Qurani-Kərimin şərhi» - Təfsir əl-Quran əl-həkim (1898-1905), şəriət haqqında islahatlar və təhsil sistemində işlərin müəllifidir.

**Ədəbiyyat:** İslam, 8; M.Abdo. Təfsir əl-Quran əl-həkim. Qahirə, 1911; yenə o. Risalət ət-tövhid. Qahirə, 1957; R.Rida. Tarix əl-ustəz əl-imam əş-şeyx Məhəmməd Abdo. 1-2; J.Schacht. Muhammed ‘Abduh. – EI, 3, 731-733; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 8.

**Əbdül-Cabbar** b. Əhməd əl-Kamal (vəf. 1025-ci il), mötəzili kəlamının görkəmli nümayəndəsi, şiə məzhəbinin fəqihi. Mötəziliyin Büveyhilər vaxtı meydana gəlməsinin Ə.-l-C.-ın yaradıcılığı ilə bağlıdır. Kəlamda əvvəlcə o, əş'əri təlimini izləyirdi. Sonra isə mötəzililərin mövqeyinə keçdi. Bağdadda yaşamış, təqribən 971-ci ildə Bui vəziri, mötəzili kəlamının himayəçisi əs-Sahib ibn Abbad (938-995) tərəfindən fiqhdən dərs deməyə Reyə dəvət olunub. Reydə Ə.-l-C. baş hakim təyin olundu, onun qadi əl-qudat və ya əl-qadi ləqəbi də oradandır. Ə.-l-C.-ın qalmış əsərləri (1950-ci ilin əvvəllərində) onun şagirdlərinin (Əbu Rəşid ən-Neysəburi - vəfatı 1024-cü il və İbn Mattuveyh vəfatı - 1076-cı il) əsərləri ilə birlikdə mötəzililərin təlimi haqqında məlumatların əsas mənbəyi oldu.

**Ədəbiyyat:** İslam, 7; Abd əl-Cabbar əl-Həmədani. Şərh əl-üsul əl-xəmsə. Qahirə, 1965, yenə o. Al-Məcmu min əl-mühit bi-t-təklif, 1, Beyrut 1965; yenə o. Əl-Müğni fi əbvab əhl əl-adl və t-tövhid. Qahirə, 1962-1966

(əvvəlki 20 cilddən 14 hifz olanı nəşr olunmuşdur); yenə o. Fadl əl-i`tizal və təbəqat əl-mötəzilə. Tunis, 1974; Abd əl-Kərim Osman. Qadi-l-qudat Abd əl-Cabbar əl-Həmədani. Beyrut, 1967; yenə o. Nəzəriyyat ət-təklif. Ara əl-qadi Abd əl-Cabbar əl-kələmiyyə. Beyrut, 1971; Hüsni Zeynə. Əl-ʹAkl ʹində-l-mötəzilə. Beyrut, 1979; Hourani. Rationalism.

**‘Ad (adlar, ad qövmü)** – Quran və müsəlman rəvayətində: Ərəbistanın məhv olmuş ən qədim «xalqların»dan biri. Quranda onlar o misallar arasında xatırladılır ki, Allah firavan yaşayan və qürrələnən, nəsihəti qəbul etməkdən imtina edən adamları necə məhv etdi (bax: Q.7; 65/63-72/70; 11:50/52-60/63; 26:123-140; 40:31/32; 41:15/14-16/15; 46:21/20-25/24; 54:18-21; 69:6-8; 89:6/5 – 8/7). Quran A.-ın firavanlığı, ucaboylu olmaları, (Allaha) inanmamaları və buna görə də quraqlıq, sonra da onları yer üzündən silən tufanla cəzalandırılmalarını xatırladır.

Qurandansonrakı rəvayətlərdə deyilir ki, A. necə Məkkəyə yağış yağdırmaq üçün dua etməyə nümayəndə heyəti göndərdilər. Onlara buludlardan birini seçmək təklif olundu. Onlar tərəfindən seçilmiş ən qara bulud özü ilə ən qorxulu külək (rih sarsar) gətirdi ki, ondan da ancaq Allah tərəfindən göndərilmiş Hud peyğəmbər və bir neçə mömin xilas oldu. Müdrik Loğman və İramı tikən qüdrətli çar Şəddad A.-dan (Ad nəslindən) olublar.

A. xalqının yaşadığı yeri Quran «əl-Əhqaf» adlandırır (46:21/20). Bu adın mənası «qumlu təpələr» deməkdir və ola bilsin ki, Ərəbistan yarımadasının müxtəlif yerlərində olsun. Adətən şərhçilər onu Yəməndəki Hadramayta (Hədrəmövt) daxil olan səhrada yerləşdirirlər.

Quran göstəriciləri şimalda və ya Ərəbistan yarımadasının cənubunda qədim oturaq bir ərəb çarlığının məhvini əks edən islamaqədərki ərəb dövrünün mövcudluğu haqqında sübutlar gətirir. İslamaqədərki poeziyada A. tale tərəfindən məhv edilən qürurlular kimi xatırlanır. Ona görə A. sözü «qədim», «çox qədim» mənasını verməyə başlayıb. Bu günə qədər də Ərəbistanda çox qədim xarabaları «Adiyyat» adlandırırlar.

Bax: Hud.

**Ədəbiyyat:** İslam, 12; ət-Təbəri. Tarix, 1, 231-244; yenə o. Təfsir, 8, 152-157, 12, 35-38; əs-Səʹləbi. Qısas, 35-38, 81-84; əl-Kisəi. Qısas, 102-1110; əl-Beydavi. Təfsir, 1, 330-331, 437-438, 2, 56-57; Horovitz. Untersuchungen, 125-127; Fr.Buhl. ‘Ad. - EI, NE, 1, 147.

**Adət** (cəmi ādāt), adət, islamaqədərki hüquqi komplekslərin köhnəlmiş qaydaları, həm də həyatın şəriətlə əks olunmayan hüquqi reallığı. Müsəlman fəqihlərinin əsərlərində A. məfhumu «urf» məfhumu ilə çulğaşaraq onun sinonimidir. Lakin bu qayda ancaq Məkkə və Mədinəyə

aid ərazilərdə düzdür, onların adı hüquqi şəriət qaydalarının yaranmasına çox böyük təsir etmiş və əlavə hüquq mənbəyi kimi qəbul edilmişdir. Başqa müsəlman aləmində adətin qaydaları şəriətlə yanaşı mövcuddurlar. Bu ona görə belədir ki, onlar əvvəla əhalisi səthi islamlaşdırılmış və şəriət məhkəmələri yox olan yerlərdir və ya lazımi nüfuzu yoxdur, ikincisi, o yerlərdə ki, əsrlərlə islamın hökm sürməsinə baxmayaraq oralarda qəbilə-tayfa əlaqələri və qədim hüquqi baxışlar qalmışdır; üçüncüsü, o yerlərdə ki, əhali islama qədər inkişaf etmiş hüquq sistemi olan dövlətlərə daxil idi, islamı qəbul edəndən sonra əvvəl öyrəşdikləri hüquqi qaydalardan əl çəkməmişlər. Adətin qaydaları şəriətlə əhəmiyyətli dərəcədə düz gəlməyə bilər, onlara alternativ ola bilər və hətta onu sıxışdırıb ortadan çıxara bilər. Məsələn, qadın xətti ilə varislik və başqa matriarxal xarakterli başqa adətlər tuareqlərdə, bir sıra Qafqaz xalqlarında qan qisası (məsuliyyəti) adətləri, Mərkəzi Afrika müsəlmanlarında kəbin əlaqələri və s.

Praktiki fəaliyyətdə adətin qaydalarından məhdudiyyətsiz surətdə ancaq münsiflər məhkəməsi (hakam) istifadə edə bilər, onun əsas vəzifəsi tərəfləri razılığa gətirməkdir. Dini hakim (qazi) isə və ya dövlət məmuru adətə ancaq bəzi xüsusi hallarda müraciət edə bilər, o halda ki, qayda şəriətin ümumi ruhuna zidd olmasın.

**Ədəbiyyat:** İslam, 13; G. - H.Bousquet. S.T.Lokhandwalla. J.Prins. Ada. – EI, NE, 1, 170-174.

**Adəm** (Bibl. Adam) – Qurana görə torpaq və «səsli gildən» Allah tərəfindən yer üzərində öz «müavini» (xəlifə) kimi yaradılan ilk insanın adı. A.-i həm də Əbu-l-bəşər (insanlığın atası), Safi Allah (Allahın seçdiyi) adlandırırlar. A.-ə həyat verib, Allah bütün şeylərin adlarını ona öyrətdi və bununla da onu mələklərin yanında yüksəltdi, mələklərə ona təzim etməyi əmr etdi. Təkcə İblis adlı «mələk» təzim etməyi qəbul etmədi, buna görə də Allah Təalə onu göylərdən yerə endirdi. A. səma bağı – Cənnətdə onun üçün xəlq olunmuş arvadı ilə bir yerdə yaşayırdı. Orada onların istədikləri hər şey vardı, lakin onlara Cənnət ağaclarından birinin meyvəsini yemək qadağan olundu. Rəvayətə görə İblis Cənnət bağına girib A. və onun arvadını bu ağacın meyvələrinin onlara daimi həyat və qüdrət verəcəyinə inandırmağı bacardı. Şirnikləşərək, onlar Allahın qadağasını pozdular, meyvələri yedilər, ilk dəfə lütləşdilər (paltarları əyinlərindən töküldü), utandılar, sonra günahlarının cəzalarına görə göylərdən Yerə endirildilər və orada (Yerdə) onlar və onların nəsilləri yaşamağa və zəhmət çəkməyə məcbur oldular (Q, 2:30/28 – 38/36; 7:10/9 – 25/24; 15:26 – 36; 17:61/63; 18:50/48; 20:115/114-124;). 7-ci surədə A.-in tarixinin xatırlanmasından sonra «A.-in oğulları haqqında» nəqərata Allaha inam, Şeytanın pis əməllərinə uymamaq haqqında çağırış əlavə olunur ki, necə A. onlara

aldanıb, onlara əyri əməlləri  və inamsızlıqlarına öz dədə-babalarının da belə etdiyinə görə haqq qazandırmamaq hökm olunur.

Qurandansonrakı hədislər (rəvayətlər) göstərir ki, A-in yaradılması üçün mələklər necə müxtəlif yerlərdən gil gətirmişlər. Orada A.-in arvadı Quranda ötəri adı çəkilən Həvvanın da tarixi verilir. Onun yaradılması və enməsi (günah işlətməsi) haqqında çox ətraflı danışılır. İblisin dördayaqlı ilanın köməyi ilə Cənnətə girib onu aldatması haqqında danışılır. Qadağan olunan Cənnət ağacının və yarpaqları A. və Həvvanın lütlüyünü örtən ağacların hansı ağaclar olması müzakirə olunur. A. vəfat edəndən sonra onun göylərə qaldırılması və qiyamət gününədək orada qalacağı təsdiq edilir. Quranda Allahın A.-i və onun nəslini himayə etməsi və onu bağışlaması haqqında məlumata xüsusi diqqət verilir (2:38/36; 20:115/114, 123/121-122). Bu motiv müsəlman ilahiyyatının ən baş problemlərindən biri – tale problemi ilə bir səslənirdi. Rəvayətə görə, A.-i Allah ona görə bağışladı ki, çünki Allah özü əvvəldən o günahı etməyi ona yazmışdı (təyin etmişdi). A. müsəlman rəvayətinə daxil oldu və Məhəmmədlə (s) başa çatan peyğəmbərlər silsiləsindən birinci oldu, hərçənd ki, onun hər iki terminlə – nəbi və rasul – çağırılması mübahisəli qalmışdır. Sufilərdə A. insanın ilahi məğzidir, çünki Allah ona öz ruhunu verib.

A. haqqında müsəlman rəvayətlərinin xüsusi məziyyəti onun Ərəbistan və müsəlman müqəddəsləri ilə əlaqəsi olmasındadır. Rəvayətə görə, A.-in cismi (bədəni) üçün torpaq Məkkə və Yəməndən götürülmüşdür. Mənaqib-lərə görə Allah Təalə A.-in torpağını gətirmək üçün Cəbrayıl, Mikayıl və İsrafili göndərsə də Yer buna imkan verməmişdir. Bu əmri ancaq Əzrayıl (ə) yerinə yetirmiş və Yerdən güclə yeddi qat yerdən yeddi ovuc torpaq götürüb Allahın hüzuruna gətirmişdir. Allah günlərlə yağdırdığı yağışla bu torpağı islatmış, mələklər onu yoğurmuş, Allah ona şəkil vermişdir. Məsudiyə görə A. 80 il şəkilsiz qalmış, sonra isə 120 il ruhsuz qalmışdır.

Seylonda yerə endirilmiş A. Ədənə qədər gəlir, sonra Ciddə rayonu, Məkkədə, Ərəfat dağı yaxınlığında yerə endirilmiş Həvva ilə rastlaşır. A.-ə Cənnətdən «Qara daş» göndərilir və o, əl-Kəbənin ilk binasını tikir. A. çox dildə danışırdı, Cənnətdə isə o, ancaq ərəbcə danışırdı. O, Məkkədə dəfn olunub və onun qəbri ilə Dünyanın mərkəzi qeyd olunub, Dünyanı su basdıqdan sonra onun cismi Yerusəlimə köçürüldü.

A. surətı Quranda öz kökləri ilə Bibliya hekayəsinə və qədim şərq əfsanəsinə gedib çıxır. Lakin onun tanınması üçün bilavasitə əsas VI-VII əsrlərdə Ərəbistanda məşhur olan rəvayətlər oldu. İslamaqədərki ərəb şairləri A. və Həvvanın adlarını xatırladır, onların tarixlərini bilirlər. Ərəbistanda yayılmış A. surəti açıq xristian təbiətlidir, bu da Quranda özünü göstərir, orada A. İsa (İsus, İsos) ilə müqayisə edilir (3:59/52). O meyllərin inkişafını onun Məhəmmədlə (s) xüsusi əlaqələri haqqında olan

sonrakı görüşlərinə görə onun peyğəmbərlik ləyaqətinə malik olduğunu hesab etmək olar.

**Ədəbiyyat:** İslam, 13; ət-Təbəri. Tarix, 1, 86-152; yenə o. Təfsir, 1, 153-196, 8, 93-108, 14, 21-23, 16, 160-1163; əs-Sə'ləbi. Qısas, 14-28; əl-Beydavi. Təfsir, 1, 49-54, 319-322, 500-501, 607-608; Horovits. Untersuchungen, 85; Speyer. Erzählungen, 41-84; E.Beck. İblis und Mench, Satan und Adam: Der Werdegang einer koranrischen Erzählung. – Le Museon. Louvain, 1976, 89. 1-2; 195-244; Beltz. Sehnsucht, 51-64; M.Seligson. Adam. – EI, 1. 134-135; J.Pedersen. Adam – E 1, NE, 1, 181-183; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 11-12.

**Ağaxan** - Pakistan, Hindistan, Bədəxşan, Əfqanıstanda müsəlman ismaililər təriqətinin irsi və mütləq başçısının titulu. İsmaililərin əksəriyyəti Ağaxanı canlı Allah hesab edirdilər və ona qızılla vergi verirdilər. Ağaxanlar sülaləsinin başçısı, XIII əsrdə yaşayan İran feodalı Əbul-Həsəndir. O, öz mənşəyini qondarma yolu ilə Məhəmməd peyğəmbərə (s) calayırdı. Ən tanınmış Ağaxan təhsilini Avropada almış və özünü adlı-sanlı ingilis əyanı kimi aparan Sultan Məhəmməd şah idi (1877-1957). O, ingilislərin Hindistan müstəmləkəçiliyini dəstəkləyirdi, ona ingilislər ser deyirdilər.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 12.

**Əl-Axirət** (axır- «son», «axırıncı»nın qadın cinsində olan forması) – «gələcək həyat», o biri Dünya, o biri həyat. İslamın insan üçün yeganə əbədi və mühüm elan etdiyi həyat. Tam adı – dar əl-axırə («son Dünya», «axırıncı Dünya», əksinə qoyulduğu dar əd-dünya («yaxın Dünya», «yer Dünyası») və həyat əd-dünya («yaxın həyat», «yer həyatı»). Əl-A.-in sinonimi əl-məad terminidir. Yer həyatının o Dünya həyatına qarşı qoyulması, ölülər diriləndən sonrakı həyatı konsepsiyası - Quran möizələrinin ən əsas və xronoloji cəhətdən ən erkən ideyalarından olub. Məhəmməd peyğəmbər (s) hər şeydən əvvəl müsəlmanlara öyrədirdi ki, onların indiki həyatından başqa-başqa dünya da vardır və orada, daimi Dünyada bu Dünyada etdiklərin haqqında cavab verməli olacaqsan.

Müsəlman ilahiyyatında «əl-A.» konsepsiyasının hazırlanması iki istiqamətdə aparılırdı. Bunlardan biri – əl-A.-in həm də dar əl-bəqa adlanan («daimi Dünya») və Dünya həyatının həm də dar əl-fəna adlanan («fani dünya»)-nın bir-birinə qarşı qoyulması planındadır. Bu tendensiyalar (fikirlər) zahidlər və sufilərdə xüsusi inkişaf tapdı, çox şairlərdə onlar sevimli motivlər idilər. İkinci istiqamət – əl-A., Cənnət, Cəhənnəm, dirilmə, məhkəmə prosesi və s. haqqında olan görüşlərin təfsilatı ilə göstərilməsi idi. Bu detallar müsəlman əhkamının mühüm elementləri oldular. Görünür

VIII-IX əsrlərdə əl-A.-in elə bil birinci pilləsi sayılan ölümlə Məhkəmə arasındakı hal-bərzəx konsepsiyası hazırlanıbmış. Bax: əl-məad, əl-Cənnə, Cəhənnəm.

**Ədəbiyyat:** İslam, 27; əl-Qəzali. İhya, 4, 408-491; Eklund. Ressurrection: T.O.Shaugnessy. Muhammad's Thoughts on Death. Leyde, 1969; Bravmann. Background, 32, 36, 38; A.S.Tritton. Akhira. – EI, NE, 1, 335.

**Axund** - Quranı təbliğ etmək hüququna malik olan, dini tədbirləri və mərasimləri həyata keçirən elmli ruhanidir. Axundluq həm elmi-dini dərəcə, həm də vəzifə səlahiyyətləri həyata keçirəndir. Bu dərəcəyə sahib olmaq üçün mükəmməl ali dini təhsil almaq və sınaq imtahanları vermək lazımdır. XIX əsrin əvvəllərindən 1823-cü ildə şeyxülislam və müfti vəzifələri yaradılana qədər axundluq özü də dərəcələrə bölünürdü: pişnamaz, müdərris, qazi və vaizlər onun dərəcələrinə aid idi. A. sözü ərəb-farsca alim, dini rəhbər və müəllim mənasındadır. O, əvvəllər Orta Asiyada, Teymurilər dövründən sonra isə İran və Azərbaycanda çalma (əmmamə) geyən və molladan yüksək olan üləmalara verilən və dini mənsəbi müəyyən edən ünvandır. A. məhəllə imamlarına nəzarət edən və imamlarla müfti və şeyxülislam arasında vasitə olan baş imam idi.

Müasir Azərbaycan və Gürcüstanda A. baş məscidin dini rəhbəridir və tabeliyində olan məscidlərdə də dini işlərə rəhbərlik edir, onların hesabatlarını ruhani idarəsinə verir. Bütün şeyxülislamlar A. titulu da daşıyırlar (bax: Hüseynqulu Məmmədli. Qafqazda İslam və şeyxülislamlar. Bakı, 2005, səh.66. sonralar Qafqazda İslam). Onlar haqqında şeyxülislam bəhsində danışılacaq. İndi isə Azərbaycanın bəzi görkəmli A.-ları haqqında.

Axund Mir Məhəmməd Kərim Mir Cəfərzadə. 1853-cü ildə Bakıda anadan olmuşdur. 1871-ci ildə Bağdada getmiş, 10 il orada ilahiyyat təhsili almışdır. Bakıya qayıdandan sonra Şah məscidində axundluq etmişdir. Bakı vilayət qazisi olmuşdur. 1920-ci ildən Mərdəkanda yaşamış, antisovet fəaliyyətində təqsirləndirilərək həbs edilmiş, 15 mart 1939-cu ildə güllələnmişdir.

Quranın «Kitab kəşf əl-həqaiq ən nuqət əl-ayat va-d-dəqaiq» adlı 3 cildlik təfsirini h. 1332/ m.1905-ci ildə Bakıda nəşr etdirmişdir:

I c.-745 səh. Fatihə -Tövbə surələri

II c.-791 səh. Yunis-Ənkəbut surələri.

III c.-959 səh. Rum-ən-Nəs surələri.

Təfsir Ahmet Dolunay tərəfindən tədqiq edilərək, redaktə və şərhlərlə nəşr edilmişdir.

«Gerçegin Doğuşu - Alevi Kuran Təfsiri» 2 cild (Merkür yayınları, İstanbul, 2000).

Anadolu türkcəsinə tərcümə edilib. İsmail Çalışkan. Türkcə ilk şiə təfsiri. Cümhuriyyət Universiteti İlahiyyat Fakultesi.

Axund Mir Məhəmməd Kərim Bakıda bir sıra xeyriyyə cəmiyyətlərinin üzvü idi. Şərq dillərindən, o cümlədən, ərəb dilindən bir sıra əsərləri Azərbaycan dilinə tərcümə etmişdir: o, Corci Zeydanın «Ərmənus» (470 s.), «Ərzeyi-Qüreys» (534 s.), «On yeddi ramazan» (374 s.), «Kərbəla yanğısı» (537 s.) əsərlərini tərcümə etmişdir.

1913-cü ildə 2 hissəli «Səlib müharibəsi» tarixi əsəri çap edilmiş, bir sıra əsərlərinin əlyazması qalmışdır. «Harun ər-Rəşidin bacısı Abbasiyyə», «Əbu Müslim Xorasani», «Əmin və Mömin qardaşları», «İran kəndlilərinin halı, yaxud Təbrizdə gördüklərim».

(Axundlar haqqında dəyərli məlumatlar verdiyinə görə rəhmətlik Abutalıb müəllimə təşəkkür edirik).

**Ədəbiyyat:** Hüseynqulu Məmmədli. Qafqazda İslam, 6; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 13.

**Axund Mirbağır Ağa** 1873-cü ildə Salyanın Bərəüstü məhəlləsində ruhani Hacı Zeynalabdinin ailəsində doğulmuş, ilk təhsilini Salyan mədrəsəsində almış, 1887-ci ildə Xorasana oxumağa gedib. Orada Seyid Kazım Təbatəbai və Ayətullah Şərabyani müctəhidlər ona Nəcəfül-Əşrəfdə təhsilini davam etdirməyi məsləhət görürlər. Dini elmlərlə yanaşı Mir Bağır Ağa orada təbiət və riyaziyyat elmlərini də mükəmməl mənimsəyir. İndi də həmin Ali Ruhani Məktəbin şərəf lövhəsində onun şəkili asılıb. Buradan o, Mədineyi Münəvvərəyə gedib imtahan verir və «Qərini İctihad» ali ruhani adı ilə 1909-cu ildə Salyana qayıdır. O, Salyanda el ağsaqqalı olmuş, camaata xeyirxahlıq etməklə tanınmışdır. İnqilabdan əvvəl Əzim Əzimzadəni zirzəmisində gizlətmiş, inqilabdan sonra dövlətə qarşı heç bir şey etməmişdir. Ona mühacirət etməyi təklif etsələr də o, rədd etmişdi. Bir dəfə də Ayna Sultanovanın həyat yoldaşı Həmid Sultanov onu gizlətmək istəyir ki, tutmasınlar. Lakin o, heç bir pis iş görmədiyi və heç yerə getməyəcəyini deyir. Erməni-bolşevik hakimiyyəti Kür çayı boyu Salyana hücum etdikdə Mirbağır ağa Türkiyədən kömək istəmişdi. Buna görə də 1930-cu ildə onu həbs edirlər, 1932-ci ildə o, Stalinə məktub yazır və 1933-cü ildə azad edilir. Qayıdanda tikdirdiyi məscid və mədrəsələrin hamısının dağıdıldığını görür. Üç illik Sibir həyatı Ağanı bir az da qüvvətləndirmişdi. Onun hər minbərə çıxışı böyük hadisə olurdu. Lakin «buyruq qulları» (erməni təmayüllülər) yenidən onu «Güllələnmək və əmlakı müsadirə edilmək» məqsədi ilə 1937-ci ildə həbs etdilər. O, 1941-ci ildə Qaraqandada vəfat etdi.

Sonradan Azərbaycan SSRİ Ali Məhkəməsi Ağaya bəraət vermiş və əmlakının az hissəsi ailəyə qaytarılmışdır.

**Axund Şeyx Böyükağa Şirvani** 1844-cü ildə Sabirabad rayonunun Cavad kəndində anadan olmuş, ibtidai təhsilini atası Axund molla İsmayıldan almış, sonra təhsilini 25 il Nəcəfül-Əşrəfdə davam etdirmişdir. Təhsilini bitirəndən sonra onu orada saxlamış və «Əli Əkbər Hücrəsinə» xuddam (xadim) təyin etmişlər. Xeyli müddət orada elmini daha da dərinləşdirib «Qərini-ictihad» dərəcəsinə yüksəlmişdir.

Şeyx Böyükağa anasının təkidi ilə vətənə qayıdır və Cavad məscidində ibadəti bərpa edir. Bir dəfə Kərbəlaya ziyarətə gedən bir dəstə Cavad camaatı Nəcəf Əşrəfdə özləri ilə gətirdikləri zəkatı vermək istəyirlər. Alimlər onların haradan gəldiklərini bilib, zəkatı qaytarıb şeyx Böyükağaya verərək ondan üzr istəməyi tapşırırlar.

Deyilənlərə görə, Şeyx vəfatından bir neçə gün əvvəl bütün ətraf kənd əhlini məscidə dəvət edir, namaz və moizədən sonra camaata elan edir ki, bu yaxınlarda inqilab olacaq. Bizim bu görüşümüz sonuncudur. İnqilaba qədər bir din alimi dünyadan gedəcək, o, inşallah mən olaram.

Şeyxin vəfatından sonra onun kitabları, yazıları və şəxsi əşyaları qardaşı Molla Hacı Həsənə qaldı. Repressiyalar vaxtı Hacı Həsən həbs edildi və Şeyxin kitab, yazı və əşyaları da qarət edildi.

1974-cü ildə kənd camaatı Şeyxin qəbri üstə Quran ayələri yazılmış nəfis başdaşı qoydular və indi oranı ziyarət edirlər.

**Ədəbiyyat:** Həşim Həsənoğlu. Azərbaycanın dini-tarixi abidələri, ziyarətgahları, seyidlər, övliyalar. Bakı, 2005 (Sonralar: H.Həsənoğlu. Azərbaycanın dini tarixi abidələri).

**Aişə (Ayişə)** - Aişə bint Əbubəkr (613-678) hicrətdən 8 və ya 9 il qabaq anadan olub. Peyğəmbərin (s) arvadı. Peyğəmbər (s) Xədicənin vəfatından sonra çox mütəəssir olmuşdu. Fikrini dağıtmaq üçün evlənməyə qərar verib, hicrətdən 2 və ya 3 il qabaq Əbubəkrin 6 və ya 7 yaşlı qızı A. ilə nişanlandı, lakin qızı hicrətdən 6 və ya 7 aydan sonra evinə gətirdi. A. oyuncaqlarını da özü ilə gətirmişdi və qız onlarla oynayanda Peyğəmbərin (s) xoşuna gəlirdi. Lakin səfər zamanı A.-nin karvandan geri qalması və Səfvan ibn əl-Müttəlin onu öz dəvəsi ilə gətirməsi dedi-qoduya səbəb oldu. Peyğəmbər (s) Əli və Üsamə ibn Zeydlə məsləhətləşdi. Əli boşamağı təklif etdi, Üsamə isə onun günahsız olduğunu dedi (Buradan Quranda 4 şahid rəyi yaranıb). Quranın "Nur" surəsinin ilk ayələri nazil olaraq Aişənin pak olduğunu bildirdi. Peyğəmbər onu bağışlasa da, daha onu yox, Ummi Sələməni səfərə aparırdı. Peyğəmbər (s) vəfat edəndə A.-nin 18 yaşı var idi, onu müsəlmanlar "Ummul-Möminin" adlandırırdılar. O, siyasi işlərə qarışır, Osmana qarşı çıxırdı. O, öldürüləndən sonra isə qan düşməni xəlifə Əlidən Osmanın intiqamını almaq bəhanəsi ilə ona qarşı çıxdı. O, Təlhə və Zübeyr ilə birləşib, Əsgər adlı dəvə üstündə Bəsrəyə hücum etdi. Hicri 36-

cı il cumadi-l-axırın 10-da (5.XII-656) döyüş oldu, onlar məğlub oldular (Cəməl döyüşü). Lakin Əli A.-yə lazım olan hər şeyi verib, onu Mədinəyə göndərdi. O, 13 iyul 678-ci ildə vəfat etdi, Mədinədə əl-Bəqi qəbiristanlığında basdırıldı.

Hafizəsi çox güclü olan A.-nin Peyğəmbərdən (s) 2210 hədisi qalmışdır. Fiqh məsələləri və fitva almaq üçün ona tez-tez müraciət edirdilər.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 14-16.

**Aqil ibn Əbu Talib** - Əlinin qardaşı. O, uzun müddət Peyğəmbərin dinə dəvətinə cavab vermədi. Bədr döyüşündə məkkəlilər tərəfində vuruşsa da, qəlbinin ziddinə olduğu üçün əsir düşdü. Məkkənin fəthi və ya Hüdeybiyyə sülhündən sonra islamı qəbul edib Mədinəyə getdi. Əli xəlifə olanda ondan ayrılıb Müaviəyə qoşuldu və Siffində qardaşına qarşı döyüşdü, Müaviəyənin hakimiyyəti vaxtı öldü.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 16

**Allah** (görünür əl-ilah-dandır) – Allahın adıdır. İslama qədər müqəddəs yer Məkkənin ali ilahlarından biri, İslamda Allah – tək və yeganə məbud olub, dünyanı yaradan, qiyamət (din) gününün sahibidir, Məhəmmədi (s) öz elçisi kimi insanlara göndərmişdir. İslam dininin ən qısa simvolu deyir: «Allahdan başqa ilah yoxdur, Məhəmməd Allahın elçisidir!». Müsəlman görüşlərinə görə Quran Allahın Məhəmmədə (s) birbaşa və ya mələklər vasitəsilə müraciətidir. Müsəlmanların Vahid Allah adlandırdıqları İlah bütün dünya xalqlarının İlahı olub, müxtəlif sözlərlə deyilir (səslənir), o cümlədən, yəhudi və xristianlarda «Boq» adlanır.

Allah - göyləri, Yeri, onların arasında olan hər şeyi yaratmış külli-ixtiyar sahibi, hər şeyə qadir olan tək, vahid ilahi varlıqdır. Bütün kainatın, o cümlədən, dünyamızın və onun sakinləri olan insanların taleyini həll edən Allah monoteizmi ən ciddi təbliğ edən, islam dinində ibadətə layiq olan yeganə məbuddur.

Allah sözünün 30-a qədər mənası olduğunu göstərsələr də, alimlərin əksəriyyəti onun «ilah» kökündən olduğu üzərində dayanır. İlahın yarandığı «Əlihə» yaxud «valihə» feli «ibadət etmək», «bir şeyə ürəkdən tapınmaq, sığınmaq», ismi məfulu isə «ibadət edilən», «pənah aparılan varlığı» bildirir. Dünya ölkələrinin çoxunda sonradan çoxallahlılıq yayılsa da, (Avstraliya, Çin, Asuriya, Misir, Hindistan, Yunanıstan, İran, Türkiyə, Ərəbistan və s.) onlarda əvvəl təkallahlılıq olmuşdur. Bu isə öz növbəsində səmavi kitabların, o cümlədən, Qurani-Kərimin Allah yanında məqbul, haqq olan dinin islam, yəni təkallahlıq dini olduğu fikrinin doğruluğunu bir daha təsdiq edir.

Kəlam elmində və islam fəlsəfəsində Allahın varlığını və birliyini isbat etmək üçün dörd dəlilə istinad edilir:

a) Hudus (yaradılış) dəlili; b) İmkan dəlili; c) Nizam dəlili; ç) Fitrət dəlili.

a) Hudusdakı dəlil kainatın yaradılmış olması və hər yaradılmışın da bir yaradıcısı olması müddəasına əsaslanır.

b) Mövcüdatı - varlığı özündən (vacib) və ya başqasından (mümkün) olmaq üzrə iki kateqoriyada təsəvvür edən imkan dəlilinin ilkin müddəalarını IX əsrdə yaşamış məşhur müsəlman filosofu əl-Kindinin Teologiya sistemində tapmaq mümkündür. İmkan dəlilinin qayəsi bir vacibin varlığını isbat etməkdir.

c) Nizam dəlilinə görə təbiətdə son dərəcə ahəngdar və incə bir nizam, səliqə-səhman mövcuddur ki, bu da öz-özlüyündə və ya şüursuz maddənin fəaliyyəti nəticəsində mümkün deyildir.

ç) Fitrət dəlilinə görə insanın irqindən, rəngindən, cinsindən, dinindən və dilindən asılı olmayaraq onda fitrətən, anadangəlmə bir Allah eşqi, ilahi bir məhəbbət, Tək olan ülvi bir Varlığa inam hissi mövcuddur.

Cəfəri məzhəbinə görə Allah kəlməsi səkkiz kamil sifəti özündə cəmləşdirir və yeddi sifətdən xalidir:

1. Allah Təala Qadirdir və ya Qadiri-muxtardır, yəni Allahın hər bir şeyə qüdrəti yetər, istəsə yaradar, istəməsə yox, istəsə dirildər, istəməsə öldürər.

2. Alimdir, yəni görünən və görünməyən hər şeyi olduğu kimi bilir. Allah Təala bütün məxluqatın yaradıcısı olduğu üçün onların bütün əhvalını bilir.

3. Həyydir, yəni həmişə diridir, varlığının əvvəli və axırı yoxdur.

4. Müriddir və ya Müridi-karədir, yəni bəndələri üçün xeyir istəyən, şəri isə bəyənilməz tutandır, istədiyi işi istədiyi vaxtda göstərir.

5. Müdrikdir, yəni hər şeyi dərk edəndir, aşkar və gizli şeylərdən tamamilə halidir.

6. Əzəli və Əbədidir, yəni həmişəlikdir, onun nə əvvəli, nə də sonu var. Həmişə var olmuş, var olan və var olacaq Zatdır.

7. Mütəkəllimdir, yəni danışandır, hər bir şeydə öz qüdrəti ilə danışıq icad edəndir.

8. Sadiqdir, yəni doğru danışandır, öz əmr və qadağalarında, vədlərində doğruçudur.

Allah Təalanın bu səkkiz sübuti sifətləri Onun Zatının eynidir, bizim sifətlərimiz kimi yox ikən sonradan yaranmamışdır.

Allah Təalaya xas olmayan yeddi naqis sifət isə bunlardır:

1. Allah Təala mürəkkəb deyildir, yəni bizim kimi bir neçə şeydən əmələ gəlməmişdir. Onun cüzləri-hissələri, ünsürləri yoxdur. O bəsitdir (sadədir).

2. Cisim deyildir, yəni məkan və zaman xaricindədir, cisimlərə xas olan üç ölçüdən xalidir, rəngi yoxdur.

3. Məhəlli-həvadis deyildir, yəni dəyişməzdir. O, heç bir şeydə səhv etməz, heç bir şeyi unutmaz. Cavanlıq, qocalıq, xəstəlik kimi məxluqata xas əhvali-ruhiyyədən xalidir.

4. Mər`i-gözlə (insan gözü ilə) görünən deyildir.

5. Şəriksizdir, yəni Allah təkdir. Onun heç bir şəriki yoxdur. Əgər Onun bir şəriki olsaydı, kainat müəyyən bir nizama tabe olmaz, hərc-mərclik düşərdi.

6. Məani deyildir, yəni Allahın sifətləri bir məxluqatdan fərqli olaraq Onun Zatından başqa biri deyildir. Əgər belə olmasaydı, Haqq-təala məxluqat zümrəsinə daxil olardı.

7. Qənidir, yəni Allahın heç bir şeyə ehtiyacı yoxdur, hamı Ona möhtacdır. Ehtiyac naqis sifət olduğuna görə o, Allah Təalaya xas ola bilməz.

Allah surəti bütün Quran təbliğatının şah damarıdır; həm Məkkə, həm də Mədinə dövrləri onun əsas cizgiləri dəyişmir, ancaq Allahın müxtəlif məziyyətlərinə müxtəlif vaxtlarda olan vurğular müxtəlifdir. Allahın təkliyi və daxili birliyi Quranın əsas temalarından (mövzularından) biridir. Allaha inam dinsiz çoxallahlığa qarşı qoyulur. O təkdir, yeganədir, Onun heç bir «tayı-bərabəri» yoxdur (ola bilməz). «O – Allah – təkdir, Allah ədəbidir, doğmayıb və doğulmayıb, ona bərabər heç kim yoxdur» (Q.112).

Quranda həmçinin daim Allahın kamilliyi, qüdrəti və böyüklüyü haqqında danışılır. Dünyada hər şey Ona tabe olub, Ona baş əyir, Onun iradəsi və xəbəri olmadan heç bir şey ola bilməz. O, hər şeyə hakimlik edir və Öz yaratdıqlarına qəyyumluq edir. O, insanlara mehriban, mərhəmətli və onları bağışlayandır. İnsanlar isə Allahın qüdrət və böyüklüyünü dərk edərək özlərini tam şəkildə Ona (islam-təslim) tabe etməli, Allahın bəndəsi olmalı, Allahdan qorxmalı, mömin olmalı, hər şeydə Allaha inanmalı, daim Onun iradəsinə və mərhəmətinə əmin olmalıdır.

Quranda Allahın təklik və böyüklüyünün konkret təzahürləri haqqında təkrar-təkrar danışılır. O, həyatda mövcud olan, o cümlədən, adam və onun nə ilə yaşadığını yaradan yeganə yaradıcıdır. Allah şeyləri öz əmri ilə yaradır. O, insanlar üçün yeganə əsil car (məlik) və hakimdir (hakəm). Allah insanların günahlarını onların xeyir əməllərinə görə bağışlayır (Allah insanlara onların xeyirxah və günahkar işlərinə görə əvəz verir). Quranın ən sevimli süjetlərindən biri Allahın göndərdiyi elçilərə qulaq asmayıb, özlərini dinsiz aparan camaata və yerlərə göndərdiyi cəzadır (bəladır). Allah vaxtaşırı insanlara Allah haqqında xəbər aparmağa qadir olan insanlardan Öz peyğəmbər və rəsullarını seçir. Axırıncı belə rəsul Məhəmməd (s) elan olundu.

Allah Özü istədiyi vaxt Yer üzündə olanların hamısını məhv edəcək, ölüləri dirildib, onları Öz yanına məhkəməyə yığacaq, orada hər kəsi öz elədiyinə görə ya Cəhənnəmin əzablarına vasil edəcək, ya da Cənnətin firavanlığına göndərəcək. Allahın məhkəməsinin və Onun dinsizləri cəzalandırmasının surəti Məhəmmədin (s) ilk möizələrinin əhəmiyyətli hissəsini təşkil edir.

Allah Öz yaratdıqları ilə dəfələrlə Özünü insanlara göstərmiş və göstərir. Həyatda olan hər şey möcüzədir, Allahın yaratdığıdır, bu Onun insanlara işarəsidir. İnsanlara bağışladığı möcüzələrdən birini Allah Quranı elan edir.

Quranın bir-birinə zidd və ya Allah tərəfindən olduqca konkret şəkildə təsviri olan bir neçə ayə müsəlmanlar arasında çoxsaylı mübahisələrə səbəb oldu, həm də qeyri-müsəlmanlar tərəfindən antiislam mübahisəsində istifadə olundu. Lakin, müsəlman ilahiyyatçılarının nöqteyi-nəzərincə (burada onlar birdilər) bu ayələr ancaq belə görünən ziddiyyətləri ehtiva edirlər, əslində isə onlar Allahla insanın əlaqələrinin, Allahın Özünün təbiətinin məğzini təsvir edən, bir-biri ilə kontrast elementlərlə olsalar da, onlar bir-birini tamamlayırlar.

Quranda dəfələrlə deyilir ki, insan nə edirsə o, Allah tərəfindən yaradılıb (qərara alınıb), həyatda hər şey ancaq Onun istəyi, Onun qərarı və əmri ilə (bax: əl-qəza və-l-qədər) baş verir. Eyni zamanda, hər zaman qeyd edilir ki, insan öz əməllərinə görə məsuldur, hər şeydən əvvəl dinsiz əməllərinə görə və Allah məhkəməsində hər kəs öz əməllərinə görə əvəz alacaq. Allah və insan münasibətləri haqqında bu düşüncələrin kontrastlığı çoxlu şübhə və mübahisələrə səbəb oldu. Eynən bu, ərəblərin obrazlı mifoloji düşüncə elementlərini saxlayan ayələrlə də belə oldu, orada Allah haqqında bədən üzvləri olan şey haqqında insandakı kimi (əl, üz, gözlər) və insan hərəkətlərini edən kimi (taxtda oturur, gəlir və s.) məcazi danışılır.

Allah haqqında təlim islam dini və ilahiyyatının əsası, əhkam isə Allahın təkliyi və yeganəliyi haqqında təlim oldu (ət-tövhid), islamın əsas əhkamı ilə müsəlmanın bütün həyatı keçməlidir.

Allahın təbiətinin müxtəlif aspektləri hədislər, təfsirlər, xüsusi ilahiyyat əsərlərində (bax: kəlam) müzakirə olunmuş, aydınlaşdırılmışdır. Müzakirə olunanlardan ikisi – Allahın təbiətinin mahiyyəti (vücud Allah, ət-tövhid) və Onun əməllərinin təbiəti (əfal Təala, əl-adl) əsas problemdir. Allahı dərk etməkdə ağılın roluna böyük diqqət verilmişdir. Lakin bütün VIII-XII əsrlər boyu əsas mübahisələri Allahın (atributlarının) keyfiyyətləri problemi və onların Onun mahiyyəti ilə onların qarşılıqlı münasibətləri meydana çıxarmışdır. Ənənəçilər Quranda Allahın keyfiyyətləri haqqında qeydləri mübahisəsiz – bı-lə keyfə (bax: əl-xəşəviyyə, ət-təşbih) qəbul etməyi tələb edirdilər. Başqa cərəyanlar isə VIII-IX əsrlərdə İslamın onlara təmiz

təkallahlıqdan yan gedən kimi görünən elementlərdən təmizləməyə çalışır və Allahda keyfiyyətlərin olduğunu rədd edirlər və ya onları simvolik kimi şərh edirdilər (bax: əl-cəmiyyə əl-mötəzilə). IX-X əsrlərdən Allahın ilahi mahiyyətinin ayrılmaz bağlılığı və birliyi olan xassələrinin mövcudluğunun reallığı haqqında görüşlər yayılmağa başladı: bəzən eyni vaxtda mövcud olan və mövcud olmayanları (xassələri) bu mahiyyətin «halı» kimi başa düşürdülər (bax: kəlam, hal, əl-Əş`əri, əl-Maturidi). İlahi keyfiyyətlərlə bağlı olaraq, onları müxtəlif kateqoriyalara bölən (bax: əs-sifət) Allah «adlarının» bu keyfiyyətləri (bax: əl-əsmə əl-husnə) və Allahın keyfiyyətlərinin siyahısı xüsusi əhəmiyyət və intişar tapdı. Fikir ayrılığının mövzusu Allahın «görünüşü» Qiyamət günü insanlar tərəfindən və cənnətdə (bax: əl-cənnət) möminlər tərəfindən Onun görünməsi və «danışığı» kimi keyfiyyətlərinin real tərkibi idi. Allahın «nitqinin» xəlqiliyi və ya qeyri-xəlqiliyi haqqında problem (sual) ilə VIII-X əsrlərdə Quranın (bax: əl-Quran) xəlqiliyi və ya qeyri-xəlqiliyi (yaradılmış və yaradılmamış, əzəli) olması haqqında ilahiyyatçıların mühüm mübahisələrindən biri ilə bağlıdır. Allahın keyfiyyətləri haqqında müzakirələrin formalarından biri Quranda antropomorf təbirlərin mümkün olan şərhinin və ya şərhdən imtina etmək müzakirəsidir.

Allahın «əməllərinin» problemi – hər şeydən əvvəl o məsələnin həllidir ki, Allahın insanlara elədiklərinə görə ədalətli əvəz vermə prinsipi ilə Onun bütün insan əməllərini hər şeyi bacarmaq və yaratmaqla necə uyğunlaşdıracaq. Müsəlman ilahiyyatçılığı əslində VII əsrin axırı – VIII əsrlərdə bu sualların müzakirəsindən yaranmışdır (bax: əl-qədəriyyə, əl-cəbriyyə, əl-mürciə). Ənənəçilər Quran mətnləri və hədislərdən çıxış edərək, problemin son qərarından imtina edirdilər. Bir neçə ilahiyyat məktəbləri insanların öz əməllərini yaratmaq bacarığını (xəlq etməyi) qəbul edirdilər (bax: əl-mötəzilə). X-XII əsrlərdə hər cür insan əməlinin ilahi iradədən son asılılığını bu əməlin «seçmə», «əldə etmə», «həyata keçirməyə bacarığı olma» və s. (ixtiyar, qəsb, istita), daha doğrusu asılı və ya «icbarı» insan əməllərinin azadlığından (bax: əl-qəza va-l-qədər) keçən bu əməlin həyata keçirilməsində konkret insan fəaliyyəti ilə barışdıran bir neçə konsepsiya yarandı.

Allahla insanlar arasında əlaqə problemlərinin çoxlu aspektləri imamətdə, şiə görüşlərində inkişaf tapdı (bax: əl-imamə, əş-şiə, əl-ismailiyyə). Sufizmdə Allahın təbiəti problemi Allahı dərketmənin yolu problemi kimi, onun mahiyyətinin ağılla deyil, hiss etmə ilə tövhidin qəlbdə daxili realizə vasitəsilə məhəbbət yolu ilə hər şeydə Allaha təvəkkül etməklə və asketizm (zühd) yolu ilə anlamaq kimi baxılır. İnsanın Allahla əlaqəsinin iki əsas sufi konsepsiyası var, onlar Allahın sufinin qəlbinə düşməsini (vəhdət əş-şühud)

və insanın ilahi mahiyyətdə ərimənsini (vəhdət əl-vücud) nəzərdə tutur (bax: ət-təsəvvüf).

Müsəlman filosofları üçün ilahiyyatdan fərqli olaraq Allah başqa plan müzakirəsi mövzusudur. Onlar əsas diqqəti Allahı ağılla dərk etməyə, onun mövcudluğunun vacibliyinin rasional təsdiqinə verirdilər. Onlar üçün Allah ən yüksək və vacibi kamillik, yüksək Ağıl və yüksək Məhəbbətdir. Allah dünyanı yaradır, Özü də emanasiya iyerarxiyası ilə ona daxil olur (bax: əl-fəlsəfə).

**Ədəbiyyat:** İslam, 19-20; əl-Qəzali. İhya, 1, 38-116, 4, 2-166, 216-325; əl-Bağdadi. Üsul əd-din, 76-152; ən-Nəsəfi. Əqaid, 28-33; əl-Cürcani. Sərh, 465-544; Wensinck, Handbook, 17-18; yenə o. Crecd; yenə o. Les preuves de l'existence de Dieu dons la theologie musulmane. Amsterdam, 1936; Tritton. Muslim Theology. L., 1947; Gardet, Anawati. Introduction; Watt. Free Will. Gaudefroy-Demombynes. Mahomet, 241-284; Watt. Belief; D.B.Macdonald. Allah. – EI, 1, 316 – 327; L.Gardet. Allah – EI, NE, 1, 106-417; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 17-20.

**Aman** (təhlükəsizlik, əmin-amanlıq), müsəlmanın düşmənə – adətən qeyri-müsəlmana verdiyi təhlükəsizlik zəmanətidir. Quranda bu istilah yoxdur, onun əvəzinə civar («himayəçilik, «müdafiə etməyə öhdəçilik» işlədilir, müq. et. Q., 9:6). Məhəmməd peyğəmbərin (s) ərəb qəbilələrinə göndərişlərində civarla yanaşı elə o mənada zimmə də işlənildi (bax: əhl əz-zimmə). A.-a tutulmuş (əldə edilmiş) həyat və əmlakın toxunulmazlığına zəmanət mənasında ilk dəfə Xalid ibnə-l-Vəlidin Dəməşqlə olan (634-cü il) müqaviləsində rast gəlinir. A.-ın zimmədən fərqi odur ki, o, sonrakı qarşılıqlı öhdəçiliklərin təyin edilməmiş bağışlama aktıdır.

Hər hansı bir müsəlman təkcə bir və ya dəqiq müəyyən olunmuş bir neçə şəxsə A. verə bilər və başqa müsəlmanların onlara verilmiş amandan onları məhrum etməyə hüquqları yoxdur. Təkcə imam və ya onun müvəkkili şəhərin bütün əhalisinə və ya onun qarnizonuna A. verə bilər. Fütuhatlar dövründə bu, sülh müqaviləsinin bağlanmasının başlanma momenti idi.

A. hifz etmə məktubu şəklində qeyri-müsəlmanın müsəlman ölkəsində (habelə ziyarətçilər, tacir qruplarının, barışıq vaxtı düşmən ordularının nümayəndələri) təhlükəsiz qalmasına zəmanət verən sənəd kimi istifadə edilirdi. A.-ın bu forması Avropa ölkələrinin Osmanlı imperiyası ilə müqavilə əlaqələrinin qurulması üçün əsas oldu. A. son orta əsrlərdə əsir düşən məqamda bağışlanmaq üçün ucadan deyilən xahişdir.

**Ədəbiyyat:** İslam, 20; J.Schacht. Aman – EI, NE, 1, 429-430.

**Asiyə** - Quranda iki dəfə adı çəkilən (əl-Qəsəs, 9; ət-Təhrim, 11) Fironun arvadıdır. Tövratda isə o, Fironun qızı kimi verilir. Hər ikisi «Ya

Rəbbim! Mənim üçün öz dərgahında - Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən qurtar. Məni zalim qövmdən xilas et!» demişdir.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 37-38.

**Ayə** (cəmdə āyāt; «işarə», «möcüzə») Quran mətnindən ayrıla bilən ən kiçik hissə, Quran «ayəsi». A. termininin Quranda ilk mənası «möcüzə», «əlamət», «işarə» deməkdir (bax: 33:3; 3:48/43). Bu mənada A. termini surə, əl-Quran, əl-hədis, əl-Kitab və s. ilə yanaşı «vəhy» məfhumlarından birinin mənasını da verməyə başladı.

Quranın yazılı mətni meydana gələndən sonra A. termini tədricən Quran «ayələrinin» mənasını verməkdə işlənməyə başladı, bunun təsdiqini Quran mətnində (24:1) tapmağa çalışırlar. Quranda müxtəlif hesablamalara görə 6204, 6226, 6232 və ya 6236 ayə vardır. Orta əsr şərhçiləri ayrı-ayrı ayələrin «üstünlüklərini» (fadail) (xüsusilə 2:255/256; 24:35) və s. onların uzunluqlarını, surələrin sonuncu ayələrini geniş surətdə müzakirə edirdilər. Ən qısa surə «Kövsər», ən uzun surə «Bəqərə» surəsidir. Quranın ayələrinin dəqiqləşdirilmiş müasir müsəlman nəşrlərində qəbul olunmuş Avropa və yeni Misir olaraq iki nömrələnməsi mövcuddur.

Ayrı-ayrı A.-lər müsəlman ölkələrində məscidlər, rəsmi idarə və xüsusi evlərin interyerlərinin bədii tərtibatında geniş istifadə olunur. A.-lərə tez-tez müsəlman baş daşlarında rast gəlinir (2:156/151). Bir neçə A. və onların hissələrinə sehr gücü verilir və onlar sehr əməllərinin müxtəlif növlərində istifadə olunur (qara əməl, dua, müalicə sehri və s.). Onların sıralarına ayət əl-hafz «hifz etmə A.-ləri» (2:255/256:12:64; 13:11/12; 15:17; 85:20-22), ayət əş-şifa «müalicə A.-ləri» (9:14:10:57/58; 16:69/71; 17:82/84; 26:80; 41:44) aid edilir. Bu məqsədlə həm də 47:1; 41:14/13; 6:59 A.-ləri istifadə olunur.

A. bir və ya bir neçə (daha çox) sözdən ibarət olan Quran cümləsidir, az hallarda mürəkkəb olur. A.-lərin birləşməsi adətən qafiyələnir.

**Ədəbiyyat:** Крачковский. Коран. 664-665; Резван. Исследования, 219-222; Лэйн. Нравы. 216-225; Jeffery. Vocabulary, 72-73; Bell-Watt. İntroduction, 153-154; A.Jeffery. Aya. – EI, NE,1. 773-774; İslam, 16; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 43.

**Ayətullah** («Allahın əlaməti», «Allahın möcüzəsi», «Allahın işarəsi», farsca ayatolla), ayətullah əl-uzma («ən böyük ayətulla», farsca ayatollah ol-ozma), fiqh məsələləri haqqında sərbəst qərarlar verməyə hüququ olan şiə müctəhidləri, alimlərinin ən hörmətli rütbələridir. A. termini bu mənada XIX əsrin II yarısından istifadə edilir, lakin o, əsrimizin 40-cı illərindən geniş surətdə həyata keçirilməyə başladı; ola bilsin əl-Qəzalinin əsərlərində

öz əvvəlki mənasında (Allah tərəfindən həyata keçirilən möcüzə) söz birləşməsi şəklində istifadə olunub.

A. titulu adətən təkcə öz tərəfdarları deyil, həm də başqa müctəhidlər arasında xüsusi nüfuza malik olan müctəhidlər üçün işlədilir. A. titulu daşıyan şəxslər bir sıra müsəlman ölkələrinin şiə icmalarında vardır. Hamıdan çox bu titul İranda yayılmışdır, islam inqilabı zamanı onların sayı 30 idi, sonra onların sayı azaldı. İran İslam dövlətinin başçısı Xomeyni yüksək dini rütbələri vermək (əsasən höccət əl-islam) və onları geri almaq hüququnu özü yerinə yetirirdi, baxmayaraq ki, bu, dini rəhbərliyin kollektiv qərarının qəbul olunmasını tələb edən şiə adətlərinə zidd idi.

A. əl-uzma titulu ilə ilk təltif olunanlardan biri Yer üzərində «imam canişinlərinin» axırıncılarından biri (naib əl-imam) və «təqlid mənbəyi» (mərcə ət-təqlid) Hüseyn Burucirdi oldu (vəf. 1961-ci il). Hazırda İranın şiə icmasında A. əl-uzma titulu ilə iki aparıcı nüfuz sahibi vardır: Seyyid Ruhullah əl-Musəvi əl-Xomeyni (vəf. 1989-cu il) (iqamətgahı Tehranda) və Hüseyn-Əli Müntəziri (iqamətgahı Qumda).

Bu ünvan X əsrdən XIV əsrə qədər müxtəlif şəkildə din xadimlərinə biliklərinə görə verilmiş, sonradan işlənməmiş, XX əsrin əvvəllərindən fəqihlər və şiələrin birinci və ikinci məqamı üçün işlənmişdir.

**Ədəbiyyat:** İslam, 16; Дорошенко. Духовенство; Michael M.J.Fischer. Iran. From Religions Dispute to Revolution. Cambridge. Mass and London, 1980; İslam, 16; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 44.

**Azan** (əzinə-dən olub «xəbər vermək», «elan etmək» deməkdir; sinonimi nida – «çağırış») namaza çağırış.

Rəvayətə görə A. 622-623-cü illərdə Məhəmməd (s) tərəfindən təyin edilib və əvvəl əs-salat cəmiatən («birlikdə namaz») ifadəsinin tələffüzündən ibarət idi. İlk müsəlmanlara məlum olan yəhudi, xristian və «maqların» (məcus) adətlərinə uyğun olanlardan fərqli olaraq çağırışın şifahi formasının seçilməsi islamaqədərki bütpərəst Ərəbistanda oxşar təcrübənin mövcudluğu ilə şərtlənmişdi. Namaza dəvətin belə üsulundan Məhəmmədin (s) müasirləri və rəqibləri müsəlman rəvayətinə görə yalançı peyğəmbərlər elan olunan Müseylimə və Sacax da istifadə etmişdilər.

Tədricən, bir neçə əsr ərzində əmələ gələn sünni A.-ı yeddi formuladan ibarətdir, onları müəzzin, kiçik məscidlərdə isə imam özü (pişnamaz Ə.A.) minarədən, əgər minarə yoxdursa məsciddən yayır (oxuyur). A. verən adam üzünü (qibləyə) çevirməli, qulaqlarının aşağı tərəflərini isə baş və şəhadət barmaqları ilə tutmalıdır (qulaqlarının pərdələrinə güc düşməməsi üçün). Formulalar belədir: 1. «Allah əkbər!» (təkbir) «Allah ən böyükdür»; 2. «Mən Allahdan başqa Məbudun olmadığına şəhadət verirəm!» (şəhadə); 3. «Mən şəhadət verirəm ki, Məhəmməd Allahın rəsuludur!» (şəhadə); 4.

«Namaza gəlin!»; 5. «Xilas olmağa çalışın!» (qurtuluşa gəlin) (səhər namazından əvvəl bəzən «Namaz yuxudan yaxşıdır» sözləri artırılır (təzvib); 6. İki dəfə «Allah əkbər» (təkbir); 7. «Allahdan başqa Məbud yoxdur» (şəhadə). Bu formulalardan hər biri 2-4 dəfə tələffüz olunur və müxtəlif məzhəb tərəfdarları arasında bu barədə fikir ayrılığı mövcuddur. Şiələr 5 və 6-cı formulalar arasında «Yaxşı işə gəlin» formulasını artırırlar. A. ucadan oxunur. A.-ı eşidən müsəlman dayanıb, onu təkrar etməli, 4 və 5-ci formulaların yerinə «Güc və qüdrət ancaq Allahdadır» ifadəsini deməli, sübh namazından əvvəl isə təzvibi «Sən həqiqət və ədalətli olanı dedin» formulası ilə dəyişdirməlidir. A.-ı uşağa ad qoyan vaxt onun sağ qulağına pıçıldayırlar. Yaman ruhlar tutan hesab edilən adama da bunu edirlər. A.-dan sonra birbaşa namazdan əvvəl elə həmin formulalardan ibarət olan bir balaca fərqli şəkildə ikinci çağırış (iqamə) gəlir. Gecə boyu imanda xüsusi səy göstərmək istəyənlər üçün iki dəfə namaza çağırış səslənir. Birincisi ulə, ikincisi – abad adlanır.

Müsəlman ənənəsinə görə Peyğəmbər (s) Mədinəyə girdikdən az sonra namaz vaxtını bildirməyin tərzini səhabələri ilə müzakirə etdi. Biri od qalamaq, o biri təbil çalmaq və s. təklif etdi. Abdullah ibn Zeyd yuxuda bir nəfərin məscidin damından azan verdiyini gördüyünü söylədi. Ömər onu dəstəklədi. Peyğəmbərin əmri ilə azan bu şəkildə təyin edildi. Bundan sonra qara dərili (zənci) Bilal möminləri namaza səslədi.

**Ədəbiyyat:** İslam, 14; Петрушевский. Ислам, 74-75; Лэйи. Нравы, 83, 96-97; I.K.A.Howard. The development of the adhan and iqama of the salat in early Islam. – JSS, 1981, 26, 219-228; Th.W.Juynboll. Adhan. – EI, NE, 1, 187-188; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 44.

**Aşura** (qədim yəhuqi. ′asor, ərəb kökü ′aşr «onuncu olmaq») – Məhəmmədin (s) Mədinəyə köçdükdən sonra yəhudilərdən qəbul etdiyi, məhərrəm ayının 10-cu günündəki ilk orucluq; sonralar ramazan ayında icbari orucluq qərara alınanda A.-dakı orucluq könüllü oldu.

A. məhərrəm ayının onuncu günü və imam əl-Hüseyn üçün şiələr tərəfindən saxlanılan matəm günlərinin başlanğıcıdır. Bu gün - 10 oktyabr 680-ci ildə Kərbəlada qeyri-bərabər döyüşdə imam əl-Hüseyn, onun qardaşı Abbas və 70 köməkçisi qətlə yetirildi. Onların əziyyətlə qətl olunmaları şiə əhali olan yerlərdə yad edilərək, hər il əzadarlıq mərasimləri – təziyə keçirilir, onlarda Qabaq Asiyanın qədim xalqlarının bir neçə adət məziyyətləri qalmışdır. İran və İraqda məscid həyətlərində, mədrəsələrdə, xüsusi yerlərdə (təkiyələrdə, hüseyniyyələrdə) əl-Hüseynin, onun yaxınları və tərəfdarlarının əzablarına həsr edilmiş rozəxanalar təşkil edilir. Küçələrdə şəbehlər təşkil olunur, şəbeh iştirakçılarının bəziləri sinə döyür, zəncir vurur, baş yarırlar. Təziyələr vaxtı mübarizə və əl-Hüseynin və onun

tərəfdarlarının qətlinin şəbeh səhnəsi keçirilir (İranda A. mərasiminin məhz bu hissəsi təziyə və ya təziyəyi şəbeh adlanır).

Rza şah vaxtı (1925-1941) İranda əvvəl küçə mərasimləri, sonra isə təziyə şəbehləri keçirmək qadağan edildi, lakin hakimiyyətin bu qərarı tez-tez pozulurdu. A. günləri dini rəhbərlik nümayəndələri tərəfindən siyasi çıxışlar üçün istifadə olunurdu. İslam inqilabından sonra bu qadağalar öz qüvvəsini itirdi.

Sünnilərdə əl-Hüseyn təziyəsi sakit şəkildə keçir (qeyd edilmir Ə.A), əslində başqa təziyələrdən seçilmir.

A. Məğrib ölkələrində məhərrəmin 10-da qeyd olunan bayramdır. O, dua oxumaq, od, su və qədim əkinçilik adətlərinə aid olan ritual hərəkətlərlə müşaiyət olunur, bu gün oruc vacibi deyil.

**Ədəbiyyat:** İslam, 33; S.Humayini. Təziyə və təziyəxvani. Tehran; С.М.Марр. Мохаррам (шиитские мистерии как пережиток древних переднеазиатиских культов). – Традиционная культура народов Передней и Средней Азии. Л., 1970 (Сборник Музея антропологии и этнографии, 26), 311-366); Grünebaum. Festivals, 85-94; E.Neubauer. Muharram – Brauche im heutigen Persien. – DI. 1972, 49/2, 249-272; Ayoub. Suffering, Index; Ph. Marçais. Achura.- Eİ, NE, 1, 705.

**Azər** – Quranda adı çəkilən şəxs, İbrahimin (Avraam) atasıdır (6:74). İbrahim onu bütlərə sitayiş etməkdən çəkindirməyə çağırdı, lakin o, qulaq asmadı. Müsəlman rəvayətinə görə A. büt düzəldib balaca İbrahimi bazara onları satmağa göndərirdi; sonra o, car Nəmrudun məbədində bütlərin gözətçisi oldu. Bibliya hekayəsində isə İbrahimin atasını Terax adlandırırlar. Müsəlman şərhçiləri bu fərqi onunla izah edirlər ki, A. onun çar sarayındakı ləqəbi və ya tituludur. A.-in İbrahimin əmisi olduğu haqqında da rəvayət var. Ola bilsin bu ad Eliezer (Lazer) – İbrahimin qulluqçusunun adından əmələ gəlmişdir. Həm də belə fikirləşirlər ki, bu qarışıqlıq Lukanın İncilindəki ifadənin düz başa düşülməməsindən irəli gəlmişdir, orada «Avraam ata» «Avraamın atası» kimi başa düşülmüş və ona elə o beytdə adı çəkilən Lazar adı əlavə olunmuşdur. Necə olsa da bu fərqlər göstərir ki, İbrahim haqqında rəvayətin bu yerində Quran Avraamın Bibliya tarixini şərh edən əsas yazılı mətnlərdən çox uzaqlaşan şifahi rəvayətlərə əsaslanır (bax: İbrahim).

**Ədəbiyyat:** İslam, 15; ət-Təbəri. Tarix, 1, 254-260; yenə o. Təfsir, 7, 158-159; əs-Sə‘ləbi. Qısas, 43-45; əl-Beydavı. Təfsir, 1, 296; Horovitz. Untersuchungen, 85; Speyer. Erzählungen, 130; Gaudefroy. Demombynes. Mahomed, 347; Paret. Kommentar, 144.

# B

**<u>Bab (qapı, darvaza), Seyyid Əli-Məhəmməd Şirazi</u> -** babizmin banisi, İranda dini və ictimai-siyasi hərəkatın rəhbərlərindən biridir. 20 oktyabr 1819 (və ya 9 oktyabr 1820-ci ildə) Şirazda tacir ailəsində anadan olmuşdur. Gəncliyində Kərbəla və Nəcəfi ziyarət edib, orada şeyxilər (əş-şeyxiyyə) təlimi ilə tanış olub və bu, onun dünyagörüşünü təyin edib. 23 may 1844-cü ildə özünü Bab, yəni «qapı» elan etdi, guya oradan (ondan) «gizli imam» öz iradəsini xalqa ötürür; üç ildən sonra o özünü Məhəmmədin (s) yerinə yeni peyğəmbər, özünün əsəri olan Bəyanı (Quranı əvəz edən) yeni müqəddəs kitab elan etdi. 1847-ci ildə tutulub Maku qalasına salındı, sonra isə Çehrikdə saxlandı. 9 iyul 1847-ci ildə Təbrizdə babilərin üsyanının qızğın vaxtında edam edildi. O, öz babilik təlimini (ərəbcə və farsca yazdığı) Bəyan əsərində, habelə Əd-Dəlail səba və Kitab ər-ruh və s.-də şərh etmişdir.

**Ədəbiyyat:** İslam, 33; Babiyyə məqaləsinin ədəbiyyatına bax.

**<u>Babilər-əl-Babiyyə (əl-babiyyun) (1848-1852)</u>.** Şah və dini hakimiyyətə, eləcə də xarici ölkələrin özbaşınalığına qarşı İranda xalq demokratik hərəkatı ideologiyasını qoymuş dini-siyasi Bab təliminin ardıcılları. B. təlimi şeyxilər arasında meydana gəldi (bax: Əş-şeyxiyyə), sonra tədricən dini reformatorçuluq məziyyətlərini mənimsədi və nəhayət son mərhələdə üsyan etmiş xalq kütləsi ideologiyasında formalaşdı. Fəlsəfə məsələsinə görə B. təlimi şiə ideyası Mehdinin zühuruna əsaslanmışdır, bəzi fikirlər ismaililər, nüseyrilər, druzlardan götürülmüşdür. B. təliminin banisi ona spiritizm və kabbalistika elementləri də əlavə edərək, dini rituala mühüm dəyişikliklər gətirmişdir.

B. təsdiq edirlər ki, cəmiyyət tədricən, dövrlərin dəyişməsilə inkişaf edir, onların hər biri üçün Allah həmin dövrün peyğəmbəri vasitəsi ilə öz qanun və qaydalarını yaradır. Bu, ilahi kəşflərin ardıcıl dəyişməsi nəticəsində baş verir, onlardan heç biri əbədi fəaliyyət göstərə bilməz və o, ancaq cəmiyyətin inkişafının hazırki mərhələdə qəbul edilmiş nisbi həqiqətini bildirir. Bununla B. islam əhkamını devirib, Quran və şəriətdə dəyişiklik etmək istəyirdilər. Onlar deyirdilər ki, xalqın vəziyyətini yüngülləşdirən, yer üzərində tam ədaləti bərqərar edən, təzə qanunları öz müqəddəs kitabında göstərən yeni peyğəmbərin vaxtı çatmışdır. Peyğəmbərlik vəzifəsini B. öz üzərinə götürmüşdü. O, şəriət qanunlarını qeyri-dürüst elan etdi, əvvəlcə İranda, sonra isə bütün dünyada yaradılacaq gələcək B. çarlığında bütün insanların bərabərliyini elan etdi. B. şəxsiyyətin müdafiəsini, az imkanlılardan vergini ləğv etməyi, böyük torpaq

sahiblərinin şəxsi mülkiyyətinin ləğvini, bütün varidatın bərabər bölüşdürülməsini və s. tələb edirdilər. Onlar elə monarxiya arzu edirdilər ki, onun vaxtında nə feodal, nə əxlaqsız və xəsis din xadimləri, nə də xaricdən gələnlər olacaq. B. həm də əsasən tacirlərin maraqlarını əks etdirən konkret tələblər irəli sürürdülər. Zəhmətkeşlərin maraqları isə onların proqramında dəqiq əksini tapmamışdı. 1837-ci ildə Bab özünü Mehdi elan etdi, «Bəyanını» camaata ən kamil vəhy kimi təqdim etdi. Bab öz görüşlərinin təbliği ilə dünyəvi və dini hakim dairələri nümayəndələrini maraqlandırmağı hesaba almışdı. Lakin hakim dairələr babi ideyasının antifeodal cəhətindən narahat olaraq icmanın rəhbərlərinə repressiyalar və həbslərlə cavab verdilər. Şah hökümətinin əmri ilə Bab 1850-ci ildə Təbrizdə edam edildi.

Babın təlimi silahlı mübarizə hallarını ehtiva etmirdi və o, ancaq babi təliminin və başlayan xalq hərəkatının bir neçə şüarları və hədəflərinin ümumi olduğuna və həm də görkəmli babi xadimləri Molla Məhəmməd Əli Bərfuruşi və məşhur din xadimi Qurrətu-l-Eyn və onun tərəfdarlarının Babın demokratik görüşlərini inkişaf etdirdiklərinə görə hərəkatın ideologiyası oldu. On minlərlə kənd əhalisi, sənətkarlar və kiçik alverçilər Babın din bayrağının altında durdular. 1848-1850-ci illər ərzində silahlı üsyanlar ölkənin şimal rayonlarına yayıldı. Yaşayış məntəqələrində hakimiyyəti ələ alaraq üsyançılar babilərin ədalətli cəmiyyət yaratmaq ideyalarını həyata keçirməyə can atırdılar. 1850-ci ilin yayına üsyanların əsas ocaqları qəddarcasına dağdıldı, bundan sonra B. İsmaililər kimi fərdi siyasi terrora keçdilər.

Babi hərəkatının feodalizm dövrü kənd üsyanlarına xas olan məziyyətləri var idi – dini ideologiyada düzgün təşkilatçılıq və vahid rəhbərliyin olmaması, ərazi əlaqəsizliyi. Bununla bərabər onun mütərrəqi əhəmiyyəti var idi, belə ki, o, İranın xarici kapital tərəfindən kölə halına salınmasının ziddinə yönəldilmişdi, feodalizmin özülünü dağıdırdı və burjua əlaqələrinin yaranmasına imkan yaradırdı.

**Ədəbiyyat:** İslam, 34; Иванов. Бабидские восстания; yenə o. Очерк, 158 və mabədi., Массе. Ислам, 195-195; История Ирана. М., 1977, 243; Кузнецова. Иран, 199-231; E.Browne. The Babis of Persin. – JRAS. 1889, 21, 485-526; A.Bausani. Babis. – EI, NE, 1, 846-847; yenə o. Bab. – 833-835; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 45.

**Əl-Bağdadi, Əbülbərəkət Hibətullah b. Məlqa əl-Bələdi (1077-1164-dən sonra)** - filosof, təbiətşünas və həkim. Mosul yaxınlığında Baladda doğulub, Bağdad xəlifələri və Səlcuq sultanlarının yanında saray həkimi kimi işləyirdi, Bağdadda vəfat etmişdir. Əl-Bağdadinin məntiq, fizika və metafizikaya həsr edilmiş, üç hissədən ibarət şərq peripatetizm ənənəsində yaradılmış əsas əsəri – «Əl-Mötəbər fi-l-hikmə» (c.1-3, Heydərabad 1940-1941) qalmışdır. İkinci bölmədə (İbn Sinanın fizikası ilə müqayisə)

problematikasına xidmət və təcrübəyə söykənmə və təbiətşünaslıq məsələlərinin tədqiq edilməsində əsas vasitələrə nəzarət müşahidə olunur. Metafizikada əl-B. ümumiyyətlə şərq peripatetiklərin ardınca gedərək onların bir sıra hallarını tənqid etmişdir: o haqda ki, təkdən ancaq tək yaranır, qədimlik (köhnəlik) ötəri hadisələrin məkanı ola bilməz, Allahın mahiyyətinə əlavə olan atributları yoxdur; on kosmik ağıl sayılır (var). Bu tənqid sonralar kəlamla fəlsəfəni yaxınlaşdırmağa mənbə hazırlayan Fəxr əd-din ər-Razi tərəfindən davam etdirildi.

**Ədəbiyyat:** İslam, 34; S.Pines. Etudes sur Awhad al-Zaman Abu-l-Barakat al-Baghdadi. – REJ. 1938, 103, 1939, 104.

**Əl-Bağdadi, Əbu Mənsur Əbdülqahir, b. Tahir** (vəf. 1037-ci il) – öz doksoqrafik əsərləri ilə məşhurlaşan şafei fəqihi və əşəri ilahiyyatçısı. Nişapurda əş'əri Əbu İshaq əl-İsfərainінin (vəf. 1027-ci il) rəhbərliyi altında oxuyub və onun vəfatından sonra onu müəllim kimi əvəz edib. Sonralar İsfərană köçüb, orada da vəfat edib. Xorasanda əl.B.-nin çoxlu şagirdləri var idi, onların içərisində məşhur ilahiyyatçı – sufi əl-Kuşeyri də var idi. Əl-B. geniş erudusiyaya (dərin biliyə, düşünmə qabiliyyətinə) malik idi, o, fiqh, üsul əl-fiqh (hüquq metodologiyası), kəlam, qrammatika, həndəsə, hesabdan – 17 fəndən dərs deyirdi. O, üç doksoqrafik əsər yazmışdır – Əl-Fərq beynəl-firaq (Qahirə, 1964), Üsul əd-din (İstanbul, 1928) və Əl-Miləl va-n-nihəl (Beyrut, 1974). Axırıncısı adına və məzmununa görə də əş-Şəhrəstaninin eyni adlı əsərindən üstündür. Başqa sünni hüquqşünasları kimi əl-B. xaricilər, şiələr və mötəzililərlə imamət ideyasını mübahisədə inkişaf etdirirdi. Öz müasiri və həmfikiri əl-Baqillanidən fərqli olaraq o, imaməti zəruri institut hesab edirdi və eyni vaxtda iki imamın mövcud olmasını qanuni sayırdı (o şərtlə ki, onların mülkləri dəniz ilə ayrılsın).

**Ədəbiyyat:** İslam, 34; əs-Subki. Təbəqat, 3, 238-242; Bədəvi. Məzhəb, 634-678; H.Lajust. La classification des sects dans le Farq d`al Baghdadi. – REI. 1961, 29, 19-59; Lambton. State, 69-82.

**Əl-Baqillani, Əbubəkr Məhəmməd - b.ət-Təyyib** (vəf. 1013-cü il) əşəri kəlamının (fəlsəfəsinin) görkəmli nümayəndəsi. Bəsrədə anadan olub, həyatının çoxunu Bağdadda keçirib, orada da vəfat edib. Fiqh məsələlərində maliki məzhəbinin tərəfdarı olan əl-B. bir neçə vaxt Bağdaddan kənarda hakim vəzifəsini tutmuşdur (Buradan da onun əl-qazi ləqəbi gəlir). Fəlsəfəni əşəri İbn Mücahidin (vəf. 980-ci il) rəhbərliyi altında öyrənmişdir. 982-983-cü illərdə bui əmiri Adud əd-dövlənin tapşırığı ilə diplomatik xarakterli missiya ilə Bizans imperatorunun sarayında olmuşdur.

Əl-B.-nin 52 əsərindən ancaq altısı qalmışdır ki, onların əsasında da onun dünyagörüşünü bərpa etmək çətindir. İlahi atributları və ilahi

mahiyyyəti əl-B. mötəzili Əbu Haşim əl-Cubbainin üsulları «moduslar» (əhval) konsepsiyası ilə işləmiş ruhda həll edirdi. Bir sıra mötəzililərin, xüsusilə də uyğun gələn ideyalarını inkişaf etdirərək əl-B. Abbad b. Süleymanın (vəf. 844-cü il.) Allahda «mahiyyət atributlarını» (sifət əz-zat, sifət zatiyyə, məsələn, bilik, həyat) və «fəaliyyət artributlarını» (sifət əl-fil, sifət filiyyə, məsələn yaradan atributu) fərqləndirmiş və birinciləri əbədi, ikinciləri isə (hadisə) vaxtaşırı baş verənlər elan etmişdir. Əl-B.-yə görə hər şey Allah tərəfindən müəyyən edilib, ancaq «ümumilikdə» (cümlətən), «xüsusilə» (bi-t-təfsil) yox.

Buna uyğun olaraq onun tərəfindən iradə azadlığı problemi həll olunurdu: «varlığı olduğu kimi» və onun konkret növlərini, «fəaliyyətin əsasını» və onun növlərini – (yerimək, qalxmaq və s.) fərqləndirərək o, təsdiq edirdi ki, Allah ancaq «varlığı», «əsası» yaradır, insan isə varlığı təşkil edir, fəaliyyəti konkretləşdirir və bu mənada onu kəsb edir.

İbn Xəldunun şahidliyinə görə əl-B. əş'əriliyə atomistik təlimini ilk gətirən olmuşdur.

İmamət məsələsində əl-B. şiələr və rafizilərlə mübahisəyə girərək imamın (xəlifənin) seçilməsinə (ixtiyar) təkid edirdi, baxmayaraq ki, o hesab edirdi ki, imam hər hansı bir (vacib deyil Əli nəsli olsun) qüreyş nəslindən olmalıdır, o təkid edirdi ki, seçmək aşkar olsun, təkcə bir imam vaxtı eyni yaşayış səviyyəsi olsun, o öz mənəvi, intellektual və fiziki keyfiyyətləri ilə onun üzərinə qoyulan funksiyaları yerinə yetirə bilməyəndə onun taxtdan salınması zəruri olsun: 1) ümməti bütün düşmənlərdən müdafiə etmək; 2) haqsızlığı aradan götürmək; 3) qanunla verilən cəzanın həyata keçirilməsinə nəzarət; 4) fütuhatlar vaxtı əldə edilmiş vəsaitin müsəlmanlar arasında bölüşdürülməsi; bax: fay`; 5) həccin təhlükəsizliyini təmin etmək. Əl-B. dörd Raşidi xəlifənin imamətliyinin qanuniliyini qəbul edirdi. Buna baxmayaraq, o, rafizilər təliminin gizli tərəfdarlığında günahlandırıldı.

**Ədəbiyyat:** İslam, 37; əl-Baqillani. Ət-Təmhid fi-r-radd alə-l-mülhidə əl-müəttilə va-r-rafidə va-l-xəvaric va-l-mutəzilə. Beyrut, 1957; yenə o. Əl-İnsaf. Qahirə, 1950; yenə o. İcəz əl-Quran. Life and Works of al-Baqillani.- Ist. 1965, 4. 227-236; The Political Doctrine of Baqillani. Beirut, 1966; A.Abel. Le chapitre sur I`imamat dans le Tamhid d`al – Baqillani. – Le shi`isme imamite, 55-68; Lambton State. 60-82; J.M.C.Carthy. Al-Baqillani. – EI, NE, 1, 988.

**Əl-Batiniyyə -** (batindəndir - «daxili, iç, örtülü» mənalarını verir) – batinilər, Quran və sünnədə «gizli» - ezoterik məna axtaran, onların azad və alleqorik şərhinin tərəfdarlarının ümumi adıdır. Hərfilər – zahirilərin əksinə olaraq B. sokral mətnlərdə «xaricini», «aşkarı» gizli həqiqətin simvolu,

işarəsi kimi qəbul edirdilər. Həqiqi mənanı «açmaq» məqsədilə alleqorik şərhin zəruriliyinin əsaslandırılmasını B. Quranın özündə tapmışlar, orada «zahiriyə», «aşkara» qarşı Allahın «daxili», «gizli» mərhəməti (31:20/19), aşkar və gizli günah (6:120), aşkar və gizli Allah (57:3), («daxilin») mərhəməti və («zahirin») cəzası (57:13) və s. göstərilir.

Quranın alleqorik şərhi VIII əsrdə «qatı» şiələr arasında, İraqda meydana gəlmişdir. Onun bəzi aspektlərinin yəhudi – xristian ekzeqezlərində və qnostiklərdə paralelləri vardır. Kufədən olan «qatı» şiə əl-Müğirə b. Səid (736-cı ildə edam edilib) dağın dini (əmanəti) rədd etməsini (Q.33:72) Ömərin Əlinin xilafətə haqqı olduğunu qəbul etməməsi kimi şərh edirdi. Başqa qatı şiə Əbu Mənsur əl-İcli təsdiq edirdi ki, Quranda xatırlanan «göylər» (Məhəmməd nəsli) haşimiləri, «yer» isə onların tərəfdarları – şiələri bildirir. Şiəlikdə əsas ideyaya çevrilən (Peyğəmbər kəşfi (tənzil) gətirdi, Quranın mətnini xəbər verdi, onun şərhi (təvil) isə - əsas mənasının açılması imamların üzərinə qoyulub) fikri də onun adına yazılır. Hər bir nəsildə (dövrdə) dini həqiqətləri açıq elan edən «danışan» (natiq) və «danışmayan» (samit) imamların mövcud olması və onları «seçilmişlər» (əl-xassə) kimi təqdim edib, alleqorik şərh təlimini hazırlayanlar xəttabilər idilər.

Bu ideyalar batin, təvil, əl-xassə məfhumlarının çox mühüm yer tutduğu dini-fəlsəfi doktrinada ismaililər arasında qəbul edilib, sonrakı inkişafını aldı. Buna əsaslanaraq orta əsr müsəlman doksoqrafları B.-lərə hər şeydən əvvəl ismaililərin bütün cəhətlərini və regional adları (sabiiləri, qərmətləri, təlimiləri, mülhidiləri, nüseyriləri, druzları və b.) aid edirdilər. İsmaililərə görünür X əsrdən batinilər deyilmişdir (erkən doksoqraflar ən-Naubəxti, əl-Əşəri onları belə adlandırmayıblar). Müsəlman ilahiyyatçıları həm də Quranın ezoterik mənasına əsaslanaraq bu və ya başqa dərəcədə sokral mətnlərin simvolik şərhini qəbul edərək, müxtəlif ictimai-dini hərəkatları və məzdəki-xürrəmi növlü icmaları (əl-babəkiyyə, əl-mühəmmirə və b.) sufilərə aid edirdilər. Mübahisəli ədəbiyyatda batiniləri tez-tez mötəzililər, «filosoflar» (fəlasifə) və islamda başqa rasionalist ideyaların ardıcılları adlandırırdılar.

**Ədəbiyyat:** İslam, 39; əl-Bağdadi. Əl-Fərq. 281-31; аш-Шахрастани. Книга о религиях, 148, 165, 168. 229; İbn əl-Cövzi. Təlbis, 102 və sonrakılar; Qalib. Əl-Hərəkat əl-batiniyyə; M.G.S.Hodgson. Batiniyya – EI, NE, 1, 1131-1133.

**Bəktaşiyyə** - XIII əsrin sonu – XIV əsrin əvvəlində Kiçik Asiyada əvvəl yerli köçəri və oturaq türk əhalisi arasında yaranan sufi qardaşlığı (təriqə), Sultan Türkiyəsində böyük nüfuza malik olan dərviş təriqəti.

Qardaşlığın adını Hacı Bəktaş Rumiyə aparıb çıxarırlar. B.-nin gizli ədəbiyyatında (XV əsrin 20-ci illərindən) – Vilayət-namə, (XVI əsrdən və

sonralar) Silsilə-namə və Ərkan-namə B.-nin himayəçisi, müqəddəsi və simvolu olmuşdur.

Mütəxəssislərin rəyinə görə B.-nin həqiqi yaradıcısı öz mənəvi silsiləsini (1166-cı ildə vəfat etmiş) Türküstan şeyxi Əhməd Yəsəviyə və onun vasitəsi ilə də şiə imamı Musa əl-Kazımə çatdıran (babın) gəzəri təbliğçisi və kələntər, XV əsrdə əfsanəvi tərcümeyi-halı tərtib olunmuş Hacı Bekdaş Vəli Nişapuri (1208-1270) olumuşdur. Hacı Bəktaş tezliklə Kiçik Asiyada şöhrət tapdı.

Onun amalı Allah, Məhəmməd və Əlidən ibarət Üç Üğnuma (Üçlüyə) inam, 12 şiə imamlarına və şəhidlərinə ehtiram, şərab, çörək və pendirlə mərasimi müşaiyət, mürəbbiyə ehtiram göstərmək və subay qalmaq idi. O, 1240-cı ildə dərviş kələntər Baba - İshaqın Koniya sultanı Qiyas əd-din Key-Xosrova qarşı rəhbərlik etdiyi «Türkiyə sərbəstləri» üsyanında fəal iştirak etdi. Etibarlı mənbələr və əsl əsərlərin olmadığından Hacı Bekdaşı onun təliminə görə əminliklə mühakimə etmək olmaz. (B. adətən onu (Hacı Bəktaşı) ərəb dilində yazılmış və orijinalı bizə gəlib çatmamış, təkcə XIV və XVI əsrlərdə türkcə şeirlə tərcümə olunmuş iki mətn kimi məşhur olan Məqalatın müəllifi sayır). Bununla bərabər B.-nin daha sonrakı qaydaları, təlimləri və qanunlarına əsasən belə nəticəyə gəlmək olar ki, Hacı Bəktaş da çoxlu başqa gəzəri türk möminləri kimi, kələntəriyyə və ola bilsin «qatı» şiələr (ğulat) ideyalarını rəhbər tuturdu.

B. özünə dayağı əsasən kənd əhalisi içərisində tapmışdı. Vaxt ötdükcə B. şaxəli iqamətgahlar və icmalar, şəbəkəli, ciddi iyerarxiyalı, vahid qayda-qanunlu, qəbul və ziyarət mərasimli, öz simvolikaları və fərqli geyimləri olan təşkilata çevrildi. B.-nin ciddi təşkilatlanmış qardaşlığa çevrilməsini B. ədəbiyyatında «İkinci pirani» (Pir-i səni) adlanan (1516-cı ildə vəfat emiş) «böyük rəhbər» Bəlim Sultanın fəaliyyəti ilə əlaqələndirirlər. Bəlim Sultan özünü Hacı Bəktaş Ruminin varisi elan edib, icma və iqamətgahların strukturu, mərasim və ziyarətlərdə qayda və qanunların ardıcıllığı ilə bağlı bir sıra islahat keçirdi, ola bilsin kəbinsizlik institutunu da həyata keçirdi.

Bəlim Sultanın islahatları ilə B.-nin heç də bütün üzvləri razılaşmırdılar. Bir-biri ilə mübarizə aparan iki əks qrup yaranmışdı. Birinci qrupa çələbilər, daha doğrusu Hacı Bəktaş Ruminin nəsli və Bəlim Sultanın yeniliklərinin tərəfdarları daxil idilər. Qrupda özlərini B.-nin yaradıcısının təliminin əsl ardıcılları hesab edən və islahatlara qarşı çıxan babçılar birləşmişdir. Kəskin mübarizə alovlandı. Nəticədə Bəlim Sultandan sonra Pirevi təkyəsinin başçısı vəzifəsini və qardaşlığa rəhbərliyi çələbi qruppası tutdu (bu vəzifə seçki yolu ilə idi, XVII əsrin ortalarından isə irsi oldu). XVI əsrin II yarısında B.-nin başçısı Sərsəm Əlibaba (vəf. 1589-cu il) qardaşlığın ali apostol (əshabə) vəzifəsi – dədə-babanı yaratdı. Çələbilərin B.-də real hakimiyyətlərini (vəqfi idarə etmək, gəlirləri bölmək, yerli

təkkələrin (təkyə) rəhbərlərini təyin etmək və s.) saxlamalarına baxmayaraq, B.-nin başçısı vəzifəsinin kim tərəfindən tutulacağı icazəsini dədə-baba verirdi. Bu vəzifə seçki yolu ilə idi, seçkidə mərkəzi iqamətgahın səkkiz babı iştirak edirdi. B.-nin üzvləri Osmanlıların hakimiyyətinə qarşı bir sıra xalq üsyanlarında iştirak etmişdilər, məsələn 30 minə qədər B. üzvlərinin dəstəklədiyi 1526-cı il Qələndəroğlu hərəkatını göstərmək olar. Osmanlı fütuhatlarından sonra B. Suriya, Fələstin və Misirdə yayıldı və orada onlar özlərinin iqamətgahlarını və icmalarını yaratdılar.

Bəlim Sultan hakimiyyəti dövründə B.-nin təbliğinin ən çox müvəffəqiyyəti xüsusi nüfuza malik olan yanıçar korpusunda olurdu. Bu vəziyyət B.-nin Osmanlı Türkiyəsində siyasi əhəmiyyətinin dərəcəsini təyin edirdi. Öz növbəsində ciddi təşkil edilmiş qardaşlıqla əlaqə yaniçar korpusuna «bağlı» institut xarakteri verirdi. 1826-cı ildə Sultan Mahmud yeniçəri korpusunu məhv edib, B.-nin üstünə düşdü: onun fəaliyyəti qadağan edildi, onun kəbinsizlik andını içən üç qrup – (dədə – baba, çələbi və dədə) rəhbərini edam etdilər, (paytaxtda köhnələr ilə yanaşı), yeni tikilmiş iqamətgahlar uçuruldu, daşınmaz əmlak (vəqflər, torpaqlar, evlər və s.) müsadirə edildi, çoxlu şeyx və sıravi B. üzvləri sürgün edildi, yerli iqamətgahlar nəqşbəndiyyəyə verildi. Təqib əhəmiyyətli B. üzvlərinin Balkanlara, xüsusilə də əsas baş təkkələrin olduğu Tirana, Akça və Hisarın yerləşdiyi Albaniyaya mühacirətinə səbəb oldu. Oralarda fütuhatçı sünni məzhəbini qəbul etməkdən imtina edən çoxlu icma qardaşlığa daxil oldular. Lakin sultan Əbdül-Məcidin (1839-1861) hakimiyyəti dövründə B. tədricən yenidən bərpa oldu və öz itirilmiş iqamətgahlarını geri aldı.

Əhməd Cəlal əd-din Çələbi vaxtı (XIX əsrin 60-cı illəri) çələbilər və bablar arasında son parçalanma baş verdi. Qardaşlıq formal olaraq ayrılmaz olan üç şaxəyə ayrıldı: əsil bekdaşi; düşmənlərinin qacar («soyğunçu», «quldur») adlandırdıqları dədə; Bekdaşilərin mürtədd («dindən dönən», «ayrılıq salan») adlandırdıqları çələbilər.

1925-ci ilin payızında Türkiyədə B. də daxil olmaqla bütün sufi qardaşlığı buraxıldı. Albaniyada B. 1967-ci ilə qədər fəaliyyət göstərdi, Yuqoslaviyada da; 1965-ci ilə qədər B.-nin alban təkkəsi Qahirədə mövcud idi. Türkiyədə 1952-ci ildə təqribən 30 min B. üzvü var idi. 1953-1954-cü ildə onlar İstanbulda aktiv siyasi fəaliyyətə başladılar ki, bu da hakimiyyət tərəfindən repressiyalara gətirib çıxartdı.

B. yarandığı dövrdə özünü qazilər hərəkatı ilə möhkəm bağlamışdı ki, bu da Osmanlıların qələbəsinə kömək etdi. Bu B.-yə öz yaradıcısının silsiləsini Əbu Bəkrlə bağlayan sünni qardaşlığının şöhrətini gətirdi. Sonralar B. ədəbiyyatının göstərdiyinə görə onun təlimi öz üzərində asket-mistik-ezoterik cərəyanların (qələndəriyyə, mələmətiyyə), qardaşlıq yaradan türkmən (qızılbaş) kənd və köçəri qruplarının şaman oyunlarının,

Anadolu xristianlarının ideyalarının, («mülayim»dən «qatı»-yadək) şiə doktrinasının, habelə hurufi təliminin təsirini hiss etmişdir. Buna görə də B.-nin vahid görüş sistemi haqqında danışmaq olmaz. Ona xas olan eklektizm B. içərisindəki qruplar arasında dolaşıq və mürəkkəb əlaqələrlə təsdiq olunur. Onlar qardaşlığa onun ayrı-ayrı komponentləri kimi daxil olur və təqibdən müdafiə olunurdular, lakin B. geyimində çıxış edərək, onlar öz təlimlərinin, təbliğlərinin arasını kəsməyirdilər. Buradan da B.-nin başqa dinlərə mane olmadığı görünür və onun təcrübəsi ilə bağlı B. təliminin əsas sinkretik halları belədir: şəriətin qanunlarına riayət etmək ancaq mistik yolun sirlərini bilməyənlər üçün vacibdir; Quranın gizli mənası ancaq (ondan yaxşı) xəbərdar olan adamlara məlumdur; gündəlik beş dəfə namaz qılmağın qəbul edilməməsi; B. üzvünün mərasim yuyulması ancaq bir dəfə inisiasiya ayini vaxtı yerinə yetirilir; orucluq onlarda məhərrəm ayının ilk on günü həyata keçirilir və bu günlər onlar su içmirlər, lakin susuzluqlarını meyvə və tərəvəzlə yatırdırlar və sadə olmayan yemək qəbul edirlər; bu günlərdə onlar gecələr şiə şəhidləri üçün matəm saxlayırlar (matəm gecələri); uşaqkən həlak olmuş (məsum-pak) ələvi şəhidlərinin yad edilməsi, Cəfər əs-Sadiqin xüsusi yad edilməsi; Əli Allah təcəssümüdür, buna görə də merac Məhəmmədin Əliyə yaxınlığının göstəricisidir. (Xristian təqvimi ilə) Yeni il Əlinin ad günüdür, onlar onu üç gün qeyd edirlər, onlar icmalarla iqamətgahlarda toplaşıb süd içir, musiqi və mahnılara qulaq asırlar; Peyğəmbər (s), eləcə də Əli üçün səhər-axşam dua edilməlidir; (günahların bağışlanmadığı) məhərrəm ayından sonra iqamətgahın başçısının (babın) yanında ildə bir dəfə olub, ondan günahının bağışlanmasını diləməlisən; qadına B. mərasimində iştirak etmək qadağan edilmir; bəziləri Əli, Məhəmməd və Allahdan ibarət olan üçlüyü, başqaları - Əli, Xacə Bekdaş və hürufiliyin banisi Fəzlallah Astarabadidən (1394 və ya 1401-ci ildə edam olunub) ibarət olan üçlüyü qardaşlığın simvolu hesab edirlər; onlar Fəzlullahı ilahiləşdirib onun Cavidan-namə kitabını (türk Firiştəoğlunun türk tərcüməsində Aşıq-namə) müqəddəs hesab edirlər; onlar rəqəmlərin sehirli gücünə, xüsusilə də «dörd darvaza»nın (yolların mərhələləri - şəriət, təriqət, mərifət və həqiqət) rəmzi olan «4» rəqəminə və bu darvazalardan keçən, dörd cür adamlara (abid, zahid, arif və mühibb), «12» (imam və həvarilərin sayına görə), «32» (fars əlifbasının sayı, insanın talehi və irəlicədən xəbər verməni təyin edən insan üzündəki qırışlar və cizgilərə görə) rəqəmlərinə inanırlar.

Qardaşlıq kənd icmaları və xəbərdar edilmişlərin icmalarından yaranırdı. Müəyyən yaş həddinə çatandan sonra kənd icmalarının adamları yerli icmanın nəsli - yerli başçısının keçirdiyi təqdimetmə ayinini keçərək B.-nin üzvü olurdular. O adamları «xəbərdar edilmişlər» adlandırırdılar ki, onlar qardaşlığa daxil olub kənd yerlərində yerləşən, lakin şəhərlərə yaxın

olan iqamətgahlarda yaşayırdılar. Həm onlar, həm də o birilər baş örtüyü (tac), xirqə və lazımi aksessuar geymək hüququnu almaq üçün andiçmə mərasimindən (tövbə, vəqfi vücud) keçməli idilər.

İcmaların və iqamətgahların şaxələnmiş sistemi vasitəsilə bütün qardaşlığı çələbi idarə edirdi, onun iqamətgahı (XVI əsrdə tikilmiş) bekdaşilərin həzrət adlandırdıqları Hacı Bəktaş Köyündə olan ana təkkədə (Pirevində) yerləşirdi. Əvvəlcə ana təkkə 12 şöbədən (meydan, xanə) ibarət idi, sonra onlar səkkizə endirildi; kollektiv zikr və həqqaya getmək üçün zal, anbar, çörək bişirilən yer, qadın qulluqçuları və qadınların müvəqqəti qaldıqları otaqlarla yanaşı mətbəx, qonaqlar üçün otaqlar, at tövləsi, bağ və dədə-babanın iqamətgahı istifadə oluna bilərdi. Bölmələr dədə-babanın təyin etdiyi babalar tərəfindən idarə edilirdi və onlar ancaq ona tabe idilər. Regional əyalətlərdəki iqamətgahların (Qahirə, Kərbəla, Rumeyliyə və Tiranada) başında xəlifələr dururdu. Bu iqamətgahların tərkibində dörd şöbə olurdu. Yerli təkkələr adətən irsi olan babalar tərəfindən idarə olunurdular.

Qardaşlığın üzvləri altı əsas kateqoriyaya bölünürdü:

1. Aşiq – şüurunda təsəvvürlər arasında əlaqə olan, lakin xəbərdar edilməmiş üzvlər.

2. Mühibb – xəbərdar edilmə mərasimini keçmiş və B.-nin bəzi ritual iclaslarında iştirak etmək hüququnu almış aşiq.

3. Dərviş – inisiasiya üzrə böyüklərə qulluq etmək mərhələsini keçmiş. Yolu getmək yollarını öyrənmiş, and içmiş və xirqa, tac və B.-nin simvolik aksessuarını daşımağa icazə almış mühibb.

4. Baba. Dədə –baba və regional təkkə (təkyə) xəlifəsi tərəfindən (sonuncu ancaq yerli iqamətgahlar üçün) dərvişlərdən xüsusi sənədlə (icazə-namə) yerli iqamətgahın və ya mərkəzi (regional) şöbənin rəhbəri kimi təyin edilirdi.

5. Dərviş-i mücərrəd – kəbinsizliyə and içənlər. Onlar xəbərdar edilmənin (mücərrəd ayini) xüsusi bağlı mərasimini keçirdilər, bu mərasimlər ona iqamətgahda, habelə Bekdaşiyyənin Kərbəlada və Anadoluda Bəlim-Sultan təkkəsində keçirilirdi. Onlar ancaq iqamətgahda yaşayır, bığ və saqqallarını, başlarını qırxır, fərqlənmək nişanəsi kimi sağ qulaqlarında gümüş və ya mis sırğa daşıyırdılar.

6. Xəlifə – Çələbinin müavini, regional təkkənin rəhbəri kimi babalardan dədə-babanın imzaladığı xüsusi investitur sənədi (icazə-namə) ilə təyin edilirdi. Sənədə dövlət rəmzi kimi lampa, işarə (nişan), kiçik bayraq və süfrə əlavə edilirdi. Xəlifə başına ətrafına qara yaylıq dolandırılmış tac qoyurdu. Onun qardaşlığın sıravi üzvlərinə rəhbərlik etmək, habelə yerli təkkələrin babalarını təyin etmək hüququ var idi.

Xəbərdar (ithaf) edilmənin təntənəli ritualı və andiçmə mərasimi şərbət və pendir dadına baxma, içki, musiqi və mahnı ilə müşaiyət olunan ümumi yemək süfrəsi ilə qurtarırdı. B. yüksəkdən zikr edirdi, lakin kollektiv həqqada (səm`a, hadra) ancaq ithaf edilmiş üzvlər iştirak edirdilər. Qardaşılğın üzvləri adətən ağ rəngli konusvari papaq (tac) geyirdilər. XVIII əsrdən onların iki növü istifadə olunurdu: a) dörd taxtadan tikilmiş; b) yuxarıdan 12 taxtalı və aşağıdan 4 taxtalı tikilmiş; boynunda inisiasiya günü kəsilmiş qoçun yunundan hörülmüş qalın ip – təkbənd; sinələrində ipdə xüsusilə işlənmiş və seçdiyi yolda tam tabeçiliyinin rəmzini bildirən daş (təslim-daşı, səngi-təslim) asılır; enli, möhkəm bafta və tikmə ilə bəzədilmiş kəmərin ortasında qəmbəriyyə-damcıvari əqiq bərkidilmişdir, yan tərəfdən isə cilbənd-çoxlu cibi olan dəri çanta, hər iki tərəfi iti balta-təbər (təbərzin və bıçaq) və şeypur asılırdı. Bütün bu aksessuar vaslə adlanırdı.

Öz kökləri ilə sinkretik olan B. təlimi türk xalqının təkcə dini dünyagörüşünün yaranmasına deyil, həm də onun mədəniyyətinin, musiqisinin və xüsusən də ədəbiyyatının inkişafına çox ciddi təsir etdi.

**Ədəbiyyat:** İslam, 39-41; Əflaki. Mənakib, 2156-2166; Эвлия Челеби. Книга путешествия. Пер. и комментарии. Вып. 3. Земли Закавказья и сопредельных областей Малой Азии и Ирана. М., 1983 (ПЛНВ, переводы, 6), 65, 304; Tovfiq Sobhani. Haci Bekdaş Vəli və təriqət-i bekdaşiyyə. – Nəşriyyeyi danişgəde-yi daneşgah-i Təbriz. 1977, 28/4, 505-546; Петрушевский. Ислам, 345; Birge. Bektashi Order; Brown. Darvishes, 206-212, 214-224; G.Jacob. Die Bektachijja. Munchen, 1909; Trimingham. Orders. Index; Popovic.- Orders. 240-254; R.Tschudi. Bektashiyya. – EI, NE, 1, 1161-1163; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 47.

**Bey'ət** - tabe olmaq və itaət etməyə and içmək (sadiqlik andı); B. hər hansı bir şəxsin hakimiyyətini camaat qarşısında tanımağın geniş yayılmış adəti ilə bağlıdır. Tabeçilik əlaməti olaraq and içənlər (ya hər kəs ayrıca, əgər bir kiçik tayfa və ya icmadırsa və ya nümayəndələr qrupudursa, və ya bu böyük birlikdirsə) andı qəbul edənlərlə əllərini bir-birinə vurmaq mərasimini (toxundurmaq) keçirirlər.

B. yolu ilə ali hakimiyyətin varisinin təsdiqi, (o, bununla hakimiyyəti ona verənin iradəsilə razılaşır və bu hakimiyyəti qəbul etməyə hazır olduğunu bildirir), müqavilələrin (əhd) təsdiqi, yüksək rütbəli canişin və çinovniklərin (məmurların) vəzifəyə qoyulması və onlara tabe olanların kiçik vəzifələrə təqdimi yerinə yetirilir.

B. hazırkı vaxta qədər adətən teokratik üsuli-idarə sistemi olan yerlərdə qalmışdır. Lakin B. haqqında islamda yeganə fikir yaranmamışdır.

Məzhəblər arasında, eləcə də onların öz içərilərində B.-in zəruriliyi, onun yeri və keçirilməsi vaxtı, and içən şəxslər və s. haqqında narazılıqlar səngimir.

**Ədəbiyyat:** İslam, 36; əl-Məvardi. Əl-Əhkam, 3-33; Bravmann. Background. 213-220; E. Tyan. Baya. – EI, NE, 1, 1113-1114.

**Beytülmal («əmlak evi»)** - 1) xəzinə, ictimai maliyyə; 2) pul və başqa qiymətli şeylərin saxlanıdığı yer (ev, otaq).

Maliyyə müəssisələri, mərkəzi və regional idarələr və xəzinələrin yaranması 638-640-cı illərə aiddir. O vaxtlar I Ömər fəth olunmuş ölkələrdəki daşınmaz mülkiyyətin bölünməsini qadağan etmişdi, yığılan xərac və vergilərdən mühacirlər, ənsarlar və müsəlman döyüşçülərinə maaş vermək üçün siyahılar tərtib olunmuşdu (divan, cəmi dəvavin), bunlarla paralel olaraq bizans və sasani dövlət xəzinəsindən götürülmüş və eləcə də divan adlanan kadastrlar (vergi obyektləri siyahısı) var idi. Canişinin iqamətgahı və ya came məscidindəki yığılan mülkiyyətin saxlandığı yer beytülmal adlanmağa başladı, eyni zamanda bu təbir həm də bütünlüklə bütöv icmaya aid olan vəsait mənasını verməyə başladı. Abbasilər dövründə B. beyt mal əl-muslimin (ümumi xəzinə) və beyt mal əl-xassəyə (xəlifənin şəxsi xəzinəsinə) bölündü.

B.-a müsəlmanların ümumi var-dövləti sayılan gəlirlər daxil olurdu: qənimətin beşdə biri, zəkat, xərac, cizyə, təsərrüfatsız (sahibsiz) və vərəsəsiz qalmış əmlak. İmam (dövlətin başçısı) icmanın bu xüsusi mülkiyyətinin ancaq bölüşdürəni hesab edilirdi (isnə′əşəri şiələrdə gəlirlərin bəzi növləri imamın xüsusi mülkiyyəti hesab olunur). Şafeilər hesab edirdilər ki, il ərzində yığılan bütün vəsait onlara haqqı olan üzvlər arasında qalığı qalmadan bölünməlidi; hənəfilər isə ötəri qalığın yaranmasını mümkün sayırdılar.

Vergi gəlirləri və onları bölüşdürən dövlət aparatı dini icma institutu xarakterini get-gedə daha çox itirirdi və B. ul-M. məfhumu daha dar məna kəsb edirdi. Əndəlüsdə B. ul-M. qazinin rəhbərlik etdiyi vəqf və əmanətlərdən gələn gəlirlər, ümumi xəzinə isə – xizənət maldır.

Osmanlı Türkiyədə B.ul-M. ilkin mənada ancaq dini-hüquqi istilah kimi işlənirdi, əslində isə əsasən vəqf vəsaitlərini bildirirdi.

**Ədəbiyyat**: İslam, 37; X.Ş. əd-Düceyli. Beyt əl-mal. Bağdad, 1976; N.P.Aghnides. Muhammadan Theorius of Finance in İslam. N.Y., 1916; S.A.Siddiqi. Publio Finance in İslam. Lahor, 1952; N.J.Coulson. CI.Cahen, B.Lewis, R. Le Tourneau. Beyt al-mal. – EI, NE, 1, 1141-1149.

**Beytülməqdis, əl-Beyt, Beytülmüqəddəs -** («Müqəddəs ev») və ya əl-Qüds («Müqəddəs yer») – Yerusəlim, Fələstinin tarixi paytaxtı, onun

müqəddəsliyi haqqında təsəvvür islama qədim peyğəmbərlər və İsaya hörmət Məhəmmədə (s) müjdə kimi xristianlıq və yəhudiliklə bir yerdə keçmişdir.

Yerusəlim bir müqəddəs yer kimi müsəlman müqəddəs yerləri arasında olduqca yüksək yer tutur. Əslində müqəddəs yer əl-Məscid əl-Aqsa, məscid Qubbət əs-səhra və başqa tikililəri özünə birləşdirən, Moria dağındakı orta əsr B.-in şərq hissəsindəki qorunan «qoruq» ərazisindəki əl-Haram əş-Sərifdir. Rəvayətə görə B. deyərkən Quranda Məhəmmədin (s) «gecə səyahətinin» axırıncı yeri (17:1) nəzərdə tutulur. Oradan o, sanki göylərə qaldırılmışdır (bax: əl-İsra` va-l-mirac). Məhəmmədin (s) Mədinədə olduğu ilyarım – iki il ərzində müsəlmanlar namaz qılanda üzlərini B.-ə tuturdular (bax: əl-qiblə).

Yerusəlim müsəlmanlara patriarxla I Ömər arasında 638-ci ilin əvvəlində bağlanmış müqavilə əsasında verilmişdi. Ola bilsin ki, müqaviləyə xəlifənin özü tərəfindən qol çəkilməsi onun şəhərə xüsusi münasibətini əks etdirir. Erkən tarixçilər müqavilənin mətninin qısa məğzini saxlamışdılar, XII əsrdə xristianlar üçün guya əhəmiyyətli dərəcədə məhdudiyyətlər yaradan düzəltmə mətnlər meydana gəldi. Yerusəlimdə olarkən Ömər orada Moria dağında xarabalıqlar içərisində ilk məscidi Əl-Məscid (əl-Məscid əl-Aqsa) tikdirdi.

Yerusəlimin bir dini mərkəz kimi sonrakı yüksəlişi Qubbət əs-saxra və əl-Məscid əl-Aqsanın yeni binasının tikilməsindən (705-715) sonra baş verdi, çox güman ki, ərəb əl-Qüds adının yaranması bununla bağlıdır (VIII əsrin əvvəlinə qədər Yerusəlim rəsmən latınca Allia Capitolinadan İliya adlanırdı). Yuxarıda adları qeyd olunan məscidlərin tikintisi Əməvilərin Həzrət məzarı ətrafındakı xristian həram kompleksinə bərabər bir müsəlman dini abidəsinin yaradılması istəyi idi.

İslam, xristianlıq və yəhudiliyin Yerusəlimdə dinc yanaşı yaşamaları ancaq hərdən Bizans silahının müvəffəqiyyətinə cavab olaraq xristianlar üzərinə hücum alovu ilə (937 və 966-cı illər) kəsilirdi. 1009-cu ildə Həzrət Məzarı dəlisov əl-Hakimin əmri ilə uçuruldu (1027-ci ildə başqa fatimi xəlifəsi tərəfindən bərpa olundu). Katolik kilsəsi müqəddəs yerləri zəbt etmək üçün səlib yürüşü elan etdikdə vəziyyət dəyişdi. Yerusəlimi tutan səlibçilər 15 iyul 1089-cu ildə qanlı qırğın edib bütün müsəlmanları qırdılar və Yerusəlimi krallığın paytaxtı elan etdilər. 1187-ci ildə Yerusəlimi geri alan Salah əd-din xristianlara (görünür immiqrantlara-xaricilərə) haqq ödəməklə şəhəri tərk etməyə icazə verdi. 1228-1229 və 1234-1244-cü illərdə müqaviləyə əsasən şəhər yenə də səlibçilərin əlində oldu.

1517-ci ildə Yerusəlimi Osmanlılar fəth etdilər. XVI əsrdə əl-Haram əş-Şərif əsaslı təmir olundu, bürc və başqa istehkamlar tikildi.

VI əsrdən XIX əsrin ortalarınadək şəhər bir hasarın hüdudlarında qalırdı (belə ki, şəhər təxm. 80 h., əl-Haram əş-Şərif 13 h. idi). Ən erkən tam dövlət (1553-cü il) siyahıya alınması 1980 müsəlman, 413 xristian və 324 yəhudi ailəsinin olduğunu qeydə almışdır; ayrı-ayrı adamlar və vergi verməyən camaat ilə birlikdə bu təxm. 15 min əhali edir, təqribən bu vəziyyəti XIX əsrin üçüncü rübündə keçirilən siyahıya alınma da göstərir.

XIX əsrdə Yerusəlimin xristian müqəddəs yerlərinin müdafiəsi haqqında məsələ Avropa ölkələri tərəfindən Osmanlı imperiyasının işlərinə qarışmaq üçün neçə dəfə istifadə olunmuşdur. XIX əsrin ikinci yarısında Yerusəlimə köhnə şəhərdən qərbdə yerləşən bir çox Avropa dini – missioner mərkəzlər (o cümlədən, Fələstin İmperator Pravoslav cəmiyyəti) gəlirlər; əsrin axırında elə buradaca xarici yəhudilərin müstəmləkəsi başladı.

1920-1947-ci illərdə Millətlər Təşkilatının mandatı ilə Yerusəlim Böyük Britaniyanın idarə etdiyi Fələstinin inzibati mərkəzi idi. 1947-ci ildə İsrail dövlətinin yaranması ilə əlaqədar olaraq Yerusəlim BMT-nin idarə etdiyi xüsusi zonaya daxil olundu, lakin 1948-1949-cu illərdəki İsrail-ərəb müharibəsi nəticəsində şəhərin qərb hissəsi İsrail tərəfindən zəbt edildi, şərq hissəsi isə (köhnə şəhər, şimal və cənuba tərəf olan rayonlar) İordaniya tərəfə keçdi. 1967-ci ildə şəhərin şərq hissəsi Fələstinin bütün ərəb hissəsi ilə birlikdə ərəbləri tədricən sıxışdırıb çıxarmaq siyasəti ilə yenidən İsrail tərəfindən zəbt edildi.

**Ədəbiyyat:** İslam, 37; Fadail al-Bayt al-Muqaddas d`Abu Bakr al-Wasiti. Ed. J.Hassan. Yerusalem, 1979; Медников. Палестина, 1,502-613, 2/1, 267-270, 2/2, 734-749, 792-804; Raşad al-İmam. Madina al-Quds fi asr al-vasit. Tunis, 1976; K.A.C.Creswell. A short ac-count of early muslim architecture. Penguin books, 1958, 17-40; S.D.Goitein, O. Grabar. Al-Kuds. – EI, NE, 4, 321-345.

**Əl-Bədə («zühur», «meydanə gəlmə»)** – yeni şəraitin meydana gəlməsi ilə yaranan ilahi rəy, qərarın dəyişməsini nəzərdə tutan şiə əhkamı istilahı. İlahi qərarın dəyişməsi mümkünlüyü haqda ideyanın hazırlanmasını qeysanilərin mənəvi rəhbəri əl-Muxtar b. Əbi Übeydin adı ilə bağlayırdılar. O, yaranan şəraiti bildiyini iddia edərək, onun dedikləri həyata keçməyəndə ilahi qərarın dəyişməsinə istinad edirdi. Əş-Şəhrastaniyə görə əl-Muxtar bədənin üç növünü fərqləndirir: 1) Allahın bildiyinin əksinə olanda onun bildiyində dəyişmə; 2) Onun arzu edib qərar verdiyinin əksinə olaraq olanı düzgün hesab etdikdə onun istədiklərində dəyişiklik; 3) əvvəl istədiyinin əksinə olaraq əmrlər verəndə onun (Allahın) əmr vermələrində dəyişiklik. Əl-B. doktrinası şiə islamında dəqiq yer almadı. «Qatı» şiələr, birinci növbədə qeysanilər ilahi iradəsinin dəyişməsini təbliğ edirdilər. İmamət

vəsiyyəti haqqında ilahi qərarının dəyişməsi haqqındakı fikri Cəfər əs-Sadiqin adına yazırdılar. İmami ilahiyyatçısı Hişam b. əl-Hakəm (vəf. 814-cü il) ilahi idrakın dəyişməsini qəbul edərək təsdiq edirdi ki, obyekt mövcud olmayınca o mövcud deyil. Müasir imami ilahiyyatçıları əslində ilahi idrakın dəyişməsini rədd edərək ilahi qərarın dəyişməsini mümkün sayırlar. Əl-B. doktrinasını bəzi ilahi sərəncamlarının «ləğvi» (ən-nəsx) haqqında sünni təliminə qarşı qoyaraq, şiələr Qurana (13:39 və s.) və hədislərə söykənərək onu əsaslandırırdılar. İlahi rəyinin dəyişməsi mümkünlüyü haqqında təsəvvür Allahın «ən yaxşı», «optimal» qərarı (əl-aslah) haqqında mötəzili təlimində də vardır. Əl-B. doktrinası təkcə sünnilər deyil, həm də zeydilər və xüsusilə də butrilər tərəfindən tənqid hədəfi oldu. Əl-B. doktrinası şiə imamlarına peyğəmbərin gələcəyi görmək bacarığı biliklərinə iddiaçı olmağa, həyata keçməyən qabaqcadan görmənin məsuliyyətini öz üzərindən atmağa və ilahi rəyinin dəyişməsinə əsaslanaraq istədiyi vaxt öz rəyini və qərarını dəyişməyə imkan verirdi.

**Ədəbiyyat:** İslam, 34; ан-Наубахти. Шиитские секты, 159; əl-Bağdadi. Əl-Fərq, 50-52; əl-Müfid. Avail, 53-54; yenə o. Şərh, 24-26; аш-Шахрастани. Книга о религиях, 132-133; Goldziher – [A.S.Tritton]. Bada` – EI, NE, 1, 873.

**Əl-Bədəvi, Əbu Fityən** (və ya Əbu Abbas) Əhməd Sidi əş-Şərif (1199-1276) – hörməti bizim günlərimizədək Misirdə geniş yayılmış ərəb sufi, bədəviyyə (və ya əhmədiyyə) qardaşlığının banisi Fes şəhərində doğulub, mənşəyini Əli b. Əbu Talibin mənşəyinə çatdıran və VIII əsrin axırında Məğribə köçən ailədəndir. 1206-cı ildə onun ailəsi Məkkəyə yola düşür və 1210-cu ildə ora gedib çıxır. Burada əl-B. şafei hüququnu və Quranın qiraətini öyrənir. Atasının ölümündən sonra əl-B. 1230-cu ildə özünü tərkidünyalıq təcrübəsinə həsr etdi: camaatdan uzaqlaşıb susmağı əhd etdi və əl hərəkətləri ilə başa salmağa başladı. 1236-cı ildə əl-B. öz görüşlərinə görə İraqa gedir, orada Əbdülqadir əl-Cilani (Geylani) və Əhməd ər-Rifainin qəbirlərini ziyarət etdikdən sonra Batahiyyədə rifaiyyə qardaşlığına qəbul olundu. 1237-ci ildə əl-B. Misirə köçür, qardaşlığın yerli rəhbəri vəzifəsini tutub Tantada yerləşir. O, orada özünün mistik tərkidünyalıq həyat tərzinə görə geniş şöhrət tapdı (40 gün yeməksiz, susuz oruc tutur, öz evinin damından diqqətlə günəşi izləyir – «günün tutulmağına gediş», tam sükutun dövrlərlə günəşin tutulduğu vaxt qışqırıqla əvəz olunması və s.) və xüsusi mistik (sufi) yoluna görə mənəvi iltifat (mərhəmət) aldı. Tantada vəfat edib.

Əl-B. mistik yolun nəzəriyyəçisi deyildi. O, praktik idi, onun məşğul olduğu təmrinlər isə rifaiyyə qardaşlığının təcrübəsini xatırladır. Kütlə onu müqəddəs möcüzəçi kimi qəbul edib, onu əzab çəkən kimi təqdim edirdilər.

Onların arasında onun «möcüzəli» gücü haqqında külli miqdarda rəvayətlər yaranmışdı. Əl-B.-nin ölümündən sonra onun xələfi və varisi Saleh Əbdül-Al (vəf. 1333-cü il) onun qəbri üzərində müqəddəs möcüzə yaradanın ibadət mərkəzinə çevrilən məscid ucaltdı. Öz kökləri ilə xəlqi olan bu ibadət yeri tezliklə Misirin çoxlu qıbti-xristian adət və inamlarını özündə cəmlədi və o qədər məşhurlaşdı ki, çoxlu Misir müsəlmanları həccə gedəndə Tantada onun qəbrini ziyarət edirdilər. Buradan da onun Bab ən-nəbi («peyğəmbərin darvazası») ləqəbi irəli gəlir. Sadə xalq arasında o, əs-Seyyid («ağa»), qardaşlıq üzvləri arasında isə o, qütb kimi məşhurdur. Əl-Bədəvi ləqəbini o, Məğribin bədəvilərinin örtdükləri baş örtüyündən örtdüyü üçün onun belə adlandırıldığını hesab edirlər. Əl-B. Misirdə peşəkar müğənni qadınlar və rəqqasələr birliyinin müqəddəs himayəçisi hesab edilirdi və o, itirdiklərini axtaranlara, o cümlədən, itirdikləri uşaqlarını axtaranlara kömək edirdi.

Adətə görə əl-B. üç əsərin müəllifidir: 1) Təşəbbüs (İnisiasiya) vaxtı neofitə etibar edən qardaşlığın (hizb) gizli duası, 2) (Fəth ər-Rəhman) Əbdürrəhman b. Mustafa əl-Audərusinin şərhi ilə təmin edilmiş duaların (salavat) məcmusu; 3) Ümumi xarakterli təlim və zəmanətləri özündə cəm edən vəsiyyətlər.

Əl-B. ayini və xüsusilə də Tantaya ziyarətə getmək daim üləma və fuqəhaların məzəmmətinə səbəb olurdu. Onların inadlı tələbləri məmlük sultanı əz-Zahir Cakamakı 1488-ci ildə əl-B.-nin qəbrini ziyarət etməyin qadağan olunması haqqında fərman verməyə vadar etdi. Fərman həyata keçmədi, belə ki, ayin xalq arasında dərin kök buraxmışdı. Doğrudur ki, osmanlı hökmranlığı vaxtı mövləviyyə, bektaşiyyə və nəqşbəndiyyə kimi güclü sufi qardaşlıqlarının tələbinə görə əl-B. ayininin dəbdəbəli yerinə yetirilməsi əhəmiyyətli dərəcədə azaldıldı.

**Ədəbiyyat:** İslam, 35; əş-Şə′rani. Təbəqat, 1, 155-159; Lane. Manners. Index; Littmann. Ahmad il-Bedawi, Index; Trimingham. Orders, Index; K.Vollers – E.Littmann. Ahmad al-Badawi – EI, NE, 1, 280-281.

**Əl-Bədəviyyə (və ya əl-əhmədiyyə).** (1276-cı ildə Misirdə vəf. etmiş) Əhməd əl-Bədəvi tərəfindən əsası qoyulan sufi qardaşlığı (təriqə).

Adətə görə əl-B. 12 ana qardaşlığa daxil olur; o öz silsiləsini Əli b. Əbi Talibə bağlayır. Əl-B.-nin sufi yol təcrübəsi qədiriyyə və rifaiyyə qardaşlıqlarının təcrübəsinə yaxın idi. Əl-B.-nin təşkilati əsasları dəqiq təyin edilməmişdi. Yerli və regional zaviyələrin və cəmiyyətlərin rəhbərləri qardaşlığın başçısına yalnız adda tabe idi və onlar çox az hallarda onlara investitura üçün müraciət edirdilər. Qardaşlığın rəhbərinin iqamətgahı əsas müqəddəs yerdə və ziyarət yerində – Tanta şəhərində yerləşirdi. Qardaşlığın rəhbəri mənsəbi 1333-cü ildə onun banisinin varisi Saleh

Abullahın ölümündən sonra irsi oldu. XIV-XV əsrlərdə bəzi məmlük sultanlarının Misir hakimləri əl-B. ilə əlaqə saxlayırdılar. Məsələn, əl-Əşrəf Qait-bəy (1467-1496) qardaşlığın ən yaxın tərəfdarı sayılırdı və 1466-cı ildə sultanın arvadı Xoşqədəmin dəfni zamanı onu əl-B.-nin qırmızı plaşına bürüdülər. Əl-B.-nin Tanta şəhərində hər il keçirilən bayramlarında çoxlu məmlük əmirləri və döyüşçüləri fəal iştirak edirdilər. Uzun müddət ərzində (XX əsrin 50-ci illərinədək) əl-B. Misirin xalq kütlələri arasında öz təsirini saxlayırdı və onların sayı olduqca çox idi. Qardaşlıq 15-dən çox şaxənin başlanğıcına təkan vermişdir, onlarından bir neçəsi müstəqil təriqə oldu (məsələn, dasukiyyə-burhaniyyə). Bu şaxələr təkcə Misirdə deyil, Liviya, Suriya, Tunis, Hicaz, Fələstində də fəaliyyət göstərirdi. Yaffa və Qəzzənin şəhərlərində hələ XX əsrin 40-cı illərində əl-B. ilə bağlı icma və qrupların aktiv fəaliyyəti qeyd olunurdu. Qardaşlıq ayini daha çox islamaqədərki və xristianlığaqədərki adətləri və Misir əhalisinin inamlarını özündə cəm edən xalq ayinini xatırladır. Görünür, bununla əlaqədar olaraq Əbdülvahhab əş-Şə'rani (1493-1565) əl-B.-ni şəriətdən geri çəkilməkdə və ondan uzaqlaşmaqda ittiham etmişdi.

Əl-B.-nin geyiminin fərqləndirici rəngi – qırmızıdır; onların plaşları (xirqa), 12 tikədən tikilmiş konusvari papaqları və bayraqları qırmızı rəngdə idi. Ümumi dini ayin (hadra) adətən üçüncü gün Tanta şəhərində mərkəzi iqamətgahda – xüsusi yerdə (təhdir - xanədə), Qahirədə isə əl-Hüseyn məscidində keçirilirdi. Hadra ritualı xüsusi müğənninin oxumağı və təbil çalınması müşaiyəti ilə dairəvi hərəkət edərək zikr edilmə idi. Dairə üzrə hərəkət edərək dini ayinin iştirakçıları arabir qurşaqdan dərin baş əyərək əllərini qabağa uzadırdılar; əl-B.-nin üzvləri rastlaşarkən bir-birinin əllərini sıxırdılar.

Qardaşlıq ildə üç bayram qeyd edirdi. Tarixlər qıbti günəş təqvimi ilə hesablanırdı. Birinci bayramın tarixi «ilahi xaçaçəkmə» gününə təsadüf edirdi, iki başqa bayramın tarixləri isə Nildə suyun qalxması tarixi ilə (məhsuldarlıq ayini) əlaqədardır. Bayram vaxtlarında nizam-intizama əl-B.-nin üzvlərindən ibarət – auləd (övlad) Nuh («Nuh övladları») xüsusi keşikçi dəstəsi nəzarət edirdi; onların bellərində taxta qılınc, əllərində kəndir qamçı, boyunlarında sinələrinə qədər düşən rəngli muncuqlar, baş örtüyünün zirvəsində rəngli kəndirdən qotaz olurdu.

**Ədəbiyyat:** İslam, 36; əş-Şərani. Təbəqat, 1, 155-159; Lane. Maners, Index; Trimingham. Orders, Index; Schimmel. Dimensions, 249; de Yong. Sufi Orders; K.Vollers. – E.Littmann. Ahmad al-Badawi. – EI, NE, 1, 280-281.

**Bədr (Bədrdə döyüş)** – Məhəmmədin (s) Məkkə kafirləri ilə Bədr quyuları yanında (Mədinədən 150 km cənub qərbə), onun Suriyadan qayıdan Məkkə karvanını saxlamaq istədiyi yerdə ilk böyük savaşı (15 və

ya 17 mart 624-cü il). B. Peyğəmbər vaxtı karvan yolunda heyvanların sulandığı kiçik bir qəsəbə idi. Burada hər il böyük bazar təşkil edilirdi. Bura müsəlmanlarla Məkkə müşrikləri, qeyri-müsəlmanlar arasında baş verən və müsəlmanların parlaq qələbəsilə nəticələnən döyüşə görə məşhurlaşdı. Məhəmməd (s) B.-ə yaxınlaşanda karvan artıq keçib getmişdi, o, karvana köməyə gedən dəstə ilə rastlaşdı, onun 950 (və ya 750), o cümlədən, (200 atlı) məkkəlilərə qarşı təxminən 300-ə qədər tərəfdarı var idi. Məhəmməd (s) quyuları tutdu və bu da döyüşün nəticəsini həll etdi, döyüşdə 6 mücahid, 9 tərəfdar qətlə yetirildi, məkkəlilər isə öz başçıları Əbu Cəhli itirdilər, 50-dən çox ölənləri, bir o qədər də əsirləri oldu. Qeyri-bərabər qüvvələr şəraitində gözlənilməz qələbə Məhəmmədin (s) siyasi və dini nüfuzunu qaldırdı, Mədinə və bütün Ərəbistan yarımadasında islamın düşmənlərinə qarşı onun fəal hərəkətlərinin başlanğıcını qoydu.

Döyüşdə çoxlu qənimət əldə edildi, Məhəmməd (s) onu özü bildiyi kimi bölüşdürdü. B. döyüşündə əldə edilən qənimətin bölgüsü gələcəyin presedenti oldu: ola bilsin ki, məhz onda icmanın başçısı kimi Məhəmmədin (s) ixtiyarına adətən rəhbərə ayrılan dörddə bir hissə deyil, xums (beşdə bir) ayrılmağa başladı. Quranın 8-ci surəsi özünün mühüm hissəsi ilə B. döyüşünə həsr olunmuşdur; xüsusilə də əldə edilmiş qələbə Allahın həqiqətən Məhəmməd peyğəmbər (s) və müsəlmanların tərəfində olduğuna, onlara Musa peyğəmbərin Qırmızı dənizi keçərək onun möcüzəli qurtuluşuna bənzəyən möcüzəli qələbə verməyini göstərir. B. döyüşünün iştirakçıları əshabələrin yüksək kateqoriyasına aid edildilər.

**Ədəbiyyat:** İslam, 36; W.M.Watt. Badr. – EI, NE, 1, 867-868; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 48-49.

**Bəhailər (əl-Bəhaiyyə) -** İran babilərindən İraqa köçmüş qrup tərəfindən orada yaradılan və Yaxın Şərq, Avropa, Rusiya və ABŞ-da yayılmış təlimin ardıcılları. Bəhai icmasının və dininin əsasını qoyan Bəhaullah ləqəbli («parıltı», «Allahın nuru», «Allahın əzəməti») (12 noyabr 1817-ci ildə Mazandaranda doğulub, 29 may 1892-ci ildə Akkada vəfat etmiş) Mirzə Hüseyn-Əli Nuri olmuşdur. 1858-ci ildə Bağdadda olarkən o, öz əqidəsini və Bab təliminə münasibətini bildirdiyi «Kitabi İqan»ı və 1873-cü ildə Fələstində bəhailiyin əsas təyinatını ehtiva edən «Kitab əl-əqdəs»i yazdı. B. təliminə mərasimləri, ayinlərə xidmət institutunu, islamın əsas əhkamlarını qəbul etməmək xarakterikdir. Bu təlimə əsasən (babilikdən fərqli olaraq) hər yeni gələn peyğəmbər keçmişləri ləğv etmir, insanlarla ali ruh arasındakı münasibətlərin həyata keçirilməsində onları təkmilləşdirir. Babilərin şaha sui-qəsdindən sonra o, 1852-ci ildə İraqa qaçıb, orada özünü ilahi vəhy almış Mehdi və Allah oğlu iddiası ilə Babın xələfi elan etmişdi. Sonralar Ədirnə (Türkiyə) və Akkada

(Fələstin) yaşayarkən, nəzəriyyəsini əks etdirən «Kitabi əqdəs» («Ən müqəddəs kitab») əsərini yazmışdı. Bəhaullah təkid edirdi ki, bu kitab Quran və Babın «Bəyanını» əvəz edəcək. Bəhailiyin qardaşlıq haqqındakı nəzəriyyəsi ictimai ziddiyyətləri tanımır, sinfi mübarizənin və inqilabi metodların hamısını qətiyyətlə pisləyir, istismara isə yol verirdi.

İcmanın ilk mərhələsində onun başçıları beynəlxalq ticarət ilə bağlı idilər və öz təlimlərinin müddəalarını hazırlayarkən öz ölkələrinin komprador burjuaziyasının və beynəlxalq kapitalın marağını gözləməyə can atırdılar. B. formal olaraq babiliyin davamçısı idilər, lakin işdə onlar onun bütün demokratik və mütərəqqi elementlərini rədd edirdilər. Cəmiyyətin tədrici inkişafı, sülhü təbliğ etməyin və hakimiyyətə tabe olmağın zəruriliyi və xalqların milli xüsusiyyəti, mədəniyyəti və dilini qəbul etmədiklərindən danışaraq onları sinfi mübarizə və inqilabi hərəkatdan imtina etməyi təbliğ edir, xüsusi mülkiyyəti saxlamaq, dövlət sərhədlərini ləğv etmək, vahid dünya hökuməti yaratmaq, ümumi dil və iqtisadiyyat uğrunda çıxış edirdilər. (Bax: əl-babiyyə).

Babi-bəhai dini-fəlsəfi konsepsiyası şiə islamı, şiə-imami doktrinası üzərində yaranmış, İranda özünə münbit yer tapmışdır. İranda onlar mərkəzi rayonlarda müvəffəqiyyət qazanırdılar, lakin onlar xüsusilə də bəhai icmalarının qırğınını təşkil edən şiə rəhbərləri tərəfindən daim təqib olunurdular. Belə ki, 1979-cu il islam inqilabından sonra onlara qarşı repressiya çox gücləndi, onlarla icma rəhbəri edam olundu.

Bəhaullah mənəvi hakimiyyəti böyük oğlu Əbdülbəha ləqəbli Abbas əfəndiyə (1844-1921) vəsiyyət etdi. Onların nəsli hazırki vaxta qədər icmaya başçılıq edirlər.

Çar Rusiyası B.-i himayə edirdi, Aşqabadda onlar üçün ibadətgah tikdirmişdi. Bəhaizmin geniş təblkiğatına görə İngiltərə hökuməti ona (Abbas əfəndiyə) «ser» titulunu vermişdi. Indi B.-in başçısı Əbdülbəhanın oğlu Şövqi Rəbbanidir, iqamətgahı isə İsraildədir.

**Ədəbiyyat:** İslam, 39; Bartold. Əsər, 6, 387-399; Иванов. Очерк, 171; Кузнецова. Иран, 227-231; Массе. İslam, 197-198; Shoghi Effendi. The Dispensation of Baha`Allah.L., 1949; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 49; Лейла Меликова. Истоки и основные мировоззренческие аспекты бахаизма. Bakı, 2011, 22.

**Bəhirə** – Məhəmmədin (s) həyatı haqqında müsəlman rəvayətlərində obraz, kiçik Məhəmmədə gələcəyin peyğəmbərini tanıyan Suriya şəhəri Bostradan olan xristian monarx (rahib). Rəvayətə görə Məkkə karvanları Dəməşqə və geriyə gedərkən çox vaxt B.-nin evinin yanında istirahətə (dincəlməyə) dayanardılar. Bir dəfə Əbu Talib öz qardaşı oğlu Məhəmmədi özü ilə səfərə apardı. Buludların, Günəşin və ağacların budaqlarının

hərəkəti ilə Bəhirə təyin etdi ki, gələnlərin içərisində gələcək peyğəmbər vardır və onu Məhəmməddə gördü. O, Əbu Talibə oğlanı qorumağı, onunla yəhudilərin onu öldürə biləcəyi Dəməşqə getməməyi məsləhət gördü. Məhəmmədi tanımaq üçün B. xristianların təhrif olunmayan müqəddəs mətnlərində olan onun haqqında əvvəlcədən deyilmiş sözlərdən istifadə etmişdi.

B. haqqında rəvayət görünür, Məhəmmədin (uşaqlıqda Əbu Talib ilə və sonra özünün təkbaşına) karvanlarla Suriyaya səfərlərini və Suriya xristianları ilə onun dini təsəvvürlərinin yaranmasına müəyyən qədər təsir edən görüşlərini əks etdirir. Buraya erkən İslamın mühüm rəyi – Məhəmməd haqqında qabaqcadan deyilənlər xristian və yəhudilərin müqəddəs kitablarında olmuş, lakin sonradan oradan çıxarılmışdır ideyası daxil edilmişdir. B. surəti xristian mübahisəli ədəbiyyatında da istifadə olunmuşdur (məsələn «Bəhirənin Anokamunsisi»ndə).

**Ədəbiyyat:** İslam, 39; İbn Sa`d. Təbəqat, 1/1, , 76, 82-83; İbn Hişəm Sirə. 1, 115-120; ət-Təbəri. Tarix, 1, 1123-1125; B. Carra de Vaux. La legende de Bahira. – ROC, 1897, 2; A.Abel. Bahira. – EI, NE, 1, 950-951.

**Bəqa** - əbədi, sonzus surətdə varlıq, var, mövcud olmaq. Allahın varlığının başlanğıcı olmadığı kimi sonu da yoxdur. Çünki başlanğıcı olmayan bir varlığın sonunun da olmaması aksiomadir (vacib olur). Müsəlman baş daşlarının çoxunun mətnlərinin əvvəli «huva əl-baqi» – «O, əbədidir» cümləsi ilə başlayır ki, O sözü Allaha aiddir.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 26.

**Bərəkət (əl-Bərəkə) - xeyir-dua, artım vermə.** Quranda BRK kökündən düzəltmə bir neçə söz var (bax: 7:96/94; 11:48/50; 73/76). B. istilahının özü ancaq cəm şəklində işlənir (istifadə edilir). –B.-nin mənbəyi Qurana görə peyğəmbərləri və onlara yaxın olanları (11:48/50. 76/73) onunla müsdələnən (hədiyyələyən) Allahdadır (İsa - 19:31/32, Musa – 27:8, İbrahim, İshaq – 37:113). Peyğəmbərlərə və onların «xalqlarına» bağışlanan məhsuldar və zəngin torpaqlar «uğurludur» (21:71, 23:29/30 və b.). Allah özü (23:14, 25:1 və b.) və Onunla bağlı olan hər şey (Allahın Musa ilə danışdığı meşə – 28:30; Yerusəlim həramı və «onun ətrafında» olan hər şey, - 17:1; Məkkə ibadətgahı – 3:96/90; «uğurlu» zeytun ağacı 24:35; «Allahdan salam – 24:61) «uğurludur». Allah kəşfi – Quran «mübarəkdir» (6:115/156 və b.) və leylət əl-qədr-birinci kəşf gecəsi (44:3/2) «uğurludur». Quranda oxşar təqdimatlar rəhmə və səlam istilahları ilə ifadə edilir.

B. haqqında Quran təqdimatları başqa mənalandırmağa məruz qalmış və müsəlman ilahiyyatı tərəfindən xristianlıq və yəhudilik doqmatik sistemləri

ilə mübahisədə inkişaf etdirilmişdir. Nəticədə islamda ilahi vəhyi alan peyğəmbərə və ilahi ilhamı gələn «müqəddəslərə» Allah B.-nin emanasiyası (şüalanması) mümkünlüyü haqqında təqdimat yarandı. Şiə ilahiyyatında B. birinci növbədə peyğəmbər nəslinə verilir (şəriflər, seyyidlər). B. daşıyıcıları kimi Əli b. Əbu Talibin və onun nəslinin rolu xüsusi qeyd olunur. Müqəddəslər və ya peyğəmbərlər vasitəsilə B. adi insanlara da aid edilə bilər. Belə B.-in mənbəyi «müqəddəslər» özləri həyatda olarkən də ola bilər, onların məzarları, onlara aid olan əşyalar və s. ola bilər. Hesab edirlər ki, Allahın B.-sini həcc zamanı «qara daşa» toxunmaqla və ya onu öpməklə, habelə əl-Kəbəni və məhmələni öpməklə almaq olar.

B. haqqında təqdimatlar müsəlman xalq inancının mühüm hissəsini təşkil edir və onlar pis gözdən saxlama, müalicə sehri və b. müxtəlif növ hərəkətlərlə bağlıdır. B. arzulamaq-ənənəvi müsəlman salamlaşmasının əsas hissəsidir.

**Ədəbiyyat:** İslam, 38; Jeffery. Vocabulary, 75; J.Chelhod. La baraka chez les Arabes. – RHR. 1955, 148/1, 66-68; G.S.Colin. Baraka. – EI, NE, 1, 1032.

**Bərsis** – müsəlman rəvayətlərində obraz, adı Quranda çəkilən adam (59:16-17; Ola bilsin aşağıda deyilənlər B.-ə aiddir. Lakin lüğətdə göstərilən kimi, onun adı Quranda yoxdur). «Budur o (Şeytan) adama dedi: «Dinsiz ol!» O dinsiz olduqda Şeytan dedi: «Mən səni inkar edirəm. Mən aləmlərin rəbbi Allahdan qorxuram. «Onların hər ikisinin axırı o oldu ki, onlar əbədi odda yanacaqlar. Dinsizlərin aqibəti budur!». Bu ayələr insanı yoldan çıxara bilən, lakin onu Allahın qəzəbindən qoruya bilməyən İblis-Şeytan surətinin dəqiqləşdirilməsi üçün çox mühümdür. İblis Allaha rəqib deyil, lakin zəif düşməndir. Məhkəmədən sonra o özünün yoldan çıxartdıqları adamlar kimi cəzalandırılacaqdır.

Qurandansonrakı rəvayətlər Bərsis adlı zahid haqqında danışırlar, o, qardaşların ona tapşırdıqları onların xəstə bacısına baxmağa razı olmuşdu. İblisin təhrikinə uyub B. ona təcavüz edir və qızı pozur, sonra da öz cinayətinin üstünü örtmək üçün onu öldürür, qardaşlar gələndə B. onlara deyir ki, qız xəstəlikdən öldü. İblis isə qardaşlara onların bacısının ölümünün əsil səbəbini açır, onlar zahidi tutub öldürmək istəyirlər. Onda İblis onu ölümdən qurtarmaq üçün Allahdan üz döndərməyi təklif edir. Bu hekayə ibrətverici (ibrətamiz) ədəbiyyatda çox geniş surətdə istifadə olunmuşdur. İlahiyyatçılar onu İblisin fəndlərinin misalı kimi istifadə edirlər: insanın gizli istəklərindən istifadə edərək, Şeytan onu guya Xeyir iş görməyə təhrik edir (bu halda xəstə qıza qəyyumluq edir), əslində isə onu (insanı) fəlakətə (ölümə) və Allahdan dönməyə sürükləyir.

**Ədəbiyyat:** İslam, 38; ət-Təbəri. Təfsir, 28, 32, 34; əl-Qəzali. İhya, 3, 39; əl-Beydavi. Təfsir, 2, 325; A.Abel. Barsisa le moine qui defia le Diable. Bruxelles, 1959: D.B.Macdonald. Barsisa. – EI, 1, 694-696; A.Abel. Barsisa. – EI, TU, 1,1086-1087.

**Bid'ət** (cəmi bida- bədə'a-dən – «yenilik etmək», «ilk dəfə etmək») – yenilik, yenilik gətirmə. B. haqqında görüş əməvilərə əks müxalif mühitində, hər şeydən əvvəl şiələr və xaricilərdə yaranmışdı. Onlar xəlifə Osmanı onların nöqteyi-nəzərincə Məhəmməd peyğəmbərin sözləri və əməllərinə zidd olan müxtəlif növ «yenilik gətirmə» - tədbirlərində günahlandırırdılar. Sonralar bu məfhum əhkam sahəsinə keçirildi, mübahisəli və doksoqrafik ədəbiyyatda artıq «nöqsanlı görüşlər», «səhv» mənasında geniş istifadə edildi. B. məfhumunun dəqiq hüdudları yox idi: eyni əməl və ya düşüncəni müxtəlif əhkam məktəblərinin nümayəndələri gah «icazə verilməyən yenilik», gah «yanılma», gah da Quran və sünnə nüfuzu ilə işıqlandırılmış «möminlik» kimi xarakterizə edirdilər. Belə ki, Məbəd əl-Cühəni (699-670 və ya 703-04-cü ildə edam edilib), Qaylan əd-Diməşqi (təq. 742-ci ildə edam edilib), Cəhm b. Səfvan (745-ci ildə edam edilib) və başqalarının insan iradəsinin azadlığı haqqında görüşləri bəzi ilahiyyatçılar tərəfindən qəbul edilir, başqaları tərəfindən «icazə verilməyən yenilik» kimi rədd edilirdi. Antropomorfizmin tərəfdarları və əleyhədarları Qurana əsaslanaraq bir-birlərini «yanlışlıqda» günahlandırırdılar. Bu daha çox dərəcədə müsəlmanların esxatoloji (ruhun keçməsi, Allahın seyr edilməsi, Cənnət və Cəhənnəm və s.) görüşlərinə aid idi.

**Ədəbiyyat:** İslam, 41; Wensinck. Concordance, 1, 152; MSt, 2, 22 və sonrakılar; Goldziher. Vorlesungen, 71-73.

**Bilal ibn Rəbah** - islamın ilk müəzzini, həbəş əsillidir, islamı ilk qəbul edənlərdən biridir. Buna görə Peyğəmbərin (s) düşmənləri tərəfindən işgəncələrə məruz qalmışdı. Əbubəkr onu köləlikdən azad etdikdən sonra o, Peyğəmbərlə Mədinəyə hicrət etdi. Yaxşı səsi olduğuna görə Peyğəmbər (s) onu özünə müəzzin təyin etdi.

**Ədəbiyyat:** Z.M.Bünaydov. Dinlər, təriqətlər, məzhəblər, 52.

**Bilqeyis** – müsəlman rəvayətlərində obraz, Bibliya Sav çariçasına uyğun gələn, Quranda adı çəkilən Səba çariçasının adı. Süleymanın böyüklüyü haqqındakı nağıllarla əlaqədar olaraq Quranda belə nəql edilir ki, ona qulluq edən şanapipik çara onların Səba ölkəsinə getdiklərini danışır ki, orada insanları «ona hər şey verilən» və öz xalqı ilə birlikdə Şeytan tərəfindən aldadılan qadın idarə edir və buna görə də Allaha deyil, Günəşə ibadət edir. Süleyman şanapipiklə çariçaya məktub göndərib, orada ona əmr

edir ki, ona tabe olsun. Öz yaxınları ilə məsləhətləşdikdən sonra o, Süleymana qiymətli hədiyyələr göndərdi, lakin o, çariçanın nümayəndələri qarşısında hədiyyələr haqqında təhqiramiz sözlər dedi və elan etdi ki, Səbaya qoşunla hücum edəcək. Sonra kontekstə görə, çariça özü Süleymanın hüzuruna gəlir. Süleymana kömək edən sehrbazlar və cinlər bir anda çariçanın taxtını gətirdilər. Bilqeysi saraya gətirib, onu döşəməsi billurdan olan və onun «su burulğanı hesab etdiyi zala» saldılar, o, paltarının balağını qaldırdı, baldırlarını açdı (Süleyman onun keçiayaqlı olduğunu eşitmişdi). Süleymanın Allahın hamısına kömək etdiyi əzəmət və kələyinin bu sübutundan sonra çariça səhv etdiyini etiraf etdi və Allaha inanıb iman gətirdi (Q. 27:11-45).

Müsəlman rəvayətləri taxtın gətirilməsini ətraflı şərh edirlər, yazırlar ki, çariçanın ayaqlarının türklə örtüldüyünü və dırnaqçıqlarla qurtardığını yoxlamaq üçün büllur döşəmənin altında göl düzəldilmişdi. Süleyman onun ayaqlarının tüklərini təmizləyən xüsusi məlhəm ixtira etməyi əmr etdi. Çariçanı Bilqeys çağırırdılar, bəzən isə başqa ad - açıq-aydın qədim Yəmən ilahəsinin adı - Almakahadan olan Yalmaka adlandırırdılar. Süleyman Bilqeyslə evləndi, başqa məlumata görə onu Həmdan qəbiləsindən olan Yəmən çarına ərə verdi.

Müsəlman rəvayəti əslində çariçanın məşhur nağılına gedib çıxır (1-я Царей [3-я Царств], 10; 2-я Летописей [2-я Паралипоменон], 9), lakin ondan çox fərqlənir və bir sıra əlavə surətləri vardır. O, Həbəş çar eposu «Kıbre Neqes»ə daxil olan əfsanənin versiyası ilə çox oxşardır: orada çariçanı Makeda çağırırdılar və onun Süleymanla kəbinindən Həbəş çarlarının sülaləsi meydana gəlir. Ərəbistan dövləti Səbanın əfsanəvi tarixi haqqında söhbət edildiyinə baxmayaraq nağılda Yəmən reallığı demək olar ki, yoxdur. Orta əsr Yəmənində B. adı çox geniş istifadə olunurdu, qədim Məğrib xarabalıqlarını onun adı ilə bağlayırdılar. XII əsr Süleyhi sülaləsinin çariçası əs-Seyyidəni tarixçilər Kiçik Bilqeys adlandırırdılar.

**Ədəbiyyat:** İslam, 42; ət-Təbəri. Tarix, 1, 576-586; yenə o. Təfsir, 19, 92-107; əs-Sələbi. Qısas, 174-180; əl-Beydavi. Təfsir, 2, 66-70; Horovitz. Untersuchungen, 102; Speer. Erzählungen, 390-398; E. Ullendorf. Ethiopia and the Bible. L., 1968; Beltz. Sehnsucht, 171-173; W.M.Watt. The Queen of Shefa in Islamic tradition. – Solomon and Sheba. L., 1974-85-103; C.Schedl. Sulaiman and die Königin von Saba. – Al-Hudhud. Teıtchrift Maria Höfuer and die 1981, 305-323; B.Carra de Maux. Bilkis. – EI, 1, 750; E.Ullendorf. Bilkis. – EI, TE, 1,1219-1220; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 50.

**Əl-Bistami, Əbu Yəzid (Bəyazid) Tayfur b.İsa** (vəf. 875-ci il), məşhur fars sufisi, ölümündən sonra yaranan sufi tayfur cəhətinin

(bəndinin) təşkilatçısı, müsəlman sufiliyinin əsas cərəyanlarından birinin banisi, (Şimali-qərbi) İranın Bistam şəhərindən olan farsdır, onun babası islamı qəbul edən kebr (qədim yəhudi) olub, atası oraların tanınmış adamlarından idi. Əl-B.-nin iki qardaşı Adəm və Əli də zahid idilər. Əl-B. bütün ömrünü Bistamda yaşayıb, orada da vəfat etmişdir. Əl-B. ancaq bir-neçə dəfə vəcdə gələrək çıxış etdiyinə (şətxiyyat) görə imansızlıqda günahlandırıldıqda öz doğma şəhərini tərk etmişdir. Sufilikdə əl-B.-nin müəllimi sufi Əbu Əli əs-Sindi sayılır. O, ərəb dilini bilmirdi və əl-B. ona dua oxumaq üçün lazım olan ayələri öyrətməyə başladı, o isə əl-B. qarşısında sufilik aləmini açdı. Əbu Əli əs-Sindinin nisbəsinə görə onun Hindistandan olduğunu qərara alan bir-neçə islam alimi belə nəticəyə gəldilər ki, onların əl-B.-nin ideyalarında gördükləri monizm hind sufi fəlsəfə sistemi olan vedantdan götürülmüşdür. Lakin əl-B.-yə belə bir təsirin olduğu haqda belə bir etibarlı sənəd yoxdur, həm də onun müəllimi Bistam əyalətində yerləşən Sind kəndindəndir. Əl-B. vəfatından sonra sufizmin simvoluna çevrildi, bunu ona verilən ləqəb göstərir: Sultan əl-arifin və əl-Cüneydin təyini: «Əbu Yəzid bizim aramızda mələklər arasında olan Cəbrail kimidir».

Əl-B.-nin təlimi üçün hər şeydən əvvəl vəcdi şadlıq (qalabə), Allaha məhəbbətlə sərxoş olma (sukr) və sevəni nəhayət Allahla qovuşmağa gətirib çıxaran tam ehtiras xarakterikdir. Özünün şəxsi ruhi hallarının təcrübəsinə əsaslanaraq əl-B. belə nəticəyə gəlir ki, Allahın təkliyi haqqında tam düşüncəyə vardıqda şəxsi «Mən»in tam yox olmasının mənəvi hissi meydana gələ bilər: şəxsiyyət itir, Allahda həll olub gedir, bununla o, özünə (şəxsiyyətdə) ilahi atributlar qazanır. O, bu hala fəna (yoxluq, itmə) adını vermişdir, müsəlman sufiliyi üçün belə mühüm olan «sən mənsən, mən sənəm» halını, daha doğrusu, rolların funksional dəyişməsini qısaca və dürüst ifadə etmişdir, şəxsiyyət ilahilikdə əriyib itərək, onun atributlarını qazandıqda ilahiləşir, ilahi isə – şəxsiyyət olur. Bu fikir ənənəçilərin qızğın hücumlarına və onları hululda günahlandırmağa səbəb oldu. Yenə də ilahiyyatçılar tərəfindən süngü ilə qarşılanan, meditasiya vaxtı insan ruhunun me′racı məfhumunun hazırlanmasını da onun adına yazırlar. Əl-B. ayrı-ayrı sufizm məfhumlarını bütünlüklə hazırlayarkən öz doktrinasını – tam sufi-ilahiyyatçı sistemini yaratmışdır. İlahi (lahut) və insani (nəsut), daha doğrusu, mənəvi və maddi başlanğıcı birləşdirməyə çalışaraq o, axır ki, dualizmin öhdəsindən gələ bilmədi. Əl-B. özündən sonra əsər qoymayıb. Onun 500-ə qədər söhbəti gəlib bizə qədər çatmışdır. Onların bir qismi onun ətrafında olan adamlar tərəfindən və onun təliminə qulaq asanlar tərəfindən qeyd edilmişdir. Ancaq onları əsasən, onun qardaşı oğlu və köməkçisi Əbu Musa İsa b. Adəm qeyd etmiş və farsca yazdığı qeydlərini məşhur əl-Cüneydə vermişdir. O, onları ərəb dilinə tərcümə edib, onlara

şərh yazmışdır. Onun çıxışlarının bir neçəsi əs-Sərrac, əl-Qureyşi, əs-Sülərni və əl-Hücvirinin əsərlərində bizə qədər gəlib çatmışdır. Lakin, bu axırıncı iki nəfər qeyd ediblər ki, bəzi sufilər özlərinin şəriətə əks fikirlərini möhkəmlətmək üçün şübhəli çıxışları onun adına yazırlar.

**Ədəbiyyat:** İslam, 42; əs-Sülərni. Təbəqat, 60-67; əl-Hücviri. Kəşf, 132-134, 228-234, 228-234; Əttar. Təzkirə, 1, 134-176; Djami. Nafahat, 62-64; Bədəvi. Şətəhat, 37-148; Бертельс. Суфизм, 32-33, 231-278. Michalson. Enquiry; yenə o. An early arabic version of the Miraj of Abu Yazid al-Bistami.- İslamica, Lpz., 1925, 2, 402-415; A.Arberry. ABistami leqend. – JRAS, 1938, 89-91; Massiqnon. Essai; H.Ritter. Die Ansprüshe des Bayezid Bistami. – Westöstliche Abhandlungen, Festschrift für Rudolf Tschudi ed. F.Meier. Wiesbaden, 1954; R.G.Zaehner. Hina and Muslim Mysticsm. L., 1960; M.Abdur Rabb. The Problem of possible Indian infuence on Abu Yazid al-Bistani. – Journal of Pakistan Historical Socicty, Karachi. 1972, 20/1; H.Ritter. Abu Yazid al-Bistami. – EI, NE, 1, 162-163.

**Bişr b.əl-Mütəmir,** Əbu Səhl əl-Hilali (vəf. 825-ci ildən sonra), ərəb şairi və ilahiyyatçı, Bağdadda mötəzili məktəblərindən birinin başçısı. Mötəzil fəlsəfəsinin əsasları ilə B.b.əl-M. Bəsrədə tanış olmuşdur, orada o, mötəzili vaizi, emissar Vasil b. Ata, Əbu Usman əz-Zəfərani ilə görüşmüşdür. Onun müəllimlərindən biri məşhur alim-sxolast (830-cu ildə vəf. et.) Müəmmər b. Abbad əs-Sülərni olmuşdur. Bağdada qayıtdıqdan sonra B.b.əl-M. şöhrəti hakimiyyəti narahat edən öz məktəbini yaratdı. Düşmənlərinin böhtanları ilə B.b.əl-M. mötəzili təbliğinə düşmənçiliklə yanaşan xəlifə Harun tərəfindən həbs olundu. Həbsdə yazdığı şerlərində B.b.əl-M. onu «qatı rafiilər və gizli murciilərə» olan yaxınlığa görə günahlandırılmasını rədd edib, mötəzili ilahiyyatının təkallahlıq və ilahi ədaləti haqqında təlimin əsas hallarını izah etmişdir.

B.b.əl-M.-in nəsr ilə (cansıxıcı şəkildə) yazılmış əsərlərinin böyük hissəsi mübahisə xarakteri daşıyır. Bu, xaricilərin, cabbarilərin, «yanılmışların», başqa mötəzili məktəblərinin aparıcı ilahiyyatçılarının (Əbu-l-Hüzeylə, ən-Nəzzam, Dirar, əl-Əssam və başqalarının) «Təkzibidir». O, bəzi əsərlərini mötəzili əhkamları, ekzoqeti və imamət nəzəriyyəsinin əsaslarının izahına həsr etmişdir. B.b.əl-M.-in əsərləri qalmamışdır.

Orta əsr müsəlman doksoqrafları qeyd etmişlər ki, B.b.əl-M. başqa mötəzili məktəblərindən bir neçə «nöqsanlı» görüşləri ilə fərqlənmişdir. Nafur filosofların təsiri ilə islamda ilk dəfə o, əməllərin «təvəllüdü» haqqında rəy söyləmişdir. B.b.əl-M. iddia edirdi ki, bütün hissi dərk etmələr (rəng, dad, iy və s.) insanın hərəkəti (əməli) ilə «yaranmışdır», əgər onların səbəbləri onun hərəkətlərinin bir hissəsinin mahiyyətidirsə zərbə zamanı

ağrı, atılmadan yaranan ox və ya daşın uçuşu və s. də belədir. (Allahın iradəsinin təzahürünə B.b.əl-M. Onun hərəkətlərindən biri kimi baxırdı. Bu Onun ya Varlığının atributu, ya da Onun hərəkətinin atributu kimi təzahür edir). İlahi ədalət və bununla bağlı öz əməllərinə görə insanın mənəvi məsuliyyəti haqqındakı məsələlər barəsində də B.b.əl-M.-in şəxsi rəyi var idi. Onun tərəfindən «Allah uşaqları cəzalandıra bilər, ona görə də ədalətsiz olmaq lazımdır» fikrinin qəbul edilməsi onun xüsusi hücumlara məruz qalmasına səbəb oldu.

B.b.əl-M-in ardıcıllarını bişrilər adlandırırdılar. Onun şagirdləri Quranın «tayı-bərabəri olmadığını» inkar edən mötəzili rahib Əbu Musa əl-Murdar, Sumamə b. Əşras, Əbu Cəfər əl-İskafi və s.-dir.

**Ədəbiyyat:** İslam, 43; əl-Əş'əri. Məqalət, göstər.; İbn Nədim əl-Fihrist, 205; аш-Шахрастани. Книга о религиях, 43, 69-70; İbn əl-Murtada. Təbəqat, 52-54; A.P.Nader. Bishr b. əl-Mütəmir. – EI, TE, 1, 1243-1244.

**Əl-Buxari, Məhəmməd b. İsmail Əbu Abdullah əl-Cufi** (810-870) – məşhur sünni ənənəçi mühəddisi. Buxarada İran mənşəli ailədə doğulub (Səmərqənd yaxınlığında), Xərtənək kəndində vəfat edib. 10 yaşından hədisi öyrənməyə başlayan əl-B. qeyri-adi bacarıq və yaddaşa malik olduğunu göstərdi. Uzun illər boyu o, xilafətin müxtəlif əyalətlərini (Hicaz, Misir, İraq, Xorasan) gəzib hədis haqqında elmə yiyələnmişdir. Mənbələrin verdiyi xəbərə görə o, mindən artıq şeyxin hədisini dinləmişdir. Əl-B. Məhəmmədin (s) dedikləri və hərəkətləri haqqında olan bütün səhih rəvayətləri toplamağı öz qarşısında məqsəd qoymuşdu. O dövrün mühəddislərinə xas olan tənqidi yanaşmadan istifadə edərək, əl-B. deyildiyinə görə o vaxt dövriyyədə olan 600 min hədisi və ondan başqa onun özünün müəllimlərindən və məlumatçılardan yazdığı 200 min hədisi yoxlamışdır. Bu böyük kəmiyyətdə olan hədislərdən əl-B. ancaq 7400 səhih (qüsursuz) hədisi seçdi. Onlardan o, öz külliyatı olan «Əl-Came əs-səhih»ini yaratdı, qısaca onu Əs-Səhih adlandırırlar. Səhih əl-B. onunla diqqətəlayiqdir ki, müsənnəf prinsipi ilə, daha doğrusu, süjetlərə görə hədislərin bölünməsi (hədislərin ən erkən ötürücülərinin «'alə-r-rical»-adları ilə təsniflənən musnəd tipli ədəbiyyatlardan fərqli olaraq alə-l-əbvab) üzərində hazırlanmışdır. Əsərin bu cür quruluşu əl-B.-yə hədislərin dairəsini hiss olunan dərəcədə genişləndirməyə: müxtəlif növlü (mənalı) hüquqi, tarixi, bioqrafi, etnik, tibbi hədisləri daxil etmək imkanı verirdi. Öz hədislər külliyyatını o, 3450 fəsli olan 97 kitaba bölmüşdü (hər bir fəslin adı orada olan hədislərin mövzusunu göstərirdi), onlar da 7397 hədisi tam isnadla ehtiva edirdi.

Səhih əl-B. artıq müasirləri tərəfindən fiqh üzrə görkəmli bir rəhbər vasitə kimi tanınmışdı və artıq X əsrdə bəzi tənqidlərə baxmayaraq Səhih

Müslimlə yanaşı sünni ənənələri əsərləri arasında birinci yeri tutmuşdu. Sünnilərin çoxu üçün Səhih əl-B. Qurandan sonra ikinci kitaba çevrildi.

Əl-B. həm də hədis ötürücülərinin tərcümeyi-halı haqqında onun tərəfindən bir neçə redaktə edilmiş nüfuzlu külliyatın müəllifidir. Onun başqa əsərləri içərisində hələ az öyrənilmiş Quranın təfsiri – Təfsir əl-Quranının da adını çəkmək lazımdır.

**Ədəbiyyat:** İslam, 44; GAL, 1, 157-160, SBD., 1, 260-265; C.Brockelmann. Al-Bukhari. – EI, 1, 816-817; J.Robson. Al-Bukhari. – EI, 1, 1296-1297.

**Əl-Buraq (cah-cəlallı, parıltılı)** – Məhəmməd peyğəmbərin (s) üzərində Quranda qeyd olunan (17:1) Məkkədən Qüdsə (Yerusəlim), oradan da göylərə «gecə səyahəti» (əl-isra) etdiyi minik heyvanının adı. Rəvayətə görə əl-B. Məhəmməd peyğəmbəri (s) (923) Kəbənin yanında gözləyirdi. Rəvayətin sonrakı variantları əl-B.-ı sonrakı Meracın da iştirakçı edirlər, ancaq orada nərdivandan söhbət gedirdi. Hesab edilir ki, əl-B. Məhəmmədə (s) qədər başqa peyğəmbərlərə də, xüsusilə də İbrahimə (ə) qulluq etmişdir.

Əl-B. adı «parlamaq», «işıldamaq» kökündən yaranmışdır. Onu gah ağ rəngli at, gah eşşək və ya qatıra oxşar, düz belli, uzun qulaqlı, ayaqlarında qanadları olan heyvana bənzədirdilər. Son orta əsrlərdə əl-B.-ı insan qiyafəli qanadlı at kimi təqdim etməyə başladılar. Məhəmməd peyğəmbərin (s) uçan əl-B.-ın belindəki şəkli kitab miniatürlərində, xüsusilə də son orta əsrlərdən hazırki dövrə qədər xalq rəsmlərində çox yayılmış süjetlərdən biridir. Əl-B. Məkkədə olan oğlu İsmaili görməyə gedəndə İbrahim peyğəmbərə də xidmət göstərmişdir.

**Ədəbiyyat:** İslam, 43; İbn Sə′d, Təbəqat, ½, 176; ət-Təbəri. Təfsir, 15. 2-14; əl-Beydavi. Təfsir, 1, 532-533; Tac əl-arus, 6, 388; Harovitz. Himmelsfahrt, A.Piemortese. Note morfoloqiche e etimoloqishe su al-Buraq. – Annali della facota di lingqe et litteratura straniere di Ca Foıcari. Vetezia, 1974, 13/3; B.Carra de Vaux. Burak. – EI, 1, 827; R.Paret. Burak. – EI, NE, 1, 1310-1311; J.Horovitz. Miradj. – EI, 3, 581-589; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 60.

**Bürdə** – 1. Gündüz plaş, gecə ədyal kimi istifadə olunan yun və ya kətan parça, - «plaş», «örtük». Rəvayətə görə Məhəmməd peyğəmbər (s) öz B.-sını Kə′b b. Züheyrə, onun şərəfinə yazdığı ilk mədhiyyələrdən birinə görə bağışlamışdı. Kə′b b. Züheyrin şerlərinin yayılması Peyğəmbərin (s) nüfuzunun Ərəbistanda yüksəlməsinə mühüm sübut idi. Müaviyənin şairin oğlundan aldığı B. Abbasilərə keçdi, onlar onu dini rəmzə çevirdilər. Özlərinin hakimiyyətinin teokratik xüsusiyyətlərini daha qabarıq qeyd etmək

üçün Əməvilərin əksinə çalışaraq Abbasilər Əməvilərin əsa və möhürü ilə yanaşı B.-nı da xəlifəlik məziyyətləri rəmzi siyahısına daxil etmişdilər.

2. Əl-Bürdə qəsidələri – Kə`b b. Züheyr və Məhəmməd b.Səid əl-Busirinin (1212-1294) məşhur poemalarının (qəsidələrinin) adı. Kə`b b. Züheyrin mədhiyyəsi çox məşhurlaşdı və bir neçə dəfə ona şərh yazmışdılar.

Əl-Busirinin qəsidəsi özünü kiçiltməyə, Peyğəmbəri (s) və onun möcüzələrini təriflməyə həsr olunub. Rəvayətə görə yarıiflic olan şair qəsidəni yazıb, namaz qılıb, onu bərkdən oxuyub. Şair yuxuda Peyğəmbəri (s) görür, o öz B.-sını şairin üstünə salır, onu sağaldır. Möcüzəli şəfa haqqında xəbər tez yayıldı. Poema fövqəltəbii gücə malik bir şey kimi çox geniş yayıldı. Onu gözmuncuğu kimi istifadə etməyə başladılar, onun sətirləri ilə ictimai binaların divarlarını bəzəyir, dəfn mərasimi vaxtı Quranla yanaşı ondan parçalar oxuyurdular. Əl-Busirinin poeması son sufi müəllifləri tərəfindən çox fəal şərh edilirdi. Bu əsərlər çox vaxt müstəqil ilahiyyat traktatlarına çevrilirdi. Əl-Busirinin şerlərinin fars və türk dilinə bir sıra tərcümələri var.

Hər iki qəsidə bu gün də öz şöhrətini saxlayır.

**Ədəbiyyat:** İslam, 44; R.Basset. La Bordah du cheikh El-Busiri, poeme en İ`honneur de Mohammed. Trad. Et sommentee. P., 1894; I.Goldziher (R.Rassetin göstərilən əsərinə rəy). – RHR, 1896, 31, 304-311; GAL, 1, 364-365, SBd., 1, 467-472; R.Basset. Burda. – EI, NE, 1, 1314-1315.

**<u>Əl-Büveyhiyyə</u> -** Builər (və ya Büveyhilər). Deyləmdən olan İran sülaləsi. Onun banisi Büveyh – Şimali İranın Ziyari hakimi Merdavicin dəstələrindən birinin rəhbəridir. Büveyhin oğulları 932-944-cü illərdə Qərbi və Cənubi İranda möhkəmləndilər, 945-ci ilin dekabrında isə onların kiçiyi Əhməd Bağdadı tutub İraqın hakimi oldu. Xəlifə əl-Müstəkfi ona əmirül-üməra (baş komandan) rütbəsi və Müizz əd-dövlə titulu verməyə, (onun qardaşlarına isə – İmad əd-dövlə və Rukn əd-dövlə) titulları bağışlamağa məcbur oldu. 946-cı ilin yanvarında Müizz əd-dövlə ona yaramayan xəlifəni kor edib onun yerinə öz adamı əl-Mütini oturtdu və onu bütün siyasi hakimiyyətdən məhrum etdi, sarayın saxlanması üçün vəsait (əvvəlki büdcənin 2%-ni) təyin etdi, hətta Bağdadda baş qazinin təyin olunması da xəlifənin razılığı olmadan həyata keçirilirdi.

Şiə (imami) olan Müizz əd-dövlə Bağdadda «mülayim» şiəliyin möhkəmlənməsinə şərait yaratdı; 963-cü ildən «aşura» və Qədir Xumun qeyd edilməsi başlandı, onun sələfləri vaxtı isə Bağdadda birinci şiə mədrəsəsi yaradıldı (994-cü il). Bütün bunlar sünnilərlə şiələr arasındakı münasibətləri kəskinləşdirdi, şiə bayramlarına cavab olaraq sünni

bayramları meydana gəldi, onların qeyd edilməsi tez-tez qanlı tutuşmalarla qurtarırdı. Lakin büveyhilər sünni xəlifələri dəyişməyə çalışmırdılar, onlar tərəfindən sünnilər üzərinə hücum da məlum deyil. XI əsrin birinci yarısında, İraqda B. hakimiyyətini Fatimilər və Abbasilər hədələyəndə B. qeyri-iradi olaraq onlarla mübarizədə sünnilərlə müttəfiq oldular.

B.-in daxili çəkişmələri və iqta sisteminin inkişafı B. hakimiyyətini zəiflətdi və xəlifələrin siyasi və iqtisadi azadlığının müəyyən qədər bərpa olmasına şərait yaratdı. XI əsrin 20-ci illərində B. Qəznəvilərin təsiri altına düşdülər, 1055-ci ildə isə Səlcuqilərin hücumuna məruz qaldılar. B.-nin Farsdakı axırıncı malikanələri 1062-ci ildə yox oldu.

B. hakimiyyəti şiə islamının həyatında mühüm rol oynayırdı. Onların himayəçiliyi altında şiə ilahiyyatının sistemləndirilməsi və intellektuallaşdırılması baş verdi və imami hüququnun kodifikasiyası başlandı.

**Ədəbiyyat:** İslam, 43; Босворт. Династии, 137-140; Мусульманский мир, 53-88, 189-206; Cl. Cahen. Buwayhids, - EI, NE, 1,150-1357.

# C

**Əl-Cahiliyyə** – bütpərəstlik dövrü, islamaqədərki və Məhəmmədin (s) meydana çıxmasına qədərki Ərəbistan əhalisinin dini dünyagörüşü. Daha dəqiq desək, əl-C. istilahı altında İsa və Məhəmməd (s) peyğəmbərlər arasındakı insanların peyğəmbərsiz həyat dövrü nəzərdə tutulur. Özünün bu xüsusi mənasında CHL kökü İLM-ə qarşı durur. İlk əl-C. dövrünün Quranda xatırlanması (33:33) görünür xristianlığın yaranmasına qədərki qədim bütpərəstliyi nəzərdə tutur. Əl-C. istilahı islamın mühüm konsepsiyasını – əvvəlki dövr ilə onun arasının, onun qayələri və adətlərinin kəskin surətdə ayrılması haqqındakı görüşü ifadə edir. İslamın maariflənmiş dövrü ilə əvəz olunan əvvəlki dövr cahillik dövrü sayılır. «Cahili» sifəti çox vaxt islamaqədərki ərəb şairləri və onların poeziyaları haqqında işlədilir və bu onların «cahil» olduqlarını deyil, həmin dövrdə yaşadıqlarını ifadə edir.

İslam və islamaqədərki ictimai stukturlar və adətlər arasındakı ayrılıq əslində Quran (əl-C. istilahı haqqında bax., 3:154/148; 5:50/55; 33:33; 48:26) və müsəlman ilahiyyatçılarının qeyd etdikləri kimi o qədər də kəskin deyildi. Əl-C. istilahı erkən islam dövründə o qədər «biliyə» deyil, o qədər ki, ağıla (hilm) qarşı qoyulurdu və kobudluq, qəddarlıq, insanı öz ehtiras və istəyinə tabe etmə və həyatın nizamsızlığı mənasını verirdi. Quranda əl-C. istilahı «keçmiş kafirlik» kimi -məhz belə məna çalarını saxlamışdır (məs.: «cahili qəzəbi», 48:26).

**Ədəbiyyat:** İslam, 63; Ət-Təbəri. Təfsir, 4, 94; əl-Beydavi. Təfsir, 1, 180, 261; 2, 128; Lisan əl-ərəb, 13, 137-138; MSt, 1, 219-229; Bravmann. Background; T.İzutsu. God and Man in the Koran. Tokyo, 1964, 198-2229; T.H. Weir. Djahiliya. – EI, 1, 1041-1043; Djahiliyya. – EI, NE, 2, 383-384.

**Calut** - Quranda obraz, Taluta (Saula) düşmən olan ordunun başçısı, Bibliyada Qoliaf adlanır. Quranda deyilir ki, Talut az bir qüvvə ilə C.-a qarşı çıxır, lakin Allahın köməyi sayəsində ona qalib gəlir. C. Davud tərəfindən öldürülür (2:249-250-251/252). Müsəlman rəvayətində bu müharibə haqqında çox müfəssəl danışılır. Rəvayətlərin müxtəlif variantlarında C. müxtəlif geneologiyaya malikdir (bərbər, hanaan, adlar, səmudlar), lakin o, əsil köklü Fələstin əhalisinin nümayəndəsi sayılır. Müsəlman rəvayəti C. surəti haqqında israillilərin qonşularla mübarizəsi haqqında başqa hekayələr də cəmləşdirmişdir (toplamışdır).

**Ədəbiyyat:** İslam, 58; ət-Təbəri. Tarix, 1, 547-562; yenə o. Təfsir, 2, 393-403; əl-Məs′udi. Muruc, 3, 241; əl-Sə′ləbi. Qısas, 151-153; əl-Beydavi.

Təfsir, 1, 128-129; Horovitz. Untersuchungen, 196; Speyer. Erzählungen, 363-371; Paret. Kommentar. 52-53; Heltz. Sehnsucht, 167-168.

**Əl-Cami** (və ya əl-məscid əl-cami; fars-tacikcə məscid-i adinə) – cümə (came) məscidi, orada cümə namazı qılınır, xütbə oxunur, oraya bütün şəhər və ətraf müsəlmanları gəlir, əhaliyə və dövlətə aid elanlar edilir, iclaslar, məclislər keçirilir və mühüm xəbərlər verilirdi. Əl-C. məfhumu X əsrin əvvəlində meydana gəlmişdir. Əvvəlcə şəhərdə bir əl-C. olurdu, ən böyük şəhərlərdə iki və ya üç əl-C. olurdu. Sonradan istilahın əvvəlki mənası (yığan) itir və o, hər böyük məscidə şamil edilir. Artıq XIII əsrdə Yaxın Şərqin bir neçə orta şəhərində bir neçə əl-C. var idi, əl-Makrizi XV əsrdə Qahirədə 74 əl-C. saymışdı.

**Ədəbiyyat:** İslam, 58.

**Əl-Cəbr** («məcbur etmə») – müsəlman ehkamı istilahı, dünyada baş verən işlərin, o cümlədən, yeganə, əsil iş görən kimi çıxış edən insan təbiətinin xüsusiyyəti üçün istifadə olunurdu (bax: əl-cəbriyyə). Sufizmdə əl-C. istilahı – cəbərut istilahının sinonimidir.

**Ədəbiyyat:** İslam, 57.

**Əl-Cəbriyyə (əl-cəbəriyyə, əl-mucburə)** – cəbrilər (və ya cəbərilər), istilah (cəbr sözündən düzəldilmişdir). Mütəfəkkirləri göstərməyə xidmət edir, onlar qədərilərin əksinə olaraq Allahı yeganə əsl iş görən (fail haqiqi, fail bi-l-haqiqa) qəbul edir və hesab edirlər ki, insan öz əməllərini yerinə yetirməyə məcburdur və onları özbaşına surətdə etmir. «Əsil» C.-lə isə kəsb konsepsiyasının müxtəlif variantlarına aid olan əl-Hüseyn ən-Nəccar, Dirar b. Əmr və əl-Əş′ərinin ardıcılları hesab edilirdilər.

**Ədəbiyyat:** İslam, 57; ət-Təhənavi. Kəşşaf istilahat əl-funun, 1, Qahirə, 1963, 282-285; Watt. Free Will; Ringgren. Studies; Wolfson. The Philosophy, 601-719; W.M. Watt. Djabriyya. – EI, NE, 2, 365.

**Cəfər əs-Sadiq (ə) -** Cəfər ibn Məhəmməd Əbu Abdullah (təxm. 700-765) – 6-cı imam, cəfəri (imami) hüquqi məzhəbinin banisi. Mədinədə doğulub, yaşayıb və vəfat edib, qüreyşi qəbristanlığı əl-Bəqidə dəfn olunub.

Atası, 5-ci imam Məhəmməd əl-Bağır (ə) - (732-ci ildə Mədinədə vəfat edib) kimi C. əs-Sadiq atasından imamətliyi qəbul edib, heç bir siyasi fəaliyyətdə iştirak etməyib. O, hakimiyyət uğrunda silahlı mübarizənin möhkəm əqidəli əleyhdarı olub, qohumlarının çıxışlarını (Zeyd b. Əlinin Kufədəki 739-740-cı illərdəki, Məhəmməd ən-Nəfis əz-Zəkiyənin Hicazdakı 762-ci il çıxışlarını) pisləyirdi, əməvi xəlifəsi Hişam və Abbasi xəlifəsi əl-Mənsurla sülh əlaqələri saxlayırdı, baxmayaraq ki, onlar

Ələvilərə qarşı amansız repressiyalar (təqiblər) aparırdılar. Bundan başqa Əməvilərin devrilməsindən sonra Ələvilərin başçısı kimi ona təklif olunsa da, xilafəti qəbul etmədi. Burada görünür onun əqidə və neytrallığa bağlılığından çox ağıllı hesabları üstün gəlib: real hakimiyyət o vaxt Abbasilərin tərəfdarlarında idi.

Dini elmlərin (hədis, təfsir, fiqh) öyrənilməsində ailə adətlərini davam etdirən C.əs-S. (ə) «mötədil» şiələrin ruhani başçısı oldu, onlar onun biliklərinə və dini nüfuzuna qeyri-adi məşhurluq gətirdilər. C.əs-S.-in adı ilə «qatı» şiələrin də fəaliyyətləri bağlıdır, baxmayaraq ki, o, ələvi imamlarının ilahiləşdirilməsini qəti surətdə rədd edirdi. Lakin «qatı» şiələrin fəaliyyəti C.əs-S.-in şəxsiyyəti ilə o qədər deyil, o qədər ki, tarixi şəraitlə – ictimai əlaqələrin qeyri-sabitliyi, ideya axtarışları ilə şərtlənirdi. Bununla belə C.əs-S.-in «qatı» şiələrin dini-siyasi görüşlərinin təşkil edilməsindəki rolunu danmaq olmaz. Məlumdur ki, o, hüquqi və ilahiyyat məsələlərinin müzakirə olunduğu məclislərin təşkilatçısı idi. Özlərini C.əs-S.-in şagirdləri adlandıran bu məclislərin çoxlu iştirakçıları şiə ehkamı tərəfindən yaranan müxtəlif məsələləri «Əhli-beytin» imamı adından ifadə edən əsərlərin müəllifləri idilər. Görünür, bu əsasa görə elmin müxtəlif sahələrinə aid olan çoxlu əsərləri – ənənəvi müsəlman (hədis, fiqh, ekzeqetika) elmlərindən tutmuş ayinlərə (maqiya, astrologiya, əlkimya) qədər əsərləri onun adına yazırlar. «Kəşfin» gizli (batin) mənasının tərəfdarları onu Quran mətninin alleqorik şərhi haqqında təlimin banisi elan etdilər. Bir neçə müasir müsəlman alimləri C.əs-S.-də «ərəb elmi ənənəsinin atası» kimi görməyə meyllidirlər. Lakin hazırda onun müəllifliyinin mübahisəsiz sübutları yoxdur. Doğrudur, mənbələr, o cümlədən, sünni mənbələri müəllifi C.əs-S. (ə) sayılan əsərləri (xüsusilə də qədərilər, xaricilər, «qatı» rafizilərin «Təkzibi», «Qurana şərh»i) xatırladırlar. Bu məlumatlar onun biliklərinin «qoruyucusu» roluna iddia edən şagirdlərinə gedib çıxır. Onların arasında (760-cı ildə Kufədə edam olunan) «qatı» şiə əl-Müfəddəl b. Ömər əl-Cufi də vardır; o, Kitab ət-tövhid, əs-Sirət, əl-Həft va-l-əzillə əsərlərində tez-tez öz «həzrəti müəlliminə» müraciət edirdi. Lakin məlumdur ki, C.əs-S. (ə) onu özündən ayrı salıb, açıqca ondan imtina etmişdi. Buna əlavə olaraq qeyd etmək olar ki, əl-Müfəddəlin özünün müəllifliyi də şübhə altındadır.

Sünnilər C.əs-S.-i Məhəmməd peyğəmbərə (s) gedib çıxan rəvayətlərin nüfuzlu bilicisi hesab etmiş və edirlər. Müxtəlif sufi qardaşlığı onu özlərinin ruhani rəhbəri kimi qəbul etmişdilər. İmami şiələr İslamın şiəlik tarixndə ona çox mühüm yer ayırırlar. Əsasında əbədi ilahi işığın manifesti olan imamətin imami doktrinasının hazırlanmasını onlar onun adına yazırlar. İmami ənənə C.əs-S.-i xüsusi ilahiyyat sisteminin yaradıcısı hesab edir. C.əs.-S.-in ilahiyyatında mötəzililərin, hər şeydən əvvəl onların

antropomorfizmini (ət-təşbih) rədd etməsi təsiri görünür. O vaxtlar çox kəskin müzakirə olunan «əl-qədər» məsələsində o, orta mövqe tuturdu: iradənin azadlığı haqqındakı mötəzili əhkamını rədd edib, o eyni zamanda şərtsiz qabaqcadan müəyyən etməni (əl-cəbr) qəbul etmirdi. Əli ibn Əbu Talibin nəsilləri arasında nəsildən-nəsilə keçən ezoterik biliklər – cəfr haqqında görüşlər C.əs-S.-in adı ilə bağlıdır. İmamilər C.əs-S.-i onun adı ilə adlandırılan – beşinci «hüquqi» məzhəb kimi tanınan cəfəri məzhəbinin – xüsusi hüquqi sistemin yaradıcısı da hesab edirlər. C.əs-S.-in hüquqi görüşlərinin cəfəri məzhəbinin yaranmasına təsirinin nə dərəcədə olduğu haqqında məsələ həll olunmamış qalır.

C.əs-S.-in (ə) vəfatından sonra onun tərəfdarları (oğullarından ən azı dördü -Məhəmməd, Abdullah, Musa və İsmail imamətlik davasında idilər) bir neçə icmaya ayrıldılar. Vaxt ötdükdən sonra əksəriyyət onun oğlu, yeddinci şiə imamı olan Musa əl-Kazımı qanuni imam kimi qəbul etdi. Lakin hələ bundan əvvəl şiələrin bir hissəsi C. Əs-S.-in başqa bir oğlu İsmailin (762-ci il) imamlığını qəbul etmişdilər, bununla onlar şiələr arasında çox böyük parçalanmanın, ismaili qolunun ayrılmasının əsasını qoydular.

**Ədəbiyyat:** İslam, 60-61; ан-Наубахти. Шиитская история, göst.; əl-Bağdadi. Üsul əd-din, 308; Əbu Zəhra. Əs-Sadiq; Прозоров. Шиитская историография, göst., T.Fahd. Ca`far əs-Sadiq et la tradition scientique arabe. – Le shi`isme imamite, 131-142; M.G.S. Hodgson. Djafar as-Sadik. – EI, NE, 2, 374-375; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 62-63.

**Cəfər ibn Əbu Talib ət-Təyyar** (vəf. 629) Peyğəmbərin (s) əmisi oğlu, Hz. Əlinin (ə) qardaşı, islamı ilk qəbul edənlərdən biri, Həbəşistana ikinci hicrət karvanının rəisi, Həbəş nequsu ilə görüşən adam. 628-ci ildə Xeybər döyüşünün sonunda Ərəbistana qayıdır. 629-cu ildə Peyğəmbər (s) onu üç min qoşunun başında bizanslılara qarşı vuruşan Zeyd ibn Harisə köməyə göndərdi. Lut gölü ətrafında Muta yaxınlığında düşmənlə vuruşda Zeyd həlak olandan sonra orduya Cəfər komandan təyin edildi, o da həlak olandan sonra onun yerinə Abdullah ibn Rəvaha təyin olundu, sonra o da həlak oldu. Muta yaxınlığında Cəfər-ət Təyyarın qəbri-ziyarətgahı indi də ziyarət edilir.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 62.

**Əl-Cəfəriyyə** – cəfərilər, imami şiələrin altıncı imamı Cəfər əs-Sadiqin (vəfatı 765-ci il) adı ilə adlanan, cəfəri (imami) dini-hüquqi məktəbin (əl-məzhəb əl-cəfəri) ardıcıllarıdır. Cəfəri məzhəbi sünnilər tərəfindən dörd sünni məzhəbi – hənəfilik, şafeilik, hənbəlilik və malikilik ilə yanaşı beşinci məzhəb kimi qəbul edilmişdir. XVIII əsrdə C. Kəbə yanında sünni

məktəblərinin ardıcıllarına bərabər namaz qılmaq üçün ayrıca yer (məqam və ya müsəlla) aldılar. Hazırda bütün imami şiələr cəfəri məzhəbinə qulluq edirlər, istinad edirlər.

İmami ənənə cəfəri məzhəbinin yaranmasını Cəfər Sadiqin özünün fəaliyyəti ilə bağlayır və onun adına bir neçə əsər yazır (xüsusilə də əs-Safi), o, həmin əsərlərdə sonralar imami (əl-fiqh əl-cə`fəri) sisteminin əsasına yerləşdirilən dini-hüquqi təlimin prinsiplərini izhar etmişdir.

Cəfəri məzhəbinin yaranması elə sünni hüquqi məktəblərinin yaranması şəraitində baş verirdi. Bu məktəblərin fəqihləri təkcə eyni məsələlərlə məşğul olmaq deyil, çox vaxtı dini-hüquqi ədəbiyyatın oxşar janrını hazırlayaraq, onları eyni şəkildə həll edirdilər. Sünni fəqihləri arasında ancaq Quran və sünnəyə söykənən əshab əl-hədis («rəvayət tərəfdarları») və fiqh məsələlərində məntiqi nəticə və şəxsi rəyi qəbul edən əshab ər-rəy («müstəqil düşüncə tərəfdarldarına») bölünmələri baş verdiyi kimi imami fəqihləri arasında da iki məktəb yarandı – əxbarilər və üsulilər. Əxbarilər (əxbariyyun, farsca əxbari) – əl-əxbar məzhəbinin ardıcılları - ənənəçilərdir, onlar ancaq yeganə dini birlik və fiqhin mənbəyi kimi olan şiə imamlarının sözlərindən alınan rəvayətlərə (əxbar) söykənirlər. Üsulilər isə (üsuliyyun, farsca üsuli) əl-üsul məzhəbinin ardıcılları olub, rasionalistlərdir, onlar ilahiyyat və hüquq məsələlərində nəzəri arqumentasiya və hüququn dörd «əsas» və ya «mənbəyini» (usul əl-fiqh) - Quran, sünnə, icma və əql qəbul edirlər. Demək olar ki, elə məzhəb əl-üsul cəfəri - imami hüquqi məktəbini təmsil edir.

Cəfəri məzhəbinin inkişafı ilə hələ erkən imamilər tarixi dövründə yaranan bu iki təmayül sonralar iki əks məktəbə çevrildilər, onların arasındakı mübarizə bütün şiə islam tarixi boyu səngiməmişdir. İmamilər qarşısında icmaya rəhbərlik məsələləri qəti şəkil alanda bu iki cərəyanın tərəfdarları arasındakı əksliklər din və dünyəvi həyat işlərində yüksək nüfuz sahibləri olan bir neçə görkəmli imamların fiziki cəhətdən aradan götürülməsindən sonra aşkar oldu. Builər (Büveyhilər) vaxtı, X-XI əsrlərdə hər iki məktəb öz hüquqi doktrinalarını fəal surətdə hazırlayırdılar. Şafei hüquqi metodologiyası (ilm üsul əl-fiqh) və mötəzililərinin ilahiyyat prinsiplərinin (üsul əd-din) təsiri altında məntiqi-rasionalist metoda söykənərək, Qum və Reyin «ənənəçilərinə» (əl-Qulini, vəf. 941-ci il, İbn Bəbuyə əs-Saduq, vəf. 991-ci il) qarşı duran İraqın imami «rasionalistləri» (əl-Müfid, vəf. 1022-ci il, əş-Şərif əl-Mürtəza, vəf. 1044-cü il, əş-Şeyx ət-Tusi, vəf. 1067-ci il) özlərinin cəfəri hüquq metodologiyalarını hazırladılar. Əş-Şərif əl-Mürtəza «əz-Zəri`a fi il usul əş-səria» əsərində cəfəri fiqhinin prinsiplərini təsvir etmişdi, əş-Şeyx ət-Tusi «Uddət əl-usul» traktatında bu prinsipləri təyin edib, dürüst ifadə etmişdi. Üsuli yolunu tutan ilk imamilərdən biri fəqih və mütəkəllim Məhəmməd b. Əhməd b. əl-Cüneyd əl-İskəfi (vəf. 991-ci il) olmuşdur. Lakin iki məktəbin adlarının özləri isə

görünür daha sonralar meydana gəlmişdir. Qəzvini (təxm. 1170-ci ildə yazmışdır) bu iki məktəbi ilk dəfə əxbariyyə (əxbarilər) və usuliyyə (üsulilər) adı altında xatırladır, birinciləri «dar ənənəçilər», «hərifçilər», ikinciləri isə dini məsələlərdə ağıl və sübutun rasionlist metoduna söykənən adamlar kimi xarakterizə edir.

Sünni məzhəbində müəyyən vaxtda hədislər toplumunda qeyd olunan Peyğəmbər (s) sünnəsinin islam dini təliminin və sünni hüququnun mənbələrindən biri olduğu kimi şiə məzhəbində də imamların sözlərindən alınan rəvayətlərin toplusu (əxbar) dörd hüquq mənbəindən birinin (əxbarilərdə isə praktiki olaraq təkinin) statusunu almışdır. Bu rəvayətlərin əhəmiyyəti xüsusilə də axırıncı şiə imamının «qeybindən» sonra artdı, onda bu rəvayətlər qəbul edilən hüquqi qərarların qanuniliynin əsas sübutuna çevrildi.

Şiə rəvayətlərinin ən erkən, daha tam və nüfuzlu toplusu böyük imami ilahiyyatçısı və fəqihi, imami məzhəbinin novatoru - «yenilikçisi» (mücəddid) əl-Küleyninin «Əl-Kafi fi 'ilm əd-din» adlı əsəri hesab edilir, alim ona 20 il ömrünü həsr etmiş və orada 16 mindən çox rəvayət toplanıb sistemləşdirilmişdir. Sünni hədis toplularından fərqli olaraq (məs: Səhih əl-Buxari) Əl-Kafidə imamət nəzəriyyəsi ayrıca başlıqda verilib (Kitab əl-huccə), müəllif onu birbaşa Kitab ət-tövhiddən sonra əl-Üsul bölməsində, daha doğrusu islamın əsas ehkamları bölməsində yerləşdirib. Sonralar Əl-Kafi imamilər tərəfindən cəfəri məzhəbinin dörd kitabından və ya «mənbəyindən» (əl-üsul əl-ərbəa) biri kimi qəbul edildi.

İkinci «mənbə» kimi qəbul edilən «Mən lə yəhduruhu əl-fəqih» adlı əsər Xorasandan olan imami fəqih İbn Babui əs-Səduqindir, orada 9 mindən çox rəvayət cəmlənib. Cəfəri məzhəbinin daha iki mənbəyi rəvayətlər toplusu kimi qəbul olunmuşdur, bunlar cəfəri metodologiyası və sünni hüququnun görkəmli bilicisi əş-Şeyx ət-Tusinin Ət-Təhzib (13 mindən çox) və Əl-İstibsar (5,5 mindən çox) əsərləridir.

Hənəfi məzhəbinin dörd «mənbəyinin» əş-Şeybaninin (vəfatı 805-ci il) əsərləri olduğu kimi, cəfəri məzhəbinin («mənbələri» də) üç müəllifin dörd adı çəkilən rəvayətlər toplusu qəbul edilmişdir.

Bütün imamilər tərəfindən bu dörd «mənbənin» qəbul edilməsinə baxmayaraq şiə rəvayətlərinin toplanması və sistemləşdirilməsi davam edirdi. XVIII əsrdə əl-Kaşani (vəfatı 1680-cı il) dörd rəvayətlər toplusunu Əl-Vafi adı altında bir külliyatda cəm etdi. Sonralar Xorasandan olan imami fəqihi əl-Hürr əl-Amili (vəfatı 1693-cü il) bu dörd külliyyatı cəfəri məzhəbində hüquqi qərarların mənbələri üçün «yararlı» olan rəvayətlərlə təkmilləşdirdi. Onun «Təfsil vasail əş-şiə» adlı rəvayətlər məcmusu 150 kitabdan ibarət idi. Eyni vaxtda əl-Məclisi (vəfatı 1699-cu il) «Bihar əl-ənvar» rəvayətlər külliyyatını hazırladı, o, oraya Cəfər əs-Sadiqdən eşitdiyi bütün məşhur rəvayətləri daxil etmişdi. Sonralar başqa rəvayətlər külliyatları da yazıl-

mışdır, lakin onlara daxil olan əlavə material az dürüst hesab edilir, nəinki cəfəri məzhəbinin dörd əsas «mənbələrini» özündə cəm edən rəvayətlər.

Rəvayətlər (hədislər) külliyatının yaranması ilə eyni vaxtda əxbarilərin və üsulilərin hüquqi doktrinası işlənib hazırlanırdı. Müasir imami müəlliflər qeyd edirlər ki, cəfəri məzhəbinin metodologiyasının hazırlanmasına imami mütəkəllimlər və şafeilərin əsərlərinin böyük təsiri olmuşdur, onlarda sübutun əldə edilməsi metodunun hazırlanması (istinbat) və «metodologiyanın bəndlərinin» müəyyən edilməsi (əbvab əl-üsul) məsələləri mühüm yer tuturdular.

Cəfəri məzhəbinin inkişafında əxbarilər və üsulilər arasındakı əlaqələrdə mühüm mərhələ monqol yürüşləri dövründə oldu və bu imami fəqihlərinin ictihad prinsiplərini tətbiq etməsi ilə bağlı idi. Şəriət arqumentləri əsasında qərar (mühakimə vermək) üçün bu prinsipi tətbiq edənlərdən birincisi İbn əl-Mütəhhər (vəfatı 1325-ci il) oldu, onun əsərlərinə (xüsusilə də, Ən-Nihayə və Təhzib əl-üsulun xülasəsinə) çoxlu şərhlər yazılmışdı. Əgər erkən imamilər (məsələn, əş-Şeyx ət-Tusi özünün məşhur əsəri olan «Uddət əl-üsul»da) ictihad və qiyası rədd edirdilərsə, İbn əl-Mütəhhər ictihadı şəriətə əsaslanan, düşüncəni nizamlayan vasitə kimi istifadə edirdi. «Məsuliyyətlə yüklənən» (əl-mukəlləfun) ictihadla mücahidlərin ictihadı arasında fərq qoyaraq, o, əslində ictihada «üləmanın» üstünlüyü kimi baxan və mücahidləri imamın müavinləri hesab edən ilk imami olmuşdur.

Üsulilərin dini-hüquqi doktrinasının yaranması «ənənəçilərlə» - əxbarilərlə sərt rəqabətdə keçirdi. XVII əsrdə İranda Məhəmməd Əmin əl-Astarabadinin (vəfatı 1624-cü il) fəaliyyəti sayəsində əxbarilər öz mövqelərini möhkəmlətdilər, o, sonrakı əxbarilər məktəbinin banisi oldu. «Əl-Fəvaid əl-mədəniyyə fi təşni′ muctəhidi əş-şiə» əsərində o, əxbari doktrinasının xülasəsini verərək əl-Küleyni dövrünün «ənənəçilərinin» nüfuzunu bərpa etdi və məşhur imami ilahiyyatçıları əl-Əllamə əl-Hilli (vəfatı 1326-cı il), əş-Şəhid əl-Əvvəl Məhəmməd əl-Amili (vəfatı 1384-cü il) və əş-Şəhid əs-Sani Əli əl-Amilinin (vəfatı 1559-cu il) üsul əl-fiqh və üsul əd-dində olan «yeniliklərini» kəskin tənqid etdi. Onun üsulilərə qarşı yeritdiyi əsas tezis aşağıdakı idi: imamlar Allah tərəfindən təyin olunmuş şəriət şərhçiləri (imamlar Quranın şərhinin açarlarıdırlar) olduqlarına görə onların sözlərindən alınan rəvayətlər Quranda olanları - sünnə (hədislər) və ağılın mühakiməsini başa düşməyə yol açır.

Lakin vaxt üsulilərə işlədi, «görünən» imamın olmadığına görə şəriətin şərhi üçün imami icmaya tələbat artdı. Kərbəladakı imami fəqih Ağa Bəkir Bibixani (1706-1783) təkcə üsulilər məktəbinin nüfuzunun bərpasına kömək etmək deyil, həm də cəfəri məzhəbi tarixində təzə mərhələ açdı. Qacaraqədərki dövrdə o, əxbariləri «Allahsız» kimi təqdim etməyi bacardı, müctəhidlərin nəzəri düşüncələrinin qanuniliyini əsaslandırdı və ictihadın «bağlanması» (bitməsi) haqqındakı tezisi rədd etdi.

XIX əsrdə öz doktrinalarının iki mühüm məqamını təmsil edən üsulilər İranda üstünlük təşkil edirdilər: ə'ləmiyyat («biliyə daha çox bacarıq») və vilayət-i fəqih («fəqihin hakimiyyəti»). İcma prinsipinə onlar tərəfindən günahsız «gizli» imamın iradəsini ifadə edən imami müctəhidlər qrupunun yekdil rəyi kimi baxılır. Üsulilər həm də cəfəri məzhəbinin dördüncü mənbəyi olan ağıla müraciətin dörd təcrübəvi prinsipini işləyib hazırladılar – başqa dini dəlillər barışmaz olanda onların rəyinə görə ümumi xeyrə (məsləhə) can atan, ictihadı həyata keçirən və imamın rəyini açan vasitə kimi ağılı müzakirə edirdilər. Quranda və hədislərdə pislənən imanın təqlidin deyil, sübutun nəticəsi olduğu mövqeyindən çıxış edərək üsulilər dini təlim və hüququn əsasları məsələlərini (əl-üsul) – təkallahlılıq, rəsulluq, imamətdə təqlidi yolverilməz hesab edirlər və onu xüsusi məsələlərə (əl-furu) aid edirlər. Müasir şiə aləmində üsulilər imamilərin çoxluğunu təşkil edirlər. İmamilərdə cəfəri fiqhinə aid ən çox nüfuzlu elmi iş şiə alimliyinin mərkəzi – əl-Hillədən olan məşhur fəqih (1275 və ya 1277-ci ildə vəf. etmiş) Nəcm əd-din əl-Muhaqqiqa əl-Hillinin «Şəra'i əl-islam fi məsail əl-halal va-l-haram» əsəridir. Bu əsəri XIX əsrdə M.K.Kazımbəy rus dilinə tərcümə etmişdir.

Cəfəriləri sünni məzhəblərinin ardıcıllarından fərqləndirmə məqamları əsasən aşağıdakılardan ibarətdir:

a) cəfərilər qiyası rədd edirlər; b) sünnədə ancaq əhl-əl-beytin sözlərindən alınan hədislər qəbul edilir; c) cəfərilər ictihadın qapılarını daimi açıq hesab edirlər. Bu axırıncı vəziyyət cəfəri məzhəbinin metodologiyasının inkişafına təkan verərək, dəyişən dünyanın hadisələrinə tez reaksiya verməyə imkan yaradır.

Cəfəri məzhəbinin fərqləndirici xüsusiyyətlərindən biri də müvəqqəti kəbinə - siğəyə (mut'a) icazə verilməsi və «imanın ağıllı gizli saxlanmasıdır» (ət-təqiyyə).

**Ədəbiyyat:** İslam, 62; İbn ən-Nədim. Əl-Fihrist, 275-279; H.Məruf. Əl-Məbədi` əl-ammə li-l-fiqh əl-cəfəri.; Əbu Zəhra. Əs-Sadiq; J.Eliash. İthna`ashari-Shi`i juristic theory of political and legal authority. – Stl. 1969, 29, 17-30; R.Brunschvig. les usul al-fiqh imamites a leur stade ancien (X et XI siecles). – Le shi`isme imamite, 201-213; Y.L.de Bellefonds. Le driot imamite. Yenə orada. 183-199; H.Löschner. Die dogmatischen Groundlagen des shi`schen Rechts. Köln, 1971; H.M.Tabataba`i. Au İntroduction to shi`i Law: a Bibliographical Study. L., 1984; J.Cole. Shi`i clerics in İraq and İran, 1722-1780; The akhbarı-usuli conflict reconsidered. – İr St. 1985, 18/1, 3-34; A.K.Moussavi. The establishment of the position of Marja`iyyat-i Taqlid in the Twelver-Shi`i community. Yenə orada, 35-51. W.Madelung. Akbariyya. – EI, NE, Suppl., 57-58.

**Cəhənnəm** (qədim yəhudi dilində qehinnom) – qeenna, İslamda C. adlarından biri. Quran və müsəlman esxatologiyasında – insanlar və cinlərdən olan kafirlər və günahkarların cəza veriləcəyi yer. C.-in sinonimləri ən-nar (ən çox yayılanı), niran, sə'ir, ləhəb, əl-cəhim («od», «alov»), səğər, əl-hutəmə («dağıdıcı»), haviyə («uçurum») və s.. obrazı Quran təbliğatında mühüm rol oynamışdır, dinləyiciləri emosional inandırma və qorxutma vasitələrindən biri olmuşdur. Quranın bir çox ayələri onunla bağlıdır.

C. əhli odda yanacaqlar: «Odda olan o bədbəxtlər üçün orada qışqırığ və bağırtı var (11:106/108). «Biz onları odda yandıracağıq!» Hər dəfə onların dəriləri bişəndə Biz onu başqa dəri ilə əvəz edəcəyik ki, onlar cəzanın dadını bilsinlər» (4:56/59). «Alov onların üzünü yandırır və onlar orada kədərlidirlər» (23:104/106). «Günahkarlar orada zəncirlərlə bağlanıblar, «onların geyimi qətrandandır, onların üzlərini alov örtür» (14:50/51). «Onların yeməyi C.-in dibindən qalxan zəkkum ağacındandır. Onun meyvələri tamamilə şeytanın başına oxşayır» (37:62/60-66/64 56:52-54). «İçmək – «onların daxilinə axan» qaynar sudur» (47:15/17) və irinli – ... və ona irinli su içirdəcəklər. O, onu içir, lakin o, onu udan kimi hər tərəfdən ona ölüm gəlir, lakin o, ölü deyil, lakin arxada onu ağır cəza gözləyir» (14:16/19-17/20). C. əzabının bir növü də – yandırıcı soyuqdur.

Günahkarların müxtəlif kateqoriyaları C.-in müxtəlif qatlarında yerləşirlər (dərək), oraya müxtəlif qapılardan girirlər (bax: 4:145/144; 15:44; 39:72). C.-i (zəbaniyyə) mələklərindən olan keşikçilər qoruyurlar, C.-in baş keşikçisi Malik adlı mələkdir (43:77).

Qurandansonrakı rəvayətlər C.-də mövcud olan irinli və qaynar sulu çaylar, dibi olmayan quyular və s.-ni təsvir edirlər. Əs-sirat əl-müstəqim obrazı xüsusilə geniş yayılmışdır (bax: sirat).

Quranda C.-in təbiəti haqqında iki baxışın elementləri ortaya çıxır. Bunların birinə görə o, qorxunc, nərildəyən, «hirsindən partlamaya hazır olan», günahkarları udan vəhşi kimidir (müq. et, 89:23/24, 67:7-8). Sonralar bu baxış çoxlu nağılvari-mifoloji detallara bölündü, məs: əl-Qəzalinin Əl-Dürrə əl-fəxirə traktatında. İkinci baxışa görə bu yeddi darvazanın apardığı (açıldığı) dərin uçurumdur (15:44; 39:72). Bu obraz dairələri olan, müxtəlif kateqoriyalı günahkarlar üçün ayrılan mövücvari krater (vulkan ağzı) kimi göstərilirdi. C.-in belə surəti qədim şərq ənənəsinə gedib çıxır. Bu obraz müsəlman formasında C.-in sturkturası haqqında orta əsr Avropa baxışlarına da təsir etmişdir.

C.-in Quran təsvirləri müsəlman ilahiyyatçılarının qarşısında bir neçə problem qoymuşdur. Onlardan biri – günahkarların C.-də əbədi qalmasıdır. Quran ayələri həm əbədi, həm də müvəqqəti cəza haqqında danışmaya imkan verir (məs: bax, 23:103/105; müq. et., 11:107/109). Sünni fikrində

Allahın rəhmi, Qiyamət günü Məhəmmədin (s) müsəlmanlara tərəfdar çıxması və s. haqqında baxışlar o baxışlarda cəmləndi ki, C.-də əbədi ancaq kafirlər qalacaqlar, müsəlmanlar üçün isə hətta ən günahkarlar üçün C. əzabı əbədi deyil.

Başqa problem – C.-in özünün yaranması və əbədiliyi haqqında məsələdir. Ən çox yayılan nöqteyi-nəzər odur ki, C., elə də əl-Cənnə yaranmış və mövcuddur, mötəzililərin təsdiq etdikləri kimi Qiyamət günü üçün hazırlanmayacaq.

Nəhayət C.-in təsvirinin simvolik şərhi problemi açıq qalmışdır. Artıq mötəzililər ənənəvi baxışların çox kobud konkret obrazlarını belə aydınlaşdırmağa çalışmışlar: xüsusən onlar C.-in üstündəki körpünün reallığını rədd edirlər. Bir neçə C. sınağı və əzabının mənəvi xüsusiyyətlərini müxtəlif cərəyanların çoxsaylı ilahiyyatçıları, məs: əl-Qəzali və İbn Sina qeyd etmişlər. C.-in bir neçə təsvirinin simvolik şərhinə müasir müsəlman modernistləri meyllidirlər. Əksinə, ənənəçilər öz ardıcıllarına təsir etmək üçün C.-in müsəlman obrazını müvəffəqiyyətlə istifadə edirlər.

**Ədəbiyyat:** İslam, 63; əl-Kisə`i. Qısas, 17-26, əl-Bağdadi. Üsul əd-din, 237-239; əl-Qəzali. İhya, 4, 479-484; ən-Nəsəfi. Əqaid, 30; əl-'İdvi. Məşariq, 183-186; Wensinck. Handbook, 96-97; B.Carra de Vaux. Djahannam. – EI, 1, 1040; L.Gardet. Djahannam – EI, NE, 1, 381-382.

**Cəhm b. Səfvan, Əbu Mühriz** (745-ci ildə edam olunub) mövla bənu rasib-məşhur cəbəri ilahiyyatçısı və vaizi, Xorasan mürciilərinin – cəhmilərin başçısı. Haris b.Süreycin katibi olarkən C.b.S. Xorasanın Əməvi canişini Nəsr ibn Səyyara qarşı üsyanda iştirak etmiş, əsir düşmüş və Mərvdə edam olunmuşdur.

C.b.S. islam fikrində Quranın yaradılması haqqında ilk fikir söyləyən əl-Ca′d b. Dirhəmin tələbəsidir. Şərtsiz qabaqcadan xəbər verməninn carçısı, antropomorfizmin düşməni, C.b.S. Termez və Mərv məscidlərində onun görüşləri ilə razılaşmayan mürcii və mötəzili ilahiyyatçıları ilə kəskin mübahisələr aparırdı. Xorasandakı mötəzili vaiz Hafs b.Səlimlə, mürcii ilahiyyatçısı – antropomorfisti və Quranın şərhçisi, «Allahın insan kimi bədən, cisim və qandan ibarət olduğunu» öyrədən (767-ci ildə vəf.et.) Müqatil b.Süleyman və başqaları ilə onun elmi mübahisəsi məşhurdur. Özünün əsərlərindən birini o, Müqatilin baxışlarının «təkzibinə» həsr etmişdir. Orta əsr müsəlman doksoqrafları hökm verməni C.b.S.-ın adına yazırdılar, bu da «mömin» ilahiyyatçıların qəzəbli hücumlarına səbəb olur-du. Hər şeydən əvvəl onu ilahi atributlarını rədd etdiyinə görə günahlandırırdılar. O, sübutlardan kənarda olan bilikləri Allaha aid edirdi. O, iddia edirdi ki, insan fəaliyyət göstərmək, istəmək və azad seçmə

imkanına malik deyil. Allah təbiətdə yaratdığı kimi, insanda hərəkət – fəaliyyət yaradır. Hərəkətlər insanın adına təbiətin adına olduğu kimi, eyhamla yazılır, beləki, deyirlər «ağac bar verir», «su axır» və s. Allah insanın fəaliyyət və hərəkət etmək istəyi imkanını da onun dərisinin rəngi, onun boyu və s. kimi yaratmışdır. Mükafat və cəza ancaq məcburidir, daha doğrusu insan öz əməllərinin yaradıcısı deyil. C.b.S.-a görə iman əqidə, söz və əmələ bölünən deyil, iman-Allah haqqında bilik, inanmamaq isə – Onun haqqında məlumatı almamaqdır. Əgər insan Allahı tanıyıbsa, sonra sözdə ondan imtina edibsə o, imanlı qalır. İman (Allah haqqında bilik) hamıda bir cürdür – peyğəmbərlərdən tutmuş sıravi müsəlmana qədər. Mötəzililər kimi C.b.S. Allahı görmək imkanını rədd edir, Quranın yaradılmış olduğunu, vəhyin nazil olduğunu ağılla dərk etmək imkanını qəbul edir.

C.b.S.-ın esxotoloji baxışları «mömin» ilahiyyatçılar tərəfindən kəskin tənqidə məruz qaldı, o, islamda ümumi qəbul olunmuş Cənnət və Cəhənnəmin əbədi olduğunu («əvvəli və axırı olmayan hərəkəti təsəvvür etmək olmaz») və Allahın imkanlarının hüdudsuz olmadığını inkar edirdi.

**Ədəbiyyat:** İslam, 63; əl-Əş′əri. Məqalat, göst.; аш-Шахрастани. Книга о религиях, 44, 60, 84-85; Xalid əl-Asali. Cəhm b. Safvan va məkənətuhu fi-l-fikr əl-isləmi. Bağdad, 1965; W.M.Watt. Djahm b. Safwan. – EI, NE, 2, 338.

**<u>Əl-Cəhmiyyə-cəhmilər, Cəhm b. Səfvanın ardıcılları.</u>** C.-ni gah mürciilərə, gah da cabirilərə aid edirdilər. C. ilahiyyatçı məktəbi artıq onun banisinin vəfatından sonra yarandı. C. baxışlarının ən erkən məşhur vaizlərindən biri (833-cü ildə Bağdadda vəfat etmiş) Bişr əl-Marisi olmuşdur. IX əsrdə müəllifləri həm sünni, həm də mötəzili ilahiyyatçılar olan çoxlu C. təliminin «Təkzibi» meydana gəldi. Onların arasında Əhməd b. Hənbəl, İbn Qüteybə, əd-Darimi və başqalarını göstərmək olar. Artıq XI əsrin əvvəlində C. Nəhavənddə fəaliyyət göstərirdi. Onların bir hissəsi əl-Əş′əri təlimini qəbul etməyə məcbur edildilər.

**Ədəbiyyat:** İslam, 64; əl-Bağdadi. Əl-Fərq, 211-121; Əbu Səid əd-Darimi. Kitab ər-radd alə-l-Cəhmiyyə. Ed.par. Gosta Vitestam. Leiden, 1960; J.van Ess. Dirar b.Amr und die «Gahmiya»: Biographie einer vergessenen Schule. – DI. 1967, 43/3, 241-279; 1968, 44, 1-70.

**<u>Cənazə</u> -** lüğətlərdə nəş, meyit, dəfn, dəfn mərasimi, meyit aparılan tabut və s. kimi verilir. Quranda C. haqqında heç bir şey yazılmayıb, C. haqqında fiqhə dair əsərlərdə ətraflı yazılıb. C. adətləri müxtəlif müsəlman ölkələrində müxtəlifdir və onlar bu xalqlarda islamaqədərki dövrdə mövcud olan müvafiq adətlərlə bağlıdır. Lakin hər yerdə riayət olunan əsas islami qaydaları ayırmaq olar. Ölümün yaxınlaşdığını hiss edən müsəlman

kəlmeyi-şəhadətini deməlidir. Əgər o, özü bunu edə bilmirsə şəhadəti onun qulağına oxumaq lazımdır. Müsəlman «Yasin» surəsini oxumalı və ya eşitməlidir (Q.36). Ölüm qabağı (müsəlmanı) üzü qibləyə çevirirlər. Vəfat edəndən sonra onu yuyurlar (qüsl verirlər). Qüsl verəndən sonra meyiti kəfənə-örtüyə bürüyürlər. Din xadimləri tək rəqəmə üstünlük verirlər, lakin təcrübədə ən çox iki örtükdən istifadə olunur. Ən çox ağ, yaşıl və qara örtüklərdən istifadə olunur, lakin hər hansı rəngli parçadan istifadə etmək olar, təkcə göy və ona çalarlardan başqa. Ölünün gözləri bağlanır, çənəsi sarınır, dizlər bağlanır, əllər yan tərfələrdə olur. Dəfn örtüyü çəkilir, sonra evdə və ya məsciddə meyit namazı qılınır. İntihar edən və imansızlara namaz qılmağa icazə verilmir (Q.9:84/85). İmansızın meyitini yumaq (qüsl vermək) olmaz, lakin o, dəfn olunmalıdır. Uşaq üçün də namaz qılınır, əgər o, heç olmasa bir dəfə qışqırıbsa. «Din uğrunda» şəhidin meyitinə qüsl verilmir, onu həlak olduğu paltarda dəfn edir, ona namaz qılmırlar. Dini qaydalarda belə olmağına baxmayaraq bütün meyitlərə imkan daxilində qüsl verib, kəfənə büküb dəfn edirlər.

İnsan səhər vəfat edibsə, dəfn elə o gün (gün batana qədər) başa çatmalıdır, əgər o, gündüz (günortasonra) və ya gecə ölübsə, onu sabahı gün dəfn edirlər. Meyiti tabuta qoyub tez hərəkətlə aparırlar. Nəzəri cəhətdən qadınlar dəfn mərasimində iştirak etməli deyillər, bərkdən ağlamağa da icazə verilmir, lakin bunlara həmişə riayət olunmur. Adətə görə dəfn kişilərin tək sayı ilə edilməlidir, yəni qəbirtanlığa gedən adamların (müsəlmanlardan söhbət getidyi üçün kişilərin) sayı tək olmalıdır. Lakin buna heç vaxt əməl olunmur (fikir verilmir). Mərasimdə iştirak edənləri heç vaxt saymırlar. Yaxın qohumlar meyiti qəbirə sağ ciyin üstə, üzü qibləyə (başı qərbə tərəf) qoyurlar. Qəbir mümkün qədər geniş qazılır, bəzən böyür tərəfdən taxca edilir və ya dibdə çuxur qazılır ki, Münkər və Nəkir adlı mələklər gələndə ölən otura bilsin. Bunun üçün dəfn örtüyünün ipini də boşaldırlar. (açırlar). Bütün bu mərasim vaxtı Quranın (1, 2, 18, 36, 44, 97-ci) surələri oxunur. Din xadimləri qəbirləri bəzəməyi qadağan edirlər, lakin ölənin adı, onun doğum və ölüm tarixləri və Quran ayələri yazılan bahalı mərmərlərdən müxtəlif şəkildə yonulmuş qəbirüstu abidələr geniş yayılmışdır. Adətə görə, vəfat edəni öləndən sonra 3, 7 və 40-cı günlərdə yad edirlər, məclis qurub, ehsan verirlər, cümə axşamları da qeyd edilir.

**Ədəbiyyat:** İslam, 59; Лэйн. Нравы; G.A.Herklot, J.Sharif. Qanoon-e-islam. L., 1832, 38-39; S.Lane-Poole. The Peoprle of Turkey, 2, L., 1878, 136-143; Donaldson. The Wild Rue, 69-78; T.O`Shaugnessy, Muhammad`s thaughts on death, A thematic studu of the Quranic data. Leyde, 1969; Change, №3424, 3427, 3428, 3444; 3446; A.S.Tritton. Djanaza. – EI, NE, 2, 441-442.

**Cənabət**`- («murdarlanma» sinonimi - nəcasət) – murdarlanma əməlləri və ya halları nəticəsində olan ritual natəmizlik. Əslində isə cunub insan murdar insan deyil, amma nəcasət insanı murdar edə bilər. Cənabət sözünün sinonimi nəcasət deyil. C. məsələləri fiqhin ibadət bölməsində şərh edilir. Murdarlayıcı şeylər və maddələr bunlardır: a) insandan xaric olan bütün şeylər – nəcis, sidik, sperma, qusuntu, irin, heyz qanı, bəzi məzhəblərə görə yaradan gələn qan, kəsilmiş tüklər və dırnaqlar və s., b.) ölü heyvanların cəmdəyi, aşılanmış gön-dəri, buynuz, damar və s. c) şərab və başqa sərxoşedici və məstedici maddələr, əgər onlar tibbi məqsədlə istifadə olunmursa; ç) donuz əti, vəhşi heyvanların və quşların əti; d) iyrənc şeyə oxşayan və iy verən hər şey. Murdarlanma halları hələ qüsl edilməmiş ölüyə-əgər o şəhid olmayıbsa-əl vurulması da hesab olunur, həmçinin axan qan, cinsi əlaqə, heyz, doğuş, ağır xəstəlik, xüsusilə də, o müddətdə insan huşunu itiribsə, uzunmüddətli səfər və bütün bunlar zamanı icazə verilməyən şeylərə toxunma. Ev əşyalarının, evin, paltarların murdarlanması o halda olur ki, məs: evə it girir, qaba şərab tökülür və ya donuz əti qoyulur, paltar üzərinə qan tökülür və s; əgər murdarlanma günahla və ya qayda pozuntusu ilə bağlı olmayan şəraitdə baş veribsə məs: qəssab və ya gön aşılayanın işində o təmizləmə adi yuyulma ilə başa gəlir. Əgər bu icazə verilməz əməlin işidirsə, məs: şərab içmək, haram əlaqə və s. bu halda yuyunmadan başqa tövbə edilməli, kəffarə verilməlidir. Murdarlanmış əşyalar və yerlər diqqətlə təmizlənir, yuyulur və havaya verilir və bu vaxt murdardan təmizləmə niyyəti ilə bağlı dua oxunur.

Murdarlanma haqqında görüş və müxtəlif şeylərin, maddələrin və halların murdarlanma xüsusiyyətinin qiymətləndirilməsi məzhəb və konkret şəraitə görə fərqlənir.

**Ədəbiyyat:** İslam, 58; əş-Şeybani. Əl-Asar, 39-57, 377, 407-408; Th. W.Juynboll. Djanaba. – EI, NE, 2, 440.

**Cənnət-əl-Cənnə («bağ»)** – islamda behiştin ən çox yayılmış adı. Quranda və müsəlman esxatologiyasında möminlərin əbədi rahatlıq tapdıqları yerin adı. Dini təsəvvürlərə görə bu dünyadakı davranışına görə ölümündən sonra insan ruhunun düşə biləcəyi iki məkandan biri. Cəmdə də işlənir – Cənnāt («bağlar») – çox vaxt Quran behiştinin əsas əlamətlərini bildirən söz birləşmələri şəklində işlədilir: «çaylar axan bağlar», «C. nəim» (rahatlıq bağı) «C. ədn» (behişt- ədn C.-i), «C. əl-firdovs» (C. Bağları, Firdovsi C.-i), «C. əl-xuld» (əbədi bağ), «C. əl-mə`va» (yaşayış bağları), «Cənnə aliyə» (yüksək bağlar). Behiştin adlarının başqa kompleksi (dər) dar – «yaşayış yeri», daha doğrusu möminlərin o dünyada yaşayış yeri (dar əl-axirə) istilahıdır. Bunlar dar əs-səlam («sülh yaşayış yeri»), dar əl-müttəqin («Allahdan qorxanların yaşayış yeri»), dar əl-muqamə («əbədi

yaşayış yeri»). Behiştin adı kimi sadəcə olaraq ən-nəim («rahatlıq»), və farsca əl-firdos («behişt») işlədilir. Bəzən Behişt mənasında aydın olmayan istilah illiyyun («yüksəldilmiş») işlədilir (Q. 83:18, 19).

Quran əl-C.-si – çoxlu bulaqları, çayları və gölməçələri (hovuzları) olan kölgəli bağlardır (onun əsas təsvirinə bax: 47:15/16-17; 55:46-78; 56:11-38/37; 76:11-22). Möminlər orada «tünd yaşıl» bağlarda yaşayırlar, orada – çaylar və sular xarab olan deyil, çaylar süddəndir və onun dadı dəyişmir, çaylar içənlər üçün ləzzətli olan şərabdandır (şirin və ətirli sular nəzərdə tutulur), çaylar təmizlənmiş baldandır. Orada meyvələr, xurma ağacları və nar vardır. C. möminləri «bəzəkli döşəklər», «sərin xalçalar» üzərində uzanmışlar, üzü parçadan hazırlanmış mütəkkələrə söykənmişlər. «Onlar yaşıl sundus və parçadan paltar geymiş və gümüş boyunbağılarla bəzənmişlər». «Onlar orada nə günəş, nə də şaxta görürlər, kölgə onların başları üzərinə yaxındır». «Onlar istədikləri meyvəni və quşların ətini yeyirlər». «Allah onlara ənbər dolu fincanda axar bulaqdan təmiz içki içizdirir – orada boş sözlər və günaha görə danlaq eşitməyəcəklər, ancaq «Sülh! Sülh!» sözlərini eşidəcəklər. Onlara «əbədi gənc oğlanlar», «əbədi yeniyetmələr qulluq edirlər – onları görəndə səpələnmiş mirvariyə bənzədirsən». Onlar «əllərində gümüş qablar və büllur qədəhlər» onların (möminlərin) arasında gəzəcəklər. Etdikləri yaxşı əməllərə əvəz olaraq möminlərə «qaragözlü, irigözlü, mirvari kimi qorunan», «bakirə, ərini sevən, həmyaşıd», «onlara qədər heç bir insan və cinin toxunmadığı qaragözlülər» arvad veriləcəklər (Bax: hur).

Möminlərin əsas ləzzəti – sərinlik, rahatlıq, qəşəng paltarlar, ləzzətli yemək və içki, C. qızlarından olan əbədi cavan arvadlar, bakirə olacaq və əbədi cavan olacaq öz arvadlarıdır. Qurandansonrakı rəvayətə görə C.-in bütün sakinlərinin yaşı 33 ildir.

Əl-C.-in müxtəlif möminlərin kateqoriyalarına görə bir neçə qapısı və dərəcələri vardır. C.-in müxtəlif adları Quranda bəzən onun müxtəlif hissələri kimi şərh olunur. Əl-C.-nin suları (hovuzları) arasında Kövsər xüsusilə seçilir (108:1), şərhçilər (təfsirçilər) onu çay və ya gölməçə kimi təsvir edirlər, bütün C. çayları ora tökülür; o, Məhəmməd p. (s) üçün təşkil edilib. Əsas bulaqlardan biri Selsəbildir (76:18). Əl-C.-də tikansız sidr ağacları bitir (56:28/27), əsas behişt ağacı olan Məhəmməd p.-in (s) yuxularında gördüyü (53:13-15) «ən böyük sidr» də oradadır. «Meyvələrlə dolu olan» təlh də (ağcaqayın?) xatırlanır. Behişti məlakələr qoruyur, rəvayətə görə onların başçılarını Rizvan adlandırırlar. Quranda özünəməxsus himn kimi oxunan ər-Rəhman surəsində dörd behişt bağından söhbət gedir, onların hər birində bulaq qaynayır; orada «hər meyvədən iki növ vardır» (55:46-78).

Qurandansonrakı ədəbiyyatda əl-C. astronomik səma üzərində, lakin Allahın taxt-tacından aşağıda yerləşən çoxdərəcəli piramida kimi təqdim olunur. Onun lap yuxarısında «ən böyük sidr» (ağacı) yerləşir, onun üzərində əl-Kəbə və Quranın səma timsalı, bütün insanların əməllərinin qeydiyyatı, Qiyamət günü istifadə olunacaq əşyalar (məs: günahları və savabları çəkən tərəzi) vardır.

Behiştin Q. təsviri ilahiyyatçılar üçün bir neçə problem yaratmışdır. Biri onun «yaradılması» vaxtı haqqındadır. Həzrəti Adəm də əl-C.-də yaşamışdır və əl-C. Qiyamət günündən sonra olacaq. Mötəzililərin görüşünün əksinə olan yayılmış sünni görüşünə görə əl-C. «yaradılmışdır», Qiyamət gününə qədər mövcuddur, lakin behişt ləzzətlərinin əsas hissəsi ancaq insanlar mühakimə olunandan sonra onlara veriləcəkdir. Quranın əl-C.-nin konkret hissi təsviri ilahiyyatçıları təşvişə salır və onların simvolik şərhinin mümkünlüyü haqqında məsələni ortaya qoyurdu. Belə şərhlər mövcud idi, onları cismanilərdən üstün olan intellektual və mənəvi ləzzətlər haqqında düşüncələr kamilləşdirirdi. Sünni əhkamının əsasına daxil olan mövqeyə görə əl-C.-də möminlərin əsas ləzzətləri «Allahın üzünü» görmək olacaq. Bu Quran istilahının başa düşülməsi də ümumiyyətlə, müsəlman ilahiyyatının və xüsusilə də, müsəlman esxatologiyasının mübahisəli problemi oldu. Mötəzililər Allahı hər cür görmək mümkünlüyünü rədd edirdilər. Əl-Qəzali Allahı «şəkilsiz və formasız görməyin mümkünlüyü haqqında yazırdı. Standart əqidələr qeyd edirlər ki, möminlərin Allahı görməsi realdır, lakin Onun necə görünəcəyini dəqiqləşdirmirlər.

Quranda Bibliya (ʹədni) və fars (əl-firdovsisi) terminləri behişti mənalandıran istilahlar kimi işlədilir. Bəzi Quran təsvirləri yəhudi, xristian və qədim Mesopatomiya mətnlərində öz paralellərini tapır. Bununla belə Quranda tələbkar olmayan və sərt şəraitdə yaşayan səhra və təcrid olunmuş vadilərin sakinlərinə xas olan yüksək ləzzət haqqında anlayışlar canlı olaraq hiss olunur. Ümumiyyətlə, behiştin müsəlman obrazını müxtəlif Yaxın Şərq - xüsusilə də xristian, yəhudi və zərdüştlük dinlərinin ardıcılları arasında mövcud olan behişt haqqında xalq anlayışlarının Ərəbistandakı inkişafı hesab etmək olar.

Əl-C. surəti Quranda bir çox dəyişikliyə uğrayıb. Məkkə mərhələsində o, çox emosiyalıdır, Mədinə surələrində o, daha konkretdir, orada behişt çaylarının müfəssəl təsviri verilir, cəlbedici «qaragözlülər» (hurilər) möminlərin bu dünyadakı arvadları ilə əvəz olunur və s.

Behişt ləzzətinin Quran təsvirləri islamın bütün cərəyanları tərəfindən təbliğ məqsədi ilə geniş istifadə olunurdu. Xüsusilə də onlar ismaililər təlimində böyük yer tuturdular. Həsretmənin yuxarı dərəcələri üçün onlar bilikdən ləzzət alan kimi bir-birilərini rəmzi olaraq başa düşürdülər. Adi ismaililər üçün isə onlar guya hətta Bu dünyada əldə edilən konkret hədəf

olurdular. Behiştin elə həmin obrazları antimüsəlman təbliğatı tərəfindən «əxlaqsızlıq» və «kobudluq»un sübutu kimi istifadə olunurdu.

Müasir islamda konkret əyanilik əl-C.-in simvolik şərhi ilə çulğaşır (əlaqələnir). Auditoriya və möizənin məqsədindən asılı olaraq müxtəlif aspektlər birinci plana çəkilir.

**Ədəbiyyat:** İslam, 59-60; əl-Kisəi. Qısas, 17-18; əl-Qadi. Dəqaiq; əl-Bağdadi. Üsul əd-din, 237-239; əl-Qəzali. İhya, 4, 486-494; ən-Nəsəfi. Əqaid, 30. İbn Ərəbi. Əl-Fütuhat, 1. 353-360; İbn Qəyyum. Hadı, 220-227; əl-Cürcani. Şərh, 584; əl-İdvi. Məşəriq, 186-202; J.Haorovitz. Das Koranische Paradies. Jerusalem, 1923; Wensinck. Handbook, 180-183; J.Macdonald. Paradise. – İst., 1966, 5/4, 331-383; B.Carra de Vaux. Djanna. – EI, 1, 1058-1059; L.Garder. Djanna. – EI, NE, 2, 447-452; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 63.

**Cəbrayıl, (Cibril Cəbrail, Cəbril ə.)** – Allaha daha çox yaxın, Onunla peyğəmbərlər, xüsusilə də, Məhəmməd (s) arasında baş vasitəçi olan mələkin adı. Quranda o, Məhəmmədə xüsusi olaraq vəhylə - Quranla (2:97/91-98/92; 66:42) göndərilmiş, Allahla birlikdə Məhəmmədi kafirlərdən qoruyan hamı kimi qeyd olunur. Quran şərhçiləri (təfsirçiləri) Məhəmmədə (s) vəhy gətirən aşağıdakı ruhların əlamətlərini də C.-ə (ə) aid edirlər: ər-ruh (17:85/87, 97:4), ruh əl-quddus («müqəddəs ruh» 16:102/104), ər-ruh əl-əmin («düzgün ruh» 26:193), ruh min əmri Allah («Allahın əmrindən olan ruh» - 16:2; 17:85;/87; 40:15; 42:52). Belə təbirlər Məryəm (Ruh – 19:17; 66-12) və İsa peyğəmbər haqqında (ruh əl-quddus- 2:87/81, 253/254; 5:110/109) hekayələrdə də istifadə olunur: belə hesab edirlər ki, Quran C.-i (ə) onlarla da bağlayır.

Qurandansonrakı rəvayətlərdə hər şeydən əvvəl C.-in Məhəmmədin (s) həyatındakı rolu ətraflı təsvir olunur. O, Məhəmmədə (s) Quranı gətirməyə başladı, və onları tam hissələrlə gətirdi, bir dəfə də ramazanda – tam bütöv gətirdi, o, Peyğəmbəri qoruyub, onu düz yola çağırırdı, onu Qüdsə (Yerusəlimə) «gecə səyahəti» zamanı müşayət etmişdi, hərbi tədbirlərdə və ilahiyyat məsələlərində (mübahisələrində) ona kömək edirdi. C. (ə) habelə başqa peyğəmbərlər haqqındakı tarixlərdə də mühüm sima olmuşdur. Allah C.-i (ə) həzrəti Adəmi yaratmaq üçün torpaq dalınca göndərdi, C. Adəmi Cənnətdən qovulandan sonra himayə etdi, h. Nuha xilas olmağa kömək etdi, H.İbrahimin oğlunu xilas etdi, o, H. Yusifə çoxlu dil öyrətdi, o, Davuda zireh geyimini düzəltməyi öyrətdi, o, Süleymana kömək edib, Zəkəriyyəyə Yəhyanın doğulacağı haqqında xəbər verdi və s.

C. (ə) Allaha yaxın dörd mələklərdən (o biriləri Mikail, İsrail, İsrafil) ən başlıcası hesab olunur. Hərdən onu ayağı yerdə, başı isə buludlarda olan çox nəhəng bir məxluq kimi təsvir edirlər. O, müsəlman sehrində mühüm

rol oynayır. Onun adını Allaha yaxın başqa mələklərin adı ilə birlikdə sehirli kvadratların kənarına yazırlar.

C. surəti Quranda yəhudi-xristian ənənələri ilə eynidir. Ən erkən ayələrdə Məhəmmədlə Allah özü danışır, sonra vasitəçi ruh, daha sonralar isə mələk kimi qeyd olunan Cibril adlı mələk meydana gəlir. O, Mədinədə yəhudilərin Mixailinə və xristianların rəvayətlərindəki Qavriil obrazına bənzəyirdi. Vasitəçi-ruhun C.-lə daha inamlı eyniləşdirilməsi və Məhəmmədin (s) həyatında onun rolunun işlənməsi (böyüklüyü) şərhçilər və ilahiyyatçıların əməyinin bəhrəsidir. Rəvayət var ki, Məhəmmədə (s) ilk vəhyləri başqa mələk gətirmişdir, C. (ə) isə «fətrədən» - «vəhylər» arasındakı boş qalan müddətdən sonra gəlmişdir.

**Ədəbiyyat:** İslam, 64; ət-Təbəri. Təfsir, 1, 341-349; əl-Qəzvini. Əcaib, 57-58; əl-Beydavi. Təfsir, 1, 74; Eickmann. Die Angelologie, 16-18, 29-1; Horovitz. Untersuchungen, 107; Eichler. Die Dschinn, 123-131; Beltz. Sehnsucht, 154-155; Gaudefroy– Demombynes. Mahomet, 74-75; B.Carra de Vauxs. Djabrail. – EI, 1, 1032-1033; J.Pedersen. Djabrail. – EI, NE, 2, 363-364.

**Cihad–cəhad** («cəhd») din (İslam) uğrunda çalışma (mübarizə) – (məs: cihad fi səbili Allah – Allah yolunda çalışma). «Cəhədə»- çalışmaq felindən olub, din uğrunda hər cür çalışmağa, o cümlədən vuruşmağa da deyilir. Quran təlimatına görə hər döyüş qabiliyyəti olan müsəlmanın iştirakı vacib olan müqəddəs müharibə. Sultan Türkiyəsində və Qafqaz müsəlmanlarında C. qəzəvat adlanırdı. Əvvəllər C. mənasında müdafiə və islamın yayılması uğrunda mübarizə başa düşülürdü. Quranda bu mübarizə haqqında Məhəmmədin (s) Məkkə və Mədinə həyatının mərhələlərinin konkret şəraitlərinin fəaliyyətini əks etdirən birmənalı olmayan təlimatlar vardır: 1) «çoxallahlılarla» münaqişəyə girməmək və onları «ağıl və yaxşı öyüd-nəsihətlə» həqiqi dinə yönəltmək; 2) islamın düşmənləri ilə müdafiə müharibələri aparmaq; 3) dinsizlərin üzərinə elə hücum etmək ki, hərbi əməliyyatlar müqəddəs aylara düşməsin; 4) onların üzərinə həmişə və hər yerdə hücum etməli.

Fəqihlər tərəfindən sonradan hazırlanan konsepsiyalarda C. termini yeni mənalarla zənginləşdirilir: «Ürək-nəfs ilə cihad C.-ı» (axmaq meyllərə qarşı nəfsi mübarizə), «Dil C.-ı (xoşagələni qəbul etmə və pislənəni rədd etmə»), «Əl C.-ı» (canilər və əxlaq qaydalarını pozanlar haqqında inzibati ölçülər götürmək) və «Qılınc C.-ı» (kafirlərlə silahlı mübarizə, orada şəhid olana Cənnətdə əbədi ləzzət hazırlanıb) arasında fərqləndirmə aparılır; Məhəmmədin (s) adına yazılan sözlər: «Biz kiçik C.-dan böyük C.-a başlamaq üçün qayıtdıq» mənəvi özünükamilləşdirmə böyük C., kafirlərlə müharibə isə – «kiçik C. elan edilir. C. mənəvi şərhi sufizmdən alır.

C. sonradan dəqiqləşdirilmədən, adətən islam uğrunda kafirlərlə silahlı mübarizəni bildirir və bu mənada müsəlmanlarda «müqəddəs müharibə» istilahı işlənir. «Kafirlərə zərbə endirmək, onların mülkiyyətini əllərindən almaq, onların müqəddəs ocaqlarını dağıtmaq, onların bütlərini məhv etmək və s.» yolu ilə müəyyənləşən C. müsəlman icmasının əsas vəzifələrindən biri sayılırdı. Lakin bu hələ islamın erkən yayılması mərhələsində mübahisəli idi. Belə ki, Süfyan əs-Sövri (715-777-78) iddia edirdi ki, C. – müsəlmanlar ancaq hücuma məruz qalanda onların vəzifəsi kimi onlara məsləhət görülən bir qərardır. Yeni dövrdə eyni nöqteyi-nəzəri babilər və əhmədilər yürüdürdülər (axırıncılar C.-ı məsləhət görülən qərar kimi də rədd edirdilər). Silahlı mübarizə obyekti nöqteyi-nəzərindən fiqhə dair əsərlərdə altı növ C. fərqlənir: 1) «Allahın düşmənlərinə» qarşı (daha doğrusu ümmətin mövcudluğuna təhlükə yaradanlar, müsəlmanları təqib edənlər və bütpərəstlərə  qarşı) C., 2) sərhədlərin toxunulmazlığına qəsd edənlərə qarşı (daha doğrusu xaricdən təcavüzə) qarşı C.; 3) dini mürtədlərə qarşı (Müseylimə kimilərə) C.; 4) «zülmkara» qarşı (əl-bəği) C.; 5) quldurlara qarşı C.; 6) cizyə verməkdən imtina edən qeyri-müsəlman monoteistlərə qarşı C.; Qılıncla öldürülməklə İslamı qəbul etmə arasındakı seçim ancaq bütpərəstlərə təklif edilirdi: kitab əhlinə gəlincə onlara belə seçim təklif edilirdi; ya islamı qəbul etmək, ya cizyə vermək, ya da müharibə (C.). Müsəlmanların Ərəbistandan kənarda ilk olduqları ölkələrdə əhalinin çoxunu onlar təkallahlı kimi qəbul edirdilər, buna görə də C.-ın məqsədi oraların əhalisini islama cəlb etmək deyil, onları müsəlman dövlətinə tabe etdirmək və onları cizyə verən himayə olunan zimmilərin vəziyyətinə keçirmək idi (bax. əhl zimmə). VII əsrin sonunda islama yeni daxil olanları cizyədən azad edən islama keçid bəzən hətta rəğbətlə qarşılanmırdı, belə ki, bu, müsəlman xəzinəsinə zərər vururdu. Zimmilərin sıralarına keçməyə mürtədlərə icazə verilmirdi – onları edam edirdilər.

C.-ın klassik doktrinasına görə müsəlmanlar xarici təcavüzə məruz qalmayan  vaxtlar C.-da iştirak etməkdən aşağıdakılar azad edilirlər: həddi-buluğa çatmayanlar, ağlıkəmlər, qullar, qadınlar, xəstə və zəlillər, yürüş ləvazimatı olmayanlar, şəhərin ən yaxşı fəqihləri, valideynlərindən C.-da iştirak etməyə icazə almayanlar və kretidorlarından belə icazəni almayan borclular. Vuruşan tərəflərin qarşılıqlı əlaqələrinə aid olan bu doktrinanın qərarlarına görə düşmən düşərgəsində müsəlmanlara qarşı vuruşmayan qadın və yeniyetmələri öldürmək qadağan edilir. Böyük kişilər isə hərbi əsir alınır. Bununla bərabər hənəfilər bu qaydanı əsgəri işlərə və nəsli artırmağa (qocalar, monarxlar və s.) yararlı olmayanlara şamil etmirdilər. Hərbi əsirlərlə imam üç cürə rəftar edə bilərdi: öldürə, pul alıb azad edə və ya qul edə bilərdi. O, hərbi əsiri edam etməyi qərara alsaydı bu qərar yerinə yetirilənə qədər heç kimin əsiri şikəst etmək və ya fiziki

əzablara məruz qoymağa ixtiyarı yox idi. Malikilərə görə imam əsiri azad edib, onu zimmi halına keçirə bilərdi. İslamı qəbul edən hərbi əsirləri öldürməyə icazə verilmirdi. Bəzi erkən ilahiyyatçılar, məsələn əl-Həsən əl-Bəsri (642-728) hərbi əsirin öldürülməsini qadağan olunmuş və ya qınağa uyğun iş kimi qiymətləndirirdilər. Əl-Övzai (707-774) və ismaililər düşmən ərazilərində onların yerlərini və bağları məhv etməyin qadağan olduğunu hesab edirdilər, hənəfilər isə iddia edirdilər ki, əyər hərbi əməliyyatlar vaxtı insanları öldürmək olarsa, onda bitkiləri məhv etməyə daha çox icazə verilməlidir. Bütün məzhəblərə görə müsəlman ərazilərinə düşmənin aparıla bilinməyən bütün əmlakı məhv edilməlidir (heyvanlar barəsində bu birlik yox idi).

Ərəbistan tayfaları tərəfindən islamaqədərki dövrlərdə həyata keçirilən yürüş adətləri ilə genetik bağlı olan C. ideyası sonralar müsəlman dövlətlərinin ərazilərinin zəbt olunmasına imkan yaratdı, yeni və ən yeni dövrlərdə isə o, müstəmləkəçiliyə qarşı mübarizə məqsədlərində istifadə olundu. Son onilliklərdə islamın dünya miqyasında təntənəsi C.-ın hədəfi kimi ancaq bəzi qatı fundametalist tərəfindən təntənə ilə qeyd edilir, əslində isə C.-ın şüarları əsasən İsraillə mübarizədə istifadə edilir. Müasir ərəb ədəbiyyatı C.-ın müdafiə aspektlərini qeyd edir, yeri gəlmişkən, bəzi müəlliflər C. doktrinasına əsaslanan «müsəlman beynəlxalq hüququnu» hazırki beynəlxalq hüquqa daxil etməyi müdafiə edirlər. C. geniş mənada təcavüzə qarşı dura bilən, milli müstəqilliyin möhkəmlənməsi uğrunda mübarizə kimi, ictimai-iqtisadi inkişaf proqramının həyata keçirilməsi və konkret vəzifələrin yerinə yetirilməsi, (məhsul uğrunda mübarizə, torpağın erroziyasına qarşı, savadsızlığın ləğv edilməsi və s. kimi) iqtisadi və hərbi gücə nail olmaq üçün ən yuxarı güc tətbiq edilməsi kimi şərh edilir (bax. dər əl-harb, dər əl-isləm, dər əs-sülh, aman).

**Ədəbiyyat:** İslam, 67; əl-Cihad fi-l-islam. Qahirə, 1967; A.Maududi, X.əl-Bənna, C.Qutb. Əl-Cihad fi səbili-llah. Beyrut, 1969; M.Khadduri. War and pease in teh law of islam. Baltimore etc., 1962; M.T. Al-Ghunaimi. The Muslim conception of international law and the westeren apparach. The Hague, 1968; A.Morabia. la notion de gihad dans I`İslam "medieval" Des origines aal-Gazalı. Lille, 1975; G.Ferguson. War and peace in the world`s religions. L., 1977; W.A.Boisard. L` humanisme de I`Islam/ P., 1979; P., 1979; R.Peters. İslam and colonializm. The Doctrine of Jihad in modern history. The Hague etc., 1979; W.Schwartz. Gihad unter Muslimen – Studien zum Minterheitenproblem in İslam. Wiesbaden, 1980; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 63.

**Əl-Cilani (Gilani), Mühyi –d- din Əbdülqadir b. Əbu Saleh Cənqidust (1077-1166) -** hənbəli vaizi və ilahiyyatçısı, sufi şeyxi. O,

Gilan (İran) əyalətinin Nifə (Nayfə) kəndində anadan olmuşdur (atasının adına görə) fars mənşəlidir. 18 yaşında əl.C. Bağdada gəlir və orada çoxsaylı alimlərin mühazirələrində iştirak edir: hənbəli hüququ kursunu (qardaşlıq), o, Əbulvəfa ibn Aqildən (vəf. h.119-cu il) və qazi Əbu-s-Səid əl-Mübarək əl-Mühərrimidən dinləyir. Sonuncu h. 110-cu ildə ona xirqa əl-xidriyyə bağışlayır, baxmayaraq ki, əl-C.-nin bu vaxta qədər nəinki sufilərlə heç bir əlaqəsi yox idi, hətta o, Nizamiyyə mədrəsəsində mühazirələrə getməkdən imtina etmişdi, çünki orada Əhməd əl-Qəzali (vəf. 1126-cı il) dərs verirdi. Lakin sonradan o, sufi Əbu-l-Xeyr əd-Dəbbasın (vəf. 1131-ci il) məktəbinə getməyə başladı, bu onun tələbələrinin narazılığına səbəb oldu. Həccə getdikdən sonra o, 25 il Cənubi İraqın çöllərini gəzib zahidlik həyatı keçirdi və sufilərə yaxın durmadı. 50 yaşında o, Bağdadda peyda olub vaiz rolunda çıxış etməyə başladı. Onun hənbəli vaizi kimi şöhrəti surətlə artdı və tez bir zamanda o məşhurlaşdı. Altı ildən sonra o, öz müəllimi əl-Mühərriminin məktəbinə başçılıq edirdi; tezliklə (1113-cü ildə) onun və onun çoxsaylı ailəsi üçün yeni mədrəsə binası ilə bir kompleksdə ayrıca xanəgah (ribat) tikildi. Orada o, müfti – Quranın şərhçisi kimi çıxış edirdi, hədis və fiqh haqqında elmlərdən dərs deyirdi, öz dini-etik məzmunlu moizələrini oxuyurdu, bununla belə o, diqqətlə sufi mövzuları və istilahlarından çəkinirdi. Bu açıq mühazirələr xalq kütləsini toplayıb, müsəlman dünyasının hər tərəfindən şagirdləri əl-C.-yə tərəf cəlb edirdi. Əl-C. çalışqan hənbəli idi, Məhəmmədin (s) sünnəsini qeyd-şərtsiz izləyirdi, əslində sufilərin ekstatik təcrübələrini rədd edirdi, asketizmi isə ictimai vəzifələrlə məhdudlaşdırırdı. Özünün möizələrindən birində o, müsəlmanın özünü aparmağın on qaydasını şərh etmişdi.

Əl-C. şübhəsiz, öz dövrünün sufi məktəbləri ilə tanış idi, o, onlara «əl-Hunyə li talib tərik əl-haqq» əsərinin demək olar tam ikinci hissəsini həsr etmişdir, lakin hansı baxışlara onun şərik olduğunu demək çox çətindir. O, ənənənin əksinə olaraq sufi dərk etmə yolunda (təriqə) xüsusi bir üslub yaratmadı, onun habelə bu yolda kimə isə rəhbərlik etdiyi də məlum deyil. Əl-C.-nin adətən qadiriyyə sufi qardaşlığının banisi sayıldığına baxmayaraq, əslində o, onun nəsilləri və ya ardıcılları tərəfindən ancaq XIII əsrin ortalarında (bir sıra mütəxəssislərin rəyinə görə hətta XIV əsrdə) yaradılmışdır. Onun mənəvi geneologiyasının (silsilə) əsil olması çox şübhəlidir: başqa qardaşlıq silsilələrinin ona müraciəti çox az hallardadır. Qadiriyyənin gizli namazlar – dualar (vird, hizb), zikr və təlimatları orijinal hesab edilmir və sonralar kimdənsə götürüldüyü möhürünü özündə daşıyır.

Əl-C.-yə əhəmiyyətli dərəcədə onun pərəstişkarları və ardıcılları (əsasən tacirlər və sənətkarlar) tərəfindən göstərilən maddi dəstək ona müstəqil (azad) olmağa, kasıblara kömək etməyə və hakimiyyət başında duranları pisləməyə imkan yaradırdı. Kütlə onu müqəddəs – möcüzəçi

adlandırıb, Allah qarşısında onu əlsiz-ayaqsızların himayədarı kimi qələmə verir, bəzi tərəfdarları isə gizlində onu ilahiləşdirirdilər. Əl-C. yüksək müqəddəs dərəcəyə iddiaçı idi və onun əl-qays əl-ə′zam (əzəmətli havadar), «pir-i dəstgir» (qoca köməkçi) ləqəbləri var idi. Bağdaddakı əl-C. məqbərəsi – islamın ən məşhur müqəddəs yerlərindən biridir. İl ərzində ondan bərəkət almaq ümidi ilə onun qəbrini çoxsaylı zəvvarlar ziyarət edirlər. Orada hər il əl-C.-nin şərəfinə bayram şənliyi (urs) keçirilir.

Əl-C.-nin özündən sonra qalan əsərləri: hənbəli məzhəbi nöqteyi-nəzərindən müsəlmanların ictimai və etnik (mənəvi) vəzifələrinə, islamda 73 icmaya və onun müasiri mistik dərketmə Yolu məktəblərinin təsvirinə həsr olunmuş əl-Hunyə li talib tərik əl-haqq əsəri, onun oğlu tərəfindən yığılmış əl-C.-nin iki moizələr məcmuəsi; əl.C.-nin adına yazılan «Qasıdat əl-qövsiyyə» onun deyil, çünki çox gec tərtib olunub.

**Ədəbiyyat:** İslam, 65-66; Dara. Şekuh. Safinat, 37b-58b; Abd əl-Haqq Mühəddis Dihləvi. Əxbar əl-əxyar. Deli, 1891, 9-21; D.S.Margoliouth. Contributions to the biography of Abd al-Kadir of Jilan. – JRAS, 1907. 2, 267-310; Trimingham. Orders, 40-44; Hodgson. Venture, 2, 209; J. – CL. Vadet. Leloquence d un sermonnaire hanbalite Bagdadien du XII siecle Abd al-qadir al Djilani. – EI, NE, 1, 70-72.

**Cin-Cinn** (tək işlənir – cinni; sinonimi cann) – cinlər, Allahın yaratdığı üç kateqoriya ağıllı canlılardan olan mifoloji canlılardır (o biri ikisi mələklər və insanlardır). Qurana görə C. tüstüsüz oddan yaradılıblar, hava və ya oddan bədənləri var, istənilən şəkildə ola bilirlər, çətin-mürəkkəb işləri görə bilirlər. Adəm peyğəmbərə qədər də Yer üzərində yaşamışlar, adətən insanlara qarşı bədniyyət olublar (6-112, 128-130; 15-27; 37:158; 41:29; 46:18/17; 51:56; 55:15/14). Lakin onların xeyirxahları, müsəlman və kafirləri də vardır. Rəvayətə görə onlar kişi və qadın cinsində olurlar, qadınlarına el arasında «alarvadı» deyirlər, səhralarda, dağlarda və meşələrdə yaşayırlar, bir neçə kateqoriyada olurlar, onlardan qul, ifrit və si′latları var. Rəvayətlər bəzən Şeytanı da cinlərə aid edir.

Qurana görə Məhəmməd (s) Allah tərəfindən insanlara və C.-ə göndərilmişdir. C.-in bir qismi peyğəmbər (s) tərəfindən oxunan Quranı eşidib imana gəlmiş və islamı yaymağa başlamışlar (72:1-17; 46:29/28-32-31). Başqaları isə İblisin dalınca gedərək, pis işlər görməkdə davam edir və Şeytanla birlikdə onun qoşununu təşkil edirdilər. Bütün kafirlər kimi onları da Cəhənnəm əzabı gözləyir (7:38/36, 179/178; 11:119/120). Bütpərəstlər C.-ə sitayiş edirdilər (34:41/40). Allahın əmri ilə C.-in böyük bir hissəsi Süleyman peyğəmbərə qulluq edirdi, onlar onun üçün məbədlər və saraylar tikir, bir göz qırpımında Sav çariçasının taxtı tacını gətirdilər (34:12/11-

14/13; 27:17, 38-42). C. xəstəlik gətirə bilər, əzab verə bilər, insana pislik və yaxşılıq edə bilərlər.

Müsəlman ilahiyyatçıları C.-in mövcudluğunu qəbul edərək, onlar haqqında ətraflı danışmamağı məsləhət görürlər. Müsəlman bədii-tərbiyəvi ədəbiyyatı C., onların məhəbbət tarixləri, onların gizlətdikləri xəzinə, onların zahidləri aldadıb ələ almaq istəkləri haqqında hekayələrlə doludur. C. və onların möcüzələr yarada bilmək bacarıqları orta əsr müsəlman xalq ədəbiyyatı və folkloru, xüsusilə də «1001 gecə» nağıllar silsiləsinin sevimli surətləri olmuşlar.

Müsəlmanlar arasında yayılan sehrin ən baş aspektlərindən biri – C.-i özlərinə tabe etməyə cəhd edib, onlardan möcüzələr yaratmağa istifadə etməkdir. Bu günə qədər də C.-i ram etmək üzrə kitab-təlimat geniş surətdə istifadə olunur.

C. Ərəbistanın islamaqədərki xalq inanclarının demək olar tam surətdə islama daxil olan bir hissəsidir. VI-VII əsrlər Daxili Ərəbistan sakinləri üçün onları əhatə edən bütün Aləm – səhralar, dağlar, daşlar və ağaclar C.-lə dolu idi. Onlar əsasən insanlar üçün bədniyyət hesab edilirdilər, lakin onlara itaət edərək və qurbanlar verərək onları xoşniyyət edib, onlardan kömək almaq olardı (Q. 6:100, 128; 37:158; 72:6). C. Şeytan kimi kahinlər və şairlərə o dünyadan ilham almaq üçün kömək edirdilər. Məhəmmədin (s) qəbilə adamları onun çıxışlarını da C.-in təlqini hesab edirdilər. Quran, C.-i müsəlman aləmi tablosuna daxil edib Ərəbistan yarımadası əhalisi üçün VII əsrin əvvəlinin şərtsiz həqiqət (real) olduğuna islami şərh vermişdir. Sonralar C.-in müsəlman obrazı islamı qəbul edən xalqların folklor və dini irsinin çoxlu elementlərini özündə cəmləşdirdi.

**Ədəbiyyat:** İslam, 66; ət-Təbəri. Təfsir, 29, 64-78; əl-Qəzvini. Əcaib, 368-374; əl-Beydavi. Təfsir. 2, 361; əş-Şibli. Aqam əl-mərcan; əd-Damiri. Həyat, 170-181; Nimə. Əl-Cinn fi-l-ədəb əl-'arabi. Beyrut, 1981; van Vloten. Damonen, 7-8; Eickmann. Die Angelologie, 13-16; Eichler. Die Dschinn; J.Chelhod. les structures du sacre ches les arabes. R., 1964, 70-73; T.Fahd. Anges, demons et djinnes en İslam. – Genies, anges et demons. 8. R., 1971; J.Henninger. Geis-Genies, anges et demons. 8. P., 1971; J.Henninger. Geisterglaube bei den vorislamimchen Arabern. – J.Henninger. Arabia Sacra. Freiburg, 1081, 118-169; Waardenburg. Changes; D.B.Macdnolad, [H.Massse]. Djinn. – EI, N, 2, 546-548.

**Circis** – müsəlman rəvayətlərinin obrazı, Allaha inanan, Fələstindən olan mömin adam, İsa peyğəmbərin apostollarından (həvarilərindən) birinin şagirdi. İmanı (dini) təqib edənlərdən sığınacaq axtararaq o, İraqa-qəddar və bütpərəst Mosul çarının yanına gəlir. Çar onu dindən döndərmək üçün ona əzab verir, lakin C. əzablara dözür. Elə olduqda onu edam edirlər. Hər

edam olunduqdan sonra Allah onu dirildir. Bundan əlavə, onun dirilməsi üçün başqa möcüzələr də göstərir, yoxsul arvada ölmüş öküzlərini qaytarır, ölüləri qəbirdən qaldırır, taxta oturacaqları ağaca çevirir və s. Nəhayət Allah günahkar çarı və onun şəhərini məhv edir.

C. xristian müqəddəs Georgidir və bu eynilik müsəlmanlar tərəfindən adətən aydın şəkildə başa düşülür; o hər iki dinin nümayəndələri tərəfindən hömrətlə sayılan Quran surətlərindən olmayan əsas fiqurlardan biridir. Onunla bağlı olan əfsanələr xristian rəvayətləri ilə həmahəngdir, onun surəti – aləmin və təbiətin yeniləşdirilməsi rəmzi ilə ölüb dirilən allahların Yaxın Şərq obrazıdır. Müsəlman rəvayətləri çərçivəsində C. haqqında əfsanələrin motivləri tez-tez ölməzlik və yeniləşdirici ideyalarını təmsil edən əl-Xadir (Xıdır) və İlyas surətlərinə keçirlər. Azərbaycanda Cərcis peyğəmbər kimi tanınır və onun adına İmişli rayonunda ziyarətgah var.

**Ədəbiyyat:** İslam, 66; ət-Təbəri. Tarix, 1, 795-812; əs-Sə′ləbi. Qısas, 241-245; B.Carra de Vaux. Djirdjis. – EI, NE, 2, 533.

**Cizyə -** müsəlman ölkələrində hüquqşünaslar tərəfindən fütuhatlar zamanı başqa din sahiblərindən onların həyatlarını saxlamaq üçün himayə pulu kimi alınan can vergisi. C. əlsiz-ayaqsız qocalar, əlillər, dilənçilər və qullardan başqa bütün həddi-büluğa çatmış kişilərdən alınırdı, VIII əsrin əvvəllərinə qədər ondan kahinlər də azad idilər. Vergi verənin vəsait vəziyyətindən asılı olaraq C.-nin qanuni məbəli 12, 24, 48 dirhəm (qızılla mübadilə ölkələrində isə 1, 2, 4 dinar) idi.

İslamın on ili ərzindəki C. haqqında məlumatlar bir-birinə ziddir. İstilah özünə Quranda rast gəlinir (9:29), lakin hətta orta əsr hüquqşünasları belə, onun «əvəz, mükafat» deyil, müəyyən bir verginin olmasına şübhə edirlər. VII əsrə aid məlumatlarda C. daim xəracla qarışdırılır, çünki fəth olunmuş əyalətlərdən yığılan bütün vergiyə başqa din sahiblərindən alınan azadlıq (pulu) kimi baxılırdı, həm də bu mərhələdə verginin yığılması çox vaxt yerli inzibatçılar tərəfindən islamaqədərki xəzinə təcrübəsindən istifadə edilərək yığılırdı, onda C.-ni ayrıca vergi kimi ayırmaq əsası yox idi. Lakin, istisna deyil ki, cizyənin indi də mövcud olduğu bəzi əyalətlərdə (məs. İraqda) C. fəthin ilk illərindən alınmağa başlamışdı.

C.-nin fərdi məsuliyyətlə xüsusi vergi kimi alınması VII əsrin birinci rübündə başa gəldi və vergi verən əhalinin vəziyyətinin pisləşməsi ilə müşaiyət olundu, belə ki, vergi yığılan dairələrdəki ümumi məbləğ çoxaldı və ellik zəmanət aradan getdi. Vergidən yayınmamaqdan ötrü istifadə olunan tədbirlərdən biri boyundan asılan – verginin verilməsi haqqında qurğuşun qəbz – birka idi.

Nəzəri baxımdan C. vergi ilinin başa çatması ilə eyni vaxtda verilməli idi, lakin təcrübədə (məs: qeydlərin əsli qalmış Misirdə) o, hissələrlə

alınırdı. C.-nin qədəri XV əsrə qədər dəyişməz qalmışdı, ancaq Osmanlı Türkiyəsində pulun qiymətinin aşağı düşməsi ilə əlaqədar olaraq dövlət vaxtaşırı xüsusi qərarla pulun qiymətinə uyğun olaraq C.-nin qədərini nizamlayırdı.

XI-XIII əsrlərdə ölkələrin çoxunda kollektiv məsuliyyət sisteminə qayıtmaq meyli baş verir. Hər bir başqa din sahiblərinin icması üçün insanların sayından asılı olaraq ümumi C. məbləği təyin edilirdi (XIII əsrdə Misirdə orta hesabla adam başına 2 dinar idi), verginin yığılması və vaxtında dövlətə təhvil verilməsinə icmanın başçısı cavabdeh idi. Osmanlı Türkiyəsində müxtəlif vaxtlarda hər iki forma işlənirdi, özü də hərdən cavabdeh vergilərin otkupçusu (mültəzimi) olurdu. Yenilik – varisliyə torpaq sahəsi almış qadınların da vergiyə cəlb olunması idi. Müsəlman ordusunda vuruşan xristianlar C.-dən azad olunurdular. Norman Sicilyasında müsəlmanlardan alınan can vergisi də C. adlanırdı.

**Ədəbiyyat:** İslam, 65; Cl.Cahen, H. Inalcik, P.Hardy. Djizya. – EI, NE, 2, 559-567.

**Cövhər -** (farsca «dürr, gövhər») – substansiya (cövhər). Kəlamda, xüsusilə də onun inkişafının ilk mərhələlrində C. kəlməsi altında tək-tək, nadir şeyi başa düşürdülər, ondan onun aksidensiya (ərəz, cəmdə ə’rād) «adlanan kəmiyyət və keyfiyyət xüsusiyyətlərini ayırd edirdilər. Cismin sonsuz olaraq parçalanmasını rədd edən mütəkəllimlərdə C. (bəzən söz birləşməsində əl-cauhər əl-fərd, əl-cauhər əlləzi lə yənqasim) «atom» istilahının sinonimi idi. Filosoflarda (Şərq peripatetikləri) C. sözü ilə Aristotelin doqquz aksidensiyası ilə yanaşı on kateqoriyasından birincisi, daha doğrusu yeganə və ya universal ola bilən (yeganə əşya, onun növü və şəkli) substansiya («mahiyyət») qeyd olunurdu. Allah nə substansiya, nə də aksidensiya kimi xarakterizə olunurdu, buna görə də kəlam və fəlsəfənin yaxınlaşmasından sonra yaranan fəlsəfi təlimlərdə «əl-mövcud» - «mahiyyət» «vacib» və «mümkünə» bölündü, C. məfhumu isə («aksidensiya» məfhumu kimi) ancaq «mümkünə» əlavə sayılırdı.

**Ədəbiyyat:** İslam, 60.

**Əl-Cübba`i, Əbu Əli Məhəmməd b. Əbdülvəhhab (850-915) -** Bəsrə mötəzililərinin başçısı, əl-Əşərinin atalığı və müəllimi, Cübbə şəhərində (Xuzistan) doğulub. Bəsrədə, Əbu Yəqub əş-Şəhhamənin başçılığı alıtnda oxuyub (880-cı ildə əş-Şəhhamənin vəfatından sonra mötəzili məktəbinin başçısı kimi onun yerini tutur). Əl-C.-nin əsərləri qalmamışdır. Onun baxışları əsasən mötəzili ənənəsi mənbəyində inkişaf etmişdir ki, o, oraya real mahiyyət kimi Allahın əbədilik konsepsiyasını əlavə etdi. Mürciilər kimi dini ixtisasları və dil ixtisaslarını fərqləndirərək, o, iddia edirdi ki,

böyük günah etmiş müsəlmanı inanan və inanmayan vəziyyətləri arasında olduğunu dini nöqteyi-nəzərdən qiymətləndirsək (mötəziliiliyin ümumi prinsipi belədir) dil nöqteyi-nəzərindən onu inanan hesab etmək olar (necə ki «yəhudi» inanan kimi qiymətləndirilir). Əl-C. kəsbə konsepsiyasını Şəhhamın hazırladığı formada qəbul edən az saylı mötəzililərdən biridir.

**Ədəbiyyat:** İslam, 67; A.F.Həşim. Əl-Cübbəiyani. Qahirə, 1968; Bədəvi. Məzahib, 280-379; D.Gimaret. Materiaux pour une bibliographie des Gubba`i.- JA, 1976, 264/3-4-, 227-332.

**Cümə (yaum əl-cum'ə-toplanış günü) -** beşinci gün, müsəlmanların bayram (istirahət) günü, nəzəri cəhətdən həddi-büluğa çatmış, sağlam, azad müsəlmanların günorta cümə namazı və xütbəyə qulaq asmaq üçün məscidə mütləq toplanış günü.

Müsəlmanların xüsusi toplanış gününün yaranmasını (meydana gəlməsini) Məhəmməd peyğəmbərin (s) həyatının Mədinə mərhələsinə aid etmək lazımdır. Qismən yəhudilərin yaşadığı Mədinədə beşinci gün – yəhudilərin bayram (istirahət) günü olan şənbənin ərəfəsi – adətən alış-veriş günü hesab olunurdu. Beşinci gün namaz toplanışının keçirilməsi müsəlmanların çoxuna imkan verirdi ki, onlar öz istirahət maraqlarını dini borcları ilə uzlaşdırsınlar. Bundan əlavə, bu, islamın təbliğinə səbəb olurdu, çünki bu Peyğəmbərin (s) müraciət etdiyi auditoriyanı genişləndirirdi.

Günorta vaxtı çox isti olduğu (camaat məscidin sərinliyində namaz qılıb istirahət edərlər) və bu vaxt ticarət qurtardığı üçün zöhr namazı üçün qəbul olunub. Təxminən belə fikir Quranda da var (Q. 62:9-11). Cümənin meydana gəlməsinin xüsusiyyətləri o faktı şərtləndirirdi ki, beşinci gün müsəlmanlarda bayram günüdür, lakin hökmən istirahət günü olmaya bilər.

Cümə namazı üçün məscidə toplanış daim dini-siyasi borc idi və adı xütbədə qeyd olunan hökmdarın qanunauyğunluğunu qeyd etməklə əlaqələndirilirdi. Beşinci gün namazında iştirakın mütləqliyi memarlığa da təsir edərək, çoxsaylı namaz qılanları yerləşdirə bilən xüsusi cümə məscidinin (məscid əl-cümə'ə, məscid əl-cəmi'-came məscidi) meydana gəlməsinə şərait yaradırdı.

Beşinci gün cümə namazından (namaz cüm'ə) əvvəl (salat əl-cum`a) azan verilir. Sonra iki rükət namaz qılınır, xütbə oxunur və yenə iki rükət namaz qılınır.

C.-nin göylərdə bayram edilməsi haqqında çoxlu xalq hekayələri mövcuddur. Bayram «[Allahın] əliaçıqlıq günü» adlanır - (yaum əl-məzid, hərfən «əlavə-artırma günü»). Hazırda müsəlman ölkələrinin çoxunda beşinci gün – cümə rəsmi olaraq iş günü sayılmır.

**Ədəbiyyat:** İslam, 68; Sell. Faith, 265-271; S.D.Goitein. Le Culte du Vendredi musulman; son arriere – plan social et economique. – Annales.

ESC, 1958, 488-500; yenə o. Beholdinq God on Friday. – IC, 1960, 34, 63-68; yenə o. The Origin and Nature of the Muslim Friday. Wokshir. – Studies in İslamic History and İnstitutions. Leiden, 1966, 111-125; N.Calder. Friday-Prayer and the Juristic Theory of Goverment: Sarakhsi, Shirazi, Mawardi. – BSOAS, 1986, 35-47, 49; S.D.Goitein. Djum`a. – EI, NU, 2, 592-593.

**Əl-Cüneyd, Əbülqasim əl-Cüneyd b. Məhəmməd əl-Qəvariri əl-Həzzaz əl-Bağdadi (vəf. 910-cu il) -** müsəlman mistisizmində iki əsas cərəyandan biri – «ayrılıq haqqında təlim» və onun adı ilə «cüneydiyyə» adlanan tam özünə nəzarət cərəyanının banisi.

Farsdır, Bağdadda (və ya Nəhavənd şəhərində) doğulub, orada yaşayıb və orada vəfat edib. Uşaqkən atasız qalmış və fars mənşəli filosof dayısı Sari əs-Səqatinin (vəf. 867-ci il) evində tərbiyə almışdır. Şafei hüququnu və hədisləri məşhur fəqih Əbu Sövr İbrahim əl-Bağdadinin (vəf. 854-cü il) yanında öyrənmişdir. Əl-C.-in sufizmdə tərbiyəçiləri və müəllimləri ilahi təklik (tövhid) haqqında təlimi və onu psixoloji təcrübə və hissetmə əsasında dərketmə dərəcəsini hazırlayan Bağdad mistisizm məktəbinin baniləri Sari əs-Səqati və əl-Haris əl-Mühasibi (təxminən 781-857) olmuşlar. Əl-C. sufizmdə daimi mənəvi təmizlik və baxışların mübarizəsini görürdü. Onun rəyinə görə sufinin həyatı Allahın təkliyini, özünün ondan daim asılı olması və özünün onun yanında əskik olmasını dərk etməyə sərf olunan daimi cəhdlərdən ibarətdir. Əl-C.-in ilk dəfə hazırladığı və sonra təkidlə təkrar etdiyi və aydınlaşdırdığı üç mərhələli sufi təliminin doktrinasının məğzi belədir: yeganə real varlıq İlahi varlıqdır; insanın bütün yarananlar kimi mənşəyi və əvvəli Allahda olduğu üçün sonda o, gec və ya tez ayrılandan (təfriq, əl-fərq əl-əvvəl) sonra yenidən birləşmək üçün (cəm′), əzəli vəziyyətə çatmaq üçün, onda olmaq üçün öz ilk mənbəyinə qayıdır. Sufi bu vəziyyətə Allahın təkliyi haqqında meditasiyaya girmək nəticəsində düşür, o Allah qarşısında daim Onun iradəsinə tabe olmaq yolu ilə, Onun qarşısında təzim etmək və Onun adını təkrarlamaqla Onun qarşısında tamamilə heç nə olur. Sufinin şəxsi varlığı tamamilə itir, o, özünün bütün keyfiyyətlərini, xasiyyətlərini itirir, hissləri və reaksiyaları itir, hər şey ilahilikdə əriyir. Fəna halı başlayır. Sufilərin bu vəziyyətlərinin təliminə söykənərək əl-C. «ayıqlıq haqqında təlim» adlanan tezisi hazırladı – bu onun doktrinasının təməl daşı idi, buna görə əsas məqsəd fəna halına çatmaqdan ibarət deyil, lakin həmin vəziyyətdə olub özünün müvəqqəti itirdiyi insan xüsusiyyətlərini artıq dəyişdirilmiş və əbədi əzəmətlə ruhlandırılmış şəkildə geri almaq yeni həyat üçün Allahda qalmaq və saxlanmaq (bəqa, bəqa bə′d əl-fəna`, əl-fərq əs-səni, əl-fərq ət-təbir, cəm` əl-cəm`), daha doğrusu yenidən «özü olmaq», Allahdan xüsusi tapşırıqla

təzələnərək, dünyaya qayıdaraq insanları yönəltmək və savadlandırmaq, insan cəmiyyətinə qulluq etməkdir.

Belə ki, əl-C. Əbu Yəzid əl-Bistami tərəfindən hazırlanmış fəna halı haqqında mövqeyi prinsipcə qəbul etsə də, onu ancaq orta faza hesab edirdi, çünki kamil sufi irəli, «ayıqlıq» halına doğru getməlidir, orada onun Allahı şəxsən dərk etməsi ondan özünü tam idarə edən və özünə nəzarət edən daha kamil insan edə bilərdi.

Əl-C.-in təlimi müsəlman sufiləri arasında geniş etibar, intişar tapdı: müsəlman «hüquqşünaslığı» qulluqçuları arasında onun baxışları nisbətən təhlükəsiz və dözümlü hesab edilirdi. Bu mövqe onun adının sonrakı sufi qardaşlarının geneologiyasına (silsilə) salınması üçün sövqedici səbəb rolunu oynadı, belə ki, onun adının orada olması qardaşlığın «mülayim» və «hüquqi» olduğuna qarantiya rolunu oynayırdı.

Aydın, ayıq və fərasətli ağıl sahibi olan əl-C. mənimsənilməsinə hazırlanmayanlar üçün sufi baxışlarının çətin başa düşülən şərhi necə təhlükəni özündə gizlətməyini dəqiq təsəvvür edirdi. Mənbələr yazırlar ki, buna görə o, bilərəkdən xəbərdar edilmişlərin dairəsini 12 nəfərlə məhdudlaşdırdı. Məhz bu səbəbə görə də o, «Allahsızlıqda» günahlandırılmaqdan çəkinərək əl-Həllacla müsahibədən imtina etmişdi. Görünür, elə bu düşüncələrlə onun əsərlərinin üslubunu başa düşmək olar: məcazi mənalı, başa düşülməyən işarələrlə dolu, qəsdən spesifik istilahlarla çətinləşdirilmiş dil sanki qəsdən aydınlaşdırılmayan məzmunu çulğayırdı. Əl-C.-in bir əsəri qalmışdır – Rəsail. Bu, xüsusi adamlara yazılmış məktublar, sufilik mövzusunda traktat olub, bir hissəsi Quranın ayrı-ayrı ayələrinə yazılmış şərhdən ibarətdir.

**Ədəbiyyat:** İslam, 68-69; Əbdül-Qader; əs-Süləmi. Təbəqat, 141-145; əl-Hücviri. Kəşf, 161-164, 235-236; Hujwiri. Kashf, 184-185; Əmmar. Təzkirə, 1, İndex; Djami. Nafahat, 89-92; Бертельс. Суфизм, 31-32; Zərrinqub. Ərziş, 74-75; Schimmel. Dimensions, 57-59.

**Əl-Cürcani, əs-Seyyid əş-Şərif çağrılan Əli b. Məhəmməd** (1339-1413), son dövr fəlsəfə (kəlam) nümayəndəsi. Astarabad yaxınlığındakı Taqu şəhərində anadan olub. Astarabadda təhsil alan əl-C. müəllimlik fəaliyyəti ilə məşğul olmuş, Orta Şərq şəhərlərini gəzmiş, orada Qütbəddin ər-Razi ət-Təhtani, əl-Fənəri, Mübarəkşahın rəhbərliyi altında biliyini kamilləşdirmişdir. Təxminən 1374-cü ildə Şiraza gəlir, (1387-ci ildə) şəhər Teymur tərəfindən tutulandan sonra Səmərqəndə köçür və 20 il orada Teymurun sarayında yaşayır. Teymur öləndən sonra o, Şiraza qayıdır və orada da ölür. Əl-C. Əl-Məvaqiv əl-İci və fəlsəfə istilahları lüğəti Ət-Tərifata şərhin müəllifi kimi məşhurdur.

**Ədəbiyyat:** İslam, 69; əl-Cürcani. Şərh; yenə o. Ət-Tərifat. Beyrut, 1969; yenə o. Fihrist əs-Seyyid alə şərh əl-mətalı. İstanbul, 1885; yenə o. Əl-Üsul əl-məntiqiyyə. – Məcmuat ər-rəsail. Qahirə, 1328h., 280-291.

**Əl-Cüveyni, Əbülməali b. Abdulla, İmam əl-Hərameyn (1028-1085)** - Əş'əri kəlamının görkəmli nümayəndəsi, əl-Qəzalinin müəllimi. Nişapur yaxınlığında, Cüveyn mahalına daxil olan Azazvar kəndində doğulmuşdur. Nişapurda Əbülqasim əl-İsfəra`ininin (vəf. 1059-cu il) başçılığı altında kəlam və üsul əd-dini, atasının başçılığı altında isə fiqhi öyrənmişdir. 19 yaşı olarkən atasının ölümündən sonra onu şafei fiqhi müəllimi vəzifəsində əvəz etdi. Səlcuq vəziri əl-Qunduri tərəfindən əş`ərilərin təqib edilməsinin təşkili vaxtı əl-C. Hicaza qaçıb, Məkkə və Mədinədə yaşayır (1058-1062) və buna görə də fəxri ad İmam əl-Hərameyn (iki müqəddəs şəhərin imamı) adını alır. Əş'əriləri təqib etməyə son qoyan vəzir Nizamülmülk dövründə əl-C. Nişapura qayıdır, vəzir onun üçün orada Nizamiyyə mədrəsəsi adını alan mədrəsə təsis edir. Bu mədrəsədə əl-C. şafei fiqhinin ən yaxşı bilicisi kimi məşhurlaşdı və ömrünün axırınadək orada dərs dedi.

Əl-C.-nin kəlama aid əsas əsəri olan əş-Şamildən bizə onun üçdə bir hissəsi gəlib çatmışdır, onun qalan müxtəsər variantı əl-İrşad isə təzə (elm) öyrənənlər üçün vəsaitdir. Ümumiyyətlə, əl-C. əl-Əş'əri, əl-Baqillani və Əbu İshaq əl-İsfəra`ininin (vəf. 1027-ci il) ideyalarını inkişaf etdirmişdir. Əbu Əli əl-Cübbəinin oğlu mötəzili Əbu Haşim əl-Cübbaidən o, modus (əhval) konsepsiyasını qəbul etmişdi, əş-Şəhrəstaninin yazdığına görə, sonradan əl-C. ondan imtina etmişdir. Əl-Baqillani kimi Quranın məna və söz təbirlərini anlayaraq əl-C. Quran ayələrinin vaxt kəsimində yarandığını hadisə elan etdi və iddia edirdi ki, Allah Məhəmmədə ancaq Kitabın «mənasını» göndərmişir. Baqillani tərəfindən irəli sürülən «kəsb» konsepsiyası variantını əl-C. inkişaf etdirərək öyrədirdi ki, insanın qabiliyyəti (qüdrəti) nəinki işin «əsasını» konkretləşdirir (məsələn, hərəkəti ayağa qalxmaq və yerimək edir), həm də bu «əsasa» təsir edir və bununla onun səbəbi rolunda çıxış edir. Əl-C. səbəbli əlaqələri başqa təzahürlərə də yazıb Allaha «səbəblərin səbəbləri» rolunu verirdi. O, kütlənin sonsuzluğa qədər bölünməsi sualını açıq saxlamışdır. Əl-C. müvəqqəti təzahürlərin (həvadis) sonsuz tənəzzül yaratdığının mümkün olmadığının sübutunu öz təlimində yenilik sayırdı. Bu arqument mutəkəllimlərə xas olan dünyanın canlı olmasının sübutunda ayrılmaz çıxış nöqtəsi oldu.

**Ədəbiyyat:** İslam, 68; əl-Cüveyni. Əş-Şəmil; yenə o. Əl-İrşad ilə qavati' əl-ədillə fi üsul əl-i'tiaqad. Qahirə, 1950; yenə o. Əl-Əqidə ən-nizamiyyə. Qahirə, 1958; El İrchad par İmam el-Haramein. Ve siecle (hegire). P., 1938.

# Ç

**Çiştiyyə** - Şərqi Xorasanda yaranmış və XII-XIII əsrlərdə Hindistanda formalaşmış mötədil sünni sufi qardaşlığı. Öz silsiləsini İbrahim b. Ədhəm ( vəf. 776) və Həsən əl-Bəsri (vəf. 728) yolu ilə Əli b. Əbi Talibə aparıb çıxarır, 12 ana qardaşlığa aiddir. Orta əsrlərdə Ç. söhrəverdiyyə ilə yanaşı Hindistanda ən çox yayılmış qardaşlıq idi. O, öz işində müxtəlif xanəgahlara güvənirdi. Ç.-nin banisi Xoca Əbu İshaq əş-Şami (vəf. 1097) Mesopotamiya sufi məktəbinin ardıcılı idi, o, İraqdan Herat yaxınlığındakı Çişt kəndinə gəlib, orada iqamətgah yaratdı. Ç.-nin 8 (və ya 9-cu ) varisi onu Hindistanda yayan şeyx Müinəddin Həsən Siczi Çişti (1142-1236) oldu. O, dini elmləri Buxara və Səmərqənddə öyrənib, sufiliklə Nişapurda məşğul olub, İraqda yaşayıb və 1193-cü ildə Hindistana gəlir. O, Acmerdə (Racputan) yerləşib, orada iqamətgah yaratdı, o, Hindistanda mərkəzi iqamətgah oldu. Sonra o, Hucarat, Uttar Pradeş, Buxaraya yayıldı, onun üzvləri təkcə müsəlmanlar deyil, həm də hindular idilər. Qardaşlıq ən yüksək səviyyəyə şeyx Nizaməddin Övliya vaxtı (Dehlidə vəf. 1325) çatmışdır. O, ayrıca qol olan nizamiyyə yaradır ki, ondan da başqa qruplar yaranır. Onun vəfatından sonra Qiyasəddin Məhəmməd şahın (1325-1351) təzyiqi ilə Ç. dağıldı, iqamətgahın başçısı irsi oldu. Ç.-nin sonuncu nümayəndəsi Şeyx Məs'ud Bəkk (vəf. 1432) idi. XV əsrin 30-cu illərində Uttar Pradeşdə Əlaəddin Əli b. Əhməd əs-Sabirin (vəf. 1291) adı ilə bağlı Ç.-nin sabiriyyə qolu yarandı. Çox yaradıcı olan sabiriyyənin son nümayəndəsi Məhəmməd İlyas Qandəhləvi Dehlidə 1944-cü ildə vəfat etdi.

Ç. təlimi erkən şeyxlərin söhbətlərinin qeydlərində şərh olunmuşdur (məlfuzat). Onların təlimi vəhdət əl-vücuddan ibarətdir, onların mənəvi etik baxışlarında isə xəvacəqan məktəbinin baxışları hiss olunur. Onlar hakimiyyətlə əlaqəni, var-dövlət yığmağı rədd edirdilər. İnsan təvəkkül edib, yeməyini özü öz əməyi ilə qazanmalıdır, dilənməməlidir. Sufinin Allaha xidməti acı doyurmaq, əzabkeşin xahişinə hörmət etmək, fəqirə kömək etməkdir.

Ç.-də irsilik qəbul edilmir, xəlifə (davamçı ya təyin edilir və ya seçilirdi), XIV əsrdən hakimiyyətlə əlaqə saxlamamaq ləğv edildi. Onlar (Ç.-nin üzvləri) təvazökar (adi) olub, böyük bir zaldan (camaat-xanədən) ibarət idilər, sufilər orada yaşayır, oxuyur, zikr edirdilər, balaca bir otaqda isə şeyx-rəhbər olurdu. Tütün çəkmək, narkotik maddələr və alkoqol qəbul etmək onlarda qadağan idi.

Ç.-nin yolu üç adi mərhələdən (şəriət, təriqət, həqiqət) ibarət idi, yolçu (səlik) 44 məqamdan keçib 15 halda (əhval) olur.

Ç.-nin üzvü olmaq iki mərhələ-qəbul və həsrolunmadan ibarətdir. Həsrolunma xidmət vaxtından sonra 1000 gün çəkir. Ç.-lər şəxsi (fərdi) yüksəkdən - zikri, kollektiv zikri, 40 günlük oruc tutmağı və bu dövrdə gündə bir neçə dəfə namaz qılmağı öyrədirdilər. Onlar dördtaxtalı hündür papaq qoyurdular.

**Ədəbiyyat:** İslam, 286; Bədr əd-din Ishaq. Əsrar əl-övliya. Kanpur, 1890; Əmir Xurd. Siyər əl-övliya. Dehli, 1302/1885; Nur əd-din Hüseyn Fəxri. Fəxr ət- talibin. Dehli, 1115/1815; Dara Şekuh. Safinat, 86a-105a; Xəzinət, 1, 222-516; Cəlalabadi. Tariq, 346-350; Петрушевский. Ислам, 344; Awarif al-ma'arif, Index; Djami. Nəfəhat, 584-586; 710-712; Əhməd. Sufı and Sultan, 142-153; Rizvi. Müslim revivalist, 13-22, 26; Schimmel. Dimensions, 345-351; Trimingham. Orders, İndex; Hodgson. Venture, 2, 432, 455-456; K.A. Nizami. Cishtiyya-EI, NE, 2, 50-56.

# D

**<u>Daləl</u> -** (və ya daləlә, cəmi dalələt) – aldadıcı yol, azma. D. bu mənada «həqiqət», «düz», «düzgün yol» və ya «rəhbər» vasitəyə (əl-hudə, əl-hidayət) qarşı qoyulmuş kimi Quranda 40 dəfə işlədilib (bax: 6:56; 28:85 və s.).

Məhəmməd p.-in (s) hədislərdə qeyd edilirdi ki, müsəlman icması həmişə «yanılmanı» (daləlә) müəyyən etmək və ona qarşı durmaq imkanında olacaq. Orta əsr mübahisəli və doksoqrafik ədəbiyyatında D. istilahı çox geniş yayılmışdı. Lakin islamda «əsl iman» və «yanılma» məfhumlarının təyin edilməsində ümumi qəbul edilən ölçülərin olmaması bu istilahın olduqca istənilən kimi işlədilməsinə imkan yaradırdı. Mübahisə edən tərəflərdən birinin hərəkəti və ya fikri çox vaxt o biri tərəfdən D. kimi qiymətləndirilirdi ki, bu da qarşılıqlı günahlandırmağa və «yanılmağa» gətirib çıxarırdı.

**Ədəbiyyat:** İslam, 56; Wensinsk. Concordance. 3, 515-518.

**<u>Dar əl-Fəna</u>** – darülfəna **(**fani, keçici, bu Dünya). D. əl-F. sufi müəlliflər tərəfindən əbədi həyata, o biri (danışıqda) gələcək, əbədi həyat kimi qəbul edilən dar əl-bəqaya qarşı işlədilirdi; sufilərin texniki leksikasında dar əl-bəqa sufinin elə halıdır ki, o, Allahda – fəna – əriyərək adi hala qayıtmazdan əvvəl bir az ilahi müdrikliyi və neməti alır. Göstərilən mənada D. əl-F. istilahı mistik poeziyada geniş işlədilirdi (əsasən fars poeziyasında): Sənainin (vəf. 1131-ci il), Əttarın (vəf. 1220-ci il), Cəlaləddin Ruminin (vəf. 1273-cü il) əsərlərində. Oradan istilah elə o məna ilə dünyəvi lirik poeziyaya keçmişdir.

**Ədəbiyyat:** İslam, 56.

**<u>Dar əl-Hərb</u>** – darülhərb («hərb ərazisi») – müsəlman hüquqşünasları tərəfindən müsəlmanlarla müharibə vəziyyətində olan kimi baxılan, dar əs-sülhün ərazisindən kənarda olan qeyri-müsəlman ölkələri, hərbi hərəkatların olmaması isə barışıq kimi qəbul edilirdi.

**Ədəbiyyat:** İslam, 56.

**<u>Dar əl-İslam</u>** – darülislam («islam ərazisi») - cəm mənasında dar əl-hərbin əksinə olaraq, bütünlüklə şəriət tərəfindən tənzimlənən, müsəlman hökmdarlarının hakimiyyəti altında olan bütün müsəlman ölkələrinin toplusu.

**Ədəbiyyat:** İslam, 56.

**Darüssəlam** – («sülh və sükut yeri») - əvvəla Quranda (əl-Ənam, 127 və Yunus, 26) Cənnətə dəlalət edir. Beydaviyə görə Cənnət pozğunluq və ədalətsizliyə əks olaraq, salamatlıqdır (səlamə). Çünki oraya daxil olanlar Allahın rəhmətinə və mələklərin duasına (səlləmə) layiq olurlar.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 65.

**Dar əs-Sülh** - darülsülh («sülh razılaşması ərazisi»). Fütuhatlar vaxtı vergilərin ölçüsünü və müsəlman olmayan sakinlərin hüquqi vəziyyətini təyin edən, müsəlmanlarla sülh bağlayan ölkələrin ümumi əlaməti; razılaşmanın şərtlərindən kənar olanlar əvvəlki qayda ilə hərəkət edirdilər. D. əs-S.-ün sakinləri (əhl əs-sülh) əhl əz-zimmə kimi qəbul edilirdi. Ancaq D. əs-S.-dən olan tacirlər ticarət vergisini dar əl-islam zimmilərindən iki dəfə çox verirdilər. Ancaq bu qaydalar tam mücərrəd xüsusiyyət daşıyırdı, belə ki, razılaşmaların təsiri real olanda hüquqi nəzəriyyə hələ lazımi qədər işlənməmişdi, bu qaydaların düzəldiyi VIII əsrin sonunda müqavilə bağlayan əyalətlərin çoxu birbaşa Xilafətin tərkibinə daxil oldu (baxmayaraq ki, yerli sülalələr saxlanırdı). Xilafət dağılanda müsəlman hökmdarlarının idarə etdikləri bütün vilayətlər əhalisinin tərkibindən və qonşu (xalis) müsəlman ölkələri ilə əlaqələrin xüsusiyyətindən asılı olmayaraq dar əl-islam kimi qəbul edildi; müsəlman olmayan dövlətlərlə olan müqavilələrə gəlincə, onlar adi dövlətlərarası razılaşmalar xüsusiyyəti daşıyırdı.

**Ədəbiyyat:** İslam, 56.

**Daud (və ya Davud)** - Quran surəti, peyğəmbər və kral, Bibliya Davidinin eynisi. Quranda o, tək və ya oğlu Süleymanla birlikdə onu Özünün canişini (xəlifə) edən, ona hakimiyyət, müdriklik, bilik və bəlağət (gözəl danışıq qabiliyyəti verən) Allahın xüsusi himayəsi altında olan bir mömin kimi xatırlanır.

Bəni İsrail peyğəmbərlərindən biri olan Davudun hekayətinə aid Quranda bir çox ayələr vardır. Bunların birində (Sad, 26) deyilir. «Ya Davud! Biz səni yer üzündə xəlifə etdik. Buna görə də insanlar arasında ədalətlə hökm et». «Ya Davud! Sən özünü sevmə, çünki sən özünü nə qədər sevməsəm, Mən səni o qədər sevərəm». Bu isə çox qədim sufi kitabı olan «Kəsf əl-məhcub» əsərindəndir. Orada hətta onun səsinə məftun olub, həlak olanlar olduğu haqda qeyd də vardır.

Allah Təala ona gözəl səs vermişdi (əl-Ənbiya, 79; Səba, 11, Sad, 17-18). Sufilərin yanında onun böyük hörməti və xüsusi mövqeyi var idi.

Allah Davuda Zəburu göndərib, dağlar və quşları ona tabe etdi, onlar (D., dağlar və quşlar) bir yerdə oxuyaraq Allahı tərif edirdilər. D. metalı işlədən ilk adamdır («Biz dəmiri onun üçün yumşaltdıq»), Allah ona dəmir geyim (zireh) düzəltməyi öyrətdi.

D. Talutun bacara bilmədiyi işi - israillilərin düşməni Calutu öldürdü, Allah ona çarlıq verdi və insanlara hakimlik etməyi ona tapşırdı. Quranda D.-un iki nəfər haqqında hökm verməsi, Süleymanla birlikdə əkin sahəsinin mal-qara tərəfindən tələf edilməsinə görə qərar qəbul etməsi, Allaha imandan yayınanları sərt cəzalandırması haqqında məlumat verilir (2:251/252; 4:163; 5:78/82; 21:78-80; 27:16; 34:10; 38:17/16-30/29).

Qurandansonrakı rəvayətlər və şərhlərdə D.-un Calutla mübarizəsi, onun Talutun qızı ilə evlənməsi, Talutun paxıllığı və D.-u öldürməyə cəhdi, D.-un qaçması və onun mağarada gizlənməsi haqqında təfsilatı ilə danışılır. Quran və Bibliyaya görə ikinci İsrail çarı (e.ə. XI əsr) David olmuşdur.

İslam Ensiklopediyasının müəlliflərinin rəyinə görə D. öz hərbi sərkərdəsi Uriyanin arvadı Virsaviyanı onun əlindən alır və bu fikirdə Qurana istinad edirlər (38:22/21-25/24). Quranda isə belə şərh yoxdur. Z.M.Bünyadov isə bunun Bibliyada olduğunu göstərir: David xəyanətkar və qaniçən, zalım, pozğun, əxlaqsız, hərbi sərkərdəsinin arvadını onun əlindən almaq üçün onu öldürməkdən belə çəkinməyən bir adam olub. Bibliyada başqa peyğəmbərlərə də belə iftiralar, böhtanlar aid edilib. Elə belə şeylərə görə (Bibliya, İncil və s. çoxlu təhriflər olunduğuna görə) Allah Təala son olaraq Quranı nazil etmiş və Məhəmmədi (s) sonuncu peyğəmbər təyin etmişdir. Kafirlərin cəzalandırılması haqqında Quran qeydləri (5:78/82) Ayla sakinlərinin şənbəyə riayət etmədikləri – şənbə günləri balıq tutduqları üçün meymuna çevrildikləri haqqında tarixlə bağlanır.

D. və Süleymanın apardıqları məhkəmə haqqında danışırlar ki, D. heyvanları əkin sahəsini korlayan sahibkarı cəzalandırır. Süleyman isə əkin sahəsi yararlı hala düşənə qədər heyvanları torpaq yiyəsinə verməyi təklif edir ki, o, o vaxta qədər heyvanlardan bala və yun alsın.

D. yorulmadan Allahı tərifləyən müğənnidir, müsəlman sufiləri arasında tanınmış şəxsiyyətdir. Xalq etiqadlarında D. metalla işləyən sənətkarların himayəçisidir. D. İraq Kürdüstanında Davudilər sektasında ən çox sayılan peyğəmbərdir. Müsəlmanlar Beyt-Ləhmədəki (Fələstin) D.-un məzarını ziyarət edirlər.

Dəmir zirehin banisi kimi D. islamaqədərki Ərəbistanda məşhur idi. Onu bu keyfiyyətdə cahiliyyə dövrünün şairləri xatırladırlar. Görünür, Zəbur da məşhur imiş. Quranda olan dağlar və quşlar haqqındakı xatırlamaları adətən Zəburdakı dağlar və quşlara Allahı tərif etməyə çağırmaqla müraciətin əks-sədası hesab edirlər. D. haqqında Quran görüşlərinin bəzi elementləri (məs: onun müdrikliyi, onun hakim fəaliyyəti) ola bilsin ki, Quranda D.-un tez-tez cütlükdə xatırlandığı Süleymanın məlum keyfiyyətlərinin stilistik paralleli kimi verilmişdir.

D.-un məhkəmə qərarlarının epizodları D. və Süleymanın tarixinə gedib çıxır. Ümumiyyətlə, Quran özünəməxsus surət kontekstində müxtəlif görüş

və rəvayətlərin elementlərini yerləşdirmişdir, onlar sübut edirlər ki, keçmişin bütün məşhur şəxsiyyətləri öz əzəmətlərinə görə Allaha borcludurlar və bunu qəbul edirlər. Şərhçilər xüsusilə yəhudi materialını geniş istifadə etmişlər və Quran D.-nu onun Bibliya mənbələrinə yaxınlaşdırmışlar.

**Ədəbiyyat:** İslam, 57; ət-Təbəri. Tarix, 1, 554-556, 559-572; yenə o. Təfsir, 17, 37-41, 23, 86-98; əs-Sə'ləbi. Qısas, 152-164; əl-Kisəi. Qısas, 250-278; əl-Beydavi. Təfsir, 1, 129-130, 2, 184-186; Horovitz. Untersuchungen, 109-111; Speyer. Erzählungen, 372-383; Beltz. Sehnsucht, 168-170; Gaudefroy-Demombynes. Mahomet, 370-372; B.Carra de Vaux. Da`ud. – EI, 1, 967; R. Paret. Dawud. – EI, NU, 2, 182; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 66.

**Əd-Dəccal -** («yalançı», aramey sözü daqqaldan olub «qəlp», «yalançı» deməkdir), xristian Antixristinin analoqu, müsəlman esxatoloji deyimlərin surəti.

1) Axirətdə Allahın rəqibi olan Şeytan. 2) Axirətdə İsrailə qarşı millətləri təkrar birləşdirəcək hökmdar. 3) İnsanları başdan çıxaran və tərəfdarları ən çox yəhudilərdən olan Məsih müxalifi.

Quranda olmasa da, hədislər və rəvayətlərdə tez-tez gələcək «Dünyanın axırı» haqqında (fitən, məlahim) danışılır. Əd-D.-ı həm də əl-Məsih əl-Kəzzab və əl-Məsih əd-Dəccal (yalançı Məsiha) adlandırırlar. Müsəlmanlar hesab edirlər ki, əd-D. İblislə əlaqədardır və Dünyanın sonundan əvvəl o, insanların axırıncı yoldan çıxaranı olacaq, onda o, özünü həqiqi Məsih-İsa və ya əl-Mehdi kimi təqdim edəcək. Bu vaxta qədər o, Hind okeanında qayaya sarınmış şəkildə adada yaşayır, adanın yaxınlığından üzənlər oradan musiqi səsi eşidirlər. Merac zamanı guya Məhəmməd p. (s) İsa p.-ə yaxşı-yaxşı baxmağa çalışırdı ki, onu əd-D.-la qarışdırmasın. Əd-D. təkgöz, qırımızıdərilidir, onun alnında kəf hərfi və ya bütünlüklə kafir sözü yazılıb (İslam Peyğəmbərini (s) bu qədər korafəhim göstərmək ancaq xristian müəlliflərinin ağlına gələ bilərdi).

«Dünyanın axırından» əvvəl əd-D. şərqdən, nəhəng eşşək üzərində gələcək, onun arxasınca bütün imansızlar və ikiüzlülər (münafiqun) gələcəklər. O, Məkkə və Mədinədən başqa bütün dünyanı öz qəddar hakimiyyətinə tabe edə biləcək. Onun hökmranlığı 40 gün (və ya 40 il) çəkəcək, sonra göydən enən İsa və Mehdi ona qalib gəlib, onu öldürəcəklər.

Əd-D. haqqında müsəlman görüşləri erkən xristian surətinə gedib çıxa bilər. İslamaqədərki Ərəbistanda D. istilahı onun ilk mənasında «yalançı peyğəmbər» və ya «yalançı şahid» məfhumları ona gətirib çıxartdı ki, Məhəmməd (s) vaxtı Mədinədən olan yəhudi kahin İbn Səyyad, sonra isə qədim Ərəbistan kahini əfsanəvi Şikkanı belə adlandırılırdılar. Sonralar

«Dünyanın axırı» haqqında xristian esxatologiyası və xristian xalq rəvayətləri ilə daha sıx tanışlığın təsiri altında əd-D. Qiyamət günündən əvvəl olacaq hadisələr haqqında müsəlman rəvayətləri və görüşlərində əsas yerlərdən birini tutdu.

**Ədəbiyyat:** İslam, 55-56; əl-Buxari. Əs-səhih. 4, 181-183; əl-İdvi. Məşəriq, 130-132; Wensinsk. 50-51; D.J.Halperin. The İbn Sayyad tradition and the legend of Dajjal. – JAOS. 1976, 96/2, 219; Gaudefroy – Demombynes. Mahomet, 410; B.Carra de Vaux. Al-Dadjdjal. – EI, 1, 1924; A.Abel. Al-Dadjdjal. – EI, NE, 2, 76-77; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 67-68.

**Dəhr-əsr** **-** 1) Ərəbistan əhalisinin cahiliyyə dövründə tale ilə eyniləşdirdikləri vaxt; 2) Dünyanın əvvəldən axıra qədər mövcud olduğu müddət (müəyyənlik artiklı ilə əd-D. – indidən «Dünyanın axırınadək» müddət). 3) Müvəqqəti uzunluq (müddət) keçmiş və gələcəkdə sonsuz (farsca eynisi zərvan, zurvan) müddət. D. haqqında birinci mənada görüşlər ərəblərdə, xüsusilə də onların poeziyasında qalmışdır.

Sonralar D.-in Allahla eyniləşdirildiyi hədisə görə bu sözü Onun gözəl adlarından (əl-əsmə əl-husnə) biri kimi qəbul etməyə başladılar. Fəlsəfədə (İbn Sina və onun ardıcıllarında) D. üçüncü mənada zaman kateqoriyası olub, zaman kateqoriyası və zaman əbədiliyinin vasitəsidir (sərməd). Bax: əd-dəhriyyə.

**Ədəbiyyat:** İslam, 57; П.А.Грязневич. Развитие исторического создания арабов (VI-VIII вв.).- Очерки истории арабской культуры V-XV вв. M., 1982; C.Əli. Tarix əl-ərəb qablə-l-islam. Bağdad, 1956, 408-415.

**Əd-Dəhriyyə** **-** (və ya əd-dəhriyyun) – dəhrilər, dəhr sözündən yaranmış istilah, müsəlman müəllifləri onu Dünyanın zaman kəsiyində yaranması görüşünə əks olanlara aid edirdilər – İran zərvaniləri, antik fisioloqları (təbi`iyyun), yaradan Allahın mövcudluğunu, o Dünya həyatını, o Dünyada dirilmə (miad) və əvəzin (əcr) verilməsini rədd edən mütəfəkkirlər və Quranda adları çəkilən (xatırladılan) dini skeptiklər (45:24/23): «Və onlar dedilər: «O, (həyat) bizim yaxın həyatımızdan başqa bir şey deyil. Biz ölürük və biz yaşayırıq, bizi ancaq tale (dəhr) məhv edir)». XIX əsrdə əd-D. istilahı «materialistlər» (məddiyyun) istilahının sinonimi kimi işlənməyə başladı və onda o, Qərbin vulqar materialist darvinist və başqa təbiət elmi konsepsiyasına («naturalistlər» - naytşuriyyə, naytşuriyyun, ingiliscə nature-dən) maraq göstərən müsəlman mütəfəkkirlərini bildirirdi.

**Ədəbiyyat:** İslam, 57; Əbu-l-Bəqa. Əl-Külliyyat. 2, Dəməşq, 1982, 330-332; R.C.Zaehner. Zurvan, a Zoroastrian Dilemma. Oxf. 1955;

Ringgren. Studies; I.Goldziher, [A.-M.Gochon]. Dahriyya. – EI, NU, 2, 95-97.

**Dərviş -** (fars-türkcə-dərviş; «dilənçi», «yoxsul»; ərəbcə sinonimi fəqir) – sufi qardaşlığı (təriqə) üzvünü bildirmək üçün ümumi istilah, sufi istilahının sinonimi. Ərəb fəqirinə bərabər bir istilah kimi D. (əl-Müstəmli və əl-Hücviridə rast gəlinir) farsdilli cəmiyyətdə (görünür XI əsrin ortalarından gec olmayaraq) istifadə olunmağa başladı. Bu dövrdə başda müəllim olmaqla, formal olmayan müvəqqəti sufi dərnəklərinin yaranması təcrübəsi çox geniş yayılmağa başladı.

İran, Orta Asiya və Türkiyədə D. sözü həm də daha dar mənada – şəxsi əmlakı olmayan, dilənən avara asket-sufi mənasında işlədilmişdir (XII əsrin əvvəllinə qədər qələndər sözünün sinonimi). D. istilahının başlanğıc mənası – «dilənçi» - sufizmdə könüllü kasıblıq və azla razılaşmaq haqqında təlimə verilən əsas mənanı qeyd edir. Misirdə indi də xalq arasında dərviş kasıb, yoxsul mənasında işlənir.

Əlcəzair və Mərakeşdə geniş mənada dərvişləri bildirmək üçün işlənilən söz xvan kimi tələffüz olunan ixvandır (qardaşlar). Bu ixvan təşkilatı islam aləmində dini həyatın təşkilatlanmış şəklidir.

D.-lərin aid olduqları qardaşlığın təlim, təcrübə, ritual və geyimindən asılı olmayaraq onlar iki böyük qruppaya bölünürdülər: gəzəri, daim səyahət edən (qələndəriyyə qardaşlığının üzvlərini daxil etməklə) və «müqəddəs qoca»nın (şeyx, pir) rəhbərliyi altında daim iqamətgahda yaşayanlar. İkincilərə cəmiyyət üzvləri də (sənətkarlar, satıcılar, müxtəlif dərəcəli məmurlar və b.) daxil olurdular, onlar evdə yaşayıb öz işləri ilə məşğul olurdular, lakin onların üzərinə qardaşlığın xüsusi dualarını yerinə yetirmək və həftənin və ya ayın dəqiq təyin edilmiş günlərində iqamətgahda, ümumi zikrdə, habelə dini bayramlarda iştirak etmək məsuliyyəti qoyulurdu.

**Ədəbiyyat:** İslam, 56; Burhan-i qati; 2, 846; Ch. Bartolomae. Altiranisches Wörterbuch. Strassburg, 1904, 777; Brown. Darvishes, İndex; D.B.Macdonald. Darwish. – EI, 2, 164-165; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 68.

**Din -** D. istilahının yaranması və onun çoxmənalı və geniş çərçivədə işlənməsi. Ərəbistanın islamaqədərki əhalisinin dilində D. sözünün bir neçə mənası olması (adət, əvəz, hakimiyyət - tabeçilik), habelə ona yaxın olan qonşu xalqların dillərindəki səslənməsinə görə ona yaxın olan dini istilahların ona böyük təsiri ilə bağlıdır.

Quranda D. istilahı 100 dəfə və müxtəlif mənalarda işlədilir. O, «məhkəmə - qiyamət», əvəz (məsələn, yaum əd-D.- «Qiyamət günü» təbirində Q. 1:4/3), din hər hansı bir adamın imanı (məs: Q. 39:2), dini

icmanın əsas həyatı olan ibadət təcrübəsi sistemi kimi din (məs: Q. 6:161/162; 3:73/66, müq.et. millət) mənalarını verə bilər. D. istilahı islama aid olduğu kimi (məs: Q. 3:19/17) bütpərəstliyə (Q.109:6), yəhudiliyə və ya xristianlığa da aid (məs: Q. 3:73/66) edilir. Lakin D. islahatının əsas Quran mənası Allaha, Onun hüdudsuz hakimiyyətinə itaət etməyin vaciliyinin mühüm ideyası ilə bağlıdır.

D.-in çoxtərəfli Quran mənaları orta əsr müsəlman ilahiyyatında onun çoxlu şərhinin yaranmasını doğurdu. Quranla müqayisədə bu şərhlər artıq dini idrakın başqa səviyyəsini və cəmiyyətin qarşısında duran yeni problemləri əks etdirirdi. D. istilahı adətən üç tərkib hissənin birləşməsi kimi qəbul edilirdi. Onların birləşməsi (toplanması) və başa düşülməsi müəllifin aid olduğu məktəb və cərəyanın ona uyğun olan terminalogiya və kontekstin mövqeyinə görə dəyişirdi.

Əl-Buxari tərəfindən təqdim edilən hədisdə D.-in təyinatı geniş intişar tapdı, buna görə əd-D. iman, dini təlimatların yerinə yetirilməsi (əl-islam) və imanın səmimi olmasında kamilləşməyin (əl-ihsan) birliyidir. Əd-D. məfhumunun şərhində üçşaxəliliyi saxlayaraq, hənəfilər məsələn, imanın əhəmiyyətini, əş'əri müəllifləri – dini təlimatlara riayət edilməsinin mühümlüyünü, hənbəlilər, sonralar isə İbn Teymiyyə «əsil ənənənin», Quran və sünnənin mühümlüyünü qeyd edirdilər. Hənbəlilər hərdən sadəcə qeyd edirdilər ki, əd-D. – ət-təqliddir («ənənə», rəvayətdir»). Eyni zamanda onlardan bəziləri insanın D.-nin qiymətləndirilməsində etdiyi bu və ya başqa əməlin «niyyətinin» mühümlüyünü qeyd edirdilər. Bu, hənbəliləri imanın psixoloji aspektlərini ayıran sufi müəllifləri ilə yaxınlaşdırırdı.

Sufilər əd-D.-də üç ardıcıl mərhələ görürdülər: əş-şəri'ə (əl-iman), ət-təriqə (əl-islam), əl-həqiqə (əl-ixlas). Burada əş-şəri'ə Quran və sünnənin deduklərinə dəqiq əməl etmək, ət-təriqə-askeza, daha doğrusu mənəvi özünükamilləşdirmə və özünə nəzarət, əl-həqiqə-Allah haqqında həqiqi bilik əldə etmək və ya ona qovuşmaqdır.

Əd-D. məfhumu onun yerinin ona yaxın mənalarla dəqiqləşdirilməsi və onların bir-biri ilə müqayisəsi ilə aydınlaşdırılmışdır. Əd-D., əl-millə və əl-məzhəb məfhumlarını tutuşduran Əli b. Məhəmməd əl-Cürcaniyə (1339-1413) görə əd-D. – tabe olunmalı qanun, əl-millə, insanları birləşdirən qanun, əl-məzhəb – ardınca getməyə çalışılan qanundur. Həm də əd-D. Allahla, əl-millə-peyğəmbərlə, əl-məzhəb isə – məzhəbi yaradan müctəhidlə əlaqələndirilir.

Əd-D. daha geniş mənada «mənəvi sahə» kimi əd-dunyə – «maddi sahəyə» qarşı qoyulurdu. Lakin bu, birinin digərindən ayrı düşməsinin təsdiqi demək deyildi. Bu məfhumların dialektikası, onların əlaqə və müqayisə dərəcəsi, onların hər birinin əməli sahəsi dini və ictimai mübahisələrin mühüm elementi olmuş və olmaqda davam edir (bax: əl-

Quran). Bu məfhumların qarşılıqlı əlaqələrinin şərhi çox şeydə ilahiyyatçının və onun təmsil etdiyi cərəyanın mühüm ictimai məsələlərdə və hər şeydən əvvəl dinin ictimai həyatda yeri haqqında məsələdə mövqeyini təyin edir. Belə ki, Misir ilahiyyatçısı R.Rida (1865-1935) iddia edirdi ki, ictimai mühit əd-D.-ə məxsusdur, baxmayaraq ki, o, ictimai mühitdən onun çoxlu tərkib hissəsini çıxarırdı. «Müsəlman qardaşları» üçün əl-islam əd.D. və əd-dövləni («dövlət» və «ictimai mühit») özündə cəmləşdirir. Əl-islam burada əd-D. məfhumundan xeyli genişdir. Sekulyarizə tərəfdarları isə əksinə, əd-D.-i əl-islam məfhumunun eynisi hesab edirlər.

Əd-D. istilahı xüsusi adlarda (məs: Salah əd-din, Fəxr əd-din), habelə ilahiyyat ədəbiyyatında tez-tez əl-islam istilahının sinonimi kimi işlədilir.

**Ədəbiyyat:** İslam, 70; Wensinck. Concordance, 2, 162; ət-Təbəri. Təfsir, 1, 50-51; İbn Bəttə. Əl-İbanə, İndex; əl-Cürcani. Ət-Tə'rifat, 111; Jeffery. Vocabulary, 131-133; W.C.Smith. The Meaning and End of Religion. N.V.1963, 287-289; T.İzutsu. God and Man in the Koran. Tokyo, 1964, 219-229; Bravmann. Background, İndex; J.J.Haddad. The conception of the term Din in the Quran. – M. W. 1974, 64, 114-123; Gardet. Din. – EI, NE, 2, 293:296.

**Diyə** - ərəbcədir, (türkcə diet, farsca diye), qanbahası, cərimə, qana görə ödəmə, qətlə, yaralama və ya zədələməyə görə kompensasiya. Hələ islamaqədərki dövrdə geniş yayılmış D. islam tərəfindən qəbul edilib Quran tərəfindən təsdiq olundu. D. məsələlərinə fiqhin bütün bölmələrində toxunulur, lakin əsasən o, uqubat bölməsində geniş şəkildə öyrənilir. D. qanununun ilk şərhini Əbu Yusuf verib, sonra onu müfəssəl olaraq əş-Şeybani aydınlaşdırıb, sonrakı müəlliflər isə ancaq ümumi qaydaları şərh etməklə kifayətləniblər. Bu qaydalar aşağıdakılardır: qətlə görə D. öldürülənin varisləri razı olarlarsa qan qisasını ləğv etmək üçün (sa`r) ödənilir; yaralama və ya zədələməyə görə D. qisasdan can qurtarmaq üçün ödənilir, əgər zərərçəkmiş və onun qohumları buna razıdırsa; təsadüfi qətl, yaralama və ya zədələmələrdə başqa cəza tədbirləri olmadığına görə D. ödənilir. Əgər günahkar D.-ni özü ödəyə bilmirsə çatmayan vəsait onun qohumlarından yığılır. Qətlə görə D. öldürülənin varisləri arasında miras kimi bölüşdürülür. Yaralama və ya zədələməyə görə D.-ni zərərçəkən özü və ya bu vəsaiti onun maraqlarına uyğun xərcləyən inanılmış adamı alır.

Bütöv (tam) D. – 100 dəvə və ya 200 iribuynuzlu mal-qara və ya 2 min qoyun və ya 1 min dinar (və ya ona bərabər başqa pul) və ya hərəsi paltar tikməyə çatan 200 ədəd parça. Qəsdən qətl, yaralama və ya zədələməyə görə D. qısa müddətdə və ən yaxşı mal-qara ilə ödənilir, təsadüfi qətlə görə isə 3-5 il ərzində ödənilir, mal-qara isə razılaşma əsasında seçilir. Müxtəlif

zədələmələrə görə D.-nin qədərini ödəmək üçün mürəkkəb dərəcə sistemi hazırlanıb. Məsələn, açıq sınıq 1/10 D., gözün kor olana qədər zədəsi 1/2 D., dişin sındırılması 1/20 D. və s.; haqqında danışılmayan zədələr qeyd olunan zədələrə uyğun qiymətləndirilir. D.-nin qədəri və forması hakim tərəfindən təyin edilir, lakin şəxsi razılaşma da mümkündür. Zərərçəkən və ya günahkar qadın olanda D. iki dəfə azaldılır. Əgər qul zərər çəkmişsə D. yox, kompensasiya onun sahibinə verilir və o, azad adamın D.-sindən çox ola bilməz. Əgər qul günahkardısa, onda D.-ni onun sahibi ödəyir, o, bunun üçün qulu satıb D.-nin bir hissəsini verə bilər. D.-nin ödənməməsi mühüm öhdəçiliyin pozulması kimi cəzalandırılır, cinayətkar isə D. ödənməyənə və ya onun ödənməsi üçün razılığa gəlinməyənə qədər murdar halında (cənəbə) hesab edilir və heç bir ibadətə buraxılmır. Belə razılıq baş tutandan sonra günahkar kəffarə verməli, təmizlənməli (tahara), bundan sonra o, cinayətkar sayılmır, ancaq borclu kimi hesab edilir.

D. fiqhin qanuni olduğu (gücü qaldığı), xüsusilə də arxaik ictimai strukturları qalan yerlərdə həyata keçirilən qayda sayılır. Bununla belə, D.ödənişinin forması dəyişərək yerli şəraitə, baxışlara və dəyər ekvivalentinə uyğunlaşdırılır.

**Ədəbiyyat:** İslam, 69-70; Əbu Yusuf Əl-Xərac, 183-195; Wensinck. Handbook, 38-39; Schacht. İntroduction, 185-186; Heyd. Studies, 137-139; E.Tyan. Diya. – EI, NE, 2, 240-343.

**Əd-Druziyyə** - druzlar, X əsrin əvvəlində «qatı şiələrin içərisindən ayrılmış etnokonfessial müsəlman icmasının üzvləri. D.-nin banisi Məhəmməd (Nəştəkin) əd-Dərazidir (vəf. 1019-cu il). D. özləri onu «mürtədd» adlandırırdılar, özlərinin əl-muvahhiddun (təkallahlığa qulluq edən) adlanmalarını üstün tuturlar. D. təlimi Misirdə, özünü Allahın mücəssəməsi elan edən Fatimi xəlifəsi əl-Hakim (966-1021-ci illərdə hökmranlıq etmişdir) vaxtında yaranmışdır. Əl-Hakim yoxa çıxandan sonra onun gözlənilən gəlişinə iman D. icmasının yarandığı Antilizan dağları və Livan şəhərlərində yayıldı. XVIII əsrin əvvəlində D.-nin bir hissəsi Qərbi Suriyaya köçdü.

D.-nin ictimai təşkilatı üçün qapalılıq, ortokuz (ənənəvi) nikahlara meyilli ciddi endoqamiya (yaxınları ilə evlənmə), təknigahlılıq xarakterikdir. Ənənəvi şəcərələr D.-ni Ədnan və Qəhtan nəsillərinə bölürlər. D.-nin ismailizmə əsaslanan doktrinasının tədqiqinə Həmzə b. Əli (vəf. 1042-ci ildən sonra) başlamışdır, başa çatdıran isə əsasən Cəmal əd-din Abdullah ət-Tənuhi (1417-1479) olmuşdur. D. inanırlar ki, sünni və şiə islamı ancaq tövhid üçün zəmin hazırlamışdır; Yer üzərindəki hadisələrdə və tarixi şəxsiyyətlərdə «yüksək kosmik əsaslar» əks edilir; ölən D.-in ruhları yeni doğulanların bədənlərinə keçir (tənasüh), belə ki, canların sayı

daimi olduğu üçün icmaya üzv qəbul etmək mümkün deyil. D.-də Həsret-mənin bir neçə dərəcəsi vardır: dünyəvi əyanların bir hissəsi daxil olmaqla D.-nin əsas kütləsi «cuhhəl»ə (cahillərə), ruhani rəhbərlik «uqqāl»a (aqillərə), onlardan yuxarılar isə əcəvid («kamillərə») aiddirlər, onların başçısı şeyx əl-aqldır. Hər iki cinsin üzvləri üçün ilahiyyat ədəbiyyatı və xəlvət ibadət yerləri («xəlvət», «hücrə») ancaq həsrolunmuşlara açıqdır. Həsrolunmamışlar isə cümə axşamları gün batandan sonra dua oxuduqları xüsusi yerlərə (məclislərə) buraxılırlar. D.-yə müsəlmanların qida qadağası aid edilmir.

D.-nin çoxu əkinçidir (onların az hissəsi ticarət və sənətkarlıqla məşğul olur). Onlar Livanda (Şuf, Mətu, Əley və s. rayonlarında), Suriyada (Cəbəl Druz, Hayran, Dəməşq, Şimali Suriyada), İsraildə (Yuxarı və Qərbi Qalileydə, Karmel dağı rayonunda) yaşayırlar, az bir sayda druzlar İordaniyada (Əmman, Zərqa) da var.

XX əsrin ortalarında və yeni dövrdə D.-nin dünyəvi əyanları Livanın dağ rayonlarının çoxuna nəzarət edirdi. D.-nin ən çox nüfuzlu hakimi əmir Fəxr əd-din II Mə′n 1590-1633-cu illərdə hökm sürmüşdür. XIX əsrin 40-60-cı illərində druz əyanları ilə maronit-kəndliləri arasındakı ictimai əksliklər qanlı silahlı toqquşmalara çevrildi. D. Osmanlı hakimiyyətinə qarşı hərəkatlarda, habelə, Suriya və Livan üzərindəki fransız mandatına qarşı (1920-1943) çıxış etmişdilər. Hazırda D. Livan milli vətənpərvər qüvvələri (xüsusilə də İctimai Tərəqqi partiyasının tərkibində) sırasında Livanın ictimai yenidənqurulması uğrunda fəal çıxış edirlər.

**Ədəbiyyat:** İslam, 71; S.N.Məkərim. Ədva` alə məslək ət-tövhid (əd-duruziyyə). Beyrut, 1966; A.Silvestre de Sacy. Expose de la religion des druzes. 1-2. P., 1838; N.Bauron. Les Druzes: Histoire du Liban et de la Montagne Haouranaise. P., 1930; Sami Nasib Makarem. The Druze Taith. N.V., 1974; M.H.S. Hodgson, M.T.Gökbilgin. Les Druzes. – EI, NE, 2, 646-653.

# E

**<u>Ehram</u>** – mömin müsəlmanın kiçik (ümrə) və böyük (hac) ziyarətləri vaxtı girdiyi (bağladığı) xüsusi hal (vəziyyət). Ənənəvi yerə (miqat, cəmi məqavit) çatdıqda, zəvvar müəyyən təmizlik qaydalarını icra edir: qüsl edir, saç və dırnaqlarını qırxır. Mərasim təmizliyi (təharət) halında zəvvar iki parça ağ materialdan ibarət olub E. adlanan xüsusi geyimə bürünür: parçanın birini (izar) beldən aşağı – ayaqlara qədər bürüyürlər, ikincisini (rida) sol çiyinə ataraq ön və arxa tərəfi örtürlər. Kişilər başı açıq (qadınlar hökmən başı örtülü), ayaqlarda çəkərək olur (qadınların geyimi başqadır). E.- a girərkən Allaha xüsusi müraciətlə (təlbiyə) edilir: «Budur, mən sənin qarşındayam! Sənin şərikin (tayın) yoxdur! Budur, mən sənin önündəyəm! Həqiqətən şükürlər sənədir, mərhəmət və əzəmət sənindir! Sənə şərik yoxdur!». Bu formulanı Məkkəyə girərkən və bütün əsas müqəddəs yerləri ziyarət edərkən təkrar etmək vacibdir. Ehramda olarkən ticarət etmək, sevişmək, qan tökmək, saç-saqqal qırxdırmaq, ətirlənmək qadağandır. Bu qadağaları pozmaq ziyarəti batil edir. Ehram halından çıxmaq - ayinləri yerinə yetirəndən sonra saçın kəsilməsi ilə həyata keçirilir. E.-ın daxili mənası onunla izah olunur ki, insan Qiyamət günü Allah qarşısında duracağı şəkildə («bu Dünyanın» işlərindən müvəqqəti olaraq imtina edir) durur. E.-ın qəbul edilməsində müsəlmanların cəmiyyətdə maddi və ictimai vəziyyətindən asılı olmayaraq ümumi bərabərliyi ideyası öz əksini tapmışdır.

**Ədəbiyyat:** İslam, 118; əl-Buxari. Əs-səhih. 1, 284-443; əl-Qəzali. İhya. 1,225-233; Gaudefroy-Demombynes. Pelerinage, 168-191; Grunebaum. Festivals, 26-28; A.J.Wensinck-[J.Jomier]. Ihram. – EI, NE, 3, 1078-1079.

**<u>Elm (cəmi ulum)</u> -** bilik. İslamın banisi Məhəmməd peyğəmbər (s) təkidlə və müxtəlif səbəblərlə Allah və insan biliyi haqqında danışırdı: Quranda 750-dəfəyə qədər E. və onunla bir kökdən olan ad və fel formalı sözlərə rast gəlinir. Allah biliyi əbədi və əhatəlidir, o, Allahın hər şeyə qadir olduğunun əlamətlərindən biridir, insan biliyi isə ikilidir: adi, dünyəvi və dini, iman kimi. İslamın islamaqədərki və islamdankənar (qeyri-müsəlmanlar) qarşı-qarşıya qoyulması: imanın – inamsızlığa, biliyin (elmin) savadsızlığa qarşı qoyulması çox əhəmiyyətli olmuşdur. E.-ə əvvəlcə güclü diqqət verilməsinin nəticəsi o oldu ki, müsəlman doktrinalarında - ilahiyyat, hüquq, fəlsəfə və ictimai-etik (doktrinalarında) bilik konsepsiyalarına çox mühüm yer ayrıldı. Biliyə can atmaq hər bir müsəlman kişi və qadının vəzifəsi və borcu elan olunmuşdu. Öz

dünyagörüşünü (bir şəxsiyyət və ya islam, icma, məktəb və qruplarda hər hansı cərəyanın nümayəndəsi kimi) azad surətdə izah etməyə iddia edən hər kəs adətən E.-ə öz münasibətini də bildirirdi. Buna görə də E. istilahına və onun mövzusu və həcminə görə çoxlu tərif irəli sürülmüşdü: bütün islam tarixi boyu bu təriflər çoxlu əsərlər içərisində durmadan müzakirə edilir və dəqiqləşdirilirdi, baxmayaraq ki, vaxtaşırı olaraq onu təyin etməyin hər cür cəhdinin mühakiməsi də səslənirdi. E. haqqında fikirlər üçün təkan nöqtəsi rolunu Qurandan olan sitatlar, hədislər və müxtəlif mənbəli tərcümə əsərləri oynamışlar. Əgər çoxlu təfərrüat və nüansları nəzərə almasaq, E.-in mövzusu aşağıdakılara gətirib çıxarır: 1) islam ənənələrinin mənimsənilməsi; 2) mistik şəfəqlənmə, işıq, parıltı dərketmə; 3) məntiqi düşüncə ilə başa düşmək; 4) ensiklopedik təhsilə malik olmaq. İslam ənənələrinin mənimsənilməsinə aid olanlar Quranı, sünnəni, hüquqi qanunu, əhkamı, müqəddəs tarixi əhatə etmişdirlər: onların nizama salınması ilə dini elmlər məşğul olurdular və onlar ayrı-ayrılıqda E. ət-təfsir, əl-hədis, əl-fiqh, əl-kəlam və başqaları adlanırdı. İsmaililər, sufilər və filosoflar iki növ bilik (elm) fərqləndirirdilər – aydın görünən, xarici (ekzoterik, zahir) və məhrəm, gizli (ezoterik, batin). E.-ın bütün təyinatlarında ərəb dilinin öyrənilməsinin, bilik və əməl (əməl və davranış) arasındakı sıx qarşılıqlı asılılığın zəruriliyi qeyd olunur. E. istilahının «bilmək» mənası ilə başqa ərəb köklərindən olan sinonimləri də vardır: onlardan ən çox işlədiləni – mə'rifədir. Sufilər onunla ən çox Allah haqqında biliyi, «qnosisi» ifadə edirdilər. E.-in tərifinə orta əsr kitablarının çoxunun müəllifləri giriş hissəsində – müqəddimədə bir neçə sətir və ya səhifə, tez-tez ayrı-ayrı fəsillər, hətta bütöv əsər həsr etmişlər.

XIX əsr müsəlman yenilikçiləri E.-in problemlərinə yenidən mübahisə kəskinliyi verdilər. E.-in və təhsilin inkişafı ilə əlaqədar olaraq müasir müsəlman müdrikləri və publisistləri onları hərarətlə müzakirə etməkdə davam edirlər. Üstünlük təşkil edən meyl E.-in bir E.-i bilik kimi və ya, hər halda əsil E.-ə əks olmayan və mane olmayan çox geniş izahıdır.

E. kökündən müəllim istilahı yaranmışdır – o, başqasına E. verir; müəllim, pedaqoq (daha çox ibtidai məktəbdə), biliyin istənilən nəzəri və təcrübi sahəsində (sufi şeyxi, sex ustası və b.k.) rəhbər, böyük və təcrübəli şəxsin epitetidir.

**Ədəbiyyat:** İslam, 95; Роузентал. Торжество знания.

**Elmu-l-Hədis** (rəvayət-hədis haqqında elm) – hədis öyrənilməsinə həsr olunmuş bilik sahəsi. Artıq erkən islamda saxta hədislərin sayının artması müsəlman alimləri arasında onlara qarşı formal-tənqidi münasibətə səbəb oldu. Mühəddislər başa düşürdülər ki, istifadəyə qeyri-düzgün material buraxılmışdır, onu dərindən öyrənmək lazım idi ki, yalançı hədisləri

aydınlaşıdırıb onları «əsil» hədislərdən ayırsınlar. Müsəlman tənqidinin diqqətinin əsas obyekti rəvayətin məzmununun özü (mətn) deyil, ötürücülərin silsiləsi (isnad) oldu: isnadın keyfiyyəti xəbər verənin əsaslanmasının qarantı hesab olunurdu, baxmayaraq ki, problemə belə yaxınlaşmada tez-tez mövzusu yalandan düşünülmüş, lakin qüsursuz mühəddislər zənciri ilə təmin olunmuş hədislər əsil kimi qiymətləndirilirdilər. Mühəddislər üçün hədis ötürücülərinin ayrılmaz zəncirinin mövcudluğunu təyin etmək mühüm idi, onlar E.-l-H.-də ər-ricəl (insanlar, adamlar, şəxslər, ərlər) adlanırdılar. Mühəddislər onların adlarını, yaşadıqları vaxtı, tərcümeyi-hallarının faktlarını (nə vaxt və harada olmuşlar) öyrənirdilər, bu onların bir-birləri ilə görüşüb, bir-birlərini dinlədikləri haqqında yəqinlik əldə etmək üçün idi. Onların «möminliyinin» və mənəvi keyfiyyətinin qiymətləndirilməsi az əhəmiyyətli kimi təqdim edilmirdi: onların hər biri yaxşı müsəlman sayılırmı, ona inanmağa (siqa) layiqdirmi, düzgündürmü (səduq), d.d., eşitdiklərini düz ifadə etməyə yararlıdırmı? Hədislərin ötürücülərinin, xəbər verilənlərin düzgünlüyü qarantı kimi yoxlanılması mühəddislər arasında əl-cərh va-t-tə′dil («rədd etmə və təsdiq») adını almışdır. Ötürücülər haqqında bütöv məlumatlar kompleksinin yığılması və tənqidi tədqiqi E.-l-H.-də xüsusi bir cərəyanın – mərifət ər-ricəlin (şəxslər, adamlar) meydana gəlməsinə gətirib çıxartdı. Hesab edilirdi ki, hər bir savadlı mühəddis bu biliyə malik olmalı idi. Ötürücülərin aşkarlanması isnadlarda adları çəkilən şəxslərin tərcümeyi-halı olan xüsusi lüğətlərin və ya təbəqat tipli soraq kitabçalarının yaradılmasına gətirib çıxartdı. Bizə qədər gəlib çıxan bu tipli kitab ən erkən əsər İbn Sə′din (vəf. 845) Kitab təbəqat əl-kəbiridir. Etibara layiq olan şəxslər haqqında sorğu kitabları ilə yanaşı etibara «layiq olmayanlar», «zəif» ötürücülər – duəfə (təkdə daif), məsələn ən-Nəsəinin (vəf. 915) Kitab əd-duəfə haqqında da sorğu kitabçaları yaradılırdı.

Rəvayətlərin tənqidi incəliyinə qədər olduğu üçün xüsusi terminologiya yaranmışdı. Hədislər eyni qiymətli sayılmırdı və «həqiqi» «düzgün» (səhih), «yaxşı» (həsən) və «zəif» ə (daif) bölünürdü.

«Düzgün» hədis tam, hər hansı bir buraxılışsız ötürücülərin zənciri ilə olan, inam və dəyəri şübhə doğurmayan hədislərdir. «Yaxşı» hədis ötürücülər silsiləsində buraxılmış yer olanda və ya onların düzgünlüyünə yekdil səs olmayanda deyilirdi. Belə hədislərin «layiqlilərdən» aşağı qiymətləndirilməsinə baxmayaraq, onlar yenə də ilahiyyat-hüquqi məsələlərin həlli üçün qəbul və istifadə edilirdi. Məzmunu tənqidə məruz qalan və ya ötürücülərindən hər hansı biri etibara layiq olmayan kimi hesab edilirdisə, o, «zəif» hədis sayılırdı. Belə hədislər ancaq onlarda söhbət öyüd-nəsihət verməkdən getdikdə və ya onlarda özünü ədəb-ərkanla aparmaq nümunələri izah edildikdə qəbul edilirdi.

Yoxlama vaxtı hədislər xarakteri, isnad və mətn xüsusiyyətinə, ötürücülərin sayına görə də başqa qruplara bölünürdü. Hədislərin alınma və ötürülmə üsullarının sayının heç olmasa yeddi olması da müəyyən olunmuşdur: səma′, qira’a, icazə, mühavələ, mukatəbə, vəsiyyə, vicədə. Onlardan bəziləri (mühavalə və mükatəbə) artıq IX əsrdə, ola bilsin, daha əvvəl istifadə olunurdu.

Əvvəllər hədis külliyyatlarını müsnəd tipli (əsası, özülü olan) tərtib edirdilər. Onlardakı material ən erkən ötürücülər – əshabların adlarına (alə-r-ricəl-görkəmli adamlara) görə təsnif edilirdi. Məsələn, Əhməd ibn Hənbəlin (vəf. 855) Müsnədi belə idi.

Hədislərin tənqidinə aid öz əsərləri ilə IX əsrin görkəmli nüfuzluları əl-Buxari (vəf. 870), Müslim (vəf. 875), İbn Məcə (vəf. 886), Əbu Davud əs-Sicistani (vəf. 888), Məhəmməd ət-Tirmizi (vəf. 892) və ən-Nəsəi (vəf. 915) – müsəlman aləmində geniş şöhrət tapmış, nümunə olaraq qəbul edilmiş altı hədis külliyyatını bəşəriyyətə böyük hədiyyə etmişlər. Onların müsnəd tipində tərtib edilmiş, «növü və təsnifatına görə bölünmüş» kitabları kompozisiyanın artıq daha kamilləşmiş nümunəsi idi. Onlardakı material tematik sərlövhə və ya mövzuların göstərişinə görə (alə-l-əbvab) yerləşirdi ki, bu da çox rahat idi, çünki bu, artıq axtarışlardan azad edir və müəyyən məsələdə hədisin nöqteyi-nəzərini tez anlamağa imkan verirdi.

Hədislərin öyrənilməsi sonrakı dövrlərdə də davam edirdi. Çoxlu nəzəri işlər yazıldı, onlardan ən çox nüfuzlusu Əbu Məhəmməd ər-Rəmahörmüzün (vəf. 970) Əl-Mühəddis əl-fāsil beynə-r-ravi va-l-va′i, əl-Həkim ən-Neysəburinin (vəf. 1014) Mə′rifət ulum əl-hədisi və xüsusilə də İbn əs-Saleh əş-Şəhrazurinin (vəf. 1245) Ulum əl-hədisidir. Axırıncı kitabda E.-l-H. orta əsr müsəlman tənqidi baxımından bütöv həcmdə, çox təfsilatlı və tam öyrənilmişdir.

**Ədəbiyyat:** İslam, 95-96; GAL, göst. GAS, 1, göst.; Abbot. Studies; Th.W.Juynboll. Hadith. – EI, NE, 3, 23-28.

**Əl-Ehsan («səmimilik», «vicdanlılıq», «təmiz qəlblilik»)** – Quranda riyakar möminliyə, ikiüzlülüyə (riya) əks olaraq əl-E. dini vəzifələri yerinə yetirərkən olan səmimilikdir. Ömər b. əl-Xəttabdan olan bir hədisdə deyilir: «Ehsan odur ki, elə bil sən Allahı görərək ona təzim edirsən. Əgər görmürsən də, deməli O, səni görür. Əl-Qəzali əl-E. istilahını ədl- «ədalət» sözü ilə cüt işlətmişdir, çünki bu cütlük «ədalət və vicdan» mənasını alır. Əl-E. doqmatik məfhum kimi İslam və iman məfhumları ilə birlikdə ümumi məfhum - din təşkil etdiyi kimi əl-E. məfhumu altında bütün əhkamların şübhəsiz və başqa şərhsiz, d.d., onun bütün yazdıqlarını hədsiz sədaqətlə tam qəbul etmək düşünülür. Əl-E. məfhumundan möminin adlarından biri – muhsin (Möhsün) yaranmışdır. Adi istifadədə əl-E. istilahı ixlasın - qəlb

təmizliyi, fikir və hərəkətlərdə səmimilik – sinonimidir. Öz rəhbərinə hörmətli və nəzakətli münasibət və onun öyrətdiklərinə danışıqsız riayət etmək də əl-E. adlanır.

Sufilikdə əl-E. dinin ən yüksək pilləsidir, ondan aşağı iman, sonra şəriət, təriqət və həqiqət məfhumlarına uyğun gələn islamdır. Əl-E. qaydaya görə təsəvvüflə eyniləşdirilir.

**Ədəbiyyat:** İslam, 118; əl-Qəzali. İhya. 2, 65; Wensinck. Handbook, 107: L.Gardet. Din – EI, NE, 1, 294.

**Etiqad (i'tiqad)** – Allah sözünün həqiqiliyinə qəti inam, imanın üç elementindən biri. E.-ın sinonimləri rolunda müxtəlif doqmatik məktəblər, təsdiq, əqidə, əqd istilahlarını işlədirdilər. Mənaya görə E.-a başqalarından yaxın olan istilah təsdiq (bi-l-qəlb) Allah həqiqətini və hər şeyi qəlbdən qəbul etməkdir ki, bunu Quran xəbər verir. Onlar arasındakı fərq ancaq ondadır ki, təsdiqə Allah sözünün doğruluğu və həqiqiliyi haqqında daxili fikir yürütmə aktı kimi, E.-a isə onlarla razılıq və ona daxili inam aktı kimi baxılır.

**Ədəbiyyat:** İslam, 116; L.Gardet. I`tiqad. – EI, NE, 4, 291-297.

# Ə

**<u>Əbdülmüttəlib (Abd əl-Müttəlib) ibn Haşim</u>** - Peyğəmbərin (s) babası. Oğlu Abdulla öləndən sonra kiçik Məhəmmədi (s) o tərbiyə etmişdir. Əsil adı Şeybə olub, Mədinədə Bəni Nəccar qəbiləsində doğulub, o uşaq ikən atası Haşim səyahətdə vəfat edir, əmisi Müttəlib onu özü ilə Məkkəyə aparır, onun Əbdülmüttəlib ləqəbi də burdandır (Müttəlibin qulu). O, əvvəllər doldurulmuş Zəmzəm quyusunun yerini yuxuda görür, onu təmizləyib bərpa edir və quyu üzərindəki mülkiyyət haqqını mühafizə edir (özündə saxlayır), Həccə gedənlərə su vermək də onun ixtiyarında idi.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 74.

**<u>Əbubəkr əs-Siddiq, Abdulla</u>** (əl-Atiq) b. Usmən (təx. 572-23 avqust 634-cü il) dörd Raşidi (mömin, ədalətli) xəlifələrindən birincisi. Varlı Məkkə taciri, deyilənlərə görə kişilərdən islamı birinci qəbul edən (Məhəmməddin (s) yaxın tərəfdarlarından bir neçəsi üçün də bu fikir söylənilir), Məhəmmədin (s) dostu, onun Mədinəyə hicrətinə qədər müsəlman icmasına daim maddi kömək göstərən adam. Hicrət vaxtı Məhəmmədi (s) müşayiət etmiş, Məkkə ətrafında Məkkə təqibçilərindən mağarada onunla gizlənmişdir. Mədinədə Ə. Məhəmmədlə (s) daha çox yaxınlaşdı və qızı Aişəni ona ərə verdi.

Ə. Məhəmmədi (s) onun bütün səfərləri və hərbi yürüşlərində müşayiət edirdi, lakin o özü 631-ci ilin Həcc mərasimi sayılmasa bir dənə də siyasi və ya hərbi hərəkata başçılıq etməmişdir. Müsəlman mənbələri onu yumşaq və mənsəbpərəstliyi sevməyən bir adam kimi qələmə verirlər. Rəvayətə görə Məhəmməd (s) peyğəmbər xəstələnərək Ə.-i namaza başçılıq etməyə təyin etdi və o, təsadüfi olaraq icmanın dini rəhbəri Məhəmməd (s) vəfat edəndən sonra onun başçısı oldu. Başda Ömər olmaqla mühacirlərin çoxu hamını Ə.-ə Məhəmmədi (s) əvəz edən kimi (xəlifə) and içməyə (beyət etməyə) çağırdılar, lakin (xəzrəc qəbiləsindən olan) ənsarlar Bənu Səidin talvarı altına yığılıb xəlifəni onların içərisindən seçməyi tələb etdilər. Rəvayətə görə Ə. guya Məhəmmədin (s) əvəzedicisi olmağı rədd etdi, Ömər və Əbu Übeydənin namizədliyini irəli sürdü. Onda aus qəbiləsindən olan ənsarlar xəzrəc qəbiləsindən olan rəqiblərinin yüksəlməsindən qorxaraq Ə.-ə beyət etməyə razı oldular və bu, işin nəticəsini həll etdi (9 iyun 632-ci il). Əli (ə) və başqa haşimilərin mövqeyi tam aydın deyil; bəzi mənbələrə görə onlar altı ay Ə.-ə and içmədilər (beyət etmədilər), lakin çox güman ki, bu, o hadisələrin izahıdır ki, Əlinin (ə) könüllü and içməsi guya Ələviləri xilafətə iddia etmək kimi qanuni əsaslardan məhrum edərdi. Şiələrin gözündə Ə. qəsbkardır.

Ə. hakimiyyətinin birinci ili ərzində Məhəmmədin (s) vəfatından sonra bütün Ərəbistanda dindən dönən (ər-riddə) qəbilələri yenidən islama döndərməklə məşğul oldu. Burada o, dindən dönənlərə tam qətiyyət göstərdi. Rəvayətə görə Müsəlman icmasına başçılıq edən Ə. çox sadə həyat tərzi sürürdü və tez-tez qeyd edirdi ki, o, Məhəmmədin (s) vəsiyyətlərini yerinə yetirir və özündən yeni bir şey həyata keçirmir. Ə. dövlət siyasəti kimi islamlaşdırmanın başlanğıcını qoydu. Onun vaxtında əsas dövlət atributları əmələ gəlməyə, ali müsəlman hakimiyyəti yaranmağa, Suriya və İraqın fəth olunmasına başlandı.

**Ədəbiyyat:** İslam, 8-9; İbn Sə′d. Təbəqat. 3, 119-152, 202; ət-Təbəri. Tarix, 1, 1838-2134.

**Əbu Hənifə, ən-Numan b. Sabit əl-imam əl-ə′zəm** (699-767) mömin, fəqih, mühəddis, hənəfi məzhəbinin banisi və eponimi. Kufədə dövlətli ipəksatan ailəsində doğulmuşdur (İran məvalilərindəndir). Ə.Hənifə çox yüksək ümumi və dini təhsil almışdı, 22 yaşında görkəmli İraq din alimi Həmmad ibn Əbi Süleymanın şagirdi olmuşdur, 18 il - müəlliminin vəfatınadək onun cəmiyyətində (məclisində) olmuşdur, sonra özü 10 il bu cəmiyyətə başçılıq etmişdir, o, Kufə və Bəsrənin ən nüfuzlu din xadimi sayılırdı. 747-48-ci ildə onu dövlət xidmətinə məcbur edən İraq canişini İbn Xubeyrənin təqibindən canını qurtararaq Məkkəyə gedir. Abbasilər hakimiyyətdə möhkəmləndikdən sonra o, İraqa qayıdıb dövlətli tacir və alim həyatını davam etdirdi. Xəlifə əl-Mənsur (754-775) ona təzə paytaxtda – Bağdadda qazi və ya hər hansı bir yüksək vəzifə təklif etdi, lakin Ə.H. onları qəbul etmədi. Xəlifə onu sındırmaq üçün həbsə salmağı və hətta yaşına, mövqeyinə baxmayaraq çubuqla döyməyi əmr etdi. Bir az sonra Ə.H. vəfat etdi.

İslam dini təlimində (ilahiyyatında) yazı adət-ənənələri Ə.H. ilə başlayır. İslam ehkamına dair yazılmış və görünür həqiqətən də Ə.H.-nin hansısa mətninə daxil olan ilk yazılı əsər – Əl-Fiqh əl-əkbər və ya Aslu-t-tövhid Ə.H.-yə aid edilir. Orada islam ehkamlarının əsas halları qısaca, dürüst şəkildə ifadə edilmişdir: təkallahlılıq, Allahın əlamətləri, Allah sözü kimi Quran, Allahın hər şeyə qadir olması, iradə azadlığı, peyğəmbər ləyaqəti, insanların günahları, xeyrli işlər və onlara görə verilənlər, iman, qəzavü-qədər, möminlik, Quranda zikr olunanların ləyaqətləri haqqında yazılmışdır. Bu əsərdə mürciilər və mötəzililərin görüşlərinə qarşı mübarizə açıq-aydın görünür. Ə.H. həm də bir miyanə hədislər məcmuəsi (müsnəd) tərtib etmişdir. Ə.H.-ni hüquq məsələlərinin tədqiqində çətin məsələlərin həll edilməsi metodlarını ilk tətbiq edən hesab edirlər, bununla fəqihlərin sxolastik əsərlərinin gündəlik həyat tələblərinə yaxınlaşması mümkün oldu. Ə.H. və onun ən yaxın tərəfdarları hüquq məslələlərinin həllində bənzəyiş

(qiyas) və üstün tutmada (istihsan) mülahizənin rasional prinsiplərinin istifadə metodikasını hazırlamışlar. O, hüquq mənbələrindən biri kimi adət (urf) - qayda normalarından istifadənin mümkünlüyünü əsaslandırdı. Ə.H.-nın irsi sitat və göstərişlər şəklində Əbu Yusufun Kitab əl-xəracında, Məhəmməd əş-Şeybaninin bütün əsərlərində, xüsusilə də Əl-Məbsutda, Kitab əz-ziyədət və Kitab əl-əsrdə qalmışdır. Ə.H.-nin adına yazılan Kitab əl-alim va-l-mütəəlim və Vəsiyyət Əbi Hənifə onun görüşləri əsasında yaradılıb.

Ə.H.-nin siyasi görüşləri hərtərəfli müsəlman icmasının nəzarəti altında olan leqitim ali hökmranlıq prinsipinə meyli ilə xarakterizə olunur. Ə.H. şəhər ticarət-sənətkarlıq dairələrinin ən erkən və parlaq nümayəndələrindən biri idi, öz dairəsində kök ataraq, onların dini-hüquqi doktrina formasında ifadə olunan maraqlarını müdafiə edirdi.

**Ədəbiyyat:** İslam, 11-12; əl-Bağdadi. Tarix Bağdad. 13, 323-425; İbn ən-Nədim. Əl-Fihrist. 255-256; Əbu Zəhra. Əbu-Hənifə. 14-78; yenə o. Tarix əl-məzahib. 1, 131-173; GAL, 1, 169; J.Scacht. Abu Hanifa. – EI, NE, 1, 123-124.

**Əbu-l-Hüzeyl əl-Əllaf, Məhəmməd b. əl-Hüzeyl** (753-849), bənu Əbdülqeysin mövlası – Bəsrə mötəzililər (hüzeylilər) məktəbinin ən böyük nümayəndəsi, onların mənəvi müəllimi, mübahisəçi. Bəsrədə doğulub, onun evi heyvanlar üçün yem (ot, alaf və s.) satılan məhəllədə yerləşirdi və o, alaf satmaqla məşğul idi. Buradan da onun Əllaf ləqəbi irəli gəlir. 818-ci ildə o, Bağdada gəlir, Səmərradda təxminən 100 yaşında vəfat edir. Ə.l-H.-in müəllimi mötəzili vaizi, Vasil b. Atanın məsləkdaşı və həmfikiri Osman b. Xalid ət-Tavil idi. Ə.l-H.-in sonradan öz müəllimlərinin ideyalarının işlənib hazırlanmasında böyük xidmətləri olan çoxlu şagird və tərəfdarları olmuşdur. Onların içərisində Əbu Yəqub əş-Şəhham (vəf. 888-ci il), Əbu Osman əl-Adəm və başqalarını göstərmək olar. Ə.-l-H. həm də xəlifə əl-Məmunun müəlllimi olub, onun hökmranlığı zamanı mötəzili təliminin bir neçə müddəaları dövlətin dini qanunlarına daxil edilmişdi.

Ə.l-H. əsasən polemikaya (mübahisə) aid 60 əsərin (heç biri qalmayıb) müəllifidir. Məsələn, o, dünyanın iki əbədi başlanğıcı – İşıq və Zülmətdən ibarət olub sonradan qarışmasını təbliğ edən məşhur dualist Saleh b. Əbdülquddusla disputlar aparırdı. Ə.-l-H.-in antropomorfizm təliminin yaradıcısı, şiə din alimi (xadimi) Hişəm b. əl-Hakəmlə disputları (elmi mübahisələri) məşhurdur. Ə.l-H.-in sübutları guya başqa dindən olanları İslamı qəbul etməyə kömək edirdi.

Orta əsr müsəlman müəlliflərinin əsərlərində Ə.l-H.-in ideyaları «xarab» (pis) kimi qəbul edilirdi. Xüsusilə onun Allahın imkanlarının (məqdurat) qurtaracağı - nə vaxt ki, onun nə isə etmək imkanı olmayacaq –

möminlərə rəhmi artırmaq, günahkarlara cəzanı artırmaq – fikrini çox pisləyirdildər. Bu məsələni Ə.-l.H. özünün Kitab əl-huccəc əsərində ətraflı şərh etmişdir.

Ə.l-H.-in apponentləri onun mahiyyətin müxtəlifliyi Allah idrak yolu ilə biləndir və bu idrak özü onun mahiyyətidir) ilahi atributları haqqında doktrinasını antik naturfilosofların təliminə uyğun olan hesab edirdilər. Əş-Şəhrəstaniyə görə Ə.-l-H.-cə ilahi atributlar xristianların qəbul etdikləri ipostasların məğzidir. Ə.-l-H.-in təlimində Allahın təklik, ruh və transsendentliyi abstraksiyanın ən yüksək səviyyəsinə çatmışdır. Əsasdan (substrat) xaric mövcud olan ilahi iradəni izhar etmə haqqında təlimi birinci Ə.-l-H. hazırlamışdır. Mötəzili nəzəriyyəsinə cövhər adlandırdığı cisimlərin atomu aksidensiyasi məfhumunu o gətirmişdir. Ə.-l-H.-in «Allah kəlamı», «iradə azadlığı», insanın öz hərəktlərinə görə mənəvi məsuliyyəti, həyati məhdudiyyətlər və rifah, hərəkət və s. haqqındakı fikirləri də sünni və mötəzili ilahiyyatçıları tərəfindən hücuma məruz qalmışlar. Buna baxmayaraq, Ə.l-H.-in xidməti ondadır ki, o, sonrakı mötəzili ilahiyyatçılarının üzərində işlədikləri çoxlu fundamental problemlər ortaya qoymuşdu. Ən-Nəzzam, əl-Cübbai və başqaları bir çox məsələlərdə fərqlənsələr də öz təlimlərinin Ə.l-H.-in ideyasından asılı olduğunu boyunlarına almışlar.

**Ədəbiyyat:** İslam, 12; Əl-Əş'əri. Məqalat, gös.; İbn ən-Nədim. Əl-Fihrist. 203-204; əl-Bağdadi. Əl-Fərq, 121-130; аш-Шахрастани. Книга о религиях, 42-43, 59-61; İbn əl-Murtada. Təbəqat, 44-49; R.M.Frank. The Metaphysics created being according to Abu-l-Hudhayl al-Allaf. İstanbul, 1966; yenə o. The Divine Atributes According to the Teaching of Abu-l-Hudhayl al-Allaf –Le Museon. Louvain, 1969, 82. 3-4, 451-506; H.S.Nyberg. Abu-l-Hudhayl al-Allaf – EI, NE, 1, 131-132.

**<u>Əbu Ləhəb</u>** (alov atası, alovlanan, cəhənnəmlik) – Məhəmmədin (s) əmisi və sonrakı Məkkə dövrü fəaliyyətində onun əsas düşmənlərindən biri olan Əbdülüzzə b. Əbdülmuttəlibin (VI əsrin ortası – 624-cü il) ləqəbi (əslində Əbdülüzzə də o üç büt ilahəsindən biri olan Üzzəyə sitayiş etdiyinə görə onun ləqəbidir). Əvvəllər Məhəmmədlə (s) yaxşı əlaqədə olmuşdur, onun oğlanları Peyğəmbərin (s) qızları ilə evlənmişdilər. 619-cu ildə Əbu Talib öləndən sonra o, bəni haşimin başçısı oldu və Məhəmmədi (s) müdafiə etməkdə davam edirdi. Lakin görünür Məhəmməd (s) Məkkə üçlük ilahəsini (Lat, Mənat, Üzzə) tam rədd edəndən sonra və bacısı ilə evləndiyi Əbu Süfyanın təsiri altında o, Məhəmmədi (s) müdafiə etməkdən imtina etdi, bu Məhəmmədin (s) vəziyyətini çox pisləşdirdi və onu Məkkədən kənar yerdə sığınacaq axtarmağa məcbur etdi. Ə.L. Bədr müharibəsi ilində öldü, lakin o, müharibədə iştirak etməmişdi.

Rəvayətə görə  Bədr döyüşü vaxtı Əbu Ləhəb ona borclu olan bir nəfəri öz əvəzinə müharibəyə göndərib, özü Məkkədə qalır və teziklə çiçək xəstəliyinə tutulur. Çiçək heç vaxt yaxşı olmur, onun bədəni çürüməyə başlayır. Ailəsi beş qul tutub, ona uzaq bir yerdə qulluq etdirirlər. Öləndən sonra onu bir müddət dəfn edən də olmur. Buradan onun Allahın Peyğəmbərlnə etdiyi pisliklərin öz qarşısına çıxdığını görmək olar.

Ə.L. Məhəmmədin (s) Quranda adı çəkilən yeganə düşmənidir. Onu, xüsusilə ona həsr olunan 111-ci surə lənətləyir: «Əbu Ləhəbin əlləri qurusun». Məhəmmədə (s) aid müsəlman rəvayəti Ə.L.-i onun əsas mənfi qəhrəmanlarından biri etmişdi. Məhəmmədin möizələrinə ilk gülməyi onun adına yazırlar. Məhəmmədə (s) qarşı çoxsaylı fitnə-fəsad törədən də, hətta onun yoluna öz arvadı - Əbu Süfyanın bacısı Cümeyl ilə tikanlar və murdar şeylər atan da odur.

111-ci surənin şərhlərindən birindən yaranmış Cəhənnəm odunda yanan Ə.L. və onun (od üçün) odun daşıyan arvadının obrazları geniş yayılmışdır.

Ə.L.-in oğlu Ütbə hələ İslama qədər Peyğəmbərin (s) bir qızı ilə evlənmişdi. Bəzi rəvayətlərə görə onlar nişanlanmışdılar. Peyğəmbərlik məsələsi yaranandan sonra Ütbə arvadını boşadı. Rəvayətə görə Peyğəmbərin bəd duasına görə onu səyahət vaxtı Suriyada şir parçalayır.

**Ədəbiyyat:** İslam, 9; İbn Sad. Təbəqat. 1/1, 57, 4/1, 41-42; İbn Hişəm. Sirə, 1, 69, 231-232; Ət-Təbəri. Təfsir, 30, 219-221; əl-Beydavi. Təfsir, 2, 421; U.Rubin. Abu Lahab and Sura CXI. – BSOAS. 1979, 42/1, 13-28; J.Bart. Abu Lahab. – EI, 1.103-104; W.M.Watt. Abu Lahab. – EI, NE, 1, 140-141; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 74-75.

**Əbu Mədyən (Bu Medyen), Əbu Mədyən Şüeyb əl-Hüseyn əl-Ənsari** (təx. 1126-1197) – ən çox populyar Şimali Afrikalı sufi, Sevilya şəhəri ətrafında Əndəlüs ərəbləri ailəsində doğulmuşdur. Valideynlərinin vəfatından sonra öz böyük qardaşlarının yanında çoban olmuş, toxuculuq sənətini öyrənmişdir. Gənc yaşlarında Ə.M. Şimali Afrikaya gedib, orada balıqçı, əsgər olmuşdur. Ə.M.-nın özünü sufiliyə bağlaması Fesdə baş verdi, o, orada Məğribin ən böyük şeyxlərinin: əd-Dəkkək (vəf. XII əsrin ortası), Əli b. Hirzixim (vəf. 1195-ci il), Əbu Yə`azz əl-Xəzmirinin (vəf. 1177-ci il) yanında təlim aldı. Ə.M.-in xələti Dəkkəkdən almasına baxmayaraq, onun praktik sufi kimi formalaşmasında ən böyük təsiri ona savadsız Əbu Yə'azz göstərmişdir. Hüquqi məsələlərdə Ə.M. maliki məzhəbini izləyirdi. Həccdən qayıdandan sonra Ə.M. Becayidə (Buci) məskən saldı və orada öz möizələri və möminliyi ilə çox məşhur oldu. Onun ətrafında əhəmiyyətli dərəcədə silahdaşları və şagirdlərinin qruppası yaranır. Ə.M.-in şöhrət və təsirindən narahat olan və onun adının hələ möhkəmlənməyən Əlmohadlar hakimiyyətini hədələyən Mehdi hərəkatı

üçün bayraq kimi istifadə olunacağından çəkinərək Mərakeş hakimi Əbu Yusuf əl-Mənsur onun Mərakeşə gətirilməsini tələb etdi. Yolda qoca sufi bərk xəstələndi və Tlemsen şəhərinin ətrafında yerləşən Ubbad adlı yerdə vəfat etdi.

Ə.M.-nın fəaliyyəti sufizmin müsəlman Qərbində onun güclü bayağılığa keçən forması, xüsusilə də «müqəddəs» adətlərin bərbər əhalisi arasında geniş yayılması ilə üst-üstə düşür.

Ə.M. sufi dünyagörüşü və idealının təbliğatçısı və yayıcısı rolunu oynayırdı, «aşağılardan» çıxdığına görə o, özünün əsasən savadsız dinləyicilərinə onları çatdıra bilirdi. Bu işdə ona əsasən onun irsini təşkil edən və sufi nəzəri və praktiki tezislərini qısaca, dürüst ifadə etməyə imkan verən onun şairlik qabiliyyəti kömək edirdi. Ə.M.-in adına çoxlu poetik əsərlər yazırlar. Onlardan bir neçəsi şifahi şəkildə idi və yalnız XIX əsrdə fransız şərqşünasları tərəfindən nəşr olundular.

Əndəlüs və Məğribdən olan orta əsr müəlliflərinin əsərlərində Ə.M. çox ideal sufi, sülhün və möminliyin nümunəsi kimi göstərilir.

İbn Məşiş, İbn Ərəbi, əş-Şuştəri və əş-Şazili kimi böyük sufilər özlərini Ə.M.-nın mənəvi varisləri (əl-mədiniyyə) hesab edirdilər. Rəvayətə görə Ə.M. öz dövrünün sufi təbəqəsinin baş müqəddəsi – qütbü və ya qövsi idi. Vaxt keçdikcə ətrafında tam bir memarlıq kompleksi yaranan Ə.M.-nın Ubbaddakı qəbri indi də çoxsaylı ziyarətçiləri cəlb edir, Tlemsen şəhərinin əhalisi isə Ə.M.-nı özlərinin müdafiəçisi hesab edirlər.

**Ədəbiyyat:** İslam, 9-10; Əbu Mədyən Şüeyb. Cəvahir əl-hisan. Əlcəzair, 1974; İbn Ərəbi. Muhadarat əl-əbrar. 1, 110, 155-156; Sufis of Andalusia: The Ruh al-quds and the Durrat al-Fakhira of Ibn Arabi. Transl. and introd. by R.W.J.Austin. Los Angeles, 1974; İbn Xəldun. Buğyət ər-ruvvad. 1, Alger. 1400/1980, 125-126; ət-Tadili. Ət-Təşəvvüf ilə ricəl ət-təcəvvüf. Rabat, 1956, 316-325; Əhməd Baba. Neyl əl-ibtihəc. Fes.1317 h., 107-112; J.S.Barges. Vie du celebre marabout Cidi Abou Medien. P., R. Basset. P., 1923, 31-68; Anawati; Gardet. Mystique, 70-71; G.Marçais Abu Madyan. – EI, NE. 1, 137-138.

**Əbu Müslim, Əbdürrəhman (İbrahim)** – Abbasilər hərəkatının Xorasandakı başçısı (755-ci ildə öldürülüb). Mənşəyi İsfəhan əyalətindəndir, çox güman ki, qul ailəsində doğulub. Bir rəvayətə görə o, Kufədə abbasi təbliğatçılarından biri İsa Sərracın qulu olub, başqa rəvayətə görə o, İsfəhan əyalətindən olan böyük ərəb torpaq sahibinin oğlu olub, 738-ci ildə onu Kufədə həbsə salıblar. Ə.M. öz sahibinə qulluq edərkən əs-Sərracla tanış olmuş və onun tapşırıqlarını yerinə yetirmişdir. Ə.M.-in qatı şiə Müğirə b. Səud əl-İclinin üsyanında (737-ci il) iştirak etməsi haqqında məlumat vardır, lakin bu məlumat Ə.M. haqqındakı başqa məlumatlarla heç

uyğun gəlmir. Sonralar o, Abbasilərin Xorasandakı təbliğatının başçısı Əbu Sələməyə satılmış (və ya verilmiş)–dir, 744-cü ildə onlar bir yerdə oraya getmişlər. Sonralar o, İbrahim b. Məhəmmədin (bax: Əl-Abbasiyun) gözünə dəyir, onun xoşuna gəlir və ona bağışlanır. İbrahim onu azad edib, ona Əbdürüəhman adı verir və özünə yaxın adam edir.

747-ci ilin martında İbrahim Ə.M.-i Xorasana özünün şəxsi nümayəndəsi kimi göndərir. Mayda o, Mərv vadisinə gəlib çıxır, yerli antiəməvi təşkilatına başçılıq edən Süleyman bin Qasirin nifrətini dəf edib, bir ay ərzində azadlıq vəd edilən feodallardan - qullara qədər bir neçə min tərəfdar yığdı. Cudayra əl-Kirmaninin cənubi ərəb qruplaşması ilə, mübarizə ilə məşğul olan Xorasan canişini Nasr b. Səyyar yeni düşmənə lazımi diqqət vermədi və üsyanı əvvəlcədən yatırmadı, bu da Ə.M.-ə yarım il düşmənçilik edən qruplaşmalar arasında o yan – bu yana hərəkət edərək, güc toplamağa imkan verdi. Əvvəlcə o, Nasr əl-Kirmaniyə «Peyğəmbər ailəsindən olan imama» and içməyi təklif etdi və hər bir adamın siyasi başçılığını tanıyacağını vəd etdi; sonra, Nasr öz düşmənini öldürəndən sonra Ə.M. həmin şeyləri Cudayrın oğlu Əliyə də təklif etdi, o razılaşdı. 748-ci ilin əvvəlində Əli Mərvi tutdu. Ə.M. təntənəli surətdə ora daxil olub, əhalinin hələ adı çəkilməyən «Peyğəmbər ailəsindən olan imama» andını qəbul etdi.

Üsyançılar ordusunun qərbə sonrakı irəliləməsinə Qahtabə başçılıq etdi, Ə.M. isə Xorasanın qalan ərazisinin tabe edilməsi və Məvarannəhrin zəbt edilməsini Mərvdən idarə edirdi. Öz vəziyyətini möhkəmlətdikdən sonra Ə.M. artıq lazım olmayan Əlini və onun qardaşını öldürdü (iyul 749-cu il), sonra xəlifənin işarəsi ilə 750-ci ilin əvvəlində Əbu Sələmənin qətlini təşkil etdi və öz təşəbbüsü ilə Süleyman b. Qasirə divan tutdu.

Ə.M. Mərvdə böyük inşaat işləri apardı. İlk dəfə olaraq mənbərdən oturan yerdən yox, ayaq üstə xütbə oxumağa başladı.

Ə.M.-ün hökmdarlığı sakit deyildi: 750-ci ildə yeni sülalədən narazı Buxara ərəbləri üsyan etdilər, Məvarənnəhrin çoxlu sahibkarları Ə.M-i tərk etdilər. Ə.M. Səmərqəndə qədər irəlilədi, onun möhkəmlənmə sistemini təzələdi və Məvarənnəhr uğrunda mübarizəyə başladı. 751-ci ilin iyul ayında onun sərkərdəsi Ziyad b. Saleh Tarazda Çin ordusunu dağıtdı və bununla da Abbasilərin hökmranlığını Sırdəryadan o yana təmin etdi. 752-ci ilin əvvəlində Ə.M. Mərvə qayıtdı, lakin tezliklə Məvarənnəhrdə canişin təyin edilmiş Ziyad baş qaldırdı və Ə.M. təzədən Amudəryanı keçməli oldu. Ə.M.-in çoxalan gücü Abbasiləri narahat edirdi və onlar onu aradan götürməyə fürsət axtarırdılar. 754-cü ilin may-iyun aylarında o, həcci ziyarət etmək üçün Xorasanı tərk etdi. Bu zaman əs-Səffah öldü və xəlifə əl-Mənsur oldu, lakin Vizantiyaya yürüş edən əl-Mənsurun əmisi Abdulla onun hökmranlığını tanımadı. Ə.M. üsyançını məğlub edib (noyabr 754-cü

il), böyük qənimət ələ keçirdi, əl-Mənsur qəniməti ondan tələb etdi. Ə.M. narazı qalıb yenidən Xorasana yollandı, lakin xəlifə onu yoldan izahat üçün əl-Mədainə çağıra bildi və 12 fevral (və ya 20 yanvar) 755-ci ildə qəbul vaxtı onu öldürdü.

8 illik aktiv dini-siyasi fəaliyyəti dövründə Ə.M. məzdəkilərə yaxın olan qatı şiə təliminə rəğbət və ya imamlığa iddiaçılıq göstərmirdi, lakin onun qətli yeni məzdəkilərin bir neçə üsyanına səbəb oldu, bir neçə «qatı» şiə sektorları onu imam kimi tanıdılar, əbumüslimiyyə məzhəbi yarandı. Bütün bunun axırıncı əks-sədası özünü ilahi təcəssüm elan edən Müqənnanın güclü üsyanında oldu. Mərvdə yaranan Ə.M. haqqındakı rəvayətlər sonradan fars dilində (türk variantı da var) xalq romanı Qıssa-i Əbu Möslimin əsasını təşkil etdi, onların baş verməsi XI-XII əsrə aid edilir, Ə.M. özü isə orada mötədil şiəlik tərəfdarı kimi göstərilir.

**Ədəbiyyat:** İslam, 10; Anonim, 96-130; MJTT, 1, 122-141; Bartold. Əsərləri. 7., 479-480; R.N.Frye. The role of Abu Muslum in the Abbasid revolt. – M.W. 1947, 37, 28-38; S.Mascati. Studi su Abu Muslim.- Rendiconti della Reale Accademia dei Lincei Roma, Ser. 8., 1949-1950, 4., 323-335, 474-495; 1950-1951, 5, 89-105; I.Melikoff. Abu Muslim. P., 1962.

**Əbu Səid Meyhani (Mihani, Mihni), Fadlullah b.Əbi-l-Xeyr Əhməd** (967-1049), şərqi (Xorasan) mistisizm məktəbinin yaradıcılarından biri Ə.S. Xorasan əyalətinin kiçik şəhərçiyi olan Meyhanədə əczaçı ailəsində anadan olub, orada da ölüb. Onun atası sufi dairələri ilə əlaqədə idi, o da Ə.S.-i mistiki təcrübəyə cəlb etdi. Sufi yığıncaqlarının birində Ə.S. şair Əbülqasim Bəşir b. Yasinə (vəfatı 990-cı il) təqdim olundu və o, sufilikdə onun ilk müəllimi oldu, onun şeirlərini sonralar Ə.S. daim öz möizələrində və təlimatlarında sitat gətirirdi.

Gənc ikən o, Mərvə gedir və beş il ərzində Əbu Abdullah Məhəmməd əl-Hisrinin (983-1000-ci illər arası vəfat etmişdir) yanında şafei hüququndan kurs dinləyib, sonra o qədər vaxt da Əbu Bəkr Abdullah əl-Kəffalın (vəf. 1026-cı il) yanında məşğul olub; təfsir, hədis və kəlamı o Sepahda, şafei fəqihi Əbu Əli Zahir Əhmədin (vəf. 999-cu il) rəhbərliyi altında öyrənib. Oradaca da (təx. 997-ci ildə) «Allah adamı» (divane) Loğman Səpəhsi Ə.S.-i sufi ocağı (xanəgaha) Əbülfəzl Məhəmməd əs-Serəhsinin yanına gətirir, o, Ə.S.-i dini elmləri boşlamağa inandırır, onun müəllimi (pir) olur, təkcə «Allah» sözünü təkrar etməklə ona zikr etməyi tapşırır və ona Meyhanəyə qayıtmağa icazə verir. Ə.S. Meyhanədə 15 il qalır, onun demək olar 7 ilini tərki dünyalıq və sufi təmrinləri yerinə yetirərək, insanlardan qaçaraq yarı ac, tam qapalı yaşamışdır. Adətə görə, sərt tərki dünyalıq dövründə onun çilleyi mənusu (40 gün başı aşağı asılaraq zikr etməyi) 40 yaşı tamam olana qədər (hətta daha çox 1016-cı ilə

qədər) davam etmişdir. Özünün ilk sufi xirqəsini Ə.S. (1021-ci ildə vəfat etmiş) məşhur sufi Əbu Əbdürrəhman əs-Süləminin əlindən Nişapurda, ikincisini isə Amulda sufi Əbu-l-Abbas Əhməd b. əl-Qəssabdan almışdır. Ömrünün ikinci yarısını Ə.S. tanınmış nüfuzlu şəxsiyyət, rəhbər, müəllim kimi keçirmişdir. O, öz möizələrini və özünün çoxsaylı şagirdlərini (müridan), öyrətmələrini Meyhanədə öz evində, Meyhanə ətrafında ayrıca hücrədə (sauma′a), bəzən Nişapura gedəndə Adanikuban məhəlləsinin iqamətgahında həyata keçirirdi. Onun musiqi, rəqs və erotik mahnıların mətnlərini sufi hərəkətələrdə (sama′a) təcrübədən keçirməsi onun ünvanına sərt tənqidə və qəti günahlandırmaya səbəb oldu ki, o, şəriətin normalarından kənara çıxıb, möminlər və hətta bəzi mömin sufilər onu inanmamaqda (şəriətdən kənara çıxmaqda) günahlandırırdılar. Məsələn, onun başladığı həcc mərasimini qurtarmamasını Peyğəmbərin (s) vəsiyyətlərinə bilərəkdən etinasız yanaşması kimi qiymətləndirdilər. Ə.S-in qeyri-adi və bir-birinə zidd fikirləri onun «Allaha məhəbbətdən bihuş» olanlar məktəbinin tərəfdarlarının – daha doğrusu Əbu Yəzid əl-Bistaminin ideyasının ona yaxın olmasını deməyə imkan verir. Sufilərin arasında yayılmış adətə görə Ə.S.-ə möcüzə göstərmək (kəramət) yuxarıdan əta edilmişdi. Ə.S.-in görüşləri «kasıblara xidmət» (xidmət-i dərvişan) ictimai motivindən fərqlənir. Əgər əvvəllər o, dilənərək, məscidləri süpürərək, hamamları və ayaqyolularını təmizləyərək, (məlamatiyyə təliminə uyğun) olaraq öz əməllərini, öz qüruru ilə özünü alçaltmaq və mübarizə kimi qəbul edirsə, sonralar bu motivi o, öz şagirdləri, müridləri və əyalətin sakinlərinin maraqlarının müdafiəsi və ehtiyacına yönəltdi.

Ə.S. yataqxanalarda yaşayan öz şagirdləri üçün 10 bənddən ibarət yataqxanada özünüaparma qayda və qanun əsasnaməsi hazırlayan birinci sufi şeyxi sayılır. O, yataqxanada yaşayış qaydalarına müəllimin yerinə yetirməli olduğu 10 bəndli qaydalarla şagirdlərin yerinə yetirməli olduğu 10 bənd səciyyəvi xüsusiyyət əlavə etmişdi.

Ə.S. sufi yolunun yerli təcrübə məktəbini yaratmışdı. Ə.S.-in məktəbinin başında duran çoxsaylı nəsli onun təsirini doğma əyalətin hüdudlarından uzaqlara yaya bilmədilər. Bu irsi yerli məktəb 1154-cü illədək yaşadı, oğuz tayfaları bütün Xorasanı həmin ildə soyub-taladıqda və Meyhanəni zəbt etdikdə Ə.S.-in nəslindən 115 adamı qətl elədilər.

Hazırda sübut olunub ki, Ə.S. ərəbcə yazılan traktat Əl-Məsabihin və onun kimi farsca yazılan Məqamat-i ərbəə'nin müəllifi ola bilməzdi. Bunu həmçinin onun adı altında geniş yayılmış çoxsaylı dördmisralı (rüba′iyyatı) haqqında da demək olar. Onlar başqa şəxslər tərəfindən yazılmışlar. O özü isə, onun həyat və yaradıcılığı ilə məşğul olanların şahidliyinə görə, şeir yazmayıb.

**Ədəbiyyat:** İslam, 11; Əsrar ət-tövhid fi məqamat əş-şeyx Əbi Səid. Tə'lif-i-Məhəmməd bin əl-Mönəvvər b. Əbi Səid ba ihtimam-i V.Jukovskiy. SPb., 1899; Əmmar. Təzkirə, 2, göstər.; Djami Nəfəhat, 339-347; Zərrinqub Arziş, 83-85; yenə o. Custucu dər təsəvvüfi-i İran. Məcəlləyi danişgəde-yi ədəbiyyat-i danişqah-i Tehran. 1353/1974, №86-87, 1-5; Nicolson. Studies, 1-76; F.Meier. Abu Sa'id-i Abu-l-Hayr.-Acta Iranika. Leiden, 1976, 2, 45-51; H.Ritter. Abu Said b. Ali-l-Khayr. – EI, NE, 1, 145-147.

**Əbu Talib, Əbdülmanaf ibn Əbdülmüttəlib** - Peyğəmbərin (s) əmisi, valideynləri və babası da öləndən sonra yeniyetmə Məhəmmədi o himayəsinə götürdü, Məhəmməd əmisinə ticarət işlərində kömək edirdi. Məhəmməd böyüyüb özü ticarətə başlayanda əmisinə kömək olsun deyə onun bir uşağını götürüb saxladı, bu Əli idi. Peyğəmbərlik məsələsi gələndə qüreyşilər haşimilərə çox hücumlar edirdilər, Əbu Talib Məhəmmədi müdafiə edirdi. Qüreyşilər onları öz aralarından qovanda Əbu Talib onları öz məhəlləsində (Şib Əbu Talib) yerləşdirdi. Onun vəfatından sonra isə Peyğəmbər üçün daha da çətin oldu.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 75

**Əbu Turab** (torpaq atası-müxtəlif mənalı ləqəb) - Həzrəti Əlinin (ə) künyəsi. Rəvayətə görə bunu Əliyə Peyğəmbər (s) vermişdir və şiələr bunu şərəfli ləqəb sayırlar. Əli tərəfdarlarına bəzən Turabiyyə deyirlər.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 75.

**Əbu Übeydə (Amir ibn Abdulla ibn Cərrah)** - Peyğəmbərin Cənnət vəd etdiyi əşəreyi-mübəşşərələrdən (on müjdələnmiş) biri. O, ilk müsəlman olanlardan biri olub, çox cəsur adam idi. Buna görə Peyğəmbər (s) ona Əmin ləqəbini vermişdi. Uhud döyüşündə Peyğəmbərin (s) köməyinə gəlmiş, onun bütün səfərlərində iştirak etmiş, islamı təlqin (təbliğ) etmək üçün Nəcrana getmişdir. Qoşuna başçılıq etmiş, Ömər vaxtı Şam, Homs, Antakiya, Hələb və başqa şəhərləri fəth etmişdir, 639-cu ildə vəfat etmişdir.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 75.

**Əbu Yusuf, Yəqub b. İbrahim əl-Kufi əl-Ənsari** (731-804) – fəqih, islamda ilk baş qazi (qadi -l-qudat). Kufədə kasıb ailədə doğulub, Kufənin qazisi, məşhur fəqih İbn Əbu Leyladan 13 yaşında ikən fiqhi öyrənməyə başladı. 9 ildən sonra o, Əbu Hənifənin yanına gedib 15 il ərzində onun şagirdi və ən yaxın köməkçisi olub. Başqa şagirdlərlə, xüsusilə də Züfər əl-Hüzeyllə birlikdə fiqh nəzəriyyəsinin hazırlanmasında iştirak etmişdir. Əbu Hənifənin vəfatından (767-ci il) sonra o, onun İraq alimləri dairəsindəki

yerini tutdu və onun işini davam etdirdi. Xəlifə əl-Mehdi (775-785) Ə.Y.-u Bağdadın qazisi, xəlifə Harun ər-Rəşid (786-809) isə onu ilk baş qazi təyin edib, özünün bütün xilafətdə qaziləri təyin etmək və bütün məhkəmə işlərində şikayətləri (appelyasiya) qəbul etmək hüququnu ona verdi. Belə yüksək mənsəb Ə.Y-ə Əbu Hənifənin nəzəri işlərini təcrübədə geniş tətbiq etməyə imkan verdi, bu da hənəfi məzhəbinin genişlənməsi və möhkəmlənməsi üçün rol oynadı.

Ə.Y. Harun ər-Rəşidin vergiqoyma, torpaq və sudan istifadə, dövlətin idarə edilməsi və s.-yə aid suallarına ətraflı cavablardan ibarət olan əsər «Kitab əl-xəracın», qəbul olunmuş öhdəliklərdən qaçmaq üsullarını ifşa edən «Kitab əl-məxaric fi-l-hiyəl» və onun müəllimləri Əbu Hənifə və İbn Əbi Leyla arasında müxtəlif fiqh məsələlərində olan fərqlərin bütün hallarını topladığı «İxtilaf beynə Əbi Hənifə və-Bni Əbi Leyla» kitablarının müəllifidir.

Ə.Y-un şagirdləri onun məlumatları və məsləhətlərindən istifadə edərək Əbu Hənifənin irsini toplayıb sistemləşdirən Məhəmməd əş-Şeybani və Əhməd b. Hənbəl olmuşlar. Ə.Y.-un görüşləri Məhəmməd əş-Şafeiyə böyük təsir etmişdir.

**Ədəbiyyat:** İslam, 9; əl-Bağdadi. Tarix Bağdad, 14, 242-262; GAL, 1, 177. SBd, 1, 288; J.Schacht. Abu Jusuf. – EI, NE, 1, 164-165.

**Əbülxəttab,** Əbül-Xəttab Məhəmməd ibn Əbi Zeynəb əl-Əsədi (?-760) ləqəbi əl-Əcda (əlil), Cəfər Sadiqin tərəfdarı. Sonradan özünü Əli sülaləsindən olduğunu, peyğəmbər və ilahi varlıq olduğunu elan etdi, çoxlu tərəfdar topladı, xəttabiyyə adlı təşkilat yaratdı, onun 50-dən çox qolu var idi. O, h. 143 (760)-cu ildə, Kufədə Abbasilər valisi İsa ibn Musa tərəfindən edam edildi.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 75.

**Ədl** («haqlılıq», «alicənablıq»), şəxsiyyətin haqlı və düzlüyünü (haqlı və düzgün olduğunu) göstərən mənəvi qiymətləndirmə kateqoriyası. Quranda ədlə həm xeyrə, həm də şərə görə bərabər ölçü ilə verilən Allahın keyfiyyətlərindən biri kimi baxılır. Lakin Allahın ədli insan təfəkkürünə çatmayan (sığmayan) ali ədalətdir (haqdır), buna görə də o, (insan) Allaha ancaq mərhəmət üçün müraciət edə bilər, ədalət üçün yox.

İnsana tətbiq edilən ədl şəri (cövr) hiss edib, onu aradan qaldırmaq cəhdini yerinə yetirmək bacarığı və ümumi mənada - ədalətdir. Əl-Qəzali ədli ihsan məfhumu («düzlük», «vicdan») ilə qoşa işlədir, belə ki, onların birliyi «ədalət və vicdan» mənasını verir. Belə hesab edilir ki, dövlət və ya seçkili vəzifələrə iddialı olan hər bir şəxs, habelə hansısa mühüm ictimai vəzifəni – qəyyumluq, zaminlik, şahidlik və s. yerinə yetirən hər şəxsdə

ədalət olmalıdır. Hər bir müsəlman, əgər o, qəbahətli bir işdə (fisq, cövr) və ya qadağan olunmuş işlərdə (haram) qeyd olunmayıbsa o, adil, daha doğrusu ədalətli adam sayılır. Bu keyfiyyəti itirən adam (fasiq, cəir) isə öz təmiz adını qaytarmaq üçün tövbə etməli, kəffarə verməli və bundan sonra layiqli müsəlman həyatı sürməlidir.

**Ədəbiyyat:** İslam, 14; əl-Qəzali. İhya, 2, 65; E.Tyan. Adl. – Eİ, NE. 1, 209-219.

**Əfəndi** - rütbəsi şiələrdəki axund vəzifəsinə bərabər tutulur. Həm elmi dərəcə, həm də vəzifə mənasında işlədilir (Türklər və onların təsiri ilə bəzi ərəb ölkələrində Ə. ləqəbi hörmət əlaməti olaraq müraciət kimi işlədilir). Ə.-lər bir çox hallarda şiə qazilərinin vəzifələrini də yerinə yetirmək səlahiyyətlidirlər. Ə.-lər dini məclisləri də aparırlar və bu cəhətdən onlar mollalar kimi çıxış edirlər. Məsələn, XIX əsrdə Lahıc qəsəbəsi yanında Nahıc kəndində yaşayan Molla Abdulla bəzi mənbələrdə Abdulla Əfəndi kimi təqdim edilir (Bax: Babaxan Niyazi. Mövlana Məcid Əfəndi. Bakı, 204, səh. 13, sonralar Mövlana Əfəndi). Sonra o, Diyallı kəndinə köçür, orada onun Mustafa adlı oğlu olur. O, İstanbulda Ali Ruhani təhsili alır, Məkkə, Mədinəni ziyarət edir, Vətənə qayıdandan sonra Hacı Molla Abdulla Əfəndi oğlu Hacı Mustafa Əfəndiyə xalq Böyük Ağa ləqəbi verdi. Çar hökumətinin təqibindən Qubanın Zərqava kəndindən Hacı Abdulla və Hacı Əhməd Əfəndilər kiçik bacıları Zeynəblə gəlib Diyallıya çıxırlar. Hacı Mustafa Əfəndi onları yaxşı qarşılayıb, Nanıclar məhəlləsində yerləşdirir. Mustafa Əfəndi Zeynəblə evlənir, 1829-35-ci illərdə onun 4 oğlu olur - Abdulla, Seyfəddin, Məhəmməd, Cami. Ailə həm Şamaxı, həm də Diyallıda yaşayırdı. Onların dördü də ata yolu ilə gedib din xadimləri oldular. Abdulla Hacı Məcid Əfəndi Şamaxıda, o biri üçü isə Diyallıda yaşayırdılar. Onlardan Hacı Məcid Əfəndi bilik və mövqeyinə görə üstün idi. Onun adı müxtəlif kitablarda müxtəlif cür yazılır, qısaca Mövlanə Hacı Məcid Əfəndi qəbul edilib. O, 1829-cu ildə Şamaxıda doğulub, ilk mükəmməl təhsilini atası Hacı Mustafa Əfəndidən almışdır. Atası onu Türkiyədə dini və dünyəvi təhsil almağa göndərir. Dörd il ərzində o, Quranı, ərəb və fars dillərini, şəriət, tarix, astronomiya, coğrafiyanı öyrənir. Oradan Bağdada gedib, orada da dörd il Ali Ruhani Universitetində oxuyur. Türkiyədə Ə., Bağdadda müfti titulu alır, o, müctəhid kimi Vətənə dönə bilərdi. Lakin bununla Hacı Məcid Əfəndi elmdən doymur. O, Albaniyaya, Tirana şəhərinə gedir, üç il orada ilahiyyat elmləri üzrə elmi-tədqiqat işi aparır, Avropada, Balkanlarda dini və dünyəvi təhsil sistemi ilə tanış olur, sonra ali rütbəli münsiflər heyəti qarşısında elmi işini müdafiə edib şəriət alimi elmi dərəcəsini alır. Tirana Muzeyi və arxivlərdə Hacı Məcid Əfəndinin dünyada tanınmış alim olduğu haqqında qeydlər vardır. 1858-ci

ildə alim diplomu ilə Şamaxıya dönən Hacı Məcid Əfəndi o dövrün ziyalıları S.Ə.Şirvani, Müfti Əbdülhəmid Əfəndizadə, İsmayıl bəy Qutqaşınlı, Hacı Səid Cəlal, Kamal Ünsizadə qardaşları, Həsən bəy Zərdabi, Həsənbəy Nəbibəyov, Mahmudağa, Hacı Seyidqulu Əfəndi ilə təmasda olurdu. O, atadanqalma mədrəsədə müəllim, sonra onun rəhbəri olur, məktəb dini elmlərlə yanaşı riyaziyyat, coğrafiya, astronomiyanı da öyrədirdi, mədrəsənin şöhrəti bütün Azərbaycana yayılmışdı. Hacı Məcid Əfəndi Şamaxıya qayıdan kimi onu Şamaxı Cümə Məscidinin imamı təyin etmişdilər. O, ömrünün sonunadək Şamaxı Quberniya qazisi, Şamaxı məscidinin sədri, Quberniya məclisi və Tiflisdə Zaqafqaziya Müsəlman Mərkəzi İdarəsinin üzvü olmuşdur.

Hacı Məcid Əfəndinin din xadimləri olan üç oğulları – Mustafa Əfəndi (75 yaş), Həbib Əfəndi ( 71 yaş) və Süleyman Əfəndinin (68 yaş) 1930-cu ildə tutub Bakıdakı «Sentralnaya» həbsxanasına gətirmiş və elə həmin il heç bir günahları olmadan güllələmişlər.

**Ədəbiyyat:** H.Həsənoğlu. Azərbaycanın dini-tarixi abidələri.

**Əl-Əfqani, Məhəmməd b. Səfdər Cəmaləddin** (1839-1897) – dini-siyasi xadim, Şərqi Əfqanıstanda Kunar seyyidləri ailəsində doğulmuşdur. Ənənəvi müsəlman təhsilini Kabildə, dünyəvi təhsilini isə Hindistanda almışdır. 1869-cu ilə qədər əfqan əmirlərinin yanında hərbi xidmətdə olmuş, hakimiyyət uğrunda daxili mübarizədə iştirak etmişdir. Sonra Əfqanıstanı tərk edib qalan ömrünü xaricdə keçirmişdir (Hindistan, Misir, İran, Rusiya, Fransa, İngiltərə, Türkiyə). Türkiyədə vəfat edib. 1944-cü ildə onun qalıqları (sümükləri) Kabilə gətirilib, dəfn olunan yerdə məqbərə tikilmişdir.

Əl-Ə.-nin fəaliyyəti XIX əsrin axırıncı - üçüncü hissəsinə, Şərq xalqlarının «oyanması» ərəfəsinə təsadüf edir: o, fəal surətdə antiimperialist mübarizəsinə qoşulur. İngiltərə və başqa qəsbkar dövlətlərin əsarətinə qarşı qalxmaq imkanını əl-Ə. müsəlman ölkələrinin islam bayrağı altında siyasi və ideoloji birləşməsində görürdü. O, hesab edirdi ki, islam ancaq cəmiyyətin müasir həyat şəraitinə uyğunlaşaraq öz tarixi rolunu yerinə yetirə bilər. Bu o demək idi ki, dünyəvi təhsili, elmi, milli sənayeni inkişaf etdirmək lazım idi. Auditoriyanın tərkibindən asılı olaraq əl-Ə. gah dünyəvi elmlərin faydasını qeyd edərək alimin zəhmətini Peyğəmbərin (s) fəaliyyətinə bərabər tutur (Konstantinopal, 1870-ci il), gah materializmə qarşı çıxıb, ilahiyyatı müdafiə edir (Hindistan, Heydərabad, 1880-ci illərin əvvəlləri), gah da islamın elmlə müasirliyi tezisini irəli sürürdü (Paris, 1883-cü il). Əl-Ə.-nin doktrinasının etik normaları son siyasi məsələyə bağlı idi, ona görə də onun həyatının müxtəlif dövrlərinə aid olan məqalə və çıxışları hərdən bir-birinə zidd olurdu.

1871-ci ildən 1879-cu ilədək o, Misirin ictimai və siyasi həyatında fəal iştirak etmişdir: öz ətrafına vətənpərvər gənclər qrupunu toplayır; maarifçilik fəaliyyəti ilə məşğul olur; Misirdə dövrü mətbuatın təşkilatçıları sırasında olub onun daimi müxbiri idi, Yaxın Şərqdəki Avropa ölkələrinin siyasətini pisləyirdi, Misirin vətənpərvər qüvvələrinin müqavimətini ölkənin xarici (inhisarlarından) monopoliyalardan maddi asılılığına qarşı qaldırırdı. 1878-ci ildə əl-Ə. «Milli lojanın» yaradıcısı oldu, orada siyasi məsələlərdən başqa burjua islahatçılarının planları da müzakirə olunurdu, konstitusiya idarətemə tələbləri irəli sürülürdü. O dövrün mənbələri əl-Ə.-nin «pis» hakimlərə qarşı fərdi terrorla bağlılığına şəhadətlik edirlər. 1879-cu ildə İskəndəriyyədə o, «kiçik misirlilərin cəmiyyətini» yaratdı. Sonra aktiv siyasi fəaliyyətinə görə hökumət tərəfindən Misirdən sürgün edildi. 1884-cü ildə Parisdə əl-Ə. Məhəmməd Abdo (Abduh) ilə birlikdə «əl-Urva əl-vusqa» həftəlik jurnalını nəşr etdirdilər, orada panislamizm ideyasını yayırdılar. Panislamizmin təbliği müsəlman xalqlarının antiimperialist mübarizəsi ilə bağlı idi. Onun doktrinasına görə müsəlmanların birləşməsində böyük rolu «mömin» hakim oynamalı idi, buna görə də, müxtəlif vaxtlarda əl-Ə. Misir xədivini, Sudan mehdisini, İran şahını, Türkiyə sultanını nümunə göstərirdi. Gələcək siyasi cəmiyyətin hakimiyyətinin son xüsusiyyəti haqqındakı məsələ açıq qalırdı, belə ki, əl-Ə. monarxın mütləq hakimiyyətinin parlament tərəfindən məhdudlaşdırılmasına meyl göstərirdi. Sonuncu bənd şərq hakimlərinin sərt əks fəaliyyəti ilə qarşılandı, çünki onlar ya əl-Ə.-dən yaxalarını qurtarmaq istəyir, ya da onun müsəlmanlar üzərindəki təsirini məhdudlaşdırmaq istəyirdilər.

Xarici təzyiqə qarşı çıxaraq, islamın həqiqətlə uyğunlaşmasının və islahatların keçirilməsinin zəruriliyini təbliğ edərək, əl-Ə. Şərqin milli burjuaziyasının maraqlarını ifadə edirdi. Özünün islahatçı fəaliyyətində o, «ziyalı siniflərə» (intelligensiyaya, çinovniklərə və dini nüfuz sahiblərinə) istinad edirdi. Onun ideyaları XIX əsrin axırları-XX əsrin əvvəllərində müsəlman dünyasının ən müxtəlif müxalifətçi və inqilabi hərəkat və partiyaların şüarlarında, xüsusilə də 1905-1911-ci illər İran inqilabının şüarlarında öz əksini tapmışdı. Əl-Ə.-nin fəaliyyətinə maraq ikinci dünya müharibəsindən sonra Şərqdə imperializmin müstəmləkəçilik sisteminin dağılması və islamın rolunun siyasi hadisələrdə güclənməsi ilə əlaqədar olaraq yenidən yüksəldi. Panislamizmin şəkli dəyişdirilmiş ideyalarını bəzi dini-siyasi təşkilatlar - «Müsəlman qardaşlar», «Müsəlman cəmiyyəti» və sairə əldə silah etdilər.

Əl-Ə. farsca, ərəbcə və fransızca yazmışdır. Onun əsas əsərləri: «Əfqanıstan tarixinin qısa oçerki – Tətimmət əl-Bəyan»; «Materialistlərin təkzibi»; «Əl-Əfqaninin Renana cavabı»; «Təlim və təhsilin faydası haqqında»; «Ekzeqetin ekzeqezi».

**Ədəbiyyat:** İslam, 26; O.Б.Багушевич. Мухаммад Джемаль ад-Дин аль-Афгани как политический деятель. – КСИНА, 1961, 47, 11-20; E.G.Browne. The Persion Revolution of 1905-1909. Combridge, 1919; I.Goldziher – (J.Jomier). Djamal ad-Din al-Afqani. – EI, NE, 2, 416-419.

**Əhdi-Cədid** - xristianların müqəddəs yazılarının külliyyatı, Bibliyanın xristian hissəsi. Bu istilah xristianların öz dini kitablarını yəhudilərin müqəddəs kitabları külliyyatı Əhdi-Ətiqə (qədim) qarşı qoymaq məqsədilə yaranmışdı. Əhdi-Cədidə dörd İncil (Matfeydən, Markdan, Lukadan və İoanndan), Həvarilərin işləri, 21 risalə daxil edilib. İncillərin mövzuları xristianlığın banisi İsanın həyat möcüzəsi və nəzəriyyəsini təşkil edir. Kilsə Əhdi-Cədidin kitablarını Allahruhlu elan edib.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 76.

**Əhdi-Ətiq** – Bibliyanın hissəsi, yəhudilik və xristianlıqda müqəddəs sayılan kitablar. Onun ən qədimi - Deboranın təranəsi e.ə. XII əsrə aiddir. Əhdi-Ətiqin bəzi mətnləri ən qədim Babil-assur, Misir və Xett mətnləri ilə uyğun gəlir. Xristianların müqəddəs Əhdi-Cədid adlanan kitablarından fərqli olaraq bu adı məhz yəhudilərin müqəddəs kitablarına verirdilər.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 77.

**Əhd-vəd andı,** öyüd, peyman, razılaşma. Quranda Ə. V.A. Allahın insanlara verdiyi vəd və insanların Allaha verdiyi peyman mənasını verən sabit məfhumdur. Xristian qədim və yeni Andı ərəbcə əl-Əhd əl-atiq və əl-Əhd əl-cədid adlanır. Ə.V.A. insanlar arasında razılıq və onun bağlanması qaydası kimi islamaqədərki qədimliyə gedib çıxır, əsasən siyasi xarakterli öhdəlikləri təsdiq edirdi: müdafiə, qəyyumluq, qonşuluq, əlaqə və s.-yə aid öhdəlikləri Ə.V.A. ayrı-ayrı adamlar və ya qruplar arasında birbaşa və ya başqaları tərəfindən bağlana bilər. Başqa din sahibləri ilə bağlanan Ə.V.A. elə bağlanmalıdır ki, onun şərtlərinə görə müsəlmanlar öz dini əhkamlarından geri çəkilməyə məcbur olmasınlar və başqa din sahiblərindən asılı olmasınlar. Belə ki, ən qədim siyasi müqavilə növlərindən biri – tabelik və qoruma haqqında (əhd əz-zimmə) – ancaq müsəlmanların qoruduğu xristianlar və ya başqa din sahibləri tabe tərəf kimi (əz-zimmə) – aralarında bağlana bilər. Siyasi müqavilənin ikinci növü hamiliyə aiddir (əhd əl-valə) – ancaq müsəlmanlar arasında bağlana bilər; o, xüsusi xarakter daşıyır və ancaq orada göstərilənlərə aiddir (əhlə-l-valə). Belə müqavilənin şərtləri mümkün qədər müfəssəl şəkildə şərtləndirilməli idi və o şərtlər daxil edilməli idi ki, müqavilə hər iki tərəfdən pozula bilsin. Başqa din sahibləri – zimmilər tərəfindən islam qəbul edildikdə əhd əz-zimmə öz qüvvəsini itirir, onun yerinə çox vaxt əhd əl-valə bağlanırdı.

Ə.V.A. əmr kimi hakimiyyətin varisə verilməsi hüququnda aktın əsas hissəsini təşkil edir, o da öz növbəsində bu seçkini qəbul etmək razılığı haqqında elan edir və həm də Ə.V.A. formasını ifadə edir və bu andan vali əl-əhd titulunun daşıyıcısı olur. Lakin bu məsələdə məzhəblər arasında və onların içərisində böyük fərqlər vardır. Bəziləri Ə.V.A.-nı hakim ilə onun varisi arasında müqavilə hesab edib, onu adi müqaviləyə (əqd) bərabər tuturlar. Başqaları onu hakim ilə xalq arasında qədim adətə aid olan müqavilə hesab edirlər. Ə.V.A.-nın vaxtı və onun yerinə yetirilməsi prosesi haqqında birgə fikir də yoxdur.

Sufizmdə Ə.V.A. yeni tərəfdarın hər hansı sufi qardaşlığına daxil olarkən mərasimin əsas hissəsinin xüsusi andıdır.

**Ədəbiyyat:** İslam, 27; əl-Məvardi. Əl-Əhkam. 12-21; Медников. Палестина. 1, 538; J.Schacht. Ahd. – EI, NE, 1, 225.

**<u>Əhlibeyt-Əhl əl-Beyt</u>** (sinonimləri Al əl-beyt, Al ən-nəbi) – «Ev adamları», «Ev əhli (xalqı)», «Peyğəmbərin ailəsi». Quranda Ə. əl-B. ifadəsinə iki dəfə rast gəlinir. Birinci dəfə (11:73/76) söhbət İbrahimin «evinin sakinlərindən», ikinci dəfə (33:33) Məhəmmədin (s) «evinin ailəsindən» gedir. Bu ifadə müsəlman müəllifləri tərəfindən müxtəlif cür şərh olunur. Sünnilər Ə. əl-B.-i genişlənmiş şəkildə şərh edirlər, oraya Məhəmməd peyğəmbərin (s) yaxın adamlarını da qoşurlar. Bəzi müəlliflər talibiləri də (Əbu Talibin – Məhəmmədin (s) əmisi və Əlinin atası - nəslini) və (Abbas- yenə Məhəmmədin (s) əmisi - nəslini) də buraya qoşurlar. Başqaları isə Ə. əl.B.-ə bütün haşimiləri qoşurlar. Sünnilərdə «Peyğəmbər (s) ailəsini» saymaq «Peyğəmbərin (s) sünnəsini» izləmək vəzifəsi ilə müqayisədə ikinci dərəcəli əhəmiyyət kəsb edir.

Şiələr Ə. əl-B.-lə əhl əl-kisəni (əba sahibləri) eyniləşdirib. Beləliklə, «Peyğəmbər (s) ailəsi» Fatimə, Əli, əl-Həsən, əl-Hüseyn və onların nəsilləri ilə məhdudlaşırlar. Şiələrin itrə («ailə», «qohumlar») adlandırdıqları «Peyğəmbərin (s) ailəsinə» hörmətə özlüyündə mənası olan, böyük əhəmiyyət verib, onun üzvlərinə «Allah nemətlərinin» və xüsusi biliklərin daşıyıcısı kimi baxırlar.

Onlar (şiələr) Ə.əl-B.-i Əli nəslinə də aid edərək, Peyğəmbər (s) ailəsi mənasına gətirirlər.

**Ədəbiyyat:** İslam, 27; I. Goldziher – C. van Arendonk – [A.S.Tritton]. Ahl al-Bayt. – EI, NE, 1, 265-266; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 78.

**<u>Əhli Haqq</u>** (fars, ərəb. əhl əl-haqq; əhlu-l-haqq «həqiqət adamları») – İran və qonşu ölkələrdə yayılmış gizli şiə icması. Ə.H.-ın tərəfdarlarının etnik müxtəlifliyi ilə şərtlənən yerli adları vardır. İran şiələri Ə.H.

tərəfdarlarını Əli-ilahi (Allahı) – (Əlini (ə) İlahi hesab edənlər) adlandırırlar. İcmanın yaranma vaxtı və onun yaradıcısının adı haqqında dəqiq məlumat yoxdur. O, təxminən XIV əsrdən yayılmağa başlamışdır. Ə.H. təlimi İran, kürd və türk dilləri arasında münbit zəmin (torpaq, yer) tapdı. Ə.H.-ın əsas mərkəzləri Qərbi İranda (Luristan, Kermanşah, Kürdüstan) və İran Azərbaycanındadır. İcmalar həmçinin İraq və Türkiyədə də vardır. Ə.H. bir-birinə yaxın olmayan əhkamçıların birgə sistemli cərəyanlar birliyidir. Ə.H.-ın bütün cərəyanlar üçün ümumi bir şey-insanlarda yeddi ardıcıl İlahi təcəssümdə yaratdığı inamdır. Hər bir təcəssümdə İlahiliyi dörd (və ya beş) mələkə və ya onların avatarları müşaiyət edirlər. Əbədi varlıqda İlahi mirvariyə tutulmuşdur. İlk dəfə o, Xavandaqar – kainatın yaradıcısı simasında təcəssüm edir. Onun ikinci təcəssümü Əli bin Əbu Talib, üçüncü Şah Xoşin, dördüncü Sultan Sohaq (İshaq) oldu. Sultan Sohaqın varisləri haqqındakı Ə.H. bölmələrinin fikirləri müxtəlifdir. Ə.H. tərəfdarlarına bütün ilahi məxluqunun insandan ölüm qorxusunu qovan metempsixozuna inam xasdır, nə qədər ki, ölüm «ördəyin suya baş vurmasına oxşayır». İnsan varlığı 1001 müxtəlif şəklə düşməlidir, bu proseslərdə onlar öz hərəkətlərinə görə əvəz alıb, murdar hərəkətdən təmizlənirlər. Lakin təmizlənmə dərəcəsi insanın təbiəti ilə məhdudlanır. Sarı gil (zərdəgül) – dən düzəldilmiş xeyirxahlar başqalarından çox Dünya geyimindən keçirlər - (Ə.H.-da başqa şəkil alma, paltarı dəyişməklə müqayisə olunur), başqalarından çox əzab çəkirlər, buna görə də onlar Allaha, Allah işığına (nuruna – bax: nur) daha yaxındılar. Qara gildən (siyahxak) düzəldilmiş məxluqlar şər adamlar hesab edilirlər. Onların təmizlənmə imkanı məhdudlaşdırılıb və Qiyamət günü onlar məhv ediləcəklər. Ə.H.-ın esxatologiyası dünyanı təzələyəcək Sahib əz-zamanın tezliklə zühurunu gözləyir. Ə.H.-ın XIV-XX əsrlər dini əsərlərinin çoxu kürdlərin Hurani qəbiləsi dialektində, az hissəsi isə fars və türk dillərində yazılmışdır. Sonrakı ənənədə (XX əsrin əvvəli) yeddi ilahi təcəssüm haqqındakı təlimi Xavandaqar və Sultan Sohaqın qeyri-adiliyi ilə əsaslanması və az məşhur olan yeni tarixi şəxsiyyətlərin təcəssüm obyektləri kimi yaranması ilə dəyişdirilir. Ə.H.-ın müxtəlif cərəyanlarını XX əsrin əvvəlində özünü «Sahibə əz-zamanın» nümayəndəsi elan edən, axırıncı böyük əsər olan Furqan əl-əxbarın müəllifi Hacı Nimətulla birləşdirməyə çalışdı.

Ə.H.-ın tərəfdarları bu cəmiyyətə aid olduqlarını gizlədirlər və rəsmi olaraq şiələr-imamilər hesab edilirlər. Belə hesab edirlər ki, hazırda Ə.H. Türkiyədə şiələrin 90%-i, Əfqanıstanda 15%-dən çoxunu və İranda 8%-ə qədərini təşkil edirlər.

**Ədəbiyyat:** İslam, 30; H.N.Mojrem Mokri. Shah-nama-ye Haqiqat: Le Livre des Rois de Verite, historie traditionalle des Ahl-e Haqq. Texte

persan publie… par M.Mokri. 1-2. Teheran – Paris, 1966,1971: La Grande Assamblee des Fideles de Verite: Livre secret et inedit en gourani ansien. Texte critique, traduction, introduction et commentaires… par M.Mokri. P., 1977; В. Жуковский. Секта «Людей истины». – Ahli hakk – в Персии. – ЗБОРАО, 2 (1887), 1-24; Петрушевский. Ислам, 307-309; V.Minorsky. Ahli Hakk. – EI, NE, 1, 260-263.

**Əhl əl-kisə (Ali-əba)** - əba əhli, libas əhli –Peyğəmbərin (s) ən yaxın əhli-beytinə verilən addır. Rəvayətə görə Peyğəmbər (s) oturub zikr edirmiş, Əl-Hüseyn babasının yanına gəlir, babası əbasının ətəyini qaldırıb onun üstünə salır. Bir azdan Əl-Həsən gəlir, babası onu da o biri tərəfinə alıb, əbası ilə onun da üstünü örtür. Bir az keçəndən sonra H.Fatimə daxil olur, görür ki, atası onun uşaqlarını əbası altına alıb, Fatimə onu da əba altına almağı xahiş edir. Atası onu da əbası altına alır. Az sonra Əli (ə) gəlir, bu mənzərəni görüb, bu görünüşü çox bəyənir və onun da əbanın altına alınmasının mümkünlüyünü soruşur. Peyğəmbər (s) onu da əbasının altına dəvət edir, o da əbanın altına girir. Bu vəziyyəti yaxınları tərəfindən kimsə görür və onları Ali-əba adlandırır.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 78.

**Əhməd bin Hənbəl, Əbu Abdullah** (780-855) – hənbəlilərin dini-siyasi hərəkatının və doqmatik hüquqi məktəbinin banisi. Bağdada Xorasandan yenicə gəlmiş ailədə anadan olmuşdur. 15 yaşından (795-ci ildən) 816-cı ilə qədər Ə.b.H. hədisləri və fiqhi öyrənmiş, əsas müsəlman ilahiyyat mərkəzlərini ziyarət etmiş, öz dövrünün demək olar bütün «üləmaları», o cümlədən Əbu Yusuf əş-Şafei ilə görüşmüşdür. Hicaz, Suriyanın alimləri, İraqın Baqi b. əl-Cərrah, Yəzid b. Harun, Yəhya b. Məin kimi təqlidçilərinin yuxarı nəslinin ən nüfuzlu nümayəndələri ilə əlaqə yaratmaq ona müyəssər olmuşdu. Dərin biliyi, həyat tərzi və əlaqələrinə görə o, tədricən şöhrət qazanır. Ə.b.H-in yaradıcılığının çiçəklənməsi ilahiyyatçı təqlidçilərin mötəzili fəlsəfəçilərlə mübarizəsinin kəskinləşməsi vaxtına təsadüf edir. İcmaya mötəzili əhkamını (birinci növbədə Quranın yaranması haqqında əhkamı) güclə təlqin etmək istəyən xəlifə əl-Məmun tərəfindən yaradılan sınağın (mihnə) elə birinci ilində Ə.b.H. sınaqdan keçirilənlərin xüsusi qruppasında oldu. İki il ərzində (833-834) onu həbsdə saxladılar. Xəlifə əl-Məmun və əl-Mötəsim onun işi ilə şəxsən maraqlanırdılar. Əl-Mötəsimin əmri ilə Ə.b.H. döydürüldü, sonra xalqın narazılığı təhlükəsinə görə Bağdadda yaşamaq icazəsilə azad edildi.

Ə.b.H. iki xəlifə qarşısında Quranın yaradılmasını (xəlq olunmasını) rədd edən (tanımayan)ilk məşhur ilahiyyatçı oldu. Ə.b.-H.-dən sonra bir neçə görkəmli ilahiyyatçının sınaqdan keçirilməsinə baxmayaraq, ənənə sünni

ənənəçiliyinin qələbəsini Ə.b.H.-in adı ilə bağlayır. Ə.b.H.-in yüksək nüfuzu «islamı yenilikdən xilas edən» kimi Bağdad ənənəçiləri daha çox qəti qərara gələnlərin onun ətrafında birləşməsinə zəmin yaratdı. Qoca Ə.b.H. onlar tərəfindən sonradan onun adı ilə adlanan yeni dini-siyasi hərəkatın ideya rəhbəri kimi tanındı. Ömrünün axırıncı illərində onun nüfuzu o qədər güclü oldu ki, ənənəçilərin mövqeyini bərpa edən xəlifə Mütəvəkkil onun dəstəyini almaq üçün az qüvvə sərf etmədi. Xəlifənin dostluğunu formal olaraq rədd edən Ə.b.H. mötəzililərlə mübarizədə onunla əməkdaşlıq etməyə başladı. Xəlifənin xahişi ilə o, Bağdad və Bəsrənin ən fəal mötəzililərinin siyahısını tutub, mötəzililər və fəlsəfənin başqa tərəfdarlarına qarşı birbaşa çıxışların təşəbbüsçüsü oldu. Ə.b.H. Bağdadda vəfat edərək, özündən sonra şagird və ardıcıllarının böyük qruppasını qoyub getdi.

Ə.b.H. ənənəvi dini təlimin əsas sistemləşdiricilərindən biri kimi qəbul edilib. Dini əhkamçıların rasional şərhlərinin mümkünlüyünü rədd edən Ə.b.H. özünün bütün diqqətini «bu həyatın» problemlərinin həllinə yönəltmişdi. O, əsasında icma həyatının düzgün təşkilinə can atması olan «dini praktisizmin fəlsəfəsini» çox fəal işləyirdi. IX əsrin 20-40-cı illərinin böhranı nəticəsində icmada yaranan dini-siyasi vəziyyəti qiymətləndirərək Ə.b.H. belə nəticəyə gəldi ki, onun rəyincə Məhəmməd (s) və onun ardıcıllarının ilk nəsli dövründəki «İslamın qızıl əsrində»ki nizam-intizama qayıtmaq zəruridir. Ə.b.H. hesab edir ki, Allaha söz, iş və fikirdə qulluq etmə yolunda müsəlman ləyaqətinin yüksək pilləsi «imandır». İlahiyyatçının əsərlərində əsas diqqət «yenilik» (bid'ə)-nin «qəti konsepsiyasının» hazırlanmasına verilir, buna görə Quran və hədislərə əsaslanmayan və ilk üç müsəlman nüfuzlarının nəsillərinin (icmasının) «razılıq rəyi» ilə təsdiqlənməyən din və həyatdakı bütün «yeniliklər» mühakimə olunmalıdırlar. Ə.b.H.-in siyasi görüşləri praqmatikliyi ilə seçilirdi. Bir tərəfdən o, qureyşilərin hər hansı bir nümayəndəsinin xəlifə olmağa haqqı olduğunu qəbul edir, o biri tərəfdən «insanları dinə qarşı şübhəyə sövq edən» hakimi devirməyi mümkün hesab edirdi. O, dini-siyasi mübarizənin «fitnə»nin mümkünlüyünü qəbul edir və qiyam vaxtı öz görüşlərini axıradək yürütməyə çağırırdı. Ə.b.H. qeyd edirdi ki, ilahiyyatçılar hakimə təsir etməlidirlər.

Ə.b.H.-in bizə qədər qalmış əsərləri içərisində daha çox əhəmiyyətlisi: 30 mindən çox hədisi özündə cəm edən külliyyat - Müsnəd; Altı əqaid; namazın qayda-qanunlarına və ilahiyyatçıların icmada roluna həsr olunmuş Kitab-əs-salat; Ə.b.H.-in ilahi atributlara olan ənənəçi görüşlərini müfəssəl izah etdiyi polemik əsəri- Kitab ər-rədd alə-l-cəhmiyyə va-z-zənədiqədir.

**Ədəbiyyat:** İslam, 31; İbn əl-Cövzi. Mənakib: İbn Əbi Yə′lə. Təbəqat əl-Hənəbilə. 1; Patton. Ahmad ibn Hanbal; H.Laoust. Le hanbalisme.-REİ. 1959, 30, 67-80; yenə orada. Ahmad ibn Hanbal.-Eİ, TE, 1, 280-286.

**Əhlü-z-Zimmə** (zimmilər-«himayə olunanlar») – başqa din sahibləri, müsəlmanların hakimiyyətini tanıyaraq, can vergisi (cizyə) verənlər və buna görə müsəlmanların himayəsini (zimmə) almışlar: xarici düşmənlərdən müdafiə, şəxsiyyətin və əmlakın müsəlmanlarla bərabər toxunulmazlığı zəmanəti olanlar.

Zimmə istilahına birinci dəfə Məhəmməd peyğəmbərin (s) ərəb qəbilələrinə göndərdiyi məktubda (629-632-ci il) və Quranın 9-cu surəsində (8, 10), elə o dövrə aid olan «Allahın və onun rəsulunun zimməsi» formasında və müqavilə əsasında güclü tərəf tərəfindən göstərilən «himayəçiliyə» rast gəlinir. Lakin artıq Nəcranın (632-ci il) xristianları ilə olan müqavilədə zimmə sözü «başqa din sahiblərinə himayə onların müqavilənin şərtlərinə riayət etdikdə» mənasında işlədilib. Ərəb tarixçilərinin əsərlərində qalan hicri birinci əsr müqavilələrinin mətnlərinə görə onların əsas şərtləri can vergisi (cizyə), pul və ya təbii malla, müsəlmanlara qalmaq üçün yer vermək və düşmənlərə kömək etməmək öhdəçiliyi vermək idi. Buna görə «Allahın, onun rəsulunun və əmir əl-mömininin» (hərdən bura müqaviləni bağlayan hərbi rəisin də və ya «və bütün müsəlmanların» ifadəsi əlavə olunurdu) zimməsi zəmanəti verilirdi, şəxsiyyətin və əmlakın, şəhər hasarının və kilsələrin toxunulmazlığı təmin olunurdu; bu dövr üçün hər hansı dini ayinin yerinə yetirilməsində və ya məişətdə məhdudluq məlum deyil. Fərqli geyim və işarələr haqqında sərəncam, yeni məktəblər tikilməsi, görünən yerdə dini rəmzlərin yerləşdirilməsi, ruhaniliyə vergi qoyulması meydana çıxdı.

II Ömər vaxtı (717-720) belə məhdudluqlar haqqında məlumatlar mübahisəsiz deyil. Cizyə yığan vaxt xaçlar və donuzların guya rəhmsizcəsinə məhv edilməsi, xristianlar üzərinə birinci sərt hücum II Yezid vaxtı (720-724) baş verdi. (Göründüyü kimi xristian müəlliflər xrsitianların müsəlman ölkələrində incildildiklərini şişirdərək yazırlar. Lakin Şərq xristianlarının özlərinin bu haqda heç bir mənbədə məlumatı yoxdur). Gündəlik məhdudluqların olması haqqında inamla demək ancaq VIII əsrin axırından olar. Əbu Yusuf Harun ər-Rəşidə (786-809) məsləhət gördü ki, asma qurğuşun əlamətlərlə yanaşı cizyə yığan vaxt Ə.-z-Z. müsəlmanlardan fərqli paltar geyməli, cins atlara minməməli, müsəlman bazarlarında şərab və donuz əti satmamalı, təzə məbəd tikməməlidirlər xaç yürüşləri etməyi qadağan etmə, xaçları əldə açıq tutmağa qadağa və s.-yə tövsiyə onda hələ yox idi, o, bu qaydalara I Ömər və II Ömər vaxtlarında müraciət edildiyini qeyd edir. (Əgər o özü hələ bu qadağaları məsləhət görürsə I və II Ömər vaxtı onlar həyata keçirilə bilərdimi?).

Əl-Mütəvəkkilin dövründən (847-861) başlayaraq Ə.-z-Z.-lərin dövlət xidmətinə qəbulu və onların fərqli paltar geymələri və s. haqqında qaydalar dəfələrlə meydana gəlməyə başladı. Bu əmrlər az olmayan dərəcədə qeyri-

müsəlman maliyyə məmurlarının sui-istifadəsindən qəzəblənmiş sıravi müsəlmanları sakitləşdirmək zərurətindən irəli gəlirdi. Buna baxmayaraq başqa din sahiblərinin dövlət qulluğuna qəbul edilməsi (xüsusilə də Misirdə) səngimirdi, ancaq onların sayı müəyyən qədər azaldılırdı.

XI əsrdə əl-Məvardi Ə.-z-Z.-lərin riayət edəcəyi altı icbari və altı müstəhəb şərt formalaşdırmışdı: Quranı pisləməmək, Məhəmməd peyğəmbəri (s) ləkələməmək, müsəlmanlığı pisləməmək, zina etməmək və müsəlman qadınlarla izdivaca girməmək, müsəlmanları başqa dinə keçməyə meyl etdirməmək, müsəlmanlarla müharibə edənlərə kömək etməmək. Bu şərtlərin hər hansı birisinə riayət etməmək Ə.-z-Z.-i himayədən (zimmə) məhrum edir, daha doğrusu onları qanundankənar edir. Arzu olunan şərtlər aşağıdakılardır: geyimin üzərində fərqləndirici işarə gəzdirmək, müsəlmanların evlərindən hündür ev tikməmək, təhlükə təbili çalmamaq, müsəlmanların yanında öz müqəddəs kitablarını ucadan oxumamaq, xaçları və donuzları görünən yerdə saxlamamaq, öz ölülərini sakit və nəzərəçarpmaz tərzdə dəfn etmək, cins atlar və dəvələrə minməmək; bu şərtlər onlar müqaviləyə daxil olanda icbaridır, onların pozulması Ə.-z-Z.-ı himayədən məhrum etməyə əsas hesab olunur, əslində isə cəza verilməlidi. Sonralar bütün bu və bir neçə başqa məhdudiyyətlər I Ömərin Yerusəlimin xristianları ilə vaxtilə bağladığı müqavilələrin apokrifik mətnində qanuniləşdirilir və ilk dəfə ət-Turtuşidə meydanə gəlir (XII əsrin əvvəlləri), sonralar isə əlavə bəndlərlə genişlənir.

Başqa din sahiblərinin erkən islamla müqayisədə indi (XI-XII əsrlər) guya daha çox sıxışdırılmasına baxmayaraq, bütövlükdə orta əsrlərdə müsəlmanların Ə.-z-Z.-yə münasibəti dözülməli idi. Əgər xarici-siyasi və hərbi faktorlar daxili işlərə qarışmasaydılar, arxalarında heç bir xarici qüvvənin durmadığı yəhudilərin vəziyyəti daha yaxşı idi. Hətta səlib müharibələri vaxtı müsəlmanlar xristianlara qarşı daha az düşmənçilik bəsləyirdilər, nəinki xristianlar müsəlmanlara.

XIX əsrdə Avropa ölkələri Osmanlı imperiyasında xristianların vəziyyəti məsələsini onların daxili işlərinə qarışmaq üçün bəhanə kimi istifadə etdikdə, Şərq xristianları da istər-istəməz onların təsirlərinin keçiricisinə çevrildikdə, xristianlara münasibət daha çox ədavətli oldu və nəhayət bu 1860-cı ildə Suriya, Livanda qırıb-çatma kimi qanlı divan tutmaya gətirib çıxartdı.

Hazırki vaxtda Ə.-z-Z. məfhumu yox olur, bütün dinə qulluq edən vətəndaşlar müsəlman ölkələrində ümumi qanuna tabedirlər, lakin başqa din sahiblərinin yuxarı mənsəblərə yüksəlməsi çətindir (son hadisələrə qədər). Livanda xüsusi vəziyyət idi, konstitusiyaya görə ali dövlət mənsəblərini müəyyən din sahiblərinin nümayəndələri tutmalı idilər. 1970-ci ildə Misirdə belə vəziyyət hiss olunmurdu. Orduda briqada komandiri

polkovnik Şəfiq xristian idi. 1988-ci ildə Suriyada müdiri xristian Mixail olan Hələbdəki Dəmiryol İnstitutunda xristian və müsəlman müəllimlər çiyin-çiyin çalışırdılar və onlar arasında heç bir fərq yox idi. Ticarətin çoxu isə ermənilərin əlində idi.

**Ədəbiyyat:** İslam, 28-29; Б. Ф. Гиркас. Права христиан на Востоке по мусульманским законам. СПб, 1865; Медников. Палестина, 1. 538-613; A.S.Tritton. The Califs and their Non-muslim Subjects: A.Critical study of the Covenant of Umar. Oxf., 1930; Fattal. Statut.

**Sünnülər-Əhli Sünnə, Əhlu-s-Sünnə va-l-Cəma'ə** (sünnə və razılıq icması camaatı) – (şiələr və xaricilərlə yanaşı islamın əsas məzhəblərindən biri olan müsəlmanların böyük hissəsi - sünnilərin özlərini adlandırması. Sünnilər Sünni sistemi əhkamlarını islam üçün daha uyğun hesab edirlər və onu islam dindarlığı ilə eyniləşdirirlər. Bunun Peyğəmbərdən (s) sonra İslama rəhbərlik etmiş ilk üç xəlifənin və onlardan sonrakı xəlifələrin və tərəfdarlarının əhli sünnə olduqlarından belə nəticələndiyini söyləmək olar. Əslində isə hamı tərəfindən tanınan hər hansı bir Ə.-s-S. əhkam külliyyatı yoxdur.

İstilahın birinci hissəsi sünnə istilahından yaranıb – misal, Məhəmmədin (s) həyat yolu icmanın həyatı üçün nümunə kimidir. O, hədislərdə – onun hərəkətləri və dedikləri haqqında məlumatlarda qeyd olunub. İslam Peyğəmbərin (s) Allahla birbaşa «əlaqəsini» qəbul etdiyi üçün Məhəmmədin (s) öz dediklərini də İlahi təbiətli sayırlar: buna görə də sünnə Quranla birlikdə müsəlmanlar tərəfindən islamın Allah tərəfindən verilmiş əsası, müsəlman icması həyatının qanunlarının göstəricisi kimi qəbul edilir. Şiələr də sünnəni qəbul edirlər, lakin onun üçün onların Məhəmməd (s) haqqında öz məlumat küllliyyatları (toplumları) vardır, belə ki, onlar hesab edirlər ki, sünnilər öz toplumlarında Əlinin (ə) müsəlman icmasında xüsusi rolunu təsdiq edənləri təhrif etmişlər.

İstilahın ikinci hissəsi «icmanın rəyinə uyğun olaraq» - təqlidi islamın ikinci mühüm konsepsiyasını – müsəlmanlar qarşısında yaranan əsas dini və ictimai problemlərin həllində icmanın xüsusi rolu ideyasını işıqlandırır. Məhəmmədin (s) vəfatından sonra müsəlmanların icmasının Allahla birbaşa «əlaqəsi kəsildi və onun (icmanın) həyatı ən çox nüfuzlu ilahiyyat alimlərinin təqdim etdiyi düzgün təfsiri rəylərinə uyğun olaraq təmin edilən Quran və sünnənin nəsihətlərinin dəqiq yerinə yetirilməsinə əsaslanmalıdır.

Bu «icma» konsepsiyasına uyğun olaraq siyasi və dini hakimiyyət Quranın nəsihətlərini yerinə yetirməyə şəxsi keyfiyyəti və biliyi ilə daha çox uyğun gələn və icma tərəfindən seçilən adam – xəlifəyə məxsus olmalı idi. Şiələr isə hesab edirlər ki, Peyğəmbərlə (s) qohumluq Əli tayfasının

(nəslinin) üzvlərinə «Allahın nemətini» verir və ancaq onlar müsəlmanları idarə edə bilərlər.

Ə. us-S.-yə aid olan əsas formal əlamətlər bunlardır: Dörd ilk xəlifəni qəbul etmək (Əbubəkr, Ömər, Osman, Əli), altı hədis külliyyatının həqiqi olduğunu qəbul etmək (əl-Buxari, Muslim, ət-Tirnuzi, Əbu Davud, ən-Nəsəi, İbnMəcə), dörd fiqhi (dini) - siyasi məzhəbdən (maliki, hənəfi, hənbəli, saf`ei) birinə aid olmaq.

İslamın əsas cərəyanlarının ayrılması tədricən hakimiyyət uğrunda amansız dini-siyasi mübarizə və kəskin ilahiyyat mübahisələri gedişində VII əsrin ortalarından VIII əsrin ortalarınadək həyata keçdi. VIII əsrdə Peyğəmbər (s) nəslindən olanların hakimiyyətə xüsusi haqqı olduğunu sübut etmək istəyən şiələr və xəlifənin seçilməsi prinsiplərini mütləqləşdirən xaricilər ayrılırlar. Müsəlmanların hansı bir mənadasa əsas çoxluğu kimi xaricilər özlərini sünnənin həqiqi ardıcılları hesab edirdilər. VIII-IX əsrlərdə sünnənin təriflənməsi Peyğəmbərin sünnəsinin dalınca dümdüz getmək zərurətini, ona sözsüz inanmağı, dini problemlər haqqında hər cür yenilik və boş fikirlərə qadağa qoyulmasını təsdiq edən təqlidlərin fəaliyyətinin xüsusi xarakterik xətti oldu. Bu prinsiplər hənbəli məktəbinin möizələri və doqmatik əsərlərində daha parlaq həyata keçirilirdi. Təqlidçilərin əleyhdarları – mötəzililər, sonra isə kəlam nümayəndələri ağılın dəlillərinə əsaslanaraq iman (din) probleminin müzakirəsinə can atırdılar. Onlar da özlərini Ə.-s-S. sayırdılar, lakin onların daha qatı əleyhdarları onları rədd edirdilər.

Bu vaxta qədər sünni istilahı şiə istilahına görə az dəqiq məna verir; əslində bu istilah ancaq (şiə) istilahına əks qoyulanda həqiqi əhmiyyət kəsb edir. Sünnilərin şiələrlə mübarizəsi son - orta əsrlərin müxtəlif dövrlərində və yeni dövrdə olduqca kəskin səs-küyə səbəb oldu: o, hər şeydən əvvəl konflikt yaradan ictimai faktorlarla bağlı idi. Belə faktorlar olmayanda sünnilər müsəlman dünyasının müxtəlif hissələrində şiələrlə rahat yanaşı yaşayırdılar. XX əsrin sonunda islamın siyasi rolunun güclənməsi gedişində ölkələrarası (İran-İraq), həm də müxtəlif ölkələrin daxilində (Səudiyyə Ərəbistanı, Livan) sünni-şiə ixtilafları da (d.d. xristian ölkələrinin «səyi» (araqarışdırması) nəticəsində kəskinləşdi, lakin çox vaxt onlar üçüncü dərəcəli rol oynayırdılar (İran-İraq) və ya yüngülcə həll olunurdular. Sünniliyin bir çox xüsusi əlamətləri hazırda müsəlman təbliğatında islamın əsil «demokratizmi» kimi istifadə olunur.

Şiələrin say cəhətdən üstünlük təşkil etdiyi İran və İraqdan başqa islam dünyasının bütün dövlətlərinin müsəlman əhalisinin çoxunu sünnilər təşkil edir. Bu da, əvvəldə qeyd olunduğu kimi xəlifələrin çoxunun sünni olması ilə əlaqədardır.

**Ədəbiyyat:** İslam, 29-30; Прозоров. Правоверий; Hughes. Dictionary, 623; Veccia Vaglieri. Origine, 573-585; əs-sünnə məqaləsinə aid ədəbiyyata bax.

**Əhlu-s-Suffə** (və ya əshab əs-suffə; «talvar əhli») – Mədinədə qalmağa yeri olmayan və Məhəmmədin (s) evi yanındakı məscidin talvarı altında yaşayan Məhəmmədin (s) kasıb tərəfdarları, onların bəziləri Məhəmmədə (s) qulluq edirdilər, orada eyni vaxtda 30 nəfərə yaxın adam yaşayırdı, ümumiyyətlə, isə 93 nəfər Ə.-s-S.-nin adı məlumdur. Sonralar sufi ədəbiyyatında onlar möminlik və tərki-dünyalıq nümunəsinə, sufizmin ən erkən nümayəndələrinə çevrildilər: bəzi orta əsr müəllifləri sufilərin Ə.-s-S.-nin ardıcılları olduğu üçün belə adlandırdıqlarını nəzərə alıb sufi sözünün suffədən olduğunu deyirdilər. Sufilərin əleyhdarları haqlı olaraq etiraz edirdilər ki, Ə. -s-S.-nin bəziləri əqidəyə görə deyil, zərurətə görə adi həyat tərzi sürürdülər və fütuhatlar zamanı onlar əldə etdikləri qənimət hesabına varlandıqda belə həyat tərzindən əl çəkdilər.

**Ədəbiyyat:** İslam, 30; İbn Səad. Təbəqat, 1/2, 13, 14, 48, 4/2, 33, 44, 1, 35; İbn əl-Cövzi. Təlbis, 176; İbn Teymiyyə. Risalə fi əhd əs-suffə, 1, Qahirə, 1945, 25-60; W.M.Watt. Ahl al-Suffa. – EI, NE, 1, 266-267.

**Əhlu-l-Kitab («Kitab əhli»)** – ərəbcədir, vəhy yolu ilə peyğəmbərlərinə nazil edilmiş müqəddəs kitabları olan adamlar deməkdir. Quranda dini əlamətə görə Allaha inananlar – müsəlmanlarla dinsizlər və müşriklər arasındakı vəziyyəti tutan adamlar. Onlara hamıdan əvvəl yəhudi və xristianlar, habelə sabiilər (məs: Q. 2:62/59) – kimlərləsə eyniləşdirilməsi mümkün olmayanlar aiddirlər, bu zümrəyə zərdüştilər də aiddirlər. Bu dini icmalara Allah tərəfindən (Allah kəsbi) Yazı (ət-Taura-Tövrat, Zəbur, İncil) endirildi, lakin onlar o müqəddəs kitabların mətnlərini və Allahın məsləhətlərini təhrif etdilər (bax: məs: Q. 2:170; 3:71/64; 5:13/16; 6:91). Qədim müqəddəs kitabların mətnlərindəki əsas təhriflər onlardan Məhəmməd peyğəmbər (s) və onun axırıncı peyğəmbər kimi missiyasının xatırlanmasının çıxarılması hesab olunurdu. Məhəmmədin (s) peyğəmbər kimi göndərilməsinin məğzi ümumbəşəri planda əvvəlki peyğəmbərlərin Ə.-l-K.a gətirdikləri əsas kəşflərin (Allahdan nazil olanların) təsdiqi və onların əvvəlki kəşflərdə (vəyhlərdə) etdikləri təhriflərin hamısının islahı kimi sayılırdı. Müvafiq olaraq müsəlmanların Ə.-l-K.-a olan münasibətləri onların bütpərəstlərə olan münasibətlərindən fərqlənir.

Ə.-l-K. haqqında təsəvvür islam, yəhudilik və xristianlığın tək Allaha inandıqları sıx əlaqə ümumi konsepsiyasından Quranın yaranması (nazil edilməsi) dövründə meydana gəldi. O, Məhəmməd peyğəmbərin (s)

ümidləri ilə dəstəklənirdi ki, yəhudilər və xristianlar onu peyğəmbər kimi tanıyırlar. Müsəlman fütuhatları başlayandan sonra Ə.-l-K.-a dözmək, fəth olunmuş ərazilərdə tərəfdar və köməkçiyə malik olmaq real zərurətinə, sonra isə dinsizlərin (başqa din sahiblərinin uzun müddət çoxluq təşkil etdikləri ölkələrdə iqtisadi və ictimai həyatı təşkil etmək zərurətinə əsaslanırdı. Müsəlman fütuhatlarının elə birinci addımlarından Ə.-l-K. kateqoriyası genişlənməyə başladı. İraq və İranın fəthindən sonra (məqsədi) aydın olmayan sabiilərə Hərranın sabiiləri, mandeilər və zərdüştilər qatışdırıldı; Hindistanda müsəlman valiləri hərdən hindu ayinlərini yerinə yetirməyə icazə verirdilər və s.

Müsəlmanlarla Ə.-l-K. arasındakı əlaqə məsələləri fiqh tərəfindən tənzimlənir. Müsəlman ölkələrində orta əsrlərdə Ə.-l-K. öz dini ayinlərini açıq yerinə yetirə bilər, dua etmək üçün (xüsusi) evləri ola bilərdi. Onlar müsəlman icmasının xüsusi himayəsi altında olanlar hesab edilirdilər və belə dini hüquqi kateqoriyaya əhlü-z-zimmə («himayə olunanlar») daxil idi. Ə.-l-K.-la əlaqədar olaraq fiqhdə onların təzə müqəddəs yerlər tikmək icazəsi, Ə.-l-K. tərəfindən hazırlanmış xörəyin müsəlman tərəfindən yeyilmək imkanı, müsəlmanla Ə.-l-K. arasında evlənmək imkanı və s. müzakirə olunurdu.

Ə.-l-K. orta əsr müsəlman cəmiyyətində mühüm rol oynayırdı, xüsusilə də onun inkişafının ilk ərəfələrində – yəhudilər və xristianlar Xilafətdə inzibati aparat, sənətkarlar və tacirlərin əhəmiyyətli hissəsini təşkil edirdilər. Onlar adəti üzrə bir çox sənətkarlığı əhatə edirdilər. Xüsusən də onlar müsəlmanlar üçün qadağan olan işlərlə məşğul olurdular (məs: şərabçılıq və sələmçiliklə).

Müsəlmanların Ə.-l-K.-a Məhəmmədin (s) və ilk xəlifələrin xüsusi əmrlərinə əsaslanan ümumi dözümlülük münasibəti – onları sıxışdırmaq – gah yəhudiləri və xristianları (qarışıqlıq salmaq və qiyam qaldırmaq üstündə) Hicaz və Ərəbistanın ərazilərindən qovmaq, gah geyimdə məhdudiyyətə, yaşayış yerində yerini dəyişməyə və s.-yə ciddi əməl etmək, vaxtaşırı onların üzərinə təzyiqin artırılması ilə əvəz olunurdu. Lakin ümumiyyətlə, Ə.-l-K.-ın vəziyyəti islam ölkələrində daha yaxşı idi, nəinki başqa din sahiblərinin orta əsr Avropa ölkələrində. Çox vaxt yəhudi, hətta şərq xristianları müsəlman hökmdarlarının hakimiyyəti altında yaşamağı Avropa xristian hökmdarlarının hakimiyyəti altında yaşamaqdan üstün tuturdular.

Bu katqeqoriyaya aid olan adamların dönüb müsəlman olması vacib deyil, onlar müsəlman dövlətlərində yaşayıb, onun himayəsindən istifadən edə bilirdilər (Əhlü-z-zimmə).

Ə.-l-K. konsepsiyası müsəlman və xristian dövlətləri arasındakı kompromis və sülhi münasibətlərə nəzəri əsas vermiş və verməkdə davam edir. Hazırda o, islam və xristianlıq arasında dialoq üçün ideya bazası

rolunu oynayır. O, həm də antisosialist təbliğatında da geniş istifadə olunur ki, Qərb ölkələri dost Ə.-l-K. kateqoriyasına aiddir, sosialist ölkələri isə tamamilə dinsizlərə (kuffar) aiddirlər. Burada da Qərb ölkələri öz siyasətlərini yürütməyə çalışırlar.

**Ədəbiyyat:** İslam, 28-29; Fattal. Statut, I;.Goldziher. `Ahl al-Kitab, – EI, 1,195-196; G.Vajda. Ahl al-Kitab, – EI, NE, 1, 272-274; İslam (qısa məlumat kitabı), B. 1985, 58.

**Əhmədiyyə** (başqa adı Kadiani – Hindistanda (Pəncab) Mirzə Qulam Əhməd Kadiani (1835-1908) tərəfindən yaradılan müsəlman cəmiyyəti; onun təlimi Quran və müsəlman (sünni) ənənəsinə söykənən (urdu və ərəbcə yazılan 80 əsərində izah olunmuşdur). Ə. görüşlərinə görə icmanın yaradıcısı Musa və İsanın kəşfindən (vəhy) sonra axırıncı ilahi kəşfin daşıyıcısı, bütün bəşəriyyətə Allah tərəfindən göndərilən axırıncı Peyğəmbər (s) (nəbi)-dir, onda müsəlman Mehdisi, xristian Musası və hind Krişnası təcəssüm etmişdir. Ə. üçün Quranın rasionalist (səmərələşdirici) şərhi xarakterikdir (daha çox o, Məhəmməd Əli (vəf. 1951-ci il) tərəfindən yerinə yetirilmiş ingilis dilində Quranın şərh olunmuş tərcüməsində) tam izah olunmuşdur, islamın əsas təlimlərinin şəxsi təfsiri; Həccin əsas obyektləri Pəncabda Kadian (Qulam Əhmədin yaşadığı yer – buradan da Ə.-nin başqa adı gəlir) və Kəşmirdə Srinaqardır (Ə. görüşünə görə – İsa Xristin dəfn olunduğu yer, İus Əsəf); zəkata (gəlirdən deyil) kapitaldan verilən 2,5 faiz vergi kimi baxılır; cihad konsepsiyası qəbul edilmir. Qulam Əhmədin təliminə görə insanlar vəfat etdikdən sonra yeni can və ruh alırlar və onda Qiyamət gününədək qalırlar, sonra Cənnət və ya Cəhənnəmə düşürlər, Cəhənnəm əzabları hökmən daimi deyil, peşman olub tövbə edən günahkarlar uzun müddət Cəhənnəmdə qalandan sonra cənnətə keçə bilərlər; o biri dünya həyatına bu həyatda başlayan mənəvi prosesin kamilləşməsinin davamı kimi baxılır.

Praktiki yaradıcılıqda Ə. maarifçiliyə (icmanın hesabına çoxlu tədris ocaqları açır, təqaüdlər təşkil edirlər və s.), öz təlimlərinin təbliğinə (Ə.-nin çoxtirajlı ədəbiyyatının, jurnalının və s. nəşri), kommersiya müəssisələrinin yaradılmasına böyük diqqət verirlər; Ə.-nin çoxlu rəhbərləri siyasi həyatda fəal iştirak edirlər (xüsusilə də Pakistanda).

Hazırda Ə. icmaları dünyanın çox ölkələrinə, o cümlədən qeyri-müsəlman ölkələrinə də (Amerika, Qərbi Avropa, Okeaniya adalarına) yayılmışdır və iki qruppa ilə (kadiani və «lahori») təqdim olunurlar, lahorilər Qulam Əhmədin birinci varisi (xəlifə) Hakim Nurəddinin 1914-cü il vəfatından sonra yaranmışlar. Daha çoxsaylı və nüfuzlu cərəyan – kadianinin ardıcılları icmanın yaradıcısını axırıncı peyğəmbər

(«peyğəmbərlərin möhürü») hesab edirlər, «Lahor icması» isə onu islamın islahatçısı kimi qəbul edir. Ə. tərəfdarlarının sayı yarım milyona qədərdir.

Bir çox müsəlman ölkələrində Ə.-ni müsəlman icması hesab etmirlər. Məsələn, Pakistanda Ə.-nin üzvlərinə özlərini müsəlman adlandırmaq və müsəlman terminalogiyasından istifadə etmək qadağan edilmişdir. İslam dünyası liqası (Rabitə əl-āləm əl-isləmi) Ə.-ni «islama düşmən cərəyan» elan etimişdir.

**Ədəbiyyat:** İslam, 31; К.А.Антонова. Об учении и легендах мусульманской секты ахмадийя. – Религия и общественная мысль народов Востока. М., 1971. Hazrat Mirza Bachir Ahmad. Islam versus Communism. Brief Comparison. Qadian, Punjab, [б.г] ; Hazrat Mirza Bachiruddin Ahmadiyya or True Islam. Wash., 1951; Hazrat Mirza Ghulam Ahmad. The Teachings of Islam/ Pabwah, West Pakistan, 1966; S.Lavan. The Ahmadiya Movement History and Perspective. Delhi, 1974; M.Z.Khan. Ahmadiyyat. The Renaissance of Islam. Oxf., 1978. Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 78.

**Əğd (əqd)** – (sinonimləri icəb, qəbul, qubul, siğə) müqavilə, razılaşma. İslamda Ə.-in qaydaları islamaqədərki və Roma-Bizans dini görüşlərindən üstündür. Quranda Ə. andiçmə ilə möhkəmlənmiş müqavilədir.

Fiqhdə isə Ə. razılaşan tərəflərin hüquqlarına aid olan, mövzusu ancaq real mövcud olan şeylər və əlaqələrin qarşılıqlı öhdəlikləri haqqında iki və ya çoxtərəfli razılaşmadır. İslamda müqavilə əlaqlərinin ümumi bir nəzəriyyəsi işlənməmişdir, belə ki, müqavilələrin növ və formaları, onların zəmanətləri müxtəlif din xadimləri və ayrı-ayrı fəqihlərin şərhlərində üst-üstə düşür. Lakin onların çoxu Ə.-i dörd böyük qrupda birləşdirirlər: hökmranlıq, qəyyumluq, müdafiə, hamilik və s. haqqında: satış, bağışlama, vərəsəlik, güzəşt və s. yolu ilə nəyə isə sahib olmaq hüququnu tam vermək haqqında Ə.; icarə, tapşırma, müvəkkillik, saxlama, girov və s. yolu ilə nəyə isə müvəqqəti hüquq vermək haqqında Ə.; əməkdaşlıq, işgüzar tapşırıq, işgüzar yoldaşlıq və s. haqqında Ə.; ictimai vəziyyəti və dini mənsubiyyətindən asılı olmayaraq hər bir iş bacarığı olanın Ə.-ə haqqı var. Lakin fəqihlərin çoxunun rəyinə görə müsəlmanlar və başqa din sahibləri arasında qarşılıqlı and zəmanəti lazım olanda Ə. mümkün deyil. Başqaları hesab edirlər ki, bu mümkündür, lakin Ə. əməliyyatı xüsusi şəkildə olmalıdır. Məhdud dərəcədə həddi-büluğa çatmayan və əqli naqislərə Ə. hüququ (məsələn xeyriyyəçiliyə verilən bağışlama) verilir. Ə. bağlananda tərəflər onun şərtləri və bu şərtlərin pozulduğu vaxt onların zəmanəti haqqında tam xəbərdar olunmalıdırlar. Ə. əməliyyatı yerli adətlər (urf, ′adət) və konkret vəziyyətlərdən asılıdır. Ə. köhnə tarixlə də bağlana bilər, əgər hər hansı bir şəxs elə edir ki, guya Ə. artıq bağlanıb və buna etiraz

yoxdur (qəyyumluq, verilmə – ötürülmə, icarə və s.); birtərəfli öhdəçilik (ianə, nəzarət və s.) bəzilərinin rəyinə görə isə öz icmaları ilə müqavilədir, belə olduqda o biri tərəfin nümayəndəsi kimi qazi və ya hər hansı bir şahid çıxış edə bilər. Müqavilənin mövzusu mühümdürsə və ya qeyri-adidirsə və ya tərəflərdən biri etibarsızdırsa (fasiq) Ə.-in bağlanması vaxtı üçüncü şəxsin olması vacibdir. Əgər bütün vacib şərtlərə əməl olunubsa, daha doğrusu tərəflər işə yararlıdırsa, razılaşmanın mövzusu aydındırsa, öhdəçiliklər şərtləşdirilibsə, Ə. həqiqi sayılır. Əgər onlardan hansı biri isə pozulubsa, səhv olubsa və ya xəbərdarlıq olmayıbsa Ə. səhv – etibarsız (fəsid) sayılır, lakin səhvlər düzəldiləndən sonra həqiqi ola bilər. Əgər şərtlərdən hər hansı biri ümumiyyətlə olmasa, məsələn aldatma, məcbur edilmə və başqa sui-istifadə halları olarsa Ə. etibarsız sayılır (batil). Əgər tərəflər özləri zərəri ödəməkdə razılığa gələ bilmirlərsə onlardan hər hansı biri məhkəməyə müraciət edə bilər. Ə.-in şərtlərinin qərəzlə pozulması hallarında günahkarlar zərəri ödəməkdən başqa, həm də cinayət məsuliyyəti daşıyırlar. Müasir işgüzar həyatda ticarət, maliyyə və başqa əməliyyatlarda çox vaxt ənənəvi razılaşma formasını saxlayırlar, bu da kredit-girov və borc əməliyyatlarını sənədləşdirmədə çox vacibdir. Məişətdə razılaşma, müqavilə sazişlərinin çoxu Ə. kimi sənədləşdirilir.

Xalq arasında Ə. nikah, kəbin, siğə (razılaşma) mənasında da işlədilir.

**Ədəbiyyat:** İslam, 17; əl-Məvardi. Əl-Əhkam, 3-23; əl-Qəzali. İhya, 2, 51-59; Mahmasani. Transaction, 179-202; Schacht. Introduction, 144-150; A.Udovitch. Partnership and Profit in Medieval Islam. Princeton, New Jersey, 1970; Ch.Chehata. Akd. – EI, NE, 1, 318-320.

**Əqidə** –(cəmi əqaid) – əqidə, nöqteyi-nəzər, inamın simvolu, məsələn: VIII əsrdə islamın əhkam - hüquq sisteminin fəal yaranması dövründə meydana gələn müsəlman dini ədəbiyyatının xüsusi növü. Ə.-dən birbaşa əvvəl gələnlər rədd (təkzib etmə) janrında yazılan əsərlər idilər. Lakin, təkzib açıq mübahisə xarakteri daşıyırdısa, Ə. əhkam və hüququn əsas məsələlərində məktəb və ya ayrıca müəllifin mövqeyinin yığcam və dəqiq izahını bildirirdi. Bu mətn bəyannamə xarakterlidir. Mühakimə üçün əsas götürülən vəziyyətlərə qabaqcadan «əmin olmaq lazımdır» (əl-iman bi), «biz qənaətindəyik ki» (nə′təqidu) və başqa bu kimi formulalarla xəbər verilir.

İlk Ə.-lərdən birinin mətni VIII əsrin əvvəlində «icma sünnəsi və razılığı camaatı» (əhl-əs-sünnə va-l-cəmā′a) adından imanın ənənəvi konsepsiyasının qısa izahı ilə çıxış etmiş Suriya din xadimlərinin qurppasına (Ümeyyə b. Osman, Əhməd b. Xalid b. Müslim, Məhəmməd b. Abdulla) aiddir. Ə. (IX-XI əsrlərdə) əsas islam ehkam məktəblərinin yarandığı dövrdə xüsusi inkişaf tapdı. Əbu Hənifənin adına yazılan Əl-Fiqh əl-əkbər və Kitab əl-vasiyyə, Əqidə-t-Təhəvi, görkəmli mötəzili

nümayəndələrinin qələminə aid olan bir sıra mötəzili Ə.-ləri məhz bu vaxt meydana gəldi. IX əsrin ortalarında Ə. seriyaları ilə Bağdad ənənəçiləri çıxış etdilər. Onlardan ən mühümləri Əhməd b. Hənbəlin altı əsəridir. X əsr və XI əsrin əvvəllərində ilk əsər, xüsusən də Ə. əl-Əş′əri, qeyri-ənənəvi əl-Əqidə ən-Nizamiyyə əl-Cüveyni, maliki əqidəsi ər-Risələ İbn Əbu Zeyd əl-Keyruvani yarandı.

IX əsrdə Ə.-lər (əqaid) əhəmiyyətli dərəcədə dəyişməyə başlayırlar. Onlara əsas qanunların təsdiqi sistemi əlavə olunur və xüsusi «doksoqraf» bəndləri daxil edilir. Müsəlman əhkamı və hüququnun inkişafı ilə şərtlənən əqaidin tədrici inkişafı X əsrdə əsas əhkam görüşlərini və hüquqi dini etik norma və qaydalarının izahını və əsaslandırılmasını özündə əm edən külliyyatların meydana gəlməsinə gətirib çıxarır. Bu külliyyatlar müsəlman ənənəsində çox vaxt həm də əqaid və ya i′tiqad adlanır. Belə daha çox mühüm əsərlər əl-Əşəri (X əsr), əş-Şəhrəstani (XII əsr), Əbdülqadir əl-Gilani (XII əsr), Nəcm əd-din ən-Nəsəfi (XIV əsr), İbn Teymiyyə (XIV əsr) və başqa müəlliflərə aiddir.

Belə geniş külliyyatların meydana çıxmasına baxmayaraq sadə və asan başa düşülən qısa Ə. dinin əsaslarını əyani surətdə elan edən əsas formalardan biri kimi öz əhəmiyyətini saxlamışdı. XI əsrdə məhz Ə. ali hakimiyyət (Qədiri din (imam) simvolu) adından «möminliyi» elan etməyə seçilir. Əhkamçılar ideyalar və görüşlərin özünəməxsus fondu olaraq qısa Ə. ənənəvi müsəlman təhsilinin zəruri elementidir.

**Ədəbiyyat:** İslam, 17; Wensinck. Creed; Laoust. Les premieres professions; yenə o. La profession; W.M.Watt. Aqida. – EI. NE 1, 342-346.

**<u>Əl-Ələviyyə</u>** (və ya əl-Ələviyyun) – Ələvilər, Əli ibn Əbi Talibin (ə) nəsli. Mənbələrə əsasən Əlinin (ə) müxtəlif arvadlarından (8 və ya 9) çoxlu uşağı olub – 14 (və ya 18) oğlu və 19 (və ya 17) qızı. Tarixdə onlardan ən məşhurları Məhəmməd peyğəmbərin (s) qızı Fatimədən (ə) olan əl-Həsən (ə). əl-Hüseyn (s) və hənifə tayfasından olan arvadının oğlu Məhəmməd b. əl-Hənəfiyyədir. Məhz bu üç qol ali hakimiyyətə iddia edirdilər. Şiə imamları kimi tanınan 12 imamdan 9-u əl-Hüseynin (ə) övladlarıdır. Demək olar ki, islam tarixinin bütün dövrlərində Ə. və ya onların tərəfdarları ali hakimiyyət uğrunda silahlı və ideoloji mübarizə aparıb, Əli (ə) nəslinin imamət uğrunda tam haqlarını tələb etmişlər. Mübarizənin gedişində Xilafətin müxtəlif tərəflərində Ə.-in başçılığı ilə imamlıqlar yaranırdı. Ələvi sülalərindən ən çox müvəffəqiyyət Mərakeşdə İdrisilərin (789-926), Şimali Afrikada - Misir və Suriyada Fatimilərin (909-1171), Yəməndə Rassiilərin (IX əsr. əv-1281-ci ilə qədər), Təbəristanda (863-64-928) və Yəməndə (1592-1962) Zeydilərin payına düşdü.

Çoxsaylı Ələvi nəsilləri hazırda bütün müsəlman ölkələrində yaşayırlar. Onların yaşıl çalma geymək, seyyid və ya şərif adlanmaq hüquqları vardır.

Dar mənada əl-Ə. qatı şiələr cəmiyyətinin – nüşeyrilərin (ən-nüseyriyyə) çox sonrakı adıdır.

**Ədəbiyyat:** İslam, 18; B.Lewis. Alids.- EI, NE, 1, 400-403.

**Əli ibn Əbu Talib (ə), Əbu-l-Həsən əl-Murtaza** (vəf. 21 yanvar 661-ci il), mömin xəlifə, Məhəmməd peyğəmbərin (s) əmisi oğlu və kürəkəni. İslamda şiə hərəkatının yaranması Ə.-nin (ə) adı ilə bağlıdır, Kəbədə doğulan yeganə şəxsdir.

Əbu Turab ləqəbini Peyğəmbər (s) ona vermişdi. Xədicə ilə bir vaxtda islamı qəbul edib. Əhli sünnə alimlərinin göstərdiyi Cənnət vəd olunan 10 adamdan (əşəreyi-mübəşşərə) biridir. Əslində isə bu məsələni (on mübbəşşərə) Ömər təşkil etmişdi və Peyğəmbərin bunu arzu etdiyi və tapşırdığı haqqında səhih məlumat yoxdur. Peyğəmbərin vəfatından sonra təşkil olunan altı nəfərlik məclisin üzvlərindən biridir. Peyğəmbər (s) Mədinəyə gizli hicrət etmək istəyəndə Ə. onun yatağında uzanır, özünü ölüm təhlükəsi altında qoyaraq, Peyğəmbərin (s) hələ evində olduğunu göstərmək istəmişdi. O, Bədr, Uhud, Xəndək və başqa bütün müharibələrdə Peyğəmbərin yanında olmuşdur. Uhudda altı yara almışdı. Bir neçə döyüşü özü idarə etmişdi. Hicri tarixi qoymağı (təsis etməyi) Ömərə o tövsiyə etmişdi. Vilayətlərdən gələn şikayətləri Osmana o çatdırırdı. Osmanın ölümündən sonra xəlifəliyi beş gün ərzində rədd etdi, nəhayət naəlac qalıb, qəbul etdi. Mədinədə Əlinin hökmləri mübahisəsiz keçirdi. O, 586 hədis demişdir. Çox mömin adam olub, bütün var-yoxunu sədəqə olaraq kasıblara paylayardı. «Dünya bir leşdir» deyərdi, aclığına qalib gəlmək üçün qarnına daş bağlayarmış. Şiələrə görə Ə. Allahın dostu (Vəliyyullahdır). Peyğəmbər (s) Hüdeybiyyə döyüşündən qayıdanda (29 aprel, 628-ci il) «Mən kimin ağasıyamsa, Ə. də onun ağasıdır.» demişdi. Ə.-nin ləqəblərindən: Murtəza (Allahın rizasına nail), Əsədullah (Allahın yenilməz şiri) və s.

VIII əsrin 50-ci illərinin ortalarında Osmanın hakimiyyətinə narazılıq ümumi və açıq şəkil aldı. Bu narazılıq Məhəmmədin (s) altı ən yaxın tərəfdarlarından biri olan Ə.-yə (ə) böyüdülmüş ümidlərdə öz əksini tapdı. Müasirlərinin rəylərinə görə o, islama çox sadiq, olduqca mömin və vicdanlı adam olmuşdur. Məhəmmədin (s) demək olar bütün hərbi yürüşlərinin iştirakçısı, cəsur döyüşçü adına layiq, əla natiq olmuşdur. O, çoxuna ideal hakim kimi görünürdü. 656-cı ildə xəlifə Osmana qarşı çıxış edən Misir, Kufə və Bəsrə könüllü dəstələri Mədinə yaxınlığında düşərgə saldılar. Tezliklə onlar şəhərə daxil olub, Osmanın evini mühasirəyə aldılar və ondan hakimiyyətdən əl çəkməyi tələb etdilər, iyunda isə Osmanın evinə girib onu öldürdülər. Misirlilər, onlara qoşulan kufəlilər və bəsrəlilərin

təklifinə görə Ə. (ə) xəlifə elan olundu. Lakin bu qərarla hamı razılaşmadı. Ə.-yə (ə) şəxsi ədavəti olan fəal və nüfuzlu Aişənin təhriki ilə Məhəmməd Təlha və əz-Zübeyrin tərəfdarları qiyam qaldırıb, Ə.-nin (ə) qərarsızlıq və gecikməsindən istifadə edərək Bəsrəni tutdular. Eyni vaxtda öldürülən xəlifənin qohumu varlı Suriyanın canişini Müaviyə Ə.-yə (ə) qarşı çıxıb onu Osmanın öldürülməsində iştirak etməkdə günahlandırdı.

Əslində Ə. (ə) öz oğulları əl-Həsən (ə) və əl-Hüseyni (ə) Osmanın keşiyini çəkməyə göndərmişdi. Üsyançılar isə evin arxa tərəfindən başqa evlər vasitəsilə evə girib Osmanı qətlə yetirmişdilər.

656-cı ilin dekabrında Bəsrə yaxınlığında «Cəməl (dəvə) döyüşündə» Əliyə (ə) Təlha və əz-Zübeyrin azsaylı qoşununu əzmək müyəssər oldu. Lakin Müaviyə ilə mübarizə uzun çəkdi. İqamətgahını İraqa-Kufəyə köçürən Ə. (ə) suriyalılarla müharibəyə başladı. 657-ci ilin iyul ayında Fəratın sağ sahili – Süffeyndə böyük vuruşma oldu. Müaviyənin ordusunu parçalayaraq onu sıxışdıran Ə. (ə) bu qələbədən istifadə edə bilmədi. Quran səhifələrini nizələrin başına keçirib göyə qaldıran məkrli suriyalıların təklif etdiyi münsiflər heyətinin məhkəməsinə razılaşan Ə. vuruşu dayandırıb təkcə qələbəni əldən vermək deyil, həm də öz döyüşçülərinin əhəmiyyətli hissəsinin dəstəyindən məhrum oldu. Ə.-dən bir rəhbər kimi ümidlərini üzən 12 min döyüşçü onun münsiflər heyətinin məhkəməsinə razılığını islam ruhu ilə bir yerə sığmadığını elan edərək, onun düşərgəsini tərk etdilər. Əslində Ə. (ə)-dən ayrılan bu 12000 nəfər eyni zamanda onu münsiflər heyətini qəbul etməyə məcbur edənlər idilə, heyətin başçısının seçilməsi də onların təkidi ilə olmuşdu. (O da danışığın uduzulmasına şərait yaratmışdı). Bu Ə. (ə) düşərgəsində parçalanmaya və onun tərəfdarlarından təzə dini-siyasi qruppanın-xaricilərin ayrılmasına səbəb oldu, onlar təkcə Müaviəyə qarşı deyil, həm də Ə.-yə qarşı fəal mübarizə aparmağa başladılar. 661-ci ilin 19 yanvarında Ə.-ni (ə) Kufədə məsciddə xarici Əbu Mülcəm ölümcül yaraladı və iki gündən sonra o, vəfat etdi. Ərəblərin (xuddamlar) dediyinə görə onu namaz qılarkən yaralamışlar və məsciddə bunun məqamı var. Rəvayətə görə o, sonradan, şiələrin müqəddəs yeri kimi tanınan Kufə yaxınlığında Nəcəf şəhərinin yerində dəfn edilmişdir, ona görə də sonradan orada yaranan şəhər indi Nəcəf Əşrəf (ən şərafətli) Nəcəf adlanır.

Ə. (ə) islam tarixinə faciəli həyatı olan bir şəxs kimi daxil olmuşdur. Sünni müsəlmanlar onu «mömin» xəlifələrdən biri, dindar və alicənablıq nümunəsi kimi saymış və saymaqda davam edirlər (Bu həmişə belə deyil. Fatimilərə qədər Ə. və tərəfdarları təqib edilir, söyülür, xütbələrdə o, təhqir edilirdi). Şiələr arasında Ə. çox böyük sayılır, bəzən onun şəxsiyyəti Məhəmmədin (s) şəxsiyyətini arxa plana sıxışdırılır, (bizcə, bu düz deyil, bu ancaq əliallahhilərdədir ki, şiələr onları kafir hesab edirlər). O, «Allah neməti» kimi tanınaraq, dini və dünyəvi həyatda mütləq və günahsız nüfuz

sahibi hesab edilir. Şiələr onu bütün ləyaqətlər sahibi, daxili (batini) və xarici (zahiri) biliklərin daşıyıcısı və şərhçisi hesab edirlər. Onun seçilmiş şəxs olması və onun ali hakimiyyətə tam sahib olmaq hüququ haqqında sübutlar ətrafında şiələr Məhəmmədin (s) sözləri və Quran ayələrindən çoxlu rəvayətlər gətirir və onları uyğun gələn şəkildə şərh edirlər. 16-cı surənin adı (ən-Nəhl – «Arılar») Ə.-nin (ə) fəxri adının bir hissəsi sayılır – Əmir ən-nəhl; Quranda haqqında danışılan arılar tərəfindən yığılan güllərin və meyvələrin şirəsi şiələr tərəfindən müsəlmanların müqəddəs yazısında gizlənən xilasedici təlim kimi şərh edilir. Qatı şiələrdə Ə.-nin yüksək tutulması onu ilahi qüvvəyə qədər gətirir. Xalq islamında Ə. (ə) islamaqədərki ilahilərin və epik qəhrəmanların məziyyətlərini özündə cəm edən islam rəvayətinin ən məşhur surətlərindən biri oldu.

Orta əsr ilahiyyatçıları müdrik fikirləri Ə.-nin (ə) adına yazırlar, İslamın müasir şiə ideoloqları da onları şiə dini təliminin çox nüfuzlu mənbəyi kimi tanıyırlar (qəbul edirlər).

**Ədəbiyyat:** İslam, 18; an-Naubaxti. Шиитские секты, gös.; Петрушевский. Ислам, 40-44; L.Veccia Vaglieri. Ali b. Abi Talib – E1, NE 1, 381-386; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 78-81.

**Əli ibn əl-Hüseyn Zeynalabidin** (655-713) – Allaha ibadət edənlərin zinəti, xalq arasında Bimar, Ağa Seyyid Səccad (çox namaz qıldığı üçün), Seyyid əs-Sacidin kimi də tanınır, imamiyyətin 4-cü imamıdır.

Oğlanlarına atasının adını qoyan imam Hüseyn bu ortancıl oğlunu Əliövsət adlandırmışdı. Üç imam-Əli, Həsən və Hüseyndən sonrakı imamlar ondan törədiyi üçün onu Əbüləimmə (imamlar atası) da adlandırırlar. Rəvayətə görə aşura günü Allah Təala imam nəslinin kəsilməməsi üçün onu xəstə (zəlil) etmişdi ki, o, vuruşa gedə bilməsin, şəhid olmasın, imam nəslini artırsın. Kərbəla faciəsindən sonra qalan əhli beytlə birlikdə Dəməşqə aparılan Zeynalabidin Yezidin təşkil etdiyi məclisdə çox alovlu çıxış etmişdi. O, Mədinədə 58 yaşında vəfat etmişdir.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 82.

**Əməlik** (təkdə imlək) - müsəlman rəvayətində qədim xalqlardan biri Ad Bibliya əməliklərindən gəlir, lakin əfsanəvi silsilələrin müxtəlif etnik qruplarına aid edilir. Müsəlman rəvayətləri silsilələrində Ə. fironların təbəələri olan filistimlilər və midiyalılardır. Rəvayətlərdə Hicaz və Yəməndə yaşayan qədim ərəb xalqları adlanan «əsl ərəblər»ə Hud peyğəmbər vaizlik etmişdir (möizə oxumuşdur). Ə. Tadmor (Palmira) çaricası Zenobiya (əz-Zabbə) haqqında əfsanəvi silsilədə səslənir. Bunlar daimi zülmkar və əsarətçilərdir, nəhayət sonda Allahın köməyi ilə onlar məğlub oldular.

**Ədəbiyyat:** İslam, 20; ət-Təbəri. Tarix, 1, 213, 771, 1131; əl-Məs'udi. Muruc, 2. 293, 3, 91-104, 270, 273; Caussin de Perseval. Essai sur Lhistorie des arabes. P., 1847, İndex; G.Vajda. Amalik. – EI, NE, 1, 429.

**Əmirü-l-hac (əmir əl-hac)** – həccin başçısı, zəvvarların karvanının başçısı. Ziyarətə başçılıq etmək adətini Məhəmməd peyğəmbər (s) tətbiq etmiş, 631-ci ildə Əbubəkrə karvanı Mədinədən Məkkəyə aparmağı və dinsizlərin ona qoşulmamağına nəzarət etməyi tapşırmışdı. 632-ci ildə Məhəmməd peyğəmbər (s) özü vida həccinə başçılıq edərək, həcc vaxtı həcc mərasiminə aid olan bir sıra mühüm təlimat elan etdi. Həccə başçılıq etmək və ya Ə. təyin etmək hüququ xəlifələrə məxsus idi, onun pozulması hər şeydən əvvəl həccin mühüm dini-siyasi əhəmiyyətindən istifadə etməyə çalışan müsəlman icması içərisində bir-biri ilə rəqabət aparan qrupların mübarizəsi ilə bağlı idi (688-ci ildə məsələn, dörd Ə. var idi). XIII əsrdə əmir əl-həcc təyin etmək hüququ məmlük sultanlarına keçdi, bu vaxt zəvvarların toplandığı əsas yerlərdən (məsələn, Dəməşqdən) Məkkəyə yollanan karvanların başçılarını da Ə. çağırmağa başladılar. Zəvvarların əsas karvanının təchiz edilib Məkkəyə yola salınmasına Osmanlılar vaxtı da böyük əhəmiyyət verilirdi. Ə.-a silahlı dəstə ayrılırdı, onun üzərinə Portanın Hicaz üzərindəki nüfuzunu gücləndirməyə imkan yaradan mühüm vəzifələr qoyulurdu. XX əsrin 20-ci illərində Səudiyyə Ərəbistanının kralı Əbu Səud ölkə daxilində Ə.-ın hər hansı bir siyasi fəaliyyətini qadağan etdi. əmir Ə.-ın fəaliyyəti karvanda qayda-qanuna nəzarət etmək və diplomatik tapşırıqları yerinə yetirməklə məhdudlanırdı. 1954-cü ildə zəvvarların əsas karvanlarının yığışdığı ölkə Misir Ə. vəzifəsini ləğv edib, onu «zəvvarlar qrupunun rəhbəri» (rəis bə'sət əl-həcc) ilə əvəz etdi.

**Ədəbiyyat:** İslam, 20; J.Jomier. Amir al-Hadjdj. – EI, NE, 1, 443-444.

**Əmmamə** – (ərəbcə imamə), papaq və onun ətrafına sarınan parçadan ibarət olan çalma, müsəlman kişilərin baş örtüyü. Ə.-ni bildirmək üçün müxtəlif dillərdə bir sıra (çoxlu) istilahlar vardır: türban (farsca dülbənd), türkcə sarıq, tatar-çalma (rus dilinə daxil olub) və s. Belə baş örtüyünün kökü Ərəbistanın qədim əhalisinə gedib çıxır, ola bilsin onun dərin kökləri var. Müsəlman rəvayətləri onu mifoloji surətlərə (h. Adəm, Zu-l-Qərneynə) aparıb çıxarırlar. Ə.-nin geyilməsi rəmzi məna almışdır: ərəblər üçün-milli, müsəlmanlar üçün-dini, hərbçilər və vəzifə sahiblərindən fərqli olaraq mülki şəxslər üçün peşəlikdir. Ə.-nin ölçüsü, forması, rəngi, nədən hazırlanması, onu necə geymək, nə ilə bəzəmək, kim və nə vaxt geyməlidir və geyə bilər, kimə geymək qadağandır və ya məsləhətdir – bütün bunlar fiqhə aid xüsusi əsərlərdə müzakirə edilir, onun haqqında hədislər də vardır, onların ən məşhurunda deyilir: Ə. «möminlərin ləyaqətini və ərəblərin

əzəmətini» həyata keçirir (bildirir). (Parçanın rənginə) olan qadağa və məhdudiyyət başqa din sahiblərinə aiddir: müsəlmanlar Ə.-ni namaz qılanda, məscid və qəbir üstə gedəndə geyməlidirlər. Müsəlman hakimləri və şahzadələri üçün Ə. investitura rəmzi olub, onu taxta çıxanda və ya vəzifəyə keçəndə geyirdilər. Ə. fəxri geyimin (xil'ə) mühüm hissəsini təşkil edirdi, hökmdarlar yüksək vəzifələrə təyin olunanları o xələtlərlə təltif edirdilər. XIX əsrdə Ə.-nin geyilməsi adətini gerilik və durğunluq əlaməti kimi tənqid etməyə başladılar, o vaxtdan da onu geyən adamların sayı demək olar bütün müsəlman ölkələrində ruhani şəxsiyyətlərin dairəsilə məhdudlaşdı.

**Ədəbiyyat:** İslam, 98; W.Björkman. Turban. – EI, 4, 958-967.

**Əmirəlmöminin (möminlərin başçısı)** – şiələrə görə Hz. Əlinin ləqəbi olmalıdır. Bu ünvanı ilk dəfə Ömər daşımışdır. Sonralar onu Fatimilər, Qərmətilər, Ələvilər işlətmişdilər. Daha sonra onu Məğrib, Əndəlüs və Afrikanın başqa yerlərində işlətdilər.

**Ədəbiyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 85.

**Əmr b.Übeyd** (699-761) - mötəziliiliyin əsasını qoyanlardan biri. Bəlxdə doğulub, atası ilə Bəsrəyə köçüb, orada Həsən əl-Bəsrinin şagirdi olub. Bəzi orta əsr müəllifləri mötəziliiliyin yaranmasını Vasil b. Ata ilə yox (əl-Həsən dərnəyindən ayrılmasına görə) məhz onunla bağlayırlar, baxmayaraq ki, Ə.b.Übeyd bütünlükdə Vasili izləyirdi, mötəzili kəlamının yaranmasındakı əsas xidmət də ona (Vasilə) aiddir.

**Ədəbiyyat:** İslam, 21; J.van Ess. Traditionistische Polemik gegen Amr b. Ubaid zu einem Text des Ali b.Umar ad-Daraqutni, Beirut, 1967; yenə o. Une lecture.

**Əl-Ənsar** (nasirin cəmi - «köməkçi», rusca ancaq cəmdə «ansarı» formasında işlənir) - 622-ci ildə Məhəmmədlə (s) müqavilə bağlayıb, onu özlərinin böyük rəhbəri və dini müəllimi kimi qəbul edib, ona və mühacirlərə özlərinin şəhərində yerləşməyə icazə verən və onlara maddi yardım göstərən övs və xəzrəc tayfalarından olan Yəsrib (Mədinə) sakinləri. Onlara bəzən ənsar ən-Nəbi (Peyğəmbər (s) yardımçıları) da deyirdilər.

623-cü ilin əvvəlində Məkkə köçkünləri ilə Mədinə tayfaları arasındakı əlaqələr qarşılıqlı müdafiə və başqa bu kimi əvvəlki tayfa öhdəliklərini saxlamaqla daha bir müqavilə ilə dəqiqləşdirildi. Görünür bir neçə ildən sonra islamın güclənməsi və təzə əlaqələr və öhdəliklərin yaranması ilə əlaqədar olaraq hər iki (əvvəlki) müqavilə faktiki olaraq öz gücünü itirmişdi. Əl-Ə. Məhəmmədin (s) məkkəlilər və onların müttəfiqlərinə qarşı ilk yürüşlərində iştirak etməmişdilər. Onlar Məkkəyə qarşı yürüşdə iştirak

etməsələr də, kasıblara yardım vəzifəsini sədaqətlə yerinə yetirirdilər. Lakin Bədr müharibəsindən başlayaraq onlar Məhəmmədin (s) ordusunun əsas hissəsi oldular. Hərbi qənimətin Məhəmməd (s) tərəfindən bölünməsində onlar mühacirlərdən sonra ikinci oldular.

Məhəmməd peyğəmbər (s) vəfat edəndən sonra əl-Ə. öz aralarından xəlifə irəli sürmək istədilər, lakin övs və xəzrəc tayfaları arasındakı rəqabət onlara bir cəbhədə mübarizə aparmaq imkanı vermədi. Sonralar isə onlar belə iddia ilə çıxış etmədilər. I Ömər tərəfindən onlara ayrılan maaş onları böyük torpaq sahiblərinə çevirdi. Əl-Ə.-ın mühüm bir hissəsi fütuhatlar vaxtı Xilafətin hər yerinə yayıldılar. Ərəblərin böyük yaşayış yerlərində onlar canişinin iqamətgahı yaxınlığında özləri üçün ayrıca məhəllələr təşkil edirdilər. Onlar görkəmli siyasi rol oynayırdılar. Mədinə əl-Ə.-ı Məhəmmədin (s) sadiq tərəfdarları kimi bir yerdə olub, özlərini dinin əsil qoruyucuları hesab edirdilər və tez-tez Əməvilərə qarşı çıxırdılar. Əl-Ə.-ın Mədinə şəhərində axırıncı böyük üsyanları 683-cü ildə oldu, onun yatırılmasında 270-dən az olmayan əl-Ə. öldürüldü. Əl-Ə. əsas hədis ötürücüləri idilər.

**Ədəbiyyat:** İslam, 21; R.Vesely. Die Ansar in ersten Burgerkriege – A Or. 1958, 26, 36-57; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 86.

**Ənsari, Bəyazid b.Abdullah** (1525-1572) – rövşəniyyə adı ilə tanınmış dini məzhəb və ictimai hərəkat, habelə rövşəniyyə ideyasını əks etdirən ədəbi cərəyanın banisi Cələndharda (Pəncab) Kaniquramadan çıxmış ailədə doğulmuşdur. Onun ata və babası məşhur üləma idilər. Ə. fiqhin əsaslarını atasının şagirdlərindən birinin rəhbərliyi altında mənimsədi, gənc vaxtlarında çoxlu ticarət səfərlərində sufizmin və ismailizmin təsirini öz üzərində hiss edirdi və mömin üləmalarla müzakirələrdə iştirak edirdi. 1542-ci ildə o, özünü guya «Allah açıqlamaları» göndərilmiş peyğəmbər elan etdi və özünün tezliklə böyük rəğbətlə qarşılanan ideyalarının təbliğinə başladı. 1550-ci ildən ticarətlə məşğul olmağı tərk edib, özünü tam surətdə öz təlimini yaymağa, ideoloji düşmənləri, əfqan feodalları və monqol qəsbkarlarına qarşı mübarizəyə həsr etdi. Ə. afridi tayfasının mülklərində öldü, onun nəşi gətirilib Bhartapurda dəfn edildi.

Ə.-nin tərəfdarları ona Piri Rövşən («nurlu qoca») adını vermişdilər, bununla bağlı olaraq onun təlimi və onun müridlərinin başçılıq etdikləri hərəkat rövşəni adlanmağa başladı. Ə. öz əsərlərini əfqan, fars və ərəb dillərində yazmışdır (onun əsas əsərləri: Xeyr əl-bəyan, Halnameyi pir-i dəstgir, Sirət ət-tövhid, Məqsud əl-möminin); şeir yazırdı, əfqan dili üçün öz əlifba sistemini təklif etmişdi.

**Ədəbiyyat:** İslam, 21; bax: rövşəniyyə məqaləsinə.

**Əl-Ənsari əl-Həravi, Əbu İsmail Abdullah b.Məhəmməd** (1006-1089) -məşhur hənbəli sufisi, Heratda doğulub. Onun atası sufi idi və o, öz oğlunu sufizmin əsasları ilə tanış etmişdi. Doqquz yaşında Abdulla görkəmli Herat şafei ənənəçilərinin başçılığı altında hədis və təfsirləri öyrənməyə başlayır, onlardan ona ən çox təsir edəni Əbu Mənsur əl-Əzdi (vəfatı 1018-ci il), Əbülfəzl əl-Cərudi (vəfatı 1023-cü il) və Yəhya b. Əmmar (vəf. 1031-ci il) olmuşlar. Onun müəllimlərinin şafei olmasına baxmayaraq, özünün Quran və sünnəyə bağlılığına görə o, hənbəli məzhəbinin çox çalışqan müridi oldu. Təhsilini davam etdirmək məqsədilə əl-Ə. əl-H. 1026-ci ildə Nişapura, sonra isə Tus və Bistama gedir. 1031-ci ildə o, az müddət Bağdadda dayanıb, görkəmli hənbəli mühəddislərinin dərslərinə gedir. Bundan sonra o, məşhur fars sufisi Əbülhəsən əl-Hərəkani (vəf. 1033-34-cü illər) ilə görüşdü. Bu Əbu Yəzid əl-Bistaminin ənənələrinin davamçısı, az təhsilli, səksən yaşlı qoca ilə görüş onun həyatı və mənəvi inkişafında həlledici rol oynadı. Sonra o, Herata qayıdıb dərs deməklə məşğul oldu, mötəzililər və əşərilərlə fəal mübahisə apardı.

1041-ci ildə Şərqi İranın Səlcuqlar tərəfindən zəbt olunması ilə əl-Ə. əl-H. üçün təqib dövrü başladı – onun başının üstündən ona divan tutma qorxusu asılmışdı, onu üç dəfə sürgün eləmişdilər. Onun həyatının axırıncı 20 ili ərzində onun təqib edilməsi tam kəsilməsə də, daha sakit keçdi, onu tanımağa başlayırlar, onun şöhrəti Heratdan uzaqlara yayılır, xəlifə əl-Qaim ona fəxri xələtlər göndərir. Ömrünün axırında o, görmə qabiliyyətini itirir, Şeyxülislam tituluna layiq görülür, öz doğma şəhərində vəfat edir.

Əl-Ə. əl-H.-nin islam tarixində yeri mühüm dərəcədə onunla müəyyənləşir ki, sufizmə də toxunan ilahiyyat elmləri metodlarının rasionalist görüşlərinə nüfuz etmə prosesinə qarşı o, çox sufilərdə faktiki olaraq öz aralarında razılaşdırılmayan o təlimi qoyur ki, orada dini qanun (əş-şəria) və ilahi həqiqət (əl-haqq) ayrılmaz şurətdə bir-biri ilə bağlıdırlar. Əl-Ə. əl-H.-yə görə sufizm Quranın və sünənnin başa düşülməsini ancaq dərinləşdirir və onların mabədidir. Bu məsələdə əl-Ə. əl-H. başqa böyük bir hənbəli sufisi – Əbdülqadir əl-Cilaninin (vəf. 1166-cı il) sələfi idi.

İmanın əqlin onu ancaq məhv edən dəlillərinə ehtiyacı olmaması əqidəsindən çıxış edərək, əl-Ə.əl.H. ehtikar kəlamı bid`ənin «qəbahətli yeniliyi» hesab edib, bütün ömrü boyu onunla mübarizə etmişdir. Psixotexniki məsələlərdə o, «yolların» ifratçılığına qarşı çıxır, Allaha məhəbbətə böyük əhəmiyyət verir və şagirdlərini öz sufi duyğularına daim ciddi nəzarət etməyə çağırırdı.

Tərcümeyi-halçılar onun qeyri-adi dərəcədə mömin olduğunu və dini elmlərin bütün sahələrində geniş biliklərə malik olduğunu yekdilliklə qeyd edirlər. Əl-Ə. əl-H.-nin Quran və sünnənin ardınca getmək səyi və İbn

Hənbəl məktəbinə bağlılığı onun kor fanatizmdə və antropomorfizmdə günahlandırılmasına gətirib çıxartdı.

Əl-Ə. əl-H.-nin ərəb və fars dillərində yazdığı əsərlərinin mövzuları onun çoxtərəfli maraqlarını əks etdirir. Onun sufizmə aid bir neçə nəzəri traktatlarından «Mənazil əs-səirin» xüsusilə seçilir; o, qısa, orijinal bir dərslikdir, onun sufizm tarixində oynadığı əhəmiyyəti haqqında artıq bir neçə şərhə görə rəy söyləmək olar (onların ən məşhurlarından biri 1350-ci ildə vəfat etmiş İbn Qayyimə əl-Cövzinin Mədaric əs-Səlikin-idir). Onun sac rifmi və şeirlə yazılmış, dua və hikmət (nəsihət) əhatə edən Münacat və başqa əsərləri fars ədəbiyyatının ən yaxşı nümunələri arasında yer tutur. «Zəmm əl-kələm va əhlihi» islamda rasionalist ilahiyyata qarşı mübarizə tarixində əsas mənbələrdən biri oldu. Əl-Ə. əl-H.-nin əsərlərinin çoxu nəşr olunub və qərb dillərinə tərcümə olunub.

Əl-Ə.əl-H.-nin şagirdləri arasında ənənəçi-sufi Müt'əmin əs-Saci (vəf. 1113-cü il), İbn Tahir əl-Maqdisi (vəf. 1113-cü il) və Əbu-l-Vaqt əs-Siczi (vəf. 1157-ci il) seçilirlər. Lakin onun ən görkəmli müridi yəsəvi və xəvacəqan sufi qardaşlar mənəvi şəcərəsinə aid olan Yusif əl-Həmədanidir (vəf. 1140-ci il).

**Ədəbiyyat:** İslam, 21-22; İbn Əbi Yə'lə. Təbəqat əl-Hənəbilə, 2, 247-248; əs-Subki. Təbəqat, 3, 117-131; İbn Rəcəb. Zeyl, 1,50-68; Djami. Nabahat, 376-380; Б.А.Жуковский. Песни Гератского стартца – Восточные заметки. СПб, 1895, 79-113; Бертельс. Суфизм, 300-310, H.Ritter. Philologika VIII: Ansari Herewi – Senai Gaznewi. – D1, 1934, 22, 85-105; S.de Beaurecueil. Khwaja Abdullah Ansari, mystique hanbalite, Beyrouth 1965; yenə o. La structure du Livre des etapes de Khwaja Abdullah Ansari. – MIDEO, 1972, II, 77-125; yenə o. Le langage image du livre des etapes de Hwaga Abdullah Ansari, mystique hanbalite du Ve. / Xle siecle. – BEO. 1978, 30. 33-44; yenə o. Al-Ansari al-Harawi. – EI, NE, 1,515.

**Ərafat** - Məkkədən - 20 km. məsafədə yerləşən, uzunluğu 11-12 km., eni 6,5 km. olan vadi, Şimaldan elə Ərafat adı daşıyan dağ silsiləsi ilə sərhədlənir. Ə. vadisi həccin əsas mərasimi – Allah qarşısında vuqufun (dayanmanın) həyata keçirildiyi yerdir. Vadiyə getmək üçün zəvvarlar Mə`zəmeyn keçidinin və müqəddəs Məkkə ərazisini bildirən sütunların yanından ötməlidirlər. Ə.-da düşərgə salmış zəvvarlar zü-l-hiccə ayının 9-unda günorta azanı ilə açılan Vuqufu (mövqif) gözləyirlər (bax: əl-həcc). Vuqufun yeri Cəbəlürrahmə və ya Cəbəl adlanan (hündürlüyü 60 m. olan) dağın önündədir. Müsəlman rəvayətinə görə, Cənnətdən qovulan Adəm və Həvva məhz bu dağın önündə görüşüblər. İslama qədər dağ Hilal adını daşıyırdı və bütpərəstlərin ziyarət yeri rolunu oynayırdı. Ə. dağının şərq

yamacında zirvədə tikilmiş minarəyə çıxmaq üçün pilləkən yonulmuşdur. Pilləkənin 60-cı pilləsində «Ə. gününün» duası oxunan meydança düzəldilmişdir. İslamın ilk əsrlərində Ə. vadisində daş karxanaları var idi. Buradaca Məkkəni su ilə təchiz edən su kəməri var idi. Hazırda Ə. vadisi ancaq ziyarət yeri məqsədinə xidmət edir və praktiki olaraq boş yerdir.

**Ədəbiyyat:** İslam, 22; Wellhausen. Skizzen, 3,82-83; Gaudefroy. Demombynes. Pelerinage, 240-253; A.S.Wensinck-[H.A.R.Gibb]. Arafa – EI, NE, 1, 604.

**Ərəz (cəmi-ə′rāz)** – maddi, substant bir şeyin əksi olan ötəri, təsadüfi bir şey. Kəlamda, xüsusilə də onun ənənəvi inkişaf mərhələlərində Ə. kəlməsi altında bədənin kəmiyyət və keyfiyyət xüsusiyyətləri başa düşülürdü. Filosoflar A. istilahı ilə «substansiya» (cövhər) kateqoriyasından sonra Aristotelin doqquz kateqoriyasını – «kəmiyyət», «keyfiyyət», «nisbət», «harada?», «nə vaxt?», «vəziyyət», «yiyələnmə», «fel», «hərəkətə (əmələ) məruz qalmaq» - kateqoriyalarını, habelə «beş ümumi mülahizələrdən» birini (qalan dördü isə «cins», «görünüş», «seçim əlaməti» və «xüsusi əlamət») nəzərdə tuturdular. Kəlamın bu elmin fəlsəfəsi ilə yaxınlaşan son inkişaf mərhələlərində eyni müəllif Ə. istilahını bütün göstərilən mənalarda işlədirdi.

**Ədəbiyyat:** İslam, 22.

**Əl-Əshab** (və ya əs-səhabə, sahib- «tərəfdar»ın cəmi, rusca təkdə ashab, cəmdə ashabı işlənir) – Məhəmmədin (s) silahdaşları, onunla yaxından götür-qoy edənlər və ya onunla yürüşlərdə, Peyğəmbərin (s) sağlığında müsəlman dövlətinin yaradılmasında iştirak edənlər, sonralar Məhəmməd peyğəmbəri (s) bir dəfə, hətta uşaq ikən görənləri də belə adlandırmağa başladılar. Əl-Ə. Ərəbistandan kənarda fütuhatlara başlayan ilk müsəlman ordusunun özəyini və ən mətin hissəsini təşkil edirdilər. Əl-Ə.-ın yuxarı qatını mühacirlər və ənsarlar təşkil edirdilər; onlar ilk xəlifələrin seçilməsinə təsir göstərirdilər, onları canişinlər və yüksək rütbəli ordu başçıları təyin edirdilər. Əl-Ə.-ın Xilafətdə yüksək tutulan mövqeləri onların çox böyük maaşlarından da görünürdü - ildə 3-5 min dirhəm (onu 641-ci ildən verirdilər), – bu halda döyüşçülərin əsas hissəsi ancaq 300 dirhəm alırdı. I Ömər vaxtı kişi əl-Ə.-ın ümumi sayı 10 minə yaxın idi.

Əl-Ə.-ın islam tarixində əhəmiyyəti onunla təyin olunurdu ki, Məhəmməd peyğəmbərin (s) vəfatından sonra onlar kütləvi surətdə onun təliminin qoruyucuları oldular, onların onun (s) sözləri və işləri (hədisləri) haqqında söhbətləri onların şəxsi misalları və rəyləri ilə birlikdə sünnəni – islamın əxlaqi – hüquqi təliminin mühüm tərkib hissəsini təşkil edirdi. Sünnənin daşıyıcıları və Peyğəmbərin (s) silahdaşları kimi onlara hörmət

sonralar (XI əsrdə) onların məzarlarını (qəbirlərini) ziyarət etməyə gətirib çıxartdı və əl-Ə.-ın ləyaqətləri (məziyyətləri) haqqında əsərlərin yaranmasına səbəb oldu. Şiələr onlara Əlini (ə) qanuni hakimiyyətdən məhrum edən qəsbkarların köməkçiləri kimi baxırdılar: buna baxmayaraq, bu onların gözündə əl-Ə.-a aid olan hədislərin nüfuzunu azaltmırdı.

Hədislərin cəmlənməsi və isnadların tənqidi analizinin zərurəti IX əsrdə hədis ötürücülərinin bioqrafik lüğətinin yaranmasına gətirib çıxartdı, orada fəxri yeri əl-Ə. tutdular, sonralar isə əl-Ə.-ın xüsusi bioqrafik lüğətləri yarandı, onlardan ən böyüyü İbn Həcər əl-Asqalaninin (XV) Əl-İsabə fi təmyiz əs-sahabə əsəri olub, Məhəmməd peyğəmbərlə (s) əlaqəsi olan 12 mindən çox şəxsin adını əhatə edirdi.

**Ədəbiyyat:** İslam, 23-24; İbn Sə′d. Təbəqat, 3-8; İbn Abd əl-Bərr. Kitab əl-isti′ab fi mərifət əl-əshab, 1-2. Heydərabad, 1318 (1901); İslam, qısa məlumat kitabı, 57; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 87.

**Əshab və ya Əhlu-l-Hədis** («rəvayət tərəfdarları, ardıcılları») – VIII əsrdə meydana gəlmiş erkən islamda əsas cərəyanlardan biri olan ənənəçilər. Əshab ər-rəyin əksinə olaraq bu istilahla dini-hüquqi məsələlərin həllində hər cür yeniliyi rədd edən ilk Mədinə məktəbinin fəqihləri və mühəddislərini adlandırdılar. Onlar mücərrəd metodika tətbiq edilməsini yolverilməz hesab edib, təcrübə fəaliyyəti ilə məşğul olduqda ancaq «Allahın kitabı» (Qurana) və Peyğəmbərin (s) sünnəsinə əsaslanmağa çağırırdılar. Sonralar Ə.-l-H. öz mövqelərini yumşaltdılar. İnkişaf edən cəmiyyətin sorğular və tələblərinin təsiri altında onlar müsəlman hüquq mənbələri icma və qiyası qəbul etdilər, lakin onların geniş istifadəsinə yol verməyərək mücərrəd metodu Quranın şərhi ilə məhdudlaşdırdılar.

**Ədəbiyyat:** İslam, 25; J.Schacht. Ahl al-Hadith. – EI, NE, 1, 258-259.

**Əshabu-l-Kəhf** - Quran surətləri (mağara əhli), Allahın əmri ilə düşmənlərdən gizlənərək mağarada uzun illər yatan gənclər. Həqiqi möminləri hifz etmək üçün Allahın göstərdiyi möcüzələrin misalı kimi Quran «mağara əhli» və ər-Rəgim (hadisənin yeri)? haqqında məlumat verir. Mağarada gizlənərək gənclər Allahı köməyə çağırırlar və O, «onları mağarada uzun illər (yatırtdı) bağladı» və sonra adamlara ibrət üçün onları diriltdi (oyatdı). Bu gənclər tək Allahın təkliyinə inanırdılar və başqa ilahlara səcdə etməkdən imtina etdilər və öz qohum-əqrəbaları ilə əlaqələrini kəsdilər. Allahın əmri ilə onlar mağaraya çəkildilər və bərk yatdılar – onlar özləri və qapı ağzında uzanan it. Allah onları oyadanda onlar fikirləşdilər ki, günün bir hissəsi keçmişdir və onlar ehtiyat edərək bir nəfəri pulla yemək almağa göndərdilər ki, onların qohumları –

(həmyerliləri) onları tanıyıb onlara hücum etməsinlər. Allah isə ibrət olmaq üçün bunu insanlara bildirdi və onlar mağaranın üstündə dua (ibadət) etməyə yer (məscid) tikdilər, sonra mübahisə etməyə başladılar ki, mağarada neçə adam var idi – beş və ya altı: onlar 309 il yatmışdılar, dəqiq müddəti və yatanların dəqiq sayını təkcə Allah bilir (Quran 18:9/8 – 26/25).

Bu Quran hekayəsini şərh edən rəvayətə görə söhbət Kiçik Asiya və ya Suriyanın hansı şəhərindənsə olan gənclər haqqında gedir, onlar çar Dağyanus vaxtı (Dağyunus – imperator Datsiy) xristianlığı qəbul etmişdilər. Onlar təqibə məruz qalıb, mağarada gizləndilər, təqibçilər ora girə bilmədilər. Gənclər insanlardan uzaqlaşmağı qərara alaraq, mağaranın girişini bağladılar, Allah isə onları uzun müddətə yuxuya verdi. Uzun illərdən sonra mağaranı heyvanlar üçün pəyə etmək istəyən çoban açdı, lakin yatanları görmədi. Onlar təxminən 300 ildən sonra ayıldılar və bir nəfəri çörək almaq üçün göndərdilər. Çörəkçi pulu qəbul etməyib, gənci çarın yanına apardı, çar pulu tanıdı və aydın oldu ki, onlar təx. 300 il yatıb qalmışlar. O vaxt xristianlıq artıq qalib gəlmişdi və gənclərin əhvalatı məşhurlaşdı və mağaranın üzərində kilsə tikildi. Gənclər isə özlərinə yad olan dünyanı görmüş, Allahdan yenidən onlara əbədi yuxu verməyi rica etmiş, Allah da onların arzusunu yerinə yetirmişdi və onlar əbədi olaraq yatdılar.

Müsəlman dünyasının müxtəlif yerlərində - Kiçik Asiya, Suriya və Fələstində, Yəməndə, Məğribdə və İspaniyada Quranın «mağara əhlinin» yatan yeri olan yerləri göstərirlər. Rəvayətdə adı göstərilənlərin (mağara əhlinin), habelə onların iti – Qitmirin ovsun gücünə malik olduqları hesab edilirdi.

Quran «yeddi Efes yeniyetmə»si haqqında məşhur xristian hekayəsinin variantlarından birini (misal kimi) sitat gətirir, o, Qurandansonrakı hekayələrdə də istifadə olunub. Quran hekayəsinin detalları - yer adları (Raqim-Reqdem), mağaranın cənubda olan girəcəyi, onun üzərində məbədin olması, danışıq dilində Suriya – Fələstin dialektinin və s.-nin olmasını güman etməyə imkan verir ki, Quranda söhbət adətən hekayənin baş verdiyi Efes mağarasından getmir, söhbət indiki Əmmanın ətrafındakı Roma (böyük qəbirstanlığının) nekropolu ərazilərindəki dəfndən gedir, onu görünür, hələ islamaqədərki Suriya və Fələstində bu hekayə ilə bağlayırdılar. Məhz burada ola bilsin ki, onu bu yerlərə ticarət karvanı ilə gələn Məhəmməd eşitmişdir. Bu fikirlə də lüğət müəllifləri Quranın Məhəmməd peyğəmbər tərəfindən yazıldığını qeyd edirlər, İslam isə onun vəhy kimi Peyğəmbərə (s) nazil olunduğunu deyir.

**Əbəbiyyat:** İslam, 24; ət-Təbəri. Tarix, 1, 775-782; yenə orada, Təfsir, 15, 130-151; əs-Sə'ləbi. Qısas, 231-241; əl-Beydavi. Təfsir, 1, 556-559; А.Е.Крымский. Сем спяших отроков. М., 1912; Horovitz. Untersuchungen, 95, 98-99; L.Massignon. Les septs dormonts d'Ephese en

Islam et en Chretiente – REI, 1954, 22, 59-112; A.J.Wensinck. Ashab al-Kahf – EI, 1, 497-498; R.Paret. Ashab al-Kahf. – EI, NE, 1, 712-713; İslam (qısa məlumat kitabı), 57.

**Əshabu-r-Rass** («Rass insanları», «quyu adamları») – Quranda adları Ad və Səmud tayfaları ilə birlikdə iki dəfə misal kimi çəkilən, Allahın düz yola çəkmək istədiyi qədim xalq. Onlar Allaha qulaq asmadılar və buna görə də məhv oldular. «Və onların hamısına bir ibrət dərsi verdik və hamısını məhv etdik» (Q. 25:38/40-39/41; 51:12). Şərhçilərin ər-Rass istilahının başa düşülməsində fikirləri üst-üstə düşmür, onu ya sadəcə olaraq yer və ya hansısa su mənbəyinin (quyu, çay) adı hesab edirlər. Quranı xatırlama ilə əlaqədar olaraq gətirilmiş ən çox yayılmış rəvayət Ə.ər-R.-ı əvvəllər məhv edilmiş səmudların törəmələri edir. Onlar Yəməndəki quyunun yanında yaşayır və çox böyük quşların – anka hücumundan əziyyət çəkirdilər. Allahın Peyğəmbəri Hənzələ b. Səfvan quşlardan insanları xilas etməyi Allahdan xahiş etdi və qaniçən quşlar itib getdilər. Lakin insanlar bundan sonra da Hənzələnin möizəsinə, onun təkallahlığa çağırışına qulaq asmadılar, hətta peyğəmbəri quyuya atdılar. Bunun üçün Allah onları məhv etdi.

**dəbiyyat:** İslam, 25; ət-Təbəri. Təfsir, 19, 10-11; əs-Sə'ləbi. Qısas, 84-86; əl-Beydavi. Təfsir, 2, 40; Horovitz. Untersuchungen, 94-95; A.J.Wensinck. Ashab ar-Rass. – EI, NE 1, 713.

**Əshab və ya Əhlu-r-Rəy** «müstəqil düşüncə tərəfdarları (adamları)», VII-VIII əsrlərdə əshab əl-hədis – «rəvayət tərəfdarlarının» əksinə olaraq qanunşünaslıq cərəyanlarından birinin nümayəndələrinin ümumi adı. Ə.-r-R. bu adı rəvayət (hədisdən) gələn misala əsaslanaraq deyil, hüquqi məsələləri öz şəxsi rəylərinə əsaslanmağa üstünlük verərək həll etdiklərinə görə almışdılar. Bu cərəyan ənənəyə görə xəlifə Ömər b. əl-Xəttab (634-644) tərəfindən şəriət müəllimi və qazi kimi İraqa göndərilən Abdulla b. Məs'udla (vəfatı 652 və ya 653-cü il) əlaqələndirilir. Müstəqil düşüncəyə can atmaq ola bilsin onunla izah olunsun ki, əvvələn, hədislərin bütöv kompleksi Hicazda olduğu kimi İraqda elə də məlum olmayıb, ikincisi, belə düşüncə tərzinə üstünlük verən Əli b. Əbi Talib (ə) və Abdulla b. Məs'udun böyük şəxsi nüfuzları olub, üçüncüsü o (müstəqil düşüncə tərzi), başqa keçmiş dini əhkam tərəfdarları tərəfindən formal loqika üsulları olduqca yüksək səviyyədə mənimsənilərək islama gətirilmişdir.

Bu cərəyanın ən görkəmli nümayəndələri İraqda Əlqəmə ən-Nəxzi, Şüreyx əl-Kindi, İbrahim ən-Nəxzi, Həmmad b. Əbi Süleyman və Əbu Hənifə ən-Numan, Hicazda isə Malik b. Ənəs idilər. Fiqh elminin inkişafı və ilahiyyat-hüquq məktəblərinin (məzhəblər) yaranması ilə Ə.-r-R. adı

müstəqil düşüncənin əsas prinsiplərdən biri olan məzhəblərə – hənəfi və malikilərə keçdi. Ə.-r-R.-in opponentləri onları Məhəmmədin (s) işləri və dedikləri haqqında dəlillərə sayğısızlıqda, islam ruhunun itirilməsinə aparan müstəqil qərarlarda, mövzunun başa düşülməsini çətinləşdirən süni məntiqi nəzəriyyələrə görə günahlandırırdılar. Əsas barışmazlar isə hətta Ə.-r.R.-in əksinə şəhadətlik verən hədislər də tapmışdılar.

Ə.-r-R.-in adı IX əsrdə də hənəfi və malikilərdə qalırdı, lakin sonralar rəy termininin istifadədən çıxması ilə əlaqədar olaraq onun ilahiyyat-hüquqi mənasında Ə. ur-R. məfhumu ancaq tarixi bir şey oldu.

**Ədəbiyyat:** İslam, 24; Əbu Zəhra. Tarix əl-məzahib, 1, 30-34; J.Schacht. Ashab ar-ra'y. – EI, 1, 962.

**Əshabu-l-Uxdud** («xəndək əhli») – Quran təbiridir. «Xəndək, qığılcımlara malik olan od əhli (sahibləri) öldürüləcəklər. Budur, onlar onların üstündə oturub möminlərlə nə etdiklərinə diqqətlə baxırlar» (Q. 85: 4-7). Adətən bu yeri e.ə. 513-cü ildə Yəmən şəhəri Nəcranda xristianlara verilən cəzanın əks edilməsi kimi şərh edirlər. Yəhudiliyi qəbul edən Yəmən çarı Yusuf Əs`ar (Zu Nuvas rəvayətində) həbəş təsiri və onun daşıyıcıları, Yəmən xristianları ilə mübarizə apararaq üsyançı şəhər Nəcranı mühasirə edib, onu tutdu, rəvayətə görə xristianlara dindən dönmə və odda yanma arasında seçim təklif etdi. Nəcranlılar şəhid ölümünü üstün tutdular və bu iş üçün xüsusi qazılan xəndəkdə yandırıldılar.

Bu yeri Daniil peyğəmbərin (Daniil, 3:19-28) tarixinin əks etdirilməsi və Cəhənnəmin təsviri kimi də şərh edirlər. Yəmən hadisələri haqqında hekayələr və çoxlu başqa xristian rəvayətləri Ərəbistanda çox geniş yayılmışdı. Odur ki, Quranın bu hissəsində bu haqda hekayələrlə xristianların cəzalandırılması və Qurani möizənin esxatoloji səslənməsinin kontekstində əldə edilmiş xatirələrin çoxplanlı uyğunluğunu görmək olar.

**Ədəbiyyat:** İslam, 25; ət-Təbəri. Tarix, 1, 925-927; yenə o. Təfsir, 30-84-87; əs-Sə'ləbi. Qısas, 246-248; əl-Beydavi. Təfsir, 2, 395-396; А.Г.Лундин. Южная Аравийа в VI веке - П.С. 1961. 8, 31-45; М.Б.Пиотровский. Южная Аравия в ранее средневековье: Становление средневекового общества. М., 1985, 164-165; A.Moberg. The book of Himyarites. L.,1924; Horovitz. Untersuchungen. 12, 92-93; Speyer. Erzählungen, 424-425; W.M.Watt. The Men of the Ukhdud – The Muslim East. Budapest, 1974; Paret. Komentar, 505-506; A.J.Wensinck. Ashab al-Ukhdud. – EI, 1, 498-499; R.Paret. Ashab al-Ukhdud. – EI, NE, 1, 692.

**Əl-Əsməu-l-Husnə** (gözəl adlar) – Quranın Allahı adlandırmaq üçün bizə əmr etdiyi adlar - epitetlər (ləqəblər) «Allahın gözəl adları var. Onu onlarla çağırın və Onun adları haqqında təfriqə salanları tərk edin

(7:180/179)»; «Allahı və ya Bağışlayanı çağırın; siz necə çağırsanız da ən yaxşı adlar Ondadır (17; 110, həm də bax: 20: 8/7; 59/24).» Bu adlar 99-dur. Onlar müsəlman ilahiyyatında mühüm yer tuturlar, belə ki, onlar Allahın əsas keyfiyyətlərini əyani surətdə təsvir edirlər. Orta əsr dinşünasları onlara söykənərək (əsaslanaraq) Allahın atributları problemlərini, Onun xüsusiyyət və əlamətlərinin əbədiliyini, Onun keyfiyyətlərinin dərəcələrini müzakirə edirdilər. Bütün dini əsərlərin əsas fəsilləri onlara həsr edilirdi. Əl-Ə. əl-H. müsəlman mərasimlərində dua elementidir. Sufilər bu adları zikrlərdə çox geniş istifadə edirlər və onlara ilahi ideal keyfiyyətlərinin və insanın kamillik yolunda ideal istiqamətlərin külliyyatı kimi baxırlar. Allah və Onun adlarını mümkün qədər tez-tez çəkmək möminliyi ifadə etmək sayılır. Onların sayına standart müsəlman təsbehlərinin muncuqları düzəldilir. Əl-Ə. əl-H. müsəlman ismi ə′zəmində tilsim kimi işlənir və belə hallara bəzən qeyri-müsəlman mətnlərində də rast gəlinir (məsələn, Afanasi Nikitinin «Üç dəniz arxasına səyahət»inin sonunda). Müsəlman dini ədəbiyyatında Allahın adlarını şərh edən çoxlu sayda traktatlar vardır, onların siyahısı əksər halda dua külliyyatlarına daxil olur. Onlar müsəlman adlarının çox yayılmış modellərindən birinin elementidir, məsələn: «Allah qulu», (Abdullah), Əbdürrəhman, Əbdüssəməd və s.

Quranda «Allahın gözəl adlarının» ancaq qısa siyahısı vardır (59:22-24); ər-Rəhman, ər-Rəhim, əl-Məlik, əl-Quddus, əs-Sələm, əl-Mu`min, əl-Əziz, əl-Cabbar, əl-Mütəkəbbir, əl-Xaliq, əl-Bəri, əl-Müsəvvir.

Bütün başqa adlar Quranın müxtəlif yerlərində rast gəlinən Allahın epitetlərinə aiddir və onlarla bağlı fellərdən düzəlmişlər. 99 adın siyahısı Əbu Hüreyrənin hədisində gətirilir, orada Peyğəmbər (s) 99 sayını ifadə edir və qabaqcadan Allahın adlarını dualarda təkrar edənlərə Cənnət vəd edir. Sonra çoxlu hədis külliyyatlarında (hamısında yox) əl-Ə. əl-H.-nin siyahısı gəlir. Əbu Hüreyrənin siyahısı çox güman ki ikincidir, hədis özü də Məhəmmədin (s) dövrünə uyğun təsiri bağışlamır. Görünür siyahı IX-X əsrlərdə tərtib olunub, lakin bu haqda dəqiq məlumat yoxdur.

Əbu Hüreyrənin siyahısı 99 adın qanunlaşdırılması deyil. Əl-Ə. əl-H. siyahısının bir neçə variantı var. Onlardan birinə görə Allah adı 99 adın tərkibinə daxil olur. Bu halda yeganəlik keyfiyyəti iki istilahdan biri: əl-Əhəd və ya əl-Vahidlə verilir (birincisi hədis külliyyatları və məişətdə, ikincisi xüsusi əsərlərdə, məsələn, əl-Qəzali və əl-İcidə). Başqa variant həm əl-Əhədi, həm də əl-Vahidi əhatə edir, Allah isə orada – yüzüncü addır.

Aşağıda əl-Qəzali və əl-İcinin əl-Ə. əl-H. siyahısı verilir: Allah, ər-Rəhman (Mərhəmətli), ər-Rəhim (Rəhimli), əl-Məlik (Kral), əl-Quddus (Müqəddəs), əs-Sələm (Sülhsevər), əl-Mu`min (Düzgün), əl-Mühəymin (Qoruyan), əl-Əziz (Qüdrətli), əl-Cabbar (Güclü), əl-Mütəkəbbir (Üstün), əl-Xaliq (Yaradan), əl-Bəri (Yaradıcı), əl-Müsəvvir (Yaradıcı), əl-Ğəffar

(Bağışlayan), əl-Qəhhar (hökmranlıq edən), əl-Vəhhab (Hədiyyə verən), ər-Rəzzaq (Ruzi verən), əl-Fəttah (Fəth edən), əl-Alim (Bilici), əl-Qabid (Bərk tutan), əl-Basit (Süfrə açan), əl-Hafid (Aşağı salan), Ər-Rafi (Yuxarı qaldıran), əl-Müizz (Güc verən), əl-Müzill (Endirən), əs-Sami (Eşidən), əl-Bəsir (Görən), əl-Həkəm (Hakim), əl-Adl (Ədalətli), əl-Lətif (Lütfükar), əl-Xəbir (Xəbərdar), əl-Həlim (Mülayim), əl-Azim (Böyük), əl-Ğəfur (Hər şeyi bağışlayan), əş-Şəkur (Yaxşılıq edən), əl-Ali (Yüksək), əl-Kəbir (Böyük), əl-Hafiz (Qoruyucu), əl-Müqit (İdarə edən), əl-Hasib (Hesab edən), əl-Cəlil (Nəhəng), əl-Kərim (Əliaçıq), ər-Raqib (Nəzarət edən), əl-Mucib (Cavab verən), əl-Vasi (Hər yerdə mövcud), əl-Həkim (Müdrik), əl-Vədud (Sevən), əl-Məcid (Xeyirxah), əl-Bəis (Dirildən), əş-Şahid (Şahid), əl-Haqq (Haqq), əl-Vəkil (Vəkil), əl-Qavi (Güclü), əl-Mətin (Mətin), əl-Vali (Dost), əl-Həmid (şərəfli), əl-Mühsi (nəzərə alan), əl-Mübdi (Başlayan), əl-Muid (Qaytaran), əl-Muhyi (Həyat verən, Dirildən), əl-Mumit (Öldürən), əl-Hayy (Əbədi yaşar), əl-Qəyyum (hər yerdə mövcud), əl-Vacid (Varlı), əl-Məcid (Şanlı), əl-Əhəd (Yeganə), əs-Saməd (Əbədi), əl-Qadir (Qüdrətli), əl-Müqtədir (Hər şeyə qadir), əl-Müqəddim (İrəli çıxan), əl-Müəxxir (İrəli çıxan), əl-Əvvəl (Birinci), əl-Axir (Qəti), əz-Zahir (Görünən-Zahir), əl-Batin (Gizli-Batin), əl-Vali (Vali), əl-Mütəali (Çox yüksək), əl-Bərr (Əliaçıq), ət-Təvvab (Bağışlayan – Tövbələri qəbul edən), əl-Müntəqim (Qisas alan), əl-Əfi (Bağışlayan-Əvf edən), ər-Rauf (Yumşaq), Məlik əl-Mulk (Krallığın Çarı), Zu-l-cəlal va-l-ikram (Qüdrətli və əliaçıq), əl-Müqsit (Ədalətli), əl-Cəmi (Yığımdar), əl-Ğəni (Varlı-Qəni), əl-Müğni (Varlandıran), əl-Mani′ (Müdafiəçi), ad-Darr (Zərərverən), ən-Nəfi (Xeyirxah)- bu iki adın Zərərverən və Xeyirxah - birlikdə işlədilməsini məsləhət görürlər, yəni Allah lazım biləndə zərər də versə hey şey onun qarşısını ala bilməz, xeyirxahlığı isə olduqca çoxdur. ən-Nur (İşıq), əl-Hadi (Düzgün yolla aparan), əl-Bədi (Kəşşaf-Kəşf edən), əl-Baqi (Əbədi), əl-Varis (Varis), ər-Raşid (Düzgün), əs-Sabir (Səbirli, Sabir). (Adların tərcüməsi çox şərtidir, belə ki, onların hər birinin mənalarının müxtəlif şərh növü vardır).

Məişətdə Əbu Hüreyrənin siyahısında olmayan Qurana, Quran kəlmələrinə və Allahın adlarının köklərinə aid olan istilahlar geniş işlədilir. Bunlar dualar və əl-Ə. əl-H.-nin teofor adlarının tərkibində geniş yayılmış Rəbb (Tanrı), əl-Mun`im (Xeyir verən), əl-Mu`ti (Əta edən), əs-Sadiq (Səmimi), əs-Səttar (Qoruyan) kimi istilahlardır. Hədislərin müxtəlif külliyyatlarında adların bəzilərinin mənalarını dəyişən Allahın 99 adına əlavə olunan və ya aradan çıxarılan başqa siyahılara da rast gəlinir.

Allahın əsas, ən böyük, ancaq peyğəmbərlərə məlum olan Adı (əl-ism əl-əzəm) haqqında anlayış (əsasən sufilərdə) geniş yayılmışdır. Ehtimala görə o anlayış Quranda üç yerdə Allahın adlarının tərkibinə daxil edilmişdir

– 2:255/256; 3:1; 20:111/110, daha doğrusu, dörd addan biridir. Allah, əl-Hayy, əl-Qəyyum, Huvva.

Əl-Ə. əl-H. arasında İlahi mövcudluğu göstərən Allah, Huvva başqa adlarla verilən İlahi xüsusiyyətlərdən fərqlənən ism əzzat kateqoriyasını ayırırlar (fərqləndirirlər). Axırıncılar arasında ism cəlali kateqoriyası fərqlənir (güc, qüdrət, hakimiyyət mənasını verir – məsələn, əl-Kəbir, əl-Hakim) və ism cəməli kateqoriyası (mərhəmət və şəfqət xüsusiyyətləri mənasını verir – məsələn ər-Rəhman, ər-Rəhim, əs-Səmi).

**Ədəbiyyat:** İslam, 22-23; ət-Təbəri. Təfsir, 28, 37; Kitab əl-məqsəd əl-əsnə fi əsmə Allah əl-husnə li… əl-Qəzali. Qahirə [6 c.], əl-Beydavi. Təfsir, 2, 326; əl-Cürcani. Şərh, 540-545, J.Moubarac. Les nomes, titres et attributes de Diem dans le Coran et leurs correspondants en epigraphie sud-semitique.- Le Museon. Louvain, 1955, 86; Gaudefroy-Demombynes. Mahomet, 245-277; D.B.Macdonald. Allah. - E.I, 317, 317-321; L.Gardet. Al-Asma al-Husna. – EI, NE, 1, 735-738.

**Əl-Əş'əri, Əbülhəsən Əli b. İsmail** (873-935) – ilahiyyatçı, əş'əri fəlsəfi məktəbinin banisi, Bəsrədə doğulub, öz atalığı - Bəsrə mötəzililərinin başçısı Əbu Əli əl-Cübbainin yanında təlim almışdır; 912-913-cü illərdə mötəzililikdən uzaqlaşıb Bağdada köçür, orada yaşayır və orada da vəfat edir. Əl-Ə.-nin yaradıcılıq irsindən (təx. 100 əsər) ancaq iki əslinə uyğun əsəri – Məqalat əl-isləmiyyin və Əl-Luma' qalmışdır ki, onlar da onun dünyagörüşü haqqında tam təsəvvür vermir. Birinci əsər əsasən doksoqrafik xarakter daşıyır, ikinci böyük olmayan əsərdə isə fəlsəfənin zahiri tərəflərinə (zahir al-kəlam) baxılır və müəllifin ontoloji və naturfəlsəfi görüşləri haqqında heç bir məlumat verilmir, göstəricilər isə onun başqa əsərlərinin adlarında cəmlənib.

Məzmununa görə ənənəvi – hənbəli əsər olan Əl-İbənə an üsul əd-diyənəni əl-Ə.-nin adına yazırlar, orada əsər onun dünyagörüşü, əqidəsi kimi qəbul edilmişdir, lakin onun ardıcılı olan İbn Əsəkirin (vəf. 1176-cı il) gətirdiyi əl-Ə.-nin əsərlərinin siyahısında həmin əsərin adının olmaması, habelə İbn Əsəkirin «əl-İbənə əş'ərilər üçün hənbəlilərdən «qalxan» rolu oynayırdı deməsi (İbn Əsəkir. Təbyin kizb əl-müftəri fi mə nusibə ilə-l-iməm əl-Əş'əri. Dəməşq, 1928, 388) əl-Ə. görüşlərinə yazılan hənbəli elementləri əş'ərilərin fəlsəfəni leqallaşdırmaq və onu ənənəçilərin, hər şeydən əvvəl hənbəlilərin hücumlarından qorumağa can atmaları ilə şərtlənirdi. Fəlsəfənin tərifini və bu elmlə məşğul olma qanunauyğunluğunun əsaslanmasını özündə ehtiva edən «İstihsan əl-haud fi ilm əl-kəlam»ı da əl-Ə.-nin adına yazılır.

Mötəzililərdən fərqli olaraq əl-Ə.-nin Allahda real və əbədi atributların olmasını və Quranın «mənasına» görə yaradılmamasını qəbul edirdi. O

deyirdi: Allah, insanların öz istəyi və çalışması vasitəsilə «əldə etdiyi» (kəsb) bütün əməllərin yaradıcısıdır. Əl-Ə. möminlərin o dünyada Allahı «görəcəkləri» imkanını deyirdi, lakin bunun haşvilərin təkid etdiyi kimi hərfi mənada yox.

**Ədəbiyyat:** İslam, 31-32; X.Quraba. Əl-Əşəri, Qahirə, 1953; R.J.Meclarthy. The Theologu of al-Ashari. Beirut, 1953; Schacht. New Sources; G.Makdisi. Ashari and the Asharites in Islamic Religions History. – StI. 1962, 17, 37-80, 1963, 18, 19-39; H. Brentjes. Die Imamatslehren in Islam nach der Darstellung des Aschari. B., 1964; Allard Le probleme; D.Gimmaret. Un document majeur pour lhistoire du Kalam: Le «Muğarrad magalat al-Aş′ari» dlbn Furak. – Arb. 1985, 32, 2, 185-218; Abu Bakr b. Furak. Muqarrad maqalat al-Aş′ari. Beyrauth, 1987.

**Əl-Əş′əriyyə** – əş′ərilər, əsas fəlsəfə məktəblərindən birinin adıdır, görkəmli nümayəndələri əl-Əş′əri (vəf. 935-ci il), əl-Baqillani (vəf. 1913-cü il), İbn Furak (vəf. 1015-ci il), Əbu İshak əl-İsfərani (vəf. 1027-ci il), Əbdülqahir əl-Bağdadi (vəf. 1037-ci il), əl-Cüveyni (vəf. 1085-ci il), əş-Şəhrəstani (vəf. 1153-cü il) və Fəxrəddin ər-Razidir (vəf. 1209-cu il).

Ə.-nin əsas əsərləri, xüsusilə də məktəbin yarandığı dövrə aid olanları bizə qədər gəlib çatmayıb: bu işlər haqqında qalmış məlumatlara görə Ə. onlarda (əsərlərdə) çox pis şəraitdə mötəzililərin rasionalist xəttini davam etdirirdilər. İbn Teymiyyənin dediyinə görə müasirləri Ə.-ni «mötəzililərin sonbeşiyi» adlandırırdılar. Dünyagörüşü sahəsində Ə. əsasən dini ənənə (nəql) qarşısında ağlın üstünlüyünü təsdiq edirdilər və şəriət üçün ancaq müsəlmanların praktiki həyatının tənzimləyicisi funksiyasını saxlayırdılar. Ə. təqlidi – din nüfuzlarının fikirlərinin həqiqiliyinə şübhə etmədən kor kimi onların dalınca getmələrini, bəzən isə təqlidin dalınca gedən adamların inanan müqəllidlərə aid edilməsini də rədd edirdilər. Yaradanın öz məxluqlarına olan əlaqəsi haqqında məsələdə Ə.-də məkan və zamanda dünyanın Allahının teist xəttinin rəddinə meyl və onların təlimində öz əksini tapmış dünyanın immanentliyinin təsdiqi düşünülür. «Allah hər şeyin yanında, hər şeylədir, daha doğrusu hər şeylə öz məişəti ilə bağlıdır (İbn Ruşd. Təhəfut ut-Təhəfut. Qahirə, 1969, 180). Bu məsələdə Ə.-in və şərq peripatetiklərinin görüşlərinin üst-üstə düşməsinə işarə edərək əş-Şəhrəstani yazmışdır: «O şeyi ki, siz (fəlsəfə) «[Allahın] təfəkkürü» adlandırırsınız, biz (əş′arilər) onu «qədim bilik» adlandırırıq, o şeyi ki, siz «tale-qəzavü qədər» (bəsirət) adlandırırsınız, biz onu «qədim – köhnə iradə» adlandırırıq. Sizin nöqteyi-nəzərinizə görə bəsirət biliyə əsaslandığı kimi, eynilə bizim nöqteyi-nəzərimizə görə iradə biliyə uyğun olaraq iradə predmentinə yönəldilir. O və başqa təlimlər arasında heç bir fərq yoxdur» (əş-Şəhrəstani. Nihayət əl-iqdam fi ilm əl-kəlam. Beyrut, 18).

Ə. çoxlu təzahürlər arasında təbii səbəbiyyət-nəticə əlaqələrinin olmasını rədd edirdi, lakin bu onların okkazionalistik indeterminzim mövqeyinə keçmələri demək deyildi. Dünyada baş verən proseslərin qanunauyğun xarakterini Ə. Allah tərəfindən gətirilən və Onun tərəfindən pozulmayan «adətlə» izah edirdilər, çünki aləmdə hökm sürən qayda-qanun Allahın qədim biliyi ilə «qərara alınmışdır». Ə.-nin opponenti mötəzili İbn Əbi-l-Hədid qeyd edirdi ki, «Əl-Əş'əri və onun ardıcılları öyrədirlər ki, Dünya olduğundan başqa cür ola bilməz, çünki [Allahın] ilk-qədim iradəsi öz mahiyyətini dəyişib başqa ola bilməz. Eyni şeyi onlar Dünyanın dəyişən hissələri haqqında, hərəkət və sükutun halları, cisimlər və aksidensiyalar haqqında da deyirlər (İbn Əbi-l-Hədid. Şərh nəhci-l-bəlağə. 1, Qahirə, 1959, 163). Bu prinsipi izləyərək, Fəxrəddin ər-Razi, məsələn, bizim aləm ilə yanaşı «min başqa aləmin» olmasını mümkün hesab edirdi.

Ə.-nin mötəzililərdən əsas fərqi onların fəlsəfəyə aid bir sıra məsələlərin həllində daha ehtiyatlı olmaları idi: onlar bir neçə ilahi atributların (bilik, iradə və b. kimi «mahiyyət atributları») qədimliyini qəbul edirdilər; onlar Quranın «mənaya» görə yaradılmasını rədd edir, bu əlaqədə «hissi» və «sözlə ifadə olunan» nitqi (kəlam hissi, kəlam ləfzi) və «daxili», «özündə olan» (kəlam nəfsi) nitqi ayırırdılar; qədərilər və cəbrilərin nöqteyi-nəzərlərini razılaşdırmağa çalışır, kəsb konsepsiyasını dəstəkləyirdilər; Allahın möminləri tərəfindən o dünyada Allahı «görmək» (ruyə) mümkünlüyünü qəbul edirdilər, bununla belə bunu izah etmək mümkünlüyünü rədd edirdilər. Lakin fəlsəfənin çoxlu problemləri və Ə.-in özləri arasında rəylərin birliyi yox idi. Belə ki, əl-Baqillani və əl-Cüveyni ilahi atributların və ilahi mahiyyətin qarşılıqlı əlaqə problemini əş-Səhrastaninin rədd etdiyi «moduslar» (əhval) konsepsiyası ruhunda həll edirdilər. Əl-Baqillani cisimlərin (atomun) bölünmə həddinin olması haqqında təlimi inkişaf etdirirdi, lakin əl-Cüveyni və Fəxrəddin ər-Razi cisimlərin bölünməsi haqqındakı məsələni sonsuzluğa qədər açıq saxlayırdılar.

Fəlsəfəni hənbəlilər və zahirilərin hücumundan qoruyaraq Ə. təkiyəyə sığınırdılar. Onlar xüsusilə özlərinin mötəzililərlə düz gəlmədiklərini qeyd edirdilər, «sünnə və razılıq əhli (əhl us-sünnə va-l-cəmaə) müdafiəçilərinin» təliminə tərəfdar olduqlarını deyir, öz doktrinalarını bu təlimin zirvəsi elan edirdilər, mövzusuna görə ənənəvi-hənbəli əsərlərini (Əl-İbənə an usul əd-diyənə) əl-Əş'ərinin adına yazırdılar. Əş-Şəhrastani və Fəxrəddin ər-Razinin yaradıcılığında bu müdafiə taktikası ilə yanaşı kəlamın tezliklə bu və ya başqa elmə birləşməsilə başa çatan peripetik fəlsəfə ilə yaxınlaşması tendensiyası müşahidə olunur (bax: kəlam). Ə.-nin ideyaları əsasən şafiilər arasında yayılmışdır.

**Ədəbiyyat:** İslam, 32-33; bax: əl-Əş'əri haqqında məqalələrə.

**Əttar, Fəridəddin Məhəmməd b. İbrahim ən Nişapuri** (vəf. 1220-ci il) – məşhur fars sufi şairi. (Nişapur yaxınlığında) Kadkan kəndində 1148-1151-ci illər arasında doğulmuşdur. Ə. əczaçılıq və həkimlik təcrübəsi ilə məşğul olan atasının yolu ilə getdi. Onun təhsili haqqında heç bir məlumat yoxdur, lakin şafei hüququ ilə əsaslı dərəcədə tanış idi. Şafei ideyalarına Ə. hələ gənclikdən qoşuldu. Onun necə sufi olması və bundan sonra dükanını dağıtmağa verməsi qəşəng hekayədən başqa bir şey deyil. Tam qocalana qədər Ə. öz dükanında işləyərək bu işi şairlik yaradıcılığı ilə uyğunlaşdırırdı. Dəqiq ənənə (məlumatına) görə Ə. Monqolların İrana birinci hücumu vaxtı Nişapurda həlak olmuşdur.

Ə.-ın əsərləri söhbət edəni əla talantı ilə heyran edən müəllifin böyük, geniş məlumatlı olduğuna şəhadət verir. Ə.-ın aqioqrafik oçerklərinə – «Təzkirət əl-övliya» daxil olan «müqəddəs qocaların» həyatından olan çoxlu hekayə və lətifələrinə onun poemalarında rast gəlinir. Şübhəsiz bu hekayələr qismən onun yanına gələn sufilərlə apardığı söhbətlərin məzmununu əks etdirirlər. Bəzi sujetlər çox populyarlıq əldə etmişlər, onlar bütün müsəlman dönyasına yayılmış və Ə.-ın vəfatından yüz illərlə sonra müxtəlif millətlərin şairləri onlara (onun əsərlərinə) yenidən və təkrarən müraciət etmişlər. Ə.-ın Məntiq ət-tayr, İlahi-namə və Müsibət-namə əsərləri sufi ədəbiyyatı üçün nümunə oldular.

Öz əsərlərində Ə. çoxsaylı alleqoriyaya müraciət edərək, çox təkidlə daimi hərəkət mövzusunu – sufinin ruhunun həyat yolu mərhələsindən özünün yaranma mənbəyi Allaha qayıtmasını və Allahı dərk etmə mövzusunu tədqiq edirdi. Ə. Allahı dərketmənin şəxsi sufi yolu sistemini (suluk) hazırlamışdı, həm də nəzərə almaq lazımdır ki, o, traktat mərhələsində məqam və hal məfhumunu sufilər üçün adi olan sistemindən əl çəkərək, onu «vadi» termini ilə əvəz etdi. Belə «vadilər» yeddidir.

Ə.-ı adətən 66 əsərin müəllifi sayırlar, onlardan, ən yeni tədqiqatların göstərdiyinə görə 12-si (və ya 11-i – Pənd-namənin müəllifliyi haqqında məsələ açıq qalıb) onun tərəfindən yazılıb. Ə.-ın əsərləri üçün şiə konsepsiyası və hallarının yoxluğu xarakterikdir, belə münasibət sünniliyə də aiddir.

**Ədəbiyyat:** İslam, 25; Миклухо – Маклай. О происхождении, 19-27; Ринка. История, 230-233; B.Furuzonfər. Sərh-i əhval və nəql və təhlil-i asar-i Fərid əd-din Əttar-i Nişapuri, 1-2-. Tehran, 1339-1340. 1960-1961; H.Bitter. Das Meer der Seele. Mensch, Welt und Gott in den Geschichten des Fariduddin Attar. Leiden, 1955; W.Lentz. Attar als Allegoriker; Bemerkungen ru Ritters «Meer der Seele». – DI. 1960, 35, 52-96; Schimmel. Dimensions, 306-308; Baldick. Literature, 120-125.

**Əyyub** – Quran surəti, «Allahın mömin qullar»ından biri, Bibliya – İovasına uyğun olan peyğəmbər, Quran onun tarixini dinsizlərə misallar arasında öyüd kimi xatırladır ki, Allah həmişə Ona təvəkkül edən və Ona sadiq olana kömək edir. Ə. fəlakətdədir, onu Şeytan eləyib, o, Allahı çağırır, Allah onun itirdiklərini ona qaytarır və ona (yaralarını yumağa) bulaq əta edir: «Ayağınla vur, budur sərin su, içmək və yuyunmağa». Quran Ə.-un dözümlülüyünü xüsusi olaraq qeyd edir (21:83-84; 38:41/40-44/43; 4:163/161; 6:84).

Quranın bu yerlərini aydınlaşdıran rəvayət İova – Ə.-un tarixini ətraflı izah edir, onun əsas dəlilləri aşağıdakılardır: Ə. varlı və mömin adam idi, hətta Hauranda peyğəmbər idi. Allah onu Şeytanın hökmranlığına verərək sınağa çəkdi. Ona göndərilən xəstəliklərdən Ə.-un bədənini çirkli yaralar basdı və o, arvadı ilə birlikdə insanlardan uzaq bir yerdə məskunlaşmağa məcbur oldu. Şeytan tərəfindən göndərilən yeni-yeni bədbəxtliklərə baxmayaraq, Ə. Allahın köməyinə inanmaqdan əl çəkmədi. Onun yalvarışından sonra Cəbrayıl (ə) ona torpağa təpik vurmağı əmr etdi, orada bulaq qaynadı, su onun yaralarını yaxşı etdi və susuzluğunu yatırdı. Quran əmri: «Öz əlinə (çubuq) dəstəsini götür, onunla vur və günah etmə» (38:44/43) – bir dəfə Allahın onun ərinə kömək edəcəyinə şübhə edən Ə.(ə)-ın öz avradına cəza vermək vədini yerinə yetirmək əmri belə şərh edilir. (Ə. (ə) arvadına çoxlu sayda çubuq vurmağı Allaha vəd etmişdi, ancaq ona yazığı gəlirdi. Allah Təala çubuqları dəstələyib, onu bir dəfə yavaşdan arvadına vurmağı icazə verdi).

Ə. (ə)-ın adı ilə indi Suriya, Fələstin, Misir, Orta Asiyada bir çox toponimləri (bulaqları, quyuları, daşları) bağlayırlar. Müsəlmanlar dualarında Ə.(ə) xəstəliklərdən qurtardığı kimi onları da xəstəliklərdən qurtarmağı Allahdan diləyirlər.

Quran hekayəsi açıq-aydın məlum sujetdən istifadə edir, belə ki, bir tərəfdən onun detalları Bibliya hekayələrinə və onun aqadi şərhlərinə çox yaxındır, digər tərəfdən isə o, bu hekayələr bitmədən başa düşülmür. Gətirilən «sitatlara» görə demək olar ki, Quran məlum süjeti təkcə istifadə etmir, həm də dinləyicilərə məlum olan görünür, Ərəbistanda mövcud olan hekayəni xatırladır. Sonralar Bibliya mətnləri və Bibliya şərhləri İova - Ə.(ə)-ın tarixini izah edən müsəlman rəvayətləri tərəfindən geniş surətdə istifadə olunmuşdur.

**Ədəbiyyat:** İslam, 16-17; əl-Təbəri. Təfsir, 17, 42-58; əs-Sə'ləbi. Qısas, 86-92; əl-Kisəi. Qısas, 179-190, əl-Beydavı. Təfsir, 2, 188-189; Horovitz. Untersuchungen, 100: Speyer. Erzählungen, 410-413: Sidersky. Les origines, 69-72: Paret. Commentar, 422 Beltz. Sehnsucht, 131-132: Gauderfroy-Demombynes. Mahomet, 382: M.Seligsohn. Aiyub. – EI, 1, 232-233: A.Jefferi. Ayyub. – EI, NE, 1, 819.

**<u>Əzabü-l-qəbr</u>** (sinonimi əzab əl-bəzrəx «qəbr cəzası») qəbirdə sınaq, cəza, insanlar üzərində dərhal öləndən sonrakı kiçik məhkəmə. Bu anlayışa görə qəbir Cənnətin giriş qapısı – çəmənlik və ya Cəhənnəmin çuxurudur, orada ilkin məhkəmə keçirilir və ilk əvəz (mükafat və ya cəza) təyin edilir. İki mələk Münkər və Nəkir insanı sorğu-sual edirlər ki, onun islamla olan əlaqəsini təyin edirlər. Möminləri qiyamət gününə qədər rahat buraxırlar. Günahkarlara təzyiqlə (dağt) əzab verirlər, imansızları mələklər Allah istəyənədək, bəzən Qiyamətədək durmadan döyürlər.

Quranda kiçik məhkəmə və qəbirdə cəza fikri demək olar ki, qeyd olunmayıb, lakin bir neçə ayə ona işarə edir, məsələn, iki cəza haqqında olan ayələr: «Biz onlara iki dəfə cəza verəcəyik, sonra onlar çox böyük cəzaya qaytarılacaqlar» (9:101/102), və ya «Və biz onlara ən böyük cəza ilə yanaşı ən yaxınlarına cəza verməyi dadızdıracağıq» (32:21; bax: həm də 40:11, 52:47) və ya «Əgər sən görsəydin imanı olmayanların həyatı necə qurtarır, mələklər onların üzünə və bellərinə vururlar: «Yanğının cəzasını dadın» (8:50/52; bax: həm də 6:93; 47:27/29).

Hədisələr və əqidələrdə (məzhəblərin təlimatlarında) VIII əsrin ortalarından X əsrin ortalarına qədər qəbirdə cəza gerçəkliyinin tədricən adlar alan mələklərin göstərişi ilə necə təsvirə çevrildiyini izləmək olur. Ə.-l-q. haqqında gerçəklik məsələsi ənənəçilər və mötəzililər arasında mübahisə mövzusu olmuşdur, onlar bu fikri müsəlman esxatologiyasına zidd hesab edirdilər. Sünni ehkam əsərlərinin mətnləri VIII-IX əsrlərdə bu məsələ barəsində mübahisənin izlərini özündə saxlayıb.

Ə.-l-q. haqqında görüş bərzəx («maneə», müq.et. Q., 23:100/102) adlanan, ölüm və məhkəmə arasındakı azadlıq halının mövcudluğu Qurandansonrakı dövrdə yaranmış fikrin bir hissəsidir.

Bu halda ölənlərin bədənləri hiss etmə qabiliyyətini saxlayaraq qəbirlərdə qalırlar, onların ruhları isə (ərvah) ya göylərdə (möminlərin ruhu), ya da Hədramautda Bərəhut quyusunda (inanmayanlar, imansızlar ) olur.

Qəbirdə cəza haqqında əhkamın cəmlənməsi islamın geniş ərazilərdə və VIII əsrdən IX əsrədək geniş kütlə arasında yayılması dövründəki inkişafına misaldır. O vaxt Qurani təsəvvürlər müxtəlif ölkələrin xalq inamlarının elementləri ilə kamilləşirdi. Ə.-l-q.-in qəbirdə hissiyyatın qalması mümkünlüyü müsəlman fikrində həm qədim ərəb, həm də başqa yaxın şərq dini sistemlərinin ölümdən dərhal sonrakı təsəvvürlərinə (məsələn, yəhudi, hibbut ha-keber xristian məşhər surəti) oxşardır. Mötəzililərin «xalq ilahiyyatının» islama daxil edilməsinə qarşı mübarizələri onların məğlubiyyəti və qəbirdə cəzanın həqiqiliyi, Münkər və Nəkir mələklərin mövcudluğunun həqiqiliyinin sünni əqidəsinə daxil edilməsi ilə nəticələndi.

**Ədəbiyyat:** İslam, 14; İbn Qəyyum. əl-Cövziyyə. Kitab ər-ruh. Heydərabad, 1324 h., 62-114; əl-Müfid. Şərh, 44-47; ət-Təftəzani, Şərh, 591-593; əl-Cürcani. Şərh, 591-593; Eklund. Resurrection; A.J.Wensinck (A.S.Tritton). Adhab al-kabr. – EI, NE, 1, 192-193.

**Əl-Əzariqə** – əzraqilər, xarici cəmiyyətinin ən qatı və barışmazlarından olan Nəfi′ b. əl-Əzraqın (685-ci ildə əl-Əhvazda həlak olub) tərəfdarları. Əl-Ə. cəmiyyətinin yaranması VII əsrin 80-ci illərinə aiddir, onda Nəfi′ b. əl-Ərzaq xaricilərin İraqda həm əməvilər xəlifəsinə, həm də şiələrə qarşı güclü üsyanına başçılıq edirdi. Üsyançılara Oman və Yəmənin xariciləri də qoşuldular. Nəfi′ b. əl-Əzraq möminlərin əmiri elan olundu. 20 minlik qoşunla o, əl-Əhvazı, Farsı və Kermanı tutdu. Bu üsyanın gedişində xəlifə qoşunları bir neçə dəfə cəsur və fədakar əzraqi döyüşçülərinə məğlub oldular. Qulları azad edib, əzilənləri müdafiə edərək, əl-Ə. kənd əhalisi, xüsusilə də farslar arasında dəstək tapırdılar. Bununla belə əl-Ə. onların fikirləri ilə razılaşmayan müsəlmanlara qarşı fanatik dözməzliyi və qəddarlığı ilə hərəkatın sosial bazasını kiçiltdi. Buna əlavə olaraq əl-Ə.-nin öz düşərgəsində ərəblər və farslar arasında düşmənçilik alovlandı. Nəfi`nin həlakından sonra Katari b. əl-Fuca`ənin başçılıq etdiyi əl-Ə. qoşunu dəstələrə parçalandı, bu da onların hərbi qüdrətini mühüm dərəcədə zəiflətdi. 15 ildən çox davam edən üsyan yatırıldı. Katarinin başçılıq etdiyi əzraqi-ərəblərin son dəstəsi 699-cu ildə Təbəristanda demək olar tamamilə məhv edildi. Lakin əl-Ə.-nin çıxışları VIII –IX əsrlərdə də davam edirdi. İranda əl-Ə.-nin mərkəzi xaricilərin bir neçə dəfə üsyanlarının alışdığı Sistan idi. 14 il ərzində (869-883) Aşağı İraq və Xuzistanda rəhbəri əzraqi Əli b. Məhəmməd olan qara qullar – zincilərin çox böyük üsyanı davam edirdi.

Bütün xaricilər kimi əl-Ə. ən ləyaqətli (əfdal) imaməti tanıyır, «geridə buraxılmış» (məfdul) imaməti qəbul etmirdilər. «Ən ləyaqətli» iddiaçı o adamı sayırdılar ki, o əldə silah camaatı «qeyri-möminlərə» qarşı mübarizəyə çağırsın. Bundan çıxış edərək onlar Əli, Osman və onların tərəfdarlarını dinsiz elan etdilər. Bundan əlavə onlar xaricilərin üsyanlarında bütün iştirak etməyənləri və onların düşərgələrinə keçməyənlərin hamısını dinsiz hesab edirdilər. Onlar «imanın ağılla gizli saxlanması» təqiyyə prinsipini şərtsiz rədd edirdilər. Rəqiblərinin ərazilərini əl-Ə. «dinsiz ərazi» elan etmişdilər, onların sakinləri məhv edilməli idi. Nəfi′ b. əl-Əzraq «dini qətl» prinsipini hökmən yerinə yetirməyi və bunu təkcə öz düşmənləri deyil, həm də «evlərində oturan» xaricilərə də tətbiq etməyi tələb edirdi. Bununla belə əl-Ə. «dinsizləri» öldürmə prinsipini yəhudilər və xristianlara şamil etmirdilər, hesab edirdilər ki, onlar öz peyğəmbərləri Musa və İsanın təliminə xəyanət etməmişlər.

Əl-Ə.-nin təlimi qəti dözülməzliyi və onların hərəkətləri-qəddarlıqları ilə seçilirdi. Onların tərəfinə keçənlərə onlar qulları öldürməyi təklif edirdilər, kim rədd etsəydi özləri onu «ikiüzlü» və «çoxallahlı» adı ilə öldürürdülər. Böyük günah işlədərək onlar «dinsizləri» Cəhənnəmdə ədəbi əziyyət çəkməyə məhkum olunanlar adlandırdılar. Belə bir aqibəti onlar «dinsizlər» və «çoxallahlılar»ın uşaqlarına da aid etmişdilər, bu da əl-Ə.-yə öz düşmənlərinin qadın və uşaqlarını öldürmək icazəsinə mənəvi haqq qazandırırdı. Nəticədə bütün bunlar əl-Ə.-nin hərbi məğlubiyyətini və onların dini doktrinasının qəbuledilməzliyini müəyyən etdi.

**Ədəbiyyat:** İslam, 15; əl-Əş'əri. Məqalat, 86-89; əl-Bağdadi. Əl-Fərq, 82-87; аш-Шахрастани. Книга о религиях, 111-114; Э.Агаева. Секта азракитов. Автореф. Канд. Дис. Баку, 1971; R.Rubinacci. Azarika. – EI, NE, 833-834.

**Əl-Əzhar** (əl-Cəmi əl-Əzhār – «Ən parlaq nur saçan came məscidi»nin qısaldılmış forması). Qahirədə məscid və tədris müəssisəsi, əsas öyrədilən fənlər: fiqh, ərəb dili və ədəbiyyatı, Quran fənləri və hədis öyrətmədir. Əl-Ə. 970-972-ci ildə Fatimilər (909-1171) sülaləsindən olan İsmaililərin yeni paytaxtına çevrilən şəhərlə bir yerdə sərkərdə Cövhərin əmri ilə mədrəsə kimi tikilib. Fatimi xəlifələrinin bəxşişləri sayəsində əl-Ə. məscidi çiçəklənir. Orada dərslər də keçirilirdi. 1171-ci ildə Qahirənin Səlahəddin tərəfindən alınmasından sonra əl-Ə. əvvəlki əhəmiyyətini itirir və adi məscidə çevrilir, orada ancaq sünni ruhunda dərslər keçirilir,. Məmlük sultanı əz-Zahir Bibərs vaxtı (1260-1277) əl-Ə. bir çox vəqf ianəsi aldı və bunun hesabına onun köhnəlmiş binasını təmir etdilər, müəllim və şagirdlərin maddi vəziyyətini yaxşılaşdırdılar; 1266-cı ildən orada yenidən xütbə oxunmasına başlandı. XIV-XV əsrlərdə əl-Ə. yaxınlığında bir neçə mədrəsə tikildi, sonra onlar əl-Ə.-a qatıldı. Misir (1517-ci ildən) Osmanlı dövlətinin tərkibinə daxil olduqda Misir vəqfləri kasıblaşdı və onlardan asılı olan təhsil sistemi tənəzzül etdi, bir çox mədrəsə öz mövcudluğunu dayandırdı. Bu şəraitdə əl-Ə. məscid və mədrəsədən ibarət böyük bir kompleks kimi Yaxın Şərqdə hüquqi-ilahiyyat fənləri və ərəb filologiyasının mühüm dayağı qalırdı; orada təkcə qahirəlilər deyil – Misirin hər yerindən, başqa ölkələrdən, xüsusilə də Afrika ölkələrindən təhsil alırdılar, yuxarıda adı çəkilən fənləri öyrənmək istəyənlər buraya axışıb gəlirdilər. XVIII əsrdə əl-Ə. daha çox yüksəldi və faktiki olaraq ümummüsəlman təqlidi təhsil və elm mərkəzi oldu.

Əl-Ə. əsrlərlə şəhərlilərin çətin günlərdə yığışdığı müqəddəs sığınacaq, həm də təqib olunanlar və səyahətçilərin daldalanacağı rolunu oynamışdır. Müəllim və tələbələrin bir hissəsi, xüsusilə başqa şəhər və ölkələrdən olanlar orada yaşayırdılar; ziyarətçilər uzun müddət orada Ərəbistana gedən

sonra da evə dönən karvanın yola düşməsini gözləyirdilər; sufilər orada öz zikrlərini yerinə yetirirdilər. Bir sıra görkəmli şəxsiyyətlərin həyat və yaradıcılıqlarının müəyyən hissəsi əl-Ə.-la bağlıdır: fizik İbn əl-Heysəm (vəf. təxm.1039-cu il), həkim Əbdüllətif əl-Bağdadi (vəf. 1231-ci il), sufi şair Ömər b. əl-Fərid (vəf. 1234-cü il), fəqih və tarixçi İbn Xəldun (vəf. 1406-cı il), İslamda islahatçı hərəkatın lideri Məhəmməd Abdo (Abduh) (vəf. 1905-ci il) və başqaları, Qahirənin minillik tarixi boyu bir çox görkəmli hadisələr əl-Ə.-ın divarları arxasında və onun önündəki meydanda baş verirdi. Əl-Ə. universitet statusunu aldı. 1961-ci ildə Misir prezidentinin fərmanı ilə «Əl-Ə.-ın inkişafı haqqında Qanuna» görə orada dünyəvi fakültələr də yaradıldı. Bundan sonra əl-Ə.-da doqquz fakültə oldu: dinlərin əsası, şəriət, ədəbiyyat, inzibati işlər və ticarət, politexnik, k/t, tibb, pedaqoji və qadın fakültələri. Əl-Ə. bununla əvvəlki muxtariyyətini itirib, Maarif Nazirliyi tərəfindən idarə edilməyə başlayır.

Əl-Ə.-ın zəngin əlyazması (20 min cilddən çox) və çap olunmuş əsərlərdən ibarət toplusu (kolleksiyası) vardır. Onun nəzdində İslam araşdırmaları Akademiyası və bir sıra dini institutlar və müəssisələr fəaliyyət göstərir; o, öz jurnallarını, proqramlarını və s. buraxır. İndinin özündə də əl-Ə. islamın yayıldığı bütün ölkələr üçün ilahiyyatçılar və dini xidmətçilər hazırlayan ən böyük mərkəz olaraq qalır.

**Ədəbiyyat:** İslam, 16; Məhəmməd Əbdülmun'im Həfəci. Əl-Əzhar fi əlf am. 1-3, Qahirə, 1374 (1955); А.Е.Крымский. История новой арабской литературы XIX-XX вв. М., 1971; J.Heyworth-Dunne. An introduction to the History of Education in Modern Egypt. L., 1939; J.Jonier. Al-Azhar. – EI, NE, 1, 837-844; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 78.

# F

**Fasiq** (sinonimi cə`ir) - nadürüst, ləyaqətsiz, (fərzin) əsas vacibiyyətinə saymamazlıq edən insan, o, öz müsəlman əxlaqı mövqeyindən özünü rüsvay etmiş, lakin İslamdan dönməmiş adam sayılır. İslama görə F. təkcə öz əmlakı haqqında əmr verərkən hüququndan istifadə edə bilər. O, nikaha daxil ola bilər, müqavilələr bağlaya bilər, lakin onun tərəfdaşı sənədlərin şahidlə təsdiqlənmiş surətini tələb edə bilər. O, heç bir inzibati və ya seçki vəzifəsinə seçilə bilməz, lakin o, qəyyum, hami və s. ola bilər. İnsan tövbə edib, kəffarə verərsə, təmizlik (təharə) edərsə və özünü ləyaqətli müsəlman kimi göstərsə, o, F. sayılmaya bilər.

**Ədəbiyyat:** İslam, 252; L.Gardet. Fasik.-EI, NE, 2, 833-834.

**Fatihə** («Kitabı») «Açan», Quranın birinci surəsinin adı, namazın ilk iki rükəti (rəkət) onunla başlayır. F. surəsinin başqa adı da var, məs:-Ummu -l-Kitab (Q. 3:7/5) – «Kitabın anası», Səb′u-l-məsəni (15:87) «Yeddi təkrar olunanlar», Əl-həmid – «Şükür, Alqış». F. nikah kəsilən vaxt, dəfn vaxtı və başqa mərasimlərdə oxunur. Ondan dini tikililərin bəzəyi (kalliqrafik yazı) kimi də istifadə edirlər. F., onun ayrı-ayrı ayələri və ya hərfləri gözmuncuğu üzərində yazılır.

F.-nin sonunda adətən «amin» sözünü (amin, düzdür) əlavə edirlər. Rəvayətə görə F. erkən və Allahın ən çox sevdiyi surələrdən biridir və iki dəfə nazil olunub - Məkkə və Mədinədə. Tədqiqatçılar onun nazil olmasını Məkkə dövrünün ortalarına aid edirlər və hesab edirlər ki, o, Quranda öz yerini Quranın əsas hissəsi tərtib oldunduqdan sonra tutub. Din alimlərinin dediklərinə görə Allah Təalanınn bu surədən çox xoşu gəldiyi üçün Quranı tərtib edənlər onu birinci surədə qoyublar. Çünki burada Allahın geniş tərifi verilir. Əl-həmdu l-llahi Rabbi-l-aləmin –Aləmlərin Rəbbi-yaradıcısı, başçısı Allaha şükr-həmd, tərif olsun. Ər-Rəhmani-r-Rahim –(Bu Dünyada hamıya) rəhimli (Axirətdə isə ancaq möminlərə) mərhəmətli olan Allaha (şükr olsun). Məliki Yomi-d-din-Haqq-hesab (Qiyamət) gününün sahibinə (şükr olsun). İyyəkə mə′budu va iyyəkə nəstə′in-Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik. İhdinə-s-Sıratə-l-müstəqim-Bizi doğru yola yönəlt. Siratə-l-ləzinə ən′amtə ′aleyhim qeyri-l-məğzubi ālyhim va lə-z-zalin- Qəzəbə dücar olanların və (haqdan) azanların deyil, nemət verdiyin kəslərin (peyğəmbərlər, imamalar, övliyalar, şühədalar) yoluna (yönəlt).

**Ədəbiyyat**: İslam, 254; ət-Təbəri. Təfsir, 1, 45-58; Крачковский. Коран, 503-504; Лэйн. Нравы, 225-226; Paret. Kommentar, 11-12;

A.Jeffery. A varinat Text of the Fatiha.-MW, 1939; 29/2; H.A.Winkler. Fatiha und Vaterunser. - ZS. 1928, 6; R.Paret. Fatiha.-EI , NE, 2, 841.

**Fatimə** (vəf. 633) - Məhəmməd (s) və Xədicənin qızı, Əli b. Əbi Talibin arvadı, əl-Həsən və əl-Hüseynin anası, müsəlman aləmində ən çox hörmət edilən qadın surətlərindən biri. Bütün qardaş və bacılarından (onlar hamısı uşaqkən ölmüşlər) çox yaşayan (o, on səkkiz il yaşamışdır), üç oğul (biri uşaq ikən ölüb) və iki qız doğan F. sayəsində Peyğəmbər (s) nəsli (Al ən-nəbi) kəsilmədi (bax: əhl əl-beyt, şərif, seyyid). F., əri və uşaqları (əhl əl-kisə, əhlu-l-əba üzvləri) - Peyğəmbərin (s) ən yaxın doğmalarıdır. Rəvayətə görə Peyğəmbər (s) onlara öz əbasının altında «sığınacaq vermişdi» (beş ali əba).

Quranda F. birbaşa xatırlanmır, lakin şiə müəllifləri öz ekzeqetik təfsirlərinə əsaslanaraq (bax: təfsir əl-Quran, tə'vil) onun haqqında bir neçə ayədə qeyd olduğunu deyirlər (3:195/193; 55:19; 92:3 və s.).

Atasının vəfatından yarım il sonra F. (ə) Məhəmmədin (s) varisliyi üçün əri Əliyə (ə) Əbu Bəkrə qarşı mübarizədə kömək edir. O, Fədək vadisindən gələn gəlir üçün də Əbu Bəkrlə mübarizəyə qalxır (Onu Peyğəmbər (s) F.-yə hədiyyə etmişdi).

F. surəti çoxlu rəvayətlərlə əhatə olunmuşdu. Onun doğulması, Əli (ə) ilə nikahının göydə kəsilməsi (Allahın vali, Cəbrailin xətib, mələklərin şahid, mehrinin Yerin yarısı, Cənnət və Cəhənnəmin olması), göydən çoxlu hədiyyə alması, həyatda və vəfatından sonra möcüzələr göstərməsi haqqında şiələr və ismaililər çoxsaylı rəvayətlər söyləyirlər. Onların rəyinə görə Qiyamət günü Cənnətə birinci daxil olan F. olacaq.

F. ayini mənşələrini F.-yə aparıb çıxaran Fatimilər dövləti vaxtı-X-XII əsrlərdə güclənib və inkişaf edib. Səlib yürüşləri vaxtı xristian dünyası ilə əlaqələr və rəqabətin inkişafı F. ayininin zənginləşməsinə gətirib çıxardı. F.-yə verilən epitetlər içərisində əl-Bətul (Bakirə), Məryəmu-l-Kübranı da göstərmək olar (F.-ni bu və o Dünyanın bütün qadınlarının ağası (seyyidəsi) və sahibəsi adlandırırlar). Onun Umm Əbihə («atasının anası»), əz-Zəhra («Parlaq») epitetləri də vardır ki, sonuncu tez-tez işlənir. F. şiə təziyəsinin əsas surətlərindən biridir.

Bir çox müsəlman ölkələrində əlin (beşbarmaq) təsviri «Fatimənin əli» adını almışdır. Onun adı ilə müalicəvi xüsusiyyətlər də bağlıdır.

F. ayini bir neçə müsəlman bayramlarında də əks olunur. Onlardan biri 21, ya 24 və ya 25 zil-hiccədir. F.-nin ad günü də (ramazan ayının 20-si) bayram kimi qeyd edilir, onun vəfatı cumadi-c-caninin 3-ündədir. İmami şiələrdə F.-yə həsr olunmuş xüsusi dualar da vardır.

**Ədəbiyyat:** İslam, 253; İbn Hişam. Sirə, göst: Wensink. Handbook, lndex: H.Lammens. Fatima et les filles de Mahomet: Notes critiques pour I'edute de la sira. Rome, 1912; L.Massignon. Der gnostische Kultus der

Fatima im schütisehen İslam. - Eranos Jahrbücher Zürich, 1938, 167 və sonra yenə o. La Muhabala de Medine of l'hyperdulie de Fatima P. 1955; yenə o. La notion du voen et la devotion musulmane a Fatima. - Studi orientalistici in onore di Giorgio Levi Della Vida.Rome, 1956, 102-126; Donaldson. The Wild Rue, 39,55, 69, 109, 119; R.Strothmann. Die Muhabala in Tradition and Liturgie.-Dl. 1957, 33/1-2, 5-29; L.Veccia Vaglieri. - EI, NE, 2, 841-850.

**Fatimilər-əl-Fatimiyyun** - şiə (ismaili) xəlifələrinin sülaləsi, onlar öz mənşələrini İsmail b. Cəfər xətti ilə Məhəmmədin (s) qızı Fatiməyə aparıb çıxardırlar, lakin gizli imamlar vaxtı ismaililərin həqiqi şəcərəsi aydın deyil, hətta ismaili mənbələri ondakı ixtilafları qeyd edirlər, sünni mənbələri isə əl-F.-un Ələvi mənşəyini rədd edirdirlər. X əsrdə əl-F. müsəlman aləmi şərqində nüfuz uğrunda fəal mübarizəyə başlayanda bəzi ismaili qruplarında ismaili təbliğinin təşkilatçısı əl-Qəddahın əl-F.-la qohum olduğu versiyası meydana gəldi.

900-cü ildə ismaili imamı Übeydulla Suriyada üsyan qaldırdı, lakin məğlub olub Misir yolu ilə Tunisə qaçdı, orada bərbərlər arasında müvəffəqiyyətlə ismaili təbliğatı gedirdi. 909-cu ildə onların köməyi ilə əqləbi əmiri devrildi və 910-cu ilin yanvarında Ubeydulla təntənə ilə Tunisin paytaxtına daxil olub, özünü Mehdi və xəlifə elan etdi. Bütün hakimiyyəti boyu (909-934) Şimali Afrikada hakimiyyətini genişləndirmək üçün mübarizə apardı və iki dəfə (913-915) və (919-921) Misiri tutmağa cəhd etdi. Əl-F. dövlətinin ərazi cəhətdən çox genişləndiyi dövr əl-Muizz vaxtı (953-975) oldu, onda onlar Mərakeşi, 969-da Misiri, sonra Fələstin və Suriyanın bir hissəsini tutdular. 971-ci ildə əl-Müizz Misirin təzə paytaxtı əl-Qahirəyə köçdü. Bu vaxtdan Fatimilərin əsas diqqəti Yaxın Şərqə verilir və Məğrib tədricən hakimiyyətin təsirindən çıxır. Məkkə və Mədinəni özlərinə tabe edib, əl-F. Bağdadı tutmağı özlərinə məqsəd qoyub, Abbasiləri devirmək və öz hökmranlıqları altında Vahid Xilafəti bərpa etmək istəyirdilər. Bu məqsədə nail olmaq üçün onların xidmətində təbliğatçılar (də'i) şəbəkəsi var idi, onlara Qahirədən xüsusi mərkəzdən baş də'i rəhbərlik edirdi.

F.-in ən böyük nailiyyəti XI əsrin ortalarında Yəməndə ismaili sülaləsindən olan Süleyhilərin (1038) hakimiyyətə gəlməsi və onların (F.-un) hakimiyyətini qəbul etdikləri vaxt oldu. Lakin sonralar onların nüfuzları zəifləməyə başladı. Bu, bir tərəfdən Səlcuqların güclənməsi, digər tərəfdən isə gizli ismaili təliminin həyata keçirilməməsi idi. Ona görə də fatimi nəzəriyyəçiləri imansızlar üzərində tam qələbəni sonraya, Sahib əz-zamanın gələcəyi vaxta saxladılar.

Fatimilərin əksəriyyətinin dini siyasəti mülayim idi, ancaq əl-Hakim dövrü (996-1021) istisna təşkil edir. Onun dövründə (1005) fatimi fiqhinin işlənməsi və təbliği Mərkəzi (Dər əl-hikmə) təşkil olundu və ilk xəlifələrə lənətlər göndərilirdi, başqa din tərəfdarları təqib edilirdi. Xəlifənin əsəb xəstəliyi «qatı» ismaililərin və druzların təliminin yaradıcısı əd-Dərazinin ideyalarının həyata keçməsi üçün münbit zəmin idi. 1020-ci ildə əl-Hakim özünü son ilahi mücəssəməsi olduğunu elan etdi. Növbəti il əl-Hakim itdi (güman ki, öldürülüb gizlədildi). Onun varisləri onun qeyb olduğunu elan edib, daha mülayim dini siyasət yürütməyə başladılar.

F. dövləti iqtisadi və mədəni inkişafla fərqlənir, o, Aralıq dənizi və Hind okeanı ticarətinə nəzarət edirdi. Lakin kənd təsərrüfatı əhalisinin sıxışdırılması, Bizansla müharibə və səlib yürüşləri iqtisadiyyatı zəiflətdi. Nəhayət, düşmənçilik edən saray qruplarından biri tərəfindən dəvət edilən kürd əmiri Salahəddin Qahirədə hər şeyi ələ alıb, 1171-ci ildə Abbasi xəlifəsinin adına xütbə oxutdurdu. İsmaili dövlətinin sünni dövlətinə çevrilməsi tamamilə ağrısız və sakit həyata keçdi.

**Ədəbiyyat:** İslam, 253-254; Əl-Qadi ən-Nu’man. Kitab iftitah əd-də'va. Təhqiq: Fərhad əd-Dəşravi. Tunis, 1975; İtti'az əl-hunəfa bi əxbar əl-əimmə əl-Fatimiyyin əl-xuləfa li Təqi əd-din Əhməd Əli əl-Makrizi. Haqqaqahu C.əş-Şəyyal. Qahirə, 1367/1948; Босворт. Династии, 78-81; А.А.Семенова. Из истории фатимидского Египта: Очерки и материалы. М., 1974; Həsən İbrahim. Tarix əd-dövlə əl-fatimiyyə. Qahirə, 1958; Les commencements du califat Fatimide an Maghreb. Edition critique et analyse du Kitab əl-iftitah ad-da'wa du cadi al-Nu'man 346 H./ 957; J.C.par Farhat Dachraoui. Tunis, 1975; O.Leary. A short history of he Fatimid Khalifate. L.1923; W.Madeling. Das imamat in der frühen ismailitischen Lehre. - DI, 1961, 37; W.İvanow. The rise of the Fatimids. L.1942; M.Canard. Fatimides.-NE, 2, 850-862.

**Fay** («qaytarma») - müsəlmanların qeyri-müsəlmanlardan sülh yolu ilə aldıqları verginin bütün növləri və yiyəsiz əmlak. İstilah aşağıdakı Quran ayəsinə gedib çıxır: «Mə əfə`ə Allahu alə rasulihi minhum» (Allahın onlardan öz rəsulu üçün qaytardıqları, 59:6) və bu da belə izah edilir: döyüşsüz əldə olunan qənimət (layiqsiz yiyələrindən qaytarılaraq) Məhəmmədə (s) bağışlanır və o, istədiyi kimi onunla rəftar edə bilər.

Fütuhatlar vaxtı döyüşsüz qazanılan qənimətə F. deyilirdi (məs: Sasani çarları və əyanlarının əmlakı kimi). F.-dan başqa qənimətlər kimi xums götürülüb, qalanı döyüşçülər arasında bölüşdürülürdü. Maaş verilməsi və müntəzəm vergi yığılması ilə əlaqədar olaraq vəziyyət dəyişdi. VIII əsrin sonunda F. adı altında qeyri-müsəlmanlardan alınan vergiləri başa düşürdülər (Əbu Yusuf yazır: fay, bizcə xəracdır). Buna onlar əsasən xərac

və cizyəyə can vergisi və müsəlmanların qəniməti olan torpaqlardan istifadə etdiyi üçün (zəkat və xumsdan fərqli olaraq) verdikləri vergi kimi baxırdılar. Bu nəzəri-hal F.-ın xüsusi bir qənimət forması olduğunu ləğv etmirdi. Buna görə də bəziləri (əl-Məvardi, əl-Qəzali) onlardan xums çıxarılmalı olduğunu qeyd edirdilər (əslində xərac və cizyədən xums ola bilməzdi).

**Ədəbiyyat:** İslam, 248; Yəhya b. Adəm. Əl-Xərac, 2-10; Əbu Übeyd. Əl-Əmval, 16-21; əl-Məvardi. Əl-Əhkam, 217-245; əl-Qəzali, Əl-Vaciz, 1, 288-290.

**Fayd** - axıb tökülmə, şüalanma, təcəlli, müsəlman ilahiyyatı fəlsəfəsində kainatın ilahi mənbədən yarandığını (südr) ifadə etmək üçün istilah. Plotin, Prokl, Porfirinin əsərlərinin ərəbcə tərcümələrində izah olunduğu kimi F. haqqında təlim yeniplaton şüaları doktrinasına gedib çıxır. X əsrdə bu doktrinalar xüsususilə əl-Fərabinin, İbn Masarrın və «İxvan əs-səfanın» fəlsəfəsində öz əksini tapmışdır. Sonuncular məsələn, deyirdilər ki, İlahi mütləq kainatı üçpilləli təcəlli yolu ilə yaratmışdır: İlkin şüur (əl-aql əl-əvvəl), Ümimi ruh (ən-nəfs əl-kulliyə), Maddi aləm - Materiya (əl-Həyulə). F. haqqında təlim öz klassik formasını İbn Sinada tapdı. İbn Sinaya görə İlkin ağıl üçlüyü (təslis) şüur, ruh və bədəni (cism, cirm) yaradır.

Təcəlli əməliyyatını təsvir edərkən müsəlman müəllifləri tez-tez Quran surələrindən istifadə edirdilər. Belə ki, İlk şüur kəlamla ( Q.68:1), Ümumi ruh isə Əl-Lövhü-l-məhfuzla (Q.85:22) və ya Umm əl-Kitabla (Q.3:7/5) eyniləşdirilir.

Müsəlman sufiləri (ət-Tüstəri, İbn Ərəbi, Əbdülkərim əl-Cili və s.) Məhəmməd (s) həqiqətini (əl-həqiqə əl-məhəmmədiyyə) həyatverici işıq təcəlləsinin mənbəyi hesab edib, onu təkcə bütün insanlığın deyil, həm də kainatın ən böyük insanı (əl-insanu-l-kəbir) kimi qəbul edirlər.

F.-a xas olan bütün müxtəlifliklər islamda neoplaton təcəlli nəzəriyyəsi kimi dəyişməz qalır. İbn Ərəbi məktəbindən olan sonrakı sufi mütəfəkkirləri əsasən ilahiliyin dünyaya təcəllisi deyil, onun əks edilməsinə işarə edirdilər. F. haqqında təlimə aid maraqlı fikirləri Şeyxü-l-İşraq əs-Söhrəverdi və onun ardıcılları söyləmişlər (bax: əl-işraq).

**Ədəbiyyat:** İslam, 248-249; əl-Qəzali. Təhəfut, 114-116; İbn Ərəbi. Əl-Futuhat, 1, b.6, 2, 310-311; əl-Cili. Əl-İnsan; əl-Cürcani, Ət-Tə'rifat, 113-114; 176; əs-Söhrəverdi. Məcmuə, göstr.; Сагадеев. Ибн Сина; Amoli. La philosphie, 237, 680, 683-684, 692; Nicholson. Studies, 97, 153, İndex; Wensick. On the relation; Y.Marquet. La philosophie des İkhwan as-Safa. Alger, 1975, Index; R.W.Austin. İntroduction. - Ibn Arabi. Bezels, 16-58; L.Cardet. 'Alam. -E I, NE, 1, 360-362; R.Arnaldes İbn Sina –EI NE , 3, 968.

**Fədai-fidai** («özünü qurban verməyə hazır olan»), icmanın rəhbərliyinin tapşırıqlarını yerinə yetirmək üçün öz canını qurban verməyə hazır olan ismaililərin ləqəbi. XX əsrdə müsəlman ölkələrində silahlı azadlıq mübarizəsinin iştirakçıları özlərini adlandırmaq üçün işlətdikləri istilah. Bəzən «partizan» kimi tərcümə olunur. Təbrizin silahlı müdafiəçiləri 1905-1911-ci illər İran inqilabı dövründə özlərini F. adlandırırdılar. Süveyş kanalı ərazisində ingilislərə qarşı silahlı mübarizənin iştirakçıları, İranda şah rejiminə qarşı mübarizə aparan təşkilatlardan birinin üzvləri, Fələstin silahlı müqavimət dəstələrinin üzvləri də özlərini F. adlandırdılar. Hazırda əsasən Fələstin partizanlarını bildirmək üçün işlədilir.

**Ədəbiyyat:** İslam, 254.

**Fədək** - Şimali Hicazda, Xeybər yaxınlığında, Mədinədən (o dövr üçün) 2-3 günlük yolu olan kənd təsərrüfatı vahəsi. Hazırda mövcud deyil. F.-in əhalisi yəhudilərdən ibarət olub, taxılçılıq və xurma yetişdirməklə məşğul idilər. Erkən İslam dövründə F. müsəlmanlara tabeçilik müqaviləsi bağlamaları ilə və Məhəmmədin (s) F.-dən gəlir alması ilə yadda qalıb.

627-ci ildə Məhəmməd (s) F.-in Xeybərə kömək etdiyini eşidib Əlini (ə) ora göndərdi. O biri il müsəlmanlar Xeybəri tutandan sonra Fədəkin yəhudiləri Məhəmmədin (s) nümayəndələri ilə danışığa girdilər. Müqaviləyə görə Fədəkin torpaqlarının yarısından gələn gəlir Məhəmməd (s) tərəfindən fəqirlərə təyin edildi. Qeyd edilirdi ki, Məhəmməd (s) istədiyi vaxt bu gəliri özü və ailəsinə sərf edə bilər. Peyğəmbərdən (s) sonra Fatimə (ə) varis kimi gəlirə sahib çıxmaq istəsə də, Əbu Bəkr buna mane oldu. Şiə dairəsində F.-in irsi mülkiyyət olduğu iddia edilir, hakimiyyət isə onu rədd edirdi.

**Ədəbiyyat:** İslam, 248; Bartold. Əsər. 6, 99, 525; J.Schleifer. Fadak-EI, 2, 36; L.Veccia. Vaglieri. Fadak. -EI NE, 2, 725-727.

**Əl-Fəlsəfə** - orta əsr müsəlman ədəbiyyatında antik fəlsəfə modelinə meyilli və fələsifə adlanan (təki fəlyusuf), habelə antik fəlsəfəsinin özünü bildirən müdriklərin fəlsəfəsini ifadə edirdi. «Rəvayətlərə» (ulum nəqliyyə) əsaslanan dini elmlərin əksinə olaraq əl-F.-yə daxil olan elmlər şüura əsaslanan (ulum aqliyyə) rasional elmlər adlanırdı. Tədqiqat mövzusu nöqteyi- nəzərindən əl-F. kəlamla birləşirdi. Kəlam Quranın ət-tə`vil yolu ilə azad filosof biliyinə doğru gedirdi. Əl-F. isə əks yolla gedirdi: o, dürüst sayılan nəzəri fikirlərdən çıxış edərək, alınmış nəticələri kitabla formal uyğunluğa gətirirdi ki, bu da rəmzi-alleqorik şərhə məruz qalırdı. 832-ci ildə xəlifə əl-Mə`mun tərəfindən Bağdadda «Müdriklik evinin» açılması müsəlman aləmində antik fəlsəfəsi Əflatun, Arisotel, neoplaton, neopifaqorçuların fikirlərinin (əsərlərinin) tərcümə yolu ilə genişlənməsinə

səbəb oldu. Müsəlman dünyasının Şərqdə əl- F.-in çox böyük nümayəndələri Əbu Yusuf Yaqub b. İshaq əl-Kindi (860-879), Əbubəkr Məhəmməd b. Zəkəriyyə ər-Razi (860-925 və ya 934), Əbu Nasr Məhəmməd b. Tərxan əl-Fərabi (870-950), Əbu Əli əl-Hüseyn b. Abdulla İbn Sina (980-1037), Qərbdə isə (Əndəlüs və Şimali Afrikada) - Əbubəkr Məhəmməd İbn Bəccə ( XI əsrin sonu-1139), Əbubəkr Məhəmməd b. Əbdülməlik İbn Tüfeyl (XII əsrin əvvəli-1185-86) və Əbu Valid Məhəmməd b. Əhməd İbn Rüşd (1126-1198) idilər.

Əl-F.-nin inkişafının erkən mərhələsində fəlsəfə təbiət elmlərinə maraq göstərəndə onların dinə münasibəti ya formal idi - Peyğəmbər (s) biliyinin filosof biliyindən üstün olduğunu göstərirdilər (əl-Kindi) və ya peyğəmbəriləri açıq tənqid edirdilər (Əbubərk ər-Razi, əl-Kindinin şagirdi Əhməd b. ət-Tayyib əs-Səraxsi). Əl-Fərabidən başlayaraq dinə mühüm «siyasi incəsənət» kimi baxılmağa başladı. Əl-Fərabiyə görə din əl-F.-nin ögey qızı, İbn Rüşdə görə isə onun süd bacısıdır.

Əl-F. əsasən məntiq, fizika, metafizika və Aristotelin məntiqinə əsaslanan peripatetik filosoflar, siyasətdə isə («ideal dövlət», «xeyirxah şəhər» əl-mədinə əl-fadilə haqqında təlimdə) «Dövləti» istifadə edən Əflatuna əsaslanan filosoflar tərəfindən təqdim edilirdi. Əl-Fərabidə Aristotelin metafizikası ideal cəmiyyətin «ideal dininin» (əl-millə əl-fadilə) əsası kimi neolplaton təcəlli konsepsiyası ilə kamilləşir. Əl-Fərabi və İbn Sinadan fərqli olaraq müsəlman aləminin qərbindəki filosoflar Əl-F. ilə din arasında körpü yaratmaq istəmirdilər. Lakin bunlar da, onlar da islamın ehkam və baxışlarını formal da olsa qəbul edirdilər.

Əl-F. ənənəçi ehkamçıların hücumlarına məruz qala-qala inkişaf edirdi. XII–XIII əsrlərdən müsəlman aləminin şərqində bir tərəfdən onun kəlamla, başqa tərəfdən sufilik ilə yaxınlaşması baş verir. İranda əl-F. ənənəsi (xüsusilə də ibn Sinanın ideyaları) İbn Ərəbinin sufiliyi və əs-Söhrəverdinin işraqı ilə tam yeni dövrə qədər əlaqədə saxlanırdı.

Əl-F. irsinə müasir müsəlman müəlliflərinin münasibəti onun islam dünyagörüşünə yad olduğu üçün onu tamam rədd etməkdən (Seyyid Qütb) tutmuş, onun Dünyanın elmi dərk edilməsinin İslam tərəfindən qəbul edildiyi üçün təsdiqinə qədər (Osman Əmin) vargəl (tərəddüd) edir. «İslam solçuları» onların ideoloqlarından birinin - Həsən Hənəfinin sözlərinə görə fəlsəfədə İbn Rüşdə nizamlanırlar.

**Ədəbiyyat:** İslam, 250-251; Григорян. Философия; Ш.М.Хайруллаев. Фараби: Эпоха и учение. Daşk., 1975; Касымханов. Аль-Фараби; А.Сагадеев. Ибн Сина: yenə o. Ибн Рушд; Ə.Bədəvi. Aristu ində-l-'ərəb. Qahirə, 1947; yenə o. Əl-İflatuniyyə əl-muhaddəsə ində-l-'ərəb. Qahirə, 1955; yenə o. İflutin 'ində-l-'ərəb. Qahirə, 1955; H.Muruvvə. Ən-nuz'ət əl-maddiyyə fi-l-fəlsəfə əl-'arabiyyə əl-islamiyyə 1-

2, Beyrut, 1978-1979; M.M.Sharif. History of Muslim Philosophy. Wiesbaden, 1962; R.Walzer. Greek into Arabic. Oxf, 1962; Watt. Philosophy; M.Fakhry. A.History of Islamic Philosophy. N.Y.-L., 1970.

**Fəna** (fəniyə, fənə - «itmək», «kəsilmək» «yox olmaq», «ölmək» felindəndir), sufi istilahı olub, Quran ayəsinə (55:26) gedib çıxır, şəxsi keyfiyyətlər və atributların özünüməhvetmə və «silib atma» və ilahininkilərinə dəyişmə mənası verir. F. demək olar həmişə antonimi olan bəqa – «ilahidə olmaq», «həyatda qalmaq» sözü ilə birgə işlənir. F. və B. haqqında təlimin yaranmasını sufilik ənənəsi sufi Əbu Səid əl-Xərrazın (vəf. 899) adına yazır, baxmayaraq ki, belə «hallar» onun sələflərində də olub. Əl-Xərraz F. və B.-nı sufinin son məqsədi hesab edir və insanın ondan yuxarı qalxmasının mümkün olmadığını qeyd edirdi. Sonralar bu təyinatlar sufi ədəbiyyatında geniş yer tapdılar, lakin sufi əs-Sərrac və əl-Cüneyd onları «azmalar» adlandırırdılar.

Əl-Bistami və xüsusilə də, əl-Həllac F.-nı «keçici varlığın əbədiliyə itməsi» (əl-fəna bi-l- qidəm ani-l-hədəs) kimi şərh edirdilər. Sünni və imami ilahiyyatçılarının əksəriyyəti bu şərhi mühakimə edirdilər ki, o, İlahinin insanda olmasını təbliğ edir.

Ümumiyyətlə, F.-nı xarici mühitdən «üzülmək» (fənə' an), huşu, hissiyyatı, şəxsi keyfiyyətləri itirmək kimi başa düşürdülər. F.-nın ən yüksək mərhələsi F.-nın özünün, hissinin itirilməsi (əl-fəna\` ani-l-fəna\`) qəbul edilirdi.

F. halında olan sufi «Allahazidd» hərəkətlər etmir, o, Allah tərəfindən qorunur (məhfuz), onun iradəsi isə ilahi iradə ilə əvəz olunur. Sufi iyerarxiyasının «hallarında» B. həmişə F.-dan yuxarıda durur.

İbn Ərəbinin və onun məktəbinin təlimlərində F. «Allahı bütünlüklə müşahidə etmək», B. isə sufinin dünyaya «qayıdış»ı (audə) deməkdir. Belə mənada F. və B. sufi istilahları olan cəm (birlik), təfriqə (çoxluq), vasl (birləşmə) və fasla (ayrılıq) yaxındırlar.

Sufi doktrinalarının inkişafı ilə bu məfhumların mənaları çətinləşdi. Belə ki, İbn Ərəbi F.-nın yeddi dərəcəsini qeyd edir: 1) Allaha yad olan əməllərdən «ayrılma» (fəna an); 2) insani əməllərin keçici müstəqilliyindən «ayrılma» və onların ilahi mənşəli olduğunu dərk etmək; 3) məxluqa aid olan atributlardan «ayrılma» və dünyanı Allahın gözü ilə müşahidə etmək; 4) öz xüsusi mövcudluğundan «ayrılma» və ilahi qüdrətinin müşahidəsi 5) ətraf mühitdən «ayrılma» və Allahı müşahidə etmə; 6) Allahdan başqa hər şeydən «ayrılma», onu sufinin gözü ilə görmə; 7) ilahi atributlardan «ayrılma» və Allahı dünya ilə əlaqəsiz müşahidə etmək.

İbn Ərəbinin baxışları məşhur sünni ilahiyyatçısı İbn Teymiyyənin tənqidinə məruz qaldı. İbn Teymiyyəyə görə F. «Allahdan başqa hər nəyə isə təzim etməkdən ayrılma»dır.

F. və B. konsepsiyasının mənşəyinin buddizmlikdən gəldiyi haqqında məsələ açıq qalır. Çoxsaylı müsəlman müəllifləri və şərqşünas alimlər ona islamın əsas ehkamının məntiqi inkişafı – təkallahlıq haqqında təlim kimi (ət-tövhid) baxırlar.

**Ədəbiyyat:** İslam, 251-252; əs-Sərrac Əl-Luma′, 92-101; İbn Ərəbi. Əl-Fütuhat, 2, 220-221; əl-Hujwiri. Kashf, 58-60, 241-246; İbn Teymiyyə. Ər-Rədd alə-l-məntiqiyyin. Ət Tirmizi. Xətm, 510-511; Əxbar əl-Həllac, № 67; Nicholson. The goal of Muhammadan Mysiticism.-JRAS. 1913, 1, 55-69; Amoli. La. Philosophie, İndex; Bowering. Mystical Vision, Index; F.Rahman. Baka' va fana'. -EI, NE, 1, 951.

**<u>Fəqih («bilici»)</u>** - ilahiyyatçı-hüquqşünas, ilahiyyat-hüquq kompleksinin (fiqh) bilicisi. F. haqqında məfhum VII əsrin II yarısında yarandı və o, Hicaz və İranda islam hərəkatının fəaliyyəti ilə bağlıdır, onlar (hicazlılar və iranlılar) öz baxışlarına uyğun olaraq Quran və sünnə hüquqi mənbələrinə əsasən islam həyat tərzi qaydalarını işləyib hazırlamağa çalışırdılar. Dərnək və elmi disputlarda F.-lər fiqhin birgə sxemini yaradırdılar. Onlar əsasən şəhər ticarət-sənətkarlıq dairəsinə aid idilər.

Getdikcə xüsusi hazırlıq alan adamların sayı çoxalırdı, onlar fiqhlə məşğul idilər. Fiqhin peşəkarcasına öyrənilməsi qazi və məmurlar üçün də zəruri idi. IX əsrə artıq F.-lər şəhər əhalisinin nüfuzlu bir təbəqəsinə çevrilmişdilər. Onlar ictimai həyatın bütün işlərində iştirak edir, ictimai rəy yaradırdılar ki, hökmdarlar bununla razılaşmalı olurdular. Məhz onlar müsəlman dövlətlərinin siyasi və ictimai həyatına böyük təsir göstərirdilər və müxtəlif dövlət vəzifələrinə onlardan qəbul edirdilər.

Hazırda F.-lər öz nüfuzlarını saxlayırlar, onlar nə qədər güclüdürsə, o qədər də İslamın mövqeyi möhkəmdir.

Bəzən F.-liyi ruhaniliklə eyniləşdirirlər, onlar heç bir imtiyaza malik deyillər, onlar üçün bütün ilahiyyat dərsləri açıqdır.

**Ədəbiyyat:** İslam, 250; Schacht. İntroduction, 15-85; Əbu Zəhra. Tarix əl-məzahib, 2, 12-222; Мец. Ренессанс, 144, 191-192; P.B.Macdonald. Fakih. - EI, NE, 2, 756.

**<u>Fəqir</u>** – kasıb, maddi və ya mənəvi cəhətdən ehtiyacı olan adam. F.-in - kasıbın «varlıya» (azad, ehtiyacı olmayan) Allaha qarşı qoyulmasına Quranda rast gəlinir (15:15/16) və bu müsəlman ilahiyyatı üçün xarakterikdir. Digər tərəfdən F.-lər - kasıblara qayğı göstərilməsi Quran, sünnə və əxlaqi əsərlər tərəfindən məsləhət görülür. «F.-liyi» (faqr, fuqr) asketik təlimlər və sufilik təbliğ edirdi, F. dərvişin, sufinin sinonimi idi. Şairlər, kitab müəllifləri, əlyazması köçürənlər və s. öz sadəliklərini və özünükiçiltməni bildirmək üçün özlərini F. adlandırırdılar. Avropa

dillərində və onların vasitəsilə rus dilində hind asketləri və yoqlarını F. adlandırırdılar, buradan onun «sehrbaz» mənası irəli gəlir. Azərbaycan ərazisindəki abidələr üzərində qalmış kitabələrdə ustalar, nəqqaşlar, xəttatlar tez-tez özlərini F., həqir adlandırırlar.

**Ədəbiyyat:** İslam, 249; D.B.Macdonald. Fakir. - EI, 2, 48; K.A.Nizami. Fakir.-EI, NE, 2, 757-758.

**Fərz** (cəmi furuz, «vacibi») - insana dini tapşırıq kimi vacib olan əməl və əxlaq qaydaları. F. iki yerə bölünür: 1) F. əl-ayn - əsas, hamı üçün icbari olanlar (məs: namaz və onunla bağlı əməllər); 2) F. əl-kifayə - bunların yerinə yetirilməməsi şəraitə görə bağışlana bilər (məs: kasıblıq üzündən zəkat verməmək, xəstəlik üzündən Həcci ziyarət etməmək və s.). F.-i saymamazlıq insanı nadürüst edir (fasiq). Bəzi məzhəblərdə F. ancaq Qurana əsaslananlar adlanır, hədislərdən götürülənlər isə sünnə adlanır, birlikdə isə onlar vacib adlanır. F. məsələləri ən yaxşı əş-Şeybani (VII əsr) tərəfindən işlənib hazırlanıb, sonrakı işlər isə məzhəb və şəraitdən asılı olaraq F.-in dairəsini ya genişləndirib və ya daraldıb.

**Ədəbiyyat:** İslam, 252; əl-Həkim. Əl-Üsul, 58-62; əl-Qəzali. Dirilmə, 89; Vesey-Fitzgerald. Nature, 89-99; J.Schacht. Ahkam-EI, NE , 1, 257; yenə o. Sharia –EI, 3, 322; Th.W.Juynboll. Fard –EI, NE, 2, 790.

**Fətva** (cəmi vətāva, «aydınlaşdırma», sinonimləri, futyə, ifta`) - şəriətin hər hansı qanununun aydınlaşdırılması və praktiki sınağı üçün və ya şəriətin mövqeyindən hər hansı bir çətin işi izah etmək üçün qəbul edilən ilahiyyatçı-hüquqi müqavilə. İslamın I əsrində F. Məhəmmədin (s) ardıcıları, xüsusilə də ilk dörd xəlifə tərəfindən müxtəlif hüquqi məsələlərin aydınlaşdırılması və onların şəxsi hüquqi şərhləri adlanırdı.

F. bütün dini-hüquqi məktəblərin yaradıcıları tərəfindən eyni dərəcə olmasa da, əlavə icraedici hüquq mənbəyi kimi qəbul edilirdi.

Sonrakı mərhələdə F. hər hansı bir məsələnin fərdi işlənməsi nəticəsində yaranan nüfuzlu fəqihin rəyi və ya mühüm əhəmiyyəti olan suala cavabdır. Elmi disputların nəticələri ilə yanaşı F. razılaşdırılmış rəyi yaradan faktorlar (icma) və ixtilafı aşkarlayandır ki, bu fəqihlərin dini-hüquqi məktəblərdə həmrəyliyinə gətirib çıxardır. F. külliyyatlarda toplanırdı, onlar sonrakı nəsil hüquqşünaslar üçün mühüm köməkçi və dərs materialı kimi xidmət göstərir. Erkən və daha çox məşhur F. külliyyatları əl-Məvardi (vəf. 1069), Məhəmməd İbn Rüşd (vəf. 1126), Ömər əl-Buxari (vəf. 1141, dörd cilddə), əl-Həsən əl-Mərginani (1203-də yaşayırdı) və başqaları tərəfindən yazılmışdır.

F.-ya hakim, məmur və ya hər hansı bir şəxs çətin hallarda müraciət edirdi. Nüfuzlu fəqih (müfti) F.-nı ümumi ibarələrlə yazılı surətdə

vermәlidir. Belә F.-ların әsasında inzibati qәrarlar verilir, yenilik vә ya dәyişikliyә icazә vә ya qadağa tәsdiqlәnirdi. Nüfuzlu fәqih-müftinin qәrarı ilә hәr hansı bir islam qaydası müvәqqәti olaraq dayandırıla bilәr (mәs: Tunisdә orucluğun müvvәqqәti dayandırılması). Eyni zamanda F. (rәsmi islam ölkәlәrindә) dünyәvi hakimiyyәt üzәrindә dini dairәlәrin nәzarәt alәtidir.

**Әdәbiyyat:** İslam, 252; Әbu Zәhra. Tarix әl-mәzahib, 2, 124-130; Tyan. Judicial Organization, 248-251; L.Walsh. Fatwa.-EI, NE, 2, 866-867.

**Әl-Fiqh** («dәrindәn başa düşmә, dәrin bilik»), müsәlmanların әxlaq qaydaları haqqında islam doktrinası (hüquqşünaslıq), ictimai qaydaların islam kompleksi (geniş mәnada müsәlman hüququ).

Әl-F. hәr iki mәnada birbaşa İslamın yaranması vә müsәlman dövlәti-Xilafәtin qurulması ilә meydana gәlmәdi. VIII әsrin birinci yarısınadәk Xilafәtin bütöv ictimai qayda sistemi (o cümlәdәn hüquqi qaydalar) hamısı islam qanunları ilә deyil, hәm dә islamaqәdәrki qaydalarla idarә edilirdi. Sonradan bunlar da islamlaşdırılıb әl-F.-ә daxil edildi.

Hüquqşünaslıq әl-F.-nin yaranması faktik olaraq fәaliyyәtdә olan hüquqi vә başqa ictimai qaydaların dini istiqamәtlәrә uyğun hәrәkәtә gәtirilmәsi zәrurәti ilә şәrtlәnmişdi. Onun yaranması Mәhәmmәdin (s) sözlәri vә onun silahdaşlarının dediklәrinin qeyd edilmәsi ilә birlikdә gedirdi. Ona görә dә әl-F.-ә aid ilk әsәrlәr (mәs: Zeyd b. Әl-Hәsәnin «Mәcmu′-u-Fiqh», Malik b. Әnәsin «Әl-Müvәttә» vә Әhmәd b.Hәnbәlin «әl-Müsnәd» әsәrlәri) әslindә hüquqi tәdqiqatlar deyil, hәdislәrin mövzuya görә yığılmış külliyyatları idilәr. Hәdislәrin sistemlәşdirilmәsi mәsәlәlәri müәyyәnlәşdirilmәyә imkan verirdi, onların hәlli Quran vә sünnәnin rasional şәrhini tәlәb edirdi vә bununla da o, әl-F.-in müstәqil bir fәnn kimi yaranmasına imkan yaratdı.

Әl-Qiyas mәfhumu meydana gәldi, onun Quran, cünnә vә әl-icma ilә yanaşı әl-ictihad vә әl-F. mәnbәyi kimi tanınması әl-F.-in xüsusi yolunun başlanğıcını qoydu, bu onun mәnbәlәri, onların şәrhinin üsulları vә konkret hüquqi mәsәlәlәrin hәllini hәyata keçirәn üsul әl-fiqh idi. Hüquqşünaslıq әl-F.-nin yaranmasında böyük xidmәt әş-Şafeiyә (vәf. 820) aiddir. O, Әr-Risalә traktatında ilk dәfә hüquqşünaslıq әl-F.-nin tәyinatlarını vermişdi.

Tәqribәn X әsrdә hüquqşünaslıq әl-F. dini elmlәrә aid olan müstәqil fәnn kimi tam surәtdә yaradıldı. Hüquqşünaslıq әl-F.-nin xüsusiyyәti onda idi ki, o, rasional «әlavәlәr»in kömәyi ilә, praktiki mәsәlәlәrin hәlli ilә dinin hәqiqәti mәşğul olurdu. Tәdricәn hüquqşünaslıq әl-F. mәfhumu ümumiyyәtlә, elm әl-furu–»praktiki» şәriәt qaydlarının haqqında elmlәr şәklini aldı. Hüquqşünaslıq әl-F. fәnni iki növ qayda kateqoriyanın öyrәnilmәsinin özündә birlәşdirirdi: 1) müsәlmanların Allahla

münasibətlərini təyin edən ayin qaydaları və dini vacibiyyətin (əl-ibadət) yerinə yetirilməsi; 2) insanlar və müsəlman dövlətləri arasındakı münasibətlərin tənzimlənməsi.

Artıq hüquqşünaslıq əl-F.-nin yaranmasının erkən mərhələsində iki məktəb meydana gəlmişdi, onların biri – İraq məktəbi «müstəqil düşüncə tərəfdarları» (əshab ər-rəy), o biri Mədinə məktəbi «rəvayətlər tərəfdarları» (əshab əl-hədis) adlanırdı. Onların fərqi maddi və mədəni, ənənəvi şəraitdən irəli gəlirdi. İraq məktəbi təkcə əl-qiyas deyil, əl-ictihaddan da geniş istifadə edirdi, Mədinə məktəbi isə Quran və sünnəyə daha çox istinad edirdi. Əvvəlcə məktəblər anonim idilər, sonralar isə onlar öz doktrinalarının mənşəyini məktəbin yaradıcılarından birinin adına aparıb çıxarmışdılar. Belə ki, İraq məktəbinin yaradıcısı Nu'man b. Sabit Əbu Hənifə (vəf. 767), Mədinə məktəbinin yaradıcısı isə Malik b. Ənəsi (vəf. 795) tanındılar. IX-X əsrlərdə başqa sünni məzhəblərinin hüquqşünaslıq əl-F.-ləri xüsusən də Məhəmməd b. İdris əş-Şafeinin (vəf. 320) adı ilə bağlı Şafei məktəbi yarandı. Sonralar yaradıcısı Əhməd b. Hənbəl ( vəf. 855) sayılan hənbəli məzhəbi tanındı. Başqa hüquqşünaslıq əl-F.-ləri də var idi, lakin XIV əsrə onlardan dördü və bir neçə şiə məzhəbləri-mənşəyi Cəfər əs-Sadiqə gedib çıxan (vəf. 765) cəfəri, yaradıcısı Zeyd b. Əli (710-da qətl olunub) olan zeydilər və yaranması ilə əl-Qadi ən-Nu'manla (vəf. 979) bağlı olan ismaili məzhəbi qalmışdı.

Abbasilər hakimiyyətə gələndən sonra fəqihləri qazi vəzifəsinə təyin edirdilər. Bu əsasda hüquqi mənada hüquq əl-F. yaranırdı ki, onun da mənbəyi rolunda hüquqşünaslıq əl-F. çıxış edirdi.

Hüquq əl-F.-nin rolu dəyişməz qalmırdı. Belə ki, XVI əsrdə Osmanlı imperiyası, XVII əsr Monqol imperiyası vaxtı o, öz genişliyi və ardıcıllığı ilə fərqlənirdi. Lakin hüquq əl-F. heç vaxt hüquqşünaslıq F. ilə tam üst-üstə düşmürdü. Hüquqşünaslıq əl-F.-nin dövlətin siyasətinə uyğun olan qanunlarını dövlət qəbul edir və onlar fəal qanuna çevrildi, qalanları isə fiqh çərçivəsindən kənara çıxmırdı. Hüquq əl-F. ilə yanaşı dövlət qanunları fəaliyyət göstərirdi, onlar tez-tez fəqihlərin rəyindən yan keçir, hətta ona qarşı çıxırdılar (hüquq siyasəti).

XIX əsrin ikinci yarsında inkişaf etmiş islam ölkələrində (əsasən Osmanlı imperiyasına daxil olanlar) hüquq əl-F. aparıcı yeri qanunvericiliyə verməli oldu və ancaq şəxsi status məsələsində öz mövqeyini saxlaya bildi. 1869 -1877-ci illərdə Məcəllət əl-əhkam əl-ədliyyə (Ədliyyə Ehkam Məcəlləsi) qəbul edildi. O, Osmanlı imperiyasında vətəndaşlıq kodeksində mühüm rol oynayırdı. Bu qanun hənəfi məzhəbi hüquqşünaslıq əl-F.-nin rəyi əsasında yaradılmışdı.

XIX əsrin ikinci yarısından hüquq əl-F.-nin rolu tamam yox olsa da, Şərq ölkələrində onun bəzi qanunları indi də fəaliyyət göstərir, Türkiyə

istisnadır. Hüquq əl-F. şəxsi status və cinayət hüququnda bəzi ölkələrdə öz əhəmiyyətini saxlayıb (Səudiyyə Ərəbistanı, Fars körfəzi ölkələri, YƏR, Liviya, İran, Pakistan və s.). İslam ölkələrinin çoxunda hüquq əl-F.-nə söykənən şəriət məhkəmələri fəaliyyətdədir.

70-80-ci illərdə Pakistanda və Filippində müsəlman məhkəmələri yarandı. İran İslam Respublikası elan olundu. Bir sıra müsəlman ölkələrində (Səudiyyə Ərəbistanı, İran, Pakistan, İordaniya, Mərakeş, Liviya və s.) zəkat vermək, namaz qılmaq, oruc tutmaq hüquqi xüsusiyyət daşıyır və onlara riayət etməyənlər hüquqi və hətta cinayət məsuliyyəti daşıyır.

Hazırda çoxsaylı müsəlman ölkələrinin konstitusiyası fiqh qanunlarına əsaslanır. Buna görə də qanunlar hazırlananda hüquqşünaslıq əl-F.-nə və hüquq F.-nə müraciət edilir. Bu iki istiqamətdə yerinə yetirilir. Birincisi, Misirin sabiq ali müftisi Hüseyn Məhəmməd Məxlufun fətva külliyyatı və ikincisi əl-F.-in nəzəri və tarixi əsərlərinin köməyi ilə 50-ci illərdən əl-F.-in ensiklopediyasını hazırlamaq istəyirlər (Suriya, Misir, Kuveytdə). Bu planla ən çox nüfuzlu ədəbiyyat 1966-cı ildə nəşr olunan və Cəmal Əbdül Nasirin adını daşıyan əl-F. ensiklopediyasıdır.

**Ədəbiyyat:** İslam, 254-258; Məhəmməd b. əl-Həsən əş-Şeybani. Əl-Cami əl-kəbir, Qahirə, 1936; Məhəmməd b. İdris əş-Şafei. Kitab əl-umm, 1-7, Qahirə, 1978; Burhan əd-din Əli əl-Mərqinani. Əl-Hidayə. 1-4, Daş., 1983; Mühyi əd-din ən-Nəvavi. Minhəc ət-talibin, 1-3. Bətaviyə, 1882-1885; Məhəmməd b. Cuzayy əl-Qərnəti əl-Maliki. Qavanin əl-əhkam əş-şəriyyə və məsail əl-furu əl-fiqhiyyə. Beyrut, 1968; İbn Xəldun. Müqəddimə, 435-436, 449-451; İbn əl-Bəzzaz. Fətava. 1-3, Казань, 1889; Əl-Fətava əl-hindiyyə, 1-6, Bulaq , 1892; Мусульманское право. Шариат и суд. Перевод применяемого в Оттоманской империи Гражданского Свода (Мэджеллэ). Türkcədən tərcümə, 1-2 Daşk., 1911-1912; Məhəmməd Qədri Paşa. Kitab-əl Əhkam əş-şər′iyyə fi-l- əhval əş-şəxsiyyə. Qahirə, 1928; Həsəneyn Məhəmməd Məxluf. Fətva şər′iyyə və buhus islamiyyə, 1-2, Qahirə, 1965; А.Э.Шмидт. Очерки истории ислама, как религии. - Мир ислама. СПб., 1912 1/2, 197-202; Петрушевский. Ислам, 132-198; А.С.Боголюбов. К вопросу о рационалистическом принципе ар-ра'й в раннемусульманской правовой науке. - Арабские страны: история, экономика. М., 1974, 25-28; Сюкияйнен. Право, 31-79; 112-228; Əbu Zəhra. Tarix əl-məzahib, 2; Məhəmməd Yusuf Musa. Muhadarat fi tarix əl-fiqh əl-islami. 1-3, Qahirə, 1954-1959; Vahbə əz-Züheyli. Əl-Fiqh əl-islami və ədillətuhu. 1-8, Dəməşq, 1984; J.Schacht. The Origins of Muhammadan Jurisprudence, Oxf, 1950; N.J.Coulson. A history of islamic Law. Edinburg, 1964; Schacht. İntroduction; H.J.Liebesny. The Law of the Near and Middle Esat: Readings,

Cases and Materials. N.Y., 1975, 19-23, 44-45, 129-257; I.Goldziher-J.Schacht. Fikh.-EI, NE, 2, 886-891; J.Schacht. Usul.-Sh EI, 611-615.

**(Fru) əl-Fiqh** – islam pozitiv hüququnu təşkil edən fiqhin «qolları», fiqhin hissəsi. «Qollar-budaqlanma» (furu) məfhumuna ilk dəfə Məhəmməd Şeybaninin Əl-Məbsut kimi tanınan «Kitab-əl-asl fi -l-furu» əsərində rast gəlinir. Məhəmməd əş-Şafeinin dəqiq surətdə hazırladığı fiqhin əsaslarından - «köklərindən» (üsul əl-fiqh) fərqli olaraq pozitiv hüququn hissələri öz aralarında ayrılmamışdılar, bir məsələ müxtəlif bölmələrdəki problemləri həll edirdi. Lakin fiqhdə bir-birinə yaxın hüquqi məsələləri birləşdirən bir neçə böyük mövzular ayrılır (seçilir); 1) dinə və ayinlərə aid olan məsələlər: namaz, oruc, ziyarət, təharət və s.; 2) vergi qoyulmasına aid məsələlər; 3) müxtəlif müqavilələrə aid məsələlər: ticari və əmək müqavilələri, icazə, muzd və s.; 4) ailə-nikah əlaqələri, vəsiyyət, vərəsəlik, qohumluq məsuliyyəti və s.; 5) cinayət və cəza məsələri; 6) dövlət quruculuğu və idarəçiliyinə aid məsələlər; 7) müharibə aparılması və dövlətlərarası münasibətlərə aid məsələlər; 8) kargüzarlıq və mühakimə işlərinə aid məsələlər; 9) insan əməlləri və fikirlərinin qiymətləndirilməsinə aid məsələlər: icbari, ixtiyari, neytral, arzuolunmaz, qadağan olunanlar.

Təcrübədə hər bir hüquqi vəziyyəti sayılan mövzulardan birinə aid etmək vacib deyil, çünki onların hər biri müxtəlif aspektlərdə öyrənilə bilər.

**Ədəbiyyat:** İslam, 259; Əbu-l- Vəfa əl Əfqani əl-müsəhhih. Müqəddimə. - Əş-Şeybani. Əl-Əsl, 1, 3-21; J.Schacht. Fikh.-EI, 2, 882.

**Firqə** cəmi - firaq, sinonimləri millət, tayfa, sinif) - bir və ya bir neçə ehkam məsələlərinə aid xüsusi rəyi dəstəkləyən təşkil olunmuş insan qrupları, məktəb, icma. F. məfhumu müsəlman doksoqraflarının əsərlərində bütün icma növlərinin əsasında durur. Müsəlman icmasının 73 və ya 72 yerə bölünəcəyi fikrini Məhəmməd peyğəmbərin (s) adına yazırlar. Müsəlman doksoqrafları dini-siyasi qruplar, ilahiyyat məktəbləri, icmalar və s. arasında ciddi sədd qoymayaraq, F. istilahını bir vahid mənasında işlədirlər ki, o da müsəlman icması mənasındadır. Bu, onlara lazım olanda, F. istilahının mənasını genişləndirmək və ya kiçiltmək imkanı verirdi.

**Ədəbiyyat:** İslam, 259

**Firon -** Quran surəti, Misir çarının adı. Allah Musanı onun yanına təbliğat aparmağa göndərmişdi. Firon həm də zu-l-autəd- «möhkəmləndirilmiş qurğu, tikinti, piramida sahibi» adlanır (38:12/11; 89:10/9). Quranda F. qəddar zülmkar, özünü ilahiləşdirən, körpə ikən onun arvadı tərəfindən tapılıb, tərbiyə edilən Musaya (peyğəmbərə) inanmayan adam kimi göstərilir. O, öz əyanı (köməkçisi) Həmana göyə ucalan bir qüllə tikməyi əmr etdi ki, oraya qalxıb orada Allahın olmadığını sübut etsin. F. möminləri təqib

edirdi, xüsusilə də yəhudiləri. Musa və adamları Misiri tərk etmək istəyəndə o, qoşunun başında onları təqib etdi, lakin dəniz sularında qərq oldu. Son anda F. günahını boynuna aldı, Allah onu dalğalar vasitəsilə sahilə atdı.

Şərhçilər bu hadisəni iki cür şərh edirlər: peşman olub bağışlanan F. və ya bağışlanmaqdan imtina edib meyiti sahilə atılan F. Şərhçilər Misirin bütün çarlarınıın titullarının F. olduğunu qeyd edirlər. Qurandansonrakı rəvayətlərdə F.-nun qəddarlığından bəhs edirlər: o, Allaha inanan arvadını, qardaşını, oğlunu, yaxın adamlarını, Misir cadugərlərini edam etdirdi. Quran şərhçilərinə görə F. qüllənin başına çıxıb göyə ox atır və oxlar qanla yerə qayıdır. Sonra Cəbrayıl gəlib qülləni dağıdır. Müsəlman ilahiyyat və bədii ədəbiyyatında F. surəti tez-tez istifadə olunur, özü də inamsızlığın və zülmkarlığın rəmzi kimi.

**Ədəbiyyat:** İslam, 259; ət-Təbəri. Tarix, 1, 444-487; yenə o. Təfsir, 9, 4-32; əl-Məs'udi, Muruc, 1, 92-93; Əs-Sə'ləbi. Qısas, 103-112; əl-Kisə'i. Qısas, 195-199; İbn Ərəbi. Fusus, 1, 209; Horovitz. Untersuchungen, 130-131; Speyer. Erzählungen, 239-291; D.Künstlinger. Die «Frau Faraon» im Koran.-RO. 1934, 19, 281-295; A.J.Wensinck (G.Vajda) Fir`awn.-EI, NE , 2, 217-918.

# H

**<u>Habil və Qabil</u>** – H. və Q. Adəmin iki oğluna müsəlmanların verdiyi adlar, Bibliya Kain və Aveli. Quranda adları çəkilməyən bu iki qardaş qurban kəsirlər. Qabilin qurbanı qəbul edilmədiyindən paxıllıqdan qardaşı H.-i öldürəcəyi ilə hədələyir. H. isə qardaşına əl qaldırmayacağını və qatilin mütləq Cəhənnmə gedəcəyini deyir. Q. H.-i öldürür, lakin onunla nə edəcəyini bilməyib, pis vəziyyətdə qalır, peşman olur. Allah tərəfindən göndərilən qarğadan yeri qazıyıb cəsədi dəfn eləməyi öyrənir və deyir ki, İlahi mənim bu qarğa qədər də bacarığım yoxdur. Onların mübahisələri isə «arvad» üstə olur. Adəm onlara bir-birinin bacıları ilə evlənməyi təklif edir. Q. öz gözəl bacısı Akliməyə evlənmək istəyir, H.-in gözəl olmayan bacısı Ləbudəyə yox. Qurbankəsmə püşkü də elə bu məsələyə görə keçirilmişdi. Bu qətldən sonra Bənu İsrailə öldürmək qadağan olundu. Quranda adam öldürmək barədə ayə də vardır (5:27/30-32/35): ... Hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və Yer üzündə fitnə fəsad törətməmmiş bir şəxsi öldürsən, o bütün insanları öldürmüş kimi olur.

Cənubi Ərəbistan xalq rəvayətləri Q.-in qəbrini Ədəndə yerləşdirdirirlər. Onun nəsilləri insanları xeyirli işlər və əməkdən yayındıran musiqi alətləri, oyunlar və əyləncələrin yaradılması ilə məşğul idilər.

**Ədəbiyyat:** İslam, 124; ət-Təbəri. Tarix, 1, 137-164; yenə o. Təfsir, 6, 119-129; əs-Sə′ləbi. Qısas, 25-26; əl-Kisəi. Qısas, 72-73; əl-Beydavi. Təfsir, 1, 254; Horovitz. Untersuchungen, 131; Speyer. Erzählungen, 24-28; Gaudefroy-Demombynes. Mahomet, 293-294; Paret. Kommenmtar, 119-120; G.Vajda. Habil wa Kanbil-EI, NE, 3, 14-15; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 92.

**<u>Həcc (Əl-Hacc)</u>** - Məkkədə Kəbəni ziyarət etmə, İslamın beş rüknlərindən biri. Əl-H. imkanı olan müsəlman üçün heç olmasa bir dəfə vacibdir. Fiziki cəhətdən imkanı olmayan özü üçün vəkil (vəkil əl-H.) göndərə bilər. Əl-H. Məhəmməd (s) tərəfindən qəbul edilmiş ay təqvimi ilinin zi-l hüccə ayında yerinə yetirilən və bir sıra ayinlərdən (mənasik H.) ibarətdir. Zəvvar karvanları zi-l hiccə ayının 7-də Məkkəyə gəlib, təmizlənib, ehrama girirlər (zəvvar örtüklərini örtüb niyyət edirlər) və ümrə həccini yerinə yetirirlər («kiçik həcc») (bax: ümrə, təvaf, sə′y). Sonra ümrə və əl-H.-ı ayrı etmək istəyənlər ehramdan çıxıb saçlarını kəsirlər. Yenidən ehramı təzələyib böyük həcci yerinə yetirirlər. Ümrə və əl-H.-ı bir yerdə etmək istəyənlər ehramda qalırlar. Zi-l hiccənin 7-də zəvvarlar xütbəni dinləyib Kəbədə namaz qılırlar. Səhəri (yom tərviyədə) onlar su ehtiyatı götürüb Mina, Müzdəlifə və Ərəfata gedirlər. 8-dən 9-a keçən gecə

zəvvarlar Mina və Ərəfat vadilərində gecələyib, 9-da əl-H.-ın ayinlərindən biri Ərəfat dağı yanında vuquf edirlər (dayanırlar). Onlar xütbə dinləyib, namaz qılırlar. Vuquf günəş batanadək davam edir. Sonra zəvvarlar tələsik Müzdəlifə (ifadə) vadisinə gedirlər. Burada məsciddə axşam və gecə namazları qılınır. Zi-l-hiccənin 10-da səhər (yom ən-nəhr), namazdan sonra zəvvarlar Mina vadisinə gedib, Müzdəlifədə yığdıqları kiçik daşların 7-ni İblisin rəmzi olan axırıncı sütuna atırlar, sonra oradaca tacirlər və ya bədəvilərdən alınan heyvanlardan qurban kəsirlər. Zi-l-hiccənin 10-u müsəlman aləmində ən mühüm bayram sayılır (bax: id əl-adha, mənasik), zəvvarlar saçlarını tam qırxıb və ya kəsib, Məkkəyə axırıncı təvafı etməyə gedirlər. Ümrə təvafı etmədən əl-H. təməttünü edənlər təvafdan sonra sə′y (Səfa və Mərvada) edirlər. Səfa ilə Mərva arasında səy etmək üçün zəvvar məscidin əs-səfa qapısına sol ayağı ilə çıxmalı, oradan Mərva tərəfə hərəkət etməlidir. Bu Səfadan Mərvaya dörd, Mərvadan Səfaya üç dəfə olmaqla yeddi dəfə səy (iti addımlarla) hərəkətdir. Bu, yol İbn Cübeyr vaxtı izdihamlı və dükan-bazarlı küçə olub, indi isə mərmərlə döşənmiş, hər tərəfi örtülü Məscidin ayrılmaz hissəsidir.

Mənbələrdə bu ayinin mənşəyi belə şərh edilir: Hz. İbrahimin Hacərdən İsmail adlandırdıqları bir oğlu olur. Az sonra peyğəmbərin birinci arvadı Sara da İshaqı doğur və Hacəri evdən qovur. İbrahim (ə) Hacərlə İsmaili gətirib, Kəbənin yanında qoyur və gedir. Hacər heç bir şikayət etmir, başa düşür ki, Allah onlara kömək edəcək. Bir azdan körpə susayır, Hacər Səfa və Mərva arası Allaha yalvara-yalvara su axtarmağa tələsir. Allahın əmri ilə Cənab Cəbrail Zəmzəm quyusunu açır. Bu quyuya İsmail quyusu da deyilir. Sonralar Allah Təala həccə ziyarətə gələnlərə Səfa və Mərvada səy etməyi vacib buyurdu. Hacər su axtarışına Səfadan başladığı üçün zəvvarlar da bunu Səfadan başlayırlar.

Ayın 11-13-də (əyyam ət-təşriq) zəvvarlar qurban kəsmək və şeytanların hamısına daş atmaqla məşğul olurlar (cəmarat əl-ulə, əl-vusta, əl-əqabə). Ziyarət başa çatandan sonra zəvvar hacı adlanır.

Əl-H.-ın islam ayinlərinin mənşəyi islamaqədərki bütpərəstlik ayinlərinə oxşayır. İslam əl-H.-nın yaradılması ideyası Məhəmməd peyğəmbərin (s) Mədinə yəhudiləri ilə aralarını kəsməsi, Kəbənin qiblə (Q.2:142/ 136-1850/145) elan edilməsi və əl-H.-ın icbari olması (36:97/91) ilə bağlıdır. Rəvayətə görə əl-H.-ın əsas ayinləri Məhəmməd peyğəmbər (s) tərəfindən 632-ci ildə «Vida əl-H.»-ı vaxtı təyin edilmişdir. Sonradan əsas hüquq əhkam məktəblərinin nümayəndələri tərəfindən ziyarət ayinləri işlənib hazırlanmışdır.

Əl-H. müsəlmanlar arasında bir növ ünsiyyət və ideoloji birlik kimi orta əsr müsəlmanlar aləmində mühüm tarixi-mədəni və ictimai-siyasi rol oynayır.

**Ədəbiyyat:** İslam, 261; Wensick. Concordance, 1, 420-421; əl-Buxari. Əs-Səhih, 1, 384-443; əl-Qəzali. İhya, 1, 215-242; İbn Cübeyr. Səyahət, 116-124; Snouck Hurgronje. Feest; Gaudefroy-Demombynes. Pelerinage; Fahd. Le pantheon. İndex; A.J.Wensinck ( J.Jomier) Hadjdj.-EI, NE, 3, 33-404; Hacı Abutalıb Əbdül Müttəlib oğlu. Ziyarət, Bakı, 1990, 15.

**Hakim** («həll edən», «qərar verən») - müstəqil hakim-mübahisə edən tərəflərin məsələlərini həll etmək üçün qarşılıqlı razılıqla müraciət etdikləri adam. İşi ruhani hakimə (qazi) verməzdən əvvəl H.-ə müraciət etməyi məsləhət görürlər. Hakim heç bir icraedici gücə malik deyil, onun statusu müəyyən deyil, o, heç kim tərəfindən təyin olunmur, o, özünün həyatı müdrikliyi və nüfuzu sayəsində öz ətrafı tərəfindən irəli sürülür. Ona görə bir qəbilə və ya kənddə eyni vaxtda bir neçə hakim ola bilər, başqasında isə olmaya bilər. Hakimin şəxsiyyətinə heç bir xüsusi tələbat yoxdur. O, hər bir adamdan ola bilər, hətta onun təhsili olmasa da və ya hər hansı fiziki çatışmazlığı olsa da. Hakimin əsas məqsədi tərəfləri barışdırmaqdır və o, öz qərarlarında hansısa müəyyən hüquqi mənbələrə əsaslanmalı deyil o, islam qaydalarına (fiqh) və ya öz şəxsi həyat təcrübəsinə əsaslana bilər.

Orta əsr inzibati dövlət təcrübəsində kiçik şəhər və ya kəndə seçilən başçı və ya hər hansı bir əyaləti idarə etmək üçün seçilən məmur H. adlanırdı.

**Ədəbiyyat:** İslam, 264-265; Schacht. İntroduction, 189; M.Khadduri. İnternational Law.-Law in the Middle East, 367-370.

**Hal** (cəmi əhval; və ya halət, hālāt) - şey, insan, Alah və s.-nin halı. Quranda bu mənada işlənmir. Bəsrə qrammatikləri H.-ın subyektin təsirlik halda vəziyyətini bildirmək üçün işləndiyini söyləyirlər (məs: qamə Zeydun dahikən «Zeyd gülə-gülə qalxdı»). Bəsrə mötəzililərinin bir hissəsi H.-ı sifət (keyfiyyət, atribut) istilahının sinonimi kimi istifadə edirdilər. Belə ki, Əbu Haşim əl-Cübbəi H.-a subyektin həmin anda xarakteristikası kimi baxırdı. Cübbəiyə görə H. real, müstəqil varlığa malik deyil, o, bu mənada aksidensiya məfhumuna yaxındır.

Sufi psixologiyasına görə H. sufini ondan asılı olmayaraq Allaha «doğru yolda» yaxalayır. Əhval sufi yolundakı məqam və mənzillərə qarşı çıxır.

«Mənzillər və hallar haqqında elmin» banilərini Zu-n-Nun əl-Misri (vəf. 860-61) və əl-Mühasibini (vəf. 857) hesab edirlər. Lakin P.Nviyanın tədqiqatları göstərdi ki, «mənzillər və halların» təsnifatını Şəqiq əl-Bəlxidə ( vəf. 810) tapmaq olar, o, onları mənazili (dərəcələr) kimi göstərmişdir. Allaha doğru yoldakı əsas «mənzilləri» əl- Bəlxi belə sayır: zühd, qorxu, Cənnət arzusu və Allaha sevgi (məhəbbə li -l- lah)

Zu -n-Nun, əl-Xərraz (vəf. 899) və ən-Nuri (vəf. 907) H.-ı ani işraqın nəticəsi kimi şərh edirdilər.

Əs-Sərracın (vəf. 988) klassik sufi əsərində 10 «hal» sadalanır; «şəxsi nəzarət» (müraqbə), «yaxınlıq» (qurb), «məhəbbət», «qorxu» (xof), «ümid» (raca), «şövq», «dostluq» (üns), «əmin olma» (itmə'ninə), «müşahidə», «yəqinlik». Tez-tez bir H. başqa bir H. tərəfindən «sıxışdırılır» və ya «rədd edilir». Belə əhval cütlük təşkil edir, məs: «ağrılıq/yüngüllük» (qabd/bast), «dostluq/yamanlıq» (üns/heybə), «ayıqlıq/sərxoşluq» (sahv/sukr) və s.; bəzi hallarda cütlərin üzvləri təkcə rədd etmir, həm də bir-birini kamiləşdirirlər. Məs: «bu dünyadan imtina»-«Allahın sirrlərinə yetişmə» (qeybə/hudur).

**Ədəbiyyat:** İslam, 266; əs-Sərrac. Əl-Luma`, 41-72; əl-Qalabazi. Ət-Təarruf, 58-61, 64-109; al-Hucwiri. Kashf, 180-183, 370-371; əl-Kuşeyri. Ər-Risalə, 41-55; əl-Qəzali. İhya, 3, 18 və s.; İbn Ərəbi. Əl-Fütuhat, 1, b.19, 4, 76 və s. Massignon. Passion, 2, 554-557; yenə o. Essai, İndex; Nwyia. Exagese, Index; Nasr. Sufi Essays, 68-83; Böwering. Mystical Vision, Index; R.Frank. Berings and their Attributes. N.Y., 1978, 20-22; L.Gardet. Hal.-EI, NE, 3, 83-85; R.M.Frank. Hal-EI, NE, Suppl., 343-348.

**Halal** («azad», «bağlanmamış», «bağlı olmayan»); - 1. İcazə vermə: fərd, məndub və mübah kateqoriyasına daxil olub, qadağan əməllərin (haram) əksinə olan, icazə verilən əməllər. H. haqqında məsələ fiqh bölməsində ehkamla şərh edilir; 2. Nikaha daxil olmalarına qadağa qoyulmayan kişi və qadın; 3. Həcc ziyarətini qurtarıb başını qırxan və gündəlik paltarlarını geyən bütün adi işlər və əməllərinə yenidən icazə verilən insanın halı (vəziyyəti).

**Ədəbiyyat:** bax, haram məqaləsinə; İslam, 267.

**Haqq** («original», «həqiqi», «həqiqət») - deyilənin həqiqətə uyğunluğunu, onun haqqında fikirləri bildirən istilah; bunlar əslində sidq sözü ilə bildirilir. Lakin bu iki istilah tez-tez sinonim sözlər kimi işlənsə də, müxtəlifliyi vardır. H. istilahını əqidə, din və məzhəbi xaraterizə etmək üçün tətbiq edirdilər. Onun antonimi isə batildir. Sidq istilahı hökmü, deyimi (qövl) xaraterizə etmək üçün istifadə edilirdi, onun antonimi kizbdir. H. və batil istilahlarını islamın ehkam hissəsinə (mu'taqadat) aid olan əqidəni xarakterizə edərkən tətbiq edirdilər, onun təcrübi hissəsinə (müctəhədat) aid olan hökmü xarakterizə edəndə isə xəta və savab istilahları işlənirdi. H. artikıl ilə Allahı bildirir, sufilər Allahın zatına aid olanı Onun adı «ism» hesab edirlər, Onun atributlarına əlavə olunan «adı» isə həqiqət sözü hesab edirdilər. İbn Ərəbinin və onun aradıcılarının sufiliyində əl-H. istilahı mütləq varlığın vəhdəti (Allah) mənasında canlı dünya, çoxluq dünyası mənası verən əl-xalq istilahı ilə əlaqələndirirdi.

**Ədəbiyyat:** İslam, 265.

**Haram** («qadağan olunmuş», sinonimi məhzur) -1. Günah və qadağan olunmuş (halalın əksinə) olan (şər′ən icazəsi olmayan) əməllər, haramzadə də buradandır. (Natəmiz adamların daxil olması) qadağan olunmuş müqəddəs yer - Məkkə və Mədinənin (Hərəmeyn) mübarək torpaqlarına da H. deyilir. Təbir özgələrinin daxil olması qadağan olunan ev dairəsi və bu dairələrdəki qadınlara da aiddir. H. haqqında məsələlər fiqhin ehkam bölməsinə daxil olur. Müxtəlif əməllərin qiymətləndirilməsi təkcə məzhəbdən deyil, yerli şərait, hətta fəqihin şəxsiyyətindən də çox asılıdır. Lakin belə qiymətləndirmə çərçivəsində üç daxili kateqoriya vardır:

1. a) batil-mütləq qadağan olunmuş əməllər - bunlara qanun, dini qaydaların müqavilə şərtlərinin, ticarət qaydalarının pozulması, əziyyət vermə, özbaşınalıq, başqasının malına sahib çıxmaq və s. daxildir.

b) fəsid-pis əməllər - bura islah oluna bilən hansısa qanun pozuntuları daxildir;

c) düzgün əməllər - buraya heç bir pozuntusu olmayan qeyri əxlaqi-əməllər daxildir.

2. H. - ailə-nikah əlaqələrində bir-biri ilə nikah bağlanması mümkün olmayan şəxslərə aiddir. Bunlar bacı-qardaş, əmi, dayı, qardaş və bacı qızları, xala, bibi, qardaş və bacı oğlanları, oğulluqlar, qızlıqlar, doğma uşaqlarla-oğulluğa, qızlığa götürülənlərin valideynləri, süd bacı və qardaşlarıdır.

3. H. olan yemək və içkinin növləri. H. olan yemək növləri məzhəblərdən də asılıdırlar. Donuz əti, qan, ölmüş və vəhşi heyvanlar tərəfindən parçalanmış heyvanların əti, ayinlə düzgün kəsilməyən –Allahın adı tutulmamış kəsilən və qanı axıdılmamış heyvanların əti və s. (Quranda göstərilən kimi) H. sayılır. Eşşək, at, fil, timsah, tısbağa və s. əti haqqında bir fikir yoxdur. Sərxoşedici və dumanlandırıcı içki və yeməklər də H.-dır. Şafei və hənəfi məzhəbləri onları müəyyən miqdarda qəbul etməyi H. saymır. Qadağan olunmuş yemək və  içkinin qəsdən və könüllü qəbul edilməsi günah və qanun pozuntusu sayılır. Əgər buna kimsə güclə məcbur edilsə və ya acından və susuzluqdan məcbur olub onları qəbul etsə, bu günah bağışlanır.

4. Oyunlar və ya musiqili əyləncələrə qadağa. Hənəfi və şafei məzhəblərinin bir hissəsindən başqa bütün məzhəblərə görə həris oyunlar qadağan olunmalıdır. Lakin bir çox fəqihlər onları H. deyil, məkruh sayırlar. Belə rəy musiqi, oxuma, rəqs, dəbdəbəli şeylərdən istifadə etməyə də aiddir.

5. Həcc vaxtı zəvvar üçün H. kompleksi: gündəlik geyimi geyinmək, silah daşımaq, üz, baş qırxdırmaq, cinsi əlaqə və s. o, cümlədən vuruşmaq, müharibə, qisas alma və ziyarətin qayda və möminliyini batil edən bütün şeylər.

**Ədəbiyyat:** İslam, 274; əş-Şeybani, Əl-Cami əş-səğir, 48, 50; Malik b. Ənəs. Əl-Müvəttə, 124, 289; Zaid ibn Ali. Corpus juris, 718; əl-Məvardi. Əl-Əhkam, 165; Qudamə b. Cə'fər. Əl-Xarac; əl-Qəzali. Dirilmə, 131-139; Əl-Hakim. Əl-Üsul, 62; Schacht. Introduction, 121; Vesey-Fitzgerald. Nature, 98-99; J.Schacht. Shari'a.-EI, 3, 322; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 92.

**Harun** (Harun b. İmran) - Quran surəti, Musanın (ə) böyük qardaşı və məsləhətçisi, Bibliya Aaronu. O, Fironun yeni doğulan oğlan uşaqlarının öldürülməsi haqqında əmr verdiyi dövrdə, Musadan üç il əvvəl anadan olmuşdur. Quran hekayələrində Allah H.-nu Musanın köməkçisi təyin edir, çünki o, özünü fiziki olaraq zəif hiss edirdi, onun yaxşı danışıq qabiliyyəti yox idi və öz missiyasından qorxurdu. H. Musa ilə birlikdə Fironun qarşısında durur. Musa ilə Misirdən qaçandan sonra Musa olmayan vaxtı o, Allahın əvəzinə buzova sitayiş edən israilliləri saxlaya bilmədi (7:148/146-151/150; 20:29/30-33/34, 90/92-94/95; 28: 34-35; bax: Musa).

Qurandansonrakı rəvayətlərdə israillilərin H.-a böyük məhəbbətindən və onun mağarada vəfatından danışılır. Ərəb salnaməçilərinin yazdıqlarına görə Musa və H. bir dəfə içindən işıq saçan bir mağaraya girirlər və orada qızıl taxt görürlər, üstündə «ölçüsü kimə uyğunsa, ona məxsusdur» yazılıbmış. Musaya kiçik olan taxt H.-a uyğun gəlir və o, elə oradaca vəfat edir. İndi də Cənubi İordaniyada Petro yaxınlığında olan mağaradakı məzar H.-nun qəbri kimi ziyarət edilir. H. obrazı ilahiyyatda bir görüşlə bağlıdır ki, hər böyük peyğəmbərin və Allahın əmrlərini yerinə yetirənin köməkçisi olmuşdur.

**Ədəbiyyat:** İslam, 275; ət-Təbəri. Tarix, 1, 448, 471-493; yenə o. Təfsir. 9, 9-63, 16, 107-152, 19, 40-52, 20, 18-52; əs-Sə'ləbi. Qısas, 94-140; əl-Kisə'i. Qısas, 195-227; əl-Beydavi. Təfsir, 1, 337-348, 592-605, 2, 48-53; Eisenberg. Moses, 48; Horovitz. Untersuchungen, 148-149; Speyer. Erzählungen, 260-262; Gaudefroy. Demombynes. Mahomet, 365; J.Eisenberg - (G.Vajda). Harun.-EI, NE, 3, 231-232; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 92-93.

**Harut və Marut** - günahlarına görə Babilistanda zindana salınmış iki mələyin adları. Quranda onlar sehri bilib, onu adamlara öyrədən, lakin onu işlətməyin nəticələrindən ehtiyatlı olmağa çağıranlar kimi qeyd ediliblər; «ancaq şeytanlar haqlı deyildilər, onlar insanlara cadunu və Allahın H. və M.-a göndərdiyini öyrədirdilər, ona görə də onlar kafir oldular. Bunları öyrənən insanlar əri arvaddan ayırmağı və başqa pis şeyləri də öyrəndilər, lakin fərqinə varmırdılar ki, cadugərliyə görə o dünyada onlara cəza veriləcək (Q. 2:102/96)».

Qurandansonrakı rəvayətlərə görə Allah insanları Yer üzündəki şirnikdiricilərdən özlərini qoruya və təmiz saxlaya bilmədikləri üçün, onları günahları üstündə mühakimə edən mələkləri məzəmmət etmişdi. Üç mələk yerə enib, özlərinin möhkəmliyini sübut etmək istədilər. Onlardan biri o anda başa düşdü ki, yer üzünün ehtirasları ona qalib gələcək, göyə qayıtdı. H. və M. isə qalıb, gözəl qadınlara aludə oldular və onun təsiri ilə hər cür əməllər törətdilər. bütə sitayiş etməkdən tutub, adam öldürməyə qədər. Onlara günahlarına görə cəzanı nə vaxt almaq istədikləri təklif olundu- bu və ya o Dünyada. Onlar bu dünyanı seçdilər. O vaxtdan da onlar qandallarda, Babilistandakı zindanda susuz, Qiyamət gününü gözləyirlər. Sehrbazlıq etməyi öyrənmək istəyənlər onların yanına gedirlər.

Quranda yəhudi rəvayəti (midraşim) və xristian rəvayətinə («Xəzinələr mağarası») işarə edilir. Midraşim Quranın şərhində istifadə olunub.

H. və M.-un adları müsəlman sehrbazlığında istifadə olunur.

**Ədəbiyyat:** İslam, 275; ət-Təbəri. Tarix, 1, 18; yenə o. Təfsir, 1, 359-369; əs-Sə′ləbi. Qısas, 30-32; əl-Kisə’i. Qısas, 48; əl-Beydavi. Təfsir, 1, 76; E.Littman. Harut and Marut.-Andreas-Festschrift. Lpz., 1916, 70-87; Horovitz. Untersuchungen, 146-150; Beltz. Sehnsucht, 161-162; G. Vajda. Harut va Marut.-EI, NE, 3, 236-237; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 93.

**Haşimilər** - Bənu Haşim, Məhəmmədin (s) ulu babası Haşim b. Əbdul - Manafın nəsilləri, Peyğəmbərin (s) aid olduğu nəsil.

1) H.-lər Məhəmmədin (s) taleyində, onun vəfatından sonra isə ərəb - müsəlman tarixində mühüm rol oynamışlar (bax: əhlü-l-beyt, şərif, seyyid, əl-Ələviyyə, xoca). 2) Onlar bir sıra müsəlman hakimlərinin sülaləsini təşkil etmişdilər. Belə ki, X əsrdən 1924-cü ilədək H.-lər Məkkənin şərifləri, onun hakimləri olmuşlar. Bu sülalənin nümayəndələri (əl-Həvaşim-Haşimilər) ən yeni dövrdə Hicazda (1908-1925), İraqda (1921-1985) hökmranlıq etmişlər. Onlar 1921-ci ildən İordaniya Haşimiyyə krallığında hakimiyyətdədirlər, onların başqa qolu isə Mərakeş krallığında hökm sürürlər (X əsrdən).

**Ədəbiyyat:** İslam, 277; İbn Hişam. Sirə, göst. əsər; Haşim Məhəmməd əl-Haşimi. Əl-Ənvar əl-qüdsiyyə və -l- huləl əs-sundusiyyə fi məhəbbə əd-dauhə əl-haşimiyyə. Əmman; G.de Gaury. Rulers of Mecca. L. , 1951; W.M.Watt. Hashim b. Abd Manaf. EI, NE, 3, 260; G. Rents. Hashimids.-Yenə orada, 262-263; C.E.Dawn. Hashimids.-Yenə orada, 263-265.

**Heydər** – aslanın, şirin ərəbcə adlarından biridir. Bu ad ona ənsəsinin qalınlığı və qabaq pəncələrinin qüvvətli olmasına görə verilib. Əlinin anası Fatimə bint Əsəd əvvəlcə oğluna öz atasının adını – Əsəd (Aslan)

qoymuşdu. Lakin Əbu Talib səyahətdən qayıdandan sonra bu adı Əli (yüksək, ali) ilə dəyişdi (Əli Allahın adlarından biridir – 'aliyyun - yüksək, ali deməkdir). Əli (ə) şeirlərini Heydər təxəllüsü ilə imzalayırdı.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 94.

**Heydəriyyə** (heydərilər) - İran və qonşu ölkələrdə orta əsrlər və yeni dövrdə fəaliyyət göstərən üç sufi və şiə qruplarının ümumi adı.

1. XII əsrdə Xorasanda yaranan, öz banisi şeyx Qütb əd-din Heydər Zəva'inin (vəf. 1221, Türbət-i Heydəri adlanan Zəvada dəfn olunub) adını qəbul edən, olduqca mühüm sufi qruppası (taifə, guruh, cəmāə). Ənənə onu mənşəcə Orta Asiyadan olan, Orta Asiya Əhməd əl-Yəsavi sufi (vəf. 1116) məktəbinin ardıcılı, qələndəriyyə təliminin bəzi halları ilə razı olan türk hesab edir; o, öz ardıcıllarından daim hərəkətdə olmaq (riyadə) və uzunmüddətli qapalı qalmağı -tərkidünyalığı (uzlə) tələb edirdi; əllərində və ayaqlarında dəmir halqalar, boylarında boyunbağı, qulaqlarında sırğa, barmaqlarında və cinsiyyət orqanı üzərində (qadınla görüşə mane olmaq üçün) üzük daşımaq adətini məhz o həyata keçirib. H. əvvəlcə bölgədə, o cümlədən Suriya, Kiçik Asiya və Hindistanda tez yayıldı, lakin tezliklə qrupun üzvlərinin gündəlik həyatda rəhbər tutacaqları qaydaların sərtliyindən onun şöhrəti düşdü, tərəfdarlarının sayı ciddi surətdə azaldı, icmalar ya dağıldı, ya da o vilayətlərdə yayılan qələndəriyyə qruplarına qarışdı.

2. Başqa adı-Mirheydəri. XIV əsrin sonu XV əsrin əvvəllərində İranda yaranıb, bütün ölkəyə yayılan şiə (imami) qardaşlığı. Banisi-öz mənşəyini imam Museyi əl-Kazıma aparıb çıxaran Sultan Mir Heydər Tunidir (vəf. 1427, Təbrizdə). O, Bakıda anadan olub, çox səyahət edib, imami şiəliyi ideyasını təbliğ edirdi, Tun şəhərində (Xorasan) məskunlaşır. XV əsrin 10-cu illərində Təbrizdə yerləşir, şiəliyə meyl edən Qara Yusif (1389- 1420) və İskəndər b. Yusuf (1420- 1438) Qaraqoyunlunun dəstəyini alır. H. şəhərlər, böyük kəndlərdə sənətkarlar, tacirlər və satıcılar arasında böyük təsirə malik idilər, onların hər birində seçilmiş rəhbərin başçılığı ilə icma (heydəri-xanə) təşkil edirdilər, cəm şəklində bir-birinə qonşuluqda yaşayırdılar (məs: Şirazda 5, Dizfulda 3, İsfəhanda 6 və s. məhəllə var idi) və bayram günlərində xüsusi paltar geyirdilər, beş dəfə qatlanmış çalma, çiyinlərində qoyun dərisi gəzdirirdilər; sağ əllərində çomaq, sol əllərində çoban tütəyi tuturdular. Onlar imami şiəliyini dəstəkləyirdilər, ilk üç xəlifə və Peyğəmbərin əshabələri haqqında açıqca pis danışdırdılar. (Əvvəlcə şafei məzhəbli sünni olan) nemətullahiyyə qardaşlığı sünni sülaləsi Ağqoyunluların dəstəyi (əsasən Uzun Həsənin 1468-1478) ilə Təbriz və İranın başqa şəhərlərində möhkəmlənəndə H.-in şəxsində qəddar düşmən və rəqiblə üzləşdilər. Düşmənçiliyə səbəb dini motivlər idi və əsasən o, ya məhərrəmlik və ya müsəlman bayramlarında baş verirdi. Hər iki şəhər

icması (heydəri-xanə və neməti-xanə) üz-üzə gəlib yumruq davasına başlayır, qan tökülür, xəsarət alanlar olurdu. Hakimiyyət nəinki bunun qarşısını almırdı, əksinə ictimai narazılığı başqa səmtə ünvanlamaq üçün onları qızışdırırdı. Məhəmməd şah Qacar vaxtı (1834-1848) İran şəhərlərinin bu ictimai narazılığa qarşı mübarizəsi başladı, lakin bu bir nəticə vermədi, ancaq XX əsrin 20-30-cu illərində hakimiyyət tərəfindən dörd əsirlik əlbəyaxa vuruşlarına son qoyuldu.

3. Türkmən qəbilələri arasında yaranmış, XV əsrin 60-cı illərində Anadolu, Suriya və Azərbaycana köçmüş və özlərini sufi hərbi-ruhani səfəvi ordeninin (banisi Şeyx Səfiəddin İshaqi, 1252-1334) beşinci pir-i mürşidi Heydər b.Cüneydin müridləri və ardıclları sayan «qatı» şiələr (qulat) icması. Heydər b. Cüneyd 1469-1488-ci illərdə ordenin başçısı olmuşdur və məhz o, orden tərəfdarları üçün fərqli baş örtüyü (tac) daşımaq adətini irəli sürmüşdü (12 bükülü, 12 rəngli qırmızı papaq). Burandan da onun tərəfdarlarının (sonra da Səfəvilərin) qızılbaş ləqəbi irəli gəlir. Heydəriyyələr Əlini ilah və ya haqq, şeyx Heydəri (sonradan onun oğlu I İsmayılı Əlinin mücəssəməsi hesab edirdilər. Onlar qəlbən inanırdılar ki, ruhların köçürülməsi (tənəsux) var, onların mürşidi günahı bağışlaya bilər. Quran xəlq edilmişdir və Məhəmmədin (s) vəfatından sonra o, Əməvilər tərəfindən təhrif edilmişdir. Ona görə də ilahi kəşflər Quranda deyil Şah İsmayılın («Şeirlər külliyyatı») olan Divan-i Xətaidə təqdim olunmuşdur. I İsmayıl vaxtı ( 1502-1524) H.-nin bir hissəsi fiziki olaraq məhv edildi, başqa hissəsi Kiçik Asiyaya gedib bekdaşiyyə qardaşlığına qarışdı.

**Ədəbiyyat:** İslam, 263-264; Dövlətşah, 192; əş-Şüştəri. Məcalis, 17, 132; Bustan əş-siyahə, 188; Xandəmir. Həbib, 2, 332; Nuzhət əl-qulub, 792-793; Kərbalayi. Rövzət, 1, 467-468, 597-598; Петрушевский. Ислам, 345. Trimingham. İndex. Fasa'i, 161; 264-264.

**Heyz** – qadınların aybaşı adətləri. Hələ İslamdan əvvəl qadınlar heyz halında bayram və qurban ayinlərində iştirak etməzdilər. Bu halda qadın pak sayılmır (natəmizdir) – Qurana əl vura bilməz, məscidə girə bilməz, namaz qılıb, oruc tuta bilməz, ər-arvad əlaqəsinə girə bilməz (bu gigiyena cəhətdən də düzgün deyil). Heyz qurtarandan sonra qadın mütləq qüsl (heyz qüslü) etməli və pak olmalıdır ki, yuxarıda qeyd olunanları yerinə yetirə bilsin.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 94.

**Həbib ən-Nəccar (Dülgər Həbib)** - antakiyalıdır. Ərəblər onun qəbrinin olduğu və çox ziyarət edilən Silpius dağını Həbibin adı ilə adlandırmışlar. Quranda onun adı çəkilməsə də, Yasin surəsində ona işarə vardır: Allah (Antakiya) əhalisini dinə dəvət etmək üçün oraya iki rəsulu (Yəhya və Yunus), sonra da üçüncüsünü (Şəm'un) göndərir. Əhali onları təbliğatdan əl

çəkmək üçün ölümlə təhdid edəndə şəhərin ən uzaq yerindən qaça-qaça bir adam gəlib, şəhər camaatına elçilərin dediklərinə inanmağı nəsihət etdi və öz imanını izhar etdi. Bu vaxt qəzəblənən kütlə ona qarşı çıxıb, üstünə hücum etdilər və bağıraraq (istehza ilə) «Cənnətə daxil ol!» deyib onu öldürmək istədilər. Həbib isə şəhidliyə layiq görüldüyündən sevincini izhar etdi. Ona görə Allah bütün kafirləri yox etdi – bir nida ilə hamısı birdən öldü.

Rəvayətələrdə Dəməşqdə Həbibin cəsədinin öz kəsilmiş başını əlinə alıb üç gün, üç gecə Quran ayələrini yüksəkdən oxuyaraq, şəhəri dolaşdığı təsvir olunur.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 94-95.

<u>**Hədd**</u> («saxlama», «qabağını alma») - mövcud əxlaqi və ictimai qaydalara qarşı cinayətə qoyulan cəza: təhqir etmə, pozğun işlər, yalandan şahidlik, böhtan, sərxoşluq, içki içdirmək, ehtiraslı oyunlar, ticarət qaydalarını pozma, dələduzluq və s. H. ayrıca şəxsiyyətə qarşı deyil, qanuna qarşı cinayət üzərinə qoyulduğu üçün burada tərəflərin barışması və ya bağışlanması heç vaxt ola bilməz və H. hökmən icra olunmalıdır. H. ancaq məhkəmə tərəfindən qoyulur və 40-dan 100-ə qədər şallaq və ya çubuqla zərbə ola bilər, əlavə olaraq ibrətamiz cəza da ola bilər. Cəzanı çəkəndən sonra cəzaçəkən mütləq tövbə etməli və kəffarə verməlidir. H.-in qoyulması üsulu hakimin qərarından asılıdır. Zərbələrin sayı və gücü müəyyən edilir, zərbələr birdəfəlik və ya hissə-hissə vurula bilər. Hər halda zərbələr elə gücdə olmamalıdır ki, cəzaçəkənin daxili orqanları zədələnməsin. Cəzaçəkən zərbələrdən ölərsə, bir məzhəbə görə varisinə diyə verilir, başqa məzhəbə görə onun ölümündə ancaq qanun günahkardır. Qadına cəza veriləndə onu örtüklə örtürlər, kişi isə elə geyindirilir ki, zərbənin gücü azalmasın.

Köhnə osmanlı qaydasına görə H. böyük məbləğli cərimə ilə əvəz oluna bilər, bu qanun müsəlman ölkələrinin çoxu tərəfindən qəbul edilib.

**Ədəbiyyat:** İslam, 261; Əbu Yusuf. əl-Xərac, 178-213; əş-Şeybani. Əl-Cami əs-səğir, 64-70; Meydani. Penal Law, 227, 231; J.Schacht, B.Carra de Vaux. Hadd.-EI, NE, 3, 20-21.

<u>**Hədis**</u> (cəmi əhdəs, əhadis: «yenilik», «xəbər», «hekayə») - hədislər - müsəlman icmasının həyatının müxtəlif dini-hüquqi tərəflərinə toxunan Məhəmməd peyğəmbərin (s) sözləri və işləri haqqında rəvayət. İki hissədən ibarətdir: mətn adlanan informasiya və nəsildən-nəsilə mətni bir-birinə ötürən insanların sadalanması-isnad. H.-in sinonimi \`əsər (cəmi \`āsār) - Peyğəmbərin (s) silahdaşlarına aparıb çıxaran rəvayət və xəbər (cəmi əxbardır).

Hədislər Qurandan sonra ikinci hüquqi mənbə sayılır, sünnə onlara əsaslanır, onlar islam prinsiplərinin və ideyaların mühüm hissəsini özündə cəmləşdirir. Müsəlman fütuhatından və Xilafətin yaranmasından sonra islamın yeni ictimai və fikir hallarına uğyunlaşmaq vasitəsi məhz H.-lər oldular.

VII əsrin ortalarından H.-lərin tematik külliyyatları (müsənnəf) və bir ötürücüdən (müsnəd) alınmış hədislərin birləşmiş külliyyatları hazırlandı. Nüfuzlu H.-lərdən: 1) Əl-Buxarinin (vəf. 870) Əl-Came əs-səhih, qısaca Səhih əl-Buxari, 2) Müslimin (vəf. 875) Əl-Came əs-səhih, 3) Əbu Davud əs-Sicistaninin (vəf. 888) Kitab əs-sünən , 4) Məhəmməd ət-Tirmizinin (vəf. 892) Əl-Came əl-kəbir 5) Ən-Nəsainin (vəf. 915) Kitab əs-sünən, 6) İbn Məcənin (vəf. 886) Kitab əs-sünən əsərlərini qeyd etmək olar. İbn Hənbəlin (vəf. 855) Müsnədi də çox məşhurdur.

İcma həyatının dinin hüquqi və əxlaqi aspektlərinə aid olan H.-lərlə yanaşı Məhəmmədin (s) tərcümeyi-halının sirə əsası olan tarixi H.-lər də vardır. Məhəmməd peyğəmbərin (s) dilindən müxtəlif ərəb qəbilələri və müsəlman aləminin əhalisi haqqında deyilmiş H.-lər (fadail) xüsusi yer tuturlar. Məhəmmədin deyil, Allahın sözləri hesab edilən və H. əl-qüdsiyyəyə daxil olan H.-lər də görkəmli yer tutur.

Müsəlman elmində H.-ləri tədqiq edən xüsusu fənn yarandı, o, H.-lərin dürüstlük dərəcəsini isnadın etibarlılığı yolu ilə təyin edirdi. H.-lərin ötürücülərinə xüsusi kitab həsr edildi, onları mühəddis adlandırdılar. Onlar ənənəvi müsəlman ideologiyasının daşıyıcıları idilər və dinin əsaslarına yenilik gətirənlərə qarşı amansız idilər. H.-lərin toplanması orta əsr müsəlman mədəniyyətinin elm axtarışında səyahətinin əsas mövzusu idi. H.-lər hər bir elmi əsərin dəlilinin mühüm hissəsi idi. Onlar həm də yayılmış hikmətli sözlər və zərb-məsəllər kimi istifadə olunurdular. H.-lərin mühüm hissəsi İslamın yaranması dövrünün real hadisələri və hallarını həqiqətən əks etdirir. Onların böyük bir hissəsi də İslamın sonrakı mərhələlərinin dini sisteminin inkişafına aiddir. Bir-birinə zidd məzhəblər arasında yaranan H.-lər məhz həmin məzhəbin düzgünlüyünü təsdiq edirdi. H. şəklində İslama İslamı qəbul etmiş xalqların çoxlu mədəni və ideya irsi daxil oldu. Beləliklə, H.-lər İslamın müxtəlif inkişaf mərhələlərinin mühüm abidəsidir. H.-lərin şərqşünasların tənqidi hücumlarından müdafiəsi müasir müsəlman ənənəçilərinin əsərlərinin sevimli mövzusudur.

**Ədəbiyyat:** İslam, 262-263; Петрушевский. Ислам, 123-131; Прозоров. Шиитская историография, 23-29; MST. 2; GAS. 1, 51-84; G.Juynboll. The authenticity of the tradition literature; Discussions in moderne Egypt. Leiden, 1969; yenə o. Muslim tradition: Studies in chronology, provenance and authorship of early hadith. Cambrige, 1983; J.Robson. Hadith.-EI, NE, 3, 24-30.

**Həfsə** - Xəlifə Ömərin qızı və Peyğəmbərin (s) arvadı. Birinci əri qüreyşi Hümeys ibn Hüzafə idi, lakin o, Bədr döyüşündən bir az sonra vəfat etdi. Uşaqları olmayıb. Bu vaxt Həfsənin 20 yaşı var idi. Ömərin köməyini almaq üçün Peyğəmbər (s) Uhud «günündən» sonra Həfsə ilə evləndi. Bir ara Peyğəmbər onu boşadı, lakin sonra dini fəzilətlərini - yəni namaz qılıb, oruc tutduğu üçün Allahın əmrilə nikahı təzələdi. Həfsə Aişə ilə eyni səviyyədə olaraq, Peyğəmbərin (s) başqa arvadlarından üstün mövqedə idi və bütün nüfuzunu «üçlər»in - yəni, Əbubəkr, Ömər və Osmanın Peyğəmbərə (s) xələf olmasına çalışan dəstənin məqsədi uğrunda işlədirdi. Başqa arvadlar kimi Xeybər qənimətlərindən ona da bir hissə çatmış və Peyğəmbərin (s) vəfatından sonra özünə divanda qeyd edilən və təqribən 10 min dirhəm miqdarında olan illik təminat almışdı. (Peyğəmbərin (s) Fədəkdən qızı Fatiməyə ayırdığı payı isə o vəfat edəndən sonra Ömər Fatiməyə verməkdən imtina etmişdi). Həfsə mütəmadi fəaliyyət göstərən Aişənin tam ziddinə olaraq, təvazökar idi. Peyğəmbərdən (s) uşağı olmayan Həfsə hicrətin 45-ci ilində 60 yaşında Mədinədə vəfat edib.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 97-98.

**Həkəm** («müdrik») - məhkəmə və ya hakim kimi müxtəlif məsələlərin həlli üçün müraciət olunan adi hüquq bilicisi. İslamaqədərki Ərəbistanda H. qəbilə başçısı (şeyx), hərbi rəis (qaid) və kahinlə yanaşı qəbilənin əyanlar zümrəsinə daxil idi. İslamın ilk onilliklərində H. xəlifə tərəfindən onu əvəz edən ruhani hakim-qazi təyin edilənədək öz mənsəbini saxladı. Bəzən H. qazi təyin olunurdu, məs: Kufə ətrafında yaşayan qəbilələrin H.-i olmuş və bu şəhərdə də qazi təyin edilmiş Şüreyx əl-Kindi kimi.

Öz rəsmi statusunu vaxt keçdikdən sonra itirən H. hələ uzun müddət ona hakim kimi müraciət edən özünün və qonşu qəbilələrinin hüquq nüfuzlusu kimi qalmaqda davam edirdi.

**Ədəbiyyat:** İslam, 264; Schacht. Background, 29-33; E.Tyan. Hakam-EI NE, 3, 72.

**Əl-Həllac**, Əbu-l-Muqis əl-Hüseyn b. Mənsur (təx. 858-922) - öz möizələrinə görə edam edilmiş görkəmli sufi İranın cənubundakı Beyda kəndində anadan olmuşdur. Onun babası zərdüşti olmuş, atası İslamı qəbul etmişdi. O kiçik yaşlarında olarkən (pambıq darayan, buradan da onun əl-H. ləqəbi yaranmışdır) atası Vasit şəhərinə köçür. Bu şəhərdə əl-H. təhsilini alır, 16-17 yaşlarında o, Tüstəri şəhərinə gedib orada məşhur sufi Səhl ət-Tüstərinin (vəf. 896) şagirdi olur. 876-cı ildə o, Bəsrəyə gedib sufi Əmr əl-Məkkinin (vəf. 908) yanında oxudu, ondan sufi xirqəsi aldı. Burada o, sufi zahidi əl-Aqtanın qızına evlənir. Öz qaynının yolu ilə əl-H. bir müddət şiə ideyalı olan qul-zincilərin hərəkatı ilə bağlı oldu. Sonradan bu qısa

müddətli əlaqə əl-H.-ın düşmənlərinə onun şiə təbliğatçısı olduğunu (də'i) elan etmələrinə əsas oldu. Əl-Məkki ilə (878) küsəndən sonra o, Bağdada gedib, orada böyük sufi nüfuzu əl-Cüneydlə (vəf. 910) görüşür. Bir müddət sonra o, ilk dəfə Məkkəyə ziyarətə gedir və özünü çətin sınaqlara məruz qoyur (istirahətsiz orucluq, cürbəcür əhdlər və s.). Həccdən qayıdandan sonra əl-H. sufi «həqiqət»i haqqında açıq təbliğatla çıxış etdi, bu, sufi şeyxlərinin narazılığına səbəb oldu, onlar fəqihlərin təqibindən qorxurdular. Bir çox sufilər onunla əlaqəni kəsdilər, lakin o, şəhər kasıbları arasında çoxlu tərəfdar qazandı. Elitar sufiliyə etiraz olaraq əl-H. sufi geyimindən imtina edib, adi döyüşçü geyimi (qəba) geydi. Beş il ərzində o, Xorasanın şəhər və kəndlərində möizələr oxudu. Bir müddət səyahətdən sonra o, yenidən Həccə ziyarətə gedir. Rəvayətə görə onu 400 şagirdi müşayiət edirdi. Məkkə sufiləri onu «ilahi sirrləri» açıqlamaqda (bax: kəramət) və şarlatanlıqda (şə'vazə) günahlandırdılar. Həccdən sonra o, yenidən səyahətə, bu dəfə Hindistan və Türküstana gedir. Bağdada qayıdandan sonra o, hökümət əleyhinə bir sıra möizələrlə çıxış etdi. Onun «kürsüsü» bazar meydanı, dinləyiciləri isə baqqallar, sənətkarlar və şəhər yoxsulları idilər. Əl-H.-ın möizələri xalqı oyadırdı: onun təfərdarları onda əl-Mehdi və «müqəddəs» əl-qütbü görürdülər. Bağdad fəqihləri, mötəzililər, sufilər və varlı təbəqədən ibarət düşmənləri isə xalq narazılığından qorxub, onu cürbəcür şeylərdə günahlandırırdılar. Özünün ekstatik çıxışlarında o, öz kəndlilərinin əlində ölməyə hazır olduğunu deyirdi (əgər bu icmanın xeyrinə olarsa). Müsəlman müəllifləri iddia edirlər ki, məhz bu vaxt o, «Mən Allaham» (ənə -l- Haqq) demiş, vəzir İbn əl-Furatın təqibindən qurtarmaq üçün Susa qaçmış (908), üç ildən sonra tutulub Bağdada gətirilib həbsə salınır, üç gün biabırçılıq sütunu yanında saxlanır (913). Vəzir İbn İsanın köməyi sayəsində o, ölüm qərarından qurtarır, lakin ömrünün qalan hissəsini həbsdə keçirir. Əl-H. həbsdə yeganə nəsr ilə olan traktat - Kitab ət-təvasini yazmışdır. 922-ci ildə vəzir Həmid onun ölüm hökmünə nail olur. Maliki İbn Yusuf əl-H.-ın müdafiəçilərinin cəhdlərinə baxmayaraq ölüm hökmü çıxarır. Sonrakı sufi təlimlərində əl-H.-ın təlimini vəhdət əş-şuhud adlandırdılar. Öz sufi sələfləri kimi əl-H.-da sufinin son məqsədini Allahla görüşü bilirdi.

Əl-Həsən əl-Bəsriyə istinad edərək əl-H. sufinin həyatını üç mərhələyə bölürdü: 1) «hazırlıq» (təhzib); 2) «təmizlənmə» (xələ'); 3) Allahla birləşmək ('ayn əl-cəm') və öz «mənini» tam itirmək (raf' əl-əniyə). Əl-H.-ın poetik əsərlərində islam tərəfindən sərt pislənən «ilahiləşmə» (hubul) və «Allahla birləşmə» (ittihad) haqqında təlimin elementləri var idi. Lakin ümumi konteksdən onun Allahla qovuşması substantiv deyil, «məhəbbətlə birləşməsi» başa düşülür. Əl-Cuneyd Allahla yaxınlışmanı şəxsiyyəti öldürən sərt zahidlikdə, əl-Bistami «mənin» Allahla yaxınlıq vaxtı

huşyarlıqda əriməsində görürdürlər. Əl-H.-da isə Allahla birləşməkdə şəxsiyyət «məhv olmur» və «sıxışdırılmır», əksinə Allah onu «kamilləşdirir» və «nurlandırır». Sufi keyfiyyətlərini itirməyərək, Allahın maddi aləmdə canlı «şahidi» olur.

Əl-H.-ın açıq tərəfdarları Bağdadda edam edildilər. Bəziləri Xorasan və Xilafətin başqa əyatlərində sığınacaq tapdılar. Onların vasitəsilə əl-H. haqqında xəbərlər müsəlman aləminə yayıldı. Sonrakı sufi nəsli əl-H.-ı həqiqi «müqəddəs» (vəli) kimi tanıdı. Əvvəlcə hulul və ittihadı şərh edən məktəbləri, sonra isə onun «müqəddəsliyini» qəbul edən və onun öz əməlləri üçün məsuliyyət daşımalı olmadığını iddia edən ilahiyyatçıları əl-H.-iyyə adlandırmağa başladılar. H.-ilər arasında aşağıdakıları qeyd etmək olar: öz həmkarlarının (fəqihlərin) təsiri altında əl-H.-a hörmət etməkdən imtina etməyə məcbur olan hənbəli İbn Aqil, şafei mütəkəllimlər əl-Qəzali, əl-Yəfi'i, Fəxrəddin Razi, sufi və filosoflar İbn Xəfif, əs-Süləmi, Yəhya əs-Söhrəverdi, İbn Tüfeyl, İbn Ərəbi, Cəlaləddin Rumi və başqaları. Bəzi sufilər bitərəf qaldılar. Onun möizələrini mühakimə edib, baxışlarını rədd edənlər: Zahiri İbn Həzm, hənbəli İbn əl-Cözi və İbn Teymiyyə, imamlar İbn Babuyə, Cəfər ət-Tusi, əl-Hilli və s.; şafei əz-Zəhəbi, əl-Cüveyni və əl-Baqillani. Məşhur tarixçi maliki İbn Xəldun da əl-H.-ı tənqid etmişdir.

Sufi fəlsəfəsində əl-H.-ın ideyaları Şeyx əl-işraq əs-Söhrəverdi, İbn Ərəbi və onun məktəbinin nümayəndələri və Cəlal əd-din Rumiyə daha çox təsir etmişdi.

**Ədəbiyyat:** İslam, 269-270; Hallaj. Kitab al-Tawasin-MUSJ. 1972, 47, 185-238; Əxbar əl-Həllac; L.Massignon. Diwan d'al. Hallaj. P. 1955; yenə o. Passion; Anawati Gardet. Mystique, Index; GAS. 1, 651-653; R.Arnaldez. Hallaj on la religion de la croix. P., 1964; L.Massignon. Opera Minora. 2. Beyrouth, 1968, 11-342; Abd əl-Baqi Surur. Əl–Hüseyn b. Mənsur əl-Həllac şəhid ət-təsəvvüf əl-islami. Qahirə; И.Ю.Крачковский. Рассказ современника об ал-Халладже. ЗВОРАО, 1911-1912, 21, 0127-0141; L. Massignon, L.Gardet. Al-Halladj. - EI, NE, 3, 102-106;

**Həlimə** - Bənu Sə'd ibn Bəkr qəbiləsindən qadın olub, ənənəyə görə Peyğəmbərin (s) süd anasıdır. O, bir qıtlıq ilində qəbiləsindəki başqa qadınlarla birlikdə Məkkəyə əmizdiriləcək uşaq axtarmağa gəlir. Nəhayət anadan yetim qalan Məhəmmədi ona süd oğlu kimi verdilər və buna görə onun ailəsi ən böyük səadətə çatdı.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 98.

**Həmail** – amulet, talisman, sinonimi hurz (əhraz), həmayə, hafiz, ´üza, mə´azə, nüsxə, tilsəm və ya tilasim və s. İlahiyyatçılar daim H.-i mühakimə etsələr də, xalq arasında o, çox yayılmışdır. Onu adətən dərvişlər və

türkəçaraçılar hazırlayırdılar. O, vərəq, kiçik kitabça, balıqqulağı, daş, sümük, xüsusi düzəldilmiş bəzən qiymətli əşya ola bilər, çox vaxt da üzərində dini yazılar olur. Onları medalyon, qutu, cüzdana qoyur və ya dəri kisəciyə tikirlər. Onların ölçüsü cürbəcür olur, onların üzərində «əl-əsma əl-husnə»-Allahın yüz adı, mələklərin (Mikayıl, Cəbrayıl, Əzrayıl, İsrafil) adları, Quran ayələri, xüsusən (1, 2:255/256; 9:129/130; 113) və s., astroloji rəmzlərin fiqurları da geniş istifadə olunurdu ki, bu da pis gözdən, ilandan, əqrəbdən, bədbəxt hadisələrdən və s. qorumalı idi. H.-lərin və amuletlərin yaranması və hazırlanması Hz. Adəmin (ə), çar Süleymanın, Cirmis əl-Müsəlləsin və s. adları ilə bağlıdır.

**Ədəbiyyat:** İslam, 271; M.Ulimann. Die Natur and Geheimurissenschaften in İslam. Leiden, 1972 (Handbuch der Orientalsitik. Erste Abteilung. Ergänzugsband 6, 2. Abschnitt), 135-426; B. Carra de Vaux. Hama`il. -EI, 2, 258-259; Z.Ruska. Tilsam - Yenə orada, 4, 830.

**Həmzə** - Əbdül-Müttəlibin oğlu və Peyğəmbərin (s) əmisidir, künyəsi Əbu Yə′lə və ya Əbu Ümərə olub, anası Halal bint Vühəybdir. Onun eyni zamanda Peyğəmbərin (s) süd qardaşı olduğunu da rəvayət edirlər. Həmzənin İslamın yaranmasında böyük rolu olub. O, qüvvətli cəngavər idi, qardaşı oğlunu müdafiə edirdi. Bir dəfə ona Məhəmmədin incidilməsini xəbər verirlər. O, dərhal həmin adamı tapıb, oxun kamanı ilə onun başına vurub deyir ki, «kim bir də mənim qardaşım oğlunu incitsə, mənə cavab verəcək». Sonra da İslamı qəbul edib, Məhəmmədin köməkçisi oldu.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 98.

**Hənbəlilər-əl-Hənəbilə** - öz banisi Əhməd b. Hənbəlin adını daşıyan dörd qanuni sünni məzhəblərindən birinin tərəfdarları. Başqa məzhəblərdən fərqli olaraq hənbəlilik dini-siyasi hərəkat kimi yarandı, sonra isə ehkami-hüquqi məktəb kimi təşkil olundu. Öz dövrlərini müsəlman icmasının parçalanması dövrü hesab edən hənbəli baniləri böhranın əsas səbəbini kəlamın geniş yayılması, onun ehkam və hüququn rasional üslublarında görürdülər. Peyğəmbər (s) sünnəsini nüfuzlu mənbə sayırdılar. «Əs-sunnə tufəssiru -l-Quran» (Sünnə Quranı təfsir edir). Onlar hədislərin nüfuzlusunu Quran mətninin səviyyəsinə qaldırırdılar. H. Quranın və hədislərin hərfi (alə zahirihi) və alleqorik təfsirinə qarşı çıxıb, dinin ehkamlarının hər hansı rasional şərhinin mümkünlüyünü rədd edirdilər, Quran və hədislərə birbaşa istinadı olmayan bütün yenilikləri (bid'ə) rədd edirdilər, onlar haqlı və ya haqsız olsalar da, hakimiyyətin tələbini yerinə yetirməyi vacib sayırdılar.

Artıq X əsrin birinci yarısında H. bütün müsəlman icmalarının birləşməsi ideyasını tərk etdilər, onlar «sünnə» tərəfdarlarını, deməli

özlərini elitar hesab edirdilər. Onlar öz əxlaqı-hüquqi sistemlərini yaradıb, bununla dinin təmizliyini saxlamaq istəyirdilər.

Hənbəli məzhəbi XI əsrdə yaransa da, hənbəli hüququna dair ümumiləşdirici əsərlər çox gec yarandı. Onlardan biri Müvəffəq əd-din b. Qudəmənin (1146-1223) Kitab əl-ümdə fi əhkam əl-fiqh, o birisi isə İbn Teymiyyənin XIII əsrdə yazdığı Əs-Siyasə əş-şər′iyyə əsərləridir. Hənbəli hüququnun əsas mənbələri Quran və Peyğəmbərin (s) sünnəsidir. Onlar bütün rasional üsulları rədd edib, əl-qiyası (oxşarlıq mühakiməsini) tətbiq etməyi qanuniləşdirdilər.

Hənbəli ideyası İraq, Xorasan, Suriya, Hicazın orta və aşağı təbəqələrinin dəstəyini qazanmışdı. Sünni «möminliyinin» daşıyıcısı olan Hənbəli bir neçə dəfə kütləvi şəhər hərəkatına başçılıq etmişdilər. Hazırkı vaxtda onların yenilikçi mübarizələri vəhhabilər tərəfindən bərpa olundu. Hənbəli ideyası «Müsəlman qardaşları» tərəfindən geniş istifadə olunur. Hənbəli ehkami-hüquqi məktəbi Səudiyyə Ərəbistanı tərəfindən rəsmi surətdə qəbul olunub.

**Ədəbiyyat:** İslam, 271-272; İbn Hənbəl. Müsnəd; İbn Bəttə. Əl-İbanə; İbn əl-Cövzi. Təlbis; yenə o. Mənakib; İbn Əbi Yə′lə. Təbəqat əl-hənəbilə; İbn Qudəmə. Təhrim ən-nəzər fi qütb əhl əl-kəlam. Ed. and transl. by G.Makdisi. L., 1962; İbn Bədran. Mədxəl ilə məzhəb əl-hənəbilə (Beyrut); Петрушевский. Ислам, 140-141; Д.В.Ермаков. Ахмад б. Ханбал и начало ханбалитства.-Религия мира, 1984, 75-190; yenə o. Нововедение–бид′а в раннеханбалитской идеологии.-ПП и ПИК НВ. 1985, 1, 144-150; А.Д.Кныш. Ханбалитская критика суфизма-(по материалам «Талбис Иблис» Ибн ал Джаузи).- Yenə orada, 170-175; Goldziher. Die Zahiriten, İndex; Patton. Ahmad ibn Hanbal; İ.Goldziher. Zur Geshichte der hanbailitishen Bewegungen.-ZDMG. 1908, 62, 1-28; H. Laoust. Le premcis de droit d′İbn Qudama. Damas, 1950; yenə o. Les premieres proffessions; yenə o. La profession; yenə o. Le hanbalisme; L.Gardet. İmportanse historique dy hanbalsime d`apres un livre recent. -Arb. 1959, 6/3, 225-232; H.Laoust. Le hanbalisme sous les Mamalouks Bahrides (658-784/1260-1382)-REI. 1960, 28/1, 1-72; M.Allar. En quoi consiste İ'opposition faite a al-Ash′ari par ces contemporains hanbalites? -Yenə orada, 1960, 26/1, 93-105; M.Seal. Müslim Theology. L., 1964, 96-126; Makdisi. İbn ′Aqil. İndex; Z.Ahmed. Ahmad b. Hanbal and the problem of «İmam». – ISt. 1975, 12/4, 261-270; yenə o. Some aspects of the political theology of Ahmad b. Hanbal. - Yenə orada, 1973, 12/1, 53/66; D.Gimaret. Theories de I'acte humain dans I`ecole hanbalite.-BEO, 1977, 29, 157-178; G.Makdisi. The Hanbali İslam. Oxf., 1983; Laoust. Les schismes; yenə o. Al-Hanabila.-EI, NE, 3, 161-166; bax, Əhməd b. Hənbəl, İbn Teymiyyə, əl-vəhhabiyyə məqalələrinə.

**Hənəfilər-əl-Hənəfiyyə** - (öz banisi Əbu Hənifənin (vəf. 767) adı ilə bağlı olan hənəfi məzhəbinin ardıcılları), VIII əsrdə İraqın Kufə şəhərində yaranıb. Onun ən nüfuzlu şagirdləri Əbu Yusuf Yaqub (vəf. 795 m.) və Məhəmməd ibn əl-Həsən əş-Şeybanidir (vəf. 805 m.). Əbu Yusuf Yaqubun vergilər və dövlət hüququndan bəhs edən «Kitab əl-Xərac» əsəri, əş-Şeybaninin isə məzhəbin ana kitablarından sayılan «Kitab əl-əsl» (və ya Əl-Məbsut), «Əl-Cami əs-sağir» və «Əl-Cami əl-kəbir» əsərləri qalmışdır. Məzhəb yaranandan sonra şərqə yayılıb Xorasan və Məvaraənnəhrdə geniş təşəkkül tapır. Abbasi xilafətinin süqutu ilə tənəzzülə uğrayan hənəfilik Osmanlı dövlətinin qurulması ilə yenidən dirçəlir. Bu məzhəbin xüsusiyyətləri: Quran bütünlüklə və sözsüz hüquq mənbəyi kimi qəbul olunur: sünnə, hədislər diqqətlə seçildikdən sonra müstəqil mənbə kimi qəbul olunur; sələflərindən irsən götürülmüş (əl-icmanın) razılaşdırılmış rəyi o vaxt nəzərə alınır ki, əgər onlar həqiqi hədislərin ötürücüləri tərəfindən irəli sürülür. Hər hansı həqiqi material üzərində analoji fikir yürütmək (əl-qiyas) qurmaq olar, lakin mütləq dərin məntiqə əsaslanmalıdır. Əgər qiyasla həll olunan məsələ zərərli nəticəyə gətirərsə, əl-istihsana üstünlük verilir.

Hənəfi məzhəbi adi hüququ (urf) köməkçi, lakin hüququn asılı olmayan köməkçi mənbəyi kimi geniş istifadə edir, bu da başqa din sahibləri ilə işgüzar əlaqələrin yaranmasına xidmət edir. Bu səbəbdən hənəfi məzhəbi Anadolu, Balkanlar, Şimali Qafqaz, Qara dəniz sahili, Volqaboyu, Orta Asiya, Əfqanıstan, Hindistan, Çin, İndoneziyaya yayıldı. Qızıl Orda xanları, Böyük Monqollar, Osmanlı imperiyasının sultanları hənəfi idilər. Keçmiş SSRİ-nin müsəlman xalqlarının çoxu (Azərbaycan və Orta Asiyada kiçik qruplardan başqa), Bolqarıstan və Yuqoslaviya hənəfi məzhəbinə aiddirlər.

**Ədəbiyyat:** İslam, 273; Əbu Zəhra. Tarix əl-məzahib, 2, 160-174; Die Classen der hanefitischen Rechtsgelehrten von G.Flügel. (lpz, b.r.), 269-281; Mahmassani. Falsafat al-tashiri, 19-24; W. Heffening, J.Schacht. Hanafiyya. - EI, NE, 3, 162-164; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 98-100.

**Hənif** - mömin adam, təkallahlığa düzgün xidmət edən (inanan). Müsəlman rəvayətinə görə bu istilahla islamaqədərki Ərəbistanda xristian və yəhudi olmayan, qəbilə bütlərinə sitayişi rədd edən adamları, zahidləri, mərasimi təmizliyə riayət edənləri, tək Allaha inananları qeyd edirdilər.

Quranda H.-lə İbrahim adlanmışdır, onun dini-həqiqi təkallahlılıq Məhəmməd (s) tərəfindən yaranmışdır. H. çoxallahlı bütpərəstlər, həm də yəhudilər və xristianların təhrif olunmuş təkallahlığına qarşı qoyulur: İbrahim haqqında xüsusilə deyilir ki, o, nə yəhudi, nə də xristiandır, H.-dir,

müsəlmandır. H. Quranda Mədinə dövründə müsəlmanın sinonimi kimi yaranır. İbn Məsudun oxusuna görə Quranda hətta hənifiyyə istilahı da olub və başqa mətnlərdə o, islam istilahı ilə əvəz olunub (məs: 3:19/17). Bəqərə, 135-də (Yəhudilər və xaçpərəstlər müsəlmanlara): «Doğru yolu tapmaq üçün yəhudi, yaxud xaçpərəst olun!» dedilər. (Ya Məhəmməd!) Sən de: «Biz batildən haqqa tapınan hənif İbrahimin dinindəyik, çünki o, Allaha şərik qoşanlardan deyildi.»

VIII-IX əsrlərdən müsəlman ədəbiyyatında H. əsasən «müsəlman» anlayış ilə eyniləşir, İslamın H. dini olduğu mənasını verməsi kimi yayılırdı. Bu istilah özlərini H. adlandıran sufilər arasında çox yayılmışdı. Xristian ərəb müəllifləri də müsəlmanları bu istilahla adlandırırdılar. XII-XIII ərs tarixi ədəbiyyatda bütpərəst əcdadları H. adlandırırlar, onların hənifiyyəni qəbul etdiyi barədə rəvayətlər düzəldirlər (məs, Səlcuqların babaları haqqında)

**Ədəbiyyat:** İslam, 273; Lisan əl-ərəb, 10, 403-404; Tac əl-ərus, 5, 77-78; K.C.Кашталева. О термине «ханиф» в Коране. - ДАН. В., 1928, 157-162; Н.Я. Марр. Арабский термин «ханиф» в палеонтологическом освещении.-ИАН СССР, 1929, 7/2; N.A.Faris. H.W.Glidden. The development of meaning of the Koranic Hanif. - JpalOS. 1939-1940, 19, 1-13; EI, NE, 3, 165-166; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 100.

**Hərim – hərəm** («qadağan olunmuş») - 1. Hörmətli sayılan, ictimai binalar və qurğular, ictimai istifadədə olan torpaqlar və kanallar, körpülər, quyular və s. ətrafındakı torpaqlar; H.-ə aid olan torpaqları əkmək, orada tikmək olmaz, çünki oradakı obyektləri ziyarət etmək mümkün olmaz. H. statusu islamaqədərki dövrdən gəlmədir. Onun təxmini qaydalarını Yəhya b. Adəm, Qudamə b. Cə′fər və başqaları vermişlər. Lakin H.-in sərhədləri obyektin özündən, onun mövqeyindən asılıdır. H.-in qaydalarına riayət olunmasına yerli hakimiyyət nəzarət etməlidir. Onun sərhədlərinin pozulması qəsbetmə sayılır və cəzalandırılır. Hazırda şəriət qaydalarının və xalq adətlərinin fəaliyyətində olduğu yerlərdə H. institutu mövcuddur.

2. Yad adamların buraxılmadığı hərəm, yaşayış yeri; adətən bu, ev sahibinin hüququ və vəzifələrinin aid edildiyi qadınlar və kiçik uşaqların, d.d., onun anası, arvadları, qızları, himayə etdiyi qadın qohumları, kənizləri və xidmətçilərinin yaşadıqları yaşayış evləridir. Əlbəttə, hərəmə ancaq ağa-sahib özü daxil ola bilər. H.-ə soxulma ağır qanun pozuntusu hesab edilir. Bunun üçün zərurət olanda qadınlar küçəyə çıxarkən geyinən kimi geyinirlər. H.-ə Quran oxuyan, müəllim və ya musiqiçilər gələndə onlar pərdə arxasında otururlar.

H.-in ölçüsü və onun döşənməsi ailə başçısının ictimai vəziyyətindən asılıdır. Adi ailədə H. qonaq otağından başqa bütün evi tutur. Varlı ailədə

isə H. çox geniş yer tutur və hətta villalar və ya bağlı saraylardan ibarət olur. İslam əxlaqı dörd arvadın hər biri üçün ayrıca ev, xidmətçilər olmasını tələb edir ki, onlar bir-biri ilə rastlaşmasın. Kənizlər isə ağanın istəyi kimi yerləşdirilir.

Adətən H.-in baş qadını sahibin anasıdır, onun sözünü ancaq sahib özü dəyişə bilər. Oğlan uşaqları 8 yaşa qədər H.-də yaşaya bilər. Orta əsrlərdə H.-in qoruğu və xidməti üçün xədimlər, kiçik işləri yerinə yetirmək üçün isə 8-10 yaşlı oğlanlar təyin edilirdi.

Çox böyük H.-lər (onlarla kəniz, yüzlərlə xadiməçilər) rəvayətlərdədir. Hazırda H. başqaları üçün bağlı yer və «ailə» sözünün sinonimidir

**Ədəbiyyat:** İslam, 274-275; Qudəmə b. Cə′fər. Əl-Xərac, 63-64, 95-96; Yəhya b. Adəm. Əl-Xərac, 72-74; Hughes. Dictionary, 163-167;

**Əl-Həsən əl-Bəsri -** Əbu Səid Əbi -l- Həsən Yasir-erkən islamın çox böyük ilahiyyatçısı (642-728), Mədinədə doğulub, 657-ci ildən Bəsrədə yaşayıb və orada da vəfat edib. O, 663-665-ci illərdə indiki Əfqanıstan ərazisində hərbi yürüşdə iştirak edib. İraqın hakimi əl-Həccac olduğu vaxtı (694) Quran mətninin hərəkələnməsi işində işləmişdir. Xəlifə II Ömər vaxtı əl-H. əl-B. Bəsrənin qazisi olmuşdur. Onun ətrafında toplanan ilahiyyat dərnəyi Bəsrə və bütün Əməvi dövlətinin intellektual həyatının mərkəzi oldu. Əl-H. əl-B.-nin öz nüfuzu isə o qədər yüksək idi ki, onu əhl əl-sünnə, mötəzililər və sufilər öz müəllimləri sayırdılar. Bəzi məlumatlara görə onun baxışları olan iradə azadlığı məsələsində o, qədirilərin rəyini dəstəkləyir və iddia edirdi ki, insan bu Dünyada etdiyi əməllərə görə məsul olmalıdır. Mürcii təlimi ruhunda o, deyirdi ki, müsəlman (Cəhənnəmdən) can qurtarmaq və Cənnətdə yer qazanmaq üçün ölümdən əvvəl «Lə ilahə illə -l-Lahi» (Allahdan başqa İlah yoxdur) deməlidir. Xaricilər və mürciilər arasındakı orta mövqeyi o, ağır günah (kəbir) hesab edib, onları münafiq adlandırırdı. Bu mövqe ümmətin vəhdəti və müsəlmanlar arasında silahlı toqquşmaların mühakiməsini istəyən mülayim siyasi baxışı olan ilahiyyatçının mövqeyidir. Onun rasionalist fikirləri və fəqihlərə tənqidi münasibəti də olub.

**Ədəbiyyat:** İslam, 275-276; İ.Abbas. Əl-Həsən əl-Bəsri. Qahirə, 1952; A.Bədəvi. Tarix ət-təsəvvüf əl-islami min əl-bidəyə hattə nihayət əl-qarn əs-sanı. 2 nəşr. Küveyt, 1978, 152-217; Massignon. Essai, 174-201; H.H.Schaeder. Hasan al-Basri.-DI, 1925, 14, 1-75; H.Ritter. Studien zur Geschichte der islamischen Frommigkeit. 1. Hasan al-Basri.-DI, 1933, 21, 1-83; J.Obermann. Politicial Theology in early İslam; Hasan al-Basri's Treatise on Qadar. -JAOS. 1935, 55, 138-162; M.Schwarz. The letter of al-Hasan al-Basri-Or. 1967, 20, 15-30; Watt. Period, 77-81, 99-104; Cook. Dogma, 12-ci başlıq.

**Əl-Həsən b.Əli (ə)** - Əbu Məhəmməd əl-Müctəba (vəf. 669) - Əli (ə) və Fatimənin (ə) böyük oğlu, Məhəmməd peyğəmbərin (s) nəvəsi, ikinci şiə imamı. Anasının erkən vəfatı əl-H.-ə pis təsir etdi. O, gənc yaşlarından guya çoxsaylı nikah və boşanma ilə məşğul olduğu üçün deyilənlərə görə o, Mitlaq («nikahı pozan»), «Əbu Təlaq» (Boşayanların atası, boşayanların böyüyü) ləqəblərini alıbmış. O, tez-tez dörd arvadından birini boşayıb yenisi ilə evlənərmiş. O, həyatı boyu 100 dəfədən çox evlənmişdi. (Şiə din xadimlərinin dediklərinə görə bunların çoxu uydurmadır). Bu Əliyə (ə) pis təsir edirdi, onun düşmənləri bundan ona qarşı istifadə edirdilər. 661-ci ildə Hz. Əlinin (ə) qətlindən sonra əl-H.-i Peyğəmbər (s) yanında böyük xidməti olan ailənin böyük üzvü kimi İraqda xəlifə seçdilər. İraqın Əli tərəfdarları əl-H.-ni suriyalılarla mübarizəyə sövq etsələr də o, müharibə əleyhinə çıxıb, Müaviyə ilə danışığa getdi. Buna onu həm də vadar edən xəzinədə pulun olmaması idi, döyüşçülər isə maaş tələb edirdilər. Seçiləndən 6-8 ay sonra o, Kufə məscidində xilafətdən əl çəkdiyini elan etdi. Bunun əvəzinə kiçik qardaşı əl-Hüseyn (ə) üçün 2 mln. dirhəm təqaüdlə yanaşı özü üçün 5 mln. dirhəm və İran əyalətlərindən birinin daimi gəlirini tələb etdi. Şiə rəvayətinə görə müqaviləyə görə o, İraqı tərk etməli idi və buna görə də Mədinədə adi şəxs kimi yerləşdi. Rəvayətə görə Peyğəmbər (s) əl-Həsən barəsində demişdi ki, mənim bu oğlum sülh tərəfdarı olacaq. Müaviyə üçün artıq o, siyasi təhlükə deyildi. Əl-H.-nin bu hərəkəti Əli (ə) ailəsində parçalanmaya səbəb oldu, bəzisi bunu pislədi, bəzisi ona haqq qazandırdı. Şiələr onu seyyid əş-şühəda adlandırırlar. Bir şiə rəvayətinə görə əl-Mədain yaxınlığında Əlinin (ə) düşmənlərindən biri əl-Cərrah b. Sinan onu ölümcül yaralayır və onu Mədinəyə gətirirlər və o, orada 45 yaşında vəfat edir. Başqa bir rəvayətə görə isə onu arvadının əli ilə zəhərləyib öldürürlər. Şiələr onun ölümündə Müaviyəni günahkar bilirlər.

**Ədəbiyyat:** İslam, 276; ан-Наубахти. Шиитские секты, 129-131; L., Veccia Vaglieri. Al-Hasan b. Ali b. Abi Talib. EI, NE, 3, 247-250; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 101.

**Əl-Həsən** ibn Zeyd ibn Məhəmməd ibn əl-Həsən Əli sülaləsindən olub, Təbəristanda Tahirilərin zülmünə qarşı yerli zadəganların dəvəti ilə Reydən Təbəristana gəlir. O, Əli sülaləsi içərisində əzəmət və səbat sahibi idi. Təbəristan əhalisi və bir qisim deyləmi şeyxləri tərəfindən hökmdar elan edilən əl-Həsən Tahiriləri məğlub edib, Amul və Sari şəhərlərini, sonra da Rey şəhərini tutdu. O, 928-ci ilədək Təbəristanda hökm sürdü. Əl-Həsən dindar idi, şeirləri və fiqhə aid əsərləri vardır.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 101.

**Əl-Həşəviyyə-Həşviyyə** (və ya əhl əl-həşv) həşvilər (və ya həşəvilər) - antropomorfik baxışları təbliğ edən müsəlman ənənəçilərinin ləqəbi. Əl-H. - öz nitqlərini həqiqi və ya apokrifik hədislərlə «başlayan» və «tamamlayanları» bildirir. VIII əsrdə əl-H. «hədis tərəfdarlarına» (əshab əl-hədis) şamil edildi ki, onlar antropomorfik ibarələr işlədirdilər. Quranın əbədi və onun ilahi təyinatı olduğunu qəbul edirdilər. Antropomorfik baxışları ilə məşhur olan erkən H.-lər arasında mənbələr Kəhməz b. əl-Həsən əl-Bəsrini (vəf. 766 Bəsrədə), Əhməd əl-Hüceymini, Mudar b. Xalid əl-Kufini və s. qeyd edirlər. İmami ilahiyyatçısı ən-Naubaxti (vəf. X əsr. əvvəli) mürciilərin bir kateqoriyasını xarakterizə edərək, onları əl-H. adlandırır və məşhur mühəddis və fəqihlər - Süfyan əs-Sauri (vəf. Bəsrədə 777-78), Malik b. Ənəs (vəf. Mədinədə 795), əş-Şafei (vəf. Fustatda 820) və s.-ni onlara aid edir. Mötəzili doksoqraf ən-Naşi əl-Əkbər (vəf. 906) H.-nin imamət haqqında təlimini şərh edərək, onu dörd məktəbə bölür: Kufə, Bəsrə-Vaist və iki Bağdad - cövzilər və validilər (hüseynilər) məktəbləri. Kufə H.-ləri Əlini (ə) Osmandan üstün tutub, eyni zamanda qərara gələ bilmirdilər ki, imamətliyə iddia edən Peyğəmbər (s) tərəfdarlarından hansı haqlıdır. Müəllif H.-lərin Kufə məktəbinə məşhur mühəddislər - Baqi b. əl-Cərrah (vəf. 812), Əl-Fadl b. Dükeyn ( vəf. 834), əş-Şafei və s.-ni aid edir. Bəsrə-Vasit H.-ləri əksinə Osmana üstünlük verirdilər. Onlar Həmmad b. Sələmə (vəf. 763), Yəhya b. Səid əl-Kəttan (vəf. 813) və s.-dir. Bağdad H. məktəblərindən biri «həşvilərin imamı» İsmayıl əl-Cövzinin (vəf. 815) ardıcılları Əlinin (ə) imamətliyini rədd edirdilər. Onların fikrincə o, qarışıqlıq gətirib. Onlardan Yəhya b. Məin (vəf. 848), Əhməd b. Hənbəl (vəf. 855) və s.-ni göstərmək olar. O biri Bağdad H. məktəbi-Validilər ilk islam ardıcılları arasındakı mübarizədə ictihadı qəbul edib, onların hamısını haqlı hesab edirdilər.

Mübahisəli ədəbiyyatda əl-H. çox zaman təhqiramiz ləqəb kimi işlənmişdir.

**Ədəbiyyat:** İslam, 277; ən-Naşi əl-Əkbər. Məsail əl-imamə, 65-67; ан-Наубахти. Шиитские секты, göstər. əsər; аш-Шахрастани. Книга о религиях, 84, 92 100.

**Həvari** (apostol, silahdaş, köməkçi) - islamaqədərki Ərəbistanda H. sözü «İsanın apostolu» mənasında işlənirdi. Elə bu mənada Quranın sonrakı Məkkə surələrində istilah üç dəfə istifadə olunub (3:52/45; 5:111; 61:14). İslamın yarandığı dövrdə Məhəmmədin (s) ən yaxın silahdaşlarını H. adlandırmağa başladılar. Peyğəmbərin (s) Məkkə və Mədinə ardıcıllarının arasındakı rəqabət nəticəsində H.-lərin iki müxtəlif siyahısı meydana gəldi. Birinci siyahıya Mədinənin aus və xəzrəc qəbilələrindən on iki nəfərin adı düşdü, rəvayətə görə onlar Peyğəmbər (s) tərəfindən Mədinədə onun

mövsümi ziyarətə gedən (ikinci Əqəbə) mədinəlilərlə ikinci gizli görüşü vaxtı özünün nümayəndələri (naqibləri) rolunda seçdiyi şəxslərdir. İkinci rəvayətə görə bütün H. Məkkə qəbiləsi qüreyşilərə aid idi. Sonralar sünni ilahiyyatçıları tərəfindən ikinci siyahı düzgün siyahı hesab edildi.

H. sözü olan hədislər əsasən İbn Hənbəl və əl-Buxarinin külliyyatlarında işlənir. Onların hamısı Peyğəmbərin (s) ən yaxın silahdaşlarından – H.-lərdən biri əz-Zübeyr b. əl-′Avvama həsr olunub).

İbn Ərəbidə H. sözü ilə adlananlar o şəxslərdilər ki, onlar Məhəmmədin (s) peyğəmbərlik missiyasının həqiqliyini sübut edən möcüzələr etmək bacarığına malikdirlər.

**Ədəbiyyat:** İslam, 260; İbn Ərəbi. Əl-Fütuhat, 2, 10; Jeffery. Vocabulary, 115-116; A.J.Wensick. Hawari. –EI, NE, 3, 294.

**Həvva** - müsəlman rəvayətləri surəti, Hz. Adəmin (ə) arvadının adı, Bibliya Yevası. Quranda adicə olaraq Hz. Adəmin (ə) «həyat yoldaşı» kimi qeyd edilir. Şərhçilər onun Adəmin (ə) qabırğasından düzəldiyini, onun necə İblisin kələyinə düşdüyünü, Adəmə (ə) çaxır içirdib, onu qadağan olunmuş meyvə ilə məzələnməyə sövq etməyini nəql edirlər. İblisə qulaq asdığına görə Allah H.-nı və onunla birlikdə Hz. Adəmi Cənnətdən qovur və o, uzun vaxtdan sonra Ərəbistanda Ciddədə peyda olur. Hz. Adəmlə (ə) Ərəfat yaxınlığında görüşür, onunla birlikdə həcc ayinlərini yerinə yetirir. O, Adəmdən (ə) az sonra vəfat edir və onunla yanaşı dəfn edilir. Müsəlman rəvayətinə görə H.-nın günahına görə qadınlar fiziki əzaba düçar olmuşlar, hamiləlik, doğuş və s. Rəvayətə görə H. Allahdan söz alıb ki, onun günahına baxmayaraq mömin qadınlar Cənnətə gedəcəklər.

**Ədəbiyyat:** İslam, 260-261; ət-Təbəri. Tarix, 1, 62-150; əs-Sə′ləbi, Qısas, 17-23; əl-Kisə`i. Qısas, 31-42, 50; Horovitz. Untersuchungen, 108-109; Speyer. Erzählungen, 41-94; Beltz. Sehnsucht, 51-64; J.Eisenberg, (G.Vajda) Hawwa.-EI, NE, 3, 295.

**Hicab** («arakəsmə», «örtük», «pərdə») hacəbə (örtmək, «qorumaq») sözündən olub, çadra, paranca, müsəlman qadının küçəyə çıxarkən onun üzünü və bədənini örtən müxtəlif şəkildə tikilmiş parça (paltar). Əslində hicab niqab və ya məcər istilahları ilə də əvəz olunur, üzü örtmək üçün istifadə olunurdu. İslama görə qadının heç bir açıq yeri görünməməlidir. H.-ı əvvəl Məhəmmədin (s) arvadları geyirdilər (örtürdülər). Sonradan bu bütün azad müsəlman qadınlarına şamil edildi. H. əsasən şəhər qadınları tərəfindən örtülürdü, ərəb kənd qadınları və köçəri qəbilələrin qadınları onu geymirdilər və geymirlər. Azərbaycanda isə müsəlman qadınlar əsasən kənd yerlərində güllü parçadan çadra örtürlər, Bəzi ərəb ölkələrində də (olduğum Misir, Yəmən, Suriya, İraq, Səudiyyə Ərəbistanı və s.) qadınların

bir qismi qara, nazik parçadan çarşab örtürlər. Bəzən onu elə-belə adətə görə başlarına atırlar. Mağazaya, iadrələrə giəndə çarşabı çiyinlərinə salırlar. Bakı kəndlərində isə qara parçadan çarşab örtürlər. Əslində xəmsinlər (tozlu, küllü küləklər) məskəni olan əksər ərəb ölkələrində H.-ın hər növü yaxşıdır. Belə vaxtlar, hətta kişilər boyun və ya baş örtüyü kimi istifadə etdikləri şalla (şərf) üz-gözlərini və başlarını möhkəm bürüyürlər ki, qum onları əldən salmasın.

Müxtəlif cür H.-lar vardır: qara və bəzən başqa rənglərdə, bütün əndam üçün və ya xüsusi tordan ancaq göz üçün dəlikli örtüklər, baş üçün qara, yarımşəffaf örtüklər (H.-lar) və s.

Müsəlman ölkələrində demokratik həyat uğrunda mübarizə şüarlarından biri H.-dan imtina etmək idi. H.-dan ilk dəfə nümayişanə imtina etmək XIX əsrin 70-ci illərində Misirdə oldu.

Şəriət sahibləri islamda H.-ı müsəlman əxlaqının zəruri elementlərindən biri elan etdilər. Lakin hazırda müsəlman ölkələrində ən geniş yayılmış H. növü- baş yaylığı, boğaz və əlləri örtən paltardır, bəzən nazik əlcək geyilir.

Qurani-Kərimdə H. haqqında olan bir neçə ayə: Mömin qadınlara de ki, gözlərini haram buyurulmuş şeylərdən çevirsinlər (naməhrəmə baxmasınlar), ayıb yerlərini (zinadan) qorusunlar (və ya örtülü saxlasınlar); öz-özlüyündə görünən (əl, üz) istisna olmaqla, zinətlərini (zinət yerləri olan boyun, boğaz, qol, ayaq və s. naməhrəmə) göstərməsinlər; baş örtüklərini yaxalarının üstünə çəksinlər (boyunları və sinələri görünməsin); zinət yerlərini ərlərindən, yaxud öz atalarından, yaxud ərlərinin atalarından (qayınatalarından), yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud öz qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz (müsəlman) qadınlarından, yaxud sahib olduqları (müşrik) cariyələrdən, yaxud kişiliyi qalmamış (onlarla birlikdə yemək yeyən) xidmətçilərdən (xədimlərdən) yaxud qadınların məhrəm yerlərini hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri bəzək şeylərini (xalxallarını) göstərmək üçün ayaqlarını (yerə və ya bir-birinə) vurmasınlar. Ey möminlər! Hamınız Allaha tövbə edin ki, nicat tapasınız! (Mətləbinizə çatasınız!) (Nur, 31).

(Heyzdən və doğuşdan kəsildikləri üçün) ərə getməyə ümidi qalmayan yaşlı qadınların qadağan olunmuş zinətlərini (zinət yerlərini) naməhrəmə göstərmədən üst paltarını (çarşab, niqab, bürüncək və s.) çıxarmasında günah yoxdur. Bununla belə, (həmin geyimləri soyunmaqdan) çəkinmələri onlar üçün daha yaxşıdır. Allah (hər şeyi) eşidəndir, biləndir! (Nur, 60).

Ya Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin övrətlərinə de ki, (evdən çıxdıqda cariyələrə oxşamasınlar deyə, bədənlərini başdan-ayağa gizlədən) örtüklərini örtsünlər. Bu onların tanınması (cariyə deyil, azad

qadın olduqlarının bilinməsi) və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayandır, rəhm edəndir! (əl- Əhzab, 59).

Onlara (Peyğəmbərin və möminlərin övrətlərinə) ataları, oğulları, qardaşları, qardaşlarının oğulları, bacılarının oğulları, öz (müsəlman) qadınları, sahib olduqları kölə və cariyələr barədə (onlara görünmək, onlarla söhbət etmək xüsusunda) heç bir günah yoxdur. (Siz ey qadınlar!) Allahdan qorxun! (Onun sizə buyurduqlarına əməl edin!) Şübhəsiz ki, Allah hər şeyə şahiddir! (əl-Əhzab, 55).

Ölkəmizdə milli müstəqilliklə əlaqədar olaraq hamı azad surətdə istədiyi dinə qulluq etdiyinə görə son zamanlar müxtəlif cürə hicab növlərindən sitifadə etməyə başlamışlar.

**Ədəbiyyat:** İslam, 278; Chelhod. Hidjab.-EI, NE, 3, 370-372.

**Əl-Hicduvani** - (əl-Hucduvani). Xacə Əbdülxaliq b. əl-Cəmil (Əbdülcəlil) - xocaqan (xacəqan) kimi tanınan Orta Asiya müstəqil mistik məktəbin banisi, sonradan təlimi nəqşbəndiyyə qardaşlıq təşkilatının banisi tərəfindən tam qəbul edilən şəxs Buxara yaxınlığında böyük ticarət kəndi olan Hicduvanda (Hucduvan) imam ailəsində doğulmuş (1180 və ya 1220-ci ildə vəfat etmiş, Hicduvanda dəfn edilmişdir. Q, 22 yaşında Buxaraya gəlib məşhur sufi Əbu Yəqub Yusif əl-Həmədani ilə (vəf. 1140-cı il) görüşür, o, onu sufi qardaşlığına daxil edir və H. ondan ruhani müavininin (xəlifə) xirqəsini qəbul edir.

ƏI-H.-nin görüşlərinin formalaşmasına hiss olunan təsiri məlamətiyyə təlimi və qələndəriyyə hərəkatı etmişdir. Həcmcə böyük olmayan və adətən onun adına yazılan bir neçə əsərlərində əl-H. sufi-asketik təcrübəsi ilə məşğul olan «imanlı» müsəlman mövqeyindən çıxış edirdi: şəriətin və Peyğəmbərin (s) sünnəsinin göstərdiklərini mütləq yerinə yetirmək və sufizmdə olan pis «yenilikləri» kökündən çıxarıb atmaq. O, sakit və dinməz (fikrində), nəfəsini saxlayaraq (həbs-i dil) zikr edirdi, deyildiyinə görə onu yuxuda ona əl-Xıdır aydınlaşdırmışdı. Əl-H. könüllü kasıblığa, dünya ləzzətindən imtina etməyə və ciddi asketizmə çağırırdı. O, hakimiyyət başında duranlarla hər hansı bir əlaqəni pis hesab edib, dövlət xidmətinə daxil olmağa qarşı çıxırdı. Əl-H. öz ardıcılları üçün ciddi əxlaq kodeksi irəli sürmüş və hətta evlənməməyi təbliğ edirdi. O, hücrələrin (xanəgah) tikilməsinə və orada yaşamağa rəğbətlə yanaşmırdı, musiqi ilə həqqaya getməyə (səma) qarşı çıxmayaraq o, hesab edirdi ki, elə şeylər sufilərin dini həyatında əhəmiyyətli dərəcədə az olmalıdır.

Əl-H. öz təlimi üçün səkkiz əsas prinsip hazırlamışdı. Sonralar Bəha əd-din Məhəmməd Nəqşbənd (1318-1389) əl-H.-nin təlimini yenidən işləyib bütün bu maddələri qəbul etdi, oraya üç yeni maddə əlavə edib yeni qardaşlıq - nəqşbəndiyyə və ya nəqşbəndiyyə xocaqan təsis etdi.

Əl-H.-nin bizə qədər aşağıdakı əsərləri gəlib çatmışdır: Risaleyi-təriqət, Risaleyi-Sahabiyvə, Vəsiyyətnamə, Zikr-i Əbdülxaliq Hicduvani.

**Ədəbiyyat:** İslam, 54; Məhəmməd Pərcə. Fəsl əl-kitab. EAŞILŞ əlyazması, V 3695, 97b -101a; Rəşahat, 18-27; Djami. Nafahat, 431-433; Xəzinat, 1, 532-534; В.А.Жуковский. Древности Закаспийского края; Развалины старого Мерва. СПб., 1894, 171-172; Storey, PL, 1/2, 1055; Rizvi. Muslim revivalist, 176-177; Brown. Darvishes, 435-436.

**Əl-Hicrət** («köçmə», «mühacirət»). 1. Hicrət - Məhəmməd (s) və onun tərəfdarlarının Məkkədən Mədinəyə (Yəsrib) köçməsi və hicri tarixinin başlanğıcıdır. Əl-H.-in səbəbi doğma şəhərdə Məhəmmədə (s) qarşı olan pis münasibət və onun təqib edilməsi idi. Özünə ardıcıl axtarması onu Yəsribə gətirib çıxartdı ki, orada onu ərəblər özlərinin rəhbəri kimi qarşıladılar. Məsudi «Tənbih v-əl-işraf» adlı əsərində yazır: Peyğəmbər Məkkədəki səhabələrinə Mədinəyə hicrət etmələri əmrini vermişdi. Bunlar karvanlar halında hərəkət etdilər. Mədinəyə ilk gələnlər arasında sonralar xəlifə olan Ömər də var idi. Şübhə yox ki, hicrətdən əvvəl Mədinə əhalisi ilə bəzi müzakirələr olmuşdu. Axırıncılardan olanlar Məhəmməd (s) və Əbu Bəkr idilər, onlar təqibdən qurtarmaq üçün Yəmən yolunda mağarada bir neçə gün gizləndilər (müsəlman rəvayətləri qeyd edirlər ki, Allah hörümçək göndərir, o, mağaraya girişi torla bağlayır, Onun əmri ilə göyərçin gəlib, orada yuva qurub yumurta qoyur, təqibçilər bunu görüb mağaraya baxmırlar), (bu haqda ət-Tövbə surəsinin 40-cı ayəsində məlumat var: Hər ikisi mağarada olduğu vaxt Peyğəmbər (s) öz yoldaşına dedi: «Qəm çəkmə, Allah bizimlədir»), sonra isə onlar dairəvi yolla Mədinə yoluna çıxdılar. Onların Yəsribə gəlib çatma tarixi 12 rabi I=24 sentyabr 622-ci ildir. Peyğəmbər (s) özündə qalan bəzi əmanətləri sahiblərinə qaytarmaq və onun şəhərdən çıxdığını başa düşməsinlər deyə Əlini Məkkədə saxlamışdı. Əli üç gün Məkkədə qaldı. Peyğəmbəri (ə) öldürmək istəyən qüreyşilər səhər tezdən onun evinə hücum edib, onu öldürmək istədilər, lakin orada Əlini tapdılar, o, qılıncını siyirib onları darmadağın etdi, sonra gedib mühacirlərə qoşuldu.

Yol boyu Peyğəmbəri (s) qarşılayıb, onu öz qəbilələrinə dəvət edən çox olsa da, o, «Qoyun dəvəm yolunu getsin, o, Allahın əmrini yerinə yetirir» deyir. O, Mədinəyə çatdıqda Əbu Əyyub əl-Ənsarinin evində qonaq qalır.

H. islamın yaranması və genişlənməsində həlledici rol oynadı; qohumluq əlaqələrinin qırılması müsəlman icmasını bir qəbilənin dar çərçivəsindən çıxardıb, onun dövlətə çevrilməsi üçün şərait yaratdı, Yəsribin yəhudiləri ilə diskussiyalar dini doktrina hazırlamağa imkan yaratdı.

1. Ömər vaxtı H. yeni ilin başlanğıcı oldu, lakin Mədinəyə gələn tarix yox, həmin ilin məhərrəm ayının biri=16 iyul 622-ci il qərara alındı. H. ilə il təqvimi ay təqviminə (qəməri), əsaslanıb, 354 gündür. İranda isə günəş ili (şəmsi) işlənərək H. ilinə bərabərdir.

2. Həbəşistan H.-i: - müsəlman ənənəsi 615-616-cı ildə Məkkədən Həbəşistana getməyi də H. adlandırır. O vaxt Cəfər ibn Əbu Talibin rəhbərliyi ilə Peyğəmbərin (s) bir neçə tərəfdarının Həbəşistana H.-i olmuşdu. Onların arasında bir neçə qadın, o cümlədən Əbu Süfyanın (sonralar) Həbəş çarı Nəcaşiyə ərə getmiş qızı da var idi.

3. Orta əsrlərdə islamı yeniləşdirənlərin roluna iddia edən müsəlman müxalifət hərəkatları rəhbərləri (xaricilər, əzraqilər, qərmətilər və s.) öz düşərgələrinə köçmələrini də bəzən H. adlandırırdılar.

**Ədəbiyyat:** İslam, 128; Синхронические таблицы для перевода исторических дат по хиджре на еропейское леточисление. Л., 1940; 2-ci nəşr. M.L. 1961; Guillaume. Muhammed, 146-153, 167-169, 213-131; W. M.Watt. Hidjra-EI, NE, 3, 378-379; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 103-104.

**<u>Hisbə</u> -** vicdanın iradəsi və ya xidməti borcuna görə həyata keçirilən şəriət qaydalarına riayət edilməsi üzərində nəzarət, onu yerinə yetirən şəxs möhtəsib adlanır. Bu istilah haqqında ilk dəfə Əlinin (ə) xəlifəliyi dövründə məlumat verilir, lakin H. əvəzinə əmr bi-l-mə'ruf və-n-nəhy ani-l-münkər (xeyrə əmr et, şəri pislə) ibarəsi işlənirdi. Sonradan isə bu ibarə istilahın şərhində istifadə olundu.

H.-yə ya müsəlman əxlaqının bölmələrindən biri kimi ümumi əxlaqi-hüquqi əsərlərdə (məs: əl-Məvardinin Əl-Əhkam əs-sultaniyyə, əl-Qəzalinin İhya ulum əd-din), ya da mühtəsiblərə təcrübəvi tövsiyələrdə baxılır, orada əsas diqqət sənətkarlıq və ticarət üzərindəki nəzarətə verilir (ən erkəni Yəhya b. Ömərin «Əhkam əs-suq» əsəri-IX əsrin ikinci yarısı, lakin H. istilahı orada yoxdur), ən çox mühümləri: əs-Səkatinin «Kitab fi ədəb əl-hisbə»si (Əndəlüs təxm. 1000-ci il), əş-Şeyzarinin Nihayət ər-rütbə fi tələb əl-hisbəsi (Suriya, XII əsrin sonu) və bu əsərin İbn Bəssam tərəfindən hazırlanmış eyni adlı geniş şəkli (Misir, XIII əsrin sonu), İbn Uxuvvənin Mə'alim əl-kubrası (Misir, XIV əsrin əvvəli).

Qədim Roma-Bizans əyalətlərindən olan H. haqqında traktatlar qalanlardan fərqli olaraq təcrübi qaydalar xüsusiyyətlidir və çoxlu tarixi-iqtisadi məlumatları özündə cəm edir. Belə əsərlər Orta Asiyada və ya İranda yoxdur.

**Ədəbiyyat:** İslam, 279; M.Gaudefroy. Demombynes. Sur quelques ouvrages de hisba. -JA. 1938, 230; Cl.Cahen, M.Talbi, R.Mantran, A.K.S.Lambton, A.S.Barmee Ansari. Hisba.-EI , NE, 3, 503-510.

**Hişam b. əl-Həkəm** - Əbu Məhəmməd əl-Kufi (vəf. 814) mövla bənu kind-məşhur mübahisəçi ilahiyyatçı, şiə ehkamını yaradanlardan biri, şiələrin tarixçisi və nəzəriyyəçisi, onun ardıcıllarını «əl-hişamiyyə» adlandırırdılar. Vasitdə doğulub, orada da böyüyüb, Kufədə yaşayıb. İmam Museyi Kazımdan 50 min dirhəm alıb ticarətlə məşğul oldu, Bağdada köçüb orada ticarət evi saxlayıb, Bağdadda vəfat edib.

Cə′fər əs-Sadiqin şagirdi H. b. əl-H. gənc ikən fəlsəfə və ilahiyyat problemlərinə xüsusi maraq göstərirdi. Müsəlman elmlərinin müxtəlif sahələrindəki tanınmış nüfuzlularla ünsiyyəti ona imkan yaratdı, o, şiə ilahiyyatının əsaslarını və incəliklərini tamam-kamal öyrəndi və imamət haqqındakı təlimin böyük bilicisi və nəzəriyyəçisi oldu. O, həm də şiə dairələrinin xristian qnostiklərinin baxışları ilə tanış olmasında görkəmli rol oynadı. Opponentlərinə tez və qətiyyətlə cavab verən bacarıqlı mübahisəçi H. b. əl-H. «mülayim» şiələrin təbliğatçısı və ideoloqları olub, mötəzililər (Əbu-l-Hüzeyl, ən-Nəzzam, əl-Əsamm), öz həmfikirliləri-imamilər (Əli b. Misam) və zeydilərlə (Süleyman b. Cərir ər-Rakki) fəal mübahisə aparırdı. Əl-Mehdinin hakimiyyəti vaxtı (775-785) o, hər cür azmışları təqib edirdi, o cümlədən, haşimilərdən də «azanların» adlarının siyahısını tutmağı əmr etmişdi, ona görə də imam Museyi Kazım öz tərəfdarlarını təqiblərə məruz qoymamaq üçün H.b. əl-H.-ə ilahiyyatla məşğul olmağı və disputlarda çıxış etməyi qadağan etmişdi.

Orta əsr doksoqrafları H. b. əl-H.-i antropomorfizm təliminin banisi hesab edirdilər. Əl-Əş′əriyə görə H. b. əl-H.-ə Allah haqqında müxtəlif fikirləri və ilahi atributları yazırdılar. Əvvəl o, Allahı formasız parlaq işıq, qızıl külçəsi, kristalla tutuşdururdu. Sonra bundan əl çəkib qəbul etdi ki, Allah heç bir cismə bənzəməyən, özü-özünə mövcud olan cisimdir. Onun rəngi, hərəkəti, sakitliyi və s. var. «İlahi atributlar» məsələsində o, ənənəçilərlə mötəzililər arasında orta mövqe tuturdu. Atributların təyinatı olmaması tezisindən çıxış edərək, o, Quranı da ilahi atributlardan biri hesab edib, kompromis qərara gəlmişdi: onun yaradılan olması və ya olmaması haqqında (dəqiq) demək olmaz.

H. b. əl-H. 26, o cümlədən mübahisəli əsərlərin (Dualistlər, naturfilosoflar, mötəzililər və s.-nin «təkzibi») müəllifidir.

Onun əl-Həsən ən-Naubaxtinin (vəf. X əsrin əvvəli) «Firaq əş-şiə» əsərinə demək olar bütünlüklə daxil olmuş «İxtilaf ən-nəs fi-l-imamə» əsəri şiələrin erkən doksoqrafik əsərlərindən biridir. Dini, siyasi və ehkami biliyi onu aparıcı doksoqraflar sırasına çıxarmışdır. Onun mübahisəli və nəzəri əsərləri mülayim şiələrin doksoqraflarında onun yazılı ənənəsinin başlanğıcını qoydu. Sonra bu ənənənin inkişafı isə H. b. əl-H.-in şagirdləri Yunus b. Əbdürrəhman ( vəf. 823), Məhəmməd b. Əbu Ümeyrə (vəf. 832) və s.-nin əsərlərində öz yerini tapdı. H. b. əl-H.-in əsərlərinin əhəmiyyəti

ondadır ki, onlarda o dövrün konkret dini-siyasi qrupların fəaliyyəti və təlimləri haqqında faktiki material vardır.

**Ədəbiyyat:** İslam, 279-280; əl-Əş′əri. Məqalat, göst. əsər; Прозоров. Шиитская историография, 65-68 (№ 10); W. Madelung. Hisham b. al-Hakam, EI, NE, 3, 513, 515.

**<u>Höccət-Huccət</u>** (cəmi höcəc. (hucəc) - «dəlil», «sübut», «dəlilin göstərilməsi») - kəlam, fəlsəfə, məntiqdə (sinonimi burhan) və fiqhdə (sinonimi bəyyinə, şəhadət, iqrar) geniş surətdə istifadə olunan istilah. Quranda bir neçə dəfə qeyd edilir ki, ancaq Allahın inandırıcı sübutu vardır (Q. 6: 83, 149/ 150), Allaha qarşı insanların dəlillərinin Onun gözündə heç bir mənası yoxdur (Q. 42:15/14; 45:25/24). Bu ideya sonrakı inkişafını şiə islamında tapdı, onların fikrincə əl-H. Allahın yer üzündə görünən sübutudur. Şiələr Allahla insanlar arasındakı vasitəçini (Höccət Allah və ya əl-H. alə -l-xalq) Məhəmmədi (s), ondan sonra Quranın qəyyumu (onu yaxşı bilən) Əli ibn Əbu Talibi, ondan sonra isə imamları qəbul edirlər.

Əl-H. istilahı ismaililərin təlim və təcrübəsində istifadə olunurdu. Ismaili hərəkatının hələ ilk mərhələsində xəttabilər, mübarəkilər, habelə fatimilər təbliğatı dövründə əl-H. imam-«dövrün hakimi» tərəfindən təyin edilmiş 12 bölgədən («ada») birinin baş təbliğatçısı idi. H.-in 12 təyin olunması 12 imamın sayı ilə bağlı idi. Erkən ismaili hərəkatında əl-H. Abbasilər vaxtı naqibə bərabər bir mənsəb idi, fatimilərdən sonrakı dövrdə isə dini nüfuzlar arasında imam və babdan sonra üçüncü yerdə dururdu.

Əl-H. haqqında baxışlar imamilər ehkamında möhkəm yer tutub. Onlar iddia edirlər ki, yer üzü Allahın iradəsi ilə Əli (ə) nəslindən olan «görünən» və ya «gizli» əl-H.-dən xali ola bilməz. Axırıncı - 12-ci əl-H.-i onlar 11-ci imam Həsən əl-Əcğərinin oğlu Məhəmməd b. əl-Həsəni atasının vəfatından (873-74) sonra qəbul edirlər. İmami esxatologiyasında əl-H. Qiyamət günü Allahın əmrlərinə qulaq asmayanlara qarşı əsas şahiddir.

H. əl-islam - «islamın sübutu» ifadəsi yüksək nüfuzlu ilahiyyatçıların fəxri rütbəsi idi. H. əl-İ. rütbəsini ilk daşıyanlardan biri əl-Qəzali olub (vəf. 1111). Səfəvilər vaxtı İranda H. əl-İ. titulu ən çox məşhur – nüfuzları ilə şah əmrini «işıqlandıran» müctəhidlərə verilirdi. Onlar adətən müqəddəs şiə şəhərlərində (Kərbəla, Nəcəf) yaşayırdılar. Müasir şiə aləmində (İran, İraq) H. əl-İ. titulu Ayət Allah əl-uzmə (Allahın ən yüksək nişanı) və mərca ət-təqlid («təqlidin mənbəyi») titulları ilə yanaşı şiə iyerarxiyasının ən yüksək dərəcəsi olan müctəhid ayətullaha verilir.

**Ədəbiyyat:** İslam, 281-282; ан-Наубахти. Шиитские секты, 166, 190-191; M.U.Kaşşi. Ər-Ricəl, Nəcəf, 1383/1964, 319, 358; аш-Шахрастани. Книга о религиях, 171-173, 192; Amoli. Al philosophie, İndex;

Петрушевский. Ислам, 222, 272, 289; Дорошенко. Духовенство, 20; Ayoub. Sufferring. İndex; M.G.S.Hodgson. Hudjdja.-EI. NE, 3, 562-564.

**Hökm-hukm** («müdriklik, müdrikliyin göstərilməsi») - əsasında müdrik fikir yürütmə və nüfuzlu göstərişin olduğu bir sıra məfhumlar.

1) Quran H.-ü – «ilahi müdriklik»- «ali əql», «ilahi qərarı» nəzərdə tutur və bu mənada o, mütləq xarakter alan qanuni mətnlərdəki göstərişlərə aid edilir.

2) Etibar və ya hakimiyyət sahibi olan şəxsdən onun tabeçiliyində olanlar üçün icbari olan H.- «qərar» və ya «qayda».

3) Hüquqi mənbələr və ya müstəqil fikir əsasında məntiqi nəticə kimi hazırlanmış hüquqi məsələ haqqında H.-qərar, o, bu mənada əl-H. əl-ictihadı də adlana bilər.

4) H.- «fikir yürütmə», oxşarlığa (əl-qiyas) görə ümumi fikir yürütmə formasının məntiqi yolunun bir hissəsidir. Belə ki, «şərab sərxoş etmə xassəsinə görə qadağan edilib» cümləsində «şərab» fikir yürütmə-mühakimənin mövzusu, «sərxoşetmə xassəsi» - mühakimənin səbəbi, «qadağan edilib» isə mühakimənin özüdür –H.

5) H.-hüquqi ədəbiyyatda hər-hansı keyfiyyətin qalxma və ya enməsinin qeydə alınmasında «dərəcə», «pillə», məsələn, şəriətin «beş dərəcəsi» (əl-əhkam əl-xəmsə)-insan əməllərinin mümkünlüyü mövqeyindən qiymətləndirilməsi dərəcəsi: vacibi (fərz, vacib), məsləhət olunan və bəyənilən (sünnə məndub, müstəhəbb), ümumi icazə verilən və neytral (bitərəf) olan (mübah, caiz), pislənən (məkruh), qadağan olunan (haram, məhzur).

6) Elmi ədəbiyyatda çox geniş işlənən «ümumi qayda» və ya «qanunlar» istilahı- H., məsələn, Hökmranlıq qaydası (Əl-Əhkam əs-sultaniyyə).

**Ədəbiyyat:** İslam, 282; əl-Məvardi. Əl-Əhkam, 1-3; əl-Həkim. Əl-Üsul, 321; A.-M. Goichon. Hukm.-EI, NE, 3, 549.

**Hubəl** - qədim Ərəbistan ilahisi, kinan cəmiyyətinin və onların oturaq qolu olan qüreyşilər və Məkkə şəhərinin himayəçisi. Rəvayətə görə, H.-i kinanilər Şimali Ərəbistandan (Nabateyadan) götürmüşlər. Məkkədə onun (H.) formasız daş, sağ qolu düşüb, qızıl ilə əvəz olunmuş hirsli heykəlcik formalı bütləri var idi. Axırıncısı əl-Kəbədə olub və onun baş ilahisi idi. İldırım və yağış allahı olan H. üç ilahənin Lat, əl-Üzzə və Mənatın əri sayılırdı. Məkkəlilərin müsəlmanlara qarşı mübarizəsi mərhələsində H. Allaha qarşı qoyulurdu, lakin Quranda onun haqqında qeyd edilməyib, Məkkə alınandan sonra H.-in heykəli əl-Kəbədən çölə atılıb, məhv edildi.

**Ədəbiyyat:** İslam, 280; İbn əl-Kəlbi. Əl-Əsnam, 27-29; əl-Əzraqi. Əxbar Məkkə, 74; A.Q.Lundin. Xubal.,-MHM, 2, 606; Horovitz. Untersuchungen. 132; Wellhausen. Skizzen, 3, 75; Gaudefroy-Demombynes. Mahomet, 40; Fahd. Le pantheon, 95-103; T.Fahd. Hubal.-EI, NE, 3, 555-556.

**Hud** - Quran surəti, Ərəbistanda əl-Əhqaf əyalətində yaşayan Ad qövminə Allah tərəfindən göndərilmiş peyğəmbər. Qurana görə H. öz həmvətənlərini Allaha baş əyməyə, öz rifahlarına, bağlarına və başqa tikililərinə görə öyünməməyə, Nuhun qövminə baş verən cəzanı xatırlamağa, Allahdan qorxmağa çağırırdı; onda Allahın onlara yağış göndərəcəyinə vəd (söz) verdi. Adlar H.-u dəli və yalançı saydılar. Allah ona görə onlara cəza göndərdi. Onlar bulud görüb qərara gəldilər ki, bu onlara yağış gətirəcək, lakin O, onlara qorxulu külək göndərdi, o, yeddi gecə və səkkiz gün əsib bütün insanları kökündən qoparılmış palma ağacları kimi apardı, yerdə ancaq tikililər qaldı. Ancaq H. və ona inananlar xilas oldular (7:65/63-72/70; 11-50/52-60/63; 23:31/32-41/43;, 26:123-140; 41:13/12-16/15; 46:21/20-25/24; 51:41-42; 54:18-21; 69:4-8; 89:6/5) .

Quran hekayələri H. haqqında əsasən öz peyğəmbərləri Nuh, Saleh, Lut, Şüeybə inanmayan başqa xalqların cəzalandırılması haqqında hekayələrlə vəhdət təşkil edir. Stilistik cəhətcə onlar xüsusilə Ərəbistan peyğəmbərləri Saleh və Şüeyb haqqında hekayələrə yaxındırlar və onlar hamısı Məhəmmədə (s) inanmayan məkkəliləri çəkindirməyə xidmət etməli idi. H. haqqında hekayətlərdə Məhəmmədin (s) həyatı ilə çox paralellər vardır. Bu rəvayət qədim Ərəbistanın, hər şeydən əvvəl Şimali Ərəbistanın Nabatey mərkəzinin oturaq dövlətlərinin məhv olub dağılmasını əks etdirirdi.

Qurandansonrakı ədəbiyyatda H. haqqında rəvayətlər çox genişləndi, çünki yəmənlilər adların yaşayış yeri əl-Əhqafı Şərqi Hədrəmautla eyniləşdirdikdən sonra H. və adlar haqqında hekayələr, qəhtani tarixi-epik rəvayətlərinə daxil oldu. Zülmkar çar Şəddad, xüsusilə də onun İrəmdə tikililəri, adların Məkkədə dua etmələri, onlara yağışın göndərilməsi haqqında təzə motivlərlə doldu. Hədramautda olan rəvayətə görə Allah bütpərəstlər tərəfindən təqib edilən H.-u qayanı yararaq orada gizlədir, sonra qaya örtülür. H.-un qayaya girdiyi yer Yəməndə Hədramaut vadisinin şərq hissəsində olub «Qəbr H.» adlanır və hər il Cənubi Ərəbistanın bütün yerlərindən gələn insanların ziyarətgahına çevrilib. İraqda H. və Saleh peyğəmbərlərin məsciddə olan qəbirlərini zəvvarlar indi də ziyarət edirlər (Məscid qəbirlərin üzərində tikilmişdir).

**Ədəbiyyat:** İslam, 280-281; İbn Hişam. Tican, 38-56; ət-Təbəri. Tarix, 1, 213-244; yenə o Təfsir, 8, 152-157, 12, 35-38; əs-Sə'ləbi. Qısas, 35-38; əl-Kisə`i. Qısas, 102-110; əl-Beydavi. Təfsir, 1, 330-331, 437-438, 2, 56-

57; Speyer. Erzählungen, 118-119; Gaudefroy-Demombynes. Mahomet, 398; Paret. Commentar, 163, 236-237, 447; A.J.Wensinck-(Ch. Pellat). Hud.-EI, NE, 3, 537-538; Fr.Buhl.Ad.-Yenə orada, 1, 169; G.Rentz. Al-Ahkaf.,-Yenə orada, 257;

**Hulul** - (həllə «yerləşmək», «məskunlaşmaq» felindən olub, iştirak etmə, yerləşmə, bir şeyin başqa şeyə çevrilməsi deməkdir. H. istilahı bu mənada Quranda işlənmir. Orta əsr müsəlman təlimlərində H. istilahı altında aşağıdakılar başa düşülürdü: a) cisimlər və abstraksiyalarda aksidensiyaların iştirakı (hulul əl-arad fi -l- əcsam va-l-mücərrədat); b) hissələr bütövdə c) əşyada rəmz (hulul ən-na′it bi -l- mən′ut); d) canda ruh (h. ər-ruh fi -l- bədən). Müsəlman ilahiyyatçılarında H. ittihad (Allahla birləşmə) istilahı ilə yanaşı tez-tez İlahinin insanda təcəssümünü bildirir və xristian təlimini andırırdı.

Müsəlman doksoqrafları Əlini (ə) ilahiləşdirən «qatı» şiələri və bəzi sufiləri H.-un ardıcılları sayırdılar. Əl-Həllacın «əbədinin ötəridə» (əl-qidəm bi -l- hədəs) təcəssümü fikri özünə qarşı əsas ittiham idi. Onun ardıcılları əl-Bağdadi və əl-Hücviri onu Allah mücəssəməsi hesab edirdilər. Onlarla yanaşı Əbu Hulman əl-Farisi əl-Hələbinin (X əsr) tərəfdarları əl-hulmaniyyəni H.-un tərəfdarları sayırdılar, onlar belə hesab edirdilər ki, Allah gözəl, qəşəng şeylərdə təcəssüm edir. Onlar və başqa hululilərə ruhun keçməsini (tənəsuh, intiqal ən-nufus) aid edirlər. Şiələr içərisində Allah ruhunun Əli (ə) və ya başqa başçılara keçməsini hesab edənlər səbailər, müğirilər, xəttabilər, müqənnəilər, qeyyalillər, nüseyrilər və başqaları idilər.

H. və ittihadın konsepsiyalarının xüsusiyyətlərinin eyniliyi mistikin son məqsədinin Allaha qovuşmaq olduğunu görən sufiləri ancaq həsr olunmuşlara məlum olan müxtəlif rəylər və işarələrdən istifadə etməyə məcbur edirdi. Vəhdət əl-vücud təliminin tərəfdarları sufilərin özlərini də H.-da günahlandırırdılar. Məşhur hənbəli ilahiyyatçısı İbn Teymiyyə bu təlimi «mütləq təcəssüm» (əl-hulul əl-mütləq) adlandırıb. Sufiliyə hörməti olan XIV əsr şiə müdriki Heydər Amuli bu fikri tənqid edərək göstərir ki, H. və ittihad «təcəssümün» iki tərəfindən danışırsa, vəhdət əl-vücud doktrinasına görə vücud (varlıq) vahid-tək olduğu üçün özü-özünə təcəssüm edə bilməz. Təsəvvüfün müsəlman əleyhdarları indi də H. və onun tərəfdarlarını günahlandırırlar.

**Ədəbiyyat:** İslam, 282-283; al-Hujwiri. Kashf, 260-265; əl-Bağdadi. Əl-Fərq, 241-250; аш-Шахрастани. Книга о религиях, 153-165, 186, 236-237; ət-Təhənavi. Kəşşaf, 382-385; Əxbar əl-Həllac, №1; İbn əl-Cözvi. Təlbis, 169-174; Amoli. La philosophie, 217-218, İndex; M.Hilmi. İbn Teymiyyə və -t-təsəvvüf. İskəndəriyyə, 1982, 238-262; Massignon.

Passion. İndex; yenə o. Ənə əl-haqq, 250-257; L.Massignon-G.C.Anawati. Hulul. - EI, NE, 3, 590-591.

**Huri** (cəmdə - hur «ağ qızlar» - hurilər). Quranda gözündə ağla qaranın daha çox kontrastı olan, d.d., qaragözlü, Cənnətdə möminlərin arvadları olacaq Cənnət qızları, adi söz birləşməsi - hurun ′inun-«qaragözlülər», «böyükgözlülər» kimi verilir (44:54; 52:20). Onlar çadırlarında yaşayırlar (55:72), onlara nə insan, nə də cin toxunub (55:74), onlar balıqqulağı içərisində gizlində olan mirvari kimidir (56:22). H. istilahı əsasən Quranın əvvəlki hissələrində işlənir. Sonrakı hissələrində isə möminlərlə yanaşı H. əvəzinə əzvac mütəhharə- «təmiz» (d.d. təmizlənmiş) həyat yoldaşları (2:25/23; 3:15/13; 4:57/60), bakirə qızlar, ərlərini sevənlər, həmyaşıdlar (56:36/35-37/36) yazılır. Sonra xəbər verilir ki, möminlərin arvadları onlarla birlikdə Cənnətə gedəcəklər (43:70), «Siz və sizin arvadlarınız Cənnətə daxil olun, siz əzizlənəcəksiniz» (bax: 36: 56; 40:8).

Huri surəti müsəlman ilahiyyatı və dini-xalq ədəbiyyatında əhəmiyyətli dərəcədə inkişaf kəsb edib. Onların zəfəran, müşgi ənbərdən yaranmış rənglərdə, şəffaf dərili, daş-qaşla bəzənmiş sinələrində Allahın və ərinin adları yazılmış olur. Quranda onların həmişə bakirə qalması haqqında işarə var.

Şərhçilər H.-lərlə yer üzündəki qadınlar arasındakı fərqləri qeyd edirlər (əl-Beydavi). Sufilər isə onlara sufi məhəbbət və ləzzətinin rəmzi kimi baxırdılar.

H.-lərin mənşəyinin zərdüştilərdən və ya xristianların Cənnət mələklərinin səhv şərhindən gəldiyini qeyd edirlər. Əslində isə H. surəti və Quranın bütün Cənnət surətləri Allahın möminlərə o biri dünyada – Cənnətdə vəd etdiyi yaxşı həyatdır.

**Ədəbiyyat:** İslam, 283; ət-Təbəri. Təfsir, 1, 136-137, 25, 81-83, 27, 15; əl-Qəzali. İhya, 4, 488-489; əl-Beydavi. Təfsir, 1, 40-41, 2, 248; Wensinck. Handbook, 182; Gaudefroy-Demombynes. Mahomet, 435; A.J.Wensinck. (Ch.Pellat) Hur.-EI, NE, 3, 581-582; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 105.

**Hurufilər-əl-Hurufiyyə** (huruf - «hərflər») - sufi Fəzlullah Astarabadi tərəfindən XIV əsrin sonunda - 1398-ci ildə Xorasanın Astarabad qəsəbəsində yaradılan şiə icması təriqətidir. Fəzlullah həmin il özünü Allahın və kainatın mahiyyətini və həqiqəti öz zatında təcəssüm edən yeni peyğəmbər elan etmişdi. Fəzlullah uşaqlıq vaxtlarından sufilik və zahidliyə meyl etmiş və onun tərcümeyi-halçılarının məlumatlarına görə yuxu yozmaq istedadı varmış. 1386-87–ci ildə o «yeni kəşf» təbliğatı ilə çıxış etdi. Onun ilk şagirdləri sənətkarlar və dərvişlər olmuşlar. Müasirinin

məlumatına görə onun Teymuru, onun oğlu Miranşah və Qızıl Orda xanı Toxtamışı öz təliminə cəlb etmək istəyi uğursuz oldu. Səmərqənd qanunşünasları tərəfindən qızışdırılan Teymur onu din və dövlətə qarşı ağır günah işlətməkdə təqsirləndirdiyi üçün o, Şirvanda gizlənmişdi. Orada Miranşah tərəfindən tutulub Naxçıvan yaxınlığında Əlincə qalasına salınıb, 1401-ci ildə edam edildi.

XV əsrin əvvəlində H. təlimi bütün İran və Kiçik Asiya ərazilərinə yayıldı. Fəzlullahın edam olunduğu qala onun ardıcılları tərəfindən hər il ziyarət edilir, Miranşah isə onlar tərəfindən Dəccal elan edilib, Maran-şah («ilanlar şahı») adlandırıldı. Mərasimin sonu Şeytanın yarandığı olan şey sayılan alovu daşqalaq etməklə qurtarırdı.

Hərflərin mistik mənaları H. təliminin fərqləndirici xüsusiyyətidir. Onlara görə kainat əbədidir, onun hərəkəti və insanlığın tarixi təkrar olunur. Hər təkrarın əvvəli Adəmin (ə) yaranması, sonu isə Qiyamət günü ilə qeyd edilir. İlahi təzahür peyğəmbərlik müqəddəsliyi və ilahi təcəssümdədir. Məhəmməd (s) «peyğəmbərliyin möhürü» idi. Vilayət mərhələsi birinci müqəddəs Əli ibn Əbu Talıb, axırıncısı 11-ci şiə imamı əl-Həsən əl-Əcğəridir. Zühur mərhələsi isə onlarda ilk ilahi təcəssüm Fəzlullah Astarabadidir. Allah ancaq insanda təcəssüm edə bilər-onun sifətində müəkkəs (güzgü oxusu) Allah sözü yazılıb: burun «əlif» burun pərəkləri «ləm» gözlər isə «hə»-dir. - الله Hərflərin mistikasını (müəmmalıq) H.-dən götürən ismaililər onu son həddə çatdırdılar. H. «F-Ə-H-dan (Fəzlullahdan) başqa Allah yoxdur», «Adəm=insan Allahın canişinidir», «Məhəmməd (s) Allahın elçisidir»-deyirdilər.

H. icmasına savadlı şəxslər cəlb edilirdi, onlar çoxlu ədəbi irs qoysalar da, onlar da baniləri kimi məhv edildilər.

H. icmasının əsasları Fəzlullah Astarabadi və onun şagirdi Əli əl-Əlanın əsərlərində öz əksini tapmışdır. Fəzlullah Cavidan-naməni fars dili və Astrabad ləhcəsində, Məhəbbət-namə və Ərş-namə poetik əsərlərini isə Astarabad ləhcəsində yazmışdır. Əli əl-Əla isə Əstəva-namə, Məhşər-namə və bir neçə başqa poetik əsər yazmışdır. H.-nin türk və Azərbaycan dilində yazılmış əsərləri də vardır.

Tam və mütəşəkkil icma hərəkatı kimi H. az müddət yaşadı və kiçik icmalara parçalandı, onlardan ən məşhuru nuktəviyyədir (pasihiyyə) ki, Fəzlullahın şagirdi Mahmud Pasihanı tərəfindən yaradılıb. H. möizəsində gizli antifeodal təmayülü var idi. Seyyid İshaqın Məhrəm-namə əsərində tezliklə Mehdinin zühuru və onun yer üzündən zülm və zorakılığı ləğv edəcəyini qeyd edirdi. H. hər yerdə təqib olunurdu, XV əsrdə İranda onlar darmadağın edildi, lakin bir neçə vaxt onlar Türkiyədə özlərini imami şiələr, sünnilər və ya sufilər kimi qələmə verib mövcud oldular. H. təlimi

bekdaşiyyə sufi qardaşlığına İran sufiliyinin və müxtəlif cərəyanların öz təsirini göstərdi.

**Ədəbiyyat:** İslam, 284-285; Петрушевский. Ислам, 304-306; Textes persans relatifs a la secte des houroufis, publies, traduits et annotes par M.C.Huart.-GMS. 1909, 9; H.Ritter. Studien zur Geschichte der islamischen Frommigkeit, 2. Die Anfänge der Hurufisekte Or. 1954 7/1, 1-54; A.Bausani. Hurufiyya.-EI. NE, 3, 600-601; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 106-108.

**Əl-Hücviri** - Əbülhəsən Əli b. Osman əl-Qəznəvi əl-Cüllabi (vəf. 1072-1076-77 arasında) - fars dilində sufilik haqqında ədəbiyyatda ilk əsərin müəllifi. Orada sufiliyin tarixi və mahiyyəti, sufilərin dünyagörüşü və təcrübəsi sistematik şəkildə göstərilmişdir. O, (İranın Qəzvin şəhərinin) Hücviri məhəlləsində, mömin ailəsində anadan olmuşdur. Hənəfi məzhəbindən olan əl-H. əl-Cüneydin (vəf. 910) ayıqlıq sufi yolunun məktəbinin inamlı tərəfdarı oldu. Onun müəllimlərindən Quran və rəvayətlərin bilicisi sufi-hənəfi Əbülfəzl Məhəmməd b. əl-Həsən əl-Hüttəlani və şeyx Əbü-l-Abbas Əhməd b. Məhəmməd əş-Şəkkanini (və ya Əşkani) göstərmək olar. Həyatının mühüm hissəsini əl-H. Fərqanədən tutmuş Suriyaya qədər müsəlman ölkələrini səyahətdə keçirmişdir. O, Lahorda vəfat etmişdir. (Yazdığı on əsərdən) bizə gəlib çatan yeganə əsəri «Kəşf əl-məhcub li əbrar əl-qulubu» da orada yazmışdır. Əl-H. bu əsəri ömrünün axırlarında Əbu Səid əl-Hücvirinin xahişi ilə yazmışdı. Əsər iki hissədən ibarətdir. I hissə 14 başlıq, II hissə isə 11 başlıqdan ibarətdir. Birincidə məzhəblər, təlimlər, əs-Sərrac, əs-Süləmi, əl-Kuşeyrinin ərəb dilində əsərləri haqqında, ikincisində isə fəlsəfi qanunlar, doktrinalar, sufi yolu, onun şəriət qaydaları ilə uyğunluğu və s. haqqında məlumatlar vardır.

Sufiliyin qaydalarını tam surətdə təhlil etməyə çalışan əl-H. erkən müəlliflərin əsərlərini tədqiq edib, sonra öz fikrini ehmalca qeyd edir. O, dini qanunlara riayət edilməsini vacib bilirdi, sufiliyi yeni qəbul etmişləri həqqaya getməyə, erotik mahnılar oxunuşuna və rəqsinə buraxmamağı tövsiyə edirdi. Əttar (Təzkirət əl-övliya) Cami ( Nəfəhat əl-üns) və s. ona istinad edirdilər.

**Ədəbiyyat:** İslam, 281; В.А. Жуковский. Предисловие.-Ал-Худжвири. Кяшф, 2-57, al-Hujwiri. Kashf, 9-16; Əttar. Təzkirə, 1, 36, 57, 208, 229, 2, 37, 68 86, 93, 115; Djami. Nəfəhat, 132, 168, 218, 318, 319, 321, 329, 358-359, 360; G.Lazard. La langue des plus anciens monuments de la prose persane. P., 1963, 88-91.

**Əl-Hüdeybiyyə** - Ciddə yolu üzərində Məkkənin «müqəddəs ərazilərinin» (əl-həram) qərb sərhəddində yer adı, 628-ci il mart ayında orada məkkəlilərlə Məhəmməd (s) arasında müqavilə bağlandı.

Müsəlman rəvayətinə görə Məhəmməd 1400 və ya 1600 nəfərlə Haccı ziyarətə gəlmək istəyir, məkkəlilər bunu Məkkəyə hücum üçün bəhanə olduğundan qorxaraq, onun yolunu kəsdilər. Məhəmməd (s) Osman b. Əffan vasitəsilə onlarla danışığa başladı, Osmanın olmadığı vaxt vəziyyət çox gərgin oldu və xəbər yayıldı ki, onu öldürüblər. Məhəmməd (s) ölüm-dirim döyüşünün olacağından qorxaraq, öz yoldaşlarından «Allaha xoş gələn» (bey´ə ər-rizvan) and içməyi onlardan tələb etdi. Bu beyəti edən şəxslər başqa müsəlmanlardan çox hörmətli idilər, altında and içmənin keçirildiyi ağac isə müqəddəs–təbərrük sayılır.

Nəhayət ki, başlanan müqaviləyə əsasən müsəlmanlar və məkkəlilər arasında onillik sülh oldu, müsəlmanlara gələn il ancaq qılıncla Məkkəyə ziyarətə gəlməyə icazə verildi, əvvəlki razılığa görə ərəb qəbilələrinə Məkkə və Məhəmmədlə (s) ittifaqa girməyə icazə verildi. Məkkədən qaçanlara qayıtmaq icazəsi verildi, Məhəmməddən (s) qaçanlar isə Məkkədə qaldılar. Bu müqavilə Məhəmmədlə (s) Məkkənin vəziyyətini leqallaşdırdı, məkkəlilər Suriya ilə qorxusuz ticarət etməyə başladılar. Bir ildən sonra isə müqavilə qüvvəsini itirdi.

**Ədəbiyyat:** İslam, 281; Watt. Muhammad at Medina, 46-52; M.Muranyi. Die Auslilferungsklausel des Vertrages von al-Hydaibiya und ihre Folgen.-Arb. 1976, 23/3, 275-295.

**Əl-Hülmaniyyə** - hülmanilər, Əbu Hülman əl-Farisi əl-Hələbinin (vəf. Dəməşqdə 950) ardıcılları. İlk dəfə Dəməşqdə meydana gələn orta əsr ərəb-müsəlman ədəbiyyatında hərdən sufi hesab edilən H. dünyadakı hər bir gözəlliyi ilahi təcəlli hesab edərək, panteizmin açıq ifadə olunan estetik formasına qulluq edirdilər. Gözəlliklə qeyd olunan nə vardısa onlar ona ibadət edirdilər. Əhkamçı-ənənəçilər H.-ri Allahı konkret əşyalar və şəxslərlə (hulul) eyniləşdirməkdə, şəriət qanunlarına etinasızlıqda (ibahiyyə) və ruhun keçməsində (tənəsuh) günahlandırırdılar. Əbu Hülman bəsrəli İbn Salimin (vəf. 909-cu il) müridi hesab edilirdi. H.-lərin əsas əqidələri: 1) Cismani gözəlliyə sahib olanların şəxsində Allah təzahür edir. 2) Bu şəxslərdə Allahın təcəssüm etdiyini bilən kimsəyə hər şey mübahdır (icazəlidir).

**Ədəbiyyat:** İslam, 282; əl-Maqdisi. Əl-Bəd` və -t-tarix 2, Paris, 1899, 90-92; əl-Bağdadi. Əl-Fərq, 215, 241, 245; J.Pedersen. Hulmaniyya.-EI, NE, 3, 590; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 106.

**Əl-Hüseyn b. Əli Əbu Abdullah əş-Şəhid** (626-680) - Əli ibn Əbu Talib və Məhəmmədin (s) qızı Fatimənin kiçik oğlu, üçüncü şiə imamı, Mədinədə doğulub, Kufədə yaşayırdı, əhl əl-beyt olub, Kərbəla şəhididir. Adı o vaxta qədər ərəblərdə təsadüf edilməyən böyük qardaşı Həsənin adı kimi babası tərəfindən qoyulmuşdu, bəzən də hər ikisi Həsəneyn (iki Həsənlər) kimi çağrılırdılar. Peyğəmbər (s) onu «Cənət gənclərinin ağası» adlandırmış, «Hüseyn məndə, mən Hüseyndəyəm, Allah Hüseyni sevənləri sevər» demişdi. Sonra Həsən və Hüseyn haqqında demişdi: «Allahım, mən onları sevirəm, sən də onları sev və onları sevənləri sev!» Hüseynin uşaqlığı Peyğəmbərin (s) dərin sevgisi içində keçmişdir. Lakin bu uzun sürməmiş, Hüseyn 5 yaşında ikən babasını, 6 yaşda ikən anasını itirmişdir.

636-ci ildə Ömər vaxtı H.-ə Bədr döyüşü iştirakçılarına verilən qədər pul verdilər. 651-ci ildə Osman vaxtı H. qardaşı Həsənlə birlikdə Səid ibn əl-Asın Kufədən Xorasana təşkil etdiyi səfərdə iştirak etdi. 656-cı ildə Həsən və Hüseyn Mədinəyə gəldilər. Əli (ə) onları Osmanı üsyançılardan qorumaq üçün göndərdi. Asilər Osmanın evinin qabağından içəri keçə bilmədilər. Sonra hiylə işlərədək başqa bir evdən özlərinə yol açıb, Osmanın mənzilinə girib onu öldürdülər. Sonra H. atası ilə Kufəyə gedib, onun bütün səfərlərində iştirak etmişdir. Atası 661-ci ildə qətlə yetiriləndən sonra H. böyük qardaşı Həsənə itaət zəminində fəaliyyətsiz qalır.

Əl-Həsənin 669-cu ildə vəfatından sonra əl-H. Əli nəslinin başçısı oldu, Kufədən Mədinəyə döndü, lakin uzun zaman bir siyasi rol oynamadı. 680-ci ildə Müaviyənin ölümü ilə İraqda antiəməvi müxalifətinin fəaliyyəti gücləndi. Kufə əhli əl-H.-i öz üçüncü imamı kimi qəbul edib, onu Yəzidə qarşı üsyana başçılıq etmək üçün Kufəyə çağırdı. Əliyə qarşı hiylə işlədərək, Suriyada özünü xəlifə elan edib, Əməvilər sülaləsinin əsasını qoyan Müaviyə bu vaxt taxt-tacını oğlu Yəzidə verib, hökmən əl-H.-dən beyət almaq və ya onu məhv etməyi ona (Yəzidə) tapşırdı. Yəzid əl-H.-ə ona beyət etmək xəbəri göndərdi. Əl-H. bu təklifi rədd edib, Kəbəni ziyarətə getdi. Yəzidin Məkkəyə hücum etmək fikrində olduğunu eşidib, Kəbəyə qan tökülməsindən ehtiyat edən əl-H. böyüdüyü Kufəyə getməyə razılaşdı. Kufəlilərin çağırışına cavab olaraq, hökmən ondan beyət almağa can atan Yəzidə qarşı üsyana başçılıq etməyə razılıq verən əl-H. öz əmisi oğlu Müslim b. Əqili vəziyyəti öyrənmək və üsyanı təşkil etmək üçün Kufəyə göndərir. Minlərlə kufəli Müslimə əl-H.-ə sadiq olduqlarına and içdilər. Müslim bu haqda ona məktub yazdı. Lakin kufəlilərin üsyanını Yəzidin qüvvələri əvvəlindəcə boğdular, Müslimi tutub 680-ci ilin sentyabrında şaqqalayaraq, şəhər darvazasından asdılar. Bu qəmli xəbəri əl-H. artıq Kufəyə gedən yolda aldı, lakin geri qayıtmaq istəmədi, çünki Yəzidin qoşunları onu hər yerdə izləyirdi. Kufəyə yeni vali təyin edilmiş Übeydullah ibn Ziyad Hicazdan İraqa gedən bütün yollarda məntəqələr

qoyub, Yəzidin əmrini yerinə yetirmək üçün canfəşanlıq edirdi. Yolların birində əl-H.-in 40 piyada və 32 atlı qohumlardan ibarət dəstəsi Yəzidin böyük qoşunu ilə üzü-üzə gəldilər. Onlar sonradan Kərbəla şəhəri yaranan Ninəva adlı yerdə düşərgə saldılar və tezliklə Ömər b. Gə′din başçılığı altında dördminlik Yəzid ordusu ora gəldi. 680-ci il oktyabrın 10-da səhər əl-H. öz azsaylı dəstəsilə dəfələrlə çoxsaylı Yəzid ordusuna qarşı çıxdı. Deyilənlərə görə, əvvəl Peyğəmbər (s) nəvəsinin qanını Yəzid qoşunundan heç kim öz boynuna götürmək istəməyib, ona hücum etmədi. Sonra rəvayətə görə kindilərdən biri Malik b. ən-Nüseyr qılıncla əl-H.-in başına zərbə vurdu. Daha sonra dəstə ilə ona hücum edib onu və tərəfdarlarını şəhid etdilər. Əl-H. yüzlərlə ox və qılınc yarası alıb şəhid oldu, onların başları vəhşicəsinə kəsilib Dəməşqə-Yəzidə göndərildi. O isə, Şeytan kimi camaatın gözünə, olanlardan kədərləndiyini bildirdi. Lakin, bu münasibətlə ziyafət təşkil edib, başqa dövlətlərin nümayəndələrini də oraya dəvət etdi. İmam əl-H.-in başını məclisə gətirib çubuqla onun ağız-burnunu eşələyib, öz düşməni üzərində qələbə çaldığı üçün öyünməyə başladı. Məclisdəkilər düşmənin kim olduğunu (Peyğəmbərin (s) nəvəsi) öyrənəndə onların bir çoxu Yəzidə nifrət edib, ondan üz döndərdilər.

Kərbəla faciəsi müasirlərinə çox dərin təsir buraxdı. Əl-H. ən böyük şəhid, Kərbəla isə əsas müqəddəs yerlərdən birinə çevrildi və şiələrin ziyarətgahı oldu. Əl-H.-in şəhid olduğu gün, məhərrəm ayının 10-cu günü - Aşura indi də müsəlman aləmində geniş surətdə qeyd edilir.

Əl-H.-in şəhadəti Əli nəslinin dini və siyasi birliyinə təkan verdi. O, şiə hərəkatının rəmzi oldu (bir sıra şiə çıxışları «əl-H.-in qanının qisasını alaq» şüarı altında keçirdi). Şiələr onun imam olduğu və gələcəkdən xəbər vermək bacarığı haqqında danışırdılar. Peyğəmbərin (s) onu dizi və ya belində tutması, onu «gənclərin ağası» adlandırması rəvayətləri də var. Şiə ekzegetləri Quranın bir neçə ayəsində əl-H.-ə işarə olduğunu qeyd edirlər (46:15/14; 19: 1/1 və s.).

**Ədəbiyyat:** İslam, 285; əl-İsfəhani. Məqatil, 86-102; L.Veccia. Vaglieri. Al-Husayn b. Ali b. Abi Talib. –EI, NE, 3, 628,-636; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 108-114.

# X

**<u>Xaksar</u> -** görünür cəlaliyyə-söhrəverdiyyədən (Şimali Hindistanda XIV əsrin ortalarında Seyid Cəlaləddin Hüseyni tərəfindən yaradılıb. XVIII əsrin əvvələrində müstəqil qola ayrılmış və bir sıra qrup heydəriyyə (mirheydəriyyə), qələndəriyyə qardaşlıqları, cəmiyyətləri, habelə nemətullahiyyənin müxtəlif qollarının ardıcıllarını özündə cəmləşdirən sufi qardaşlığı. Sadə xalq arasında fəaliyyət göstərən şiə (imami) qardaşlığı olub, öz ruhani silsiləsini–şəcərəsini X. ənənəsinə uyğun olaraq Məhəmmədin (s) şagirdi Sultan Mahmud Patili (Salman əl-Farisi) yolu ilə Əli b. Əbi Talib və Məhəmmədə (s) aparıb çıxarır. X.-ın erkən tarixi olduqca dumanlıdır, çünki bu qardaşlığın ədəbi ənənəsi yox idi. Bizə qədər gəlib çatan azsaylı qayda və qanunların əlyazısı Risaleyi tərige-yi fikri xaksar külliyyatında toplanıb. Orada X.-ın ayrı-ayrı qollarının banilərinin adları da verilib: Qələndər Ləl Şahbaz (vəf. Sinddə XIII əsrin yarısı), Qütb əd-din Heydər (vəf. 1221), Haci Bekdaş Vali (1208-1270), seyyid Cəlal əd-din Heydər Buxari Sürh (1199-1291), X. ənənəsində Pir-Mir-Şir və Şir-Şah kimi məşhur olan şeyx Gənci Şakar (1175-1267), seyyid Cəlal əd-din Hüseyni (1308-1384) Hindistandakı Cəlaliyyə qardaşlığının banisi Sultan Mir Heydər Tuni (vəf. 1427). Buradan da belə nəticəyə gəlmək olar ki, X. əvvəl yuxarıda göstərilən qrup, icma və qolların mexaniki birliyi olub. XIX əvvəlinə X. Qulaməli Şahi və Məsuməli Şahi yarımmüstəqil qollara bölündü ki, onlar Qacarilər dövründə İranda aktiv fəaliyyət göstərirdilər, onların Tehran, Məşhəd və Şirazda iqamətgahları var idi. Rza şah Pəhləvinin (1925-1941) reformaları ilə narazılıq və heydəriyyənin dəstəklənməsi X.-ın hakimiyyət tərəfindən təqibinə səbəb oldu. Qardaşlığın ardıcıllarının sayı kəskin surətdə azaldı və o, öz fəaliyyətini ancaq iqamətgahlıların divarları arasında davam etdirirdi.

X.-ın 46-cı halqası (qütbü) Qulaməli Şahi xəttinin nümayəndəsi, 1936-cı ildən Baharəli şahın (Nəcəfdə 1937-də vəf. edib) şagirdi və varisi Mütəhhər Əlişah (Hacı Əli Məhəmməd b. Kərəm Əlixan, 1882-1982) idi. X.-ın üzvlərinin sayı müxtəlif rəyə görə 2-5 mindir. İqamətgahlar: Tehranda 2, Bihşəhr, Bircənd, Bucird, İsfəhan, Yəzd, Lahican, Məşhəd-2, Rəşd, Şiraz, Ənzəlidə 1, Tehran və Məşhəddə mərkəzi iqamətgahlardır. X. əsasən İranda fəaliyyət göstərir, əvvəllər Əfqanıstan və Türkiyədə kiçik icmalar var idi, hazırda İraqda da X. icması var (iqamətgahları Nəcəf və Əl-Kazimiyyədədir).

X. hər hansı bir nəzəri doktrina yaratmadı.

X.-ın «yolu» dörd mərhələdən – 20 və ya 44 dayanacaqdan (məqam) ibarətdir, ancaq onun adətən 14-ü, habelə Talıb-dərvişin keçirdiyi 12 bihuş

halı sayılır. X. dərviş həmişə qardaşlığın yolu ilə getməlidir, d.d., aza razı olmalı, malik olduğu vəsaiti hamı ilə bölüşdürməli, öz müəllimini unutmamalı və gündəlik namazda onu yad etməli, baş, bığ, qaş və saqqalı qırxmalıdır (hamı bunu qəbul etmir). X. dərviş ömür boyu dörd səyahət etməlidir: a) insanlardan Allaha; b) Allah və insanlardan Allaha sonra Allahdan Allaha; v) Allahda Allahla; q) insanlar arasında Allahla.

X. qardaşlığının başçısı Qütb adətən təyin olunur, irsi deyil. Qütbdən qardaşlığın üzvləri üzərində başçılıq etmək hüququnu alan X.-ın üzvü Piri irşad iqamətgahın başçısıdır. Onun müəyyən yerdə və ya iqamətgahda qardaşlığın müavini-xəlifə rütbəsi də vardır. Pir-i dəlil - məbədin şeyx mürəbbisi və başçısı, mürid və pir-i irşad arasında vasitəçisidir. Xəlifə iqamətgahın başçısının müavini, köməkçisidir. Dərviş qardaşlığın tamhüquqlu üzvüdür. Mürid qardaşlığın novitat mərhələsini keçən üzvüdür. Talib qardaşlığın üzvü olmaq üçün X.-a daxil olmaq istəyən şəxsdir.

X. adətinə görə mürid 20, mürşid və pir-i dəlil isə 41 şərtə cavab verməlidir.

X.-ın rəmzi şaquli kəsişən, kəsən tərəfləri yana olan hərfli (yəni cəlaliyə, Cəladdədin Heydər) baltacıqlardır. Qardaşlığın özünü adlandırması belədir: tariqe-yi ələviye-yi xaksar-i hüseyni-yi cəlali.

**Ədəbiyyat:** İslam, 265-266; Risale-yi tərige-yi fəqri xaksar. EAŞ İLŞ-nin əlyazması, V, 2296, 1b.-17 b., 26a-79a; Bustan əs-siyahə, 122-123; Xəzinat, 2, 35-38; Mə′sum Əli-şah. Təraiq, 2, 139; Петрушевский. Ислам, 346. Бертельс. Суфизм, 441-444; Əhməd İqtidari. Hacc Mütəhhər Əli-şah-i Xaksar.-Ayəndə. Tehran, 1983, 9/3-4, 280-281; Nurəddin Müdərrisi Cahardəhumi. Qavanin-i xaksar.-Rəhname-yi kitab. Tehran, 1970, 12/11-12, 689; Gramlick. Derwischorden, 1, 70-88, 90-92, 2-3, İnhalt; A.S.Bazmee-Ansari. Jalaliyya-EI, NE, 2, 392.

**Xanəgah** - sufilərin birgə yaşadıqları və dini qaydaları (ayinləri) yerinə yetirdikləri məkan, kimsəsizlər, əlsiz-ayaqsızlar üçün ev, iqamətgah. Öz iş xüsusiyyətinə görə X. ribata çox yaxındır.

X. institutu müsəlman aləminin şərqində Xorasan və Məvaraənnəhrdə IX–X əsrlərdə yaranıb. Sonra o, Qərbi İran, İraq, Suriya, Misir və Hindistanda çox geniş yayılır. Sufi X.-nın oxşarı manihey (mani) monastırları kərramilərin iqamətgahları idilər ki, ərəblər onlara xanəgah deyirdilər. Sufi X.-ı öz şəxsi yaşayış yeri olmayan sufilərin sığınacaq yeridir, o, dini ayinlərin (orucluq, zikr, ümumi həqqaya getmə, gecələr yuxusuz qalma) birgə yerinə yetirilməsi məkanı, görüş, disput, bəzən də təlim-tədris yerləridir.

X əsrin sonlarından «müəllim-şagird» institutu olan daimi X.-lar yaranır. Elə bu vaxt bəzi X.-lar «qoca müqəddəslərin» dəfn yerinə çevrilir.

XI ərsin II yarısında X.-lar səlcuq fütuhatlarının yayıldığı yerlərdə yaranır- Hələb, Dəməşqdə. X.-lar yarandığı gündən xüsusi və ya ictimai mülkiyyət olub, hakimiyyətdən asılı olmayan müəssisə idi, tezliklə onlar məscid və mədrəsələr kimi ictimaiyyətin inteqrasiya yerinə çevrildi. Onlar əsasən kişi icması olurdu, qadın X.-ları da (Qahirə, Dəməşq, Bağdad, Məkkə) var idi. XII əsrdən X.-lar sufi qardaşlıqlarının (təriqə) mərkəzinə çevrilir və təkcə qardaşlığın üzvləri deyil, X.-ları maliyyələşdirən bütün sənətkar korporasiyalarını özündə birləşdirirdi. X.-ların başqa gəlir mənbəyi (şəxsi və hökumət) xeyriyyə payları, vəqf və dövlət yardımı idi. Bütün müsəlman aləmində, təkcə İrandan başqa X.-lara dövlət maddi yardım edirdi.

Sufi icmaları üzərində nəzarətdən xeyir olduğunu başa düşən Səlcuqilər, Fatimilər, Əyyubilər, İraq, Suriya və Misir Məmlükləri (XII əsrdən başlayaraq) fəal X.-ları maliyyələşdirməyə başladılar və yenilərini tikdilər. X.-lar istilahı ancaq hökumət tərəfindən təsis edilənlərə tətbiq edilirdi. Misirdə X.-lar öz xüsusiyyətini itirərək, xüsusi institutlara çevrilib, qardaşlıqları oradan sıxışdırmağa başladılar. XVI əsrdə isə X. institutu Qərbi Misirdə öz əhəmiyyətini itirir və yerini türk tipli təkkələrə verməli olur, onlar Osmanlı fütuhatları sayəsində Məğribdə yayılmışdı.

Məvaraənnəhrdə X. institutu ümumi xüsusiyyətləri saxlayaraq, bir neçə başqa xüsusiyyətlər də kəsb etdi: birincisi, kənd əhalisi və köçərilərlə sıx əlaqə saxlayırdı; ikincisi, onlar bir növ misioner mərkəz olub, türkmən, qazax və qırğızların islamlaşmasında mühüm rol oynayırdılar; üçüncüsü, onların mahiyyəti nisbətən dəyişdi, onlar indi «müqəddəs qocaların» (şeyxlərin) qəbri üstə tikilir, ziyarətçilərdən gələn gəlir isə X.-ların yaşamasına sərf olunurdu. Hindistanda X. XII-XIII ərslərdə yarandı, onların XIII-XV əsrlərdə yayılmasında sufi qardaşlıqları çiştiyyə və söhrəverdiyyənin xüsusi rolu vardı.

Azərbaycanda Pirsaatçay üzərində hələ X əsrdə tikilən və bir neçə dəfə təmir olunan Pirhüseyn Xanəgahı ən məşhur xanəgahlardan biridir.

X. tikiləndə onun təyinatı nəzərə alınırdı, adətən onlar yol qovşaqlarında, karvan-ticarət yolları üzərində məscidlə birlikdə, mətbəxli, xidməti otaqları **ilə** olurdu. Bəzən isə kimsə öz evini xeyriyyəçilik məqsədi ilə icmaya bağışlayırdı.

**Ədəbiyyat:** İslam, 272-273; əl-Hücviri. Kəşf, 441-453; 457-462; Massignon. Essai, 157, 262; Hudud al-ʹaləm, 107; Awarif əl-məarif. 107-109, 110-113; Kh.A.Nizami. Some aspects of Khangah life in medieval İndia.-StI. 1957, 8, 51-70; Trimingham. Orders, 166-169; R.W.Bulliet. The patricians of Nishapur. Cambridge, 1972, 253-254; S.Baba Mala. The Sufi convent and its social significance in the medieval period of Islam.-IC. 1977, 51/1, 34-38; J.Chabbi. Khankah.-EI, NE, 4, 1025-1026.

**Əl-Xarac** - torpaq vergisi. Əvvəlcə fəth olunmuş yerlərdən yığılan hər cür vergi növü, cizyənin sinonimi kimi işlənmişdi, xüsusilə də Xilafətin mərkəzində deyil, əyalətlərdə vassal hakimlərin yığıb göndərdikləri vergi, torpaq vergisi ilə can vergisini ayırmaq olmurdu.

Əyalətlərdən X. vergisi alınması sistemi Bizans qaydalarına gedib çıxır. İlk onilliklərdə hesab edilirdi ki, X.-ı müsəlman olmayanlar, uşru isə müsəlmanlar verir. Sonradan isə islamı qəbul edənlərin çoxalması ilə əlaqədar X.-ın dindən, əkinçi və ya icarəçidən asılı olmadığını elan etdilər.

İraq və Suriyada ilk torpaq vergisi siyahısı Müaviyə vaxtı, Misirdə 724-25-ci ildə tərtib olundu. Sənədlərə görə X. Misirdə IX əsrdə fərdi, İraq, Xuzistan və İranın çoxlu başqa əyalətlərində kollektiv vergi idi.

X. məhsul və ya pulla alınırdı. X. üç formada- misahə, müqatə'a, və müqasəmə alınırdı. Birincisi, əkilən yerdən, ikincisi, böyük torpaq sahələrindən, üçüncüsü isə məhsuldan bir hissə şəklində; növündən asılı olmayaraq X.-ın qədəri məhsulun 1/3-i olurdu, bəzən də qalxırdı. Məhsuldan vergi yığımı vaxtı, pulla isə il boyu alınırdı.

İranda isə X. mal, maliyyəti - ərzi ilə əvəz edilmişdi. XV-XVIII əsrlərdə X. İran və Orta Asiyada mal-u cihət adlanırdı. Osmanlı imperiyasında qeyri-müsəlmanlardan alınan torpaq və can vergisi X., vassal əyalətlərdən alınan vergilər isə X. məqtu´ adlanırdı.

**Ədəbiyyat:** İslam, 273-274; Lokkegaard. Taxation; Cl. Cahen. Contribution a l’etude des impots dans l’Egipte medievale.-JESHO. 1962, 5, 244-278; Cl. Cahen, A.K.Lambton, C.Orhonlu, A.Subhan. Kharadj.-EI, NE, 4, 1062-1087.

**Əl-Xassə** (cəmi əl-xəvass) - dini-ictimai istilah, əl-ammənin (cəmi əl-'avāmın) əksinə olaraq geniş mənada «seçilmiş», əyan, elitanı bildirir. Əl-ammə isə sadə xalq, kütlə, camaatı bildirir. Əl-X. və əl-A. müxtəlif elmi səviyyədə müzakirə olunmuşdur. Əl-X. kimi müctəhidlər sadə müsəlmanlarla (əl-A.) müqayisə edilir, sufi övliyaları - qalan sadə müsəlmanlara, ismaili iyerarxiyasının ezoterik doktrinasına yiyələnmiş əl-batini ali dərəcəsi, ancaq «xarici», «aydın görünəni» (əz-zahiri) başa düşənlərə qarşı qoyulur.

Mübahisəli və doksoqrafik ədəbiyyatda əl-X. və əl-A. istilahları xüsusi və dəyişməz məna kəsb etmişlər: birincisi – «şiələr» istilahının, ikincisi isə «sünnilər» (əhl əs-sünnə və -l- cəma´ə və ya əshab əl-hədis) istilahının sinonimləridir. İmami ənənəsinə görə, ilahiyyatçı-mübahisəçi (polemikaçı) Əbu Cə’fər əl-Əhval (vəf. 777) müsəlmanları dörd əsas kateqoriyaya bölüb, onlardan birincisini əl-X. («xüsusi» «seçilmiş», d.d. şiələri) «xilas edən» (ən-nəcdiyyə) icma kimi göstərir və onu xaricilər, qədirilər və sünnilər - əl-A.-yə qarşı qoyur. Sonralar şiələr əl-X. istilahı ilə sünni- əl-A. kütləsinə

qarşı qürurla özlərini imamilər adlandırmışlar. Şiə «yolu» və ya «doktrinası» (məzhəb əl-X.) ümumiyyətlə sünni «yoluna» və ya «doktrinasına» (məzhəb əl-A.) qarşı olmuşdur. Müasir dövrdə ilahiyyatçılar məzhəblərarası ixtilaflı fikirlərə qarşı çıxır və müsəlmanları birliyə çağırırlar. Qeyd edilmiş doktrinaların tərəfdarlarını əl-xassi (xassi əl-məzhəb) və əl-ammi (ammi əl-məzhəb) adlandırırlar.

**Ədəbiyyat:** İslam, 276; Sə´d b. Abdulla əl-Qummi. Kitab əl-məqalat va -l-firaq. Tehran, 1963, 19, 161; əl-Əş´əri. Məqalat, 5; əl-Müfid. Əvail, 97; аш-Шахрастани. Книга о религиях, 164, 172, 180; В.В.Наумкин. К вопросу о хасса и амма (традиционная концепция «элиты и массы» в мусульманстве). -Ислам в истории народов Востока, 40-50; İ.Goldziher. Beiträge zur Erklarung des Kitab əl-Fihrist (1). Über schi´itische and sunnitische Sectenbenennungen) -ZDMC. 1882, 36, 278-282.

**Xeybər** - Mədinədən şimalda yerləşən vahədir, e.ə. VI əsrdə mövcud idi. Eramızın VII əsrində X. bir neçə bəhərli, bol sulu xurma bağları sahəli vadidə yerləşirdi. Onun əhalisi kənd təsərrüfatı ilə məşğul olan yəhudilər və yəhudiləşdirilmiş ərəblər idi. Məhəmməd (s) (təxm. 1500 nəfərlik) dəstənin başında ona düşmən olan Xeybəri mühasirə edir, ayyarımdan sonra X.-ə kömək edən qatafan qəbiləsi qaçıb gedir və X. təslim olur.

X. təslim olduğu üçün o, müsəlmanlar üçün qənimət hesab olunurdu. Vahənin 1/5-i hərbi yürüşün başçısı kimi Məhəmməd (s) və onun ailəsinə çatdı. Qalan hissə yürüş iştirakçılarına çatdı. Torpağı yerli əhali yetişdirməli, məhsulun yarısını müsəlmanlara verməli idi. Sonrakı müsəlman hüquqşünasları hesab edirlər ki, Məhəmməd (s) torpağı əhaliyə müzakirə əsasında icarədarlar kimi icarəyə vermişdi.

Məhəmməd peyğəmbərin (s) vəfatında sonra qızı Fatimeyi Zəhra (ə) varis kimi X. payını tələb edəndə xəlifə Əbu Bəkr etiraz edib. Peyğəmbərin varisi olmadığı üçün onun icma xeyrinə zəkata veriləcəyini iddia edir. Fatimə (ə) X.-in ona atası tərəfindən bağışlandığını dedikdə Əbu Bəkr Peyğəmbər (s) ailəsini X. rentası ilə təmin etməli olduğunu etiraf etsə də, Fatimənin (ə) dediyinin sübut üçün az olduğunu söyləyib, onun tələbini rədd etdi.

641-ci ildə Ömər Mədinədə şimali Hicazdan yəhudilərin Suriyaya köçürülməsi haqqında əmr verir. Bu əmr xeybərlilərə də aid idi və onlar heç bir əvəz almadan köçürüldülər. Bu, yəhudilərin orada toprağı icarəçi kimi əkdiklərini bir daha sübut edir.

Yəhudilərin köçürülməsində Ömər Məhəmməd peyğəmbərin (s) sözlərinə əsaslandığını qeyd edirdi; Peyğəmbər (s) Ərəbistan yarımadasında müsəlmanlarla yəhudilərin bir yerdə yaşamağının mümkün olmadığını

demişdi. Ömər X.-i oranı fəth edən müsəlman döyüşçüləri və varislər arasında təzədən və tam böldü.

X.-də Məhəmmədin (s) hərbi müvəffəqiyyəti onun sonrakı qələbələri üçün rol oynadı, onun torpaqlarının statusu isə sonradan bir neçə hüquqi məsələləri həll etməyə kömək etdi.

**Ədəbiyyat:** İslam, 263; A.Grohmanın. Khaibar.-E1, 2, 931-933; L.Veccia Vagleri. Khaybar.-E1, NE, 4, 1169-1174.

**Xeyr** - xeyirxahlıq İslam dini, müsəlman ilahiyyatı və fəlsəfəsi mənasında X. şərlə tutuşdurulan əxlaqi və metafizik kateqoriyadır. Onun əxlaqi mənada sinonimləri cəmil, həsən (yaxşı), gözəl və antonimi qəbih (pis), yöndəmsizdir. Fiqhdə xeyirxahlıq odur ki, şəriət ona can atmağa, pislikdən isə uzaqlaşmağa çağırır. Metafizik konteksdə fələsifə və sufilərin bir hissəsində xeyr (və ya tam xeyr- Xeyr məhd) varlıq (vücud), pislik isə (və ya tam pislik-şər məhd) boşluq ('adəm) kimi xaraterizə edilir. Fəlsəfi və ilahiyyat ideyasında belə idi ki, dünyada X. şərdən çoxdur və Allah ancaq X.-ə səbəbkardır.

**Ədəbiyyat:** İslam, 264; M.İ.Musa. Fəlsəfət əl-əxlaq fi -l-islam. 3-cü nəşr, Qahirə, 1963; M.Fəxri. Əl-Fikr əl-əxlaqi əl-ərəbi, 1-2, Beyrut, 1978-1979; J.M.Donaldson. Studies in Muslim Ethics. L, 1963.

**Xəbər** (cəmi - «əxbar», «xəbər», «yenilik», «hekayə») - Məhəmməd peyğəmbərin (s) dedikləri və əməlləri haqqında rəvayət (bu mənada onun sinonimləri hədis, `āsār). Quran və hədislərdə bu söz öz adi mənasında – «xəbər» işlənir. Əl-Buxaridə (IX əsr) bəzi hədislər əxbar kimi mənalandırılır. Şiə hədisləri külliyyatda o, əxbar adlanır.

Xəbər istilahı, həm də ayrıca tarixi bir hadisənin və ya faktın, bioqrafik mövzularda məlumatın dünyəvi xüsusiyyətli, əxlaq və ya əyləncəli hekayə mənası verir.

**Ədəbiyyat:** İslam, 259-260; A.J.Wensick. Khabar. - EI, NE, 4, 928.

**Xədicə** bint Hüveylid-Məhəmmədin (s) birinci arvadı, mənşəyi Qüreyş tayfasının Əbdülüzzə ailəsindəndir. İki nikahdan (ərinin biri Məhzum, o birisi Təmim qəbiləsindən olub, ikincisinin adı Əbu Hələ olub, bəziləri onun Peyğəmbərin (s) tərəfdarlarından olduğunu sayırlar) sonra varlı, müstəqil bir qadın kimi ticarət karvanlarına malik idi. Məhəmməd (s) onun tərəfindən bu karvanları təşkil və müşayiət etmək üçün işə götürülmüşdü (icarə olunmuşdu). Bir neçə ildən sonra o, Məhəmmədin (s) düzlüyünü və bacarıqlı olduğunu görüb ona evlənməyi təklif etdi. X.-nin atasının narazılığına baxmayaraq nikah bağlandı.

Rəvayətə görə, X.-nin 40, Məhəmmədin (s) 25 yaşı var idi. O, Məhəmmədə (s) hələ uşaqkən ölən bir neçə oğlan və dörd qız uşağı doğdu. X. sağ ikən Məhəmmədə (s) qorxudan yuxuları və vəhyləri başlayanda X. tərəddüd etmədən onun peyğəmbərlik missiyasına inandı. Onun mənəvi və maddi dəstəyi Məhəmmədi (s) düşmənçilik edən Məkkədə ona öz təbliğatını aparmağa imkan yaradırdı. X.-nin varlı tacirlərin rəqabəti nəticəsində maddi cəhətdən zəifləməsi və hicrətdən üç il əvvəl 619-620-ci illərdə vəfatı Məhəmmədi (s) Məkkədən kənarda sığınacaq axtarmağa vadar edən səbəblərdən biri idi.

Müsəlmanlar X.-yə - birinci müsəlman qadına, Peyğəmbərin (s) həyat yoldaşı timsalı kimi hörmət edirlər. Lakin ona böyük hörmət Məhəmmədin (s) arvadı Aişə və qızı Fatimə fövqündə nisbətən azalır.

**Ədəbiyyat:** İslam, 261-262; İbn Sə'd. Təbəqat, 8, 7-16; İbn Hişam. Sirə, 1, 119-122, 153-156; Ət-Təbəri. Tarix, 1, 1127-1130; Caetani. Annali, 1, 138-144, 166-172; Stern. Marriage; Fr. Buh. Khadidja.-EI, 2, 922; W.M.Watt. Khadidja.-EI, NE, 4, 898-899; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 117.

**Xəlifə** (cəmi xuləfa, «müavin», «əvəz») - 1. Allahın elçisini əvəz edən, müsəlman icmasının başçıcısı X. Quranda Adəm (ə) və Davud (ə) Allahın yerdə canişini kimi adlandırılmışlar (2:30/28; 38:26/55). X. sözü Əbubəkr icmanın başçısı (əmir) seçiləndən sonra əvvəlcə istilah mənasını aldı. İkinci X. Öməri əvvəlcə Allahın elçisinin X.-sinin X.-si adlandırdılar, lakin sonra bu yekə müraciət forması ilk forma və ya əmir əl-möminin titulu (möminlərin əmiri-ağası) ilə əvəz edildi.

Məhəmməd peyğəmbərin (s) vəfatından sonra ilk dörd xəlifəni (Əbu Bəkr, Ömər, Osman, Əli) sünnilər «Raşidi xəlifələri» (əl-xuləfa ər-raşidun) hesab edib, onların həyat tərzi və əməllərini sünnənin timsalı və əsas hissəsi sayırlar. Şiələr isə birinci üç X.-ni yeganə qanuni və saleh X. olmalı Əlini (ə) hakimiyyətdən uzaqlaşdırdıqları üçün zorakı hesab edirlər. Xaricilər isə əksinə Əlini (ə) və Osmanı onların sırasından çıxardırlar (Əlini Süffeyndəki hakim müqaviləsinə görə).

X. erkən müsəlmanların gözündə ilahi kəşflərin daşıyıcısı deyil, ancaq «möminlərin ağası» idilər və onlar Quran qaydalarına və Məhəmmədin (s) dediklərinə riayət edilməsi qayğısına qalırdılar. Xilafət hakimiyyətini imamət you ilə irsiliyə ilk keçirmək istəyən şiələr olub, onlar Əlinin (ə) yerinə onun böyük oğlu əl-Həsəni qoymaq istəyirdilər. Lakin hiyləgərliklə hakimiyyəti Dəməşqdə ələ keçirən Müaviyə öz sağlığında hakimiyyəti - X.-yi irsiliklə oğlu Yezidə verdi və Əlinin (ə) oğlanları əl-Həsən və əl-Hüseyni məhv etməyi ona vəsiyyət etdi (dönə-dönə tapşırdı).

Əməvilər özlərini «Allahın elçisinin X.-si» deyil, «Allahın xəlifəsi» adlandırmağa başladılar. Şiələr isə imamların Allah tərəfindən ancaq Əli (ə) yolu ilə davam etdirilən və Allah tərəfindən xüsusi «bilik» verilən şəxsləri X. hesab edirdilər. Şiələr və sünnilər X.-nin ancaq haşimilərdən olması fikrində bir idilər (xaricilər isə hər bir adamın X. ola biləcəyini deyirdilər). Abbasilər də bu fikirdən istifadə etmək istəyirdilər. Lakin onların Peyğəmbərlə (s) bir nəsildən olmasına baxmayaraq, onların Allahla əlaqəsi olmasını qəbul etmirdilər və hakimiyyətin onlara ötürülməsi dünyəvi siyasi akt oldu. Onlar şəriətdə dəyişiklik və ya onu şərh edə bilməzdilər (onu ancaq fəqihlər edirdilər). Lakin onlar bu və ya başqa təlim haqqında qərar verə bilirdilər.məs: əl-Mə`mun (813-833) mötəzili təlimini yeganə düzgün təlim, əl-Qadir (991-1031) isə dinin rəsmi rəmzinin sünnilik olduğu haqqında qərar vermişdi.

IX əsrin ortalarından X.-lər müsəlman ölkələrində siyasi hakimiyyəti itirir, onlar tədricən müsəlman aləminin ruhani başçısı olur, bütün müstəqil hakimlər X.-nin ruhani başçılığını qəbul edir, vassalar X.-nin adını xütbədə qeyd edir, onun adına sikkə buraxırdılar. Hətta X.-ni hər cür siyasi hakimiyyətdən məhrum edən şiə builər (Büveyhilər) də onu müsəlmanların ruhani rəhbəri kimi tanıyırdılar.

Müsəlman dünyası eyni vaxtda İspaniyada hökm sürən Abbasi, Fatimi və Əməvilər sülalələrini tanımaq məcburiyyətində idi. Bu isə müsəlman aləminin birlik görünüşünü laxladırdı. Nəhayət, 1171-ci ildə Abbasilər yeganə X. oldular.

Abbasilərin uzun müddət birliyinin olmaması və siyasi zəifliyini X.-nin ancaq dini işlərlə məşğul olduğu və dünyəvi işlərlə məşğul olmadığında görürdülər. X.-lər isə öz siyasi hakimiyyətləri üçün qızğın mübarizə aparırdılar.

X.-nin ruhani başçılığı hətta Abbasilərin monqollar tərəfindən məhv edilməsindən sonra da qalmışdır. Məmlük sultanları haradansa bir Abbasi rişəsi tapıb, onu X. elan etdilər və onun adından öz hakimiyyətlərinin nüfuzunu qaldırdılar.

Osmanlı sultanları Misiri alandan sonra da X.-ləri tanıyırdılar, lakin onların sonuncusunu İstanbula aparıb, X. ideyasından imtina etdilər. Ancaq XVIII əsrdə axırıncı Misir Abbasi X.-si tərəfindən X.-liyin Sultan Səlimə verilməsi barədə rəvayət yayıldı.

2. Sufilikdə qardaşlığın banisinin və ya qolun rəhbərinin birbaşa varisi pirin (şeyxin, mürşidin) qardaşlığın və ya müridlərə rəhbərlik hissəsi üzrə iqamətgahın (xanəgah, ribat, təkkə) müavini, qardaşlığın (qolun) başçısının bölgədə (şəhər, kənd, iqamətgah) nümayəndəsi; «ğeyb əhli» (ricl əl-qeyb) arasında və ya «kamil insanlar» qütbünün rütbəsi. X. texniki istilah kimi sufi ədəbiyyatında yəqin ki, XII əsrin ikinci yarısında, sufi qardaşlıqlarının

sayının intensiv surətdə artması və onların təşkilatlanması ilə bağlı yaranmışdır. Qardaşlıqda (qolda) X. müxtəlif funksiyaları yerinə yetirir:

1) Qardaşlığın banisinin məzarı üzərində (iqamədgahda) yaşayan varis, onun bərəkətinin daşıyıcısı, mərkəzi iqamətgahın rəhbəri. Əvvəlcə bu məqam dərəcəyə, mövqeyə və ya icma üzvlərinin iradəsinə görə təyin edilirdi. Lakin tezliklə bir çox qardaşlıqda rəhbərlik irsi keçməyə başladı. Daha sonra, XIV-XVI əsrlərdə nəqşbəndiyyə, xəlvətiyyə, şaziliyyə və çiştiyyənin təsiri altında şiə adəti kimi «sünnilik və şəriətə yad olduğu üçün» aradan qaldırıldı.

2) Mürid icmanın tam hüquqlu üzvü olub, müəyyən ruhani kamillik dərəcəsinə çatmış şəxsdir.

3) Yerlərdə qardaşlıq başçısının müavini. Bu vəzifəyə təyinedilmə tam bir əməliyyatla yerinə yetirildi.

**Ədəbiyyat:** İslam, 268-269; Rəşahat, 7, 8, 18; Aubin. Materiauxs, 185, 193; Mahmud Çuras, 279; С.М.Алиев, А.Панахян. О роли халифа при Сефевидах.-НАА. 1968, 1, 136-145; Brown. Darvishes. Index; Birge. Bektashi Order,165-166, 263; Hodgson. Venture, 2, 216-217, 229; R.M. Savory. The office of khalifat al-khulafa under the Safavids.-JAOS. 1965, 85/4, 497-502, F.de Yong. Khalifa.-EI, NE, 4, 950-952.

**Xətib** - natiq, möizəçi, təbliğatçı. Məhəmməd peyğəmbərin (s) ən qədim tərcümeyi-halında deyilir ki, Məkkəni fəth edəndən sonra (630) «Peyğəmbər (s) natiq kimi çıxış etdi». Müsəlmanlara müraciətlə, rəsmi çıxışlarla ilk xəlifələr, onların hərbi rəisləri və canişinləri çıxış edirdilər. Bu çıxışlarda hökumət qərarları və möizə elementləri olurdu. Xütbələr məscidlərdə oxunduğu və dini xidmət olduğu üçün X.-in vəzifəsi daha çox dini xüsusiyyət daşıyırdı. VIII əsrin ikinci yarısında Abbasi xəlifələri xütbəni oxumağı qazilərə tapşırıb, özləri dinləyici kimi otururdular. Nəzəri cəhətdən cümə günləri məscidlərdə xütbə oxuyan hər bir X. xəlifəni təmsil edirdi. Misirdə bəzi Fatimi xəlifələri böyük bayramlarda (pərdə arxasından) özləri möizə edirdilər. Lakin hər yerdə müntəzəm olaraq cümə namazı qılan hər bir böyük məscidə xüsusi X. təyin etmək adəti geniş yayılmışdı. Gündəlik namazları isə adətən başqa imamlar aparırdılar. Hər bir kiçik şəhərdə belə bir məscid olurdu. İmam-xətibin rolu çox mühüm idi, lakin müsəlman ölkələrində dünyəvi dövlətçilik inkişaf etdikcə o, öz əhəmiyyətini itirir. Bəzi ölkələrdə isə əksinə, 70-ci illərdən sonra artmağa başlayıb.

**Ədəbiyyat:** İslam, 276-277; Бартольд. Əsər. 6, istilah. göst; J.Pederson. Khatib. - EI, NE, 4, 1109-1111.

**Xəlvətiyyə** - XIV əsrin sonunda Şimal-Qərbi İranda yaranan sufi qardaşlığı adətinə (məlumatına) görə 12 ana qardaşlığı siyahısına daxil olub, öz ruhani şəcərəsini Cüneyd əl-Bağdadi yolu ilə Əli ibn Əbu Talibə aparıb çıxarır və onun (Cüneyd əl-Bağdadinin) sufi təliminin qaydalarına şərik olur. X. qardaşlığı əvvəlcə türk əhalisi arasında yaranıb fəaliyyət göstərdi. O, Orta Asiya türk sufi məktəbinin bəzi ideyalarını (Əhməd əl-Yəsəvi) qəbul edib, məlamətiyyə və qələndəriyyə ənənələrinin güclü təsirini görmüşdür. X. sünni qardaşlığıdır, baxmayaraq ki, onun ilk təlimi şiəliklə (imamilərlə) bağlıdır. X. 50-dən çox müstəqil qardaşlıq və qollara başlanğıc verib.

X. ənənəsinə görə qardaşlığın banisi (mənşəcə Gilandan olan və 1397-ci ildə Təbrizdə vəfat edən) Zahirəddin Ömər əl-Xəlvəti olmuşdur, o, qütb olub X. silsiləsində 21-ci halqadır. O, öz ardıcılları üçün ciddi fərdi zühd və sərt qapalılığa (xəlvət) əsaslanan qaydalar külliyyatı yazır və 12 günlük orucluğu (imamların sayına görə ) əsaslandırdı. Həmin ənənə (Şamaxıda doğulub 1464-cü ildə Bakıda vəf. etmiş) Seyid Cəlaləddin Yəhya əş-Şirvani əl-Bakuvini X.-nin «ikinci müəllimi» (piri sani) kimi qeyd edir. O və onun xələfi Nasirəddin Dədə Ömər əl-Aydini (vəf. 1486, Təbrizdə) vaxtında X. Qaraqoyunlu və Ağqoyunluların saraylarında - Təbrizdə möhkəm mövqe qazanmışdı. XV əsrin 10-cü illərində X. Türkiyəyə keçib, oradan ərəb qardaşlıqları kimi ərəb ölkələrinə yayıldı. XVIII əsrdə X. Balkanlarda yerləşdi. X. öz zirvəsinə Osmanlı imperiyasında I Süleyman (1520-1566) və II Səlim (1566-1574) vaxtı çatdı, onda çoxsaylı yüksək rütbəli nümayəndələr qardaşlığa hər cür kömək göstərirdi. X. ilə Səfəvi sülaləsinin nümayəndələrinin görüşləri eyni olduğuna baxmayaraq, onlar hakimiyyətə gələndən sonra (1502) qardaşlıq İrandan sıxışdırılıb çıxarıldı. XVII əsrdə X.-nin tənəzüllü XVIII əsrdə mənşəcə Dəməşqdən olan Mustafa Kəmaləddin əl-Bəkrinin (1688-1749) fəaliyyəti sayəsində bütün Osmalı imperiyasında güclü təsir imkanı və yeni qolların yaranması ilə əvəz olundu. Bu yüksəliş 1925-ci ildə Türk hökumətinin qardaşlığı buraxanadək davam etdi. Hazırda X. Misirdə 20-dən az olmayan qolları ilə yüksək mövqe tutur və onun bir hissəsi 20-30-cu illərdə milli burjuaziya partiyası «Vəfd» ilə siyasi əlaqələr qurmuşdur. Əlcəzairdə X.-nin qolu rəhmaniyyənin 1950-ci ildə 230 min üzvü var idi. X.-nin müxtəlif qolları Sudan, Livan (Beyrut, Tripoli), Hələb, Dəməşq, Albaniya, Yuqoslaviyada və s. fəaliyyət göstərirdi.

X.-nin ancaq ilk altı rəhbəri vaxtı qardaşlığın vahid təşkil olunmuş struktur və mərkəzi rəhbərlik sistemi var idi (baş iqamətgah Təbrizdə Bağ-ı Şimal xanəgah). Sonra isə ayrı-ayrı qardaşlıqlar, qollar, mərkəzlər və s. yarandı.

Siyasi təsirlər nəticəsində X. dəyişərək sünni qardaşlığı oldu. Lakin dərində, gizlində o, şiə idi, çünki mənşəyini Əliyə bağlayırdı.

X. təliminin əsasını aşağıdakılar təşkil edir: cūʹ (könüllü aclıq), samt (susma), səhər (yuxusuz qalma), iʹtizal (tənhalığa çəkilmə), rabt (müridlə şeyxin ürəkləri arasında daimi əlaqə-bağlılıq) və daimi ayini təmizlik. Müridin və ya dərvişin tənha qalmasına xəlvət deyilir, ən qısa müddəti üç, ən uzunu qırx gündür. X. yolu yeddi məqamdan ibarətdir və onun hər biri yeddi sözdən ibarət olan ifadənin zikrinin bir sözünə uyğun gəlir: ət-təhlil, Allah, huvə, əl-hayy, əl-haqq, əl-qəyyum, əl-qəhhar (əl-qədiriyyədəki kimi). X.-də bütün qollar onun xüsusi olmasının-X.-nin 5-ci piri Yəhya əş-Şirvani (vəf. 1464) tərəfindən yazılmış Vird əs-səttarın oxusuna xüsusi diqqət verilir. O, icmanın ümumi iclasında bərkdən oxunur (Yuxarıda əş-Şirvani X.-nin 2-ci piri qeyd edilir).

X.-nin təşkilati quruluşu başqa sufi qardaşlığı kimi olsa da, bəzi xüsusiyyətləri vardır. Osmanlı imperiyasında X.-nin hər qolunun başçısı (şeyx əs-səccadə, pustnişin, baba) özü onun banisinin xəlifəsi olub irsi idi, lakin Suriyada o seçilirdi. Misir və Suriyada X.-nin iqamətgahlarında inzibati-maliyyə işlərinə başçılıq edən vəkil mənsəbi təsis edilmişdi. X.-yə qəbul məhdud deyildi. Təkcə Əlcəzairdə əhmədiyyə qolu savadsızları qəbul etmirdi.

X. qardaşlığının üzvünün geyiminin fərqli elementi onun yaşıl və ya qara rəngli dördünkünc papağı idi.

**Ədəbiyyat:** İslam, 267-268; Kərbəlayi. Rövzət, 1, 472-476, 601-605; Brown. Darvishes, 449-452; H.J.Kissling. Aus der Geschichte des Chalvetijje-Ordens.-ZDMG, 1953, 103/2, 233-289; de Yong. Sufi Orders, 164-165; Gilsenan. Trajectories, 198; Popovic. Orders, 245-246; Trimingham. Orders, Index; F.de Yong, Khalwatiyya-EI, NE, 4, 991-993.

**Əl-Xəvaric** (təki xaric, «çıxış edənlər», «üsyankarlar», «parçalayanalar», «ayıranlar») - xaricilər islam tarixində Əli ibn Əbu Talib və Müaviyənin tərəfdarları arasında Xilafətdə hakimiyyət uğrunda mübarizə gedişində yaranan ən erkən dini-siyasi qrupun ardıcıllarıdırlar. Siffeyn döyüşündə (657) Əli (ə) xalq məhkəməsinə razı oldu, bu onun düşərgəsində narazılığa səbəb oldu. Əliyə (ə) bir rəhbər kimi baxmaqda səhv etdiklərini düşünən və «qərar (hökm) ancaq Allaha aiddir» deyən 12 min döyüşçü barışıq vaxtı Kufə yaxınlığında olan Hərurə kəndinə çəkildilər (ona görə də onlar əvvəl hərurilər adlanırdılar). (Əslində onlar özləri danışığa başlamağı tələb etmişdilər). X. hərəkatına belə başlanğıc qoyuldu. Əlinin (ə) keçmiş tərəfdarlarının Kufədən «çıxış» epizoduna bu hərəkat öz adı ilə borcludur. Doksoqraf ədəbiyyatında X. başqa adlar altında da xatırlanır: əl-mühəkkimə, ən-nəvasib, əş-şurat, əl-məriqun («geri

çəkilənlər»). Axırda (guya) «qanuni» icma başçılarına qarşı çıxış edənlərin hamısını əl-X. adlandırmağa başladılar.

Əli (ə) 661-ci ildə qətl olunana qədər X. ona qarşı silahlı mübarizə apardılar. Ondan az qanlı olmayan mübarizəni də Müaviəyə qarşı aparıb, guya «şəhidlərin» siyahısını böyüdürdülər. Onların taktikası belə idi: atlı dəstələr gözlənilmədən hücum edir, təhlükəli hallarda Bəsrə yaxınlığında bataqlıq yer olan əl-Bətaihdə olan əsas bazalarına çəkilirdilər.

VII əsrin ikinci yarısında əl-X. arasında bir neçə qrup yarandı ki, onlar da öz rəhbərlərinin adları ilə adlanırdılar: əzraqilər, ibadilər, sufilər. Bu, əl-X. hərəkatını zəiflətdi, onlardan hər biri ayrıca mübarizə aparıb, başqasının köməyinə bel bağlamırdı. Buna baxmayaraq əzraqilər və ibadilərin güclü çıxışları mərkəzi hakimiyyəti daim gərginlikdə saxlayırdılar. Əl-X. İraq və İranla yanaşı Ərəbistanda (Yəmamə, Hədrəmaut, Yəmən), indi də ibadilər icması qalan Şimali Afrikada - Əlcəzair və Liviyada, həmçinin Omanda fəaliyyətlərini genişləndirdilər.

Lap əvvəldən əl-X. arasında nə hərbi siyasi, nə də dini münasibətlərdə birlik var idi.

Müsəlman doksoqrafları Xilafətin müxtəlif tərəflərində müxtəlif vaxtlarda fəaliyyət göstərən 20-yə qədər xəvaric icmasının olduğunu qeyd edirlər. Ümumiyyətlə, əl-X. Xilafətin nəzəriyyəsi, dinin təyinatı və onun əməllə münasibəti ilə bağlı olan əhkami məsələlərin işlənməsində mühüm xidmət göstərmişlər. Hakimiyyət məsələsində əl-X. həm sünnilər, həm də şiələrə qarşı çıxırdılar: Hakimiyyət seçki yolu ilə olmalıdır, (əş-Şəhrəstani), hər icma öz imamını, xəlifəsini seçə bilər.

Dini məsələdə əl-X. islamın «təmizliyi»nin tərəfdarları idilər və dini qaydaları ciddi sürətdə yerinə yetirirdilər. Onlar «ağır günah» edənlərə qarşı «müqəddəs müharibə» aparmağı irəli sürürdülər. Dindən üz döndərənləri (o cümlədən «qanunsuz» xəlifələri) öldürmək əl-X.-in dini prinsipləridir.

Əl-X.-in Xilafət hakimiyyətinə qarşı mübarizəsi fanatik, nifrət və qəddarlıqla təkcə onlara qarşı deyil, həm də özlərinin siyasi-dini düşmənləri, hətta başqa cür fikirləşən müsəlmanlara da qarşı idi. Bütün bunlar əl-X. hərəkatının ictimai bazasını zəiflətdi və nəhayət onu məğlubiyyətə apardı.

**Ədəbiyyat:** İslam, 260; əl-Əşəri. Məqalat, 86-131; əl-Bağdadi. Əl-Fərq, 72-82; ащ-Шахрастани. Книга о религиях, 108-112; İrfan. Dirasət, 66-82; Talibi. Xəvaric; G.Levi Della Vida. Kharidjites.-EI, NE, 4, 1106-1109.

**Əl-Xəttabiyyə** - xəttabilər, «qatı» (ifratçı) şiə (firqəsi) qruppası, Əbu -l-Xəttab Məhəmməd b. Əbi Zeynəb əl-Əsədinin ardıcılları. O, X.-nin banisi və ruhani müəllimi olub, təbliğ edirdi ki, ilahi ruh Cəfər əs-Sadiqədən (ə)

Əli (ə) nəslindən olan imamlara keçmişdir. Kufə yaxınlığında çadır qurub, öz ardıcıllarını orada Cəfər əs-Sadiqə dua etməyə dəvət edirdi və deyirdi ki, onun simasında Allah gəlib. Cəfər əs-Sadiq bunu eşidib, ondan üz döndərdi və onu lənətlədi. Onda Əbu -l- Xəttab dedi ki, imamət irsi deyil və imamlıq ona keçmişdir. O, deyirdi ki, ilahilik peyğəmbərdə nur, peyğəmbərlik imamda nurdur, həyat nursuz qala bilməz və bu nur ona - yeddinci imama keçmişdir.

760-cı ildə X.-nin bir hissəsi Məhəmməd b. İsmayılın tərəfdarları ilə birlikdə Kufədə Abbasi canişini İsa bin Musaya qarşı üsyan qaldırdılar. 70 nəfər X. üzvü məsciddə gözlənilmədən hücuma məruz qaldılar, daş, bıçaq, xurma ağacının budaqları ilə vuruşub həlak oldular. Əbu -l- Xəttab tutulub bir qrup öz həmfikirləri ilə çarmıxa çəkildi. Onların meyitləri yandırıldı, başları isə xəlifə əl-Mənsura göndərildi, o, başları üç gün ərzində Bağdad darvazasından asıb, sonra yandırmağı əmr etdi.

Müəllimlərinin ölümündən sonra X. beş qrupa parçalandı, onların bəziləri Əbu-l-Xəttabın öldüyünü rədd edərək onu ilahiləşdirməkdə davam edir, başqaları isə ilahiliyi yeni başçılarına aid edirdilər. X.-nin hamısı imamları ilahiləşdirir, Cənnət və Cəhənnəmi alleqorik şərh edir, məadı qəbul etmir, ruhun köçməsini qəbul edirdilər. Bütün X.-lər Peyğəmbərdən (s) sonra Əlini (ə) imamətdən- müsəlmanların başçılığından «kənarlaşdırmağı vacib bilib, üç ilk xəlifəni imansız sayırdılar.

X. «natiq» və «samit» imamlar haqqında təlimi inkişaf etdirib, Əlini (ə) Peyğəmbər (s) vaxtı «samit», onun vəfatından sonra isə «natiq» olduğu kimi Əbu l- Xəttabın da Cəfər Sadiq vaxtı «samit», onun vəfatından sonra «natiq» olduğunu söyləyirdilər.

X.-lərin ideya varisləri - ideyaları qərməti hərəkatı ideoloqlarının fikirləri ilə qarışıq olan ismaililər idilər.

**Ədəbiyyat:** İslam, 277; ан-Наубахти. Шиитские секты, 162-164, 166-167; əl-Əş'əri. Məqalat, 10-13; əl-Bağdadi. Əl-Fərq, 247-250; аш-Шахрастани. Книга о религиях, 157-158; W.Madeling. Khattabiyya-EI, NE, 4, 1163-1164.

**Əl-Xilafət** - 1. Xəlifənin mənsəbi, onun hakimiyyət dövrü. 2. X.-xəlifənin başçılıq etdiyi dövlət. Feodalizm və kapitalizm dövründə bəzi müsəlman dövlətlərinin dövlət quruluşunu bildirən istilah. Müsəlman dövlətlərini X. adlandırmaq «mömin xəlifələr» - Raşidilər (632-661), Əməvilər (661-750), Abbasilər (750-1258) və Əndəlüsdəki Əməvilər X.-i (756-1031) vaxtı qəbul edilmişdir. Özlərini xəlifə adlandıran Fatimilər dövlətinin başçılarını adətən xəlifə adlandırmırdılar. Raşidilər – X.-i idarə edən, ali dünyəvi və dini hakimiyyətə malik olub Məhəmməd Peyğəmbərin (s) varisləri kimi qeyd edilirdilər (Əbu Bəkr, Ömər, Osman, Əli). Eyni

zamanda hakimiyyətə Əməvi xəlifələri də malik idilər. X əsrdən Abbasi xəlifələri müsəlmanların dini başçılarına çevrilib, heç bir dünyəvi hakimiyyətə malik deyildi, lakin sünni müsəlman ölkələrinin ali feodal süzereni hesab olunurdular.

**Ədəbiyyat:** İslam, 278; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 117-118.

**Xirqə** (xəraqa felindən- «cırmaq», «deşik açmaq») - cırıq və ya yamaqlı plaş, əba, geyim rəmzi. Bunlardan birini geyənin sufi yoluna qədəm qoyduğunu və həmin sufinin fəqirliyə bağlılığını bildirir, çox vaxt bu geyim ayrı-ayrı parça tikələrindən (mürəkkə′a) tikilirdi. X. geyilməsi VIII əsrdə qeydə alınıb. Bu adəti müsəlman zahidləri rəvayətə görə, şərq xristian təbliğatçılarından götürmüşlər. Ancaq bu adəti bütün sufilər qəbul etmirdi, onlar bunda «nümayişkar qeyri-ciddiliyi» və «başqa insanlardan fərqlənməyə can atmağı» görürdülər.

Quranda X. sözü yoxdur, lakin erkən sufilər Quranı (7:26/25) alleqorik şərh edərkən X.-ni daxilən və xaricən «Allahdan qorxmaq» kimi başa düşürdülər. X.-nin geyilməsinin iki mənası vardı:

1) sınaq müddəti keçmiş şagirdin (mürid) tamhüquqlu üzv kimi sufi qardaşlığına həsr olunması (daxil olması);

2) şagirdin müəllimə, qardaşlığın banisinə və Peyğəmbərə (s) sadiqlik andını (əhd) içdikdən sonra şagirdə onun müəllimi (mürşid, pir, şeyx) tərəfindən qardaşlığın sirli duasının (vird) məzmununu açmaq yolu ilə Peyğəmbər (s) xeyir-duasını verməsi, bununla yeni üzv, şeyx və qardaşlıq arasındakı əlaqə ezoterik xüsusiyyət kəsb edirdi. X.-ni ömür boyu daşıyırdılar, yerindən və adətindən asılı olaraq sınaq müddəti qırx gündən üç ilədək idi.

Rəhbərsiz sufi yolunu keçənləri isə Xızır peyğəmbərlə (ə) bağlayırdılar. Sonralar bir neçə X. növü yarandı: X. əl-iradə və ya X.-əl-əsl (könüllü əba), X. ət-təbərrük və ya X. ət-təşəbbüh (oxşar əba), X. ət-tərbiyə və ya X. əl-hidayə (tərbiyə və rəhbərlik əbası), X. əs-sübhə (yoldaşlıq əbası), X. ət-təlim (təlim əbası).

Sufi nüfuzların (avtoritet) çoxu ancaq X., ət-təsəvvüf məfhumu ilə kifayətlənirdilər, onu alan şagird əbədi olaraq öz müəlliminə bağlı olurdu.

**Ədəbiyyat:** İslam, 278-279; əl-Hücviri. Kəşf, 49-65; yenə o. Kashf, 45-57; İbn əl-Cövzi. Təlbis, 186-200 (xirqə geymək adətinin tənqidi); Awarif əl-mə′arif, 287-288; əl-Kaşani. İstilahat, 159-160; Şmidt. Abd əl-Vəhhab, 182-185; E.Blochet. Etudes sur I'esoterisme musulman. –JA. 1902, 19, 521-522; J.-L.Michon. Khirqa.-EI, NE, 5, 17-18.

**Əl-Xızır** (əl-Xıdır, Həzrəti Xızır, Xoca Xidr) - peyğəmbər - müsəlman rəvayətləri surəti, mömin, ilk insanlardan biri. Allaha inamı insanlarda dəstəkləmək üçün əbədi həyat verilmiş insan. Müsəlman rəvayətlərinin (mifologiyasının) İsa, İlyas və İdrislə yanaşı «dörd ölməzlərdən» biri, guya adalarda yaşayır, uçur, daim dünyanı gəzir, hər il həccə ziyarətə gedir, cümə günləri Məkkə, Mədinə və Yerusəlim (Qüds) məscidlərində namaz qılır. O, dənizdə üzənləri himayə edir. Onu xüsusi dualarla köməyə çağırmaq olar. O, yanğını söndürür, boğulanları xilas edir, oğurluq, cinlərin əməlləri, ilan çalmasından qoruyur. Onun sevdiyi rəng yaşıldır, su ilə yaşayan bitkilərə can verir. Əl-X. islam məişətində böyük şöhrət qazanıb, bir çox müsəlman ölkələrində ona təzim edilən ziyarət yerləri vardır. Sufilər üçün o, vəli («müqəddəs») olub, ən hörmət olunan və əzəmət sahiblərindən biridir. Bəzən onu ən böyük adam sayırlar.

Quran şərhçilərinin əksəriyyəti əl-X.-ı Allahdan biliklər alan və onun tərəfindən himayə olunan adsız «qulların qulu» (18:60/59-82/81) ilə eyniləşdirirlər. «İki dənizin qovşağını» axtara-axtara səyahət edən Musa (ə) (Musa b. İmran) bu «Allahın quluna» rast gəlib, ondan müdrikliyi öyrənmək üçün onunla səyahət etməyə icazə verməyi xahiş edir. O razılaşır, amma Musanın (ə) onun etdiklərinə səbri çatmayacağını söyləyir. O, Musadan (ə) onu tənqid etməyəcəyinə və etdiklərinin səbəbini soruşmayacağına söz alır. Onlar balıqçı qayığında üzürlər, Xızır peyğəmbər (ə) qayığı deşir, sonra bir cavan oğlan uşağını öldürür, onların pis qarşılandığı bir yerdə uçuq bir divarı hörüb təzələyir. Musa (ə) sınağa dözə bilməyib, Xızır (ə) onu tərk etməzdən qabaq ediklərinin müdrikliyini ona başa salır. O, balıqçıları qəddar çarın acgözlüyündən xilas edib, o, yaxşı qayığı onlardan alıb özlərini öldürərdi, xarab qayığa nəzər salmazdı. Oğlan böyüyəndə fəsad törədəcəkdi, onu öldürüb valideynlərinə başqasını, yaxşısını törətməyə imkan verdi. Köhnə divar altında xəzinə gizlədilmişdir, onu təzələdi ki, yetimlər böyüyənədək onu heç kim tapmasın. Allah onu onlar üçün təyin etmişdir (Q. Kəhf sur).

Bu hekayə iki məşhur sujeti biləşdirir. Biri «həyat suyu» axtarışında səyahətdir ki, bu qədim Yaxın Şərq əsatirinə, sonra da İskəndər haqqında romana gedib çıxır, o biri «teodisey haqqında əfsanə»dir ki, dünya folklorunda çoxlu parallelik vardır. Ərəb və fars ədəbiyyatında (folklor) əl-X. əl-İskəndər Zü- l-Qərneynin «həyat suyu» axtarşında köməkçisi olur. Məhz bu mənbəyi o tapır və ölməzlik alır.

Türkiyə, Orta Asiya, Volqaboyu xalqları və başqa müsəlman ölkələrinin xalqları əl-Xıdırı İlyas kimi qeyd edirlər.

**Ədəbiyyat:** İslam, 262; İbn Hişam. Tican, 95-104; ət-Təbəri. Tarix, 1, 414-429; yenə o. Təfsir. 15, 176-188; əl-Məs'udi. Muruc, 4, 216; əs-Sə'ləbi. Qısas. 122-130; əl-Kisəi. Qısas, 230-233; əs-Sicistani. Əl-Muammərin, 3;

Nöldeke. Beitrage; R.Hartmann. Zur Erklȋhrune von Sure 18, 59 ff.-ZA. 1910, 24, 307-315; Horovitz. Untersuchungen, 43, 141-143; Gaudefroy - Demombynes. Mahomet, 366-370; Paret. Kommentar, 316-318; A.J.Wensinck. Əl-Khadir.-EI, NE, 4, 902-905.

**Xoca** («ağa», «sahib») - müxtəlif müsəlman ölkələrində müxtəlif dövrlərdə və müxtəlif mənalarda işlənən fəxri ad və müraciət.

1. Orta əsr Misirində X. varlı fars və başqa gəlmə tacirlərdir. Samanilər (IX-X) və Qəznəvilər (X-XII) dövlətlərində böyük (bozorq) X. vəzirin tituludur. Osmanlı imperiyasında X. üləma mənasını verirdi. Sultanın tərbiyəçisi, saray kitabxanasının qoruyucusu və xadimlər də belə adlanırlar. X.-yi cahan Hindistanda (XIV-XX əsrlərdə) sultanlıqda yüksək vəzifəli şəxslərin tituludur. Cəmdə-xocaqan Osmanlı imperiyasında məmurlar sinfinin adıdır (XVI-XX əsrlər). X. baş əyalətlərdə xəzinə xidməti başçısıdır. Müasir Türkiyədə X. dinlə məşğul olan şəxsləri və müəllimə müraciəti bildirir. Bir sıra müasir ərəb ölkələrində xəvacə - qeyri-müsəlman tacirləri bildirir və qeyri-müsəlmanlara (ədəbli) müraciət formasıdır.

2. Orta Asiyada XX əsrin əvvəlinədək X. - mənşələrini ilk dörd xəlifənin nəsli ilə bağlayanların fəxri adı. Burada Fatimədən olanlar istisna edilirdi (bax: şərif).

3. Əbdülxaliq əl-Hicduvani tərəfindən yaradılmış sufi qardaşlığı xocaqanın üzvünü, sonralar isə (XIX əsrə qədər) bu qardaşlıqla genetik (irsi) cəhətdən bağlı olan bir neçə hakimlər sülaləsini bildirir.

4. Hind ismaili–nizarilərin, habelə Zənzibarda, Afrikanın şərq sahilində, Hindukuşda (orada məvalis adlanırdı), Orta Asiyanın və Şərqi İranın bir sıra əyalətlərində və Ərəb körfəzində yaşayanların icmasını bildirirdi.

5. Əsasən ismaililər-nizarilər, sünnilər, imami şiələrdən olan Hindistan əhalisi qrupuna aid olanları bildirirdi.

**Ədəbiyyat:** İslam, 280; Н.Ханыков. Описание Бухарского ханства. СПВ., 1843, 182 və sonra; В.А.Лившиц. Согдийские докумнты с горы Муг. Вып. 2. Hüquqi sənədlər və məktublar. M, 1962, 201; Махмуд Чурас, 323-324, qeyd. 363; О.Ф. Акимушкин. Хронология парвителей восточной части Чагатайского улуса (Tuqluk-Teymur xan xətti).- Восточный Туркестан и Средная Азия. М., 1984, 156-164; М.Н.Боголюбов. Два согдийских титула.- A.A.Jdanov adına LDU-nin Elmi Əsərləri, №412, şərqşünaslıq elmləri seriyası 25, L., 1984, 22-25; P.Pelliot. Notes on Marco Polo. I.P., 1959, 212-214; Khwadja-i djahan.- Yenə orada, 907-908; C.Orhonlu. Khadjegani-i diwan-i humayun.-Yenə orada, 908-909; W.Madelung. Khodja. -Yenə orada, 5, 25-27.

**Xums** (və ya xumus, cəmi əxmas; «beşdə bir hissə») - müxtəlif növ qənimət və qazancların qalığının il başında (və ya müəyyən vaxtda) 1\5-nin fəqirlər, alimlər, müqəddəs şəxslərin (görkəmli seyyidlər) hesabına verilən hissə - xums. Xumsu Məhəmməd peyğəmbər (s) hərbi qənimətdən pay kimi təsis etmişdi, o, ənənəvi olaraq rəhbərə ayrılan 1\4 payı əvəz etmişdi. Sonradan isə: 1) xəlifə ya dövlət başçısının sərəncamına qənimətdən ayrılan hissə (pay); 2) dənizdən əldə edilən məhsullardan (mirvari, ənbər, qiymətli daş-qaş) pay; 3) tapılan xəzinədən pay; 4) müsəlmanın qeyri-müsəlmana satdığı torpaq pulundan pay.

Hər 1/5 vergi növü X. sayılmadı. Belə ki, xristian təqlibilər «alcaldıcı» cizyə verməkdənsə ikiqat ′uşr verməyi özlərinə şərəf sayırdılar. Bu vergi X. yox, ikiqat onluq adlanırdı.

**Ədəbiyyat:** İslam, 283; Schmidt. Die Occupatio.

**Əl-Xürrəmiyyə** (fars. xürrəmdin- «fərəhli, xoşməramlı dini olan») - xürrəmilər, sünni məzhəbinin əksinə olan manihey, məzdəki tipli cərəyanın toplu adı, onların şüarları altında İranda VIII-X əsrlərdə xalq hərəkatı keçirdi. Abbasilər xilafətinə qarşı Azərbaycan və qonşu ölkələrdə yaranmış təriqət. İslam dövründə yaranmış Xürrəmilik babəkiyyə və məzdəkiyyə adlanan iki qola bölündü. Zərdüşti dairəsində maniheylər (əl-mə′nəviyyə) və məzdəkilərə (əl-məzdəkiyyə) bərabər olan mürtədd əqidənin zərdüştilərin adı kimi-vehdinlər-«ən yaxşı dini olan»lardır.

Xürrəmilərin ardıcıllarına müxəmmirə (ərəb. «qırmızı geyinənlər») və ya surxələm (fars. qırmızı bayraqlılar) deyirdilər. Tarixdə ilk dəfə yadellilərə qarşı qırmızı geyim və qırmızı bayraq altında çıxış edən X. olmuşlar. Onların icmasını imamlar idarə edirdilər. Onların dini etiqadı işıq və zülmət xeyir-şərin rəmzi olan iki mənəvi qüvvəyə, inama əsaslanırdı. Bəziləri xürrəm sözünü Ərdəbil yaxınlığındakı Xürrəm kəndi, bəziləri isə «şad, şən, şəhvətpərəst» anlayışları ilə bağlayırlar. Bəziləri onu atəşpərəst, od, günəş sözləri ilə bağlayırlar. Onlar torpağı kəndlilərə vermək, hər şeyi bərabər bölmək istəyir, islama qarşı çıxırdılar. X. Babək hərəkatının ideya əsası olmuşdur.

Sünni məzhəbinin baxışı ilə Nizaməlmülk bu əqidəyə çox nifrətlə yanaşır. O, onları İslamın düşmənləri sayır, çünki, onlar təkcə şəriəti deyil, həm də ümumibəşəri mənəvi qaydaları da rədd edib, bütün qadağaları icazə verilən hesab edirlər, başqalarının mülkiyyətinə və arvadlarına təcavüz edirlər. Onlar Əbu Müslim, Mehdi və Əbu Müslimin qızı Fatimənin oğlu Firuza dua edirlər, onların bütün səyləri İslamı dağıtmağa yönəlib. Mütəhhər əl-Müqəddəsi xürrəmiliyin islamaqədərki zərdüştiliyin kafir təlimi ilə əlaqəsi olduğunu göstərir. X. ideologiyasının əsasını dualizm-İşığın Qaranlıqla mübarizəsi təşkil edir. Ruhun köçməsi və ilahi ruhun

Peyğəmbər (s) və görkəmli şəxslərdə təcəssümü ideyasını onlar «qatı» şiələrdən götürmüşlər. X.-nin əxlaqi dualizmi onların sosial ideyaları ilə çulğallaşırdı, gözlənilən Peyğəmbər (imamın) gəlişi bəd əməllərə son qoymalıdır. Onların proqramı ümumi bərabərlik, vergi və biyarın ləğvi, maddi nemətlərin bərabər bölgüsünü əhatə edirdi. Onlar silahlı mübarizəni rədd edirdilər. VIII-X əsrlərdə şərqi Xilafətdə bütün antiərəb və antifeodal hərəkatlarını dəstəkləyirdilər. 755-ci ildə Şimal-Şərqi İranda zərdüşti Sunbadın rəhbərliyi altında X.-lərin böyük üsyanları oldu, o, Abbasilərin antiəməvi hərəkatının rəhbəri Əbu Müslimə divan tutmasına görə qalxmışdı. Ruhun köçməsi ilə əlaqədar onlar Əbu Müslimin göyərçinə çevrilib dağ qalasında Məzdək və Mehdinin yanında olduğunu qeyd edirlər. Onların üçü də çıxış etmək və ədaləti bərqərar etmək üçün öz vaxtlarını gözləyirlər. Mehdi və Məzdək adları şiələri və məzdəkiləri X. tərəfə cəlb etdi. VIII-IX əsrlərdə onlar Azərbaycan və Mərkəzi İranda X. xalq hərəkatında şiələrlə birlikdə çıxış edirdilər. Çoxcərəyanlı X. geyimləri, başçıları və s. görə əl-muhəmmirə - qırmızı geyənlər, əsbidcəmakiyə-ağgeyənlər, əbu müslimiyyə, sunbadiyyə, fatimiyyə və s. adlanırdılar. X əsrdə xilafət qoşunları tərəfindən məğlub edilən X.-nin böyük bir hissəsi şiəliyi qəbul etdilər. Mənbələr X-XII əsrlərdə X. icmasını İran əyalətləri və Orta Asiya ərazilərində kənd yerlərində qeydə almışdı. XV əsrdən sonra X. haqqında mənbələrdə məlumat yoxdur.

**Ədəbiyyat:** İslam, 283-284; ət-Təbəri. Tarix, 2, 158, 8, 3, 119-120, 493, 645-646, 732, 1165, 1235; əl-İstəxri. Məsalik, 203; Siyasət-namə, 236, 257-259, 279-278; əl-Bağdadi. Əl-Fərq, 226; аш-Шахрастани. Книга о религиях, 153, 157, 223; Kitab at-Tanbih wa`l-Ischraf auctore al-Masudi. Ed. M.J. de Goeje. Lugduni-Batavorum, 1894, 352-355; Петрушевский. Ислам, 277-279; yenə o. К истории Маздакитов в эпоху господства ислама.-НАА. 1970, 5, 71-81; D.S.Margoliouth. Khurramiya.-ShEI, 257-258; W.Madeling. Khurramiyya.-EI, NE, 5, 63-65; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 119.

**<u>Xütbə</u>** - xətibin çıxışı, möizəsi. Müsəlman ayinlərindən görünür ki, X. hələ Məhəmməd (s) vaxtı yaranmışdır, lakin Quranda bu haqda məlumat yoxdur. X. haqqında Peyğəmbərin (s) tərcümeyi-halı və çoxsaylı hədislərində məlumatlar vardır. Fiqh işlənib hazırlananda X. qanunvericilik sənədlərində xüsusi bölmələrdə dini ibadətin bir hissəsi kimi cümə günləri, iki əsas dini bayram (Orucluq və Qurban) günləri və bəzi hallar üçün (ay, gün tutulması, quraqlıq halları üçün və s.) hesablanmışdır. Cümə günləri xütbəsi ilə qaydaya görə geyinmiş, mərasimi təmiz olan imam-xətib çıxış edir, cəm olanları salamlayır, Allahı mədh edir, Peyğəmbərdən xeyir-dua xahiş edir, Qurandan bir hissə oxuyur, möminlər (inananlar) üçün dua edir

və yığışanları mömin olmağa çağırır. X. adətən minbərdən edilir, onun mətni Qurandan sitatlar, dualar və öyüd-nəsihət verməkdən ibarətdir. Yazılı mənbələrdə konkret X.-lərin formaları, mətnləri gətirilir. Məsləhət görülən və nümunəvi X.-lərin toplusu da vardır.

X.-nin siyasi əhəmiyyəti onda xəlifənin adının çəkilməsindədir. Hakimin adınn çəkilməsi isə onun müstəqil olmasını bildirirdi. Hazırda X.-nin mətni dövlət nümayəndələri ilə razılaşdırılır. Tədqiqatçılar X.-nin yəhudilik, xristinalıq və islamaqədərki dövrlərdə demək olar ki, eyni cür olduğunu qeyd etmişlər.

**Ədəbiyyat:** İslam, 285; Бартольд. Əsər, 6, 15-78; A.J.Wensinsk. Khutba.-EI, NE, 5, 74-75; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 119.

# İ

**<u>İbadət (cəmi ibadāt, «səcdə etmə»)</u> -** ayinlər yerinə yetirməklə təzahür edən Allaha ibadətetmə, ictimai ibadət vəzifələri. «Dini ayinlər haqqında elm» (ilm əl-ibadə), Allahı saymağın «xarici» formaları müsəlman hüququnun (əl-fiqh) şəriətdə qeyd olunan beş hissəsindən birini təşkil edir. İ. mərasim təcrübəsi kimi «ruhani təcrübədən» (müamələ) fərqlənir və dəstəmaz almağı (ət-tahara- «təmizlənmə»), hər gün beş dəfə namazı (əs-salat), mülkiyyətdən kasıbların nəfinə alınan vergi (əz-zəkat), orucluq (əs-saum), ziyarət (əl-hacc) və cihadı özündə ehtiva edir. Bu dini vəzifələrin yerinə yetirilməsi Allaha (itaətin tə'a) ayrılmaz hissəsidir. Ərəb və Avropa islamşünaslıq ədəbiyyatında İ. istilahı və tə'a tez-tez sinonim kimi işlənir. Təlimat nəzəriyyəsində İ. sünni və şiələrdə eynidir, lakin təcrübədə fərqlər vardır.

**Ədəbiyyat:** İslam, 80; G.H.Bousquet. İbadat. – EI, NE, 3, 668-669.

**<u>Əl-İbadiyyə</u>** – ibadilər (və ya abadilər) Abdulla b. İbadın (və ya Abadın) ardıcılları (VII əsrin ikinci yarısı), dörd əsas xarici icmalarından ən «mülayimi» (mötədili). 684-cü ildə Bəsrə xariciləri arasında parçalanma baş verdi: əzraqilər Əməvilərə qarşı çıxdılar, Abdulla isə Bəsrədə qaldı, o, silahlı mübarizədən imtina edib xaricilərin «mülayim» (mötədil) qoluna başçılıq etdi. İbadi icmasının əsl banisi və müəllimi Cabir b. Zeyd olmuşdur (o, əslən Omandan idi, təxm. 717-ci ildə vəfat etmişdir). VIII əsrin əvvəllərində Bəsrə ibadiləri siyasi fəaliyyətlərini gücləndirdilər və tezliklə onların rəhbərlərinin çoxu (o cümlədən Cabir) Omana sürgün edildilər. Lakin Bəsrədəki ibadi icması bütün İ.-lərin mənəvi mərkəzi qalmaqda davam edirdi. İcmanın təzə başçısı Əbu Übeydə ümumibadi üsyanını hazırlamaq üçün müsəlman dünyasının bütün yerlərinə öz nümayəndələrini göndərdi. Əməvi xilafətinin xarabalıqları üzərində Əbu Übeydə «dünya ibadi imamətliyini» yaratmaq istəyirdi. İbadi emissarlarının təbliğatı böyük müvəffəqiyyət qazandı: artıq bir neçə ildən sonra Xilafətin müxtəlif tərəflərində ibadi qiyamları alovlandı. VIII əsrin 40-cı illərinin sonunda İ. Cənubi Ərəbistanda üsyan qalıdırb Hədrəmaut və Sən'anı tutdular, Məkkə və Mədinəni müvəqqəti zəbt etdilər. İ.-ni əhəmiyyətli müvəffəqiyyət Omanda da qarşıladı, onların Bəsrədəki rəhbərləri və müəllimləri oraya köçdülər. IX əsrin sonuna qədər Omanın İ.-i müstəqil qaldılar, sonra ölkə yenidən Abbasi qoşunları tərəfindən tutuldu, lakin XI əsrin əvvəllərindən Abbasilər hakimiyyəti Omanda öz gücünü itirdi. Hazırda bu ölkənin əhalisinin çoxunu İ. təşkil edirlər.

İbadi təbliğatı Şərqi Afrikada (Zənzibar adasında), İranda (Xorasan), İraqda (Kufə, Mosul, Sinddə) də müvəffəqiyyət qazandı. Lakin İ. ən böyük

siyasi müvəffəqiyyəti Şimali Afrikada qazandılar. Bəsrədən olan ibadi emissarlar VIII əsrin əvvəllərində Qayruanda hakimiyyəti ələ aldılar, VIII əsrin ortalarında isə imami imamətliyinin sərhədləri artıq bütün Qərbi Liviyaya çatmışdı. İ.-rin (761-ci ildə) Abbasi ordusuna məğlub olmaqlarına baxmayaraq, onların müqavimət məntəqələri hələ uzun müddət Abbasilərə qarşı mübarizə apardılar.

VIII əsrin 70-ci illərində İ.-nin Rüstəmi dövləti yarandı, onun siyasi və dini mərkəzi Tahart idi. Rüstəmilər bütün ibadi əyalətlərini və Şimali Afrika qəbilələrini birləşdirə bildilər. Bəsrə və bütün Şərqin ibadi icmaları Rüstəmilərin ali hakimiyyətini tanıdılar. Laikn Əqləbilər (800-909) və Fatimilərin (X əsrin əvvəllərində) qələbəsilə imamət dağıldı. Ancaq Şimali Afrikanın bəzi yerlərində kiçik ibadi cəmiyyətləri qaldı ki, onlar indi də mövcuddurlar.

İ. doktrinasının dini-siyasi əsası imamət haqqında təlim idi. İ. əlbəttə imamətin mövcudluğunun zəruriliyini hesab etmirdilər. Onlar müsəlman dünyasının müxtəlif yerlərində eyni vaxtda bir neçə imamın mövcud olmasının mümkünlüyünü qeyd edirdilər. İmam şeyxlər şurası tərəfindən gizli səsvermə yolu ilə seçilir, qərar isə sonra elan olunurdu. Çox vaxt seçki bir qəbilə (məs: Omanda Bənu əzd) və ya hətta bir nəsil (Tahartda Rüstəm nəsli) ilə kifayətlənirdi. İ.-nin imamı əgər sədaqətlə Quran, sünnə və ilk ibadi imamlarının yolu ilə gedərsə o, tam hüquqlu və qeyd-şərtsiz hökmdar (hərbi rəis, hakim, ilahiyyatçı fəqihdir). Bu şərtin pozulması hallarında şeyxlər şurasının qərarına əsasən imam öz mənsəbindən (vəzifəsindən) çıxarıla bilər.

İ. əhkam elmində sünnilərin və mötəzililərin əhkami konsespiyasının əksini (inikasını) tapmışlar. Sünnilər kimi İ.də determinist olub təbliğ edirdilər ki, Allah insanların əməllərinin yaradıcısıdır. Xaricilərin əksəriyyəti isə mötəzililərin insan iradəsinin azadlığı haqqında təlimini qəbul edirlər. İ. təkallahlılıq haqqında təlimdə mötəzililərin görüşlərini qəbul edirlər, lakin təkcə «ilahi iradə» haqqında məsələdə onlarda fikir ayrılığı var. Xaricilərin irəli sürdükləri və həyata keçirdikləri prinsip - siyasi və dini motivlərə görə qətli rədd edən İ. antropomorfistləri öldürmək, onların özlərini, arvadlarını, uşaqlarını əsir götürmək, qənimət kimi onların əmlakını zəbt etməyi mümkün hesab edirdilər. Başqa xaricilərin əksinə olaraq İ. müsəlmanlardan olan öz düşmənlərini «imansız» hesab etmirlər, ibadilərlə nikaha girməyə, varis olmağa, hərbi qənimət kimi onların bir neçə növ əmlakını (xüsusilə də at və silah) zəbt etməyə icazə verirdilər. İman və dinsizlik, təkallahlılıq və çoxallahlılıq, esxatoloji görüşlərin təyin edilməsindəki fərqlər təkcə İ. və başqa xarici icmaların nümayəndələri arasında deyil, həm də İ.-in özləri arasında mövcud idi.

İbadi təliminin çoxsaylı tərəfdarları demək olar müsəlman ölkələrinin hamısında – İrandan tutmuş Məğribə qədər mövcud olmuşlar, lakin onlar nə

dini, nə də siyasi məsələdə bir olmuşlar. Orta əsr müsəlman doksoqrafları İ.-nin üç əsas icmasını - hafsilər, harisilər, yezidiləri qeyd etmişlər. İbadi görüşlərini müxtəlif tərəflərdə təbliğ edən on altı icmadan ən çox saylısı və mühümü vəhbilər icması olmuşdur, o təkcə xarici hərəkatı tarixində deyil, həm də bütöv islam tarixində görkəmli rol oynamışdır. Bu icmanın üzvləri indi də Şimali Afrikada mövcuddurlar.

**Ədəbiyyat:** İslam, 81; əl-Əş'əri. Məqalat, 102-111, 123-125, 453; əl-Məs'udı. Muruc, 6, 66-67; əl-Bağdadi. əl-Fərq, 103-108; аш-Шахрастани. Книга о религиях, 123-124; Talibi. Xəvaric, 2, 281-294; T.Lewicki. Les subdivisions de I`Ibadiyya. – St.I, 1958, 9, 71-82; T.Lewicki. Al-Ibadiyya. – EI, NE,3, 669-682.

**İblis (yunanca biaBoloç (?); «şeytan», «iblis»)** – göylərdən qovulmuş və Allahın düşməninə çevrilmiş, möminləri düz yoldan azdıran mələkin adı. Başqa ləqəbləri - Şeytan (bütün bəd ruhların – şeytanların başçısı), Aduvv Allah («Allahın düşməni») və ya sadəcə olaraq əl-Aduvv («düşmən»). Müsəlman onun adını çox vaxt İ.- Şeytana lənət oxumaqla başlayır: «Əuzu bi-llahi minəş-şeytani ər-rəcim» («Allaha sığınıram kömək üçün daşla döyülən Şeytandan. Rəcim – «daşqalaq olan (günahkar və ya mürtəd)» - İ. Şeytanın Quranda çəkilən (15:34) daimi ləqəbidir. İ. - Şeytana qarşı lənətlər Quranın axırıncı surələrindədir (113, 114).

Quranın məlumatına görə İ. Allaha qulaq asmayıb, onun yaratdığı ilk insan – Adəm (ə)-ın qarşısında baş əyməyən təkcə mələkdir, o demişdi: Mən ondan yaxşıyam: Sən məni oddan, onu isə gildən yaratmısan (7:12/11). Buna görə o, göylərdən qovulub, Cəhənnəm əzabına dücar olur. Lakin İ. Allahdan cəzanı Qiyamət gününədək gecikdirməyi xahiş edir və Allah qarşısında and içir ki, Yer üzündə insanları pis yola çəkəcək: «Mən, onların Sənə sarı gələn düz yolu üzərində oturacağam. Sonra mən onlara qabaqdan, arxadan, sağdan və soldan yanaşacağam və Sən onların çoxlarını şükr edən görmərsən (7:16/15 – 17/16), «mən onları Yer üzərindəkilərlə bəziyib, onların hamısını yoldan çıxararam» (15:39). Qiyamət günündən sonra İ. və ona qulaq asanların hamısı Cəhənnəmə vasil olacaqlar (26-94). Bax: 2843/32; 7:11/10 – 18/17; 15:30-43; 17:61/63-64/66; 18:50/48; 20:116/115; 38:71-84/85.

Qurandansonrakı rəvayətə görə İ. Yerdə yaşayır, bəd ruhlara, şeytanlara, cinlərə başçılıq edir, onları o, elə özü də yarada bilər. O, xarabalıqlar, qəbristanlıq, hamam və bazarlarda olur, şərab içir, oxumaq, oynamaq və şeiri sevir. Onun sevimli işlərindən biri insanları mömin işlər görməyi və namaz qılmağı unutmağa məcbur etməkdir. Tez-tez o, insanlara namaz qılmağa mane olur, zəkat malını oğurlayır. Onu Quran ayələrini bərkdən oxumaqla qovmaq olar (məs: 2:268/271).

İ. (insanları azdırmaq haqqında əhvalatlarda o, adətən Şeytan adlanır) ilk insan Adəmi yoldan çıxartdı, bununla o, onun üzərində öz üstünlüyünü sübut etməyə çalışırdı. Cənnətə girərək o, həzrəti Adəmi və onun arvadını Allaha qulaq asmamağa və haram olan ağacın meyvələrindən yeməyə təhrik edir (2:36/34; 7:20/19 - 25/24; 20:120/118-121/119). O, Sav çariçası, Ad və Səmud qövmlərinin dinsizliyinin səbəbkarı oldu. Hər bir peyğəmbər onun bəd əməllərinin obyekti olub. Yeri gəlmişkən, həcc zamanı Şeytana daş atılması ayini İbrahim peyğəmbərin onu burada izləyən Şeytanın qovulmasını yada salmaq hesab edilir. İ. Məhəmməd peyğəmbərə (s) bir neçə dəfə namaz qılmağa mane olmağa can atmışdır, bir dəfə isə guya o, Allaha və Qurana aid olan və Məkkə allahlarının (bütlərinin) triadasının qəbulunun məzmununu ona (Məhəmmədə) təlqin etmişdi. İ. Məhəmməd peyğəmbərin (s) düşmənlərini, həm Məkkə, həm də Mədinə münafiqlərini təhrik edirdi. Qurandansonrakı rəvayətlər İ. tarixinin müxtəlif variantlarına o, öz əhəmiyyətini itirənədək böyük əhəmiyyət verir. Nəql edilir ki, onu Əzazil və ya əl-Haris adlandırırdılar və o, göylərdən Yerə cinlərin qiyamını yatırmağa göndərilmişdi. Öz qələbəsi və bütün Yer üzərində hakimiyyəti ələ aldığı üçün qürrələnərək (buradan da onun yenə bir adı – Həkəm – var) Allahın əmrini yerinə yetirmədi.

İ.-in tarixi ilə əlaqədar olaraq ilahiyyat ədəbiyyatında bir neçə problem və nəhayət İslam üçün ən mühüm olan Allahın yazısı və Onun hər şeyə qadir olması konsepsiyası ilə bağlılığı müzakirə edilib. İ.-in Allahın əmrini yerinə yetirməməsindəki əksilikləri həll etmək və insanlara görə onun Allahla mübarizəsində o, Allahın əlində insanları sınamaq üçün xüsusi bir alət olmuşdur. Allah qarşısında onun zəifliyi xüsusilə qeyd olunur (müq.et: 59:16). Onun həzrəti Adəmə baş əymədiyinin konkret səbəbləri də müzakirə edilirdi. Bu adi aydınlaşdırmadır – qürurluq və özünə güvənmədir ki, müqəddəs müsəlman tarixinin çoxlu başqa surətlərini məhv etmişdir. Başqa bir şey haqqında isə qismən Quranda söylənir ki, (18:50/48) o, mələk olmayıb, o, göylərə yol tapan cin olub və özünü cin kimi də aparıb. Bir aydınlaşdırma da var ki, bir neçə sufi, xüsusilə də əl-Həllac tərəfindən qəbul edilir. Ona görə İ. Allahdan başqa kimə isə təzim etməyi əsil təkallahlıq ideyasının pozulması hesab edirdi, bununla da o, Allaha inanmaq sədaqətini biruzə vermiş, lakin Allaha tabeçilik sınağından çıxa bilməmişdir. Çoxlu sufilərin (məs: İbn Ərəbi) rəyinə görə əvvəl-axır o, Allah tərəfindən bağışlanacaqdır.

Əsrlər boyu müsəlman ilahiyyatçıları İ.-in təhrikini ilahiyyat məktəbləri və cərəyanlarına, habelə İslamın məişət elementləri və xalq inanclarına zidd elan etmişlər. Müsəlmanların məişət ovsunçuluğu ayinlərinin böyük hissəsi insanı İ.-in maneələrindən müdafiə etməyə yönəlmişdir.

İ. surəti Ərəbistanda Quranaqədər yəhudi-xristian mühitində tanınmışdı, oradan onun (Həbəşistandan gələn) İ. və Şeytan adları meydana çıxır. İslamaqədərki şairlər, xüsusilə də həzrəti Adəmin tarixi ilə bağlı İ. və Şeytanın adlarını qeyd edirlər. Şeytan sözü Ərəbistanda bundan başqa «ilan» kimi və bəzi insan və nəsil-qəbilə qruplarının adları kimi tanınırdı. Quranın axırıncı surələrindəki bəd ruhlara qarşı (Allahdan) sığınacaq diləmələri islamaqədərkilərə oxşayırlar. Quranın mətnindən (81-25) aydın olur ki, məkkəlilər Məhəmmədin (s) moizələrini «daşqalaq olunan Şeytanın» təsiri adlandırırdılar. Məhəmmədin (s) moizəsinin qəbul edilməməsi ilə əlaqədar olaraq Allahın düşməni rolunda İ. - Şeytan peyda olur. İ. tarixi insanların inamsızlıq səbəbləri və ümumiyyətlə, Dünyada şərin mövcud olmasının ilk aydınlaşdırılmasından biridir.

**Ədəbiyyat:** İslam, 81-82; ət-Təbəri. Tarix, 1, 78-119; yenə o, Təfsir, 1, 176-190, 8, 96-101; əl-Müfid. Əvail, 110; əs-Sə'ləbi. Qısas, 19-25; əl-Kisəi. Qısas, 28-48; əl-Qəzali. İhya, 3, 25-41; İbn əl-Cövzi. Təlbis; Lisan əl-ərəb, 7, 328; Tac əl-ərus, 4, 48; Eickmann. Die Angelologie, 43-48; Horovitz. Untersuchungen, 87; Wensinck. Handbook, 210-211; Eichler. Die Dschinn, 40-48; Gaudefroy-Demombynes. Mahomet, 315-320; Beltz. Sehusucht, 156-163; P.Awn. Satan`s tragedı and redemption; İblis in Sufi psychology, Leiden, 1983; A.J. Wensinck. [L.Gardet]. Iblis. – EI, NE, 3, 690-691.

**İbn Babuyə, əş-Şeyx əs-Saduk Məhəmməd b. Əli Əbu Cəfər əl-Qumi (vəf.991)** – məşhur şiə ilahiyyatçısı və fəqih, şiə rəvayətlərinin tanınmış bilicisi, imami (cəfəri) hüququnun kodifikatorlarından biri. Qum şeyxinin oğlu İ.B. gənc yaşlarından nüfuz qazanmışdı. Şiə müəllifləri təsdiq edirlər ki, bütün Xorasanda şiə rəvayətlərini bilməkdə onun tayı-bərabəri yox idi. 965-ci ildə o, Bağdada gəlib (büveyhilərə (Builərlə) yaxınlaşıb, fəal təbliğat aparmağa başlayır. İ.B. Reydə vəfat etdi, özündən sonra çoxlu şagird və əsərlər qoydu. Ən-Nəcaşinin (vəf.1058) atası İ.B.-nin şagirdi idi, onun İ.B-nin bütün kitablarını paylamaq icazəsi var idi, o, İ.B.-nin təxminən 200 əsərinin adını söyləyir. Qalan iyirmi əsərindən, demək olar, yarısı nəşr olunub. İ.B.-nin baş əsəri Mən lə yəhduruhu əl-fəqih, dörd rəvayət külliyyatından biri (Əl-üsul əl-ərbəa) şiələr tərəfindən imami fiqhi üzrə qanunauyğun əsərlər kimi tanınmışdır. Bu əsərin yaranmasına məşhur həkim ər-Razinin Mən lə yəhduruhu ət-təbib əsərinin məşhurluğu təsir etmişdi. İ.B.-nin fiqhə aid başqa əsəri Əl-Mukni onun məşhur şagirdi əl-Müfidin imami hüququnun əsasları haqqında eyni adlı əsərinin yaranması üçün nümunə oldu. İ.B. bir sıra əsərlərini ilahiyyat problemlərinə (Ət-Tövhid, Kamaləddin və ya İkmaləddin və s.), şiə təliminin əsaslarının şərhinə (imamətin, əl-qeybin və s. problemləri) həsr etmişdir. Onun Əqaid əş-şiə əl-imamiyyə traktatı və adı çəkilmiş əl-Müfidin ona yazdığı Şərh

Əqaid əs-Saduk an Təshih əl-i'tiqad şərhi indiyə qədər şiə islamının klassik irsi kimi tanınır. İ.B.-nin şiə rəvayətlərini özündə cəm edən əsərləri, xüsusilə Mə`ani əl-əxbar, Uyun əxbar ər-Rida, Əl-Aməli və s. şiə aləmində ona böyük nüfuz və məşhurluq gətirmişdi.

**Ədəbiyyat:** İslam, 83-84; ən-Nəcaşi. Ər-Ricəl, 302-306; ət-Tehrani. Təbəqat, 4, 281-288; GAL., SBd, 1, 321-322; GAS, 1, 544-549.

**İbn əl-Cövzi, Cəmaləddin Əbülfərəc Əbdür-rəhman b. Əli (təxm.1116-1201) -** hənbəli fəqihi, ilahiyyatçısı, mühəddis, tarixçi, məşhur Bağdad möizəçisi. Bağdadda, təmin olunmuş misgər ailəsində doğulmuşdur. Hərtərəfli təhsil almışdır. Onun əsas müəllimləri öz dövründə tanınmış hənbəli nüfuzları idi: fəqih və möizəçi İbn əz-Zəquni (vəf. 1133), Əbubəkr əd-Dinəvari (vəf. 1137), mübahisə məharətini öyrədən, filoloq Əbu Mənsur əl-Cəvaliki (vəf. 1144), ona ədəbdən dərs demiş Əbülfəzl b. Nasir (vəf.1150), ona hədis və Quranı öyrədən, onun birinci müəllimi, fəqih Əbu-l-Həkim ən-Nəhrəvani (vəf. 1161), qazi Əbu Yələ Sağir (vəf. 1163) və başqaları. İ. əl-C.-yə şafei-əşəri Əbu əl-İsfəhani (vəf. 1038), tarixçi-ənənəçi əl-Xətib əl-Bağdadi (vəf. 1071) və hənbəli İbn Əqilin (vəf. 1119) əsərləri böyük təsir etmişdir.

Özünün bütün ömrünü İ. əl-C. Bağdadın dini-siyasi həyatında fəal iştirak etməyə həsr etmişdir. Ənənəvi (tradisionalist) İslamın möizəçisi kimi çıxış edən İ. əl-C. artıq gənc ikən böyük şöhrət qazanmışdı, müasirlərinin şahidliyinə görə onun moizələrinə xalq kütlələri axışırdılar. Ona o vaxtı ən nüfuzlu dövlət xadimlərindən biri – vəzir – hənbəli İbn Hubeyrə (vəf. 1165) hamilik edirdi.

1161-ci ildə o, öz müəllimi ən-Nəhravaninin irsini qəbul edərək, iki Bağdad mədrəsəsinin rəhbəri oldu. Elə onda da xəlifə əl-Müstəncid vaxtı (1160-1170) o, saray məscidində moizə oxuyurdu.

İ.əl-C.-nin mədhiyyə traktatı həsr etdiyi əl-Müstədinin hakimiyyəti vaxtı (1170-1180) hənbəli məzhəbi paytaxtda hakimlik edirdi. Bu vaxt çoxsaylı əsərlər müəllifi İ.əl-C. Bağdadın ən nüfuzlu adamlarından biri olur, beş mədrəsəyə başçılıq edir, sarayda böyük nüfuza malik olur. Məlumdur ki, o, 1175-ci ildə xəlifənin razılığı ilə öz dinləyicilərini Peyğəmbərin (s) tərəfdarlarının şöhrətini ləkələyənlərə qarşı ifadə verməyə çağırır (şiələrə qarşı yönəldilmiş tədbir, İ. əl-C. tərəfindən hərarətlə dəstəklənən, çoxdan hənbəli ənənəsinə çevrilən mübarizə). İ.C.-nin xəlifəyə böyük təsiri və sonuncunun hənbəliliyə get-gedə artan rəğbəti başqa məzhəblərin nümayəndələrinin narazılıq və şikayətlərinə səbəb oldu. Əl-Müstədinin ölümü və ən-Nasirinin taxta çıxması vəziyyəti dəyişdi və İ.C.-nin karyerasının qürubunun başlanmasını göstərdi.

1194-cü ildə hənbəli vəziri İbn Yunusun dəyişdirilib həbs edilməsi və onun yerinə şiə İbn əl-Qəssabın təyin edilməsindən sonra ən-Nasirin siyasətini tənqid edən İ.C. həbs edilib Vasitə sürgün edildi və orada həbsxanada ciddi nəzarət altında saxlanılırdı. Onu beş ildən sonra, xəlifənin anasının qarışması sayəsində azad etdilər, (o, xəlifənin oğlanlarından biri, xəlifə sarayında xidmətdə olan Mühyi -d-din Yusifə xeyirxahlıq etmişdi). İ.C. təntənəli surətdə Bağdada qayıtdıqdan az sonra vəfat etdi.

İ.C. ən məhsuldar müsəlman müəlliflərindən biridir: onun qələminə iki yüzdən çox, (bəzi məlumatlara görə olduqca çox, İbn Rəcəb) əsər aiddir, onlarda demək olar ki, bütün ənənəvi müsəlman fənləri təqdim olunub. Ən çox əhəmiyyətli əsərləri: 10 cildlik Əl-Müntəzəm – Xilafətin tarixinə aid olduqca zəngin bir mənbə; ilk dörd xəlifənin, imamların, erkən islamın məşhur zahidləri (zuhhad) və sufiləri (əl-Həsən əl-Bəsri, Məruf əl-Qarhi, Rəbiyə əl-Ədəviyə, Fudayl b. İyad və s.)-nin tərifləyici tərcümeyi-halları (mənəkib); o, onları mömin müsəlmanlar üçün nümunə hesab edirdi. «Yeniliklə» (bid`ə) öz mübarizəsini İ.C. ən çox hənbəli mübahisəli ədəbiyyatda əsas əsərlərdən biri olan Təlbis İblis traktatında əks etdirmişdir. Bu əsər müəllifin rəyinə görə sünnilikdən uzaqlaşmış və zərərli «yeniliklərin» İslama nüfuz etməsində iştirakçı olan müsəlman cəmiyyətinin müxtəlif təbəqələrinin nümayəndələrinin tənqidinə həsr olunmuşdur. Lakin traktatın böyük hissəsi müsəlman icmalarının həyatına öz «axmaq nümunələri» ilə sufilərin təcrübə və nəzəriyyəsinin ifratçılığının mühakiməsinə həsr olunub. Elə bu məsələlərə də onun Sayd əl-xatir və Zəmm əl-həva əsərləri həsr olunub. Güman ki, icmanın rifahı üçün qayğı onu həm də əl-Həllac və əl-Cilanini mühakimə edən traktatlar yazmağa məcbur etmişdir.

XII əsrin 60-80-cı illərində Bağdad hənbəlilərinin lideri olan İ.C. özünün çiçəklənmə dövrünü artıq ötürən hənbəli hərəkatına böyük təsir göstərmişdir. O, filosof və mütəkəllimlərin intellektual dininin əksinə olaraq mülayim zahidlik – sufilik elementləri ilə birləşən ənənəvi islamın müdafiəçisi kimi çıxış edirdi. İ.C. azad xilafət hakimiyyətinin bərpası siyasətini və «sünni dirçəlişini» dəstəkləyirdi. Onun çoxsaylı şagirdləri hənbəliliyin sonrakı taleyində görkəmli rol oynadılar, onun əsərləri isə sonrakı hənbəli nəsillərinin diqqətlə öyrəndikləri mövzu oldular və onlar tərəfindən çox yüksək qiymətləndirildilər.

**Ədəbiyyat**: İslam, 84; Ибн Джубайр. Путешествие, 155-159; Sibt b. əl-Cövzi. Mir’ət əz-zəmən fi-t-tarix əl-əyan. R. Cebettanın nəşri. Çikaqo, 1907, 310-326; İbn Rəcəb. Zeyl, 1, 399-434; İbn əl-İmad. Şəzarat, 4, 329-331; Əbd əl-Həmid əl-Alucu. Muəlləfət İbn Cözi. Bağdad, 1385/1965; А.Д.Кныш. Ханбалитская критика суфизма (по материалам «Талбис Иблис» Ибн ал- Джаузи). – ПП/ и ПИКНВ, 1985, 1, 170-175;

W.Braune. İbn al-Gauzis Streitschrift gegen den Sufismus. – AİON, 1940, 1, 305-313; M.L.Swartz. Ibn al-Jawzi`s Kitab al-Qussas wa`l – Mudhakkirin. Beyrouth, 1971; yenə o. The Rules of the Popular Preachings in the Twelfth-Century Baghdad according to İbn al Jawzi – Predication; S.Leder. İbn al-Gawzi und seine Kompilation wider Leidenschaft: der Traditionalist in gelehrter Uberlieferming und originarer Lehre. Beirut – Wiesbaden, 1984; GAL, 1, 659-666, Sbd., 1, 914-920; H.Laoust. İbn al-Djawzi. – EI, NE, 3, 774-776.

**İbn Ərəbi (həm də İbn əl-Ərəbi), Mühyiddin Əbu Abdullah Məhəmməd b. Əli əl-Xatimi ət-Tai (1165-1240) çox böyük müsəlman filosofu,** sufisi, bütün varlıqların vəhdəti haqqında təlimin (vahdət əl-vücud) yaradıcısı. İ.Ə.-nin ardıcılları onu «Ən böyük şeyx» (əş-şeyx əl-əkbər) və «Əflatunun oğlu» (İbn Əflatun) adlandırırdılar. Əndəlüs şəhəri Mursiyadan olan İ.Ə. mənşəcə qədim və mötəbər ərəb nəslindəndir. Onun atası əvvəlcə Mursiya, sonra isə Sevilye şəhərlərində böyük məmur olmuşdur. İ.Ə.-nin təxminən səkkiz yaşı olanda onlar Sevilyeyə köçmüşdülər. Bu şəhərdə o, ənənəvi müsəlman təhsilini almışdır. Onun müəllimləri arasında İbn Zərqun əl-Ənsari, Əbu-l-Valid əl-Hədrami, İbn Başkuval, məşhur İbn Həzmin şagirdi Əbdül-Haqq əl-İşbili və başqalarının adları çəkilir. Sufi ideallarının təsiri altında İ.Ə. çox erkən dünyəvi məşğuliyyətdən imtina edib, özünü sufiliyə həsr etdi. Nüfuzlu müəllimlər axtarışında o, Əndəlüs və Şimali Afrikanı səyahətə çıxdı. Mərakeş, Seut, Becay, Fəs, Tunisdə oldu. Otuz yaşına İ. Ə. özünün fəlsəfi və ezoterik elmlərində bacarığına görə, bilik dairəsi və möminliyinin genişliyinə görə sufi dairələrində hörmət və məşhurluq qazandı. İ.Ə.-nin dünyagörüşünün yaranmasına görünür Əndəlüs neoplatoniki İbn Məsarraya (X əsr) gedib çıxan ənənələri davam etdirən Əlmerı sufiləri böyük təsir göstərmişdir. Həm də İ.Ə. müsəlman şərqinin böyük sufi və ilahiyyatçıları əl-Xərraz, əl-Həllac, əl-Qəzali, Əbu İshaq, əl-İsfəhani və başqalarının əsərləri ilə də tanış olmuşdur.

1200-cü ildə İ.Ə. həccə gedir və daimilik Şərqdə qalır. 1201-ci ildən o, Məkkədə yaşayır və özünü məşhur mənzum külliyyatı olan Tərcüman əl-əşvaq və sufi elminin müxtəlif sahələrinə aid olan elmlərin traktatını yazır. Burada çoxcildli əsər olan Fütuhat əl-Məkkiyyənin üzərində iş başlanır, haqlı olaraq onu «sufizmin ensiklopediyası» adlandırırlar. 1204-cü ildə İ.Ə. yenidən səyahətə çıxır, bu dəfə o, şimala – Mosula gedir. 1206-cı ildə Misirdə olarkən o, yerli fəqihlərin hiddədinə səbəb olan ekstatik (şətəhat) çıxışına görə az qala həyatını qurban verəcəkdi. İ.Ə. bir neçə il Kiçik Asiya şəhərləri Konya və Malateydə yaşamışdır, orada o, özündən sonra çoxlu şagird qoydu (onların içərisində filosof-sufi Sədrəddin əl-Kunəvi də vardır,

o, öz müəlliminin görüşlərinin Kiçik Asiya və İranda yayılmasında böyük rol oynamışdır).

1223-cü ildən başlayaraq ömrünün sonunadək İ.Ə. Dəməşqdə yaşamış, dini və dünyəvi hakimiyyətin himayədarlığında olmuşdur. Burada o, əl-Fütuhat əl-Məkkiyyəni başa vurub, özünün ən məşhur traktatı olan Fusus əl-hikəm traktatını yazdı, orada 150-dən çox mövzunun şərhi vardır. Ümumiyyətlə, İ.Ə.-nin yaradıcılıq irsi təxminən 300 əsərdən ibarətdir. «Əzəmətli müəllim» Dəməşq yaxınlığında Qaysun dağı ətəyində dəfn olunmuşdur. Sultan I Səlimin əmri ilə XVI əsrin əvvəlində onun qəbri üstündə çox dəbdəbəli sərdabə tikilmişdir ki, o, indi də mövcuddur.

İ.Ə. öz dövrünün rasionalist cərəyanları ilə tanış idi. O, öz dövrünün görkəmli şəxsiyyətləri ilə görüşür və yazışırdı - İbn Rüşd, Şihabəddin əs-Söhrəverdi, Fəxrəddin ər-Razi, İbn əl-Fərid və başqaları ilə. Onun təlimində Qərb və Şərq sufiliyinin ənənələri çulğaşırdı. Onun bir çox hallarında neoplatonizm, qnostizm və şərqi xristian doktrinaları arasındakı paralelləri görmək olar. Onun birbaşa mənbəyi sufi teosofiyası, müsəlman metafizikası, kəlam və həm də ismaili doktrinası idi.

Bir sufi kimi İ.Ə. intiusiyaya əsaslanan, ilahi ilhamı biliklərinin rasionalizm və sxolastika qarşısında üstünlüyünü irəli sürürdü. Onun üslubu Quranın və sünnənin alleqorik şərhi və hərtərəfli sinkretizmi təşkil edirdi. Quran simvolikası və mifologiyasından istifadə edərək o, sufi kosmoqoniyasını, «ilahi mərhəməti» nin (ər-rahmə) rolu haqqında təlimi, xəlqetmədə təcəllini, insanın «kiçik dünya» olmasını, «Allah surəti» və xəlqetmənin səbəbini (bax: əl-insan əl-kamil), diqqətlə hazırlanmış, mistik yolun «məqamlar» və «əhvallar», sufi «müqəddəslərinin» (övliya) dərəcələri və onun başçısı – sufi qütbü, «peyğəmbərlik» (nubuvvə), «müqəddəslik» (vilayət) və s. haqqında sufi görüşlərini sistemləşdirib təkmilləşdirmişdir. İ.Ə.-nin təlimində ən orijinal olan ilahi Mütləqinin iki tamamilə əks transsendent və maddi tərəflərini birləşdirən «aralıq» dünyası haqqında (əl-bərzəx, aləm əl-misal) vəziyyətdir. Bu adi ağılın dərk etmədiyi sahəyə nüfuz edən sufinin yaradıcı düşüncəsi varlığın ən məxfi sirrlərinə yiyələnir.

İ.Ə.-nin geniş irsi bir mənbə oldu, yüz illər ərzində oradan onun çoxsaylı ardıcılları fəlsəfi və ədəbi biliklərindən istifadə etmişlər, onların arasında məşhur İran şairləri və müdrikləri Qütbəddin Şirazi, Fəxrəddin İraqi, Sədrəddin Fərqani, Cami də var idi. İ.Ə.-nin ideyalarını əş-Şazili və şaziliyyə, İbn Səb′in və əş-Şərani müsəlman Qərbində; Davud Qeysəri, Qütbəddin İzniki və başqaları Kiçik Asiyada; əl-Kaşani, Əbdül-Kərim əl-Cili, Əbdül-Qəni ən-Nəblusi və mövləviyyə İran, Suriya və Yəməndə inkişaf etdirmişlər. İ.Ə.-nin təlimi Heydər Amuli (vəf. 1385), Mir Daməd (vəf. 1640) və Molla Sədranın (vəf. 1640) hazırladığı şiə fəlsəfəsinin

əsasında oturmuşdur. İ.Ə.-nin Avropa fikrinə (Raymon Lulliy, Dante, Spinoza) təsiri haqqında məsələ hələ həll olunmayıb.

İ.Ə. müsəlman orta əsrlərinin ən bir-birinə zidd olan şəxslərindən biri olmuşdur. Onun baxışlarını ciddi surətdə ilahiyyatçılar Tağıəddin əs-Subki, İbn Teymiyyə, ət-Təftəzani, habelə böyük ərəb tarixçisi İbn Xəldun tənqid etmişlər. İ.Ə.-nin müdafiəsi üçün isə əs-Suyuti, əs-Səfadi, əl-Firuzabadi və çoxlu başqa müsəlman nüfuzları çıxış etmişlər.

İ.Ə.-nin irsi ətrafında mübahisələr indi də sakitləşmir. Əsrimizin 70-ci illərində ilk islamın «təmizliyinə» qayıtmağa çağıran «Müsəlman qardaşları» və başqa qurplarla bağlı olan Misirin dini dairələri onun kitablarının nəşri və yayılmasına qadağa qoyulmasına nail oldular. Bəzi müsəlman filosofları (Əbdür-Rəhman Bədəvi) onun təlimini «alternativ» və «özünəməxsus» fəlsəfə sistemi yaratmaq üçün istifadə etməyə və fəlsəfənin bəzi əsas məsələlərində müsəlman fikrinin üstünlüyünü sübut etməyə çalışırlar.

**Ədəbiyyat**: İslam, 82-83; İbr Ərəbi. Əl-Fütuhat; yenə o., Fusus; yenə o, Rəsail, 1-2; Heydərabad, 1961; yenə o., Muhadarat əl-əbrar; Nyberg. Schriften, yenə o., The Tarjuman al-aswaq; a collection of mystical odes by Muhyiddin İbn al-Arabi. Text and transl.by R.A.Nicholson. L., 1911; R.Deladriere. la profession de fai d`İbn Arabi. Texte, tard., et comment. de la «Tadkira», Lille, 1975; D.Gril. Le «Kitab al-inbah ala tariq Allah» de Abdallah Badr al-Habasi; un temoignage de I`enseignement spirituel de Muhyi I-din Ibn Arabi. – Annales islamologiqiques. Cairo, 1979, 15, 97-164; yenə o., Le livre de I`arabe et quatre oiseaux d`Ibn Arabi (Risalat al-ittihad al-kawni). – yenə orada, 1981, 17, 53-111; yenə o, Personnage; Ibn Arabi. Bezels; əl-Kitab ət-tizkəri; Кныш. Мировоззрение; yenə o, Проблемы; Afifi. The Müstical Philosophy; Yahia. Historie; Corbin. Imagination; Izutsu. Study, I; Chodkiewicz. Scean: bax, vahdət əl-vucud haqqındakı məqaləyə.

**İbn əl-Fərid, Şərəfəddin Ömər b. Əli Əbu Hafs (və ya Əbülqasım) əl-Misri əs-Sədi (1181-1235)** – böyük ərəb şairi-sufi. Qahirədə, mənşəyi Suriyanın Hamə şəhərindən olan ailədə doğulmuşdur, ailəsi mülkiyyətin bölünməsi (fərid) işləri üzrə vasitəçi vəzifəsini yerinə yetirirdi, buradan da şairin ləqəbi yaranıb – İbn əl-Fərid. Erkən yaşından atası ona müsəlman dininin əsaslarını, dini təcrübəni (ibadət), özünü saxlamağı bacarmağı (zühd), Allahdan qorxmağı (vara`) və şafei fiqhini öyrətmişdi. Hədislərlə o, İbn Əsəkir və əl-Munzirin rəhbərliyi altında məşğul olmuşdur. Artıq gənc yaşlarından İ. əl-F. təkliyi (xələ) sevməyə başladı və atasının icazəsilə uzun müddət Moqəddəm dağının yamaclarına çəkilərək mömin fikirlərə, pis əməllərdən uzaqlaşmağa qapılır, rəvayətə görə, ancaq vəhşi heyvanlarla

ünsiyyət saxlayırdı. Açıq-aydın sufizmə meyilli olmasına baxmayaraq, İ. əl-F. formal olaraq heç bir Misir qardaşlığının üzvü deyildi: onun sufi müəlliminin olması haqqında da heç bir məlmut yoxdur. İ. əl-F. təxminən 15 il Hicazda olmuşdur və görünür əsərlərinin çoxunu da orada yazmışdır. Qahirəyə qayıdandan sonra İ. əl-F. tezliklə məşhurlaşdı və qazi mövqeyini qazandı. O, əl-Əzhar məscidində yerləşdi, müasirlərinin məlumatına görə onu «əyanlar da, qara camaat da» ziyarətə gəlirdi. İ. əl-F.-in ölümündən sonra onun əl-Moqaddəm dağının ətəyindəki qəbri ziyarət obyektinə çevrildi və indi də qalmaqda davam edir.

İ. əl-F.-ə iki məşhur qəsidə məxsusdur. Bunlar Əl-Xəmriyyə və Nəzm əs-sulukdur (ikincini tez-tez Ət-Təiyyə əl-kubra da adlandırırlar). Bunlarla yanaşı şairin Divanı çoxlu kiçik həcmli əsərləri özündə cəmləşdirir. İ. əl-F.-in yaradıcılığı sufi xarakter daşıyır, baxmayaraq ki, onun birbaşa mənbəyini təyin etmək asan deyil. Şübhəsizdir ki, şair sufi təliminin istilahları və mahiyyəti ilə nisbətən tanış idi. Lakin özünün böyük müasiri İbn Ərəbidən fərqli olaraq İ. əl-F. onların sonrakı inkişaf etdirilməsi və konseptualizasiya yolu ilə getmədi. Anadangəlmə şair olan İ. əl-F. ənənəvi üsullar və ərəb poeziyasının qaydaları ilə çoxobrazlı həyati təzahürlərin arxasında gizlənən özünün çox şəxsi olan bölünmək birlik hissiyatını verməyə və varlığın bu əbədi mənbəyinə tam bütün varlığı ilə çalışmaq və onda tam ərimәyə can atırdı. Əgər İbn Ərəbidə poetik əsərlər daha çox hər hansı bir rasionalist vəziyyətin bəzəyinə xidmət edirdisə, İ. əl-F.-in yaradıcılığında əsas rolu hissiyyat, mistik təəssürat oynayır. Onun mübahisəsiz şairlik talantı ona elə forma və məzmunun sintezinə malik olmağa imkan verirdi ki, orada onun şeirlərini eyni zamanda iki mənada başa düşmək olur: hərfi və mistik mənalarda, özü də bir-birinə zərər yetirmədən yanaşı dururlar. Bunun sayəsində İ. əl-F.-in bəzi kiçik əsərləri sufi həqqaya getməsində (səma`) musiqi müşaiyəti ilə oxunur. Əl-Xəmriyyə və Ət-Təiyyə çoxsaylı «hərfi» və «sufi» şərhlərin mövzusu oldular. Birinci qrupun əsərlərindən ən məşhuru əl-Biruninin şərhləri oldu, ikinci qrupun əsərləri əl-Kaşani, əl-Qeysəri, Əbdülqəni ən-Nəblusi kimi böyük sufilərə aiddirlər. İbn Ərəbinin çalışqan pərəstişkarları olan bu sufilər qəsidələrin mətnlərini onun «varlığın vəhdəti» (vahdət əl-vucud) haqqında təliminin ruhunda şərh etmişdilər. Azad şərh etməyə baxmayaraq «sufi» şərhləri hər halda şeirlərin həqiqi mənasına «hərfi» mənadan yaxındırlar.

İ. əl-F.-in irsi uzun müddət ilahiyyatçıların müzakirə obyekti oldu. XV əsrdə bir sıra fəqihlər, xüsusilə də Burhanəddin əl-Bəqai və Qahirə qadi əl-qudatı İbn əş-Şihnə İ. əl-F.-i «təcəssüm» (hulul) və Allahla «birləşməyi» (ittihad) təbliğ etdiyinə görə kafirlikdə günahlandırırdılar. Sonralar o, xüsusi fətva ilə günahsız elan edilsə də, onun «möminliyi» ətrafındakı müzakirələrin əks-sədaları müsəlman müəlliflərinin əsərlərində indi də izlənilir.

**Ədəbiyyat:** İslam, 86-87; Ruşayd b.Qalib. Şərh Divan İbn əl-Fərid. 1-2, Misir, 1913h.; Zəki Mübarək. Ət-Təsəvvüf əl-islami fi-l-ədəb va-l-əxlaq, 1, Beyrut, 215-232; Səfi Hüseyn. Əl-Ədəb əs-sufi fi Misr, Qahirə, 1964, 91-116; R.Nicolson. The lives of Vimar Ibnu I-Farid and Muhyi`ddin Ibnu I`-Arabi. – JRAS. 1906,4, 787-806; yenə o. Studies, 162-260; E.Dermenghem. L`Eloge du vin (al Khamriya). P., 1931; Anawati Gardet. Mystique, 60-62, 115-120; Sh.Kamada. Nabulusi`s commentary on Ibn al-Farid`s Khamriya. – Orient. Tokyo, 1982, 18, 19-40; R.A.Nicholson – [J.Pedersen]. Ibn al-Farid. – EI, NE, 3, 786-787.

**İbn Həzm, Əbu Məhəmməd Əli b.Əhməd (994-1064)** – Əndəlüs ilahiyyatçısı və fəqih, zahiri hüquq məktəbinin (əz-zahiriyyə) görkəmli nümayəndəsi. Kordovada xəlifə əl-Mənsurun vəzirinin ailəsində doğulub. Sonralar özü siyasi həyatda fəal iştirak edir, qiyam etmiş bərbərlərə qarşı Əməvilərin mübarizəsində onları dəstəkləyir, Əbdürrəhman əl-Müstəzhir (1023-cü ildə) və Hişam əl-Mü`tədd vaxtı (1027-ci ildə) vəzir vəzifəsini tutmuşdur. Bərbər partiyası üstün gələndə İ.H. həbs və sürgün olundu. 20-ci illərin sonunda o, siyasi arenadan getdi. İ.H.-in qızğın mübarizə apardığı o vaxt əl-Əndəlüsdə hökmranlıq edən malikilər (bax: əl-malikiyyə) tərəfindən təqib olunacağından qorxaraq o, 1029-cu ildə Mayorka adasına köçdü. 1047-ci ildən o, ölkənin cənub-qərbində yerləşən öz doğma malikanəsində yaşamış və orada da ölmüşdür.

Zahiri ənənəsinə uyğun olaraq o, müqəddəs mətnlərin hərfi tərcüməsinə təkid edirdi, fiqhin əsasları rolunda faktiki olaraq Quran və sünnəni qəbul edirdi (onun qəbul etdiyi icmanı o ancaq Peyğəmbərin (s) tərəfdarlarının icması kimi başa düşürdü); hüquqşünaslığın aşağıdakı üsullarını rədd edirdi: qiyas, rə`y, istihsan, tə`lil (əsaslanma); kəlamın bütün müxtəlif növlərinə, o cümlədən əş'əri kəlamına qarşı çıxış edirdi. Eyni zamanda İ.H. təqlidi də rədd edirdi, o ancaq Peyğəmbərin (s) ardınca getməyi qəbul edirdi (bu da o deməkdir ki, o, təqlid deyil); o, Aristotel məntiqini leqitimləşdirməyə çalışır, onu hüquqşünas və ilahiyyat xassəli misallarla bəzəyirdi. İ.H.-in əsərlərindən ən çox məşhur olanı onun doksoqrafik əsəri Əl-Fisal fi-l-miləl va-l-əhva` va-n-nihəldir (Qahirə, 1317h.), orada o, açıq-aydın, mədhlə, müsəlmanları çoxsaylı məktəb və məzhəblərə bölən ilahiyyat problemlərini şərh etmişdir. Hüquqşünas əsəri olan Əl-Mühəlla isə (Qahirə 1347-1352h.), onun qısa şərhini (Əl-Mü'əlla adı ilə) özünü fiqh sahəsində İ.H.-in ardıcılı hesab edən İbn Ərəbi tərtib etmişdir.

**Ədəbiyyat**: İslam, 87; Rəsail İbn Həzm əl-Əndəlüsi. Qahirə; [i.y.]; İbn Həzm. Kitab əl-ihkam. Qahirə, 1345-1348h.; yenə o. Məratib əl-icma. Qahirə, 1357h., yenə o. Ət-Tərkib li hədd əl-məntiq. Beyrut, 1959; yenə o. Müləxxəs ibtal əl-qiyas va-r-rəy va-l-istihsan və-t-təqlid və-t-tə`lil.

Dəməşq, 1960; yenə o. Əl-əxlaq və-s-siyər. Beyrut, 1961; yenə o. Cəmahərat ansab əl-ərəb. Qahirə, 1977; yenə o. Tövq əl-həmamə. Beyrut, 1972 (rusca tərc. Ожерелье голубки. M., 1957); Əbu Zəhra. İbn Həzm. Qahirə, 1954; Z.İbrahim. İbn Həzm əl-Əndəlüsi. Qahirə, 1966; R.Amaldez. Grammaire et Teologie chez İbn Hazm de Gordoue. P., 1956; A.M.Turki. Polemiques entre İbn Hazm of et Baqi surles principes de la Loi musulmane. Alger, 1975.

**İbn ər-Ravəndi, Əhməd b.Yəhya Əbülhüseyn** - ömrüboyu öz dini-siyasi baxışlarını bir neçə dəfə dəyişən məşhur ilahiyyatçı Mərvərrudda doğulmuş, Bağdadda böyümüş, orada o, mötəzili Bəşir b. əl-Mü`təmirin (vəf. 825-dən sonra) və onun ilahiyyat məktəbinin ardıcılı oldu. Özünün ilk əsərlərini İ. ər-R. mötəzili məzhəbinin əsaslanması və təbliğinə həsr etmişdir. Sonralar o, mötəzililikdən çəkilir və çoxlu müsəlman müəlliflərinin rəyinə görə «allahsız» (mülhid) olur. Mötəzililər nəinki öz həmfikirlilərindən üz döndərdilər, onlar hətta hakimiyyət dairələrinə ona əncam çəkməyi xahiş etdilər. İ. ər-R. qaçıb Kufədə bir Yəhudinin yanında gizləndi. Bəzi məlumatlara görə o, Bağdadda IX əsrin 60-cı illərində təxminən qırx yaşında, bəzi məlumatlara görə isə – X əsrin əvvəlində, təxminən səksən yaşında vəfat etmişdir.

Qırxdan çox əsərin müəllifi İ.ər-R. onların çoxunu həm mötəzililərin, həm də ümumi müsəlman əhkamçılarının təkzibinə həsr etmişdir. Öz növbəsində müxtəlif cərəyan və məktəblərin (əl-Həyyat, əl-Əş'əri, əl-Cübbəi və s.) müsəlman ilahiyyatçıları İ.ər-R.-nin baxışlarına çoxlu «Təkziblər» yazmışlar. Bu «Təkziblər» sayəsində (hər şeydən əvvəl əl-Həyyatın Kitab əl-intisar) İ.ər-R.-nin üç əsərindən parçalar qalmışdır, xüsusən də onun Kitab əz-zümrüd kitabından olan parçalar, onlarda peyğəmbərliyin, o cümlədən Məhəmmədin (s) tənqidi, peyğəmbər möcüzələri və Quranın təkzibi və ağlın qəbul etmədiyi bəzi dini əhkamların rədd edilməsi verilib.

İbn ər-Murtaza İ.ər-R.-nin əsərlərini sadalayaraq onu onda günahlandırır ki, o təkallahlıları (Kitab ət-tac), Quranı (Kitab əd-damiq), peyğəmbərləri (Kitab əl-fərid) yalan elan edir.

Elə bu müəllif qeyd edir ki, İ.ər-R. əsərlərini yəhudilər, xristianlar, dualistlər və b. üçün, görünür pul qazanmağa görə yazmışdır. Belə ki, imamət haqqındakı traktatını rafidilər üçün yazdığına görə onlardan o otuz dinar almışdır. (Əslində o özü belə fikrə meyilli olmasaydı belə əsərləri yazmazdı, yaza bilməzdi).

**Ədəbiyyat:** İslam, 84-85; İbn ən-Nədim. Əl-Fihrist, 216-217; əl-Həyyat Əbu-l-Hüsen Əbdür-Rəhim b. Məhəmməd. Kitab əl-intisar va-r-rədd alə İbn ər-Ravəndi əl-mülhid. Beyrut, 1957, 22-38; İbn əl-Murtaza. Təbəqat,

92; Bədəvi. Əl-İlhad, 146-157; R.Kraus – [.G.Vajda], İbn ər-Ravəndi. – EI, NE, 3, 929-930.

**İbn Teymiyyə, Təqiəddin Əhməd (1263-1328)** – ilahiyyatçı, sufi və hənbəli cərəyanının hüquqşünası. O, Hərranda anadan olmuş, 1269-cu ildə, monqol ordusunun yaxınlaşması ilə əlaqədar olaraq onun atası uşaqları ilə Dəməşqə köçür, İ.T. orada atasının rəhbərlik etdiyi Sukkəriyyə mədrəsəsində oxuyur və 1284-cü ildən özü ona rəhbərlik etməyə başlayır. 1296-cı ildə o, Dəməşq Hənbəliyyə mədrəsəsində dərs deməyə başlayır. Sonrakı illər o, Məmlük sultanı əl-Məlik əl-Mənsur Lacinin Kiçik Ermənistana yürüşü, sonra isə Suriyaya monqol basqınları təhlükəsi ilə bağlı cihadın təşkil olunmasında fəal iştirak etmişdir. 1306-1312-ci illərdə İ.T. Misirdə oldu və müxtəlif cərəyanların yerli ilahiyyatçıları ilə mübahisəyə girişdi, antropomorfizmdə (ət-təşbih) günahlandırıldı və həbsə salındı, azad olunduqdan sonra isə o, «icazə verilməyən yeniliklər»ə (bid`ə) qarşı mübarizəni təzələdi və təzədən həbsə salındı. 1313-cü ildə o, Dəməşqə qayıdıb, orada müəllimlik fəaliyyəti ilə məşğul oldu. Lakin burda da iki dəfə (1321 və 1326-cı illərdə) həbs olunub, qalada öldü.

Öz hənbəli baxışlarını İ.T. «qızıl orta» (vasit) prinsipi üzrə, daha doğrusu kəlamın elementlərini uyğunlaşdırmaq (ağıla söykənərək), ənənəçiliyə (ənənə-nəqlə söykənərək) və sufiliyə (iradəyə söykənərək) qurmağa çalışırdı. Allahın Quran və sünnədə xüsusiyyətləndirildiyi kimi təsvir edilməsinin zəruriliyini qeyd edərək, ilahiyyat sahəsində o, eynilə Allah atributlarının inkarını (tə`til) və Allahı Onun yaratdıqları ilə müqayisə etməyi (təşbih) və müqəddəs mətnlərin rəmzi-alleqorik şərhini (tə`vil) rədd edirdi. İmanda onun üzərində qurulduğu hissiyatı, ifadə olunan formulaları, hərəkətlər sayəsində əldə olunan tamlığı seçir, Allah kəlamını və Peyğəmbərin (s) mülahizələrinə könüllü və tam inanmanın və varlığın ali sirrlərinin ancaq Allaha bəlli olduğunun qəbul edilməsinin (təfvid) zəruriliyini göstərirdi.

Bir sələfi kimi İ.T. məzhəblərin banilərinin doktrinaları qarşısında Peyğəmbərin (s) tərəfdarları və ardıcıllarının rəyinə üstünlük verirdi, ictihadın qaydalarının təyin edilməsi vaxtı quran mətni və hədisələrə (nass) şərtsiz üstünlük verərək icmanın əhəmiyyətini aşağı salırdı. Bununla belə bənzəyişlə (qiyas), mülahizə yürütməyə mühüm əhəmiyyət verirdi. «Yolverilməz yeniliklərlə» yorulmadan mübarizə aparan İ.T. islama ellino-ellinist ənənələrini (fəlsəfə), kəlamın rasionalizmini (xüsusilə, əş`ərilərə də), «müqəddəs ayinlər» və Peyğəmbərin (s) məqbərəsinə ziyarət təcrübəsinə yönəldilmiş fəlsəfə elementlərinin daxil edilməsi cəhdini tənqid etmişdir. «Mömin sufi şeyxlərinin» ardıcılı olan İ.T. Məruf əl-Qarhi, Sari əs-Saqati, əl-Cüneyd və Əbdül-Qadir əl-Cilini onlardan sayır və o, sufi-panteistlərin (o cümlədən, İbn əl-Ərəbi, İbn Səb′in və İbn əl-Fəridin)

təlimini rədd edir, onlar Allahı əşyalar, empirik dünyanın üzvləri (hulul) və ya varlığın birliyi (vahdət əl-vucud) ilə eyniləşdirirdilər.

Siyasi sahədə İ.T. dövlət və dinin ayrılmaz birliyi uğrunda çıxış edirdi: gücsüz dövlətdə din təhlükədə qalır, şəriətsiz dövlət isə zülmə yuvarlanır. Onun dövlət nəzəriyyəsi başqa sünni nəzəriyyəçilərindən fərqli olaraq xilafətin mütləq vacib olmadığını iddia edirdi, eyni vaxtda bir neçə imamın olmasının mümkünlüyünü qəbul edirdi və onun seçilməli olduğu konsepsiyasını rədd edirdi. Belə seçkinin erkən islamda mövcud olduğunu da rədd edirdi, lakin o, dörd «mömin xəlifənin» qanuniliyini qəbul edir, Əbubəkr və Ömərin açıq üstünlüyünü (tafdil) Osman və Əlinin (ə) xidmətlərinin tanınmasında tərəddüdün (tavaqquf) olmasını qeyd edir. Hakimiyyət haqqında məsələdə İ.T. mübayə`ə prinsipini – imamla ümmətin bir-birinə sadiqlik və loyallıqda qarşılıqlı andiçmədə – göylərə qaldırıb, dövlət başçısının qüreyşilərdən olmasının vacib olmasını rədd edir və hesab edirdi ki, ondan xüsusi fiziki, əqli və ya mənəvi keyfiyyətlər tələb etmək – deməli Allahın xəlq etdiyinin önündə həllolunmaz vəzifə qoymaqdır və «Allaha qarşı günahdır». Əsası odur ki, onun nöqteyi-nəzərinə görə hakim (vali əl-əmr) dövlətin müvəffəqiyyətlə hökm sürməsi üçün lazım olan keyfiyyətlərə malik olmalıdır. İ.T. hakimiyyəti tamahkarlıq məqsədləri ilə istifadə etməyi və eləcə də özünün varlanmağı məqsədilə hakimiyyətə can atmağı ciddi surətdə mühakimə edirdi.

XVIII əsrdə Məhəmməd b. Əbdülvəhhab tərəfindən (vəf. 1792) yaradılmış İ.T.-nin ideyaları Səudi sülaləsinin dəstəklədiyi və indi də Səudiyyə Ərəbistanının rəsmi ideologiyası olan vəhhabiliyin əsasında yerləşdi (bax: əl-vəhhabiyyə).

**Ədəbiyyat:** İslam, 85-86; İbn Teymiyyə. Məcmuat ər-rəsail-va-l-məsail. Qahirə, 1930; yenə o. Ər-rədd. Məcmuat fətva şeyx əl-islam İbn Teymiyyə, 1-30; Ər-Riyad, 1961-1964; İbn Teymiyyə. Əs-siyasə əş-şəriyyə. Beyrut, 1966; M.İ.Musa. İbn Teymiyyə. Qahirə; M.H.Hərras. Şərh əl-əqidə əl-vasitiyyə lişeyx əl-islam İbn Teymiyyə. Qahirə. H.Laust. Essai sur les doctrines sociales et politiques de Taki-d-Din Ahmad b.Taimiya. Le Caire, 1939, yenə o, Le traite de droit public d`Ibn Taimiya. Beirut, 1948; G.Makdisi. The Hanbali Scholl and Sufism. – Humaniora İslamica, 1974, 2, 61-72; Lambton. State, 138-151; M.Swartz. A.Seventh-Century (A.H.) Sunny Creed: The Aqida Wasitiya of İbn Taimiya – Humamiora Islamica, 1973, 1, 91-131; H.Laoust. Ibn Taymiyya. – EI, NE, 3, 976-979; G.Makdisi. Ibn Taimiya. – EI, NE, 3, 951-955.

**İbn Tumart, Məhəmməd b. Əbdürrəhman (1078 və ya 1081-1130)** - Şimali Afrikada əl-Muvahhidun hərəkatının başçısı və əl-Mohadlar sülaləsinin banisi, Cənubi Mərakeşin Sus şəhərində doğulub. Müsəlman

tarixçilərinin çoxu onun nəslini Əli b. Əbi Talibə aparıb çıxarırlar, lakin bərbərlərin tarixindən yaxşı xəbərdar olan İbn Xəldun onun bərbər mənşəli olduğu haqqında (məsmud qəbiləsi) məlumat verir ki, bu da daha çox həqiqətə uyğundur. 1106-cı ildə İ.T. fiqhi öyrənmək üçün Kardovaya gəlir, 1108-ci ildə təhsilini İskəndəriyyədə davam etdirdi, bir müddət Bağdadda oxumuşdur. Şərqdə İ.T. əş`ərilərin çoxsaylı ardıcılları və hədislərə əsaslanmayan azad düşünənlərin düşməni oldu. Məğribçün yeni olan bu təlimlə o, 1117-ci ildə Qərbə qayıtdı. Dinin təmizlənməsinə, əzələ (usul) qayıtmağa çağırışla olan ifşaedici moizələr ona gətirib çıxartdı ki, İ.T. Becaydan qovuldu. Becay yaxınlığındakı Məllalə kəndində o, bu vaxtadək tanınmayan Əbdül-Mömınlə rastlaşdı, o, onun köməkçisi və dostu oldu. 1120-ci ildə əlmoravi əmiri Əli b. Yusuf (1106-1143) Mərakeşdə İ.T. və yerli alimlərlə disput təşkil etdi. İ.T.-ın mövqeyinə onlar elə əsəbiləşdilər ki, o, güclə həbs olunmaqdan qaçdı. Bu vaxtdan etibarən İ.T. Əlmoravilərlə dinin təmizlənməsi şüarı altında açıq siyasi konfliktə girir (XI əsrin ortası - 1147). Onu çoxlu bərbər qəbilələri dəstəkləyirdilər. Üç il dəyişən müvəffəqiyyətlə sürən hərbi əməliyyatlardan sonra Nifisin yuxarılarında o, (75 km. Mərakeşdən cənubda) dağ qalası Tinməlalda yerləşdi. İ.T. tədricən dinin təmizliyi tərəfdarlarından hər şeydə Məhəmməd peyğəmbərə (s) oxşamağı tələb edən iyerarx təşkilatının başçısına çevrilir: onun Tinməlalda yerləşməsi hicrət adlanırdı, ən yaxın ətrafdakıları isə əshablar adlanırdılar. O, özünü günahsız imam və Mehdi adlandırırdı. 1130-cu ildə, Mərakeşin altı həftəlik müvəffəqiyyətsiz mühasirəsindən sonra İ.T.-ın ordusu darmadağın edildi və tezliklə özü də öldü. Onun ölümünü Əbdül-Mömının özünü hərəkatın başçısı elan edən günədək (1132) gizlətdilər. İ.T.-ın Tinməlaldakı qəbri ən azı XVI əsrə qədər ziyarət obyekti idi.

**Ədəbiyyat:** İslam, 86; Босворт. Династии, 58-59; Le livre de Mohammed Ibn Toumart. Mahdi. Almohades. Texte arabe accompagne de notices bibiographiques et d`une introduction par I.Goldziher. Alger, 1903; A.Huici. Historia politica del imperio almohade. I. Tetuan, 1956, 23-105; J.F.P. Hopkins. Ibn Toumart. – EI, NE, 3, 983-985.

**İbrahim** – Quran surəti, peyğəmbər, təkallahlığı birinci təbliğ edən, ərəblər və yəhudilərin ümumi babası, Bibliyada Avraamdır. Ən geniş yayılmış ləqəbi xəlil Allah («Allahın dostu»), bundan əlavə o, imam («icmanın başçısı»), siddiq («düzdanışan»), hənif («təkallahlığa etiqad edən») adlanırdı. Quranda «millət İbrahim» - «İ. dini» istilahı İslamda təkallahlığın başlanğıcını bildirir. Onun adı ilə bağlı müqəddəs mətnlər – İ.-in Sühufu («lülə kağızlar») və Kitabı («Namə») kimi qeyd edilir.

Yəhudi din xadimləri İbrahimin əfsanəsində yəhudiləri Allah tərəfindən seçilmiş ümmət kimi qələmə verirlər. Bibliyaya görə Allah İ.-lə saziş

bağlayıb ki, onu itaətkarlığı əvəzində «böyük millət» atasına çevirəcək («qabağımda gəz və qüsursuz ol») ( Kövn, XVII-10-14).

Quranda İ.-in həyat tarixinin epizodları bir neçə dəfə və olduqca ətraflı surətdə şərh olunmuşdur. Hələ kiçik yaşlarında o, onun qəbiləsinin adamlarının, xüsusilə də onun atası Azərin hörmət etdikləri heykəllərə sitayiş etməyin mənasız olduğunu anladı. İ. həqiqi İlahini Günəşdə, Ayda, ulduzlarda axtarır, lakin sonra tək və yeganə Allahın dini onun üzünə açıldı. İ. bu dini nəticəsiz olaraq atası və xalqına təlqin etmək istəyirdi; sonra o, onların müqəddəs saydıqları yerə girib, oradakı bir neçə bütü sındırdı və gələnlərə dedi ki, bunu büt edib. Onun sözünə onların inanmadıqlarını İ. peyğəmbər bütlərə inamın yalan olduğu üçün sübut kimi istifadə etdi, lakin onun moizəsi yenə də təsir etmədi və onlar İ.-i çarın yanına gətirdilər, o, onu yandırmağı əmr etdi. Lakin Allah öz peyğəmbərini xilas edib, onu ona inanan İutla birlikdə Fələstinə apardı, orada onlar müxtəlif yerlərdə yerləşdilər. Bir dəfə İ.-i mələklər ziyarət etdilər, onlar Lutun yaşadığı şəhərdə imansız əhaliyə cəza verməyə gedirdilər. Onlar İ.-in və onun arvadının yaşlı olmalarına baxmayaraq onların oğlu olacağı haqqında ona xəbər verdilər. İ. öz oğlu İsmaillə Məkkədə Kəbəni yenidən tikdilər. Bir dəfə o, yuxuda gördü ki, Allah oğlunu qurban kəsməyi ondan tələb edir. İ. özü və oğlu bunu etməyə hazır idilər, lakin Allah onları sınaqdan keçirib qurbanı lazımsız elan etdi. İ. Allahdan diriltmək bacarığını sübut etməyi xahiş etdi. Ona dörd quşun qalıqlarını dörd dağda qoymaq əmr olundu və Onun əmri ilə quşlar dirilərək sağ-salamat uçub gəldilər. Allah İ.-i hər cürə himayə edib, ona bir neçə peyğəmər olan bir nəsil vermişdi.

Quran Allah eşqinə İ.-in dili ilə deyilmiş, tamamlanmış bədii «himn» olan bir neçə mətni özündə cəm etmişdir. Bu onun Allahdan oğul diləyi, aralarında Lutun yaşadığı günahkarları bağışlamaq, öz torpağı və xalqına xeyirxahlıq diləyi üçün dualarıdır. Allah onu oddan xilas edəndən sonra o, atası Azəri bağışlamağı xahiş edir, lakin Allah qəti olaraq bunu rədd edir. Allaha inanmayan ata-babaların hökmən cəzalanmasının belə zəruriliyi Quran moizələrinin mühüm prinsipial elementlərindən biri olmuşdur və bu tez-tez Məhəmməd peyğəmbərin (s) hətta ona xeyirxahlıqla yanaşan adamlarla da münasibətlərini çətinləşdirirdi.

Quranın təqdim etdiyi kimi İ. peyğəmbər (ə) insanlığın dini tarixində mühüm yer tutur. O, insanlara həqiqi dini, təkallahlığı öyrədən birinci insan olmuşdur, o, nə yəhudi, nə də xristian idi, o, hənif və Allahın sevimlisi idi. Məhz onun dinini təmiz və düzgün şəkildə yer üzündə bərpa etməyə Məhəmməd peyğəmbər (s) irəli çıxmışdı. Müsəlmanlar İ. peyğəmbərin (ə) dini ilə Məhəmməd peyğəmbərin (s) islamını Hənif dini adlandırırdılar (bax: Q. 2:124/118-140/134, 258/260, 260/262; 3:67/60, 95/89-97/91; 4:125/124, 163/161; 6:74-84, 161/162; 9:70/71, 114/115; 11:69/72-76/78;

14:35/38-40/42; -50/51; 21:51/52-73; 22:26/27, 42/43; 26:69-89; 29:16/15-17/16, 24/23-27/26; 51:24-37; 53:36/37-37/38; 57:26; 60:4-6; 87:19).

Qurandansonrakı rəvayətlər Quranın tarixini iki istiqamətdə təfsilatı ilə göstərmişdir. Bir tərəfdən şərhçilər yəhudi və xristian rəvayətlərindən və başqa mənbələrdən material toplayıb təfsilatı ilə göstərirlər ki, İ. peyğəmbər (ə) və onun atası İraqda, çar Nimrud vaxtı yaşamışlar və İ.-in peyğəmbərliyi haqqında xəbərdar edilən Nimrud uşaqları analarının qarınlarında öldürməyi əmr etmişdi, lakin İ. belə təhlükədən uzaqlaşdırıldı. Onun atası nəinki bütpərəst idi, o, həm də büt düzəldir və hətta balaca İ.-i onları satmağa məcbur edirdi. İ. peyğəmbər (ə) çox səyahət etmişdi, o cümlədən Misirdə olmuşdu, orada firon onun gözəl arvadı Saranı ondan almağa cəhd etdi, lakin Allah onun namusunu qorudu, onun Fələstində həyatı, onun bulaqları açması, yerli əhali ilə mübarizəsi və s. haqqında hekayələr vardır.

O biri tərəfdən, İ. peyğəmbəri Ərəbistan ilə bağlayan rəvayətlər geniş yayılmışdır. Əsas xətt isə onun ərəblərin və yəhudilərin babaları olması haqqında təqdim edilməsidir. Sara kənizi Hacəri (Haqər) oğlu İsmail ilə qovduqdan sonra İ. peyğəmbər (s) onları Məkkəyə gətirib səhrada qoyub getdi, lakin sonradan müntəzəm olaraq onlara baş çəkirdi. Bir dəfə belə gəlişi vaxtı İsmaillə birlikdə selin uçurduğu əl-Kəbəni bərpa etdi. «Həram ərazisinin» hüdudlarını bildirən Məkkə dağları üzərinə o quşların qalıqları qoyuldu ki, onların köməyilə Allah İ. peyğəmbərə (ə) diriltmək bacarığını sübut etmişdi. Məkkə yaxınlığında İ. peyğəmbər (ə) Quranda adı göstərilməyən oğlunu qurban kəsmək istəyir, rəvayətlərdə isə yəhudi rəvayətinə əks olaraq daim onun adı İshaq yox İsmail göstərilir.

İ-.in adı ilə təkcə əl-Kəbəyə təzim etmək həccin bütün ayinlərini (mənasik) yerinə yetirmək deyil,  həm də İ. peyğəmbərin (ə) və onun ailəsinin həyatının müxtəlif epizodlarını - kiçik İsmail üçün su axtarışında yenidən Hacərin əs-Səfa və əl-Mərva təpələri arasında o yan bu yana qaçması, Zəmzəm bulağının açılması, əl-Kəbənin yenidən qurulması, Şeytanla mübarizə və Mina dağında oğlunun yerinə quzu (qoç) qurban kəsilməsi və sairə bağlıdır. İ. şəxsiyyəti bu minvalla təzə dinin xarakterinin onun Ərəbistan kökləri ilə birləşməsinin əsas vasitələrindən biridir.

Rəvayətə görə İ. peyğəmbərin qəbri Fələstində əl-Xəlildə (Hebranda)-dır. Məqbərənin ətraf ərazisi «müqəddəs həram ərazi» sayılır və ən çox sayılan müsəlman müqəddəs ocaqlarına aiddir.  XX əsrdə o, sionistlərlə müsəlmanlar arasında dəfələrlə mübarizə hədəfinə çevrilmişdir.

Quran obrazı İ.-in müxtəlif mənbələri vardır və Quranın tərtibi vaxtı bir sıra dəyişikliklərə uğramışdır. Quran mətnləri Avraam haqqında həm yəhudi və həm də xristian hekayələrində özünə çoxlu yaxın paralellər tapır, daha çox xristian təsiri üstünlük təşkil edir. Hekayələrin ümumi xarakteri şahidlik edir ki, İ. şəxsiyyəti Ərəbistanda məşhur olumşdur.

Məhəmməd peyğəmbər (s) yaxşı məşhur olan süjetlərdən faydalanmışdır. Əvvəlcə İ. Quran möizəsində mühüm yer tutmurdu və anlaşılmaz bir şəxsiyyət idi. Onun oğlu təkcə İshaq deyil, həm də Yəqub idi, İsmail isə əksinə peyğəmbər kimi xatırlanır və İ. peyğəmbərlə (ə) bağlı olmayıb. Sonra İ.-ə aid hekayələr yaranır, onlar Quran üçün standart olan peyğəmbərə aid tarixin nümunəsini təşkil edirlər: Peyğəmbər (ə) öz xalqına moizə edir, ondan üz döndərirlər, onu təqib edirlər. Allah peyğəmbəri xilas edir, imansızları cəzalandırır. Bu hekayələrdə Məhəmməd peyğəmbərin (s) özünün tarixi ilə çoxlu paralellər vardır. Məkkə dövrünün sonunda, görünür Yəsrib yəhudiləri ilə əlaqələrin güclənməsi və onların İslama yönəldilməsi ümidləri ilə bağlı İ. şəxsiyyəti başqa peyğəmbər obrazlarından daha güclü səslənməyə malik olur. Mədinədə isə yəhudilərdən ayrıldıqdan və bir din kimi yəhudilik və xristianlıqdan fərqlənən İslam haqqında düşüncələrə yekun vurduqdan sonra İ. peyğəmbər (ə) Məhəmməd peyğəmbərin (s) və İslamın ruhani əcdadı elan olunur: İ. peyğəmbərin dini xüsusi əhəmiyyət kəsb edir, o özü isə, yəhudilikdən və xristianlıqdan ayrılır. İsmail də xüsusi əhəmiyyət kəsb edir, onun adı qurban kəsilməsində çəkilsə də, bundan sonrakı ayələr İ.-ə İshaq oğulun verilməsi haqqında xəbər verirlər, bu da qurban kəsilməsinin onun (İshaqın) doğulmasına qədər olduğunu hesab etməyə imkan verir ki, «qurban» İsmail olmuşdur.

Bütün bu söylənənlər Məhəmməd peyğəmbərin (s) Allah tərəfindən rəsul təyin edilməsi və Quranın ona nazil olmasını təkzib etməyə cəhddir. Bu yolla İslamı düzgün öyrənmək mümkün deyil.

İ. haqqında Quran və Qurandansonrakı rəvayətlər çox geniş yayılmışdı, görünür onlar orta əsrlər yəhudi hekayələrinə də təsir etmişlər, orada İ. haqqında silsilənin bir neçə motivinə - onların meydana gəlməsi və müsəlmanlar arasında yayılmasından sonra rast gəlinir.

İ. obrazı orta əsr müsəlman dövlətlərində yəhudilərə dözümlü münasibətin ictimai-psixoloji əsaslarından birinə xidmət etmişdir. XX əsrdə müsəlmanlar üçün onun mühümlüyü təbliğat məqsədilə çox istifadə olunmuşdur – xüsusilə ona Ənvər Cadat İsraillə barışıqda öz təşəbbüsünə haqq qazandırmaqda müraciət etmişdir.

**Ədəbiyyat**: İslam, 87-88; əl-Ərzaqi. Əxbar Məkkə, 21-24; ət-Təbəri. Tarix, 1, 259-319; yenə o. Təfsir, 1, 414-445; əs-Sə'ləbi. Qısas, 42-57; əl-Kisəi. Qısas, 125-153; əl-Beydavi. Təfsir, 1, 82-88; Grünbaum. Beitrage, 89-132; Eisenberg. Abraham; Horovitz. Untersuchungen, 86-87; Wensinck. Handbook, 103-104; Speyer. Erzählungen, 120-186; C.C.Torrey. The Jewish foundation of İslam. N.V., 1933, 82-104; Beck. Gestalt; Gaudefroy – Demombynes. Mahomet, 345-355; Beltz. Schusucht, 93-103; W.A.Bijlefeld. Controversies around the Quranic İbrahim narrative and its «orientalist» İnterpretation. – M. W. 1982, 72/2, 81-94; A.J. Wensinck,

İbrahim. – EI, 2, 458-460; R.paret. İbrahim. – EI, NE, 1004-1006; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 121.

**İcarə** – Müsəlman hüququnun bu məfhumda birləşdirdiyi hər növ icarə, o cümlədən işçinin icarəsi. İcarə haqqında müqavilə düzgün hesab edilir, əgər: 1) icarənin obyekti dəqiq müəyyən edilir və hər iki tərəfin dəqiq qeydi edilib; 2) icarə haqqının müddəti (vaxtı) və qədəri dəqiq müəyyən edilib; 3) icarəyə verilən obyekt (və ya əmək) müsəlman üçün faydalıdır və ona icazə verilir.

Bu əsas şərtlər alqı-satqı əməliyyatından tələb olunan əsas tələblərlə uyğundur, belə ki, icarəyə alqı-satqı kimi baxılır, lakin obyektin özünün deyil, onun «faydalılığının».

Buna uyğun olaraq ödəmə tam həqiqi miqdarda göstərilməlidir: məsələn, dəyirmançının haqqını buğda ilə vermək olmaz, torpağı ərzaq payı ilə icarəyə götürmək olmaz və s. Təcrübədə isə, müxtəlif mənbələrin göstərdiyi kimi, belə ödəmə sistemi geniş tətbiq olunurdu, məhsul payından alınan vergi isə qanunşünaslar tərəfindən qanuni hesab edilirdi. İşçini icarə edəndə dəqiq göstərilməlidir ki, o, müvəqqəti və ya müəyyən bir işin qurtarmasına qədər icarə olunur, onların ikisini birləşdirmək olmaz.

Torpağı icarəyə götürəndə və ya hər hansı bir tikilini kirayə götürəndə icarəyə götürülən obyektin nə üçün istifadə olunacağı qeyd edilməlidir. Mövcud olan sənədlər bu şərtlərə riayət olunmasını göstərir: müqavilələrdə daim icarəyə götürülən torpaqda hansı bitkinin yetişdiriləcəyi göstərilir. İcarəyə götürən obyektə dəyən ziyan üçün məsuliyyət daşıyır.

**Ədəbiyyat:** İslam, 90; əl-Qəzali. Əl-Vaciz, 1, 229-240.

**İcaz əl-Quran** – Quranın məna və formasına görə möcüzə və təkraredilməzliyini bildirən müsəlman ehkamının texniki termini. Bu təsəvvür Məhəmməd peyğəmbərin (s) peyğəmbərlik fəaliyyəti gedişində yarandı və bu necə ki, «Allah sözünün» nüfuzu kimi, eləcə də VI-VII əsrlərdə ərəb ədəbiyyatı ənənvi janr sistemində Quranın misilsizliyi ilə şərtlənmişdir. Quranın genetik mətn kimi müvafiq islamaqədərki ənənələrlə bağlı olsa da, o, onun inkişafında keyfiyyətcə yeni mərhələ təşkil etdi və əvvəlki bütün janrların əsas funksional xüsusiyyətlərini yeni səviyyədə özündə birləşdirdi. 620-622-ci il surələrində Allah vəhyinin həqiqiliyinin təsdiqi üçün Məhəmməd peyğəmbər (s) öz opponentlərinə Qurana «oxşayan nə isə» yaratmaq çağırışı ilə (2:23/21; 10:38/39; 11:13/16; 17:88/90; 52:33-34) müraciət edir. Sonralar ilahiyyatçılar İ. əl-Q. məfhumunun hazırlanmasında məhz bu ayələrə söykənmişlər.

Quranın «möcüzəsi» haqqında ilkin təqdimatda söz və mövzunun arxaik-mifoloji eyniliyin əks etməsi görünür. VIII-IX əsrlərdə ərəb ədəbi

ənənələrinin inkişafı prosesində dilin demifolojizasiyası ilə bağlı bu eyniyyətin dağılması baş verdi. Bu, tam ədəbi planda Quranın məna dəyişikliyinə və başqa cür qiymətləndirilməyə, İ.əl-Q. məfhumunda «məzmun» və «forma» məqamlarını ayırmağa gətirib çıxartdı. Bu mərhələdə İ. əl-Q. məfhumu islamdaxili müzakirənin mərkəzində oldu, bu hər şeydən əvvəl Quranın yaradılmaması məsələsində biruzə verdi. O, IX əsr müəllifləri tərəfindən fəal müzakirə olunmuşdur (İbn əl-Mirrisi, ən-Nəzzam, İbn ər-Ravəndi). İ. əl-Q. məfhumu Məhəmmədin (s) peyğəmbərlik missiyasının həqiqiliyini əsaslandırmaqda əsas təsəvvürlərdən biri kimi yəhudilik və xristianlıqla mübahisədə mühüm rol oynayırdı. Bu mübahisənin gedişində müsəlman nüfuzları (avtoritetləri) hissiyyatla qəbul edilən və ağılla dərk edilən (aqliyyə) «möcüzələr» və «rəmzlər» haqqında təsəvvürlər hazırlayırdılar. Birincilər – ancaq öz dövrü üçün mühüm olan yəhudilik və xristianlığa aid olan elan edilmişdi, ikincilər isə – əbədi və tükənməz – islama aid olanı idi. Müsəlman dininin doktrinasının üstünlyünün ən mühüm sübutu Quran – əsas əbədi «möcüzə» (ucubə), əsas «ilahi əlamət» (ayə) – oldu. Müsəlman ilahiyyatçılarına görə əvəzolunmazlıq ancaq Qurana aiddir. Onlar Əhdi ətiq və Əhdi cədidi rədd edirdilər, əslində xristianlıq və yəhudilik əhkamı sistemlərində belə görüşlər (baxışlar) mövcud deyil.

Müzakirənin gedişində dəlillər məcmuəsi işlənib hazırlandı, onlar müxtəlif birləşmədə bütün müvafiq ilahiyyat qurumlarına daxil olurlar. Şiələr arasında əs-sərfə konsepsiyası işlənib hazırlandı: Quran ədəbi əsər kimi formal yanaşmada tam əlçatmaz deyil, lakin Allah Məhəmməd peyğəmbərin (s) fəaliyyəti dövrü insanları belə bir şey yaratmaq bacarığından məhrum etmişdir (sərafəhum an). İ əl-Q. məfhumunun belə məhdudlaşdırılması imamların «günahsız» (əl-ismə) olmaları və onların Allahla bağlı olmaları haqqında baxışları sayəsində əsas etibarilə şiələr arasında mümkün olmuşdu.

Əksinə olaraq IX əsrin ortalarından əhli-sünnə «dindarlığının» qanuniləşdirilməsi və X əsrin əvvəllərindən əş`əri ilahiyyatı doktrinasının təsdiqi Quran stilinin (nəzm) və kompozisiyasının (təlif) kamilliyinin insan tərəfindən ümumiyyətlə əlçatmazlığı haqqında baxışların inkişafı ilə müşaiyət edilirdi.

Müxtəlif cərəyanların nüfuzlarının əsərlərində bir dəlilin də adı çəkilir (əxbar əl-qeyb - «qeyb xəbərləri»: Quran ənənəvi görüşlərə görə başqasından təlim almayan (ummi) sayılan Peyğəmbərin (s) adi yolla ala bilmədiyi keçmiş, indiki və gələcək haqqında belə məlumatları özündə cəmləyir.

Əş'ərilərin mövqeyinə görə «Allahın dediyi» kimi Quranda iki aspekt ayrılıb – «daxili» və «xarici» . Birincisi – «ilahi mahiyyətinin atributu olan əbədi nitq» (əl-kələm əl-qədim əlləzı huva sifət əz-zət). İkincisi isə –

«əbədiliyi, daha doğrusu tələffüz olunan sözü bildirir (əd-dall alə-l-qədim və huva-l-əlfaz). «Xarici» və «daxili», «zahiri» və «batini» atributları aydınlaşdıraraq belə yanaşma Quranda «forma və məzmunun vəhdəti» olan ən mühüm problemi ortaya qoymağa imkan verdi. Bu, Quranda «batini» şiə izahı və Quranın rəmzi – alleqorik şərhi (təvil) ətrafında müzakirə kontekstində xüsusilə mühüm idi.

İnsanın Quranın müqayisə edilən kamillik formasının əlçatmaz konspesiyası ətrafında mübahisələr davam edirdi. Bəziləri (İbn əl-Mütəzz vəf. 909; əs-Suyuti, vəf. 1505) iddia edirdilər ki, Quranda bütün bəlağət vasitələrinin arxetiplərini tapmaq olar və bu arxetipləri ancaq münasib elmlərin (ilm əl-bəyan, ilm əl-məani)köməyi ilə öyrənmək və başa düşmək olar. Başqaları isə (məs: İbn Həzm, vəf. 1064) hesab edirdilər ki, «Allah sözü» (kəlam Allah) əslində «yaranmışların sözləri» (kəlam əl-məxluqin) ilə müqayisə edilməzdir. Üçüncülər (məs: əl-Baqillani, vəf. 1013) barışdırıcı həll etmə yolu hazırlamağa can atırdılar: Quran üslub gözəllikləri ilə doludur, lakin, bunun onun əvəzolunmazlıq məsələsi ilə heç bir əlaqəsi yoxdur. Bununla əl-Baqillani, əslində əs-sarfə konsepsiyasını rədd etimşdir.

Quranın yaradılmaması haqqında təlimin tərəfdarlarının qələbəsi ictimai şüurda İ.əl-Q.-nin islam doktrinasının ayrılmaz bir hissəsi olduğu haqqında baxışların möhkəmlənməsinə gətirib çıxartdı. Buna ədəbi və elmi mühitdə Qurana «yaxınlaşma» kimi başa düşülən Quranın təqlidinə cəhd edilməsinin (mu'aradat əl-Quran) geniş yayılması ilə müşaiyət olundu. Görkəmli stilist İbn əl-Müqəffə (vəf. 757 və ya 759), məşhur şairlər Bəşşar b. Burdə (783-də öldrürülüb), Əbu-l-Ətahiyə (vəf. 828), Əbulalə əl-Məarri (vəf. 1057), əl-Mütənəbbi (vəf. 965) və xüsusilə də mötəzili İ. ər-Ravəndinin (vəf. IX əsrin 60-cı illərinin əvvəllərində) cəhdləri belədir.

İ. əl-Q. nəzəriyyəsi filologiya fənləri ilə fəal qarşılıqlı yardım ilə gedirdi. XI əsrin əvvəlinə İ.əl-Q. haqqında təlimlə bədi` - nitqin quruması fiquralar və konkret üsullar haqqında təlim nəzəriyyəsinin sintezi müəyyən olundu (Əbu-l-Həsən Nəşr b.əl-Həsən əl-Mərcinani, IX əsrin birinci yarısı, Əbu Hilal əl-Əskəri. vəf. 1010).

X əsrdən İ.əl-Q.-nın əsaslandırılmasına demək olar ki, heç bir yenilik əlavə olunmamışdır. Belə ki, əvvəlki dəlillər əsasən Misir modernistlərinin lideri M.Abdo (vəf. 1905) tərəfindən təkrar olunmuşdur. Müsəlman ilahiyyatçısı ər-Rafii (vəf. 1937) İ.əl-Q. məfhumuna xüsusi elmi iş həsr etmiş, onu iki baxışın birliyi – vəhdəti kimi müəyyən etmişdir: a) adi insanın Quran kimi möcüzə yaratmağın qeyri-mümkünlüyü; b) bu bacarıqsızlığın əsrlər boyu mövcudluğu.

İ. əl-Q. konsepsiyası ilə eyni vaxtda Quranın tərcümə olunmazlığı haqqında müsəlman ilahiyyatçıları tərəfindən hazırlanan doktrina da bağlıdır: adi adam «möcüzə» göstərə bilməz, deməli belə cəhdlər zərərlidir

və cəzaya layiqdir. Lakin tərcüməyə, şərh (təfsir) mənasında, əgər mətnin originallığı dəyişdirilməmişdirsə, icazə verilirdi. Bu baxışlar «türkləşdirmə» siyasəti gedişində Türkiyədə Quranın original ərəb mətnsiz türk dilinə tərcüməsi nəşr olunana qədər – bizim əsrin 20-ci illərinə qədər qalmışdı. 30-cu illərdə belə təcrübə əl-Əzharda razılıqla qarşılandı. İndi Quran Avropa və Asiya dillərinin çoxuna və çoxlu Afrika dillərinə tərcümə olunmuşdur, özü də bu tərcümələrin əhəmiyyətli hissəsi müsəlmanlar tərəfindən edilmişdir.

**Ədəbiyyat**: İslam, 89-90; Baqillani. İjaz al-Quran. Qahirə, 1963; M.C.Киктев. Теория «неподражаемости» Корана («i`djaz») в арабской филологии X-XI вв. – IV Всесоюзная конференция арабистов. Тезисы докладов и научных сообщений. Ер., 123-125; A.Aleem. İ`jazu `l-Quran. IC. 1933,7, 64-82, 215-285; Grünebaum. Document; Wansbrough. Studies, 79-83, 231-232; R.Paret, J.D.Pearson. Al-Kur`an (9.Translation of the Kur`an). – EI, NE, 5, 429-432.

**Əl-İci, Adudəddin Əbdürrəhman b. Əhməd** (təx. 1281-1355) – sonra gələn ilahiyyatçıların nümayəndəsi. İcdə doğulmuşdur. Fiqhdə şafei məzhəbinə qulluq edirdi. İlahiyyatı əl-Beydavinin (vəf. 1286) ardıcıllarından öyrənmişdir. O, elxani Əbu Səidin (1316-1336) sarayında yaşamışdır, Əbu Səid onu qazi təyin etmişdi (görünür vəzir Qiyas əd-dinin məsləhəti ilə), əl-İ. ona özünün baş əsəri – Məvaqif fi ilm əl-kəlam əsərini həsr etmişdi. 1355-ci ildə məlum olmayan səbəblərə görə o, həbsə atılır, oradaca həmin il ölür. Əl-İ.-nin şagirdi görkəmli mütəkəllim Səd əd-din ət-Təftəzanidir. Əl-İ.-nin qeyd olunmuş əsəri yüz illərlə kəlam elmi üçün əsas vasitələrdən biri kimi xidmət etmişdir və dəfələrlə şərh edilmişdir, o cümlədən əl-Cürcani tərəfindən.

**Ədəbiyyat:** İslam, 91; əl-İci. Məvaqif fi ilm əl-kəlam. İstanbul, 1286 h. (əl-Cürcani, Çələbi və əş-Şirvaninin şərhləri ilə), 1325 h; yenə o. Əl-Əqaid əl-ədudiyyə (əd-Dəvvani və Qələnbavinin şərhləri ilə), İstanbul, 1899; yenə o. `İlm ал-ахлак. Казань, 1914; yenə o, Cəvahir əl-kəlam. – Bulletin of the Faculty of Arts, University of Egupt. Alexandria, 1934, 2; van Ess. Die Erkenntnislehre.

**Əl-İcma** – razılıq, müzakirə olunan məsələdə nüfuzlu şəxslərin yekdil rəyi, qərarı, müsəlman hüququnun (fiqh) mənbələrindən biri. Ənənə əl-İ.-nın yaranmasını VII əsrin ikinci yarısının ilk qanunşünas alimləri (müctəhidləri) «Mədinənin yeddi fəqihi»: Səid b. əl-Müseyib, Ürvə b. əz-Zübeyr, Əbu Bəkr b. Übeyd, əl-Qasim b. Məhəmməd, Übeydullah b. Abdullah, Süleyman b.Yasər və Xarici b. Zeydin fəaliyyətləri ilə bağlayır, onlar mübahisəli məsələlərin öyrənilməsinin qaydalarını müəyyən

etmişdilər. Bunun üçün onlar hər məsələ üçün hər cür mümkün məlumatları toplayır, daha çox mümkün olan insanlarla sorğu keçiriblər. Sonra bu məlumatlar daha dəqiq variant təyin etmək və mümkün olan yeganə qərar qəbul etmək üçün müqayisə edilir və müzakirə edilirdi. Fiqhin mənbələrindən biri kimi olan əsasnamə Məhəmməd əş-Şafei (vəf. 820) tərəfindən qısaca və doğru-düzgün ifadə edilmişdir. Onun mahiyyəti ondan ibarət idi ki, müzakirə olunan məsələ haqqında müctəhidlərin fikirləri və qərarları üst-üstə düşməli idi. Onda bu qərar bir fakt kimi qəbul olunur və hüquq norması olur. Lakin əş-Şafei Malik b.Ənəs kimi əl-İ.-nı ancaq Mədinə fəqihlərinin hazırladıqlarını hesab edirdi. Əbu Hənifə belə rəy irəli sürdü ki, əl-İ. hər hansı nüfuzlu bir qruppa tərəfindən yarana bilər. Bu İraq, Suriya, Misir və başqa yerlərdə bir-birindən asılı olmayan əl-İ.-ların yaranmasına imkan açdı. Əl-İ. rolunda ən çox tələbkar ancaq dörd «mömin» xəlifənin birgə rəyi oldu. Üsluba görə ifadə olunmalı olan əl-İ.-nın üç kateqoriyası təyin edilmişdir: 1) Ucadan deyilən, daha doğrusu açıq müzakirədə qəbul olunan əl-İ. (əl-İ. əl-qauli); 2) təcrübi əl-İ., daha doğrusu müzakirə olunmayan, lakin eyni şəraitdə, eyni qərarlar və əməllərdən doğan əl-İ. (əl-İ. əl-əməli); 3) «dinməz», deyilməmiş, daha doğrusu, kimsə bir nəfərin qərarı, əslində hamıya məlum olan, əksinə hər hansı bir etiraz edilməyən əl-İ. (əl-İ. əs-sükuti). Əl-İ.-ya əsas məzhəblərin münasibəti müxtəlifdir: hənəfilər ancaq o əshabların əl-İ.-sını qəbul edirdilər ki, onların hədislərini düzgün sayırdılar, bir də yerli müctəhidlərin əl-İ. əl-qauli və əl-İ. əl-əməlidə deyilən əl-İ.-nı qəbul edirdilər. Hənəfilərin az bir hissəsi həm də əl-İ. əs-sükutini qəbul edirdilər. Malikilər ancaq onun ilk iki kateqoriyasını qəbul edirdilər. Şafeilər əl-İ.-nı müstəqil mənbə kimi deyil, ancaq Quran və sünnəyə əlavə kimi qəbul edirdilər. Malikilər kimi onlar da Mədinə müctəhidlərinin ilk iki kateqoriyasının əl-İ.-nı qəbul edirdilər. Hənbəlilər əl-İ.-nın ancaq Mədinə müctəhidlərinin bütün üç kateqoriyasını qəbul edib, buraya onların ayrı-ayrı fikirlərini əlavə edib hər ikisinə vahid mənbə kimi baxırdılar. Bununla, ancaq hənəfi məzhəbində əl-İ. Hüquqyaradıcı İnstitutunda inkişaf perspektivini aldı. Qalanlarında isə əl-İ. hüquqi materialın sabit qanuni mənbəidir.

**Ədəbiyyat:** İslam, 91; Əbu Zəhra. Əbu Hənifə, 311-325; əl-Həkim. Əl-Üsul, 253-300; Schact. Background, 42-47; Vesey-Fitzgerald. Nature, 95-96; Bravmann. Background, 194-198; 194-198; M.Bernard. İdjma. – EI, NE, 3, 1048-1051.

**Əl-İctihad («cəhd etmə», «möhkəm çalışma»)** – ilahiyyatçılar tərəfindən tədqiqatda istifadə olunan ilahiyyatçı – hüquqi kompleks, prinsip, arqument, üsul və yollar sisteminin məsələlərinin öyrənilməsi və həllində, habelə alimin (müctəhidin) özünün nüfuz dərəcəsinin ilahiyyatçı-

hüquqi mənbələri bilməsi, izahı və şərhində ilahiyyatçının fəaliyyəti. Ənənəyə görə əl-İ. hələ Məhəmməd peyğəmbərin (s) vaxtında, onun tərəfdarlarının arasında yaranmışdı, onlar kamil əl-İ.-ın daşıyıcısı idilər. Təşkil edilmiş fəaliyyətin (əməlin) bir növü kimi əl-İ. VII əsrin sonunda meydana gəldi, o vaxt Məhəmməd peyğəmbərin (s) dedikləri və əməllərinə söykənən sağ qalmış əshabların dedikləri, şərh etdikləri və tələb etdikləri arasında böyük fərq (ixtilaf) aşkar oldu. Bundan başqa həyat tərzinin dəyişməsi ilə əlaqədar olaraq müsəlman icmasında çoxlu hüquqi xassəli problem yarandı. Buna görə də əl-İ.-ın əsas məqsədi təzə və ya özlərindən əvvəlkilərin həll etmədikləri məsələləri tapıb həll etmək oldu – beləliklə bu qərarlar eyni vaxtda İslama söykənməli və onu dəstəkləməli idilər. Əl-İ. hüquqi mənbələrin seçilməsi, onların qiymətləndirilməsi, onların münasibətlərinin müəyyənləşdirilməsi, dəlillər və üsulların seçilməsi və təsnifatı, məsələlərə səbəb-nəticəvi baxış, onların həlli üçün nümunəvi düstur hazırlamaq, bu həll üsullarının həqiqətlə uyğun gəldiyi hallarda kompromislər axtarıb tapmaqdan ibarətdir. Əl-İ.-ın əsas silahı ərəb dili idi, bu dildə Qurandan başqa hədislər və bütün başqa köməkçi materiallar (təfsir, təvil, əsar və s.) yazılmışdır. Ona görə də ərəb dilini onun qrammatik və leksik incəlikləri ilə bilmək əl-İ.-ın birinci şərti idi. İkinci şərt – Quranı əzbər bilmək, onu qrammatik və mənaca şərh etməyi bacarmaq, bütün surələrin və hər bir ayənin meydana gəlməsi şəraitini bilmək idi. Üçüncü şərt – sünnəni və onlara olan şərhləri bilmək, çoxlu hədis (3 minə qədər) əzbər bilmək lazım idi. Dördüncü şərt – uyğun rəyin (icma) cəmlənməsi və fiqhin əsas suallarında olan ixtilafın şəraitini bilmək idi. Beşinci şərt – seçilmiş hüquqi materialların metodik izahını gözəl bilmək. Altıncı şərt – alim, qabağına qoyduğu vəzifəni aydın surətdə başa düşməlidir. Yeddinci şərt-əldə edilmiş nəticələrin düzgün qiymətləndirilməsidir. Səkkizinci şərt-imana inam və ona sadiq qalmaqdır. Bütün bu şərtlərdən kamil və ya tam əl-İ. əmələ (əl-ictihad əl-kamil) gəlirdi. Əl-İ.-ın əsas mərkəzləri Xilafətin böyük şəhərləri idi: Hicazda Məkkə və Mədinə, İraqda Kufə və Bəsrə, Suriyada Dəməşq və Beyrut. Demək olar dörd əsr boyu VIII əsrin sonu XI əsr – islamın nəzəri əsaslanmasında üstünlüyü əldə etmək uğrunda, vaxtaşırı olaraq birbaşa toqquşmaya keçən gərgin yarışlar getmişdir. Bu mərhələnin sonunda ilahiyyatçı – hüquqi məktəblər (məzhəblər) yaranırdı, İslamın ideologiyası və ictimai quruluşunun əsaslandırılması kimi prinsipləri əmələ gəlirdi. Onların sonrakı təkmilləşdirilməsi dayandı. «Əl-İ.-ın qapıları bağlandı», ayrı-ayrı ikinci dərəcəli məsələlər dəqiqləşdirilir, ilahiyyatçı nüfuzlar - sələflərin əsərlərinin üzü köçürülür və şərh edilirdi.

XIX əsrdə islahatçı cərəyanların meydana gəlməsilə islamda əl-İ-ın yenidən dirçəlməsinə meyl yarandı ki, müasir həyat mövqelərindən islam

prinsiplərini təzədən nəzərdən keçirsinlər. Lakin bu meyillər islam ictimaiyyəti tərəfindən geniş dəstək tapmır.

**Ədəbiyyat:** İslam, 91-92; Əbu Zəhra. Tarix əl-məzahib, 2, 101-128; Scasht. The Scholls of Law, 73-75; Vesey-Fitzgerald Nature, 104-106; Bravmann Background, 188-194; J.Schacht, D.B.Macdonald. İdjtihad. – EI, NE, 3, 1052-1053.

**İddə (farsca eddət, türkcə iddet)** - müəyyən olunmuş bir müddətdir, bu müddət ərzində boşanandan və ya əri öləndən sonra azad qadın və ya bir sahibkardan başqa sahibkarın yanına gedən kəniz həmin müddətdə cinsi əlaqəyə girməməlidir. İ. müddətində qadın xüsusi hüquqi vəziyyətdə olur, bu onun mümkün ola bilən hamiləliyi ilə bağlıdır ki, bu da uşağın atasının təyin edilməsində mühümdür. İ. ümumi qayda kimi Quran tərəfindən irəli sürülüb: İslama qədər İ. ancaq bir neçə qəbilənin adətində var idi. İ. məzhəbdən asılı olaraq 4-dən 20 həftəyə qədər uzanır, bundan sonra qadına yenə cinsi əlaqəyə girməyə icazə verilir. İ. müddətində əvvəlki ər və ya sahibkar qadını bütün zəruri vasitələrlə təmin etməlidir. Bu müddət ərzində əgər boşanma formulası (talaq) bir dəfə deyilibsə ər qadınla əlaqələrini təzələyə bilər. Onda boşanma həqiqi sayılmır və İ. tələbi lazımsız olur. Əgər İ. ər tərəfindən üç dəfə talaq deyiləndən sonra və ya arvadın təzə ərə getməsi ilə pozularsa, bu cinayət sayılır və kəffarə verilməsi cəzası ilə cəzalandırılır. Müvəqqəti nikah (mut'a) ləğv ediləndə də İ. vacibdir. Hazırda İ. hər yerdə (müsəlman ölkələrində) qanuni və ya məişət qaydası kimi qalır.

**Ədəbiyyat:** İslam, 89; əş-Şeybani. Əl-Came əs-səğir, 50-51; Malik b.Ənəs. Əl-Müvttəə, 223, 237, 239-242, 247; Abu Zəhra. Family Law, 150; Y.Linan de Bellefonds. İdda. – EI, NE, 3, 1010-1013.

**İdris** – Quranda surət, peyğəmbər və mömin, «dözümlülərdən» olub, Allah tərəfindən «yüksək yerə» qaldırılmışdır (Q. 19:56/57-57/58; 21:85). Şərhçilər onu Bibliyanın Yenoxu ilə eyniləşdirirlər. Bu mömin insan ölüm mələkini aldadaraq cənnətə girib, Allaha sadiqliyinə görə orada və ya göy qatlarından birində Qiyamət gününədək saxlanıb. İ. İlyas və əl-Xızırla yanaşı islam mifologiyasının «əbədi canlılarından» biridir, o hərdən onlarla eyniləşdirilir. O, kəlamdan yazan ilk adam olmuşdur, paltlar tikib, tikili paltar geyirdi, taleləri ulduzlarla bilirdi, vaxtı müəyyən edə bilirdi, Adəm və Şisin (Şib) qədim yazılarının bilicisi idi. Müqəddəs biliklər sahibi kimi bəzən Hermes Trismeqistlə eyniləşdirilirdi. Dərzilik sənətinin hamisi sayılır.

Quran personajının mənşəyi aydın deyil. Onun adını «Aleksandr haqqında roman»da Aleksandrın aşbazı Andrey və ya həvari Andreyin

adına aparıb çıxarırdılar. Onun obrazının elementləri Qurandansonrakı hekayələrdə Yenox haqqında yəhudi, xristian və qnostik variantlardakı rəvayətlərə gedib çıxır. İ. ölməzlik və dirilməyin mümkünlüyünün simvolu və «dolayı» sübutlarından biri oldu.

**Ədəbiyyat:** İslam, 92; ət-Təbəri. Tarix, 1, 172-177; yenə o. Təfsir, 16, 27; əs-Sə'ləbi. Qısas, 28-29; əl-Kisəi. Qısas, 81-85; əl-Beydavi. Təfsir, 1, 583; Horovitz. Untersuchungen, 88-89; Gaudefroy. Demombynes. Mahomet, 381; Paret. Kommentar, 344; Beltz. Sehnsucht, 207; A.J.Wensinck. İdris. – EI, NE, 3, 1056-1057.

**İdrisilər-Bənu İdris (və ya əl-Ədərisə)** –, Məğribdə ilk ələvi sülaləsi (789-926). Onun banisi I İdris – əl-Həsən b. Əlinin nəticəsidir, (786-cı ildə) Mədinədə Abbasilərə qarşı ələvi üsyanının iştirakçısı olmuş və rahatca təqibdən Şimali Mərakeşdə gizləşmişdir. Bərbər-renat rəhbərlərinin dəstəyini alan I İdris mərkəzi Ulili olan kiçik bir dövlət yaratdı (788-ci il), onun yanında təzə şəhər – Fes yarandı. Tezliklə İdrisin qardaşı Süleyman mərkəzi Flemsendə (Qərbi Əlcəzair) olan başqa bir dövlət yaratdı.

İ. dövlətinin çiçəklənməsi II İdrisin hökmranlığı dövrü (808-828) və onun oğlu Məhəmməd vaxtına (828-836) təsadüf edir, bu vaxt o, Yüksək Atlasdan bütün şimal-qərbə olan əraziləri özündə birləşdirirdi. Bu dövrdə Fes və Flemsen sürətlə böyüyür, təzə şəhərlər yaranırdı. İdris dövləti özünün çoxsaylı varisləri arasında böldü ki, bu da daxili müharibələrə gətirib çıxardı. 917-ci ildə Fatimilər IV Yəhyanı darmadağın etdilər, o, vassal asılılığı qəbul etdi, lakin 919-920-ci illərdə həbs olunub, edam edildi. Fatimilərin Əməvilərlə Mərakeş uğrunda uzun sürən mübarizəsindən istifadə edən II İdris Rifdəki hakimiyyətini saxlaya bildi. 974-cü ildə Əməvilər axırıncı İ.-i əsir etdilər. Onlardan biri, əl-Həsən, Qahirəyə qaçıb, Fatimilərin dəstəyini əldə etdi, lakin yenidən əsir düşüb, edam edildi.

1010-cu ildə İ.-in uzaq qollarından biri Həmmudilər Mələqə və Əlhesirası tutub, orada xanədan hakimləri kimi 1057-ci ilə qədər hökmranlıq etdilər. İ.-in Mərakeşdəki nəsilləri (şəriflər – yerli ləhcədə – şorfa) çoxsaylıdırlar və hazırkı dövrə qədər böyük nüfuza malikdirlər.

**Ədəbiyyat:** İslam, 92; Босворт. Династии, 48-49; М.А.Жюльен. История Северной Африки. М., 1961, 50-55; D.Eustache. İdrisids. – EI, NE, 3, 1035-1037.

**İfrit** – (cəmi əfarit - «əzəmətli», «qalib») ən qəzəbli, hiyləgər və güclü cinlərin adları. Cəm şəkildə bəzən cin və şeytanların ümumi adlarını bildirir. Quranda «cinlərdən bir İ.» Süleyman peyğəmbərə (ə) Sav (Səba) çariçasının taxt-tacını gətirməyi öz üzərinə götürür (27-39). Ona tez-tez folklor və xalq ədəbiyyatında iştirak edən şəxs (sujet) kimi rast gəlinir,

məsələn «1001 gecə» nağıllar toplusunda olduğu kimi. Daha sonrakı orta əsr Misirində İ.-lər əzabla öldürülənlərin ruhları hesab edilirdilər.

**Ədəbiyyat:** İslam, 117; ət-Təbəri. Təfsir 19, 101-102; əl-Beydavi. Təfsir. 2, 68; əş-Şibli. Ākām əl-mərcan, 17-18; D.B.Macdonald. Ifrit. – EI, 2, 284-285; J.Chelhod. Ifrit. – EI, NE, 3, 1076-1077.

**İd əl-Fitr (başqa adları: əl-id əs-səğir)** – ərəbcə; ramazan bayramı, orucluq bayramı-azərbaycanca, uraza bayram, kiçik bayram – tatarca, şəkər bayramı - türk), orucluğun (əs-saum) qurtarması münasibətilə ramazan ayında pəhrizdən çıxma bayramı. Şəvvalın 1-i başlayıb, id əl-ədhadakı kimi 3-4 gün çəkir. Bayramın birinci günü id-ədhadakı kimi xüsusi cəmiyyət (camaat, bayram) namazı qılınır. İ. əl-F. mərasimlərinə bayram stolu (süfrəsi) açılması da daxildir, kasıblara pay verir, dostlara baş çəkir, hədiyyələr verirlər.

İ. əl-F.-də adətən ata-babaların qəbirlərini ziyarət etmək yaxşı əməllərdən sayılır. Adamlar, əsasən də qadınlar (ola bilsin tatarlar) qəbirstanlıqda çox vaxt keçirirlər, çox vaxt xüsusi hazırlanmış alaçıqda gecələyirlər. Onlar kasıblara yemək paylayır, qəbirləri palma budaqları ilə bəzəyir, Fatihə, Yasin surələrini oxuyur və ya Quranın çox hissəsini və ya bütöv Quranı oxuyur və ya oxutdururlar.

İ.əl-F.-in «kiçik» bayram adlanmasına baxmayaraq, çətin orucluq müddətinin qurtaracağını bildirdiyinə görə daha sevincli və əhəmiyyətlidir, xalqın nöqteyi-nəzərincə id əd-ədhadan «böyük bayram» kimi də qeyd edilə bilər.

**Ədəbiyyat:** İslam, 89; Мец. Ренессанс, 186; Лэйн. Нравы. 373-379; Grünebaum. Festivals, 62-65; E.M.Mittwoch. Id əl-Fitr. – EI, NE, 3, 1008.

**Əl-İxvan əl-Muslimun («Müsəlman qardaşlar»)** - 1928-ci ildə Misirdə (İsmailiyyə) şeyx Həsən əl-Bənna tərəfindən yaradılan «Müsəlman qardaşlar Assosiasiyası» (Əl-ixvan əl-muslimin Cəmiyyəti dini-siyasi təşkilatının üzvləri). Həsən əl-Bənna (1906-1949) Aşağı Misirdə, Mahmudiyyədə müəllim ailəsində anadan olmuşdur. Dar əl-ulumu məktəb müəllimi ixtisası üzrə bitirmişdir. 1918-1928-ci illərdə sufi qardaşlıq hərəkatında və 20-ci illərin əvvəlində Misirdə imperializmə qarşı hərəkatda fəal iştirak etmişdir. «M.q.Assosiasının» yarandığı gündən ta ölənə qədər onun «ali rəhbəri» (əl-murşid əl-`amm) Həsən əl-Bənnanın görüşlərinin formalaşmasına Əbu Həmid əl-Qəzalinin, habelə Məhəmməd Abdo, Cəmal əd-din əl-Əfqani və Rəşid Rzanın əsərləri böyük təsir göstərmişdir. Sünni islamının çərçivəsindən kənara çıxmadan Həsən əl-Bənna əl-Əfqaninin və Rzanın panislamizm (islamçılıq) ideyasını inkişaf etdirdi, cihad, «islamın millətçiliyi» və «islam dövləti» konsepsiyasını işləyib hazırlamışdır. Həsən əl-Bənnanın görüşləri risalə şəklində izah edilmişdir.

M. q. ideologiyasının işlənilməsində mühüm yeri Seyid Qütbün (ilk növbədə «İslamda ictimai ədalət»), Məhəmməd əl-Qəzali, Mustafa əs-Sibainin (axırıncının əsərlərində, xüsusilə də «müsəlman sosializminin» prinsipləri aydın izah edilmişdir) əsərldəri tutur.

M. q.-nın ideologiyası panislamizm (islamçılıq) ideyalarına əsaslanır. «Assosiasiya»nın son məqsədi islamın yayıldığı ölklərdə (Misirdən başlayaraq) Quran və şəriətdə izah olunmuş islam qaydalarına ciddi riayət edilməsi yolu ilə «islam ədaləti» prinsipləri üzərində qurulmuş cəmiyyət yaratmaqdır. M. q.-nın rəyinə görə bu məqsədə həm kapitalizm, həm də sosializmdən fərqlənən «islam inkişaf yolu» aparır.

Terror üsullarını (yolunu) mübarizə vasitəsi kimi fəal istifadə edən «M.q. Assosiasiyası» xeyriyyə və maarifçilikdən (1928-1936) siyasi təşkilata qədər yol keçmişdir. «Assosiasiya» mürəkkəb və şaxələnmiş quruluşa, o cümlədən hərbiləşdirilmiş təşkilatlara malik idi, onun xarici filialları da var idi. Həsən əl-Bənnanın vəfatından (qətlindən) sonra parçalanma baş verdi, bir sıra qrupa ayrıldı, onların bazasında sonralar Yaxın və Orta Şərqin müxtəlif ölkələrində müstəqil təşkilatlar yarandı, onların hamısını birlikdə «Müsəlman q. hərəkatı» (bəzi ölkələrdə – əl-ixvaniyyə) adlandırırlar. Hazırda «M.q. hərəkatı» ideya cəhətcə üç əsas cərəyanla təqdim olunur: «mülayim» - əsasən Həsən əl-Bənnanın və Seyyid Qütbün ardıcılları; «İslam demokratları» - «İslam sosializminin» müxtəlif variantlarının tərəfdarları; terroru geniş tətbiq edən sağ eksteremist təri-qətlərin çoxsaylı təşkilatları (onların arasında Ət-Təkfir va-l-hicrə», «Əl-Cihad» və b. vardır); Tez-tez və əsassız olmayaraq bu qanada 50-ci illərin əvvəlləlində M.q.-dan ayrılan İslam azadlıq patiyasını da (Hizb ət-təhrir əl-islami) aid edirlər; hazırda o, demək olar bütün ərəb ölkələrində mövcuddur və gizli vəziyyətdədir. M.q.-nın ideologiyası və siyasi təcrübəsi irticaçı xarakter daşıyır (Bu baxır kimə qarşı), ölkələrin çoxunda onun fəaliyyəti qadağan olunub. M.q.-nın bir sıra təşkilatlarının fəaliyyəti əsasən Qərbi Avropada yerləşən beynəlxalq mərkəzlər tərəfindən uzlaşdırılır və bu, artıq öz bəhrəsini verdi. 2012-ci ildə Misirdə onlar prezidenti hakimiyyətdən uzaqlaşdırıb, seçki yolu ilə hakimiyyətə gəldilər. 2013-cü ildə xalq hakimiyyət özbaşılanığa qarşı ayağa qalxdı (Burada Amerikanın əli də var). Hərc-mərclikdən cana doymuş hərbçilər dövlət başçısının hakimiyyətdən uzaqlaşdırıb, müvvəqəti hökumət qurdular, sonra da Mursini həbs etdilər.

İslamşünaslıq ədəbiyyatnda əl-ixvaniyyə məfhumunun iki şərhi – geniş və dar mövcudur. Dar mənada əsasən özlərini «müsəlman qardaşlar» adlandıran bir sıra konkret hərəkatlar və təşkilatları nəzərdə tuturlar. Geniş mənada bu istilah altında «müsəlman inteqrizmi» (birliyi, fundamentaizmi, konservatizmi) adlanan, islamın yayıldığı ölkələrdəki ümumi hərəkatı birləşdirirlər. «İnteqrist» (və ya «fundamentalist») cərəyan Qərb alimləri

tərəfindən «konservantiv» (haqlı) kimi qiymətləndirilir. Bu cərəyanın nümayəndələri ictimai rifah üçün nailiyyətlərini rədd etmədən islamın əvvəlki təmizliyinə qayıtmaq, Quranın və sünnənin prinsiplərinin ictimai həyatın siyasi, iqtisadi, sosial və hüquqi sahələrində tətbiqi uğrunda çıxış edirlər. «Fundamentalistlər» «yaman qüvvələrlə» - «marksisit ateizm» və «Qərb kapitalizmi» ilə kompromisə getmirlər.

**Ədəbiyyat:** İslam, 117; M. əl-Qəzali. Əl-islam va-l-istibdad əs-siyasi. Qahirə, 1950-1952; Müzəkkərat Həsən əl-Bənna. Qahirə, 1951; S. Qütb. Mə`rəkət əl-islam va-r-rasməliyyə. Qahirə 1951; M.əl-Qəzali. Əl-İslam va-l-audə əl-iqtisadiyyə. Qahirə, 1952; İ.M.əl-Hüseyni. Əl-İxvan əl-müslimun kubra əl-hərəkat əl-islamiyyə əl-hədisə. Beyrut, 1952; S.Qütb. Dirasət islamiyyə. Qahirə, 1953; Rəsail əl-imam əş-şəhid Həsən əl-Bənna. Beyrut, 1965; R.P.Mitchell. The Sosiety of the Muslim Brothers. L., 1969.

**İxvan əs-Səfa** - (İxvan əs-səfa və xullan əl-vəfa; «Təmiz qardaşlar və sadiq dostlar», «Təmizliyin qardaşları və sadiqliyin dostları») – ismailiyyəyə (ismailizmə) yaxın olan, X əsrdə Yaxın Şərqdə fəaliyyət göstərən gizli elmi-fəlsəfi cəmiyyət, onun adından «Rəsail ixvan əs-səfa və xullan əl-vəfa» ensiklopediyasını təşkil edən 51 traktat, habelə onların məzmununu yekunlaşdıran Ər-Risalə əl-cəmia əsəri yazılmışdır.

Ensiklopediyanın müəllifləri və onun yaradılması vaxtı aydınlaşdırılmamış qalır. Bu barədə Əbu Həyyan ət-Tövhidinin dedikləri və ensiklopediyada olan daxili dəlillərə əsaslanaraq irəli sürülən ehtimallar yeni tədqiqatlar işığında şübhəli və ya əsassız görünür (məsələn, aydın olmuşdur ki, orada gətirilən əl-Mütənəbbinin şeirləri və əş'arilərin ünvanına olan tənqidə əsaslanan traktatların axırıncı yazılması X əsrin ortalarından gec vaxtla tarixlənməsi sonrakı interpolyasiyadır. İ. əs-S. ensiklopediyası onların o ardıcılları üçün nəzərdə tutulmuşdu ki, onlar təqlid mərhələsini keçib, Allahı kəşf edən dinlər arasındakı fərqlər üzərində duran ali, ezoterik bilik yolu üzərindədirlər. İ. əs-S. traktatı onlara müasir olan bütün elmləri əhatə edir və onların müəlliflərinə aristotelçilik, yeniplatonçuluq, yenipifaqorçuluğun təsirini görürlər. Ensiklopediyaçılar öz cəmiyyətlərinə Abbasi xilafətində təcəssüm etmiş qəddar «Şərq dövlətinin» əvəzinə meydana gəlməyə bacarığı olan, gözlənilən «xeyirxah dövlətin» nümunəsi kimi baxırdılar.

**Ədəbiyyat:** İslam, 117-118; А.К.Закуев. Философия «Братьев чистоты», Bakı, 1961; A.M.əl-Abdu. Əl-İhsan fi fikr ixvan əs-səfa. Qahirə, 1976; Ş.Qalib. İxvan əs-səfa. Beyrut, 1979; İ.Fərrux. İxvan əs-Səfa. Beyrut, 1961. A.Awa. L'Esprit critique des Freres de la Purute: Encyclopedistes arabes du IV-e/X-e siecle. Beirut, 1948; A.Bausani. L'Enciclopedia dei Fratelli della Purita. Napoli, 197; S.H.Nasr. An Introduction to Islamic

Cosmopological Doktrines. N.Y., 1978; A.Hamdani. Abu Hayyan al-Tawhidi and the Brethren of Purity. – IJMES, 1978, 9/3, 345-353; I.R.Netton. Muslim Neoplatontists: An Introduction to the Thought of the Brethren of Purity (Ikhvan al-Safa'). L. etc, 1982; A.Triki. Neoplatonisme et aspect mystique de la creation de İ`univers dans la philosophie des İhwan [Alger]; A.Hamdani. The Arrangement of the Rasail Ikhwan al-Safa and the Problem of Interpolations.- ISS, 1984, 29/1.97-110.

**İktisab** – dünya nemətlərinin qazanılması. Özünü və yaxınlarını müəyyən həddə qədər təmin etmək üçün İ. müsəlmanın borcudur. Sənətkarlıq və ticarətlə məşğul olan qədim peyğəmbərlər və Məhəmməd peyğəmbərin (s) ətrafının misalında bu təsdiq olunur. Sənətkarlıq və ticarətdən gələn vəsait dövlət maaşından təmizdir. İ., özünü Allah səxavətindən təmin etməkdən imtina edən möminlikdən yaxşıdır, pəhrizlə özünü öldürmək də hər cür qətl kimi günahdır.

Fəqihlərin çoxunun mənşələrini aldıqları varlı şəhərlilərin dünyagörüşlərini əks etdirən bu mövzular ilk dəfə Əbu Hənifənin şagirdi Məhəmməd əş-Şeybani (vəf. 805) tərəfindən Əl-İqtisab fi-r-rizq əl-mustətəb əsərində dəqiq izah edilib. Erkən sufi müəllifləri elə həmin prinsiplərə əsaslanaraq sənətkarlığa, ticarətə üstünlük verirdilər (müq. et. Məkki. Qut əl-qulub). Bu problemə münasibət müxtəlif fəqihlərin sinfi mövqelərinin aydınlaşdırılmasında ən etibarlı meyarlardan biridir. IX əsrdən başlayaraq İ.-a münasibət hənbəlilər və sufilər arasında yaranan fərqlərin əsas bəndlərindən biri oldu (bax: məs: əl-Mühasibi. Kitab ət-təvəhhüm. Bu problemə İbn əl-Cözi də (vəf. 1201) özünün Təlbis İblisində böyük diqqət vermişdir).

**Ədəbiyyat:** İslam, 94; C.D.Goitein. The rise of near eastern bourgeosie in early islamic times. - Cahiers d`historie mondiale. P., 1957, 3; yenə o. Yenə orada – Studies.

**İlhad («sapma», «uzaqlaşma»)** – mübahisəli ədəbiyyatda geniş surətdə istifadə olunan ilahiyyat istilahı. Quran (7:180/179; 22:26; 41:40) və hədislərdə bu istilah «təfriqəçilik», «geri çəkilmə», «qadağanın pozulması» mənasında istifadə olunur. Quran şərhçiləri Allahın «gözəl adlarının» müqəddəsliyinin pozulması, Onun atributlarının düzgün şərh edilməməsi və s.-ni İ.-a yazırlar. Erkən islam dövründə İ. istilahı zəndəqə istilahının sinonimi (bax: zındıq) olmuşdur. IX əsrdə hər bir «yenilik» (bid`ə) və ya adi sünni təlimi ilə «razı olmama» sünni ilahiyyatçıları tərəfindən İ. kimi qiymətləndirilirdi; İ.-da günahlandırılanları məlahidə və ya mülhidun (təki mülhid) adlandırırdılar. Mülhid istilahı söyüş – «murdarçı», «Allahsız» mənasını verirdi. Əl-Kəbədən «qara daşı»

oğurladıqlarına görə Bəhreyn qərmətlərini İ.-da günahlandırırdılar. Müqəddəs yerdə qadağaları pozan (mülhidun) Allahın ən çox nifrət etdiyi üç nəfər haqqında hədisə uyğun olaraq sünni ilahiyyatçıları islamda üç «ən nifrət doğuran mülhidi» (mülhidun) müəyyən etməyə cəhd edirdilər. Hamıdan çox bu «şərəfə» öz «dəyişkən» ilahiyyatçı görüşləri ilə məşhur olan İbn ər-Ravəndi (vəf. X əsrin əvvəli), məşhur həkim Əbu Bəkr ər-Razi (vəf. 912), «Peyğəmbərlərin kələkləri» əsərini yazmış və çox məşhur olan nasir Əbu-l-Əla əl-Mə′arrı (973-1057) nail olmuşdular.

Mübahisəli ədəbiyyatda İ.-a dini qanunda «zahiridən», «aşkarlıqdan» (əz-zahir) «sapmağı» və onda «məxfiliyi» (əl-batin) dəstəkləməyi aid edirdilər. Bu məsələdə hamıdan əvvəl «məxfiliyin həqiqiliyini» və «zahirinin yalançılığını» təbliğ edən sufiləri və kəşf mənasında «məxfilik» biliyinə iddiaçılar olan ismaililəri günahlandırırdılar; axırıncıları çox vaxt batinilər və məlahidə (mülhidun) adlandırırdılar.

**Ədəbiyyat:** İslam, 96; Wensinck. Concordance. 6, 95; Bədəvi. Əl-İlhad; Amoli. La philosophie, 217, 238.

**İlham** - (əlhəmə - «təlqin etmək» felindən olub) ilahi təsir, ilham vermə deməkdir. Müsəlman ilahiyyatında İ. haqqında görüşlərin meydana gəlməsi görünür VIII əsrin sonu - IX əsrin əvvəlinə, İslamın əhkam sistemində yaranması əməliyyatında (prosesində), bölünməz Quran məfhumu olan vəhydən («kəşf») İ. məfhumunun («ilham») parçalanması dövrünə aiddir. Quranda əlhəmə feli bir dəfə qeyd olunub (91:18), orada Allahın hər bir insana «azad fikirli və Allahdan qorxmağı» təlqin (əlhəmə) etməsi haqqında danışılır. Ət-Təbəri bu ayəni iki cür izah edir: a) Allah bunu qəlbə başa salır; b) Allah bunu qəlbdə yaradır. Mötəzililər birinci şərhi üstün tuturdular, onların opponentləri isə dini nüfuzların əksəriyyəti tərəfindən qəbul edilən, sayılan ikinciyə üstünlük verirlər.

Quranda əlhəmə feii «hər bir kəsə» aid edilir, buna görə də müsəlman ilahiyyatının inkişafı gedişində İ. istilahı fərdi insana, valiyə («müqəddəsə») nazil olmuş və peyğəmbərlər vasitəsilə ümumiyyətlə, bütün adamlar üçün xəbər verilən vəhy-kəşf istilahından fərqli olaraq hər şeydən əvvəl insanın özü üçün qiymətli olan dini ruhlanma, nurlanmanı bildirmək üçün istifadə olunmağa başladı. Bunu daha dəqiq əl-Qəzali izah etmişdir.

İ. dar mənada vəhy istilahının sinonimi ola bilər. Belə ki, əz-Zəməxşəri kəşf Allahdan olanda Quran istilahı vəhyi İ. istilahı ilə və o, əgər vasitəçi vasitəsilə xəbər verilmişdirsə onu «irsəl» istilahı ilə izah edirdi. İ. istilahı «İblisin azdırması» mənasını verən vəsvəsə istilahına əks qoyulur. Məzmununa görə İ. ‘ilm aqli - «əqli bilik» istilahından fərqlənir, çünki İ. düşüncə və əqli nəticəyə gəlmək yolu ilə əldə edilə bilməz. Bu axırıncı fərq xüsusilə də mötəzililərin əsərlərində qeyd olunur.

Əş'ərilər öz mübahisələrində mötəzililərdə olduğu kimi İslamda mistik təmayülün nümayəndələri ilə də biliklərin növləri arasında İ.-ın yerini müəyyən etməyə cəhd edirdilər. Əl-Bağdadi rasional və emprik biliklər və Allah qanunu biliyi ilə yanaşı İ.-ı ayrıca növə ayırır. Əl-Bağdadiyə görə İ. instinktiv bilikdir. Əl-Cahiz, İbn Həzm və İbn Xəldunda İ. istilahının «instinkt», «təbiət» mənaları vardır. İbn Həzm İ. istilahını Quranın (16:68/70) ayələrinin şərhində istifadə etmişdir, orada arıların inşaatçı instinktləri haqda danışılır.

İ. haqqında görüşlərin daha çox inkişaf tapdığı sufi konsepsiyasına görə İ. Allah tərəfindən möminin qəlbinə göndərilmiş işıqdır (ət-Tirmizi). Ancaq İ.-ın sayəsində insan Quranın məxfi (batin) mənasını başa düşə bilər. Beləliklə, sufilik İ. almağa qadir insanların sayını ciddi surətdə artırdı. İ. haqqında şiə görüşləri sufi görüşlərinə yaxındır. Onlara görə İ. məfhumunun birinci növbədə övliyalarla deyil imamlarla əlaqəsi vardır.

**Ədəbiyyat:** İslam, 96-97; ət-Təbəri. Təfsir, 30, 115; əl-Bağdadi. Üsul əd-din, 14-15; əl- Qəzali. İhya, 3, 22; Əl-Kəşşaf an haqaiq ət-təzil va uyun əl-aqavil fi vucuh ət- tə vil li….əz-Zəməxşəri. Misir - Bulaq, 1318h.; əl-Beydavi. Təfsir, 2, 405; Nwyia. Exegese, 154-156; Jadaane. Revelation; Wanshrough. Studies, Index; D.B.Macdonald. İlham.- EI, NE, 3, 1119-1120.

**<u>İlyas (ərəb. İlyasin)</u>** – Quranda surət, peyğəmbərlərdən biri olan Bibliya İliyası. O, Quranda dindar (saleh), mömin, göndərilmiş (mürsəl) peyğəmbərdir. Nəql edilir ki, o, öz əqrəbasını yığıb, onları Baala təzim etməkdən imtina etməyə və Allaha inanmağa çağırırdı. Lakin onlar onun sözlərini yalan sayırdılar və onlar gələcəkdə bunun üçün cavab verəcəklər. İ. isə gələcək nəsillər arasında şöhrətlənəcək (6:85, 37:123-132).

Qurandansonrakı rəvayətlər İ. haqqında qeyd edirlər ki, xalq ona qulaq asmayıb, onun dalınca getməyiblər. Allah yağışı ona tabe etmişdi, sonra isə onu göylərə qaldırdı və o, orada yarı insan, yarı mələk oldu. Başqa bir «ölməz» - əl-Xıdır ilə İ. daim dünyanı səyahət edir, o, ölməzlik bulağının yanında olmuşdur, müntəzəm olaraq Qüds (Yerusəlim) və Məkkəyə gedirdi. İ. və əl-Xıdır peyğəmbərlər ayrılarkən bir-birlərinə xoş (xeyirli) sözlər deyib, onları təkrar edirlər ki, insanlar onların köməyilə oğurluq, yanğın, sel, zəhərli ilanlar, həşəratların sancması və s.-dən qorunsunlar. Bəzən İ.-ı əl-Xıdır və ya «ölməz» İdrislə eyniləşdirirlər. Bəzi Quran şərhçiləri adəti olduğu kimi əl-Xıdırı deyil, İ.-ı Qurandakı Musanın tarixində qeyd olunan «Bizim qullardan olan qulda» görürlər (18:60/59-82/81). Yəhudi variantının eyni süjetində İliya fəaliyyət göstərir.

Quran hekayələri İ.-ın öz xalqına etdiyi möizə haqqında qeydi aşağıdakı sözlərlə qurtaran qısa təriflərdə yerləşdirir: «Biz özümüzdən sonra nəsil

qoyduq, ona [salam] olsun; İbrahimə (və ya Musaya və ya İlyasinə və s.) salam olsun!)». Ba'aln xatırlanması Bibliya hekayəsinin (1-ci Çar [3-cü çarlığın], 18), ola bilsin xristian forması ilə bağlılığına işarədir. Lakin o, Quran üçün standart olan öz xalqları tərəfindən qəbul edilməyən peyğəmbərlər haqqında tarixin sxemi üzrə yaradılıb. Quran qeydlərinin şərhi üçün İliya haqqında müxtəlif yəhudi və xristian hekayələri istifadə olunub. Onların içərisindən gələn göylərə qalxmaq motivi İ.-ı müsəlman mifologiyasında dirilmə və əbədi həyat rəmzlərindən biri, xalq inanclarında məşhur şəxs etmişdir.

**Ədəbiyyat:** İslam, 94-95; ət-Təbəri. Tarix. 1, 415, 450; yenə o. Təfsir, 7, 172-173; əs-Sə'ləbi. Qısas, 142-144; əl-Beydavi. Təfsir, 1, 298; Speyer. Erzählungen, 406; Paret. Kommentar, 146; Beltz. Sehnsucht, 128; AJ.Wensinck. İlyas. – EI, 2, 501-502; A.J. Wensinck. [G.Vajda]. İlyas. – EI, NE, 3, 1184-1185.

**İmam** - (cəmi əimmə; əmmə – «qabaqda qalmaq» «qabaqda olmaq», «qabaqda getmək», «nəyə isə rəhbərlik etmək», «başçılıq etmək» felindəndir) – namazda başçılıq edən ruhani rəhbər, müsəlman icmasının başçısı. Gündəlik həyatda, məsciddə, ümumi (camaat) namazına başçılıq edəni İ. adlandırırlar. İ.-ın vəzifələrini eyni adam yerinə yetirə bilər, lakin İ. (istilahın bu mənasında) nə mənsəb, nə də sənətdir: İ. ancaq həqiqətən namaza başçılıq etdiyi üçün onu belə də tanıyırlar. Məhəllə və kənd məclislərində İ. adətən ən adi ilahiyyat təhsili olan adamlar ola bilər. Came məscidlərinin İ.-ı isə xüsusi ilahiyyat təhsilli olmalıdır və möminlərin nüfuzunu qazanmalıdır.

İslamın ilk illəri İ.-ın pişnamaz kimi işini Məhəmməd peyğəmbər (s) özü yerinə yetirirdi, onun vəfatından sonra isə – xəlifələr. Məhəmməd peyğəmbər (s) və ilk xəlifələr təkcə pişnamaz deyil, həm də eyni zamanda icmanın başçıları olduqlarına görə İ.-xəlifə əslində ali ruhani və siyasi nüfuz idi. Buradan da nəzəri cəhətcə vahid müsəlman icmasında İ.-ın ali ruhani və dünyəvi hakimiyyət daşıyıcısı olduğu haqda baxışlar yayılmışdır. Qanuni imamın məhz kim sayıldığı və onun hakimiyyətinin nədən ibarət olduğu haqda mübahisə müsəlmanların sünni və şiələrə bölünməsinin əsasında yerləşir. Sünni konsepsiyasına görə ali hakimiyyətin və bütün müsəlmanların İ.-ı xəlifədir. İ.-ın – xəlifənin əsas vəzifəsi – dini qanunların prinsiplərini icmanın həyatına düzgün keçirməyə nəzarət etməkdir. Sünnilər və həm də xaricilər hesab edirlər ki, İ. icmanın müvəkkili olub, nəzəri cəhətdən bütün icma tərəfindən, əslində isə onun nümayəndələri tərəfindən seçilir və ya əvvəlki İ. tərəfindən təyin olunur.

Şiə doktrinasına görə İ.-ın ali hakimiyyəti yuxarıdan gəlir, ona görə də o, insanların arzusundan asılı deyil, d.d., İ. seçilməli ola bilməz (İ.-ın

seçilməli olmasına ancaq zeydilər razı olurdular). İ.-ın seçilməli olduğu prinsipini əvvəldən rədd edən şiələr deyirdilər ki, müsəlman icmasının və dövlətinin ali hakimiyyəti Əli nəslində irsidir, çünki Ələvilərin haqqı ilahi təyinatı ilə müəyyən edilmişdir. İlahi təbiətinin gücü ilə şiələrin İ.-ı öz hakimiyyəti ilə dinin məxfi tərəflərini bilmək imkanına malikdir, bunları Peyğəmbər (s) ancaq Əliyə (ə) açdı, o da atadan oğluna verilir. İrsiliyin və dini ənənələrin təmizliyi qarantı kimi o, günahsız olmalıdır. Şiə dini təliminə görə İ. üç vəzifə yerinə yetirir: 1) qanuni İ. islam icmasının hakimi, camaatın işlərini idarə etməkdə Peyğəmbərin (s) varisidir; 2) o, dini biliklər və hüquqların şərhçisi, Quran və hədislərin şərhində son söz deyən nüfuzdur; 3) o, insanları şeylərin gizli mənasını başa düşməyə aparan ali ruhani nüfuzdur. Beləliklə, İ.-ın hakimiyyəti təkcə insanların dünyəvi və ruhani həyatına deyil, həm də «görünməz» aləmə (aləm əl-qeyb) yayılır. İ.-ın yerdəki və kosmik vəzifələri, onun mütləq günahsızlığı şərtsiz olaraq ona tebe olmağı tələb edirdilər. Şiə İ.-larının icbari idarəetmə sistemi olmadığına görə qeyd etmək lazımdır ki, onların könüllü tanınması «Peyğəmbər (s) ailəsinin» nüfuzuna, İ.-lara və onların missiyasına inanma, onların hakimiyyətinin «ilahi» təbiətinə inanma inamına əsaslanmışdır. İlahi sərəncamın icraçısı kimi İ.-lar hər hansı əlavə hakimiyyət mənbəyinə möhtac deyillər, sünnilər üçün isə bu, məsələn icma – kollektiv («icmavi») iradənin formal təbiridir. Ali hakimiyyətin ilahi təbiətindən çıxış edərək şiələr ilk əvvəldən öz İ.-larını Allahın yer üzərində yeganə qanuni və tam hüquqlu nümayəndələri hesab edirlər. Şiə İ.-ları Allahın canişinləri, Allaha yaxınlaşmaq üçün «alaqapı», peyğəmbər (s) biliklərinin varisləridir. Lakin Ələvi tayfasının təbii parçalanması ilə əlaqədar olaraq ali hakimiyyətə potensial iddiaçıların sayı artırdı. Şiələr Əli nəslinin müxtəlif qollarının üzvlərini İ. rolunda qəbul edən cərəyanlar və icmalara parçalandı. Zeydilər, ismaililər, imamilər və «qatı» şiələr ali hakimiyyətin ötürülməsi prinsipi, İ.-ların hüquq və vəzifələrini, İ.-ın keyfiyyəti, onların hökmranlıq edən sülalə ilə əməkdaşlığının mümkünlüyü, onların «ədalətsiz» hakimlərə münasibəti və s. məsələləri müxtəlif cür şərh edirdilər. Çoxları üçün hazırda Əli nəslindən olan (canlı-diri) «görünən» İ. yoxdur. Onların tamhüquqlu nümayəndələri şiə dini nüfuzları – «din adamları»dır (ricəl əd-din).

İ. istilahı şiələr və sünnilərdə həm də böyük dini nüfuzların, böyük icma rəhbərlərinin, ilahiyyatçı məzhəblər və məktəblərin fəxri adları rolunda istifadə olunur (Əbu Hənifə, əl-Əş'əri, Xomeyni və s.).

**Ədəbiyyat:** İslam, 97-98; Handwörterbuch, 206-208; W.Madelung. İmama. – EI, NE, 3, 192-1198; bax, əl-imam məqaləsi haqqında ədəbiyyata.

**Əl-İmamət** – dünyəvi və ruhani hakimiyyətinin çulğaşdığı müsəlman icmasının ali rəhbərlik institutu. İcmada başçılıq və hakimiyyət problemi - İslamın nəzəri və təcrübi mərkəzi problemi olmuş və olaraq qalır. Məhz hakimiyyət problemi müsəlman icmasını, sonra isə bütün müsəlman aləmini sünnilərə və şiələrə bölünməsinə gətirib çıxardı. Hakimiyyətin təbiətinin şərhindəki fərq vaxt keçdikcə ali hakimiyyətin iki müxtəlif prinsipial doktrinasında formalaşdı. İ. haqqında təlim şiəliyin əsas ehkamlarından biri oldu. İ.-in şiə məzhəbinin sünni və xaricilərinkindən prinsipial fərqi odur ki, şiələr İ.-i insanların istəyindən asılı olmayan və ancaq Əli (ə) nəslinə aid olan «ilahi sərəncəm» adlandırırlar. İ.-in zəruriliyinin əsas müddəaları, onun ilahi təbiəti və onun Əli (ə) və Fatiməyə (ə) aid olduğunu şiə ilahiyyatçıları Quran və hədislərdən götürmüşlər, burada onlar ayrı-ayrı Quran ibarələrinin alleqorik şərhindən istifadə etmişlər. Ali hakimiyyət haqqında şiələrin görüşləri icmaya ilahi rəhbərliyin - «ilahi substansiyanın» keçdiyi Ələvilər vasitəsilə davam etdirilməsi baxışlarından irəli gəlmişdir. Şiələrin indi də təbliğ etdikləri ali hakimiyyətin ilahi təbiət ideyası müxtəlif vaxtlarda dini düşüncənin müxtəlif formalarında qəbul edilirdi – Əli nəslinə «ilahi nurun yerləşdirilməsindən» tutumuş, Əli və onun nəsillərinin birbaşa ilahiləşdirilməsinə qədər. Əlinin (ə) ilahiləşdirilməsi ideyasını əsasən «qatı» şiələr təbliğ edirdilər, lakin ələvi imamlarının özləri bu ideyanı rədd edib, onların təbliğatçılarını kəskin mühakimə edirdilər. İmamların birbaşa ilahiləşdirilməsini rədd edən şiələr (zeydilərdən başqa) İ.-in «ilahi mahiyyətini» fanatikcəsinə müdafiə edirdilər. Müxtəlif tarixi şəraitin təsiri altında (o cümlədən Əli nəsli içərisindəki parçalanma) şiələr arasında İ.-in müvəqqəti saxlanması, dayandırılması (vaqf), axırıncı imamın «yox olması» və ya «gizli halı» (əl-qeybə, əs-sətr), gözlənilən imamın əl-qaim, əl-mehdi və s. rolunda «qayıtması» (ər-rəcə) nəzəriyyəsini təbliğ edən çoxsaylı icmalar yarandı. Ələvilərin hər bir qolu (zeydilər, ismaililər, imamilər), həm də «qatı» şiələr İ.-ə öz iddiaçılarının hüquqlarını müdafiə edərək İ. haqqında təlimə öz görüşlərini gətirirdilər, bunlar isə sonda şiə islamı içərisində əhkam ayrılığına gətirib çıxarırdı.

IX əsrdən başlayaraq şiə məzhəbi antik fəlsəfə və xüsusilə də yeni platonçuların ideyasının təsiri altında inkişaf etməyə başladı. Dünya idrakını (aql əl-kull) ilk yaradıcı qüvvə, onun şüalanmasını isə Dünya Nəfsi (nəfs əl-kull) qəbul edən şiələr bu kosmik prinsipləri Dünya (Yer) həyatına keçirib, yerdə kosmosun simvolik (rəmzi) şəklini (kopiyasını) yaratdılar. Bu sistemdə Peyğəmbər (s) «kamil insan» (əl-insan əl-kamil), təşkil və idarə edən qüvvə daşıyıcısı, Dünya İdrakının insan ipostası (mücəssəməsi) kimi, İ. isə Dünya Nəfsinin insan mücəssəməsi, insanlığın ruhani rəhbəri kimi qəbul edilir. Şiə Səfəvilər sülaləsinin İranda (XVI əsrin əvvəlində)

qələbəsilə İ. doktrinası sonrakı inkişafına başladı. (Yeri gəlmişkən qeyd edilməlidir ki, artıq XI əsrdə İ. ideyası tam formalaşmışdı). Arası kəsilməyən bir sıra imamlar məxluqun müstəqil silahı olan ən mühüm kosmik qüvvə, rəhbərliyin əbədi ilahi nurunun daşıyıcısı kimi tanındılar. Peyğəmbərliyə ikinci dərəcəli rol ayrıldı: əbədi din haqqında epizodik xəbərlər verilirdi. Bu doktrinaya görə imamlar bir şəxsiyyət kimi İ.-in əbədi ilahi ruhundan tamamilə asılı deyillər. Yuxarıda qeyd edildiyi kimi İ.-də ismaililər, zeydilər, qatı şiələr və s. kimi müxtəlif qruplar var idi və onların hərəsinin də başqa bir ideyası var idi. Buna görə şiə məzhəbində peyğəmbərliyə «ikinci dərəcəli rol ayrıldı» fikir yanlışdır. Eləcə də İ.-in əbədi ilahi ruhdan asılı olmaması fikri.

**Ədəbiyyat:** İslam, 98; əl-Bağdadi. Üsul əd-din, 270-294; əş-Şəhrastani. Nihayət əl-iqdam, 478-496; Amoli. La philosophie, 242-254; Handwörterbuch, 206-208; W.Madelung. İmama.- EI, NE, 3, 1192-1198.

**Əl-İmamiyyə** – imamilər, şiə məzhəbinin əsas budaqlarından biri, 12 imamı tanıyan, Əli ibn Əbutalibin nəslindən olan «mötədil» şiələr (buradan onların başqa adları da var – əl-isnə'aşəriyyə). Əl-İ.-nin ideya sələfləri o şiələr idi ki, onlar belə təbliğ edirdilər ki, «ilahi sərəncamının» qüvvəsi ilə imamət ancaq Əli (ə) nəslinə aiddir və o, (ilahi sərəncamı) «aydın göstərişlə» (ən-nass) Peyğəmbərin (s) və ya əvvəlki imamın ağzından eşidilmə yolu ilə ötürülür. Bu rəyin tərəfdarlarını müxtəlif dövrlərdə müxtəlif cür adlandırıblar: əvəllər şiələr və ya turabilər (Əbu Turab-Əlinin (ə) ləqəbidir), sonralar - cə'fərilər və rafiilər.

«İmamilər» istilahı güman ki, IX əsrin əvvəlində meydana gəlmişdir: ilk İ. şiə ilahiyyatçıları Əli b. İsmail ət-Təmmar və Məhəmməd b. Xəlil əs-Səqqak adlanmışlar. 11-ci imam əl-Həsən əl-Əsğərinin (ə) vəfatından sonra (Səmərrada 873-874-cü ildə vəf. etm.) imamətin birbaşa ötürülməsi tərəfdarları özlərinin 12-ci imamları kimi onun oğlu azyaşlı Məhəmmədi qəbul etdilər, lakin o tezliklə «qeyb oldu» və ya «itdi». O, «gizli» imam və «gözlənilən» Mehdi elan olundu, o qayıdıb gəlməli və dünyanı ədalətlə doldurmalıdır. IX əsrin sonuna şiə imamlarının «mülayim» tərəfdarları (o dövrdə rafii şiələrinin dağılmış və qeyri-müəyyən qruppaları 12 imam haqqında təlimin əsasında mütəşəkkil surətdə birləşdilər. Bu birləşmədən sonra 12 imam haqqında təlimin tərəfdarlarını (əl-isnə'aşəriyyə) İ. adlandırmağa başladılar.

Şiə – əl-İ.-nin tarixində üç böyük mərhələni ayırmaq olar. 940-cı ildə, dördüncü, axırıncı səfir, «gizli» imamın «ölümü» ilə başlanan «Böyük qeybə» qədər (əl-qeybə əl-kəbirə) olan erkən mərhələ. Bu dövrdə imamlar, «kiçik qeybə» (əl-qeybə əs-səğirə) vaxtı isə onların «səfirləri» (elçiləri) və ya «babları» (alaqapı) öz ardıcıllarına birbaşa rəhbərlik edirdilər. Onların

diqqətlə toplanan və qorunan çoxsaylı və müxtəlif «təlimatları» imami əhkamının işlənib hazırlanması üçün əsas material rolunu oynayırdılar. Bu mərhələnin axırına imami dini-siyasi doktrinası ümumi cizgilərdə izah olunmuşdur. Bu doktrinanın həyatiliyi haqqında əl-İ.-nin siyasi müvəffəqiyyətləri şəhadətlik edirlər – imami büveyhilər sülaləsinin İranda (932 və İraqda (945) qələbəsi.

Növbəti mərhələ – imami ehkamının işlənib hazırlanması və kodifikasiyası idi, bu vaxt şiə rəvayətlərinin ən böyük külliyyatları tərtib edilir, ilahiyyat, hüquq, ekzeqetika, imamətin nəzəriyyəsi haqqında fundamental əsərlər yazılırdı. İmami ilahiyyatı teosofiya və sufiliklə qarışaraq inkişaf edirdi. Əl-İ.-nin dini-fəlsəfi sisteminin işlənib hazırlanmasına bütün şiə aləmində tanınmış İbn Babuyə (vəf. 991), əl-Müfid (vəf. 1022), Məhəmməd ət-Tusi (vəf. 1067), ət-Təbərsi (vəf. 1153), Nasir əd-din ət-Tusi (vəf. 1273-74), əl-Əllamə əl-Hilli (vəf. 1326), Heydər Amulı (vəf. 1385) kimi nüfuzlar mühüm paylarını vermişlər.

Üçüncü dövr XVI əsrdən başlayır, bu vaxt İranda imami məzhəbi şiəliyi dövlət dini kimi elan olundu. Bu şərait imami alimlərinin ruhani fəaliyyətinin fəallaşmasına imkan yaratdı, xüsusilə də din, fəlsəfə və hüquq sahələrində. İmami fəlsəfəsinin inkişafına hiss olunan əməyi Mir Daməd (vəf. 631-32) və Molla Sədra (vəf. 1640) sərf etmişlər. XIX əsrdə imami islamı daxilində güclü babi-bəhai hərəkatı yarandı, onun baniləri məsihi ideyalarını istifadə edərək İslamı islahat yolu ilə yeniləşdirmək istəyirdilər.

İmami dini təlimi beş «prinsipə» və ya «dini əsasa» (üsul əd-din) mülhəqdir: 1. Təkallahlıq haqqında təlim (ət-tövhid); 2. İlahi ədalət haqqında təlim (əl-ədl); 3. Məhəmməd peyğəmbər (s) və əvvəlki peyğəmbərlərin peyğəmbərlik missiyalarının (ən-nübüvvə) qəbul edilməsi; 4. Məada (ölünün dirilməsi), Qiyamət günü və o Dünya həyatına inanılması; 5. İmamətlik təliminin qəbulu. I, III və IV əhkamlar mahiyyət cəhətcə İ.-lər və sünnilər üçün eynidir. İlahi ədalətin başa düşülməsində onlar arasında bəzi fərqlər vardır. Təkcə imami islamının əsas əhkamı olan imamət haqqında təlim sünni ali hakimiyyət doktrinası ilə radikal surətdə ayrılır. İmami dini-siyasi doktrinasının əsasında ali hakimiyyətin ilahi təbiəti haqqında görüşləri yer tutur. İmami ilahiyyatçıları imaməti «ilahi sərancam» və peyğəmbərliyin davamı kimi qiymətləndirərək ondan çıxış edirlər ki, ilahi kəşfin iki nöqteyi-nəzəri var: zahiri və daxili (batin) - Peyğəmbərin (ə) vəfatı ilə «peyğəmbər dövrü» (dairət ən-nübüvvə) bitir, orada o, eyni zamanda həm ilahi kəşfin daşıyıcısı, həm də onun «daxili» mənasının şərhçisi kimi çıxış edirdi, sonra isə «imamət dövrü» başlayır (dairət əl-imamə və ya dairət əl-vilayə), bu peyğəmbərlik vəzifəsinin (rolunun) ezoterik davamı-dinin «daxili» mənasının açılması idi. Bu, istər-istəməz Əli (ə) nəslindən-imamətin daşıyıcıları olan imamların tam

günahsız olduqları və fövqəltəbii biliklərə malik olduqları haqqında baxışlar doğurdu və bunun nəticəsində dünyəvi həyat və dini məsələlərdə onların şübhəsiz nüfuzları tanınır (qəbul edilir). Bu doktrinanın ayrılmaz hissəsi «gizli imam», «sahib əz-zaman», Mehdi haqqında təlim oldu, İ.-lər Quranın əsil mənasının açılmasını, təkallahlığı, ilahi ədalətin tərkibində olan ideal vəziyyətlərin doğrulmasını onun gəlişi ilə bağlayırlar.

Nəticədə, imami ilahiyyatçıları özlərinin dini-fəlsəfi doktrinasını yaratdılar, orada imamət ən mühüm kosmik qüvvə, əbədi ilahi nurun şüası, imam isə ilahi yazının icraçısı, ali ruhani rəhbər, qütb və ya ətrafında həyatın sferasının fırlandığı «ox» kimi çıxış edir.

Sünni məzhəbinin fikrincə imamətin imami doktrinası uzun əsrlər boyu İslamın təcrübəsinə əks olan ideal model olaraq qalırdı. Əslində isə ali hakimiyyətin ruhani və dünyəvi hakimiyyətə bölünməsi əməliyyatı (prosesi) gedirdi. Şiə məzhəbinin hakimiyyətin ilahi təbiətinə söykəndiyinə görə «din adamları», xüsusilə də İranda, Allahın yer üzərində tam hüquqlu nümayəndəsi olan «gözlənilən» imam və onun icması arasındakı vasitəçi rolunu öz üzərinə götürüb, şiə imamlarının dini nüfuzunun və ruhani hakimiyyətinin varisi olmuşdular. Bu vəziyyət görünür, «din adamlarının» ətrafındakı qüvvələrin birləşməsində mühüm rol oynamışdır. Onlar şahın «dünyəvi hakimiyyətinə» qarşı «qanuni», «islam hakimiyyətini» - vilayət əl-fəqih və ya əl-hukumə əl-islamiyyə qoyurdular. Şiə ali hakimiyyətinin doktrinasının «yenilikçisi» (mücəddid) ayətulla Xomeyni və onun həmfikirləri təbliğ edirlər ki, «islam hakimiyyəti» - Allah sərəncamının (əmr Allah) həyata keçirilməsidir, o nə çar, nə şahənşah, nə də imperator hakimiyyətinə oxşayır. Eyni zamanda o – «qanuni hakimiyyətdir» (hukumət əl-qanun), onun yeganə hakimi və qanunvericisi (əl-muşərri′) Allahdır. «İslam idarəsinin» həyata keçirməli olduğu hakimiyyətin ilahi təbiətini əsas tutaraq şiəliyin müasir ideoloqları hakimiyyətin ideal modelini - İslamı din və siyasətə ayırmayan Məhəmməd peyğəmbərin (s), ilk xəlifələrin və şiə imamlarının təcrübəsini elan edirlər. Onlar «islam hakimiyyətinə» Allahın iradəsilə möhkəmlənmiş və qanuniləşdirilmiş və ona görə də pozulmayan, dinin və siyasətin bir növ «nikah əlaqəsi» kimi baxırlar. «İslam hakimiyyəti» - yeniləşdirilmiş imamət doktrinası, teokratik hakimiyyətin ideal modelini reallaşdırmaq cəhdi, islamda ruhanilik və dünyəviliyin vəhdətini dirçəltməyə çalışmağıdır.

Əl-İ.-lərin dini təcrübəsi sünnilərin təcrübəsindən az fərqlənir. Bununla bərabər İ.-lərə «şəhidlər» ayini xasdır, onlar bütün imamları, birinci növbədə isə əl-Hüseyni şəhid hesab edirlər, ona görə də (Nəcəf, Kərbəla və b.) yerlərdəki imamların qəbirlərini ziyarət etmək onların dini təcrübəsində mühüm əhəmiyyət kəsb edir.

İndi İ. şiə məzhəbinin ən çoxsaylı qoludur. Əl-İ. təlimi əhalisinin çoxu İ. olan İranda dövlət dinidir. İraqda İ. ölkə əhalisinin sayının demək olar çox yarısını təşkil edir. İmami icmalar Livan, Küveyt, Bəhreyn, Səudiyyə Ərəbistanı, İordaniya, Əfqanıstan və başqa ölkələrdə də mövcuddur. Azərbaycan Respublikasında isə şiələr çoxluq təşkil edirlər.

**Ədəbiyyat**: İslam, 98-100; əl-Əş′əri. Məqalat, 17-31; аш-Шахрастани. Книга о религиях, 143-153; 226-232; Amoli. La philosophie, 379-448; Прозоров. Доктрина; Fəyyad. Tarix əl-imamiyyə; Le shi`sme imamite; W.Madelung. İmama.- EI, NE, 3, 1195-1196.

**<u>İman</u>** – (əmənə - «inanmaq», «əmin olmaq» felindən olub-iman deməkdir və islam dininin ayrılmaz hissəsidir. İ. məfhumu İslamda əsas və mübahisəli şərtlərdən biridir. İ.-iman (din) ən geniş mənada Quranda qırx dəfədən çox işlədilir. Bu prinsipial məsələdə Quranın dərin mənalılığı müsəlmanlar içərisində fikir ayrılığını şərtləndirmişdir. Din və hüququn ayrılmaz olduğuna görə erkən İslamda «iman» problemi ilahiyyatçıları olduğu kimi hüquqçuları da məşğul edirdi. VIII əsrdən başlayaraq «iman» məfhumu müxtəlif dini-hüquqi məktəblər arasında müzakirə və fikir ayrılığının mövzusuna çevrilir. Mübahisələr «imanın» mahiyyəti və onun əsas elementləri haqqında gedirdi. Müsəlman ideoloqları İ.-ın üç əsas elementini ayırırdılar: sözlə (iqrar bi-l-lisən, qaul) Allahın həqiqiliyini, Onun göndərdiyi kitabları və elçilərini qəbul etmək; Allahın həqiqiliyini daxili razılıq və ürəkdən dərk etmək (təsdiq bi-l-qəlb və ya bi-l-cann, etiqad, əqd); xeyirxah işlər (əməl), islamın göstərişlərini (əməl bi-l-ərkən, tə′at), dini vəzifələri (fəraid) yerinə yetirmək. Erkən əhkam məktəblərindən biri mürciilər imanı sözlə qəbul etməyə (qaul) təbliğ edir, insanın əməllərini ikinci plana çəkirdilər. Onlara qarşı xaricilər, mötəzililər, hənbəlilər çıxırdılar. Onlar ilk dəfə İ.-a bütün dini vəzifələrin icrası kimi baxırdılar. Mötəzililər (xüsusilə də Əbdülcabbar) İ. və din arasında bərabərlik işarəsi qoyur, habelə dini qanuna tabeçiliyi (tə′at) birinci plana çəkir, insanın əməllərinə İ.-ın sübutu kimi baxırdılar. Mürciilər, xaricilər və mötəzililərin qatı düşməni hənbəlilər idi. İbn Hənbəl İ.-ı - Allahın həqiqiliyini şifahi qəbul etməyi (qaul), xeyirxah əməlləri sünnə ilə razılıqda olan dəyişməz şərt, onun ardınca getmək (təməssuk bi-s-sunnə) və xoşniyyət kimi şərh edir. Ənənəçilərin (əshab əl-hədis) çoxu Məhəmməd peyğəmbərin (s) İ.-ın qəlbdə bilik (mərifə bi-l-qalb), şifahi təsdiq etmə (iqrar bi-l-lisən) və sərəncamın icrası (əməl bi-l-ərkan) haqqında dediklərinə əsaslanaraq İ.-ın hər üç elementini qəbul edirdilər. Bu üç elementi əl-Əş′əri də qəbul edirdi, lakin o, Allahın həqiqiliyini qəlbən dərk etməyə (və bununla bağlı bir neçə məsələlərə) İ.-ın əsası, kökü (əsl), şifahi etiqad etməyə və dini sərəncama uyğun hərəkətlərə onun «budaqları» (furu) kimi baxırdı. Ənənəçilər

«budaqların» siyahısına itaətkarlığın bütün bəndlərini (cəmi` ət-tə'at), günahlardan, əzab verməkdən və s. icbari və könüllü qaçınmağı daxil edirdilər. Allahın həqiqilyini qəlbdən qəbul etmək də onlar tərəfindən geniş surətdə şərh olunurdu. Bu, Allahın Kitablarına, Onun mələklərinə və elçilərinə (rəsullarına), taleyə, ilahi atributlara, Qiyamət gününə və Allahın hər şeyi gördüyünə inamdır.

Dinin mahiyyətini başa düşmə dərəcəsinə görə müsəlman ilahiyyatçıları və fəqihlər imanın dərəcəsi, onun çoxalması (bu haqda Quranda çox deyilir) və ya azalması mümkünlüyü haqda məsələləri müxtəlif cür həll edirdilər. Kim itaətkarlığın bütün növünü imanın bir hissəsi və ya imanın özü ilə qəbul edirdisə o, İ.-ın çoxalması və ya azalmasını da qəbul edirdi (məs: mötəzililər). Kim İ.-ı ancaq şifahi təsdiq edirdisə (birinci növbədə mürciilər) onlar İ.-ın dəyişməzliyini, hamının İ.-da bərabər olduğunu iddia edirdilər. İ.-ın dəyişməzliyini onun yuxarıdan gəldiyindən çıxış edən kərramilər də təbliğ edirdilər. İ.-ın əsasını daxili inam, qəlbdən dərk etməklə qəbul edənlər İ.-ın azalmasını qəbul etmirdilər.

Müasir sünni ilahiyyatçıları istilahı bir az dəyişərək yenə də İ.-ı üç növə bölürlər: ənənəyə əsaslanan İ.; biliyə əsaslanan İ.; daxili inamdan olan İ. İ.-ın imami məzmunu sünnilərinkinə yaxın olaraq qalır. İsmaililər İ.-ı zahiri-şifahi qəbul etmə (qaul) və daxili (batini) – qəlbdən inama (etiqad bi-l-qəlb) bölmək ənənəsini davam etdirirlər.

**Ədəbiyyat:** İslam, 100; Əbü-l-Həsən Əli b. İsmail əl-Əş'əri. Kitab əl-lumə` fi-r-rədd alə əhl əz-zəyq və-l-bidə`. Beyrut, 1952, 75-76; əl-Bağdadi. Üsul əd-din, 247-259; аш-Шахрастани. Книга о религиях, 51-52 (göstər.bax); W.Madelung. Early sünni doktrine of faith as reflected in the Kitab al-Iman of Abu Ubayd al-Qasim b. Sullam (d.224/839). – Stl. 1970, 32, 233-254; W.C.Smtih. Fatih əs Tasdiq. – Teology, 96-119; L.Gardet. Iman. – EI, NE, 3, 1199-1202.

**<u>İncil</u>** – (həbəşcə wangel, yunanca Evayyeliov) – Evanqelie – bütün Əhdi cədidlərin adı. Quranda yazıldığı kimi İsa peyğəmbərə (ə) göndərilən kitab. İ. ilahi kitablar olan ət-Tövrat (Beş kitab) və Quranla yanaşı xatırlanır. Quran din uğrunda həlak olanların Cənnətlə müjdələri haqqında Allahın vəd verməsinin təsdiqində İ.-ə söykənir. İ. Allahın Qurandan əvvəl nazil etdiyi kitab olduğuna görə bu təbiidir. Qurana görə İ.-də Məhəmməd peyğəmbərin (s) gələcəyi haqqında qabaqcadan xəbər verilmişdi, lakin xristianlar tərəfindən İ.-in mətni təhrif edilmişdir. Bir yerdə (48:29) Quran sanki İ.-dən birbaşa sitat gətirir, möminlərin inkişaf edən və möhkəmlənən zoğla müqayisəsi. Əslində bu sitat deyil, lakin İncildən açıq-aydın müqayisələrin əks-sədasıdır (bax: Matf. 13:8, Mark 4-27; həm də Q. 3:3/2; 49/43; 65/58; 5:46/50; 47:51; 66/70; 68/72, 110; 7:157/156; 9:111/112;

57:27). Quranda həm də qanuni və apokrifik İncillərə gedib çıxan təbirlər, motivlər və surətlər, xüsusilə də Hz. Məryəm, Hz. İsa və Hz. Yəhyanın doğulması haqqında hekayələr, Hz. İsa haqqında möcüzələr vardır, onların hamısı ən çoxu şifahi formada islamaqədərki Ərəbistanda mövcud olmuş xristian hekayələrini nəql edirlər. Bizcə bu şifahi hekayələr yox, Allahın əvvəlki Səmavi kitablar və Suhuflarda verdiyi məlumatlardır. Həmin məlumatların Quranda Allahın istəyincə bu və ya başqa şəkildə verilməsi qanunauyğundur.

Orta əsr müsəlman ədəbiyyatı Əhdi cədidin mətnlərinin məlumatını əks etdirir. VIII-IX əsrlərdə İncilin Yunan, Suriya və qıbti dillərindən ərəb dilinə tərcüməsi geniş yayılır. Quran mətnlərinin və peyğəmbərlər haqqında hekayələrin şərhləri yaxşı məlum olan müfəssəl İncil hekayələri əsasında yaranırdı. İ.-ə əsaslanmalar müsəlman mübahisəli ədəbiyyatnda və doksokrafik əsərlərdə çoxdur.

**Ədəbiyyat:** İslam, 100-101; ət-Təbəri. Təfsir, 3, 111; əl-Beydavi. Təfsir, 1, 144; Andrae. Ursprung; Horovitz. Untersucungen, 71; Speyer. Erzählungen, 449-459; D.Masson. le Coran et la revelation yudeo-cretienne. P.1958; J.Jomier. Bible et Coran. P., 1959; Carra de Vaux – (G.C.Anawati). İndjil. – EI, NE, 3, 1235-1238.

**Əl-İnsan əl-Kamil** – «kamil insan». Bu istilahla bağlı məfhum Aralıq dənizi və Yaxın Şərqin qədim dini-fəlsəfi sistemlərinə gedib çıxır. İslama o, güman ki, «ruh» və «protoçelovek» haqqında qnostik və yeniplatonçu təlimlərindən sızıb gəlmişdir. Həm də İntəhasız (En-Sofun) ilk şüası Adam Kadmon haqqında kabbalist görüşlər tərəfindən olan təsir də istisna deyil. Müsəlman ilahiyyatında əl-İ. əl-K. istilahını ilk dəfə İbn Ərəbi istifadə etmişdir. Ona qədər məna cəhətcə ona yaxın istilahlar yalançı «Aristotelin İlahiyyatında» - insan əvvəl (ilk insan) və Əbu Yəzid əl-Bistamidə – əl-kamil ət-tamm («tam, kamil insan») rast gəlinir. Əl-İ. əl-K. haqqında təlimin əsasında bir tərəfdən kainat və insanın quruluşunda paralellik, o biri tərəfdən insanın Allahın bir obrazı kimi olması haqqında görüşlər yerləşir. Bu görüşləri bölüşdürən əl-Qəzali qeyd edirdi ki, insan təfəkkürü kainatın-mələkutun ali ruhani sferasına, onun ruhi qüvvələri və hissləri-orta, yarıcismani sferası-cəbəruta, fiziki xassələri isə-aşağı, maddi təbiət-mülkə uyğundur. Əl-Qəzaliyə görə insan - Quranın şərh etdiyi kimi ilahi atributların kopiyası, zəif əksidir, d.d. o, Allah kimi «görür», «eşidir», «bədən üzvülərini idarə edir» və s. Eyni zamanda Allahın insanda təcəssüm etməsinin (hulul) təbliğinin ittihamından çəkinərək əl-Qəzali ya ilahi və insani atributların eyniləşdirilməsini, onların bir-birini əvəz etməsi və insanın ilahi ipostasa çevrilməsinin mümkünlüyünü rədd edir və ya bu məsələdən yan keçirdi. Əl-İ. əl-K konsepsiyası İbn Ərəbinin təlimində

aparıcı yer tuturdu. O, hesab edirdi ki, məxluq (əl-xalq) vahid dərkedilməz ilahi Reallığın varlığının zəruri üsuludur, onun vasitəsilə o, özünü obyekt kimi elə bil kənardan (ətrafdan) tanıyır. İlahi Mütləqin bu iki tərəfinə aid olan bütün cizgiləri özündə birləşdirən əl-İ. əl-K. bu özünüdərketmədə həlledici rol oynayır. O, İlahinin onda qabiliyyət şəklində cəmlənmiş atributları gördüyü güzgü rolunu oynayır. İbn Ərəbi əl-İ. əl-K.-i həm də Mütləqin iki əks təbiətini əlaqələndirən (bağlayan) «boğaz» (əl-bəzəx) adlandırır: mənəvi və maddi. Bununla əl-İ. əl-K-in müstəsna vəziyyəti dünyada şərtləndirilir. O, yaranmışın səbəb və məqsədidir, İlahinin nəzəri ona dikilib, göydə və Yerdə mövcud olanlar, dənizlər, dağlar, çaylar və s. ona tabedir. «Kamil insanın» olması Dünyanın, varlığını qarantıdır, o, üstündə göylərin rahatca yerləşdiyi (dayaq) sütundur ('imad). Deyilənlər İbn Ərəbinin «heyvan adamlar» (insan hayavan) saydığı çox adama aid deyil.

İbn Ərəbi bəşəriyyətin və «insanlığın timsalını» «Məhəmmədin həqiqətini» (əl-həqiqət əl-məhəmmədiyyə) sayırdı. O, Allahın ilk yaratdığı əzəli qüvvə, ilahi bilikdir və ardıcıllıqla peyğəmbərlərin, elçilərin və «müqəddəslərin» (övliya) şəxsiyyətlərində həyata keçir, onların hər birində özlərinin saysız-hesabsız «həqiqətlərini» (həqaiq) əks etdirirlər. Hazırda «Məhəmməd həqiqəti» kimdə həyata keçibsə, o da əl-İ. əl-K.-dir. İbn Ərəbi tez-tez əl-İ. əl-K.-i qütblə eyniləşdirir, baxmayaraq ki, sonuncu adətə görə mücərrəd və metafizikdir.

Əl-İ. əl-K.-in «ideal şəhər», «Təmiz qardaşlar»la (İxfan əs-şəfa`) oxşarlığını görmək çətin deyil. Bu konsepsiyanın İbn Ərəbiyə təsir dərəcəsini təyin etmək hələ çətindir. İbn Ərəbinin «kamil insan» haqqında fikirlərini onun çoxsaylı ardıcılları bölüşdürürdülər. Onlar dəqiq və yığcam şəkildə, xüsusilə də Əbdülkərim əl-Cilidə izah olunmuşdur, o, qeyd edir ki, ilahilik arxetipik «Məhəmməd obrazı» (əs-surə əl-məhəmmədiyyə) vasitəsilə ilahi idrakında kamilliyə çatmış insanlarda peyda (təcəllə) ola bilər. Belə insanlarda, «konspektdə» (muxtəsər) olduğu kimi Allahın bütün adları və atributları cəmlənmişdir. Onlar həqiqətin bütün əşya və təzahürlərində vahid ilahi mahiyyəti görürlər, bu mahiyyət isə onlarda peyda olaraq özünü ətrafdan (kənardan) görür. «Kamil insanlara» varlığın ən gizli sirrləri açılır, onlar Allahın yerdəki nümayəndələri kimi fövqəltəbii biliklərə malikdirlər.

Əl-Ciliyə əsasən «Kamillərin ən kamili» (əkməlül-kumməl) Məhəmməd (s) idi. Əl-İ. əl-K. təlimi «filosof» sufiliyinin təsirini üzərlərində hiss edən sufilər kimi şiə filosoflarının da bir hissəsi arasında geniş yayılmışdır. Fərq ancaq onda idi ki, birincilər əl-İ. əl-K.-i sufi iyerarxiyasının ali «müqəddəsləri» ilə (əl-qütb) eyniləşdirir, ikincilər isə onu «gizli imam» sayırdılar.

**Ədəbiyyat:** İslam, 101; ət-Tirmizi. Xətm, 505; əs-Şöhrəverdi. Məcmu'ə, 2, 11-13; İ.Ərəbi. Fusus, 1, 89, 145, 152; yenə o. Əl-Fütuhat, 1, 118-120, 123-125, 152; yenə o. Əl-Fütuhat, 1, 118-120, 123-125, 3, 417, 458; əl-Cili. Əl-İnsan; И.А.Агаев. Человек, вера и знание в Философии Чистых братьев. – Философия зарубежного Востока о социальной сущности человека, М., 1986, 79-87; Jabre. La motion, 89-90; İzutsu. Study, 1, 216; R.W.Austin. İntroduction. – İbn Arabi. Bezels, 34-35; Bawering. Müstical Vision, 293; R.Arnaldez. Al-Insan al-Kamil. – EI, NE, 3, 1271-1273; bax, qütb haqqında məqaləyə.

**İqāb (cəmi-iqabāt; sinonimləri uqubə, əzab, cəza, nəqal)** – cəza - fiqhin ən mühüm kateqoriyalarından biri. Qanunların pozulması ortaya çıxarkən İ. ancaq qanuni surətdə, daha doğrusu hakimin hökmü, imamın, qazi və ya qanuni hökm verən və ya ictimai intizama baxan şəxsin göstərişi ilə verilməlidir. Cəzaların adları demək olar ki, bütünlüklə islamaqədərki qanunvericilikdən götürülmüşdür. Bütün cəzalar aşağıdakılara bölünürlər: ölüm cəzası – məqsədi cəmiyyəti canidən tam ayırmaqdır; ictimai hissi qane etmək üçün olan qisas cəzası; qabağını kəsmək cəzası – bunun sayəsində gələcəkdə qanun pozuntuları imkanı azalır; ibrətverici cəza, bu əsasən qanun pozucusunun özünə təsir edib, onu qanunu pozmaqdan saxlamalıdır. Cəzaların yerinə yetirilməsi üsullarına görə onlar bədən cəzasına, azadlıqdan məhrum etmə və (doğma yerindən) qovma cəzasına, cərimələrə, ictimai təsirə və tövbə etməyə bölünür. Cəza ciddi olaraq cinayətin ağırlığına uyğun olmalıdır. Ölüm cəzası (qətl) islama qarşı silahla çıxış etmək, daha doğrusu qiyam və ya dindəndönməni təbliğ etmək üçün verilir. Əgər tutulmuş cani tövbə etsə ölüm cəzası daha yüngül cəza ilə əvəz edilir. Ölüm cəzasına həm də qatil məhkum edilir, xüsusilə də qətl əgər soyğunçuluqla törədilibsə. Əgər cani tutulana qədər özü gəlib günahını boynuna alarsa onu cəzalandırmırlar (yəqin ki, bu zərərçəkənin adamının razılığı ilə yerinə yetirilir), lakin o (cani), kompensasiya (diyə) verməli və tövbə etməlidir. Ölüm cəzası adətən boyunun arxa tərəfdən kəsilməsi, asmaq, dörd yerə şaqqalamaq və s. ilə yerinə yetirilirdi. Hazırda bu güllələməklə həyata keçirilir. Ölüm cəzasının xüsusi bir növü də ailə nadürüstlüyü (zina) üstündə cəzadır – daş-qalaq etmək (rəcm).

Qisas cəzası (qisas, qavad, sa`r) insanın həyatı və sağlamlığına qarşı ağır cinayətlərə görə verilir: qətl, şikəst etmə, zəhərləmə və s. belə cinayətlərə görə cəza gözə-göz prinsipi əsasında verilir, lakin əgər bununla daha böyük zərər dəymirsə. Belə hallarda və həm də əgər qətl və ya əzilmə qəsdən edilməyibsə kompensasiya (diyə) verilir. Qətl əmrlə və ya məcburi yerinə yetirilibsə, əgər qətli yerinə yetirən sifarişçi ilə hər hansı asılılıqla bağlıdırsa, qatil qətlə əmr edən sayılır. Əgər cinayət təhrikçilərlə edilibsə,

qatillə təhrikçi məsuliyyəti bölüşdürürlər. Zərərçəkən və ya onların qohumları caniləri bağışlayarlarsa qisas cəzası ləğv oluna bilər.

Qabağını alma (hədd) cəzası bütün cəmiyyətə zərər verən ağır cinayətlər və qanun pozuntusuna görə aşağıdakı hallarda verilir. Əgər hakim canini edam etməyi lazım bilməyibsə, dindən üzdöndərmə və qiyama görə; təhqir etmə və açıq surətdə qəbul olunmuş mərasimləri pozmaq üçün; ağır nəticələrə səbəb olan andiçmə və yalandan şahidlik etmək üçün; təhrik etmə və qanunları pozmaq üstündə; qanunsuz cinsi əlaqə üstündə, əgər tutulanlar kəbində deyillərsə; zorlama, sərxoşluq, içirtmə və ehtiraslı oyunlara cəlbetmə üstündə; dələduzluq və buna oxşar qanun pozğunluğu üstündə; Hədd cəzası – qamçı və ya çubuqla 40-dan 100-ə qədər zərbə vurmaqdır. Ölümlə nəticələnməkdən qaçınmaq üçün günahkar cəzasını bir neçə dəfəyə ala bilər. Hakimin qərarına görə hədd cəzası zərbələrin sayının artırılması, cərimə, azadlıqdan məhrum etmə və yerli adətlərlə bağlı başqa mümkün olan cəzalarla ağırlaşdırıla bilər.

İbrətverici cəza (təsir) hökumətə tabe olmamaq, ictimai qaydaları pozmaq, başqasının əmlakından bilə-bilə istifadə etmək, kiçik dələduzluq, ticarət qanunlarını pozmaq və başqa kiçik aidiyyəti olan qanun pozuntuları. Tə`zir-qamçı və ya çubuqla (5-dən 39-a qədər) zərbə vurulması və ya altı ay müddətində həbsə salmaq, ya da evdə həbs etmək, yaxud pul cəriməsi, ya da ictimai öyüd verilməsidir.

Zərərçəkənə böyük ziyan dəyməzsə bazardakı oğurluq bir neçə zərbə ilə cəzalandırılır və ya ümumiyyətlə bağışlana bilər. Əgər oğurluq artıq peşəkar səviyyədədirsə, oğruya cəza hədd verilir. Təkrar cinayət sol biləyin kəsilməsi ilə cəzalandırılır.

Sayılan təsir tədbirləri ilə yanaşı törədilmiş vəzifə cinayətinə qarşı əmlakın müsadirəsi tətbiq oluna bilər. Hər hansı bir hədd cəzasına elə o andaca təsir cəzası əlavə oluna bilər, bundan əlavə o, cəzanın bütün dərəcələri hüdudunda ağırlaşdırıla bilər.

Hər bir cəza qanun pozucusunun peşmançılığını nəzərdə tutur. Əgər o pis işdə davam etsə, onun cəzası təkrar olunur. Əgər o, tövbə edərsə, kəffarə verməli idi ki, onu da hakim təyin edirdi (iki ayadək oruc tutmaq, uzun müddət cinsi əlaqədə olmamaq, boyunalma ziyarətinə getmək, günahkar qul azad etməli və ya almalı idi, çoxlu ehsan verməli idi və s.). Hakim tərəfindən təyin olunanların hamısı yerinə yetirilib qurtardıqdan sonra adam tam qüsl verməlidir və bu andan o, yenidən cəmiyyətin adi üzvü olur.

Cinayətin təyin edilməsində böyük azadlıq hakimə günahkarın şəxsiyyətinə həm onun günahını, həm də onun üçün olan cəza formasını nəzərə alaraq fərqli surətdə yanaşmaq imkanı verirdi. Əslində hər hansı bir müsəlmanın günahı sübut olunardısa o, istənilən cəzaya məruz qala bilərdi. Lakin hakim onun mədəni səviyyəsini, ictimai vəziyyətini nəzərə almalı və

elə cəza növü seçməli idi ki, ən yüksək səviyyədə sərt və təhqiredici olmasın.

Qanun pozğunluğuna görə məsuliyyət insanın ümumi səlahiyyət formalarından biridir, buna uyğun olaraq bütün vətəndaşlıq hüququ olmayanlara (məs: az yaşlılar, ağıldan kəmlər) cəza verilmir, qullar, qadınlar və başqa tam hüququ olmayanlara azad müsəlman kişiyə verilən cəzanın yarısı verilir. Cəzanın yarı bölünməsi mümkün olmayanda (məs: edam cəzası) qul da azad adam kimi cəzalandırılır. Cinayətkar başqa din sahibi olduqda və onun cinayəti dinlə bağlı deyilsə ona da müsəlman kimi cəza verilir, tövbə etməkdən, əlbəttə, o, azad edilir, bunun əvəzinə o, cərimə oluna bilər.

Hazırda cəzanın bütün növləri formal olaraq qalır, lakin üstünlük daha çox inkişaf etmiş ölkələrin qanunvericiliyi tərəfindən qəbul edilənlərə, d.d. (daha doğrusu), həbs cəzası, icbari əmək, cərimə və ictimai qınağa verilir.

**Ədəbiyyat:** İslam, 93; əş-Şeybani. Əl-Cami əs-səğir, 63-65, 68-69, 70-72; Malik b. Ənəs. Əl-Müvəttə, 275-281, 286-291, 348; Zaid ibn Ali. Corpus juris, 217-226, 249; Meydani. Penal Law; Shacht. İntroduction, 175-187; U.Heyd. Djaza. – EI, NE, 2, 218; H.Mones. Ikab. yenə o, 3, 1055.

**İqta (cəmi iqtaāt, aqta'- «kəsmək», «ayırmaq» felindəndir) -** dövlət tərəfindən müəyyən ərazidən alınan xəraca verilən hüquq. Torpaq ayrılması (pay verilməsi) artıq Məhəmməd peyğəmbər (s), xüsusilə də Osman vaxtı (644-656) çox geniş yayılmışdı. Dövlət fondundan sahibsiz və ya tərk edilmiş torpaqlar pay verilənin mülkiyyətinə (muqta) keçir, onun torpağı vərəsələrinə və ya başqalarına vermək hüququ vardı. Bu sahələr qatiə adlanırdı və mülklə eyni idi, bağışlama əməliyyatı özü iqta adlanırdı. Çox vaxt muqta torpağı özü becərmirdi, torpaq onlara oradakı icarəçilərlə bir yerdə bağışlanırdı və ya muqatlar suvarma sisteminə vəsait qoyub hazır torpağı icarəyə verirdilər. Muqta torpağa görə uşr verirdi, bu vergi yox, zəkat sayılırdı. Klassik iqtada, d.d., xərac torpaqlarının verilməsində muqta xəracla uşr arasındakı fərqi özü üçün fayda kimi alırdı. Erkən qanunçular (fəqihlər) (Yəhya b. Adəm, Əbu Yusuf) İ.-nın ancaq belə formasını bilirlər.

IX-X əsrlərdə mərkəzi hakimiyyətin zəifləməsi ilə əlaqədar müxtəlif ömürlük torpaq payı vermə formaları yaranır: tu`ma, muqāta'a-yeni istifadəyə verilmiş xam torpaqlardan hərilki məhsulu qiymətləndirmədən xərac torpaqlarına görə verilən dəyişməz miqdar vergi, iqar – hər il müəyyən edilmiş miqdarda ödəniş şərti ilə fisk idarəsindən rəmzi ödənişlə götürülən torpaq. Bu halda qanunçular iqta-təmliki (İ. şəxsi mülkiyyət hüququ-qatia) və iqta-istiqlalı (İ. öz xeyrinə xərac toplamaq hüququ) fərqləndirirlər. Axırıncı forma tədqiqatçılar tərəfindən adətən şərti feodal torpaq mülkiyyəti forması kimi İ. düşünülür.

İ.-nın bu formasının geniş yayılması X əsrin ikinci yarısına aiddir, bu vaxt Büveyhilər (Builər) öz hərbi rəislərinə bütün xərac məbləğini etdikləri xidmətin əvəzinə maaş kimi almaq hüququ kimi verirdilər. Lakin bu benefisiyalar müvəqqəti idi, muqta vergini sovuraraq təsərrüfatı dağıdır, sonra İ.-nı dəyişməyi tələb edirdi ki, bu da İraqda kənd təsərrüfatını heçə endirdi.

Misirdə Fatimilər vaxtı İ. tamamilə dövlət nəzarətində idi və ondan müəyyən olunmuş (uşr) alırdı və istədiyi vaxt İ.-nı ləğv edə və ya əvəzinə başqasını verə bilərdi. İqta – istiqlalın başqa ölkələrdə yayılması haqqında məlumat azdır. Tez-tez onun əvəzinə hər hansı başqa torpaq payı verilir və canişinlik təyin olunur, əgər iqta verilməsi sənədində aqta'a feli yazılıbsa.

Sonralar İ. Səlcuqlar vaxtı inkişaf edir və irsi olur, böyük hərbi rəislər bütöv əyalətləri iqta kimi alır və öz əsgərlərini saxlamağı öz üzərlərinə götürürlər və belə olduqda onlar tez-tez həmin əyalət və ya vilayətin valilərinə çevrilirdilər. İ. benefisiyadan feoda çevrilir, bu süzernitetin bir hissəsinin verilməsini nəzərdə tutur, böyük muqta öz İ.-sından olan təbəələrinə torpaq payı verəndə feodal iyerarxiyası yaranır.

Misirdə Əyyubilər vaxtı İ. (şəxsə) dövlət tərəfindən hər hansı bir məbləğ tələb olunmadan verilirdi, lakin dövlətin nəzarəti saxlanırdı. Adətən belə İ. adda-budda olurdu, irsi deyildi və onun verilməsi vilayətə başçılıq etmək hüququ vermirdi, iyerarxiya sistemi mövcud olmurdu; hər bir muqta öz payını dövlətdən alırdı.

Monqollar vaxtı İ. istilahı rəsmi istifadədən itir, onun əvəzinə irsi pay və tuyul – müvəqqəti və ya ömürlük suyurqal meydana gəlir.

**Ədəbiyyat:** İslam, 94; Петрушевский. Земледелие, 256-259; Семенова. Салах ад-дин; CI.Cahen. Levolution de liqta du IX au XIII siesle. – Annales. ESC, 1953, 231-269, PMHM; A.Lambton. Landlord and Peasant in Persia. L., 1953; C.E.Bosworth. Military. Organisation under the Bugids. – Oriens, 1967, 18-19; Lokkegaard. Taxation; CI. Cahen. Ikta: EI, NE, 3, 1115-1118.

**İrəm zət əl-'İmad** – (çoxsütunlu İrəm) məlumata görə, Cənubi Ərəbistanda mövcud olmuş və Qurana əsasən Allah tərəfindən məhv edilmiş tikinti kompleksi. Quranda (89:7/6) Ad və Səmud xalqları ilə yanaşı misal kimi cəzaya görə Allah tərəfindən məhv edilənin günahlarının böyüklüyü xatırlanır. Bu ayənin ən geniş yayılmış şərhi İ.-i Ad xalqının tarixi ilə bağlayır. İ.-Allah tərəfindən göndərilən elçi Huda qulaq asmayıb Ədənə yaxın bir yerdə Cənnətə bənzər bir şey yaratmaq istəyən Ad çarı Şəddad tərəfindən tikilən, binaları qızıl və gümüşdən düzəldilmiş, qiymətli daş-qaşla bəzədilmiş şəhərdir. Çarın qürurluğu və imansızlığına görə Allah İ.-ə tufan göndərdi, o da şəhəri məhv edib onu qumla örtdü. Belə əfsanələr

var ki, hərdən səhrada azan yolçular bu ölü şəhəri görürlər, lakin oradan gətirilən qiymətli daş-qaşlar külə dönür.

Quran İ.-i – qədim Ərəbistan şəhərlərinin məhvi haqqında rəvayətlərdən biridir. Həqiqi İ. - Şimali Hicazda çoxsütunlu nabati Məbədi ər-Rammın xarabalıqlarıdır. Məkkəlilərə bəlli olan qədim Ərəbistan şəhərlərinin xarabalıqları və onun sakinləri haqqında rəvayətlər Quranda Allahın əzəmətinin təsdiqi üçün bu tipli ibrətamiz tarix üçün material rolunu oynamışdır. (Allahın əzəmətinin təsdiqinə ehtiyac yoxdur. Bu fikirlər xristian və yəhudi alimlərinin beyinlərinin məhsuludur. Bütün aləmləri Allah Təalə yaratmamışmı)? VIII-IX əsrlərdə mənşəcə Yəməndən olan şərhçilərin təsiri altında İ. və Quranın çoxlu başqa Ərəbistan mövzuları Yəmən tarixinə bağlanırdı. Çoxsütunlu İrəm surətində tədqiqatçılar bəzən o Dünyanın qədim mifoloji rəmzini görürlər.

**Ədəbiyyat:** İslam, 101-102; ət-Təbəri. Təfsir, 30, 111-114; İbn Hişəm. Tican, 74; əl-Beydavi. Təfsir, 2, 411; Horovitz. Untersuchungen, 89-90; A.J.Wensinck. İram dhat al-`imad. – EI, 2, 254-255; M.Watt. İram. – EI.

**<u>İsa</u> -** Quranda surət, xüsusi hörmət edilən, Məhəmməddən (s) əvvəl gələn peyğəmbər, xristian İsa. Quranda həm də əl-məsih («messiya»), İbn Məryəm («Mərəyəmin oğlu»), abd Allah («Allahın qulu»), rasul Allah («Allahın elçisi»), saleh («mömin»), kəlimə Allah (Allahın sözü), q`aul əl-haqq («həqiqətin ifadəsi») və s. adlanır. Ona kəşf-İncil nazil edilmişdi.

İ. surəti Quranda xüsusi yer tutur. O, Allahın «yaxınlarına» (müqərrəbun) aid edilmişdir (3:45/40) ki, bu da onun yarımələk təbiətli olmasını deməyə haqq verir. O, Allahın yanına, göylərə qaldırılıb (3:55/48; 4:158/156) və o, Adəm kimidir, çünki ona da Allah öz ruhundan verib (3:59/52). Nəhayət, o, Məhəmməd peyğəmbərlə (s) xüsusilə bağlıdır, çünki onun gələcəyini qabaqcadan xəbər vermişdi (61:6). Məhəmməddə (s) olduğu kimi onun da Cəbraillə (ə) eyniləşdirilən (2:87/81, 253/254) adətən köməkçisi – ruh əl-quddusu («müqəddəs ruh») var idi. Bununla bərabər Quran qətiyyətlə qeyd edir ki, İ.- Allahın quludur (43:59), Onun oğlu və ya ilahi deyil (9:30-31; 5:72/76). Quranda üçlük ideyası xüsusilə rədd edilir, bu fikir altında xristianlar üç ilahi – Allah, İ. və onun anası Məryəmi (4:171/169; 5:73/77, 116) nəzərdə tuturlar.

Quranda İ.-nın möcüzəli doğulması haqqında olduqca ətraflı danışılır. Mələklər (və ya insan qiyafəsində bir mələk) Məryəmə xəbər verirlər ki, o, Allahın dediyinə görə bakirə qalaraq Allahın elçisi, Kitabın təbliğatçısı və möcüzə göstərən oğlan doğacaq. Doğulan uşaq ona xəbər verdi ki, Allah onun (İ.-nın) altında doğulacağı palma ağacına meyvə vermək və onun altında bulaq gözü açmaqla onun (Məryəmin) əzablarını yüngülləşdirəcək. Yenə o, (İ.) Məryəm sorğu-suala tutulanda dinməməyi ona əmr etmişdi. Öz

qohumlarının məzəmmətinə o, cavab vermədi, onun yerinə yeni doğulmuş uşaq cavab verdi, o, elan etdi ki, o, (İ.) Allahın elçisidir… (3:42/37-50/44; 19:16-34/35; 23:50/52).

Mələkin qabaqcadan verdiyi xəbərlərdə İ.-nın gələcəyi haqqında deyilir ki, o, özünün peyğəmbərlik missiyasının təsdiqi üçün möcüzələr yaradacaq – quşların gildən düzəldilmiş fiqurlarına can verəck, koru və cüzamlı xəstəni sağaldacaq, ölüləri dirildəcək, gizlədilmiş şeyləri tapacaq (3-48/43). Adamların bir hissəsi İ.-ya inandılar, onun köməkçiləri – apostolları (həvariyyun) əmələ gəldi-yarandı (3?52/45-53/46; 61:14). Onlar ondan göydən yemək dolu süfrə endirilməsini xahiş etdikdə Allah onu (süfrəni) nazil etdi (5:110-115).

Quran İ.-nın xaç üzərində öldürülməsini rədd edir və inandırır ki, onun düşmənlərinin dediklərinin əksinə olaraq «onlar onu öldürmədilər və çarmıxa çəkmədilər, bu ancaq onlara belə gəlirdi» (4:157/156-159/157). İ. Allahın yanına, göylərə ucaldıldı, o, orada Qiyamət günündək qalacaq (bax: 4:158/156; 5/7/18). Qiyamət günü o da başqa peyğəmbərlər kimi Allah qarşısında durub, imansızlara qarşı şəhadətlik edəcək (5:109/108; 4:159/157). İ.-nın ikinci gəlişinə işarə Məhkəmənin başlanğıcının «əlaməti» olmasıdır (43:61).

Müsəlman hədisləri Quran tərəfindən ayrılan xristian hekayələrini əlvan boyalarla boyayırlar, xüsusilə də doğuş tarixini. Onlarda əsas əhəmiyyəti isə esxatoloji motivlər kəsb edir. Dünyanın axırı haqqında müsəlman hekayələrində İ. (ə) gah əl-Mehdi (ə)-la yanaşı gəlir, gah da sıxışdırıb çıxararaq onu əvəz edir. Bu hədislərə əsasən İ. (ə) Cənnətdə olacaq və Dünyanın sonuna az qalmış oradan Yerə enəcək. O, Fələstinə enib, orada əd-Dəccalı öldürəcək və Yerdə ədalətin çarlığını quracaq. Sonra o, vəfat edəcək və Mədinədə Məhəmməd peyğəmbərin (s) yanında dəfn olunacaq, sonra isə hamı ilə birlikdə diriləcək. Mədinə məscidində İ.-nın dəfn ediləcəyi yeri də göstərirlər. Artıq qurandansonrakı dövrlərdə İ. (ə) əlaməti Allah ruhu kimi geniş yayılır.

Quran İ. haqqında başqa peyğəmbərlərdən çox bilir. Onun haqqında hekayələrin bədii forması, Məryəm və mələklərin, İ.-nın və Allahın dialoqları, İ.-nın şəxsiyyətinə çoxsaylı müraciətlər VII əsrdə müxtəlif xristian dairələri – Həbəşistan və Yəmən monofiziləri, Suriya pravoslavları, kiçik sektant cərəyanlarının tərəfdarları ilə əlaqəli olan xristian hekayələrinin Ərəbistanda geniş istifadə olunduğunu göstərir. Qurana bir neçə apokrifik İncil bəllidir, məsələn, Uşaqlığın İncili; Xristian nöqteyi-nəzəri tərəfindən təhrif olunan kimi görünən bəzi Quran görüşləri əslində müxtəlif xristian sektalarının, yəhudi-xristian, qismən də Xristian qnostik surətinin görüşlərini əks etdirir. Quranın yaradılmasının (Quran yaradılmayıb. Quran Allah tərəfindən nazil olub) əvvəlki mərhələsində çoxlu

mətnlər xristianlığa açıq-aydın rəğbət göstərir. Çox güman, dürüst hədisə görə «Məryəm» surəsi İ.-nın doğulması haqqında hekayə ilə birlikdə müsəlman mühacirləri tərəfindən Məhəmmədin (s) moizələrinin xristianlığa yaxınlığının sübutu kimi Həbəşistan nequsunun qarşısında oxunmuşdu.

İ. (ə) bir neçə müsəlman cərəyanlarının təzim obyekti oldu. Məsələn, əhmədiyyə icmasının üzvləri hesab edirlər ki, Yerusəlimdən (Qüds) xilas olan İ. Kəşmirdə vəfat etmişdir və orada da dəfn edilmişdir, sonra o dirilərək icmanın banisinə çevrilmişdir. Bəzi müsəlman ölkələrində əksinə, İ. adı qanundankənar doğulan uşaqlara qoyulurdu. İslam İ.-ya peyğəmbər kimi yanaşır, müsəlmanlar onu salavatla zikr edirlər.

**Ədəbiyyat:** İslam, 102; ət-Təbəri. Tarix, 1, 711-740; yenə o. Təfsir, 3, 185-211, 6, 9-18; 24-26, 7, 82, 89, 16, 45-62; əs-Sə'ləbi. Qısas, 215-228; əl-Kisəi. Qısas, 301-309; əl-Beydavi. Təfir, 1, 155-158; 240-243; 279-281; 578-581; əl-'İdvi. Məşərik, 133-134; Horovitz. Untersuchungen, 129-130; M.Hayek. le Christ de İ`Islam. P., 1959; G.Parrinder. Jesus in the Quran. I., 1965; D.B.Macdonald. `Isa. – EI, 2, 559-562; G.C.Anawati. 'Isa. – EI, NE, 4, 85-90.

**İshaq** – Quranda surət, peyğəmbər, İbrahim peyğəmbərin (ə) oğlu, Bibliyada olan İsaak. Quranda nəql edilir ki, Allah İbrahimə (ə) onun yaşlı vaxtında, onun mətin mömin olduğuna hədiyyə olaraq oğul bəxş etdi. Oğlu olacağı haqqında ona, onun məşhur qonaqpərvərliyindən faydalanan adi yol adamları qiyafəsi altında mələklər xəbər vermişdilər (2:133-127, 136/130, 140/134; 3:84/78; 163/161; 6:84; 11:71/74; 12:6, 38; 14:39/41, 19:49/50; 21:72; 29:27/26; 37:112-113; 38:45). Quranın 37:100/98-106 ayələrində nəql edilir ki, İbrahim peyğəmbərə (ə) «kiçik bir oğlan» bəxş edilmişdi, sonra isə o yuxuda gördü ki, Allah ondan oğlunu qurban verməyi tələb edir. İbrahim peyğəmbər (ə) Allahın əmrini yerinə yetirməyə hazır idi, ancaq Allah qurbanlığı imtina etdi. O, sadəcə olaraq mömin (bəndəsini) sınaqdan çıxarırdı. Bu tarix Bibliyadansonrakı rəvayətlər yolu ilə Bibliya hekayəsinə gedib çıxır, lakin oğulun adı orada çəkilməyib. Quran kontekstinə görə o, İsmail və ya İshaq (İsaaq) ola bilər. Bəzi şərhçilər, Bibliya ənənəsini izləyərək onda İ.-ı görürdülər, lakin əksəriyyət təsdiq edirdi ki, bu oğul ərəblərin ulu babası, əl-Kəbə ayini ilə bağlı olan İsmail olmuşdur. Bu şərh indi müsəlmanlar arasında ümumi qəbul edilmiş (qərar) oldu (bax: İbrahim).

**Ədəbiyyat:** İslam, 116; ət-Təbəri. Tarix, 1, 272-290, 362-359; yenə o. Təfsir, 23, 48-57; əs-Sə'ləbi. Qısas, 52-58; əl-Kisəi. Qısas, 150-153; əl-Beydavi. Təfsir, 2, 175-177; Snouck. Hurgronje. Feest; Horovitz. Untersuchungen, 90-91; Speyer. Erzählungen, 164-166, 170-171; Beck. Gestalt, 80-83; J.Eisenberg. Ishak. – EI, 2, 568-569; W.M. Watt. Ishak. –EI, NE, 4, 114-115.

**İsmail** – Quranda surət, peyğəmbər, İbrahim peyğəmbərin (ə) oğlu, Bibliya İ.-i. Quranda onun adı ilahi kəşf nazil olunanların və adamlara namaz qılmağı öyrədənlərin adları arasında çəkilir. Allahın əmri ilə o, atası İbrahim peyğəmbərlə (ə) birlikdə əl-Kəbəni təmizləyib, onu yenidən tikdilər. (2:125/119, 129/123, 133/127, 136/130; 3:84/78; 4:163/161; 19:54/55).

Hədislərdə İ.-in İbrahimin kəniz Hacərdən (bibl.Aqar) böyük oğlu olduğu haqqında ətraflı danışılır. Arvadı Saranın qısqanclığı və düşmənçiliyi üzündən İbrahim (ə) Hacərlə balaca İ.-i Ərəbistana aparıb, onları susuz çöldə tənha qoyub getməyə məcbur oldu. Uşağa susuzluq əzab verirdi, ana əs-Səfa və əl-Mərva təpələri arasında quyu və ya vadinin olub-olmadığını axtarırdı. Onların köməyinə Cəbrail (ə) gəldi. Onun (Allahın) iradəsilə İ.-in ayaqlarını döyəclədiyi yerdə indi müqəddəs Zəmzəm quyusu olan bulaq qaynadı. İbrahim (ə) öz oğluna baş çəkirdi, onlar ikisi Məkkə əl-Kəbəsini yenidən tikdilər. Hacərin vəfatından sonra İ. yaxınlıqda olan Cürhum qəbiləsindən bir qızla evləndi, sonra onu boşayıb başqa bir curhumlu qızla evləndi. Ərəb şəcərəçilərinin rəyinə görə bütün şimali Ərəbistan qəbilələri (əl-arəb əl-müstəribə, ədnanilər) İ.-dən törəmişlər. Müsəlman görüşlərinə görə məhz İ. İbrahim peyğəmbərin (ə) qurban kəsməli oğlu idi (bax: İbrahim). Ənənəyə görə İ.-in qəbri Əl-Kəbənin yanında olduğu hesab edilir.

Quranda İ. əvvəlcə ancaq Zu-l-Kifl və əl-Yasu′ kimi dumanlı surətlərlə yanaşı xatırlanır. Sonra onun İbrahimlə (ə) qohumluğu qeyd edilir və əl-Kəbənin yenidən tikilməsi ilə əlaqəsi meydana çıxır, bunun sayəsində o, müsəlmanların müqəddəs tarixinin əsas surətlərindən biri olur (bax: İbrahim).

**Ədəbiyyat:** İslam, 110; ət-Təbəri. Tarix, 1, 274-309, 351-352,1112-1123; yenə o. Təfsir, 23, 48:57; əl-Əzraqi. Əxbar Məkkə, 21-44; əs-Sə′ləbi. Qısas, 45-53, 57-58; əl-Kisəi. Qısas, 141-145; əl-Beydavi. Təfsir, 2, 175-176; Wüstenfeld. Die Chroniken, 4, 4-10; Grünbaum. Beitrage, 101-105; Horovitz. Untersuchangen, 91-92; Speyer. Erzählungen, 158-162, 164-166; M.Hayek. Le Mystere d`Ismael. P., 1964; Gaudefroy-Demombynes. Mahomet, 345; Beltz. Sehnsucht, 101-102; A.J. Wensinck. `Ismail. – EI, 2, 581; R. Paret. İsmail. – EI, NE, 4, 192-193.

**Əl-İsmailiyyə** – (və ya əl-ismailiyyun) – ismaililər, müsəlman şərqi tarixində mühüm rol oynayan, şiə məzhəbinin əsas qollarından birinin adırıcılları. Müxtəlif dövrlərdə və müxtəlif ölkələrdə İ. müxtəlif adlar ilə çağrılırdı: əl-Batiniyyə, əs-sabiiyyə, əl-qaramitə (qərmətilər), ət-təlimiyyə, əl-mülhidə və i.a.

İsmailiyyə hərəkatı tarixi.

İsmailiyyə hərəkatının başlanğıcını ənənəvi olaraq VIII əsrdə şiələr arasındakı parçalanma ilə bağlayırlar. Onların çoxu 7-ci imam kimi Cəfər əs-Sadiqin (ə) oğlu Musa əl-Kazımı (ə) (vəf. 799) qəbul edirdilər; ona görə onları imamilər adlandırmağa başladılar. Lakin şiələrin bir qismi Cəfərin böyük oğlu İsmaili imam hesab edirdilər, o, hələ atasının sağlığında vəfat etdiyi üçün (762) onlar 7-ci imam kimi onun oğlu Məhəmmədi qəbul edirdilər. Doksoqraflar onun ardıcılları arasında İ.-nin ideya sələfləri olan mübarəkiləri və xəttabiləri göstərirlər (sonralar ismaili müəlliflər xəttabiləri mühakimə edib, onlarla əlaqəni təkzib edirlər). İmami şiələrinin əksinə olaraq imamətin İsmailin nəslində saxlanılması tərəfdarları olanlar özlərini İ. adlandırmağa başladılar. Məhəmməd b.İsmailin vəfatından sonra onların arasında da parçalanma baş verdi. Bəziləri onu axırıncı, yeddinci (buradan da onların əs-səb′iyyə «yeddincilər» ləqəbi irəli gəlir) imam hesab edirdi və onun əl-Qaim rolunda qayıtmasını gözləyirdilər. IX əsrin ikinci yarısında İ.-nin bu qolu əl-qərmətiyyə (qərmətilər) adını aldılar. Başqaları isə Abbasilərin təqibindən Suriya, Xorasan və s. qaçan Məhəmməd b. İsmailin nəsillərini «gizli» imamlar adlandırırdılar və onların adlarından qızğın təbliğat (əd-də`va) aparırdılar. İsmaili hərəkatı tarixində Fatimilərin Şimali Afrikada (909) hakimiyyətə gəlməsinə qədər bütün sonrakı mərhələ «gizlənmə» (əs-sətr) dövrü kimi tanınır. Bu cərəyanın tərəfdarlarını X əsrin əvvəllərindən fatimi İ.-ri adlandırmağa başladılar. «Gizli» imamın adının və olduğu yerin ciddi sirr olduğu üçün qərmətilər və İ. arasında uzun müddət böyük fərq yox idi. Bəzi tədqiqatçılar fatimilərəqədərki dövrü ismaili hərəkatının «qərməti mərhələsi» hesab edirlər. IX əsrin axırına ismaili təbliğatçılarının səyi ilə (du′at, təkdə də′i) ismaili «çağırışı» Cənubi İraq, Xorasan, Xuzistan, Bəhreyn, Yəmən, Suriya, Misir, Məğribdə çoxlu tərəfdarlara malik idi. Özlərini imam İsmailin nəsilləri kimi göstərən Fatimi xilafətinin əsası İ. fatimiləri ilə qərmətilər arasında son ayrılığa gətirib çıxardı. X əsrin axırında Məğrib, Misir, Suriya, Fələstin, Hicaz Fatimilər hakimiyyətinin altında idi. Onların gizli təşkilatları Xilafətin şərqində, xüsusilə də İranda geniş təqdim olunurdu.

Eyni vaxtda ismaili «dəvəti» rəhbərliyi içərisində Fatimi İ.-ri arasında parçalanmaya və xəlifə əl-Hakimi (vəf. 1021) ilahiləşdirən və onun qayıdacağını gözləyən hakimilər və ya druzların icmasının yayılmasına gətirib çıxaran fikir ayrılığı və rəqabət güclənirdi. Xəlifə əl-Müstənsirin ölümündən (1094) sonra ali hakimiyyət uğrunda mübarizə nəticəsində (səbəb) İ. arasında iki cəbhəyə bölünmək daha böyük nəticələrə (aqibətlərə) malik oldu. Şərqi İ. və ya nizarilər (xəlifənin böyük oğlu Nizarın tərəfdarları) Fatimi xilafətinə daxil olmayan İran, Suriya və Şərqin başqa ölkələrində üstünlük təşkil edir. İ.-nin daha «mülayim» qanadını müstə′lilər (Misir və İslamın qərb ölkələri) Hindistan (Bombeydə olan) - müasir

ismaili icması «bohra»nın ruhani sələfləri təşkil edirdilər. Nizarilər və müsətə'lilər arasındakı siyasi narazılıqlar onların təşkilatında struktura dəyişikliyinə və əhkami fikir ayrılığına gətirib çıxartdı. Nizarilərin əsas kütləsi Suriya, Livan, İraq və İranın dağ rayonlarında hərəkət edirdilər. XI əsrin sonunda onlar özlərinin mərkəzi Alamut (İran) olan və XIII əsrin ortalarına qədər mövcud olmuş müstəqil dövlətlərini yaratdılar. Nizarilər dövlətinin banisi, ismaili də'isi əl-Həsən b. əs-Sabbah öz ictimai və siyasi görüşlərini fatimi «qədim təlimindən (əd-də'və əl-qədimə - fərqli olaraq əd-də'və əl-cədidə «yeni də'vət», «neoismailiyyə») adını almış təlimdə izah etmişdir. Səlcuq sultanları tərəfindən daim kəskin təqiblərə məruz qalan nizarilər siyasi mübarizə təcrübəsində terror üsulunu geniş tətbiq edirdilər. Terror hərəkatının icraçıları, rəvayətlərin birinə görə, narkotik maddədən (həşiş) istifadə edirdilər, buna görə də, onları həşişi, həşişiyyə, həşişiyyun adlandırırdılar. Bu adları XII-XIII əsrlərdə İran və Suriyanın nizarilərinə tətbiq edirdilər. Təhrif olunmuş formada («assasin») o, Avropa dillərinə «qatil» mənasında keçib. İ.-nin İranda sünnilərdə «azmışlar» mənasında işlənən daha geniş yayılmış başqa ad – əl-mələhidə (təki əl-mülhid) ləqəbidir.

Nizarilərin Hülaku-xan tərəfindən darmadağın edilməsi və onların qalalarının əksəriyyətinin alınmasından sonra onların Hindistana mühacirəti başladı, sonradan ora nizarilərin əsas (baş) ocağına çevrildi. XII əsrin birinci yarısından nizarilərin ruhani başçısı Ağa-xan titulu daşıyır.

İlk Ağa-xan Hindistana 1838-ci ildə İrandan köçmüşdür. Əli (ə) və Fatimənin (ə) nəslindən sayılan indiki nizari imamı Kərim-şah IV Ağa-xan imaməti 1957-ci ildə qəbul etmişdir. Onun Hindistan və Keniyadakı iqamətgahlarından (xüsusilə də Afrikada) nizari təliminin təbliğatını aparan də'ilər göndərilirlər. Hazırda nizarilər icmaları (bəzi ölkələrdə onları xoca və ya ağaxanilər adlandırırlar) Asiya və Afrikanın 20-dən çox ölkəsində (xüsusilə də Əfqanıstanın şimalı-Bədəxşanda) vardır.

Fatimi ənənələrini saxlayan İran və Suriyadakı İ. ilahiyyat ədəbiyyatından fərqli olaraq, Hindistandakı nizarilərin belə əhkami ədəbiyyatı yoxdur. Onların arasında şeir şəklində himnlər, dini təlimatlar və «möcüzələrinin» (sufi «müqəddəslərinin» «möcüzələrinə» bənzəyən) təsviri olan orta əsr pirlərinin əfsanəvi tarixi vardır. Qurana Vedalardan (hind qədim müqəddəs kitabı) axırıncısı kimi baxılır, onların şərhi ancaq dini nüfuzu fövqəladə dərəcədə yüksək olan pirlərə məlumdur.

Müstə'lilərə gəlincə, Fatimilərin süqutundan sonra onların dini mərkəzi 500 ildən çox müddətdə Misirdən Yəmənə köçdülər, artıq orada Fatimi xəlifəsi əl-Amirin (1130-da öldürülüb) oğlu, ət-Tayyibin yüksək hakimiyyətinin tərəfdarları-müstə'lili-tayyibilərin icması mövcud idi;

tayyibilər ali vaizin (əd-də′i əl-mütləq) başçılığı ilə müstəqil təşkilatlarını yaratdılar. Onların təbliğatları Hindistanda böyük müvəffəqiyyət qazandı və XVII əsrin əvvəllərində müstə′lilərin dini mərkəzi Oncərata köçdü. Elə onda onlar Hindistana gedib çıxan davudilərə (müstə′lilərin çoxu) və Yəməndə qalan süleymanilərə bölündülər. Onların arasında heç bir əhkami fərq yoxdur. Hazırda müstə′lilərin icmaları Asiya və Afrikanın bir sıra ölkələrində mövcuddur: Hindistan, Pakistan, İran, Yəmən, Keniya, Tanzaniyada. Onların ruhani başçılarının (əd-də′i əl-mütləq) iqamətgahı Surat şəhərindədir (Hindistan).

**Ədəbiyyat:** İslam, 110-114; ан-Наубахти. Шиитские сеткы, 162-167; əl-Bağdadi. Əl-Fərq, 281-312; аш-Шахрастани. Книга о религиях, указ.; Петрушевский, Ислам, 276-302; Босворт. Династии, 78-81, 175-177; Х.Додихудоев. Очерки философии исмаилизма (обшая характеристика доктрины X-XVI вв.). Душ., 1976; M.Qalib, Ta`rix ad-da′va al-isma′iliyyə. Beyrut, 1965; Yenə orada. Əl-Hərəkat al-batiniyyə, 65-129; W.Ivanow. The organization of Fatimid propaganda.- JBBRAS. 1939, 15, 1-35; B.Lewis. The origins of Isma`iliten: A study of the historical background of the Fatimide caliphate. Cambridge, 1940; B.Lewis. The Isma`ilities and Assassins.- A histpory of the Crusades. Hrsg. von K.M.Setton. Philadelphia, 1955, 99-132; W. Madelung. Das Imamat in der frühen ismailitischen Lehre.- DI. 1961, 37, 43-135; T.Nagel. Frühe Ismailiya und Fatimiden im Lichte der Risalat iftitah ad-da`wa, eine religionges-chichtliche Studie. Bonn, 1972; I. Poonawala. Bibliography of Isma`ili Literature. California, 1977: H.Halm. Kosmologie und Heilshlehre der frwhen Isma`iliya: eine Studie zur islamischen Gnosis. Wiesbaden, singer Memorial Series. Yerusalem, 1982; H.Corbin. Cyclical time and Ismaili gnosis. L., 1983; W.Madelung. Isma′iliya. -EI, NE, 4, 198-206.

**Əl-İsnə′aşəriyyə** - (isnə′aşərilər- 12-lilər, «düjünlulər») – Əli ibn Əbu Talib nəslindən olan, bir-birinin dalınca gələn 12 imamı tanıyan imami şiələrin adı. Bu ad 873-74-cü ildə azyaşlı 12-ci imam itəndə və şiə imamları kimi tanınmış imamların sırası fiziki olaraq kəsiləndə meydana gəldi. Müxtəlif imami icmalarının yox olması və imamətin işnə′aşəri doktrinasının hazırlanması ilə imamilər adı tamamilə İ.-yə keçdi.

İ. imamları: 1. Əbülhəsən (ləqəbi-Əbu Turab) Əli ibn Əbu Talib əl-Murtaza («Arzu olunan»), Kufədə, 21 yanvar 661-ci ildə vəfat etmişdir); 2. Əbu Məhəmməd əl-Həsən b. Əli əl-Müctəba («seçilmiş», Mədinədə, 669-cu ildə vəfat etmişdir); 3. Əbu Abdullah əl-Hüseyn b. Əli əş-Şəhid («Şəhid, əzabkeş», Kərbəlada 10 oktyabr 680-cı ildə şəhid olmuşdur); 4. Əbu Məhəmməd Əli b. əl-Hüseyn əs-Səccad («Tez-tez namaz qılan», Mədinədə,

713-cü ildə vəfat edib); 5. Əbu Cəfər Məhəmməd b. Əli əl-Bağır («Biliklərin cövhərini açan», Mədinədə, 732-ci ildə vəfat edib); 6. Əbu Abdullah Cəfər b. Məhəmməd əs-Sadiq («Düzdanışan», Mədinədə, 765-ci ildə vəfat edib); 7. Əbu İbrahim (və ya Əbülhəsən) Musa b. Cəfər əl-Kazım («Hirsini boğan» Bağdadda, həbsdə, 799-cu ildə vəfat edib); 8. Əbülhəsən Əli b. Musa ər-Rza («Xeyirxah», Tus yaxınlığında Sanabad kəndində, 818-ci ildə vəfat edib); 9. Əbu Cəfər Məhəmməd b. Əli ət-Təği («Mömin») əl-Cavad («Böyükürəkli», Bağdadda, 835-ci ildə vəfat edib); 10. Əbu-l-Həsən Əli b. Məhəmməd ən-Nəği («Təmiz, saf») əl-Hadi («Düz yolla aparan», Səmərradə, 868-ci ildə vəfat edib); 11. Əbu Məhəmməd əl-Həsən b. Əli əl-Əskəri əz-Zəki («Mömin», Səmərrada, 873-74-cü ildə vəfat edib); 12. Məhəmməd b. əl-Həsən əl-Höccətullah [Allahın insanlar üçün] «sübutu») əl-Qaim ([Allahın əmrlərinin] «İcraçısı») əl-Müntəzər («Gözlənilən» [Mehdi]. Şiə hədislərinə görə Məhəmməd atasının vəfatından birbaşa sonra «qeyb olub». Onun Mehdi rolunda qayıtmasını imami şiələr indi də gözləyirlər.

**Ədəbiyyat:** İslam, 114; R.Strothmann. Die Zwölfer – Schi`a. Lpz., 1926; S.N.Nasr. Ithna'ashariyya . – EI, NE, 4, 289-291.

**Əl-İsrā` və-l-Mirac («gecə səyahəti və merac»)** – Məhəmməd peyğəmbərin (s) Yerusəlimə (Qüdsə) gecə səyahəti və onun göylərə meracı, müsəlman dini rəvayətlərinin (əsas) süjetlərindən biri. Quranda (17:1) xatırladılır ki, Allah bir gecə Peyğəmbəri (s) Özünün ətrafına xeyir-dua verdiyi (əl-Məscid əl-Aqsa) ya «Uzaq Məscidə» aparır.

Rəvayətlərə görə, bir dəfə, Məhəmməd peyğəmbər (s) əl-Kəbənin yanında yatarkən Cəbrail (ə) qanadlı minik heyvanı əl-Buraqla onun yanına gəlir, Peyğəmbər (s) onun üstündə şimala gedir, Hebron və Vifleyemdə, sonra isə Yerusəlimdə (Qüds), Moria dağında oldu. Orada o, qədim (əvvəlki) peyğəmbərlər – İbrahim (ə), İsa (ə), Musa (ə) ilə görüşür və onların birgə namazlarına rəhbərlik edir. Oradaca mələklər onun sinəsini yarıb, ürəyini yuyurlar. Bəzi ədəbiyyatda bu hadisə Məhəmməd kiçik olanda, uşaqlarla çöldə olanda baş verib.

Sonra, əl-Buraqı Yerusəlimdə (Qüdsdə) qoyub, Məhəmməd (s) Cəbraillə (ə) birlikdə göyə qalxır. Göyün yeddi qatının hər birində o, onu salamlayan peyğəmbərlərlə rastlaşır, sonra o, Allah qarşısında durur, O, müsəlmanlar üçün fərz olan namazın sayını təyin edir – beş dəfə, Məhəmməd peyğəmbər (s) Dünyanın tacı olan ağacı – «çox böyük sidrı», səma əl-Kə'bəsini görür; Cənnətdə möminlərin keyf çəkdiyini, Cəhənnəmdə günahkarların əzabını gördü, sonra isə o, Məkkəyə qaytarılır.

Məkkəlilər Məhəmmədin (s) danışıqlarına inanmadılar, Allah əl-Kəbənin barısı üzərində durmuş Peyğəmbərə (s) Yerusəlimi (Qüdsü) bir də

göstərdi və Məhəmməd (s) şəhəri qəbilə üzvlərinə ətraflı təsvir etdi və oradan Hicaza gedən karvanları saydı. Bəzən merac haqqında Məhəmmədin (s) görmə imkanını təsvir edən xatırlamaya Quranda daha iki yerdə rast gəlinməsi hesab olunur: 17:60/62 və 53:10-14. Bu rəvayətlə bağlı ilahiyyat mübahisələrinin mövzusunun iki sualı var: Birincisi: Məhəmməd peyğəmbər (s) Allahı görübmü? Əksəriyyətinin rəyi onunla nəticələnir ki, o, Allahı görməmişdir. İkinci sual: bu səyahət xəyaldır və ya gerçək hadisə və göylərə Məhəmmədin (s) cismi də merac etmişdi və ya ancaq onun ruhu? Ümumi geniş yayılmış rəyə görə səyahət həqiqi olub, onda Məhəmməd peyğəmbərin (s) həm ruhu, həm də cismi iştirak ediblər. Sufilər adətən bu rəvayətdə ruhun səyahəti və onun Allahla birləşməsi, təmizlənməsi və onun cismə qayıtması haqqında hekayələri görürlər. Şiələr bu rəvayətə böyük əhəmiyyət verirlər, onlar bunda (imamın) Peyğəmbərin (s) ilahi ilə birbaşa əlaqəsinin nümunəsini görürlər.

Məhəmməd peyğəmbərin (s) gecə meracı haqqında tarix müsəlman xalqı arasında geniş şöhrət qazanmışdı. Orta əsrlərdə Məhəmməd peyğəmbərin (s) göylərdə, xüsusilə də Cəhənnəm və Cənnətdə gördükləri gözəl təfsilatı ilə təsvir olunan çoxlu şifahi hekayələr və onların yazıları olmuşdur. Son orta əsrlərdə bu rəvayət miniatürlərin və xalq rəsmlərinin sevimli süjetinə çevrildi.

Rəvayətin müxtəlif variantları və detallarının mövcudluğu ilahiyyatçıları əl-İ. və - əl-M.-ı vaxta görə (17 rabi əvvəl əl-İsrā, 17 rəcəb və ya 17 ramazan 621-ci il Qüdsdə əl-Merac) bölməyə və ya «göylərə qaldırılmanın» üç-ikisi Yerusəlimdən (Qüdsdən), biri Məkkədən olduğunu ehtimal etməyə vadar etdi. Çox geniş yayılmış rəyə görə «gecə səyahəti və göylərə qaldırılma» 27 rəcəb 621-ci ildə baş vermişdir. Bu gün əksər müsəlman ölkələrində dini və dövlət bayramları kimi qeyd edilir. Rəvayətin düzəlməsinə səbəb olan ayə şərqşünaslıq elmində müxtəlif şərhlər aldı. Onların birinə görə, orada söhbət göydə olan məscidə səyahət haqqında gedir, Yerusəlim (Qüds) isə ayənin şərhlərində sonralar, VIII əsrin sonunda yaranmışdır. Başqalarının rəyinə görə söhbət Məhəmmədin (s) Məkkə ətrafındakı məscidlərdən birinə gizli səyahəti haqqında gedir. Lakin indi Quranda söhbətin «müqəddəs torpaqda» müqəddəs yer haqqında, d.d., Yerusəlim (Qüds) haqqında getdiyi alimlərin əksəriyyəti tərəfindən qəbul edilir. Məhəmmədin (s) göyə qaldırılması müsəlman rəvayətləri Məhəmmədin (s) həyatı haqqında rəvayətlərdə olduğu kimi, başqa dinlərin rəvayətlərindəki eyni hekayələrə də aid edilir (məsələn, Yəqubun (ə) nərdivanı haqqında).

Əl-İ. və-l-M. haqqında hekayələrin yazılmış mətnləri Avropa dillərinə tərcümə olundu və, ola bilsin, Dantenin «İlahi komediyası»nın süjetinin mənbələrindən biri olmuşdur. X-XI əsrlər məşhur ərəb şairi Əbüləla əl-

Mə′arrinin «Bağışlanma haqqında müraciət»i belə hekayələrin incə yamsılanması üzərində qurulub. Müasir müsəlman apoloqetikası (mədhi) əl-İ. va-l-M. haqqında rəvayəti hərdən kosmik səyahətlərin mümkünlüyünün müsəlman «qabaqcadan xəbər verilməsi» elan edir (Bax: əl-Buraq).

**Ədəbiyyat:** İslam, 115; İbn Sə′d. Təbəqat, 1/1, 137-145; İbn Hişam. Sura, 1, 263-271; ət-Təbəri. Təfsir, 15, 2-14; əl-Beydavi. Təfsir, 1, 532-533; Horovitz. Himmelsfahrt; R.Bell. Muhammad`s visions. – M.W. 1934, 24, 151-153; E.Cerulli. «Libro della Scala». Vatican, 1949; yenə o. Nuove ricerche sul Libro della Scala e la conoscenza dell`Islam in Occidente. Vaticano, 1972; B.Schrieke. Isra`. – EI, 2, 591-592; J.Horovitz. Mi′radj. – Yenə o, 3, 581-584.

**İsrafil** – Allaha daha yaxın olan dörd mələkdən biri. O, müqəddəs lövhədən insanların və Dünyanın taleləri haqqında ilahi qərarları oxuyur və onları icra etmək üçün başqa mələklərə verir. Onun əsas atributu onun heç vaxt ayrılmadığı şeypurdur və ölülərin dirildiyi Gün (Qiyamət günü) o, Yerusəlimdə (Qüdsdə) müqəddəs qayanın üstünə çıxıb, onu çalacaq; onun səsindən bütün adamlar öləcək, sonra hamısı Allahın əmri ilə öz qəbirlərindən qalxmağa başlayacaqlar (bax: əl-Mə`ad).

Bəzi rəvayətlərə görə İ., Məhəmmədə (s) ilk kəşfləri (vəhyləri) gətirən və bir neçə il onu qoruyan mələk olmuşdur, sonra bu missiyanı (vəzifəni) Cəbrailə vermişdir.

İ.-i kosmik ölçülərdə olan məxluq kimi təsvir edirlər, onun ayaqları yerin aşağı qatlarında, başı isə Allahın taxtı yanındadır. Onun dörd qanadı var, bədəni isə tüklərlə, ağızlarla və dilçiklərlə örtülmüşdür. Gündə üç dəfə gündüz, üç dəfə də gecə o, Cəhənnəmə baxır (baş çəkir) və dərd və əzabdan hönkürür.

Mələkin adı, ola bilsin, Bibliya Serafimindən gəlir: onun bir sıra xüsusiyyətləri yəhudi və xristian demonologiyasında mənbə və paralellini tapır.

**Ədəbiyyat:** İslam, 115; ət-Təbəri. Təfsir. 1, 1248-1249; əl-Qəzvini. Əcaib, 56-57; A.J.Wensinck. Isfrafil. – EI, NE, 4, 220-221.

**Əl-İstihsan («üstün tutma», «üstün tutulmuş qərar»)** – fiqh istilahı, rəy kateqoriyalarından biri, (qiyas) analogiyası üzrə qərardan imtina etməyə aparan fikir. Əl-İ. Əbu Hənifə (vəf. 767) tərəfindən qiyas əsasında qəbul edilmiş, lakin hər hansı şəraitə görə qəbuledilməz olan qərarların islah olunması üsulu kimi gündəliyə daxil edilib. Əl-İ. təcrübə əsasında formal düz qərar, (qiyas) bənzəyişi üzrə məqsədəuyğun olmadıqda və ya zərər vuranda tətbiq olunur. Məsələn, qanuni mətnlərə əsasən paltarın

təmizlənməsinə, onun suda yuyulması və sıxılmasına göstəriş verilmişdir. Lakin hər cür parçanı bu cür təmizləmək olmaz, buna görə də bəzi növ parçalar üçün (parça mürəkkəb tikmə naxışı və s. olduqda) quru təmizləmə üsuluna icazə verilir (çırpmaq, təmizləmək, havaya verməklə). Qiyas qanuni mətnlə əks olanda əl-İ., tətbiq olunur, bu əksliyi aradan qaldırmaq üçün bütün mühakimələrə yenidən baxılır. Nəhayət, qiyas razılaşdırıldmış qərarla (icma) və ya adətlə (urf) əks gələndə əl-İ. tətbiq edilir ki, fəqih öz qərarını əsaslandırmaq üçün qiyası ləğv edə bilsin. Əl-İ.-la münasibət qiyasa olan münasibət kimi yaxşı əsaslandırılmalıdır. Əl-İ.-ın qərarı əsas deyil, onun təsiri bir dəfədir. Əl-İ.-ın geniş tətbiqi ancaq hənəfi məzhəbi tərəfindən həyata keçirilirdi. Maliki və şafei məzhəblərində onun rolunu formal düz olan, lakin qəbuledilməz qərarın ləğvini istislah icra edir.

**Ədəbiyyat:** İslam, 116; əl-Hakim. Əl-Üsul, 361-377; Əbu Zəhra. Əbu Hənifə, 344-351; Mahmassani. Falsafat al-tashri, 85-87; R.Paret. Istihsan and Istislah. – EI, NE, 4, 255-259.

**Əl-İstislah -** («faydalılığa cəhd», başqa adı əl-məsalih əl-mursələ – «müstəqil faydalı əməllər») – rəy kateqoriyalarından biri, bütün cəmiyyət üçün faydalı olması haqqında müstəqil fikir yürütmək əsasında hüquqi qərarların verilməsi üsulu. Əl-İ. Malik b. Ənəs (713-795) tərəfindən hazırlanıb təqdim edilmişdir, o, onu istihsanın müxtəlif (fərqli) növü hesab edirdi. Lakin istihsan (qiyas) analogiyası üzrə fikir yürütmə korreksiyası, metodudur, onsuz tətbiq edilə bilməz. Əl-İ. isə Quran və sünnədən tamamilə asılı deyildir, üç şərtə riayət etdikdə qüvvəyə minir: 1) qərar iman məsələsinə toxunmamalıdır; 2) qərar imanın ruhu və hərfinə əks olmamalıdır; 3) qəbul edilmiş qərardan fayda göz qabağında, zəruri və mühüm olmalıdır. Əl-İ.-ha misal hərbi təhlükə hallarında müdafiə üçün zəruri vəsaitin yığılması ancaq dövlətlilərdən olmalıdır. Əl-İ. maliki məzhəbinin əsas fərqlənən cəhətlərindən biridir, lakin o, elə həmin şərtlərə riayət etməklə şafei və hənbəli məzhəbləri tərəfindən də qəbul olunub.

**Ədəbiyyat:** İslam, 115-116.

**Əl-İşraq və əl-İşraqiyyə («Şərq işıqlandırılması»)** – 1191-ci ildə vəfat etmiş Yəhya əs-Söhrəverdi tərəfindən işlənib hazırlanmış sufi – fəlsəfi doktrina.

A.Korbenin rəyinə görə əl-İ. aşağıdakı mənaları verir:

a) sufinin (işraqi) dünyəvi bağlılığından təmizlənən qəlbinə kəşf bağışlayan təmiz nur şəklində ilahi Mütləqinin təzahürü; b) bir sıra işıqlandırmalar (işraqat) vasitəsilə sübh şəfəqinin doğmasına oxşar dünyaya gələn varlığın yaranması prosesi.

İşıq və qaranlığın rəmzini, habelə zərdüştiliyin müqəddəs kitablarından əxz edilən surətlərin rəmzini geniş istifadə edərək əs-Söhrəverdi mahiyyət cəhətcə yeniplatonçu emanasiya doktrinasının original, mifləşdirilmiş traktovkasını (şərhini) vermişdir. Əl-İ. təliminə görə hər bir mövcudluğun mənbəyi və enerjisi varlığı ilə öz ilk məxluqunu – Bəhmən nuru Cəbraili «işıqlandıran» «ali nurdur» (nur əl-ənvar; fars - xorra). Ondan əs-Söhrəverdinin obrazlı şəkildə qərb adlandırdığı maddi varlığın «qaranlığında» (zülmət) işıq impulsunun nazil olması, dərəcələməsi və ayrılması başlayır. Aşağı qayda işığı daha yüksək işığın parıltısı olduğu üçün həmişə ona tabedir (məkhur) və intensivlikdə ondan aşağıdır. Bu halda əs-Söhrəverdi «şaquli iyerarxiya» (təbəqat ət-tul) haqqında danışır, onu işıq «mələkləri» (ənvar qahirə) və ya gələcək varlığın ən ümumi məfhumlarını özündə cəmləyən «işıqdoğanlardır» - ilk mənəvi (umməhat). «Şaquli iyerarxiya» ilə yanaşı «üfüqi iyerarxiya» da (təbəqat əl-ard) var. Orada ənvar qahirə müstəqil (mütəkəfiə) və bir-birini izləmək münasibətində bağlı deyillər.

Bu keyfiyyətdə onlar «növlərin amirləri» (ərbab əl-ənva′) adlanırlar. Bunlar – maddi və mənəvi dünyanın gələcək mahiyyətlərinin nümunəsi, lakin artıq «ulu nənələrdən» daha konkretdirlər (aydındırlar). Öz keyfiyyət və vəzifələrinə görə onlar platonik «ideyaların» qohumlarıdır. Əl-İ. haqqında təlimdə onlar həm də işıq şüalarının keçiricisi rolu oynayırlar, onlar materiyaya toxunaraq konkret mahiyyətlərdə reallaşırlar. Hiss edilən dünyada timsalların reallaşması aşağı qayda işıq mələkləri olan «idarəedici işıqların» (ənvar müdəbbirə) və ya «işıq qəlbləri (nufus) araçılığı vasitəsilə həyata keçir». Əs-Söhrəverdi İşıq və Zülmət qüvvələrinin mübarizəsi haqqında Zərdüşti görüşlərinə haqq qazandıraraq tez-tez onları «başçı» (ispəhbad) işıq adlandırırdı. «Başçı» – işıq mələkləri «ruhları»nın məcmusudur, onlar konkret əşyaların, kainatın hərəkəti və s.-nin varlığının surəti, bu və ya başqa maddi mahiyyət və ya kainat olan növün rəhbəri «adından» müəyyən edilirdi.

İşıq dünyası ilə Zülmət dünyası arasındakı sərhəd (İbn Sina və Ptolomeyin heliosentrik sistemini dəstəkləyən başqa müəlliflərdə olduğu kimi) Ay dairəsi ilə deyil, tərpənməyən ulduzlar dairəsindən keçir. Burada işıq maddi «maneə» ilə qarşılaşır (əl-bərzəx), sonra onun tərəfindən udulur.

Əl-İ. haqqında təlimdə təsvir olunan Dünyanın rəsmi (şəkli) sufi (mistik) nurlandırılması anında fövqəlhissi və fövqələqli dərketmə mümkünlüyünün əsaslanmasına xidmət etdi. Asketik təcrübə və meditasiya yolu ilə maddi varlığın «nöqsanlarından» təmizlənən sufinin qəlbi ilahi işıqla «şəfəqlənir», o, «gizli aləmlərin» sirrlərini dərk edir (bax: mələkut və əl-qeyb) və öz mənbəyində buxarlanaraq, onunla çulğaşır.

**Ədəbiyyat:** İslam, 118-119; əs-Söhrəverdi. Məcmuə; Corbin. En İslam, 2; Anawati. Gardet. Mystique, 54-57; H.Corbin. The mean of light in İranian sufizm.L., 1978; R. Arnaldez. İshrak.-El, NE, 4, 119-120; yenə o. İshrakiyyun. – Yenə orada, 120-121.

**İttihad** – «birləşmə», «qovuşma». Müsəlman ilahiyyatında İ. istilahı hululla yanaşı, iki mənada istifadə edilirdi: a) ilahi və insani təbiətin birləşməsi (ittihad əl-lahut bi-n-nasut), bu mənada o, xristian doktrinasının «təcəssüm etməsini» xatırladır; b) mistik vəcd zamanı sufinin ruhu və qəlbinin İlahi ilə birləşməsi. Birinci halda ilahiyyatçıların İ.-a münasibəti şərtsiz olaraq mənfi idi (bax: hulul). İkinci halda onu müxtəlif şəkildə şərh edirdilər: əgər İ.-ın əleyhdarları (sünni fəqihlərinin çoxu) ona əbədi varlığın ötəri varlıqla yolverilməz birləşməsi, insan ruhunun ilahi ruhla eyni vaxtda bir bədəndə olması kimi baxırdılarsa, onun tərəfdarları isə (sufilər və onlara rəğbət bəsləyən ilahiyyatçılar) İ.-ı Allahı dərketmənin, Onun təkliyi və yeganəliyinin (ət-tövhid) zirvəsi kimi təqdim etməyə, özünün Onun iradəsindən tam asılı olmasını, lakin maddi vəhdəti ehtimal etməyərək dərindən başa düşməyə çalışırdı. Bu mənada İ. sufi istilahları ittisal və vüsalın sinonimidir, onlar «çatma», «gəlmə», d.d., hal mənasını bildirirlər, sufi bütün dünyəvi şeylərdən, o cümlədən, xüsusi-şəxsi «mən»dən imtina edərək Allahı bütün mahiyyəti ilə dərk edir. İ. həm də fəna məfhumu ilə bağlıdır, bu vəziyyətdə (halda) sufinin şəxsi keyfiyyətləri ilahi keyfiyyətləri tərəfindən sıxışdırılır. Baxmayaraq ki, İ.-a yetişən insan zahirən əvvəlki kimi qalsa da, onun hərəkətləri, danışığı və qavrayışını Allah – bu vəziyyətdə görünmədən iştirak edən «Həqiqi Yaradıcı» (fail həqiqi) idarə edir (yətəsarraf). İ.-ın zəruri elementini əl-Həllac və başqa sufilər «sufinin qəlbini «açıb» sevimli qonağı oraya buraxsan» bunu Allaha olan məhəbbət (hubb, eşq) hesab edirlər. Sufi şairi İbn əl-Fərid Allahla birliyə qovuşan sufini ürəkgetməsi tutan qadınla müqayisə etmişdir: onun hərəkətləri onun özündən gəlmir, onun ağzı ilə başqası – «bəd ruh» (cin) danışır. «Varlığın vəhdəti» (vəhdət əl-vücud) haqqındakı təlimin tərəfdarları olan sufilər İlahinin onun məxluqu ilə birləşməsi haqqında o mənada danışırdılar ki, hər şey ancaq ona görə mövcuddur ki, Allah mövcuddur (mövcud bihi mə`dum bi nəfsihi). Özünün müstəqil varlığı ilə ola bilməyən şey Allahın varlığı ilə birləşə bilməz, çünki onun varlığı olmamazlıqdır.

Bəzi sufilər İ.-ın üç mərhələsini fərqləndirirlər: 1) Allahın gözəl adları (əl-əsmə əl-husnə) ilə birləşmə; 2) Allahın kamillik atributlarından biri ilə birləşmə; 3) Allahın öz mahiyyəti (əz-zət) ilə birləşmə.

Daha sonrakı sufilikdə Allahla birləşmə olduqca istisna təzahürü kimi qəbul edilirdi. Çoxlu sufi qardaşlığının başçıları iddia edirdilər ki, sufilər Peyğəmbərin (s) əbədi mahiyyəti ilə birləşməklə qane olmalıdırlar. Belə

şərh Məhəmmədin (s) ayinlərini möizə edən sufi qardaşlığı arasında (sanusilər) yayılmışdı.

**Ədəbiyyat**: İslam, 117; əl-Kaşani. İstilahat, 24; əl-Cürcani. Ət-tərifat, 3; Nicholson. Studies, Index; Anawati. Ittihad. – EI, NE, 4, 295-296; bax: hulul məqaləsinə.

**Əzrayıl (xalq arasında) – İzrail** - ölüm mələkinin adı, Allaha ən yaxın mələklərdən biri. Quranda bir yerdə adsız ölüm mələkinin (32:11) adı çəkilir, başqa yerdə isə (bəzi şərhlərə görə) bir neçə dəfə (79:1-2). Rəvayət Ə.-ı işıqlı lojada (taxtda) oturan kosmik ölçülərdə təsvir edir. Onun dörd üzü, dörd min qanadı var, onun bədəni isə yer üzərində yaşayan insanların sayı qədər göz və dildən ibarətdir (İsrafillə oxşarlığı müq. et.).

Belə hesab edilir ki, o, əvvəl sadəcə olaraq əsas mələklərdən biri olub. Allah Adəm (ə)-ı yaratmazdan əvvəl mələkləri müxtəlif yerlərdən gil gətirməyə göndərir. Yer (torpaq) müqavimət göstərdi, Cəbrail (ə), Mikail (ə) və İsrafil (ə) ondan bir tikə də qopara bilmədilər. Bunu Ə. (ə) etdi və özünün sərtliyinə görə Allah Təala onu baş ölüm mələyi təyin etdi. Ona bir neçə başqa ölüm mələyi tabedir.

İnsanın ölüm vaxtı çatanda, rəvayətə görə Allahın dərgahında bitən ağacdan onun adı yazılan yarpaq düşür. Qırx gün ərzində bu insanın ruhu bədəndən ayrılmalıdır. İnsanlar əvvəllər onların ruhunun alınmasına müqavimət göstərə bilərlər. Ə. tez-tez Allahdan kömək istəməyə məcbur olur. Rəvayətlərə görə Musa (ə) uzun müddət və müvəffəqiyyətlə Ə.-a müqavimət göstərmişdir. İmanlı adamların ruhları onların bədənlərindən asta-asta, yüngülcə, ağrısız götürülür, imansızların ruhları isə kobudluqla və ağrılı, sinələrindən qoparılır.

Ə.-ın adı və xarakterik cizgilərinin mühüm hissəsi Bibliya və Bibliyadansonrakı mifologiyaya gedib çıxır. Quranda can verənlərin sinələrindən ruhun çıxarılması haqqında işarə vardır. Sonralar müsəlman esxatalogiyasının mühüm hissəsi kimi əsasən yəhudi mənbələrinə söykənən Ə. surəti əslində Quranın esxatoloji mövzularına əlavə olunmuşdur.

**Ədəbiyyat**: İslam, 92; ət-Təbəri. Təfsir, 21, 61-62; əl-Məsudi. Muruc, 1, 51; əl-Qəzini. Əcaib, 58-59; A.J.Wensinck. Izrail. – EI, NE, 4, 305-306.

# K

**Kahin** – (gələcəkdən «xəbər verə bilən» adam). İslamaqədərki Ərəbistanda guya trans halında İlah, Onun elçisi, mələk və ya cinlə «əlaqə saxlaya bilən» adam. Köçəri və oturaq qəbilələr və ya ayrı-ayrı şəxslər İslama qədər həyata keçirmək istədikləri müxtəlif işlər haqqında açıqlama verməyi K.-dən xahiş edirdilər. K.-nin trans vaxtı əlaqəsiz və ya qafiyəli, öz-özünə burun altında danışması (sac′) çox vaxt elə onun özünün şəxsi şərhlərinə ehtiyac duyurdu. K.-lər tipik olaraq VII əsr Ərəbistan peyğəmbərlərinin (yalançı peyğəmbərlərin) sələfləri idilər. Onlardan bir neçəsi (Müseylimə, Əbhələ əl-Əsvad) əvvəlcə K. idilər.

K.-lərin ən mühüm vəzifələri qurbankəsmə mərasimlərini keçirmək idi. Sinifli cəmiyyətdən əvvəl K.-liyi ən yaşlı, sehrkar və ya şamanlar ifa edirdilər. Sinifli cəmiyyətdə K.-lər hakim sinifə daxil olub, böyük siyasi hakimiyyət əldə edib, nəhəng var-dövlət sahibləri oldular. Müasir pravoslavlıqda keşişlər kahinlərin yunan adlarını-iyerey (hiyereos) saxlayıblar. Roma papası «potifersmaksimum» (ali kahin) adını daşıyır. Məhəmmədə (s) vəhy gələndə o, qorxdu ki, (ona elə gəldi ki), kahin olacaq. Məhəmmədi (s) onun çoxlu həmqəbilələri də K. kimi görürdülər. Onların şübhələrinə cavab isə Quran ayələridir. Onlar sübut edirlər ki, Məhəmməd (s) K. deyil, divanə deyil, Allahın elçisi və peyğəmbərdir (Q. 52:29; 69:42; həm də bax: Q. 81:22).

Məhəmməd (s) və ondan sonra müsəlman ilahiyyatçıları K.-lərin bəzi gizli sirrləri bilmək imkanları olduğunu qəbul edirdilər, onlara bu haqda bəzi sirrləri göylərdən eşitmiş cinlər xəbər vermişdilər (müq. et. Q. 72:6). Lakin Allahdan birbaşa vəhy alan Məhəmmədin (s) elçiliyinin başlanması ilə möminlər üçün K.-lərin mövcudluğuna tələbat aradan qalxdı. Buna görə də hədislərdə K.-lərin xidmətlərinə möminlərin müraciət etmələri ciddi qadağan edilirdi.

**Ədəbiyyat:** İslam, 135;  əl-Buxari. Əs-Səhih, 2, 43, 58; əl-Məs′udi. Muruc, 2, 347-364; İbn Xəldun. Müqəddimə, 16, 165-220; Винников. Легенды; Пиотровский. Мухаммад; Le Berceau de l`Islam: L`Arabie occidental a la veille de I`Hegire, 1.Le Climat-Les Bedouins. Par Henri Lammens. Romae, 1914, 204-205, 257; Wellhausen. Skizzen, 3, 134-135, 143; Fahd. Divination; yenə o. Kahin. – EI, NE, 3, 438-440; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 140-141.

**Əl-Kaşani -** (və ya Kaşi), Kəmaləddin Əbdürrəzzaq b. Əhməd (vəf. 1329), son dövr böyük sufi mütəfəkkiri və şərhçisi. Kaşanda doğulub, orada yaşayıb, Nurəddin Əbdüssəmədin şagirdi, İbn Ərəbinin və onun vəhdət əl-

vücud doktrinasının çalışqan pərəstişkarı olmuşdur. Bu zəmində o, vəhdət əş-şuhud təliminin banisi və İbn Ərəbinin tənqidçisi Əlaəddövlə Simnani (vəf. 1336) ilə yazışma yolu ilə mübahisəyə girmiş və Camiyə görə qalib çıxmışdır. İbn Ərəbinin Fusus əl-Hikəm və Məvaki ən-Nucum, əl-Ənsarinin Mənzail əs-səirin və İbn əl-Fəridin Ət-Təiyə məşhur sufi əsərlərinə şərhlər əl-K.-nin qələminə aiddir. Onun müstəqil əsərlərindən ən azı Qurana iki şərhini, Lətaif əl-ə'ləm və Risalə fi-l-qəda və-l-qədr traktatlarını, sufi istilahlarının məşhur lüğəti İstilahat əs-sufiyyə və s.-ni göstərmək olar. «Özünü sufi kəşfinin idrakda yeganə düzgün üsul olduğunun» tərəfdarı hesab edən əl-K. eyni zamanda aydın analitik ağıla malik idi, bu, ona İbn Ərəbi sufi doktrinasının bəzən qəsdən üstüörtülü mahiyyətini tutmağa, məntiq qanunlarına uyğun olaraq onu qısa və dəqiq vəziyyətlərdə (şəkildə) izah etməyə kömək edirdi. Buna parlaq sübut onun Sufi istilahlarının lüğətidir, o, xəbərdar olmayanlara son dövr sufi təlimini başa düşməyə açar verir. Lüğət indi də sufilik tarixi üzrə mütəxəssislərə xidmət edir. Əl-K.-nin müstəqil əsərlərindən ən çox maraqlısı Risalə fi-l-qəda və-l-qədər traktatıdır, müəllif orada insanın azad iradəsi ilə ilahi təyini arasındakı qarşılıqlı münasibət haqqındakı məsələni həll etməyə çalışır. Əl-K. iki növ (cür) təyinetməni ayırırdı: əl-qəza (ilahi qabaqcadan görməsi) və əl-qədər (ilahi hökmü, tale), bunlar İbn Ərəbinin təlimindəki məşiə və iradə istilahlarına uyğun gəlir. Əl-qəza kainatın maddi mahiyyəti haqqında daha çox ümumi ideyalar – universallar daşıyır (İbn Ərəbidə ə'yan sabitə). Əl-qədər bu ideyaların onların maddi dünyada təcəssümünə qədər sonrakı fərdi əlamətlərinə görə ayrılması və konkretləşməsidir. Onun yeri, vaxtı və müddətini əl-qədər təyin edir. Materiyanın xassələrindəki müxtəlifliyə görə bu təcəssüm eyni dərəcədə baş vermir. Buradan da maddi dünyanın mövzuları və mahiyyətləri arasında fərqlər vardır, baxmayaraq ki, onlar bir mənbədə baş verir. Əl-K.-yə görə insan əməlləri «kifayət qədər» səbəblərin ('illə təmmə) hərəkətinin nəticəsinin cövhəridir, o, tam bir sıra «çatışmazlıqlardan» (naqisə) ibarətdir. Axırıncılar bir tərəfdən fərdi ruh xassələrindən irəli gəlir, ümumi ruhun hissələrinə olduğu kimi onlara kamilliyə can atmaq xasdır, digər tərəfdən isə bu ruhun məskun olduğu materialın qabığının xassələrindəndir. Nəticədə insan əməllərinin əvvəlcədən təyin olunmasına baxmayaraq, onların həyata keçirilməsi hər dəfə ondan azad seçim (ixtiyar) tələb edir. İnsanları düzgün seçimə meylləndirmək üçün onlara Allahın ilahi vəsiyyəti və qanunları nazil edilir. İlahi ədalət ondan ibarətdir ki, dünyada hər şey həyata keçir, təkcə əl-qəzada ideyalar kimi mövcud olan aşkar «müsbət» imkanlar yox. Hər insan öz gücü qədəri kamilliyə çalışır, bu kamilliyin meyarı müxtəlif insanlar üçün müxtəlifdir. Bu müxtəlifliyə görə insanlar o biri dünyada uyğun gələn

mükafat alırlar. Beləliklə, insan müəyyən dərəcədə öz taleyinin sahibidir, hər kəsə öz imkanlarına uyğun nicata və əbədi xoşbəxtliyə şans verilir.

Əl-K. öz mövqelərində İbn Ərəbiyə düşünülməsi qəbul olunduğundan daha yaxındır. Əslində o, ancaq müəlliminin baxışlarını şərh edir, sonuncu iddia edirdi ki, Allah həqiqətən insanların xüsusiyyətlərindən asılı olaraq əvvəlcədən onların timsalında qoyulmuş əməllərini yaradır. İbn Ərəbinin bu və başqa ideyaları çox şeydə əl-K.-nin şərh yaradıcılığı sayəsində sufilərin sonrakı nəsillərinə qədər gedib çıxmış və onların arasında yayılmışdı.

**Ədəbiyyat:** İslam, 135-136; əl-Kaşani. Şərh; yenə o. Kəşf əl-vucuh əl-hurr fi şərh Təiyyat İbn əl-Fərid. Misir, 1319 h.; Yenə o. İstilahat; M.S.Guyard. ʹAbd ar-Razzaq et son traite de la predestination et du libre artitre. P., 1773; D.B.Makdonald. ʹAbd al-Razzaq al-Kashani. – EI, NE, 1, 88-90.

**Katib** – yazan, köçürən, yazıçı, katib-məmur. Əvvəllər K.-Məhəmmədin (s) vəhylərini, onun əmrlərini və məktublarını yazan savadlı adamlar idilər. Müsəlman dövlətində mürəkkəb və şaxələnmiş idarə sisteminin inkişafı ilə bürokrat iyerarxiyasının müxtəlif illərdə – dəftərxana mirzəsindən tutmuş idarə başçılarınadək məmurları K. adlandırırdılar. Ali K.-lər qrupu (K. əs-sirr, K. əl-inşa, K. əl-ceyş) divanı təşkil edirdi. Sonralar K. istilahı orta və aşağı məmur rütbələrinə çevrildi (alilər üçün isə vəzir və başqa adlar meydana gəldi). K.-lər üçün təlimatlar, onları tərifləmək və pisləmək üçün əsərlər yaradıldı. Çoxlu şəxslər əl-K. titulunu daşımış, sonradan o, onun nəsillərinə keçmişdir. K.-lər işgüzar nəsrin və mürəkkəb (təmtəraqlı) dəftərxana üslubunun inkişafına kömək edirdilər və bununla da müsəlman dünyası xalqlarının ədəbiyyatına təsir edirdilər.

**Ədəbiyyat:** İslam, 135; F.Krenkow. Katib. – EI, 2, 819.

**Əl-Kəbə (Kəʹbə - «kub»)** – bütün müsəlmanların namaz qılarkən üzlərini tutduqları səmt, qabaq tərəf - (qiblə), İslamın baş müqəddəs məbədi. Hər il oranı ziyarət - həcc mərasiminin (umrə, həcc təməttü) əsas elementlərindən biridir. İslama görə, Məkkədəki əl-K. göylərdə yerləşən əl-K.-nin yerdəki təcəssümüdür.

Əl-K. Məkkənin baş məscidinin (əl-Məscidu-l-həram) mərkəzində yerləşən, hündürlüyü 15 m., uz. 13 m., eni 12 m., özülü 12x10 m. olan daş (mərmərlə üzlənmiş) binadır. Əl-K.-nin küncləri təxminən Dünyanın hissələrinə (cəhətlərinə, səmtlərinə, tərəflərinə) yönəlmişdir. Şərq küncü (cəhəti) ər-rükn əl-əsvəd («qara künc») və ya adicə ər-rükn adlanır. Onun üzərinə, təqribən yerdən 1,5 m. hündürlükdə, əl-K. ziyarətinin baş əşyası olan, Allahın əzəmətinin rəmzi və Onun tərəfindən yerə - insanlara göndərilən, sonradan gümüş çərçivəyə alınmış «Qara daş» (əl-həcərü-l-

əsvəd) qoyulmuşdur. Hazırda o, üç hissəli – qara-qırmızı rəngli daşdan ibarətdir: onun meteorit olduğu ehtimal olunur. Əl-K.-nin şimal küncü-İraq (ər-rüknü-l-İraqi), qərb küncü-Suriya (ər-rüknü-ş-Şami) və cənub küncü-Yəmənə (ər-rüknü-l-Yəməni) yönəlmişdir. Adətən əl-K., haşiyəsi və medalyonları əl-K. və həccə aid olan ayələr və qızılla işlənmiş qara örtüklə (kisva) örtülür.

Şimal-şərqi divarda təxminən 2 m. hündürlükdə, örtüklə örtülən qapı vardır. Əl-K.-nin içərisini ziyarət edərkən və təmizləyərkən qapıya pilləkən qoyurlar. İçəridə emalla bəzədilmiş üç sütun, çoxlu lampa vardır, hədiyyə olunmuş Quranlar əl-K.-nin açarları hifz olunur.

Qapı ilə «Qara daş» arasındakı divar hissəsi əl-mültəzəm adlanır, onun yanında Allaha xoş gələn sayılan (hesab edilən) duanı oxuyurlar. Qərb divarının damından qızıla tutulmuş, əl-mizab və ya mizab ər-rəhmə adlanan navalça çıxmışdır. Onunla qərb küncün arasındakı divar hissəsi əsas qiblə sayılır. Şimal-şərqi divar tərəfdə yarımdairəvi alçaq divar (əl-xatim) var, o, əl-hicri (və ya hicr İsmailini) ümumi sahədən ayırır və zəvvarlar təvaf vaxtı oraya girmirlər. İbrahim peyğəmbər (ə) vaxtı ora əl-K.-nin bir hissəsi olub, rəvayətə görə İsmail (ə) və onun anası Hacər orada dəfn olunub. Bəzi zəvvarlar orada namaz qılırlar.

Əl-K.-ni mərmərlə döşənmiş sahə (döşəmə) əhatə edir ki, zəvvarlar onun üzərində ayaqyalın əl-K.-nin mərasim təvafını yerinə yetirirlər. (Döşəmə isti vaxtlar texnika kompleksi ilə aşağıdan sərinləşdirilir). Əl-K.-nin qapısından (ümumi) Səfa və Mərva tərəfə İbrahim (ə) məqamıdır – orada İbrahim peyğəmbərin əl-K.-ni bərpa edən vaxt üstünə çıxdığı və ləpiri orada qaldığı daş üzvü şüşə və qızıl qübbə ilə örtülmüşdür. Qara daşla üzbəüz isə Zəmzəmə giriş idi. (Hazırda giriş mərmər döşəmə ilə örtülüb, Zəmzəm suyu isə əl-K. meydanına su kranları ilə verilir).

Əl-K. və orada hörmətli sayılan hər bir şey ilk sami xalqlarının dini və kosmoqonik baxışlarına aparıb çıxaran çox qədim tipli məbədin qalıqlarına oxşardır. İslamqədərki Ərəbistanda əl-K. kimi «qadağan sahəsi» (həram), yarmarkası və müxtəlif bütlərə təzim yerləri olan çoxlu oxşar, bir-biri ilə bağlı məbədlər var idi. Rəvayətə görə əl-K.-nin içərisində Məhəmməd (s) vaxtı Məkkənin hamisi sayılan ilahi Habəl (Xubal) bütü olmuşdur, onun ətrafında Ərəbistanın müxtəlif yerlərində hörmətlə sayılan 360 büt qoyulmuşdu. Deyilənə görə onun (əl-K.) içindəki divarlar üzərində Bibliya və İncil surələrinin rəsmləri var imiş.

Müsəlman rəvayətlərinə görə «Qara daş» - Cənnətdən gələn ağ yaqut (ona baxanda oradan Cənnət görünürdü) Allah tərəfindən yerə atılıb, Məkkəyə gəlib çıxan Adəmə (s) bağışlanmışdır. O, sonradan insanların günah və çirkinliklərindən qaraldı ki, onlar Cənnəti görməsinlər, onu daşın dərinliyinə baxanda görmək olurmuş. (Cənnəti görən rəvayətə görə öləndən

sonra məhz ora düşməli idi). Adəm (ə) onun (daşın) üzərində ilk tikintini tikdi və ya çadır qurdu, əl-K.-ni isə şəxsən onun oğlu Şib (Şis) bina etdi. Nuhun tufanı vaxtı əl-K. havaya qaldırıldı, zərər çəkmədi, bir müddətdən sonra isə o uçdu (dağıldı). İbrahim (ə) oğlu İsmaili Məkkəyə gətirəndə Allah əl-K.-nin özülünü qoymağı ona əmr etdi. İbrahim (ə) Allahın əmrini yerinə yetirib, Allaha inananların hamısını əl-K.-ni ziyarət etməyə çağırdı. Əl-K.-nin qayğısına qalmaq sonra növbə ilə Məkkədəki qəbilələrin – cürhum, hüzəa, qüreyşilərin üzərində oldu. Əl-K. sel sularından bir neçə dəfə köhnəlib dağılmışdır. Təxminən 600-cü ildə qüreyşilər əl-K.-nin növbəti təmirinə başladılar, təmirə Qırmızı dənizdə qəzaya uğramış gəmidən salamat çıxmış Bizans ustası başçılıq edirdi. O, əl-K.-nin divarlarındakı Məryəm və İsanın rəsmlərini saxladı. Rəvayətə görə onda 25-30 yaşı olan Məhəmməd (s) təmir işlərində iştirak etmiş və elə ordaca ilk dəfə göydən səs eşitmişdir.

Artıq Məkkə surələrində Allahın əl-Beyt və ya əl-Beytü-l-məmur adlanan əl-K.-nin Ağası (Sahibi) olduğu təsdiq olunur. Quranda Müqəddəs Kitablar və Sinay dağı ilə yanaşı əl-K.-yə də andiçmə vardır. Dindarlar - Məhəmməd peyğəmbərin (s) yaxınları «əhlul-Beyt- əl-K. xalqı», o özü (əl-K.) isə «əl-Beytü-l-atiq» - «qədim Ev» adlanır.

Əl-K.-nin əhəmiyyəti Yəsribdə (Mədinə) o, (əl-K.) qiblə elan olunduqda (buna qədər müsəlmanlar da, namaz qılanda üzlərini Yerusəlimə (Qüds) tuturdular) İslam üçün ciddi surətdə yüksəldi. Əl-K. İslamın formalaşmasında ayrı bir din, Ərəbistan kökləri olan din kimi böyük rol oynadı. Quran (ola bilsin Quranaqədərki rəvayətlər) qeyd edirlər ki, İbrahim (ə) - ilk hənif və müsəlman, Allah tərəfindən Məkkəyə gətirildi ki, İsmaillə əl-K.-nin binasını tiksin və ondan başqa orada ziyarət ayinlərini müəyyənləşdirsin. İbrahimin (ə) dinini inkişaf etdirərək İslam əl-K.-yə düzgün təzim etmə ayinlərini canlandırdı, əl-K. Mədinə surələrində əl-Beyt, Beytü-l-Həram, əl-Beytü-l-muhərrəm və ya Beyti («mənim evim», d.d., «Allahın evi») adlanır. Əl-K. İslamın əsas müqəddəs yeri kimi qeyd edilir. Quran qeyd edir ki, çoxallahlılar əl-K.-ni müdafiə etməyə qadir deyillər, onların təzim mərasimləri isə onun üçün mənasızdır (Quran, əl-K. qeydləri, bax: 2:125/119-127/121, 158/153; 3:96/76; 14:37/40; 22626/27-29/30, 33/34/-34/35; 33:33; 52:4; 106:3).

Əl-K.-nin dinsizlərdən azad olunması və onun bütlərdən təmizlənməsi Məhəmməd (s) və ona qədər isə İbrahimin (ə) vəzifəsi oldu. 628-ci ildə əl-Hüdeybiyyədə müqavilədən sonra müsəlmanlar əl-K.-ni ziyarət etmək hüququ aldılar. Məhəmməd peyğəmbərin (s) başçılığı ilə onlar 629-cu ildə kiçik ziyarət (ümrə) etdilər, 630-cu ildə isə Məkkə müsəlmanların əlində idi və əl-K.-nin ətrafında olan bütlər və içində olan Hubal bütü və rəsmlər

məhv edildi. Rəvayətə görə Məhəmməd (s) şəxsən Məryəm və İsanın təsvirlərini məhv edilməkdən qurtarır, sonralar isə onlar ləğv olunurlar.

Hazırda əl-K.-nin içərisində nadir Quran nüsxələri, Allah evinə müxtəlif vaxtlarda bağışlanmış bir neçə əl-K. örtüyü, açarı və s. saxlanır.

630-cu ildə Əbubəkrin rəhbərliyi altında ilk əsil müsəlman həcci (həcc təməttū) baş tutur, bununla əlaqədar olaraq həccin qaydaları və «çoxallahlılıqdan» tam ayrılmağı elan edən kəşflər – ayələr nazil edilir (Q. 9:1-12, 28:36-37). Bütpərəstlərə həcdə iştirak etmək qadağan olundu. 631-ci ildə Məhəmməd peyğəmbər (s) onun üçün axırıncı olan həcc ziyarətinə başçılıq etdi.

VII əsrin 30-cu illərində - xəlifə Ömər vaxtı əl-K. ilə yanaşı olan evlər söküldü və onun (əl-K.) ətrafında əl-Məscid əl-Həram tikildi. 683-cü ildə əl-K.-nin Əməvi qoşunları tərəfindən (özünü xəlifə elan edən Abdulla b. əz-Zübeyrə qarşı gülləbaranından sonra əz-Zübeyr onu təzədən tikməyi qərara aldı, o, iddia edirdi ki, Məhəmmədin (s) qərarını yerinə yetirir və əl-K.-ni İbrahim (ə) vaxtı olan qədim görünüşünə qaytarmaq istəyir. Əl-K. genişləndirildi və əl-hicr də (İsmail peyğəmbərlə anası orada dəfn olunub) ona əlavə olundu. 693-cü ildə İbn əz-Zübeyr məğlub edildikdən sonra əlavələr ləğv edildi və əl-K. əvvəlki görkəmini aldı. 929-cu ildə Məkkə qərmətilər tərəfindən tutuldu, onlar «Qara daşı» özləri ilə apardılar, onu ancaq 20 ildən sonra qaytarmaq mümkün oldu. Tədricən əl-K.-nin ətrafında çoxlu müxtəlif tikililər yarandı, onların içərisində əsas müsəlman məzhəblərinin kafedraları yarandı. Onlar Səudiyyə hakimləri – vəhhabilər tərəfindən XX əsrin 50-60-cı illərində aparılan «böyük təmir işləri» zamanı ləğv edildi. 1980-cı ildə Məkkə məscidi və əl-K. Mehdinin – Abdulla əl-Qəhtaninin peyda olmasını elan edən müsəlman ekstremist qruppası tərəfindən zəbt edildi. İki həftədən sonra məscid hücumla alındı və qiyamçılar məhv edildi.

Əl-K. bütün dünya müsəlmanlarının ən mühüm mərkəzi və birliyinin rəmzi olmuş və olmaqda davam edir. Onun müqəddəsliyi və xüsusi rolunu islamın bütün cərəyanları qəbul edirlər.

**Ədəbiyyat:** İslam, 123-124; əl-Buxari. Əs-Səhih; əs-Sə′ləbi. Qısas, 48-52; Voyages d`Ibn Batoutah. Texte arabe, accompane d`une traduction par C.Defremery et le D`B.R. Sanquietti. I, P., 1853, 307-327; Yaqut. Mücəm, 4, 278-284; əl-Əzraqi. Əxbar Məkkə; İbn Cübeyr. Səyahət, 46-68, 81-110; əz-Zərkəşi. İ′lam əs-səcid bi əhkam əl-məsacid, Qahirə, 1403 h., 43-219; Wüstenfeld. Die Chroniken, 3; əl-İstəxri. Məsalik, 15-16; Descriptio imperii moslemici austore Schamso`d-din Abu Abdollah Mahommed ibn Ahmed ibn abi Bekr al-Banna al Basschari al-Mokaddasi. Ed.M.J.de Goeje. Lugduni Batavorum, 1877, 71-75; İbn Rosteh. Kitab al-a′lak an-nafisa. Ed.M.J.Goeje. Lugduni Batavorum, 1892, 24; İbn al-Fakih al-Hamadhani. Compendium

libri Kitab al-Boldan. Ed. M.J.Goeje. Lugduni Batavorum, 1885, 16-22; Wellhausen. Skizzen, 3, 73-76; Snouck-Horovitz. Untersuchungen, 131-132; A.J.Wensinck. Ka'ba. – EI, 2, 584-592; A.J. Wensinck, J.Jonier. Ka'ba. – EI, NE, 4, 331-337; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 144; Əmmar Abbasov. Kəbənin açarlarının epiqrafikası, 379-381. AMEA, Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitunun beynəlxalq elmi konfransının elmi araşdırmaların xüsusi buraxılışı. Yaxın və Orta Şərq: dünəni, bu günü, sabahı, Bakı, 2011, 2007-ci il, 379-381.

**Kəbirə (cəmi kəbair)** – böyük, ağır günah. K.-ni müəyyən etməkdə fəqih və ilahiyyatçıların rəyləri K. və onu törədən adam (sahib əl-K.) haqqında da fərqlənir. Adətən K.-yə qətl, zina, sərxoşluq və s. aid edilirdi. Ən ağır, mütləq günah (əl-K. əl-mütləqə) – Allaha şərik qoşmaq, küfr («imansızlıq») sayılırdı. K. edən adamın xaricilərdə artıq mömin olmadığını, mürciilərdə - Qiyamət gününədək mömin qaldığını, mötəzililər də mömin və kafir arasındakı vəziyyətdə olduğunu hesab edirdilər. Ümumiyyətlə, əhli sünnə alimlərinin fikirləri mürciilərin nöqteyi-nəzərinə yaxın idi.

**Ədəbiyyat:** İslam, 124; bax, Kəlam məqaləsinə.

**Kəlam** – orta əsr müsəlman ədəbiyyatında ilahiyyatçıların müxtəlif dini-fəlsəfi mövzular (o cümlədən, xristian və yəhudi ilahiyyatçılarının) haqqında hər cürə fikirlərini geniş mənada işıqlandıran istilah, xüsusi mənada isə dini nüfuzlara (təqlid) deyil, ağıla əsaslanan, islam ehkamçılarına şərh verən nəzəri fəndir (elm əl-kəlam). Bu və ya başqa məsələlərin həll olunmasında yüksək mərhələ kimi ağıla müraciət edilməsi - K. (xüsusi mənada) fəlsəfəni birləşdirən və onun tərəfdarları – mütəkkəlim və fələsifələrdən – sələfi ehkamçılardan bir tərəfdən və sufilərdən digər tərəfdən fərqləndirən hədd hesab olunurdu. Mütəkəllimlər və filosoflar arasındakı fərqə isə belə baxılırdı ki, birincilər öz fikirlərinin hərəkət nöqtəsini islami məsələlərin qaydalarından (qanun əl-islam) götürürdülər, d.d., onlar bu dinə xas olan problemdən hərəkət edirlər, ikincilər isə ağıl qaydalarını (qanun əl-aql) qəbul edirlər, d.d. fəlsəfənin antik formasından çıxış edirdilər. Fələsifə isə özlərinin dininin K.-dan əsas fərqini mühakimənin üsullarında görürdülər: fəlsəfədə apodiktik (təsdiqi) mühakimə istifadə olunur, K.-da isə dialektik mühakimə (bu istilahın Aristotel verən mənasında). Mütəkəllimlər üçün xarakterik mübahisə aparılması üsuluilzam idi – opponent tərəfindən qəbul olunan tezislərdən onun istəmədiyi və ya boş olan nəticə. Mühakimənin dialektik üsulu K.-da bu fənnin genezisi kimi şərtlənmişdir, o, mütəkəllimlər tərəfindən mübahisəli məsələlərin şifahi şəkildə müzakirəsində tez-tez tətbiq olunurdu.

Bu şərait öz növbəsində şəhər əhalisinin geniş təbəqələrinin mütəkəllimlər tərəfindən onların iclaslarında (məcalis) və ya sadəcə olaraq küçələr, bazarlar və meydanlarda təşkil olunan dini-fəlsəfi disputlarla əlaqəsi ilə bağlıdır. K.-da hətta belə nöqteyi-nəzər yürüdülürdü ki, ona əsasən əsil mömin sayılan hər bir müsəlman və ya müsəlman qadın həyatının əvvəlində irsən götürülmüş bütün ehkamlarda şübhə mərhələsini keçməli və ancaq şəxsi ağlının həqiqiliyini təsdiq etdiyi halları qəbul etməlidir.

K. əvvəlcə islamda müxtəlif dini-siyasi qruplaşmaların (xaricilər, qədərilər, cəbrilər, mürciilər) genişlənən müzakirələri gedişində, habelə müsəlman olmayan inancların (məzdək, xristianlıq) nümayəndələri ilə disputların meydana gəlməsi ilə yarandı və inkişaf etdi. Bu mübahisələrdə K.-a xas olan mühakimə üsulu yaranırdı, o, Quranın rəmzi-alleqorik şərhinə (təvil) və ağılla yanaşı hər hansı nüfuzlunun bu və ya başqa tezislərinə istinad edən istisnaya əsaslanır, habelə onun ilkin məsələ qoyuluşu əmələ gəlirdi: müsəlman rəhbərlərinin (xəlifə, imam) rəmzi olan keyfiyyət; insanın öz əməllərinə görə məsuliyyəti (iradə azadlığı və qabaqcadan müəyyən etmə); insanın həqiqi mömin, kafir, böyük günah etmiş (sahibü-l-kəbirə) bir adi müsəlman kimi qiymətləndirilməsi; Allahın birliyi, Onun mahiyyəti və atributlarının qarşılıqlı münasibətləri; Quranın zaman daxilində yaradılan və ya yaradılmayan (əzəli) olması. İslamın ehkamları ilə bilavasitə bağlı olan məsələlər K.-ın nüvəsini (zahirü-l-kəlam, cəlilü-l-kəlam) təşkil edirdi, ondan onun «incəliyini» (dəqiqü-l-kəlam, lətifü-l-kəlam) fərqləndirirdilər; xüsusilə də axırıncılara naturfilosof xüsusiyyətli mövzular (hərəkət və sakitlik, mahiyyət və keçici şeylər, atomlar və boşluq) aid idilər.

K.-a xas olan üsul və problemlərə ilk dəfə biz əl-Ca′d b. Dirhəmin (742-43-də edam edilmişdir) yaradıcılığında rast gəlirik, o, ancaq ağıla söykənib, ona əks olan Quran ayələrini rəmzi-alleqorik şərhə cəlb etməyi tələb edirdi; Allaha müsbət atributlar yazmağın qeyri-mümkünlüyü, Quranın zaman daxilində yaradılmış olması, bəzi mənbələrə görə insan iradəsinin azadlığı haqqındakı fikirlər əl-Ca′da aiddir. Onun şagirdi Cəhm b. Səfvan (745-də edam edil.) öz müəlliminin fikrini inkişaf etdirərək, ağılın kəşfdən asılı olmayaraq yaxşını pisdən fərqləndirmək bacarığı haqqında deyirdi və o, panteist təmayüllü təlim hazırlamışdı, orada əl-Ca′dın güman etdiyi görüşlərin əksinə olaraq fatalizm prinsipi təsdiq edilirdi. Bu iki mütəfəkkiri Cəhmin şagirdi Dirar b. Əmr ilə birlikdə onların görüşlərinə görə qabaqcadan mötəzililiyin ilk böyük məktəbi K.-a aid edirdilər. Cəhm b. Səfvanın və mötəzililərin fikirlərinin yaxınlığına görə müsəlman doksoqrafları tez-tez mötəzili məktəbini cəhmilərin məktəbi ilə qarışdırırdılar. Mötəzili K.-nın çiçəklənmə dövrü IX əsrin birinci yarısına, ər-Rəşidin, xüsusilə də əl-Məmun, əl-Mötəsim və əl-Vasiqin hökmranlıq

illərinə təsadüf edir. Əş-Şəhrəstaninin sözlərinə görə bu, K.-ın ümumiyyətlə, çox parlaq çiçəklənmə dövrü idi. Əl-Mütəvəkkilin (847-861) hökmranlığından başlayaraq mötəzililik təqib olunmağa başladı.

Bu şəraitdə K.-ı ehkamçılarla kompromis yolu ilə leqallaşdırmağa əş′əriliyin yeni K. məktəbinin banisi Əbulhəsən əl-Əş′əri (873-935) cəhd etdi. Bu məktəbin çox böyük nümayəndələri əl-Baqillani (vəf. 1013), əl-Cüveyni (vəf. 1085), əş-Şəhrəstani (vəf. 1153) və Fəxrəddin ər-Razi (vəf. 1209) idilər. K.-ın inkişafındakı bu mərhələni əş-Şəhrəstani onun tənəzzül dövrü kimi xarakterizə etmişdir. Əş′ərilər açıq-açığına özlərini mötəzililərə qarşı əks qoymalarına baxmayaraq, hənbəlilərlə kompromisə gedirdilər, onlar mötəzililiyin ümumi rasionalist xəttini davam etdirirdilər, mötəzililik və əş′ərilik arasında keçilməz hədd yox idi: əl-Əş′əri özü mötəzililər arasından çıxmışdı. Builər (Büveyhilər) vaxtı mötəzililərin fəallaşması, əvvəllər əş′ərilərə mənsub olan Əbdülcabbarın yaradıcılığı ilə bağlı idi.

XIII əsrdən K.-ın fəlsəfə – İbn Sinanın şərq peripatetizm məktəbi ilə yaxınlığı başlayır. Bu yaxınlıq mütəkəllimlər əş-Şəhrəstani, Fəxrəddin Razi, filosof Nasirəddin ət-Tusi tərəfindən hazırlanmışdır. Nəticədə, İbn Xəldunun təbirincə «sonrakı [mütəkəllimlərdə]» «kəlam məsələləri fəlsəfə məsələləri ilə elə qarışmışdır ki, bu elmlər bir-birindən fərqlənmirlər». K. tarixində bu mərhələ əl-Beydavi (vəf. 1286), əl-İsfəhani (vəf. 1349), əl-İci (vəf. 1355), ət-Təftəzani (vəf. 1390), əl-Cürcani (vəf. 1413), əd-Dəvvani (vəf. 1501), əs-Siyalkutinin (vəf. 1657) əsərləri ilə təqdim olunmuşdur.

K.-ın əsas məktəbləri ilə yanaşı Əbu Mənsur əl-Məturudinin (vəf. 944) ardıcıllarının məturudilər məktəbi də var idi.

Fəqihlərin nüfuzunu obyektiv (haqlı) aşağı salan K. onlar tərəfindən, xüsusilə də hənbəli və zahirilər tərəfindən hücumlara məruz qalırdı. İbn əl-Cövzinin təbirincə K. bir fənn kimi «[mütəkəllimlərin] çoxunu şübhəyə salmış, bəzilərini isə allahsızlığa (ilhad) gətirib çıxarmışdı». Bununla yanaşı əş′əri K.-ı şafeilər arasında tərəfdarlar tapır, əl-Məturudi təlimi hənəfi dairələrində, mötəzililik isə zeydilər arasında yayılmışdı. Yeni və ən yeni dövrdə K., hər şeydən əvvəl mötəzililik müsəlman aləmində islam dininin əsasları ilə münaqişəyə girməməmyə çalışan rasionalistləri ruhlandırırdı. Onlara müsəlman yenilikçiləri (Cəmaləddin əl-Əfqani, Məhəmməd Abdo), liberal mütəfəkkirlər (Əhməd Əmin, Zəki Nəcib Mahmud), «islam solçuları» (Həsən Hənəfi) aiddirlər.

**Ədəbiyyat:** İslam, 128-129; ən-Nəşşar. Nəş`ət; Bədəvi. Məzahib; T. İ.Sallum. Ruyə cədidə ilə elm əl-əhkam əl-islami. – Ədəb və nəqd. Qahirə, 1884, 6, 7-19; Watt. Period; Wolfson. The Philosophy; Cook. Dogma. Т.К.Ибрагим. О каламе как «ортодоксальной философии» ислама (критика одного ложного стереотипа). – НАА. 1986, 3, 205-212.

**<u>Kəramət (cəmi kəramət)</u>** – Krm kökündən olub – «əliaçıq», «alicənab» əməldir. Digər tərəfdən müsəlman «müqəddəsinin» (vəli) etdiyi xariqüladə iş, əməldir. Bununla Peyğəmbər (s) tərəfindən öz missiyasının təsdiqi üçün edilən açıq möcüzə ilə müqayisədə K.-in passiv, «bağışlanmış» xüsusiyyəti qeyd edilirdi. Passiv mənada K. ola bilsin onun gedib çıxdığı xristian məfhumu «charismaya» yaxındır.

Sünnilikdə K.-ə sufi övliyaları iddia edirdilər, şiələr isə onu öz imamlarının adına yazırdılar. Mötəzililər yekdilliklə K. haqqında təlimə qarşı çıxırdılar, onların fikrincə o, möcüzəkarları başqa müsəlmanlara qarşı qoyurdu. Əş′ərilər bəzi istisnalarla (məs: Əbu İshaq əl-İsfəraini) onu qəbul edirdilər, lakin bununla belə onlar K. və möcüzə arasında dəqiq sərhəd çəkirdilər. Filosoflar (İbn Sina) hesab edirdilər ki, övliyalar özlərinin asketik həyat tərzi, möminlik, Allah qorxusu və başqa xeyr əməlləri sayəsində K. göstərmək bacarığına malik olur. Ənənəçilər (İbn əl-Cövzi və başqa.) bir tərəfdən peyğəmbər olmayan Quran şəxsiyyətlərinin (H.Məryəm, əshab əl-kəhf, habelə əshablar və «mömin» xəlifələrin) möcüzə yaratmalarını qəbul edir, digər tərəfdən müasirləri olan sufilərdə onun olmasını rədd edirdilər.

Sufilərin çox şeydə əş′ərilərin K.-ə yaxın olan baxışları aşağıdakı ilə nəticələnir: a) kəramət sahibi-vəli bəzi ilahiyyatçıların təsdiq etdiklərinə görə peyğəmbərliyə iddia edə bilməz, o, Allah tərəfindən yalan iddialardan «qorunur» (məhfuz): b) K. Peyğəmbərin (s) yüksək tutulmasına xidmət edir, belə ki, bu, onun icmasının üzvlərindən, onun sünnəsinin əsil ardıcıllarından irəli gəlir; c) möcüzə təkcə peyğəmbərlər və «müqəddəslər» tərəfindən deyil, əd-Dəccal, Fir`on, Nəmrud və başq.-ı kimi qatı günahkarlar tərəfindən də edilə bilər; ç) əgər möcüzə Peyğəmbərə (s) öz təlimlərini açıq surətdə təbliğ etməyə kömək edirdisə, K. vəliyə düzgün yol seçdiyinə görə verilirdi və aşkar edilmirdi; d) K.-in olması heç də vəlinin kamil olduğuna şəhadət etmir, belə ki, o, onu Allaha həqiqi və təmənnasız xidmətdən yayındırar və sınaqdan çıxmağa mane olar. Buna görə də K. nə qədər güclü olsa onun sahibi bir o qədər təmkinli olmalıdır.

Sufilərin çoxu əl-Həllacın açıq möcüzə göstərməsini mühakimə edirdilər (ifşaü-l-kəramə), onların rəyinə görə, o Peyğəmbərin (s) hüququnun qəsb edilməsindən başqa bir şey deyil. Sufi nüfuzları öz şagirdlərinə K.-i layiqsiz məqsədlər üçün silah kimi istifadə etməyi qadağan etmişdilər: nüfuz və məşhurluq qazanmaq, dövlət toplamaq, əsassız iddiaları təsdiqləmək. Buna baxmayaraq, demək olar bir sufi əsəri sufi şeyxlərinin adına yazılmış möcüzə təsviri olmadan keçinməmişdir. Hər şeydən əvvəl K.-in aşağıdakı növləri qeyd edilir: levitasiya, suyun üzəri ilə yerimək, böyük məsafəni tez dəf etmək (tayy əl-ard), düşmənlərdən, aclıqdan, susuzluqdan, vəhşi heyvanlardan yaxa qurtarmaq (və onlarla

dostluq etmək), duanın müstəcəbliyi (mucib əl-dəva), bəsirətlik və s. Eyni zamanda sufi nüfuzları yekdil olaraq sufi ideallarının zərərinə həddən artıq K.-ə uymağı pisləyirdilər (Əslində, bu onların zərirənə yox, xeyrinə idi). K. haqqında hekayə sonrakı sufilikdə (XII əsrdən başlayaraq) xüsusilə geniş yayılmağa başladı. Çox şeydə onlar müridlərin «yaradıcılığının» nəticəsi idi, onlar hər cürə öz şeyxlərini yüksəltməyə can atır və bununla öz xüsusi təbliğatlarına (möizələrinə) nüfuz gətirmək istəyirdilər. Xalq islamında övliyaların «qəhrəmanlığı» haqqındakı rəvayətlər nəsildən-nəsilə ötürülür, tədricən qeyri-adi təfsilatı ilə böyüyür və folklor əsərlərinə çevrilirdilər.

**Ədəbiyyat:** İslam, 131-132; əl-Kələbazi. Ət-Təərüf, 44-51; əs-Sarrac. Əl-Luma′, 315-322; əl-Kuşeyri. Ər-Risələ, 206-228; əl-Hujwiri. Kashf, 218-238; İbn əl-Cövzi. Təlbis, 378-388; İbn Ərəbi. Əl-Fütuhat, 3, 8; İbn Xəldun. Müqəddəmə, 16, 168-171; Massignon. Passion, 2, 754-755; Anawati. Gardet. Mystique, 37-38; L.Gardet. Karama. – EI, NE, 4, 615-616.

**Kərbəla** – (Kərbəla və ya Məşhəd əl-Hüseyn) – İraqda, Bağdaddan 102 km. cənub-qərbə, Fərat çayından uzaqda olmayan səhra kənarında, əsasən şiələrin ziyarət yeri olan şəhər.

10 məhərrəm (d.d., aşura günü) – 10 oktyabr 680-cı il Ninəvada, sonralar Kərbəla şəhəri yaranan yerdə, dördminlik əməvi qoşunu ilə (ailə üzvləri ilə birlikdə 130 nəfərlik dəstə ilə) qeyri-bərabər döyüşdə üçüncü şiə imamı Hüseyn b. Əli (ə), onun qardaşı Abbas və onların 70 tərəfdarı həlak oldular. Bu hadisə bir müqəddəs şəxsiyyət kimi əl-Hüseyn (kultunun) ayininin başlanğıcını qoydu. Onun başsız, yaralardan tanınmayan bədəninin ehtimal dəfn yeri (Qəbr əl-Hüseyn) K.-ya çoxsaylı zəvvarları cəlb edən müqəddəs ziyarətgaha çevirdi. Əvvəlcə 850-ci ildə, Mütəvəkkilin xəlifəliyi dövründə qəbri (məqbərəni) su basdı; 979-cu ildə Büveyhilər (Builər) dövründə onun üzərində əzəmətli bir movzoley tikildi, 1016-cı ildə onun günbəzi yandırıldı, lakin tezliklə bərpa olundu, onun yanında mədrəsə tikildi. Məqbərəni ziyarət edənlər içərisində çoxlu müsəlman hökmdarları var idi: səlcuq Məlik-şah, elxan Qazan, sultan Süleyman, Səfəvi sülaləsinin şahları, Nadir şah Əfşar, Qacar hökmdarları və s., onlar məqbərəyə çox qiymətli hədiyyələr verirdilər. K.-nın var-dövləti 1801-ci ildə vəhhabilər tərəfindən qarət edildi, lakin o, yenidən öz əzəmətini bərpa etdi.

Məqbərəni müxtəlif vaxtlarda orta əsr tarixçiləri və coğrafiyaşünasları əl-İstəxri, İbn Xəldun, İbn Bətutə görmüş və onun təsvirini vermişlər.

Müasir müqəddəs məqbərə (48x42 m. miqyaslı) 108x82 m. ölçülü böyük bir meydanda yerləşir və üstüörtülü dəhlizlə əhatə olunmuşdur, zəvvarlar orada (təvaf) – mərasim dövrləri edirlər, binanın divarları zəngin ornamentlərlə bəzədilmişdir. Əl-Hüseynin məqbərəsi məscidin mərkəzində yerləşir. Məqbərəyə girən yerdə iki minarə ucalır, həyətə böyük mədrəsə və

məscid qatılmışdır. Məscidin ətrafına isə hündür, qalın (içərisində otaqlar olan) hasar çəkilmiş, hasarla məscid arasında böyük həyət yaranmışdır. Hasar kaşi və başqa materiallarla bəzədilmişdir. Hasarın cənub qapısının sol tərəfindəki ikimərtəbəli otağın birinci mərtəbəsində dahi şairimiz M. Füzulinin qəbri yerləşir, baş daşı üzərində «ərəb, fars və türk dillərində yazan İraq şairi Məhəmməd Füzuli» yazılmışdır. Məscidin cənub-qərb qapısı isə İmamhüseynin bacısı Zeynəbin məqamı (o, oradan döyüşü seyr edirmiş), Təlli Zeynəbə açılır.

Rəvayətə görə Füzuli onu imam Hüseynin ayaqları altında dəfn etməyi vəsiət edibmiş. XX əsrin 70-ci illərində xalq şairi Bəxtiyar Vahabzadə nümayəndə heyəti ilə İraqa gedərkən Kərbəlada Füzulinin qəbrini məsciddən kənar, baxımsız görmüşdür. Görünür dövlət səviyyəsində bu məsələ həll olunub. Son vaxtlar görünür məscidin təmiri ilə əlaqədar yenidən Füzulinin qəbrini hara isə köçürüblər (Əlisahib Əroğlu, Kərbəla zəvvarı. Kredo qəz. 14 sentyabr, 2013-cü il).

K. bu gün təkcə şiə müsəlmanların əsas müqəddəs yerlərindən biri deyil, həm də ali ilahiyyat təhsili və ilahiyyat elmləri mərkəzidir.

Şəhər ziyarət sayəsində, Məkkə və ticarət yolları üzərində olaraq, əlverişli coğrafi vəziyyətinə görə daim çiçəklənir. Bizim dövrümüzdə onun əhalisinin əsas kütləsini şiələr təşkil edirlər: yarıdan çoxu farslar, habelə ərəbələr, hindlilər, pakistanlılardır. Əhalinin sayı tez artdı. Bir məlumata görə 1920-ci ildə o, 65 min, 1965-ci ildə 185 min, 1977-də 224 min idi; başqa məlumata görə isə 1965-ci ildə 815, 1970-ci ildə 107,5 min idi. 2003-cü il siyahiya alınmasına görə əhalisinin sayı 572 300 nəfər olub. Məhərrəm ayında orada əhalinin sayı islam dünyasının müxtəlif ölkələrindən gələn - hər şeydən əvvəl İrandan gələn zəvvarların hesabına ikiqat artır.

**Ədəbiyyat:** İslam, 133; A.Nöldeke. Das Keiligtum al-Husains zu Kerbela. B., 1909; E.Honigmann. Meshed Husain. – EI, 3, 551-553; yenə o. Karbala. – EI, NE, 4, 637-639.

**Əl-Kərramiyyə** – kərramilər, IX-XIII əsrlərdə Bağdad xilafətinin mərkəzi və şərq əyalətlərində geniş yayılmış dini cərəyan. Əl-K.-nin banisi – zahid Əbu Abdulla Məhəmməd b. Kərram (Kərəm, Kiram) 806-cı ildə Sicistanda doğulmuş, Xorasanın müxtəlif şəhərlərində, o cümlədən Nişapur, Bəlx, Mərv və Heratda oxumuş, beş il Məkkədə yaşamışdır. Məkkədən Sicistana qayıdarkən, İbn Kərram əl-Qüdsü ziyarət edir və orada (Yerusəlim) xanəgah tikir. Onun Xorasandakı möizəsi həyəcana səbəb oldu, onu həbsə saldılar, o, 857-865-ci illərdə həbsdə qaldı. O, 869-cu ildə əl-Qüdsdə vəfat etdi.

İbn Kərramın çoxlu ardıcılları var idi. Xorasan və Fələstində (onlar tərəfindən çoxlu xanəgah və mədrəsə təsis edilmişdi), doksoqrafların

məlumatlarına görə onlar 20 min adam olmuşlar. X əsrin II yarısında K. mühüm ictimai-siyasi qüvvə olub. Onlar qəznəvilərin, xüsusilə də sultan Mahmudun (998-1030) dəstəyini qazanmışdılar. Lakin sonralar onların ideoloji və siyasi təsirləri zəiflədi, baxmayaraq ki, Qəznədə quri sultanları Qiyas əd-din və Müizz əd-din vaxtı (XII əsrin sonu XIII əsrin əvvəli) o hələ hiss olunurdu. Monqol hücumlarından sonra əl-K. həm siyasi, həm də ideoloji arenadan yox olur.

İbn Kərramın vəfatından az sonra əl-K. bir sıra məktəblərə parçalanır – abidiyyə, həqaiqiyyə, mühaciriyyə, ishaqiyyə və s. Doksoqraflar əl-K.-yə xas olan ət-təşbih və ət-təcsim elementlərini yumşaltmağa çalışan Məhəmməd b. əl-Heysəmi (vəf. 1019) «icmanın mütəkəllimi» (mütəkəllim əl-firqə) adlandırırdılar. Kərramın əsərləri qalmayıb, onların dünyagörüşü haqqında biz ancaq onların ideya düşmənlərinin (çox vaxt müxtəlif) şahidliklərinə görə mühakimə edə bilərik. Kərramı ötücü xassəsi maddi həyatın əşyaları təşkil edən mahiyyətin Tanrısı sayırdılar. Mahiyyət Tanrısını onlar cisim kimi xarakterizə edirdilər. Onlar öyrədirdilər ki, Allahın Özündə yaratdığı hər şey məhvedilməzdir, deməli Dünya da, gələcəkdə məhvedilməz və əbədidir, baxmayaraq ki, onun ibtidası keçmişdədir. K. iddia edirdilər ki, İlahinin əbədi atributları bilik, əzəmət, həyat və iradədir (məşi`ə). Lakin əbədi iradə atributu ilə yanaşı onlar zaman daxilində baş verən və iradənin məkan və zamanda yayılmasının rəmzi olan istək və arzu atributunu qəbul edirdilər. K. Allahı hər şeyin yaradıcısı elan edirlər, lakin kəsbə konsepsiyasında onlar insanın öz əməllərini qeyd edirlər. Əl-K.-də ideyalar irəli sürülür ki, onlara görə Allah Dünyanı tutarlı etmiş və O, orada baş verənlərin «dağarcığı» rolunu oynayır və Dünyada mövcud olan heç bir cisim və onların ötəri təzahürlərindən heç biri Onun qabaqcadan təyinatına tabe deyil. Əbdül-Qahir əl-Bağdadi bu dünyagörüşləri «materialistlərin» (əshab əl-həyulə) dünyagörüşləri ilə tutuşdurub, onları «misilsiz yenilik» kimi xarakterizə edərək qeyd etmişdir ki, onlara yaxın hətta nə mötəzililər, nə də cəhmilər gəlmişlər.

Mötəzililərin ardınca K. insan ağlının müstəqil olaraq, kəşfin köməyi olmadan xeyri şərdən ayırmağı bacarmaq imkanı haqqında qeyd edirdilər. Onlar habelə Peyğəmbər (s) missiyasının həqiqiliyi xeyrinə arqument kimi gətirilən möcüzəni inkar edirlər, hesab edirlər ki, axırıncı (missiya) ancaq ağıla uyğun gələn dəlillərlə sübut olunmalıdır. İbn Kərramın adına yazılan, hissələri İbn Dəi (İbn Dəi. Təbsirat əl-a'vamm – Tehran, 1935) tərəfindən gətirilən Kitab əs-sirr əsərində ilahi müdrikliyi haqqında görüş Dünyada ədalətsizliyin və şərin olmasına istinadən təkzib edilir.

Mürciilərin ruhunda (bax: əl-mürci'ə) K. iman və əməli çox sərt fərqləndirirdilər və iddia edirdilər ki, iman ancaq Allahı sözlə tanımaqdır, o hər hansı müəyyən əməllərlə bağlı deyil, «La ilahə illə-l-Lah,

Məhəmmədun rəsulu-l-Lah» formulasını deyən hər bir adamı mömin müsəlman hesab etmək olar. Siyasi məsələdə K. imamın müsəlman icması (bi-icma əl-ummə) tərəfindən seçilməsi nöqteyi-nəzəriyyəsini dəstəkləyirdilər, onun ilahi əmri ilə təsdiq və ya təyin edilməsi ilə (bi-nass, bi-t-təyin) yox və burada iki eynihüquqlu imamın eyni vaxtda, lakin müxtəlif ölkələrdə (məs: Əli (ə) Mədinə və İranda, Müaviyə- Dəməşqdə) olmalarına icazə verilirdi.

**Ədəbiyyat:** İslam, 133-134; аш-Шахрастани. Книга о религиях, göst.; G.E.Bosworth. The Rise of the Karamiyyah in Khurasan.- M.W. 1960, 50, 5-101; yenə o. The Ghaznavids. Ebinburgh, 1963; J.van Ess. Ungenützte Texterur Karramiya. Eine Materialsammlung. Heidelberg, 1980.

**Kisva, Kisvə (kisə)** – əl-Kəbənin divarlarını örtən örtük. O, səkkiz parça ipək və pambıqdan hazırlanmış və ya qara rəngli yun parçadan tikilir. K.-nın divarın yuxarısının üçdəbirini örtən hissəsi Quranın (3:96/90) ayələrini ifadə edən qızıl tikmə ilə bəzədilib: «Həqiqətən, insanlar üçün tikilən ilk ev Bəkkədəki evdir...» Ondan əlavə K. üzərinə Quranın daha yeddi surəsi - 3, 9, 18, 20, 39, 67 (ayələri) tikmə ilə yazılmışdır. Əl-Kəbəyə giriş də üzərində Quran ayələrinin tikmə ilə yazılmış xüsusi parça ilə (burqa) örtülmüşdür.

İslamaqədərki əl-Kəbəni K. ilə örtmək adəti rəvayətlə Himyəri çarı Əs′əd əl-Kamilə gedib çıxır. Məhəmməd (s) vaxtı K. Yəməndə hazırlanırdı. Lakin, artıq Xəlifə I Ömər vaxtı K.-nı Misirdə hazırlamağa başladılar. K.-nın alınıb Məkkəyə göndərilməsinə, müqəddəs yerlərin himayəsinə xəlifə tərəfindən xüsusi bir əlamət kimi baxılırdı (Əl-Məmun vaxtı K. ildə üç dəfə dəyişdirilirdi, əl-Mütəvəkkil hər iki ayda təzə K. göndərirdi). Hazırda, Ömər vaxtı K.-nın Misirdə hazırlanmasına gedib çıxan ənənə saxlanılır. Hər il həcc ziyarətinə gedən Misir zəvvarlarının karvanı ilə Məkkəyə təzə K. göndərilir. Köhnə K.-nı çıxarırlar, o, əl-Kəbənin qoruyucularının və Məkkənin şərifinin sərəncamına verilir, zolaqları doğranıb təbərrük kimi zəvvarlara paylanır.

**Ədəbiyyat:** İslam, 138; Hughes. Dictionary, 279-280; Gaudefroy-Demombynes. Pelerinage, 33; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 145-146.

**Əl-Kubra,** Nəcməddin, Şeyx Əbülcənnab Əhməd b. Ömər (1145-1221) görkəmli fars sufilik nəzəriyyəçisi və praktiki, sufi kubraviyyə qardaşlığının yaradıcısı - banisi, Əli nəslinə öz rəğbətini gizlətməyən polemikaçı (mübahisəçi), əhalisi əhli sünnə olan Hivakda (Xarəzm) doğulub, gənclikdə hədis və kəlamı öyrənib və dini fəaliyyətə ənənəçi kimi başlayıb. Misirə

gələndən sonra o, fars şeyxi Ruzbixan əl-Vazzan əl-Misrinin (vəf. 1189) sufi dərnəyinə qoşuldu və onun qızı ilə evləndi. Bir neçə ildən sonra əl-K. Təbrizə gəlib, Əbu Mənsur Hafizin rəhbərliyi altında ilahiyyatı öyrənməkdə davam etdi, lakin «coşqun» Bab Fərəc Təbrizinin təsiri altında dini elmi buraxıb sufilik yolunu tutdu. Bir müddət o, Həmədanda Əmmar bin Yasir əl-Bidlisinin (vəf. 1187) şagirdi oldu, sonra isə Dizfulda İsmail əl-Kisranın (vəf. 1193) şagirdi oldu, o, ona xirqeyi təbərrük (başqa mənbələrə görə əsl xirqə) geydirir, sonra o, Misirə, Ruzbixanın yanına əl-K.-ya gedir. Ruzbixan onu tam hazırlıqlı hesab edib, 1185-ci ildə onu (rəhbərlik və inisiasiyada) geniş səlahiyyətlə vətənə göndərdi. O, Gürgəncdə xanəgah və kubraviyyə qardaşlığının əsasını qoydu. Əl-K.-nın çoxsaylı şagirdlərindən sufizmin görkəmli nəzəriyyəçiləri və sufizmə aid klassik əsərlərin müəllifləri meydana çıxdılar, buna görə onu şeyx-i vəlitaraş («mürəbbi-müqəddəs adamların heykəltaraşı) adlandırırdılar. Onlardan sufi şair Nəcməddin Dayə Razi (vəf. 1256), Sə′dəddin Həmmuyə (vəf. 1252), Seyfəddin Bəharzi (vəf. 1261) və başqalarını göstərmək olar. Əl-K. monqollar Gurgənci tutduqları vaxt həlak olub (və ya itgin düşüb), çox güman, öz sabit ənənəsinə görə o, şagirdləri ilə birlikdə əldə silah Gurgənci qorumuşdur. Onun qəbri Günə-Ürgənc qəsəbəsində xanəgahın yanındadır.

Əl-K. özünün idrakin sufi yolu məktəbini yaratdı. Əl-K.-ya görə insan dünyada olanları özündə cəm edən atomlar aləmidir və belə çıxır ki, o (insan), «Allah rəhm edəndir, rəhmlidir» keyfiyyətindən başqa bütün ilahi xassələri özündə cəm edə bilər. Bu xassələr özlərinə uyğun olaraq ali səma sferalarında yerləşdikləri üçün sufi irəliləmə-kamilləşmə yolu ilə gedərək, belə yerə çatdıqda müəyyən ilahi xassəyə malik olur. Lakin göstərilən xassələrin dalınca hansı yolla getməyi bilmək üçün yolun qayda və qanunlarına, sərt qadağaya, öz iradəsini rəhbərliyin iradəsinə tam tabe etməyə dəqiq riayət edilməlidir. Əl-K.-nın inamına görə, fikrən Allahla birlikdə olanda Allahın adlarına durmadan diqqəti mərkəzləşdirmək sufi anlamaya və biliyə aparır. O, neofitin sufi təmrinləri vaxtı müşahidə etdiyi – nöqtələr, ləkələr, dairələrin işıqlı-rəngli rəmzinin dəqiq dərəcələrini vermişdir: qara rəngdə qəbul edilən hissiyyatlar mərhələlərindən keçərək qara-qırmızı ləkələrə dəyişir, bu, yaşıl rəngin ilahi mərhəmətinin yaxınlığı haqqında xəbər verənədək davam edir. Əl-K. hesab edirdi ki, ancaq rəhbər həqiqəti dərk etməyə gətirə bilər, belə ki, sufinin xəyalında guşənişinlikdə meditasiya vaxtı yaranan fikirlər – surətlər (xəvatir) Allahdan olduğu kimi Şeytandan da, qəlbdən olduğu kimi şəhvəti ürəkdən də, mələklərdən olduğu kimi cinlərdən də ola bilər. Əl-K. həm də insan ağlı və ruhunun (lətaif) əldə oluna bilməyən ruhi mərkəzləri haqqında öz nəzəriyyəsini qurmuşdur. «Əl-Cünyedin yolundan» ayırmadığı öz yolu üçün əl-K. kubraviyyə qardaşlığının əsasları və müridin əxlaq qaydlarının (sifət əl-ədəb) 10 əsasını

hazırlamışdır. Əl-K. öz görüşlərini ərəb dilində yazdığı bir sıra traktatlarında ortaya qoymuşdur, onlardan ən əsasları: Fəvaih əl-cəmal fi fəvatih əl-cəlal, Əl-Üsul əl-′aşara, Risalət əl-xə`if əl-ha`im min laumət əl-ləim. Bu əsərlər hifz olunub və nəşr olunub. Onun tərəfindən başlanan Quranın sufi şərhini o, axıra çatdıra bilmədi, bu işi onun şagirdləri və ardıcılları – Nəcməddin Dayə Razi və Əlaüddövlə əs-Simnani başa çatdırdılar.

**Ədəbiyyat:** İslam, 139; Djami. Nafahat, 279, 280-487; Dara Şekux. Safinat, 105a-113b; əş-Şüştəri. Məcalis, 136-137; Xəzinat, 2, 12, 13, 258-261; В.А.Жуковский. Развалины Старого Мерва. Спб., 1894. göst. Бертельс. Суфизм, 324-325; Демидов. Суфизм. 32-38; Г.П.Слесарев. Хорезмские легенды как источник по истории религиозных культов Средней Азии. М., 1983, 142-158; Mole. Les Kubrwiya, 70-74; Trimingham. Orders. Index; Algar. Observations; Amoretti. Proposito; Schimmel. Dimensions, 254-258; N.Algar. Kubra. – EI, NE, 5, 299-301.

**Kubraviyyə** – XIII əsrin əvvəlində Xarəzmdə Nəcməddin əl-Kubra (1145-1221) tərəfindən yaradılan sufi qardaşlığı, əl-Cüneyd əl-Bağdadinin «ayıqlıq» haqqında təlimini dəstəkləyən 12 ana qardaşlıqlarından biri. O, Orta Asiya sufilik məktəbini təmsil edirdi, ənənəvi olaraq sünnilərə aid idi, öz ruhani irsini (sənəd) Mə′ruf əl Kərxi (vəf. 816) vasitəsilə Əbubəkrə və ya Əli ibn Əbu Talıbə aparıb çıxardır. K. üzvləri arasında Əliyə rəğbətin yayılması XV əsrdə K.-dən ayrılan iki müstəqil şiə qardaşlığının – zəhəbiyyə və nur-bəxşiyyənin yaranmasına gətirib çıxartdı.

Qardaşlıq (K.) şərqdə müstəqil olaraq mövcud idi, orada onun icmaları və iqamətgahları var idi. Qərbdə isə onun aktiv fəaliyyəti qeyd olunmayıb.

K.-nin iyerarxiya üzrə yerli iqamətgahların mərkəzilərə tabe olmasını bildirən vahid təşkil olunmuş sistemi yox idi. Onları daha çox formal təşkilat deyil mənəviyat və məqsədlər birləşdirirdi. K.-də (iqamətgah səviyyəsində) müstəqil və özünüidarəedən quruluş var idi: yerli icmalar, adi təşkilatlı iqamətgahlar, qaydalar və üzvlərin davranış təcrübəsinə rəhbər (xəlifə) başçılıq edirdi. Belə ki, məsələn, Xarəzmdəki Nəcməddin əl-Kubra xanəgahı, onun şagirdi Seyfəddin Baharzi (vəf. 1261) tərəfindən Buxara yaxınlığında Soktaridə əsası qoyulan xanəgah belələrindəndir. Onun nəzdindəki K. icması XVIII əsrin axırına qədər aktiv surətdə fəaliyyət göstərdi, onun üzvləri isə əl-Kubranın fikirlərini Çinin qərb sərhədlərinədək yaydılar. Əl-Kubranın başqa şagirdi Sə′dəddin Həmmuyə (vəf. 1252) Bahrabadda (Xorasan) iqamətgah və onun nəzdində dərnək yaratdı, onun oğlu Bədrəddin İbrahim isə 1295-ci ildə elxan Qazanı islama gətirdi (müsəlman etdi). Əvvəlcə qardaşlıq kollektiv həqqaya getmə vaxtı (səma′) yüksək səslə zikretmə təcrübəsini keçirirdi, bu da Orta Asiya sufiliyinin ənənələrinə zidd idi. Nəticədə K.-nin bir neçə qolları və qrupları bu təcrübədən imtina edib, K. iqamətgahında ancaq

astadan və şəxsi zikretməyə keçdilər. Soktaridə hər iki növ zikr XVIII əsrin axırına qədər yerinə yetirilirdi.

K. bir sıra qız qardaşlığı və müstəqil qollar yaratdı ki, onlar müsəlman dünyası Şərqində geniş yayıldılar və özlərinin şəcərələrini əsasən qardaşlığın banisinin şagirdi Məcdəddin Bağdadiyə (Bağdadək, Xarəzmdə kənddir, vəf. 1209 və ya 1219) aparıb çıxarırlar: Hindistanda Seyfəddin Baharzinin şagirdi, xəlifə Nəcibəddin Məhəmməd (vəf. təxm. 1600) tərəfindən (Dehli və Biharda) yayılmış Firdovsiyyə qardaşlığı; Əbdürrəhman əl-İsfəraini (vəf. 1317) tərəfindən yaradılan K.-nin Bağdad qolu-nuriyyə; mənşəyi vəhdət əş-şuhud təliminin yaradıcısı Rükn əd-din Əlaud-dövlə əs-Simnanidən (1261-1336) gələn rükniyyə qardaşlığı; rünkiyyədən ayrılan, seyyid Əli b. Şihabəddin əl-Həmədani (1314-1385) tərəfindən yaradılan həmədaniyyə 'aliyə qardaşlığı, Kəşmirin islamlaşdırılması onun aktiv fəaliyyəti ilə bağlıdır, bu , K.-nin silsilə qollarından ən məşhurudur; İshaq əl-Huttəlani (1423-cü ildə qətl edilib) tərəfindən yaradılan Xorasan həmdaniyyə 'aliyə qolu-iğtişaşiyyə qardaşlığı; iki şagirdin yaratdıqları iki müstəqil şiə qardaşlığı: banisi Abdulla Bərzişabadı Məşhədi (vəf. XI əsrin ortaları) olan zəhəbiyyə və banisi Nurbəxşi ləqəbli seyyid Məhəmməd b. Məhəmməd (1392-1464) olan nurbəxşiyyə qardaşlığı.

Nəcməddin əl-Kubranın qoyduğu nəzəri özülə əsaslanaraq onun şagirdləri və ardıcılları qardaşlığın sufi dərkedilmə yolları haqqında təlim hazırladılar, o, «əl-Cüneydin yoludur», d.d. mərasim təmizliyi, qadağa, sükut, dünyəvilikdən çəkinmə, Allahı fikrən xatırlama; müridə öz yuxularının və görüntülərinin mənalarını aydınlaşdıran təcrübəli rəhbərin təlimi (nəsihətləri). Əl-Kubra isə K. yolunun 10 xüsusiyyətini hazırlamışdı, onlar tərəfindən «Allaha tərəf gedənlərin və Allahda olanların» yolu adlandırılan onun üçüncü-axırıncı mərhələsində (ət-tariq) əsas məğzin 10 prinsipi var: 1. Tövbə-öz istəyi ilə Allaha qayıtmaq, Allahın əmri olmadan öz arzusu ilə Allaha məhəbbət, özünün «mən»indən imtina etmək. 2. Zühd fi-d-dünya-bütün dünya nemətlərindən (daşınan və daşınmaz əmlakdan) imtina, bunlara malik olmaq istəyini boğmaq kimi bir şey. 3. Təvəkkül alə-l-Llah (müq. et. Q. 3:122/118, 159/153) – hər şeydə Allahın mərhəmətinə və əzəmətinə arxalanmaq, bu dünyada aktiv həyatdan könüllü olaraq əl çəkmək. 4. Qənaət-həyatın dəstəklədiyi hər şeydə mülayimlik və azla razılaşmaq, pis məşğuliyyətlərdən (çox yemək, bahalı paltarlara hərislik, bayram əhval-ruhiyyəsi və s.) azad olmaq. 5. Uzlə-tənhalıqda ruhu möhkəmlətmək: danışmamaq, dinləməmək, baxmamaq. Ancaq şeyxə qulaq asmaq, ölü mürdəşirin əli altında olan kimi onun əlində olmaq. 6. Mülazimat əz-zikr-fikrən, könüllü olaraq, daim Allahı xatırlamaq, zikr etmək, ürəyə alçaqlığın, həsədin, simicliyin, ikiüzlülük və sairənin yolunu bağlamar. 7. Təvəccüh ilə-l-Llah – bütün varlığı ilə Allaha yönəlmə, Ona

qərəzsiz məhəbbət, Ondan başqa heç bir şey mövcud deyil. 8. Səbr – şəhvani ehtiraslarla mübarizədəki əzablara könüllü olaraq dözmək, səbr-dözümlülüklə qəlb cilalanır və sufinin ruhu təmizlənir. 9. Muraqabə-əldə olunan (ruhi sakitlik) nəzarət, çünki qəlb təmizlənib və pis ehtiraslardan azad olduğu üçün o, Varlığın mərhəmət darvazasının taybatay açılmasının intizarındadır. 10. Riza` - sufi Allaha olan öz məhəbbətini hiss etməkdən azad olur. İndi onun üçün mühüm olan fakt odur ki, o, özünün sevdiyi Allahını razı salmışdır. Allaha məhəbbət sufinin şəxsi hissiyyatı kimi yox olur və Allahın özünün istəyi olan (əmri yox) yeni keyfiyyətə çevrilir.

K. qardaşlığında rəngli işıq sistemi rəmzi yaradılmış və diqqətlə hazırlanmışdır, hər bir rəng sufinin dərketmə yolunda müəyyən dərəcəyə çatması demək idi. Ağ rəng-islam, sarı-iman, tünd göy-İlahi mərhəməti (ehsan), yaşıl-sabit rahatlıq (itmi`nan), mavi-həqiqi əminlik (ikan), qırmızı-intuisiya ilə bilik (irfan), qara isə-Allaha qızğın məhəbbət və ekstatik həyəcan (həyəman).

On əsas prinsip kimi rəngli işıq rəmzi də öz gördüklərini və yuxularını rəhbərinə danışmağın icbari olması sonralar başqa müsəlman qardaşlıqları (qədiriyyə, nəqşbəndiyyə, xəlvətiyyə) və onların qolları tərəfindən qəbul edildi.

**Ədəbiyyat:** İslam, 139-140; Dəh qaide-yi Həmədani. EAŞİLŞ-nin əlyazıması. C.1092, 60a-63a; Djami. Nafahat, 480-487; The Tarikh-i-Rashidi of Mirza Muhammad Haidar. Dughlat: A. History of the Moghuls of Central Asia. An English version ed. with commentary, notes, and map by N.Elias. The Translation by E.D.Ross. L., 1895, 432-435; Dara Şekux. Safinat, 105a-113b: əş-Şüştəri. Məcalis, 147-149; M.Mole. La version persane du Traite des dix principes de Najm al-din Kubra. – Farhange Iran-zamin. Tehran, 1958, 38-66; yenə o. Les Kubrawiya, 74-142; yenə o. Professions; S.H.Nasr. Le shi`isme et le soufisme; Leurs relations principales of historiques. – Le shi`isme imamite, 228-231; Trimingham. Orders, 55-58; Amoretti. Proposito, 1-IV; Schimmel. Dimensions, 256-258.

**Əl-Kulini (və ya əl-Kulani, əl-Küleyni), Məhəmməd b. Yaqub Əbu Cəfər (vəf. may 941)** – imami mühəddis və fəqih, ilk imami (cəfəri) hüququnun kodifikatoru. Rey yaxınlığındakı Kulin və ya Küleyn kəndində doğulub, orada onun atasının məzarı məşhurdur. Ömrünün çox hissəsini əl-Kulini Rey və Qumda keçirib – o vaxtlar oralar şiə alimlərinin mərkəzi idilər. İmami hədislər sahəsində onun nüfuzları əsasən bu iki imami məktəblərinin nümayəndələri idilər. Onların içərisində ən-Nəcaşinin «Rey imamilərinin şeyxi» adlandırdığı, onun dayısı (əmisi) Əllan əl-Kulini, Məhəmməd b. Yəhya əl-Əttar əl-Qummi, Əhməd b. İdris əl-Əş'əri (vəf.

919) və başqaları da vardır. Ömrünün son illərini əl-K. Bağdadda, Bab əl-Kufə rayonunda keçirmişdir, oradaca vəfat etmişdir.

İmami ənənəsi əl-K.-ni imami məzhəbinin novatoru «təzələyicisi» (müceddid) kimi, ilahiyyat və hüquq sahəsində böyük nüfuz sahibi kimi xarakterizə edir. Bu qiymət həlledici dərəcədə onun həyatının əsas əsəri olan və ömrünün iyirmi ilini verdiyi «Əl-kafi fi üsul əd-dinin» yüksək şöhrəti ilə bağlıdır. Bu, şiə (imami) rəvayətlərinin toplusudur, orada 16 minə qədər hədis cəmlənib, sistemləşdirilmişdir. Əsər qorunub saxlanmış, bir neçə dəfə nəşr olunmuşdur. O, 30 «kitabdan» (cilddən) ibarətdir, hər «kitab» (cild) hədislərin qruplaşdığı çoxsaylı başlıqlara (bab) bölünmüşdür. Mövzu rubrikasına daxil olmayan hədis hər «kitabın» sonunda ayrıca başlıq – «Bab ən-nəvadirdə» cəmlənmişdir. Bütün iş qeyri-bərabər olan iki hissəyə ayrılmışdır: ilahiyyatın, peyğəmbərliyin, imamətin, dini əxlaqın və s.-nin nəzəri məsələlərini işıqlandıran üsul («əsaslar») və füru («qollar») əsasında həll olunan fiqhin xüsusi məsələləri - birinci hissədədir. İkinci hissə özü də iki kateqoriyaya ayrılır: dini vəzifələr (namaz, ziyarət və s.) və hüquqi qaydalar (nikah, boşanma, varislik və s.).

Bu nəhəng işin təbliğində əl-K.-nin şagirdləri – Əbu Qalib əz-Zurəri (vəf. 979), Əli b. Əhməd əd-Dəkkak, Əli b. Abdullah əl-Varrak böyük rol oynamışlar. Lakin əl-Kafini (əl-K.-nin əsərini) əsas məşhur edən imami ilahiyyatçı və fəqih Məhəmməd ət-Tusi (vəf. 1067) oldu, o özünün fiqhə aid hədislər toplusu əl-İstibsar əsərində bu əsərə çox geniş surətdə əsaslanmışdır. Səfəvilər dövründə çox məşhurlaşan əl-K.-nin işi imami fiqhinə görə dörd mənbədən birinci (əl-üsul əl-ərbəa) olaraq, hədislərin qanuni külliyyat statusunu qazandı: ona çoxlu şərhlər, xülasələr yazıldı və fars dilinə tərcümə edildi.

Əl-K.-nin işi imami ideologiyasının nəzəri əsaslarının hazırlanmasında olduqca mühüm rol oynadı. Şiə məzhəbində o, əl-Buxarinin Əs-Səhihinin sünnilikdə tutduğu yerdən daha mühüm yer tuturdu, belə ki, o, imami şiələr tərəfindən həyatın bütün sahələrində həlledici nüfuz kimi qəbul edilirdi. Şiə hədislərinin ən erkəni və ən kamil toplusu olduğu üçün o, şiələrin ruhani həyatı haqqında olduqca qiymətli materialı özündə cəmləşdirir, o, şiələrin dini həyatı, folkloru, adətləri, mədəni həyatı və s. haqqında konkret məlumatlarla zəngindir.

Əl-Kafi ilə yanaşı mənbələr əl-K.-nin daha beş əsərinin adlarını qeyd edirlər, o cümlədən itmiş sayılan Kitab ər-rədd ələ-l-qaramitə və Kitab ər-ricəl.

Müasir şiə dünyasında, ilk öncə İran və İraqda əl-Kafinin nüfuzunu və onun müəllifinin xatirəsini yüksək tuturlar. Əl-K.-nin məzarı indi də Bağdadda qorunur və ziyarət olunur.

**Ədəbiyyat:** İslam, 140-141; əl-Kulini. Əl-Kafi fi üsul əd-din, 1-8, Tehran, 1961; ən-Nəcaşi. Ər-Ricəl, 292-293; ət-Tehrani. Təbəqat, 4, 314-315; Прозоров. Шиитская историография, 189-192 (№66); W.Madelung. Al-Kulayni. – EI, NE, 5, 364.

**Kuttəb (ərəbcə, aramidən götürülüb)** – əlifba və Quranın öyrədildiyi ibtidai məktəb. Orta əsrlərdə K. sözü geniş istifadə olunurdu, indi isə o, Ərəbistan, Misir və Tunislə məhdudlaşır. (Quran) ibtidai məktəbi üçün başqa adlar (məktəb, mekteb (türkcə), mədrəsə və s.) var idi və indi də mövcuddur. Onun yerləşməsi üçün adətən hər hansı bir ictimai binanın otağını və ya həyətini istifadə edirdilər.

**Ədəbiyyat:** İslam, 145; Бартольд. Əsər. 6, III; A.S.Tritton. Materials on Muslim education in the Middle Ages. L. 1957, 1-26; Maqdisi. Rise, 19, 83, 219.

**Küfr** – inanmamazlıq, imansızlıq, İslamı tanımamaq və ya onun qaydalarından uzaqlaşmaq, rəsmi dini ehkam və ayinlərdən, doktrinalardan kənara çıxmaq, hər hansı bir nəzəriyyəni küfr adlandırmaq, onu mühakimə və rədd etmək deməkdir. Həqiqətdə isə dini ixtilaflar arxasında mütəlif siniflərin maraqları və ziddiyyətləri gizlənirdi. K. fəsiləsinə ciddi pis əməllər və cinayətlər daxildirlər: çoxtanrılılıq, namazdan imtina etmək, cadugərlik, zina, intihar, sərxoşluq, ehtiraslı oyunlar və s. «Alimin» öz nüfuzundan istifadə edib, iman sahiblərini həqiqi yoldan uzaqlaşdırmağı da K. sayılır.

Məhz nəyin K. sayılması və onu edənlə necə rəftar edilməsi haqqında müxtəlif dini-siyasi cərəyanlar və ilahiyyat-hüquqi məktəbləri arasında artıq İslamın mövcud olduğu ilk əsrlərdə ciddi fikir ayrılıqları yaranmışdı. VII əsrin ikinci yarısında xaricilər onların hərəkatına qoşulmayan hər bir müsəlmanı kafir, d.d., imansız adlandırmağa çağırırdılar. Lakin sonralar onların arasında daha mülayim tendensiya («bitərəf» - vaqifilər) yaranmasına baxmayaraq, ənənəyə görə məhz onlar K.-ə «qatı» nöqteyi-nəzərin sahibləri sayılırdılar. VII əsr və VIII əsrin əvvəlində mürciilərin «mülayim» cərəyanı yarandı, onlar hesab edirdilər ki, K. edən insan kafir sayılmır və müsəlman icmasından çıxarılmır, onun haqqında mühakimə Qiyamət gününədək saxlanılır və o, təkcə Allaha aiddir. İslamda ortodoksiyanın olmaması hər bir məktəbin və ya cərəyanın nümayəndələrinin kafirlərə öz opponentlərini elan etməyə səbəb olmuşdur. Əyani misal olaraq xəlifə əl-Mə`mun tərəfindən qərara alınmış mihnə («sınağı») göstərmək olar, onun vaxtında Quranın ilahi yaradıcılığı olmadığını iddia edən ənənəçilər ən ağır K.-lə – çoxallahlılıqla (şirk) ittiham olundular.

Hazırda K. kateqoriyası bəzi müsəlman dairələri (məs: «Müsəlman qardaşlar») tərəfindən antikommunist və antidemokratik təbliğdə geniş istifadə olunur.

**Ədəbiyyat:** İslam, 145; аш-Шахрастани. Книга о религиях, 108-126; С.М.Прозоров. «Ортодоксальное» и «еретическое» в исламе. – аш-Шахрастани. Книга о религиях, 10-16; W.Björkman. Kafir. – EI, NE, 4, 425-427; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 147.

**Qabil və Habil** – müsəlman rəvayətlərinin surətləri, Adəmin (ə) iki oğlu, Bubliya Kayn və Aveli. Quranda onların adları yoxdur, lakin hekayə var ki, Adəmin (ə) oğlanları qurban kəsirlər, lakin onların birinin (Habilin) qurbanı qəbul olunur. Qurbanı qəbul olunmayan (Qabil) qısqanclıqdan o biri qardaşını öldürməklə hədələyir: o birisi deyir ki, o, özü qardaşına əl qaldırmaz, qatil isə birbaşa Cəhənnəmə gedəcək. Onların biri (Habil) qətl olundu, Qabil meyyitlə nə edəcəyini bilmirdi. Allah qarğa göndərdi, o, yeri qazaraq meyyiti gizlətmək yolunu ona öyrətdi. Qabil bunu görərək peşman oldu və dedi ki, İlahi, mən bu qarğadan da acizəm. Bundan sonra, deyilənə görə bənu İsrailə öldürmək qadağan olundu, belə ki, «hər kim ki, cana görə və Yer üzərində bəlayə görə deyil, can öldürsə o, elə bil ki, bütün insanları öldürüb» (Q. 5:27/30-32/35).

Şərhçilər Q.-in (Kayn) və H.-in adlarını çəkib, onların savaşının səbəbini xəbər verirlər. Qardaşların hər birinin özü ilə əkiz bacısı vardı. Adəm onlara hərəsi o birinin bacısına evlənməyi əmr etdi. Lakin Q. Habilin gözəl olmayan bacısı Labüdəyə deyil, öz gözəl bacısı Əqliməyə evlənmək istəyirdi. Bu mübahisəni qurbankəsmə şəklində püşk həll etməli idi. Bundan sonra baş verən qətl Yer üzündə birinci olduğundan Q. meyyitlə nə edəcəyini bilmirdi və bir il onu kisədə belində gəzdirdi, ancaq onu qarğa torpağı qazıb ölü qarğanı basdıranda görüb öyrəndi. Q.-in nəsilləri haqqında rəvayətdə deyilir ki, onlar insanları xeyirxahlıq və əməkdən ayıran musiqi alətlərini, oyunlar və əyləncələri icad etmişlər. Cənubi Ərəbistanın xalq rəvayəti Q.-in qəbrini Ədəndə yerləşdirir. Adəm (ə)-ın oğlanlarının tarixi ən gec gələn surələrdən birindədir və o, müxtəlif davranış və qadağaların qaydaları ilə əlaqədardır.

**Ədəbiyyat:** İslam, 124; ət-Təbəri. Tarix, 1, 137-164; yenə o, Təfsir, 6, 119-129; əs-Sə'ləbi. Qısas, 25-26; əl-Kisə`i. Qısas, 72-73; əl-Beydavi. Təfsir, 1, 254; Horovitz. Untersuchungen, 131; Speyer. Erzählungen, 24-28; Gaudefroy. Demombynes. Mahomet, 293-294; Paret. Kommentar. 119-120; G.Vajda. Habil wa Kabil. – EI, NE, 3, 14-15; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 92.

**Əl-Qadiriyyə** – əsası məşhur hənbəli möizəçisi Əbdülqadir əl-Gilani və ya Cilani (1077-1166) ilə əlaqələndirilən sufi qardaşlığı. Təşkilat kimi XIII əsrin sonunda qeydə alınmışdır.

Əl-Q. 12 ana sufi qardaşlığına daxil olub öz silsiləsini Əli ibn Əbu Talib və ya Əbubəkr qoluna bağlılığa aparıb çıxarır. Özünün sünni görüşlərinə görə o, əl-Cünyed əl-Bağdadinin (vəf. 910) «ayıqlıq məktəbinin» müddəalarını əsas tuturdu. Əl-Q. müsəlman aləmində ən geniş yayılmış qardaşlıqdır (təriqətdir). Əbdülqadir sufi deyildi, lakin onun müstəsna dərəcədə havadarlığı və möcüzəkarlığı kütlələrə sufiliyin dərketmə yolunun ideya və təcrübəsini təlqin etmək üçün istifadə olundu. Əl-Q. ədəbiyyatında təqdim olunmuş və Əbdülqadirin nüfuzu ilə işıqlandırılmış qayda və doktrinalar külliyyatı sufilik üçün xarakterik olan təcrübəni formalaşdırdı: mürşid (şeyx, pir, xəlifə, müqəddəm) öz şagirdlərini (mürid, aşiq, talib) haminin adından qardaşlıqla tanış edir, şagird isə bu vaxt rəhbərə - deməli hamiyə tam tabe olmağa and içir.

Əl-Q.-də tarixən iki müstəqil inkişaf edən cərəyan aydın görünür. 1. Onun tərəfdarları Əbdülqadirdə təkcə müqayisə olunmaz müqəddəsi görmürdülər, həm də onu ilahiləşdirirdilər (bəzən açıq şəkildə), hesab edirdilər ki, o, daim Allahdan sonra məxluqun mütləq ağası olmuşdur, çünki o, bütün həyatı boyu belə olmuşdur. Bu cərəyana əl-Q.-nin Sudanda, Qərbi və Şimali Afrikada olan çoxsaylı qrup və qolları (burada onları toplu halda cilalə və ya cilanə adlandırırlar) aid edilir. Cilalənin baxışları islam doktrinası ilə birbaşa əks şəkildə olmuşdur və həmişə ilahiyyatçıların kəskin hücumlarına məruz qalırdılar.

2. Əl-Q. adının tez-tez verildiyi cərəyan mərasimin xüsusiyyəti ilə fərqlənir (xüsusən hər iki zikrin yerinə yetirilməsində). Bununla bərabər o, öz tərkibinə görə heç də bir cür deyil və özünün baxışlarına görə tamamilə fərqlənən ayrı-ayrı qolları özündə birləşdirir. Belə ki, Qərbi Afrikadakı əl-Q. qrupunun qaydalar külliyyatı XV əsrin sonunda Hindistanda şah Məhəmməd Qövs tərəfindən yaradılan əl-Q. qolunun baxışları ilə (Allaha görə dünyanın hər şeyindən imtina etmə, möminlik, yaxınlarına hədsiz mərhəmət, sadəlik, qəlbin incəliyi, şeyxə tam tabeçilik) əsasən uyğun gəlirdi, lakin o, Kürdüstanda fəaliyyət göstərən «qatı» şiələrə yaxın olan və XVI əsrdə Hindistanda məskunlaşdırılanların təcrübəsindən kəskin surətdə fərqlənirdi. Qövs onların təcrübəsinə yoq sistemi və hinduliyin elementlərini gətirmişdi.

XIII əsrdə əl-Q.-nin fəaliyyəti Bağdadda ailə çərçivəsi ocağı ilə (1134-cü ildə tikilmiş mədrəsə və ribat, sonralar Əbdül-Qadirin qəbri üstə tikilən məscid) məhdudlaşdırıldı. Sonra əl-Q. bütün müsəlman dünyasına yayılmağa başlayır. Əl-Q. 1300-cü ildə İraq və Suriyada, XIV əsrdə Yəməndə, XV əsrdə Livanda, Fələstində, Misirdə və Hicazda, XVI əsrdə

Tunis, Əlcəzair və Mərakeşdə iqamətgahlar (zaviyə, ribatlar) yaradılmağa başladı. O əsrdəcə əl-Q.-nin üzvləri Sudan, Seneqal, Qvineya, Niger və Mavritaniyaya keçirlər. Əl-Q.-nin türk qolunun əsasını İsmail Ruminin (vəf. 1631 və ya 1643) adı ilə bağlayırlar. Türkiyədə bu qol çox məşhur idi (XIX əsrin axırında İstanbulda 33 iqamətgah – təkyə fəaliyyət göstərirdi). XVI əsrdə əl-Q. Əfqanıstan və Hindistanda kök saldı (Sind və Dekan), Yəməndən o, İndoneziyaya (XVIII əsr) və Malakka yarımadasına (XX əsr) keçdi. İranda əl-Q. heç bir dərin kök salmamışdı, lakin Kürdüstanda onun üç qolu bu gün də fəaliyyət göstərir. Bir sıra ölkələrdə əl-Q.-nin mühüm siyasi təsiri vardır: XIX əsrdə qardaşlıq Sudanda müstəmləkəçilərə qarşı əldə silah mübarizə edirdilər, elə o vaxt şeyx Əbdülqadir Əlcəzairdə fransızlara qarşı mübarizəyə rəhbərlik edirdi. Hazırda əl-Q. Qərbi Afrikada ciddi siyasi və dini qüvvə olub, ictimaiyyətin ən çox mühafizəkar elementlərini cəmləşdirir. Əlcəzairdə əl-Q. qrupları XX əsrin 50-ci, Fələstində isə 70-ci illərinə qədər var idi.

Əl-Q.-nin təşkilatlanmış mərkəzi özünü müstəqil idarə edən iqamətgahdır (xanəgah, ribat, zaviyə). Bu sistemdə iqamətgahların həmrəhəbərliyi yoxdur, rəhbərlik ənənəvi irsidir: rəhbər (şeyx, xəlifə, müqəddəm, şərif) öz oğlunu varis təyin edir. Bağdadda Əbdülqadirin qəbri üstündəki xatirə kompleksi mərkəzi iqamətgah və qardaşlığın irsi rəhbərinin rezidensiyası-iqamətgahı idi. Bu ancaq mərkəzin fəaliyyətini maliyyələşdirən İraq və Pakistan qrupları tərəfindən tanınır. Tarixən hesab edilirdi ki, iqamətgahın hər bir yeni rəhbəri əl-Q.-nin başçısından vəzifəyə başlamaq üçün təsdiq almağa borclu idi. Sonralar buna az müraciət olunurdu, belə ki, Misir, Yəmən, Şimali və Qərbi Afrika, Sudan və Türkiyədə əl-Q. iqamətgahları hakimiyyət tərəfindən təyin olunmuş xüsusi şəxslərin nəzarəti altında idilər və ona tabe idilər, ondan təsdiq alıb vəzifəyə başlayırdılar.

Əl-Q. kollektiv həqqayagetmə mərasimi ilə məşhurdur (səma′, hadra), fərdi-sakit, ümumi-bərkdən zikr etməklə Leyliyyə adlanan həqqayagetmə kiçik təbillər, təmbur və fleytanın (Türkiyə və Kürdüstan) müşayiəti ilə icra olunurdu. Leyliyyə mərasimlərinin formaları ümumiyyətlə birdir, lakin bölgələrdən asılı olaraq duaların oxunması qaydaları, zikrin forması və iştirakçıların hərəkətlərinə görə fərqlənirdi. Bərkdən zikr etmə (zikr-i cəhri) üç hissədən ibarətdir: Peyğəmbərin (s) şərəfləndirilməsi üçün əl-Bərzəncinin qəsidəsinin oxunuşu, əl-Q.-nin vacibi dualarının bərkdən oxunması və iqamətgahın üzvlərinin təlimatları ilə qurtaran qardaşlığın patronunun (hami) xorla təriflənməsi (mədaih). Fərdi və ya sakit zikr (zikr-i xəfi): bardaş qurub elə oturmaq (mürəbbə`) ki, baş barmaqlar dizin altına dayansın, bədəni düz tutub, gözləri yumub, barmaqları bükərək «Allah» sözü formasında dizlərin üstünə qoyub, sufi fikrən Fatihə və İxlas surələrini oxuyur və yeddi sözdən ibarət – Allahın bu zikr üçün müəyyənləşdirilmiş

dəfə epitetləri olan zikr formulasını ifadə edir. Burada o, nəfəsin verilmiş ritminə və başının sağa-sola, qabağa-dala sərt hərəkətinin qaydasına uyğun gələn heca və sözləri fikrən ifadə edə-edə zikrə ciddi surətdə riayət edir.

Qardaşlığın üzvləri başlarında kiçik keçə papaq-arakiyyə gəzdirirlər, onun üzərində əl-Q.-nin embleması – üç sıra ləçəkli yaşıl qızılgül olur (5, 6, 7 uyğunluqla aşağıdakı mənanı verir: islamın beş əsasını, imanın altı şərtini və əl-Q.-nin zikr formulasının yeddi sözünü); onlar yaşıl rəngə üstünlük verirlər, lakin başqa rəngli paltar da geyirlər – qara və ya ağ rəng (Misirdə XIX əsrdə arakiyyə - tac ağ rəngdə idi), 99 giləli, 2 ayırıcılı təsbehləri var, bellərinə dəri bəzəyi olan enli, yun, möhkəm kəmər bağlayırlar, əllərində çomaq tuturlar. Əl-Q. qrupunun üzvləri Kürdüstanda uzun saç saxlayıb, saqqal və bığlarını qırxırlar. Əl-Q.-də olan kələntərlər təcrübəsi tərəfdarları çiyinlərində zəncir gəzdirir, qollarında və ayaqlarında da belə bilərzik, boyunlarında halqa gəzdirirlər; qardaşlıqda dilənçilik ciddi surətdə qadağan olunduğu halda onlar fəal surətdə sədəqə yığırlar.

Əl-Q.-nin demək olar bütün qrup və qolları öz həqqayagetmələrinə qadınları və başqa din sahiblərini də buraxırlar. Əl-Q.-nin əsas bayramı hər il 11 rabi əc-sənidə Əbdülqadirin şərəfinə keçirilən bayramdır. Bu gün əl-Q.-nin «müqəddəs şeyxlərinin» qəbirlərini ziyarət edirlər, həqqalarda qardaşlığın gizli dualarını oxuyurlar (hizb, vird) və musiqi alətlərinin müşayiəti ilə kollektiv zikr edilir.

**Ədəbiyyat:** İslam, 126-127; əş-Şə′rani. Təbəqat, 1, 108-113; Dara Şekuh. Safinat, 21a-71b; Djami. Nafahat, 586-590; Brown. Darvishes, 101-116, 474-477; Trimingham. Orders. Index; Hodgson. Venture, 2, 209, 216-217; Schimmel. Dimensions, 247-248; de Yong. Sufi Orders, 153-154, 156; Popovic. Orders, D.S.Margoliouth. Kadiriyya. – EI, NE, 4, 380-383.

**Əl-Qaim** – «Peyğəmbər ailəsinin» (Ali-Məhəmməd) gözlənilən üzvünü bildirən şiə ehkamı istilahı, o, qanunsuz hakimiyyətə qarşı qalxıb yer üzərində ədaləti bərqərar etməlidir. Əl-Q. gözlənilən xilaskar ideyası yəhudi-xristian dinlərində də öz əksini tapmışdır. Xilaskar ideyası bütün islam tarixi boyu şiələr arasında inkişaf etmiş və yayılmışdır. Əl-Q. haqqında baxış VIII əsrin əvvəlində Məhəmməd b. əl-Hənəfiyyənin (vəf. təqr.700-cü il) «qayıdışını» gözləyən qeysanilər arasında meydana gəlmişdir. Təqribən VIII əsrin 70-ci illərindən Əli (ə) nəslindən olan əl-Q.-in qayıtmaq ideyasını ilk ismaililər, xüsusilə də ideya xələfləri qərmətilər olan Məhəmməd b. İsmail b.Cəfərin imamətinin tərəfdarları mübarəkilər təbliğ etməyə başladılar.

Şiələr arasında əl-Q. haqqında yekdil görüş yox idi. Hər şeydən əvvəl onlar əl-Q.-in halının müəyyən edilməsində ayrılırdılar. Bəziləri onun vəfatını düz sayır, başqaları onun üçün ölümün mümkünlüyünü rədd

edirdilər, üçüncülər nə onları, nə də bunları təsdiq edirdilər və onun gizli, insanlar üçün görünməz olduğunu hesab edirdilər. Əl-Q.-in təyinatı haqqında yekdil rəy də yox idi. Burada iki nöqteyi-nəzəri («mülayim» və «qatı») ayırmaq olar. «Mülayim» şiələrin nöqteyi-nəzərincə əl-Q. Allahın əmrini yerinə yetirmək və yer üzündə ədaləti yaratmaq üçün yerə göndəriləcək. «Qatı» şiələr isə (xüsusən də qərmətilər) təbliğ edirdilər ki, əl-Q. «yeni şəriətlə» gələcək, Məhəmməd peyğəmbərin (s) şəriətini ləğv edib, «yeni Quran» elan edəcək. Başqa sözlə, onlar əl-Q.-in gəlişini təzə dinin yaradıcısının gəlişi kimi qəbul edirdilər. Əl-Q. məfhumunun çoxmənalılığı erkən islamda müsəlmanların dini-siyasi görüşlərinin rəngarəngliyini və eklektizmini əks etdirirdi.

Əl-Q.-in hakimiyyətinin rəmzi qılıncıdır (qaim bi-s-seyf, sahib əs-seyf), onun vasitəsilə o, haqsızlığı yox edəcək. Bununla bərabər o, - «Allahın əmrinin icraçısıdır» (qaim biəmri Allah) və «dövrün sahibidir» (sahib əz-zaman). Bu mənada, hər qanuni imam əl-Q.-dir.

Şiə ənənəsinə görə əl-Q. Məkkədə peyda olmalıdır, sonra o, Kufəyə gedib, oradan dünyaya rəhbərlik edəcək. Onun hakimiyyəti yeddi il sürəcək, lakin onun hər bir ili on adi ilə bərabərdir. Başqa rəvayətə görə onun hakimiyyəti 19 il çəkəcək.

İmamilər üçün 12-ci «gizli» imam Məhəmməd b. əl-Həsən (ə) olan əl-Q.-in gəlişini dirilmə (ər-rac′a) ilə əlaqələndirib, hesab edirlər ki, əl-Q.-in vəfatı ilə dirilmə və Məhkəmə (Qiyamət) günü arasında qırx gün vardır.

İmami və ismaililər arasında əl-Q. tez-tez Mehdi («düzgün yolla aparılan», «özünə Allah tərəfindən yol göstərilən», yəni xüsusi və şəxsi bir tərzdə Allahın hidayətinə nail olan») ilə eyniləşdirilir. Bu – Əli nəslindən olan «gizli» imamdır, «dövrün sonunda» peyda olacaqdır. Gözlənilən Mehdiyə inam əsas şiə islamı ehkamlarından biri oldu. Əgər sünnilər üçün gözlənilən Mehdi – «Peyğəmbərin axırıncı müavini (xəlifəsi)», onların esxatoloji görüşlərinin elementidirsə, şiələr üçün isə əl-Q. – Mehdi – «ilahi təyinetmə gücündə tam səlahiyyətli və mütləq günahsız hakimdir». Bu – varlığın qütbü (qütb əl-vücud)-dur, onun sayəsində Yer üzü mövcuddur. Dövrün sonunda onu «Kitabın» şərhi ilə peyda olacaq xristian xilaskarı Parakletlə eyniləşdirən imami ilahiyyatçılar, xüsusilə də H.Amoli (vəf. 1385) gözlənilən əl-Q.-in – Mehdinin gəlişini Quranın müqəddəs və həqiqi şərhi kimi izah edirdilər.

«Allah tərəfindən yol göstərilən – Mehdi Quranda dörd dəfə qeyd olunursa, Allahın adı əl-Hadi (rəhbər) və ilahi istiqaməti fikri bir çox dəfə zikr olunur. Mehdi sözü keçmiş, bəziləri üçün gələcəkdə Qiyamət ilə əlaqəli olan bir şəxsiyyət üçün işlənir.

İmam Hüseyn Kərbəlada şəhid olandan sonra Muxtar ibn Əbi Übeyd Əlinin (ə) başqa arvaddan olan oğlu Məhəmməd ibn Hənəfiyyəni özü

istəmədən əl-Vəsinin oğlu Mehdi adlandırdı və o, Qeysanilər firqəsinin qurucusu oldu

**Ədəbiyyat:** İslam, 127; an-Naubaxti. Шиитские секты, 165, 181; Amoli. La philosophie, 102-104, 223; W.Madelung. Kaim Al Muhammad. – EI, NE, 4, 447; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 169-170.

**Əl-Kələbadi (və ya əl-Kələbazi), Əbubəkr Məhəmməd b. İshaq əl-Buxari (vəf. 990 və ya 995 -)** – hənəfi fəqihi, ərəb dilində sufiliyə dair ən məşhur erkən sistemli əsərlərdən birinin müəllifi. Buxara ətrafı Kələbad məhəlləsində doğulub və orada da yaşayıb, görünür Buxarada vəfat edib. Hüquq kursunu əl-K. Məhəmməd b. Fadldan almış və sufi şeyxi Qasim Farisin yanında şagirdlik etmişdir. Onun yazdığı beş və ya altı əsərindən bizə ikisi gəlib çatmışdır: bunlar, Peyğəmbərin (s) bəzi hədislərinə əxlaq xüsusiyyətli müxtəsər və ifadəsiz şərh olan Mə′ani əl-əxbar və İslamın ilk üç əsri ərzində müsəlman sufiliyinin öyrənilməsində əsas (vasitə) olan əsərlərdən biri Ət-Təərrüf li-məzhəb əhlü-t-təsəvvüfdür. Kitab sonrakı sufi nəsilləri tərəfindən yüksək qiymətləndirilir, xüsusən də şeyx Yəhya əs-Söhrəverdi əl-Məqtul (vəf. 1191) qeyd etmişdir: «Əgər Ət-Təərrüf olmasaydı, biz sufiliyi bilməzdik». Bu, bizə gəlib çatan ilk əsərdir ki, orada sufilərin görüş və təcrübə sistemi izah olunmuşdur, sufiliyin islam qaydaları ilə uyğun gəlməyən ideyalarını barışdırmağa və sufiliyin bütünlüklə «möminlik» çərçivəsində yerləşdiyinin izahını verməyə cəhd edilmişdir, bu bir sistemdir ki, o, öz «dindarlığında şübhə» doğurmur. Əsər 75 fəsildən ibarətdir, onu üç hissəyə bölmək olar: I – (1-4, 64-70-ci fəsillər) tarixə aiddir; bu, sufi və təsəvvüf məfhumlarının təyinatı, ən mühüm şəxslər, onların sufilik qəhrəmanlıqları haqqında hekayə və rəvayətlərdir. II – (5-30-cu fəsillər) mədhiyyədir, bu, sufi görüşləri sistemi və onun «dindarlığının» sübutudur; III - (31-63-cü fəsillər) –sufiliyin təcrübəsi, sufilik yolunun əsas mərhələləri, sufilər arasında qəbul edilmiş texniki istilahlardır. Əl-K.-nin əsəri çoxlu şərhlərə səbəb oldu, onlardan ən çox yayılanı əl-K.-nin həmyerlisi və ola bilsin şagirdi Əbu İbrahim İsmail b. Məhəmməd əl-Müstəmli (vəf. 1402) tərəfindən fars dilində yazılmış «Nur əl-Müridin» əsəridir. Sufiliyin tarixi kimi bir mənbə olan şərh orijinal əsərdən geri qalmır. Onun nüsxələrindən biri 7 aprel 1081-ci ildə köçürülmüşdür, bu bizə qədər gəlib çatan fars əlyazmalarından ikincisi - ən qədimidir.

**Ədəbiyyat:** İslam, 128; Dara Şekuh. Safinat, 27b; əl-Kələbazi. Ət-Təərrüf; Arberry. Doctrine, IX-XVIII; yenə o. Catalogue of the arabic MGS in the library of the Indiya Office, 2. Sufizm and ethics. L., 1936, 97-98; GAS, 1, 669; G.Lazard. la langue des plus anciens monuments de la prose persane. P., 1963, 67-71.

# Q

**Qarun** – Quran surəti, Musanın müasiri, lovğa varlı, Bibliya Koreyi (sayı 16). Quranda onun adı Musanın (ə) düşmənləri olduqları üçün Allah tərəfindən məhv edilən Firon və Hamanla bir sırada çəkilir (29:39/38; 40:24/25). Həm də nəql edilir ki, Q. o qədər varlı idi ki, bir neçə güclü adam onun xəzinəsinin açarlarını güclə daşıyırdı. Öz dövləti ilə o, çox qürrələnirdi, hesab edirdi ki, onun əmlakı şəxsi bilik və məziyyətlərinin nəticəsidir. Bəziləri onu təkəbbürlüyünə görə pisləyirdi, ancaq çoxu ona həsəd aparırdı. Onda Allah Yeri alt-üst elədi, Yer, Q. və onun evini uddu. Bu, onun yerində olmaq istəyənləri ağıllandırdı; onlar başa düşdülər ki, «kafirlər xoşbəxt olmurlar!» (28:76-82).

Rəvayətlərdə bu hadisə çoxlu detallarla bəzədilib. Q.-nun «biliyi» haqqında Quran sözlərinin əsasına görə onu istədiyi şeyi qiymətli daş-qaşa çevirə bilən ən qədim əl-kimyaçı hesab edirlər. Misirdə guya Q.-nun yerə girən evinin yerində yaranmış bir neçə göl və su hövzəsini onun adı ilə bağlayırlar.

Q. surəti - Korey haqqında Bibliya hekayəsi yəhudi rəvayətlərinə oxşardır, onda həm də çar Krezun rəvayətlərinə aparıb çıxaran motivlər xüsusi inkişaf etmişdir. Q. haqqında Quran hekayəsi sonrakı Məkkə dövrünə aiddir. Onun dialoqları Məhəmmədin (s) məkkəlilərlə real mübahisəsini verirlər, hekayə özü isə Məhəmmədin (s) ünvanına olunan, «onun Allahı peyğəmbəri varlı etmir» məzəmmətinə cavabdır.

**Ədəbiyyat:** İslam, 134; ət-Təbəri. Tarix, 1, 517-527; yenə o. Təfsir, 20, 67-77; əs-Sə'ləbi. Qısas, 120121; əl-Kisəi. Qısas, 229-230; əl-Beydavi. Təfsir, 2, 88-90; Horovitz. Untersuchungen, 131; Speyer. Erzählungen, 342-344; Gaudefroy-Demombynes. Mahomet, 360; Paret. Kommentar, 382; Beltz. Sehnsucht, 178; D.B.Macdonald. Karun. – EI, NE, 4, 700-701.

**Qazi-qadi («təyin edən», «müəyyən edən»)** – hökmdar tərəfindən təyin edilən və şəriət əsasında ədalət məhkəməsi keçirən müsəlman məmur hakimin ümumi qəbul edilmiş adı. İlk Q.-lər xəlifə Ömər b. əl-Xəttab tərəfindən (634-644) Mədinə, Bəsrə və Kufəyə təyin olunmuşlar. Bundan sonra Q.-lər böyük şəhərlər və vilayətlərdə, hərbi yürüşlər zamanı isə orduda da təyin olunurdular. Q.-ni ancaq ali hüquqi nüfuz sahibi olan xəlifə təyin edə bilərdi. Elə onun özünə də Q.-nin qərarına qarşı şikayət etmək olardı ki, bu da onun istefasına gətirə bilərdi. VIII əsrin ikinci yarısında ali Q. vəzifəsi yaradıldı (qadi əl-qudat) ki, xəlifənin adından Xilafətin bütün Q.-lərini təyin etmək və onların qərarlarına appelyasiya qəbul etmək ona tapşırıldı.

Xilafətdən asılı olmayan müsəlman dövlətlərinin yaranması ilə onların hökmdarları özləri Q.-lər və Q. əl-qudatlar təyin etməyə başladılar. Lakin xalqın və çoxlu fəqihlərin gözündə onların təyinatı xəlifənin təsdiqi olmadan həqiqi sayılmırdı və belə təsdiqin tələb edilməsi qaydası hər yerdə olmasa da, XII əsrə qədər qalmışdı. Misirdə Fatimilər və Əyyubilər vaxtı Q. əl-qudat hər məzhəbdən olurdu, lazım olanda onlar məsləhətçi kimi sultanın yanına çağrılırdılar. Osmanlı Türkiyəsində Q.-ləri ali hüquq nüfuz daşıyıcısı kimi sultanların özləri təyin edirdilər, Q. əl-qudatın vəzifələrini isə şeyx əl-islam titulunu daşıyan ali müfti yerinə yetirirdi.

Q. vəzifəsini əslində adı ləkələnməyən, ağılla düşünmək bacarığı olan, kifayət qədər şəriəti bilən, fiziki çatışmazlığı olmayan hər bir hüquqi səlahiyyəti olan adam tuta bilər. Q. vəzifəsinə möminlik, müdriklik və şərəfliliyinə (vicdanlılığına) görə savadsız adamın təyin olunması hallarının çox olması da məlumdur.

Bütün icmalarda qazi xidməti var idi və ona maaş dövlət xəzinəsi tərəfindən verilirdi. Onun maaşı o qədər olmalıdır ki, Q. ona müraciət edən tərəflər qarşısında qərəzsiz olsun, onlardan pul, hədiyyə və ya hər hansı bir xidmət qəbul etməsin. Varlı adam üçün maaşdan imtina edərək Q. vəzifəsini icra etmək çox ləyaqətli idi. Öz zəhməti ilə çörək pulu qazanan, kiçik ticarəti olan və öz müstəqilliyini çəkişən tərəflərdən deyil, hakimiyyətdən də qoruyan, lakin yenə də maaşdan imtina edən Q.-lər də məlumdur. Bununla bərabər xəlifələrin yüksək maaş təyin etdikləri Q.-lər də olmuşdur, başqaları isə rüşvət almaqla və ləyaqətsizliklə «məşhurlaşmışdılar», nəhayət, Q. vəzifəsinə pulla da təyin edirdilər. Lakin bunlar hamısı ən çox böhran dövrlərində, mərkəzi hakimiyyət zəifləyəndə baş verirdi. Q. öz maaşından ona zəruri olan işçilərin – katiblər, tərcüməçilər, kuryerlər və s.-nin əmək haqqını verməli idi.

Q.-nin vəzifələrinə öz şəhər və əyalətlərində bütün mülki və cinayət işlərini aparmaq, ictimai əxlaq qaydalarına nəzarət, lazım olanda insanlara və əmlaka hami təyin etmək, vəqf əmlakına nəzarət, ictimai binalar, qurğular, yollar, küçələr və meydanların vəziyyətinə nəzarət, vərasəti bölməyə və vəsiyyətlərə riayət etməyə, məhkəmə qərarlarının icrası və cəza verilməsinin düzlüyünə nəzarət, hüquq mühafizə orqanlarını yoxlama və həbsxanaların təftişi, zəkat, sədəqə və başqa ictimai vəsaitin düzgün yığılması və bölüşdürülməsinə nəzarət və başqa çoxlu işlər daxildir. Ordu Q.-si o işlərdən başqa hökmdarın adından müqəddəs müharibə (cihad) elan etməli, hərbi qəniməti qiymətləndirməli və onun düzgün bölüşdürülməsini izləməlidir. Ordu Q.-sindən hərbi hüququ yaxşı bilmək tələb olunur.

Q.-lər kiçik istisnalarla, əsasən fəqihlərdən təyin olunurdu, bu vəzifənin irsi olmadığına baxmayaraq, çox vaxt bu vəzifəyə uzun illər boyu bir ailənin nümayəndələri təyin olunurdular. VIII əsrdən Q.-lər də fəqihlər və

müftilər kimi xüsusi paltar geyməyə başladılar, bu indi də bir çox ölkələrdə qalmaqdadır. Böyük şəhərlərdə Q.-lər həmkarları xatırladan, lakin heç bir rəsmi statusu olmayan ittifaqlarda birləşirlər.

Hazırda Q.-lər şəriət məhkəməsinin başında dururlar, mərasim, ailə, şəxsi və əsasən cinayət hüququ işləri onların idarəsi altında olur.

**Ədəbiyyat:** İslam, 125; Əbu Yusuf. Əl-Xərac, 222-223; əş-Şeybani. Əl-Cami əs-Səgir, 92-96; əl-Məvardi. Əl-Əhkam. 107-128. Мец. Ренессанс, 180-184; Tyan. Juducial Organization. 236-241; E.Tyan. Kaldy Nagy. Kadi. – EI, NE, 4, 390-392.

**<u>Qazi</u>** (cəmi quzat) – 1. Qəzavatda («iman uğrunda müharibə») iştirak edən adam. VII əsrin ikinci yarısı – IX əsrin birinci yarısı Q. müsəlman fütuhatlarının iştirakçısıdır. IX əsrin sonundan başlayaraq Xorasanda və ondan şimali-şərqə Q.-lər (fityən, əyyarun) dəstələri yaranmağa başlayır. Bu dəstələr hərbi qənimətlər hesabına yaşayırdılar, onlar dini düşmənlərə və «azmışlara» qarşı çıxış edən hər bir hakim və ya hərbi rəisə xidmət edirdilər. Bu dəstələrin rəhbərləri tez-tez məşhurlaşırdılar və rəsmi iyerarxiyada yüksək vəzifə alırdılar. Lakin sülh şəraitində Q. dəstələri xidmət etdiyi dəstələr üçün təhlükə yaradırdılar. Onlar bir sıra qarışıqlıq və üsyanlarda (birinci növbədə Xilafətin şərq əyalətlərində) iştirak edirdilər. Bu dəstələr Xilafətin Bizansla hərbi qarşıdurmasında da çox mühüm rol oynadılar.

Təqribən 1200-ci ildə, xəlifə ən-Nasir vaxtı Q.-lər futuvvanın prinsiplərinə uyğun olaraq təşkil olunmağa başladılar (düzgünlük, zəifləri müdafiə, bəzən kəbinsizlik, sufizmə hörmət). Q.-lər yüksək rəsmi status aldılar, onların dəstələri dini «qardaşlıq» kimi həyat sürməyə başladılar, onlara Q. vəzifəsi, heraldika və hökmdarlıq üzvüyünün verilməsi mərasimi keçirilirdi.

XIII əsrdə monqol hücumlarının nəticələrindən biri türk köçəri tayfalarının Kiçik Asiyaya ikinci xarici dalğası oldu – Q.-lərin dəstələrinə yeni döyüşçü kütləsi axışdı. Səlcuq dövlətinin zəifləməsi və dördüncü Səlib yürüşündən sonra Bizans imperiyasının süqutu sərhəd əyalətlərində hökumətin vakkumunun yaranmasına gətirdi. Bunun nəticəsində XII əsrin axırı – XIV əsrin əvvəllərində Qərbi Anadoluda bir sıra türk əmirlikləri yarandı və bunların yaranmasında Q.-lər əhəmiyyətli rol oynadılar. Bu əmirliklərdən biri Osman bəyliyi idi ki, vaxt keçəndən sonra o, böyük imperiyaya çevrildi. Osmanlı dövlətində Q. tez bir surətdə sultanın hakimiyyətinə tabe oldu.

Müsəlman İspanyasında (Əndəlüsdə) Q. istilahı X əsrdən başlayaraq Şimali Afrikadan olan xristianlarla müharibədə iştirak edənlərə (muzdlulara və könüllülərə) verilirdi. Sonralar Əlmahadlar vaxtı (1130-1269) Q.-lər

ümumi mənşə və ümumi hədəflə hakim elita ilə birləşərək yüksək ictimai kateqoriyanı təşkil edirdilər. XIV əsrdə Qranada krallığında daha güclü ispan-xristian dövlətlərinə qarşı Q.-lər müharibənin davam etdirilməsi üçün çıxış edirdilər, ümumi uduzmaq vəziyyətinə baxmayaraq, onlar obyektiv şəkildə İspaniyada axırıncı müsəlman dövlətinin dağıdılmasına imkan yaratdılar.

2. Q.- «din uğrunda fərqlənənlərin», müsəlman hakimlərinin titullarının bir hissəsi olan fəxri titul. Axırıncı dəfə onunla Mustafa Kamal (Atatürk) (1921-ci ildə) Sakarya çayı sahilindəki döyüşdə qələbəyə görə təltif olunmuşdur. 1934-cü ildə o, Türkiyədə ləğv olunmuşdur.

**Ədəbiyyat:** İslam, 53; К.А.Жуков. Эгейские эмираты в историческом развитии Малой Азии и Восточного Средиземноморья (вторая половина XIII-первая половина XV в.). Автореф.канд.дис. Л., 1983; Levi Provençal. Historie, 3, 71-76; G. Kaldy-Nagy. The Holy War (Jihad) in the First Centuries of the Ottoman Empire. – Essays Presented to Omeljan Pritsak on his 60-th Birthday bu his Collegues and Students. Cambridge, 1981, 467-473; I.Melikoff. Ghazi. – EI, NE, 2, 1043-1044.

**Əl-Qeyb** (QYB kökündədir, «olmamaq», «gizli, görünməz olmaq») – gizli, dərkedilməz ilahi sirr, təkcə Allaha məxsus olan bilik. Bu mənada əl-Q. Quran (3:174; 10:20/21; 16:77/79; 27:65 və s.) və hədislərdə işlədilir. «Gizli» və «dərkedilməz» olduğuna baxmayaraq əl-Q. Quran və təfsirə görə iman obyektidir (2:3-4/2-3) və peyğəmbərlərə (nazil olur) göndərilir. «Sirr haqqında xəbər» kimi (ənbəü-l-qeyb) Quran özü əl-Q.-in nisbətən «açılmasıdır». Hədislərdə əl-Q. elmi Allahın və peyğəmbərlərin imtiyazıdır. Bu, Quranın şərhində və ənənəvi əqidələrdə qeyd edilmişdir. Bəzi hədis və şərhlərdə əl-Q.-i «Allah işi» ilə eyniləşdirirlər. Q. iki cürdür - biri peyğəmbərlər tərəfindən insana bildirilən aləm və digəri yalnız Allaha məlum olan aləmdir ki, Quranda zikr edildiyi kimi (VI, 59), bu Q. aləminin açarları Onun yanındandır (əlindədir). Ət-Tüstərinin sufi təfsirinə görə insanların əl-Q.-i dərk etməsi Allah tərəfindən qoyulmuş həyat qanunlarının pozulmasına gətirib çıxarardı. Lakin ümumiyyətlə, sufilərin əl-Q. haqqında fikirləri ümumi qəbul olunanlardan fərqlənirdi. Sufi müdrikləri (ət-Tirmizi, əs-Söhrəverdi, İbn Ərəbi və s.) iddia edirdilər ki, əl-Q. sufi «müqəddəslərinə» (övliya) xas olan ezoterik biliyin köməyi ilə dərk oluna bilər. Bununla sonuncular peyğəmbərlər və elçilərlə bir sıraya qoyulurdular ki, bu da ənənəçilər tərəfindən etirazla qarşılanırdı. Belə ki, «imansızlığa» görə edam edilmiş Şeyxü-l-işraq əs-Söhrəverdi hesab edirdi ki, «əl-Q.in sirrləri» (müqeyyibat) insanlara yuxarıda açılır, onda onların ruhları gündəlik qayğı və fikirlərdən azad olur. Bu sirlər sufilərə «yazılmış

sətirlər», «xoş və ya qorxulu səslər», «gözəl surətlər» və s. şəklində peyda olur.

Şiələr sirr elmini ancaq öz imamlarına aid edirlər, sünni ənənəçiləri buna qarşı çıxırlar.

Şərhçilər tez-tez əl-Q.-i «sirlər dünyası», «ilahi sirlər sahəsi» kimi təsvir edirdilər, onlara qarşı «həqiqi həyat» (aləm əş-şəhadə) qoyulurdu. Yeni əflatunçuluq emanasia təliminin İslama nüfuz etməsi ilə əl-Q.-i ilk differensial olmayan birlik (vəhdət), emanasia mənbəyi, yaradıcı prinsip, kainatı hərəkətə gətirən kimi başa düşməyə başladılar. Bu fikirlər, xüsusilə ismaili kosmoqoniyasında öz əksini tapdı, orada Yer (Dünya) üzərindəki ilahini «ali sirr» (əl-qeyb Təala) adlandırırlar.

İbn Ərəbi və onun məktəbinin sufiləri üçün «mütləq sirr» (əl-qeybü-l-mütləq) təcəliyyat (manifestasiya) seriyaları nəticəsində maddi Dünyada zühur edənə qədər müstəqil ilahi mahiyyətdir. Əl-Q. yalnız öz zühur etmələrində və atributlarında dərketmə və pərəstiş obyekti olur, lakin o, öz-özlüyündə Dünyadan asılı olmayaraq «dərkedilməzdir».

Sufizmdə tez-tez görünməz sufi iyerarxiyası nümayəndələrini «sirli adamlar» (ricəlü-l-qeyb) adlandırırdılar. Əl-Q.-i bilmək iddiasında olan ənənəçi fəqihlər sufi və şiələrlə yanaşı münəccimləri, qabaqcadan xəbər verənləri və hər cür ayinçiləri günahlandırırdılar.

**Ədəbiyyat:** İslam, 53; İbn Hənbəl. Müsnəd 4, 13, 129, 164; ət-Tirmizi. Xətm, 358, 395-398; əs-Söhrəverdi. Məcmuə, 1, 390-391, 2, 240; İbn Ərəbi. Əl-Fütuhat, 2, 15; əl-Beydavi. Təfsir, 1, 16; Abdu-r-Razzaq. Dictionary of the technical terms of the sufis. Ed. İn the Arabic original by Dr.Aloys Sprenger. Calcutta, 1845; Петрушевский. Ислам, 287; İzutsu. Study, 1, 37-38, 114; Böucring. Mystical Vision. İndex; D.B.Macdonald – L.Gardet. Ghayb. – EI, NU, 2, 1049; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər,149.

**Əl-Qeybə** («yoxluq», «görünməz şey») - imamın «gizli halını» bildirən şiə ehkamı islahatı. «Qeyb» olan imam və onun qayıtması haqqında fikir Əli (ə) tərəfdarları arasında yaranmışdır. Abdulla b. Səbanın ardıcılları səbailər Əlinin vəfatını qəbul etməyib, onun qayıtmasını gözləyirdilər (ər-rac'a). İmamın «qeyb halı» təlimi qeysanilər (Əlinin hənifi arvadından olan oğlu Məhəmməd Hənəfiyyənin tərəfdarları, vəf. 700-ci il) arasında yaranmışdır, onlar öz imamlarının vəfatına inanmayıb iddia edirdilər ki, o, haradasa gizlənir və Dünyanı ədalətlə doldurmaq üçün Mehdi kimi zühur edəcək. Sonralar imamın «qeyb halı» haqqında təlimi «qatı» (ismaililər), «mülayim» (imamilər) şiələr və başqa şiə icmaları da qəbul etdilər. İmamın «qeyb halı» haqqında təlimi 373-74-cü ildə axırıncı 12-ci imam «qeyb olanda» və «kiçik qeyb» (əl-qeybə əs-səğirə) mərhələsi başlayanda aktual

əhəmiyyət kəsb etdi. İmamilər «qeyb olmuş» imamı «gizli imam» və Mehdi elan etdilər. İmamın «Q.» mərhələsi gözlənilən Mehdinin zühuru ilə başa çatır, o, Peyğəmbərin (s) nəslinin tapdalanmış haqlarını bərqərar edəcək, daha doğrusu hakimiyyəti öz qanuni sahiblərinə – Əli tərəfdarlarına qaytaracaq. Şiə şərhinə görə «Q.» mərhələsində «gizli» imamla onun icması arasındakı əlaqəni səfirlər («rəsullar») yerinə yetirirlər. 940-cı ildə dördüncü səfirin vəfatından sonra «kiçik qeyb» mərhələsi qurtardı və hələ də davam edən «böyük qeyb» mərhələsi başladı. Şiə icmasına rəhbərliyi ruhani nüfuz sahibləri öz üzərlərinə götürdülər, onlardan bəziləri «gizli» imamla – dövrün hakimi (Sahib əz-zaman) ilə möcüzəli görüşə də iddia edirdilər.

İmamın «gizli mövcudluğu» və onun mütləq qayıdacağına inam imami şiələrin əsas ehkamlarından biri oldu, o, onların hakimiyyətin «sakral» xarakteri, icmaya onların gündəlik işlərində daimi ilahi rəhbərliyi haqqındakı görüşləri ilə qırılmaz əlaqə yaradır.

**Ədəbiyyat:** İslam, 53; B.B.Macdonald – (M.G.S.Hodyson). Chayba. - EI, NE, 2, 1049-1050.

**Əl-Qeysaniyyə – qeysanilər** – Əlinin (ə) hənifi arvadından olan oğlu Məhəmməd b. Hənəfiyyənin imamətini qəbul edən «qatı» şiə icma qruplarının ümumi adı. Əvvəlcə, 686-cı ildə Kufədə ələvi üsyanına başçılıq edən Qeysan ləqəbli, Muxtar b. Əbu Übeyd əs-Səqafinin maraqlarını dəstəkləyən Kufə ələvilərini Q. adlandırırdılar. Başqa rəvayətə görə onlar bu üsyanda qvardiya rəisi əl-Muxtar Əbu Əmr Qeysanın adı ilə Q. adlanmışlar. Hərəkat əl-Hüseynin qanuna görə qisas şüarı altında keçirdi və Məhəmməd b. əl-Hənəfinin adı ilə bağlı idi, əl-Muxtar sanki Əli nəslindən olan müqəddəs sirrləri onun adına yazırdı. 700-cü ildə Məhəmməd b. əl-Hənəfiyyənin vəfatından sonra onun imamətliyinin tərəfdarlarını Q. adlandırmağa başladılar, onlar təbliğ edirdilər ki, o, Əliyə (ə) ən yaxın adam və onun vəsiyyətinin varisi olmuşdur. Məhəmməd b. əl-Hənəfiyyədən sonra kimin qanuni imam olacağı məsələsi Q. arasında fikir ayrılığı yaratmışdı. Müsəlman doksoqrafları onun ölümündən sonra yaranmış dörd icmanı qeyd edirlər. Bunlar «həqiqi» Q. və ya «ilahi rəyinin dəyişməsi» haqqında (əl-bədə`) təlimin hazırlanmasını Muxtarın adına yazan əl-Muxtar tərəfdarları, muxtarilərdir; bu icmanın tərəfdarları məşhur ərəb şairləri Qusayyir (vəf. 723) və əs-Seyyid əl-Himyəri (vəf. 787 və ya 795) olmuşlar. Haşimilər Əbu Haşimin (Məhəmməd b. əl-Hənəfiyyənin oğlu) imamətinin tərəfdarları idilər, bu imamət onun vəfatından sonra beş icmaya bölündü. Əbu Haşimdən ona keçən imamətə iddiaçı olan Bəyan b. Sim'an ən-Nəhdinin ardıcılları – Bəyanilər adlandılar. Bəyanilər Məhəmməd b. əl-Hənəfiyyənin öldüyünü rədd edib onun qayıtmağını gözləyirdilər. Bəyan

özü isə iddia edirdi ki, Əlinin (ə) «ilahi» hissəciyi onun cisminə yerləşib. Rizamilər və ya Abbasi şiələri təbliğ edirdilər ki, imamət Əbu Haşimdən Abbasilər nəslinə keçmişdir. Əl-Əş′əri Q.-i on bir icmaya bölmüş, lakin onların yaranma ardıcıllıqlarını və genetik (irsiyyət ) əlaqələrini təyin etməmişdir.

Şiə müəllifləri kimi sünni müəllifləri də Q. arasında ölümdən sonra ruhun keçməsi, təcəssümü, qayıtması və s. haqqında təlimin çox geniş yayıldığını qeyd etmişlər. Q. təlimi şiə məzhəbi ehkamına güclü təsir edirdi. Q. arasında işlənib hazırlanmış əl-bədə` və ər-rac′ə haqqında təlim-imamət nəzəriyyəsinin ən mühüm qaydaları İraqın şiə imamiləri tərəfindən qəbul edilmişdi. İran və Orta Asiyada dəyişdirilmiş qeysani doktrinalarını ümumi-xürrəmilər adı altında tanınan müxtəlif sinkretik təlimlərin ardıcılları təbliğ edirdilər, baxmayaraq ki, qaysani icmaları artıq IX əsrin ortalarında aradan getmişdilər.

**Ədəbiyyat:** İslam, 127-128; ən-Naşi əl-Əkbər. Məsail əl-imamə, 24-25, 26-42; an-Naubaxti. Шиитсикие секты, 128-135; əl-Əş′əri. Məqalət, 18-23; əl-Beydavi. Əl-Fərq, 38-53; аш-Шахрастани. Книга о религиях, 131-137; W.al-Oadi. The development of the term ghulat in muslim literature with special reference to the Kaysaniyya. – Akten, 295-319; W.Madelung. Kaysaniyya. – EI, NE, 4, 869-871.

**Qəbalə (cəmi qəbālāt)** – adətən dövlətə aid olan maliyyə öhdəçiliyi. VIII əsrdə ayrıca şəxsin (məzun) bütün icma üçün dövlətə əvvəlcədən ödədiyi öhdəçilik, habelə bədəvilərə təyin edilmiş müəyyən torpaqlardan vergi. Sonralar İraq və Misirdə, qati′a (bax: iqta′a) sahibinin dövlətə ödədiyi bir dəfə təyin olunmuş, dəyişməz məbləğ, Misirdə bu sistem həm də münəcizə adlanırdı. İqtanın şərti mülkədarlıq forması Q.-nin təsdiqi ilə istilahın göstərilən mənası itir (İraqda X, Misirdə XIII əsrdə).

Son orta əsrlərdə Q. vergilərin ödənilməsini (adətən şəhərlilər, ticarətçilər tərəfindən) bildirir.

Q. sözü müsəlman xalqlarının dillərinə «öhdəçilik borcu» mənasında daxil olmuşdur, buradan da rusca «kabala» işlənir.

**Ədəbiyyat:** İslam, 124; Əbu Yusuf. Əl-Xərac, 105-107; Əbu Übeyd. Əl-Əmval, 70-72; Lokkegaard. Taxation; C.I. Cahen. Le regime des impots dans le Fayyum ayyubide. – Arb. 1956, 3/1, 8-30; yenə o. Kabala. – EI, NE, 4, 323-324.

**Əl-Qədəriyyə** – qədərilər, insan iradəsinin azadlığı konsepsiyasının əksinə olaraq çıxış edən müsəlman-sünni müəlliflərinin cəbrilərin əksinə olaraq insanın öz əməllərinin yaradıcısı (xaliq) olduğu tezisini dəstəkləyən müdrikləri ifadə edən ləqəb. Q.-in siyahısına Mə′bəd əl-Cühani (699-700-ci

ildə qətl edilib), əl-Həsən əl-Bəsri (642-728), Heylan əl-Diməşqi (742-ci ildə qətl olunub) və mötəzililəri daxil etmək olar. Mötəzililər onların opponentlərinin «Əl-qədəriyyə (müsəlman) icmasının sehirbazlarıdır» hədisinə görə mənfi fikiri olan bu ləqəbin onlara tətbiq edilməsi ilə razı deyildilər.

**Ədəbiyyat:** bax, əl-cəbriyyə məqaləsinə, İslam, 125.

**Qəlb** – ürək. Q. istilahının müsəlman ilahiyyatı və xüsusilə də sufizm üçün əhəmiyyəti onun Quran və hədislərdə işlənilməsilə müəyyən olunur. Quranda 133 dəfə rast gəlinən bu söz dini həqiqətlərin dərk edilməsi və başa düşülməsi elementini, imanı və möminliyi ehtiva edir. Quranın məlumatına görə Allah «günahkarlar», «imansızlar» və «zülmkarların» «ürəklərini bağlayaraq» (19:74/75; 7:101/99 və başqa), onları öz mərhəmətindən məhrum etmiş, həqiqəti anlamayan etmiş və Cəhənnəm əzabına düçar etmişdir. Ekzeqetikanın inkişafı ilə, xüsusilə də Quran mətninin alleqorik şərhinə meylli olan zühhad və ubbadlar arasında istilahın çoxlu şərhi meydana gəlir. Banisi əl-Həsən əl-Bəsri sayılan «Qəlblər və fikirlər haqqında elm» (Elm əl-qulub va-l-xəvatir) yaranır. Sonralar sufizmdə bu «elm» «sufi məqamları və halları» (məqamat və əhval) haqqında təlimdə inkişaf etdi. Mötəzililər isə Q.-in müstəsna rasional fəaliyyətini qeyd edir və faktiki olaraq onu təfəkkür prosesi ilə eyniləşdirirdilər.

Q. sufizmin əsas mənalarından biridir. Erkən sufi ekzeqetləri (ət-Tüstəri, əl-Bəlxi, ən-Nuri, ət-Tirmizi) Q.-ə «ilahi sirr» kimi baxırdılar, o, insanda yerləşdirilmişdir, onun sayəsində insan hətta mələklərdən yuxarı qalxmışdır, o, «ilahi mövcudluq», Allahın və insanın qarşılıqlı münasibəti, yeri, «ilahi taxt-tacı» (əl-ərş), «ilahi sirri», şeylərin öz mahiyyətini görməyə hazırlanmış dərketmə üzvüdür (bəsirət əl-qəlb). Möminlərin ürəkləri billur kimi şəffafdırsa, «günahkarların» Q.-ləri isə «pasla» örtülmüş (Q.83:14), həqiqətə kardırlar. Q.-lərin «yumşaldılması» və onların ilahi biliklərin qəbul edilməsinə hazırlanması və onların dünyəvi ehtiraslar və istəklərin dalınca kor kimi getməyə nifrət yolları sufi qnoseologiya, psixologiya və təcrübəsinin mövzusunu təşkil edir. Peyğəmbər missiyası haqqında (nübüvvə) təlimdə «Məhəmmədin ürəyi» (s) (sonrakı sufizmdə həm də «Məhəmmədin ruhu» (s)) nur gətirən mənbədir, o, insanların Q.-inə hələ o, cisim formasında olmazdan əvvəl əbədiyyətdə Q.-in kəşfini (açılmasını) işıqlandırır.

Q. məfhumu sufilikdə zikrlə sıx bağlıdır: həqiqi zikr üzvü təkcə dil (zikr əl-lisan) deyil, bütün bədən üzvləridir və nəticədə onlardan ən mühümü – Q.-dir (zikr əl-qəlb). Q.-dən edilən zikrin nəticəsi odur ki, Allah sufinin Q.-ində «məskən salır» və onun hərəkətlərinin yeganə motivi və hərəkətverici qüvvəsinə çevrilir; sufi ilahi ipostasasa çevrilir. Həyatda Q. Allahı yerləşdirmək mümkün olan yeganə şey (cisim) hesab edilirdi.

Sufi «qəlbşünaslığının» elementlərini ümumiləşdirən əl-Qəzali Q.-i eyni zamanda fiziki cisim (ləhm) və yarı-ruhi mahiyyət (lətifə) kimi təyin edir, d.d., Q. insanın ali və ən aşağı təbiətini özündə birləşdirir. Əl-Qəzaliyə görə Q.-ın insan bədəninin bütün üzvləri ilə əlaqəsi vardır və o, «dövlətdə hökmdar kimi» onların hamısını idarə edir. Arzu və ehtiras bir tərəfdən, bədənin üzvləri - başqa tərəfdən Q.-in yaşamasının dəstəklənməsi üçün zəruridir və onlar «qəlbin döyüşçüləri» (cunud əl-qəlb) adını daşıyırlar. Əl-Qəzali Q.-i insanın hərəkətlərini (əməllərini) əks etdirən güzgüyə bənzətmişdir: mömin işlər ürəyi «pardaqlayırlar», onu Allahı «görməyə», Onunla «ünsiyyət qurmağa yönəldir, axmaq işlər isə, əksinə, bunları dumanlı edir, onlardan ayırır.

İbn Ərəbidə ənənəvi görüşlərlə yanaşı Q. konsepsiyası onun «varlığın vəhdəti» (vəhdət əl-vücud) haqqında təlimi ilə bağlıdır. İnsan Q.-i İbn Ərəbidə vahid ilahi Mütləqinin iki radikal əks tərəflərinin görüşdükləri yerdir: transsendent (təcrübəyə əsaslanmayan) və maddi.

Bəzi sonrakı sufi, habelə şiə müdrikləri Q.-də Quran kəşfinin «gizli» mənasına çatan və ümumiyyətlə alihissetmə idrak üzvünü görürdülər. Şiələr «qəlb biliyini» (mə'rifə qəlbiyyə) öz imamlarının, sufilər isə – «sufi qütbünün» və sufi «müqəddəslərinin» (övliya) üstünlüyü hesab edirdilər.

**Ədəbiyyat:** İslam, 131; ət-Tirmizi. Xətm, göstərilən; əl-Qəzali. İhya, 3, 3-18; İbn Ərəbi. Fusus; 1, 33, 88, 122-123; Əl-Kaşani. İstilahat, 86, 145; В.А. Жуковский. Человек и познание у персидсикх мистиков. СПб., 1895, 7-16; Böwering. Mystical Vision, Index; I.Gardet. Kalb. – EI, NE, 4, 405-509.

**<u>Qələndər (fars kələntər, türk. kalender)</u>** – dini tapşırıqların minimum hissəsini yerinə yetirən gəzəri dilənçi dərviş. İstilahın mənşəyi məlum deyil, mövcud olan ehtimallar isə qənaətbəxş deyil: 1) fasrca Q. – «tük basmış yöndəmsiz adam»; «qapını içəridən bağlamaq üçün rəndələnməmiş ağac parçası»; 2) farsca kələntər (müq. et, kələntər, «böyük», «yekə»); 3) yunanca xaltup (xalça kökündən olub «çağırmaq», «dəvət etmək») deməkdir (Bu, yəqin ki, onların gəzərgi olması, camaatı sufiliyə dəvət etməsi, yorğan-döşəksiz xalça-palaz üstündə yox, harada gəldi yatmaları ilə əlaqədardır). Q. istilahı müsəlman aləmində qərbi Çin sərhədlərindən ta Mərakeşə qədər yayılmışdı və tarixi aspektdə müxtəlif kateqoriyalı dərvişlərə aid edilirdi. Zaman və məkanından asılı olaraq Q. həm gördüyü iş, həm də istilah kimi fərqlənirdi. Q.-in mənaları: 1. Texniki istilah kimi-dərviş - Allaha sufi məhəbbət sərxoşluğu halında olan adamdır (sukr), öz dini fəaliyyətini vacib tapşırıqlarla məhdudlaşdırır. 2. XIV əsrə qədər sufi poeziyası istilahı kimi – avara kimi gəzən sufi, Allahı ehtirasla sevən, cismini və qəlbini ruhən Allahla qovuşmaq üçün təmizləyən (saflaşdıran),

fəna` halına çatıb Allahda sonrakı həyat üçün həqiqətə yetişməkdir. Bu mənada Q.-ə tez-tez fars şairləri – Ənsari (vəf. 1089), Sənai (vəf. 1131) və Əttarın (vəf. 1220) əsərlərində rast gəlinir. Bu poeziyanın daha sonrakı nümayəndələrində Q. istilahı bu mənasını itirir. 3. Asket-sufi mələmətiyyə məktəbinin «ikiüzlülük haqqında» təliminin təsiri altında XI əsrin əvvəllərindən gec olmayaraq Orta Asiya və Xorasanda yaranan hərəkatın nümayəndəsi – sonralar qələndəriyyə qardaşlığının üzvü. Hesab edilir ki, Q. tanınmış rəhbərlə mənəvi tellərlə bağlı deyil, sufiliyin hər hansı bir məktəbi və ya qolu dalınca getməyi vacib deyil və demək olar ki, dini qanundan yuxarıda durur. 4. Məkkə və Mədinəyə ziyarətə gedən karvanları qorumağa ixtisaslaşmış, adətən silahlı, gəzəri dərvişlər dəstəsinin üzvü. Q. istilahının sinonimi Hindistan, İran və Orta Asiyada dərviş idi. Türkiyədə isə XIV əsrdən – abdalan-i Rum, işik və torlak. Avropada isə Q. «şarlatan», «yalançı» - yunan səfehləri, sərgərdanalrı. Türklər yəqin ki, onları özlərinə yaraşdırmaq istəməyiblər. Avropalılar onların müsbət cəhətlərinə göz yumub, zahiri görkəmlərinə və ola bilsin onların bəzilərinin xasiyyətinə görə onları belə adlandırmışlar.

**Ədəbiyyat:** İslam, 129-130; İbn Battuta. Travels, 1, 37-38; Djami. Nafahat, 15; Əmir Hüseyn. Qələndər-namə. ЛОИБАН əlyazm. B 2296; Bürhani-qati; 3, 1680, 1540 (qeyd. 3); Rizvi. Muslim revivalist, 29-30; Tahsin Yazıcı. Kalandar. –EI, NE, 4, 472-473.

**Qələndəriyyə (fars, ərəb, türkcə)** – əvvəlcə asketik məlamətiyyə məktəbinin fikirləri təsiri altında yaranan sufi-asketik hərəkat, sonralar avara dilənçi dərvişlər qardaşlığı (təriqə). Q. yarandığı gündən mühüm tədrici inkişafda olmuşdur. Q.-nin xüsusiyyəti (müxtəlif tarixi dövrlərdə yaşayan) müxtəlif müəlliflərdə çox ziddiyyətlidir, çünki onda tarixi aspektdə doktrina, təcrübə və üsullarına görə əks nöqteyi-nəzərli müxtəlif cərəyanlar yanaşı mövcud idilər. Əslində Q. tarixində iki mərhələ haqqında danışmaq olar: 1. Q. hərəkatı XI əsrin əvvəlindən gec olmayaraq Xorasan və Orta Asiyada məlamətiyyə təliminin təsiri ilə yaranmışdır: bu mərhələdə Q.-nin dəqiq təşkilati strukturu yox idi. Lakin həmin dövrün mənbələrində Q. «birliyi» təşkilati başlanğıcı olan qrup kimi başa düşülən məfhumlar ta`ifə kimi göstərilir, ancaq onun rəhbərlərinin geneoloji zənciri (silsilə) verilmir. Əvvəlcə az tərəfdarı olan Q. tezliklə məşhurlaşdı və şərqdə Fərqanə və qərbdə İraq və Suriyaya qədər yayıldı. XIII əsrin əvvəllərində hərəkat tənəzzülə uğradı, onun ardıcılları isə ya Q. qardaşlığına qatıldı, ya başqa müsəlman birləşmələrində əridilər. Q.-nin dəqiq təşkil olunmuş təlimi olması haqqında məlumat yoxdur. Hesab edilir ki, Q. hərəkatı müsəlman olmayan asketlərin (nestoriyan və buddist monarxların) təcrübəsinin təsirini öz üzərində hiss edirdi. Əgər Abdulla əl-Ənsari (vəf. 1089) Q.-ni xüsusi qrupa

ayırıb hesab edirdi ki, onlar öz görüşlərinə görə sufilərə yaxındırlar, Əbu Hafs Ömər əs-Söhrəverdi (1145-1234-35) Q.-ni sufilərə aid etməyib, mələmatiyyənin Q. ilə oxşarlığını göstərir, onun rəyi ilə Cami (1414-1492) tamamilə razıdır. Axırıncı rəy birincidən götürülən məlamə (qınama) prinsipini cəfəngiyyata gətirib çıxartdı. Əgər məlamətiyyə tərəfdarı öz həyat tərzini və görüşlərini gizlətməyə çalışırdısa, Q.-nin ardıcılı isə özünə məzəmmət, qınaq cəlb etmək üçün öz çılğın davranışını hər cür bəyan (afişə) edirdi, bilə-bilə qoyulmuş ümumyaşayış qaydalarını və davranışı pozmağa bəhanə axtarırdı. Q. tərəfdarı dinin ancaq vacibatını (fəra`id) yerinə yetirirdi, mərasim və qadağalara əhəmiyyət vermirdi. O, «mənəvi rahatlıq» dəlisidir, «mənəvi ruhi təmizliyi» hər şeydən üstün tutur, onu Yer üzünün sevincləri cəlb etmir, belə ki, dünyada hər şey keçici və nisbidir.

2. Q. qardaşlığı, onun yaranması monqolların qorxusundan Savedən Dəməşqə qaçan, mənşəcə fars olan (1232 də vəf. etm.) Cəmaləddin Məhəmməd b. Yunus əs-Səvacinin yaradıcılığı ilə bağlıdır. Cəmaləddin Q. hərəkatına mütəşəkkil quruluş vermiş, düzgün təlimdə ümumi prinsipləri tərtib etmiş, təlimata uyğun bir şey yaratmışdır. Bir sıra mənbələr onu Q. qardaşlığının banisi kimi göstərirlər. Hesab edilir ki, Q. qardaşlığı 1219-cu ildə Dəməşqdə fəaliyyətə başlamışdır, hətta məlumat var ki, o, artıq orada 1213-cü ildə fəaliyyətdə imiş. Əs-Səvacı inandırmaq istedadına və tərəfdarlarını cəlb etmək bacarığına malik idi, zahiri ekzotik görkəmi ilə seçilirdi. Q.-nin xüsusi qolunun – cövləkiyyənin yaranmasını onun adına yazırlar, o, (cövləkiyyə) qardaşlıq çərçivəsində fəaliyyət göstərərək, onun təliminin qaydalarına ciddi surətdə riayət edirdi. Qardaşlığın qolunun adı geyim adından gəlir (farsca cövlax – əs-Səvacinin geyindiyi «kobud yun geyim», «kiş» deməkdir.

Q. Suriyadan qərbdə Mərakeşə, şərqdə isə Hindistana qədər yayılmışdı. Qardaşlığın üzvlərinin dayaq nöqtəsi rolunu «qəribə qəbul edilən evlər» oynayırdı, onlar özlərinin o evlərdə yaşamaqlarını mühakimə etmələrinə baxmayaraq onları tikirdilər. Qardaşlığın üzvləri XIII-XV əsrlərdə Misir və Hələbdə çox idi (XX əsrin əvvəllərində də Hələbdə Q.-nin qız qolu fəaliyyət göstərirdi). Türkiyədə onlar XIII əsrin birinci yarısında yaranıb XVIII əsrin axırına qədər fəaliyyət göstərdi. Əvvəlcə onlar Suriyada olan ana təriqətlə əlaqə saxlayırdılar, sonra isə müstəqil qol kimi birləşdilər, onun yaradıcısı ispaniyalı mühacir ərəb Yusuf əl-Əndəlusi idi. Sultan II Məhəmməd dövründə (1444-1446, 1451-1481) İstanbulda məscid və mədrəsə Q. iqamətgahı ilə birlikdə tikildi. Artıq Dehli sultanı Şəmsəddin Eltutmuşun hökmranlığının əvvəllərində (1211-1236) onlar Dehlidə peyda oldular, sonra onun ətrafında onlar öz iqamtəgahlarını tikdilər. Hindistanda Q. təlimini əs-Səvacinin şagirdi Xızr Rumi yayırdı. Bu qol sonralar Q. qardaşlığının müstəqil qolu kimi təşkil olundu, onun XIX əsrə qədər gedib

çıxan və orada 12 rəhbər-şeyxin adı olan geneologiyası-şəcərəsi var idi. O, həmişə Söhrəverdi və Çişti qardaşlıqları ilə mübarizə şəraitində olurdu və XIII-XV əsrlərdə Dehli sultanları vaxtı mühüm təsirə malik idi, sonra bu təsir yox oldu və Auranqzeb vaxtı (1658-1707) bu qardaşlıqlar içərisində əridi. İranda Q. qardaşlığı XVI əsrin axırına qədər mövcud idi. Səfəvilərin dini siyasəti nəticəsində Q.-nin üzvləri Türkiyəyə və Hindistana mühacirət etdilər və oralarda yerli Q.-yə daxil oldular.

Q. təlimi başqa müsəlman qardaşlıqları doktrinalarından fərqlənirdilər, çünki əvvəl ona hind və budda ənənəçilərinin ciddi təsiri olmuşdur. Onun əsas qaydaları: sufi-asketik birliyi təcrübəsini və iqamətgahda birgə yaşamağı rədd edirdilər (axırıncı tez-tez pozulurdu, belə ki, çox regionda qardaşlığın iqamətgahları tikilmişdi; islamın fərz (fəraid) qayda və mərasimlərinə laubali – başdansovma münasibət, ümumi (cəmiyyət) cəmaət namazı qılmaq və ya Allaha dua etməkdə iştirak etməkdən yayınmaq, ümummüsəlman orucluğu (saum) və eləcə də adi sufi təcrübəsində olan 1, 3, 7, 40 günlük orucluğundan imtina etmə; sədəqə yığmaqla yaşama; azca şəxsi şeylərdən başqa hər-hansı xüsusiyyətçiliyin yoxluğu; avara-gəzərgi həyat tərzi. Q. üzvlərinin bir hissəsi kəbinsizlik peymanı etmişlər. Qardaşlığın üzvlərini onların xarici ekzotik görünüşləri fərqləndirirdi (XIII əsrin birinci qərinəsində adətən onlar saçlarını, qaşlarını, bığ və saqqallarını ülgüclə qırxırdılar). Onlar qısa xirqə (buda qədər) geyir, konusşəkilli tüklü papaq qoyur (bəzən ətrafı da olurdu), ağır dəmir bəzək şeyləri – boyunbağı, üzük-həlqə, qolbağ (aləti qələndləriyyə) ilə bəzənirdilər. Q. qardaşlığının üzvü heç vaxt hissiyyata qapılmamalı idi: tək geyim və bir parça çörəklə kifayətlənməli idi; bahalı şeylərə nifrət etməli idi; insanlardan yan gəzməli idi; gülərüzlü olmalıdır; daim yolda olmalıdır, ikiüzlülükdən qaçmalıdır – əs-Səvaci tərəfindən hazırlanan qaydalar belə idi. Q. təcrübəsi başqa qardaşlıq üzvləri tərəfindən müxtəlif dərəcədə dəstəklənirdi, çünki onda həmişə onların ürəklərinə yatan nə isə olurdu, bunlar bekdaşiyyə (Türkiyə), nəqşbəndiyyə (Əfqanıstan, Hindistan, Orta Asiya), heydəriyyə-cəlaliyyə (İran) və s. qardaşlıqları idilər.

**Ədəbiyyat:** İslam, 130-131; Awarif al-maarif, 85; Əflaki. Mənakib, 4b-45b; Djami. Nafahat, 14-15; Birge. Bektashi Order, 32; Rizvi. Muslim revivalist, 30-31; Trimingham. Order. 267-269; Gramlich. Derwischorden, 1, 74-78; Tahsin Yazıçı. Kalandariyya. – EI, NE, 4, 473-474.

**Qənimət (ğənimə) – hərbi qənimət.** Nəzəri cəhətdən hərbi əsirlər (əsra), əsirlər (səby), daşınan əmlak (əmval) və daşınmaz əmlak da ona aid idi, lakin həqiqətdə Məhəmməd peyğəmbərdən (s) sonra bunlar paya daxil olmayıb, fəqihlər özləri də Q.-i bölmə haqqında maddələrdə bu haqda danışmırlar.

Müsəlman qanunçuları (fəqihləri) Q.-i bölmə haqqında qaydaları Bədrdəki döyüşə aparıb çıxarırlar (müq. et. Quran 8:41/42), lakin bu haqda mübahisəsiz məlumat yoxdur; çox güman ki, onlar sonradan yaranmışlar. İslamaqədərki adətlərlə müqayisədə yeganə prinsipal yenilik müharibə iştirakçılarının payının 3/4–dən 4/5-ə qalxması və rəhbərin payının (burada Məhəmməd peyğəmbərin (s) 1/5-ədək azalması (xums) oldu.

Q.-in ümumi məbləğinə ölən düşmənin döyüşdə əldə edilən silahı və sursatı (səbəb) daxil edilmirdi və ondan xums tutulmurdu. Məhəmmədin (s) əlavə olaraq xoşu gələn şeyi seçmək hüququ var idi, onun xələflərinə isə fəqihlər bu hüququ vermədilər, baxmayaraq belə adət davam edirdi.

Erkən fəqihlər (Əbu Yusuf, Əbu Übeyd) hesab edirdilər ki, xums ayrılandan sonra qalan bütün şeylər aşağıdakı prinsip əsasında bölünməlidir: piyadə, eşşək, qatır və dəvə üstündə vuruşana 1 pay, at üstündə vuruşana 3 pay (Əbu Hənifə isə 1 pay özünə, 1 pay ata məsləhət görürdü). Q.-ə ordunun vuruşan hissələrinin döyüşdə üzürlü səbəbdən iştirak etməyən üzvlərinin (ehtiyatda olanlar, keşikçilər və s.), habelə döyüşün qurtarmasına qədər köməyə gələnlərin də hüququ var idi. Döyüşdə həlak olanlara pay düşmürdü.

XI-XII əsr fəqihləri (əl-Məvardi, əl-Qəzali, əl-Marqinani və b.) hesab edirdilər ki, bölgüyə qədər xumsla yanaşı ənfal-döyüşdə iştirak etməyən döyüşçülər üçün və döyüşdə mövcud olan arvadlar, uşaqlar, qullar üçün «radh» (hədiyyə) payı - onların payı döyüşçülərin payından az olmalıdır – ayrılmalıdır. Ancaq bundan sonra döyüş iştirakçıları arasında bölgü aparılmalıdır. Onlar hesab edirdilər ki, dər-əl-hərbdə əldə edilən Q.-in bölgüsü dər əl-islama qayıdandan sonra yerinə yetirilməlidir. Əgər bölgü dər əl-hərbdə baş versə, ölənlərə pay düşmür, əgər dər əl-islamda baş versə, ölənlərin payı varislərinə çatır.

Q.-i qiymətləndirmək üçün daha çox nüfuzlu şəxslərdən bir və ya bir neçə qiymətqoyan olur, Q-in ümumi qiymətini təyin edirdilər (oraya əsirlər üçün alınan pul da daxil idi), bunun əsasında xums və hər bir iştirakçının payı ayrılırdı, payı natura şəklində və ya pulla ala bilərdilər. Adətən elə oradaca Q.-in bir hissəsi daim ordunu müşayiət edən tacirlərə satılırdı.

**Ədəbiyyat:** İslam, 54; Əbu Yusuf. Əl-Xərac, 21-26; Əbu Übeyd. Əl-Əmval, 7-14; əl-Məvardi. Əl-Əhkam, 217-244; Əl-Qəzali. əl-Vaciz. 1, 288-292; F.F.Schmidt. Die Occupatio im islamischen Recht. – Dİ, 1910, 1, 303-306; F.Lokkegaard. Ghanima. – EI, NE, 2, 1028-1030.

**<u>Qərmətilər - əl-qəramitə (və ya əl-qərmətiyyə, təki əl-qərməti)</u>** – Q. erkən ismaililərin iki əsas qollarından – «yeddincilər» (əs-səb'iyyə və ya əl-mübarəkiyyə) birinin ardıcıllarının adıdır, onlar IX əsrin sonu – X əsrin əvvəlində Abbasi xilafətini lərzəyə salmış böyük dini-siyasi hərəkatın

iştirakçısı olmuşdular. Bu hərəkatın adını Qərmət (və ya Qərmətiyyə) adı ilə bağlayırlar, onu hərəkatın rəhbəri və təşkilatçısı, ismaili möizəçisi (əd-də'i) Həmdan b. əl-Əş'əs daşıyırdı. Bu ləqəbin mənşəyi və onun mənasını tarixçilər müxtəlif cür aydınlaşdırırlar («qısaayaqlı», «qırımızıgözlü» və s.). Lakin Həmdanın çıxışına qədər Q. adı artıq məlum idi, bu bizə söyləməyə imkan verir ki, Həmdan bu ləqəbi artıq mövcud olan (çox güman şiə) təşkilatından götürmüşdür. Ənənəvi olaraq hesab edilir ki, Kufə əyalətinin oturaq və köçəri tayfaları arasında müvəffəqiyyətlə təbliğat aparan ismaili də'i əl-Hüseyn əl-Əhvazi yerli gizli təşkilata rəhbərlik edən Həmdanı cəlb etmişdi. Tezliklə enerjili Həmdan öz təşkilatçılıq bacarığını ismaili təbliğatının genişləndirilməsinə yönəltdi. Onun işlərinin fəallığının başlanğıcını tarixçilər IX əsrin 80-cı illərinə aid edirlər. Bu dövrdə Q. ismaili hərəkatının bir hissəsi idi, onların rəhbərliyi «ilahi nümayişinin gizli sahibinin» (Sahıbəz-zuhur) adından hərəkət edirdi: 890-cı ildə Q. Həmdanın başçılığı altında Aşağı İraqda silahlı mübarizəyə başladılar. Onlar köçkünlər üçün ilk düşərgə (dər əl-hicrə) yaratdılar, oraya Həmdanın «çağırışına» cavab verənlər axışıb gəlirdilər, onu yüksək divar ilə hasarlayıb, dərin xəndəklə əhatə edib, orada evlər tikdilər. Həmdan ümumi xəzinə yaratdı, Q. gəlirlərinin beşdəbirini ora verirdilər və ora kəndlərdən onun icraçıları tərəfindən yığılan vəsait daxil olurdu. Şəxsi istifadədə ancaq silah olurdu. İcmanın üzvləri qardaşlıq süfrəsi mərasimini keçirirdilər.

Həmdan Qərmətin möizələri cəmiyyətin ümumi rifahına, ictimai ədalətin qurulmasına, aşağı təbəqənin ümidlərinə cavab verirdi, ismaililər (və bütün şiələr) onu Əli nəslindən olan gözlənilən Mehdinin gəlişi ilə əlaqələndirirdilər. Həmdan bununla geniş sənətkar kütləsini və kənd əhalisini hərəkata cəlb etməyi bacardı, onlar da öz növbəsində hərəkatda ictimai motivlərin, bərabərlik və ədalətlik ideyalarının güclənməsinə imkan yaradırdı.

Silahlı mübarizə ilə eyni zamanda Q. Aşağı İraqın hüdudlarından kənarda fəal təbliğat aparırdılar. Qərmət möizəçiləri Zikraveyh (Zikruyyə), Abdan, Məymun, Xələf, Qiyas və başqaları Suriya, Bəhreyn, Fars və Hindistanda müvəffəqiyyətlə fəaliyyət göstərirdilər. Qərmət təbliğatı Bəhreynin köçəri və oturaq əhalisi arasında ən yaxşı zəmin tapmışdı, orada Həmdanın emissarı və Abdanın şagirdi Əbu Səid əl-Cənnabi 899-cu ildə müstəqil Qərmət icmasını – paytaxtı Laxsa (əl-Axsa) olan dövlət yaratdı. O ildəcə ismaili hərəkatında parçalanma baş verdi. Həmdanın tərəfdarları ismaili rəhbərlərinə qarşı çıxıb, özünü Fatimə və Əlinin nəslindən olan bir xəlifə kimi elan edən Übeydullah əl-Mehdinin imamətə olan iddiasını qəbul etmədilər və onun tərəfdarları 12 «adadan» birinin «rəhbərliyini» yaratdılar (bax: əl-ismailiyyə, 2) fatimi ismaililərindən fərqli olaraq onlar Məhəmməd b. İsmailin nəslindəki imamətin ötürülməsini qəbul etmirdilər. Bu

ayrılıqdan sonra ancaq Həmdan tərəfdarlarını əl-Q. adlandırılmağa başladılar.

Q.-in Aşağı İraqdakı üsyanı çox çətinliklə, ancaq 906-cı ildə yatırıldı. Lakin bu vaxta Bəhreyn Q.-nin əzəməti yüksəldi. İcmanın banisinin oğlu Əbu Tahir Süleyman dövründə (914-943) onlar Omanı tutdular, daim Aşağı İran və Xuzistana basqın edir, zəvvarların karvanlarına hücum edirdilər. 930-cu ildə ziyarət vaxtı onlar Məkkəyə soxulub, şəhəri qarət etdilər, bir neçə min zəvvar və sakini qətl edib, əsir götürdülər; ibadətini bütpərəstlik hesab etdikləri Kəbəni qarət edib, «qara daşı» iki yerə parçaladılar və onu Bəhreynə apardılar. Ancaq iyirmi ildən sonra əvəzində pul alaraq, onlar müsəlman müqəddəs təbərrükünü Məkkəyə qaytardılar.

Bəhreyn Q.-i quldarlıq icması tipli kənd təsərrüfatı-sənətkarlıq icması yaratmışdılar. İcmanın işlərini altı ağsaqqaldan və onların altı müavinlərindən ibarət şura (əl-iqdamiyyə) aparırdı: qərarlar kollegiyada yekdil səsvermə şərti ilə qəbul edilirdi. Şəxsi təsərrüfatlar və ictimai işlərdə 30 min icma qulları istifadə olunurdu. Bəhreyn Q.-i qullara ümumi malikiyyət əsasında özlərinin müstəqil icma ideallarını həyata keçirməyə cəhd edirdilər. Bəhreyn Q.-i fatimi ismaililərindən hər şeydən əvvəl öz dövrünə görə radikal ictimai proqramı ilə fərqlənirdilər. Lakin, öz icmasının rifah halını qul əməyi üzərində qurmaq cəhdi uzun sürən və möhkəm müvəffəqiyyətə gətirib çıxara bilməzdi. Bəhreyn Q.-nin məğlubiyyətinə az dərəcədə olmayaraq onları əhalidən ayıran fanatizmi və qəddarlıqları imkan yaratdı. Qərməti hərəkatının öz içərisində onları iki düşərgəyə parçalanmağa gətirib çıxaran didişmə oldu, bəziləri Fatimilərlə ittifaqda qalmağa, başqaları onun əksinə çıxış edirdilər. Fatimilər Misiri fəth etdikdən sonra (969) Bəhreyn Q.-i ilə Fatimilər arasındakı antoqonizm açıq düşmənçiliyə çevrildi.

Qəznəvilər dövründə Q.-in şiddətli təqibi, daxili çəkişmə və əhalidən ayrılıq Qərməti icmalarını zəiflətdi. İraq və İranda onların nüfuzu aydın surətdə zəiflədi. Bəhreyn Q.-i dövləti XI əsrin sonuna qədər mövcud idi, lakin onların doktrinası Bəhreyndə daha iki əsrdən çox hökmranlıq elədi.

«Yeddincilərin» ideya varisləri olan Q. erkən ismaililərin təlimi olan ezoterik, «daxili» (əl-batin) təlimini irs götürüb inkişaf etdirdilər. Q.-in ezoterik təliminə uyğun olsa da, konkret görüşlərdə onlar arasında mühüm fərqlər vardır, qərmət esxatologiyası da ismaili esxatologiyasına oxşayır.

Q.-dəki ithafetmə dərəcələrinin hazırlanması və qaydaya salınmasını Abdan əl-Əhvazinin adına yazırlar, o, qərməti təbliğatı təşkilatçılarından biri və teoloji-fəlsəfi əsərlərin müəllifi idi (onlardan birini Əl-Bələq əs-Səbi'ni İbn ən-Nədim oxumuşdu). İthafetmə dərəcələrinin adları (7 və ya 9) müxtəlif müəlliflərdə müxtəlif cür gətirilir və fatimi ismaililərin dərəcələrindən fərqlənirlər.

Q. ciddi və dəqiq işlənmiş təlim sistemi – ət-təlim yaratmışdılar (buradan onların başqa adları-ət-t-təlimiyyə var), o, xüsusilə də şübhəyə salmaq və ona qalib gəlmək bacarığını nəzərdə tuturdu. Ezoterik təlimin sirrləri ancaq beş ali dərəcənin üzvlərinə bəyan edilirdi. Ümumiyyətlə, Q.-in fəlsəfi-teoloji doktrinası fəlsəfi dərnək olan «Təmiz qardaşlar» (İxvan əs-səfa)-nın təsirini öz üzərində hiss edirdi.

Zahiri geyimə və qadağa mərasimlərinə etinasızlıq Q.-də fatimi ismaililərində olduğundan daha açıq xarakter daşıyırdı.

**Ədəbiyyat:** İslam, 133; ан-Наубахти, Шиитсикие секты, 164-167; əl-Bağdadi. Əl-Fərq, 282-283, 288-291; Петрушевский. Ислам, 280-285, 290-291; Босворт. Династии. 106-107; Qalib. Əl-Hərəkat əl-batiniyyə, 131-179; W.Ivanow. Isma′ilis and Qarmatians. – JBBRAS, 1940, 16, 43-86; W.Madelung. Fatimiden und Bahrainqarmaten. DI, 1959, 34, 34-88; C.əl-Əyyaş. əl-İsmailiyyun fi-l-mərhələ əl-qərmətiyyə: Dirasə haulə-l-qəramitə. Əqaiduhum və sauratuhum. Beyrut, 1981; S.M.Stern. Ismailis and qarmatians. – Elaboration, 99-108; W.Maddelung. Karmati. – EI, NE, 4, 660-665.

**Qəsb («alma, qəsb etmə», «yiyələnmə, mənimsəmə»)** – dini-etik konsepsiyanı bildirən istilah, onun tərəfdarları qədərilər və cəbrilərin doktrinalarına münasibətdə kompromis (barışdırıcı) mövqe tutmağa cəhd edərək, insan əməllərini Allah tərəfindən «yaradılan», lakin insan tərəfindən «mənimsənilən» kimi xarakterizə edirlər. İnsan iradəsinin və bacarığının (qüdrət) mənbəyinin şərhindəki fərqlər Allah tərəfindən yaranmış ya yox, - habelə əməllərin yerinə yetirilməsində onların rolu Q. konsepsiyasının müxtəlif variantlarını yaratdı. Kəlamın inkişafının erkən mərhələlərində keçmiş mötəzililər Dirar b. Əmr və Hüseyn ən-Nəccar (VIII əsrin sonu – IX əsrin əvvəli) iddia edirdilər ki, insan əməllərinin həyata keçirilməsində iki fail (fa′ilan) var, onları yaradan Allah və onları «mənimsəyən» insan. Çünki əgər Dirara görə insanın Q.-ə bacarığı və bu aktın özü – onun müstəqil iradəsinin nəticəsidir və bu mənada o, Q.-in əsil (bi-l-həqiqə) təşəbbüsçüsü sayılırsa, ən-Nəccara görə bu bacarıq və bu akt Allah tərəfindən insanda əməllərin yaradılması ilə birlikdə yaradılır, buna görə insan ancaq «metafizik mənada» (bi-l-məcaz) Q.-in təşəbbüsçüsü kimi çıxış edir. Diranın konsepsiyası Hişam b. əl-Həkəmin və bir sıra sifatilərin şəxsində, ən-Nəccarın konsepsiyası isə İbn Qullabın (vəf. 854) ardıcılları qullabilərin şəxsində öz tərəfdarlarını tapdı. Əl-Əş′ərinin təlimində insanın Q.-də iradə və bacarığının rolu qaranlıq qalır (bu da belə qanadlı ifadəni yaradıb: «Bu əl-Əş`əri Q.-indən daha çox başa düşülməzdir»). Lakin bəzi əş′ərilərdə, o cümlədən əl-Baqillanidə, xüsusilə əl-Cüveynidə insan haqqında öz əməllərinin «yaradıcısı» haqqındakı kimi mötəzililər arasında

yayılmış görüşə (baxışa) yaxınlaşan, Q.-də insan bacarığının rolunun seçilməsinə güclənən təmayül nəzərdə tutulur.

Mötəzililikdə Q.-ə başqa şərhlər də mövcuddur. Hələ VIII əsrdə bəzi mötəzililər Quranda olan Q. və iktisab (4:110-112; 52:16, 21) istilahlarının işlənməsinə uyğun olaraq Q. sözü ilə insanın iradi əməllərini göstərirdilər, d.d., «etmək», «həyata keçirmək» (ʹamələ) mənasında. Q.-in belə başa düşülməsi çoxlu Bağdad mötəzili məktəbi üzvləri və zeydilər üçün xarakterik idi. Mötəzili əş-Şəhham (təx. 800-880) iddia edirdi ki, hər bir insan əməlinin potensial olaraq iki təşəbbüsçüsü vardır – Allah və insan. Bu mənada əş-Şəhham Dirar və ən ən-Nəccarın nöqteyi-nəzərinə yaxınlaşmışdı, lakin axırıncılardan fərqli olaraq hesab edirdi ki, həqiqətdə (əslində) iki imkandan biri həyata keçirilir, belə ki, əməldə ancaq bir təşəbbüsçü var: ya Allahdır, bu halda insanın əməli «icbari» (idtirari) həyata keçirilir, ya da insandır, onda əməl onun müstəqil iradəsi ilə həyata keçir və onun Q.-i kimi xarakterizə olunur. Əş-Şəhhamın nöqteyi-nəzərini Əbu Əli əl-Cübbai (lakin o, Q.-in yerinə xəlq («yaratma») istilahını işlədirdi) və ən-Naşı əl-Əkbər (vəf. 906) kimi mötəzililər dəstəkləyirdilər.

Əl-Qəzalinin təlimində Q. istilahı bu hərəkətin üstünlüyü və faydalılığı haqqındakı ağıllı həlli əsasında insan tərəfindən sərbəst surətdə həyata keçirilən hərəkətin mənası kimi və eyni zamanda məcburi surətdə istifadə olunmuşdur. Belə ki, bu qərar nəticədə məcburi olur, baxmayaraq ki, o, «iradi müstəqilliklə məcburidir». Bu cür insan əməlləri əl-Qəzaliyə görə tam «məcburiyyət altında» (cəbr) həyata keçirilən – təbiətdə baş verənlər kimi və «tam müstəqil seçimlə» (ixtiyar) məhz Allahın əməlləri ilə olan əməllər arasındakı aralıq mövqe tuturlar. Azadlıq və zərurətin münasibətləri haqqında məsələnin dialektik tendensiyası həllinə oxşar həll İbn Rüşdün (1126-1198) iktisab konsepsiyasıdır, o, onu Q.-in əşʹəri konsepsiyasına qarşı qoyurdu, ancaq «icbari-məcburi» və «Allahın müstəqil seçiminin» yerini onda «zərurilik» tutur. İbn Rüşdə görə zahiri şərait iradəyə əsaslanan insan əməllərinə təkcə imkan yaratmır və ya mane olmur, həm də nəticədə bu iradənin özünün də səbəblərini göstərir.

**Ədəbiyyat:** İslam, 135; Б.Б.Наумкин. Концепция «касб» у Газали. – Классическая литература Востока. М., 1972; Сагадеев. Ибн Рушд, гл.4, §2; Walfson. The Philosophy, 663-719.

**Əl-Qəzali** Əbu Hamid Məhəmməd b. Məhəmməd ət-Tusi (1058-1111) – böyük ilahiyyatçı filosof və şafei fəqih. Tus şəhərində anadan olub (Xorasan), Nişapurda əşʹəri əl-Cüveyninin 1085-ci ildə vəfatına qədər şagirdi olmuşdur, sonra o, səlcuq vəziri Nizam əl-mülkün yanında olmuş, onun 1091-ci ildə Bağdadda yaratmış Nizamiyyə mədrəsəsində fiqh müəllimi təyin edilmişdi. 1095-ci ildə, ismaililər tərəfindən Nizaməlmülkün

qətlindən sonra əl-Q. həcc ziyarətinə getmək adı altında Bağdadı tərk edir, 11 il Dəməşq, Tus və bir neçə başqa şəhərlərdə yaşamış, 1106-cı ildə Nizam əl-mülkün oğlu Fəxrəlmülkün (Səlcuq sultanı Səncərin yanında vəzir) dəvəti ilə Nişapurda Nizamiyyə mədrəsəsində dərs deməyə başlayır. Vəfatından bir az əvvəl Tusa qayıdır.

Filosoflardan sonra əl-Q. insanları bilikləri və bacarıqlarına görə iki kateqoriyaya bölürdü: «çoxlu camaat», «kütlə» (əl-ammə, əl-avamm) və «seçilmişlər» (əl-xassə). Birinci kateqoriyaya o, sıravi möminləri aid edirdi, onlar başqaları qarşısında dini ayinləri gözübağlı yerinə yetirir ki, onlara mane olmasınlar, müqəddəs mətnlərə alleqorik şərh vermək olmaz, öz fikirlərində dialektik vəziyyətlərdən (sözün Aristotel mənasında) çıxış edən mütəkəllimlər, İslamın ehkamlarını bid`ətdən müdafiə etməklə kifayətlənənlər (bəzən mütəkəllimləri də ayrı-ayrı, sıravi mömin kütlələrindən yuxarıda qalan kateqoriyaya ayırırdı o, ikinci kateqoriyaya (adətən üstüörtülü şəkildə) hər şeydən əvvəl dəqiq mənbələrə əsaslanan sübutların köməyi ilə həqiqətə çatmağa can atan filosofları (fəlsifə) aid edirdi. Bundan əlavə «seçilmişlərə» o, varlığın təkliyi fikrinə məntiqi sübutlarla deyil, hissetmə qabiliyyəti ilə (intuisiya) gələn sufiləri də əlavə edirdi. Sufizmin əsas faydasını əl-Q. onun təlminin mənəvi kamilliyə meylli olmasında görürdü, lakin o, sufilərin Allahla antoloji birliyə can atdıqlarını qəbul etmirdi, birliyi «ancaq» Allahla birləşməyin ən yüksək qüvvə – intellektual intuisiyanın simvolu kimi qəbul edirdi.

Əl-Q.-nin əsas əsərləri siyasi xarakter daşıyır. Ayinlərin praktikası (ibadət), ictimai əhəmiyyətli adətlər, xarakterin «öldürücü» məziyyətləri (mühlıqat) və ixlasa aparan cizgilər (münciyət) məsələlərini özünün nəhəng əsəri İhya ulum əd-dində əl-Q. dini bilikləri dünyəvi məqsədlərinə çatmaq vasitəsinə çevirən öz dövrünün üləmalarını tənqid edir (fars dilində bu əsərin ideyası Kimya-i sa`adat əsərində verilmişdir). Kəlamda qəbul olunan düşüncə üsullarının məhdudluğu onun tərəfindən İhya ulum əd-dində, yalançı tərcümeyi-hal əsəri olan Əl-Munkiz min əd-dələl və «xalq kütləsinin» kəlamla yaxınlığının bəyənilməsinin qeyd olunduğu İlcam əl-'avamman ilm əl-kəlam traktatında açılıb göstərilmişdir. İsmaililərə (batinilər) qarşı onun Əl-Müstəzhiri və Feysəl ət-təfriqə beynə-l-islam va-z-zəndəqə əsəri çevrilmişdir. Əvvəlcə şərq peripatetiklərinin məntiq, fizika və metafizikanın əsas hallarının obyektiv və sistemləşdirilmiş şərhini Məqasid əl-fələsifə kitabında və Təhafut əl-fələsifə əsərində verərək, əl-Q. mütəkəllimlərin adından filosofların metafizikanı müqəddəs mətnlərin hərfi ilə uyğunlaşan prinsiplərlə qurmağı bacarmadıqlarını göstərməyə çalışmış və burada bir halda məntiqin qaydalarına, başqa halda islamın ehkamlarına qarşı çıxmamışdır (Dünyanın yaranması, Allahın ayrı-ayrı şeylərə yayılan biliyi, fiziki cəhətdən dirilmə). Əl-Q. məntiq, riyaziyyat və çox vaxt

fizikanın dini ehkamların məzmununa görə neytral – zərərsiz olduğunu, bu fənlərin müsəlmanların bütün kateqoriyaları üçün zərərsiz olduğunu söyləyir, fəlsəfənin bu hissələrinə qarşı metafizikanı qoyurdu. Eyni vaxtda onun bir neçə işi, məs:, Məraic əl-qüds onun şəxsi dünyagörüşü ideyalarının şərq peripatetiklərinin metafizik konsepsiyalarına yaxın olduğunu sübut edir (Dünyanın əbədi olması haqda tezisin tanınması, emanasiya nəzəriyyəsi və s.). Əl-Qustas əl-mustəqim, Miyar əl-ilm və Mihəkk ən-nəzər əsərlərində əl-Q. şərq peripatetiklərinin məntiqini genişləndirir, lakin onun terminologiyasını dəyişdirib məntiqin qaydalarını Quran və ya sünnədən gələn kimi təqdim etmişdir. Sufi qnosisinə əl-Q. tərəfindən Mişkət əl-ənvar əsərində xüsusi formada baxılır, fiqh problemləri isə Əl-Bəsit, Əl-Vasit, Əl-Vaciz və Əl-Mustafa, üsul əd-din isə Əl-İqtisad fi-l-i′tiqad və Əl-Ərbəin əsərlərində şərh olunur.

Hələ orta əsrlərdə bəzi müsəlman-ərəb müəllifləri, məsələn əl-Q.-nin tənqidçisi İbn Rüşd əl-Q.-nin ideya irsinin əks görünüşünü belə başa salırdılar ki, o, öz kitablarını müxtəlif hallarda müxtəlif auditoriyaya – əş′ərilərlə olanda əş′əri, sufilərlə olanda sufi, filosoflarla olanda filosof kimi təqdim edirdi (İbn Rüşd. Рассуждение, выносящее решение относительно связи между религией и философией. Сагадеев. Ибн Рушд, 189). Əl-Q. təliminin çoxtərəfli olması müsəlman doqmatları tərəfindən tənqidə məruz qalır, elə onlar tərəfindən də islamın dəlili - «höccət əl-islam» səviyyəsinə qaldırılırdı. Müsəlman ilahiyyatçılarının sonrakı – ta müasir nəsillərədək – hamısı üçün əl-Q. İslamın ən nüfuzlu ilahiyyatçılarından biri olub.

**Ədəbiyyat:** İslam, 52; ал-Газали. Воскрешение. (Правильные весы (ал-Кустас ал-мустагим). Отдельные главы. Пер. В.В.Наумкина. Там же., 313-338; он же. Избавляющий от заблуждения. Пер. А.Б.Сагадеева. – С.Н.Григорян. Из истории философии средней Азии и Ирана VII-XII вв. М., 1960, 211-267; он же. Ответы на вопросы, предложенные ему. Пер. А.И.Рубина. – там же, 196-211; Г.М.Керимов. Аль-Газали и суфизм. Баку, 1969; M.Bauyges. Essai de chronologie des oeuvres de al-Ghazali. Beirut, 1959; W.M.Watt. Muslim intellectual; A.Stady of al-Ghazali. Edinbourgh, 1963; F.Jabre. La notion de certitude selon Ghazali. P.,1958; on je. La notion. H.Laoust. La politique de Ghazali. P., 1970; H.Lazarus – Jafeh. Studies in al-Gazzali. Jerusalem, 1975.

**Qəzəvat** (qəzva – «hücumun» cəmi) – «din uğrunda müharibə», cihadın çalarlarından biri. Müsəlman Q.-ını bəzən köçəri cəmiyyətlərindəki qənimət ələ keçirmək məqsədilə edilən hücumlara oxşatsalar da, bu belə deyil. Ərəbistanın köçəri cəmiyyətində Q. mühüm rol oynayırdı. Onların əsasında bütün var-dövləti cəmiyyət arasında bölməyin iqtisadi zərurəti

dururdu. Müsəlmanların Məhəmməd (s) tərəfindən Mədinədən öz düşmənləri üzərinə təşkil olunan ilk hücumları Q. adı almışdı. Sonralar Q. istilahı ilə müsəlmanların «kafirlərə» qarşı müsəlman dünyasının ətraf ölkələri ilə hərbi toqquşmaların gedişində aparılan müsəlman yürüşləri qeyd olunurdu.

XIX əsrdə Q. – Qafqaz dağlılarının Rusiyanın qəsbkar siyasətinə qarşı apardıqları müharibələrdir. Əsrimizin 20-ci illərində Q. – İslam şüarı altında Sovet hökumətinə qarşı basmaçıların apardıqları hücumlardır.

**Ədəbiyyat:** İslam, 51; А.Б.Фадаеев. Россия и Кавказ в первой трети XIX в. М., 1960; Levi-Provençal. Historie, 3, 85-106; T.M.Johustan. Ghazw. – EI, NE. 2, 1055-1056.

**Qəzavü Qədər** – müsəlman, xüsusilə də sünni ədəbiyyatında dünyada baş verən, o cümlədən insan əməllərinin ilahi determinizmini bildirən təbir. Sözün bu ümumi mənasında əl-qəza vəl-qədər fərqlənmirdilər. Lakin nəzəri təcrübəyə əsaslanan sistemlərdə onlar ilahi determinasiyanın müxtəlif səviyyələrini bildirirdilər: əl-qəza altında şeylərin nizamının zaman və məkan xaricində qabaqcadan müəyyən edilməsi, onun Allah «elmində», ilahi «əbədi istəyində» (mütəkəllimlərdə), «ilk idrakda» (fələsifədə) qabaqcadan mövcud olması başa düşülürdü; əl-qədər isə əl-qəzanın məkan və zamanda yerləşdirilməsi, onun emprik dünyada ilahi differensial istəyi (əş'ərilərdə), «dünyəvi ruhla» (fələsifədə) kəşfini bildirir. İbn Ərəbidə ilahi determinasiyanın müxtəlif səviyyələr üçün bu iki istilahın mənası yerlərini dəyişirdilər.

**Ədəbiyyat:** İslam, 125; bax, əl-cəbriyyə məqaləsinə.

**Əl-Qiblə («üz-üzə yerləşən şey»)** – müsəlmanın namazını (əs-salat) qılarkən və ya bir sıra ayinləri yerinə yetirərkən Məkkəyə, d.d., əl-Kəbəyə tərəf üz tutduğu istiqamət. Əl-Q.-nin Məhəmmədin (s) ardıcılları üçün Məkkə mərhələsində onun fəaliyyətinin (610-622) hansı xidməti etdiyi haqqında bir neçə nöqteyi-nəzər var. Elmdə ən çox o ehtimal yayılmışdır ki, ilk müsəlmanlar namaz qılan vaxt Yerusəlimə (Qüdsə) üz tutmuşlar. Lakin Mədinə yaxınlığında Qüba` kəndində Peyğəmbər (s) tərəfindən hələ Məkkədən Mədinəyə gedərkən 622-ci ildə əsasını qoyduğu İslamın ilk ibadət binası - məscidin tədqiqi (öyrənilməsi) göstərir ki, bu bina şimala - Yerusəlimə deyil, o dövrün xristian bazilikaları kimi şərqə yönəldilmişdir. Eyni zamanda erkən müsəlman tarixi rəvayətləri iddia edirlər ki, Peyğəmbərin (s) ilk 16-17 ay Mədinədə qaldığı müddətdə müsəlmanların əl-Q.-si Yerusəlimə yönəlmişdi. Bundan sonra Məhəmməd (s) əl-Q.-nin dəyişməsi haqqında xəbər verdi (bax: Q. 2:142/136-145/140) və onun əl-Kəbə müqəddəs abidəsi tərəfə olduğunu elan etdi. Rəvayətə görə bu

günlərin birində, zöhr namazı qılınandan sonra baş verdi, camaat əsr namazını əl-Q.-Kəbə tərəfə qıldı.

Bu vəziyyət ilk islam tarixində dönüş punktlarından biri oldu və onun mühüm siyasi-dini nəticələri var idi. O, Peyğəmbər (s) tərəfindən öz möizəsinin yəhudilərin və xristianların təlimlərindən əsaslı surətdə fərqləndiyinin dərk edildiyini göstərdi (2:145/140). Erkən hədislərdə əl-Kəbənin əl-Q. kimi qəbul edilməsi İslamın ardıcıllarının fərqləndirici cəhətlərindən biri kimi çıxış edir. Bu, sonradan müsəlman icmasının aldığı adlardan birində öz əksini tapmışdır – əhl əl-qiblə va-l-cəma'a- «qiblə və razılıq [icma adamları]». Əl-Q.-nin dəyişməsi təzə dinin ərəb xüsusiyyətini qeyd edirdi ki, bu da nəticədə islamın Ərəbistanda yayılmasını mühüm dərəcədə yüngülləşdirirdi. Məhz əl-Q.-nin dəyişdiyi andan islam tədricən reformator çərçivəsindən çıxmağa başlayır və müstəqil din olur.

Üzünü əl-Kəbəyə tutma namaz qılanda, azanda, həcc vaxtı ehrama daxil olanda və ehramdan çıxanda (ihlal) və həcc mərasimlərindən biri olan şeytana daş atdıqdan (mənəşik) sonra həyata keçirilir. Müsəlmanı dəfn edəndə üzünü Məkkəyə- əl-Q.-yə, başını isə qərbə tərəf sağ ciyni üstə qoyurlar. Müsəlman adətinə görə heyvan kəsildikdə də üzü qibləyə tutulur. İnsan can verərkən də onun üzünü Q.-yə çevirirlər (ayaqlar Q., baş isə şimal tərəfdə olur).

İbn Ərəbi Qurana əsaslanaraq (2:115/109) qeyd edir ki, namaz vaxtı əl-Q.-yə üz tutarkən müsəlman xatırlamalıdır ki, Allah təkcə orada yox, hər yerdədir.

Məscidlərdə əl-Q., əgər məscidin ilk istiqaməti düz olmayıbsa, xüsusi oyma (mehrab), döşəmə və divarda ox işarələri ilə nişan edilir.

Əl-Q.-nin təyini üsulu orta əsr müsəlman riyazi coğrafiyası və sferik astronomiyasında işlənilən ən mühüm vəziflələrdən biri idi.

**Ədəbiyyat:** İslam, 136-137; İbn Hişam. Sirə, 1, 606; ət-Təbəri. Təfsir, 2, 2-15; Bartold. Əsərləri, 6, 537-542; Watt. Muhammad, 112-118; Waardenburg. Preiodization; A.I. Wensinck. Kibla I.Ritual and Legal Aspects. EI, NE, 5, 82-83; D.A.King. Kibla 2. Astronomical Aspekcts – yenə o., 83-88.

**<u>Əl-Qiraət («oxu», «deklamasiya»)</u>** – müxtəlif növlü mərasimlərdə Quranın ayrı-ayrı hissələrinin və ya bütün mətninin ucadan oxusu.

Müsəlman icmasının yarandığı vaxtdan əl-Q. mərasim təcrübəsində mühüm rol oynayır, bu, Quranda da öz əksini tapmışdır, orada eyni kökdən olan əl-Quran istilahı ilə ayrı-ayrı kəşfləri (vəhyləri) ifadə edirlər və sonradan isə Məhəmmədin (s) bütün kəşf (vəhy) külliyyatını müəyyən edirdilər.

Peyğəmbərin (s) vəfatından sonra onun kəşflərinin (ona nazil olanların) hazır kitabı qalmamışdı. Onun ardıcıllarının əlində ancaq kəsik-kəsik qeydlər var idi: onların çoxu kəşflərin (vəhy) əhəmiyyətli hissəsini əzbər bilirdilər. Bütün bunlar və o vaxt hələ kamilləşməyən ərəb yazısı qalmış qeydlərin variantlı başa düşülməsi və qiraətinə aparırdı. Tezliklə Peyğəmbəri (s) dinləyənlər arasında bu barədə fikir ayrılığı yarandı. Quranın müxtəlif oxunuşu özündə ciddi siyasi təhlükə gizlədirdi, çünki Peyğəmbərin (s) kəşfləri müsəlman icmasının həyat nizamnaməsində və qurulan dövlətdə (Xilafət) əsas rol oynayırdı.

Xəlifə Osman vaxtı, 650-656-cı illər arasında Quranın vahid mətninin hazırlanması üçün cəhd edildi və bütün başqa nüsxələrin ləğv edilməsi qərara alındı. Buna baxmayaraq Məhəmmədin (s) bir sıra nüfuzlu tərəfdarları, məs., İbn Məs′ud (vəf. 653), Übeyy b. Kə′b (vəf. 649 və ya 654) «öz oxuları» və (həm də əl-Q.-i) saxlamaqda davam edirdilər. Axırıncıların mətnləri (həm də əl-Q.) arasında mindən çox fikir ayrılığı var idi. Quranı yadda saxlayıb, onu əzbər deyən şəxslərin (qurra` - qarinin cəmi) xüsusi qrupları var idi. Onlar Məhəmmədin (s) kəşflərinin mətnlərini yadda saxlamışdılar. Bütün bunlar və Osman vaxtı tərtib olunmuş mətndə işarələrin olmaması variantlı oxu üçün imkan yaradırdı. İşarələr (hərəkələr) bir sıra hərfləri bir-birindən ayırmağa, sözün səs tərkibini təyin etməyə və onu birmənalı başa düşməyə imkan verirdi.

Tezliklə bütün başqa nüsxələri sıxışdırıb aradan çıxaran «rəsmi» mətnin tərtibi «Quranın əzbərdən oxunması elminin» (elm əl-Q.) yaranmasında ilk addımını atdı, sonradan o, müsəlman filologiyası və ilahiyyatında ən mühüm cəhətlərdən biri oldu. Növbəti qanunauyğun addım «rəsmi» mətndə diakritik işarələrin yaranması oldu, bu iş iki əsr (VII əsrin sonu IX əsrin sonu) ərzində həyata keçirildi. Bizə qədər gəlib çıxan əlyazmaları diakritik işarələrin müxtəlif variantlarının olduğunu göstərirlər. Quranın birmənalı hərəkələrinin yaranmasında əsas xidməti Nəsr b. Asim (vəf. 707) və Yəhya b. Yə′mur (vəf. 746) göstərmişlər. Eyni vaxtda, əlyazmalarında olan real fikir ayrılıqlarının təhlili və (əl-Q.) «oxu» külliyyatının tərtib edilməsi problemi həll olunurdu. «Qiraətlər» hərəkələrin variantları, sürəti, avazı və intonasiya quruluşuna görə, pauzaların yerlərinə və tələffüz xüsusiyyətlərinə görə fərqlənirdilər. Bu problemlərə həsr olunmuş əsərlərdən ikisini qeyd etməyə dəyər. Onlardan biri İbn Əbu Davudun (vəf. 928) qələminə aiddir, o, öz əsərində Quranın erkən nüsxələrini təhlil etmiş, «qiraətin» (əl-Q.) bir sıra «qaydasız» variantlarını aydınlaşdırmışdır. İkincisi, Bağdad «qarelərinin» imamı İbn Mücahid (859-936) tərəfindən yaradılmışdır. Onun Qiraət əs-səb′a əsərində Məkkə, Mədinə, Dəməşq, Bəsrə və Kufədə yaşamış yeddi nüfuzlu qarenin (qurra) Quranı əzbər demək sistemi təqdim olunmuşdur. Sistemlərdən hər biri bir-birindən xeyli

fərqlənən variantların nəqlində (rəvayət) verilmişdir. İbn Mücahidin «yeddi oxu» haqqındakı rəyi birdəfəlik və hər yerdə qəbul edilmədi, 10, 14 «qiraət» haqqında da deyirdilər. Hazırda İbn Mücahidin əsərinə daxil olanlardan ancaq iki əl-Q. demək olar ki, öz əhəmiyyətini qoruyub saxlamışdır. Bu Hafsın (vəf. 805) təqdimində Kufə qaresi Asimin (vəf. 744) sistemidir. Bütün müsəlman ölkələrində Quranın yenidən nəşr olunan Misir variantı məhz bu əl-Q.-ə əsaslanıb (1919, 1923, 1928). Bu nəşr müsəlman alimlərinin nəsillərinin elm əl-Q.-dəki əməklərini başa çatdırdı. Başqa əl-Q. sistemi Mədinə qaresi Şəfinindir (vəf. 785), o, Şimali Afrikada məşhurdur.

Hazırda müsəlmanların çoxuna əl-Q.-in yeddi sisteminin mövcud olduğu məlum deyil. Qeyri-ənənəvi bir müsəlman hərəkatı olan əhmədiyyə təbliğat xatirinə, ümumiyyətlə, Quranın osmanaqədərki nüsxələrinin mövcudluğunu rədd edir. (Əl-Q.-in) variantlı «qiraətlərinin» çoxunun, çox güman ki, orta əsr müsəlman filoloqları tərəfindən Osman vaxtı tərtib olunmuş mətnlərin «qaranlıq» yerlərini düzəltmək cəhdləri olmuşdur. Quran mətninin tekstual və ya orfoqrafik variantlarının istifadə edilməsi müsəlman ekzeqetikasının inkişafı və nəticədə ərəb-müsəlman cəmiyyətində fikir (ideya) mübarizəsi ilə qırılmaz surətdə bağlı idi.

**Ədəbiyyat:** İslam, 138; G.Bergstrüsser. Koraniesung in Kairo. – DI. 1932, 20, 1-43; 1933, 21, 110-115; A.Jeffery. Materials for the history of the text of the Qur`an. Leiden, 1937; Blackhere. Introduction, 102-135; Bell-Watt. Introduction, 40-50; A.Rippin. Qur`an, 21-95; «A ban is upon my town». – JSS, 1979, 24/1, 43-54; Yenə o. Qur`an 7:40; Until the camıl passes through the eye of the meedle». – Arb. 1980, 27, 107-113; yenə o. Qur`an 78/24; a Study in Arabic Lexicography. – JSS, 1983, 28/2, 311-320; R.Paret. Kira`a. – EI, NE, 5, 127-129.

**Qisas** – (əvəz çıxma), qisas, qətlə, yaralamağa və başqa zədələrə görə cəza verməklə «boşalma» (rahatlanma). Q. İslam tərəfindən bir qədər dəyişdirilmiş və yumşaldılmış şəkildə qədim talion qaydalarına gedib çıxır. Qəsdən öldürmək üstündə Q. ölüm cəzasını, cana-can, gözə-göz, dişə-diş, buruna-burun və s.-ni (Q. 5:45) tələb edir. Əgər öldürülənin varisləri qatili öldürməməyə razılaşsalar o (qatil) və onun qohumları kompensasiya (diyə) ödəməlidirlər. Başqa din sahiblərinin – zimminin qətlinə görə bir məzhəbdə ölüm cəzası verilir, başqa məzhəbə görə isə diyə alınır. Qərəzsiz qətlə (döyüşdə, özündən asılı olmadan, təcrübəsizlikdən) görə diyə alınır. Zədəyə görə, əgər mümkündürsə, ona bərabər zədə verilməlidir. Məsələn, günahkarın qulağını və ya barmağını kəsmək olar, lakin (bədəni deşmək, kəsmək, sındırmaq) və ya başı yarmaq olmaz. Belə hallarda kompensasiya vermək lazımdır.

Q. ancaq hakimin hökmünə görə müəyyən edilir, onun yerinə yetirilməsi isə cəllad və ya zərərçəkmişin qohumları tərəfindən həyata keçirilir. Əgər günahkar məhkəmədən qaçıb gizlənərsə, o, qiyabi olaraq sürgünə məhkum olunur, onun qohumları isə diyə ödəməyə məcbur edilir.

Hazırda Q. bir çox müsəlman ölkələrində qüvvədə olan hüququ qayda kimi qalır. Lakin, onu ancaq fövqəladə hallarda tətbiq edirlər, çox vaxt onu diyə ilə əvəz etməyə çalışırlar.

**Ədəbiyyat:** İslam, 138; Əbu Yusuf. Əl-Xərac, 178-213; J.Schacht. Qisas. –EI, NE, 5, 174-1774.

**Əl-Qiyas (bənzəyiş)** – bənzəyiş haqqında mühakimə, hüquqi məsələlərin rasionalist tədqiqatının aparıcı prinsipi, ər-rə`yin müstəqil mühakimə kateqoriyalarından biridir. Əl-Q. həll olunan sxematik modelin artıq həll olunmuşla müqayisəsi və onun nümunəsinə uyğun qərar çıxarılmasıdır. Əsasında Aristotelin məntiqi qoyulan bu üsul Roma-Bizans hüquqşünasları tərəfindən geniş surətdə istifadə olunurdu. İslam ilahiyyat kompleksində işlənmək üçün o, Həmmad b. Əbi Süleyman (VIII əsrin birinci yarısı) və onun şagirdi Əbu Hənifə (699-767) tərəfindən hazırlanmışdır.

Əl-Q.-ın əhəmiyyəti fiqhin bütün sistemində o qədər böyükdür ki, Quran, sünnə və əl-icma ilə yanaşı rasionalist tədqiqatların bütün başqa kateqoriyalarını özü ilə örtərək o, fiqhin köklərindən – mənbələrindən biri kimi qəbul edilmişdi. Əl-Q. sayəsində faktların mexaniki şəkildə bir-birinin üstünə yığılmasından qaçaraq, hər bir hüquqi təzahürü təhlil etmək imkanı meydana gəldi. Müqayisə üçün cəlb olunan materiala görə əl-Q.ya Quran və sünnənin mətnləri (əl-qiyas əş-şər′i) və ya çox məşhur və dəqiq faktlar (əl-qiyas əl-′aqli) əsasında qurulur. Müqayisə imkanlarına görə əl-Q. «açıq-aydın»a (əz-zahir) – (burada oxşarlıq tam aydındır) və «gizli»-yə (əl-xəfi) – (burada oxşarlıq ancaq məntiqi təhlildə aydınlaşır) bölünür. Müqayisə olunan modellərin münasibətinə görə əl-Q. «uzaqlaşmış», «yaxınlaşmış», «daralmış», «genişlənmişə» bölünür.

Əl-Q. formulasının (düstur) vacibi elementləri «əsasdırlar» (əl-əsl) – bu artıq həll olunmuş məsələnin modelidir, bundan müqayisə yaranır, «sərfetmə» (əl-fər`) - həll olunan məsələnin modeli, «mühakimə etmə» (əl-hukm) - bütün formulanın əsas mənası və nəhayət «səbəb» və ya «şərt» (əl-`illə) – üzərində bütün müqayisələrin qurulduğu mühakimənin əsaslandırılması, məsələn: «Üzüm şərabı (xəmr) sərxoşedici xüsusiyyətinə görə qadağandır. Palma şərabı (nəbiz) sərxoş etmək xassəsinə malikdir. Deməli, palma şərabı qadağan olunmalıdır». Üzüm şərabı haqqındakı ifadə «əsasdır», orada şərab müqayisə mövzusudur, sərxoşedici xassələr – «əsasdır», qadağa isə «mühakimədir». Palma şərabı haqqındakı ifadə

«sərfetmədir», orada şərab-müqayisə mövzusudur, sərxoşedici xassələr – ümumi «şərtlərdir», onun üzərində qadağa haqqında mühakimə qurulur.

Əl-Q. bütün məzhəblər tərəfindən ya hüquq mənbələrindən (əsil) biri kimi, ya da təcrübə fəaliyyətində bir üsul kimi qəbul olunmuşdur. Lakin, onun tətbiq edilməsi fəqihdən böyük həssaslıq və geniş bilik tələb edirdi, belə ki, daim seçmək lazım gəlirdi: əsas kimi nümunə olaraq qəbul edilmiş mətni və ya məlum faktı götürmək, açıq bənzəyişlə razılaşmaq və ya gizlini axtarmaq və s. Bundan əlavə həddindən artıq formal qurulmuş məntiqi xülasə mənasız (absurd) fikirə (qərara) gətirib çıxara bilər. Buna görə tezliklə bənzəyişi-açıq əl-Q.-ı və sairəni əldə etmək üçün cəlb olunmuş materialın məhdud edilməsi üsulu ilə əl-Q.-ın tətbiq edilməsinin məhdudlaşdırılmasına meyl yarandı.

Müqayisə üçün ən uyğun gələn mətn və faktları seçmək bacarığı, əl-Q.-ın bu və ya başqa növünün tətbiqi, mühakimə zəncirinin düzgün və inandırıcı şəkildə qurulması fəqihin əsas peşəkar bacarığı keyfiyyətlərindən biridir, o, ictihadın ümumi məfhumuna daxil olurdu.

**Ədəbiyyat:** İslam, 137; əl-Həkim. Əl-Üsul, 301-358; Əbu Zəhra. Əbu Hənifə, 316-343; Məhməssani. Fəlsəfət ət-təhsri, 79-83; V.J.Wensinck. Kiyas. – EI, 2, 1130-1131.

**<u>Qul</u>** - insanlara xüsusi bədxah və düşmən olan, adətən qadın xeylağı olan cin növü. Guya səhrada yaşayıb, oradan ötənləri aldadıb, cürbəcür qiyafəyə girir, sonra onların üstünə hücum çəkib, onları öldürür. Xalq arasında onlara qulyabani (quleybani) deyillər. Kişi xeylağı – qul-qutrubdur. Hərdən Q.-u si'lətlə eyniləşdirirlər. Orta əsrlər müsəlman xalq inamlarında Q. İblis və şeytanlarla əlaqədə olan imansız cinlərə aid edilir; onlar adamyeyən və ölü əti yeyənlər sayılır. Müsəlman dünyasının demək olar bütün ölkələrinin xalq ədəbiyyatı və folklorunda onların macəraları ilə bağlı çoxlu nağıllar vardır.

Mötəzililər Q.-un mövcudluğunun həqiqi olmasını rədd edirdilər. Bu məsələ haqqında fikir ayrılığı iki növ hədislərdə öz əksini tapır. Birincilərdə Məhəmməd (s) Q.-un mövcudluğunu rədd edir (bu fikir inandırıcı deyil, çünki Quranda cinlər haqda məlumat var), ikincilərdə isə onları qovmağın yolunu öyrədir.

Q. Ərəbistanın islamaqədərki xalq inanclarının qalığıdır. VI əsr və VII əsrin əvvəllərində onu tez-tez Ərəbistan şairləri yada salırdılar. Xüsusilə də məşhur şair Təəbbətə Şərran, o, Q. ilə qarşılaşdığını və onun üzərində qələbə çaldığını vəsf edir. Q. istilahı Quranda yoxdur, lakin o, müsəlman dünyasının demonoloji panteonuna daxil olmuşdur.

**Ədəbiyyat:** İslam, 54; Lisan əl-ərəb, 14, 20-22; Tac əl-arus, 8, 52-53; əş-Şibli. Əhkam əl-Mərcan, 94; Van Vloten. Damonen, 7, 178; Wellhausen.

Skizzen, 3, 137-138; Gaudefroy-Demombynes. Mahomet, 34; D.B.Macdonald – Ch.Zellat. Ghul. – EI, NE, 2, 1103-1104.

**Qulat** - (təki qali; «qatı», «mülayim olmayan» görüşlərin tərəfdarı, şiə məzhəbində «qatı» cərəyanı təmsil edən çoxsaylı qruplar və icmaların ümumi adı. Müsəlman doksoqrafları hesab edirdilər ki, «qatılar» o adamlar idilər ki, onlar Əli (ə) və onun nəsli barəsində «qeyri-mülayim» baxışları təbliğ edirdilər və «qeyri-mülayim» sözü altında hər şeydən əvvəl onları ilahiləşdirirdilər. Müsəlman adətinə görə ilk «qatı» şiə Abdulla b. Səba idi, o, Əlinin (ə) vəfat etdiyini qəbul etməyib, onun qayıdacağını gözləyirdi. «Qatı» şiələrin (qeysanilər, xəttabilər, müğirilər, mənsurilər və b.) ən çox fəallığı VIII əsrdə ictimai əlaqələrin ən az stabil olan dövrü-sülalələrin dəyişdiyi dövr olmuşdur. «Qatı» şiələrin fəaliyyəti o vaxt ən çox İraq ərazisində vüsət tapırdı – o ölkə qədim mədəniyyət və sinkretik inamlar ölkəsi idi ki, bu da «qatı» şiələrin dini-siyasi görüşlərinin rəngarəngliyini və eklektikliyini təyin edirdi. Ən qədim və populyar müxtəlif görüşlər «ilahi» ruh və işığın emanasiyası haqqında idi. Yuxarı hakimiyyətin «ilahi» mahiyyət ideyası öz təbirini Əli (ə) nəslindən olan əvvəlki imamlarda tapırdı.

İcmaya praktik rəhbərliyə möminlərin tələbatı ona gətirib çıxartdı ki, müxtəlif müavinlər (xəlifə), vəkil, ilahiləşdirilmiş imamların əmrlərini müvəqqəti icra edənlər (qaim) peyda olurdular. İmam – Allahın yer üzərindəki köməkçisidir - ideyası sonradan elçi və peyğəmbərlik missiyası şəklində inkişaf etməyə başladı. Çoxsaylı «peyğəmbərlər» (nəbi), «elçilər» (rəsul), «darvaza» (bab) peyda oldular, guya onlara «kəşf» (vəhy, tənzil), «yol» (səbəb), «sübut» (höccət) və s. nazil olurdu, baxmayaraq ki, Quranda Məhəmmədin (s) son peyğəmbər (xatəmu-n-nəbiyyin) olduğu qeyd olunmuşdur.

Peyğəmbərlik və elçilik missiyasına iddiaçılar tez-tez özlərini ilahiləşdirirdilər. Bunların hamısı İslam, peyğəmbərlik və imamətə zidd fikirlər idi.

«Qatı» şiələrin fəaliyyəti ellin-xristian qnostizmi, yeni pifaqorçuluq və başqa ideoloji sistemlərin ayrı-ayrı elementlərini müsəlman xalqlarının şüuruna yeritməyə fəal imkan yaratdı və bu ona gətirib çıxartdı ki, çoxlu yad və hətta düşmən anlayış və görüşlər bu və ya başqa şəkildə erkən İslama daxil oldu və «mülayim» şiələrin də dini-siyasi ideologiyasının yaranmasına təsir etdi. İmamların «gizli vəziyyəti» və «zühuru» (əl-qeybə, ər-rac'a), onların peyğəmbərlik bilikləri və günahsız olmaları, onların «ilahi» təcəssümü, dirilmələri və ruhların keçməsi haqqında ideyalar məhz «qatı» şiələr arasında yarandı. Bu ideyalar sonralar «mülayim» şiələrin əhkam sisteminin elementlərinə çevrildi.

**Ədəbiyyat:** İslam, 55; an-Naubaxti. Шиитсике секты, 93-99; С.М.Прозоров. Эволюция доктрин и крайних «шиитов-гулам в исламе» (VIII-первая половина Хв.) – НАА. 1974, 3, 146-153; M.Abd

əl-Ali. Hərəkat əş-şiə mütətərrifin. Qahirə, 1954; M.G.S.Hodgson. Ghulat. – EI, NE, 1, 1119-1121.

**Əl-Quran** («bərkdən, əzbər oxuma»; «müqəddəs mətnin oxusu», «nəsihət»), Əl-Quran Əl-Kərim - müsəlmanların müqəddəs kitabı, 610-632-ci illər arasında Məhəmməd (s) tərəfindən əsasən Məkkə və Mədinədə Allahdan nazil olan, «peyğəmbər vəhyləri» şəklində dediklərinin sonradan kitab halında yaranmış şəkli.

Əl-Q. istilahı başqa istilahlarla yanaşı (hədis-«hekayə»; haqq-«həqiqət»; surə-«ən mühüm»; ayə-«işarə», «möcüzə», «əlamət»; tənzil – «nazil olan»; əl-hikmə-«müdriklik», əl-furğan-«fərq» [həqiqi və yalan arasında]; əz-zikr- «xatırlama» [əvvəl nazil olan] ) əvvəlcə Məhəmməd (s) tərəfindən onun möizələrini təşkil edən ayrı-ayrı vəhyləri bildirmək üçün istifadə edilirdi. Vəhylərin sayının artması, onların təzə qeydlərinin əmələ gəlməsi və Q.-nın yəhudi (ət-Tövrat) və xristian (İncil) yazılarına qarşı qoyulması ilə əlaqədar olaraq Q. mətnində «Əl-Kitab» istilahı da meydana gəlir, onun tez-tez istifadəsi və mühümlüyü Məhəmmədin (s) Mədinə həyatı mərhələsi surələrində get-gedə artır. Sonralar ayə, surə və Q. dar istilah mənalarını daşıdılar: birincisi (ayə) Q. mətninin ən kiçik səviyyədə (bölgüdə) bölünməsini bildirir, ikincisi (surə) orta (aralıq) səviyyəni bildirir, üçüncüsü Əl-Q. bütün müqəddəs Kitabı bildirir. Q. həm də əl-Müshəf – «lülə şəkilli kağız» və Q. mətnində rast gəlinməyən başqa istilahlarla ifadə edilir.

Qurani Kərim milyard yarımdan çox insanın etiqad etdiyi islam dininin Müqəddəs Kitabı, ərəb ədəbi dilinin ən möhtəşəm abidəsi və səmavi kitabların ən sonuncusu və mükəmməlidir. İlahi gözəlliyə malik olan bu əsər Ulu Tanrının öz möcüzəsi kimi milyonlarla insanların qəlbinə hakim kəsilmiş, beyninə nüfuz etmişdir. Onun ilahi gözəlliyini təsdiq etməyə təkcə bu kifayətdir ki, ərəb dilini bilməyənlər belə onu dinləməkdən doymur, yorulmur.

Məhəmməd peyğəmbərin (s) vaxtında Quran mətni əsasən şifahi olaraq yaddaşla ötürülmüşdü. Əvvəllər Məhəmməddən (s) asılı olmayaraq, sonralar isə Mədinədə, görünür onun icazəsilə olunmuş qeydlər var idi. Ən çox dəlilli nöqteyi-nəzərə görə Q. mətninin ilk tam qeydləri Məhəmmədin (s) ən yaxın ardıcılları dairəsində onun vəfatından sonra 632-ci ildə meydana gəldi və onlar bir-birindən sayına və vəhylərin xronoloji yerinə, bəzi surələrin adları, bir sıra sözlərin yazılışına görə fərqlənirdilər. Q. mətninin külliyyatının tərtib edilməsi haqda qərar İslam üçün çətin bir vaxtda qəbul edildi, bu vaxt Ərəbistan yarımadası üzərində Mədinə icmasının hakimiyyətinin təsdiqlənməsində ər-riddələrə qarşı mübarizə gedirdi. Ən çox dəstəyi müsəlman rəvayətinə əsaslanan ehtimal qazanır, ona görə 550-556-cı illər arası xəlifə Osmanın əmri ilə Zeyd b. Sabitin

rəhbərliyi altında xüsusi kollegiya Q.-nın mətnini hazırladı ki, o da başqa yazıları sıxışdırıb aradan çıxartdı və özü nəhayət qanuni qəbul edildi. O, əvvəlki versiyalardan biri əsasında, başqa nüsxələri və Məhəmməd (s) möizələrini bilən şəxslərin şahidliyi əsasında yaradıldı. Bu, Q.-nın mətni üzərindəki işin ikinci mərhələsi, başqa mərhələnin tələbatı ilə bağlıdır, bu vaxt qalib müsəlman orduları artıq İraq və Suriyanı tutmuşdular. Q.-nın bizə gəlib çatan ən erkən nüsxələri VII-VIII əsrlərə aiddirlər.

Q.-nın mətninin birmənalı başa düşülməsi zərurəti ilə meydana gələn ərəb yazısının inkişafı gedişində onun xarici görünüşü sonralar dəyişikliklərə uğradı. Q.-nın yazısının yaxşılaşdırılması IX əsrin sonunda başa çatdı, bu Q.-nın yazısına nöqtələrin əlavəsi (yazılışı) idi, lakin bundan sonra da bəzi müxtəlif oxuma imkanı qalmışdı. Hərəkələrin meydana gəlməsi və sonra da onun Q.-da tam şəkildə möhkəm yer tutması, d.d., bir cür mətnin yaranması VIII-X əsrlərdə müsəlman cəmiyyətindəki ciddi ideoloji müzakirələrlə qırılmaz surətdə bağlı idi. İbn Mücahidin (859-936) əsərinin meydana gəlməsindən sonra Q.-nın (əl-qira`ə) yeddi cür «oxunuşu» eynihüquqlu kimi qəbul olundu. Orfoqrafiya, mətnin quruluşu və «oxu» qaydaları Q.-nın Qahirədə nəşri (1919, 1923, 1928) ilə tam qanuniləşdirildi, onlar Kufə «qaresi» Asim (vəf. 744), ötürücü («ravi») Hafsın (vəf. 805) variantına uyğundur.

Q. üzərində iş islam dünyasında baş verənlərdən təcrid olunmuş şəkildə həyata keçirilmirdi. Bu dövrə «böyük islam ənənələrinin yaranmasından» islamı təzələndirməyə can atan müsəlman yenilikçilərinin fəaliyyətinin yüksək nöqtəsi uyğun gəlirdi. Bununla bağlı olaraq Q.-nın qanuni mətninin yaranması müstəsna dərəcədə aktual və müsəlman aləminin birliyinin dərk edilməsi üçün birinci növbədə mühüm sayılırdı. Məhz elə bu vaxt Türkiyədə sultanlığın ləğvi ilə (1922) Xilafət dünyəvi hakimiyyətdən uzaqlaşdırıldı, sonra da ləğv edildi (1924) ki, bu da bir çox müsəlmanlar tərəfindən fəlakət kimi qəbul edildi. O biri tərəfdən, Q. mətni üzərində uğurlu iş müsəlman alimlərinin qərb şərqşünasları qarşısında islam dünyasının bu ən mühüm sahəsində üstünlüyünü nümayiş etdirməli idi.

Hazırda mövcud olan Q.-nın müxtəlif həcmli 114 surəsi (3 ayədən 286 ayəyə qədər) vardır. Qısa Fatihə surəsindən sonra ən uzun surələr başlayır və Q.-nın axırına qədər yavaş-yavaş surələrin həmcinin azalması görünür. Müsəlman elmindəki ənənəyə əsasən surələr nazil olma vaxtına görə Məkkə (610-622-ci illər, 90 surə) və Mədinə (622-632-ci illər, 24 surə dövrlərinə bölünürlər və Mədinə surələri Məkkə surələrindən uzundurlar. Avropa alimləri (Q.Veyl, U.Müir, T.Нёльдеке, X.Qrimme, R.Blaşer, R.Bell. və b.) tarixi hadisələr, üslub inkişafı, sözlərin işlənilməsi, fikir inkişafı (təkamülü), Məhəmməd peyğəmbərin (s) möizələrinə işarələrin təhlilinə əsaslanaraq daha dəqiq xronologiya irəli sürdülər, lakin onlar da

şərtidirlər. Surələrin çoxu (onların rəyincə) mövzuya görə bir-biri ilə əlaqəsiz və müxtəlf vaxtda deyilmiş kəşflərin (vəhylərin) hissələrindən tərtib olunmuşdur. Lakin, belə rəngarəng quruluş mətnin tamşəkilli təqdim edilməsi üçündür.

Ayinlərin tələbatı və təmrinlərin rahatlığı üçün Q.-nın mətni 30 cüz`ə (hissəyə) və 60 hizbə (yarım hissəyə) bölünmüşdür.

Q. mətninin çox hissəsi 1-ci və ya 3-cü şəxs və ya vasitəçilərlə (ruh, Cəbrail), (lakin daim Məhəmmədin (s) ağzı ilə) danışan Allahla Peyğəmbərin (s) düşmənləri arasında olan dialoq şəkilli müzakirə və ya Məhəmməd peyğəmbərin (s) ardıcıllarına Allahın öyüd, nəsihət və təlimatlarla müraciətidir. Elmdə qəbul olunmuş ehtimala görə Q.-nın dili ərəbistanlıların qəbilələrarası şairanə dilinin Məkkə variantıdır.

Q. mətninin əhəmiyyətli hissəsi, xüsusilə də erkən surələr qafiyəli nəsrdən (sac) ibarətdir. Q. üslubunun müxtəlifliyi islamaqədərki kahinlərin, hakimlərin, xatiblərin və şairlərin çıxışlarının ənənəvi stilistik incəlikləri ilə yaxındır. Bir neçə ənənəvi ictimai rolları öz şəxsiyyətində birləşdirən Məhəmməd (s) bu şəxslərin hər biri kimi çıxış edə bilirdi. Erkən dövr surələri şairanə gözəllik və gücü ilə söylənmiş qısa müraciətlərdir. Bu surələr Allah və Qiyamət günü qarşısında həyəcan və qorxunu əks etdirir. Sonrakı dövr – öyüd-nəsihət - artıq sakit və mülayimdir. Son Məkkə və xüsusilə də Mədinə surələri üçün emosional çağırışlar və müraciətlər xaraterikdir. Bütövlükdə Q. dili epitetlər, geniş müqayisələr, metafor, metonim və s. ilə doludur.

Tarixi-mədəni abidə və tarixi mənbə kimi Q.-nın özünəməxsusluğu onun ideoloji əsasının ikililiyində cəmlənir.

İctimai uğursuzluğun səbəbini Məhəmməd peyğəmbər (s) səhv dini ayində, əvvəl qoyulmuş qadağaların pozulmasında görürdü, buna görə yeni dini və ictimai ideyaları formalaşdıran Məhəmməd (s) onlarda köhnələrin yeni qurulmuş şəklini görürdü.

Məhəmməd peyğəmbərin (s) missiyasının əsas ideyası təkallahlığa yönəltmək zərurəti idi. Allah Q.-da həyatın ilk səbəbkarı və kainatın yaradıcısıdır. Ona görə də təbii ki, çoxtanrılıq mühakimə olunur, ona görə günahkar cəza – həm bu «həm də o» Dünyada əzab çəkməlidir. Məhkəmə (Qiyamət) günü haqqında xəbərdarlıq, Cəhənnəm və Cənnətin təsviri, qövmləri tərəfindən rədd olunan peyğəmbərlər (məs: Hud, Saleh, İbrahim, Nuh, Musa, İsa), «xalqların» (məsələn, Ad, Səmud, Əshab ər-rass) cəzalandırılması haqqında ibrətamiz rəvayətlər (əl-məsani), apokrifik yəhudi-xristian rəvayətləri və Ərəbistan folkloruna (bax: Adəm, Azər, Əyyub, Əshabul-kəhf, Davud, Calut, Zəkəriyyə, Zü-l-Qərneün, Zü-l-Kifl, İdris, İlyas, Yəcuc və Məcuc, Yaqub, Yəhya, Yusuf, Qarun, Məryəm, Süleyman, Talut, Firon) aparıb çıxaran nəsihətamiz tarixlər Q.-nın

məzmununun əhəmiyyətli hissəsini təşkil edir. Burada peyğəmbərlər və tabe olmayan xalqlar haqqında hekayələr Məhəmməd peyğəmbərin (s) şəxsi təcrübəsinə oxşayır, Bibliya hekayələri isə onun dinləyiciləri üçün yeni, aktual olan, Ərəbistan həqiqətlərini əks etdirən məzmunla dolur (kamilləşir).

Q. Məhəmmədin (s) bütpərəstlik və bütpərəstlərlə (bax: məs: Əbu Ləhəb) mübarizəsini, yəhudilik və xristianlıqla mübahisəsini (onlar Ərəbistanda sektant formalarında mövcud idilər və Q.-da göstərilən kimi onlar İslamdan əvvəl gələn və ona qohum olan dinlər idilər və həm də ola bilsin ki, başqa islamaqədərki təkallahlılıq cərəyanları ilə (bax: hənif) mübarizəsini qeyd etmişdir. Bu mübahisənin gedişində Məhəmməd peyğəmbərin (s) möizələrinin inkişafı baş verirdi: bu onların dini-fəlsəfi ideyalar, yəhudi-xristian dairələrinin süjetləri (məzmunları) ilə zənginləşməsinə və zərdüştiliyə və maniheyçiliyə aparıb çıxardan bəzi baxışlar vasitəsi ilə baş verirdi. Bütün bunlar Məhəmmədin (s) təbliğat fəaliyyəti dövründə Q. baxışlarının ciddi təkamülünü şərtləndirirdi və dini təlimin mühüm elementlərinin şərhində əksliklərə və qeyri-ardıcıllıqlara gətirib çıxardırdı. Xüsusilə də rəsulluq vəzifəsinin mahiyyətinin özü və vəhylərin «nazil olunması»nın məziyyəti (bax: vəhy Cəbrail) haqqında görüş inkişaf edirdi. Tədricən fövqəltəbii dünya haqqında Q. görüşləri də yaranmağa başladı.

Q.-nın mühüm hissəsini və xüsusilə də Peyğəmbərin (s) Mədinə həyatının onun müsəlman icmasının (əl-ummə) tam hakimi olan dövrünün müsəlmanlarının həyat tərzini və əxlaqını təyin edən dini-hüquqi təlimatların, (bax: məs: zəvac, iddə, miras, mehr, rəcm, mələk, vəsiyyə, zina), bəzi ayinlərin yerinə yetirilməsini (bax: məs: əs-salat, əl-qiblə, əs-saum, ramazan, zəkat, təharət, əl-hacc, qüsul, mənasik) İslamın bir din kimi yaranması gedişində düzələn, Peyğəmbər (s) və onun ardıcılları tərəfindən islamın müstəqilliyinin dərk edilməsini təşkil edir.

**Ədəbiyyat:** İslam, 141-143; Зарождение ислама и Коран. – İslam, 5-82. Крачковский. Коран, 686-709; библиография по К. bax, Pearson. İndex, 1906-1955, 1958, Index, Kur`an və sonrakı buraxılışlar. Abstracta Islamica (REI-əlavə); G.Pfannmüller. Handbuch der Islam-Literatur. B., 1923, G.L.Geddes. An Analitical Guide to the Biblioqraphies on Islam, Muhammad and the Quran. Denver, 1973; Bell-Watt. Introduction, 173-181; ayrı-ayrı surələr və ayələrin tədqiqinə bax: Paret. Kommentar; A.T. Welch. Al-Kur`an, 1-7-, - EI, NE, 5, 400-425; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 153-159.

**Qurban bayramı-İd əl-Ədha (başqa adları: əl-id əl-kəbir, yom əl-ədha, id-ən-nəhr-ərəbcə; böyük bayram-tatar; bakar id-Hindistan) -** qurban bayramı,

zu-l-hiccə ayının 10-da başlayıb 3-4 gün (bəzi yerlərdə bir az da çox) çəkən müsəlmanların əsas bayramlarından biridir. I.əl-Ə. Məkkədə ziyarətin (həccin) son günü həyata keçirilir. Onda zəvvarlar Mina vadisində İbrahim peyğəmbərin (ə) (Avraam) qurbanını xatırladan qurbankəsmə ayinini yerinə yetirirlər.

Hesab edilir ki, ancaq zəvvarlar deyil, həm də qurbanlıq heyvan almağa imkanı olan hər azad bir müsəlman bu gün qurban kəsməlidir (1 adam 1 qoç; 1 dəvə və ya iribuynuzlu heyvanı 10 nəfər). Heyvan qanuna salınmış yaşda və qüsursuz olmalıdır. Qurban kəsən təkbir etməli (3 dəfə), bəsmələ, yenidən təkbir (3 dəfə), Peyğəmbərə (s) salavat çevirməli, Qibləyə üz tutub Allahdan onun qurbanmı qəbul etməsini xahiş etməlidir. Əgər qurban boyunalma olarsa, (amma boyunalma qurban İsmail qurbanı kimi hesab edilmir, imkanı olan ayrıca İsmail qurbanı kəsməlidir), ətin hamısı imkansızlara verilməlidir. Adətən isə ətin üçdə-bir hissəsi ailənin bayram stolunun hazırlanmasına gedir, qalanı isə paylanır.

İ. əl-Ə. və İd əl-fıtr bayramlarının mərasimlərinə xüsusi bayram namazları (salat əl-ideyn) daxil olur, onlar forma etibarilə adi cümə namazı ilə müqayisədə arxaik olsa da onu xatırladır. O, iki rükətdən ibarət olub, özündə adi namazda olduğundan çox təkbir cəmləşdirir. Bayram namazı mərasimində azan və iqamə deyilmir, onların yerinə əs-salat cəmiatən arxaik formulası istifadə olunur.

İ. əl-Ə. (eləcə də id əl-fıtr) günlərində ata-babaların qəbirlərini ziyarət etmək, dost-tanışa qonaq getmək, təzə paltar geyib, hədiyyələr vermək adət olub.

Druzlarda İ. əl-Ə. Kayn və Avelin (Qabil və Habilin) qurban kəsməsi Bibliya əfsanəsi ilə əlaqələndirilir.

**Ədəbiyyat:** İslam, 88-89; Мец. Ренессанс, 88, 258, 334; Лейн. Нравы. 110-111, 379; Doutte. Magie, 450-495; Grunebaum. Festivals, 15-66; E.M.Mittwoch. Id al- Adha. - EI, NE, 3, 1007-1008.

**Qüsul (qusl)** - ritual yuyunma yolu ilə tam təmizlənmə. Q. islam tərəfindən islamaqədərki adət kompleksindən qəbul edilmiş və Quran tərəfindən ancaq ümumi sözlərlə təsdiqlənir. Q. məsələləri fiqhin ibadət bölməsinə aiddir, onları ilk dəfə sistemli olaraq əş-Şeybani (VIII əsr) şərh etmişdir. Q. müxtəlif murdarçılıqlardan (natəmizliklərdən, cənabət və s.), sonra tövbə və günahlardan təmizlənmə, bayramlar, oruclar, cümə namazı, kəbinkəsmə və başqa mühüm hadisələrdən qabaq yerinə yetirilir.

Q.-un ardıcıllığı belədir: Q.-dan əvvəl onun yerinə yetirilməsi üçün niyyət edilir: çənabat qüsulu edirəm qurbətdən ilə -l-lah. Baş və bədən bütünlüklə tər-təmiz yuyulur, bundan sonra əvvəlcə baş və bədənə, sonra sağ, ondan sonra da sol çiyinə müvafiq olaraq üç dəfə su axıdılır (suya

çəkilir). Bütün bunları yerinə yetirərkən Q.-lla bağlı dualar oxunur. Q. zamanı fikri başqa yerə yönəltmək, suyu az və ya çox istifadə etmək ümumislam prinsiplərinə uyğun gəlmir. Bəzi hallarda, məsələn xəstə olanda Q. mərasimini yüngülləşdirmək olar. Q.-u yuyunmaq üçün yararlı su olan hər hansı yerdə etmək olar. Q. bütün müsəlmanlar üçün vacibdir. Çay və ya dənizdə niyyət edib üç dəfə suya batıb-çıxmaq lazımdır. Qeyd olunan Q. növləri bütün məzhəblərdə qəbul edilir. Ancaq bəzi məzhəblərdə bunlardan əvvəl əllər yuyulur və ya dəstəmaz alınır.

**Ədəbiyyat:** İslam, 55; əş-Seybani. Əl-Asar, 75-95; Sədr əş-Şəria. Müxtəsər, 2-5; Wensinck. Handbook, 85-87; G.H.Bousquet. Ghusl. – EI, NE, 2, 1104.

**Qübbə əs-Səxra («Qaya qübbəsi»)** – Yerusəlimdə (Qüdsdə) əl-Həram əş-Şərifin mərkəzindəki günbəzli məscid, o, ta qədimdən İbrahimin (ə) guya İshaqı qurban kəsmək istədiyi qaya üzərindədir; müsəlman ənənəsi Məhəmmədin (s) göylərə gecə uruc etməsini onunla bağlayırlar (bax: əl-İsra` va-l-mi'rac); İslamın orta əsrlərdə (Məkkə və Mədinə məscidlərindən sonra) müqəddəsiliyinə görə üçüncü olan əsas müqəddəs yerlərdən biri. O, Əbdül-Məlik vaxtı – 686-691-ci illərdə təmir olunub. Müsəlman ayin arxitekturasının ən çox orijinal abidələrindən biridir. Qayanın üzərində 20,5 m. diametrli və 30 m. hündürlüyündə günbəz qurulmuşdur, onun barabanı dörd bəzəkli sütun (pilon) üzərində rahat qalır, hər sütunun arasında da üç daş sütun (kolonna) vardır. Günbəz hissəni xarici tərəfdən səthi oymalarla ayrılmış ikinci, daha alçaq səkkizguşəli divar əhatə edir. Yüksək tağlı məhəccər damın meylini örtür. Günbəz əvvəl iki taxta örtükdən ibarət idi, xarici örtük qızıla çəkilmiş mis lövhələri ilə üzlənmiş qurğuşun lövhələri ilə örtülmüşdü; barabanın pəncərələri rəngbərəng şüşələrdəndir; qayanı əhatə edən sütunların arasındakı oyuqlar taxta şəbəkə ilə örtülmüşdür; səkkizguşənin eyvanında Məhəmməd peyğəmbərin (s) saqqalından olan tüklə müqəddəs şeylərin şkafıdır. Binanın içinə qabaqlarında eyvan olan xaç şəklində qoyulmuş qapı aparır, onlardan təkcə cənub qapı öz əvvəlki şəklini saxlayıb.

Əvvəlcə Q. əs-S.-nın divarının aşağı hissəsi mərmərlə örtülmüşdü, xarici divarların yuxarı hissəsi, baraban və binanın içərisindəki tağ sırası mozaika ilə bəzədilmişdi. Səkkizguşənin daxili tağının üstündəki bütün haşiyə uzunu mozaika ilə Quran yazısı vardır, orada tikintinin qurtarma tarixi (72 h.) və Əbdülməlikin adı olmuşdur, əl-Mə`mun onu öz adı ilə əvəz etmişdir, lakin əvvəlki tarix (yaxşı ki), diqqətsizlikdən əl dəyilməmiş qalıb.

Səlibçilər vaxtı Q. əs-S. kilsəyə çevrilib, o vaxtdan da taxta kürsü qalmışdır, ondan Quran qoymaq üçün istifadə edirlər.

Bina bir neçə dəfə təmir olunub, xüsusilə də onun dekoru XVI əsrdə çox dəyişdi, o vaxt fasadın mozaika üzlüyü kaşı ilə əvəz olundu, fasadın tağ oyuğu forması təhrif olunub və tağsırası hasar qoyulub. Sonrakı kiçik təmirlər əvvəlki görünüşü daha çox dəyişdirdi. Q.əs-S.-da 1956-1962-ci illərdə təmir və ola bilsin daha çox əvvəlki görünüşü bərpa etmək məqsədi ilə - restavrasiya (bərpa işləri) edildi.

Binanın müsəlman arxitekturası üçün nadir forma belə bir baxış yaratmışdı ki, Əbdülməlikin əl-Kəbəni Q. əs-S.-ya və qayanın başına fırlanmağı-təvaf etməyə dəyişmək niyyəti var idi. Müasir tədqiqatçıların çoxu əl-Yəqubinin bu iddiasına şübhə ilə baxırlar və hesab edirlər ki, Q. əs-S. Yerusəlimin xristian məbədlərini kölgədə qoymaq üçün tikilmişdi.

**Ədəbiyyat:** İslam, 138-139; M.dE Vogue. Le temple de Yerusalem. R., 1884; Greswell. Account, 17-40; O.Grabar. The Umayyad Dome of the Rock in Yerusalem. – A.Or. 1959, 3, 33-62; yenə o. Oubbat al-Sakhra. – EI, NE, 297-299.

**Əl-Qüşeyri, Əbü-l-Qasim Əbdülkərim b. Havazan** (986-1072) - Xorasan ilahiyyatçısı və sufi, klassik sufi traktatı Ər-Risalə fi ilm ət-təsəvvüfün müəllifi. Nişapur əyalətinin Ustuva adlanan yerində əkinçi ərəb ailəsində doğulmuşdur. Uşaqlıqdan hərb sənətini (furusiyyə-at sürmək, istimal əs-silah-silah oynatma), ərəb dili və əxlaqı öyrənmişdi. Gənc ikən Nişapura getmiş və orada məşhur əş'əri sufisi Əbu Əli əd-Dəkkakla rastlaşmışdır, tezliklə onun sevimli şagirdi, sonra isə kürəkəni olmuşdur. Əd-Dəkkakın məsləhəti ilə Əbu Bəkr ət-Tusidən şafei fiqhini öyrənmiş, sonra isə o dövrün çox böyük nüfuzlusu olan İbn Furaq və Əbu İshaq əl-İsfərainidən əş'əri kəlamını öyrənmişdir. Əd-Dəkkakın vəfatından sonra əl-Q. sufi məclisinə (məclis ət-təzkir) və onun mədrəsəsinə başçılıq etdi. 1046-cı ildə həccdən qayıdandan sonra o, mədrəsədə hədisi (məclis əl-imla) tədris etməyə başladı və tezliklə Nişapurun çox böyük dini nüfuzlusu oldu. Təxminən 1048-ci ildən başlayaraq liderlərindən biri əl-Q. olan əş'əri-şafei qrupu səlcuq vəziri əl-Qundurinin dəstəklədiyi Nişapur hənəfiləri tərəfindən çox sərt hücumlara məruz qaldı. Əl-Q. həbsə düşdü, sonra tərəfdarlarının köməyilə azad olundu və Bağdada mühacirət etdi, orada o, xəlifə əl-Qaimin sarayında hədisdən dərs deməyə başladı. O, bir neçə dəfə yazılı və şifahi şikayətlə dövlət başçılarına, xüsusilə də əl-Qunduriyə müraciət edib Xorasan əş'ərilərinin ədalətsiz təqib olunmalarını göstərmişdir. «Şikayətdə» əş'əri təliminin əsas ehkamları qısaca şərh olunmuş, onun «qanuniliyi» və mötəzili doktrinasından köklü fərqi sübut edilmişdi. «Şikayət» əl-Qundurinin əl-Q.-yə qarşı mövqeyini dəyişmədi və o, 1063-cü ilə qədər sürgündə yaşamalı oldu, sonra isə vəzir əl-Qunduri qəzəbə düçar oldu və (1064-cü ildə) edam edildi. Nişapura dönən əl-Q. çox dərs dedi və yazdı. O,

şagirdləri və çoxsaylı övladları (altı oğlu və bir neçə qızı) əhatəsində vəfat etdi.

Əl-Q.-nin adına müxtəlif müsəlman elmləri sahələrinə aid olan 20-dən 30-a qədər əsər yazırlar: eqzeqez (2 təfsir), hədislər, sufiliyin nəzəriyyə və təcrübəsi. Onun ən böyük nüfuz və təsiri olan əsəri Ər-Risalə fi ilm ət-təsəvvüfdür, o sufilərin (stolüstü) ləvazimatı olmuş və olmaqdadır. Orada ən çox məşhur sufilərin həyat və yaradıcılığı, onların müsəlman ehkamına olan baxışları verilmiş, sufi istilahları şərh edilmiş və s. Bütövlükdə isə Ər-Risalədə, özünün başqa əsərlərində olduğu kimi əl-Q. sünni məzhəbini əş'əri traktovkasında (şərhində) sufiliklə birləşdirməyə, onların «qanuniliyini» sübut etməyə və onları bütün icma üçün yararlı etməyə cəhd etmişdir. Bununla əlaqədar olaraq əl-Q. sufiliyə hörmət edən, məşhur əş'əri ilahiyyatçısı əl-Qəzalinin mənəvi sələfi kimi çıxış edir. Əl-Q.-nin oğlullarından biri Əbunnəsr Əbdürrəhman atasının işini davam etdirərək, əş'əri təliminin fəal təbliğatçılarından biri oldu. O, vəzir Nizaməlmülkün nüfuzunu qazanmışdı. Bir neçə vaxt Əbunnəsr Bağdad Nizamiyyəsində əş'əri təlimini tədris etdi və bununla yerli hənbəlilərin hücumlarına məruz qaldı. İş onun tərəfdarları ilə hənbəlilər arasında qanlı qarşılaşmalara qədər gəlib çıxdı, nəticədə Əbunnəsr Nişapura dönməyə məcbur oldu və oradaca 1120-ci ildə vəfat etdi.

**Ədəbiyyat:** İslam, 146; əl-Quşeyri. Ər-Risalə, yenə o. Tərtib əs-suluk. – Al-Samarrai. The theme of ascension in mystical writings. Bağdad, 1968, 155-182; yenə o. Lətaif əl-işarat, 2-ci nəşri, 1-5, Misir, 1983; yenə o. Ərbəa rəsail fi-t-təsəvvüf. – MM İİ. 1969, 17, 259-284; 1969, 18, 243-286; yenə o. Ər-Rəsail əl-quşeyriyyə. Kəraçi, 1964; əs-Subki. Təbəqat, 2, 275-288, 3, 243-247; İbn Khallikan. Dictionary, 2, 152-156; Д.Б.Буллием. Религиозно-политическая история Нишапура в XI в. – Мусульманский мир, 89-110; Zahur 'Adu. Əbu-l-qasim əl-Quşeyri. – MMLAD, 1981, 56, 753-793.

**Qütb («ox», məs: Yer kürəsinin oxu kimi)** – sufi iyerarxiyasının ali «müqəddəsi» (bax: vəli); sufi fəlsəfəsində «kamil insanla» (əl-insan əl-kamil) eyniləşdirilir. Q.-ün Allahın Yer üzərində günahsız «canişini» (xəlifəsi), insanlarla münasibətlərində onun Peyğəmbər (s) kəşflərinin «gizli» mənasını (batin ən-nübüvvə) bilən vasitəçisi kimi təqdim olunması şiə, xüsusilə də ismaili imam konsepsiyasını xatırladır. İstisna deyil ki, onlar həqiqətən də sufilər tərəfindən şiələrdən götürülmüşdür.

Q. və başqa sufi iyerarxiyası üzvləri haqqında ət-Tüstəri və ət-Tirmizidə (IX əsrin sonu) xatırlanır. X-XI əsrlərdə Q.-ün mövcudluğunu bir qayda kimi bütün sufilər qəbul edirdilər. Hesab edilirdi ki, Dünyada eyni vaxtda ancaq bir Q. ola bilər. Buna görə də onu çox vaxt şiələr öz

imamlarını adlandırdıqları kimi vaxtın qütbü (qütb əl-vaqt), «Sahib əz-zaman» (dövrün rəhbəri), «dövrün əri» (mərd-i vaqt) adlandırırdılar. Q.-ün əsas rolunu sufi müdrikləri onların bəşəri dünyada Allahın «canişini» və ya «nümayəndəsi» (xəlifə) olmağında görürdülər.

Q., Allahın xoşuna gələn dünya qanunlarını ona tabe olan müqəddəslər dəstəsi – autad, abdal, nüqəba və s.-nin köməyi ilə həyata keçirməyə mükəlləf olunub. Q. haqqında ən çox aydınlıqla İbn Ərəbinin və onun ardıcıllarının əsərlərində yazılmışdır.

İbn Ərəbi «zahiri canişinliyi» (xilafə zahirə) «batini canişinlikdən» (xilafə batiniyyə) fərqləndirirdi: zahiri-müvəqqəti, əraziyə görə və etnik çərçivədə olub dini qanunu hərdən dəstəkləməyə gətirib çıxarırdı; batini isə – insanın kainatda rolunun səbəblər və varlığın zəruri şərtləri kimi həyata keçirilməsidir. Bəzi hallarda hər iki növ «canişinlik» bir şəxsdə cəmlənə bilərdi. Belə vəhdət İbn Ərəbiyə əsasən Adəm, Davud, Məhəmməd (s) peyğəmbərlər, Əbubəkr, Ömər, Osman, Əli, onun oğlu əl-Həsən, azyaşlı Müaviyə b. Yəzid, Ömər b. Əbdüləziz və əl-Mütəvəkkildə olmuşdur. Çox hallarda «canişinlər» ancaq «gizli» hakimiyyət sahibi olurlar və əsas əhali kütləsinə bəlli olmurlar. Adətən sufilər öz dövrünün ən kamil vəlisini Q. sayırdılar.

Allahın nəzərləri daim Q.-ün üzərindədir. Gizli və aydın dünyanın mövcudiyyəti öz varlığına görə Ona borcludurlar, çünki məhz O, onlar arasında həyatverici «ilahi rəhməti» (ər-rəhmə), d.d. «ilahi şüanı» (əl-fayd) bölüşdürür. Q.-ün biliyi bilavasitə Allahdandır və iyerarxiyanın aşağı üzvləri arasında bölüşdürülən bilikləri özündə cəm edir. Kainatın bütün mövcudiyyatı, təkcə «fərdlərdən» (əfrad), d.d., ali mələklərdən başqa, ona tabedirlər, mələklər Q.-ün özü kimi iyerarxiyaya daxil deyillər və öz biliklərini birbaşa Allahdan alırlar. Onların Q.-dən fərqi odur ki, onlar kainat üzərində hüdudsuz hakimiyyətə (təsrif) malik olan «canişinlik» roluna malik deyillər. Dar mənada sufi iyerarxiyasının hər-hansı bir dərəcəli ən kamil nümayəndəsini Q. adlandıra bilərdilər. Bu və ya başqa sufi «məqamda» və ya bu və ya başqa haldan kamilliyə çatmış sufi də «qütb» adlana bilərdi. İbn Ərəbiyə əsasən hər bir kiçik mömin icmasının hökmən özünün Q.-ü olur ki, onun (icma) mənəvi həyatı onun (Q.-ün) ətrafında dolaşır.

Başqa xalqların peyğəmbərləri və rəsulları da «qütblər» (əqtab) adlanırlar. Lakin onlar hər hansı bir «məhəmmədi» qütbünü, d.d., müsəlman Q.-ünü (qütb məhəmmədi) üstün sayırlar, İbn Ərəbiyə görə onlar 12-dirlər.

Sufilərin çoxu Q.-lərə fövqəltəbii bacarıqları aid edir, ərəb əlifbasının hərflərinin (cəfr) və Quranın bəzi surələrinin əvvəlində gələn hərf birləşmələrinin gizli mənasını bildiklərini qeyd edirlər. Bütövlükdə, sufilərin rəyinə görə Q. ancaq «zahir» və «batində» Allah haqqında biliklərlə kamilliyə yetişən şəxs ola bilər.

Q.-ün daimi yaşadığı yeri sufi müəllifləri Məkkəni hesab edirdilər. Eyni zamanda Q.-ün fövqəltəbii bacarıqları ona imkan veririrdi ki, o, fəzada bir anda istədiyi başqa yerdə olsun. Qahirənin sakinləri, məsələn, inanırdılar ki, o, müntəzəm surətdə Bab əz-Zübeylə darvazası yaxınlığındakı divarın oyuğunda olur, oraya adətən arzularının yerinə yetməsi üçün nəzir-niyazla gəlirdilər. Q. zərərçəkənin müdafiəçisi və himayəçisi rolunda çıxış etdikdə onu «havadar» və ya «kömək» (əl-qaus) adlandırırdılar.

Sufi qardaşlığının genişlənməsi ilə əlaqədar olaraq, onların yaradıcılarının bəzilərini «qütb» adlandırmağa başladılar: Əbu Mədyan, əş-Şazili, ət-Tidcani, əs-Sanusi və b. «Dörd qütb» (əl-əqtab əl-ərbə'a) daha çox məşhurdular: Əbdülqadir əl-Cilani, Əhməd ər-Rifa'i, Əhməd əl-Bədəvi, İbrahim əd-Dəsuqi – onlar çox böyük sufi qardaşlıqları olan qadiriyyə, rifaiyyə, bədəviyyə, dəsuqiyyənin yaradıcılarıdırlar. Onların adlarına hətta öldükdən sonra da dünyəvi işlərə qarışmaq bacarığını yazırdılar. Sufi ədəbiyyatında bəzən ət-Tüstəri, ət-Tirmizi, İbn Ərəbi, əş-Şə'rani və b. kimi çox böyük sufi mütəfəkkirlərini «qütb» adlandırırdılar.

Q. və sufi iyerarxiyası haqqında təlim məhşur tarixçi İbn Xəldun tərəfindən tənqidə məruz qalmışdır. O, onun tərəfdarlarını «ismaililiyin» və «mehdiçiliyin» gizli təlimində mühakimə etmişdir. Müsəlman sufiliyinin düşmənləri indi də belə dəlillərə istinad edirlər.

Sufiliyə yaxın olan şiə müdrikləri tez-tez sufi Q.-nü «gizli imamla» eyniləşdirirdilər, onlar onu «qütbün qütbü» (qütb əl-əqtab), «günəş qütbü» (qütbü -ş-şəms) və s. adlandırırdılar. Belə görüşlərin tərəfdarı, xüsusən şiə filosofu Heydər Amuli idi, o, «imam» və «qütb» sözlərini «bir şəxsə aid olan» sinonim (mutəradif) hesab edirdi.

**Ədəbiyyat:** İslam, 144-145; ət-Tirmizi. Xətm, 494-495; göstər; əl-Hujwiri. Kashf, Index; əs-Söhrəverdi. Məcmu'ə, göstər., İbn Ərəbi. Əl-Fütuhat; əl-Kaşani. İstilahat, 145, 168: Ata`llah əl-İskəndəri. Lətaif əl-minan. Tunis, 1304h.; Amoli. La philosophie, Index; Ziya əd-din əl-Gümüşxanlı. Cami əl-usul fi-l-övliya va ənvaihim və övsafihim. Misir, 1328 h., 2-16; Лэйн. Нравы, 204-206; M. əş-Şeybi. Əs-Silə beynə ət-təsəvvüf və-t-təşəyyü, 2, Bağdad, 1964, göstər.; M.E.Blochet. Etudes sur I`esoterisme musulman`. – JA, 1902, 19, 489-531, 1902, 20, 49-111; Corbin. En Islam, 1, 74-75, 92; Bowering. Mystical Vision, Index; Chodkiewicz Sceau; F. De Yong. Kutb. – EI, NE, 5, 543-546.

# L

**Lahut** – «insan təbiətinə (nasut) qarşı qoyulan» - «ilahilik, ilahi təbiət». Hər iki istilah Quranda işlənilmir. İslama onlar, güman ki, Suriya xristianları vasitəsilə gəlmişdir. L.-la N. arasındakı münasibət haqqında məsələ müsəlman ilahiyyatında sufi təliminin yaranması ilə bağlı idi. VIII-IX əsrlərdə belə təlimi «qatı» şiələr və bəzi sufilər, xüsusilə də əl-Bistami və əl-Həllac inkişaf etdirirdilər. Sonuncu demək olar ki, L.-N.-u istifadəyə daxil etmişdi. L. və N.-un əl-Həllacın təlimində birləşməsi insanla Allah arasında olan qarşılıqlı məhəbbət prosesində həyata keçir. Sufinin şəxsiyyəti bu vəziyyətdə ilahiləşir və o, Allahın carçısı və ipostası olur.

Şeyx əl-işraq əs-Söhrəverdinin təlimində L. gah insan bədənində «müqəddəs ruh», gah da onlara əmr edən «ilahi işıq»la (nur müdəbbir) enyiləşdirilir. Əs-Söhrəverdi sufinin məqsədini «insan təbiəti yolundan» (alaiq ən-nəsut) qurtuluşda və Əbədi Nurla birləşməkdə görürdü.

İbn Ərəbi əl-Həllacın ənənəsini davam etdirərək L. və N. istilahlarına müraciət edirdi. Onun «vəhdət əl-vücud» haqqındakı təlimində L. və N. bir reallığın iki qütbü kimi çıxış edirlər: «ruhani» və ya «ilahi» yaxud «təbii» və ya «bəşəri». İnsan maddi dünyanın başqa mövcudiyyat və əşyalar kimi ilahi elmdə əbədi mövcud olan arxetiplərin təcəssümüdür, ilahi mahiyyətinin ad və atributlarının məzhəri, məcləsi-təcəllisidir. İbn Ərəbiyə əsasən arxetiplər, adlar və atributlar Mütləqlə eyni olduğuna görə, o, (Mutləq) bütün insanlarda mövcuddur və eyni zamanda onların gizli (batin) mahiyyəti və zahir formasıdır. Beləliklə, L. və N. Mütləqin iki zəruri ipostasıdır, onlar öz təbiətlərinə görə eynidirlər. Buna görə də onun hər hansı bölünməsi İbn Ərəbiyə şərti, insanın qəbul etmə imkanının qeyri-kamilliyindən, mütləq varlığı onun bütün dalğınlığı və vəhdətində əhatə edə bilməməsi kimi görünürdü.

L. və N.-un belə izahını, ümumiyyətlə, İbn Ərəbinin ardıcılları həm sünnilər (əl-Kaşani, Əbdül-Kərim əl-Cili, əl-Qeysəri və s.), həm də şiələr (Heydər Amuli, Molla Sədra) dəstəkləyirdilər.

Bir sıra sufi mətnlərində L. istilahı ilə əlçatmaz ilahi mahiyyəti dünyasını (bax: əl-qeyb) mənalandırırdılar, o, «ilahi dünyalarının» iyerarxiyasına başçılıq edirdi və o, L.-la yanaşı «ilahi hökmranlıq aləmini» (məlakut) və «ilahi əlamət dünyasını (cəbərut)» özündə cəmləyirdi.

**Ədəbiyyat:** İslam, 147; Əxbar əl-Həllac. №1, 8, 25, 53; əl-Qəzali. Воскрещение. göst; əs-Söhrəverdi. Məcmuə; İbn Ərəbi. Fusus, 1, 26-27, 35-39, 138-139; yenə o. Əl-Fütuhat, 1, 124-125, 168-169, 201-202, 253-255, 2, 7-9, 123-124; Amoli. La philosophie, 205; Nicholson. Studies, 193,

239-240; Anawati, Gardet. Mystique, 232-233; R.Arnaldez. lahut-nasut. – EI, NE, 5, 611-614.

**Əl-lat** – bütün qədim Ərəbistanda (Nabateyə, Palmira, Hirə, Yəmən) və xüsusilə də Hicazda, Taif yaxınlığında Vəcddə geniş yayılmış ilahə adı, onun ağ daşdan rəmzi, bütü vardı. Daşa və yaxında olan məbədə ziyarətə gəlirdilər, vadi qoruğ sayılırdı. Əl-L. [ər-Rəbbənin («ilahinin») və Təqiyyənin («hökmdar xanımın») adı-ləqəbidir və o, Taifdə yaşayan skif qəbiləsinin baş ilahəsi idi, ancaq onu Məkkə qureyşiləri də üç qadın ilahələrindən (əl-Lat, əl-Uzzə, Mənat) biri kimi hörmətlə sayırdılar, onlar gah Allahın qızları, gah da Hubalənin qadınları adlanırdılar. Əl-L. bütü Məkkə məbədində qalırdı.

Rəvayətə görə guya Məhəmməd (s) hələ Məkkədə olarkən Şeytanın sözlərini Allahın vəhyi kimi başa düşür, orada üç ilahənin insanları Allah qarşısında müdafiə etməyə haqları olduğu deyilirdi və orada onlar «göy quşları» (qaranik) və Allahın qızları adlanırdılar (bunlar hamısı xristian və yəhudi alimlərinin uydurmasıdır), bu, Şeytanın azdırması idi, həqiqi vəhydə bu sözlər başqaları ilə əvəz olunmuş, onlar əl-L, əl-Üzzə və Mənatın mövcudluğunu rədd edirdilər (Q.53:19-23). Bu epizod görünür Məhəmmədin (s) Məkkə əyanları ilə kompromisə getmək cəhdinə təsir edir və bu onun məkkəlilərlə münasibətlərində dəyişikliklə tanınır. «Şeytan ayələrindən» imtina edəndən sonra Peyğəmbərin (s) və ardıcıllarının xüsusi ciddi təqibi başlayır.

631-632-ci illərdə sakifilər tərəfindən İslamın qəbul edilməsindən sonra əl-L. məbədi dağıdıldı, bütün bəzək-düzəyi və məbədin xəzinəsi Peyğəmbərin (s) ardıcıllarının borclarının ödənilməsinə sərf olundu.

**Ədəbiyyat:** İslam, 146; İbn əl-Kəlbi. Книга об идолах, 19-20; ət-Təbəri. Tarix, 1, 1192-1196, 1690-1692; yenə o. Təfsir, 2, 293; Yaqut. Mücəm, 3, 665-666; əl-Beydavi. Təfsir, 2, 293; Lisan əl-ərəb, 2, 388; Tac əl-'arus, 1, 580; A.Q.Lundin. Allat. – MHM, 1, 60-61; Wellhausen. Skizzen, 3, 32-33; Fahd. Le pantheon, 111-120; Gaudefroy-Demombynes. Mahomet, 50-53, 85-87; Paret. Kommentar, 461; T.Fahd. Al-Lat. – EI, NE, 5, 692-693.

**Loğman** – Quran surəti, qədim müdrik. Quranda onun adıyla 31-ci surə adlandırılmışdır, orada qeyd edilir ki, Allah L.-a müdriklik vermişdir, sonra onun oğluna nəsihətləri sayılır və orada deyilir ki, o, heç vaxt Allaha şərik (yoldaş) qoşmasın, Onun əzəmətinə inansın, dua etsin, xeyr işlərə çağırsın, pislikdən qorunsun, talehin etdiklərinə dözsün, qürrələnməsin, lovğalanmasın, hətta yerişdə və danışıqda ciddi olsun, çünki «həqiqətən

səslərin ən pisi – əlbəttə uzunqulağın səsidir» (31:12/11-13/12, 16/15-19/18).

Quran şərhçiləri hər iki adın köklərinin mənalarının oxşarlığından çıxış edərək, tez-tez L.-ı Bibliya Valaamıyla eyniləşdirirdilər. Bəziləri onu peyğəmbərlərə aid edirdilər. Müsəlman ədəbiyyatında L. adı ilə müxtəlif qədim şərq mənbələrinə və ən çoxu Babilistan müdriki Axikaranın kəlamlarına gedib çıxan çoxlu müdrik kəlmələr və deyimlər bağlıdır. Son orta əsrlərdə L.-ı məzmunu çox vaxt Ezopun təmsillərinin məzmunu ilə eyni olan təmsillərin müəllifi də hesab edirdilər. L. surətində Ezopla oxşarlıqda şeytanlar da meydana çıxırlar, onu çirkin qara qul kimi təsvir etməyə başlayırlar. Rəvayətə görə çox qara və yöndəmsiz olan L.-na o vaxtın varlılarındn biri məsxərə edir. L. cavabında deyir ki, mən qarayam, sən ağsan. Mənim dərimdən sənin yanağına bir mərci boyda yapışsa, gör sən nə qədər gözəl görünərsən. Ancaq sənin ağ dərindən mənim üzümə bir qətrə yapışsa, gör mən nə qədər eybəcər olaram. L. haqqında ən çox yayılmış rəvayətlərdən biri onu Ad xalqına aid edir və onu L. b. Ad adlandırır. Başqa Adlarla birlikdə o, Məkkəyə, onları quraqlıqdan qurtuluş üçün dua etməyə gedir, lakin onun əvəzinə Allahdan ömrünü uzatmağı xahiş edir. Ona yeddi qartalın ömrü verildi, onların hər biri o biri öləndən sonra doğulurdu. Yeddinci qartal-Lubad ölən kimi L.-da vəfat edir. Belə ki, L. Süleyman peyğəmbər vaxtı Yəməndə Marib bəndini tikən, öz xalqının ölümünü görmüş, çoxlu ərəb adətlərini bilən uzunömürlü (müəmmər) bir qoca idi (Həmin böyük su bəndinin qalıqları indi də Yəməndə durur).

L. haqqında Ərəbistan rəvayətləri Quran hekayəsinə nisbətən olduqca çoxdur və onunla az bağlıdır. Onlar Ərəbistandan kənarda özlərinə az paralellər tapırlar. Bununla belə, qəhrəman və uzunömürlü L. haqqında tez-tez islamaqədərki ərəb şairləri xatırladırlar. Ona görə L. b. Ad haqqında bu hekayələrdə Ərəbistanda islamaqədərki hekayələr toplusunun verilməsini, Quranda istifadə olunan qəhrəman L. surətlərini görmək olar, xüsusən də sübut eləmək üçün ki, Ərəbistanın qədim müdrikləri Quranın öyrətdiklərini öyrətmişlər.

Allah L.-na həkim və ya peyğəmbərlik təklif edir, o, həkimliyi qəbul edib, Davud peyğəmbərə vəzir olur. Davud peyğəmbər onu bəxtiyar sayıb deyir: «Allah səni təqdis etsin, sənə hikmət, bizə əzab» (verib).

Sonrakı ədəbiyyatda L. xarrat, çoban, biçimsiz kölə, kölə Həbəş və s. kimi də qeyd edilir. Bunlar yəqin ki, Ezop əfsanələrindən alınmışdır.

Quranın L. ehkamları ümumi xeyirxah arzular olub, özlərinə qədim ədəbiyyatın (hər şeydən əvvəl Arxikar silsiləsində) deyimlərində paralellər tapsa da, islamın bəzi əsas məsələlərinin dəqiq surətdə düzülüşünü özündə cəm edir – ehkamiliyi (Allahın vahidliyi və əzəmətliliyi), mərasimliyi (dua etmə, namaz), mənəvi-etikliyi (xeyirxah işlər, səbr, ciddilik), mənəvi məişət

sahəsi (sakit rəftar, sakit səs və s.). Bunları yerinə yetirən şəxs, sonra rəvayətə görə Məhəmməd (s) surətində ideal müsəlmana çevrilir. Məlumat var ki, Məhəmmədin (s) müasirləri Quranın dediklərini Loğmanın hansısa dedikləri ilə müqayisə etmişlər. Belə söhbətlər və müqayisələrin gedişində görünür ki, Quranda daha bir L. obrazı –– Allah haqqında təlimin həqiqiliyinin ərəbistanlı şahidi yaranıb.

L.-ın əfsanəvi inkişafında üç səhifə təqdim edilir:

a) Quranaqədərki səhifə -L. əl-Muəmmər, cahiliyyə dövrünün uzunömürlü qəhrəmanı

b) Quran səhifəsi zərbi-misal (məsəl) halına gəlmiş həkim, şair L.

c) Qurandansonrakı səhifə-hikmətli, küçük qissələr qəhrəmanı L.

**Ədəbiyyat:** İslam, 147-148; İbn Hişam. Tican, 370-380; əs-Sicistani. Əl-Mu'ammərin, 4; ət-Təbəri. Tarix, 1, 1208; yenə o. Təfsir, 21, 43-49; əs-Sə'ləbi. Qısas, 197-198; əl-Beydavi. Təfsir, 2, 113-114; J.Derenbourg. Tables de Loqman le Sage. B.-L., 1850; R.Rassel. Loqman Berbere. P., 1890; The Story of Ahikar. Cambridge, 1913; Gaudefroy – Demombynes. Mahomet, 382-383; B.Heller – [N.A.Stillman]. Lukman. – EI, NE, 5, 811-813; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 161-162.

**Əl-Lövhü-l-Məhfuz** – «üzərində pozulmaz yazılar olan lövhə», «yaxşı mühafizə edilmiş lövhə», Qurana əsasən (85:22) bu, bütün müqəddəs yazıların səma timsalı olub, üzərində yerdə olan hər bir şey haqqında yazılmışdır və bunlar gələcəkdə baş verəcəkdir. Başqa adları: Ummul-kitab (Kitabın anası - Ana kitab, Q. 13:39), Kitab məkmun (Məhrəm, Gizli kitab, 56:78/77), Suhuf mükərrəmə (Lülə kimi burulmuş hörmətli yazılar, [hörmətli xoşniyyətlərin əlləri ilə ucaldılmış və təmizlənmiş], Q. 80:13-16), Kitab mübin (Aydın Kitab, 11:6/8; 27:75/77), Kitab Hafiz (Qoruyan kitab, 50:4), Kitab müəccəl (Müddəti təyin edən Yazı, 3-145/139), İmam mübin (Aydın Əsil, 36:12/11).

Əl-L. əl-M. haqqında baxışlar Peyğəmbər (s) missiyasının cövhəri ilə bağlı Quran ideyalarına əsaslanan dairəyə daxil olur. Peyğəmbər (s) əl-L. əl-M.-dakı məlumatların hamısını bilmir, o, Peyğəmbərə (s) ayrı-ayrı hissələrlə çatdırılır. Məhəmmədə (s) qədər peyğəmbərlər də Tövrat və İncili təşkil edən belə məlumatlar almışlar, lakin onlar sonralar yəhudilər və xristianlar tərəfindən təhrif olunmuşlar. Əl-L. əl-M. haqqında baxışlar müvafiq qədim baxışlara gedib çıxır, baxmayaraq ki, o, Quranda və sonralar hədislərdə əhəmiyyətli dərəcədə dəyişikliyə uğramışdır.

Sufi fəlsəfəsində, «Təmiz qardaşların» (İxvanu-s-səfa) fəlsəfəsində, ismaililər və şiələrin fəlsəfəsində əl-L. əl-M. «ümumi nəfslər» (ən-nəfsul-kulliyyə, nəfsul-kull) mənasında istifadə olunur. İlk ağıl (əl-aqlul-əvvəl və ya kəlam) əl-L. əl-M.-a nazil olub, Qiyamət gününədək olacaqların

hamısını orada qeyd edir. Əl-Qəzalinin kosmologiyasında əl-L. əl-M. – əbədi mövcud olan arxetiplərin məkanıdır. Bu baxışlar yeni əflatunçuların emanasiya doktrinasına gedib çıxır.

**Ədəbiyyat:** İslam, 146-147; İbn Ərəbi. Əl-Fütuhat, 3, b.371, 553; A.Jeffery. The Quran as-Scripture. N.Y., 1952, 16; T.Burchhardt. La sagesse de Prophetes. P., 1955; V.Marquet. La philosophie de İhwan as-Safa, Alger, 1975, 108; A.J.Wensinck. Lawh. – EI, 3, 19-20; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 163.

**Lut** – Quran surəti, mömin və peyğəmbər, Bibliya «Lot»u. Quranda o, hökmə və elmə malik şəxsdir, onun adı bir neçə dəfə müasirlərinin yalançı peyğəmbərlər adlandırdıqları (hesab etdikləri) peyğəmbərlərin sırasında qeyd edilir (6:86; 22:43; 38:13/12; 50:13). L. İbrahim peyğəmbərin möizələrinə inananlardan biri idi (29:26\25). O, əhalisi pozğun uşaqbazlar olan şəhərdə yerləşdirilir və onları həqiqət yoluna yönəltmək istəyir. Onlar onu şəhərdən qovmaqla hədələdilər və «Əgər sən həqiqəti söyləyirsənsə, bizim üzərimizə Allahın qəzəbini yağdır» deyirlər. O, Allahdan kömək istədi. Allah öz elçilərini günahkarları cəzalandırmaq üçün göndərdi. Yolda elçilər İshaqın doğulacağı haqqında xəbər verdikləri İbrahim peyğəmbərə dedilər ki, L.-un şəhərini məhv etməyə gedirlər, lakin onu və arvadından başqa onun ailəsini xilas edəcəklər. Şəhərə gəlib, onlar L. peyğəmbərgildə qalırlar. Sakinlər xəbərdar olub, onları zorlamaq istədilər. L. qonaqları qorumaq üçün sakinlərə öz qızlarını təklif etdi. Qonaqlar L.-a izah etdilər ki, səhərə şəhər məhv olacaq, ona görə o, ailəsilə birlikdə gecə ikən şəhərdən çıxıb geri baxmadan getsin. Onlar getdilər, arvadı isə qalıb hamısı ilə birlikdə məhv oldu. Səhər şəhərə qorxulu şivən yayıldı, hər şey Yerlə yeksan olmuşdu («onun üstü altına çevrilmişdi»), bərk gildən (sicill) yağış yağırdı. Bu hadisə bütün imansızlar üçün işarə oldu (7:80/78-84/82; 11:70/73-82/84; 15:57-77; 21:71, 74-75; 26:160-175; 27:54/55-58/59; 28:28/27-35/34; 37:133-138; 51:31-37; 54:33-38).

Məhəmməd peyğəmbər (s) düşmənləri tərəfindən yalançı adlandırılanda Nuh, Ad, Səmud, İbrahim və Lut peyğəmbərlərin də öz qövmləri tərəfindən yalançı adlandırdıqlarını yada salıb təsəlli alırdı.

L. Quranda mürsəl, Allahın rəsulu, rəsul əmin, güvənilən peyğəmbər, Allahın elm və hikmətindən nəsibindən olan kimi göstərilir.

L.-un şəhərinin adı Quranda yoxdur, lakin o, bir neçə dəfə «çevrilmiş» (52:53/54) və «çevrilmişlər» (9:70/71; 69:9) adı ilə qeyd edilib. L.-un və Nuhun arvadları öz ərlərinə xain çıxan peyğəmbərlərin arvadları arasında qeyd edilmiş və buna görə də Cəhənnəmdə əzaba düçar qalacaqlar (66:10). Quran dinləyicilərinə xəbər verilib ki, onlar (arvadlar) L.-un xalqının məhv

olduğu kənd və şəhərlərdəki ölənlərin yanından bir neçə dəfə keçsələr də, onların tarixindən ibrət götürmədilər (25:40/42; 37:133-138).

Yəhudi rəvayətləri ilə tanış olan şərhçilər Fələstin şəhərlərinin, L.-un arvadı və uşaqlarının adlarını qeyd edirlər. Xüsusilə L.-un arvadının hekayəsi və onun sonradan duz dirəyinə çevrilməsi səbəbi aydınlaşdırılır. O, şəhər sakinləri ilə qohum idi, ona görə onun L.-a yox, onlara canı yanırdı. Allahın elçiləri onlara gələndə o, qəsdən duz almaq bəhanəsi ilə qonşulara qaçdı ki, onlar bilsinlər ki, L.-un qonağı var, şəhərdə yeni adamlar peyda olub.

Sufilərdə (İbn Ərəbi) L. surəti ona misaldır ki, cismani mövcudiyyət, hətta peyğəmbərlər Allahın köməyi olmadan düşmənlərə qarşı gücsüzdür.

Quran hekayəsi öz kökləri ilə aqadi nağılı yolu ilə Bibliya rəvayətinə gedib çıxır. Maraqlıdır ki, artıq hekayənin müsəlman motivi (məs: L.-un arvadı haqqında) sonrakı yəhudi rəvayətlərinə təsir etmişdir. L. bir peyğəmbər kimi Quranda daha mühüm əhəmiyyət kəsb edir, nəinki Bibliyada. Onun hadisəsi Quranın ən mühüm nəsihətamiz hekayələri ilə bir sırada gəlir və onlar öz peyğəmbərlərinə inanmayan xalqların məhvi haqqında xəbər verirlər (Nuhun xalqı, Ad, Səmud). Onlar hamıya tanış kimi izah olunur, lakin onlar yeniliklərlə və ətraflı başa salınır. Başqa peyğəmbərlərin tarixlərindən fərqli olaraq, burada Məhəmmədin (s) məkkəlilərlə mübahisəsilə birbaşa paralellər azdır. Quranla eyni olan dövrlə onu (tarixi) o bağlayır ki, məkkəlilər məhv olmuş şəhərlərin qalıqlarını görmüşlər, ola bilsin bu, onların karvanı Ölü dəniz rayonundan keçən vaxt olub.

**Ədəbiyyat:** İslam, 148; ət-Təbəri. Tarix, 1, 330-345; yenə o. Təfsir, 8, 164-165, 14, 28-32, 19, 64-65; əs-Sə'ləbi. Qısas, 58; əl-Kisə`i. Qısas, 145-150; Əl-Beydavi. Təfsir. 1, 333-334, 504-505, 2, 58-59; Horovitz. Untersuchungen, 136; D.Künstlinger. Christliche Kerkunft der Kuranischen Lot-Legende. – RO, 1930, 7; Gaudefroy – Demombynes, Mahomet, 576-577; Beltz. Sehnsucht, 104-106; B.Heller – [G.Vajda]. Lut.- EI, NE, 5, 832-833; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 163.

# M

**Mal (cəmi əmval)** – mülkiyyət, əmlak (oturaq ərəblərdə – «pul», «var-dövlət», bədəvilərdə – «dəvələr», «mal-qara»). Orta əsr müəlliflərinin izahlarına görə M. dörd kateqoriyaya bölünür: «lal» (qiymətli qaş-daşlar, metallar və pul), «danışan» (qullar və mal-qara), mallar (şeylər) və daşınmaz əmlak. Daha dar mənada M. – maliyyə, pul vəsaiti (maliyyə və vergi haqqında çoxlu traktatlar elə belə də adlanırdı – Kitab əl-əmval), buradan da beyt əl-mal və mal əl-müslimin məfhumları (bütün müsəlman icmasına məxsus olan vəsait) meydana gəlmişdir və pul vergisini nəzərdə tutur. M. bu və ya başqa şəkildə müsəlman xalqlarının hamısının dilinə daxil olmuşdur.

Sənaye və ya ticarətə qoyulan vəsait ras əl-məl (baş vəsait-hərfən vəsaitin başı, kapital) adlanır, gəlir isə (qallə, ribh) adlanır, satılan qiymətdən fərqli olaraq gəlirin də daxil olduğu əşyanın öz dəyəri də belə adlanır. Hazırda ras əl-məl tamamilə «kapital» məfhumunun eynidir.

**Ədəbiyyat:** İslam, 153; M.Plessner. Mal. – EI, 3, 199.

**Malik b. Ənəs əl-Əsbahi (713-795)** – fəqih, mühəddis, maliki məzhəbinin yaradıcısı və banisi. Mədinədə, ox düzəldən usta ailəsində doğulmuşdur, M. özü isə ipək parçalar satıcısı idi. Hələ uşaqkən o, öz qohumlarından Quran elmlərini öyrənməyə başlayır, onların içərisində onun dayısı – görkəmli hədis bilicisi Əbu Süheyl Nəfi də var idi. Bundan əlavə M. Rəbib b. Əbdürrəhmandan fiqhi də öyrənirdi, sonra 13 yaşı olanda Əbdürrəhman b. Hirmiz əl-Ə′rac əl-Haşiminin dərnəyində olmuş, ondan və onun şagirdləri Şihab əz-Zöhri və Əbu-z-Zinaddan dərs almışdır. Vaxt ötdükdən sonra M. Mədinənin ən nüfuzlu fəqihi və onun ruhani rəhbəri (imam) oldu. Ona «Mədinənin imamı» da deyirdilər. Bir hədisə görə Peyğəmbər (s) şəxsən Əbu Hənifə və əş-Şafei kimi onun da taleyini qabaqcadan xəbər vermişdir. Əl-İsfəhaninin Kitab əl-əğənisinə görə Malik əvvəl müğənni olmaq istəmiş və ancaq anasının nəsihətinə görə özünü fiqhə həsr etmişdir. O, heç bir siyasi cərəyana qoşulmurdu, lakin o, hakimiyyətin seçilməsi prinsipinə meyl edirdi. O, hər hansı inzibati təyinetmədən imtina edir, öz görüşlərinin müdafiəsində çox prinsipial idi. Məlumdur ki, o, «məcburi içilən and həqiqi deyil» fikrini israr etdiyinə görə cismani cəza almışdı. Ağır xroniki xəstəlikdən əziyyət çəkən M. demək olar ki, Mədinəni tərk etmirdi, disputlarda, elmi görüşlərdə az iştirak edirdi. Bundan əlavə, o, hesab edirdi ki, «elm» - xoruzlar və qoçlar arasında döyüş deyil. M. əl-Müvəttənin külliyyatını tərtib edib, Məhəmmədin (s) tərəfdarlarının müəyyən hüquqi mövzularla qruplaşdırılmış hədislərini, dediklərini və

qərarlarını oraya daxil etmişdir. Əl-Müvəttə iki redaktədə qalmışdır: birincisi onun ən görkəmli şagirdi Məhəmməd əş-Şeybaniyə (vəf. 805), ikincisi isə Yəhya əl-Leysi əl-Əndəlüsiyə (vəf. 848-49) aiddir. Sonra Əsəd b. əl-Furat ət-Tunisi (vəf. 828-29) bu külliyyat üzərində işləyib və onu Əl-Müdəvvənə adlandırıb. Əbdüssəlam ət-Tənuhi (vəf. 854-55) öz növbəsində təzədən onu işləyib kamilləşdirmiş və onu Əl-Müdəvvənə əl-kubra adı altında nəşr etdirmişdir.

M. böyük müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. Onun şagirdləri içərisində artıq adı qeyd edilmiş əş-Şeybani ilə yanaşı şafei məzhəbinin yaradıcısı Məhəmməd b. İdris əş-Şafei də var idi, onun şafei məzhəbində M. tərəfindən işlənmiş çoxlu qaydalar vardır.

M.-in ictimai-siyasi görüşləri ondan ibarətdir ki, ali hakimiyyət xəlifəyə aiddir, o qüreyşli olmalıdır, lakin mütləq deyil ki, haşimi və ya ələvi olsun. Onu hakimiyyətdə əvvəlki xəlifə tərəfindən təyin olunmuş xüsusi nümayəndələr qrupu (şura) təsdiq etməli idi. Onlar hökmən mədinəli və ya məkkəli olmalı idilər, belə ki, ancaq onların andı (beyət) qanuni və zəruridir. Əgər hakimiyyətdə ədalətsiz hökmdar olarsa və ya onun hakimiyyəti hansı yollasa qeyri-qanunidirsə, ona qarşı üsyan qaldırmaq və onu güclə devirməyə cəhd etmək olmaz, belə ki, intizamsızlıqdan gələn zərər hər vaxt zülmkar və ya qeyri-qanuni hakimiyyətdən çox qiyamla müşayiət olunur. M. azad qədərin tərəfdarı olub, hər bir şəxsi öz əməlləri üçün tam məsul sayırdı.

**Ədəbiyyat:** İslam, 156; Əbu Zəhra. Tarix əl-məzahib, 2, 177-323; Mahmassani. Falsafat al-tashri, 24-27; J.Schacht. Malik b. Anas. – EI, 3, 223-227; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 165-166.

**<u>Əl-Malikiyyə</u>** – malikilər, yaradıcısı Malik b. Ənəsin (713-795) adı ilə adlanan məzhəbin ardıcılları. Malikilik Mədinədə yaranıb, tez bir zamanda Ərəbistanda, sonra Misir, Şimali Afrika və Ənədlüsiyada yayıldı. M. məzhəbinə görə hüququn əsas mənbəyi Quran və sünnə olub, Quranın mabədi kimi hesab edilir. Sünnə Məhəmmədin (s) ardıcıllarına – mədinəlilərə aparıb çıxaran, heç bir izaha məruz qalmalı olmayan hədislərdir, belə ki, ancaq onların məlumatlarını M. tam həqiqi sayırdılar. Quranın qanuni mətnləri və sünnə vahid bir mənbədə – nassda birləşirlər. Nassa əlavə kimi Mədinə icmasının kollektiv təcrübəsi haqqında məlumat cəlb olunur, onlar haqqında heç bir yazılı dəlil yoxdur, lakin ictimai yaddaşda onlar Məhəmmədin (s) vaxtında olan hərəkətlər kimi qalmışdır: təharət, oruc (saum), sünnət (xitan) və s. Belə kollektiv yaddaşa «mindən min, birdən bir olmaqdan yaxşıdır» prinsipi üzrə kollektiv hədis kimi baxırdılar. Ancaq axırıncı növbədə zəruri hüquqi material mədinəli olmayan əshabların, habelə ən görkəmli «ardıcılların» (təbi′) hüquqi

qərarları və izahlarından götürülürdü. «Yüksək tutulan qərar» (əl-istihsan) istislahın qiyasa görə üstün tutulmasıdır, d.d., əgər seçim imkanı varsa, onda şübhəli hallarda istislaha müraciət olunmalıdır.

M. başqa məzhəblərin ardıcılları kimi ədliyyə mühakimələri yürütdükləri zaman «halların dəyişməzliyi fərziyyəsi» (əl-istishab) prinsipini rəhbər tuturlar, burada hər hansı bir dəyişikliyin aydın əlamətləri təzahür etməyincə hələ başlayan kimi qəbul edilmir.

M. məzhəbinin əsas prinsipləri Malik b. Ənəsin Əl-Müvəttəsində və ona olan şərhlərdə, bu külliyyatın yenidən işlənmiş şəkli Əl-Müdəvvənə və Əl-Müdəvvənə əl-kubrada, habelə sonrakı əsərlərdə verilmişdir ki, onlardan da ən məşhurları Əbülqasim b. Cəzzinin (vəf. 1340-41) Əl-Qavanin əl-fiqhiyyə fi təlxis əl-məzhəb əl-malikiyyə və Sidi Xəlil (vəf. 1365-66) tərəfindən tərtib olunmuş Əl-Muxtəsər əsərləridir.

Hazırda M. məzhəbi Mərakeş, Əlcəzair, Tunis, Liviya, Küveyt və Bəhreyndə hakim təriqətdir. Əhəmiyyətli miqdar M. icmaları Misir və Sudanda, bir miqdar M.-lər isə başqa müsəlman ölkələrində vardır.

**Ədəbiyyat:** İslam, 156-157; Əbu Zəhra. Tarix əl-məzahib, 2, 208-223; Mahmassani. Falsafat at-tashri, 24-27; J.Schacht. Malik b. Anas. – EI, 3, 223-227.

**Əl-Mehdi («düzgün yolla aparılan», «Allahın yolu ilə aparılan», «Allahın hidayətinə nail olan» - fi səbil Allah)** – Mehdi, həyatın ən yaxın sonunun xəbərçisi, Məhəmmədin (s) axırıncı varisi (xilaskar). Əl-M. Quranda xatırlanmır, lakin xilaskar ideyası hədislərdə çox geniş yayılmışdır.

Əvvəlcə əl-M.-ni Qiyamət gününün yaxınlaşması haqqında xəbər verəcək əl-Məsih İsa peyğəmbər ilə eyniləşdirmişdilər. Sonra onun haqqında dini yeniləşdirən müstəqil adam kimi düşünməyə başladılar. İslamın hələ ilk dövrlərində əl-M.-ni islamın əvvəlki təmizliyini bərqərar edəcək hökmdar kimi qəbul edirdilər. «Antixəlifə» Abdulla b. əz-Zübeyr (VII əsrin sonu) İslamı bərqərar edən roluna iddia edirdi.

Xilaskar ideyası «gizli imam» əl-M.-nin gəlişi ilə şiəlikdə daha geniş yayılmışdı. Şiə ideyasında ədaləti bərqərar edəcək əl-M. realdırsa, İ.Qoldsierə görə bu sünni ideyasında qeyri-müəyyən əfsanədir.

M. istilahı Hz. Əlinin oğlu Məhəmməd ibn Hənəfiyyə üçün də işlədilmişdir. Hüseynin (ə) vəfatından sonra Muxtar ibn Əbu Übeyd onu Xilafətə namizəd elan etməyə sövq etdi və ona «Vəsinin (Əlinin) oğlu Mehdi» adını verdi.

Xilaskarlıq ideyası İslamda ictimai və dini hərəkatı ruhlandırırdı. Şimali Afrikada Fatimilər sülaləsinin əsasını qoyanda Übeydulla əl-Mehdi ideyasını istifadə etdi (909-1171). Əlmohadların banisi Məhəmməd b.

Tumart da Şimali Afrika və İspaniyada (1130-1269) özünü əl-M. elan etdi. Axırıncı M. hərəkatı XIX əsrin sonunda, özünü əl-M. elan etmiş Məhəmməd b. Əhmədin başçılığı altında Şərqi Sudanda olan üsyan oldu.

**Ədəbiyyat:** İslam, 163; Петрушевский. Ислам, 266-268; Bravmann. Background, 254-287; California, 1971, Index; W.Madelung. Al-Mahdi. – EI, NE, 5, 1221-1228; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 169-170.

**Mehr (türkcə mehr, sinonimi sadaq)** – kəbin kəsilən vaxt (zəvac) ərin arvada verdiyi mülkiyyət. M.-in verilməsi belə izdivacın əsas şərtidir, bu həm də ərin arvadı ilə izdivac əlaqəsinə görə verilir. M. təkcə qadına aid olub, onun dul qaldığı və ya boşandığı vaxt onu dolandırır. Minimum M. 10 dirhəmə (30 qr. gümüşə) bərabər idi, maksimum isə hüdudsuz idi. O, razılıq zamanı evlənənlərin nümayəndələri tərəfindən müəyyən edilirdi. M.-in miqdarı və verilməsi şərti müqavilədə (siqə) qeyd edilirdi. Mehr birbaşa kəbin kəsilən vaxt da verilə bilər (mehr mü'əccəl), ya hissələrlə və ya boşanma olarsa, o vaxt. M. himayəçiyə də (ata, qardaş) verilə bilər. M.-in vaxtında verilmədiyinə görə arvad şərti boşanma (fəsh) verə bilər. M.-i verməyən ər öldükdə arvada düşən vərəsəlikdən başqa ona M.-də verilir. Arvad özü boşananda (hul) və ya hər ikisi boşanmaq istəyəndə (li'an) ödənməyən M.-i arvad ala bilmir.

İslamın möhkəm olduğu ölkələrdə M.-i müəyyən hüdudda vermək qərara alınır.

M. Saf İslam İnstitutudur, onu kalım (başlıq) - gəlini almaq pulu ilə qarışdırmaq səhvdir. Kalım (başlıq) qədim adətlərin qalığıdır, M.-ə oxşayır.

**Ədəbiyyat:** İslam, 164; əş-Şeybani. Əl-Cami əs-səğir, 34-36; Əl-Əhkam əş-şər'iyyə, 13-21; Əbu Zəhra. Family Law, 141-144; O.Spies. Mahr. – EI, 3, 148-149.

**Mehrab** – mihrab-məscidin Məkkəyə yönəldilmiş divarında açılmış tağvari yer, o, qibləni bildirir və namaz qılanlar üzlərini ona sarı tuturlar. Quranda (34:13/12; 38:21/20) «səcdəgah», «ibadətgah» mənalarında işlədilir. Məscidlərdə M-ların yaranması tarixi bəlli deyil, hər halda artıq VII əsrin sonunda onlar var idi. M. adətən oymabəzəkli olurdu. Bəzən onu çox zəngin daş-qaşla bəzəyirdilər, möminlər bunu pisləyirdi. Bəzi məscidlərdə bir neçə M. olur. Minbərlər adətən M.-ların yanında qoyulur.

**Ədəbiyyat:** İslam, 166; E.Diez. Mihrab. –EI, 3, 559-565.

**Əl-Məad («qayıdış, qayıtma, dirilmə» )** – gələcək həyat, bu Dünyanın sonundan sonrakı həyatda (bəzi aspektlərdə əl-Axirətdə) baş verənlər. Əl-M. məfhumu həyatın (Dünyanın) sonu (əs-sə'a), ölülərin

dirilməsi (əl-Qiyamət), Allahın insanlar üzərində məhkəməsi (yom əd-din, əs-su`al), insanların Cənnət və Cəhənnəmdə yerləşdirilməsini özündə cəmləşdirir. Əl-M. haqqında görüş İslamın əsas ehkamlarından biridir.

Müsəlmanlar arasında ən çox yayılmış baxışlara görə Dünyanın axırından sonra əd-Dəccal xuruc edir (meydanə gəlir, peyda olur), bəd əməllər qələbə çalır, şərqdə Yəcuc və Məcuc peyda olur, Yerdən hansısa danışan əjdaha çıxır, Yerin üstünü tüstü sütunları bürüyür. Günəş qərbdən doğmağa başlayır. Sonra İsa və əl-Mehdi əd-Dəccala qalib gəlirlər, Yer üzərində ədalət hökm sürür, sonra əs-sə′a (saat), yom əl-Qiyamə (ölülərin dirilməsi günü), yom əd-Din (hökm günü), yom əl-Hisab (hesab günü) və s. başlayır. İsrafil (ə) şeypurunu çalır, ulduzlar göydən Yerə tökülür, dənizlər aşıb daşır, dağlar yerindən hərəkətə gəlir və bütün insanlar ölür. Şeypurun ikinci səsində əvvəl nə vaxtsa yer üzərində yaşamış bütün insanlar da canlanacaq və bir yerə (əl-Məhşərə) yığılacaqlar. Sonra onlar Allah qarşısında uzun müddət dayanacaqlar (əl-mövqif), onlar əzabla tər tökəcək (əl-araq), Allah onların əməlləri haqqında onları sorğu-suala tutacaq, mələklər insanların yaxşı və pis əməlləri qeyd olunan kitabları gətirəcəklər. Sonra günahlar və savablar tərəzidə (əl-məvāzin) çəkiləcək.

Böyük hovuzun yanında (əl-haud) Məhəmməd (s) insanları qarşılaycaq, o, Allahdan cüz′i günah etmiş bəzi möminləri bağışlamağı xahiş (əş-şəfa′ə) edəcək. Buna görə bəzi günahkarlar üçün Cəhənnəm çoxsürən deyil, bəziləri isə Cənnətə düşməzdən əvvəl onun qapısında çox gözləməli olacaq. Bütün insanlar Cəhənnəmin üstündən çəkilmiş çox dar, tük kimi körpüdən (əs-Sirat) keçməlidirlər, günahkarlar ondan keçə bilməyib aşağı düşəcəklər, möminlər isə maneəsiz olaraq Cənnət bağlarınadək keçəcəklər.

Dirilmə və Məhkəmə Məhəmmədin (s) möizələrinin əsas mövzularından biri idi, Quranın çoxlu, ən emosional surələri onların təsvirinə həsr olunmuşdur (məs: 69, 75, 81-84, 94-101-ci və s. surələr). İnsanların hakiminin rolu – Allah surətində əsaslardan biridir. Allahın istəyi ilə ölülərin dirilməsi ideyası Məhəmmədin (s) dinləyicilərində güclü müqavimətə rast gəldi. Məkkə əhalisinin ölülərin qəbirdə həyatının davam etməsi haqqında (semit) baxışlarının olmasına və sonradan onun müsəlmanların ölüm haqqında görüşlərinə təsir etməsinə baxmayaraq, Məhəmməd (s) bir neçə dəfə və uzun müddət öz ideyasını sübut etməli oldu.

Quran Dünyanın axırı hadisələrinin çoxlu dəqiq əlamətlərini qeyd edir, bunlar hamısı sonra müsəlmanların gələcək həyatının əsasına yerləşdirilir: şeypurun səsləri, insanların Allah önündə durması, tərəzi, Allahın insanla hesabatı haqqında məlumat, insanların əməlləri haqqında qeyd kitabı; Quranda Məhkəmənin gəlişi haqqında xəbər verən tüstüdən danışılır, Yerdən çıxacaq vəhşi heyvan, Yəcuc və Məcucun Zü-l-Qərneyn tərəfindən

onlara qarşı tikdiyi divarı dağıdacaqları haqqında danışılır. Lakin orada əd-Dəccal, Məhəmmədin (s) hovuzu haqqında danışılmır. Əs-Sirat Quranda Doğru yol və ya Cəhənnəmə aparan yol mənasını verir, lakin onda (Quranda) daha sonrakı rəvayətlərdə olan açıq-aydın məna yoxdur.

Məhkəmə və Dirilmə VIII-IX əsr hədislərində diqqətlə öyrənilmiş və XI-XII əsr ilahiyyatçılarının əsərlərində sistemləşdirilmişdir. Orta əsr müsəlman ədəbiyyatında «məşhur» ilahiyyatçı nümunələri – sadəcə olaraq Məhkəmə günü haqqında yazılan əsərlər çox geniş yayılmışdı, onlar onu və ondan əvvəl olacaq bəla və bədbəxtlikləri (fitən və məlahim) təfsilatı ilə təsvir edirdilər. Mötəzililər əl-M. haqqında artıq konkret baxışlarla, xüsusilə də qəbirdə əzab konsepsiyası olan xalq inamlarından götürülmüşlərlə və onların rəyinə görə Quranda əsası olmayan Məhəmmədin (s) müsəlmanları müdafiə etməsilə mübarizə edirdilər.

Müdafiəçilik ideyası müsəlmanlar üçün Cəhənnəmin əbədi olmaması, «təmizləyicinin» olması haqqında baxışların meydana gəlməsi ilə bağlıdır.

Allahın insanlar üzərində Məhkəməsi obrazı Allahın ədalət və mərhəmət haqqında məsələlərini canlandırdı. Beləliklə, o, müsəlman ilahiyyatının əsas problemlərindən biri – alın yazısı problemi ilə bağlıdır. IX-XII əsr ilahiyyat ədəbiyyatında mübahisələr gedirdi ki, insanların dirilməsini necə başa düşmək lazımdır – çürüməmiş cisimlərin qayıtması, hər şeydən təzə varlıq, çürümüş bədənin canlanması? Filosoflar Məhkəmə gününün epizodlarının alleqorik və metofor şərhinə yol verirdilər, lakin möminləri qorxudan mühüm təbliğat vasitəsi kimi xidmət edən gələcək hadisələrin konkret mənzərəsi çox geniş şəkilli olmuş və belə də qalır. Məhkəmə günü obrazı sufi ədəbiyyatında geniş istifadə olunmuşdur.

XII əsr sünni ehkamının standart külliyyatı Əqaid ən-Nəsəfidə müsəlman exsatoloji təliminin əsas və qəbul edilmiş elementləri bunlardır: əl-bə's (dirilmə), vəzn (günahların çəkilməsi), kitab (əməllərin yazıldığı dəftər), əs-sual, (sorğu-sual), əl-haud (Məhəmmədin (s) hovuzu), əs-Sirat (Cəhənnəm üstündən körpü), Cəhənnəm, əl-Cənnə (Cəhənnəm və Cənnət). Başlayan saatın əlamətləri; əd-Dəccalın zühuru, Yerdən vəhşi heyvanın çıxması, Yəcuc və Məcucun gəlməsi, İsanın qayıtması, Günəşin qərbdən doğulması. Bütövlükdə əl-M. konsepsiyası İslamı başqa təkallahlı dinlərlə birləşdirir. Əvvəl o, (Əl-M. konsepsiyası) yəhudilik, xristianlıq və zərdüştiliyin çoxlu exsatoloji obrazlarını mənimsəmişdi.

**Ədəbiyyat:** İslam, 148-149; an-Dourra al-Fakhira. Ia perle precieuse de Gharazali. Traite d`eschatologie musulmane... avec und trad. française par Lucien Gautier. Geneve – Bale – Lyon, 1878; yenə o. İhya, 4, 408-491; an-Nəsəfi. Əqaid, 30, 34; əl-Cürcani. Şərh, 579-593; A.Asim. La escatologia musulmana en la Divina Comedia. Madrid, 1919; D.S.Attema. De Mohammedansche orvattingen omtrent het tijdstip van den Jongsten Dag en zijn

voortekenen. Amsterdam, 1942; Gaudefroy – Demombynes. Mahomet, 414-447; Beltz. Sehnsucht, 183-190; R.Arnaldez. Ma`ad. – EI, NE, 5, 892-894.

**Məclis – (cəmi-məcālis)** – oturan yer, oturacaq, kürsü, taxt (əşya mənasında); iclas yeri, iclas, məşğul olmaq üçün otaq (məsciddə, mədrəsədə və s.); auditoriya, dərs, leksiya, dərsin, leksiyanın yazılması; qəbul, qəbul zalı; yığıncaq, görüş, kompaniya. Türkiyə və İranda yeni zamanda M. nüfuzlu müəssisə (parlament, bizdə Milli Məclis mənasında, palata, şura) mənalarını verir, hazırda eyni mənada bir sıra ərəb və müsəlman ölkələrində də işlənir. Bizdə həm də, yas mərasimlərinə M. deyilir.

M. sözü dini xüsusiyyətdən xali olub müsəlmanların məişət, mədəniyyət və ictimai həyatını əhatə edir. Alim və müəllimin məclisi onun keçirdiyi dərs, mühazirə, onların qeydiyyatı və auditoriyadır. Hökmdarların M.-i isə (xəlifə, sultan, əmir) onların əhali arasına açıq çıxışları, rəsmi qəbulları və ya söhbət eləmək üçün yığıntılardır. IX əsrin ortalarında Abbasilərdə onlar nudəmə' və ya culəsə′ və unəsə′ – «qonaqlıqlar» «söhbətləşmələr» adlanırdılar. İsmaililərdə X-XII əsrlərdə (Misirdə Fatimilər vaxtı) M. görünür sünnilərin xütbəsilə enyi mənalı olsa da, ona əks kimi mənada da istifadə edilirdi. Həftədə iki dəfə M. qurulur və orada ali mömin (dəi əd-duat) yığışanlara əvvəldən hazırlanmış, bəzən xəlifə tərəfindən təsdiqlənmiş mətn üzrə dini təlimlər verirdi. M. şiələrdə xüsusilə qeyd edilirdi, onlarda Kərbəlada şəhid olmuş əl-Hüseyn xatırlanır və onlar «hüzn məclisləri» adlanırdılar.

**Ədəbiyyat:** İslam, 149-150; Makdisi. Rise, 10-12; Ed. W. Madelung, M.Rahman. Madjlis. – EI, NE, 5, 1031-1033.

**Əl-Məcus (avest. Magus, yunan, Mayos, sur. Magusa – «maq») müsəlman ənənəsində** – zərdüştilik tərəfdarlarının ümumiləşdirilmiş adı, er.əv.II-I minilliklər.

VII əsrdə Sasani imperiyasının ərəblər tərəfindən fəthindən sonra M.-rın böyük bir hissəsi islamı qəbul etdilər. Lakin islamlaşma prosesi çox yavaş gedirdi və X əsrin ortalarında İranın mərkəzi vilayətlərinin yarısı hələ zərdüştiliyə qulluq edirdilər. İslamın ilk əsrlərində müsəlman idarə sistemi öz əcdadlarının dininə qulluq edən M.-larla xəzinə məsələsində «Kitab əhli» ilə (yəhudilər və xristianlar) olduğu kimi davranırdılar, lakin onları axırıncılarla eyniləşdirmirdilər. Quranda əl-M. təkcə bir dəfə (22:17), qeyd olunub, «Kitab əhli» və bütpərəstlərin (müşriklər) arasında yerləşdirilib: «Həqiqətən, Allah möminlər, yəhudilər, sabiilər (ulduzpərəstlər), xaçpərəstlər, atəşpərəstlər və müşriklər arasında Qiyamət günü hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah hər şeyə qadirdir». Görünür buna görə orta əsr şərhçiləri

də əl-M.-ları başqa din sahibləri ilə qarışdırmırdılar: ər-Razi və ən-Nişapuri Zərdüştü həqiqi peyğəmbər hesab etmirdilər, ancaq özünü peyğəmbər (mütənəbbi) kimi göstərən sayırdılar. Müsəlman tarixçiləri ət-Təbəri, əl-Balazuri və başqaları, ümumiyyətlə, əl-M.-ları bütpərəst hesab edirdilər. Mübahisəli ədəbiyyatda Məhəmmədin (s) fikri geniş yayılmışdır ki, o, əl-M.-larla bərabər olan qədərilərin müsəlman icmasında meydana gələcəklərini əvvəlcədən demişdi.

Müsəlman İranında əl-M.-ları qebrlər (qədim yəhudilər) adlandırırdılar. Qebr icmaları İranın şərq əyalətlərində, əsasən Kermanda mövcud idilər. VIII-X əsrlərdə zərdüştilərin bir hissəsi Şərqi İrandan Hindistana köçdülər, orada onlar (İranın cənubunda olan tarixi əyalətin adı Parsla, ərəbcə Fars) parslar adlanmağa başladılar. Sayı 100 mindən çox olan böyük pars icması hal-hazırda Bombeydə mövcuddur.

**Ədəbiyyat:** İslam, 150; D.Menant. Les parsis: Historie des communautes zoroastriens d I`Inde. I.P.1898; H.A.R. Gibb and J.H.Kramers, Madjus. – ShEI, 298-300.

**Əl-Mədinə (Mədinə)** – şəhər - ərəbcədir, Mədinət ən-Nəbi, yəni Peyğəmbərin (s) şəhəri sözünün qısa şəklidir, Hicazda vahə şəhəri olan Yəsribə müsəlmanlar bu adı vermişlər. Əvvəl onun adı Ptolomey və Yathrippa olmuşdur. Bu yəqin ki, başqa millətlərdən olan tarixçilərin verdikləri ad olub). 622-ci ildə İslam dinin banisi Məhəmməd (s) Məkkədən buraya köçmüş və bu hicrət ilə müsəlman tarixinin başlanğıc ili olmuşdur. Məhəmməd (s) ömrünün bütün qalan hissəsini bu şəhərdə yaşamış, yalnız hərbi əməliyyatlara başçılıq etmək və Məkkəyə ziyarət üçün buranı tərk etmişdir. O, Mədinədə ilk məscidi tikdirmiş və Quranın xeyli hissəsini burada bəyan etmişdir. Burada İslam müstəqil din xarakteri almış, müsəlman dövlətinin təməli qoyulmuş və dövlətin ilk paytaxtı da Mədinə olmuşdur.

Peyğəmbər (s) vəfat etdikdə onu tikdirdiyi məsciddə dəfn etdilər. Onun evi də elə bu məscidə bitişikdir. Rəsmən Həcc mərasiminə daxil olmasa da, Zəvvarlar Həcc vaxtı həmişə Peyğəmbərin (s) məzarını və peyğəmbər (Mədinə) məscidini də ziyarət edirlər.

İlk xəlifələr başqa məmləkətlərin fəthi üçün Mədinədən ordu göndərib, özləri burada qalırdılar. Hz. Əli isə 656-cı ilin oktyabrında özü ordunun başında Mədinəni tərk edib, idarə mərkəzi Kufəni seçdi, Müaviyənin «zəfərindən» sonra isə (idarə mərkəzi) Dəməşqə köçdü. Mədinə əvvəlki əhəmiyyətini nisbətən itirdi. O, xəlifənin təyin etdiyi valilər tərəfindən idarə olunurdu. H. 654-cü ildə Mədinədə «Hicaz atəşi» adlanan dəhşətli vulkan püskürməsi oldu. Camaat bu bəladan Peyğəmbər (s) məscidinə sığındılar, bu İslama etiqadı artırdı.

1804-cü ildə vəhhabilər Mədinəni zəbt etdilər, xəzinələr qarət olundu, Peyğəmbərin (s) məzarının ziyarəti qadağan olundu. Məscidin qübbəsini dağıda bilməsəslər də kafirlər qiymətli nə varsa hamısını apardılar. Yalnız 1813-cü ildə Misir valisi Məhəmmədəlinin oğlu Tosun Mədinəni vəhhabilərdən geri aldı. 1924-cü ildən, yəni Xilafət rəsmən ləğv edildikdən sonra Mədinə və Məkkə Səudiyyə Ərbistanının tərkibindədir.

**Ədəbiyyat:** İslam qısa məlumat kitabı, B., 1985, 80; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 172-174.

**Mədrəsə** – tədris ocağı; ibtidaidən sonra ikinci dərəcəli təhsil yeri. İslamın yayıldığı ölkələrdə M. haqqında ən erkən məlumat X əsrə-ərazicə Xorasan və Məvaraənnəhrə aiddir. XI əsrdən başlayaraq M. aparıcı təlim müəssisəsi oldu: buna qədər təhsil məsələsi zəif təşkil olunmuşdu və dərslər məscidlər, xüsusi evlərdə, mehmanxanalarda (xan), kitabxanalarda və xəstəxanalarda keçirilirdi. M.-lər vəqf hesabına təsis olunur və işləyirdilər, vəqf ayrı-ayrı şəxslərin öz pul və mallarını xeyriyyəçiliyə verməsi hesabına mövcud idi. M.-də müəllimlər və başqa işçilərə maaş verilir, şagirdlər təqaüd, tədris vəsaiti və yataqxana ilə təmin edilirdilər. M.-də əsas və yeganə öyrənilən fənn müsəlman hüququ – fiqh idi; M.-nin uyğun profili cərəyan və ya məktəb (məzhəb), hüquq yolu ilə müəyyən edilirdi. Əvvəlcə şafei, sonra isə hənəfi və başqa məzhəblər yarandı; sonra iki, üç və ya bütün dörd məzhəbə aid fiqhin öyrənilməsi üçün M.-lər meydana gəldi; bunların hər biri bir müəllim (müdərris) və köməkçilər ilə təmsil olunurdular. Təlim mühazirələr, müəyyən kitabların (öyrənilməsi) işlənməsi və disputlarla keçirilirdi. M.-də proqram yox idi, əlavə olaraq Quran fənnləri, ərəb dili və ədəbiyyatı, hədis, ilahiyyat, habelə tibb və başqa «qədim elmlər» öyrənilə bilərdi. Hərdən hədisləri öyrənmək üçün ixtisaslaşdırılmış M. təsis olunurdu (onlar adi olaraq dar əl-hədis adlanırdı), tibb M.-si təşkil olunurdu. Adətən M. vəqf tikililəri və müəssisələri komplekslərinin bir hissəsi olurdu, onun nəzdində kitabxana da olurdu.

M.-lərdə mollalar, xətiblər, şəriət məhkəmələri üçün qazilər, müəllimlər və dövlət idarələri üçün məmurlar hazırlayırdılar.

M. XII əsrdə Qərbi Avropada kolleclər sisteminin yaradılmasına çox təsir edirdi. Müsəlman ölkələrində M. sistemi tədricən tənəzzül etdi, öyrənilən fənnlər və istifadə olunan vəsaitlər ənənəvi olaraq ancaq XIX-XX əsrlərdə təzələnməyə başladılar. Tarixən Bağdadda Nizamiyyə, Qahirədə Əl-Əzhar və başqa M.-lər məşhurdur.

M. müəllimi - müdərris adətən fiqh üzrə mütəxəssis, islam, əxlaq-hüquq qaydalarının və hüquqşünaslıq üsullarının bilicisi olurdu. Başqa fənnlərin (məs: hədis, qrammatika) müəllimlərini də müdərris adlandırırdılar, lakin

bu vaxt onların ixtisası dəqiqləşdirilirdi. Dövlət universitetləri təsis olunduqdan sonra müdərris istilahı ştatda olan professora şamil edilirdi.

**Ədəbiyyat:** İslam, 150; Бартольд. Əsər., 2/2, 431-432, 6, 112, 621; N.Məruf. Mədaris qablə ən-Nizamiyyə. Bağdad, 1393/1973; Maqdisi. Rise, 153-171; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 174.

**Məhəmməd (Muhamməd) Əhməd b. Abdullah** (təx. 570-632) - qüreyş qəbilə qrupunun haşim tayfasındandır, İslam dininin ilk müsəlman icmasının banisi, Allahın Peyğəmbəri (s) və elçisi, onun vasitəsi ilə Quranın mətni insanlara ötürülüb. Məkkədə varlı olmayan, lakin Məkkə əyan ailəsinə yaxın ailədə doğulmuşdur. Onun atası ticarət səfərində, M. doğulmamış vəfat edir, anası isə bir neçə ildən sonra. M. babası Əbdül-Muttəlibin ailəsində böyüyüb tərbiyə alır. O, gənc yaşlarından karvan ticarəti ilə tanış idi və hərdən ticarət səfərlərində iştirak edirdi.

Ərəb dilində Muhamməd «çox təriflənmiş, çox öyülmüş» deməkdir. Özündən əvvəl bu ad heç kimə verilməmişdir. Hz. İbrahimin oğlu Hz. İsmailin nəslindəndir.

Tarixçilərin məlumatına görə M. doğulanda möcüzə baş vermişdir. Kəbədəki bütlər üzü üstə yıxılmış, İrandakı Sahə gölü qurumuş, atəşpərəstlərin baş məbədindəki manqalın alovu sönmüşdür. Onun doğulması və vəfatı, peyğəmbərliyə çatması və hicrəti bazar ertəsinə təsadüf edir (Bəlkə də belə möcüzələrə görə dünya xalqlarının çoxu bazar ertəsini ağır gün hesab edirlər). Babasının vəfatından sonra M.-i əmisi Əbu Talib himayəyə götürür.

12 yaşında əmisi Əbu Taliblə ticarət karvanı ilə Suriyaya gedən M.-i Qüdslə Şam arasındakı Busra şəhərində Bəhira adlı bir xaçpərəst rahib görür. Ona diqqətlə baxıb, onunla söhbət etdikdən sonra əmisi Əbu Talibə uşağın müqəddəs kitablarda yazılan sonuncu peyğəmbər olacağını və onu heç yerə təkbaşına buraxmamağı tövsiyə edir.

Suriyaya aylarla davam edən səfərdə M. özü üçün yeni olan, bilavasitə doğulub boya-başa çatdığı bütpərəst qəbilə-tayfa mühiti ilə çox böyük təzad təşkil edən xristian, yəhudi icmları və digər dini icmalarla təmasda oldu. Balaca M.bu tanışlqıdan təsirlənmiş və bu onda mənəvi gərginlik yaratmışdı. Və bu mənəvi gərginlik Xədicənin işlərinin pişkeşiyi kimi yenidən Surayada olduğu vaxt daha da güclənmiş və onu yeni dinin yaradıcısı kimi böyük iş görməyə sövq etmişdi (Bu fikirlər də İslamın rəyinə ziddir).

Əmisi Əbu Talibin məsləhəti ilə Məkkədə varlı dul qadın Hüveylidin qızı Xədicənin ticarət işlərini aparmağa başladı, Xədicə onun bacarıqlı və düzgün olduğunu görüb, 595-ci ildə onunla evləndi. M.-in 25 yaşı vardı, Xədicənin isə yaşı çox idi. O, M.-dən iki oğlan və dörd qız doğsa da,

oğlanlar kiçik ikən öldülər, o cümlədən, böyük oğlu Qasim, ona görə o Əbülqasim çağrılır. Qızların adları Rüqəyya, Ummu Külsüm, Zeynəb, Fatimə idi.

M. Xədicə sağ ikən başqa qadınla evlənmədi. O, tənhalığı və dini düşüncələri sevir, tez-tez Məkkə yaxınlığındakı Cəbəlunnur dağındakı Hira mağarasına gedirdi, yəhudilik və xristianlığın əsasları, Ərəbistan monoteist-həniflərin görüşləri ilə tanış idi. M. 40 yaşı olanda, növbəti dəfə şəhərdən uzaqlaşıb tənha qalanda, ona görüntülər gəlir, sonra səslər gəlir. Cəbrail (ə) nazil olub, Ələq surəsinin beş ayəsini ona oxutdu. Sonradan bu vəhylər (səslər) Quranın əmələ gəlməsinə zəmin yaratdı.

Əvvəlcə M. bu başlayan «kəşflərdən» qorxdu, sonradan əmin oldu ki, o, Allah tərəfindən elçi (rəsul), peyğəmbər (nəbi) seçilib ki, insanlara Allah sözünü çatdırsın. M.-in öz qəbiləsinin adamlarına çatdırmaq istədiyi ilk «kəşf» tək, yeganə Allahın böyüklüyü idi və o, Ərəbistanda yayılan çoxallahlığı rədd edir, ölülərin diriləcəyi Qiyamət günü, Allaha inanma-yanların hamısının Cəhənnəm əzabı çəkəcəkləri haqqında xəbər verirdi.

M.-in möizəsi Məkkədə məsxərə ilə qarşılandı, lakin tədricən onun ətrafına tərəfdarları yığıldı-onların bir hissəsi tanınmış ailələrdən, bir hissəsi isə Məkkə ictimaiyyətinin aşağı təbəqələrindən idi. Məkkənin yuxarı təbəqəsi M.-in ardıcılları olan müsəlmanları təqib edib, sıxışdırırdılar. M. özü öz nəslinin və onun başçısının-Əbu Talibin müdafiəsi altında idi, müsəlmanların çoxu isə canlarını təqibdən qurtarmaq üçün M.-in məsləhəti ilə Həbəşistana mühacirət etdilər. M.-in möizəsi Allahın birbaşa danışığı olub, Onun Əzəmətli, Rəhman (rəhimli), Böyük olduğunu, insanın tamamilə Ondan asılı olduğunu bildirirdi. M. bunları söyləyərkən dinləyicilərə keçmişdəki peyğəmbərlərin tarixlərini və məhv olmuş xalqları nümunə göstərirdi. Quran isə M.-in peyğəmbərliyinin məlum və mümkün olduğunu göstərir və bildirdi ki, Peyğəmbərə (s) qulaq asmayan və inanmayanlara həmişə cəza verilməsi ilə nəticələnəcək.

610-cu ilin Ramazan ayında M. 40 yaşında olanda Allah-Təala «Müddəssir» surəsinin iki ayəsi ilə ona peyğəmbərlik verildiyini xəbər verir. Xədicə, Əli, M.-in azad köləsi və oğulluğu Zeyd, Əbu Bəkr, Osman və s. İslamı qəbul edirlər. 614-cü ildə isə «Hicr» surəsini nazil edən Allah-Təalə artıq İslamı açıq təbliğ etməyi M.-ə (s) xəbər verdi. «Şüəra» surəsilə isə Allah-Təala M.-ə İslamı öz qohumları arasında təbliğ etməyi tapşırdı. M. (s) onları Səfa təpəsinə yığıb Allahın tapşırığını çatdırdı. Onlar M.-ə (s) Məkkənin rəisliyini vəd edib, bu işdən əl çəkməyi tələb etdilər.

618-620-ci illərdə M.-lə məkkəlilər arasında guya kompromisin yaranması imkanı olur. M. Allah yanında Məkkədəki Əl-Lat, Əl-Üzzə və Mənat ilahələrinin guya xüsusi yeri olduğunu, məkkəlilər isə Allahın İllahlardan birinci olmasını və M.-in peyğəmbərlik missiyasını qəbul etməli

idilər. Lakin Məmməd tərəfindən irəli sürülən mütləq təkallahlıq təlimi buna imkan vermədi və mübarizə kəskinləşdi. Bu vaxt Xədicə və Əbu Talib vəfat etdilər. M. (s) mənəvi dəstək və müdafiəsiz qaldı. Nəslin yeni başçısı - peyğəmbərin əmisi və qatı düşməni Əbu Ləhəb M.-i himayə etməkdən imtina etdi, əks olaraq onu daha da çox sıxışdırmağa başladı.

M. Məkkədən kənarda tərəfdarlar axtarmağa başladı. O, şəhərə gələn tacirlərə öz möizəsi ilə müraciət etdi, Taifdə sığınacaq tapmaq məqsədilə ora getdi, ancaq nəticəsi olmadı. Nəhayət, təxminən 620-ci ildə o, Məkkədən 400 km. şimalda yerləşən nəhəng k/t vahəsi olan yerdə Yəsribin bir qrup əhalisi ilə gizli razılığa gəlir. Orada yaşayan yəhudiliyi qəbul etmiş bütpərəst ərəblər ara müharibələrindən cana doymuşdular, onları bu vəziyyətdən çıxarmağa qadir bir hakim istəyirdilər. Belə bir hakim rolunda onlar M.-i qəbul etdilər.

Əvvəlcə Məkkə müsəlmanlarının çoxu, sonra da M. özü Yəsribə köçdülər. O, 12 rabi əvvəl və ya 23 sentyabr 622-ci ildə Yəsribə gəldi. Bu ilin birinci ayından (məhərrəm) müsəlmanlar (I Ömər vaxtı) vaxtı təzə hicri tarixi ilə hesablamağa başladılar. Bu vaxtdan Yəsrib Mədinətu-n-nəbi (Peyğəmbər şəhəri) və ya sadəcə olaraq əl-Mədinə adlanmağa başladı.

M. adi möizəçidən əvvəlcə təkcə müsəlmanlardan ibarət olmayan icmanın siyasi liderinə çevrildi. Tədricən Mədinədə onun tək hökmranlığı həyata keçir. M.-in əsas dayağı Məkkədən gələn mühacirlər və Mədinə müsəlmanları-ənsarlar idilər. M. (s) Yəsribin yəhudilərinin də dini və siyasi dəstəyinə ümid edirdi, o, hətta qibləni də Yerusəlimə tərəf saxlamışdı. Lakin onlar yəhudi olmayanın missiyasını qəbul etməyib, onu məsxərəyə qoydular və M.-in düşmənləri məkkəlilərlə əlaqəyə girdilər. Əvvəlcə İslamı həvəslə qəbul edən bəzi bütpərəst, yəhudi və xristian yəsriblilər də onlara qoşuldular və M.-ə qarşı çıxdılar. Bu mədinədaxili müxalifət Quranda bir neçə dəfə «münafiqlər» kimi mühakimə olunurlar.

Daxili ixtilaflar İslamın ərəb xüsusiyyətli ayrı bir din olduğunu sübut etdi. M. (s) İslamın saf bir din olduğunu, özünün axırıncı peyğəmbər olduğunu, yəhudi və xristianların Allah iradəsini təhrif etdiklərini qeyd edirdi. Şənbə gününün əksinə olaraq cümə gününün ümumi namaz qılmaq üçün xüsusi müsəlman günü olmasına qərar verilir. Əl-Kəbə birinci dərəcəli müqəddəs yer elan edilir, oranı ziyarət etmək və namaz qılarkən oraya üz tutmaq (qiblə) qərara alınır.

Mədinədə birinci məscid və M.-in evi tikilir. Müsəlman mərasimlərinin əsasları qərarlaşdırılır. Dəstəmaz almaq, namaz qılmaq, oruc tutmaq, azan, dini məqsədlərə toplanış və s. haqqında qərar verilir, şərab, donuz əti və ehtiraslı oyunlar qadağan edilir.

624-cü idlə Bədrdə müsəlmanlar M.-in (s) başçılığı ilə Məkkə dəstələrinə qalib gəldilər və bu qələbə Allah tərəfindən müsəlmanlara

kömək kimi qəbul edildi. 625-ci ildə məkkəlilər Mədinəyə yaxınlaşıb Ühüd dağı yanında müsəlmanlarla vuruşdular. Döyüşçülərin bir hissəsi hərislik edərək, qənimət yığmaqla məşğul olduqları üçün tapşırığı yerinə yetirmədiklərinə görə M. (s) başından yüngül yaralandı, müsəlmanlar böyük itki verdilər, lakin məkkəlilər hücumları inkişaf etdirməyib qayıtdılar. O biri il onlar yenidən Mədinəyə hücum etsələr də, müsəlmanlar məxsusən qazılmış xəndək yanında onları saxladılar.

Mədinə müxaliflərinin məkkəlilərlə sıx əlaqəsi və onların M.-ə (s) sui-qəsdi onu əks tədbir görməyə vadar etdi. Mədinədən bəniqaynuk və bəninadir yəhudi qəbilələri qovuldu, bəniqureyzə qəbiləsinin böyük bir hissəsi öldürüldü. M.-in (s) bəzi fəal düşmən və rəqibləri də məhv edildi. Sonra Məkkə ilə mübarizəyə böyük qüvvə toplanmağa başlandı.

628-ci ildə bəzi müsəlmanlar köçəri qəbilələrinin qoşulduğu böyük ordu ilə Məkkəyə sarı hərəkət edib, müqəddəs Həram ərazisinin sərhəddində-Hüdeybiyyədə dayandılar.

Müsəlmanlar və məkkəlilər arasındakı danışıqlar sülhlə qurtardı. Düz bir il sonra M. (s) və onun silahdaşları müqaviləyə əsasən əl-Kəbəyə ümrə ziyarətinə getdilər.

Bu vaxta Mədinə icmasının gücü möhkəmləndi. Şimali Ərəbistanın zəngin vahələri Xeybər və Fədək alındı, yeni-yeni qəbilələr M.-in (s) tərəfdarları olurdular. Məkkəlilər də M.-lə (s) gizli danışıqlar aparırdılar, bir çox məkkəlilər aşkar və ya gizli - İslamı qəbul edirdilər. Buna görə 630-cu ildə müsəlman ordusu maneəsiz Məkkəyə daxil oldu, M. (s) əl-Kəbəni ziyarət edib, onu bütlərdən təmizlədi.

Lakin M. (s) Mədinədə yaşamağı davam etdirdi, ancaq bir dəfə (632-ci ildə) vida həcci ilə əlaqədar Məkkəyə getdi. Məkkə üzərində qələbə M.-in Ərəbistanda dini və siyasi nüfuzunu möhkəmlətdi. M. (s) Ərəbistanın əyalətlərinə, Bizansa və İrana elçilər göndərib, onları İslamı qəbul etməyə dəvət edir. Məkkənin hərbi dəstələri Şimali Ərəbistanda yeni vadilər, cənubda Yəməni tuturlar. 630-cu ildə Hüneynə yaxınlığında müsəlmanlar Məkkəyə hücum edən köçəri qəbilələrin hücumlarını dəf etdilər. 631-632-ci ildə Ərəbistanın mühüm hissəsi bu və ya başqa dərəcədə M.-in (s) başçılıq etdiyi siyasi birliklərə daxil idi.

Ömrünün axırıncı illəri M. (s) Ərəbistanın şimalını fəth etmək istəyirdi. 632-ci ilin iyun-iyul aylarında 62 yaşında M. (s) silahdaşlarının gözləmədiyi vaxtda, qısa xəstəlikdən sonra vəfat etdi. Rəvayətə görə onu zəhərləmişdilər. O, Mədinənin baş məscidi-Peyğəmbər məscidində dəfn olunmuşdur.

M.-in (s) vəfatı ilə icmanın Allahla birbaşa əlaqəsi kəsildi, icmaya Peyğəmbərin (s) əvəzediciləri - xəlifələr qanun, qayda, M.-in buyurduqları

və Quranda göstərilənlər əsasında rəhbərlik etməli idilər. Xəlifəlik üstündə isə mübarizə başladı, ilk xəlifə Əbubəkr oldu.

Xədicənin vəfatından sonra M. (s) müsəlman kişilərin daha çox qadınla nikah bağlaya bilməsini Quranın mətni ilə əsaslandırdı. Peyğəmbərin (s) nikahlarının çoxu siyasi xarakter daşıyıb, müxtəlif qəbilələrlə əlaqə yaratmaqdan ötrü idi. M.-in (s) vəfatından sonra onun arvadı - Əbubəkrin qızı Aişə Peyğəmbərin (s) vəsiyyətlərini yerinə yetirməyə can atan siyasi şəxsin rolunu oynamaq istədi. Peyğəmbərin (s) qibti kənizi Mariyadan çox xoşu gəlirdi, ondan onun İbrahim adlı oğlu olsa da, kiçik ikən vəfat etdi, o, Peyğəmbəri çox ağrıtdı. Rəvayətə görə M.-in (s) rəsmi olaraq 11 arvadı var idi, o, vəfat edərkən onların 9-u sağ idi.

Peyğəmbərin (s) oğlu qalmamışdı, onun oğlu (s) Qasim, yaxud İbrahim vəfat etdiyi zaman ona düşmən olan As ibn Vail Peyğəmbərə (s) sərki verib, onu sonsuz adlandıranda, Allah-Təala Kövsər surəsi ilə Peyğəmbərə (s) demişdi ki, sənin düşmənin özü sonsuzdur (Sənin nəslin Qiyamətə qədər törəyib artacaq, adına isə həmişə rəhmət oxunacaqdır). Qızı Fatimə onun əmisi oğlu və sadiq dostu Əli ibn Əbu Talibə ərə getdi. Onların oğlanları əl-Həsən və əl-Hüseyndən Peyğəmbərin (s) çoxsaylı seyyid, şərif nəsli qalmışdır.

İlahiyyatda M. (s) «kamil insanın» timsalı kimi göstərilir. İslamın əsas yollarından biri olan sünnə-Peyğəmbərin (s) həyatı və etdikləri - sonrakı müsəlmanlar üçün nümunə olmuşdur.

Avropa mədəniyyətində əvvəl M. surətini özlərinin olduqları kimi hiyləgər, qəddar, şəhvətpərəsət hesab edirdilər. Bilicilər onu dini öz rifahı üçün uyduran yalançı adlandırırdılar. Avropa alimləri isə M.-ə (s) inqilabçı, reformator, görkəmli siyasi xadim, peyğəmbər kimi baxırdılar. Marksist islamşünaslıq M.-i (s) öz peyğəmbərlik missiyasına və öz «kəşflərinin» ilahi mənşəli olduğuna ürəkdən inanan tarixi bir şəxsiyyət hesab edir.

Din və ictimai sistem kimi İslamın müəvəffəqiyyəti obyektiv və subyektiv faktorlarla təmin edilmişdir. Axırıncılar arasında aparıcı yerlərdən birini coşqun natiq, təbliğatçı-möizəçi, öz dini işinə sadiq, ağıllı və zirək siyasətçi, idealı həyatın reallığı ilə birləşdirə bilən M.-in (s) şəxsiyyəti tuturdu.

**Ədəbiyyat:** İslam, 178-182; İbn Hişam. Sirə; İbn Səd. Təbəqat, 1-2, ət-Təbəri. Tarix, 1, 1073-1845; əl-Vakidi. Məğazi; əl-Beyhəqi. Əs-Sünən əl-kubra. Heydərabad, 1344-1355 h.; İbn Kəsir. Şəmail ər-rəsul. Qahirə, 1982; Бартольд. Əsər. 6, 81-103, 630, 647; Петрушевский. Ислам, 5-29; В.Соловьев. Магомет, его жизнь и религиозное учение. СПв., 1902; A. Sprenger. Das Leben und die Lehre des Mohammad. 1-3. B.1861-1865; G. Grimme. Mohammed. Munster, 1892-1895; Caetani. Annali, P.Casanova. Mohammed et la fin du monde. P., 1911; Andrae. Ursprung; yenə o. Die

Person Mohammeds in Lehre und Glauben seiner Gemeinde. Stokcholm, 1918; Fr.Buhl. Das Leben Muhammeds. Lpz., 1930; R. Blachere. Le probleme de Mahomet. P., 1952; G.Widengren Muhammad; The Apostle of God and his Ascention. Uppsala, 1955; Guillaume. Muhammed; yenə o. New Light on the Life of Muhammad. Manchester, 1960; R.Paret. Mohammed und der Koran. Stuttgart, 1957; M.Hamidullah. Le Prophete de I'İslam. P.1959; Watt. Muhammad at Mekka; yenə o. Muhammad at Medina; yenə o. Muhammad; M.Rodinsan. Mahomet. P. 1961, 1968; yenə o. Bilan des etudes mohammadiennes.- RH.1963, 229, 169-220; F.Gabrieli, G.Walter. Mahomet. P.1965; Gaudefroy- Demombynes. Mahomet; S.Noja. Maometto profeta dellislam. Fossano, 1974; M.Lings. Muhammad: his Life based on the Earliest Sources. L. 1983; İslam, qısa məlumat kitabı, Bakı, 1985, 83-89; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 174-187; İslam, qısa məlumat kitabı, B., 1985, 83-89.

**Məhəmməd ibn Abdulla,** ən-Nəfs əz-Zəkiyyə - Əli ibn Əbu Talibin oğlu Həsənin nəticəsi. O, Əli oğullarının arzu və iddialarının həyata keçməsini gözləyirdi. Atası ona Mehdi ləqəbi vermişdi. 762-ci ilin oktyabrında M. Mədinədə Abbasilərə qarşı üsyan qaldırdı. Malik ibn Ənəsin Abbasilərə verdiyi andın qanunsuz olduğunu elan etməsi ilə şəhərin ən nüfuzlu şəxsləri də onun tərəfinə keçdilər. Məkkə də ona təslim oldu. Lakin Xilafət ordusu güc gəldi və 6 dekabrda M. şəhid oldu. Onun başını kəsib xəlifəyə göndərdilər. O, (Təmiz ruhlu) ləqəbli olsa da, xəlifə onu «Müsəvvəd» - (Qaralaşdırılmış) adlandırırdı, o, əsmər idi.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 187.

**Məhəmməd ibn Abdulla (1843-1885) -** Sudan Mehdisi, Peyğəmbər (s) və Əli ilə qohumluğunu sübut etmək üçün şəcərəsini ata tərəfdən Həsən ilə Abbasa çatdırmışdı. O, dülgər oğlu idi, çox erkən sufiliyə meyl edib, təriqət şeyxliyinədək yüksəldi. Sonra Ağ Nilin Abba adasına gedib orada məscidlə bir xəlvətxana tikdirib, ətrafına müridlər toplamağa başladı. Onun müəllimi Şeyx Məhəmməd Şərif də buraya gəldi. M. özü gözlənilən Mehdi olmaq istədiyi üçün müəllimi ilə pozuluşdu. O, «kafir türklərə» qarşı mübarizədə çoxlu tərəfdar toplayıb, 1881-ci ildə özünü Mehdi elan etdi. Dörd dəfə dövlət qoşunlarını məhv etdilər. 1885-ci ildə Sudanın mərkəzi Xartumu ingilislərdən aldılar, ingilis generalı Dordon öldürüldü. Lakin «Sudan Mehdisi» M. Əhməd özü də 1885-ci il iyunun 22-də tifdən vəfat etdi. Onun xələfi Abdulla ona Omdurmanda türbə tikdirdi və 1898-ci il ingilis generalı Kitçener oranı alana qədər Omdurman Mehdi hərəkatının mərkəzi oldu.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 188-189.

**<u>Məhəmməd əl-Baqir</u>** (ə) – Məhəmməd ibn Əli-imam əl-Hüseynin (ə) nəvəsi, dördüncü imam Zeynulabidinin oğlu, kunyəsi Əbu Cəfərdir, yəni altıncı imam Cəfərus-Sadiqin atasıdır. Dərin biliyinə görə ona («Elmin dərinliklərinə qərq olan tədqiqatçı») - əl-Baqir ləqəbi verilmişdi. Şiələr tərəfindən beşinci imam sayılır, 732-736-cı illər arasında vəfat edib.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 187.

**<u>Məhəmməd ibn Əli ər-Riza,</u>** 811-ci ilin (Ramazan) iyununda Mədinədə doğulub, qara dərili olduğu üçün Sabiqə, Dürrə, Xayzuran ləqəbi daşımış anasının nubiyalı cariyə olması ehtimalı var. Lakin şərəf ünvanı kimi ona «Misirli Məryəmin ailəsindən» ləqəbi də verilmişdi. Xəlifə əl-Məmun onu (M. ibn Əli ər-Rizanı) sarayına gətirib, 830-cu ildə qızı Ummu-l-Fəzllə evləndirir. Mötəsim taxta çıxartdığı vaxt onu Bağdada gətirdi və az sonra 835-ci ilin noyabrında imam M. İbn Əli ər-Riza orada vəfat etdi. Məlumatlara görə o, xəlifənin istəyi ilə uşaqsız qalan Ummu-l-Fəzl tərəfindən zəhərlənmişdi. Onu M. ət-Təqi (Allahdan qorxan), bəzən də, M. əl-Cavad (Comərd) ləqəbi ilə çağırırdılar.

**Ədəbiyyat.** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 187-188.

**<u>Məhəmməd ibn əl-Hənəfiyyə</u>** (637-701) Hz. Əlinin Həvladan olan oğlu. Həvla Bəni Hənifə qəbiləsindən idi, onu əsir alıb Mədinəyə gətirərək, xidmət üçün Əliyə (ə) vermişdilər. M.-də Peyğəmbər (s) qanı olmasa da, o, ailə məsələlərindən geri qalmırdı. Həsən və Hüseyn (ə.-lar) şəhid olandan sonra çoxu ona ailənin qanuni başçısı kimi baxırdı. Lakin o, Əmivilər vaxtı cərəyan edən siyasi hərəkatlara qoşulmadı.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 187.

**<u>Əl-Məhərrəm</u>** («bağlı», «qadağa qoyulmuş», «haram») - müsəlman (hicri) təqiviminin I ayının adı. İslama qədər əl-M. iki aydan (səfər I, səfər II) birincisinin - I səfərin epiteti olub, günəş ilini başlayırdı və o, payıza təsadüf edirdi, adından göründüyü kimi o, «müqəddəs» aylardan idi. Ola bilsin bu onunla bağlıdır ki, İslama qədər bu ayda həcc ziyarəti olurdu. Cahiliyyə dövründə ilk 6 ay cüt aylar- Səfər, Rabi və Cumadi idi.

Əl-M.-in I ongünlüyü uğurlu günlər sayılır. Misirdə əl-M. nikah bağlamaq üçün yaxşı vaxt sayılırdı. Bu ay sədəqə verilən aydır. Məhərrəm 30 gündür. Məhərrəmin 9-cu günü zahid şiələrin oruc tutan günüdür.

Əl-M.-in 10-cu günü-əl-Hüseynin şəhadəti gününü şiələr aşura günü kimi qeyd edirlər. 16 əl-M. Yerusəlimin qiblə olan günü, 17-si Məkkəyə «ordunun fillərlə hücumu» günü kimi tanınır, bu haqda Quranda məlumat var.

**Ədəbiyyat:** İslam, 182; Браун. Памятники, 76, 372-375; Лэйн. Нравы, 219, 334-340; Wellhausen. Skizzen, 3, 94-101; Grünebaum. Festivals, 85-94; E. H.Waugh. Muharram rites: community death and rebith-Religious encounters with death. Ed. F.E.Reynolds and E.H.Waugh. Pennsylvania, 1977. 200-213; M.Plessner, A1 Muharram.- EI, 3, 754; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 189-190.

**Məhməl (mihməl, məhmil)** – dəvənin belinə qoyulub, üzərində varlı müsafirlər, əsasən qadınlar daşınan taxt-kəcavə. M. əs-şərif və ya sadəcə M. gözəl bəzədilmiş kəcavə müqəddəs məkanlar olan Məkkə və Mədinə (əl-Hərameyn) üzərində siyasi himayənin rəmzidir. 1266-cı ildən 1952-ci ilə qədər M. müxtəlif müsəlman ölkələrinin hökmdarları tərəfindən (Misir, İraq, Suriya, Yəmən) Məkkəyə göndərilirdi.

Bu adət Məmlük sultanı Bibərsin (1260-1277) Bağdadın monqollar tərəfindən tutulmasından (1258) sonra xəlifənin bəzi üstünlüklərinə varislik etmək cəhdi ilə yarandı, o, Misir və Yəmənlə (1258-1282) Məkkəyə Kəbə örtüyü göndərməkdə rəqabət aparırdı. Bu dövlətin əzəməti ilə ölçülürdü. Bu adət bir neçə dəfə vəhhabilərin müdaxiləsilə pozulmuşdu.

Xalq arasında M. həcc mərasiminin mühüm ayinlərindən sayılırdı. O, əvvəlcə Məkkədə görkəmli yerdə qoyulur, sonra Ərafata aparılırdı.

**Ədəbiyyat:** İslam, 163-164; Лэйн. Нравы, 341-346, 374-379; (Fr.Buhl) – J.Jomier. Mahmal. – EI, NE, 6, 44-46.

**Məkkə** – müsəlmanların müqəddəs şəhəri, baş məscid – Məscidu-l-Həram əl-Kəbə ilə birlikdə, Səfa və Mərva təpələri kompleksi orada yerləşir, İslamın əsasını qoyan Məhəmmədin (s) vətəni, ərəblərin ayin (mərasim) mərkəzidir. Müsəlman rəvayətlərinə görə Hz. Adəm və Həvva, Şis, İbrahim, İsmail peyğəmbərlər (ə) və Hacərin bir müddət yaşadıqları yer. İslamın «qorunan» (əl-həram) müqəddəs yerlərindən biridir. Rəvayətlərə görə M. ardıcıl olaraq müxtəlif qədim qəbilələrlə – cürhum, huzə`a və s. ilə məskunlaşırdı. IV əsrin sonundan qüreyş qəbiləsi də orada məskunlaşdı. VI-VII əsrlərdə məskunlaşmış yerlər vadinin şimal-şərqi boyu sahəni, əl-Kəbədən 800-900 m. məsafədə yerləşirdi (Yuxarı şəhər - əl-Mə'lə) və təxminən 500 m. ondan cənub-qərbə (Aşağı şəhər - əl-Məsfələ). Mərkəzdə, əl-Kəbədən cənuba bazar var idi. Yaşayış məhəllələri böyük sahələrdən ibarət olub, divarlarla hasarlanırdı, onların içərisində qədim ailələrin evləri yerləşirdi. Bu vaxt əhalinin ümumi sayı 6-7 min idi. M.-nin xüsusi vəziyyəti – əkinləri sulamağa suyun olmaması, müqəddəs ərazidə əkinçilik və ovla məşğul olmaq qadağası və onların buradakı qəbilələr tərəfindən dinməz qəbulu qüreyşiləri ticarətlə məşğul olmağa yönəldirdi. Karvanların Suriya, İraq və Yəmənə təhlükəsiz gedib-gəlməsini təmin edən

bədəvi qəbilələr bu ticarətdən pay alırdılar. VII əsrin əvvəlinə M.-də böyük kapitala malik bir neçə onluq ailə var idi. Onlar zəvvarların təmin olunması ilə bağlı müxtəlif şərəfli vəzifələri yerinə yetirirdilər və bunun sayəsində həmqəbilələrinin gözündə nüfuz qazanırdılar.

M.-ni tərk edən (hicrət) Məhəmməd (s) Mədinədəki təzə dua-namaz evini (məscidi) əl-Kəbəyə qarşı qoymadı, hətta onun qibləsini də tikilişindən bir müddət sonra Allahın vəhyi ilə əl-Kəbəyə yönəltdi.

630-cu ildə müsəlmanlar tərəfindən M.-nin fəth edilməsi təkcə onun ayin və mərasim mərkəzi kimi olduğu xüsusi vəziyyətini bərpa etmək deyil, həm də onu yeni yüksəkliyə qaldırdı: ziyarət mərasimlərinə əl-Kəbəni təvafla yanaşı əvvəl başqa ayinə aid olan Ərafat dağına getmək də daxil oldu: M.-ni ziyarət etmək İslamın (beş) qaydalarından biri oldu.

Əməvilər vaxtı M. böyüdü və tamamilə mənzərəsini dəyişdi: birmərtəbəli evlərin yerində çoxməktəbli evlər və saraylar ucaldıldı. M.-ni idarə edən canişinlər su çənləri - dirəklər üzərində su kəmərləri çəkdirdilər, şəhərin kənarlarında bağlar əmələ gəldi. Xilafətin bütün yerindən vergi və başqa növ məsrəflər şəklində vəsaitlərin axını, habelə zəvvarlardan gələn gəlir məkkəliləri müsəlmanların imtiyazlı (üstün) qrupuna çevirdi.

M.-də məkkəlilərin özlərinin müsəlman hüquqşünas və hədis məktəbləri yarandı, onların xüsusi əhəmiyyəti vardı, çünki heç olmasa ömründə bir dəfə bütün müsəlman alimləri Məkkədə olmuş, çoxları isə orada bir neçə il yaşamışdılar.

XIX əsrə qədər M.-ni Qərbi Ərəbistanda hökmranlıq edən dövlətlərin canişinləri idarə edirdilər, lakin şəhərin daxili həyatında həlledici rolu şəriflər oynayırdılar. 1802-ci ildə M. vəhhabilər tərəfindən zəbt edildi və onlar bir neçə il orada qaldılar. 1926-cı ildə M.-də İbn Səud taxta çıxdı.

Bütöv 14 əsr müddətində M. başqa din sahibləri üçün bağlı şəhər sayılır, lakin XVIII əsrdən başlayaraq ayrı-ayrı Avropa tədqiqatçıları müsəlman zəvvarları adı altında hiylə ilə oraya daxil olmuşlar, onların şəhəri təsvir etməsi, XVIII-XIX əsrlər M.-si haqqında məlumatlar (guya) daha obyektiv mənbələrdir. XX əsrə qədər M. demək olar ki, Abbasilər vaxtında tutduğu ərazi qədər yer tutub, 50 minə qədər daimi əhalisi var idi. Hazırda M. böyümüş, xarici aləmlə şosse yolları şəbəkəsi ilə əlaqədədir, müasir hava limanı vardır, əhalisi təxminən 1,5 mln. nəfərdir.

**Ədəbiyyat:** İslam, 152-153; Wüstenfeld. Die Chroniken; Snock-Hurgronje. Mekka; H.Lammens, A.J. Wensick. Mecca. – EI, 3, 437-448.

**Məkruh («qəbuledilməz», «ikrah olunmuş», «yararsız»)** – şəriət hüquqi qaydaların pozulması deyil, onlar tərəfindən mənəvi cəhətdən pislənilən hərəkətlər və əməllər kateqoriyası. M. haqqında məsələni fiqhin ehkam bölməsi şərh edir. Meydan oxuyan hərəkət, dini borcları yerinə

yetirərkən etinasızlıq, simiclik, qəddarlıq - xüsusilə də, asılı olan adamlara qarşı, gen-bolluq və israfçılığa meyllik, ailə və ictimai borclara etinasızlıq, bir sıra qohumlara başqalarına nisbətən haqsız üstünlük vermək – xüsusilə də əmlak payı ayıranda, başqa dində olan qadın və kiçik yaşlı qızla evlənmək və s. M. kimi qiymətləndirilir. Məzhəblərdən asılı olaraq M.-a bəzi yemək və içki növləri aiddir, əslində onlar qadağan olmalıdırlar – bu pəy də islam qanunlarına ziddir (içalatdan və qandan yemək, kumıs, pivə, bəzi hallarda şərab və s.). M. kateqoriyası İslam əxlaqının təşkil olunmasında və icazə verilən əməllər (halal) və qadağalar (haram) arasındakı keçici zonanın yaranmasında mühüm yer tutur.

**Ədəbiyyat:** İslam, 153; əl-Həkim. Əl-Üsul, 65; Vesey-Fitzgerald. Nature, 98-99; Schacht. Introduction, 121; yenə o. Ahkam. – EI, NE, 1, 257; yenə o. Shari`a. EI, 3, 322;

**Məktəb (ərəbcə, farsca, türkcə mekteb)** – yazı yazılan yer, ibtidai məktəb, yazı stolu, kabinet, kontora, büro, tribuna, kürsü. İbtidai (Quran) məktəbini bildirən M. istilahı kuttabın sinonimi kimi istifadə olunurdu; düzdür, belə hal da olub ki, (Nişapur, XI əsr) M.-də 5 il adi dərs keçilib, kuttabda isə qalan 10 il. XVIII-XX əsrlərdə M. sözü ən çox Osmanlı Türkiyədə, Povoljyedə, Krım, Orta Asiyada, Azərbaycanda işlənirdi, ərəb ölkələrində isə onu başqa istilah - küttab və s. əvəz edirdi.

**Ədəbiyyat:** İslam, 153; Бартольд. Əsər., 2/1, 297-318; Maqdisi. Rise, 19, 34, 83.

**Məqam (cəmi məqāmāt)** – sufi istilahı olub, «sufi yolda» (ət-tariq) «dayanacaq» deməkdir. Müqəddəs şəxslərin –peyğəmbərlər, imamlar, övliyalar və s. –lərin olduqları yer də M.-dır. Sufi «halından» fərqli olaraq (hansı ki, sufiyə onun istəyindən asılı olmayaraq Allah tərəfindən bağışlanır), sufi hər hansı «məqama» çatmaq üçün daim özünü kamilləşdirməyi, özünə nəzarət etməyi və onun üçün xarakterik olan bütün qanun və qadağalara dinməz surətdə riayət etməyi bacarmalıdır. Ancaq əvvəlki «məqamın» tələblərinin tam yerinə yetirilməsi sufiyə sonrakı məqama çatmağa zəmanət verir. Aşağı M.-da qazanılan xeyirxahlıq və keyfiyyət yüksək M.-larda da saxlanılır, baxmayaraq ki, bir «hal» adətən başqasını «rədd edir».

«Halların» daha axıcı və subyektiv təsvirləri ilə müqayisəyə görə «məqamların» təsnifatı daha müəyyən olunmuş xüsusiyyət daşıyır. Əs-Sərrac yeddi «klassik» M. saymışdır: «tövbə», «kasıblıq» (fərq), «cəbr», «razılıq» (rida), «Allahdan qorxma» (vara′), «çəkinmə», «özünüsaxlama» (zühd), «Allaha təvəkkül». Sonra bu sxemin xırdalanma prosesi müşahidə olunur. Əl-Qalabazi – 17, Əbu Səid Meyhani – 40, Abdulla əl-Ənsari – 100

«M.» saymışlar. İki sonuncu müəllifin təsnifatında sayılan «M.-lar» başqa sistemlərdə «hallar» şöbəsində verilir: qürb, fəna, raca′ və s.

Sufi müdrikləri hesab edirdilər ki, müəyyən M.-a çatmış sufinin dedikləri və etdikləri adi adamlar üçün mümkün deyil. Müsəlman sufilərinin çoxlu ekstatik deyimləri (şathiyyət) bununla aydınlaşdırılır.

«M.-ların» təsviri və ya xatırlanması olmadan demək olar ki, bir sufi əsəri keçinmirdi. M.-ın sinonimi məna cəhətcə ona yaxın olan və gec-gec işlənən istilah mənzil (ə) – «dayanacaq», «pillə» idi.

**Ədəbiyyat:** İslam, 152; hal məqaləsi ədəbiyyatına və Nwyia. Exegese, Indexə bax;

**Məqsurə – («ayrılmış», «qorunmuş»)** – bəzəkli taxta şəbəkə və ya ümumiyyətlə, şəbəkə ilə ayrılmış yer (pavilyon) - şəhərdə mərkəzi məsciddə mehrab və minbərin yanında olub xəlifə, hökmdar və ya başqa yüksək rütbəli şəxslər üçün təyin edilərək, onları kütlədən ayırmaq üçündür. Onun həyata keçirilməsini Müaviyə (661-680) ilə bağlayırlar, o, özünü sui-qəsdlərdən təhlükəsiz etmək istəyirdi, çünki bir neçə bayram namazlarında (hakimiyyəti hiyləgərliklə qəsb etdiyi üçün) qarışıqlıqda onu öldürmək istəmişdilər; VII əsrin sonu – VIII əsrin əvvəlində M. böyük canişinliklərin mərkəzlərində də meydana gəlir, sonra isə böyük inzibati mərkəzlərin bütün came məscidlərində yayılır. Tədricən bu istilahın istifadəsi də dəyişir, onunla məsciddə hər hansı bir ayrılan, qorunan yeri (məsələn, qadınların namaz qalıdıqları balkonu və xəzinənin saxlandığı pavilyonu) də adlandır-mağa başlayırlar. Son dövrlərdə təzə tikilən məscidlərdə M. adətən olmur.

**Ədəbiyyat:** İslam, 153; J.Pedersen, R.Kern, E.Dier. Masdjid. – EI, 3, 394-395.

**Məlaikə (təki mələk)** – mələklər, Allah tərəfindən yaradılmış üç ağıllı mövcudatlar kateqoriyalarından biri (o biri ikisi-insanlar və cinlərdir). Bunlar Allahın «elçiləri», «göndərdikləri» və qullarıdır, Onun iradəsini, qərarlarını və əməllərini yerinə yetirənlərdirlər, yəhudilik, xristianlıq və islamda Allahın səmavi xadimləridirlər. Qurana görə (7:12/11) onlar (M.) «oddan» yaranmışlar, hədislərə görə isə – işıqdan. Onlar üçün cins tətbiq edilə bilməz, ancaq bəzi hallarda onlar qadın və ya kişi kimi görünə bilirlər (Harut və Marut). M. göylərdə yaşayıb, Cənnəti qoruyurlar, Allahın taxt-tacını əhatə edirlər, Onu tərif edən mahnılar oxuyurlar (39:75; 40:7-9). Onlar «möminlərə» nazil olurlar (41:30), insanları qoruyurlar, Allahın sözünü peyğəmbərlərə çatdırırlar (15:7-8; 16:2), insanların işlərinə nəzarət edirlər, onların etdiklərini və onları hansı taleyin gözlədiklərini qeyd edirlər (43:80). M. ölüm məhkəməsinin bütün mərhələlərinin (16:28/30; 25:22/24;

37:1-3; 69:17; 78:38; 89:22/23) və cəzaların (47:27/29) iştirakçısıdırlar, Cənnət və Cəhənnəmin qoruyucularıdırlar.

Quran M.-in bir neçə kateqoriyalarını ayırır. Onlardan ən alisi Allahın taxt-tacının yanında olan «müqərrəbun» («yaxınlar»dırlar 4:172/170). Rəvayətə görə Allahla Məhəmməd peyğəmbər (s) arasında baş vasitəçi, habelə İsa ilə Məryəm arasında (2:97/91-98/92; 66:4; 5:110/109; 19:17) olan Cəbrail ali M.-yə aiddir. Onunla yanaşı Mikail (2:98/92) durur. Quranda adı qeyd edilməyən İsrafil də Allaha yaxındır, lakin ənənəyə görə o, Cəbrail göndəriləna qədər Məhəmmədin (s) birinci sirdaşı (sputnik) sayılır. «Kobud və güclü M.» Cəhənnəmi qoruyurlar və zəbaniyyə (keşikçi) adlanırlar, onların sayı onikidir (66:6; 74:30-31; 96:18). Cəhənnəmin keşikçilərinin başçısının adı Malikdir (43:77). «Ölüm mələki» - mələkul-movt (32:11) rəvayətdə Əzrail adını almışdır. Qurandansonrakı rəvayətlərdə ölüləri qəbirdə sorğu-sual edən iki mələkin adı meydana gəlmişdir – Nəkir və Münkər. Tədricən M.-in iyerarxiyası ətraflı işlənib hazırlandı ki, bu da onları müxtəlif səmalarda yerləşdirdi.

M. insana qədər yaradılmışlar və onlar Allahı Adəmi (ə) yaratmaqdan imtina etməyə çalışdılar. Allah onu yaradandan sonra mələklərin hamısını insanın qabağında təzim etməyə məcbur etdi, hamı baş əysə də, İblis əymədi (2:29/27-34/32) və buna görə də göylərdən endirildi və Hökm (Qiyamət) günündən sonra Cəhənnəm əzabına düçar olacaq. Bu dünyada Hökm gününə qədər yer üzündə Dünya tamahları qarşısında tab gətirməyən daha iki mələk-Harut və Marut əzaba düçar oldular.

«Düşgün» (rəzil) M.-lərin mövcudluğu məsələsi M. ilə bağlı əsas ilahiyyat problemlərindən birini ortaya qoydu. O, həmişə və hər yerdə Allaha tabe olub, ancaq onun əmrlərini yerinə yetirən M.-in «günahsızlığına» ziddir. Bu əksliyi aradan qaldırmaq üçün ilahiyyatçılar hərdən İblisi M.-in siyahısından çıxardır və ya «düşgün» M.-in günahlarına haqq qazandırmağa və ya onu ört-basdır etməyə çalışırdılar. İlahiyyatın digər problemi – «kim yüksəkdir» problemidir: mələk «elçilər» və ya «elçi» peyğəmbərlər - insanlar. Quran mətnlərinə əsaslanan nöqteyi-nəzərdən birinə görə, xüsusilə M.-in insanlara baş əyməsindən danışanlara görə M.-i insanlardan aşağı hesab edirdilər. Başqaları – «fəlsəfi» düşüncələrə əsaslanaraq M.-in maddi olmadıqları, möcüzə yarada bildikləri, keçmiş və gələcəyi bildikləri üçün M.-ləri insanlardan üstün tuturdular.

Qurandansonrakı ilahiyyat və məişət İslamının xüsusi xəttinə görə hər bir insanı iki mələk müşayiət edir (müq. et. 50:17/16), ona kömək edir, onun əməllərinin hesabatını aparır və onun ruhu üstündə Şeytanla mübarizə aparırlar.

M. haqqında Quran baxışları qnostiklər, zərdüştilər, yəhudilər və xristianların səmavi iyerarxiyası haqqında yayılmış baxışlara gedib çıxır.

M.-in xüsusi adlarının Quranda az olmasını bəzən onlardan baş əymək mövqeyi (obyekti) etməməyə (müq. et. 3:80/74; 34:40/39; 43/19/18; 53:26) bilərəkdən cəhd etmək ilə izah edilir. Müsəlman M. elmi Quranın uyğun gələn yerlərinin şərh edilməsində müəyyən dərəcədə xristianların təsiri altında idi. M. elmi əs-Söhrəverdinin, İbn Ərəbinin və başqa şafeilərin təlimlərində mühüm rol oynamışdır.

**Ədəbiyyat:** İslam, 153-154; ət-Təbəri. Təfsir, 1, 155, 160-161; əl-Qəzvini. Əcaib, 55-63; əl-Beydavi. Təfsir, 1, 47, 51-52; Lisan əl-ərəb, 12, 387; Tac əl-ərus, 7, 182; Eickmann. Die Anglelogie. Eichler. Die Dsclinn. Gaudefroy – Demombynes. Mahomet, 279-283; Wansbrough. Studies, 30-31; Beltz. Sehnsucht, 151-156; D.B.Machdonald. Malaika. – EI, 3, 209-212; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 190.

**Əl-Məlamətiyyə («qınaq əhli»)** - Nişapur tərkidünyalıq sufiliyi məktəbi çərçivəsində IX əsrdə Xorasanda yaranan sufi-zahidlik hərəkatı. Əl-M. təliminin əsas məsələləri əl-Mühasibinin (vəf. 857) təsirini öz üzərində sınaqdan keçirən (hiss edən) Həmdun əl-Qəssar tərəfindən hazırlanmışdır. Öz əməklərini buraya Əbu Hafs Əmr (Ömər) ən-Neysəburi əl-Həddad (vəf. 877 və 881) və Səid əl-Hiri əl-Va'uz (vəf. 911) sərf etmişlər. Əs-Süləmiyə (vəf. 1021) görə İraq sufi məktəbinin əl-Müsahibi, Əbu Yəzid əl-Bistami və Səhl ət-Tüstəri kimi nümayəndələrinin baxışları əl-M. təliminin hazırlanmasında öz rolunu oynamışdır. Bütövlükdə hərəkatın vahid təşkil olunmuş strukturası yox idi və o, azad yerli dərnəklər şəklində fəaliyyət göstərirdi. Nişapurda yaranan əl-M. qərbə-İraq və Suriyaya və şərqə-Məvaraənnəhr və Türkistana yayıldı. Əl-M. bütün hərəkat üçün vahid təlim hazırlamamışdı. Oxşar sufilik məktəbləri kimi o, bir neçə cərəyanlardan ibarət olub, biri o birindən yüksək sayılırdı. Əs-Süləmi onlarda yüksək rütbəli - «seçilmiş» (əl-xəvass) sufiləri görürdü. Əl-Hücviri əl-M.-ni sufi məktəbi hesab etməyib, onların bir çox vəziyyətlərinin sufilərinkinə oxşadığını qeyd edirdi. Hərəkatın tərəfdarlarının işlərindəki düzlük onda şübhə doğurmurdu, lakin onların «ikiüzlülük haqqında təlimini» o, tam zahiri adlandırırdı. Ömər əs-Söhrəverdi hesab edirdi ki, əl-M. Allaha öz münasibətlərində düzlük və səmimiliyə əsaslanan sufiliyin xüsusi cərəyanıdır. Cami (1414-1492) əl-M. tərəfdarlarını həqiqi sufilərdən fərqləndirirdi, çünki onlar öz əməllərinə görə səmimi (müxlis) olmuşdular, Allahın mərhəmətinə görə yox.

Əl-M. təliminin əsasında Allah qarşısında insan şəxsiyyətinin tam heçnəlik ehkamı durur. Əl-M. bu əsasda Qurana söykənirdi (5:54/59). Allaha yaxınlaşmağı nəzərdə tutan özünükamilləşdirməyə cəhddə insan dünyəvi, təkəbbür motivlərinə əsaslana bilməz. Ona görə də əl-M. ardıcılı öz ürəyi və fikirlərini Dünya hərisliyindən hələ bu Dünyada təmizləməlidir:

Peyğəmbərin (s) sünnəsinə ciddi riayət etməli, öz sufi-zühdi təmrinlərindəki müvəffəqiyyətləri aşkarlamamaq, onları hətta dostlarına da deməməli (şeyx-rəhbərdən başqa) və s. Əl-M.-nin tərəfdarları sufilərin təvəkkül («tam Allah rəhminə ümid etmək») haqqındakı hallarını rədd edir, həyat üçün vacib olan vəsaiti öz zəhmətilə qazanmağı zəruri hesab edirdilər. Onlar özləri və ailələri üçün lazım olan qədər işləyir, qalan vaxt isə özlərinə çəkilir, «mənəmlə» mübarizə aparırdılar. Onların əsas məqsədi – Allaha yaxınlaşmaqdı, cəmiyyətin onların bu üsulunu mühakimə etməsi onlar üçün qorxulu deyildi. Buradan da hərəkatın adı irəli gəlir: M. – mühakimə, məzəmmət olunan adam deməkdir. O, dini qaydalara əks hərəkəti və cəmiyyət qanunlarını pozması ilə qələndəriyyəyə oxşayır, öz «sakit» cəmiyyətində yaşayırdı. Elə bunun özündə də M. hərəkatının ictimai təhlükəsi gizlənirdi.

Əl-M.-nin dünyagörüş çərçivəsi çox geniş idi, bu baxışlı adam hər hansı qrup və ya məktəbə aid ola bilərdi (yenilikçilərdən tutmuş qələndəriyyələrə qədər), ən əsası isə onların təlimi sufilər və şəhər sənətkarlarının maraqlarına cavab verirdi. Vaxt keçdikcə əl-M. əhəmiyyətini və tərəfdarlarını itirdi. Əl-M. təliminin bəzi təsiri nəqşbəndiyyənin onbir əsas prinsipindən birində izlənilir, onlar onu xacəqan məktəbindən götürmüşlər – xəlvət, dar əncüman («cəmiyyətdə olaraq təklikdə olmaq»).

**Ədəbiyyat:** İslam, 155-156; əs-Süləmi. Təbəqat, 20-21 (sözönü), 106-119 (mətn); əl-Hücviri. Kəşf, 68-78; yenə o. Kashf, 62-69; Awarif əl-məarif, 81-84; Djami. Nafahat, 8-9, 67-68; Бертельс. Суфизм, 31; Петрушевский. Ислам 321; Zərrinqub. Ərziş, 106-110; Hartmann. Risalat, 168; Trimingham. Orders, app. B. Schimmel. Dimensions, 86-87.

**Mələkut** – ali ilahi hökmdarlıq, Allahın ideya və qərarlarının ali dünyası, onun ilahi sirri (əsrar). Quranda aramey mənşəli M. istilahı Allahın ali hökmranlığı mənasında işlənir, o, iyerarxiya cəhətcə adi, yer hökmranlığı – mülkə əks qoyulur (6:75; 7:185/184; 23:88/90; 36:83). M. adətən Cəbərut - (ilahi əzəmət) haqqında baxışla bağlıdır, d.d., birbaşa Allahın yaxınlığında olan «ali» Dünya sferalarından biri ilə bağlıdır. M. və Cəbərut insan hissləri üçün əlçatmazdır, lakin bu, cismi olaraq «aşağı» maddı dünyada əks olunur. Onlar bəşəri dünyaya xas olmayan kamillik və daimiliyə malikdirlər, hazırkı və gələcək həyat haqqında bilikləri özlərində cəmləyirlər. Aləm əl-M. (M. dünyası) və M. adətən sinonim kimi işlənilir. Cəbərut adətən M.-la mülk arasında orta vəziyyət tutur və M.-un ideyalarının mülkdə həyata keçməsində araçı rolunu oynayır.

M., Cəbərut və mülk istilahlarını Əflatunun triadasının hissələrini bildirmək üçün istifadə etməyə başladılar: Ağıl-Can-maddi varlıq. Əl-Fərabi, Əbu Talib, əl-Məkki və İbn Sinada bu sözlər çoxsaylı sinonimlərlə

yanaşı işlənirdi. M. ilk ağıla (əl-aql əl-əvvəl), Müqəddəs ruha (ruh əl-qudus), Cəbərut Ümumi və ya Dünya nəfsinə (ən-nəfs əl-kulliyyə), İlahi əmrə (əl-əmr) və s. uyğun gəlirdi. Bu və başqa müəlliflərdə M. bəzən Cəbərutun sinonimi və ya əksinə olur; onlar arasında dəqiq istilah mənaları yoxdur.

Dünyaların ən yaxşı qarşılıqlı münasibətlərinin formasını əl-Qəzali vermişdir. O, varlığı üç səviyyədə vermişdir: M.-ideal varlıqlar-arxetiplərin (cəvahir, məani) dünyasıdır, əl-Qəzalinin triadasına yeniəflatunçuların vahidlik (Yeganəlik) iyerarxiya «nurlanmasını» (fayd) göstərməyə cəhd kimi də baxmaq olar.

Əl-Qəzalidən fərqli olaraq Şeyxü-l-işraq əs-Söhrəverdi M. və Cəbərut arasındakı əlaqələrdən ətraflı danışmamışdır; onun üçün onlar, görünür bir reallığın bərabər hüquqlu aspektləri idilər, deməli «nur varlıqlarının» (zəvat nuraniyyə) sahəsi – M. və hər şeyi əhatə edən ilahi iradə – Cəbərut idilər.

İbn Ərəbi başqa sufi filosofları kimi M. və Cəbərut istilahlarından çox istifadə edirdi, özü də Cəbərutu bəzi hallarda o, ilahi mahiyyətin zühur sahəsi kimi adlar və atributlar şəklində M.-dan yüksəkdə qoyurdu. Onun «vəhdət əl-vücud» təlimində yuxarıdakı istilahlarla «iştirak etmə» (hadarat) və ya Quran istilahları olan kəlam, lövh, ərş və s. ilə adlanan ilahi reallığının manifestasiyasının müxtəlif mərhələləri adlanırdılar. İbn Ərəbinin təlimində böyük rolu əl-Qəzalinin Cəbərutuna uyğun gələn «ortalıq» (keçid) dünya (əl-bərzəx, aləm əl-misal) oynayırdı. İbn Ərəbidə «Keçid» dünyası vahid Reallığın iki əks tərəfli xassəsinə malikdir və eyni zamanda transsendent və maddidir. «Mikrokosmik» səviyyədə «keçid» dünyası insandır.

M., Cəbərut və mülk istilahlarına tez-tez Qurana yazılan orta əsr şərhlərində, sünnilərin, şiələrin və sufilərin ilahiyyatçı əsərlərində rast gəlinir. Onların işlənilməsinin müxtəlifliyinə baxmayaraq, onların əsas mənası bir qayda olaraq dəyişməz qalmışdır.

**Ədəbiyyat:** İslam, 154-155; Kitab mişkat əl-ənvar li-l-imam hüccət əl-islam əl-Qəzali, Misir, 1322 h., 28-29; ал-Газали. Воскрешение, 298-203; əs-Söhrəverdi. Məcmuə, 1, 453; əl-Kaşani. İstilahat, 106; əl-Cürcani. Ət-tərifat, 156-157; İbn Ərəbi, Fusus, 1, 213-214; Speyer. Erzählungen, 166; Wensinck. On the relation; Paret. Kommentar, 144-145; Cramlich. Derwischorden, 2, 34-43; L.Gardet. `Alam. – EI, NE, 1, 360-362.

**Məmlük (məmlük, malik olunmuş)** – qul, abdın sinonimi, lakin ondan fərqli olaraq heç vaxt məcazi mənada işlənmir (məs: «Allahqulu» kimi). Əvvəllər M. doğulmuş quldan fərqli olaraq alınmış qul idi. Quranda ona bir dəfə qul M. formasında (16:75/77) rast gəlinir. Hədislərdə o, qullara

mərhəmətli münasibətə çağıran nəsihətlərdə işlənilir. Müsəlman hüququnda M. xüsusi kateqoriya kimi yoxdur.

Orduda xidmət edib, çox vaxt yüksək hərbi rütbələr və azadlıq almış qul-döyüşçüləri M.-lər adlandırırdılar.

M.-lər əsasən ərəblərin Zaqafqaziya ölkələrinə hücumları vaxtı əsir aldıqları gənclərdən hazırlanırdı. Onlar çox cəsur, cəngavər və döyüşkən olurdular.

IX əsrdən sinonim kimi qulam (gənc, döyüşçü qul) sözü işlənməyə başladı, lakin bu adətən ağ dərili qulamlara aid edilirdi: XII-XIII əsrlərdə Suriya və Misirdə bu istilahı sıxışdırıb aradan çıxarırlar. Əyyubi M. əmirləri 1250-ci ildə Misirdə hakimiyyəti ələ aldılar və XIV əsrin ortalarınadək formal olaraq Abbasi nəslindən olan xəlifələrin əmirləri hesab edilirdilər, sonra isə tamamilə azad (asılı olmayan) hökmdarlar oldular. 1250-1290-cı illərdə hökmranlıq edən sultanlar Bəhri M. sülaləsinə aiddirlər; Bürci M.-ləri (1382-1517) onlarla qohumluq əlaqəsi ilə bağlı deyildilər, onlar ancaq bir qrupa aid idilər. Bütün bu müddət ərzində qulluqdan (quldan) gələn sultanlar öz M. ordularını türklər və qafqazlılarla doldururdular.

Misirin (1517-ci ildə) Osmanlılar tərəfindən fəthindən sonra M.-lər ölkənin hərbi-feodal yuxarı təbəqəsinə çevrildilər; İstanbuldan təyin olunmuş paşa Misiri M. əmirlər şurasının köməyi ilə idarə edirdi. 1805-1811-ci illərdə türk hərbi rəisi (alban) Məhəmmədəli Qahirədə bütün M.-lərin yuxarı təbəqəsini qırdı.

**Ədəbiyyat:** İslam, 157; Семёнова. Салах ад-дин; A.J.Wensinck. Mamluk. – EI, 3, 216; M.Sobernheim, J.H.Kramers. Mamluks. – EI, 3, 216-221.

**Mənar** - «od yandırılan yer, mayak»; həm də mi`zənə və ya mə`zənə» - «azan verilən yer», «minarə və somiyə», «zahidin hücrəsi» - məsciddə minarə, qüllə, oradan azan verirlər. Əslində mənar - üstündə od yandırılan, tüstü qoyulan (düşmənin hücumunu xəbər vermək üçün) hündür qaladır (məs: Mərdəkan qalaları, Qız qalaları və s.). Ola bilsin oxşarlıqca xristian zəng qüllələrində də belə bir mahiyyət var. İlk M.-ların Müaviyənin əmrilə Bəsrə və Fustatda tikilmələri haqqında məlumat hələ öz təsdiqini tapmayıb. Dövrümüzə qədər gəlib çıxmış ilk dəqiq M. Dəməşqdə Əməvi məscidinin cənub-qərb tərəfində üçkünc bürcdür (yuxarı hissəsi XV əsrdə tikilmişdir); o, məscidlə birlikdə h. I əsrdə tikilmiş Temenosun divarı ilə bir qurğudadır, buna görə də demək olmaz ki, bu və ya o birilər azan vermək üçün istifadə olunmuşdur. Hər halda aparılan qazıntılar göstərdi ki, VII əsrin son illərində Vasitdə tikilən came məscidinin, eləcə də Əməvi dövrü məscidlərinin heç birində M. olmamışdır.

İlk məxsusi tikilən M. IX əsrin ortalarına aiddir (Səmərra, Fustatda İbn Tulun məscidi, Qayruanda Sidi Uqbə məscidi). XIII əsrə qədər məsciddə ancaq bir M. (minarə) olurdu və adətən ondan (binadan) ayrı qurulurdu, istisna ancaq Məkkə məscidində idi, onun dörd M.-ı var idi (Bizcə bunlar artıq minarə olub, həm də bəzək rolunu oynayırdılar). XIV əsrdə İran və Orta Asiyada məscidin portalında və ya künclərində simmetrik olaraq qoşa M. tikilir, sonra bu Misir və Yəmənə də yayılır. Və artıq bu tikililər məhz məscidə aid olub, azan vermək üçün istifadə olunur və minarə adlanırdı.

M.-ın forması yerli arxitektorlar (memarlar) tərəfindən seçilirdi və çox möhkəm olurdu: müsəlman aləminin qərb hissəsində, Suriyadan tutmuş Pireney yarımadasınadək M. kvadrat formasında olub, bir ölçüdə və bir-birindən bir az kiçik və ya böyük olurdular, ancaq məmlüklər vaxtı Misirdə M.-ın hündürlüyü artır, kvadrat özül səkkizguşə və ya dairə ilə uyğunlaşır. Əvvəl alçaq olan M. sonradan ucalıb iki və üçyaruslu oldu. Kiçik Asiyada osmanlılar vaxtı hündür, nazik, şiş uclu M. meydana gəlir ki, bu da bütün Osmanlı imperiyasına yayılır. Yenidənqurma nəticəsində Suriya və Misirin çoxlu M.-ı bir neçə üslubun ecazkar birləşməsini təqdim edirlər. Müasir dövrdə M.-ın memarlıq formaları çox müxtəlifdir: ənənəvi yerli formadan tutmuş müasir planların ən mümkün olan variantlarınadək.

**Ədəbiyyat:** İslam, 157; J.Pedersen, R.A.Kern, E.Diez. Masdjid. – EI, 3, 378-389.

**<u>Mənāsik</u>** - (təki mənsək; nəsəkədən olub «təmizləmək», «ağartmaq», «möminliklə məşğul olmaq» deməkdir. 1. Həcc zamanı yerinə yetirilən ayinlər. Quranda M. istilahı əsasən Mədinə surələrində işlədilir və həcci yerinə yetirərkən konkret göstərişlərdən ibarətdir (məs: 2:200/196, 22:34/35 – mənsək görünür qurbankəsmə ayini – mərasimidir: müq. et. 2:196/192, orada eyniköklü istilah-nusuk- günahı təmizləmək üçün qurban verilməsi mənasını verir).

Bir çox hallarda (məs: Q. 6:162/163) M. istilahı daha çox geniş mənada işlədilir və gündəlik şeylərdən fərqli olaraq, müqəddəs aylarla bağlı sakral əməlləri ifadə edir. Bu mənada M. dinin ən mühüm elementlərindən, onun mərasim aspektlərindən biridir. Qurana görə (bax: məs., 22/34/35, 2:128/122) hər bir dini icmanın (ümmət) başqalarından fərqli olaraq özlərinin dini mərasimləri – M. vardır. O, onlara Allah tərəfindən verilmişdir (bax: əl-hacc).

2. M. - dini məraismlərin yerinə yetirildiyi yer. İslamaqədərki vaxtlarda Məhəmmədin (s) qəbiləsi qüreyşilərin belə yerlərindən biri – Məkkə yaxınlığında olan Hirə dağıdır. Mina vadisində hacc vaxtı qurban kəsilən yer də belə adlanır.

3. M. - haccı yerinə yetirənlər üçün təlimat-müsəlman ölkələrində rəsmi idarələr tərəfindən nəşr edilir.

**Ədəbiyyat:** İslam, 157; Grünebaum. Festivals, 15-50; Denny. Ummah, 62-65; A.J.Wensinck, I.Jomier, B.Lewis. Hadjdj. – EI, NE, 3, 31-38.

**Mənat** – Taqiyə – «hökmdar qadın», eləcə də Lat ləqəbli, xüsusilə də Nabatiyyə, Suriya və Hicazda hörmətlə sayılan qədim ərəb qadın ilahəsi: görünür o, tale və ölüm İlahəsi imiş. Onun bütlü, qara qaya parçalı məbədi Məkkədən Yəsribə gedən yolun üstündə, Kudeyddə, Müşəlləl adlı bir təpənin yanında idi. M.-ı xüsusilə Yəsrib qəbilələri - övs və xəzrəc hörmətlə sayırdılar, onlar onun məbədini Məkkədəki əl-Kəbənin ziyarəti ilə birləşdirirdilər. M. Ərəbistanın ən qədim ilahələrindən biri sayılırdı və çoxlu teofor adları qrupuna daxil idi. Ərəbcə qismət, qədər, ölüm qədəri mənaları verir. Buna görə də M.-ı ölüm ilahəsi hesab etmək olar.

M. Məkkədə əl-Lat və əl-Üzzə ilə yanaşı qadın ilahələr üçlüyündən biridir. Onlar qədim Ərəbistanda hamısı Allahın qızları hesab edilirdilər. Şərh kimi səhv qəbul edilmiş, guya Şeytan tərəfindən Məhəmmədə (s) təlqin edilmiş təbirlərdə M. və iki başqa ilahə real qəbul edilərək «səma quşları» adlandırılmışdılar. Sonra isə M.-ın və başqa ilahələrin mövcudluğunu rədd edən ayələr nazil edildi. Orada M. xüsusi qeyd edilir: «Siz əl-Lat və əl-Üzzəni, üçüncü başqası Mənatı gördünüzmü?!» (Q. 53:19-20).

Kudeyddəki M. məbədi 630-631-ci ildə Məhəmmədin (s) əmri ilə dağıdıldı.

**Ədəbiyyat:** İslam, 157-158; İbn əl-Kəlbi. Əl-Əsnam. 13-15; ət-Təbəri. Tarix, 1, 1192-1996; yenə o. Təfsir, 27, 34-37; Yaqut. Mücəm, 1, 236, 4, 652-654; əl-Beydavi. Təfsir, 2, 213; Лундик. «Дочери бога»; yenə o. Манат. – MNM, 2, 98; W.Caskel. Das Schicksal in der altarabischen Poesie. Lpz., 1926; Wellhausen, 3, 25-27; Fand. Le pantheon, 123-126; Gaudefroy – Demombynes. Mahomet, 49-52, 103; Fr.Buhl. Manat. – EI, 3, 251-252; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 190.

**Mənbər (minbər, mimbər)** – məsciddə, mehrabdan sağ tərəfdə duran, möizəçinin oturduğu hündür taxt. İlk M. 628-629-cu illərdə Məhəmməd peyğəmbərin (s), üzərində möizə etdiyi iki pilləli hündür oturacaq idi. Bu M.-i üç xəlifə istifadə etmişdir, Əli (ə) Kufədə əsaslanandan sonra orda da bir M. yarandı, birini də Müaviyə Dəməşqdə hazırlatdı (Kufə məscidindəki M. mərmərdən olub, pillə şəkillidir. Hz. Nuhun orada məqamı da var). Əməvilər sülaləsinin sonuna qədər M. taxt-tac kimi hökmranlığın rəmzi əhəmiyyətini saxlamışdı. Ayaq üstə durub möizə edən üçün M. – kafedra

748-ci ildə Mərvdə Əbu Müslümün qələbəsindən sonra meydana gəldi, bu vaxtdan o, (M.) siyasi hakimiyyətin rəmzi olmağı tərk etdi.

IX əsrdən M. yuxarısı örtülü, pilləkənli hündür taxta tribuna şəklini aldı, onun üzü namaz qılanlara tərəf olurdu. Belə M.-in ən qədim nümunəsi IX-X əsrlər Qayruan məscidindədir. M.-lər oyma bəzəklər, fil sümüyü, bahalı ağac növündən, hətta daş-qaşlarla bəzədilirdi. Daşdan olan M. isə Hindistanda yayılmışdır.

X əsr coğrafi ədəbiyyatda M. həm də «came məscidi» və «came məscidli şəhər» mənasında istifadə edilirdi.

**Ədəbiyyat:** İslam, 165; E.Diez. Minbar. – EI, 3, 575-577.

**Məndub («zəmanət verilmiş»)** – fiqhdə əmr olunmayan və ya icbari olmayan, lakin həyata keçirilməsi ətrafdakılar tərəfindən yüksək qiymətləndirilən əməllər və hərəkətlər. Bütün bunlar əliaçıqlıq, rəhmdillilik, möminlik, dini çalışqanlıq və s.-dir, bu da təyin olunmuş ehsandan (sədəqədən) çox paylamaq, qurbankəsmə, borcların bağışlanması, qulların azad edilməsi, əsirlərin pulla alınması, iddiadan imtina etmə, əsəbi cilovlamaq, xəstə və ölüm ayağında olanlara baş çəkmək, yoxlamaq, dəfndə kömək, tez-tez məscidə getmək, vacibidən çox namaz qılmaq – xüsusilə də gecə namazı, Quranın oxunması, öyrənilməsi və üzünün köçürülməsi, başqa dindən olanları İslama dəvət, qonaqpərvərlik və himayəçilik göstərmək, yol göstərmək, döyüşçünü cihada getməyə hazırlamaq və s. Bunları özü edən adam onu başqasından tələb etməli deyil və ya özünə hansısa imtiyaz tələb etməli deyil, bütün bunlar qəlbin əmri ilə edilməlidir. M. İslam əxlaqında mühüm yer tutur.

M. kateqoriyası İslam yenilikçilərinə imkan verir ki, İslam cəmiyyətini ağır itkisiz, şəxsiyyətin kamilləşdirilməsi yolu ilə ictimai harmoniyaya yetişdirsin.

**Ədəbiyyat:** İslam, 158; əl-Həkim. Əl-Üsul, 62; Vesey – Fitzgerald. Nature, 98-99; J.Schacht. Ahkam. – EI, NE, 1, 257; yenə o. Shari'a. – EI, 3, 322.

**Əl-Mənsuriyyə** – mənsurilər, «qatı» şiə icması, Əbu Mənsur əl-İclinin ardıcılları.

Doksoqraflar məlumat verirlər ki, icmanın banisi səhrada böyüyüb və savadsızdır. 5-ci imam Məhəmməd əl-Bağırdan sonra Əbu Mənsur öz evi olan Kufədə açıq çıxış edərək özünü bu imamın xələfi, onun müvəkkili elan etdi. Sonra o, peyğəmbərlik missiyasına iddia etməyə başladı, o deyirdi ki, Allah onu özünə yaxınlaşdırıb, Suriya dilində onu özünün oğlu adlandırıb. Peyğəmbərlik onun altı nəslində davam edəcək, axırıncı Mehdi olacaq. O, təbliğ edirdi ki, Allah yerə öz «xəbər gətirənlərini» göndərməkdə davam edir, Əbu Mənsur özünü «səmanın yerə düşən açarı» (kisf, buradan M.

kisfilər də adlanırlar) elan edir. Səma mənasında o, Məhəmmədin nəslini – haşimiləri, yer mənasında isə şiələri nəzərdə tuturdu. O, iddia edirdi ki, Allah Məhəmmədi (s) Quranla, onu isə Quranın izahı ilə göndərmişdir.

Əbu Mənsur və onun ardıcılları alleqorik şəkildə Behişti, Cəhənnəmi, dirilməni şərh edir, əslində isə onları rədd edirdilər. Dini təlimatları da onlar başqa cür şərh edir, onlara «insan adları» kimi baxırdılar ki, Allah onlara hökmranlıq etməyi qadağan etmişdir. Əbu Mənsur öz tərəfdarlarına gizli olaraq «ikiüzlüləri» öldürməyi əmr etmişdi, öz düşmənlərini «çoxallahlı» adlandırırdı, onlarla mübarizəni isə – dinə görə (din uğrunda) gizli müharibə adlandırırdı. Əbu Mənsurun əməlləri bir neçə il davam etdi. Ancaq İraqda Yusif bin Ömər əs-Səqafinin canişinliyi dövründə (738-742) Əbu Mənsur və M.-nin bir hissəsi tutulub, edam edildilər. Sağ qalanlara isə onun oğlu Hüseyn başçılıq edirdi, o da peyğəmbərlik missiyasına iddiaçılıq edirdi. Onun ardıcıllarını hüseynilər adlandırırdılar. Mənbələrin məlumatına görə bir çox adamlar onun təlimini qəbul edib, onun peyğəmbərliyini tanıdılar, onun üçün pul yığırdılar. Otuz ilə yaxın mənsurilər-hüseynilər öz təlimlərini müvəffəqiyyətlə həyata keçirdilər. Mehdinin hökmranlığı vaxtı (775-785) «azanlar» qəddarcasına təqib edildi, Hüseyn tutulub xəlifənin hüzuruna gətirilir və onun əmri ilə şaqqalanır. Xəlifə ondan çoxlu mal-dövlət götürdü və qətiyyətlə onun tərəfdarlarını axtarırdı. Onların bir hissəsi tutulub edam edildi.

M. təlimi İraqda fəaliyyət göstərən başqa «qatı» şiə təlimləri kimi yəhudi-xristian elementlərini özlərində cəm etmişdilər. Belə ki, Əbu Mənsur təbliğ edirdi ki, Allah birinci olaraq İsanı (İsusu) yaratdı. Özünün imam Məhəmməd Bağırın vəsiyyətinə iddiasını da o, Bibliya tarixi ilə bağlayırdı, orada deyilirdi ki, Musanın vəsiyyəti müvəqqəti olaraq başqa nəsildən olan peyğəmbərə verilmişdi, sonra isə yenidən Aaron nəsillərinə qaytarıldı.

**Ədəbiyyat:** İslam, 158; ан-Наубахти. Шиитские секты, 140-141; Əl-Əş'əri. Məqalat, 9-10, 24-25; əl-Bağdadi. Əl-Fərq, 243-245; аш-Шахрастани. Книга о религиях, 156-157; W.F.Tucker. Abu Mansur al-`Ijli and the mansuriyya: a study medieval terrorism.- DI, 1977, 54/1, 66-76.

**<u>Mərcə ət-təqlid</u> -** ərəb. təqlid olunan şəxs, təqlid nümunəsi deməkdir, şiə müctəhidlərinin ən yüksək adıdır. Bəzən mərcə ət-təqlid ancaq bir şəxs-ruhanilərin başçısı və bütün şiə icmasının rəhbəri, əsas dini sima ola bilər. Cəfərilər təliminə görə, M. ət-T. müstəsna mövqeyini onun əmrlərinə tabe olmaq və onun təqlid etmək zərurətini ümmətin bütün üzvləri, o cümlədən ali ruhanilər təsdiq edirlər. Geniş biliyə və bütün əsas müctəhidlərə xas şəxsi keyfiyyətlərə malik olmaqla yanaşı, M. ət-T. «ən təmiz» imamları başqalarından fərqləndirən xüsusisyyətlərə malik olmalı, heç bir günah

işlətməyən, günah işlətməkdən və nalayiq hərəkətlərdən çəkinməyə qadir olan bir adam olmalı idi. O, dini müdafiə etməli, dini vəzifəsinə əməl etməli, həqiqətpərəsət olmalı, bütünlüklə Allaha itaət etməli idi.

Bu istilah (M. ət-T.) İran İslam Respublikasının kontitusiyasına daxil edilmişdir. Ayətullah Xomeyni bu rütbəni daşıyırdı. M. ət-T. «gizli» imamın canişini (naib əl-imam), yəni Allahın iradəsinin ifadəçisi sayılır.

**Ədəbiyyat:** İslam, qısa məlumat kitabı, B., 1985, 82-83.

**Əl-Məruniyyun (əl-məvarinə; eponim- IV-V əsrin əvvəli Suriya zahidi Mərun)** – mərunilər, V-VIII əsrlərdə Şimal-Qərbi Suriya və Şimali Livan əhalisi arasında seçilən etnokonfessial xristian-uniat qruplarının tərəfdarları. M.-in dini təlimində monofelitik elementləri uzun müddətli qaldı. Onun ictimai sistemində İslamın təsiri görünür (onda bir neçə sünni hüquqi qaydaları fəaliyyət göstərir, kilsə vəqfləri və s. mövcuddur). 700-cü ildə vəfat etmiş Yuhənnə Mərun M.-in birinci patriarxı, müstəqil kilsənin banisi sayılır. Osmanlı hakimiyyəti M.-rə faktiki muxtar icma (millət) statusunu vermişdi və onu ancaq 1841-ci ildə rəsmi olaraq tanıdı.

**Ədəbiyyat**: İslam, 159-160; Родионов. Марониты; Butrus Day. Tarix əl-Məvarinə əd-dini va-s-siyasi va-l-hadəri min mər Mərun ilə mər Yuhənnə Mərun, 1-2, Beyrut, 1970-1972; P.Dib. Historie de L`Eglise maronite. Beyrouth, 1962.

**Məryəm** – Quran surəti, mömin (siddiqə), İsa peyğəmbərin anası, xristian Mariya qıza uyğun gəlir. Quranda İsa (ə) bir neçə dəfə Məryəmin oğlu adlandırılır. Quran surələrindən biri Məryəmin adı ilə adlandırılıb (19). Müsəlmanlar M.-i müqəddəs tarixdə ən mömin qadınlardan biri, Cənnətdə qadınların başçısı, «dindar qadın» sayırlar. Şiələr isə «qadınların ağası» sözünü Fatimeyi Zəhraya aid edirlər.

Quran İmranın qızı M.-in doğulma tarixini ətraflı şərh edir, onun hələ anasının bətnində olanda Allaha həsr olduğu və doğulan kimi dualarla Şeytandan qorunduğu nəql edilir. O, məbədə, Zəkəriyyənin himayəsinə verilir, o bu şərəfə püşklə - «yazılı bükümləri» (kəlamlar) axar suya atıb udmaqla nail olmuşdu. O, məbəddə, mehrabın yanında yaşayırdı və hər gün səhər orada Allah tərəfindən göndərilmiş təzə yemək peyda olurdu. Bir dəfə ona mələkələr xəbər verdilər ki, onun oğlu olacaq – «messiya» - (Məsih) «Allah sözündəndir», «bu və o Dünyada şərəfli», Allahın yaxını deməkdir. Onun «Mənim hardan uşağım olacaq ki, mənə insan toxunmayıb» təccüblü sualına cavab verildi: «Allah nə istəyir, onu da edir. O, hər hansı bir işi qərara alanda ona deyir... Ol! Və o, olur». Mələk ona onun oğlu – peyğəmbərin edəcəkləri möcüzələr haqqında danışdı. Bu hadisə 10 və ya 13

yaşlı Məryəmin qablarını su ilə doldurmaq üçün getdiyi Silvan quyu mağarasında vaqe olmuşdu.

Sonra M. insanlardan uzaqlaşdı və Allah onun doğuşuna palma (xurma) ağacının altında qərar verdi. Onun «İlahi əgər mən bundan əvvəl ölsəydim, hər şey yaddan çıxar, unudulardı» iniltisinə onun yenicə doğulmuş oğlu cavab verdi ki, Allah ona (M.-ə) sakitləşmək və istirahət üçün bulaq və bu xurma ağacının təzə xurmalarını vermişdir. O, anasına əmr etdi ki, insanlarla rastlaşanda desin ki, o, Allaha susmağa söz verib. M. qohumlarının yanına uşaq ilə dönəndə, onlar onu pis yolda olduğuna görə məzəmmət etdilər, o, susaraq beşikdəki uşağa işarə etdi, o, isə beşikdən danışdı: Mən – Allahın quluyam. O, mənə kitab verib, məni peyğəmbər etdi, məni uğurlu etdi, mən harada oluramsa olum, O, mənə və mənim anama rifah vermişdir (3:35/31-47/42; 19:16-33/34; 23:50/52; 66:12).

Qurandansonrakı rəvayətlərdə M.-in anasının adı qeyd edilir – Hənnə, onun M.-in üzərində hamiliyi haqqında mübahisəsi ətraflı izah olunur, mehrabın qabağında M. üçün müxtəlif növlü yeməklərin peyda olması haqqında möcüzə, Quranda xatırlanmayan Misirə qaçış, İsanın (ə) vəfatından sonra M.-in Romaya səfəri, onun təqiblərdən yerin altına qaçması haqqında məlumat verilir.

Quranda «günahsız hamilə olmaq» haqqında ehkamın əks-sədası var. Quran şərhinə görə M. bakirə olaraq İsanı doğur. «Biz öz ruhumuzdan ona üfürdük» - Allah deyir (66:12).

Quranın bir neçə ayəsinə görə M.-in xristianlar tərəfindən ilahiləşdirilməsi pislənilir, bundan belə nəticəyə gəlinir ki, xristian üçlüyü Allah, İsa və Məryəmdən ibarətdir (bax: 5:171/169; 6:75/79, 116).

M.-in atası Quranda İmran, (3:35/31, 66:12), o özü isə – «Harunun bacısı» adlanır (19:28/29), bu da M. və Aaronun və Musanın bacısı qədim Mariamla tez-tez səhv salınmasındandır. Lakin Qurandan Musa və İsa arasındakı böyük vaxt fərqi dəqiq hiss edilir. Ola bilsin ki, Quran təbiri «İmran tayfasına» sözü sonradan birbaşa qohumluğa işarə kimi başa düşülmüşdür.

M.-in adı ən qədim Məkkə, həm də ən son Mədinə surələrində xatırlanır. İki dəfə onun haqqındakı hadisədə Allahın əzəməti göstərilir ki, o, bakirə qıza uşaq verir və uşağı körpə ikən beşikdə danışdırır. O hadisə həm də İsa haqqında hekayənin və xristianların onu ilahiləşdirməsi haqqında mübahisənin müqəddiməsidir. M. həm də mömin qadın nümunəsi kimi qeyd edilir (66:12). Quranın hekayəsi göstərir ki, gətirilən hekayə Məhəmmədin (s) dinləyicilərinə məlum deyildi (3:44/39). Hekayə özü formasına görə Zəkəriyyə və M.-in bayramı, Yəhya və İsanın doğum tarixidir.

Xurma ağacı altında İsanın doğulması yalançı Matfeyin Misirə qaçması haqqında hekayələrin bəzi motivlərinə oxşayır. Rəvayətə görə «Məryəm» surəsi Həbəşistan nequsunu (və ya nəcran xristianlarını) inandırmaq üçün nazil edilib ki, həqiqətən Məhəmməd (s) İsanın təlimini təsdiq etməyə göndərilib. Doğrudur ki, Həbəşistana gələn müsəlman mühacirləri «Məryəm» surəsini Məhəmmədin (s) xristianlığa yaxşı münasibətini təsdiq kimi gətirdilər. Onun mətni, şübhəsiz, Quran tərəfindən qəbul edilmiş xristianlıq və onun xristian rəvayətlərindən gələn qəhrəmanlarına rəğbətlə doludur.

**Ədəbiyyat:** İslam, 158-159; ət-Təbəri. Tarix, 1, 723-741; yenə o. Təfsir, 3, 157-89, 16, 45-62; əs-Sə′ləbi. Qısas, 209-210, 215-221; əl-Kisə'i; Qısas, 301-304; əl-Beydavi. Təfsir, 1, 152-156; 578-589; Rudolph. Die Abhangikeit, 75-78; Horovitz. Untersuchungen, 138-140; Sidersky. Les origines, 142-144; Abd əl-Jalil. Marie et le Coran. P., 41; Beltz. Sehnsucht, 132-133; A.J.Wensinck. Maryam. – EI, 3, 367-370; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 190-191.

**Məscid -** cəmi məsācid; «səcdə - oturub alını yerə qoymaqla - ibadət, təzim və dua etmək» - İslamın namaz qılınan, başqa dini və ictimai məsələlərinin həll olunan yeri. Ola bilsin bu mənada mənşəyi arami, nabati masqitasına gedib çıxır» (İslam, 160)

Bizcə bu fikir düz deyil. Fikir sahiblərinin özlərinin də əvvəl qeyd etdikləri kimi «səcədə» ərəb sözü olub, «səcdə etmək», «ibadət etmək», məscid isə «ibadət edilən yer» deməkdir. Bunun haradansa əmələ gəlməsini güman etmək absurddur.

İlk M. Məhəmmədin (s) Yəsribə (Mədinəyə) gəldikdən sonra Qüba (قباء) kəndində tezliklə tikilən məsciddir, o, kvadrat həyət olub, divar boyu çardaqlı bina idi, yeganə giriş qərbdən idi, belə ki, namazı qılanlar, kilsədəki kimi, üzlərini şərqə tuturdular. 623-cü ilin ortalarında belə bir M. Mədinənin özündə, Məhəmməd peyğəmbərin (s) evinin yanında, artıq şimaldan cənuba yönəlmiş, əl-Kəbəyə sarı (bax: əl-qiblə) tikildi. 630-cu ildə Məkkə Məhəmməd (s) (müsəlmanlar) tərəfindən fəth olunandan sonra əl-Kəbə ətraf həyəti ilə M.-ə çevrildi, təkcə bütlər çölə atıldı, şəkil və bəzəklərin üstü rəngləndi. Əlbəttə, əl-Kəbə, M.əl-Həram tam mənada məbəd - müqəddəs ərazi idi, qalanları isə, o cümlədən baş, Mədinə məscidləri namaz qılınan ictimai binalar idilər. Hazırda Mədinə-Peyğəmbər (s) məscidi həcc ayinlərinin yerinə yetirilməsinin bir bəndi kimi çox vacib ziyarət yeridir.

İlk dövrlərdə M. binasına belə xüsusi tələblər yox idi, yalnız orada bütlərin və ya şəkillərin olması qadağan idi, çünki onlara sitayiş oluna bilərdi: M. kimi cümə günü bütün namaz qılanları yerləşdirə bilən hər hansı

bir yer istifadə oluna bilərdi. Suriyada bu məqsədlə bəzən kilsələr, İranda isə məbəd və ya bütxana istifadə olunmuşdur. Onlar namaz üçün tikilmədiyindən, camaat çox olduğuna görə oraya qiblə tərəfdən artırma əlavə edilirdi.

Məhz «həyət tipli» M. tikintisi artıq təzə tikilən şəhərlərdə - Kufə, Bəsrədə həyata keçirilirdi, orada 20 min namaz qılan üçün məscid tikilirdi. Bəsrədə tikilən ilk məscid bizə ancaq təsvirlərlə məlumdur, onun sahəsi (100x100 m) olub, xəndəklə əhatələnib, əvvəlcə cənub tərəfdən, sonra isə başqa tərəflərdən eyvan tikilmişdir. Belə M.-in eynisi Vasit M.-idir, bunu arxeoloqların qazıntısı sübut edir. M.-in məcburi elementi dəstəmaz almaq (dəstnamaz fars.) üçün böyük hovuzun olması idi.

M.-in spesifik görünüşü VIII əsrin axırlarından minarə, hücrə və mehrabın tikilməsi ilə formalaşır. Sonralar möizəçi üçün minbər və onun yanında, məscidin içində namaza ikinci və üçüncü dəvət edənin (müəzzin) oturduğu yer - (dikkə, dəkkə) kürsü tikildi (İslam, 160). Fikrimizcə, minbərlərin meydana gəlməsi elə M.-lərin ilk tikintisindən olmuşdur, məs., Peyğəmbərin (s) evinin yanında tikilən və sonradan Məscid Münəvvər, Məscid nəbəvi adlanan Peyğəmbər (s) məscidi. Yeri gəlmişkən, onlar əvvəllər taxtadan tikilirdi. İndi də çox yerdə minbərlər taxtadandır. Eyvan və demək olar bütün həyət həsir və xalçalarla döşənərdi, Ramazanda gecə bəzəkli işıqlar yandırılardı. IX əsrin çox böyük M.-i Səmarrada Mütəvəkkiluyyə, Fustatda İbn Tulun məscidləri idi, onların xarici hasarları var idi və onlar M.-dən çox ərazini əhatə edirdilər. Orada köməkçi binalar olurdu. Sonralar müxtəlif müqəddəs sayılan şeylər yaranmağa başladı. Minarələrin sayı dördə çatdı. Mehrabın qabağında, tavanda qübbə yaradılır. İranda və Orta Asiyada dörd eyvanlı M. meydana gəlir.

Cümə və came M.-ri ilə yanaşı İslamın ilk on ili ərzində varlı evlərdə, karvansaralarda, sonra mədrəsələrdə, məhəllə və ev M.-ri, ümumiyyətlə, ümumi kompleksə bağlı bir yerdə namaz qılınan yer hazırlanırdı. Yeri gəlmişkən, cümə və came məscidləri haqqında: fikrimizcə cümə məscidlərində ancaq cümə günləri yığışıb cümə namazlarını qılırdılar. Came məscidləri isə daha böyük olub, namazlar qılınması, dini məsələlərin müzakirəsi ilə yanaşı sosial, milli, iqtsadi və başqa vacib məsələlər də müzakirə olunurdu. Cünki orta əsr müsəlman ölkələrində insanların ən çox yığışdığı ictimai yer camelər idi.

M. müsəlman cəmiyyətinin həyatında xüsusi yer tutur, o, təkcə namaz qılınan yer deyil, həm də müxtəlif funksiyalı ictimai binadır. İslamın ilk əsrlərində M.-lər canişinin iqamətgahı ilə divar-divara tikilirdi. Orada xəzinə saxlanılır, əmrlər elan olunur, hökmdarlar və canişinlər xalqa siyasi çıxışlarla müraciət edirdilər. Fatimilər vaxtı Misirdə came M.-ində iqta bölünürdü. X-XI əsrlərdə hər yerdə M.-də qazilər şikayətçiləri qəbul edir və məhkəmə

işlərinə baxırdılar, mədrəsələrin yaranmasına qədər dərslər orada keçirilir, mədəniyyət işlərinin çoxu orada həyata keçirilirdi. Yol adamı orada gecələyirdi. Məhəllə M.-ri əsasən kişilərin toplandıqları yer idi. Qadınlar M.-in örtülü - kişi hissəsindən ayrılmış yerlərə-eyvanlara buraxılırdılar.

Tədricən M.-lər daha çox dünyəvi və siyasi xidmətlər üzərində ixtisaslaşırdı. Əvvəlcə hakim pişnamaz olmağı başqasına - imama ötürür, sonra M.-də dünyəvi vaxtötürmə ləğv edilir, qazilərin M.-də məhkəmə işi aparması qəbahət sayılır. M.-də olarkən təmiz olmaq tələb olunur, namaz qılanlar gözəl geyinməli, özlərini yaxşı aparmalı, yüksəkdən danışmamalıdır. Görünür VIII əsrin sonundan M.-ə girəndə ayaqqabını soyunmaq tələb olunmağa başladı (İslam, 160). Bizcə bu əvvəldən də belə idi. İslamda ayaqyoluna gedilən ayaqqabı ilə nəinki M.- də, heç evdə də gəzilməyib.

**Ədəbiyyat:** İslam, 169; Бартольд. Əsər., 6, 537-543; L. Golvin. La mosquee, ses origines, sa morpholoqie, ses diers fonctions. Son role dans la vie musulmane. P., 1959; J.Pedersen, R.A.Kern, E.Diez. Masdjid. El, 3, 372-449.

**Əl-Məscidü-l-Əqsa** («çox uzaq - çox ayrılmış məscid») - Yerusəlimdə əl-Həram əş-Şərifin cənub hissəsindədir, İslamın çox mühüm məbədlərindən biridir, onu tez-tez Məhəmmədin (s) «gecə səyahəti» zamanı gətirildiyi «çox ayrı düşmüş məscidlə» eyniləşdirirlər (bax: əl-isra və-l-merac) (Quran 17:1). Bəzən orta əsr müəllifləri bütün əl-Həram əş-Şərifin ərazilərini əl-M. əl-Ə. hesab edirdilər. O, Qüdsdə qədim Süleyman məbədinin olduğu yerdə tikilmiş camenin adıdır.

Xəlifə I Ömər tərəfindən ilk tikilən adi formalı məscid əl-Valid vaxtı (705-715) əsaslı bina ilə əvəz olundu, o da tezlikiə zəlzələ vaxtı uçdu və 780- cı ildə yenidən tikildi. Əl-Müqəddəsiyə görə (X əsr) bu məscid düzbucaqlı olub (105x70 m) ölçüdə idi, qərbdən şərqə uzanırdı. Cənub divarı əl-Həram- əş-Şərifin divarı idi; şimal divarda 15 qapı vardı, ortadakı o birilərindən iki dəfə enli idi, mehrabın yanında taxta qübbə var idi (diam. 11m.). 1035-ci ildə növbəti zəlzələdən sonra əz-Zahir məscidin yeddi orta neflərini yenidən bərpa etdi, əl-M. əl-Ə. bu şəkildə dövrünüzə qədər gəlib çıxmışdır.

XII əsrin əvvəlində əl-M. əl-Ə. Yerusəlim kralının sarayı oldu, 1128-ci ildə II Balduin onun bir hissəsini cəngavər ordusuna bağışladı, bu münasibətlə onlar «məbədilər» ləqəbini almışdılar. 1187-ci ildə səlibçilərin qovulmasından sonra Səlahəddin məscidi bərpa etdi, lakin səlibçilərin tikintisindən bu günə qədər şərq tərəfdə Əz-Zahir qülləsi və qərb tərəfdə cəngavər zalı qalmışdır.

1938-1942-ci illərdə bərpa işləri vaxtı əl-M. əl-Ə.-nın mərkəzindəki müxtəlif ölçülü və formalı sütunlar kərrar mərmərindən düzəldilmiş bir cürə sütunlarla əvəz edildi, təzə tirlər (dirəklər) qoyuldu, lakin məscidin ümumi görünüşü dəyişmədi.

**Ədəbiyyat:** İslam, 161; A.İ.Wensinsk. Al-Masdjid al-Aksa-EI, 3, 389; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 191-192.

**Məhəmməd məscidi .** Bakıda, üzərində kitabə qalan ən qədim məscid 1078-79-cu ildə tikilən və İçərişəhərdə yerləşən Məhəmməd məscididir. XIX əsrdə ruslar gəmilərdən şəhəri top atəşinə tutduqda məscidin bir hissəsi dağıldığı üçün əhali arasında ona **Sınıqqala məscidi** də deyilir. Kitabədə minarənin Əbubəkr oğlu ustad Məhəmməd tərəfindən tikildiyi qeyd edilir.

Bakıda XIII əsrdə tikilən, memarlıq üsuluna görə maraqlı sayılan **Bibi Heybət** məscidi. O, 1281-82-ci ildə Şirvanşah Fərruxzad ibn Axsitan tərəfindən şəhərin cənub girişi, Xəzər sahilində tikdirilmişdir. Bu məscid VII imam Museyi Kazımın qızı Həkimə və daha üç nəvəsinin - iki oğlan, bir qız - qəbri üzərində tikilmişdir. Rəvayətə görə Xəlifə Məmun tərəfindən imam Rza zəhərləndikdən sonra Həkimə xanım üç uşaqla Ənzəliyə gəlir, oradan onları Baba Sucəd Bakı limanına gətirir, Hacı Bədir adlı bir möminə tapşırır. Hacı onu (Həkiməni) qorumaq məqsədilə «bibi» çağırır. Öz adının ilk hərflərini götürüb Hacı-Hey, Bədir-B –(Hey + Bə)-Heybət, məscidi iki adla Bibi Heybət adlandırıb. Həkimə xanım ərə getməmiş, 1257-ci ildə vəfat edib. Hacı Bədirin vəsiyyəti ilə onu xanımın ayaq tərəfində dəfn edirlər. Bu müqəddəs türbəni tez-tez ziyarətə gələn Quba xanı Fətəli xan ziyarətlərin biri vaxtı burada vəfat edir və öz xahişi ilə burada dəfn edilir.

1934-cü ildə məscid minarəsi ilə birlikdə nadaların əmrilə dinamitlə partladılıb dağıdılmışdı. Müstəqillik illərində məscid böyük bir kompleks kimi bərpa edilmişdir.

İmam Museyi Kazımın başqa bir qızı Rəhimə xanımın uyuduğu məkan isə **Nardaran piri** - məscididir. Məscid üzərindəki kitabəyə əsasən onu 765 (1363-64)-ci ildə Xacə Hacı Həmzə ibn Qutlu Mahmud Şahabadi tikdirmişdir. O, Şirvanşahlar dövlətində sədr ə`zəm - baş sədr idi (Археология Азербайджана. Москва, 1972).

İndi isə məscid çox yüksək səviyyədə bərpa olunub.

**Əjdərbəy məscidi** (Göy məscid). 1906-cı ildə Sabunçudan olan Əjdərbəy «Köhnə İttifaq» məscidinin yerini pristavdan 30 kq. qızıla alıb, onun yerində Göy Məscidin inşasına başlayır və 1912-ci ildə məscid hazır olur. Məscidin üzərində bir neçə kitabə vardır, biri isə onu Hacı Əjdərbəy Aşurzadənin tikdirdiyi haqdadır. Əjdərbəy özü də məscidin girişində dəfn

olunub. Azərbaycanda Sovet quruluşu hakim olandan məscid bağlanır, oranı at saxlamaq üçün istifadə edirdilər. Lakin 1943-cü ildə ildə Stalin Bakı yolu ilə Tehrana gedərkən, Bağırova məscidi camaatın istifadəsinə verməyi tapşırır. O, bir vaxtlar Bakıda yaşayarkən, təqiblərdən qaçıb bu məsciddə gizlənib, canını qurtarmışdı. Bu məscidin fondundan hər ay onlarla imkansız ailəyə yardım edilir, o cümlədən Əjdərbəyin qız nəvəsi Əsli xanıma. Son iki-üç ildə məscidi yüksək səviyyədə təmir ediblər.

**Təzə pir məscidini** Nabat xanım Xocabəy qızı Aşurbəyli əri və atasından qalma varidatla tikdirmişdir. Zivərbəy Əhmədbəyovun nəfis layihəsi ilə 1905-ci ildə inşası başlayan məscid 1914-cü ildə tamamlandı. Şahidi olanlar söyləyirmişlər ki, axırıncı daşı usta yerinə qoymayıb. Hacı Zeynalabidin Tağıyevi dəvət edib, məscidin ilk daşı kimi sonuncusunu da qoymağın ona qismət olmasını məsləhət bilir. Hacı gəlir, daşı qoyur, ustalara da şirinlik verir. Nabat xanıma isə təəssüf ki, məscidin tikintisinin başa çatmasını görmək qismət olmadı, o, 1912-ci ildə vəfat etdi və məscidin baş qapısının sağ tərəfində dəfn olundu.

2008-09-cu illərdə məscid əsaslı təmir olunaraq yeniləşdirilib, Qafqaz Müsəlmanları İdarəsi və Bakı İslam Universiteti üçün korpuslar, konfrans zalı və xidməti otaqlar tikilmiş, məscid özü də gözəlləşdirilmişdir. Əvvəllər yerinə yetirilməyən cümə namazları qılınmağa başlanmışdır.

**Hacı Soltanəli məscidi -**1904-cü ildə Bakının tanınmış axundlarından biri bu məscidin bünövrəsini qoyub. Nizami metrosunun arxasında «Axund hamamı» kimi tanınan hamamı da o tikdirib. Axund məscidin bünövrəsini qoyandan sonra xəstələnir və işi davam etdirə bilmir. Hacı Soltanəli Haşımov tikintini satın alır, məscid 1910-cu ildə hazır olur. Hacı Soltanəli bundan əvvəl Balaxanı və Lahıc bağlarında da məscid tikdirmişdi. Sovet dövründə müxtəlif təyinatlarla istifadə olunan Hacı Soltanəli məscidi 1992-ci ildə yenidən möminlərə qaytarıldı. 1995-ci ildə minarəsi və özü çatlayıb dağılmaq təhlükəsi olan məscidi Moskvada yaşayan iş adamı Hacı Arif əsaslı surətdə təmir etdirdi.

**Məhəmməd Hənəfiyyə məscidi** Astara rayonu Ərçvan kəndinin ortasında tikilmişdir. Məscid Şeyx Zənd Pilani və ya Məhəmməd Hənifə adlanır. Pilani VII imam Museyi Kazımın (ə) qız nəvəsidir. XIX əsrdə məscid yenidən tikilmiş, 1917-ci ildə yandırılmışdır. 80-cı illərdə Çingiz Fərəcov tərəfindən bərpa etdirilmişdir.

**Gəncədəki Şah Abbas məscidi** 1606-cı ildə Şah Abbasın əmiri, Şeyx Bəhaəddin Məhəmməd Amilinin planı ilə tikilib. Allahın qüvvəsi və

məscidin möhkəm tikilişi sayəsində 10 zəlzələ görmüş məscidə heç bir zərər dəyməmişdir. Günorta çağı məscidin günbatan divarında kölgə yox olur, deməli zöhr namazı vaxtıdır. Məsciddə 12 kiçik hücrə də var. Məscidin müxtəlif vaxtlarda tikilmiş iki minarəsi var, hündürlüyü 22 m.-dir.

Məscidin güney tərəfində Xan qəbiristanlığı yerləşir, Cavad xanın qəbri də oradadır.

Məscidin Ərdəbildəki Adna məscidi kompleksi ilə çox oxşarlığı var. Belə məscidlər İsfəhan və Qəzvin şəhərlərində də vardır. Bu məscidin memarının həmin məscidlərin memarı olduğunu ehtimal etmək olar.

**Naxçıvandakı Came məscidi** XII-XIII əsrlərə aid edilir. Onun hündürlüyü 35 m.-ə qədərdir. Ölçülərinə görə məscid hətta Möminə Xatun türbəsini kölgədə qoyur. Məscidin günbəzi mərkəzdədir, içərisi oymalarla işlənmişdir.

**Əmircan məscidi** kəndin mərkəzində yerləşib, XIV əsrdə tikilmişdir, dörd giriş qapısının üçünün üstündə kitabə vardır. İbadət zalı genişləndirilib, 24 x 6 m.-ə çatır, hündürlüyü 5 m.-dir. Üzərində bir neçə dəfə «Allah» sözü yazılan mehrabın hündürlüyü 2 m.-dir. Onun yuxarısında kitabə vardır, təmir zamanı bilməyib, onu baş-ayaq qoyublar.

Məscidi Kəsrani Şirvanşahlar dövründə 730 (1329-1330)-cu ildə Əmirhac Əmir Nizaməddin tikdirmişdir. Ustanın adı Abbasəli, kitabələri yazanın adı isə Məhəmmədtağıdır.

20-ci əsrin əvvəllərində məscidə 4 sütunlu giriş yeri tikilmişdir ki, bu haqda kitabə də vardır: «Bu portalı Rizvan oğlu Hacı Xələf inşa etdirmişdir».

**Ədəbiyyat:** Azərbaycan Respublikası məscidlərinin ensiklopediyası. Bakı, 2001 (Sonralar Azərbaycan məscidləri); Həşim Həsənoğlu - Azərbaycanın dini-tarixi abidələri.

**Əl-Məsih** («padişah») - xilaskar. Quranda və müsəlman rəvayətlərində əl-M. - İsa (İisus) adının qabağına qoyulur və ya ayrıca işlənir. Ona Mədinə surələrində rast gəlinir – xeyr xəbərlər tarixi, İsanı ilahiləşdirmək haqqında xristianların dediklərini qeyd edən ayələrdə və bu ilahiləşdirməni təkzib etməkdə (3:45/40; 4:157/156, 171/169, 172/170; 5:17/19, 72/76, 75/79; 9:30/-31). Əl-M. istilahına habelə İsa haqqında hekayələrdə, Məhəmmədin (s) vəhylərində, İsa haqqındakı məlumatlarda rast gəlinir. Əd-Dəccal da əl-Məsihü-l-Kəzzab (yalançı xilaskar) və əl-Məsihü-l-Dəccal adlanırdı.

**Ədəbiyyat:** İslam, 161; ət-Təbəri. Təfsir, 3, 186; Lisan əl-ərəb, 3, 341-432; Tac əl-arus, 2, 224-225; Horovitz. Untersuchungen, 129; A.J. Wensinsk. Al-Masih. - EI, 3, 451.

**Məşhəd -** şəhidin dəfn olunduğu yer, Məhəmmədin (s) qohum və ardıcıllarından sayılan insanların, şiə imamlarının, böyük din xadimlərinin, müqəddəslərin (övliyaların) dəfn yerlərinin geniş yayılmış adı. Başqa adlardan qubbə, məzar, məqam, imamzadəni göstərmək olar. Adətən M. ziyarət yerləridir, bəzən bir nəfər üçün bir neçə dəfn yeri göstərilir. M. istilahı müqəddəs məzarların olduğu şəhərlərlə də işlədilir, məs: Məşhəd Əli (Nəcəf), Məşhədü-l-Hüseyn (Kərbəla) və ya şəhərin adına çevrilir – İranda Məşhəd şəhəri (Məşhəd ər-Rza).

**Ədəbiyyat:** İslam, 164; E.Diez. Masdjid. – EI, 3, 322-324; J.Pedersen. Masdjid. – ShEI, 333-335, 516.

**Məşhəd** – şəhər, İranın şimal-şərq əyaləti, Xorasanda, milyondan çox əhalisi olan inzibati mərkəz. Tarixi boyu bu şəhərin mühüm siyasi, mədəni və dini mərkəz kimi əhəmiyyəti olub. 818-ci ildə Tus yaxınlığında, Sənəbad kəndində xəlifə əl-Məmunun kürəkəni, 8-ci imam Əli b. Musa əz-Rza birinci tərəfindən zəhərləndiriləirək şəhid oldu. Onun şəhid olduğu yer (məşhəd) müsəlmanlar, xüsusilə də şiələr tərəfindən çox hörmətlə sayılan yer oldu və tezliklə Sənəbadın yerində şəhər yarandı. Bunun hamısı imama hörmətə görə idi, Məmunun atası Harun ər-Rəşidin oradakı qəbrinə görə yox.

«Məşhəd» sözü toponim kimi ilk dəfə X əsrdə coğrafiyaşünas əl-Müqəddəsi tərəfindən işlədilmişdir, XIV əsrdə İbn Bətutə «Məşhəd əz-Rza şəhəri» haqqında yazmışdır. Yaqut əl-Həməvi, şəhəri Əl-Məşhədü-r-Rizavi (Rizanın mübarək türbəsi) adlandırıb. İndi şəhər Məşhədi-Riza, Məşhədi-Müqəddəs və ya Məşhədi-Tus adlanır.

Ən əhəmiyyətli M. memarlıq kompleksi XII əsrdə Teymurilər, Səfəvilər, Nadirşah əfşar vaxtı tikilmişdir. Həram-i mütəhhər, həram-i şərif, həram-i müqəddəs və s.-ni imamın məzarı yerləşən 20 metr diametrli qızıl örtüklü günbəz tamamlayır. Kompleksin cənub tərəfində firuzə örtüklü, günbəzli, iki 43 m. hündürlükdə minarə ilə Gövhərşad məscidi yerləşir. Nadirin qızıl darvazası da çox təsiredicidir.

M. bu gün İranın əsas müqəddəs yeri olub, müsəlman ilahiyyatının və islami təlimin mərkəzlərindən biridir. Şəhərdə 20-yə yaxın mədrəsə, o cümlədən XV-XVII əsrlərdən mövcud olanlar, jurnal, monoqrafiya, dini mətnlər nəşr edən Məşhəd Universitetinin ilahiyyat fakultəsi vardır. Hər il M.-i milyondan çox, əsasən də Aşura günləri və imam Rzanın şəhid olan günü adam ziyarət edir.

**Ədəbiyyat:** İslam, 164; M.-H. Sani əd-dövlə. Mətlə` əş-şəms. 2. Tehran, 1302-1885; Nəşriya-i Əncümani-i asar-i milli. Tehran, 1976, 1, 18-25; G.Le Strange of the Eastern Caliphate. Cambridge, 1905, 388-391; M.Streek. Meshhed. – EI, 3, 467-477; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 192.

**Əl-Məturidi,** Əbu Mənsur Məhəmməd b. Məhəmməd əl-hənəfi əs-Səmərqəndi (870-944) – kəlam məktəbinin banisi, onun xələfləri (ardıcılları) məturidlər (əl-məturidiyyə) adlanırdılar. O, Səmərqənd yaxınlığında Məturid (və ya Məturit) şəhərində anadan olmuşdur. Fiqhi Səmərqənddə hənəfi hüquqşünaslarından öyrənmişdir, sonra özü orada fiqh və kəlamdan dərs demişdir, Səmərqənddə vəfat etmişdir. Əl-M.-nin təlimi əsasən Məvaraənnəhrin hənəfiləri arasında geniş yayılırdı. Kərramilər, rafiilər və mötəzililərin təkzibinə həsr olunmuş traktatı əl-M.-nin adına yazırlar. Kəlamın bir sıra məsələlərini o və onun ardıcılları əşəri nümayəndələrinin ruhunda həll edirdilər – Allahın əsas atributlarının (bilik, əzəmət və s.) həqiqi və qədim olduğunu, Quranın «mənasına» görə onun qədimliyini qeyd edirdilər. Əşərilərdən fərqli olaraq əl-M. və onun ardıcılları Allahın təkcə əsas atributlarının qədimliyini deyil, hərəkətlərinin atributlarını da qəbul edib, mötəzililərin ardınca insanın seçim azadlığının (ixtiyar) olduğunu qeyd edirdilər.

**Ədəbiyyat:** İslam, 161; əl-Məturidi. Ət-Tövhid; [Yalançı] Məturidi. Şərh əl-fiqh əl-əkbər. Heydərabad, 1321 h; Əbu Uzbə. Ər-Rövzə əl-bəhiyə fi mə beynə-l-əşairə və-l-məturidiyyə. Heydərabad, 1904; A.Şeyx-zadə. Kitab nəzm əl-fəraid və cəm əl-fəvaid fi bəyan əl-məsail əl-ləti vaqa′a fihə əl-ixtilaf beynə-l-məturidiyyə və-l-əş′əriyyə. Qahirə, 1899; F.Hulayf. Əl-müqəddimə. – Əl-Məturidi. Ət-Tövhid, 1-56; A.Ayyub. Maturidism. – A History of Muslim. Philosophy. Ed.by M.M.Sharif, 1, Wiesbaden, 1963, 259-274; M.Götz. Maturidi und sein Kitab Tawilat al-Quran. – DI, 1964, 41, 27-70; G.Vajda. Le temoignage d`al-Maturidi rur la doctrine des Manichens, des Gaysanites et des Marcionites. –Arb. 1966, 13, 1-38; Watt. Period, 312-316; D.B.Macdonald. Maturidi. –EI, 3, 414-415.

**Məzalim (hökm əl-məzalim və ya nəzər əl-məzalim)** – qeyri-qanuni işlərə baxılması – ədalətsiz işlərin şikayətinə baxılması, ona dövlət başçısı və onun müvəkkili, apellyasiya məhkəməsi baxırdı.

İslamın ilk əsrlərində bu sistem az dəyişdi. Lakin apellyasiya verə bilən yeganə şəxs xəlifə özü idi; buna görə də hər vaxt ona müraciət edirdilər. Dördüncü əməvi xəlifəsi Əbdülməlik b. Mərvan (685-705) şikayətlərə baxmaq üçün xüsusi günlər təyin etmiş və onu həll etməyi öz qazisi İbn İdris əl-Əzdiyə tapşırmışdı, özü isə ancaq onun qərarlarını təsdiq edirdi.

Belə təcrübə xəlifə Ömər b. Əbdüləzizə (717-720) qədər qalmışdı, o, özü şikayətlərə baxırdı. Lakin ondan sonra xəlifələr əvvəlki təcrübəyə qayıtdılar, bu işi qazi və vəzirlərə tapşırdılar. Xəlifə əl-Mehdi (775-785) şikayətlərə özü baxırdı. Bu, xəlifə əl-Müqtədiyə (869-870) qədər belə oldu, lakin ondan sonra şikayət və apellyasiyalara xəlifənin müvəkkili kimi vəzirlər baxırdılar.

Misirdə əmir Əhməd b. Tulun 871-ci ildən şikayətin qəbulu üçün həftədə iki dəfə vaxt təyin etdi və buna görə öz müvəkkillərini müəyyən etdi. Fatimilər (910-cu ildən) şikayətlərə baxmağı qazilərə (qadi əl-qudat) tapşırdılar, lakin XII əsrin ortalarından bu funksiyanı vəzirlər öz üzərilərinə götürdülər. İraqda monqolaqədərki vaxtlarda Səlcuq sultanları (1055-ci ildə) hakimiyyətə gəlib, ədalətə nəzarəti öz üzərlərinə götürdülər. Misirdə Əyyubilər vaxtı da sultanlar bu vəzifəni öz üzərlərinə götürüb, qazilərlə məsləhətləşirdilər.

Osmanlı imperiyasında da ali ədalət nəzarətçisi sultanlar özləri idilər, cinayət və inzibati idarələrin səhvləri ilə isə vəzirlərə tabe olan xüsusi dəftərxana məşğul olurdu.

Hazırda bir çox müsəlman ölkəsində M. ənənəyə görə hüquqi nəzarət və apellyasiya məhkəməsi orqanlarına deyirlər.

**Ədəbiyyat:** İslam, 150-151; əl-Məvardi. Əl-Əhkam, 128-164; Мец. Ренессанс, 192; Zeydan. Tarix, 1, 207-208; Tyan. Histoire, Index; Heyd. Studies, Index.

**Məzar - ərəbcə «zəra» ziyarət etmək, getmək, baş çəkmək sözündən olub «ziyarət olunan yer»** – adicə olaraq müsəlman «müqəddəsinin» qəbri, qəbir deməkdir.

Erkən İslam (Məkkədəki «qara daşdan» başqa) hər hansı bir yerə təzim etməyi guya bütpərəstliyin rəmzi kimi rədd edirdi. Bizcə bu fikir düz deyil, təvafdan tutmuş bütün həcc ayinləri və mərasimləri bəs nədir? IX əsr qanuni hədis külliyyatlarında ölənlər üçün ağlamaq, qəbirləri ziyarət etmək, (müqəddəs) mərhumlara dua ilə müraciət etmək guya mühakimə edilirdi. Məhəmməd peyğəmbərin (s) hədislərində isə deyilir ki, tez-tez qəbristanlığı ziyarət edin, onlar sizə Qiyamət gününü xatırladıb, sizi saflaşdırmağa sövq edir. Başqa misal: Kərbəlda aşura günü əsir düşmüş Zeynəb xanım başda olmaqla bütün qız-gəlinlər Kərbəla şəhidləri üçün ağlayıb fəryad eləmirdimi? Qərb ədəbiyyatına görə X əsrin ortalarına qədər hətta Məhəmməd peyğəmbərin (s) qəbri guya ziyarət yeri deyildi, şiəliyin mərkəzi Kufədəki Əlinin (ə) məqbərəsinin yeri dəqiq bilinmirdi. Qərb ədəbiyyatı həmişə olduğu kimi İslam və onun müqəddəslərinə başqa prizmadan baxmışlar. Hz. Əlinin Kufədəki VII əsrin yarısında tikilmiş birmətəbəli evi və ondan aralı olmayan Kufə məscidi indi də durur və

işləyir. Onun məzarının yerinin əvvəl dəqiq bilinməməsi isə Əməvilərin (Yezid başda olmaqla) onu hər yerdə söymək, təhqir etmək, adını tutanlara amansızcasına divan tutulması nəticəsində idi. Bununla belə artıq IX əsrin sonuna əshab və sayılan müsəlman alimlərinin qəbirləri üzərində məqbərələrin və məscidlərin tikilməsi qeyd olunmuşdur.

«Müqəddəslər» və onların qəbirlərinin ziyarət ayini X əsrin sonundan surətlə inkişaf edir, xüsusilə də bu işdə böyük rolu sufilik və onun şeyxləri – müəllimlərinə hörmət etmələri oynadı, onlar elə hesab edirdilər ki, onlar (şeyxlər) birbaşa Allahla əlaqədədirlər və buna görə onlar istənilən möcüzəni edə bilirlər. Belə əzəmətli vasitəçilərlə ötürülən duaların kəsərli olduğu hesab edilirdi.

Ziyarət yeri həm də Bibliya və Quran peyğəmbərlərinin qəbirləri, islamaqədərki müsəlman rəvayətinə malik məbədlər olur. Eyni zamanda müsəlman möminlərinin obrazları islamaqədərki dinlərlə bağlı olan şəbehlərlə təqdim olunur: belə ki, Məhəmmədin (s) guya Səmərqənddə dəfn olunan əmisi oğlu Hüsam b. əl-Abbas hansısa yerli ilahi obrazla qarışaraq Şah-i Zindəyə («əbədi yaşar çara») çevrilir.

Əvvəllər «müqəddəslərin» qəbirləri, eləcə də dini abidələr məşhəd adlanırdı (sonra isə - yəqin ki, XI əsrdən sonra, ən əvvəl qeyri-ərəb ölkələrində bu söz başqa mənada - «şəhidin dəfn yeri» kimi başa düşüldü); daha ixtisaslaşmış məfhum – M.-dır.

M.-ların üzərində məscidlər, xanəgahlar, mədrəsələr tikilir və bəzən bütöv şəhərlərin mərkəzlərinə çevrilirlər (Məzari – Şərif – Əfqanıstanda, İraqda Nəcəful Əşrəf və s.).

**Ədəbiyyat:** İslam, 151; al-Haravi. Guide; Гольдциер. Культ святых; Б.Н.Басилов. Культ святых в исламе. М., 1970.

**Məzdəkilər - əl-Məzdəkiyyə (farsca məzdəkiyan)** – Sasani İranında I-VI əsrlərdə meydana gəlmiş və Şərqi Xilafətdə İslamın ilk əsrlərində mövcud olan zərdüştilik təriqətlərindən birinin adı. O, təriqətin əsasını qoyan Məzdəkin şərəfinə belə adlandırılıb. M. təriqəti öz mənşəyini bir məlumata görə III, başqa bir məlumata görə V əsrdə yaranmış «qatı» manihey təriqəti Zərdüştakandan götürmüş olur və onun baniləri xeyrin şərə tam qalib gələcəyinə inanırdılar.

Nizaməlmülkün (XI əsr) M.-yə yeni farsca hazırladığı düşmən mövqeli Məzdək-namədə Məzdək «qebrlərin dinini» xarab etmək istəyən baş mobəd (kahin) kimi təsvir edilir. Onun «qebrlərin, yəhudilərin, xristianların və bütpərəstlərin inamını (dinini) rədd edərək, möcüzə və güclə xalqa öz dinini qəbul etdirəcək» Məsihanın gəlişinin yaxınlığı haqqındakı hekayəsi maniheyçiliyin banisi Maninin mövcud dinlər əvəzinə universal sinkretik din yaratmaq cəhdini çox xatırladır.

Məzdəkin şəxsiyyəti haqqında az məlumat var. Atasının adı Bamdad idi, İstəhr və ya Təbrizdə doğulub, ya rahib və ya rahiblərin böyüyü (Mobedan mobəd) olub. Əqidəsi məlum deyil, lakin zərdüştçülüyü inkişaf etdirib yayırdı.

Müsəlman dini tarixçisi əş-Şəhrəstani (vəf. 1153) qeyd etmişdir ki, maniheylərlə iki bir-birinə əks mübarizə aparan mahiyyət – Nur və Zülmət konsepsiyasını bölüşdürən M. birincilərə məqsədəuyğunluq, ağıllı fəaliyyət, seçim azadlığı verib, ikincini bu keyfiyyətlərdən məhrum edir, Zülmətə fəlakət, kobudluq və təsadüfi qüvvə keyfiyyətləri şamil edirdilər. Nur (Xeyirxahlıq) substansiyasının aktivliyi - Dünyanın ədalətli - yenidən qurulması imkanını özündə gizlədirdi, bu vəziyyət M.-nin ictimai proqramını təşkil edirdi, bu, insanlar arasında təbəqə və mülkiyyət qeyri-bərabərliyinin məhvini nəzərdə tuturdu. Təbəqə maneələrinin məhvinin effektli vasitəsi rolunda M. arvadların ümumi olmasını elan etdilər. M.-nin ictimai şüarları İranın geniş əhali kütləsi arasında həmrəylik tapdı, belə ki, M.-nin bərabərlik ideyaları Məzdəkin bərpa etmək istədiyi erkən zərdüştçülük ictimai ədalət ideyaları ilə eyni səslənirdi, Məzdək insanları Avesta və Zendin mənalarını unutduqları üçün onları mühakimə edirdi. VI əsrin əvvəlində icmanın fəaliyyəti aristokrat əyanları və ali zərdüşt kahinlərinə qarşı ümumxalq hərəkatına qarışdı.

(Təqr. 530-cu ildə) M. hərəkatı Xosrov Ənuşirvan tərəfindən darmadağın edildikdən sonra Məzdəkin tərəfdarları Sasani dövlətinin əlçatmaz (dağlıq) rayonlarına qaçdılar. Təriqət İslamın ilk əsrlərində mövcud idi. Əl-M. təriqəti haqqında əş-Şəhrəstani, Yaqut, Rəşidəddin, Həmdulla Qəzvini və başqalarında xatırlanır; onlar məzdəki icmalarının kompakt şəkildə Cibalın dağ rayonlarında, Mazandaran və Xuzistanda mövcud olduqları haqda məlumat verirlər. Əslində isə bu icmalar daha çox idi, çünki müsəlman tarixçilərinin bir hissəsi M.-ni xürrəmilərlə (əl-xürrəmiyyə) eyniləşdirirdilər, onlar (xürrəmilər) M. ideologiyasının əsas elementlərini mənimsəmişdilər. Erkən İslam dövründə həm bunlar, həm də onlar «qatı» şiələrin təliminin elementlərini mənimsəmişdilər: peyğəmbərlər və imamların qayıdacaqları (racə`a), onların ilahiləşdirilməsi və ruhlarının köçürülməsi (tənəsuh) haqqında baxışlar və s. Erkən İslam zərdüştilərindən M.-ni müqəddəs oda ehtiramsızlıqları fərqləndirirdi. Əl-M. VIII-IX əsrlərdə ərəblər və feodallara qarşı hərəkatlarda aktiv iştirak edirdilər: (Əbu Müslim, sehrbaz Sunbad, Müğənna, Babək və s. çıxışları), çox vaxt xürrəmilər, şiələr və xaricilərlə birlikdə. Müxtəlif cərəyanların nümayəndələrini bu hərəkatlarda onların rəhbərləri tərəfindən elan olunan ictimai bərabərlik idyeası və dünyanın ədalətlə yenidən qurulmasına ümid birləşdirirdi.

**Ədəbiyyat:** İslam, 151-152; аш-Шахрастани. Книга о религиях, 223; Siyasət-namə, 238-257; Н.В.Пигулевская. Города Ирана в раннем средневековье. М.-Л. 1956, 278-316; Бартольд. Əsər. 7, 438-441; И.П.Петрушевский. К истории маздакидов в эпоху господства ислама. – НАА, 1970, 5, 71-81; M.Mole. Le probleme des sectes zaroastrinnes dans les livres pehlevis. – Or. 1961, 13-14, 1-28; O.Klima. Beitrage zur Geschichte des Mazdakismus. Praha. 1977 (Dissertationes Orientales, 37); Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 194-195.

**Məzhəb (cəmi məzahib – «yol», «istiqamət»)** – texniki istilahdır, İslamın bütün sahələrində istifadə olunur: ilahiyyat, fiqh, hədislər, fəlsəfə, sufizmdə. Mübahisəli və ilahiyyat ədəbiyyatında, doksoqrafiya və sufilikdə M. təlim (məqalın sinonimi kimi), doktrina, təriqət, məktəb (ilahiyyat, fəlsəfə, mühəddislər məktəbi), sufi yolunun keçilməsi üsulu (sufilərdə) mənasında istifadə olunur. Xüsusi və çox dayanaqlı mənada M. ilahiyyat-hüquqi məktəb, təriqət deməkdir. Erkən İslamda M.-lə müxtəlif hüquqi təlimləri (məs: M. əl-Övzai, M.Süfyan əs-Sauri) adlandırırdılar. Yayılması və qanuniliyinə görə sünni fikhi M.-in hər şeydən əvvəl dörd əsas ilahiyyat hüquqi məktəbi-hənəfilər, malikilər, şafeilər və hənbəliləri adlandırmağa başlayıb. Onların yaradıcıları Əbu Hənifə (təxm. 700-767), Malik ibn Ənəs (715-795), əş-Şafei (767-820) və İbn Hənbəldirlər (780-820). Sonra onlara beşinci - qanuni M.-ilahiyyatçı hüquqi məktəb-imami-cəfərilərin (əl-fiqh əl-cəfəri) məzhəbi əlavə olunub, hazırda bu, İranın dövlət hüquqi sistemidir.

**Ədəbiyyat:** İslam, 152; Z.M.Bünyadov. Dinlər, təriqələr, məzhəblər, 195-196.

**Məzun («icazə almış», «icazə verilmiş»)** – sahibindən ticarət, sənətkarlıq fəaliyyəti, o cümlədən sahibinin işlərini aparmaq üçün icazə almış qul. İcazənin müəyyən etdiyi hüdudlarda o, alıb-sata, borc və girov alıb-verə bilər və icazə verilmiş fəaliyyətə görə yerdəyişmə azadlığına malikdir. Qalan işlərdə onun hüquqi vəziyyəti dəyişmir, M.-un statusu təhkimçinin töycüdə olan statusuna yaxındır. İcazə verilmiş fəaliyyətdə əmələ gəlmiş borc M.-un boynundadır, borcu vermək üçün, əgər sahibkar onu vermək istəməsə qulu sata bilər. Sahib icazəni ləğv edə bilər, lakin bu haqda əyani surətdə məsciddə və ya bazarda elan etməlidir. M.-un malik olduğu mülkiyyət bəzi hüquqşünasların rəyinə görə onun özünün, bəzilərinkinə görə isə sahibindir.

**Ədəbiyyat:** İslam, 152.

**Mihnə** («sınaq») - 833-cü ildən Abbasi xəlifələri əl-Məmun, əl-Mötəsim və əl-Vasiq vaxtı ilahiyyatçıların mövcud rejimə münasibətləri

sınağa çəkilirdi. Quranın zaman daxilində yaradılmasını (hudus əl-Quran) qəbul edənlərə toxunmurdular. Müshəfin yaradıldığını qəbul etməyən ənənəçilər repressiya qurbanı olurdular. Bu vaxta qədər isə Harunərrəşid və əl-Əmin vaxtı hökumət ənənəçi ilahiyyatçıların fəal iştirakı ilə həmin tezisi qəbul edənləri təqib edirdi, o tezisi cəhmilər və mötəzililər də qəbul edirdi. Bir neçə dəfə həbsə düşən cəhmi Bişr əl-Marisi sonradan əl-Məmunun yaxın adamı oldu və M.-nin əsas ruhvericisi oldu. Təqib Bağdadda keçirildi, onun qurbanı Əhməd b. Hənbəl oldu. M.-yə xəlifə əl-Mütəvəkkil tərəfindən son qoyuldu, 849-cu ildə o, Quranın yaranması haqqında hər hansı bir diskussiyanı qadağan etdi.

**Ədəbiyyat:** İslam, 166; Patton. Ahmad ibn Hanbal. Sourdel Vizirat; yenə o. La politique religiense du calife Abbaside al-Ma`mun. – REI, 1962, 30, 27-46; J.Van Ess. Ibn Kullab und die Mihna. – Or, 1965-1966, 18-19, 92-142; M.O.Abusag. The Politics of the Mihna under al-Ma`mun und his Guccessors. Edinburgh, 1971.

**Mikayıl (ə) (Mikal, Mikail)** – Allaha ən yaxın olan məlakələrin ən mühümlərindən birinin adı. Quranda onun adı bir dəfə Cəbraillə (ə) bir yerdə çəkilir və Allaha, onun mələklərinə və elçilərinə düşmən olanlara hədə gələn kimi verilir (2:98/92). Rəvayətlərdə adı az çəkilir, olanda Cəbraillə (ə) bir yerdə, xüsusilə də Adəmi (ə) yaratmaq üçün torpaq gətirməkdə, meracdan əvvəl Məhəmmədin (s) ürəyini yumaqda və məkkəlilərlə vuruşda müsəlmanlara kömək etməkdə, müsəlman sehrində onun adı başqa mələklərlə (Cəbrail, İsrail, Əzrail (ə)) çox geniş istifadə olunur.

M. yəhudi və xristian mələki sayılan Mixailə uyğun gəlir, Mədinə surələrində İslamı «müdafiə edənlər» siyahısına daxil edilmişdir.

**Ədəbiyyat:** İslam, 164-165; ət-Təbəri. Təfsir, 1, 327; əl-Qəzvini. Əcaib, 57-58; Eickmann. Die Angelogie, 29-30; Horovitz. Untersuchungen, 143; Eichler. Die Dschinn, 129-131; Gaudefroy-Demombynes. Mahomet, 281; A.J.Wensinck. Mikal. – EI, 3, 566-567.

**Millət** – millət, din, dini icma. Quranda M. istilahı ilə bütpərəstlik (18:20/19; 14:13/16), yəhudilik və xristianlıq (2:120/114), yəhudilər, xristianlar və ərəb bütpərəstləri tərəfindən təhrif edilən İbrahimin həqiqi dini (6:161/162; 2:218/122; 130/124; 3:95/89; 4:125/124 və s.) göstərilib, o, Məhəmməd (s) tərəfindən bərpa edilib, onun ardıcıllarını birləşdirib.

Məhəmməd (s) dini əlamətlərinə görə birləşən cəmiyyəti M. adlandırırdı. İstilahın ikili mənası (din, cəmiyyət) şairlərin, alimlərin əsərlərində də izlənir (ət-Təbəri, İbn Xəldun, Qəznəvilərin istilahlarında, Həllacın əsərlərində).

Osmanlı imperiyasında XV əsrin II yarısından M. istilahı ilə yunan-parvoslav, erməni-qriqoryan və yəhudi icmaları adlanırdı.

Hazırda bu söz «xalq», «millət» mənasını verərək, Qurandakı mənaya uyğun gəlir, bu mənada hazırda o, Livanda işlənir.

**Ədəbiyyat:** İslam, 163; Родинонов. Марониты, 116; Horovitz. Untersuchungen, 62 və başqaları; Jeffery. Vocabulary, 268-269; St. J.Shaw. The Ottoman view of the Balkan. The Balkan in Transition: Essai on the Development of Balkan, life and Politics since the Eighteenth Setury. L., 1963; Tr. Buhl. Milla. – ShEI, 380.

**Miras (sinonimləri irs, virasə, vərəsə, virs, təriqə, turas)** – varislik: sahibkar və ya hər hansı bir mülk sahibi öləndən sonra başqasına keçən mülkiyyət, hüquq, öhdəçilik. Bütün varislik məsələləri islamaqədərki Ərəbistanda olmuş və Quranda təsdiq olunmuşdur. M. əsas hüquqi intizamın – İlmu-l-fəraidin mövzusudur. M. təkcə mülkiyyəti ələ almaq deyil, oraya borcları ödəmək, öhdəlikləri yerinə yetirmək, vəsiyyəti əmələ gətirmək, ölənin ailəsini himayə etmək və s. daxildir. Vərəsəliyə hüququ olan qohumlar üç kateqoriyaya bölünürlər: a) I dərəcəli qohumlar-valideyn, arvadlar, uşaqlar; b) II dərəcəli qohumlar – babalar, nənələr, qardaşlar, bacılar, nəvələr; c) III dərəcəli qohumlar – əmi-dayı, xala-bibi və onların uşaqları. Əgər birincilər olmasa ikincilər, olmasa üçüncülər vərəsəlik ala bilər.

Vərəsəlik bölünməzdən əvvəl onun bütün borcları, öhdəçilikləri ödənir, qulları azad edilir, arvadların mehri verilir, vəsiyyət edilməyən şeylər götürülür, qalanı isə bölünür.

Bölgü çox çətin bir mərhələdir; həmişə arvadın payı kişidən 2 dəfə azdır: uşaqlar hamılığa mirasın 2/3, valideynlər 1/6, arvadlar 1/8 hissəsini alırlar.

Varis olmadıqda bir məzhəbə görə mülkiyyət qəbilə və ya icma başçısına, onlar da olmayanda ictimai mülkiyyətə verilir, başqa məzhəbə görə M. birbaşa ictimai mülkiyyət olur.

**Ədəbiyyat:** İslam, 166; əş-Şeybani. Əl-Cami əs-səğir, 121-131; Əl-Əhkam əş-şər′iyyə, 95-108; Abu Zahra. Family Law, 160-178; J.Schacht. Mirath. – EI, 3, 584-591.

**Mir Daməd,** Mir Məhəmməd Bəkir b. Şəmsəddin Məhəmməd əl-Hüseyni əl-Astarabadi (vəf. 1631-32), şiə ilahiyyatçısı və filosofu, İsfəhan filosofları məktəbinin banisi. Astarabadda, məşhur şiə ailəsində doğulub, Tusda ənənəvi təhsilini almışdır, I Şah Abbas vaxtı (1587-1629) İsfəhana gedib sarayda qulluq etmişdir. İlahiyyat və fəlsəfə ilə çox məşğul olmuşdur. Nəcəfdə vəfat etmişdir.

M.D.-in ruhani (mənəvi) dünyası İbn Sinanın fəlsəfəsi, əs-Söhrəverdinin «şərq işraq» təsəvvüfü və imamətin şiə konsepsiyası təsiri altında kamilləşmişdir. Alimlər arasında M.D. («Birinci müəllim» Aristotel, «İkinci müəllim» Fərabidən sonra) «Üçüncü müəllim» ləqəbini almışdı. M.D. və onun şagirdləri qeyrətli şiə qalaraq öz sələflərinin fəlsəfi görüşlərini inkişaf etdirdilər.

M.D.-in ən çox tanınmış şagirdlərindən Molla Sədra, Əhməd Ələvi və Məhəmməd Qütbəddin Əşqavarini göstərmək olar.

M.D. çoxlu əsərlər yazmışdır. Ən çox məşhurları – Kitab ər-rəvaşih əs-səmaviyyə, Ər-Risalə əl-Haliyyə, Əl-Cizavatdır (sonuncu fars dilindədir). Kitab ər-rəvaşihdə M.D. əs-Şöhrəverdidən aldığı ruhun müqəddəs aləmə qalxması üçün bədəndən ayrılması (azad olması) ideyasını şərh etmişdir.

«İşraq» ideyasına bürünmüş imamət konsepsiyasını M.D. özünün birinci ekstat halında Qumda 1603-cü il fevral ayında ifadəli şəkildə şərh etmişdir. Birinci imam Əli b. Əbi Talib və Məhəmməd peyğəmbər (s) – «bir parlaq işıqdan» yaranmış iki törəmədirlər (nur şə′şə′āni), onlardan biri insan siuletini almış, ikincisi isə onun arxasınca gedərək titrək parıltı formasını almışdır. O, birinci törəmə Əlini (ə), ikinci törəmə isə Məhəmmədi (s) bildirir. 14 «məsumun» qruppasında Fatimə (ə) «iki İşığın birliyi» (məcmə′an-nuryen) – peyğəmbərlik Nuru və müqəddəslik kimi təqdim olunmuşdur. Bu sufinin ruhani dünyası meditasiya halında mələklər tacı ilə dairəyə alınmışdır, onun ortasında Məhəmməd peyğəmbər (s), 12 imam, Fatimə (ə) və Peyğəmbərin (s) beş ardıcılı durur. Dairənin ortasındakı sufi obrazı (surəti) ali (səmavi) «Məni», onun üstündəki «parlayan Fatimə» surəti isə (Fatimə əz-Zəhra) səmavi yaradıcı müdrikliyi rəmzləndirir.

M.D.-in əl-Cizavatı Quranda ayrı-ayrı hərflərin sufi mənaları haqqında traktatdır.

M.D.-in tədqiqatçılar tərəfindən gətirilən başqa əsərləri: Əl-Qabasət (Kainatın yaradılması və Allahın əbədiliyi haqda); Şəri′ an-nəcat (Din və hüququn əsaslarının şərhi); Sidrətü-l-müntəhə (Qurana şərh); Təqvimü-l-iman və ya Təqvim fi-l-kəlam (Din və Allahın fəlsəfəsi); Əl-Üfüqü-l-mübin və ya Əs-Siratü-l-müstəqim və Əl-Hablu-l-mətin (məntiqə aid).

**Ədəbiyyat:** İslam, 165; Müdərris. Reyhanat əl-ədəb, 6, 56-62; H.Corbin. Une grande figure du shi`isme iranien Mir Damad. – Orientalia Romana. Essays and Lectures. I, Roma, 1958 (Serie orientale Roma, 17), 23-49; yenə o. En Islam, 1, Index; A.S.Bazmee Ansari. Al-Damad. – EI, NE, 2, 103-104.

**Mir Məhəmməd Kərim** Mircəfər oğlu Mircəfərov (1855-2 mart 1938)-1904-cü ildən 1918-ci ilədək Zaqafqaziya qazisi və eyni vaxtda Bakı Quberniya məclisinin sədri. Quranın, Cürci Zeydanın «Ər-mənusa əl-

Nusriyyə», «Kərbəla yanğını», «On yeddi Ramazan», «Əzrai-Qureyş» adlı əsərlərin Azərbaycan dilinə tərcüməçisi, «Səlib müharibələri» adlı kitabın (I cild) müəllifi. Heç bir təqsiri olmadan kitabxanasında «39 ədəd müxtəlif antisovet (!) Quranı» olduğu, «öz dini ayinləri ilə antisovet təbliğatı»? apardığı üçün Azərbaycan Daxili İşlər Komissarlığının Fövqəladə üçlüyünün qərarına əsasən (2.III.1938) güllələnmişdir.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 196-197.

**Molla (farsca molla, ərəbcə mövla-ağa, hakim, hökmdara uyğun gəlir)** – islami qaydaları bilib ayinləri yerinə yetirən, dini məktəb müəllimi, savadlı, alim adam deməkdir – bu, (rus dilində) İslam ensiklopediya lüğətində yazılıb. Fikrimizcə, molla ərəbcə «mələ'» elmlə, biliklə dolmaq, dolu olmaq felindən olub hər şeydən xəbərdar, elmli, bilikli - (mullə ona görə də molla) mənasını verir. Dini şəxsiyyətlərin, ruhanilərin çoxunu əvvəlcə bu titulla qeyd edirlər (Molla Musa Axund, Molla Müzəffər Axund) hərtərəfli biliyə malik olanları da (Molla Pənah Vaqif, Molla Vəli Vidadi və s.) həmcinin.

Rusiya imperiyasında M.-nı keşişə bərabər tuturlar, qərarla təyin edilir, məmurlarla nəzarət olunurdular. M. xüsusi əmrlə, konkret məscidə təyin edilirdi.

**Ədəbiyyat:** İslam, 170.

**Molla Sədra,** Sədrəddin Məhəmməd b. İbrahim Şirazi (1572-1640) – İran ilahiyyatçısı, filosof və sufi, səfəvi İranında şiəliyin ideoloqu, İsfəhan fəlsəfə məktəbinin başçısı Mir Damədin ən yaxın şagirdlərindən biri. Öz ardıcılları arasında həm də Sədr əl-mütəallihin – «filosofların rəhbəri» kimi tanınır.

İbtidai təhsilini Şirazda almış M.S. təhsilini İsfəhanda davam etdirmiş, orada uzun müddət şeyx Bəhaəddin Amilinin (vəf. 1621) müridi olmuşdur; təfsir, şiə hədisləri, fiqh və başqa müsəlman elmlərini öyrənmiş, bundan sonra müstəqil dərs deməyə icazə almışdı. Fəlsəfəni öyrənməkdə M.S.-nın müəllimi Mir Daməd olmuşdur. Onun fəlsəfi görüşlərinin formalaşmasına işraq konsepsiyasının tərəfdarı Mir Əbülqasım Fendereski böyük təsir etmişdir. Onun sanskritdən tərcüməsində «yəhudilik farsca sufi dilində danışmışdır».

M.S.-nın sonrakı həyatı Qum yaxınlığındakı Kəhəklə bağlıdır, O, orada imami ilahiyyatçılarından 9-11 il gizlənmişdir, onlar onu artıq müdriklikdə (hikmət) və irfana görə mühakimə edirdilər. Bu könüllü sürgün M.S.-ya elmdə öz yerini tapmağa kömək etdi.

Kəhəkdən M.S. Şiraza qayıtdı, Şirazın hakimi ona böyük Şiraz mədrəsəsində müəllim yeri verdi. O, Şiraz fəlsəfə məktəbinə başçılıq etdi, bu İsfəhanla yanaşı İranın mühüm elmi mərkəzi oldu.

O, öz müridlərindən dörd şeyi tələb edirdi: var-dövlətdən imtina, dünyəvi hərislikdən imtina, təqlid və qulaq asmamaqdan imtina.

Onun çoxlu şagirdi və ardıcılı var idi, bunlardan Möhsin Teyr və Əbdürrəzzaq əl-Lahıci ən görkəmlilərindən idilər.

M.S. VII dəfə Məkkədən ziyarətdən qayıdarkən Bəsrədə vəfat etmiş, orada da dəfn olunmuşdur.

M.S. ilahiyyat və İslam fəlsəfəsinə aid 40-a yaxın əsərin müəllifidir. O, öz çoxlu sələflərinin əsərlərinə şərhlər yazmışdır – İbn Sinanın Əş-Şifası, əs-Söhrəverdinin Hikmət əl-İşraqı, əl-Kuluninin (vəf. 941) Əl-Kafi fi üsul-əd-dininə şərh və Qurana çox geniş Təfsir yazmışdır. M.S.-nın mübahisəli əsərlərindən ən məşhuru Se asl və Kəsr əl-əsnam əl-cahiliyyədir. I-də o, fəqihlərin cahilliyini, II-də kitabları və filosofların düşüncəsini saymayan aqnostik sufilərin iddialarını təkzib etmişdir. M.S.-nin fəlsəfi fikirləri və əsərləri çoxcildli Kitab əl-əsfar əl-ərbəa əl-aqliyyədə cəmlənmişdir. Öz mənasına görə İbn Sina və Nəsirəddin Tusinin eyni adlı traktatı ilə səsləşən Əl-Məbdə va-l-mə′ad əsəri M.S.-nın metafizikasını şərh edir və məzmunca Kitab əl-Əsfara oxşayır.

M.S.-nın əsas əsərinə həsr olunmuş «Ağlın səyahətinin» dördündən birincisi yaradıcı aləmlə başlayıb Allahda qurtarır (min əl-xalq ilə-l-haqq). Bu hissədə şeylərin quruluşu, materiya və forması, mahiyyət və aksidensiya məsələlərinə baxılır. İkinci səyahət – «Allahda və Allahla» (fi-l-haqq bi-l-haqq); bu yolda ağıl ilahi biliklərə, ilahi adlar və atributlara (ilahiyyat) sahib olur. III səyahət zəvvarı Allahdan, yaradılmış Dünyaya qaytarır, lakin Allahla birlikdə (min əl-haqq ilə l-xalq bi-l-haqq), o İlahi nurdan keçir. IV səyahət Allahla, yaranmış Dünyada baş verir (bi-l-haqq fi-l-xalq).

Qnostik şiə kimi M.S. imamət haqqında təlimdə aqnostikliyə və hürufiliyə qarşı çıxır. Onun təliminin cövhəri Quran kəşfinin reallığının qəbul edilməsidir, o, eyni zamanda zahiri və batinidir.

M.S. başqa qnostik şiələr kimi (məs: Heydər Amuli) çox həmdinlilərinə başa düşülməz qalmışdır, çünki onlar şiəlikdə ekzoterikliyi və ezoterikliyi ayrılmaz elan etmişlər.

M.S.-nın şərhində ilahiyyatla fəlsəfə bir-birinə qarşı deyil, onlar bir istiqamətdə fəaliyyət göstərirlər. O, deyirdi ki, Quran kəşfi elə bir işıqdır ki, onu ancaq fəlsəfi kamilliklə görmək olar. Fəlsəfi ağlı və ilahi kəşfi birləşdirmək zəruridir. M.S. İslamda təbiətdə və ümumiyyətlə, həyatda (Allah müstəsna olmaqla) daimi hərəkət nəzəriyyəsinin əsasını qoyan ilk filosofdur. Bu mənada M.S.-nı Aristotel və Heraklitin ardıcılı hesab etmək olar. Bu nəzəriyyəyə əsasən hərəkət sadəcə mövcud deyil, o həyatda yeganə

reallıqdır. M.S.-ya görə hərəkət sadədən kamilliyə inkişafdır, geriyə hərəkət yoxdur. Bu nəzəriyyə Allahla Dünya arasındakı əlaqələrə də aiddir. Həyat prosesi əbədi və sonsuzdur, nə göydə, nə yerdə daimi heç nə yoxdur.

M.S.-nın əsərlərinin xüsusi bölmələri, əs-Söhrəverdinin əsərlərinə yazdığı şərhləri və bir sıra kiçik traktatları esxatologiyaya həsr edilmişdir. Esxatoloji doktrinasını yaradarkən M.S. çoxlu ideyaları görkəmli qnostik İbn Ərəbidən götürmüşdür. Müsəlman fəlsəfəsində o, ilk dəfə öz vaxtı üçün esxatologiyanın tam metafiziki şərhini vermişdir. M.S.-nın əsərlərində Qiyamət günü ruhun qayıtdığı bədən haqqında müxtəlif fikirlər şərh edilir. Əl-Məbdədə o, ruhun bu həyatda olduğu cismə qayıtdığını qeyd edir.

M.S.-nın həyatı və əsərlərinə maraq onun vətəni İranda çox böyükdür. Demək olar onun bütün əsərləri və onlara sonrakı şərhlər XX əsrdə nəşr olunmuşdur.

**Ədəbiyyat:** İslam, 170-171; Sadr ad-Din Shirazi (Mulla Sadra). Al-Mabda wa I-ma`ad (The Begining and the End). Ed.by S.J.Ashtiyani. Persian and English introduction by S.H.Nasr. Tehran, 1976; Müdarris. Reyhanat əl-ədəb, 3, 413-420; H.Corbin. La place de Molla Sadra Shirazi dans la philosophie iranienue. – StI. 1963, 18-81-113; yenə o. En Islam, 1; F.Rahman. The Eternity of the World and the Heavenly Bodies in Post-Avicennan Philosophy: Essays on Islamic Philosophy and Science. N.Y., 1975, 222-237.

**Möcüzə - Mucizə (cəmi-mucizat)** – öz missiyasını təsdiqləmək üçün peyğəmbərlərin göstərdikləri şeylər. Quranda bu söz işlənilmir. Erkən İslam dövründə M.-nin sinonimi tez-tez ayə olurdu (cəmi āyət). İlahiyyatçıların çoxu M.-ni «müqəddəs» (vəli) tərəfindən edilən kəramətə qarşı qoyurdular. Mötəzililər hesab edirdilər ki, M. insan imkanından xaricdədir və ona görə də o, Allah tərəfindən yerinə yetirilir. Onlar və əş'ərilər M.-ni Peyğəmbər (s) missiyası üçün zəruri hesab edirdilər. Ümumiyətlə, hesab edilirdi ki, M. son Peyğəmbərin (s) vəfatı ilə əbədi qurtarmışdır. Özünü peyğəmbər kimi göstərmək istəyənləri isə edam etməyi tələb edirdilər (bax: əl-Həllac), onların möcüzəsini şarlatanlıq adlandırırdılar. Filosoflar (xüsusilə İbn Sina) determinizmdən çıxış edərək, M.-nin peyğəmbərlərin cismi və mənəvi təbiətinə qoyulduğundan onlar M. göstərə bilərdilər.

**Ədəbiyyat:** bax, kəramət məqaləsinə. İslam, 168.

**Möhtəsib -** (hisbəni yerinə yetirən), müsəlman əxlaq qaydalarının açıq şəkildə pozulmasının qarşısını alan və onu həqiqət yoluna qoyan M. adətən vəzifəli şəxs olub, ictimai yerlərdəki insanların ticari-sənətkar fəaliyyətlərinə nəzarəti yerinə yetirir.

Bazarda nəzarətçilər (amil alə əs-suq, vali alə əs-suq) artıq I Ömər vaxtı var idi, onların vəzifələrinə bir çox şeydən başqa ticarət vergilərini yığmaq da daxil idi, lakin əxlaq qaydalarına nəzarət haqqında məlumat isə yoxdur, əslində bu işləri Mədinədə xəlifə özü yerinə yetirirdi. M.-lər əsasən Abbasilər dövründə meydana gəldilər. M. haqqında ilk məlumat 780-ci ildə olmuşdur (bundan əvvəl Vəsitdə- sahib əmr bi-l-məruf olmuşdur). Əndəlüs və Məğribdə hisbə qaydalarında işlənən «sahibu-s-suq» adı qalmışdır (M. istilahı ancaq hüquqa aid ədəbiyyatda işlənir).

M.-i adətən dövlət başçısı təyin edirdi və o, qadi əl-qudatla paralel işləyirdi, icraçılıq hakimiyyəti var idi, cinayətə görə məhkəməsiz cəza verirdi, onun buna görə keşikçiləri var idi. Bəzi qaydalarda M.-in qaziyə də nəzarət etdiyini göstərirlər. Lakin adətən o, qazidən aşağıda durur və bir neçə dəfə ondan az maaş alırdı, Əndəlüsdə, Misir və İraqda M. qaziyə tabe idi.

Əxlaq qaydaları, şeylərin keyfiyyəti, ölçü və çəkilərin düzgünlüyündən başqa M. həm də şəhəri çörəklə təmin etməli, çətin vaxtlarda onun qiymət həddini qoymalı idi, o, həm də «təhlükəsizlik texnikasına» cavabdeh idi, bəzən də o, xəzinəyə də nəzarət edirdi. Ona bu işlərdə köməkçiləri kömək edirdilər. Misirdə onun iki köməkçisi var idi: biri Qahirə, o biri Fustat üçün. O, tacir və sənətkarlar arasında başçı (arif) təyin edirdi, onlar öz iş yoldaşlarının işləri haqda ona hesabat verirdilər.

M. vəzifəsi elə bu adla bir neçə xristian ölkəsində də (Yerusəlim krallığı, Ermənistan) işlənirdi. Buxarada o, 1920-ci ilə qədər işlənirdi.

**Ədəbiyyat:** İslam, 183; П.И.Петров. Бухарский мухтасиб,-ПВ, 1959, 1; А.М.Беленицкий, И.Б.Бентович, О.Г.Большаков. Средневековый город Средней Азии. Л., 1973, 301-304; О.Г.Большаков. Средневековый город Ближнего Востока: VII-середина XIII в. Социально-экономические отношения. М., 1948, 273-279; P.Chalmeta Genderon. E I «senor del zoco» en Espana. Madrid, 1973; Cl.Cahen, M.Talbi. Hisba.-EI. NE. 2, 503-510.

**Mömin (mu'min)** – inanan, dindar, iman gətirmiş. Quranda M. sözü beş dəfə işlənmişdir (Muminun-Quranın 23-cü surəsinin adıdır). Allahın adlarından biri və dindarın adını bildirmək üçün imanın daxili, mənəvi tərəflərini bildirən xüsusi istilah (20675/77; 24:3; 32:18; 44:12/11; 71:28/29). Müsəlmanlar kimin M. olması haqqında nəzəriyyə hazırlamışlar. Ənənəçilər «qəlbdən inanan» ('aqd bi-l-qəlb), imanını açıq elan edən (iqrar), xeyirxah işlər görən (əməl), səmimi məqsədi (niyyə) olan müsəlmanı M. sayırdılar. İmanı dəyişməz hesab edən mürciilər «mən haqqa inanıram» (ənə mumin haqq) formulasını irəli sürürdülər. İnsanın öz inamının dərəcəsini bilmədiyinə görə ənənəçilər, mütəkəllimlər, mötəzililər,

xaricilər və sufilər «Allah qoysa mən möminəm» (ənə mumin in şəə Allah) formulasının üstündə dururdular.

Surədə Allahın insanları necə yaratdığı və onlara nələr bağışladığı zikr edilir. Nuh, Musa, Harun və İsa peyğəmbərlərin qarşılaşdıqları çətinliklərdən bəhs edilir.

Ümummüsəlman adətinə görə M. müslimin sinonimi kimi işlədilir. Bax, iman.

**Ədəbiyyat:** İslam, 171-172; əl-Buxari. Əs-Səhih, 1, 13; İbn Bəttə. Əl-İbanə, 47-48; əl-Qəzali. İhya, 1, 103 ; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 207.

**Əl-Mötəzilə («ayrılanlar», «seçilənlər») -** mötəzililər, VII-IX əsrlərdə Dəməşq və Bağdad Xilafətinin dini-siyasi həyatında mühüm rol oynayan kəlamda ilk böyük cərəyanın nümayəndələri, İslam dinində rasionalizm istiqamətli ilk teoloji sistem. Rəvayətə görə əl-M. öz adını əl-Həsən əl-Bəsrinin (vəf. 728) Bəsrədəki dərnəyindən olan onun şagirdləri Vasil b. ′Ata` (vəf. 748) və Əmr b. Übeydin (vəf. 761) «ayrılmalarından» götürmüşlər. Başqa adları (əl-ədliyyun, əl-ədliyyə, əhl əl-ədl, əhl əl-ədl və-t-tövhid) «beş əsasın» ilk ikisidir. Mötəzili mənbələri təsdiq etdikləri kimi mötəzili Əbu-l-Hüzeylə əl-Əllafə vaxtı (vəf. 841 və ya 849) əl-M. tam formalaşdı. Bu əsaslar aşağıdakılardır: 1. «Ədalət» (əl-adl) - ilahi ədaləti insan iradəsinin azadlığını, Allahın ancaq «ən yaxşıları» yaratdığını (əl-islah) bildirir. 2. «Təkallahlılıq» (ət-tövhid) ciddi monoteizm təkcə politeizm və antropomorfizmi deyil, həm də ilahi atributlarının reallıq və əbədiliyini rədd edir. 3. Və′d təhdid (əl-va′d və-l-vaid); bu halı M. ilə xaricilər də bölüşdürürdülər, orada deyilirdi ki, Allah dediyini yerinə yetirməlidir - ya Cənnət, ya da Cəhənnəm, heç bir rəhimdillik olmamalıdır. 4. «Ortalıq hal» (əl-mənzilə beynə-l-mənziləteyn); ağır günah (kəbirə) işlədən müsəlman möminlərin sırasından çıxır, lakin imansız olmur, orta halda qalır. Bu vəsiyyət ilk M.-in Həsən əl-Bəsrinin dərnəyindən getmələrinə səbəb oldu, o, belə müsəlmanı «ikiüzlü» (münafiq) adlandırırdı. 5. Qəbul olunana icazə vermək, pis olanı qadağan etmək (əl-əmr bi-l-məruf və-n-nəhy an-l-münkər); bu, M., xaricilər və şiələr üçün ümumi qanun olub müsəlmanı hər bir vasitə ilə xeyrə kömək, şərlə isə mübarizə etməyə dəvət edir. M.-in insan iradəsinin azadlığı təlimi onların düşmənlərinə onları qədəri adlandırmağa əsas verirdi. Onlar özləri isə «Qədərilər bu cəmiyyətin maqlarıdır» deyə bunu rədd edirdilər. M. və cəhmilərin görüşlərinin yaxın olduğu üçün (xüsusilə də Allah və onun atributları haqqında) bəzi orta əsr müəllifləri kəlamın bu iki cərəyanı arasında fərq görmürdülər.

Şəhər əhalisinin savadlı orta təbəqəsi ilə ideoloji cəhətdən bağlı olan M. Əməvilərə qarşı olan dini-siyasi partiyalardan biri idi. M.-in zeydilərə rəğbəti çox şeydə onların Abbasilərə qarşı mənfi münasibətini əsaslandırırdı. Abbasilər vaxtı (xüsusilə Harunərrəşid vaxtı) onlar təqiblərə məruz qalırdılar. Lakin zeydilərə loyal yanaşan əl-Məmun və onun xələfləri əl-Mötəsim və əl-Vasiq vaxtı (813-847) M.-in vəziyyəti Xilafətdə çox dəyişdi: onlardan bir neçəsi məsul mənsəblər tutmuşdular; M.-in fəaliyyəti başqa rasional müdriklərinki kimi dövlət tərəfindən qiymətləndirilirdi. Lakin əl-Mütəvəkkil (847-861) vaxtı M. yenidən təqib olundular. Builər (büveyhilər) vaxtı (945-1055) M. yenə də siyasi arena və hakimiyyətdə peyda oldular, o vaxt Əbdül-Cabbarın (vəf. 1025) mötəzili məktəbi çiçəkləndi. M.-in ideyaları Yəmən zeydilərinin baxışlarında öz əksini tapmışdı, XII-XIII əsrlərdə isə onların ideyaları Xarəzmdə geniş yayıldı. M.-lərin rasionalist fikirləri və bir sıra ilahiyyatçı-fəlsəfi qurumları kəlamın sonralar yaranmış əş'ərilik və məturidiliyin malı oldu. M.-in fəaliyyəti ellin ənənələrinə (fəlsəfə) meylli fəlsəfi fikrin formalaşmasına imkan yaratdı, onun ilk böyük nümayəndəsi M. dairəsinə yaxın olan filosof əl-Kindi idi, o, əl-Mütəvəkkil vaxtı M.-i dəstəkləyirdi. IX-X əsrlərdə M.-in əsas məktəbləri Bəsrə və Bağdad məktəbləri idi. Bəsrə məktəbinin görkəmli nümayəndələri Müəmmar b. Abbad (vəf. 830), Əbu-l-Hüzeyl əl-Əllaf, ən-Nəzzam (vəf. 835-36 və ya 845), əl-Cahiz (vəf. 868-69), Əbu Əli əl-Cübbai (vəf. 915) və onun oğlu Əbu Haşim (vəf. 933) olmuşlar. Bişr əl-Mütəmir (vəf. 825-dən sonra) tərəfindən əsası qoyulan Bağdad məktəbinə Sümamə b. əl-Əşras (vəf. təx. 828), Əbu Musa əl-Murdar (vəf. 840), Əhməd b. Əbu Duad (vəf. 854), əl-Həyyat (IX əsr) və əl-Kə'bi aiddirlər. Bu məktəblər arasındakı mübahisə və müzakirələr haqqında mötəzili Əbu Rəşid ən-Neysəburi (vəf. təx.1024) Əl-Məsail fı-l-xilaf beynə-l-bəsriyyin və-1-bağdadiyyin əsərində məlumat vermişdir (Beyrut, 1979).

M. məzhəbinin görkəmli alimləri onun etiqat prinsiplərini beş əsasda görürlər: 1) Tövhid (Allah təkdir), 2) Ədl (ədalət), 3) Vəd və Vəid - yaxşı və pis əməllər axirətdə öz yerini tapacaq, 4) Əl-Mənzilə beynəl-mənziləteyn - böyük günah etmiş şəxs imanla küfr arasında – fisq mərtəbəsindədir, 5) Əl-Əmr bil-məruf va-nəhy anıl-münkər.

Mötəzili rasionalizmi məntiqi nəticəni məşhur «allahsız» (mülhid) İbn ər- Ravəndidə (vəf. IX əsrin 60-cı illərin əvvəli və ya X əsrin əvvəli) tapdı, o, peyğəmbərliyi, bütün kəşfi dinləri rədd edirdi. Elə bu istiqamətdə Abbad b. Süleyman, Sümamə b. Əşras, İsa əs-Sufi və başqalarının ideya inkişafı gedirdi.

Erkən M. hesab edirdilər ki, xəlifə hökm deyil ki, qüreyşi olsun, lakin sonrakı M. deyirdilər ki, qüreyşi olmayan imam ola bilməz, əgər bu mənsəbə layiq qüreyşi varsa. Əl-M. və xaricilər ədalətə imamın zəruri

keyfiyyəti kimi baxırdılar və buradan da hesab edirdilər ki, ədalətsiz imamı icmanın qərarı ilə hakimiyyətdən uzaqlaşdırmaq olar.

Yeni vaxtda M. rasionalist meylli müsəlman alimlərini, 80-ci illərdə isə «islam sollarının» ideya cərəyanını (əl-yəsər əl-islam) ruhlandırırdılar.

**Ədəbiyyat:** İslam, 175-176; Juze. Mutazilitı; Qriqoryan. Filosofiya; Z.Cərallah. Əl-Mütəzilə, Qahirə, 1947; M.Əmarə. Əl-İslam və fəlsəfət əl-hökm. 1-3, Beyrut, 1977; ən-Nəşşar. Nəş'ət; Bədəvi. Məzahib; A.N.Nader. Le sisteme philosophique des Mutazila. Beirut, 1956; M.Bernard. La notion de ilm cher les premiers mu`tazilites. - StL, 1972, 36, 23-46, 1973, 37, 23-56; L.Gardet. Signification du «renouveau mutazilite» dans la pensee musulmane contemroraine, 197-202.- Islamic philosophy and the classical tradition. Columbia, 1973, 63-75; Watt. Period; J.R.Peters. God's Created Speech. Leyde, 1976; Wolfson. The Philosophy; Lambton. State.

**Mövla (cəmi məvali)** – 1) hami, himayədar, havadar, cənab, ağa (Quranda Allaha 3:150/143; 8:40/41 və s. adətən mövlanə – «Bizim Ağa» formasında aid edilir; 2) himayə olunmuş, çox vaxt, azad olunandan sonra sahibi və ya onun varisləri ilə bəzi asılılıq əlaqələrini saxlayan azad olunmuş qul: o, mənən onlara kömək etməli və ya onları müdafiə etməli idi, o, onlardan kəbin üçün icazə almalı idi, birbaşa varisləri olmayanda onun mülkünə ağa sahib olurdu.

Müsəlman fütuhatlarından sonra qaliblərin himayəsində sayılan, fəth olunmuş (ərazilərdəki) qeyri-ərəbləri məvali adlandırmağa başladılar. Əməvilər vaxtı M. ictimai təbəqə təşkil edib, xüsusilə də Abbasilər vaxtı çoxlu kütləvi çıxışlarda böyük rol oynadılar. Xorasan ordusunda 7 minlik M. dəstəsi var idi, lakin onlar maaş və pay almırdılar. II Ömər vaxtı onları başqa döyüşçülərlə bərabərləşdirməyə cəhd etdilər.

Ərəb və qeyri-ərəb müsəlmanların hüquqlarını bərabərləşdirən Abbasi çevrilişindən sonra M.-in birgə asılılığı ləğv olunur. Orta əsr Xilafət ərazisində M. müsəlman mədəniyyətində böyük rol oynadılar. Müsəlman ilahiyyatı və hüququnun çoxlu yaradıcıları M.-dən çıxmışlar (Əbu Hənifə, ən-Nəxəi və s.).

X-XIII əsrlərdə bəzi hökmdarların ləqəblərindəki M. ancaq vassallığı bildirir.

**Ədəbiyyat:** İslam, 161; M.St. 1, 104-120; М.Б.Чураков. Мавали в Аравии периода джахилийи. - НАА, 1976, 3, 129-137; Д.Б.Негря. Общественный строй Северной и Центральной Аравии в V-VII вв. М., 1961, 69-82.

**Mövləviyyə (türkcə mövləvi) -** təxminən 1240-cı ildə Konyada (Kiçik Asiya) Cəlaləddin Rumi tərəfindən əsası qoyulmuş sufi qardaşlığı.

Xorasanlılar tərəfindən yaradılmış və Xorasan sufi məktəbi ilə bağlı olan M. tezliklə türk yerli qardaşlığına çevrildi və Bağdad məktəbindən bir sıra xüsusiyyətlər əxz etdi. Dünyagörüşünə görə sünni olan M. öz mənəvi silsiləsini Əli ibn Əbu Talibdən almışdır. Qardaşlığın adı mövləvidən gəlir, ruminin ardıcılları və şagirdləri (Mövlanə) özlərini belə adlandırırdılar. XIV əsrdə Konyada bu qardaşlığı cəlaliyyə adlandırırdılar. Ənənəyə görə M. 12 ana qardaşlığa daxil idi, lakin o mərkəzi olmağına baxmayaraq, heç bir müstəqil qol yaratmamışdı.

Əvvəlcə qardaşlığın əsasını xırda tacirlər, bazar əhli, sənətkarlar, alverçilər və s. savadsız və sənətlə məşğul olanlar təşkil edirdi: tədricən M.-nin ictimai üzü dəyişdi, o, qardaşlığa çevrildi, onun üzvləri elitar və savadlı cəmiyyət dairəsindən idi; Osman sultanlarının çoxu M. ilə bağlı idi.

M.-nin ilk formal başçısı (təqribən 1264-cü ildə) şeyx və xəlifə titullu Hüsaməddin Həsən Çələbi (vəf. 1284) oldu. Onun varisi Ruminin oğlu Sultan-Vələd (1226-1312) oldu, onu qardaşlığın faktiki yaradıcısı hesab etmək oalr. Onun rəhbərliyi ilə M. irsi oldu, əsasən də onun böyük oğlu Ulu Arif Çələbinin (1272-1320) xətti ilə. İlk Osman sultanları vaxtı (XIV əsrin axırı) M. geniş şöhrət tapdı və Kiçik Asiyada yayıldı. İstanbulda M.-nin ilk təkkəsi 1492-ci ildə tikildi. Osmanlı fütuhatından sonra M. ərəb dünyasında yayılmağa başladı (Qahirə, Dəməşq, Bağdad, Yerusəlim). Yerusəlimdə M. zaviyəsi 1586-cı ildə tikildi və o, XIX əsrin sonuna qədər fəaliyyət göstərdi. M. təkkələri Azərbaycanda da kök atdı, lakin İranda onlar yayılmadılar. Qardaşlıq xüsusilə Türkiyədə 1925-ci ilin 4 sentyabrınadək aktiv surətdə fəaliyyət göstərirdi, onda Atatürkün dekreti ilə qardaşlıq buraxıldı, onun torpaqları və mülkiyyəti müsadirə olundu.

M.-nin mərkəzi iqamətgahı Konyada Cəlaləddin Ruminin məzarı yanında idi və o, qardaşlığın rəhbərinin iqamətgahı hesab olunurdu, rəhbəri molla Xunqar (farscadan-xudavəndəqar-ağa deməkdir) və ya Çələbi əfəndi çağırırdılar. M. öz mövcudiyyətinin axırıncı günlərinədək qardaşlığın dəqiq təşkil olunmuş quruluşunu saxlamışdı. M.-nin silsiləsinə görə qardaşlığın rəhbərlərinin sayı 30 olmuşdur, onlardan 29-u Ruminin Sultan-Vələd nümayəndələri olmuşlar. Axırıncısı isə şeyx Bəhaəddin (Burhanəddin) Məhəmməd-Vələd Çələbi olmuşdur.

M.-nin dünyagörüşünün əsasında Cəlal əd-din Ruminin «üçüncü yol» eklektik ideyası durur (Başqa qardaşlıqlardan fərqli olaraq). M.-də sufi həqqayagetmə (səm'a, hadra) və kollektiv zikr zamanı musiqi, mahnı və rəqsə xüsusi əhəmiyyət verilirdi. M.-nin üzvləri hesab edirdilər ki, insan qəlbinə qoyulmuş Mütləq ruhun hissəsi ən yaxşı musiqi altında rəqs zamanı təmizlənir və musiqi Allaha yaxınlaşmağa kömək edir. Avropada da tanınan M. Pir Adil IV Çələbi (vəf. 1461) – 10-cu rəhbər vaxtı qanuniləş-

dirildi. Sonda bu adətlər teatrlaşmış təqdimatlara çevrildi ki, onlara yad olanlar və başqa dindən olanlar da buraxılırdı.

M. qardaşlıq üzvlərinin iyerarxiyası: 1. Mürid – 25 ədəd 40 günlükdən (ərbəin) ibarət olan 1000 günlük müddətdə yoxlama üçün qardaşlığa müvəqqəti qəbul edilən şəxs: I qırxgünlükdə o, at tövləsində, II-də ayaqyolu təmizliyində, III-də qabyumada işləyir. 2. Dərviş-mürid-1001-ci günlüyündə qardaşlıq üzvülüyünə qəbul edilmiş şəxs. O, təkkədə yaşayır, ancaq iş vaxtı ordan çıxır. Evlilərə ailəsi ilə evdə qalmağa icazə verilir, ancaq həftədə iki dəfə (xüsusilə, V gün səm'asından əvvəl) onlar zaviyədə gecələməlidirlər. Mərkəzi təkkələrdə evlilərə gecələmək icazə verilmirdi. Qardaşlığın üzvlərinə dilənçilik etmək qəti qadağan idi. Onlar azuqələrini öz zəhmətləri ilə qazanmalı idilər.

3. Çələbi - yerli və ya regional təkkənin başçısı ancaq M.-nin rəhbəri tərəfindən təyin və təsdiq edilir. Əgər zaviyədə mürid və dərviş - müridlərin sayı 30-40 nəfəri keçərdisə, onun rəhbərinin müavini - (naib və ya xəlifə), xəzinədarı və aşbazı olurdu.

Mürid və dərvişin qəbul ənənəsi çox təntənəli surətdə keçirilirdi. Ümumi iclasda qardaşlığa qəbul olunan ümumi qazandan yemək yeyir, qüsl-yuyunma ayinini yerinə yetirir və and içir, bundan sonra Çələbi M.-nin papağını onun başına qoyur və M.-nin gizli zikrinin məna və formulasını onun qulağına pıçıldayır (təlqin-i zikri xəfi).

Rumi vaxtından M.-in əsas bayramı təzə il sayılırdı. Beşinci günlər zaviyələrdə Peyğəmbər (s) və ya qardaşlığın başçısı şərəfinə kollektiv zikr və həqqayagetmə (səm'a) ayin-i şərif yerinə yetirilir.

**Ədəbiyyat:** İslam, 162; Əflaki. Mənakib, 91b, 445b-470a; Djami. Nafahat, 540-544, 647; Fəruzənfər. Risalə, 184-190, şəkil.; Петрушевский. Ислам, 344; Brown. Darwiches, 250-264; İndex; de Yong. Safi Orders, 170-171; Schimmel. Dimensions, 315, 324-325; Trimingham. Orders, Index; Popovic. Orders; H.Ritter-A.Bausani. Galal al-Din Rumi. – EI, NE, 2, 396.

**<u>Mövlud (və ya mövlid)</u>** – «doğulan yer», «doğulan vaxt». 1. Mövlud ən-nəbi-Məhəmməd peyğəmbərin (s) doğum günü bayramı-rabi əvvəl ayının 12-də qeyd edilir, həm də Peyğəmbərin (s) Məkkədə doğulduğu yer, sonradan o, (XIII əsrin sonunda) namaz yerinə çevrildi. Məhəmmədin (s) dəqiq doğum tarixi olmadığına görə M. ən-nəbi onun vəfat günü kimi qəbul olunub. M. ən-N. haqqında ilk məlumatlar (XII əsrin sonu) Fatimilər Misirində olan uyğun adətlərdən xəbər verirdi. M. ən-N. ilə yanaşı Əli (ə), Fatimə (ə) və hakim xəlifənin doğum günlərinin qeyd edilməsi şiə Fatimi ideologiyası prinsiplərinə uyğun gəlirdi. Bu bayramlar əsasən rəsmi olub, xalq arasında geniş yayılmamışdı.

Sünni mənbələrinə görə ilk M. ən-N. Müzəffərəddin Kökburi tərəfindən təşkil edilmişdi, sonra isə 1207-ci ildə Yuxarı Mesopotamiyada İrbil şəhərində Səlahəddin tərəfindən keçirilmişdi. XIV-XVII əsrlərdə Osmanlı imperiyasında M. ən-N. rəsmi bayram elan edildi.

Lap əvvəldən M. ən-N. və övliya, imam, sufi şeyxlərinin M.-nun qeyd edilməsi dini nüfuzlar tərəfindən bid`ə elan edildi. İslamın təmizliyini qoruyan sünni ilahiyyatçıları qəti surətdə buna qarşı çıxıb qeyd etdilər ki, guya bayram İslamın ruhu və məğzinə ziddir. Tənqidə baxmayaraq M. ən-N. icmaya - bid`ə həsənə – qəbul edilmiş kimi- tapşırıldı. Barışmayanlar – sonralar vəhhabi olan İbn Teymiyyə və başda M. Abdo olmaqla Misir modernistləri oldular. İndi Pakistanda M. ən-N. üç gün istirahətlə bayram edilir.

2. Məvalid (M.-un cəmi) – Peyğəmbərin (s) mədhiyyəsi, M. ən-N.-nin atributudur. Burdanın iki qəsidəsi ona aiddir, Fələstində and içəndə oxuyurlar. Məkkədə yaxın adamın vəfatından V gün onu oxumaq adət şəkli alıb.

3. M.- doğum və ölüm (d.d. əbədi həyat üçün doğulma) günlərinin bayramları (müqəddəslərin, imamların, sufi şeyxlərinin) – bu günlərdə onların məzarlarını ziyarət etməyə üstünlük verilir. Çox vaxt bunlar xalq bayramlarına çevrilir.

**Ədəbiyyat:** İslam, 163; Мец. Ренессанс, 334-335; Лэйн. Нравы, 211, 357 və başqaları; Grünebaum. Festivals, 72-80; N.Cağatay. The Tradition of Mawlid recitations in Islam particularly in Turkey. – StI, 1968, 28, 127-133; H.Tuchs. Maulid. – EI, 3, 419-422.

**Musa** – Quran surəti, peyğəmbər, Allah elçisi, ona ət-Tövrat, Kitab, Furqan, Suhuf nazil olunub, bibliya Moiseyidir. Qibti dilində mu+sa «ağaclar», müqəddəs kitablarda Moisey – «sudan xilas edilmiş» deməkdir. M. haqqında Quran hekayətləri olduqca müfəssəldir (Rəvayətə görə Firona kahinlər onun bir yəhudi gənci tərəfindən öldürüləcəyini xəbər vermişdilər). Buna görə də Misirdə Firon yeni doğulan yəhudi oğlan uşaqlarını öldürdüyü üçün Allahın əmri ilə M.-nın anası onu beşiklə çaya atır və qızı Məryəmi onu izləməyə göndərir. Oğlanı Fironun arvadı tapır, onu tərbiyə etməyə başlayır və əmizdirməyə (varlı ailələrin arvadları uşaqlarını əmizdirməyə başqa qadınlara verirdilər) onu elə öz anasına verir. Bir dəfə gənc M. öz qəbilə yeniyetmələrindən birinin misirli ilə savaşında iştirak edərək, misirlini öldürür və qaçmalı olur. Mədyəndə o, iki qıza öz heyvanlarını suvarmağa kömək edir. Onların atası ilə tanış olub, onların biri ilə evlənir və bunun əvəzində 8-10 il ərzində onun atası üçün işləməli olur. Müddət bitdikdən sonra M. öz ailəsi ilə birlikdə yola düşür, yolda görünən oda tərəf gedir və od-alov içində olan Allahla üzbəüz qalır. Allah ona deyir

ki, onu Firona peyğəmbər göndərir, o, onun xalqına təkallahlığı təlqin etməlidir. M. o ölkəyə qayıtmaqdan, Firondan qorxurdu, bundan başqa o, pis danışırdı (fikrini çətin izah edirdi). Onda Allah ona köməyə qardaşı Harunu (Bibliya Aaronu) verdi. Peyğəmbərlik missiyası kimi Allah M.-ya doqquz möcüzə verdi, o cümlədən, onun əsası canlı ilana çevrilirdi, qara əli qoltuğu altından ağappaq çıxırdı.

M. (ə) Fironun yanına gəlib ondan Allaha iman gətirməyi və israillilərə Misirdən çıxmağa icazə verməyi tələb etdi, əsası və əli ilə olan möcüzələri nümayiş etdirdi. Firon və ətrafı M. (ə) və onun qardaşını sehirbaz kimi qəbul edib, Misirin ən yaxşı sehirbazlarını onunla yarışa çağırdılar. Onlar məğlub oldular (M. (ə)-ın canlanan əsası onların bütün əsa və iplərini uddu və onlar M. (ə)-ın Allahına iman gətirdilər). Firon qəzəblənib Hamanə gildən yüksək qüllə tikməyi əmr etdi ki, onun başına qalxıb, orada heç bir Allahın olmadığını sübut etsin. O, Allaha iman gətirən M. (ə) –ın həmqəbilələrini qəddarcasına təqib etməyə başladı (M. (ə) –ın həmqəbiləsindən biri də Allah tərəfindən məhv edilən lovğa Qarun idi). Bir neçə misirli və Fironun arvadı da Allaha iman gətirdi. İman gətirməyənlərin təqibi üçün Allah Misirə hər cür fəlakətlər göndərdi – qalan doqquz möcüzəni; Firon israilliələri buraxmağa söz verdi, amma sözünün üstündə durmadı. Onda Allah M.-ya əmr etdi ki, gecə öz xalqını Misirdən çıxartsın. Əsasının zərbəsi ilə o, dənizin suyunu yardı və israillilər onu keçdilər. Firon və ordusu gəlib onlara çatanda, sular yenidən birləşdi və onlar qərq oldular. Təkcə günahını boynuna alan Firon xilas oldu, bağışlandı və dalğalar onu sahilə atdı (başqa mənbəyə görə bağışlanmır və ölüsü sahilə atılır).

M. (ə) öz xalqı ilə səhraya gəlir, əsası ilə 12 bulaq açır və Allah onun xahişi ilə onlara yeməyə firni və bildirçin göndərir. Sonra M. (ə) camaatdan uzaqlaşır və dağa qalxır, orada Allah ona tapşırıqlar yazılmış lövhələr verir. Camaat isə Haruna qulaq asmayaraq, əs-Samiriyə inanıb, buzovu özlərinə büt seçib, ona sitayiş etməyə başladılar.

M. (ə) qayıdıb onları müqəddəs torpağın bərəkətli şəhərlərinə getməyə çağırdı, lakin onlar orada yaşayan nəhənglərdən qorxub getmədilər və ancaq M. (ə)-ın vəfatından sonra həsrəti çəkilən yerə getdilər. Hekayənin bu yerinə M. (ə)-ın qaydaları – şənbəyə riayət, hansı heyvanı kəsməli, tapılan meyitlə nə etməli və s. daxildir (2:51/48-73/68; 4:153/152-154/153; 5:20/23-26/29; 7:103/101-162; 10:75/76-93; 11:96/99; 14:5-8; 17:101/103; 20:9/8-98; 23:45/47-50/52; 25:35/37-36/38 və s.).

Maraqlı hekayə M. (ə)-ın öz qulu ilə «iki dənizin birləşdiyi yerə» gedib, orada «Allahın qulu» (əl-Xıdır) ilə rastlaşması və ondan onu (əl-Xıdırı) müşayiət etməyi xahiş etməsidir.

M. haqqında Quran hekayəti Bibliya hekayələrinə oxşayır. Erkən hekayətlər M. (ə)-ın gəncliyi və Fironla mübarizəsinə həsr olunub. Adi

insanlar və ilahiyyatçılar üçün M. (ə) qədim peyğəmbərlərin ən parlaq üzvlərindən biri kimi qəbul edilir. Onun Fironla hədisi isə lovğalığın ifşası üçün müsəlman ədəbiyyatında geniş istifadə olunur. Sufilər də Allah tərəfindən M. (ə)-a verilən möcüzələri yüksək qiymətləndirirlər. M. (ə) 120 yaşında Allah tərəfindən Nevo dağına çağrılır, o, ancaq oradan İsraili (həsrəti çəkilən yer) seyr edə bilir, orada vəfat edir, qəbrinin yerini bilmirlər.

**Ədəbiyyat:** İslam, 173-174; ət-Təbəri. Tarix, 1, 414-449; yenə o. Təfsir, 9, 9-63; 16, 107-152; 19, 40-52, 20, 18-52, 24, 36-46; əs-Sə'ləbi. Qısas, 94-140; əl-Kisə'i. Qısas, 195-239; İbn Ərəbi. Təfsir, 1, 120-122; Eisenberg. Moses; Walker. Biblie Characters, 84-111; Horovitz. Untersuchungen, 43, 114-115, 141-143; Speyer. ErzÎhlungen, 225-263; Sidersky. Les origines, 73-103; A.Yahuda. The Golden Calf and the Samiri, - 1, Goldziher Memorial Volume. 1. Budapest, 1948-280-308; Gaudefroy-Demombynes. Mahomet, 355-370; Paret. Commentar, 169-177, 316-318; Beltz. Sehnsucht, 116-128; B.Heller. Musa. – EI, 3, 797-798; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 202-203.

**Museyi Kazım** (Musa əl-Kazım 745-799) İsnəaşəriyyə şiələrin yeddinci imamı, imam Cəfər əs-Sadiqin oğludur. O, 745-ci ildə Peyğəmbərin (s) anası Əminənin qəbri olduğu Aləl-Əbvada dünyaya gəlib. Mədinədə atasının yanında yaşayıb, heç bir siyasətə qoşulmayıb. Buna baxmayaraq xəlifələr onu şübhəli şəxs hesab edirdilər. Harunərrəşid 795-ci ildə onu Bəsrə, sonra da Bağdada göndərir. Harun gah onu zindana saldırır, gah da onu öldürtmək istəyir. Heç bir müsəlman bunu boynuna götürmədikdə o, «firəng» qatilləri çağırır. Lakin onlar da Museyi Kazımın şərəfli ailədən olduğunu bilib, bu işi rədd edirlər. Nəhayət, Museyi Kazım 799-cu il Rəcəb ayında zindanda vəfat edir. O, Bağdadda, indi böyük ziyarət yerinə çevrilən Qüreyş qəbiristanlığında dəfn olunub, onun nəvəsi 9-cu imam Məhəmməd ət-Təqi də onun yanında dəfn olunub. Onlar hər iksi çox səbirli, «hiddətlərini boğmağı bacaran» (kazım) olduqlarına görə ziyarət yerini və Bağdadın bu məhəlləsini (rayonunu) Kazımeyn –iki hirsini boğan adlandırırlar. Hazırda onların məzarları üzərində böyük məscid tikilib və ziyarət yerlərindən biridir.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 203-204.

**Museyi Riza (Əli ər-Riza və ya Əli ibn Musa)** – səkizinci şiə imamı – 765 (770)-ci ildə anadan olmuşdur. 816-cı ildə xəlifə əl-Məmunun sarayına dəvət olunmuş, onun hiyləsi ilə taxt-tac vəliəhdi elan edilmiş, onun qızı Həbibəyə evlənmişdir. Məmun imamdan, mötədil şiələrlə ittifaq yaratmaq üçün vasitə kimi istifadə etmək istəyirdi.

Xəlifə şiələrlə əlaqələri kəsdikdən sonra imam Museyi Riza h. 81-ci ilin sentyabrında əl-Məmunun əmri ilə Xorasan vilayətinin Tus şəhəri yaxınlığındakı Nukən kəndində zəhərlənmişdi (İmamların çoxunun Müaviyənin Yezidə nəsihəti yolu ilə öldürülməsini oxucu asanca izləyə bilər: imam Həsən, imam Hüseyn, imam Huseyi Kazım, imam Rza və s.). Onun məqbərəsi şiələrin ziyarətgahına, onların başlıca müqəddəs yerlərindən birinə çevrildi və Məşhədi Əli Riza, Məşhəd Museyi Riza, Məshədi Rezevi (Əli Rizanın şəhid olduğu yer), onun yerləşdiyi kənd isə Məşhəd şəhəri adlanmağa başladı.

**Ədəbiyyat:** İslam, qısa məumat kitabı, B., 1985.

**Mut′ə -** müəyyən müddətdə (bir gündən 99 ilədək) bağlanmış müvəqqəti nikah, burada mehr yerinə arvadı saxlamaq, nikahı tərk edəndə isə ona nəsə bağışlamaq olar. İslamaqədərki Ərəbistanda M. adi hal idi. Hesab edilir ki, Məhəmməd peyğəmbərin (s) müxtəlif qəbilələrdən çoxlu qadınlarla nikahı - M. olmuşdur. M.-yə icazəyə Quranda işarə vardır (4:24/28). Lakin sonralar M. Quranın başqa göstərişinə görə qeyri-mənəvi hesab edildi, orada icazə verilən 4 arvaddan çox nikah etmək qadağandır (33:52). Lakin İslamda nikahın müddəti göstərilmədiyinə görə qısa müddətli nikah- M. və ya adi nikah olduğunu təyin etmək çətindir. Buna görə də M. bəzi məzhəblərə görə zahirən qanuni, əslində günah (haram səhih), başqa məzhəblərə görə isə qadağan olunmayan, lakin yaxşı sayılmayan (məkruh) hesab edilir. M. təkcə şiələr-imamilər tərəfindən tam icazə verilən sayılır.

Hüquqi əlaqələrdə M.-də olan arvad mehr verilən arvada bərabər tutulur, d.d., onun uşaqları qanuni hesab edilir, ərli qadının bütün hüquq və vəzifələri ona da aiddir. M. nikahı tərk ediləndən sonra arvad yenidən cinsi əlaqəyə girmək üçün müddət (iddə) gözləməlidir. Bəzən M.-ni nikah-müqavilə formulasının adına görə siqə adlandırırlar, burada nikaha girmək şərtləri tərəflər arasında razılaşdırılır.

M.-nin başqa (ikinci) mənası xütbə razılaşmasından sonra nikahdan imtina edilərkən nişanlı qıza (gəlinə) verilən kompensasiyadır. Onun (M.-nin) forma və miqdarı hər iki tərəfin razılığı ilə müəyyən edilir, razılıq olmayanda qərarı qazi verir.

**Ədəbiyyat:** İslam, 175; əş-Şeybani. Əl-Cami əs-səğir, 29; Stern. Marriage, 151-157; A. A. A. Fyzee. Legal theories. – Law in the Middle East, 113-131; W.Heffening. Mu`ta. – ShEI, 418-420.

**Müaviyə b. Əbu Süfyan** (təxm. 605-680) – ilk Əməvi xəlifəsi (661-680). Qüreyşi rəhbərlərindən biri Əbu Süfyan Səhr b. Hərbin oğludur, Məhəmmədin (s) qaynı olub, onunla düşmənçilik edirdi. Məkkənin

fəthindən sonra (630) İslamı qəbul edib (d.d., etməyə məcbur olub), Məhəmmədin (s) katibi oldu. 634-cü ildən M. Yəzid b. Əbu Süfyanın dəstəsində Fələstinin fəthində iştirak edib, güclü möhkəmləndirilən Kəsarenin alınmasında (640) fərqlənib. Yəzidin ölümündən sonra Fələstinin canişini olub, sonra da Suriyanın, 648-49-cu ildə Kiprin fəthinə başçılıq edib.

Osmanın qətlindən sonra (656) M. Əlini xəlifə kimi tanımaqdan imtina edib, qəsdən onu qətldə günahlandırdı. 657-ci ilin avqustun sonunda Siffində (Rakka yaxınlığında) onlar arasındakı vuruşda qələbə Əli (ə) tərəfdə olarkən M. hiylə işlədərək, xəlifə olmağı mömin hakimin mübahisəsi ilə həll etməyi təklif etdi. Əli (ə) tərəfdarlarının çoxu bu təklifi qəbul etdi. M.-nin hakimi Əlinin (ə) hakimini aldadıb, onların hər ikisini (Əli və M.-ni) xəlifəliyə yaramayan elan etməyə razı saldı, özü isə sonra M.-nin xeyrinə danışdı (fevral, 658). Apreldə suriyalılar xəlifə kimi M.-yə and içdilər. Əlinin (ə) düşərgəsindəki parçalanma və xaricilərlə mübarizə ona M.-yə qarşı müharibəyə başlamağa imkan vermirdi. Sui-qəsdlə Hz. Əlinin (ə) qətlindən sonra M. onun oğlu əl-Həsəni hakimiyyətdən hiylə ilə uzaqlaşdırıb, öz hakimiyyətini bütün Xilafətə yaydı.

M.-nin hökmranlığı vaxtı Hindistan, Kabulistan, Buxara, Səmərqənd, Məğrib, Kiçik Asiyaya hücumlar edilsə də, əhəmiyyətli dərəcədə ərazi artımı yox idi. M.-nin oğlu Yəzidin hakimiyyətə gətirilməsi ilə Xilafət irsi oldu.

Abbasilər dövründə M.-nin adı ətrafında güclü mübarizə gedirdi, Abbasilər və şiələr onu Xilafət hakimiyyətini Peyğəmbər (s) nəslindən qəsb edən elan etdilər, onu Xilafəti dünyəvi bir dövlətə çevirməkdə və əl-Həsən b. Əlini zəhərləməkdə ittiham etdilər. 826-828-ci illər arası əl-Məmun M.-yə lənət oxumaq haqqında əmr verdi və onun adını yaxşılığa çəkəni qanundan kənar elan etdi. 897-ci ildə əl-Mü'tədid M. və bütün Əməviləri lənətləmək haqqında qərar çıxarmaq istəsə də, bunu etmədi.

**Ədəbiyyat:** İslam, 166-167; Мец. Ренессанс, 61, 63-66; H.Lammenes. Etudes sur le regne du calife Omaiyade Moawia in early arabic tradition. Copenhagen, 1964; H.L.Lammanes. Mu`awiya. – EI, 4, 665-670.

**Mübah («icazə verilən», sinonimi caiz)** – şəriət tərəfindən mühakimə olunmayan, heç bir qiymətə ehtiyacı olmayan neytral bir məfhumdur. M. məsələsi fiqhin bölməsi olan ehkamla şərh edilir. Məzhəblərdən asılı olaraq, eyni hərəkətlər ya M.-a aid edilir, ya da ondan çıxarılır. Müasir dövrdə ictimai həyat və məişətlə bağlı olduğuna görə M. İslam ölkələrində çox aktualdır.

**Ədəbiyyat:** İslam, 167-168; əl-Həkim. Əl-Üsul, 58-62; Vesey-Fitzgerald. Nature, 98-99; J.Schacht. Ahkam. – EI, NE, 1, 257; yenə o. Sharia. – EI, 4, 344-349.

**<u>Mücadələ</u>** - Quranın 58-ci surəsinin adıdır, «çəkişən, bərk münaqişə edən, şikayətdə olan qadın» deməkdir. Cahiliyyət dövründə bir kişi arvadını və ya onun bir bədən üzvünü anasının bədən üzvünə bənzətsəydi zihar etmiş olurdu və arvadını həmişəlik özünə haram edirdi. İslamda isə bu haqda hökm yox idi. Səhabələrdən Övs ibn Sabit belə zihar etmişdi, arvadı Havlə bint Sə′ləbə çox mütəəssir olub, Peyğəmbərə (s) şikayət etmişdi. O, boşanmağı məsləhət görmüş, Havlə isə ərilə barışmağı üstün tutmuşdu. Bu hadisəyə görə M. surəsi nazil olmuş (surəyə görə), kişi zihar etdikdə kəffarə verib, arvadı ilə yaşaya bilərdi.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 204-205.

**<u>Əl-Mücəssimə («təcəssümçülər»)</u>** – müxtəlif ehkam məktəblərinin ardıcıllarının ümumi adı, onlar İlahini cismani qəbul edirdilər. Əl-M. tez-tez əl-müşəbbihənin sinonimi kimi işlənir. M. Allahın cismani olmasını müxtəlif cür başa düşürdülər. Bəziləri onu üç (en, uzunluq, hündürlük), bəziləri altı ölçülü (altı tərəfə hərəktli), bəziləri isə intəhasız hesab edirdi.

**Ədəbiyyat:** İslam, 168; əl-Əş′əri. Məqalat, 207-209.

**<u>Müctəhid (xalq arasında müştəhid)</u>** – fiqhin mühüm məsələləri haqqında müstəqil qərar verməyə ixtiyarı olan alim-ilahiyyatçı. Ənənəyə görə Məhəmmədin (s) bütün silahdaşları və onların ən yaxın «ardıcılları», habelə İslamın ilk əsrlərində şəriət elminin formalaşmasında mühüm rol oynayan fəqihlər M. sayılırlar. VIII əsrin II yarısından ilahiyyat – hüquq məktəblərinin (məzhəblərin) yaradıcılarını, onların üslublarını hazırlayan ardıcıllarını M. adlandırmağa başladılar. Üç dərəcə M. fərqlənirdi:

1. Tam şəriət səviyyəsində olan M. (müctəhid fi-ş-şər′), o söykəndiyi mənbəni özü təyin edib, özü də şərh edirdi, heç kimin etirazını qəbul etmirdi.
2. Məzhəb səviyyəli M. (müctəhid fi-l-məzhəb) – bütün məsələləri tədqiq edə bilərdi, lakin onun məzhəbinin təyin etdiyi mənbələrə söykənməli idi.
3. Ayrı-ayrı məsələləri həll etmək səviyyəli M. (müctəhid fi-t-tərcih) o, ondan əvvəlkilərin həll edə bilmədikləri məsələni tədqiq edə bilərdi. Əgər qərarlar çox olsaydı, o, öz nüfuzu ilə onlardan birini dəstəkləyə bilərdi. M. olmağa iddiaçı bütün ilahiyyat məsələlərini bilməli və başqa M.-lər qarşısında öz nüfuzunu nümayiş etdirməli idi. O, ərəb dilini yaxşı bilməli, Quranı və onun şərhini əzbər bilməli, üç mindən çox həqis və onun şərhini bilməli idi. O, ciddi və mömin həyat sürməlidir. Hətta İslamın ilk əsrlərində fəqihlər I və II dərəcəli ictihadı çox az əldə edə bilirdilər. Çox vaxt bu, onlara öldükdən sonra verilirdi. XI əsrdə «ictihadın qapıları bağlananda» bu, mümkünolmaz oldu. Axırıncı ali sünni M.-ləri məzhəblərin banilərini

tanıyırlar. Hazırda bəzən çox görkəmli müfti, böyük icmaların başçıları, dini universitetlərin rektorları və s. III dərəcəli M. kimi qəbul edilir.

**Ədəbiyyat:** İslam, 168-169; Əbu Zəhra. Tarix əl-məzahib, 2, 101-128; Schacht. Introduction, 71; Schacht, D.B.Macdonald. Idjtihad. – EI, NE, 3, 1052-1053.

Şiə (imami) islamında M. ali ruhani nüfuzu olub, imamın «gizlənmə» dövründə icmanı «düz yolla» aparmaq üçün seçilir. İmami ənənəsinə görə ilk M.-lər əl-Kuleyni (vəf. 941), əl-Müfid (vəf. 1022), əş-Şərif əl-Murtəza (vəf. 1044) və s. olmuşlar. «İctihad qapılarının» açıq olması və «gizli» imamın öz vasitəçiləri ilə icmaya rəhbərlik etməsi inamı ilə imamilər yüksək dərəcəli M.-lərin nəinki əl-furu, hətta əl-üsulda məsələləri həll etdiklərini qəbul edirlər.

Nəzəri cəhətdən hər bir mömin M. ola bilər. Lakin praktikada bu, çox az adama müyəssər olur. Adətən M.-lərin uşaqları və nəsilləri M. olurlar. M.-lər şiələrin ruhani mərkəzlərində – Nəcəf və Kərbəlada hazırlanırlar. Tələbələr 12 icbari fənn (Quran, ilahiyyat, fiqh, məntiq və s.) öyrənirlər ki, əl-ictihad dərəcəsinə çatsınlar. Mədrəsələrdə dərs deməyə icazə alan gənc M.-lər adətən öz vətənlərinə qayıdırlar.

M.-rin rütbəsi yoxdur. Onların ictimai vəziyyəti və dini nüfuzu onların bilik səviyyəsindən asılıdır. Əmlakları da müxtəlif olurdu – bəzininki çox, bəzininki az. Çox biliyi, hörməti və nüfuzu olan M. höccət əl-islam, mərcə ət-təqlid, ayətullah ləqəblərini alırlar.

**Ədəbiyyat:** İslam, 169; Дорошенко. Духовентсво, 18-22; Əbu Zəhra. Əs-Sadiq, 530-540; C.Trank. Uber den schiitischen Mudschtahid. – Islamica. Lipsiae, 1926, 2, 171-192.

**Müddəssir** - Quranın 74-cü surəsidir, «peyğəmbərlik və ya fəzilət və kamillik libasına bürünmüş» kimi təfsir edilir. Surə Hira dağında ilk dəfə Cəbrail (ə) vəhy gətirəndə Məhəmmədin onu görməsi və bu fövqəladə mənzərədən dəhşətə gəlib evə qaçaraq, «Məni örtün» deməsilə əlaqədardır. Burada Peyğəmbər (s) düz yolla getməyənləri Allahın sözü ilə qorxudub, düz yola dəvət edir və Allahın bağışlayan olduğunu qeyd edir. Orada Cəhənnəm mələklərinin sayının 19 olduğu da bildirilir.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 205.

**Əl-Mü'əttilə («məhrum edənlər»)** – M. mötəzililərin adlarından biridir, onlar Allahı insana oxşadan (əl-müşəbbihə) antropomorfistlərdən fərqli olaraq «İlahi atributların» mövcudluğunu rədd edirdilər. Bu isə sonda Allahsızlığa gətirib çıxarırdı. Orta əsr müsəlman ilahiyyatçıları M.-ni peyğəmbərliyi, dirilməni, Xaliqi rədd edən adlandırırdılar. Ancaq ilk M.

Allahı deyil, Onun atributlarını rədd edirdilər, buna görə onları ateist adlandırmaq olmaz.

**Ədəbiyyat:** İslam, 167; Петрушевский. Ислам, 217, 227; R.Strothmann. Tashbih. - El, 4, 742-744.

**Müəzzin («çağıran», «dəvət edən», sinonimi münadi; İndoneziyada – modin, bilal, türkcə azancı)** – azanı səsləndirən adam. M. üç əsas işi yerinə yetirir: möminləri yığır, imamı çağırır və namazın - Allaha ibadətin başlanmasını xəbər verir. Əvvəllər azançı məhəlləni dolanıb, insanları namaza yığırdı. Minarənin meydana gəlməsindən sona M. azanı minarənin qülləsindən verməyə başladı ki, onu da hamı eşidirdi. İlk İslamda namazda imam hökmdar özü olduğu üçün M. onu camaat yığılandan sonra çağırırdı. Bu vəziyyət VIII əsrin yarısınadək davam etdi. Allaha ibadətin başlanması haqqında xüsusi çağırış-iqamə hökmdarın məscidə gəldiyini bildirirdi. İlk İslamda M. hökmdarın qulu və köməkçisi hesab olunurdu.

Sonralar azan çətinləşdi, ora şəhadə də əlavə olundu və bu, dini ibadətə çevrildi. Sonralar M. (VII əsrin sonunda Misirdə) gecə namazlarını da qılmağa başladı. XII əsrin II yarısından Səlahəddin vaxtı M. gecə namazı vaxtı ′əqidə (ehkam) oxumağa başladı, XIV əsrin əvvəlindən isə cümə günü səhər minarədən zikr etməyə başladı.

Məhəmmədin (s) iki M.-i var idi – qara kənizin oğlu Bilal b. Rabah və Əbubəkrin mövlası İbn Ümmi Məktum. Buna görə məsciddə iki M. olması yaxşı sayılırdı. M. çox vaxt irsi olurdu. Xəlifə Osman vaxtı (644-656) M.-lər maaş almağa başladılar.

Orta əsrlərdə M.-lər cəmiyyət yaratdılar ki, onun başında rəis əl-müəzzin dururdu.

M.-in işini natəmiz, sərxoş, dəli və ya qadın görə bilməz. Minarələr meydana gələndən sonra müəzzinin oradan hərəmxanəni və evlərin həyətini görməməsi üçün nəzəri cəhətdən onun kor olmasına üstünlük verilirdi. Müasir müsəlman ölkələrində M.-lər səsgücləndirici cihazlardan geniş istifadə edirlər, lentə yazılmış azan onlar vasitəsilə yayımlanır. Kəndlərdə kiminsə vəfat etdiyini və mərhumun dəfn vaxtını bildirmək üçün də azan verilir. Bəzən ictimai fövqəladə xəbərləri kənd camaatına çatdırmaq üçün də azan verilir (yanğın, daşqın, düşmən qəbilənin hücumu).

**Ədəbiyyat:** İslam, 167; Лэйн. Нравы, 96-97; Snouck-Hurgronje. Mecca, 2, 84-90, 322; J.Pedersen. Masdjid. V.Mu`adhdhin. – EI, 3, 433-435.

**Əl-Müfid,** əş-Şeyx Əbu Abdulla Məhəmməd b. Məhəmməd əl-Ukbəri əl-Harisi (943 və ya 950-1022 məşhur şiə ilahiyyatçısı və fəqih, imami məzhəbinin fəal nəzəriyyəçisi və vaizi (təbliğatçısı). Onun atası Vasitdə

müəllim idi, buradan da onun birinci ləqəbi irəli gəlir – İbn əl-müəllim (müəllim oğlu). Əl-M. (Bağdaddan şimala) əl-Ukbər kəndində doğlumuşdur. Atası ilə birlikdə o, Bağdada gəlir, orada Əli b. İsa ər-Rumani, Əbülqasim İbn Quluyə (vəf. 978), İbn Bəbuyə əs-Səduk (vəf. 991), Əbu Qalib əz-Zurəri (898-979), Əbubəkr əl-Ci'abi və başqaları onun müəllimləri olurlar. Yaxşı təhsil almış, gözəl bəlağət sahibi əl-M. əla polemikaçı olub, bütün imami ilahiyyatçıların liderinə çevrilir. Əl-M.-in təbliğat fəaliyyəti Builərin (büveyhilər) himayəsi altında gedirdi və bu İraqda, xüsusilə də, Bağdadda imami ehkamlarının yayılmasına imkan yaradırdı. İmami ehkamlarının açıq surətdə təbliği şiə-sünni münasibətlərinin kəskinləşməsinə və qan tökülməsinə səbəb olan qarşıdurmaya gətirib çıxartdı.

Xüsusilə, tez-tez və təhlükəli qarşıdurma X əsrin sonu - XI əsrin əvvəlində Bab əl-Bəsrədə yaşayan haşimi sünniləri ilə əl-Kərx şiələri arasında olurdu.

Əl-M.-in 200-ə yaxın əsəri olmuşdur (onlardan 25-i qalmışdır): bunlar onun imamət məsələsinə görə mötəzililərin müxtəlif məktəblərinin nümayəndələrinə (əl-Əsəm, əl-Cahiz, Abbad b. Süleyman, Cəfər b. Hərb, əl-Xalidi və başqaları) «Təkzibidir» və müxtəlif şəhərlərdən olan ilahiyyat, fəlsəfə və fiqhə dair suallara «Şərh» və «Cavablar»dır, hənbəlilər, ismaililər, zeydilər və «qatı» şəiələrə qarşı yönəldilmiş mübahisəli əsərlərdir. Əl-M. bir sıra əsərlərini imamət nəzəriyyəsi, ilahiyyat və fiqh məsələləri, Quran və hədislərin, şiələrin tarixinin şərhinə və imamların həyatının təsvirinə həsr etmişdir. Əl-M.-in disputları və onun seçilmiş çıxışları «Əl-Uyun və-l-məhasin» kitabında toplanmışdır, onun qısa redaktəsi (əl-Fusul əl-muxtarə) onun şagirdi -Bağdadda ələvi naqibi əş-şərif əl-Mürtəza (966-1044) tərəfindən hazırlanıb (bir neçə dəfə nəşr olunub), indi də şiələr arasında geniş yayılır. Əl-M.-in fəaliyyəti müxtəlif dini-siyasi partiyalar və məktəblərin, sünni, şiə və mötəzililərin ideoloji mübarizəsinin kəskinləşdiyi mərhələdə keçirdi. Bu şəraitdə əl-M. imami şiələrin müdafiəçisi kimi çıxış edirdi, başqa təlimlərdən onların islamının (məzhəbinin) düz olduğunu qeyd edirdi. Ələvi naqibi əl-Hüseyn b. Musa əl-Musəvinin təklifi ilə o, fundamental traktat «Əvail əl-məqalat fi-l-məzahib və-l-muxtaratı» tərtib edir, orada imami ehkamını şərh edir: təkallahlılıq təlimi, ilahi ədalət, imamət, onların esxatoloji baxışlarını aydınlaşdırıb, bu məsələlərdə imami şiələr və mötəzililər arasındakı fərqləri izah edir. M.-in bu əsəri indi də şiə dünyasında imami ehkamında ən nüfuzlu mənbə hesab edilir.

Əl-M. Bağdadda vəfat etdi və öz həyatində dəfn olundu, bir neçə ildən sonra onun qalıqlarını əl-Məşhəd (əl-Kazımeynə) apardılar. Onun məzarı indi də ziyarət edilir.

**Ədəbiyyat:** İslam, 176-177; ən-Nəcaşi. Ər-Ricəl, 311-316; ət-Tehrani. Təbəqat, 5, 186-187; GAL, SBd., 1, 322-323; GAS, 1, 549-551.

**Müfti -** ərəb sözü olub («fətva verən»), şəriətin bilicisi, onun əsas müddəalarını aydınlaşdıran müxtəlif dini-hüquqi məsələlər barəsində mübahisəli fikirlərdə şəriət məsələlərinin prinsiplərinə əsaslanaraq, xüsusi nəticə kimi (fətva) qərar qəbul edən deməkdir. Mütfi dini məhkəmə sistemində vəzifəli şəxs olmaqla yanaşı, əhli sünnənin dini başçısı, rəhbəri sayılır. O, qazilərin iş təcrübəsindəki oxşar hadisələrdən istifadə edərək, onların arasında dini-hüquqi məsələlər barəsində qərarlar çıxarıb, ruhani təşkilatına vermək hüququna malikdir. Hazırda hər bir müsəlman dövlətində, o cümlədən də, Azərbaycanda ölkənin baş müftisi vardır. Əslində o, sünni icmasının başçısıdır, çox böyük nüfuza malik şəxsiyyətdir, sünnilikdə ali ruhani şəxs olub, şiələrdəki müctəhid və şeyxülislamla eyni təbəqədə durur, şeyxülislam kimi dünyəvi hakimiyyət tərəfindən təyin edilir və ya səsvermə yolu ilə seçilir. İlk M.-lər hakimlər və ya qazilər yanında xüsusi məsləhətçilər kimi xəlifə II Ömər (717-720) tərəfindən Misirdə təyin olundular. Dövlət inkişaf etdikcə hər vilayətin hakimi M. xidmətə götürürdü, onun qərarı əhali üçün mütləq idi. Dövlətdə bir neçə müfti ola bilərdi, onun biri isə baş M. olurdu və o, qalan müftilərin qərarlarını ləğv edə bilərdi.

Osmanlı imperiyasında XV əsrdə İstanbulun baş M.-sı bütün ölkənin şeyxülislam titulu olan Böyük M.-si oldu, sultan və onun adından və onun iradəsi ilə hökmranlıq edən məmurların tələbi ilə fətva verərək şəriət mövqeyindən onların əməllərinin qanuniliyini təsdiq və ya inkar edirdi. Hazırda hər bir müsəlman ölkəsində ali M. vardır və o, hakimin işləri üzərində dini nəzarət aparır.

Əhalisi əsasən şiələrdən ibarət olan Qafqaz ölkələrinin müsəlman icmasının başçısı şeyxülislam adlanır və onun iqamətgahı Bakı şəhərindədir. Onun birinci müavini isə Qafqazın sünni əhalisinin dini rəhbəri - M.-dir.

Zaqafqaziyada əhli sünnə müsəlmanların ilk müftilik rütbəsi 1832-ci ildə təsis edilib. İndiyə kimi 11 müftimiz olub. Bunlar aşağıdakılardır:

1. **Müfti Tacuddin Mustafin - 1832-1840**
2. **Müfti Osman Əfəndi Vəlizadə- 1842-1847**
3. **Müfti Məhəmməd Əfəndi Müftizadə - 1847-1880**
4. **Müfti Əbdülhəmid Əfəndizadə - 1872-1880 (Şamaxı müftisi)**
5. **Müfti Hüseyn Qayıbzadə- 1883-1917**
6. **Müfti Hacı İbrahim Əfəndi Əfəndizadə - 1944-1955**

7. **Müfti Əsədulla Dibirov- 1956-1959**
8. **Müfti Şərif Əfəndi Vəlizadə - 1960-1966**
9. **Müfti Əhməd Əfəndi Bozgəziyev - 1968-1969**
10. **Müfti Hacı İsmayıl Əhmədov-1969-1986**
11. **Müfti Hacı Salman Musayev 1986-cı ildən...**

**Müfti Tacuddin Mustafin**

Qafqazın sünni İslam cərəyanına (məzhəbinə) mənsub olan müsəlmanların ilk müftisini 1832-ci ildə çar generalı Roze təklif edib. Bu şəxs hərbi hissədə yenicə kapitan rütbəsini alan Tacuddin Mustafin idi. O, Kazan şəhərindən çar ordusunun kapitanı vəzifəsindən Tiflisə dəvət edilmişdi.

Tacuddin Mustafin Şeyx Şamillə ümumi dil tapa bilmədiyi üçün az vaxtda hörmətini itirir və 1840-cı ildə vəzifəsindən azad edilir.

**Müfti Osman Əfəndi Vəlizadə**

Müfti Tacuddin Mustafin vəzifəsindən azad edildikdən sonra, 1842-ci ildə general Qolovinin təklifi ilə görkəmli Azərbaycan şairi Molla Vəli Vidadinin oğlu Osman Əfəndi Vəlizadə Qafqazın (Zaqafqaziyanın) 2-ci müftisi təyin edilir. O, 1847-ci ildə vəfat edib.

**Müfti Məhəmməd Əfəndi Müftizadə**

Osman Əfəndi Vəlizadə vəfat etdikdən sonra onun yerinə oğlu Məhəmməd Əfəndi Müftizadə təyin edilir. Məhəmməd Əfəndi dövrünün ən nüfuzlu ilahiyyatçılarından biri olub. 1867-68-ci illərdə Şamaxıya gedib və orada Seyyid Əzim Şirvani ilə görüşüb. Məhəmməd Əfəndi Müftizadə 1847- ci ildən ömrünün axırınadək, yəni 1880-ci ilə kimi Tiflisdə Ruhani İdarəsində Qafqaz (Zaqafqaziya) sünni müsəlmanlarının müftisi vəzifəsini icra edib.

**Müfti Əbdülhəmid Əfəndizadə**

Müfti Əbdülhəmid Əfəndizadə 1812-ci il aprel ayının 15-də Şamaxıda anadan olub. 10 yaşında təhsilə başlayan Əbdülhəmid məktəbi bitirdikdən sonra (17 yaşında) əmisi Hacı Əli Əfəndizadənin dərs dediyi Şamaxı mədrəsəsinə daxil olub və burada Şərq dillərinə yiyələnib.

Mədrəsə təhsilini bitirdikdən sonra əmisi ilə bir yerdə işləməyə başlayan Ə.Əfəndizadə maarif sahəsində getdikcə şöhrət qazanır. Əmisinin məsləhəti ilə o, 1849-cu il fevralın 22-də dövlət məktəbinə işə götürülür və şəriət müəllimi vəzifəsini icra edir.

Ə.Əfəndizadə məktəbdə işlədiyi zaman azərbaycan, fars və ərəb dillərindən əlavə, fransız dilinin incəliklərini də şagirdlərə öyrədə bilib. Sonralar onun işlədiyi dövlət məktəbi qeyri-müəyyən səbəblərə görə bağlanır. Ə.Əfəndizadə 1860-cı ilin əvvəlində Məkkəni ziyarət edib hacı titulunu qazanır. 1864-cü il yanvarın 16-da Şamaxı Ruhani İdarəsinə sədr və qazi təyin edilir. O, fəaliyyətinə görə canişinlik tərəfindən brilyant qaşlı üzüklə mükafatlandırılıb.

Müfti Əfəndizadə 1872-ci il dekabrın əvvəllərində Qafqaz (Zaqafqaziya) Sünni Əhli İdarəsinin sədri vəzifəsinə təyin olunduğundan Tiflisə köçür.

O, 1880-cil dekabr ayının 10-da vəfat edib.

**Müfti Hüseyn Qayıbzadə**

Hüseyn Molla Yusif oğlu Qayıbzadə 1830-cu ildə Qazax qəzasının Salahlı kəndində anadan olub. Uşaq yaşlarından ata-anadan yetim qalıb və əmisi - kənd mollası İbrahim Əfəndinin himayəsində böyüyüb. İlk təhsilini müdərris Məhəmməd Musazadədən alan Hüseyn dini elmlərlə yanaşı ərəb, fars və türk dillərini, həmçinin Şərq ədəbiyyatı və tarixini də mükəmməl öyrənə bilir. O, 17 yaşında ikən oxuduğu Salahlı kənd məktəbində müəllim saxlanılır. 1857-ci il iyulun 25-də Qafqaz müftisi Məhəmməd Əfəndi H.Qayıbzadənin Tiflisdəki üçillik müsəlman ruhani məktəbində işə düzəlməsinə nail olur. O, 1858-ci ilin fevralında burada şəriətdən və Şərq dillərindən dərs deməyə başlayır.

Müfti Hüseyn Qayıbzadə 1879-cu ildən 1883-cü ilə kimi Qori müəllimlər seminariyasında işləyib. O, Tiflisdə azərbaycanlı kasıblar üçün öz hesabına məktəb açır, sonralar - XX əsrin əvvəllərində isə buranı genişləndirərək altı sinifli «Müfti-İslam məktəbi»nə çevirir.

Müfti Hüseyn Qayıbzadə azərbaycanlı qızların təhsil alması qayğısına da qalıb. Bu çətin işdə özü əvvəlcə şəxsi nümunə göstərir və iki qızını - Nigar və Gövhəri oxutdurur.

O, 1883-cü ilin axırlarında müəllimlikdən azad edilərək Qafqaz müftisi təyin olunur və 1917-ci ilin martınadək bu vəzifədə çalışır.

H.Qayıbzadə bir neçə məqalənin və kitabın müəllifi kimi də tanınır. O, müsəlman mədrəsəsində tədris edilmək üçün riyaziyyata dair «Məsaili-ammi-l-hesab» (Hesabın ümumi məsələləri) və ana dilini təzə öyrənənlər üçün «Məbdəyi-təlimi-sibyan» («Yeniyetmələr üçün başlanğıc») adlı dərs vəsaitləri də hazırlayıb. H.Qayıbzadə təkcə maarif sahəsində deyil, ədəbiyyatşünaslıq sahəsində də xeyli işlər görüb. O, çoxlu atalar sözü, zərb-məsələlər, hikmətli sözlər toplayaraq 9 hissədən ibarət «Tövsiyyətnamə» kitabını yazıb. Eyni zamanda, XVIII-XIX əsrlərdə yaşamış 109 Azərbaycan şairinin əsərlərindən ibarət dörd cildlik antologiya tərtib edib. Yüksək

imtiyazlara malik olan H.Qayıbovun sinəsini çoxlu orden və medallar bəzəyib.

H.Qayıbzadə qızların yeni məktəblərdə təhsil almalarına təşəbbüs göstərərək, öz arvadı Səadət xanıma Qafqaz Qadınlarının Xeyriyyə Cəmiyyətində iştirak etməyə icazə verir, qızları Nigar (sonralar general Ə.Şıxlınskinin xanımı) və Gövhər xanımı (sonralar general Usubovun xanımı) rus dilində Tiflis Nücəba Qızlar İnstitutunda oxutdurur. Nigar xanım 1889-cu ildə, Gövhər xanım isə 1903-cü ildə həmin institutu qızıl medalla bitirirlər.

Müfti Hüseyn Qayıbzadə 1917-ci ilin martında Tiflisdə vəfat edib. Onun vəfatından sonra çar üsul-idarəsi dağıldığı üçün Qafqaz (Zaqafqaziya) Ruhani İdarəsi də öz funksiyasını itirir. Demək olar ki, respublikamızda 1920-ci ildən 1944-cü ilə kimi müftilik vəzifəsi olmayıb.

**Müfti Hacı İbrahim Əfəndi Əfəndizadə**

1944-cü ildə Qafqaz (Zaqafqaziya) müsəlmanlarının növbəti (SSRİ tərkibində birinci) qurultayında Hacı İbrahim Əfəndi Əfəndizadə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədr müavini - Baş müfti seçilir və ömrünün sonuna (1956-cı ilə) kimi bu vəzifəni icra edir. O , ilahiyyat elminə mükəmməl bələd olan, dini ayinlərin, şəriətin tələblərini yaxşı təbliğ edən din xadimi kimi ad qazanıb. Sülhü müdafiə etmiş, nüvə silahına qarşı Ümumdünya Sülh Şurasının çagırışlarını alqışlamış, ABŞ-ın Koreyaya hərbi müdaxiləsini pisləmiş, dindarları sülhə, əmin-amanlığa, halal zəhmətə səsləyib.

Müfti Hacı İbrahim Əfəndi Əfəndizadə 1956-cı iidə vəfat edib.

**Müfti Əsədulla Dibirov**

Hacı İbrahim Əfəndi vəfat etdikdən sonra, 1956-cı iidə Zaqafqaziya müsəlmanlarının IV qurultayında Göycay məscidinin imamı Əsədulla Dibirov Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinə müfti seçilir. O, 1959-cu ilə qədər bu vəzifəni icra edib. Çalışdığı müddətdə sünni və şiə dindarları arasında ayrı-seçkiliyi pisləyib, müsəlmanları həmişə birliyə və sülhə çağırıb.

**Müfti Şərif Əfəndi Vəlizadə**

Qafqaz (Zaqafqaziya) müsəlmanlarının V qurultayında (1960-cı il) Göyçay məscidinin imamı Şərif Əfəndi Vəlizadə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədr müavini - müfti seçilir. Yaxşı dini məlumata və nitq qabiliyyətinə malik olan Şərif Əfəndi daim müasirləşmənin tərəfdarı olub. O, deyib: «Köhnəlmiş dini tələbləri təzələməsək dinimiz əldən gedər, dindarlar bizdən üz döndərər».

Ateizm təbliğatına müqavimət göstərməyin tərəfdarı olub. O, ateizmi «məscidin günbəzinə dəyib, kənara düşən» qoza bənzədib.

Müfti Şərif Əfəndi 1966-cı ildə vəfat edib. Onun vəfatından sonra Ruhani İdarəsində müfti vəzifəsi iki il boş qalıb.

**Müfti Əhməd Əfəndi Bozgəziyev**

1968-ci ildə Qafqaz (Zaqafqaziya) müsəlmanlarının VI qurultayında yüksək dini savada malik olan Əhməd Əfəndi Bozgəziyev Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədr müavini - müfti seçilir. O, mütaliə ilə məşğul olub, dini baxışları müasir elmə istinad edərək əsaslandırmağı sevən bir insan olub. Orucluğun müalicəvi əhəmiyyətindən bəhs edən möizələrlə məscidlərdə çıxışlar edərək, insanları mübarək Ramazan ayının fəziləti ilə bağlı maarifləndirməyə çalışıb. İslamın sosial ehkamlarını izah etməyə çalışıb, müasir dövlət quruluşunu ilkin müsəlman icmasının oxşarı hesab edib.

Dini tələblərə ciddi əməl olunmasını əsas vacib şərt sayıb. Zahirən təkəbbürlü göründüyünə görə, dindarlar arasında bir o qədər də nüfuza malik olmayıb. Buna görə də, 1969-cu ildə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin plenumunda Müfti Əhməd Əfəndi Bozgəziyev müftilikdən kənar edilib.

**Müfti Hacı İsmayıl Əhmədov**

Müfti Hacı İsmayıl Əhmədov 1907-ci ildə Şəkidə anadan olub. 1916-1918-ci illərdə Şəki ibtidai məktəbində, sonra şəhər məktəbində oxuyub. 1923-30-cu illərdə mədrəsə təhsili alıb. 1941-45-ci illərdə Vətən müharibəsinin iştirakçısı olub, bir çox orden və medallarla təltif olunub.

1945-67-ci illərdə Şəki şəhər məişət kombinatında işləyən Hacı İsmayıl sonralar Bakıya köçüb və iki ilə yaxın «Hacı Əcdərbəy» məscidində (Göy məscid) mollalıq edib. 1969-cu ilin mayında Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin plenumunda Hacı İsmayıl Əhmədov sədr müavini - müfti seçilir. Yüksək dini savadı olmayan müfti öz mülayimliyi, dövlətə sadiqliyi ilə tanınırdı.

Möizə etməyə o qədər də həvəsi olmayıb, lakin xoş rəftarına görə, sünni dindarların rəğbətini qazana bilib. Müfti Hacı İsmayıl Əhmədov 1970 və 1973-cü illərdə Məkkəyə gedərək, Kəbəni ziyarət edib. O, 1986-cı ildə vəfat edib. Onun vəfatından sonra bu vəzifə 1989-cu ilə qədər boş qalıb.

**Müfti Hacı Salman Əfəndi Musayev**

Hacı Salman Musa oğlu Musayev 1958-ci ildə Gürcüstanın Dmanisi rayonunun Hamamlı kəndində fəhlə ailəsində anadan olub. Özbəkistanın Buxara şəhərindəki Mir Ərəb Mədrəsəsini, Daşkənd İslam İnstitutunu və

Liviyadakı İslam Çağırışı Universitetini bitirib. Əvvətcə Tbilisi «Cümə» məscidində imam-xətib, sonra Qafqaz (Zaqafqaziya) Müsəlmanları Ruhani İdarəsinin xarici əlaqələr şöbəsində referent vəzifəsini icra edib.

Hacı Salman Əfəndi 1987-ci ildə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədr müavini təyin edilir, 1989-cu il iyulun 25-də keçirilən Zaqafqaziya müsəlmanlarının IX qurultayında isə həmin idarəyə müfti vəzifəsinə seçilir.

Müfti Hacı Salman Əfəndi müsəlmanlar arasında böyük hörmətə malikdir. Dünyanın əksər müsəlman ölkələrində keçirilən ali məclislərin iştirakçısı olub. Qazandığı hörmət və nüfuzuna görə, uzun müddət «Hacı Əjdərbəy» məscidinin imam-xətib vəzifəsi ona həvalə olunub.

Dəfələrlə Məkkə ziyarətində olan Müfti Hacı Salman Əfəndi hal-hazırda bu vəzifəni icra edir.

2002-cu ildə Gürcüstan Respublikasının «Şərəf», 2008-ci ildə Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunub.

Əsir və itkin düşənlər üzrə Dövlət Komissiyasının üzvü, İTV və R şurasının üzvüdür.

«İslamda sülh və dözümlülük konsepsiyaları» adlı monoqrafiya və ondan artıq elmi məqalələrin müəllifidir.

(Müftilər haqqında mükəmməl məlumat üçün Qafqaz Müsəlmanları İdarəsi Beynəlxalq əlaqələr şöbəsinin müdiri Müqəddəs Payızova təşəkkür edirik (Müftilər haqqında məlumat).

**Ədəbiyyat:** İslam, 177; Əbu Zəhra. Tarix əl-məzahib, 1, 124-128; Степанович. Мусульманские концепции. 111; Лэйн. Нравы, 125-129; Mah-massanı. Falsafat al-tashri, 17-18; Schacht. The Schools of Law, 75-76; …..Histoire, 323-339; I.Walsh. Fatwa - El, NE, 2.

**Mühacir (hicrət edən)** – Məhəmmədin (s) məsləhəti ilə təqibdən yayınmaq üçün əvvəlcə Həbəşistana, sonra Mədinəyə, daha sonra Məhəmmədin (s) dalınca Məkkəni fəth edənə qədər Mədinəyə mühacirət edən müsəlman. M. sözü Məhəmmədin (s) özünə aid edilmir. Onun Mədinədə olan tərəfdarlarına isə Məkkədən gələn mühacirlərə böyük kömək göstərdiklərinə görə Məhəmməd məhəbbətlə ənsar deyirdi. İlk illər M.-lərin sayı təxminən yüz nəfər kişi olub. Bədrdə təximinən 70 M. olub, onlar müsəlman icmasının elitasını təşkil edirdilər. Onların xidmətləri o idi ki, onlar din uğrunda qohumluq əlaqələrini qıraraq, ev və əmlaklarını tərk edib, öz iman müəllimlərinin dalınca getmişlər.

Əvvələr M.-in çoxu kasıb yaşayır, varlı din qardaşlarının köməyi ilə dolanırdılar, lakin bənu-nadir yəhudi qəbiləsini Mədinədən çıxartdıqdan sonra onlar ev və torpaq alıb, qənimət hesabına varlandılar. I Ömər başqa müsəlman qruplarına nisbətən onlara çox maaş verirdi (çoxdan mühacirət

edənlərə daha çox maaş verilirdi); onlar qənimət bölgüsündə də çox pay alırdılar. Hətta XIII əsrdə Misirdən olan sənədlərdə M. üçün xüsusi göndərişlər haqqında qeyd edilib. Xəlifə kürsüsünə iddiaçıların hamısı onların içərisindən çıxmışdır (bu heç də belə deyildi).

Məhəmməd peyğəmbər (s) Məkkədən Həbəşistana mühacirət edib, 629-cu ildə Mədinəyə dönən müsalmaları da M.-lərin siyahısına aid etmişdir, lakin I Ömər maaş təyin edəndə onları yüksək dərəcəyə daxil etmədi ki, onlar ilk vuruşlarda iştirak etməmişlər. Sonralar onları M. adlandırmadılar.

**Ədəbiyyat:** İslam, 177; Fr. Bull Al-Muhadjirun.-EI, 3, 690-691; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 205-206.

**Mühakimə** - (ərəbcə muhakəmə) məhkəmə prosesi. İslamda məhkəmə işi əsas prinsipə söykənir: tərəflərin şəxsən prosesdə iştirakı, prosesin aşkarlığı, prosesin ardıcıllığı. Proses şifahi aparılmalıdır, yazılı şəhadətlər və sübutlara ancaq yaddaş üçün qeydlər kimi baxılırdı, onların həqiqiliyi şahidlər tərəfindən təsdiq olunurdu. Tərəflər özləri ittiham irəli sürür və ya iddia verir və özləri müdafiə olunurlar.

Əgər istintaq aparmaq lazım gələrsə, onu qazi və ya onun inanılmış adamı edir. Tərəflərdən hər hansı biri prosesdə iştirak edə bilmirsə, onu müvəkkili (vəkili) təmsil edə bilər, lakin buna mütləq qazinin razılığı olmalıdır. Tərəflər hüquq bilicilərinin köməyinə vəkil kimi müraciət edə bilərlər, lakin məhkəmə üçün onlar ancaq şahid qismində olurlar. Daha geniş aşkarlığı təmin etmək üçün məhkəmə prosesi əhalinin yığıla bildiyi yerdə keçirilməlidir: meydanda, hökmdarın və ya qazinin evinin qabağında, məxsusən məhkəmə zalında və s.

Məhkəmənin ştatı daimi deyil: qazi özü onu katib, tərçüməci, kuryer və s. ilə təmin edib, maaşlarını məhkəmənin ümumi smetasından verirdi.

Məhkəmə prosesində həqiqət tərəflərdən birinin etirafı, şahidlərin söylədikləri və ya tərəflərdən birinin özünün haqlı olduğu haqda and içməklə təyin edilə birlər. Hazırda ruhani məhkəmələrdə ancaq mərasim, ailə, mülk, qəyyumluq, nəzarət, mehr və s.-yə aid olan məsələlərə baxılır. Qalan mürəkkəb proseslərə isə ruhani məhkəmədə baxılmır.

**Ədəbiyyat:** İslam, 177-178; Əl-Məvardi, Əl-Əhkam, 107-128; Tyan Judicial Organization, 243-248; Schacht. İntroduction, 188-189.

**Əl-Mühasibi** - Əbu Əli əl-Haris b. Əsəd əl-'Ənəzi (təx. 781-857), Bağdad ilahiyyatçısı, ilk sufi nəzəriyyəçilərindən biri. Bəsrədə doğulmuşdur. Hədis və fiqhi məşhur ənənəçi Yəzid b. Harundan (vəf. 821) və hansısa Əbu İshaq əl-Qureyşidən öyrənmişdir. Gənckən Bağdada gəlir və müstəqil olaraq təhsilini davam etdirir. O, asketik həyat sürüb, kompromis qəbul etmirdi, «Allahdan qorxmağı» ilə seçilirdi. O, atasının

mötəzili «insan iradəsinin azadlığı» təliminin ardıcılı olduğu üçün onun böyük irsini (vərəsəsini) qəbul etməyib. Möminliyi və savadlı olması onu məşhur etmişdi, onun yanına çoxlu şagird gəlirdi. 846-cı ildə o, hənbəlilər və şəxsən İbn Hənbəl tərəfindən təqib olunduğuna görə möizələrini və dərs verməyi tərk edir. Onu spekulyativ kəlamın tədrisi və bid`ədə günahlandırıb, Bağdaddan qovdular. Qayıdandan sonra o, bağlı həyat keçirməyə məcbur oldu, kasıbçılıqda vəfat etdi. Onun dəfninə cəmisi onun dörd nəfər tərəfdarı gəlibmiş.

Əl-M. sufi psixologiyasının (ilm əl-qulub va-l-xətarat) əsaslarını işləyib hazırladı. Kamilləşmənin əsas alətini o, özünə nəzarətdə və özünü yoxlamada görürdü (müraqabə və mühasəbə). Elə buradan da onun əl-Mühasibi, d.d., «özünü yoxlayan, özü-özünə hesabat verən» ləqəbi irəli gəlir. Ona görə möminin Allaha tərəf yolunda çoxsaylı təhlükə və başdan çıxaran şey vardır.

Əl-M.-nin 30-dan çox əsəri olub, onun ən məşhurları: Kitabu-l-riayə li-hüquq Allah (sufı «psixologiyası və təcrübə»), Kitabu-t-təvəhhüm və Kitabu-l-b′əs va-n-nuşur (esxatologiya), Kitabu-l-vəsiyyə («psixologiya» - yeni başlayan sufilərə nəsihət), Fəhmu-l-Quran (ekzeqetika, hüquq) və s., əsərlərin çoxu müəllimin şagirdin sualına cavabı kimi yazılıb.

Əl-M. Bağdad sufilərinin bütöv bir nəslinin müəllimi olub, onların arasında məşhurlardan əl-Nuri (vəf. 907) və əl-Cüneyd (vəf. 910), Əbdülqahir əl-Bağdadi onu əl-Əş′ərinin birbaşa sələfi adlandırırlar. Əl-M.-nin xidmətini demək olar bütün müsəlman müəllifləri qeyd etmişlər. Birbaşa onun əsərlərindən və Əbu Talib əl- Məkkidən Əl-M.-nin baxışlarını əl-Qəzali qəbul etmişdir və onu çox yüksək qiymətləndirmişdir. Kitab ər-ri`ayə əsəri bütöv müsəlman aləmində çox məşhur idi. Onu müridlər üçün «icbari ədəbiyyat» kimi məsləhət görürdülər.

**Ədəbiyyat:** İslam, 182-183; Kitab al-Ri`aya li-hüquq Allah by Abu Abdallah Harith ibn Asad al-Muhasibi. Ed by M. Smith. L., 1950; yenə o. Kitab al-tawahhun. Trad. de İrabe et annote par A.Roman. P., 1978; əs-Süləmi. Təbəqat, 49-59; əl-Bağdadi Tarix. Bağdad, 8, 211-216; əl-Bağdadi. Üsul əd-din, 308-309; əs-Subki. Təbəqat, 2, 37-42; Бертельс. Суфизм, 29-30; M.Smith. An Early Mystic of Baghdad L., 1935; J.Van Ess. Die Gedankenwelt des Harit al-Muhasibi. Bonn, 1961; Allard. Le probleme; yenə o. Comment comprendre le Coran selon Muhasibi (m. 243/857- BEO), 1977, 29, 7-16; Anawati, Gardet. Mystique, 28-30; GAS, 1, 639-642.

**<u>Mükətəb (qad. cins. mükatəbə)</u>** – fiqhdə özü-özünü satın almaq üçün yazılı müqavilə bağlayan qul (kəniz). Orada alqının qədəri, müddəti və ödənişin şərtləri qeyd edilirdi. Müqavilə bağlanan gündən sahib qul üzərində bəzi səlahiyyətini itirir, ancaq qul (kəniz) onun mülkiyyətində

qalır. Kəniz isə yad qadın statusu alır, sahibkar artıq onunla yaşaya (yata) bilməz, əks təqdirdə cinayətə cəlb oluna bilər.

M. azad hərəkət edə bilər, iqtisadi fəaliyyətlə məşğul ola və mülkiyyət ala-yığa bilər (lakin qul ala bilməz), onun doğulan uşaqları azaddırlar. M. sahibkarın icazəsi olmadan nikaha girə bilməz. M. növbəti və ya axırıncı ödənişi gecikdirsə ona vaxt verilir ki, o, ödənişi yerinə yetirsin. Ödənişlər yaxşı olubsa, sahibkar və ya M. eyni vaxtda vəfat etsə belə, onların varisləri müqaviləni davam etdirirlər.

**Ədəbiyyat:** İslam, 169.

**Mülk-Milk (cəmi əmlak)** – «mələkə» - «əldə etmək», «malik olmaq» felindən olub, mənaları tez-tez qarışdırılan iki istilah. Mülk həddi olmayan hakimiyyəti (o cümlədən çar hakimiyyətini) və şərtsiz şəxsi mülkiyyəti, onun obyektlərini, milk isə təkcə şəxsi mülkiyyəti bildirir.

**Ədəbiyyat:** İslam, 169.

**Mülk** - Əl-Mülk - Quranın 67-ci surəsinin adı. Məkkədə nazil olub, 30 ayəsi var. Bu söz (Allaha görə) «hakimiyyət» mənasını verir. Bu surədə Allahın qüdrəti, ucalığı, yaradıcı olması qeyd edilir. Allahın insanlara göz, qulaq, hissetmə üzvlərini ehsan etdiyi, Ona və rəsuluna inanmayanlara M.-də heç bir payı olmayacaqları qeyd edilir. M. Allahındır, təkcə ona aiddir.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 206-207.

**Müqəddəslər** – çox halda xüsusi möminlik savabları və möcüzə əlamətləri ilə şöhrət qazanmış şəxslər. Bunlar insanlarla Allah arasında hətta vəfat edəndən sonra vasitəçi olub, onların talelərinə təsir göstərir, onlara kömək edirlər.

Müasir dinlərdə M. ayini ibtidai insanlar arasında yayılmış əcdadlar ayininə uyğun gəlir. Bu ayinin xristianlıqda yayılması Əhdi-Ətiqin, qədim Roma dinlərinin təsirindəndir.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 206.

**Münkər və Nəkir** – xalq arasında Ənkir Mənkir-insan öləndən sonra onu qəbirdə imanı haqda ilk sorğu-sual edən məlakələrin adları. İmanlı müsəlmanları onlar rahat buraxırlar, günahkarları və imanlı olmayanları Cəhənnəmdə göstərilən cəzalarla (əzab əl-kəbir) cəzalandırırlar. Bəzən onları hər bir adamı müşayiət edən mühafizəçi mələklə eyniləşdirirlər.

Qəbirdə kafirlər ilə möminlər və əməli salehlər də günahkarlar qədər sorğu-suala cavab verməlidirlər. Günahkarlar və kafirlər doğru cavab verə bilmirlər. Mələklər Allahın əmri ilə onları (cümə günlərindən başqa)

Qiyamət gününədək şiddətlə döyəcəklər. Bu haqda Quranın müxtəlif yerlərində məlumat vardır (6, 8, 47 surələrdə).

Quranda M. və N. xatırlanmırlar, lakin şərti də olsa, bəzi ayələri onlarla bağlayırlar, məs: «Necə ki, mələklər onları sakitləşdirəndə onların üzlərinə və bellərinə vuracaqlar» (47:27/29; həm də bax: 6:93; 8:50/52). Hədislərdə onlar çox nadir halda xatırlanırlar, lakin esxatoloji ədəbiyyat və standart sünni əqidələrində tez-tez onlara rast gəlinir.

**Ədəbiyyat:** İslam, 172; əl-Qəzvini. Əcaib, 60-61; əzab əl-kəbir məqaləsinə bax; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 208.

**Əl-Mürciə (ircadan olub «sonraya saxlama», «təxirə salma», «vaxt vermə» deməkdir)** – mürciilər - əməlləri imandan sonraya qoyub, insanın bu Dünyadakı halı haqqında düşünməyi «sonraya saxlayan» müxtəlif ehkami məktəblərin ardıcıllarının ümumi adı. Müsəlman doksoqrafları M.-i, əsasında çoxlu ehkami məktəblərin (firaq) yarandığı dörd əsas məzhəblərdən birinin ardıcılları kimi müəyyənləşdirirlər. Ən-Naubəxtiyə görə (vəf. X əsrin əvvəli) ilk M.-in təliminin başlanğıc momenti insan əməlləri haqqında mühakimənin «sonraya saxlanması» idi. Bu fikirlə ilk dəfə VII əsrin 90-cı illərində Əli ibn Əbu Talibin (ə) nəvəsi Həsən b. Məhəmməd (ə) Kufədəki Əli (ə) tərəfdarlarına müraciət etmişdir. Eyni müraciət Xilafətin müxtəlif şəhərlərinə göndərilmişdi. Çox ciddi nəticələrə səbəb olan xəlifə Osmanın qətlini İslamda ilk parçalanma hesab edərək, əl-Həsən b. Məhəmməd rəqiblərin əməllərini mühakimə etməkdən imtina etdi. Əl-Həsən Əli tərəfdarlarını mənasız qan tökməkdən çəkindirərək, Əməvilərlə kompromis tərəfdarı oldu, o, hər hansı bir insanın halını mühakimə etməyi «sonraya saxlamağı» zəruri sayır, hər bir şəxs imanın sözlərini (formulunu) deyən kimi onu imanlı saymağı məsləhət bilirdi. Əl-Həsən b. Məhəmmədin mühakimənin «sonraya saxlanılması» baxışları (əl-irca′) İraqda, oradan da Xilafətin şərqinə yayıldı. Ən-Naubaxti M.-ni dörd kateqoriyaya bölürdü: 1) cəhmilər və ya Xorasan M.-ri; 2) qaylanilər və ya Suriya M.-ri; 3) məsirilər və ya İraq M.-ri; (o cümlədən Əbu Hənifə); 4) «şükkak» (şəkkaklar-şəkk edənlər), butrilər, ənənəçilər, həşvilər. M.-nin coğrafi cəhətdən bölünməsi Xilafətin üç əsas əyalətində (İraq, Suriya, Xorasan) siyasi məsələdə mövqelərin ayrılmasına təsir etdi. Əməvilərin devrilməsi ilə əl-irca′ haqqında təlimin siyasi aspekti yox oldu və aktuallığını itirdi. Əl-icra ideyası ancaq ehkam sahəsinə keçdi.

VIII əsrin I yarısında mürcii ehkamının əsası qoyuldu. Onu məşhur ilahiyyatçı Qaylan əd-Diməşqi (təx. 742-ci ildə edam olunub), Cəhm b. Səfvan (745-də Mərvdə edam edilib) və Müqatil b. Süleyman (vəf. 767) qoymuşlar.

Mürcii ilahiyyatçıları müxtəlif məktəb və cərəyanları təmsil edirdilər. Onlar özləri və opponentləri arasında (təkallahlıq, ilahi atributlar, Quran, böyük və kiçik günahlar və s.) haqqında qızğın mübahisələr aparırdılar. Əl-Əşəri M.-rin 12 qrupunun mühakiməsini göstərir.

**Ədəbiyyat:** İslam, 172; ən-Naşi əl-Əkbər. Məsail əl-imamə, 62-64; ан-Наубахти. Шиитские секты, göst. əsər; əl-Əş′əri. Məqalat, 132-154; аш-Шахрастани. Книга о религиях, 126-131, 215-220; J.Van Ess. Das kitab al-irga` des Hasan b. Muhammad b. al-Hanafiyya. – Arb. 1974, 21/1, 20-52; С.М.Прозоров. К истории мусульманской догматики: мурджииты. – Ислам в истории народов Востока. 19-24.

**Mürid** – könüllü ardıcıl, şagird, M. sufi təşkilatına (təriqə) və ya sənətkarlıq korporasiyasına daxil olmaq istəyən, həsretmə və mənəvi özünükamilləşdirmənin aşağı pilləsində duran adama deyirdilər. O, şeyx, pir, mürşidlə tam səmimi olmalı və onun iradəsinə tabe olmalı idi. Onlar M.-in bu inamından istifadə edib, onu öz siyasi və iqtisadi məqsədlərinə yönəldə bilərdilər. Daha geniş mənada bu istilah sufi və ya adi müsəlmanı bildirə bilər.

**Ədəbiyyat:** İslam, 172-173; M.Plessner. Murid.- EI, 3, 794.

**Mürtəd (ərəbcə murtəddun)** - bir məsləkdən üz döndərən, xüsusən də İslamdan. Dindən dönməyə riddə və ya irtidad deyilir. Qurana hörmətsizlik irtidad sayılır. Quranda M. axirətdə veriləcək cəza ilə qorxudulur (2, 16, 85, 87, 88, 89, 90, 91, 106-cı ayələr) – «Onların cəzası həqiqətən Allahın, mələklərin və bütün insanların lənətinə düçar olmaqdır. Onlar bu lənət içərisində əbədi olaraq qalacaqlar. Yalnız tövbə edənlər bağışlanacaq. Həqiqətən Allah bağışlayan və rəhm edəndir. İman gətirəndən sonra kafir olub, küfrlərini daha da artıranların tövbələri əsla qəbul olunmaz. Kafir olub, kafir kimi ölənlərdən hər birinin dünya dolu qızılı ola və onu fidyə verə, qəbul olunmaz və onları dəhşətli əzab gözləyir. Onlar cəhənnəmlikdir və orada əbədi qalacaqlar».

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 208-209.

**Müseylimə («müslim»in kiçildilmiş forması qad. cins)** – müsəlman rəvayətində Məhəmməddən (s) sonra Ərəbistanda çıxış edib, özünü ona oxşadan yalançı peyğəmbər, o, VII əsrdə Ərəbistanda yalançı peyğəmbərlərin ən tanınmış fiqurlarından biri idi. Rəvayətə görə o, bir dəstə elçi ilə Peyğəmbəri (s) Mədinədə ziyarət edəndən və onun vəfatından az sonra peyğəmbərlik iddiası ilə ortaya çıxır.

M.-nin mənşəyi Şərqi Ərəbistanın kənd təsərrüfatı əyaləti olan Yəmamədən, hənifə qəbiləsindəndir. Məhəmmədin (s) fəaliyyətinin

əvvəllərində o, özünü peyğəmbər və İlahi Rəhmanın elçisi elan edib, ona and içməyə çağırıb, onun yaratdıqlarını tərifləyir, Məhkəmə günü və səma ləzzəti haqqında danışmışdı. Öz ardıcıllarından o, üç dəfə namaz qılmağı, bir oğlandan artıq doğmamağı və şərab içməməyi tələb edirdi. Onun təbliğinin səsi Məkkəyə qədər gedib çıxmışdı.

Təxminən 620-ci ildə M. Yəmamənin baş şəhəri Həcər sakinləri tərəfindən siyasi rəhbər kimi tanındı. O, İslamı qəbul etmiş Sümamə b. Üsala əks duraraq, Yəmamənin çarlarından biri Hövzə b. Əlini devirdi. Siyasi və dini sahədə o, tədricən Məhəmməd peyğəmbərə (s) qarşı çıxırdı və Ərəbistanı iki yerə bölmək istəyirdi. Onun özünün hərəmi – hasara alınmış geniş xurma meşəsi var idi.

Təxminən 630-cu ildə Yəmamədə daxili mübarizə başladı, əyanların bir hissəsi M.-yə qarşı fəal çıxış edirdi. Onun tərəfdarları ilə yerlilər və gəlmə müsəlmanlar arasında döyüşlər oldu. 634-cü ildə Xalid b. Validin başçılığı altında xəlifə Əbubəkr tərəfindən göndərilmiş ordu Yəmaməyə gəldi. Ərkəbə yaxınlığındakı vuruşda M.-nin tərəfdarları məğlub oldu, çoxlu adam M.-nin hərəmində öldürüldü. O, özü də silahdaşları ər-Rəhhal və Mühəkkim b. ət-Tüfeyllə birlikdə döyüşdə öldülər.

**Ədəbiyyat:** İslam, 174; əl-Balazuri. Fütuh, 86-94; ət-Təbəri. Tarix, 1, 1737-1739, 1748-1750, 1917-1922, 1930-1958; əs-Sə'ləbi. Simər əl-qulub. Qahirə, 1965, 146-149; əd-Diyarbəkri. Tarix əl-xəmis, 2, Qahirə, 1283 h., 158-159; Бартольд. Əsər., 6, 549-575; Пиотровский. Мухаммад; yenə o. Движение; Tr. Buhl. Musailima. – EI, 3, 805; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 209.

**<u>Müsəlla («namaz qılınan, dua edilən yer», tac, fars - namazgah)</u>** – əvvəllər məscidin sinonimi, sonralar camaat namazı, ramazan (id əl-fitr) və qurban (id əl-adha) bayramlarının keçirildiyi yer. Adətən M. – şəhərdən kənar, bayramlarda minbərin gətirilib qoyduğu açıq yerdir. XIV-XVI əsrlərdə böyük şəhərlərdə M.-nın mehrablı divarı, əyanlar üçün üsütüörtülü eyvan, daş və ya kərpicdən əsaslı surətdə tikilən minbəri olurdu.

Ərəb ölkələrində və İranda XVI əsrdən sonra M.-da namaz qılmaq adəti tədricən ötüb keçir, Orta Asiyada isə (Buxara) bu XX əsrin əvvəlinə qədər davam edirdi. Bəzən Allahdan bir şey (yağış, ruzi, günəşli hava, hətta nəyə isə qarşı durmaq) istəyəndə müsəlmanlar kütləvi surətdə müsəllaya çıxırdılar. Onlar böyük dəstələrlə səhra, hündür yerlərə çıxıb, kütləvi surətdə Allahdan istədikləri şey üçün dua edib, yalvarırdılar.

**Ədəbiyyat:** İslam, 174; Б.А.Нильсен. Бухарский намазгох, Daşkent, 1950.

**<u>Müslim b. əl-Həccac Əbu-l-Hüseyn əl-Kuşeyri ən-Neysaburi (817 və ya 821-875)</u>** – məşhur mühəddis (Nişapurda doğulub və vəfat edib), Əs-Səhih-Hədislər külliyyatının müəllifi (onun Əs-Səhihi öz müasiri əl-Buxarinin Hədislər külliyyatına bərabərdir), onun Külliyyatı müsəlman ənənəçiləri və hüquqşünasları tərəfindən belə əsərlərin ən nüfuzlularından hesab edilirdi.

M. çox səyahət edib, Hicaz, Misir, Suriya, İraqda olmuş, hədisləri toplamışdır. Deyirlər ki, o, 300 min hədisi öyrənib və onlardan ancaq 12 minini öz Külliyyatına daxil edib.

M.-in Əs-Səhihi müsənnəf tipində tərtib olunub, d.d. hədislər orada müəyyən mövzu və fənnlərə görə (alə-l-əbvab) düzülmüşdür. O da əslində əl-Buxarinin Əs-Səhihinin materialını əhatə edir, lakin onlar başqa mənbələrə söykənir. M. isnadlara xüsusi diqqət yetirirdi: eyni ifadəyə müxtəlif isnadlar gətirirdi.

Əsər 52 bölmədən ibarətdir, onların hər biri özünəuyğun hədisləri cəm edib (məs: dinin beş «üsulu», nikah, qullar, vərəsəlik, müharibə, qurbankəsmə, peyğəmbərlər və onların silahdaşları, olacaqlar, Dünyanın axırı, o Dünyadakı ənamlar haqqında hədislər, etnik və təbabət haqqında hədislər). Tarixi və tərcümeyi-hal xüsusiyyətli hədislər Əs-Səhihi müəyyən dərəcədə tarixi mənbə hesab etməyə imkan verir. Hər bölməyə hədislərdə olan nəticələrə görə hüquqi qiymət verən giriş yazılmışdır.

Əs-Səhih hüquqşünaslıq üzrə dərslik rolunu oynayırdı.

M. bundan əlavə fiqhə və mühəddislərin tərcümeyi-hallarına aid çoxlu əsərlər yazmışdır. Lakin bizə ancaq Əs-Səhih gəlib çatmışdır.

**Ədəbiyyat:** İslam, 174; GAL, 1, 160-161, SBd., 1, 265-266; A.J.Wensinck. Muslim b. al-Hadjdjadj. – EI, 3, 816-817.

**<u>Müslim ibn Aqil</u>** – Hz. Əlinin qardaşı oğlu-imam Hüseynin əmisi oğlu. Müaviyə öləndən sonra (680) Məkkəyə çəkilən imam Hüseyn, tərəfdarlarının onu dəvət etdikləri Kufədəki vəziyyəti öyrənmək üçün M.-i oraya göndərdi. Kufədə o, minlərlə şiənin imamın tərəfində olduğunun şahidi oldu və Hüseynə xəbər göndərib, onun Kufəyə gəlib hərəkata başçılıq etməsini məsləhət gördü. Bu vaxt Yezid imamla vuruşmağa tərəddüd edən Kufə valisi Numan ibn Bəşirin yerinə o vaxt Kufədə «məşhur olan» arvadın oğlu mürvətsiz Übeydulla ibn Ziyadı təyin etdi. İbn Ziyadın qaniçənliyini bilən Müslim gizlənsə də, İbn Ziyad birinci onu tapıb xeyli vuruşdan sonra onu tutub edam etdi və başını kəsib, Yezidə göndərdi. Rəvayətə görə M. Kufədə nüfuzlu şəxslərdən biri olan, Hz. Əlinin dostu Haninin evində qalırdı. İbn Ziyadla Kufəyə gəlməyə məcbur olan şiə Şərik ibn Əvər yolda xəstələnib qaldı və Hanigilə gəldi. İbn Ziyad onu yoluxmağa ora gəlməli idi. M., Şərik və Hani plan qurub, İbn Ziyadı

öldürməyi qərar aldılar. Şərik işarə verəndə M. içəri girib, onu öldürməli idi. Lakin o, bunu etmədi. İbn Ziyad işarədən şübhələnib, çıxıb getdi. M.-dən səbəbini soruşanda bu peyğəmbərdən (s) «iman arxadan, qəfil hücuma mane olur» fikrini söyləyir. Həm də Maninin arvadının ağlayaraq «bu evdə qan tökmə deməsi» onu bu işdən əl çəkməyə vadar etdi. Hani dedi: «Vay olsun o qadına ki həm özünü həm də bizi məhv etdi».

Hazırda Kufə məscidinin divarı yanındakı məscid-məqbərədə, Muxtarın məzarı yanında Müslimin məzarı da ziyarət edilir. İbn Ziyadın məscidin arxasındakı imarətinin xarabalıqlarına isə ziyarətçilər tüpürüb, ona lənətlər yağdırırlar.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 209; Cavad Mühəddisi. Müslim ibn Əqil, 27-28.

**Əl-Müşəbbihə** (və ya əhlut-təşbih - «oxşadanlar» - antropomorfistlər) - müşəbbihilər, Allahı insan surətində təsəvvür edən müxtəlif ehkam məktəblərinin ardıcıllarının ümumi adıdır. Daha mürəkkəb dini-fəlsəfi sistemlərlə tanış olmayan müsəlmanların ilk nəsilləri üçün Allahı insanabənzər məxluqa bənzətmək adət halını almışdı. Quranda Allahı insana bənzətməyə birbaşa işarə olmasa da, orada çoxlu ifadələr var ki, onları insanın bədən üzvləri ilə tutuşdurmağa imkan verir: Allah haqqında görən, eşidən (2:127/121), taxtda oturan (20:5/4), çöhrəsi olan (55:27), gözü olan (54:14), əli olan (38:75) və s. ifadələr. Bununla belə Quranda təkidlə Allahın vahidliyi və Dünyada heç şeyə bənzəmədiyi qeyd edilir. Bu məsələdə Quranın «əksiklikləri» ilahiyyatçılar arasında mübahisə mənbəyi olmuşdur. Zahirilərin antropomorfist fikirlərinə qarşı mötəzililər - müəttililər qəti surətdə çıxıb, Allahın insana bənzər heç bir xassəsi olmadığını qeyd edirdilər. Malikilər isə orta vəziyyət tuturdular. Allahı insan surətində ilk təsəvvür edənlər «qatı» şiələr (müğirilər, mənsurilər, xəttabilər və s.) olmuşlar. Bəyanilər Onu işıq, cəvalikilər yarı işıq-yarı insan kimi qəbul edirdilər.

Üçüncülər isə (Müqatil b. Süleyman, Bəsrədə 767-də vəfat edib, Davud əl- Cəvaribi və s.) Allaha insan atributları versələr də, onun heç kimə və heç nəyə oxşamadığını qeyd edirdilər.

Müsəlman doksoqrafları M.-rə həm də o ilahiyyatçıları aid edirdilər ki, onlar antropomorfik ruhda ilahi atributları mühakimə edirdilər, onların əbədi olduğunu rədd edib, onları alleqorik şəkildə şərh edirdilər. Bunu kərramilər, şiələr, zürarilər dəstəkləyirdilər. Allahın olduğu yeri, onun taxt-tacı, bədən üzvləri, adları və s. haqqında onlarla rəylər mövcud idi. Mömin ilahiyatçılar, ilk öncə hənbəlilər Allahın insana oxşarlığı (ət-təşbih) əksinə ət-tətil edirdilər.

**Ədəbiyyat:** İslam, 183; əl-Əş′əri. Məqalat, 207-222; əl-Bağdadi. əl-Fərq, 225-230, аш- аш-Шахрастани. Книга о религиях, 98-102; Петрушевский. Ислам, 217.

**Əl-Mütəvāli (cəmi əl-mətāvilə - «ardıcıllar»)** – mütəvali, Livanın imami şiələrinin adı. Əsasən Livanın cənubu və Bekaada yaşayırlar, bir az Livanın dağ tərəfində, Beyrutda, Şimali Livanda vardır. Orta əsrlərdə M.-rin əyanları mühüm əhəmiyyət kəsb edirdilər. M.-rin çoxu əkinçilərdir. Ənənəyə görə Livan parlamentinin sədri M.-lərdən seçilir. Onlar parlamentdə və hökumətdə müəyyən kvotaya malikdirlər. Son vaxtlar M.-rin özünüdərketmələri, onların ictimai təşkilatlarının əhəmiyyəti, xüsusilə də «Əməl» («ümid») hərəkatı çox yüksəlmişdir.

**Ədəbiyyat:** İslam, 175; Arif əz-Zeyn. Müxtəsər tarix əş-şiə. Sayda, 1914.

# N

**<u>Ən-Naciyə</u>** («xilas olan») - düz yolla gedən, həqiqi dinə qulluq edən müsəlman icması. Müsəlman doksoqraf ənənəsi Məhəmməd peyğəmbərin (s) dediklərinə gedib çıxır, o, demişdi ki, onun icması 73 icmaya parçalanacaq, onlardan 72-si «məhv olacaq», biri isə «xilas olacaq» (nəciyə) və Cənnətə düşəcək. Guya Məhəmmədə (s) aid olan şərhdə deyilir ki, «xilas olanlar» «sünnə və razılıq» əhlidir (əhlü-s-sünnə və-l-cəmaə). Müsəlman sünni ilahiyyatçıları bu mömin katerqoriyanı Qurana tabe olan sünnilər hesab edirlər. Lakin Məhəmmədə (s) yazılan Ən-N.-nin təyinatı ümumi xarakterli olduğuna görə hər hansı bir icmanın üzvləri özlərini «xilas olunanlara» aid edib, Cəhənnəmdən qurtaran hesab edə bilərlər.

**Ədəbiyyat:** İslam, 185; əl-Bağdadi. Əl-Fərq, 6, 318; аш-Шахрастани. Книга о религиях, 27-28.

**<u>Nafilə</u>** (cəmi-nəvafil) - lüğəvi mənası-mal, qənimət, ehsan, bağışlama, arzu, istək, namaz hökmü və s. Bu söz Quranda iki yerdə işlənir. 1. Əl-Ənbiya surəsi, ayə 72-də bəxşiş, ehsan mənasında; 2. Əl-İsra surəsinin 81-ci ayəsində (Ya Məhəmməd!) Gecənin yarısında durub, ancaq sənə xas olan əlavə (nafilə) namazı qıl. Hədislərdə o, bu mənada çox işlənir. Ramazan ayı haqqında belə deyilir: «Allah onun əcirlərini və nəvafiliyini hələ başlamadan əvvəl təyin etdi» (İbn Hənbəl). Başqa bir baxımdan olsa da, bu qüdsi hədis maraqlıdır: «Qulun mənə nəvafil ilə yaxınlaşmaq istədiyi vaxt onu sevirəm. Onu sevdiyim vaxt onun eşidən qulağı, görən gözü, tutub yuyan əli, yeriməyə yarayan ayağı oluram» (Əl-Buxari).

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 210.

**<u>Namaz</u>** (fars, azərb.) - müsəlmanların gündə beş dəfə - gün çıxmamış, günorta, əsr vaxtı, axşam (şam) və xiftən (şamdan xeyli sonra) Allaha etdikləri qanuni ibadətləri və üsuliddinin beş bəndindən biridir. Beş vaxt namaz Peyğəmbər (s) vaxtı müəyyən edilib. Rəvayətə görə namazın rükətlərinin (rəkət) sayı çox olub. Peyğəmbər (s) Allahdan onun azaldılmasını xahiş edib və nəhayət gündə 17 rükətə endirilməsinə nail olub. Adətən namazın ilk iki rükəti Fatihə və İxlas (Tövhid) surələri ilə, qalanları müxtəlif ayələr və dualarla, qəbul edilmiş hərəkətlərlə yerinə yetirilir. Namazın lazım olan qaydada qılınması üçün onun elemetləri əsryarım öyrənildən sonra Məhəmməd əş-Şeybani (vəf. 805) tərəfindən yazılı surətdə təsbit edildi. Namazı hər bir təmiz yerdə (məscid, ev, çöl, səhra), dəstəmaz alıb və ya su olmasa təyəmmüm edib qılmaq olar. Namaz qılan üzünü qibləyə (Məkkədəki Kəbəyə sarı) tutur. Müsəlmanlar cümə

günü günorta namazını adətən məsciddə qılırlar (bax: əs-salat), bu, müsəlmanların vəhdəti üçün önəmli sayılır. Adil Allah namazın hər cürə qılınmasına icazə verir, təki sən Allahı unutma: xəstəsənsə oturan və ya uzanan yerdə gözlərini açıb yunmaqla, dəstəmaz almadan (təyəmmümlə), nə səbəbdənsə namazın vaxtını ötürmüsənsə qəzasını qılmaqla və s.

**Ədəbiyyat:** İslam, 204; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 210.

**Nemətulla Vəli, Əmir (seyyid) Nurəddin Nemətulla** b. mir (seyid) Abdulla (Şah Nemətulla Vəli) (1330-1431) fars sufisi, şair və nemətullahiyyə sufi qardaşlığının banisi. N.V. safei sünni olub, öz şəcərəsini onun nəsli sayılan 5-ci şiə imamı Məhəmməd əl-Baqirin yolu ilə Məhəmmədə (s) aparıb çıxardırdı. N.V. Hələbdə doğulub, İraqda, sonra da Məkkədə şeyx Abdulla əl-Yafiinin (1298-1367) yanında oxumuş, 24 yaşında həcc zamanı onun müridi olmuşdur. Onun yanında yeddi il təlim ala-ala o, İbn Ərəbinin əsərlərini dərindən mənimsədi və əl-Yafiinin xəlifəsi oldu. Uzun illər boyu səyahətdən sonra o, İraqa qayıdır, sonra Misirə, oradan (Təbriz və Ərdəbil yolu), bir təkkədən başqa təkkəyə səyahət edə-edə, türk qəbilələri arasında aktiv missioner fəaliyyəti ilə məşğul ola-ola 40 və 100 günlük oruc tutub, dinməzlik əhdi və s. ilə diqqəti cəlb edə-edə gedib Məvaraənnəhrə çıxır. Bir müddət o, Səmərqənd və Qarşidə yaşayır. Onun açıq çıxışları Teymurun (1336-1405) xoşuna gəlmirdi və o, Herata gedib, orada əmir İmadəddin Həmzə əl-Hüseyni əl-Hərəvinin qızı ilə evlənir. Heratdan o, Yəzdə, oradan da Kerman vilayətinin Kuhbanan əyalətinə gedir. Sonrakı otuz ili Yəzddə, Şirazda və Kermanda keçirir. Kerman əyalətinin Mahan kəndində o, 25 il qalır. Orada o, gəzəri dərvişlərin qalması üçün ayrıca yeri və məscidi olan böyük xanəgah tikir. Onun məzarı orada indiyədək kütləvi ziyarət yeri olaraq qalır.

N.V. həyata fəal münasibəti ilə seçilir, hökmdarların rəğbətini qazanırdı. Xüsusilə, Teymurun nəvəsi İsgəndər-Sultan (1415-də qətl edilib) ona hamilik edirdi, o, N.V. üçün Yəzd yaxınlığında Tafti kəndində məscidi olan xanəgah tikdirmişdi. Teymurun oğlu Şahruh (1405-1447) ona xüsusi diqqət yetirirdi. N.V.-nin güclü adamlarla tanışlığa can atması onun nəsillərinin inkişafında rol oynadı. N.V.-nin bütün təbəqələr arasında məşhurluğu danılmaz idi. Onu «bütün sufilərin başçısı»- şah hesab edirdilər və bu ləqəb sonrakı bütün nemətullahiyyə qardaşlığının rəhbərlərində qalırdı. N.V. öz mənəvi şərəcəsini Cüneyd əl-Bağdadi ( vəf. 910) və Məruf əl-Kərxi yolu ilə (vəf. 816) imam Əli ibn Əbu Talibə aparıb çıxardır. Onun dünyagörüşündə ərəb sufiliyi ilə (Əhməd əş-Şazili və Əbu Mədyan) İbn Ərəbinin vəhdət əl-vücudu, Nəcməddin əl-Kubranın ideyaları və xacəqan məktəbinin qaydaları yanaşıdır. Sufi təcrübəsində o, eynilə əl-Cüneydin

«ayıqlıq məktəbi» və Bəyazid əl-Bistaminin «sərxoşluq məktəbini» izləyirdi. N.V. panteist deyildi, onun üçün bütün başlanğıcların əvvəli əbədi və mütləq dərk olunmaz Allahdır. O, həqqaya getməyi qəbul edirdi, lakin mahnısız, rəqssiz, fırlanmadan və tullanışsız. Sufi dinc əhali arasında öz paltarı ilə seçilməlidir. Sufi üzərində nəzarət (daruqa) olmamalıdır, o, ancaq öz mürşidinə borcludur.

N.V. çox məhsuldar müəllif olub: ənənəyə görə o, ərəb və fars dillərində sufiliyin nəzəriyyəsi və təcrübəsinə dair 544 traktat yazmışdır. Onun 110-u bizə qədər gəlib çıxıb (onun yarıdan çoxu Tehranda, bizim vaxtımızda nəşr olunub), onlar həcmcə kiçik əsərlərdir, N.V. onlarda sufi klassiklərin (İbn Ərəbi, Fəxrəddin əl-İraqı və s.) əsərlərində çətin başa düşülən yerlərini aydınlaşdırır. Bunlardan başqa o, böyük Divan tərtib etmişdir, 154 qəzəldən ibarətdir, bizim vaxtımızda dörd dəfə Tehran və Kermanda nəşr olunmuşdur.

**Ədəbiyyat:** İslam, 190-191; Dövlətşah, 333-336; əş-Şüstəri. Məcalis, 131b-132a; Bustan əs-siyahə, 525-528; Məsum Əlişah. Təraiq, 3,3-21; Петрушевский. Ислам, 346; Browne. History. 463-465; Aubin. Materiaux; Trimingham. Orders, Index.

**Nemətullahiyyə** - (nemətullahi, nemətiyyə, neməti)-XIV əsrin sonu XV əsrin əvvəllərində İranda Nemətulla Vəli (vəf. 1431) tərəfindən yaradılmış sufi qardaşlığı. Əvvəlcə sünni N. (görünür, XVII əsrin əvvəllərində) tamamilə şiələşən, İranda (indi də hər yerdə fəaliyyət göstərən) ən çox geniş yayılmış və üzvlərinin çoxlu sayına görə bu günlərə qədər öz təsirini və şiə ruhaniləri arasında öz nüfuzunu saxlayan qardaşlıqdır. Keçmişdə olduğu kimi N. böyük siyasi fəallığı ilə fərqlənir və dövlətin daxili həyatına az təsir etmir. N. şəhər qardaşlığı olub, öz üzvlərini əsasən şəhər məmurları, kiçik və orta tacirlər, sənətkarlar, aşağı və orta ruhanilərdən (məhəllə, rayon, şəhər mollaları, mədrəsə, məktəb müəllimləri və s.-dən) təşkil edirdi.

Qardaşlığın tarixi iki mərhələyə bölünür:

1) Qardaşlığın banisi Nemətulla Vəlidən XVIII əsrin əvvəlinə qədər;
2) N.-nin dekani xətti nümayəndələri Məsuməli şah Dekani və Şah Tahir Dekaninin qardaşlığın yenidən dirçəlişi üçün 1776-cı ildə Hindistandan yenidən İrana mühacirət etməsindən bizim vaxtımıza qədər.

XV əsrin I yarısında N.-nin banisinin məşhurluğu və onun tərəfdarlarının aktiv təbliğatı sayəsində qardaşlıq bütün İrana yayılıb, müxtəlif təbəqələri əhatə etdi və ölkə hüdudlarından kənara yayılmağa başladı. Hələ Nemətulla Vəli sağkən onun oğlu Burhanəddin Xəlilullah (1374-1444) Hindistana (Dekan) gedib, orada Bəhməni I Əhmədşahın (1422-1435) xahişi ilə qardaşlığın filialını təşkil etdi, Burhanəddin İrana qayıdandan sonra ona şahın oğlu Şah Həbibəddin Muhibbullah başçılıq

etdi. N.-nin mərkəzi iqamətgahı və rəhbərin (qütb) rezidensiyası Mahan (Kerman) kəndindəki xanəgah sayılırdı, əhəmiyyətinə görə ikinci sayılan iqamətgah isə Taft (Yəzdə yaxın) kəndində idi. N.-nin rəhbərləri XV-XVIII əsrlərdə İranda hökm sürən Qaraqoyunlu (1330-1468), Ağqoyunlu (1378-1508) və xüsusilə də Səfəvi hökmdarları ilə sıx əlaqədə olub, onu nikahla möhkəmləndirib, yüksək dövlət vəzifələri tuturdular. Nəticədə N.-nin siyasi əhəmiyyəti artdı və şiə heydəriyyə qardaşlığı (heydəri) ilə rəqabətə başladı və bu XIX əsrin sonunadək çəkən kəskin mübarizəyə keçdi. N. şiəliyi qəbul edəndən sonra mübarizə ancaq ticarət-sənətkarlıq korporasiyası üzərindəki nüfuz üstündə idi.

N. qardaşlığının üzvlüyünə seçki yarıbağlı bir təşkilatda keçirilirdi. Saray intriqalarında iştirak etməsi I Təhmasibin hakimiyyətinin (1524-1576) sonunda N.-ni gizli müxalifətçiliyə gətirib çıxartdı; nəticədə qardaşlıq gənc I Abbasa (1587-1629) qarşı açıq çıxış etməyə başladı. N. Bəkdaş xana Səfəvilərə qarşı mübarizədə kömək edirdi. Abbas və onun varisləri N.-yə qarşı təqiblərə başlayıb, onları bir təşkilat kimi ləğv etdilər. XVIII əsrin axırlarında İranda artıq o, öz adı ilə tanınmırdı.

**Ədəbiyyat:** İslam, 191-193; Dövlətşah, 333-336; Xandəmir. Həbib, 4, 7-8; əş-Şüştəri. Məcalis, 131b-132a; Məsum Əlişah Təraiq, 3, 3-21; Петрушевский. Ислам, 346; Ч.А.Стори. Персидская литература: Библиографический обзор. İng.dil. tərc. və işlənm. və əlavəsi. Ю.Э. Брегель. 1-3. M., 1972, 1, 175-176, 2, 993-994; Müdərrisi. Silsiləha, 7-63, 140-147, 189, 205, 206-245, 264-305; Browne. History, 463-465; J.Rypka. Dans I'intimite d'un mystique iranien.-L'ame de I'İran/ P., 1951, 181-200; Aubin. Materiaux; W.İvanov. Ismailiti Literature; A bibiliographical survey. Tehran, 1963,184; Trimingham. Orders, Index; Fasa'i, 161-162, 264-265; Gramlich. Derwischorden, 1-3, Index; B.Nikitine. Ta'usi.-Sh. EI, 263-265.

**Nəbi** (cəmi. ənbiya, nəbiyyun) - peyğəmbər, «Allahın söz dediyi adam», Allahdan səs, vəhy alan. O, ibrani nəbi, arami nebiya sözündən alınıb ərəbcə rəsul, cəmi rusul, mursəlun, nəbiyyun, ənbiya istilahları ilə də işlənmişdir. Qurana görə peyğəmbərlər yalnız əhl-əl-kitab arasında zühur etmişlər. Məhəmməd peyğəmbər (s) Mədinədə nəbi ünvanı ilə çağırılmışdır.

N. Quranda Məhəmmədin (s) rəsulla («elçi») yanaşı əsas adlarından biridir. Quranda, xüsusən də Mədinə dövründə, birincisi Adəm olan Məhəmməddən əvvəlki N.-lər haqqında çox danışılır. Məhəmməd (s) onlardan axırıncıdır və Xatim (xatəm) ən-nəbiyyin Xatəmul-ənbiya - «peyğəmbərlərin möhürü, axırıncısı» adlanır (33-40, qədim peyğəmbərlər: 6:83-86; 4:163/161 və s.).

Talmudda Əhli-Ətiqdə 7 qadın nəbi və 78 kişi nəbinin adları çəkilib. Quranda isə qadın peyğəmbər adı yoxdur. Ümumiyyətlə, deyəsən qadın peyğəmbər olmayıb.

Qurandansonrakı ədəbiyyatda peyğəmbərlər haqqındakı hekayələr çox geniş yayılaraq, xüsusi kateqoriya əsərlərinin mövzusunu-qısas əl-ənbiya «peyğəmbərlər haqqında hekayələr, tarixlər» yaratdı. Qədim peyğəmbərlər Allaha inamı təlqin edir və Məhəmmədin (s) gələcəyini qabaqcadan xəbər verirdilər: onlar Məhəmmədlə birlikdə 124 min nəfər idilər, lakin Quranda onların cəmi 25-28-nin adı çəkilir, onların çoxunun da ləqəbi vardır, məs: İbrahim xəlilu-l-Lah («Allahın dostu»), İsa ruhu-l- Lah («Allahın ruhu») Məhəmməd rəsulu-l-Lah («Allahın elçisi»). «Mətin» (ulu-l-əzm) adlanan 9 peyğəmbər xüsusilə seçilirdilər (46:35/34). Bunlar Nuh, İbrahim, Davud, Yaqub, Yusuf, Əyyub, Musa, İsa, Məhəmməddirlər. Peyğəmbərlərin bəzisinə yazılı (səhifələr) göndərilmişdir. Davuda (ə) Zəbur, Musaya (ə) ət-Tövrat, İsaya (ə) - İncil, Məhəmmədə (s) isə əl-Quran göndərilmişdir.

Peyğəmbərlik müsəlman ehkamı və ilahiyyatında mərkəzi problemlərdən biri oldu. Birbaşa məlumat şəklində və ya gələcəyi görmə və ya yuxu yolu ilə adicə kəşf almış N. ilə mələklərin Yazılı kitab gətirdiyi və onu insanlar arasında fəal təbliğ etmək tapşırılan rəsul arasında fərq qoyulurdu. N. həmişə adi insandır, lakin Allahla yaxınlığına görə mələklər kimidir, onlardan daha vacib və mühümdür. Peyğəmbərlər yuxarı kateqoriyalı insanlara aid olub, başqalarından gizli olan şeyləri bilirlər. Onlardan aşağıda guya kahinlərdir (Bax, kahin). Peyğəmbərlər ardlarınca gələn imamların və «müqəddəslərin» (övliyaların) ruhani nüfuzları iyerarxiyasına da başçılıq edirlər. Peyğəmbərliyin əsas əlamətləri: huşunu itirməklə kəşf (vəhy) alma, möminlik, tabeçilik (təslim) və çəkinmənin təbliği, insanlar arasında nüfuzlu olma və yaxşı ailədən olma, möcüzə göstərmək. Peyğəmbərliklə bağlı əsas məsələlərdən biri peyğəmbərin möcüzəsidir. Onlar peyğəmbərlik təbliğatının təsdiq edilməsi üçün Allah tərəfindən verilir. Onları «övliyalar» və ya sehrbazların möcüzə göstərmək bacarığından fərqləndirən bir sıra əlamətlər vardır.

İlahiyyatçılar tərəfindən təfərrüatı ilə müzakirə olunan başqa bir sual-peyğəmbərlərin ümumiyyətlə günahsız, Məhəmmədin (s) isə tam günahsız olmasıdır.

Peyğəmbərliyin şiə nəzəriyyəsi hər bir peyğəmbərin «ruhani vəsiyyətlərinin icraçısı» (vəsisi) olduğunu göstərir, onlar peyğəmbərlərin missiyasını dəstəkləyib, onu davam etdirirlər.

**Ədəbiyyat:** İslam, 184; əl-Müfid. Əvail, 12-16, 29-33; 43-44; ən-Nəsəfi. Əqaid, 31-32; İbn Xəldun. Müqqədimə; 16, 501-518; əl-Cürcanu. Şərh, 545-578; Hughes. Dictionary, 427; J. Horovitz. Nabi-E I, 3, 867; Z.M.Bünyadov, Dinlər, təriqətlər, məzhəblər, 211.

**Ən-Nəccar**, əl-Hüseyn b. Məhəmməd - (Qumda doğulub, təxm. 845-ci ildə vəfat edib), ardıcılları nəccarilər və ya hüseynilər adlanan məşhur ilahiyyatçı. Peşəcə dülgər olan və ona görə də ən-Nəccar ləqəbi alan əl-Hüseyn, xüsusilə, Bəsrə mötəzililərinin başçısı ən-Nəzzamla (vəf. 835-36 və ya 845) disputu ilə şöhrət tapmışdır. Belə disputlardan birindən sonra o, vəfat etmişdir. Əş-Şəhrəstaniyə görə ən-N. təlimi Rey və onun ətrafının mötəzililərinin çoxu tərəfindən dəstəklənirdi.

İbn ən-Nədim ən-N.-ın 20-yə qədər əsərinin adını çəkir, N. onlarda öz ilahiyyatçı görüşlərini izah edir. Müsəlman doksoqraflarının dediklərinə görə o, bir məsələdə mötəzililərlə razılaşıb, sünnilərlə razılaşmırdı, başqa məsələdə isə əksinə, xüsusilə bütün mötəzililər kimi o, «əbədi ilahi atributlarını» rədd edirdi, buna görə sünni-sifatilər onu tənqid edirdilər. Eyni zamanda o, mötəzili-ehkamı-insanın iradə azadlığını rədd edib, sünni sifatilərin rəylərini bölüşdürürdü ki, Allah insanların əməllərinin yaradıcısıdır, hərəkətetmə imkanı hərəkətlə eyni vaxtda meydana gəlir. Onu cəbəri (determinist) adlandırırdılar, çünki o hesab edirdi ki, dünyada ancaq Allahın istədiyi baş verir. Nəccarilərin öz aralarında da ehkamın bəzi məsələləri haqqında əksliklər meydana gəlmişdi. Nəticədə onlar bir neçə qrupa bölünürdülər ki, onlardan məlum olanları burqusilər, zəfəranilər və müstədrikilərdir.

**Ədəbiyyat:** İslam, 184-185; əl-Əş'əri. Məqalat, 135-136, 283-285; İbn ən-Nədim. Əl-Fihrist, 229; əl-Bağdadi. Əl-Fərq, 207-209; аш-Шахрастани. Книга о религиях, 85-87.

**Ən-Nəcəf -** Nəcəf, Məşhəd Əli (ə) – (Hazırda məqbərəsi ən-Nəcəful-Əşrəfdə olsa da Hz. Əli Kufədə şəhid edilmişdir). Kufədən 10 km. qərbdə olan İraq şəhəri, Dəclə və Fərat çayları vadisi və səhra ilə sərhəddə yerləşib, əsasən şiələrin ziyarət yeridir.

Ənənəvi məlumata görə Kufə ətrafında sonradan yaranan ən-N.-də imam Əli ibn Əbu Talib dəfn olunmuşdur. Buraya Nəcəfü-l-Kufə də deyilirdi. Əməvilər vaxtı Əli tərəfdarları məzarın yerini gizlin saxlamağa məcbur olduqları üçün sonradan həmin yerdə bir neçə məqamı qəbrin olduğu yer kimi göstərirdilər. Rəvayətə görə onun hətta Mədinədə, Fatimənin məzarı yanında dəfn olunduğu da qeyd edilir. Bir rəvayətə görə isə Hz. Əli oğlanlarına (Həsən, Hüseyn) onu Kufə məscidində dəfn etməyi tövsiyə edir və söyləyir ki, axşam üzü niqablı bir nəfər gəlib qəbri açıb, meyiti götürüb cənazəyə qoymağı və hara isə aparmağı tələb edəcək. Siz onun dediklərini edəsiz, ondan kim olduğunu soruşmayasınız. Axşam həmin şəxs gəlir, cənazənin qabağında o, arxasında iki qardaş çox gedib bir quru qamışlığa çatırlar. Niqablı deyir: bir qəbir qazın, meyiti qoyub üstünü örtməyi söyləyəndə qardaşlar bunun axır vida olduğunu deyib, şəxsin kim olduğunu təkidlə soruşurlar. O, üzündəki niqabı açanda onun Xızır peyğəmbər

olduğunu görürlər. Ərəbcə ney (qamış), cəf-quru, Neycəf (Nəcəf)-quru qamışlıq deməkdir. Harunərrəşid (iki əsrdən sonra) ova çıxıb ceyran qovarkən, ceyran kiçik bir təpəciyə çatanda dayanır, itlər də, atlar da dayanır. O, atdan düşüb gəlsə də, ceyran qaçmır. Harun adam göndərir, qoca bir kişi çağıtdırır və soruşur ki, bu nə məsələdir. Qoca deyir ki, bu müqəddəs qəbirdir. Bəs kimin?-qoca deyir ki, bu Hz.Əlinin qəbridir. Rəvayətə görə Əlinin (ə) məqbərəsi xəlifə Harunərrəşidin (786-809) göstərişi ilə öz adını əbədiləşdirmək üçün tikilib. İbn Heykəlin verdiyi məlumata görə Mosul Həmdani hakimi Əbülheyca vaxtı məzarın üzərində böyük günbəz tikildi, X əsrin sonunda isə məqbərə (mavzoley) tikildi. XI əsrin ortalarında məqbərə «mömin müsəlmanlar» tərəfindən yandırılsa da, tezliklə bərpa olundu. XIV əsrin əvvəlində şəhərdə sufi xanəgahı tikildi. 1326-cı ildə coğrafiyaşünas İbn Bətutə ən-N.-ə gəldi və onun müfəssəl təsvirini verdi. O, şəhərin qızıl darvazası, məqbərənin qızıl şamdanları, bahalı xalıları və pərdələri haqqında qeyd edir. O vaxt artıq ən-N. İraqın ən mühüm şəhərlərindən biri idi. XIX əsrdə ən-N. və şiələr üçün müqəddəs olan İraqın başqa şəhərlərinə İrandan çoxlu görkəmli mücahidlər, o cümlədən mərcə ət-təqlid Murtaza Ənsari gəldi. Müasir ən-N. şiə ilahiyyatının, ilahiyyat təhsilinin, dini-siyasi ədəbiyyat nəşrlərinin, habelə şiə zəvvarlarının, xüsusilə də aşura və Əlinin (ə) qətl gününün qeyd edilməsinin böyük mərkəzidir. İmamın «Qızıl məscidi» köhnə ən-N.-in mərkəzində yerləşir, orada tətbiqi incəsənət əsərlərinin saxlanan yeri vardır. Şəhərin şimal tərəfində Vadi əs-Səlam qəbristanlığı yerləşir, orada şiə üləmaları və fəqihlər dəfn edilirlər. Şəhər əhalisinin demək olar ki, hamısı şiədir - farslar və ərəblərdir, sayı bir milyon nəfərə qədərdir. İmam Əlinin məzarı orada olduğu üçün şəhər ən-Nəcəfü-l-Əşrəf (ən şərafətli N.) adlanır.

1964-cü ildə İrandan sürgün edilən antişah hərəkatının və İrandakı dini çevrilişin rəhbəri ayətullah Ruhullah əl-Musəvi əl-Xomeyni 1978-ci ilin payızına qədər burada yaşamışdır.

**Ədəbiyyat:** İslam, 184; E. Honigmann. Al-Nadjaf –EI 3, 815-816; yenə o. Al-Nadjaf.-Sh EI. 930-931; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 211-212.

**Nəcməddin Kubra** (1145-1226) – Kubraviyyə və ya Zəhəbiyyə təriqətinin banisi. O XII-XIII əsr iranlı sufilərin ən böyük şəxslərindən biri idi. Orta Asiyada indiyədək qalmış bir çox əfsanə onun adı ilə bağlıdır. Sufiliyin inkişafında böyük rolu olub. Çoxlu şagirdləri arasında təsəvvüf əqidəsinin böyük nümayəndələri var. Adı Əhməd ibn Ömər Əbülcənnab Nəcməddin əl-Kubradır. Ləqəbləri: ət-Tətimmət əl-Kubra (Qiyamət), Şeyx Vəlitaraş (vəli hazırlayan şeyx). Əsərləri: Əl-Üsul əl-əşərə, Risalə fi-s-suluk, Risalə fi-t-turuq, Təvali ət-tənvir, Qəvatih əl-cəmal, Təfsir və s.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 212.

**Nəfisə, əs-Seyyidə Nəfisə** - Qahirənin qapısında, İmam Şafeinin məscid- türbəsi istiqamətində, Əhməd ibn Tulun məscidinin cənubunda yerləşən türbə. Qahirədəki qadın vəlilər arasında Seyyidə Zeynəb bint Məhəmməddən (s) sonra Sitt Səkinənin (Sükeynə) yanında Sitt Nəfisə xüsusi yer tutur. Cümə günü rəsmi Quran qiraəti sıralanmasında İmam Şafei ilə İmam Hüseyndən sonra əs-Seyyidə Nəfisə üçüncü gəlir. Türbə kişilər tərəfindən olduğu kimi, qadınlar tərəfindən də, xüsusən də gecələr ziyarət edilir. Türbənin qapısı ildə ancaq bir dəfə açılır.

Nəfisə, əl-Həsən ibn Zeyd ibn əl-Həsənin qızı idi. Əri Cəfər əs-Sadiqin oğlu İshaq əl-Mütəmin ilə Misirə gəlib, burada geniş biliyə malik bir qadın kimi tanındı. İmam əş-Şafeinin evində tez-tez olub, ondan çoxlu hədis öyrənmişdi. Əş-Şafei vəfat edərkən cənazə duası oxumaq üçün onu Nəfisənin evinə gətirdilər. Özü (824) vəfat edərkən ərinin və özünün nəşlərini Mədinəyə - ailə qəbiristanlığına gətirmək istəsələr də, misirlilər qoymadılar. Türbəsinin tikilməsində bir çox hökmdarlar iştirak edib.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 212-213.

**Nəmrud, Namrud, Nimrud** - Kitabi-müqəddəsdəki Nimrad adı, islam ənbiya qissələrində olduğu kimi, İbrahimin uşaqlarına dair dini rəvayətlərdə qeyd olunur. N. hekayətinə Quranda işarələr vardır. İbrahim (N.-a) dedi: «Mənim Tanrım həm dirildir, həm də öldürür». (N.): «Mən də həm dirildir, həm də öldürürəm» demişdi. İbrahim: «Allah Günəşi şərqdən doğurur, bacarırsansa, sən onu qərbdən doğur» dedikdə, o kafir donub qaldı (Bəqərə, 258), cavab verə bilməyəndə N. və ətrafı zor işlərədək İbrahimi oda atdılar, Allah onu xilas etdi (əl-Ənbiya, 68-69).

Təbəri N.-u Süleyman ibn Davud və Zül-Qərneyn kimi dünyaya hökm etmiş üç və ya Buxtunnəsr ilə birlikdə dörd hökmdar arasında sayır. Onun münəccimləri bir uşağın doğulub, onun səltənətini devirəcəyini xəbər verdilər. Ona görə İbrahim, Musa, Gilqamış və s. təqib olunmağa başladılar. Azar və Uşa N.-u aldada bildilər. İbrahim onunla mübarizəyə girişdi. N. Allahla müharibə etmək üçün dörd qartal bəsləyib, onların köməyi ilə göylərə qalxmaq istəyir, lakin yerə düşür. Sonra o, Allaha güllə atmaq üçün qüllə tikdirir. Allah ona qarşı ağcaqanad dəstəsi göndərir, onlar onun qoşununun qanını sovurub, ətini yeyirlər. Bir ağcanaq N.-un burnuna girib, beyninə gedir. Dörd əsr zülm ilə hökm sürmüş N. dörd əsr də ağcanadın işgəncəsini çəkib, Cəhənnəmə vasil olur.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 213-214.

**Nəqib** (cəmi nüqəba; «başçı», «müəvəkkil») - dini-siyasi hərəkatlar və İslamın konfessial icmalarının təcrübəsində geniş işlədilən istilah. Abbasi təbliğatı və ismaili «çağırışı» sistemində sayı 12 olan N. Məsihin 12 şagirdi

(həvarisi) və Məhəmməd peyğəmbərin (s) 12 müəvəkkili kimi idarəedici rolları oynayırdılar, ismaililərdə N. imamın müvəkkili olub, ruhani iyerarxiyasının yüksək vəzifələrindən biridir.

Şəriflərin, «Peyğəmbərin (s) ailəsinin» nəsillərinin başçısı kimi N. İnstitutunun yaranması Abbasilər və Əli tərəfdarları arasında əlaqələrin kəskinləşdiyi şəraitdə keçirdi: həm onlar, həm də bunlar Məhəmmədlə (s) ən yaxın olduqlarını iddia edirdilər. Xəlifə əs-Səffahın (749-754) əmri ilə Peyğəmbərin (s) nəsli kimi dövlət təminatına haqqı olan Haşimilərin rəsmi şəcərə siyahısı (tumar) tərtib edilmişdi. Siyahının tərtib olunması Abbasi imamı İbrahim b. Məhəmmədin (748-də öldürülüb) nəslindən seçilən müvəkkilə (N.) həvalə olunmuşdu. Haşimilərin ilk N.-i İbrahimin oğlu Məhəmməd oldu (749-dan 801-ə qədər). N.-in üzərinə Məhəmmədin (s) nəsli və onların ailə hüquqi məsələlərinə rəhbərlik etmək vəzifəsi qoyulmuşdu, onların xüsusi statusları var idi (onlar sədəqə verməkdən azad edilir, təminat alır və s.). Hər şəhərdə xəlifə tərəfindən N. təyin edilirdi. N.-lər tez-tez zəvvarların karvanlarına başçılıq edirdilər.

X əsrin əvvəlinə qədər Haşimilərin düşmənçilik edən hər iki qolu - Ələvilər və Abbasilər ikincilərin təyin etdiyi ümumi N.-in tabeliyində idilər. Lakin 917-ci ildə Ələvilərin yüksəlişi nəticəsində və vəzir İbn əl-Furatın dəstəyi ilə talibilər (Ələvilər və onların qohumları-Əbu Talibin nəsilləri) özlərinə Ələvilərdən muxtar - N. təyin etmək hüququ qazandılar. Bağdadda N. vəzifəsi uğrunda mübarizə aparırdılar və onu Ələvilərin ya həsəni və ya hüseyni qolları tuturdu. Məşhur N. hüseyni əş-şərif zu-l-mənakib əl-Hüseyn b. Musa əl-Musəvinin Talibilərin N.-i təyin olunması haqqında şəhadətnamə qalmışdır. 40 il ərzində (965-dən 1006-ya qədər) o, altı dəfə vəzifəsindən çıxardılıb, yenidən bu vəzifəyə bərpa olunmuşdur. Talibilərin Bağdadda N. vəsifəsində varisləri – onların oğulları ər-Radi (vəf. 1016) və əl-Murtaza (vəf. 1044) olmuşlar. Ələvi N.-i öz qohumları arasında aylıq təminat paylayırdı, onların adlarına şikayətlər gəlir, onlar məhkəmə qurur, şikayətlərə baxır, cəza təyin edirdilər. və s.

XI əsrdə Səlcuqların antişiə siyasəti Müəmmərin evinin təmsil etdiyi (1062-dən 1097-ə qədər N.) Bağdad talibi N.-ləri xətti ilə yanaşı Rey talibi N.-ləri xəttinin də yaranmasına gətirib çıxartdı. Bu qolun ilk N.-i Əbu Cəfər ət-Tusinin şagirdi Əli b. Mütəhhər əd-Dibaci oldu.

Bağdadda Haşimilərin N.-i ilə yanaşı ənsarların ağsaqqalları başçıları da N. əl-ənsar olurdu. Belə ki, məşhur N. əl-ənsarlardan biri hənbəli Əbdüssəlam b. Əhməd idi (vəf. 1075).

Sufilikdə N. qardaşlığın başçısının (əl-qütb, əl-vali) yerlərdə nümayəndəsi, müvəkkili idi.

**Ədəbiyyat:** İslam, 185-186; Мец. Ренессанс. 133; L. Massignon. Cadis et naqibs baghdadiens. WZKM. 1948, 51/1-2, 111-115.

**Nəqşbənd,** Bəhaəddin Məhəmməd b. Burhanəddin Məhəmməd əl–Buxari (1318-1389) - Xocaye bozorq, Sah-i nəqşbənd kimi məşhur olan XIV əsr Orta Asiya sufiliyinin çox nəhəng nümayəndəsi. Onun sənəti (nəqşbənd-naxışçı) olan nəqşbəndiyyədən sufi qardaşlığının adı əmələ gəlib, bununla belə qardaşlıq ənənəsi onu qardaşlığın banisi hesab etmir, o, nəqşbəndiyyənin rəhbərləri sırasında beşincidir. Nəqşbəndiyyənin ruhani banisi (və silsilədə birinci) Xoca Yusuf əl-Həmədani sayılır (vəf. 1146), o, xacəqan məktəbinin banisi əl-Hicduvanini tərbiyə etmişdir.

N. sənətkar tacik ailəsində Qəsri Hinduvan (sonradan onun şərəfinə Qəsri arifan) adlanan kəndində doğulmuş və doğma kəndində də vəfat etmişdir. Onun atası toxucu və naxışçı idi. N.-in həyatında əsas rolu sufilərlə möhkəm əlaqəsi olan babası oynamışdır, o, öz nəvəsində sufiliyə maraq oyatdı. N.-in ilk müəllimi, ölümündən bir az əvvəl öz xəlifəsi Əmir Seyyid Qulaluya (vəf. 1370) N.-i şagirdliyə götürüb, dərvişlər cəmiyyəti Xocaqana daxil edib, onların sufi yolunun qanunlarını ona öyrətməyi əmr edən şeyx Məhəmməd Babayi Simasi (vəf. 1340) olmuşdur. Qardaşlığın ənənəsinə görə N. ruhaniyyəni Əbdül-Xaliq əl-Hicduvaninin köməyi ilə öyrənmişdir. N. onu yuxuda görür, o, onu Seyyid Qulalunun yanına göndərir, lakin N. onun yanına uvaysi, d.d., düz yolu rəhbərin köməyi olmadan mənimsəmiş sufi kimi gəlir. Sonra o, Arif Diqqiraninin xidmətində olur, sonra isə türk şeyxləri Həşim-şeyx və Xəlil atanın yanında təlim alır (sonuncunun yanında 12 il). Demək olar ki, N. bütün həyatı boyu Buxara və ətraf kəndlərində yaşamış, iki dəfə həcc ziyarəti etmişdir.

Mənbələrdə N. aza qane olan və kasıblığın könüllü təbliğatçısı kimi təqdim olunur (o, çörəyini zəhməti ilə qazanır, köhnə həsir və sınıq kuzə ilə dolanır, sufinin xidmətçi və ya qul saxlamasını günah sayırdı). Vəfatından sonra N. tədricən müqəddəs adam və Allah yanında vasitəçi, Buxaranın ecazkarı və himayəçisi kimi tanındı. N. qanuniləşdirildi, onun ayini Orta Asiyada və qonşu ölkələrdə geniş yayıldı, onun qəbri üstə 1544-cü ildə Şeybani Əbdüləziz xan tərəfindən tikdirilən məqbərəsi son dərəcə məşhur ziyarət yerinə çevrildi.

Xocəqan yolu ilə gedən icmanın başında duraraq N. gələcək nəqşbənd-iyyə qardaşlığının təşkilatı əsaslarını qoydu, onlar artıq onun varisləri vaxtı tam formalaşdılar. O, Əbdülxaliq əl-Hicduvaninin ənənələrini və görüşlərini bərpa edib davam etdirdi, məlamətiyyə cərəyanının ideyalarını qəbul edib, iki yerli sufi məktəbinin-Əhməd əl-Yəsəvi (vəf. 1166) və Əbdülxaliq əl-Hicduvaninin (vəf. 1180 və ya 1220) qaydalarını öz təlimində birləşdirdi. N.-in təlimi sünni məzhəbini onun vaxtında Orta Asiyada artıq möhkəm kök atmış köçəri və yarı oturaq türk qəbilələri arasında geniş yayır və möhkəmləndirirdi.

O, əsil sufini yana aparan zahiri (sün'i) möminlik və mərasimləri: mərhumun 40 gününü, avaraçılığı, dilənçiliyi, musiqi, oxumaq və rəqslə həqqaya getməyi (səm'a), yüksəkdən (cəhr) zikr etməyi rədd edirdi. O, qardaşlığın rəhbərinə onun banisi tərəfindən ötürülən bərəkət silsiləsini (sisilət əl-bərəkət) faydasız sayırdı. Belə ki, bərəkət hər bir sufiyə birbaşa Allah tərəfindən verilir, buradan da onun müşahidə zamanı «patronu görmək» zərurətini rədd etməsi irəli gəlir. Mənəvi təmizlik, acgözlükdən imtina, könüllü kasıblıq, hakimiyyətlə heç bir əlaqə, hücrədə tənha qalmaq onun əsas tələbi idi. Sufi, Peyğəmbərin (s) sünnəsinə ciddi riayət etməli və onun şəriətə dair yazdıqlarını yerinə yetirməlidir. N. yolunun əsası həqiqətə qulluq etmək və sakit (xəfi, xəfiyə) zikr etməkdir. Sakit zikri kollektiv surətdə də etmək olar. O, əl-Hicduvaninin səkkiz prinsipinə (kəlimət-i qüdsiyyə) üçünü də artırıb, 11 prinsipi nəqşbəndiyyə qardaşlığının əsas prinsipi etdi:

1. Vuqufi zamani–müvəqqəti dayanma. Sufinin vaxtını necə keçirməsi üzərində daimi nəzarət: əgər imanla, qoy Allaha şükür eləsin. 2. Vuqufi ədədi-hesablama üçün dayanma. Qəlbində etdiyi zikrin sayı və formasına nəzarət. 3. Vuqufi qəlbi-qəlbi pauza: fikrən ürəyinə Allahın adının həkk olunduğunu hiss edib əmin olasan ki, ürəyində Allahdan başqa heç nə yoxdur.

N.-in yazılı əsəri qalmayıb.

**Ədəbiyyat:** İslam, 168; Risale-yi qüdsiyyə; Parsa. Ənis ət-talibin; Məqamat-i xacə Nəqşbənd; Şihabəddin. Məqamat-i Əmir Quləl. Buxara, 1328/1910; Djami. Nafahat, 434, 436-437, 439-445; Rəşahat, 20-41-57; Семенов. Бухарский щейх; Бартольд. Əсəр, 2/2, 425-426; Гордлевский. Бахауддин Накшбанд, 377-381; Демидов. Суфизим, 17, 70-73; Mole. Dare Mansour; Algar. Bibliographycal notes, 254-256.

**Nəqşbəndiyyə** - adını XIV əsrin sonunda Bəhaəddin Nəqşbənddən (1318-1389) almış sufi qardaşlığı. Nəqşbənd onu bərpa edib, Əhməd əl-Yəsəvinin məktəbindən götürdüyü bir sıra nəzəri və praktiki qaydaları ilə və Əbdül-Xaliq əl-Hicduvaninin dürüst ifadə etdiyi xacəqan təriqətini sufi təlimi ilə kamilləşdirdi, habelə N.-nin təşkilatı strukturasının əsasını qoydu. 12 ana qardaşlıqdan biri olub, öz görüşlərinə görə ciddi sünni olan N. qardaşlığı öz ruhani silsiləsini bir tərəfdən Əbubəkrə, başqa tərəfdən Əli b. Əbi Talibə aparıb çıxarır. Bu N. şəcərəsi silsilə əz-zəhəb («qızıl silsilə») adlanır və o mənanı verir ki, qardaşlıq Peyğəmbərlə (s) həm mənən (Əbubəkr), həm də fiziki cəhətcə (Əli ibn Əbu Talib) bağlıdır.

XV əsrdən başlayaraq N. tədricən (əl-qədəriyyədən sonra) ən geniş yayılmış mənəvi qardaşlığa çevrildi, o, Qahirədən Bosniya və Sumatrayadək, Povolojye və Şimali Qafqazdan Hindistan və Hicaza qədər

bir ərazidə fəaliyyət göstərirdi. N. bir neçə güclü qollar yaratdı, onlar öz regionlarında müstəqil qardaşlıqlar oldular.

Bəhaəddinin vəfatından sonra Orta Asiyada onun xələfi və varisi Əlaəddin Əttar (vəf. 1400) və xüsusilə də, Xoca Məhəmməd Parsa (1345-1420) N. ilə həmrəylikdə, onun təsirinin yayılması və təşkilatı strukturunun möhkəmlənməsində əsas rol oynadılar. Öz ictimai bazasına görə şəhərdə yaranan, ticarət və sənətkarlıq təşkilatları ilə sıx bağlı olan qardaşlıq (N. iqamətgahları Məvaraənnəhrin bütün böyük və orta şəhərlərində meydana çıxırdı) öz təsirini türk köçəri qəbilələrinə yaymağa başladı. N. öz siyasi və iqtisadi zirvəsinə Xoca Übeydulla Əhrar (1404-1490) vaxtı çatdı. Onun şüarı belə idi: «Öz ruhani missiyanı yerinə yetirmək üçün siyasi hakimiyyətdən istifadə etmək lazımdır». 1500-cü ildə Şeybanilər Məvaraənnəhri tutub Xoca Əhrar ailəsinin nəhəng əmlakını ələ keçirdilər (Təkcə Qarşi və Səmərqənd vilayətlərində onun 60 min h.-dan çox məhsuldar torpağı var idi). Xoca Əhrardan sonra onun işini «böyük hakim» Xoca Əhməd Kasani (Fərqanə) davam etdirdi (vəf. 1543 və ya 1549). Qardaşlıq Məvaraənnəhrin qırğız, qazax və türkmən əhalisinin tamamilə müsəlmanlaşmasında böyük rol oynadı. XVIII əsrdə N. Orta Asiya və Povolojyeyə (Kazan) keçib, XX əsrin 20-ci illərinə qədər buralarda fəal qüvvə kimi çıxış etdi. Hindistanda N.-nin ilk icması Kəşmirdə, XVI əsrin ortalarında Şeyx Baba Vəli tərəfindən yaradıldı.

Osmanlı Türkiyədə əvvəlcə N.-nin Orta Asiya qolu yarandı. Molla Abdulla Simavi (vəf. 1490) İstanbul mədrəsəsində təhsilini qurtardıqdan sonra Səmərqəndə Xoca Əhrarın yanına gedib bir il onun şagirdi olur, sonra Buxarada Bəhaəddin Nəqşbəndin ruhaniyyəsini mənimsəyib, Əhrarın xəlifəsi kimi vətənə qayıdır. Əvvəl o, Simavda, sonra isə İstanbulda fəaliyyət göstərib, orada N. (təkiyə, dayaq nöqtəsi) təkkəsi yaradır. Sonra onu Buxaradan gəlmiş Şeyx Əhməd əvəz edir, o, əvvəl Anadolu və Rumelidə qardaşlığı yayır, sonra İstanbulda, Fatih rayonunda fəaliyyət göstərir və 1925-ci ildə qardaşlıq buraxılır. Hind qardaşlığının ikinci dalğası Xoca Məhəmməd Məsumun (vəf. 1669) şagirdi Məhəmməd Murad əl-Buxarinin (vəf. 1729) adı ilə bağlıdır, o, qardaşlığın ideyasını Hicaz, Misir, Suriya və Türkiyədə təbliğ edirdi. Onun vəfatından sonra İstanbulda muradiyyə təkkəsi yarandı və qardaşlığın hind qolu oldu. Buradan o qol Hüseyn Baba Zukiçin əməyi sayəsində Bosniyaya, Suriyadan isə Məhəmməd Muradın varisləri N.-ni Fələstinə yaydılar və orada bir neçə zaviyə yarandı, o cümlədən Yerusəlimdə özbəkiyyə zaviyəsi, o, XVIII əsrdən 1973-cü ilədək fəaliyyət göstərdi. Mücəddədiyyənin İraq, Suriya və Kürdüstanda yayılması Süleymaniyyədən olan kürd Mövlanə Xalid əl-Bağdadinin (1776-1827) adı ilə bağlıdır. O, Hindistana gedib Dehlidə Abdulla Dihləvinin (1809) dərnəyinə qoşulur. 1881-ci ildə o, vətənə

qayıdır və öz şəxsi qolu xalidiyyəni yaradır. O, XIX əsrdə Türkiyə, ərəb ölkələri və Kürdüstanda N. qardaşlığının (yeni) sinonimi olur. Onun üləmalar arasında çox nüfuzu var idi. Xalidiyyə təkyələri bütün imperiyada yaranırdı. Hicaz yolu ilə N.-nin bu qolu İndoneziya (1846), Malayziya, Seylon, Kalimantan, Sulu adaları, Mozambikə keçdi. Şimali Türkiyədən Qafqaza keçib, Şamilin (vəf. 1871) rəhbərliyi altında müridliyin ideoloji bazasına çevrildi. N. bekdaşiyyə və mövləviyyə ilə nüfuz dairəsi üstündə fəal mübarizə aparırdı. XIX əsrin sonunda İstanbulda 52 N. təkyəsi var idi. 1921-ci ildə qardaşlıq Türkiyədə buraxılıb, qadağan edildi. XX əsrin 50-ci illərində N. fəaliyyəti İstanbulda canlandı və bu, hakimiyyət tərəfindən repressiyalarla qarşılandı.

İranda N. icmaları XV əsrin II yarısında meydana gəldi (İsfəhan, Qəzvin, Təbriz). XVI-XVII əsrlərdə N. İranda fəaliyyət göstərməyib. Ancaq XIX əsrin sonlarında Xorasanda N.-nin şiə qrupları yarandı və onlar indiyədək fəaliyyət göstərirlər.

N. təlimi və təcrübəsi əsasında Bəhaəddin Nəqşbəndin ideyaları durur, bu bizə ancaq Xoca Məhəmməd Pars və Əlaəddin Əttarın məlumatları əsasında məlumdur. Demək olar Xoca Əhrar vaxtından N. hakimiyyətlə əlaqəyə girib, xalq kütləsinin xeyrinə onun siyasətinə təsir edə bilən yeganə təşkilat idi.

N.-nin dünyagörüşü iki Orta Asiya sufi xəttinin birliyidir, «mülayim» şəhərtipli - Əbdülxaliq əl-Hicduvaninin doktrinalarında əks olunanlar və Əhməd əl-Yəsəvinin türk xalqlarının şamani inam elementlərini saxlayan köçəri türk dünyagörüşləri.

N.-də hamı üçün ümumi mərkəz yox idi. Bəhaəddin məqbərəsi qardaşlığın bütün üzvlərinin ziyarət yeridir. İcma və iqamətgaha tabeçilik başqa qardaşlıqlardan fərqlənmir. N. asketizmi rədd etdiyinə görə «qardaşlar» dünyəvi sufilərdir və onların təkyələrdə yaşaması vacib deyil.

N. üzvlüyünə keçən üç ay mətbəxdə çirkin iş gördükdən sonra çimib şeyxə, qardaşlığın rəhbəri və Peyğəmbərə (s) and içib, sakit zikrin şərhini alır, bütün iştirakçıları qonaq edir. Qadınlar da qardaşlığa qəbul edilir, əgər üstlərində örtük yoxsa, onlara zikr şərh edilmir. Hər bir N. üzvü öz namazını - xətmi xəvacəqanı hər gün qılmalıdır. Kollektiv camaat namazı isə cümə günü şeyxin rəhbərliyi altında 5-ci namazdan sonra, axşamdan xeyli keçmiş qılınır.

N.-nin bəzi qollarının rəmzləri-emblemaları vardır, o, üzərində Allah sözü yazılmış ürəyin konturudur. N. üzvü üzərində Quran ayələri tikilmiş yun papaq (kolah) geyir, adətən o ağ olur.

**Ədəbiyyat:** İslam, 187-188; Risale-yi qüdsiyyə; Parsa. Ənis ət-talibin, 168a-227a; Məqamati xacə Nəqşbənd; Djami. Nafahat, 428-474; Rəşəhat, 20-27, 41-68, 79-90, 206-364; Cəlalabadi. Tariq, 194-213; Dara Şekuh.

Safinat, 716-856; Семенов. Бухараский шейх; Гордлевский. Бахауддин Нагшбанд, 376-382; П.П.Иванов. Хозяйство Джуйбарских шейхов: К истории феодального землеведения в Средней Азии в XVI-XVII в.в. М-Л., 1954, 10-17, 48-83; Петрушевекий. Ислам, 344-345; Демидов. Суфизим, 71-74; А.И.Болдырев. Еще раз к вопросу о Ходжа-Ахраре.- Духовепство и политицеская жизнь на Ближнем и Среднем Востоке в период феодализма. М., 1985, 47-73; N.Algar. The Nagshbandi order: a preliminary survey of its history and significance.-St 1, 1976, 44, 123-152; yenə o, Biblioqraphical notes; Mole. Dare Mansour; Rizvi. Muslim revivalist, 176-201; Schimmel. Dimensions, 364-368; Brown. Darwishes, 139-158, Index; Trimingham. Orders, Index; de Yong. Sufi Orders, 167-170; Popovic. Orders.

**Nəsara** (təki nəsrani-xristianlar) - Quran və müsəlman ədəbiyyatında xristianların adicə adlanması. Quranda Mədinə sürələrində rast gəlinir. Yəhudilər və sabiilərlə N. «Kitab əhli» (əhlul-Kitab) kateqoriyasına aiddirlər (2:62/59; 5:69/73; 22:17); Quran həm də onların yəhudilərlə düşmənçiliyi (2:113/107) və onların daxili çəkişmələri haqqında (5:14/17) məlumat verir, onların Allahın dininə düzgün qulluq etmək iddialarını rədd edir (2:111/105: 135/129), hətta onlar və yəhudilərlə mübarizə aparmağa çağırır (9:29). N. rəsul İsanı Allah elan etdiklərinə görə (9:30) və üçlük haqqında ehkama iman gətirdikləri üçün (4:171/169, 5:75/79) günahlandırdırılır. Bir neçə dəfə İbrahim (ə) və əvvəlki hörmətli peyğəmbərləri yəhudi və ya xristian adlandırmağa icazə verilmədiyi qeyd edilir (2: 140/134; 3: 67/60).

Bu məlumatlar VII əsrin əvvəllərində Ərəbistanda geniş yayılmış xristianlıq və xristianlara Məhəmmədin (s) münasibətinin inkişafına öz təsirini göstərdi. Məkkədə təqib olunan müsəlmanlar Həbəşistana-xristian dövlətinə pənah aparıb, onların hakiminə Quranda Məryəm, İsa və Yəhya (İoan Krestitel) haqqında deyilənləri oxudular. Lakin Ərəbistan xristianlarının və Şimali Ərəbistanın xristian hakimlərinin Məhəmmədi peyğəmbər kimi tanımadıqlarına görə N. ilə mübahisə onların çoxallahlıqda günahlandırılması ilə güclənir.

Məhəmmədin (s) Yəmənin Nəcran xristianları ilə mübahisəsi (3:61/54), xristianlara qarşı Qurandakı fikirlərin yəhudilərə nisbətən yumşaq olması 5:82/85-ci ayələrdə göstərilir. N. ümumiyyətlə, xristianları və şərq xristianlarını bildirirdi. Müsəlman olmayan ölkələrdəki xristianları isə ifrənc (frəngi) adlandırırdılar.

Fəth olunmuş xristian ölkələri ilə müsəlmanlar xristianlar üçün sərfəli olan sazişlər bağlayırdılar ki, bunun da əsasını Məhəmməd (s) qoymuşdu. Ömər vaxtı isə xristianların demək olar hamısı Ərəbistandan qovulmuşdu.

Vergi vermək şərti ilə xristianlar müsəlman ölkələrində yaşayıb, öz dinlərinə qulluq edə bilirdilər.

Xristian icmaları müsəlman dövlətlərinin inzibati və siyasi rəhbərləri ilə ruhani başçılarını tanıyır, qəbul edir, onlar müsəlmanlarla əlaqə saxlayır, vergilərini (cizyə, xərac) vaxtında ödəyir, icma daxilində məhkəmə işini aparırdılar. Lakin xristianların təqib olunması halları da olurdu. Məs: Misirdə Fatimilər vaxtı xəlifə əl-Hakimin dövründə ( 996-1021).

VIII-XI əsrlərdə N. müsəlman cəmiyyətində böyük təsirə malik idi. Əməvilər və Abbasilər vaxtı onlar dövlətdə yüksək vəzifələr, hətta vəzir rütbəsi tutmuşdular.

Səlib yürüşlərinin təsiri nəticəsində XII-XV əsrlərdə müsəlman aləmində tədricən xristian icmalarının təcrid edilməsi güclənir. Osmanlı imperiyasının yaranması (XV-XVI əsrlər) ilə əlaqədar müsəlman dövlətinin hakimiyyəti altında çoxlu xristian və xristian icmaları cəmləşdi. Avropa ölkələrindən gələn və müsəlman ölkələrindəki xristianları «müdafiəyə qalxan» xristianlar müsəlmanlarla xristianlar arasında əlaqələri (ədavəti) kəskinləşdirdi. Nəticədə millətlər arasında narazılıqlar, mübahisələr, çəkişmələr baş verir, bəzən də qanlı döyüşlərə gəlib çıxırdı. Az sonra, XX əsrin ortalarında müsəlman ölkələrinin apardıqları siyasət nəticəsində ara çəkişmələri səngidi. Milli azadlıq hərəkatlarında müsəlmanlarla çiyin-çiyinə xristianlar da çıxış etməyə başladılar.

Hazırda ərəb ölkələrində 6 milyondan çox xristian - pravoslav, katolik, uniat, nestorian və s. yaşayır.

**Ədəbiyyat:** İslam, 188-190; Мец. Ренессанс, 39-60; L.Cheikho. Christianisme en Arabie avant I'Islam. Beirouth; 1919, F.W.Nasluck. Christianity and Islam under the Sultans. Oxf., 1929, E.Fritisch. Islam and Christentum in Mittelalter. Breslau, 1930; Tritton. The caliphs; Fattal. Statut; Goitein. Society; J.Trimingham. Christianity among the Arabs in pre-islamic times. London-Beyrouth, 1979; A.S.Tritton, J.N.Kramers. Nasara.-EI, 3, 916-923.

**Nasut** - insan təbiəti. Mənşəyi arameydən olan istilah əvvəlcə «qatı» şiələr arasında yayıldı. Onlar öz imam və rəhbərləri Əlini (ə) ilahiləşdirib iddia edirdilər ki, İlah və ya «ilahi ruh» (ruh ilah) N.-un cisminə keçə bilər. Sufi əl- Həllac görünür bu istilahı şiələrdən əxz edib, onu sufi təlimlərinin mövzularına daxil etmişdir. Əl-Həllac üçün N. bu dünyada İlahinin zühurunun daha çox kamilləşmiş formasıdır. N.-la «ilahi» təbiətin (lahut) qarşılıqlı əlaqəsi haqqında sual ənənəçilər və sufilər arasında çoxəsrlik mübahisənin mövzusu olmuşdur. Bax: Lahut.

**Ədəbiyyat:** İslam, 190; Massignon. Passion, 2, 521-523 və İndex.

**Nəzər** - nəzəri baxış. Fiqhdə bu mənada rəy və qiyas istilahları istifadə olunurdu. Kəlamda N. altında əsasən məlumdan naməluma aparan mühakimə-mübahisə başa düşülürdü və bu mənada onun sinonimi kimi bəhs, fikir, təfəkkür, istidlal sözləri işlədilirdi, buna görə də onların təlimi çox vaxt ilmun-nəzər və -l- istidlal adlanırdı.

**Ədəbiyyat:** İslam, 185; ət-Təhənavi. Kəşşaf istilahat əl-funun. 1, Qahirə, 1963, 3-76; Massignon. Essai, İndex, van Ess. Die Erkenutnislehre, 237-363.

**Ən-Nəzzam**, Əbu İshaq İbrahim b. Səyyar (vəf. 835-36 və ya 845) - ardıcılları kərramilər adlanan Bəsrə mötəzililər məktəbinin görkəmli nümayəndəsi. Ən-N.-ın əsəri qalmayıb, onun görüşləri haqqında ən dürüst məlumat onun şagirdi əl-Cahizin əsərlərində qalıb. Ən-N. mötəzililiyin ümumi əsaslarına söykənirdi, onun üçün xarakterik olan hallar aşağıdakılardır: bütün şeylərin eynivaxtlı aktda (cümlətan) yaranması; onların «gizli mövcudluğu» (kumun); cismin intəhasız bölünə bilməsi; «sıçrayış» (təfra) haqqında (burada cisim bir yerdən başqa yerə hərəkət edir); hissiyyatla qəbul olunan keyfiyyətlərin cismaniliyi; cismin müdaxiləsi haqqında və s. Ən-N.-ın naturalist təmayüllü baxışları xüsusilə onun dünyada təbii səbəbiyyət təlimində görünür. Ən-N.-ın əsərlərinin qalmaması, yəqin onun islamın ehkamlarına qarşı çıxması ilə bağlıdır və onun əsərləri yəqin ki, məhv edilib.

**Ədəbiyyat:** İslam, 185; A. Н.Закуев. Философия ан-Наззама. Баку, 1961; A.M.Əbu-Rida. İbrahim b. Səyyar ən-Nəzzam. Qahirə, 1946; R.Paret. An-Nazzam als Experimentator.-D I , 1939, 25, 228-233; J.van Ess. Das Kitab ən-Nakt des-Nazzam. Gottingen, 1972; M.Berrand. Le savoir entre la volonte et la spantanelite, selon an-Nazzam et al-Gahiz-St.1 , 1974, 39, 25-57; yenə o. La critique de la notion de Nature (tab`) par le Kalam. St.1 , 1980. 81, 59-105; D.Eberhardt. Veranderung in der Plilosophie Muammars and an-Nazzams. Tübingen, 1979.

**Nikah** - faktiki olaraq ər-arvadlılıq əlaqəsinə daxil olmaq bu nikah əlaqəsi ilə mərasimin başa çatmasını bildirir. Sinonimi kimi tez-tez «zəvac» istilahı işlənir. El arasında bu mənada «kəbin» istilahı da işlənir. İslama tam riayət olunan yerlərdə ailənin qurulması üçün dini N.-ın olması vacib və qaçılmazdır. Sovet hökuməti vaxtı dinsizlik siyasəti nəticəsində Azərbaycanın da bir çox bölgələrində dini N. unudulmuş, ancaq VVAQ-ın N.-ı qanuni sayılırdı. Hələ indi də bəzi bölgələrdə bu hal davam edir.

**Ədəbiyyat:** bax: zəvac haqqında ədəbiyyata; İslam, 190.

**Niyyət** - dinin fərz (vacib) saydığı əməllərini yerinə yetirmək üçün başlanğıc, yəni dəstəmaz (dəstnamaz) almağa, namaz qılmağa, oruc tutmağa, qüsul (qusl) eləməyə və s. başlayan adam bu əməlləri yerinə yetirməyə başlayanda N. eləməlidir, məs: sübh namazı qılıram, Ramazan ayının bu günkü orucunu tuturam və s. qürbətən ilə -l-Lah (Allaha yaxın olmaq üçün). Adətən N. ürəkdə və ya yavaşcadan deyilir. N. olmadan görülən iş- zəkat, həcc, qurban və s. deyilənə görə batildir (Təsadüfən bu yaddan çıxarsa əməlin yarısında da, N. etmək olar və ya tamam yaddan çıxarsa da, günah deyil). Qəzaliyə görə (İhya, IV, 316) «N.-siz ibadət mötəbər deyildir».

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 215-216.

**Nuh** - Quran surəti, peyğəmbər, Allahın elçisi, Bibliya Noyu, İslamın Məhəmməddən (s) əvvəlki ən hörmət etdiyi peyğəmbərlərdən biri, onların (peyğəmbərlərin) qəbilə üzvləri onlara inanmadıqları üçün onlar (qəb. üzv.) məhv edildi (bax: Q.3:33/30; 4:163/161; 6:84; 7:69/67; 9:70/71; 14:9; 17:3; 17/18; 19:58/59; 22:42/43; 33:7; 38:12/11; 40:5; 31/32; 42:13/11; 50:12; 51:46; 53:52/53; 57:26). Quranda məlumat verilir ki, N. Allahın əmri ilə təkallahlığı öz xalqına təbliğ etməyə başladı, onlar bütlərə (Vadd, Suva, Yəqus, Yəuk, Nasra) ibadət edirdilər. N.-a onun öz arvadı da inanmırdı. N.-u dəli hesab edib, onu söyür, alçaldır, daşqalaq etməklə hədələyirdilər. Yuxarı təbəqə ondan aşağı təbəqədən ona (N.-a) inananları qovmağı tələb edirdilər. N.-un heç bir nəsihəti kömək etmədi. Onda o, Allahdan inanmayanları cəzalandırmağı xahiş etdi. Allah N.-a sükansız gəmi düzəltməyi əmr etdi. Oraya N.-a ən yaxın və Allaha iman gətirənləri, heyvanlardan hərəsindən bir çüt götürməyi tapşırdı. Görkəmcə qabaq və arxa tərəfdən xoruza bənzəyən gəmiyə heyvanlardan birinci qarışqa, axırıncı uzunqulaq daxil oldular (onunla da İblis). Hz. Adəmin cəsədi də gəmidə idi.

Sonra «soba qaynadı», yerin altından və göydən su tökülərək bütün dünyanı basdı. İmansızlar məhv oldular, ancaq N., onun yaxınları, ona inananlar və gəmiyə götürülmüş erkək-dişi olmaqla hər heyvandan bir cüt xilas oldular. N.-un oğlanlarından biri gəmiyə minməyib, dağın başında xilas olacağını təkid etdi, lakin qərq oldu. Gəmini dağ boyda dalğalar aparırdı, su enəndə gəmi əl-Cudi dağına oturdu. (Tufan dayandıqda N. qarğanı torpağı (Yeri) axtarmağa göndərdi. O, torpaqda yemək görüb, başı qarışdı və geri qayıtmadı. N. onda göyərçini axtarışa göndərdi. Göyərçin yaşıl yarpaqla qayıtdı, N. ona gözəl boyunbağı bağışladı. Deyirlər ki, elə buna görə də bütün çöl göyərçinlərinin (qumru) boynunda boyunbağıya oxşar halqa (xətt) olur. Xilas olmuş N. Allahdan onun ölən oğlunu diriltməyini xahiş etdi, lakin O, onun xilas etmək istədiyinin (N.-un

oğlunun) artıq ailə üzvü olmadığını söyləyib, onun xahişini rədd etdi (7:59/57-64/62; 10:71/72-73/74; 11:25/27-49/51; 21:76-77; 23:23-30/31; 25:37/39; 26:105-122; 37:75/73-79/77; 54:9-15; 66:10; 71:1-28/29).

N.-un tarixi öz peyğəmbərlərinə inanmayan və buna görə cəzalandırılan xalqların ilk tarixidir (Lut, Saleh, Hud, Süeyb peyğəmbərlərdəki kimi).

Quran hekayəti Bibliya tarixinə gedib çıxır, o da Məhəmməd peyğəmbərə (s) Ərəbistan hekayələri ilə gəlib çıxıb. Lakin onların arasında fərq var–isti selin axını, N.-un oğlunun ölümü və s.

Quranın şərhçiləri N.-un arvadı və uşaqlarının adlarını qeyd edirlər, məs: ölən oğlanın adını Kənan, Yam və s. kimi göstərirlər. O, Lutun arvadı ilə birlikdə qərq oldu. N.-un tufan və seldən qurtarmaq üçün gəmi tikmək istədiyinə qəbiləsinin üzvləri məsxərə edib gülürdülər. N.-un arvadı isə birinci ona məsxərə etmiş və onu dəli adlandırmışdı. Bütün Dünyanı basan su Məkkənin «qoruq ərazisini» (Həramı) yan keçir, Adəm (ə) tərəfindən tikilən əl-Kəbə göylərə qaldırılır, Cəbrail (ə) orada hələ ağ olan müqəddəs daşı qoruyur.

Sufilərə görə daşqın bu həyatın kəşməkeşləridir, ondan ancaq gəmidə xilas olmaq olar ki, onu da Allah öz qanunları şəklində peyğəmbərləri ilə insanlara göndərir. Deyilənlərə görə Məhəmməd peyğəmbər (s) deyib ki, onun nəsillərinin törəmələri elə bil N.-un gəmisindədirlər, kim onunla (N.-la) üzür, o xilas olur, kim ona əks olur, qərq olur.

**Ədəbiyyat:** İslam, 194-195; ət-Təbəri. Tarix. 1, 174-182; yenə o. Təfsir, 8, 150-151, 12, 17-35, 18, 12-15, 19, 56-57, 27, 54, 54-57, 29, 57-64; əl-Həmədani. Kitab əl-iklil. Təhqiq, M. əl-Əkva 1. Qahirə. 1963, 47-55; əs-Sə′ləbi. Qısas 31-35; əl-Kisəi. Qısas. 85-150; Umeyyə b. Əbi-s-Salt. Divan. Təhqiq əl-Hədisi. Bağdad, 1975, №5, 86, 110, 144, 145; İbn Ərəbi. Təfsir. 1, 147-150, 2, 172-174; əl-Beydavi. Təfsir, 1, 329-333, 432-437, 2, 358-360; Horovitz. Untersuchungen, 24-25, 146; Speyer. Erzähluhgen, 89-115; Beltz. Sehnsucht, 87-93; Siderskey. Les origines, 26-28; Gaudefroy-Demombynes. Mahomet, 341-346; B. Heller. Nuh-E I , 3, 1023-1024; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 216

**Nur (işıq)** - İslamın daha qədim dinlər (yəhudilik, xristianllıq) və ellin qnostiklərindən götürülmüş dini biliyin və ilahi həqiqətin zühuru kimi ilahi N. (işıq) haqqında məfhum. Quranda N.-Allah özü (göylər və Yerin N.-u) (24:35) və Məhəmmədlə (s) yerə nazil etdiyi kəşfin N.-udur (61:8-9; 64:8). Özü də bu «təmiz işıq» olub, odla eyni olmayan və mənşəyi Yerdən olmayan «nur üstə nurdur». Müsəlman ənənəsində ən-Nur Allahın çoxsaylı adlarından biridir. Mötəzililər və zeydilər N.-u bütün Göy və Yer əhlinin ilahi rəhbərliyinin təzahürü kimi izah edirdilər. Allahı N.-la eyniləşdirmək sufilərdə inkişaf edib. VII əsrin şiə şairi əl-Kumeyt Allahdan Adəm (ə) və

Məhəmməd (s) yolu ilə Əli (ə) nəslinə nazil olan N.-u vəsf edirdi. İslamda N. haqqında təlimin ilk təbliğatçıları ət-Tirmizi, Əbubəkr ər-Razi (IX-X əsrlər) müsəlman ilahiyyatçıları manihey dualizmində (əl-mənəviyyə) günahlandırırdılar. Yeniəflatunçularda xeyirxahlıq ideyası ali ilahi və «təmiz N.-la» eyniləşdirdi. Ərəb «Aristotel ilahiyyatında» «N.-un gücü» (quvva nuriyyə) məfhumu vardır, onu Yaradan Ağıla və Ağıl yolu ilə Dünyəvi Ruha-təbiətə, Dünyəvi Ruhdan təbiət yolu ilə şeylərə ötürür. «İşığın qüvvəsini» yayan Allah ali işıq-N.-dur. N. Allahın atributu deyil, lakin onun təzahürüdür. Müsəlman filosof və ilahiyyatçılarının əksəriyyəti N.-u «ilahi ruhla» və Ağılla əlaqələndirir və ya onları eyniləşdirirlər.

**Ədəbiyyat:** İslam, 193; Gatje. Quran, 319-321; Tj.de Boer. Nur.-EI 3, 955-956.

**Nurbəxşiyyə** - XV əsrdə Kubraviyyə qardaşlığından bir qol kimi ayrılan şiə məzhəbli sufi qardaşlığı. N.-nin banisi Seyid Məhəmməd b. Məhəmməd Nurbəxş (1392-1464) olub, mənşəcə Bəhreyn ərəbidir, Kayenedə (Şərqi İran) anadan olub. O, öz şəcərəsini şiə inamı Musa əl-Kazıma aparıb çıxarır. O, şiə şeyxi Xoca İshaq əl-Kuttəlaninin müridi olmuşdur. Quranı və «bütün elmləri» mənimsəməkdə müstəsna müvəffəqiyyətinə və bir röyaya görə şeyx ona Nurbəxş (nurun bəşx etdiyi) ləqəbi, öz mərhum müəllimi-kubravi şeyxi seyid Əli əl-Həmədaninin xirqəsini və Xanəgaha rəhbərlik etməyi ona verdi. Nurbəxşin ardıcılları onu ədaləti bərqərar etmək üçün meydana çıxan imam Mehdi və xəlifə elan etdilər. İraqda onun adına sikkə kəsilir və xütbə oxunurdu. İraqla yanaşı Nurbəxşin şiə təbliğatları, onların antimürid meyli Kürdüstan, Azərbaycan və Gilanda müvəffəqiyyət qazandı. Teymuri Şahruh vaxtı (1405-1447) N. qardaşlığı qəddarcasına təqib olunur, Nurbəxş və tərəfdarlarını məhv etməyə cəhd edildi.

Nurbəxşin özünü həbs edib Herat, oradan Şiraza göndərdilər. Orada İbrahim Sultan onu azad etdi. Nurbəxş Bəsrə, Xillə, Bağdadı gəzib, şiələrin müqəddəs yerlərini ziyarət edib Kürdüstana getdi, orada yenidən xəlifə elan olunub adına pul kəsildi. Şahruhun əmri ilə yenidən həbs olunub,Azərbaycana göndərildi. Buradan qaçıb Xalxala gedir və orada tutulub Şahruhun hüzuruna göndərilir. Herata çatdıqda kürsüyə çıxıb, xəlifəliyini rədd etməyə məcbur edildi. 1445-ci ildə fəaliyyətini tədris sahəsinə həsr etmək üçün buraxılsa da, şübhəli adam kimi Təbrizə, oradan Şirvana və Gilana göndərildi. Şahruhun ölümündən sonra sərbəstləşən Nurbəxş Reyin Sultan kəndinə gedib, şagirdləri arasında vəfat edənədək orada yaşayır.

Britaniya Muzeyində onun özünü təqdim edən, vücudiyyəni şərh edən, Əli və Fatimə nəslindən olduğu haqda məlumat verən şeirlər kitabı vardır.

Onun ən yaxın ardıcılları Şah Qasım Feyzbəxş (Nurbəxşin oğlu və ya nəvəsi) və Şəmsəddin əl-Cilani əl-Lahici son Teymurilər və ilk Səfəvilərin hörmət və himayəsindən istifadə edirdilər. N. ideyaları Səfəvilərin İranda şiə doktrinasının qərarlaşması üçün zəmin hazırladı. Təxminən 1496-cı ildə Feyzbəxşin müridi Mir Şəmsəddin İraqdan Kəşmirə getdi. Orada yerli hakim tərəfindən hörmətlə qarşılandı və ondan hədiyyə olaraq müsadirə edilmiş torpaqlar aldı. Sonradan onlar təqib olunsalar da, XIX əsrin axırında N. ardıcıllarının sayı Kəşmirdə 20 mindən çox idi.

N. doktrinası Məhəmməd Nubəxşin Ər-Risalət əl-i'tiqadiyyə və Əl-Fiqh əl- əxvat əsərlərində, Şəmsəddin əl-Lahicinin sufi müəllifi Mahmud Şəbüstərinin (vəf. 1320) Gülşəni-razi əsərinə şərhində izah edilmişdir. Nurbəxşə görə mütləq və həqiqi imam həm də müqəddəsliyə yetişmiş vəli olmalıdır ki, onu da o, Əli b. Əbi Talibi hesab edirdi. Nurbəxş Məhəmməd (s) vaxtı olan adət-ənənələrin saxlanması və bərpası, «yeniliyə» (bid'ə) qarşı çıxırdı. N.-nin ənənəvi geyimi imam əl-Hüseynin əzablı qətlinə görə daim qara idi. N. qardaşlığına hənəfi məzhəbindən üzv olmaq istəyənlər əvvəl şafei məzhəbini qəbul edir, sonra isə şafeiliyi rədd edib, şiəliyə keçməli idilər.

**Ədəbiyyat:** İslam, 193-194; əş-Şüştəri. Məcalis; Mole. Professions; D.S. Margoliouth. Nurbakhshiya-EI , 3, 961-962; H.Alqar. Kubra.-E I, NE, 5, 299-301; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 216-217.

**Nur Məhəmmədi** - (fars. Nur-i Məhəmmədi - «Məhəmmədin nuru-işığı»). Məhəmmədin (s) işıq saçan möhkəm bir nöqtə şəklində olan ürəyinin mövcud olmağı haqqında təlim - qabaqcadan müəyyən edilmiş bütün ürəklər ondan (həmin ürəkdən) yaranmışdır. Bu doktrinanın müəllifləri onu Quranın nurlu ayəsindən (24:35) götürüb birbaşa «ilahi nur-işıq» haqqında təlimlə bağlayırlar. Bu, Məhəmməd peyğəmbərin (s) ruhunun aləmin yaradılmasından qabaq mövcud bir varlıq olduğunu ifadə etmək üçün işlənilən istilahdır. İlk dəfə N.M. ideyası VII əsrdə şiələr arasında daha qüvvətli məntiqlə ortaya qoyulmuşdur. Onlar «peyğəmbərlik nurunu» Allah tərəfindən seçilmiş bir şəxsdən başqa birisinə keçən «ruh» kimi şərh edirdilər. Müğirə və Cabir Peyğəmbərin (s) parlaq kölgəsinin (zıll) qabaqca yaradılmış olduğunu təlim edirdilər. Sünnilərdə isə bu ideya IX əsrdə meydana gəlmişdir.

N.M.-nin yayılmasının Əli ibn Əbu Talibin nəslində baş verdiyi nəzərdə tutulurdu, bəziləri «Əli nəslini» daha geniş-onun atasının bütün nəsli-talibilərin də oraya daxil olduğunu düşünürdülər. N. M. doktrinası imami şiələr, ismaililər və nüseyrilərin ideologiyasında möhkəmlənmişdir.

Sünnilər arasında N.M. ideyası əvvəlcə IX əsrdə sufilərdə yarandı, sonra isə bütün sünnilərin Allaha xidmət praktikasında həyata keçirilirdi. İbn Ərəbi N.M.-ni «Məhəmmədin həqiqətinin» (həqiqə məhəmmədiyyə) əbədi

mövcudluğu konpensasiyası ilə bağlayırdı. N.M. dini konsepsiyası xalq rəvayətində müxtəlif formalara düşmüşdür. Onlarda deyilir ki, peyğəmbərlərin cismi-bədəni Cənnət çeşməsinin suyu ilə isladılmış bir ovuc Cənnət torpağından yaradılmışdır, bunun sayəsində o, mirvari kimi parıldayır.

**Ədəbiyyat:** İslam, 193; əl-Məsudi. Muruc, 1, 55-59; Петрушевский. Ислам, 41, 250, 264; Gatje. Quran, 319-321; L. Massignon. Nur Muhammadi.-EI, 3, 961; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 217-218.

**Ən-Nüseyriyyə** - nüseyrilər - ismaililərə yaxın olan müsəlman şiə təriqəti, etnokonfessional müsəlman icmalarının üzvləri, təşkilat X əsrdə Şimali Suriyada «qatı» şiələr arasında yaranmışdır. Daha sonralar isə icmanın adı əl-ələviyyun («Əli tərəfdarları») oldu. N. icmasının adını Məhəmməd b. Nüseyr ən-Nimeyrinin (Bəsrədə 883-cü ildə vəf. edib) adı ilə bağlayırlar. Başqa məlumata görə Məhəmməd bin Nüseyr ən-Nimeyri «qatı» şiə nimeyrilərin başçısı və banisidir, onlar 10-cu şiə imamı Əbülhəsən əl-Hadi əl-Əskərini (vəf. 868) ilahiləşdirirlər.

N. icmasının faktiki yaradıcısı şiə ilahiyyatçısı Məhəmməd əl-Cənnan əl-Cunbulani (Hələbdə 957 və ya 968-də vəf. etmişdir) olmuşdur. N.-nin dini təlimi qnostik xristian və mistik ayinlər elementli ismailiyyəyə əsaslanıb. N. ruhun ötürülməsinə (tənasüx) inanırlar və onlar ancaq kişilərdə olur, qadınlar üçün bu əlyetməzdir. N. bir çox islam qaydalarını pozurlar, ayinlər zamanı içki içirlər. İsa peyğəmbər (ə) və bir sıra xristian «müqəddəslərinə» inanırlar, ayin tikililəri qübbə - «günbəzdir» ki, onu dini nüfuzların şərəfinə tikirlər. Təqiblər və daxili didişmələr nəticəsində onların ictimai qapalılığı irəli gəlirdi.

N.-nin əsas kütləsi əkinçilərdir. Hazırda N.-nin çoxu Suriyada (Latakiyada, Tartuş, Hamə, Homs mühafizələrində), üçdə-biri Türkiyədə (Tarsus, Adana, Antakya), Şimali Livanda yaşayırlar. Türkiyədə onlar assimilyasiya olurlar. Sayları 400 minə yaxındır. Nəzəriyyələrinin əsas ehkamı Üç Üğnumun varlığıdır: məna, ad, qapı (mə'nə, ism, bab). Bunlar da Əli, Məhəmməd və Səlman əl-Farisidə təcəssüm edir. N. Əlini Üç Üğnumun əsas siması hesab edirlər. Təriqətin bəzi qollarında günəş, ay, sübh və qüruba hörmət edilir. Onların əsas müqəddəs kitabı «Kitab əl-məcmu» Qurani-Kərimə bənzədilib, 16 surəsi var.

**Ədəbiyyat:** İslam, 194; ан-Наубахти. Шиитские секты, 179; аш-Шахрастани. Книга о религиях, 164-165, 236; L.Massignon. Les Nusayris.-Elaboration, 110-114; H.Hansen. An Ethnographical Collection from the Region of the Alawites. Kebenhavn, 1976 (Publications of the Carlsberg Expedition to Phoenicia, 4. Det Kongelige Danske Videnskabernes Selskab Historik-Filosofiske Skriften, 7, 5); L.Massignon. Nusairi.-EI, 3,1030-1033; Z.M.Bünyadov, Dinlər, təriqətlər, məzhəblər, 218.

# O

**Ocaq** - müqəddəs yer, məqam, pir, müqəddəs şəxslərin dəfn olunduqları və ziyarət olunan yerlər. Azərbaycanda minlərlə belə ocaqlar mövcuddur. İnsanlar çətin vəziyyətə düşəndə, bir ehtiyaclarını yerinə yetirmək istəyəndə Allah yolunda ocaqlara nəzir boyun alır, hacətləri yerinə yetəndən sonra hökmən adı çəkilən ocağı ziyarətə gedir, nəzirini verir, qurbanını kəsir və niyyətlərinin yerinə yetməsinə görə Allaha şükür edir, onları Allahla öz aralarında vasitəçi sayırlar. Belə ocaqlardan bir neçəsinin adlarını çəkək:

**Maşxan ocağı - Seyid Əhməd Ziyarəti.** Maşxan ocağı Astara rayonunda yerləşir. «Ma şeyxan» farsca «biz şeyxlərik» deməkdir (ərəbcə şeyx sözünün cəmi məşəyixdir, an şəkilçisi farsca cəm şəkilçisidir, yəni məşəyixan şəkli də var, buradan da Maşxan toponimi yarana bilər). Rəvayətə görə XIV əsrdə Ərdəbildən olan şeyx seyid Əhməd indi Maşxan adlanan kənddə gecələməli olur. O, ev sahibi və bütün kənd camaatının su və torpaq üstündə savaşdıqlarını görür, onları sakitləşdirmək istəyir, olmur. Onda o, cibindən ilan çıxarıb ortaya atır və tütək çalaraq onu oynadır. Camaat təəccüblənir, o deyir ki, mən seyidəm, şeyxəm, bütün canlılar mənə qulaq asır, siz də qulaq asın, Allah sizi bağışlayar. Seyid Əhməd kənddə qalır və 30 ildən sonra vəfat edir. Kənd camaatı onu hörmətlə dəfn edib, məzarını ocağa çevirirlər. Bu ocağa uzaq yerlərdən ilan vuran və ya ilandan qorxub xəstələnənləri gətirirlər. Xalq arasında «İlanı seyid Əhməd əli ilə tutmaq istəyir» təbiri də ola bilsin bununla bağlıdır. Son vaxtlar Maşxan ocağı təmir edilmişdir.

**Seyid Cəmaləddin ocağı** da Astarada Pensər kəndindədir. Seyid Cəmaləddin Suriya və başqa Ərəb ölkələrindən seyidlərin təqib olunmasından baş götürüb, Xarəzm, Gilan, Qəzvin və oradan da Bütəsərə (Pensərə) gəlib çıxır. O, pambıqçılıqla məşğul olar, ailəsinə və tələbələrinə pal-paltar toxutdurar, qalanı ilə dolanardı. Onun tələbələrindən biri də Tacəddin İbrahim idi. O, Şeyx Zahid təxəllüsü ilə məşhurlaşdı. Onun Lənkəranın Şıxəkəran kəndində «Şeyx Zahid» adlı məqbərəsi qalmışdır.

**Seyid Mir Əsgər Ağa ocağı** Astara rayonunun Piləkəran kəndində, qəbristanlıqda yerləşir. Buraya başqa hacətlərlə yanaşı, əsasən ağzı iflicdən gedənlər (ağzı əyilənlər) gəlir və şəfa tapırlar. Seyid Mir Əsgər ağanın oğlu Miri böyük kəramət sahibi olub. Deyilənlərə görə o, ağzı dönənlərin üzünə əl çəkdikdə xəstənin ağzı yerinə qayıdardı, onun ayaqqabıları evdən çıxanda onun üçün cütlənərmiş, ceyran özü onun qapısına gələrmiş və s. (o xəstə olduğu üçün ceyran əti yeyərmiş).

**Şah Səfi ocağı** Masallının Ərkivan kəndindədir. Kənddə 9 məscid vardır. Şah Səfi ocağı Respublikada tanınır. Kənd hündürlükdə olduğu üçün yayda orada başqa quyuların suyu quruduğu halda ocağın içərisində heç vaxt suyu qurumayan və niyyət qəbul olunanda suyu tərpənən (dalğalanan) bir quyu var.

**Mir Təği ocağı** Masallı rayonunun Bədəlan kəndindədir. Deyilənlərə görə, Mir Təğinin ulu babaları Şah İsmayıl dövründə Ərdəbildən Lənkərana, sonra Bədəlana köçüblər. Dolayı yolla Mir Təğinin nəsli Şeyx Səfiəddin, Şeyx Cüneyd, Şeyx Heydər və İmam Museyi Kazıma gedib çıxır. Deyilənlərə görə, Mir Təğinin babası, atası və özündə imam nişanəsi olub. Onda həm qəzəb, həm rəhm, çox böyük səxavət, əliaçıqlıq var idi. Mənə şəxsən onun özünü görmək nəsib olub. Səhər Boradigah bazarına gələrdi. Ona yüzlərlə müxtəlif miqdarlı nəzir verilərdi. Mir Təği Ağa onların hamısını yetim-yesirə paylayar, «Ya ağa cədd» deyib, barmaqlarını dodağı ilə isladıb şəfa istəyənlərin alnına vurardı. Axşamçağı o, saysız-hesabsız nəzirlərdən ailəsi üçün çox cüzi şey aparardı. Onun əlinin bərəkətindən çox adam varlanmışdır. Allah ona rəhmət eləsin. İndi də onun ocağına nəzirlər gətirilir, hacətlər dilənir.

Qurani-Kərimdə haqqında ətraflı danışılan **Əshabi Kəhf** müqəddəs məkanı - ocağı haqqında bir neçə kəlmə. Antik dövrdə təkallahlığı qəbul etmiş bir neçə gənc zülmkar padişah Dağyanusun zülmündən qaçıb bir mağaraya sığınır və orada Allahın hövli-qüvvəsindən 309 il yatırlar. Ayıldıqdan və insanlarla ünsiyyətdən sonra məsələnin nə yerdə olduğunu başa düşən gənclər Allahdan onları əbədi yatırmağı xahiş edirlər. Bu vəziyyəti görən əhali mağaranın üstündə ibadətgah tikir. Belə mağaraların dünyanın bir çox ölkələrində, o cümlədən Naxçıvanda da olduğu məlumdur. Lakin bir çox alimlərin rəylərinə görə Naxçıvandakı mağara Qurandakı Əshabi Kəhfə daha çox uyğun gəlir. Son vaxtlar başqa abidələrdə olduğu kimi burada da abadlıq işləri görülüb. Ziyarətə gəlib, niyyətlərini Allahdan diləyənlər burada rahatlıq hiss edirlər.

**Ədəbiyyat:** Azərbaycanın məscidləri.

**Osman b. Əffan** ( təx.575-656) – üçüncü raşidi «saleh» xəlifə. Ümeyyə nəslindən olan varlı Məkkə taciri, Məhəmmədin (s) ardıcıllarından biri, (təxm. 610-cu ildə) onun qızına evlənib. Müsəlmanların dəstəsi ilə Həbəşistana gedib, 623-cü ildə artıq Mədinədə olub və onda da Məhəmmədlə (s) o, bir-birinin qızları ilə evləniblər. Rəvayətə görə o, Məhəmmədin (s) iki qızı ilə evlənib (müxtəlif vaxtlarda) və ona görə də «zun-nureyn» (qoşa nur sahibi) ləqəbini daşıyıb.

Məhəmməd (s) və əvvəlki xəlifələr vaxtı Osman b. Əffan özünü bir hərbi və ya siyasi xadim kimi göstərməmiş, bir varlı adam kimi həyatdan

ləzzət almağı üstün tutmuşdur. Ömərin ölümqabağı sözü ilə əvvəlcədən sözlədikləri kimi (bax, Yılmaz İldırım. Kərbəla vaqləsi) Osman b. Əffan xəlifə seçilən sıraya daxil edildi və xəlifə seçildi, görünür «şura» üzvləri onu az təhlükəli fiqur hesab ediblər.

Osman b. Əffanın dövründə Sasani dövləti zəbt olundu, müsəlmanların Tunis və Zaqafqaziyada vəziyyətləri möhkəmləndi. Onun vaxtında Quranın mətni tərtib edildi və qanuniləşdirildi, qalan nüsxələri məhv edildi. Onun xəlifəliyinin son illərində ilk dəfə xəlifəyə qarşı müxalifət yarandı, əyalətlərdə üsyanlar  başladı. Bu, Kufə, Bəsrə və Fustat kimi yeni mərkəzlərin əhəmiyyətinin artması ilə əlaqədar idi. Osman onların üzərində nəzarəti artırmaq məqsədilə əshabların zərərinə torpaq hədiyyəsi və çoxlu pul alan qohumlarını oralara canişin təyin etdi. Xəlifənin və onun qohumlarının varlanması müsəlmanların zahidlik edən hissəsini narazı saldı və onlar xəlifəni Məhəmməd (s) və əvvəlki iki xəlifənin həyat tərzindən uzaqlaşmaqda təqsirləndirdilər.

656-cı ilin may ayının əvvəllində Misirdən Mədinəyə nümayəndə heyəti gəldi, Osman onların tələblərinə razılıq verdi, sonra isə öz canişininə məktub yazıb, qayıdarkən onları edam etməyi əmr edir. Məktubu ələ keçirən misirlilər geri qayıdıb, başqa narazılarla onun evini mühasirəyə aldılar. Mədinənin yüksək əyanları düşmən bitərəfliliyi dəstəkləyirdilər: 17 iyunda xəlifə Əbubəkrin oğlu Abdullahın başçılığı altında narazılar və qiyamçılar Osmanın evini mühasirə etdilər. Hz. Əli oglanları Həsən və Hüseyni xəlifəni qorumağa göndərdi, onlar Osmanın evinin qabağında keşik çəkirdilər. Qiyamçılar isə arxa tərəfdən, başqa evlərin içərisindən yol taparaq Osman b. Əffannın evinə soxulub, onu doğradılar; qatilin adı məlum deyil. Rəvayətə görə qan Osman b. Əffanın yanında olan Quranın üzərinə töküldü. Belə «Osman Quranları» çoxlu məscidlərdə var, o cümlədən Səmərqənddə, indi isə Daşkənddə, Tarix Muzeyində. Osman b. Əffanının qətli hakimiyyət uğrunda mübarizə aparanların təhriki ilə Xilafətdə çoxillik vətəndaş müharibəsinə səbəb oldu.

**Ədəbiyyat:** İslam, 242-243; The Ansab al-ashraf of al-Baladhuri. Ed. By S.D.F. Goiten S.Yerusalem, 1936, 1-105.

# Ö

**Ömər b. əl Xəttab əl-Fəruq** (təx. 585-644) - ikinci «saleh» (raşidi) xəlifə, dövlət xadimi I Ömər. Mənşəcə II dərəcəli qüreyş nəsli olan əl-adidən olub parçasatan ailəsindəndir. İslamı təxm. 616-cı ildə qəbul edib, ona qədər isə islama düşmən idi. Ancaq Mədinədə Məhəmmədin (s) yaxınları sırasına daxil olub, qızını ona ərə verdi. Onun bütün yürüşlərində iştirak edib, lakin döyüşçü kimi fərqlənməyib, müstəqil olaraq bir dəfə 30 nəfərlik dəstəyə başçılıq etsə də, yürüş döyüşsüz qurtarıb. Əbubəkrin xəlifə seçilməsinin (632) təşəbbüsçüsü olmuşdur, onun məsləhətçisi olmuş, qərarlar verməyi sürətləndirmişdir. Əbubəkr ölərkən yerinə əvvəlcədən qərarlaşdıqları kimi (bax: Yılmaz İldırım. Kərbəla vaqləsi) Ömərin təyin edilməsini tapşırmış, icma buna səs vermişdi.

Müsəlman torpaqlarının Ərəbistandan kənarda sürətlə genişlənməsi (Misirin, Suriyanın və İranın qərb hissəsinin) tutulması, birdinli ərəblərin icmasının çoxmillətli dövlətə çevrilməsi Ömərdən inzibati aparat sistemi yaratmağı tələb edirdi. Qərarlardan ən mühümü tutulan torpaqların bölünməsinin ləğvi və onun əvəzinə divana daxil olan bütün əshablar və döyüşçülərə maaş (΄atə`) və ərzaq payı (rizq) verilməsi idi. Bu reformanın həyata keçirilməsi üçün o, 638-ci ildə Suriyaya getdi (yolüstü isə Yerusəlimlə müqavilə bağladı), lakin bu sistem tam sürətlə 640-cı ildə baş tutdu.

Eyni vaxtda İraqda torpaqların kadastralarının yoxlanması həyata keçirildi, xərac və cizyələrin qədərləri təyin edildi. Misir zəbt edildikdən sonra Ömər oradan Məkkə və Mədinə üçün buğda gətirilməsi haqqında əmr verdi.

Sünni müəllifləri onun adı ilə çox şey bağlayırlar, hər il həccə getmək, zinaya görə daşqalaq, qamçı ilə döymək və s. O, canişinlərin pis işlərinə göz yumduğu üçün onlar onu sevirdilər.

O, 644-cu ilin 7 noyabrında Mədinə məscidində iranlı qul tərəfindən aldığı yaradan öldü. Yeni xəlifə təyin etmək üçün ölməmişdən əvvəl Ömər şura çağırdı və Osman b. Əfvanı xəlifəliyə irəli sürdü (Əvvəldən razılaşdıqları kimi. Bax, Yılmaz İldirim. Kərbəla vaqeəsi). Sünni müəllifləri onu ideal xəlifə kimi təqdim edirlər, şiə müəllifləri isə onu qəsbkar kimi qeyd edirlər.

**Ədəbiyyat:** İslam, 241; İbn Sə'd. Təbəqat, 3, 15, 190-274; E.Sachan. Uber den zweiten Chalifen Omar-SBAW Berf, 1902, 15, 292-323.

**Ömər b. Əbdül-Əziz** (681-720), Əməvi xəlifəsi (717-720), (ana yolu ilə) I Ömərin nəticəsi II Ömər, orta əsr müsəlman müəllifləri onu bir səslə Əməvi xəlifələri içərisində yeganə mömin xəlifə hesab edirdilər. Lakin

onun şəxsiyyəti və dövlət tədbirləri haqqındakı materiallar əksliklərlə doludur.

O, Misirdə doğulub (müəlliflər onun mömin olmasını şişirdərək Mədinədə dünyaya gəldiyini qeyd edirlər), Misir canişini olan atası ölənədək (704 və ya 705) orada yaşamışdır. Sonra Dəməşqə gəlib, əmisi xəlifə Əbdülməlikin qızına evlənir. 706-712-ci illərdə Mədinədə canişin olmuş, Əbdülməlikin əmri ilə Məhəmməd peyğəmbərin (s) məscidini təzədən tikdirərək genişləndirmiş və dəbdəbəli etmişdir, işlərin görülməsinə bizans ustalarını dəvət etmişdir. Dəbdəbəli paltarlar geymək, ətriyyata çoxlu pul xərcələmək, şairlərə himayədarlıq etməklə məşhur idi, öz dairəsindəki adamlardan seçilmirdi.

Xəlifə olandan sonra dini rəvayətlərə görə nəinki öz xəlifəlik vərəsəliyindən imtina etdi, hətta bütün əmlakını və qullarını satıb, pulları xeyriyyə işlərinə verdi, gündə yeməyə iki dirhəm sərf edir, özü su gətirir, arvadı çörək bişirir və onun yeganə köynəyini yuyurdu. Lakin deyilənlərin heç bir sübut mənbəyi yoxdur. Onun bir neçə arvadı, kənizləri, 15-ə yaxın uşaqları və çoxlu xidmətçiləri olduğu məlumdur. Onu demək olar ki, xəlifə olandan sonra o, əvvəlki həyatından sadə yaşayıb.

O, Xilafətdəki ictimai və etnik əkslikləri şəriət qaydalarına uyğun həyata keçirməklə, hər şeydən əvvəl vergi qoyulması ilə həll etmək istəyirdi. O, İslamı təzə qəbul edənləri cizyədən azad etdi, hərbçi məvalilərə maaş təyin etdi, tutulmuş yerlərin müqavilələrinə riayət etməyi tələb etdi, müqəddəslər və monaxlardan alınan vergiləri ləğv etdi.

Müsəlman ərəblər onun vaxtında maaşlarına əlavə də alırdılar, buna görə əyalətlərdən mərkəzi xəzinəyə vəsait gəlmədi. Ö. yeni fütuhatlardan imtina etdi, Kiçik Asiyada möhkəmləndirilmiş dayaq nöqtələri tərk edildi, hətta ərəblərin narahat Məvaraənnəhrdən çəkilməsi gözlənilirdi.

Ö. xaricilərlə razılığa gəlmək istəyirdi ki, bu ona mömin həyat tərzi sürməyə, Quran və sünnənin qanunlarına riayət etməyə kömək etsin. Lakin bu səy baş tutmadı. Ələvilər və Abbasilərlə yaxınlaşmağa səy edilmişdi, bu, onlara məhəbbət izhar etmək kimi qiymətləndirildi.

O, Xunasirdə (Şimali Suriya) öldü və yaxınlıqda Simeon məbədində (Dayr Sim'an) dəfn edildi, artıq XIII əsrdə onun məzarının yeri məlum deyildi (Ola bilsin hazırda Hələb yaxınlığında olan Sen Simon adlanan qaladan söhbət gedir).

**Ədəbiyyat:** İslam, 240-241; Бартольд. Əsər. 6, 504-531; İbn Abd əl-Hakəm. Sirə Ömər b. Abd əl-Əziz. Nəşri Əhməd Übeyd, 4-cü nəşr, Dəməşq, 1385/1966.

**Əl-Övzai -** Əbu Əmr Əbdürrəhman b. Əmr (707-774) - ilahiyyatçı, fəqih, övzai məzhəbinin yaradıcısı və eponimi. Bə'lbəkdə doğulub,

Məkkədə Ata b. Əbi Rabəl (Rəbah), Mədinədə Məhəmməd əz-Zühri, Bəsrədə Vasil əs-Salamaninin yanında oxumuşdur. Suriyaya qayıtdıqdan sonra Dəməşqdə yerləşib, bir neçə müddət dövlət qulluğunda olmuş, sonra Quran elmlərindən dərs demişdir. 750-ci ildə Suriyanı zəbt edən Abbasi qoşunlarının rəhbəri Abdulla b. Əli ilə münaqişəyə girib, təqibdən qorxan əl-Ö. Bəsrəyə - öz müəllimi Vasil əs-Salamaninin yanına gedir. Təzə sülalə ilə barışdıqdan sonra əl-Ö. Suriyaya qayıdır, Beyrutda yerləşir və ölənə qədər oranı tərk etmir. Onun qəbrini indi də ziyarət edirlər.

Əl-Ö. Suriyanın imamı kimi qəbul olunub, orada onun müridləri xüsusi bir məzhəb yaratmışlar. Onun sözlərindən «Kitab əs-sunən fi-l-fiqh» və «Kitab əl-məsail fi-l-fiqh» əsərlərini yazmışlar. Bu əsərlər bizə qədər gəlib çatmamışdır. Əl-Ö.-nin həyatı və hüquqi görüşləri anonim bioqrafiya olan «Kitab Məhasin əl-məsə′i fi mənaqib əl-Ovzai» və Məhəmməd əş-Şafenin traktatı olan «Ər-Risalə fi ilm əl-üsul»a xüsusi bir hissə kimi əlavə olan Əbu Yusif Yəqubun Kitab siyər əl-Övzai əsərində qalmışdır.

Bu məlumatlara görə əl-Ö. məzhəbi ciddi təəssübçüdür: həqiqətin mənbəyi ancaq Quran və sünnədir, bunların göstərişləri birbaşa, hər hansı bir başqa şərtsiz-filansız qəbul olunur. Bu məzhəb IX əsrə qədər Suriya və Əndəlüsdə yayılmışdı. Suriyada şafei, Əndəlüsdə isə maliki məzhəbləri sıxışdırılıb aradan çıxardıldı. Əl-Ö. görüşləri sistemi izsiz itmədi, belə ki, onun şagirdləri arasında iki məzhəb yaradıcıları Süfyan əs-Sauri (vəf. 777-78-ci illər) və Malik b. Ənəs (vəf. 795-ci il) var idi. Malik b. Ənəsin vasitəsi ilə əl-Ö.-nin görüşləri əş- Şafeiyə təsir etdi, o da öz növbəsində Əhməd b. Hənbəlin görüşlərinin yaranmasına təsir etdi.

**Ədəbiyyat:** İslam, 25-26; İbn ən-Nədim. Əl-Fihrist, 284; Бартольд. Əsərləri, 6, 613-614; GAL.SBD. 1, 308; Mahmassani. Falsafat al-tashri; 33; J.Schacht. Al-Awzai. - El, NE, 1, 772-773.

# P

**<u>Pir</u>** - qoca, ağsaqqal, müqəddəs ocaq yeri və s. mənalar daşıyır. **<u>Buzovnadakı «Əli ayağı» piri</u>** (qədəmgahı) belə yerlərdən biridir. Azərbaycanın müxtəlif yerlərindən əsrlər boyu buraya ziyarətə gəlib, öz hacətlərinin bu pir xatirinə yerinə yetməsini Allahdan diləyirlər.

Rəvayətə görə islamın ilk dövrlərində Məkkə və Mədinə şəhərlərindən tez-tez Bakıya ticarət etməyə iki qardaş gəlirmiş. Bir gün onlardan biri dəniz kənarında bir dəstə atlı arasında Hz. Əlinin (ə) də olduğunu görür və «Ya Əli, sən burda neynirsən?» soruşur. Hz. Əli (ə) «Sən məni haradan tanıyırsan?» soruşur. Cavan, ərəb olduğunu və bura ticarətə gəldiyini deyir. Hz. Əli (ə) bundan narahat olur, ata səvar olub gedir. Cavan, qaya üzərində onun və atının ləpirinin qaldığını camaata göstərir. O vaxtdan bu yer müqəddəs yer - pir kimi ziyarət edilməyə başlayır. Çar canişinliyi 1861-ci ildə 12647 №-li əmrlə piri rəsmiləşdirib, Şeyx Hacı Hüseynəlini pirə nəzarətçi təyin etmişdi. Bu gün də pirdə - qədəmgahda xeyriyyə işləri davam etdirilir.

**<u>Mir Mövsüm ağa piri</u>** - Ağa Seyidəli Mir Abuütalıb oğlu Mirmövsümzadə (Mirmövsümağa) soykökü 7-ci imam Museyi Kazıma gedib çıxan Mir Abutalıbın oğludur. O, Kərbəlada doğulmuş, XIX əsrin sonlarında Azərbaycana köçmüşdür. Onun üç oğlu, üç qızı vardı. Ailənin demək olar bütün üzvləri ilahi vergili idi, onların dördü Kərbəlada rəhmətə gediblər.

Seyidəli ağa 1883-cü ildə İçərişəhərdə anadan olmuş, uşaqlıqdan iflic olmuş, özünə, ailəsinə fiziki cəhətdən nə qədər çətin olsa da, nəfəsi ilə- Allahın hökmü ilə minlərlə insana sağlıq, xoşbəxtlik bəxş etmişdir. El içində bəzən onu «Ətağa» və ya «Yaşıl Seyid» adlandırırdılar. Dövlət nümayəndələri gizli-aşkar onun ziyarətinə gedirdilər. 50-ci illərdə erməni-rus şovinistləri onun Şüvəlandakı qəbrini dağıtmaq istəyərkən M.Bağırov buna mane oldu. O, Ağanın evinin, qohumlarının qoruyucusu idi. Uzaq səfərə gedəndə Ağaya nəzir ayırardı. Ağa xəstə olduğu üçün bacısı Qönçə-Səkinə ərə getməyib, ona baxırdı. O, vəfat edəndən az sonra Ağa da, 1950-ci ildə vəfat etdi. Onun yasına on minlərlə əhali gəlmişdi. Onun cənazəsini Binədən Şüvəlana qədər əhali çiyni üstə apardı. Orada Mirmövsümzadə qardaşlarına məxsus bağ var idi. 1987-ci ildə AR-nın şeyxülislamı A.Paşazadənin tapşırığı ilə Ağanın qəbri üstə görkəmli ziyarətgah tikildi. İçərişəhərdə Firdovsi küçəsi 3-də Ağanın qardaşı qızı Səkinə və onun həyat yoldaşı Həsən ağa gözəl xatirə abidəsi yaratmış, ziyarətə gələnlər üçün rahatlıq etmişlər.

Respublikamızdan kənarda tanınmış pirlərdən biri də Qaradağ rayonu Umbakı və Əzim kəndləri arasında yerləşən **Sofi Həmid piridir.** Deyilənə görə, bu pirdə imam Museyi Kazımın yeddinci nəvəsi Sofi Məhəmməd uyuyur. Yoldan 3 km. aralı olan bu günbəzli abidənin hündürlüyü 4 metr, iç sahəsi 4,5-kv. m, həyətyanı sahəsi 15x12 kv. m-dir.

Abidənin həyətində adi böyüklükdə, oturmuş halda ağ dəvə daş heykəli də var. Bütün abidə kompleksi ağ rənglə rənglənmişdir (Bəlkə də bütün bunlar Məhəmməd peyğəmbərin (s) ağ dəvəsinin xatırlanmasıdır).

**Gəncə İmamzadə piri** müasir Gəncədən 7 km. aralı, qədim Gəncə xarabalıqları yaxınlığındadır. Deyilənə görə, Pir imam Məhəmməd Bağırın (ə) oğlu mövlanə İbrahimin məzarı üzərində yaranmışdır. Vaxt-vaxt burada məscid, sərdabə, türbələr tikilmiş və böyük kompleks əmələ gəlmişdir. Türbənin üzərindəki kufi xətli kitabə onu XI-XIV əsrlərə aid etməyə imkan verir. 1878-ci ildə tiflisli general-mayor İsrafil bəy Yadigarzadə də buranı əsaslı təmir etdirib, kitabə qoydurmuşdur.

**Ədəbiyyat:** Azərbaycanın məscidləri.

# R

**Rabitə** («əlaqə», «bağlar») - şərq sufilərinin xarakterik texniki sufi istilahı. Mürid və onun müəllimi, tərbiyəçisi (mürşidi) və ya «müqəddəsi» (vəli) arasında yaranan mənəvi əlaqə. Nəqşbəndiyyə sufi təriqətində virdin (zikrin) ikinci hissəsidir. Nəqşbəndiyyə və əl-qadiriyyə qardaşlıqlarının bəzi traktatlarında R. zikrdən üstün sayılırdı.

**Ədəbiyyat:** İslam, 196; Awarif əl-məarif, 107-108; Cəlalabadi. Tariq, 194-195.

**Ər-Rafidə** (cəmi ər-ravafid «tərk, imtina edənlər») - rafidilər, şiələrin - xüsusilə də imamilərin geniş yayılmş ləqəblərindən biri. Müsəlman doksoqrafları bu ləqəbin mənşəyini şiə hərəkatı tarixindən müxtəlif epizodlarla bağlayırlar. Bəzi müəlliflər iddia edirlər ki, ilk R. Abdulla b. Səbanın silahdaşları səbailər olmuşlar. Onlar Əbubəkr və Ömərin imamətliyini rədd edib (rafadə), hesab edirdilər ki, Məhəmməd peyğəmbər (s) açıq-aydın öz varisini-Əlini (ə) təyin etmişdi (nassa). Başqa müəlliflər Kufə şiələrini R. adlandırırdılar, onlar Zeyd b. Əlinin imamatə iddiasını «rədd edirdilər». Zeyd 739-cu ildə üsyana qalxdı ki, o, öz ata-babalarının təlimi ilə razı deyil, Əbubərk və Ömərin hökmranlığının qanuniliyinə inanır. Zeydi qolu ayrılanda təkcə Əbubəkr və Ömərin deyil, həm də Əməvilər və Abbasilərin hökmranlığını «rədd edən» imamiləri də R. adlandırmağa başladılar.

**Ədəbiyyat:** İslam, 198; ан-Наубахти. Шиитские секты, 128 və qeyd 44; əl-Əş'əri. Məqalat. 16-17; əl-Bağdadi. Əl-Fərq, 21, 29; аш-Шахрастани. Книга о религиях, 42, 137-138; W.M.Watt. The Rafidites: a preliminary study. - Or. 1963, 16, 110-121;

**Ramazan (ramadan)** - müsəlman ay təqviminin doqquzuncu ayı, orucluq (əs-saum) ayı. R. islamaqədərki dörd müqəddəs aylardan biridir (bax: Q. 9:36), hicri tarixdən əvvəl yayda olurdu. İslam ərəfəsi Məkkədə R.-nı mömin işlərə (təhənnus) həsr etmək ənənəsi var idi. Rəvayətə görə, R.-nın bir günündə Məhəmmədə (s) ilk «vəhy» nazil olub. R.-da orucluq (bax: Q.2:183/179-185/181) hicrətdən bir müddət sonra-qiblənin dəyişməsindən bir ay sonra qəbul edildi. Onun qəbul edilməsi islam dini ənənələrinin meydana gəlməsi proseslərindən biridir. R.-da orucluq Məhəmməd (s) tərəfindən hicrətdən birbaşa sonra qəbul edildi və yəhudi orucu Bağışlama günü ilə bağlı olan 10 günlük aşura orucunu əvəz etdi. Sünnü məzhəbində Məhərrəm ayının 9-10 və ya 10-11-i günləri oruc tutmaq Peyğəmbərin (s) sünnəsinə uyğundur.

Ənənəyə görə, Məhəmmədə (s) ilk vəhy nazil olan 27 R. gecəsi müsəlmanlar tərəfindən «əzəmət gecəsi» kimi (leylətü-l-qədr) qeyd edilir (97; 44:3/2). Hesab edilir ki, bu gecə Allah insanların taleyini həll edir, Qurana görə o, min aydan yaxşıdır. Qədr gecəsinin dəqiq vaxtı bilinmədiyi üçün R.-nın son ongünlüyünün bütün tək günlərinin gecələrini möminlər namaz və dualarla keçirirlər. R. bayramla - id əl-fitrlə qurtarır. Müxtəlif müsəlman ölkələri, o cümlədən, Azərbaycan R.-da əvvəlki dinlərindən götürülmüş bayramlarını da qeyd edirlər. Bu ayda islam ölkələrində dünyəvi işlərin fəallığı azalır, dini fəallıq artır, radio və televiziyada dini verilişlər çoxaldılır.

R. ayındakı əlamətdar günlər: Əl-Hüseynnin mövludu (6), Xədicənin vəfatı (10), Bədr döyüşü (17), Məhəmmədin (s) Məkkəyə daxil olması (19), Hz.Əli və imam Əli ər-Riza vəfatı (21), Hz. Əlinin mövludu (22), Leylət əl-qədr gecəsi (26-27).

R. ayının adı əvvəl Natiq olub, sonralar isti aylara təsadüf etdiyi zaman R. ayı adlanıb. O, Quranda adı olan yeganə ay adıdır və Bəqərə surəsində (185) Quranın R. ayında nazil edilməsi və bu ayda oruc tutulmasının vacibliyi qeyd edilir.

**Ədəbiyyat:** İslam 197-198; Бируни. Памятники, 379-380; Лэйн. Нравы, 23-24; S.D.Goitein. Ramadan-the Muslim month of Fasting, its early devolepment and reliqious meaning.-Studies, 11-125; Grunebaum. Festivals, 51-65; Change, №3312, 3314, 3449; M. Plessner. Ramadan.-Sh. EI, 468-469; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 232-233.

**Ər-Razi, Fəxrəddin Abdulla b. Məhəmməd** (1149-1209) - əş'əri kəlamının görkəmli nümayəndəsi, Reydə doğulmuşdur. Şafei fiqhi üzrə üsul əl-fiqh və kəlam sahəsində ilk təhsilini şəhərin keçmiş xətibi olan atasının (buradan da R.-in İbn əl-Xətib ləqəbi vardır) və əl-Kamal əs-Simnaninin, fəlsəfə elmləri üzrə isə Məcdəddin əl-Cilinin rəhbərliyi altında almışdır.

Ər-R. Orta Şərqin şəhərlərini çox gəzmiş, Quri sultanları və Xarəzmşah saraylarında qulluq etmişdir. Həyatının son illərini o, Heratda keçirmiş, orada mədrəsə təsis etmişdir. Ər-R. mötəzili, hənbəli, ismaili və xüsusilə də kərramilərlə mübahisələrə girişirdi, onlar onu İslamdan uzaqlaşmaqda günahlandırırdılar. Rəvayətə görə, ər-R. onların əli ilə zəhərləndirilib. O, peripatetikləri bəzi qaydalara görə və sualların dairəsini genişləşdirib Əbulbərəkət əl-Bağdadini də tənqid etmiş, bununla belə ər-Razi kəlamı fəlsəfə ilə yaxınlaşdırmağa cəhd edirdi. Orta əsr mənbələrinə görə o, həyatının sonuna yaxın kəlamdan imtina edib, sufiliyə keçir.

Ər-R. öz ideya düşmənləri ilə mübarizdə fəallığı və kəskinliyi ilə məşhur idi. Kəlam və fəlsəfəni yaxınlaşdırmaq cəhdinə görə ənənə onu azad düşüncəli hesab edirdi. O, əl-Qəzalinin fəlsəfi baxışlarına qarşı da

çıxırdı. Onun əz-Zəməxşərinin mötəzili təfsirinə cavabı sayılan «Məfatih əl-qeyb» əsəri yarımçıq qalıb. Müsəlman aləmində bu Təfsir rasionalizmə meylli bir əsər kimi tanınır. Ər-R. Əbu-l-Əla əl-Məarrinin divanına da şərh yazmışdır.

**Ədəbiyyat:** İslam, 197; ər-Razi. Məfatih əl-qeyb 1-32, Qahirə, 1933; yenə o. Əsas ət- təqdis fi′ilm əl-kəlam. Qahirə, 1328;, yenə o. Cami əl-′ulum. Tehran, 1331h.; yenə o. Ər-Risalə əl-kamiliyyə fi-l-həqaiq əl-ilahiyyə. Tehran, 1335 h.; yenə o. Çahardəh risalə. Tehran, 1340h.; yenə o. Əl-Məbahis əş-şərqiyyə. Tehran, 1966; yenə o. Lubub əl-işarat. Qahirə, 1350h; yenə o. Əl-Ərbəin fi üsul əd-din. Heydərabad, 1353h.; yenə o. İ′tiqadat firaq əl-müslimin və -l- müşrikin. Qahirə, 1938; yenə o. Mühassəl əfkar əl-mütəqaddimin və -l- mütəəxxirin. Qahirə, 1363h.; Н.Наимов. Фахраддин Рази.-Из философского наследия народов Ближнего и Среднего Востока, Daş., 1972, 199-233; Н.Кулматов. Фахраддин Рази., - Душ. 1980; C.Qanavati. Fəxrəddin ər-Razi.-İlə Taha Hüseyn fi′id miladihi əs-səb′in. Tunis, 1974; M. Abd əl-Həmid. Ər-Razi müfəssiran. Bağdad, 1974; M.İbn Aşur. Əl-Muhadarat əl-məğribiyyət, Tunis, 1974; A. əl-Məddub. Ər-Razi xiləl təfsirihi. Tripoli, 1980; M.Horten. Die philosophischen Ansichten von Razi and Tusi. Bonn, 1910; yenə o. Die speculative und positive Theologie des İslam nach Razi und ihre Kritik durch Tusi, Lpz., 1912; R.Arnaldez. Aporiez sur la predestination de Razi.-MİDEO. 1950, 61/6, 123-136; F.Kholeif. A study on Fakhr al-Din al-Razi. Beirut, 1966.

**Rəbiə əl-Ədəviyyə -** (713 və ya 714-801) - Bəsrə zahidləri (zühhad) və silahdaşları (übbad) məktəbinin görkəmli nümayəndəsi, mənşəcə kasıb ərəb ailəsindən olub, uşaqkən qul kimi satılıb. Sonralar Allah adamı və tərkidünyalığı sayəsində azadlığa buraxılıb. O, bir neçə il səhrada qalaraq tərkidünyalıq etmiş, insanlardan uzaq qalmışdır. Sonra o, Bəsrədə yaşamışdır.

Onun müəllimləri haqqında heç bir şey məlum olmasa da, bioqraflar onu əl-Həsən əl-Bəsrinin şagirdi adlandırırlar. R. əl-Ə.-nin ardıcılları və şagirdləri sırasına asket və sufi Rahab b. Əmr, Malik b. Dinar, Şəkik əl-Bəlxi və məşhur ənənəçi Süffeyn əs-Sauri və başqalarını daxil etmək olar.

R. əl-Ə. Allahla ünsiyyətdə olmaqdan insanı çəkindirən nə varsa rədd edirdi. O, ilk zahid idi ki, Allaha məhəbbəti əvəzsiz idi və o, öz teosofik baxışlarının təsdiqi üçün Quranın ayələrinə söykənirdi (2:165/160, 222; 5:54/59 və s.).

R. əl-Ə.-nin görüşləri sonrakı nəsil sufiləri arasında geniş yayıldı və əl-Bistaminin, əl-Həllacın, İbn əl-Fəridin, İbn əl-Ərəbinin və bir sıra başqalarının teosofik təlimlərinin əsasında yerləşir. Sufilər onun mömin

olduğuna və Allahı əvəzsiz sevdiyinə görə ona çox hörmət edib, onu «müqəddəs» sayırdılar, onu kəramət sahibi də adlandırırdılar.

**Ədəbiyyat:** İslam 195-196; əl-Qalabazi. Ət-Təarruf, 73,121, İbn Khallikan. Dictionary, 3, 215; Əmmar. Təzkirə, 1, 59-73; Muslim Saints, 39-51; Ə.Bədəvi. Şəhidət əl-eşq əl-ilahi Rəbiə əl-Ədəviyyə. Qahirə; M.Smith. Rabia the Mystic and her Fellow- Saints in İslam. Cambridge. 1928; Anawati. Gardet. Mystique, 26, 166-170.

**Rəcəb -** müsəlman ay təqviminin yeddinci ayı. İslamaqədərki Ərəbistanda dörd müqəddəs aylardan biri (bax: Q. 9:36). Əvvəllər Məkkəyə ümrə ziyarətinə R. ayında gedirdilər və bu bahar vaxtı olurdu, indi isə istənilən vaxt (ay) ümrə ziyarətinə gedirlər.

R.-də oruc tutur, büt ilahilərinə xüsusi qurbanlar kəsilirdi (atirə, ər-rəcəbiyyə). Bu ayda müharibələr qadağan edilirdi, lakin bəzən bu pozulurdu. R. müsəlmançılıqda da öz müqəddəsliyini saxlayır. R.-in dini rolunu ancaq İbn-Teymiyyə rədd edirdi.

R.- «Allah ayı», «Əli ayı»dır deyirlər, «kar»dır (ə-əsamm) - çünki bu ayda Allahın qəzəbi eşidilmir, «gürşad»dır (əl-əsabb) - çünki bu ay Allahın mərhəməti insanların üzərinə gürşad yağış kimi yağır. Rəy var ki, Məhəmməd (s) R.-də ilk vəhy almışdır, R.-də doğulmuş və Rəcəbin 26-dan 27-sinə keçən gecə meraca getmişdir. Ona görə də bu gecəyə Leylət əl-Merac deyilir. R. ayı Peyğəmbərin (s) meracına görə İslamiyyətdə xüsusi əhəmiyyət kəsb edir. R.-in ayrı-ayrı günlərində oruc tutmaq çox yüksək qiymətləndirilirdi. Möminlərin il boyu yatmayıb, namaz qıldığı 14 günün üç günü R.-ə düşür. Belə rəy var ki, R.-in 27-də oruc 60 ay oruca və ya 100 gün oruc və 100 gecə namaz qılmağa bərabər sayılır və s. İsmaili təbliğatında R. xeyirxah işlər görülən bir ay kimi təqdim edilir. Rəcəbin ilk cümə günü ərəfəsində xüsusi «hədiyyə namazları» (salat ər-rəqaib) qılınır. Belə deyilir ki, R.-də Nuh (ə) gəmiyə daxil olmuşdur, Musanın (ə) möcüzə kimi dənizi keçməsi də R.-də olmuşdur. Adəmin (ə), İbrahimin (ə) ad günləri R.-dədir. Müxtəlif müsəlman ölkələrində (xüsusən, Misir, İraq, Yəməndə) R.-də çoxlu yerli dini bayramlar olur. İlahiyyatçılar R.-i islamdan əvvəl gəlmiş təkallahlıq hərəkatı hənifiliklə bağlayırlar.

**Ədəbiyyat:** İslam, 196; Бируни. Памятники, 369, 378; Лэйн. Нравы, 364-367; Grunebaum. Festivals, 36; M.J.Kister. «Racab is the month of God...». A.Study in the Persistence of an Early Tradition-Kister Studies, 191-223; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 234.

**Rəcm -** ancaq zinaya görə istifadə olunan cəza-qətl növü, daşqalaq etmə. R. haqqında məsələ bütünlüklə fiqhin aqibət şöbəsinə aiddir. R. islamaqədərki hüquqi həyatdan götürülmüş, Quran və sünnə ilə təsdiq edilir.

R. ancaq məhkəmənin hökmü ilə təsdiq edilir, qazi və ya onun müvəkkilinin nəzarəti altında həyata keçirilir. Xüsusi ayrılmış yerdə toplanmış camaat mühakimə olunmuş adamı ölənə qədər daşqalaq edirlər. Əgər zina şahidlərin şəhadəti ilə təsdiqlənibsə, ilk daşı şahidlər atırlar, əgər günahkar özü boynuna alırsa, onda imam və ya qazi atır. Cəza verilən ya bağlanılmalı, ya da dizə və ya qurşağa qədər torpağa basdırılmalıdır ki, zərbələrdən qaça bilməsin. Cəza verilən qadın olarsa, onu yaxşı geyindirmək lazımdır ki, ölərkən üstü açılmasın. Əgər cəza verilənin ağlı zəif olarsa, cəza ləğv edilir. Cəza verilən hamilə qadın olarsa, bir məzhəbə görə daşqalaq doğuşadək saxlanılır, başqa məzhəbə görə uşağın süddən ayrılmasınadək saxlanılır və ya tamam ləğv edilir. Bütün dövrlərdə R.-ə çox nadir hallarda hökm verilirdi, çünki zinanın edilməsinin təsdiq edilməsi çox çətin olur.

**Ədəbiyyat:** İslam, 196-197; Əbu Yusuf. Əl-Xərac, 194-196; Malik b. Ənəs. Əl-Müvattə, 281-283; Əş-Şeybani. Əl-Cami əs-səgir, 65; Wensinck. Handbook, 221, 222; J.Schacht. Zina. -Sh. EI, 658.

**Ər-Rəhman** (mərhəmətli) - çox vaxt ər-Rəhim istilahı ilə birlikdə bəsmələdə işlənərək ər-Rəhman ər-Rəhim (mərhəmətli, rəhimli) kimi səslənir, Allahın adlarından biridir (bax: əl-əsma əl-hüsnə). Hər iki ad Allahın əsas keyfiyyətlərindən birini - Onun insanlara münasibətində onlara hər cür nemət verdiyini və onlara Qiyamət günü onların talelərini xeyirxahlıqla həll edəcəyini bildirən adlardır.

Ər-R. istilahını Allahın yeganəliyini bildirmək üçün yəhudilər və xristianlar islamaqədərki Ərəbistanda istifadə edirdilər. O, IV-VI əsrlər Cənubi Ərəbistan kitabələrində də qalmışdır. Daxili və Şimali Ərəbistanın hənifləri, habelə Məhəmmədin (s) müasirləri və rəqibləri- «yalançı peyğəmbərlər» Əbhələ (Əbuhələ) əl-Əsvad və Müseylimə də öz Allahlarını belə adlandırırdılar.

Quranda ər-R. Allahı bildirən, Allah və Rəbb (hökmdar) sözlərindən sonra ən çox işlənilən sözdür. Quranın xronologiyasında əsas (ikinci) Məkkə mərhələsi qeyd edilir. Burada Məhəmməd (s) öz Allahını çox vaxt ər-Rəhman adlandırmışdır.

Ər-R. çox geniş yayılmış teofor adları tərkibinə daxil olur: (Əbdürrəhman) Əbd ər-Rəhman - «ər-Rəhmanın qulu», «Allahın qulu» və s.

**Ədəbiyyat:** İslam, 198; Jeffery. Vocabulary, 140-141; J.Jomier. Le Nome divin «Al-Rahman» dans le Coran.- Melanges, 2, 316-381; Paret. Kommentar, 11.

**Ər-Rəy** («baxış», «rəy», «mühakimə») - fiqhdə şəxsi, müstəqil fikri-rəyi və ya qanunçunun (fəqihin) mühakiməsini bildirir və onun əsasında qanuni qərar verilir. Ər-R.-in spesifik mənasının yaranması xəlifə Ömərlə

(634-644) bağlıdır. O, Məhəmmədin (s) silahdaşlarından biri Abdulla b. Məsu′du İraqa hakim və dini təlim edən şəxs kimi göndərmişdi ki, o, «gördüyü və bildiyi kimi» (bi-r-rəy və -n-nəzər) hökm versin. Xəlifə aydınlaşdırdı ki, ər-R. istilahı-sözü altında qiyas ilə mühakimə və ictimai fayda başa düşülür.

VII əsrin sonu-XIII əsrin əvvəllərində hələ tam müəyyən olmayan ər-R. məfhumundan müxtəlif kateqoriyalar-əl-qiyasçılar və Həmmad b. Əbi Süleyman (İraq, VII-VIII əsrlər) və onun şagirdi Əbu Hənifə ən-Numan tərəfindən hazırlanan əl-istihsançılar yarandı. Əbu Hənifənin müasiri Malik b. Ənəs (Mədinə) «faydaya» görə «müstəqil rəy» (əl-istislah) və «icazə və qadağa haqqında mühakimə» (əz-zara′i) hazırladı. Malikin şagirdi Məhəmməd əş-Şafei «deduktiv nəticə» (əl-istidlal) kateqoriyasını hazırladı. Bir kateqoriyanın istifadə, digərinin imtina edilməsi əl-ixtilafı müəyyən edən əlamətlərdən biridir və bu ixtilaf ilahiyyatçı və hüquqi məktəblər (məzhəblər) arasındadır.

Ər-R.-in qəbul edilmiş kateqoriyalarından istifadə etmək bacarığı (ilahiyyatçı-hüquqşünas) fəqihin professional ustalığının əsas elementlərindən birini təşkil edir.

Məzhəblər yaranandan sonra ər-R. məfhumu istifadədən çıxdı, ictihad və ya əsasən ər-R. - əl-Qiyas məfhumu işləməyə başladı.

**Ədəbiyyat:** İslam, 197; Əbu Zəhra. Tarix əl-məzahib, 1, 12-21; Bravmann. Background, 177-188; D.Schacht. Fikh.-EI, NE, 2, 889.

**Riba** – (ərəbcədir – sələmçilik, sələm, müamilə, borc faizi deməkdir), müsəlmanlar üçün ciddi qadağan edilmişdir. Quranda bu barədə dəfələrlə deyilir: «Allah ticarətə icazə vermiş və sələmi qadağan etmişdir» (11-276), «Allah sələmi öldüür və sədəqəni dirildir» (11-277) və s. Lakin hələ orta əsrlərdə müsəlman tacirləri müxtəlif hiylələrə əl ataraq, bu qadağanı pozurdular. Orta əsr ilahiyyatçıları hətta qanuni sələm (riba əl-fəzl) və qanunsuz (riba əl-nəsirə) faizlərini bir-birndən fərqləndirirdilər. XIX əsrin axırlarında Misirin ali müftisi Məhəmməd Əbduh (Abdoh) fitva verdi ki, pul əmanətlərinin banka qoyulması əməliyyatlarını və bank faizi alınmasını sələmçilik saymaq lazım deyil. Bir sıra ölkələrdə isə faizsiz İslam bankları yaradılmışdır. Onlar öz təcrübələrində R. üzərində qadağadan yan keçmək üçün müşarəkə prinsipi və növlərini tətbiq edirlər ki, bu da gözdən pərdə asmaq kimi bir şeydir.

**Ədəbiyyat:** İslam (qısa məlumat kitabı), Bakı, 1985, 100-101.

**Ribat** - 1. Rabat din uğrunda silahlı mübarizlərin (mürabitun) qeyri-müəyyən müddətdə toplanıb qaldıqları, yaşadıqları möhkəmləndirilmiş yer, bina, sığınacaq, ev. VII –X əsrlərdə Kiçik və Orta Asiyada, Şimali Afrikada

müsəlmanlarla xristianlar (və ya bütpərəstlər) arasında hərbi əməliyyat keçirilən rayonlarda meydana gələn istehkam və qalalar.

R.-larda olan din uğrunda mübarizlər adətən könüllülər olub, imansızlarla hərbi əməliyyatlarda iştirak edərək çox ciddi mömin qaydalara riayət edirdilər. Bəzən R.-ı monastr kimi göstərirlər ki, bu da düz deyil. X-XI əsrlərdə R. adi hərbi istehkama çevrilmişdi (yəni lazım olanda istehkama çevrilirdi desək daha düzgün olar). Hər iki funksiyanı isə o, XI-XII əsrlərdə Məğribdə saxlamışdı. Əlmüravidilər (əl-Murabitun) hərəkatı və sülaləsi öz adını R.-dan almışdır.

XI əsrin ortalarından İranda öz hərbi təyinatını itirən R. dərvişlərin iqamətgahına-xanəgaha çevrildi. Bu mənada R. istilahı bütün aləmə yayıldı. Sonralar R. zaviyənin sinonimi olur və «zahid zaviyəsindən» tutmuş «müqəddəslərin (vəli) məzarları üzərində qurulan tikili komplekslərinə» qədər tikililərə deyilir. Əl-Mürabit (mərəbut) istilahı Məğribdə yaşayan «müqəddəslərlə» əlaqəsi (rabitə) olan sufiləri bildirirdi. Məğrib və İspaniyada zahid-dərvişlərin qaldıqları yer də «rabitə» istilahı ilə ifadə olurdu.

R. istilahının bəzi mənaları hazırda Livanda işlədilir. «Müstəqil nasirilər»in hərbiləşdirilmiş təşkilatı, onların üzvlərinin yaşadıqları gücləndirilmiş evlər «əl-Mürabitun» adlanır.

2. R. - şəhər daxilində ticarət-anbar yerləri, karvansara, atları dəyişmə dayanacağı, müsəlman şəhərləri yaxınlığında ticarət yerləri.

**Ədəbiyyat:** İslam, 198; Awarif əl-məarif, 107-109; İbn Battuta. Travels, 2, 298-299; Trimingham. Orders, 167-168; G.Marcais. Ribat.-E I, 3, 1150-1153;. J.-Cl. Vadet. L’eloquence d’un sermonnaire hanbalite Bagdadien du XII siecle Abd al-Qadir al-Djilani-Predication et propagande an Moyen Age. P., 1983, 207-221.

**Ər-Riddə** (dönüklük) - Ərəbistan yarımadası qəbilə tayfalarının Məhəmmədin (s) vəfatından sonra 632-633-cü illərdə xəlifə hökmdarlığına qarşı hərəkatı. Müsəlman tarixi ənənəsi bu hərəkatı İslamdan dönüklük kimi adlandırır. Məhəmmədə (s) inanan tayfalar Əbubəkr xəlifə olanda guya «İslamdan dönüb» müsəlman canişinlərinə vergi verməkdən imtina etdilər və ya «yalançı peyğəmbərlərə» inandılar. Ər-R. və onun məhv edilməsi mənasında Əbubəkrin Mərkəzi və Şərqi Ərəbistan, Yəmən Hadramautu, Bəhreyn, Oman və s.-yə «yalançı peyğəmbərlər» hərəkatını məhv etmək üçün hərbi qüvvələr göndərməsi nəzərdə tutulur. Bu vuruşlarda Xalid bin Valid fərqləndi. Daxili müharibələrin qurtarması bütün qüvvələri Ərəbistandan xaricə göndərməyə imkan verdi.

Ancaq müsəlman rəvayəti Peyğəmbərin (s) vəfatından sonra Ərəbistan yarımadasının əsas bölgələrini zəbt etmək üçün edilən yürüşləri üsyançı tayfalarla mübarizə kimi göstərir. İslama qarşı üsyan kimi təqdim edilən bir

çox hadisələr hakimiyyət tərəfindən öz siyasi hökmranlıqları üçün məharətlə istifadə etdikləri köhnə daxili çəkişmələr idi. Bir çox «yalançı peyğəmbərlər» öz fəaliyyətlərinə hələ Məhəmməd peyğəmbərin (s) sağlığında başlamışdılar (bax: Sacax, Tuleyhə, Müseylimə).

**Ədəbiyyat:** İslam, 198-199; əl-Balazuri. Futuh, 94-107; ət-Təbəri, 1, 1881-2016; E.Shoufany. Al-Ridda and the Muslim Conquest of Arabia. Toronto- Beirut, 1972.

**Rizq (cəmi ərzaq) -** 1. Quranda bu, Allah tərəfindən insana yaşamaq üçün verilən vasitədir, gündəlik çörəkdir, buradan da Onun epitetlərindən biri ər-Rəzzaq («Pay verən», «Ruzi verən» «Yemək verən») ləqəbi irəli gəlir. 2. Adı divana daxil olan şəxslər üçün ərzaq payı (638-ci ildən xəlifə Ömər R. payı verdi və o, VIII əsrin axırınadək davam etdi), Misirdə bu 1 irdabb (25 k.) buğda, 1 qist (1,5 l.) bitki yağı, o qədər də sirkə və bir qədər də ət; Suriyada-buğda payı-2 modiya «cərib»=18-19 kq.; İraqda 1 cərib = təqr. 23 kq. buğda. Adı divana daxil olan hərbi şəxslərin ailələrinə (qədəri bilinməyən) pay təyin olunurdu.

IX-X əsrlərdə R. - daha çox hərbçilərin maaşı, bəzən ümumiyyətlə, maaş (məs: Orta Asiyada Səmanilər vaxtı). XII-XV əsrlərdə Misirdə müəyyən sahədən məhsul ilə ödəniş, buradan ümumiyyətlə, daşınmaz əmlakdan olan gəlir meydana çıxıb. XVI əsrdən Osmanlı imperiyasında gəlir gətirən torpaq sahəsini, xüsusilə də vəqf torpaqlarını R. adlandırdılar.

**Ədəbiyyat:** İslam, 199.

**Rövşəniyyə** (fars. roşəni) - rövşənilər, öz şagirdləri və ardıcılları arasında Pir-i Rövşən adlanan Bəyazid Ənsari (1225-1272) tərəfindən yaranan müsəlman icmasının adı. İcma XVI əsrin ortalarından bir çox əfqan tayfaları arasında geniş yayıldı. R.-nin dini pərdəsi altında xalq (əsasən kənd əhalisi və maldar köçərilər) hərəkatı yarandı və o, əfqan feodalları və monqol qəsbkarlarına qarşı olub fəal təbliğat və silahlı mübarizə şəklində demək olar bütün əsr boyu davam etdi.

R. icmasının bəzi əsas qaydaları İslam qanunlarından fərqləndiyi üçün təlimin banisi və tərəfdarları «Allahsız» elan edilmişdi. Bəyazid Ənsarinin doktrinasına görə ilahi başlanğıc bütün dünyaya, bütün insanlara yayılır, onlar hamısı Allah qarşısında bərabərdirlər və onların hər biri Onu dərk etməyə və Onunla birliyə can atmalıdır. Bəyazid öyrədirdi ki, Allahı tanımaq ancaq «kamil ruhani rəhbərlərin» (pir-i kamil) sayəsində mümkündür. Allahla birlik yolunda səkkiz dini kamillik pilləsi qərarlaşmışdı: Dörd ali pilləyə çatmış və Allahla birliyə yaxın olan R. üzvləri şəriətin bəzi qaydalarından azad edilirdilər.

Təlimin bu xüsusiyyətləri, onun qızğın təbliği, habelə Bəyazidin əfqanların qədim adəti - torpağın tayfa üzvləri arasında ədalətlə bölünməsini ifadə edən «veş»i dəstəkləməsi sayəsində icmanın başçısı çoxlu əfqan tayfalarını öz tərəfinə cəlb etmişdi. R. icması hərəkatı açıq ictimai xarakter, antifeodal meyl, monqol qəsbkarlarına qarşı azadlıq mübarizəsi xüsusiyyətlərini almışdı. R. Bəyazid, onun oğlanları, nəvələri, nəticələri və ardıcıllarının rəhbərliyi altında çoxlu qələbə qazandı, ancaq XVII əsrin ortalarından tayfalararası çəkişmələrdən zəifləyən hərəkat yatırıldı, lakin onun ideyaları hələ uzun müddət əfqanların ağıllarına təsir edirdi. Onlar sonrakı azadlıq mübarizəsinə və milli özünüidarəetməyə təsir edirdilər. R. hərəkatının fəal iştirakçıları və onun ideoloqları böyük əfqan şairləri Ərzani, Dövlət, Müxlis, Bəyazidin nəvəsi Mirzəxan Ənsari olmuşlar. Bəyazidin əsərləri və rövşəni şairlərinin şeirləri əfqan ədəbiyyatının sonrakı inkişafının özülü oldular. Bəyazidin ritmik nəsrinin təsiri altına hətta R.-nin ideya əleyhdarları da düşmüşdülər.

**Ədəbiyyat:** İslam, 200-201; Хайр ал-Байан де Байазид Роман. Кабул. 1975; yenə o, Halnamə. Əlyaz. F. 920/37. Subhan Allah collection, Abu–l-Kalam Azad library. Aligarh Muslim University, İndia; Məxzən əl-islam. Təsnif axund Dərveza-bab müqəddəmə seyyid Təqvim əl-Haqq Qaqahel. Peşəvar, 1967; Dəbistan əl-məzahib. Tə’lif-i şeyx Möhsin Fani Kəşmiri. Kanpur, 1904; И.М.Рейснер. Развитие феодализма и образование государства у афганцев. М., 1954, 285; М.Т.Асланов. Народное движение ровшани и его отражение в афганской литературе XVI-XVII вв.-СВ., 1955, 5; В.М.Массон и В.А.Ромодин. История Афганистана. 2, М., 1965, 33-48; В.М.Маннанов. Суфийско-политицеское направление в афганской литературе XVI-XVII вв. Автореф. канд. дис. М., 1970; В.В.Кушев. Афганская рукописная книга. М., 1980, 29-38; K.Xədim. Bəyazid Rövşən. Kabil, 1944; D.S. Margoliouth. Rawshaniyya.-EI, 3, 1133-1134; M.Shafi. Bayazid Ansari. – EI, NE, 1, 1121-1124.

**Ruh** - sinonimi nəfs (can). Bu iki istilahın mənası və onların arasındakı münasibət onların işləndiyi sahə və onları şərh edən alimlərdən asılıdır. Fəlsəfi mənada R. təbiətə və maddəyə qarşı qoyulan şüura oxşar məfhumdur: tarixi-dini baxımdan qeyri-təbii vücud, bizə məlum olan bütün dinlərdə inamın əsas obyektlərindən biridir. Mütəkəllimlər psixoloji və psixofizioloji konteksdə bu iki məfhumu eyniləşdirərək onunla insanın fiziki və əqli fəaliyyətini nəzərdə tuturdular. Bu mənada Adəmin (ə) yaranması haqqında qeyd olan Quran ayələrində «R.» şərh edilir (15:29; 38:72). Fələsifə (filosoflar) R. altında onun maddi daşıyıcısı-canı nəzərdə tutur və onu bitki, heyvan və ali-ağıllı olmaqla üç yerə bölürdülər. Sufilər

isə bu ali hissəni «R.», qalanını isə «can» adlandırırdılar. Müsəlman ənənəsində «can» istilahı işlədilmir, mələklər və cinlər «R.-lar» adlanırlar, məsələn, Cəbrail (ə) ər-R. əl-əmin (26:193), ruh əl-qüds (16:102/104), sufilərdə isə R. əl-ilqa adlanır. Dini-fəlsəfi metafizikada «R.» və «can» məfhumlarına antoloji-kosmoloji status verilir. Məs: sufilərdə R. - «ilkağılın», «ilkyaratmanın», habelə ər-R. əl-qüds, ər-R. əl-müqəddəs, ər-R. əl-qüdsi, R. əl-ərvah, ruh Allah, ər-R. əl-ə'zəm adlananların sinonimidir; nəfs fələsifədə (filosoflarda) səma sferasının həyatının başlanğıcını ifadə edən ilahi şüalanması dərəcələrindən biridir. Ən sonda onu qeyd etmək lazımdır ki, bütün bunlar haqda danışmaq küfr, günahdır. Çünki Quranda Allah Məhəmmədə (s) deyir: - Səndən R. haqqında soruşsalar, de ki, o, Allahın işidir. Belə olduqda, onun haqqında danışmaq olmaz (günahdır).

**Ədəbiyyat:** İslam, 200; ət-Təhənavi. Kəşşaf istilahat əl-funun. Osnabryuk, 1980, 540-549; əl-Həkim. Əl-Mucəm, 539-546; Əbu-l-Bəqa. Əl-Külliyyat, 2, Dəməşq, 1982, 373-376; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 235.

**Rumi Cəlaləddin** Məhəmməd b. Bəhaəddin Məhəmməd əl-Bəlxi, Mövlanə (bizim ağamız) kimi tanınan məşhur fars sufisi və şairi, mövləviyyə sufi qardaşlığının banisi və qeyri-rəsmi rəhbəri (1207-1273). Bəlxdə (Şimali Əfqanıstan) doğulub, Konyada (Kiçik Asiya) vəfat edib. Onun atası Məhəmməd b. əl-Hüseyn əl-Xatibi əl-Bəlxi (1148-1231) Xarəzmşahlar dövlətində nüfuzlu fəqih sayılırdı, məşhur möizəçi idi, şeyx Nəcməddin əl-Kubranın (vəf. 1221) baxışlarını bölən sufi dairələri ilə yaxın əlaqəsi var idi. 1215-ci ildə öz möizələrində xarəzmşah Əlaəddini pislədiyi üçün onun tərəfindən təqibdən canını qurtaran ata ailəsi ilə birlikdə Bəlxi tərk etmişdir. Bir neçə il ərzində onun ailəsi Kiçik Asiyanın müxtəlif şəhərlərində yaşamışdır (Malatya, Larenda). 1228-ci ildə Bəhaəddin Konyaya köçüb, orada mərkəzi mədrəsəyə rəhbərlik edir. R. atasının vəfatından sonra möizəçi vəzifəsini tutur. 1232-1239-cu illərdə o, öz dini biliklərini Hələb və Dəməşqdə kamilləşdirir; Konyaya qayıtdıqdan sonra mədrəsədə mühazirələr oxumağa davam edir. Məsciddə möizələr edir, o vaxt mülayim baxışları ilə fərqlənən sufi qardaşlığının əsasını qoyur. 1244-cü ildə tale onu gəzəri- «azad» sufi Şəmsəddin Məhəmməd ət-Təbrizi ilə görüşdürdü. Onun qələndəriyyə fərziyyələri, müsəlman ilahiyyatı və Əbu Yəzid əl-Bistami məktəbinin normativlərinin eklektik birliyini ifadə edən görüşləri R.-yə həlledici təsir etdi. R. Şəmsəddini öz mürşidi qəbul edərək, intellektual araşdırmalardan imtina etdi. R.-nin Şəmsəddinlə daimi münasibətdə olması onun şagirdlərinin narazılığına səbəb oldu və onlar sonda Şəmsəddini öldürdülər. Şəmsəddinin itkisi ilə əlaqədar dərd R.-nin ətraf mühiti qəbul etməsini daha çox kəskinləşdirdi və bu onun şeirlərində

özünü göstərdi, o öz şeirlərini sevimli sufi dostunun adından yazırdı, o, onu özündə görürdü. Məhz bu dövrdə R. hələ ona qədər heç yerdə olmayan müsəlman elmi tədrisini sufi təcrübəsi ilə birbaşa mədrəsədə birləşdirdi. 1249-cu ildə o elan etdi ki, Şəmsəddin Konyada qızıl işləri ustasının şagirdi Salahəddin Fəridunun surətində onun yanına qayıdıb və R. onu özünün xəlifəsi və naibi təyin etdi. 1258-ci ildə Salahəddinin vəfatından sonra onu Hüsaməddin Həsən Çələbi əvəz etdi, sonra isə o, (təx. 1264-də) R. hələ sağ ikən qardaşlığın rəhbəri oldu. Məhz Hüsaməddin R.-nin sufi poeması Məsnəvini («Qafiyəli beytlər») yazmasının təşəbbüskarı oldu, sonradan o, «Fars dilində Quran» adlandı.

R. şübhəsiz intellektual sufi ideyaları ilə yaxşı tanış idi, xüsusilə də, İbn Ərəbinin vəhdət əl-vücudunun təlimi ilə, eləcə də təcrübəvi sufiliyin nümayəndələrinin baxışları ilə. Lakin bir sufi kimi R. özünün sufi Yolunun konsepsiyasını yaratmamışdır. Onun dünyagörüşü eklektik idi. R.-yə görə Allah mütləq dərkedilməzdir. O, bütün məlum şeylərin yaradıcısıdır. İnsan ağlı isə mahiyyəti dərk etmək gücündə deyil, lakin onun atributlarını sufilər hissiyyatla hədsiz məhəbbətlə dərk edirlər. Elmi ədəbiyyatdan göründüyü kimi R. heç vaxt panteist olmayıb. Öz baxışlarında o, həmişə sufilik və müsəlman ilahiyyatı arasında yer tutmağa çalışmışdır. Əksər sufilərdən fərqli olaraq R. hər bir sufi üçün dini qaydaların-namaz, oruc və s.-nin zəruri olduğunu hesab edərək, onlara sevənin sevgilisinə hədiyyəsi kimi baxırdı. Bununla belə o, musiqiyə, mahnılara, habelə kollektiv həqqada rəqsə xüsusi əhəmiyyət verirdi, baxmayaraq ki, bu şəirət qaydalarının pozulması idi.

R. özündən sonra şeir və nəsrlə nəhəng ədəbi irs qoyub getmişdir. Təkcə Məktubat (Məktublar) və Məsnəvi poemasının ilk 18 beytini o özü yazmışdır, qalanlarını isə onun şagirdləri toplamış və yazmışlar. Onun Divanı (səkkiz cilddə Tehranda 1957-1966-ci illərdə nəşr olunmuşdur), qəzəllər, rübailər və başqa formalı-cəmisi 30 min beytdən ibarətdir. Onların çoxu həqqaya getmək üçün yazılmışdır və yüksək emosional quruluş, melodiya, ritm, ekstatik xüsusiyyəti ilə fərqlənir. Demək olar, onların hamısı Allaha hədsiz məhəbbət və sufi fərəhdən ibarətdir. Məsnəviyi mənəvi (Gizli məna haqqında poema) 8 cilddə nəşr olunmuşdur, Londonda 1925-1940-cı illərdə ingilis dilinə tərcümə olunmuşdur, cəmi 25632 beytdən ibarədir. 6 dəftərdən ibarət olan sufi-didaktik poema Səna'i (vəf. 1131) və Fəridəddin Əttarın poemalarının janrında yazılmışdır. Hüsaməddin Həsən Çələbi bu əsəri R.-nin diktəsi altında yazmışdır. R. təşəkkür olaraq Hüsaməddinə poema həsr etdi, mövləviyyə ənənəsində onu «Hüsam-namə» («Hüsam kitabı») adlandırırlar. R. hesab edirdi ki, məsnəvi Quranın gizli mənasını açır.

**Ədəbiyyat:** İslam, 199-200; Əflaki. Məvakib, 4b-35a, 45b-398b, 419b-470a; The Mathnawi of Jalalu'ddin Rumi. Ed. from the oldest manuskripts available with critical notes, tarnsl. and comment. by R. A.Nicholson. Leiden, 1929; Э.Д.Джавелидзе. У истоков турецкой литературы. 1, Джелал-ед-дин Руми. Тв., 1979; Fəruzənfər. Risalə; Baldick. Literature, 98-99, 125-127; Schimmel. Dimensions, 309-328; A.J.Arberry. Discourses of Rumi. L., 1961; H.Ritter-A.Bausani. Galal ad-din Rumi.-E I, NE, 2, 393-397.

**Rüqəyya** - Peyğəmbərin (s) qızı, anası Xədicə bint Hüveyliddir. Xədicə Məhəmmədən (s) qabaq Əbu Hala ibn Zurara ət-Təmimi, sonra isə Atiq ibn Ayiz əl-Məhzuminin arvadı olmuşdu. Birincidən Hala adlı oğlu, ikincidən Hind adlı qızı var idi. Peyğəmbərdən isə dörd qız və bir neçə oğlan doğdu. R. Zeynəbdən sonra ikinci qız idi və uşaqkən Əbu Ləhəbin oğlu Utbaya nişanlanmışdı. İslama qarşı amansız olan və Quranda lənətlənən (111) Əbu Ləhəbə görə hələ evlənməmiş onların nişanı pozuldu.

Bundan sonra R. Osman ibn Əfvana ərə getmiş və 615-ci ildə Onunla Həbəşistana gedəndə yolda və ya Həbəşistanda bir uşaq itirib. Bədr döyüşünün sonuna yaxın (624) R. xəstələnib vəfat etdi. Onun Abdulla adlı oğlu iki və ya altı yaşında ölüb.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 235.

# S

**<u>Sabiilər - əs-sabiun (və ya əs-sabiyyə)</u> -** möminlərlə bütpərəstlər arasında orta mövqe tutan əhl əl-Kitab və əhl əz-zimmə kateqoriyalarından biridir. Buna görə də onlar müsəlman icmalarının «himayəsində» idilər.

Quranda S. yəhudilər və xristianlarla yanaşı olaraq xatırlanırlar, onlar Allah tərəfindən hədiyyələnəcəklər və bütpərəstlərdən ayrı tutulacaqlar, çünki onlar Ona və Qiyamət gününə inanmışlar və imanla yaşamışlar (2:62/59:5; 69/71:22:17). Quranda S. istilahı altında kimin nəzərdə tutulduğu məlum deyil. Mətnə görə bu hansısa yəhudi-xristian sektasıdır. Quran onların Ərəbistan hənifləri olduğunu nəzərdə tutduğunu ehtimal edir.

Xilafətin yaranmasından sonra bir tərəfdən mandeylər, digər tərəfdən Hərran icması Quran mətnləri ilə bağlı olaraq, özlərini S. adlandırırdılar. Sonuncular müsəlman aləminə Mesopotamiya mədəniyyətini, tibbi və kimyəvi bilikləri gətirdilər. Hazırda S. adı ancaq Cənubi İraqda mandeylər icmasında qalıb.

**Ədəbiyyat:** İslam, 201; ət-Təbəri. Təfsir, 1, 252-253; əl-Məs'udi. Muruc, 4, 61-71; Бартольд. Əsər. 6, 469-486; Мец. Ренессанс, 44; D.Chwolsohn. Die Ssabier an der Ssabismus. St.-Pbg., 1856; J.Pedersen. The Sabians.-Oriental Studies presented to E.Brown. Cambridge, 1922, 383-391; Horovitz. Untersuchungen, 121-122; Paret. Kommentar, 20; J.D. McAuliffe. Exegetical identification of the Sabi'un.-MW., 1982, 72/2, 95-106; J.Hjarpe. Analyse critique des traditions arabes les sabeen harraniens. Uppsala, 1972; M.Tardieu. Sabiens coraniques et «sabiens» de Harran.-JA. 1986, 274/1-2, 1-44; V.Carra de Vaux. Al-Sabi'a.-EI, 4, 22-23.

**<u>Sacah</u> -** müsəlman rəvayətində yalançı (dişi) peyğəmbər, o da özünü Allahın elçisi adlandıranlardan biri olub, İslamı qəbul edənləri ondan dönməyə çağırırdı.

S. talibilər arasında böyüyüb, onların arasında yayılan xristianlıqla yaxşı tanış idi. Hələ Məhəmmədin (s) sağlığında o, translar vaxtı «buludlar ağası» adlandırdığı Allahın adından danışır, minbərdən ritmik şeirlər (sac) deyirdi, azan verən müəzzini var idi. İraqdan o, öz tərəfdarları ilə doğma tayfası Təmimə gəlir. 633-cü ildə onlar Yəməməyə soxuldular, orada «yalançı peyğəmbər» Müseylimə Yəmənənin iki məhsulunun yarısı ilə təmimlərdən canını qurtarır. Rəvayətə görə guya S. Müseylimə ilə evlənirlər və sonra S. Müseylimə ilə müsəlmanlarla vuruşda ölür. Əslində S. Yəməməyə yürüşdən sonra İraqa qayıdıb, sonra İslamı qəbul etmişdi.

**Ədəbiyyat:** İslam, 202; ət-Təbəri. Tarix, 1, 1911-1920; Пиотровский. Мухаммад; yenə o. Движение. Wellhausen. Skizzen, 6, 13-15; V.Vacca. Sadjah-EI , 4, 47-48.

**Sahib əz-Zaman** («zamanın sahibi») - Əli (ə) nəslindən olan gözlənilən imam Mehdinin epitetlərindən biri. S. əz-Z.-nın tam hüquqlu hakim kimi «Qayıdışı» şiə təliminə görə «ilahi əmrin» təntənəsi və yer üzərində ədalətin qurulmasını bildirir (bax, əl-qeybə).

Sahib əs-Seyf («qılınc sahibi») - Əli (ə) nəslindən olan gözlənilən imam Mehdinin epitetlərindən biri, onun hakimiyyət rəmzi qılınc sayılır. S. əz-Zamanın qayıtması ilə şiələr zülmün və haqsızlığın aradan qaldırılacağını bağlayırlar. Təkcə o, qanuni olaraq əldə qılınc «ikiüzlü» hakimlərə qarşı mübarizəyə qalxıb, möminləri onları devirməyə çağıra bilər.

**Ədəbiyyat:** İslam, 208.

**Əs-Salat** (ərəbcə namaz) - İslamın vacibi üsuli-d-dininin (dinin əsasları) beşindən biri. İlk müsəlmanların namaz qılmağı - bir yerdə yuxarı səslə Allahın təkbirini və Onun yüksək olduğunu ifadə etmək idi. Namazın qaydaları Quranda olmasa da, onun vaxtı, bəzi hərəkətləri və namaz fərmanlarına işarələr vardır. Hesab edilir ki, bütün namaz qaydaları Məhəmməd peyğəmbərin (s) namaz qaydalarına oxşayan olub, ilk müsəlmanların xatirələrində qalmışdır. Onun eyni şəkildə qılınması demək olar 150 ildən çox təkrarlanandan sonra Məhəmməd əş-Şeybani (vəf. 805) tərəfindən bir yerə yığılıb, yazılı surətdə qeyd edilmişdir

Əs-S.-ın əsası rəkət olub, namaz vəziyyətləri və hərəkətlərinin toplusudur. Namaz sözləri nizam ilə bir-birinin arxasınca deyilir. Namaz qılan dəstəmaz alandan (vudu) sonra ayaqqabısını geymədən təmiz yerdə səccadəsini (xalça) sərib, onun üzərində üzü qibləyə durub, əlləri yana salır və hansı namazı qılacağını ürəyində niyyət tutaraq, əllərini boğazı (nəhr) səviyyəsinə qaldırıb «Allahu-əkbər» deyib, «Fatihə» və «İxlas» surələrini oxuyur. Sonra ruku (beldən əyilmə) edərək, əllərini dizləri üstə qoyub, Allahı tərif edərək, Sübhanə Rabbiyə -l-Əzimi... (Əzəmətli Allahım ucadır, pakdır) ibarəsini deyib qalxır və Rabbi salli ...( İlahi Məhəmmədə (s) ... dua et) formalısını ifa edir. Sonra diz üstə oturub, səcdə edərək, alnını möhürə qoyaraq (sucud), Sübhanə Rabbiyə-l-Əla... (Yüksək Allahım pakdır...) sözlərini təkrar edib, «Allahu əkbər» deyib (hərəkəti iki dəfə təkrar edəndən sonra) ayağa qalxır. Beləliklə, bir rəkət tamamlanır. Sübh namazı 2, zöhr 4, əsr 4, şam-işə 3, xiftən namazı 4 rəkətdir. Hər iki rəkətdən sonra «təşəhhud» (Əşədu ən lə ilahə illə-l-lah, Vahdəhu lə şərikə ləhu, va əşhədu ənnə Muhamədən abduhu va rasuluhu) deyilir, namaz qurtarırsa, (sübh) namazındakı kimi salam da verilir, qurtarmırsa, o biri namazlarda davam etdirilir. Namaz ancaq ərəb dilində qılınmalıdır, ərəb sözləri çoxmənalı olduğuna görə tərcümə düz olmaya bilər. Həm də namazın bir dildə (ərəb) qılınması islamın vəhdətini gücləndirir. Həcc vaxtı hərə öz dilində namaz qılsa nə olar? Məzhəblərdən və ümumiyyətlə möminlərdən asılı olaraq

namazda kiçik fərqlər ola bilər. Vacibi (fərz) namazlarından başqa könüllü namazların savabı vardır.

Namaz fərdi və ya camaatla qılına bilər. Cümə namazının isə (günorta) məsciddə, kollektiv şəkildə qılınması yaxşı sayılır. Qadınlar ayrı yerdə namaz qılmalıdırlar, buna imkan olmasa onlar kişilərdən arxada durmalıdırlar, yoxsa hər ikisinin namazı batil olar. Namaz vaxtı başqa şeylə məşğul olmaq olmaz. Namaz qılana xüsusi nəzarət yoxdur, hər kəs öz vicdanı ilə Allah qarşısında cavabdehdir.

**Ədəbiyyat:** İslam, 204; əş-Şeybani. Əl-Əsl, 1, 135 və sonra; Zeid ibn Ali. Corpus juris, 21-66; əl-Qəzali. İhya, 1, 134-187; Sədr əs-şəria. Müxtəsər, 12-37; Ət-Tai. Təlim, 16-42; A.J.Wensinck. Salat.-EI , 4, 103-112.

**Saleh** («mömin», «zahid») - Allah tərəfindən səmud xalqına (habelə Hicazın şimalında olan əl-Hicr əhlinə) göndərilən Quran surəti (obrazı) olan peyğəmbər. Deyilənə görə o, təhlükəni qabaqcadan xəbər verirmiş, Məhəmməd peyğəmbərə (s) oxşayırmış. Quranda yazıldığına görə o da Hud peyğəmbər kimi öz xalqını ancaq Allaha təzim etməyə və onun özünü Allahın elçisi kimi qəbul etməyə və yalnız Allaha tapınmağa (əl-Əraf, 73, Hud, 61, əş-Şüəra, 142) çağırır, Allahdan gördükləri lütfləri göstərir və Allahın onlara görə heç bir əvəz almadığını vurğulayır. Səmudların kiçik bir hissəsi ona iman gətirdi, qalan çoxluq isə yuxarı təbəqədən olan doqquz nəfərin başçılığı ilə S. haqqında quşlar vasitəsilə fala baxaraq, onu adi sehirbaz elan etdilər, öz dinlərindən əl çəkmədilər, sui-qəsd düzəldib, onu gecə öldürmək istədilər. Allah işarə kimi onlara bir dişi dəvə göndərdi, ona xətər yetirmək olmazdı. O, azad olaraq otlamalı, səmudlar isə sularını onunla bölməli idilər. Onlar isə buna mane oldular, onlardan ən qəddarı dəvənin damarlarını kəsdi, sonra onlar onun başını kəsdilər. S. onlara üç gündən sonra cəza göndəriləcəyini xəbər verdi və qövmü ona inanmayıb, istehza etdilər, o, (cəza), ildırım və «vəhşi qışqırıq», şiddətli fırtına kimi nazil oldu. Səmudlar hamısı evlərində məhv oldu. S. və ona inanlar xilas oldular (7, 73/71-79/77; 11:61/64-68/71; 15:80-84; 17:59/61; 26:141-159; 27:45/ 46-53/54; 41:13/12; 17/16-18/17, 51:43-45; 54:23:61; 69:4-5; 89:9/8; 91:11-15).

S. (ə) haqqında hekayələr Quranda əsasən öz peyğəmbərlərinə (Nuh, Hud, Lut, Şüeyb) inanmayan xalqlar haqqındakı hekayələrlə birgə vəhdət təşkil edirlər. Stilistik cəhətcə onlar Ərəbistan peyğəmbərləri Hud və Şüeybin hekayələrinə çox yaxındırlar. Bütün bunlar məkkəlilərə xəbərdarlıq rolunu oynayırdı. Onlar da Məhəmmədi (s) gecə öldürmək istəyirdilər. O hekayələrdə səmundların həyat tərzi haqqında məlumatlar da vardır: onlar qayalarda özlərinə yaşayış yeri çapıb düzəldir, düzlərdə

hündür evlər tikirdilər, bağlar salırdılar. İndi də oralarda zəlzələlərdən sonra qaya qəbirləri, S.-lə bağlı yer adları (Mədain Saleh) qalmaqdadır. Səmud və ad qövmlərinin məhvi haqqında islamaqədərki məlumatlarda xəbər var. Sonrakı Məkkə surələrində bu haqda Quranda geniş təsvir vardır.

Qurandansonrakı ədəbiyyatda yeni detallar meydana gəlir, əsas səmudların adları, hamilə dəvənin ölü qayadan çıxması və s.

Hazırda Kərbəla şəhərində altıncı imam Cəfəri Sadiqin məqamına yaxın qəbiristanlığın yanında Hud və S. peyğəmbərlərin Məscid-məzarları qalmaqdadır və əhali oranı ziyarət edir. Oranı mən də bir necə dəfə ziyarət etmişəm (Ə. A).

**Ədəbiyyat:** İslam, 205; ət-Təbəri. Tarix, 1, 244-252,; yenə o. Təfsir, 9, 157-166, 12, 38-41; əl-Məs'udi. Muruc, 3, 85-90; əs-Sə'ləbi. Qısas, 38-41; əl-Kisə'i, Qısas, 110-121; Horovitz. Untersuchungen, 94, 103-106, 123; Speyer. Erzählungen, 118-119; Gaudefroy-Demombynes. Mahomet, 398; Paret. Commentar, 164-165, 486; Fr. Buhl, Salih. – EI, 4, 114; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 236-237.

**<u>Əs-Saum</u>** - orucluq, İslamın üsuli-d-dininin vacibi beş bəndindən biri. Əs-S. 624-cü ildə Məhəmməd peyğəmbər (s) tərəfindən qoyulmuş qanun olub, islamaqədərki mömin vəhdətə (əl-i'tikaf) gedib çıxır. Əs-S. günün işıqlı vaxtı bütün yemək-içmək, siqaret çəkmək, dərman qəbul etmək, cinsi əlaqədə olmaq və s.-dən imtina etməkdən ibarətdir. Qaranlıq düşəndən sonra sadalanan bütün qadağalar götürülür, lakin həddən artıq yemək məsləhət görülmür, orucluqda dua etmək, Quran oxumaq, namaz qılmaq, barışmaq, sədəqə vermək və s. mömin işlərlə məşğul olmağa vaxt sərf etmək tövsiyə edilir. Əs-S. Ramazan ayı bütün həddi buluğa çatmış insanlara vacibdir. Səfərdə, müharibədə, əsirlikdə, xəstə olanlar, çox qocalar, hamilə və uşaq əmizdirən qadınlar, əs-S.-un zərər verə biləcəyi adamlar onu tutmaqdan azaddırlar. Natəmizlər (ən-nəcasə), heyzli qadınlar, cinayətkarlar, məhbuslar, ləkələnmişlər və təmizlənməmişlərə (ət-tahara) və s. oruc tutmağa icazə verilmir.

Oruc tutmaqdan müvəqqəti çətinliyə görə azad olanlar sonra, rahat vaxtda tutmadıqları orucu tutmalıdırlar. Bilərəkdən orucunu yemiş adamlar onu Ramazandan sonra tutmaqla yanaşı, tövbə etməli, kəffarə verməlidir. Bilmədən orucunu yeyən şəxs yadına düşən kimi yeməyi saxlamalı, ağzındakını qaytarıb, ağzını təmiz yumalıdır, orucunu davam etdirməlidir. Ramazan ayının orucundan başqa boyunalma, günahların yuyulması, ümumiyyətlə möminliyə görə oruc tutma da vardır. Adətən belə orucun tutulması üçün ilin qısa günləri, I və IV günlər seçilir. Ay və gün tutulanda, epidemiyalar vaxtı, müharibə qorxusu vaxtı oruc tutmaq tövsiyə edilir.

Ramazan ayının orucunu tutmağa qazi, hakim, polis və bütün müsəlmanlar nəzarət edirlər. Lakin belə nəzarət həmişə effektli olmur və ona görə də orucun tutulması şəxsi xarakter daşıyır. Orucluğa açıq surətdə etinasızlıq etmək cinayət sayılır və hər müxtəlif müsəlman ölkəsində müxtəlif cür cəzalandırılır.

**Ədəbiyyat:** İslam, 208; əş-Şeybani. Əl-Əsl, 2, 186-304; Malik b.Ənəs. Əl-Müvəttə, 150-164, əl-Qəzali. İhya, 1, 207-214; Wensinck. New-year, 13 və davam. C.Berg. Sawm.-E1, 4, 192-193.

**Sehr** - cadugərlik, maqiya. Məhəmmədin (s) opponentləri Quranda onu səhir (10:2) «cadugər» və ya məşhur «tilsimlənmiş» (17:47/50), onun möizəsini-sehr yü'sər isə «kimsə tərəfindən (ona) verilən cadugərlik» (74:24; həm də bax: 28:36, 38/43-7/6) adlandırırlar. S. Quranda ən çox Misirlə bağlıdır, orada Musa peyğəmbərlə (ə) Fironun cadugərləri (7:113/110) və Babilistan cadugərləri (2:102/96) arasında mübarizədən bəhs edilir.

Qurana əsasən S. peyğəmbərliyə qarşı çıxıb, onunla bir araya gəlmir (5:110; 37:14-15; 27:13), S. günah elan olunur (20:69/72, 72/75; 10:77/78). Ərəbistan S. təcrübəsi kahin, şair (52:29-30; 21:5; 37:36/35), məcnun (68:51) istilahlarını bildirən şəxslərlə bağlanırdı. Məhəmməd (s) o istilahların heç birini özünə qəbul etmirdi.

Qurana görə (2:102/96) S. Allah tərəfindən Babilistanda olan iki mələk Harut və Maruta camaatı həvəsləndirmək üçün nazil edilmişdi. Bununla belə, qeyd edilmişdi ki, həqiqi bilik ancaq Allahdandır, S. isə ikinci dərəcəli və yalandır. Onların daşıyıcıları şeytanlardır ki, onları insanlara öyrədirlər.

S.-in iki növünü ayırmağa başladılar: «qanuni» S. (ət-tariqə əl-məhmudə- «icazə verilən» və «qadağan» olunmuş (ət-tariqə əl-məzmumə) – «pislənən yol». Birincisi Hz. Adəmə və onun qızı Anaka, Süleyman peyğəmbərə və fars miflərindən olan Cəmşidə gedib çıxır. İkincisi isə gedib İblisə çıxır. «Qadağan olunmuş» S.-lə məşğul olanlar (əs-səhara – «cadugərlər») bəd işlərin köməyi ilə cinlərlə əlaqədə olurlar. Müsəlman aləmində qadağan olunmuş S. bəzən ölüm qorxusu altında qadağan edilirdi. Mötəzililər, hənəfilər və şafeilər hesab edirdilər ki, qadağan olunmuş S. heç bir şeyə təsir etmir. Ənənəçi ilahiyyatçılar kimi əl-Qəzali də ümumiyyətlə S.-i pisləyirdi. Bununla belə, S. orta əsr müsəlman ölkələrində həyatın bir sahəsi idi.

**Ədəbiyyat:** İslam, 211; ən-Nədim. Əl-Fihrist, 369-373; ət-Təbəri. Təfsir, 1, 334-353. İrfan. Dirasət, 211-240; К.А.Бойко. Об арабском источнике мотива о золотом петушке. – Временник Пушкинской комиссии. L. 1976, 113-120; Лэйн, Нравы, 198-234; Doutte. Magie;

H.E.E. Hayes. İslam and magic in Egypt. – MW. 1914, 4, 396-406; Westermarck. Pagan Survivals, 5-58; Donaldson. The Wild Rue.

**Seyyid** - başçı, ağa, rəhbər. İslamaqədərki Ərəbistanda tayfa aristokratiyasının nümayəndəsi, tayfanın başçısı.

Quranda S. islamaqədərki mənalarda (12:25), o cümlədən mənfi - «rənglənmiş» ictimai mənada (33:67) və müsbət dəyişilmiş mənada, cənab S. Yəhya və möminlərin Peyğəmbəri (s) haqqında (3:38/34) və s. işlədilib.

İşlənilməsinə görə qeyri-sabit olan S. istilahı hədislərə də aiddir. Bir tərəfdən insanları S. adlandırır, o biri tərəfdən qeyd edirlər ki, Peyğəmbər (s), özünü S. adlandırmağı qadağan edib, çünki S. (ağa) ancaq Allahdır. S. əl-kəlam isə məcazi mənada «dilin nümunəsi» kimi Quran haqqında deyilir.

Sonralar S. əsasən Peyğəmbərin (s) nəsilləri, xüsusilə də Əli (ə) nəslinə, əsasən Hüseyn zümrəsinə aid edildi (bax: şərəf, xoca). Onlar ictimai iyerarxiyada xüsusi yer tutur və möminlər arasında xüsusi nüfuza malik idilər.

S. «müqəddəs» (övliya) sözü ilə eyniləşdirilirdi. Hörmətli qadınlara isə S.-ə və sitti (seyidəti sözündən) deyilirdi.

S. istilahı müsəlman hakimlərinin titullarına əlavə olunurdu. Bu elə bil Peyğəmbər (s) ailəsinə yaxın olmaq iddiası kimi idi.

Bəzi müsəlman ölkələrində, xüsusilə Yəməndə S. institutu son zamanlaradək mövcud idi.

S. istilahı müraciət ədatı kimi hazırki vaxtda tez-tez işlədirilir - yə seyyid, yə seyyidi, seyiddi və s. Seyyidəti və sədəti- xanımlar və cənablar ibarəsi rəsmi müraciətdə işlənir.

**Ədəbiyyat:** İslam, 203-204; MSt. İndex; Wensinck. Concordance, 3, 16-18; Levi-Provencal. Historie, 2, Index; R.Serjeant. The Sayyidz of Hadramaut. L., 1957; A.Семейнов. Происхождение термезских сейидов и их древняя усыпальница «Султан-Садат».- Протоколы заседапий и сообщения членов Туркестанского Кружка любителей археологии. Daş., 1914, 3-23; Босворт. Династин. göst; T.W.Haig. Saiyid.-Sh EI, 48.

**Seyyid Yəhya** - ibn Seyyid Bəhaəddin əş-Şirvani əl-Bakuvi (vəf. 1464)- xəlvətiyyə təriqətinin başçısı, Şeyx Pirzadə Sədrəddin əl-Xəlvətinin şagirdi. Şamaxıda doğulub, Şeyx Pirzadənin vəfatından sonra Bakıya köçüb. On mindən çox müridi var idi. Rəvayətə görə o, ömrünün axırında altı ay oruc tutub, demək olar ki, heç bir şey yemirdi. Məqbərəsi Bakıdakı Şirvanşahlar sarayının həyətindədir.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 239.

**Əs-Səbaiyyə-səbailər** - Abdulla b. Səbanın ardıcılları, «qatı» şiələrin ideya sələfləri. Sünni müəllifləri S.-i İslamda Əli ibn Əbu Talibi ilahiləşdirən ən erkən qrup sayırdılar. Rəvayətə görə Əli (ə) onu ilahiləşdirdiklərinə görə qrupun üzvlərini yandırmağı əmr edir, onlar isə deyirlər: «İndi biz bildik ki, sən həqiqətən də Allahsan, çünki ancaq O, odla cəza verir». S. Əlinin ölümünü inkar edib deyirdilər ki, o, qayıdıb öz düşmənlərindən qisas alacaq və ədaləti bərpa edəcək. S. Əlini Məhəmməd peyğəmbərin (s) varisi elan edib, İslamda ilk dəfə Əlinin imamətinin «dayanması» (təvəqquf) və onun Qiyamət gününə qədər missiya kimi «qayıdacağı» (ə-rac′a) haqqında ideya irəli sürdülər. Bu təsəvvürlər sonralar «qatı» şiələr arasında inkişaf etdi, xüsusilə də imamların «gizli halları» (əl-qeybə) və onların messiya (əl-Mehdi) rolunda qayıtması haqqında ideya işləyib hazırlayan qeysanilər arasında.

**Ədəbiyyat:** İslam, 201; ан-Наубахти. Шиитские секты, 127-128; əl-Əş′əri. Məqalət, 15; əl-Bağdadi. Əl-Fərq, 235-236; аш-Шахрастани. Книга о религиях, 153-154.

**Səccadə** - ərəbcə «səcədə» kökündən olub, «baş əymək», «səcdə etmək», «təzim etmək», «əyilmək», «üzünü yerə toxundurmaq»dandır. S.-nin başqa adları-müsəllə, bisat, həsir, humra, canamaz (caye-namaz (fars.)), namazlıq üzərində mehrab, Kəbə, məscid təsvir olunan, namaz qılmağa (sucud) imkan verən parça balaca xalça. Onun əvəzində dəri, həsir, palaz, yarpaqlar, geyim və s. üzərində də namaz qılmaq olar. Məscid də bu kökdən olub namaz qılınan, səcdə edilən yer olduğu üçün S. dini məna kəsb edir. S. X-XI əsrlərdə istifadə edilməyə başlayıb, deyilənə görə əvvəllər nə Quranda, nə hədislərdə, nə də digər mənbələrdə onun haqqında məlumat var idi. S.-ni təmiz yerə sərən insan ətrafından təcrid olub (ayrılıb) namazını qılır. Xristian evində öz S.-sinin üzərində oturan müsəlman elə bil «öz ərazisində» oturur (yad ölkədə səfirliyin ərazisi kimi). Sufi qardaşlıqlarının rəhbərləri sahib əs-S., şeyx əs-S., S.-nişin (fars.) – «S. üzərində oturan», «səccadə sahibi» adlanırlar. S. mənəvi taxt-tac sayılaraq, sufi qardaşlığının banisi tərəfindən rəhbərə verilirdi. Buna görə S.-nin təriqət, silsilə və s. mənaları da var.

S.-nin hazırlanması müsəlman ölkələrində (İraq, İran və s.) tətbiqi incəsənətin ənənəvi istiqamətlərindən biridir və bu hazırda inkişaf etməkdədir.

**Ədəbiyyat:** İslam, 202-203; Лэйн. Нравы, 96, 114, 259; Dimand. Handbook, 313-318; A.J.Wensinck. Sadjdjada-EI, 4, 43-49.

**Sədəq** («səmimi bəxşiş») - razılıq (xitbə) və ya toy şənlikləri (urs, valimə) vaxtı adaxlının nişanlı qızın evinə gətirilən hədiyyəsi. S. mehr əmlakı hesabına olub, onun dörddə-bir hissəsini təşkil edir. Adətən S. daş-

qaş, bər-bəzək, bahalı geyim və puldur. S.-in dəyəri, onun tərkibi və verilməsi müddəti nikah müqaviləsində (siqə) şərtləndirilir. S. ancaq arvada aiddir, onun xüsusi mülkiyyətinin bir hissəsidir və o, öz bildiyi kimi onunla rəftar edə bilər. S. həm də mehrin sinonimi kimi işlədilir.

**Ədəbiyyat:** İslam, 201-202; bax: Zəvac məqaləsinin ədəbiyyatına.

<u>**Sədəqə (sadaqa)**</u> - «doğrunu demək». Müsəlmanın sədəqə verməsi onun dilinin doğruluğunu (sidq) göstərir. Qədim yəhudi və qədim fars dillərində də «sidq və xulus» sədəqə vermək mənasında işlənmişdir. İslamın əvvəlindən də bu söz insanın öz ixtiyarı və arzusu ilə verdiyi sədəqə və xeyriyyədir. 1.Sədəqə-ehsan. S.-nin bölünməsi Quran tərəfindən təsdiqlənmiş qaydadır: (2:195/191; 262/264-263/265; 270/273, 276-277/277; 4: 114; 9:58, 60, 70/80; 103/104-104/105; 58:12/13-13/14). S. haqqında məsələləri fiqhin uqubat və ehkam bölmələri şərh edirlər. S. verilməsi imkanı olan hər kəsə təlqin edilir. Bu əməliyyat məndub bölməsinə aiddir. S.-ni ancaq imkanı olmayanlar ala bilərlər, yoxsa bu, fırıldaqla pul qoparma kimi cəzalandırılır. S. aşağıdakı kimi olur: S. birdəfəlik xeyriyyəçilik aktıdır. Onu kəffarə kimi də günahı yumaq üçün cərimə kimi vermək olar və o, xeyriyyəçilik işlərinə sərf edilir. S. varlıların öz gəlirlərinin bir hissəsini kasıbların xeyrinə verməkdir. Əvvəlki iki halda o, pul, yemək, geyim, xidmət, yaşayış yeri vermək, borc və təəhhüdü bağışlamaq və s. ilə verilə bilər. Üçüncü halda isə, ancaq xüsusi yığıcılar tərəfindən pul yığılıb mərkəzi və ya yerli xəzinəyə (beyt əl-mala) verilir və zəkata hesablanır. S. vəsaitindən kasıblar, əlillər, pis vəziyyətə düşənlər ala bilərlər. S. vəsaitindən müharibədə kömək edib, qənimət almayan ala bilər, qulun azad olunması üçün çatmayan hissə (mükətəb) kimi, yolda pulu qurtaranlara verilə bilər.

Hədislər və fiqhə aid ədəbiyyatda S. istilahı ilə zəkat mənalandırılır. S.-nin zəkatla eyni olmasını onları ala bilənlərin eyni olması sübut edir. S.-ni vacibi ödəmədən fərqləndirmək üçün onu sədəqə tətəvvü («könüllü sədəqə») adlandırırlar.

**Ədəbiyyat:** İslam, 202; Əbu Yusuf. Əl-Xərac, 95-103; əl-Məvardi. Əl-Əhkam, 210-217; əl-Qəzali. Dirilmə, 198-200; T. H.Weir. Sadaka-EI, 4, 35-37.

2. Heyvanlara görə heyvanlarla alınan zəkat da S. adlanırdı, o belədir: 40-a qədər qoyun-keçiyə zəkat düşmür, 40-dan 120-dək 1 qoyun, 121-dən 200-dək 2 qoyun, 200-dən 300-dək 3, sonra hər artıq 100-ə 1 qoyun verilir; hər 30 iri buynuzludan 1 illik cöngə, hər 40-dan 2 illik cöngə verilir, dəvələr: 5-dən 9-dək 1 qoyun, 10-14-dək 2 qoyun, 15-19-dək 3 qoyun, 20-24-dək 4 qoyun, 25-35-dək 2 illik dişi dəvə, 36-45-ə-üçillik dişi dəvə, 46-60-dördillik dişi dəvə, 61-75-böyük dişi dəvə, 76-90-dək 2 ikillik dişi dəvə, 91-120-dək 2

dördillik dişi dəvə. Sonrakı hesab məzhəblərə görə edilir, ancaq ən çox hər 125 dəvəyə 2 dördillik dişi dəvə və qoyun verilir. Atlara görə bir məzhəbdə 1 ata 1 dinar alınır, o birində heç nə alınmır. Zəkat azad otlayan heyvanlara görə verilir, işlək heyvanlara görə o, verilmir. Çatışmazlığı olan heyvan S. üçün zəkat götürülmür. Sahibkar mayalıq, ayrıca kökəldilmiş heyvanı S. üçün verməyə bilər. Zəkatda məzhəblərə görə fərqlər də ola bilir.

S. və zəkat haqqındakı şiə və sünnilərin düşüncələri oxşardır, lakin hər iki zümrə Peyğəmbər (s) ailəsinin zəkatdan istifadə etməyəcəyini qəbul etdiyi halda, şiələr onların zəkatdan hissə almalarını caiz hesab edirlər.

**Ədəbiyyat:** İslam, 202; Əbu Yusuf. Əl-Xərac, 90-95; Qudəmə b. Cə′fər. Əl-Xərac, 45-50, 108-113; əl-Məvardi. Əl-Əhkam, 197-200; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 240.

**Səhih** («dəyərli», «həqiqi», «düzgün», «doğru») - müsəlman müəllifləri tərəfindən doğru sayılan hədis. S. hədislər 7 sinfə bölünürlər: 1) Əl-Buxari və Müslimdə gətirilən hədislər; 2) Ancaq əl-Buxaridə gətirilən hədislər; 3) Ancaq Müslimdə gətirilən hədislər; 4) Onların heç birində gətirilməyən, lakin hər ikisinin tələblərinə cavab verən hədislər; 5) Əl-Buxarinin tələblərinə cavab verən hədislər; 6) Müslimin tələblərinə cavab verən hədislər; 7) Başqa nüfuzların rəyinə görə düzgün hədislər.

S. adını etimad qazanmaq üçün bütün tələblərə cavab verən hədisləri özündə cəmləşdirən hədislər də daşıyırlar (ilm əl-hədis). Onların içərisində ən nüfuzluları əl-Buxarinin və onun şagirdi Müslimin Əs-Səhih adlı külliyyatlarıdır.

S. istilahı habelə ərəb tarixi-bioqrafik ənənəvi hər cür məlumatların düzlüyünü qiymətləndirmək üçün işlədilir. O, həm də müsəlman alimlərinin şəxsi keyfiyyət və biliklərini yüksək qiymətləndirmək üçün istifadə olunurdu.

**Ədəbiyyat:** İslam, 208; əl-Bağdadi. Tarix Bağdad, 73, 100-104; GAS, 1, 136; A.Guillaume. Sahih.-E I , 4, 61.

**Əs-Sələfiyyə** (sələf-əvvəlki, ata-baba) - sələfilər, islam tarixinin müxtəlif dövrlərində erkən müsəlmanların - «mömin əcdadların» həyat tərzi və imanına yönələrək, bid'ənin sonradan yarandığını söyləyən müsəlman dini nümayəndələrinin ümumi adı. Onlardan İbn Hənbəl, əş-Şafei, İbn Teymiyyə, vəhhabilər, fəraidilər, «Əl-ixvan əl-müslimun»-u göstərmək olar. Qərb ədəbiyyatında əs-S.-nin ideoloqları «ənənəçilər», «fundamentalistlər», «intibahçılar» adlandırılırdılar.

**Ədəbiyyat:** İslam, 204; Дж.Макдиси. Суннитское возрождение.- Мусульмаснкий мир, 174-188; yenə o. İbn Aqil; yenə o. The conflict of Traditionalizm and Modernizm in the Muslim Middle East. Texas, 1966.

**Əs-Səlimiyyə** - X-XI əsrlərdə Bəsrədə mövcud olan, Səhl ət-Tüstərinin ardıcılları olan ilahiyyatçı və sufilərin məktəbi. Onu ət-Tüstərinin ən yaxın silahdaşı Əbu Abdulla Məhəmməd İbn Səlim (vəf. 909) təsis etmişdi. Onun baxışları xüsusi məsələləri çıxmaq şərti ilə müəlliminínkindən ayrılmırdı. İbn Səlim sərt asketizmi-zahidliyi öyrədirdi: özünü tamamilə Allahın iradəsinə (təvəkkül) vermək, bütün sınaqlara-imtahana dözüm, nikahsızlıq və s. Əs-S. Məhəmməd İbn Səlimin oğlu Əhməd İbn Səlim vaxtı tam şəkildə təşkil olundu və nüfuz qazandı. Oraya maliki məzhəbi və Bəsrə mötəzililərinin təliminə meyl edən ilahiyyatçılar və sufilər daxil idilər. Bağdad doksoqrafları Əbdülqahir əl-Bağdadi, Əbülmüzəffər əl-İsfəra'ini, habelə sufi-hənbəli Əbdülqadir əl Cilani əs-S.-ni əl-Həllacın baxışları ilə razılaşdığına görə kəskin tənqid edib, onu «Allahı insanda canlandıranların» tərəfdarlarına (hululiyyə) aid edirdilər. Daha əvvəl isə onu məşhur sufi «İbn Səlimin təkzibi» (Ər-Rədd alə İbn Səlim) əsərini yazan Şafei İbn Xəfif mühakimə etmişdi. Əs-S.-nin nümayəndələrinin əsərləri olubsa da, qalmamışdır. Bağdad tənqidçilərinin əsərlərində əs-S.-nin aşağıdakı qaydaları tənqid edilir: 1. Qiyamət günü Allah insan qiyafəsində Məhəmməd peyğəmbər (s) kimi görünüb, yaratdığı hər canlının təsəvvüründə olduğu kimi onlara görünəcək. 2. İmansızlar ( kafirlər) gələcək həyatda Allahı görəcəklər və Allah onlardan haqq-hesab tələb edəcək. 3. Allahın və peyğəmbərlərin sirrləri var, onlar onu açsalar dünya pozular, onların açılması, yeni dünyanın başlamasına qalıb (bax: ət-Tüstəri). 4. Allah öz qullarından Özünəitaət (tə'a) tələb edir və qulaq asmamağı - asiliyi (mə'siyə) qəbul etmir, onların hər ikisi insanlar tərəfindən yaranmır, həyata keçirilir. 5. Allah hər yerdədir, odur ki, fərqi yoxdur, O, taxt-tacında və ya başqa yerdə olsun. Ümumiyyətlə, əs-S.-nin Bağdad tənqidçiləri antimötəzili və anticəhmi mövqeyində durmuşdular.

Əs-S. və onun başçısı Əhməd İbn Səlim iki əsaslı sufi traktatının müəllifləri Əbu Nasr əs-Sərrac ət-Tusi (Kitab əl-lum'ə) və Əbu Talib əl-Məkkinin (Kut əl-qulub) baxışlarına ciddi surətdə təsir etmişlər. Əl-Məkki əs-S.-nin baxışlarını Bağdadda təbliğ edirdi. Əl-Qəzali özünün «İhya ulum əd-din» əsərini yazanda Kut əl-qulubun materiallarından geniş istifadə etmişdir.

Ola bilsin ət-Tüstəri tərəfindən əsası qoyulmuş və əs-S. tərəfindən davam etdirilmiş ənənə əl-Qəzali və əl-Məkki tərəfindən Şimali Afrika əlmeri sufi məktəbinin əsərlərinə-İbn Bərracan (vəf. 1141) və İbn Arifə (vəf. 1141), onlardan da onu Kiçik Asiya, İran və Hindistanda yayan İbn Ərəbiyə (vəf. 1240) keçmişdir. L.Massinyon ehtimal edir ki, əs-S.-nin baxışlarını Əbu Mədyanın vasitəsilə Şimali Afrika şaziliyyə qardaşlığı vərəsə kimi götürmüşdür.

**Ədəbiyyat:** İslam 204-205; əs-Sərrac. Əl-Lum'ə; 390-395; əl-Bağdadi. Əl-Fərq, 246-247; Əl-Hunyə li-talibi tariq əl-haqq'əzzə və cəllə əl-kutub ər-rəbbani... Əbd əl-Qadir əl- Cilani.1.Misir, 1322 h., 106-107; I.Goldziher. Die dogmatische Partei der Salimija. ZDMG, 1907, 61, 73-80; Massignon. Essai, 294-300; C. Tunc. Sahl b. Abd Allah at-Tustari and die Salimiya. Bonn. 1970; Böwering. Mystical Vision, 92-97.

**Səlman əl-Farisi** - Səlman Pak (vəf. 656) - Peyğəmbər səhabələrindən və islam dünyasında ən tanınmış şəxslərdən biri. Onun haqqında olan rəvayətlərdən ən mükəmməli Məhəmməd ibn İshaqa məxsusdur. O, yazırdı ki, S. İsfəhan yaxınlığında Cəyy (və ya Cəyyan) kəndindən olan bir mülkədarın oğludur. Gənckən xristianlığı qəbul edib, ailəsini tərk edib Suriyaya getmiş, orada Həzrət İbrahimin dinini ehya edəcək bir peyğəmbərin gələcəyini eşidir. Onu ziyarət etmək üçün Ərəbistana gedərkən, ona bələdçilik edən bədəvi ərəbin xəyanəti ilə əsir düşür, bir yəhudiyə satılaraq Mədinəyə gətirilir. Tezliklə Məkkədən Məhəmməd Mədinəyə hicrət edir, S. İslamı qəbul edərək, pulla yəhudidən azad olur, Mədinənin məkkəlilər tərəfindən mühasirə olunduğu vaxt onun tövsiyəsi ilə müdafiə üçün şəhər ətrafında xəndəklər qazılır.

Şöhrətinin yayılmasında o, iranlı olmasına borcludur. S. İslamın iranlılar tərəfindən qəbul edilməsində böyük rol oynamışdır və onların milli qəhrəmanı olmuşdur. Peyğəmbər (s) onun ən yaxşı iranlı olduğunu söyləmiş, onu öz ailə üzvlərindən (əhl əl-beyt) elan etmişdir (İndi də çox yaxın bir adam haqqında söhbət gedəndə xalq arasında əs-S.-i minni - yəni S.-i olan məndəndir deyirlər). S. əl-Həsən və əl-Hüseyn qədər maaş alırdı. Onun məzarı qədim Mədain şəhərində onun şərəfinə S. Pak adlanan yerdə Cabir Ənsar, imam əl-Hadinin oğlu ilə bir yerdədir. Həccdən qayıdan şiələr və Kərbəla zəvvarları buranı mütləq ziyarət edirlər (Mən də oranı bir neçə dəfə ziyarət etmişəm Ə.A.). Qatı şiələr S.-ı Məhəmməd (s), Əlidən (ə) sonra üçüncü sayırlar. Nüseyrilər üçlük nəzəriyyəsində S.-ı üçüncü hesab edib, onu üçlüyün qapısı (bab) adlandırırdılar.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 242.

**Səma'** - 1. «Dinləmə», «eşitmə». Hədis elminin və ərəb müsəlman kitab mədəniyyətinin texniki istilahı, o, hədis və küll əsərlərin verilməsi üsullarından biridir. S. əməliyyatı mühəddisin hədisi əzbərdən və ya kitabdan oxuması, şagirdin dinləməsi, sonra şagirdin onu eynilə təkrar etməsi ilə bitir. Əgər mühəddis onu qəbul edirsə, şagirdə onu başqalarına ötürməyə icazə verilir. Yəni hədisin öyrənilməsi də belə təkrar edilir. Şagird qeydlər də edə bilər. S. ötürmənin yaxşı yolu sayıldığı üçün ədəbiyyatda ona çox istinad edilir.

**Ədəbiyyat:** İslam, 205-206; GAS. 1, 53-60; Abbot. Studies, 33-64.

Səmā′ - 2. «Dinləmə», «oxuma», «müqəddəs dinləmə». Sufilikdə-sufi şeirləri oxuyaraq, kollektiv həqqaya getmə. S. sufilərin təcrübəsinə XI əsrdən əvvəl sufi məclislərində ritmli şeir oxumaq kimi daxil oldu, sonradan mahnıya rəqslər və kiçik hoppanmalar da əlavə oldu. Bir çox mömin ilahiyyatçılar tərəfindən S. pis-bid'ə kimi qarşılandı (İbn əl-Cözi). S.-ya həsr olunan bütün ədəbiyyat onun sufiliyin dini-sufi ayinlərinə daxil olmasının düz və ya səhv olduğunu müzakirə edirdi.

Bu məsələyə görə sufilərin özlərində də birlik yox idi: S.-dan istifadə edən rifaiyyyə, mövləviyyə, bədəviyyə, çiştiyyə, kubraviyyə, söhrəverdiyyə, sə′diyyə, qadiriyyə və onu rədd edən nəqşbəndiyyyə, bektaşiyyə, xəlvətiyyə arasında daim mübahisələr gedirdi. S.-nı əl-Hücviri, Əhməd əl-Qəzali kimi nüfuzlar müdafiə edirdilər. S.-da təkcə sufilər deyil, yerli camaat da iştirak edirdi, musiqiçiləri dəvət edirdilər. Beləliklə, XVII-XVIII əsrlərdə S. öz ruhani mənasını itirib, teatr kimi bir şeyə çevrildi (mövləviyyə, əş-şaziliyyə). Sadə adamlara görə S. qardaşlığın banisi-hamisi üçün Allahın göndərdiyi bərəkət idi.

**Ədəbiyyat:** İslam, 206; əl-Hücviri. Kəşf, 508-546; yenə o. Kashf, 393-420; əl-Qəzali. Dirilmə, 97-131; Бертельс. Суфизм, 43-48, 57-58; D.B.Macdonald. Emational religion in İslam as affected by music and singing.-JRAS. 1901, 195-252, 1902, 1-28; J.Robson. Tracts on listening to music. L, 1938.

**Əs-Sənaviyyə** - dualistlər. İslamda varlığın iki ali başlanğıcını-işıq və qaranlıq, Allah və Şeytan və s. tanıyan qeyri müsəlmanların – (zərdüştilər, maniheylər, məzdəkilər, qeysanilər) təliminin nümayəndələrini belə xarakterizə edirdilər. İslam daxilində bir-birilərini əs-S. adlandıran qruplar az deyil: mötəzililər sifatiləri, cəbrilər mötəzililəri və s., fələsifə (filosoflar), ismaililər, xüsusən də qərmətlər əs-S. olmaqda günahlandırılırdılar.

**Ədəbiyyat:** İslam, 206.

**Səy- əs-Səfa və əl-Mərva** təpələri arasında qaçış (sürətli yeriş) - ümrə və həccin ayinlərindən biri. S. təvafdan sonra yerinə yetirilir. O, İbrahim peyğəmbərin (ə) arvadı Hacərin öz oğlu İsmailə su tapmaq üçün təpələrin arasında qaçıb, əzab çəkməsindən qalma ayindir. Hacər təpələrin arasında su axtarmaq üçün yeddi dəfə - 4 dəfə əs-Səfadan əl-Mərvaya, 3 dəfə əl-Mərvadan əs-Səfaya qaçmışdır, bu da həcc ayininə çevrilib.

Həcc zəvvarı Kəbəni təvafı qurtarıb, əl-Kəbə meydanından sol ayağını əs-Səfa təpəsi üzərinə qoyub üzünü əl-Kəbəyə çevirir və Allaha onu bədbəxtliklərdən qorumağı xahiş edir, sonra əl-Mərvaya qaçır, onun üstünə çıxır, üzünü əl-Kəbəyə çevirib Allaha yalvarır və düşüb əs-Səfaya qaçır.

Zəvvar «kiçik həcci» (ümrəni) qurtarıb S. edir, sonra başqa ayinləri yerinə yetirir və ehramdan çıxır. Zəvvar hər iki (kiçik, böyük) həcci etməlidirsə, o, ehramda qalır.

S. ziyarətin mühüm ayini (rukn əl-həcc) sayılır. Lakin S.-i yerinə yetirməmək ziyarəti batil eləmir, bunun üçün əvəz qurbanı kəsmək lazımdır.

**Ədəbiyyat:** İslam, 203; əl-Qəzali. İhya, 1, 226; Gaudefroy-Demombynes. Pelerinage, 225-234; A.Məmmədov. Ziyarət, 15-16.

**Əs-Sifət** (sifət: «keyfiyyət», «xassə», «xasiyyət» ilahi atributları ifadə etmək üçün mötəzililər tərəfindən ilk dəfə işlənmiş istilah. Kəlamın ilk inkişaf mərhələlərində əs-S.-in ekvivalenti kimi mə'ani («mənalar», «ideyalar») istilahı işlənirdi. Bəzi mütəkəllimlər (mötəzili Əbu Şəhim əl-Cübbai, əş'ərilər əl-Baqillani, əl-Cüveyni və Fəxrəddin ər-Razi) əs-S. istilahı əvəzinə «əhval» («hallar» «növlər») istilahını işlədirdilər, buna görə də onları əshab əl-əhval (hallar, konsepsiyası tərəfdarları) adlandırırdılar.

Allahda müsbət əs-S.-lərin olduğunu qəbul etmək isbat («təsdiq») adını almışdı, onun tərəfdarları isə əs-sifətiyyə (sifətilər) adlanırlar; bunun inkar edilməsi isə ehkamçı-ənənəçilər tərəfindən tə'til (d.d., Allahın atributlarının yoxluğu, onun tərəfdarları isə əl-mü'əttilə) adlanırdı. Onlara fələsifəni, xüsusilə İbn Sina və onun ardıcıllarını aid edirdilər, onların təliminə görə Allaha ancaq Onunla əlaqəsi olan atributlar (S.əl-idafə) yazmaq olar, məs: «ilk səbəb» (bu atribut Allahın yaratdıqları münasibəti nəzərdə tutur və mənfi atributlar (əs-S. əs-səlbiyyəyə) məs: «əbədi» atributları yazmaq olar, bu atribut Allahın mövcudluğunun başlanğıcını inkar edir. Mötəzililəri əs-S.-i xasiyyət kimi qəbul etmək reallığını inkar etdiklərinə görə də tənqid edirdilər.

Əs-S. müxtəlif atributlara bölünürdü: əz-zət-əz-zətiyyə, əl-fil-əl-filıyyə, nəfsiyyə, vəsfiyyə, mənəviyyə, xəbəriyyə, əl-Cənnət, əl-cəlal, əl-kamal, əl-əsmə əl-ilahiyyə, sifətiyyə və s.

Əş'ərilər əs-S.-i Allahın özü və mənəviyyatı ilə eyni saymırdılar və ondan ayrı da saymırdılar. İbn əl-Ərəbi ilahi adlarına Allahın aspektləri kimi baxırdı. Sufilər və əl-Məturidi əs-S.-in bütün növlərinin əbədi olduğunu söyləyirdilər, əş'ərilər isə onun ancaq ən mühüm atributlarını qəbul edirdilər.

**Ədəbiyyat:** İslam, 210; Wolfson. The philosophy.

**Əs-Sifətiyyə** - sifətilər. «Allah atributlarını» (sifət Allah və ya əs-sifət) qəbul edənlərin ümumi adı. Əs-S. istilahını bu mənada ilk dəfə mövcud olan nu'ut əvəzinə istifadə etmişlər. Xristianlıqda olduğu kimi erkən İslamda da «ilahi keyfiyyətlərə» görə fikir ayrılığı ixtilafları yarandı. İlahi mahiyyət və atributlar haqqındakı məsələdə mötəzililər Allahın vahidliyi ideyasından çı-

xış edərək, müstəqil «ilahi atributları» inkar edir və onlara Onun mahiyyətinin təzahürü kimi baxırdılar. Erkən müsəlmanlar Allahda əbədi keyfiyyətlərin-bilik, istək, əzəmət və s. olduğunu qəbul edirdilər. Allah haqqında mübahisələrin yaranması ilə əlaqədar olaraq, «ilahi keyfiyyətlərin» mövcudluğunu sözlə bəyan etmək yolu ilə müdafiə edən ilk təlim tərəfdarlarını əs-S. adlandırmağa başladılar. Onlardan bəziləri «ilahi keyfiyyətləri» məxluqatın keyfiyyəti ilə bərabər saydıqlarına görə müşəbbihilər (antropomorfistlər) adlandırılırdılar. Başqaları «ilahi keyfiyyətləri» ideyalar - maddi olmayan reallıq kimi başa düşürdü. Orta əsr müsəlman doksoqrafları həm sünni, həm də şiə alimlərini antropomorfistlərə də aid edirdilər. Erkən şiə antropomorfist məktəblərindən biri Zürari b. Ə'yənənin (vəf. 767) davamçıları-zürarilər idilər. Əl-Bağdadiyə görə (vəf. 1037) zürarilərin ardınca Bəsrə mötəzililəri - qədərilər zaman daxilində yaranan «Allah kəlamını» qəbul etdilər. Əş-Şəhrəstani (vəf. 1153) əş'ərilər, müşəbbihilər və kərramiləri əs-S.-yə aid edirdi. Əş'ərilər «ilahi atributlar» haqqında öz təlimlərini yaratdılar. Onlar keçmiş ilahiyyatçıların düşüncəsindəki kobud antropomorfizmin, habelə, «ilahi atributların» müstəqil mövcudluğunun mümkün olmadığı haqqında mötəzili təlimini inkar etdilər, hər iki tərəfi yanlış adlandırdılar. Onlar mahiyyətdən ayrılmayan və onsuz mövcud olmayan «maddi» keyfiyyətləri qəbul edirdilər.

**Ədəbiyyat:** İslam, 210-211; əl-Bağdadi. Əl-Fərq, 70-230; аш-Шахрастани. Книга о религиях, 88-108; Жузе. Мутазилиты, 128-163.

**Silsilə** («zəncir», «sıra») – «ruhani varisliyin şəcərəsi», sufi Yolunun (təriqə) xüsusi sisteminin rühani ötürücülərinin ayrılmaz geneoloji silsiləsi. Onların spesifik təlim üslubu fiziki və sufi təmrinlərinin qaydaları ilə yerinə yetirilirdi.

S. sufi qardaşlığının mistik isnadıdır, orada onun bütün əvvəlki rəhbərləri- şeyxlər geneoloji zəncirdə ara həlqələr idilər (əhl əl-silsilə) və qardaşlığın banisinin ruhani varisi və onlar tərəfindən yaradılmış ezoterik sistemin əvəzedicisidir, bu sistemin nəticədə Məhəmmədə (s) gedib çıxdığı hesab edilir. S. institutunun əsası «mürəbbi-şagird» (piri-mürid) möhkəm əlaqəsində qoyulmuş və sufi qardaşlığının mütəşəkkil strukturunun inkişafı (XII əsrin sonu-XIII əsrin ortaları) ilə əlaqədə bərkimişdir. S. institutuna şübhəsiz təsiri hədislərdəki isnad sistemi göstərmişdir.

Bir neçə qolu olan qardaşlıqda qolların yaşayan başçısı öz S.-sini (qolun yaradıcısı vasitəsilə) qardaşlığın banisinə aparıb çıxarır və bu S. bərəkət S.-si adlanır. Qardaşlığın banisi isə özünün xüsusi S.-sini məşhur sufilər əl-Cüneyd əl-Bağdadi və ya Bəyazid əl-Bistami vasitəsilə Peyğəmbərin (s) ən yaxın əhatəsi Əli ibn Əbu Talibə (ə) aparıb çıxarır, sufi ənənəsinə görə Məhəmmədə (s) yuxarıdan bəxş olunan müqəddəs bilik ona (Əliyə) keçmişdi. Bu S. S.-t əl-vird («həsrolunma S.-si») adlanır. Nəqşbəndiyyədə

zəncirin I hissəsi (onun banisinə qədər) S.-t ət-tərbiyə (tərbiyə zənciri), II zəncir isə (Məhəmmədə (s) qədər) S.-t əz-zəhəb («qızıl zəncir»), onun aralıqları isə-şuyux ət-tərbiyə («tərbiyə mürəbbiləri») adlanır.

S.-nin qardaşlıqlarda xüsusi əhəmiyyəti var idi.

**Ədəbiyyat:** İslam, 208-209; Trimingham. Orders, App. A., İndexs; Hodgson. Venture, 2, 214-216; Schimmel. Dimenisions, 27, 234.

**Siqə** (S.-t aqd əl-Quran-Quran əqdi S.-sinin qısa forması- «rəsmiyyət»).

1. Toy təntənəsi (urs, valimə) vaxtı nikah bağlanması rəsmiyyəti mərasimi, o, Quran oxunması, gəlin və bəy tərəflərinin sövdələşməsi, nikahın bağlanması üçün şərtlərin elan olunmasından ibarətdir. S. birbaşa razılıqdan (xitbə) sonra və nigahın bağlamasından əvvəl ola bilər.

2. Müvəqqəti nikah, bəzən çox qısa müddətə bağlanan mut′a kimi, o müddətdə kişi qadını təmin edir, müddət qurtarandan sonra isə ona hədiyyə verir. Belə nikah əksər müsəlman hüquqşünasları tərəfindən pislənir.

3. Yad qadının başqa evdə bir neçə müddət qalması zəruri olduqda (xəstəyə baxmaq, dərs demək, oxumaq və s.) bağlanan müvəqqəti nikah.

**Ədəbiyyat:** İslam, 208; Петрушевский. Ислам, 272; Лэйн. Нравы, 157, 165; W. Heffening. Mut′a.-Sh EI, 418-420.

**Sionizm** - XIX əsrin sonunda Qərb ölkələrində yəhudi burjaziyası arasında yaranmış (sion sözünün mənası Allaha «sədaqətin» rəmzi olmasına baxmayaraq) ərəblərə qarşı qəddar mövqe tutan millətçi cərəyan.

**Ədəbiyyat:** Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 243.

**Sirə** (cəmi siyər, «yol», «həyat tərzi») - erkən müsəlman tarixşünaslığının xüsusi janrı, İslamın banisi Məhəmmədin (s) tərcümeyi-halı. Bu söz ilk dəfə «Peyğəmbərin (s) tərcümeyi-halı» mənasında işlənib. Bu, İbn Hişamın (vəf. 834) redaktəsilə çıxan İbn İshaqın (704-767) Məhəmmədə (s) həsr etdiyi əsəridir (Həzə kitab «Sirət rəsul Allah» - bu kitab «Allah elçisinin tərcümeyi-halı»dır). Məhəmmədin (s) S.-si öz əsas xətləri üzərində VIII əsrin əvvəlində sabitləşdi və o, tarixi hadisələrin yığımından-cəmindən ibarətdir.

«Peyğəmbərin tərcümeyi-halı»-»Məğazi rəsul Allah» janrı çərçivəsində yazılan ilk əsər «Allahın elçisinin hərbi yürüşləri»dir. Belə adla olan əsərlər hədislərin biliciləri əş-Şə′bi (vəf. 721), Vəhb b.Münəbbih (vəf. 728), əz-Zuhri (vəf. 742), Musa b.Uqbə (vəf. 758) tərəfindən yaradılmışdır. Məzmunu Məhəmmədin (s) şəxsiyyəti ilə məhdudlaşan Məğazi ilə müqayisədə S. dini janrda irəliyə bir addım idi. Peyğəmbərin (s) həyat və yaradıcılığı ərəblərin «Ümumi tarixi» adlanan kontekstə daxil edilmişdir. «Sirə Məhəmmədin» (s) ilk yaradıcısı İbn İshaqın konsepsiyasına görə o,

(S.) İslam yəhudi-xristian müqəddəs tarixini davam etdirir və başa çatdırır. Onlar tərəfindən yaranan S. təkcə müsəlman Peyğəmbərinin (s) tarixi deyil, bütün peyğəmbərlik haqqında, d.d., axırıncısı Məhəmməd (s) olan peyğəmbərlərin hamısı haqqındadır. İbn İshaqın əsəri üç hissədən ibarətdir: əl-Mübtəda-yaranandan bəri qədim peyğəmbərlərin tarixi; əl-Məb′əs-xüsusən Məhəmməd peyğəmbərin (s) hicrətin I ilinədək tərcümeyi-halı; əl-Məğazi-Məhəmmədin (s) fütuhat yürüşləri, burada hekayə onun vəfatınadək davam edir.

S. əl-Vaqidi (747-828) ilə birlikdə S. İbn İshaq bu janrın bütün sonrakı işlərinin əsas mənbəyi oldu və onun inkişafına həlledici təsir etdi.

S. adı altında ərəb ədəbiyyatında başqa şəxslərin də, müsəlman hökmdarların və görkəmli alimlərin tərcümeyi-halları vardı. Məsələn, S.-t Əhməd b.Tulun əl-Bəlavi (X əsr), S.-t Əhməd b.Hənbəl Saleh b.Əhməd b.Hənbəl (818-878). Bəzən S. cəm şəklində yazılır, məs: Siyər əl-Övza′i əş-Şafei (vəf. 820).

S. adı həm də əfsanəvi və tarixi şəxsiyyətlər haqqında ərəb xalq romanlarına verilir-S.-t Əntər, S.-t Bibərs və s.

**Ədəbiyyat:** İslam, 209; Гибб. Историография, 123, 128; G.Levi Della Vida. Sira.-EI, 4, 472-476.

**Sırat** (ərəbləşmiş lat.strafa «yol» sözündəndir) - Quranda bu söz qırx dəfədən çox «düz, (düzgün) yol» (əs-sırat əl-müstəqim) mənasında işlənib, bax (2:142/136, 6:126, 7:16/15 və s.). İmami şiələr Quran S.-ını Əli (ə) ailəsinə «sadiqlik», «vəfalılıq» (əl-valə) kimi şərh edirlər: Allaha yol Əli ailəsini qəbul edib, onların dalınca getməkdən keçir. Müsəlman esxatologiyasında S. başqa məna kəsb edir- möminləri sınamağa xidmət edən (tükdən nazik qılıncdan iti) körpü. Sünnilərin Cənnət və Cəhənnəm haqqındakı rəyinə görə möminlər bu körpünü ildırım sürəti ilə keçirlər, günahkarlar isə oradan Cəhənnəmə düşürlər («ağzıaçıq Cəhənnəm bataqlığı»). İmami şiələr hesab edirlər ki, Qiyamət günü körpü üzərində Məhəmməd (s) sağ, Əli (ə) sol tərəfdə olacaqlar, (Allah onlara deyəcək: «İkiniz də kafirləri, inadlıları Cəhənnəmə tökün»-Q.50:14/23), Cənnətə ancaq Cənnət və Cəhənnəmin «bölüşdürücüsü» (qasim) Əlidən (ə) fərman alanlar gedəcəklər. Möminləri sınaqdan keçirmək üçün körpü ideyası görünür, müsəlmanlar tərəfindən zərdüştilərin esxatoloji baxışlarından götürülmüşdür. Orada xeyir Allahı Vay möminləri müdafiə edərək ölülərin ruhunu Çinvat körpüsü ilə onlara ayrılmış yerə aparır.

**Ədəbiyyat:** İslam, 209-210; əl-Əs’əri. Məqalat, 472; əl-Müfid. Şərh, 49-51.

**Əs-Söhrəverdi**, Şihabəddin Yəhya əl-Məqtul (təx. 1155-1191) – fars sufi-filosofu, «şərq parıltısı» haqqında təlimin banisi (buradan da onun əl-işraq – «Şeyxü-l-işraq» fəxri titulu yaranıb). Cənubi Azərbaycanın şimal-qərbində yerləşən Söhrəverdi şəhərində doğulmuşdur. Fəlsəfə və fiqhi Marağada şeyx Məcdəddin əl-Cilinin yanında öyrənmişdir. Onun məktəb yoldaşı məşhur ilahiyyatçı və filosof Fəxrəddin ər-Razi (vəf. 1209) olmuşdur. Bir neçə müddət əs-S. İsfəhanda yaşamış, orada İbn Sina və onun ardıcıllarının yaradıcılıq irsi ilə yaxından tanış olmuşdur. Burada o, dostların xahişi ilə fars dilində özünün ilk traktatı Bustan əl-qulub əsərini yazır. Sonra əs-S. çox səyahət edir, öz dövrünün görkəmli ilahiyyatçıları və sufiləri ilə görüşür. Hələbdə o, Səlahəddinin oğlu, Əyyubi hökmdarı əl-Malik əz-Zahirin yaxın dostu olur. Bu dostluq yerli fəqihlərin paxıllığına səbəb olur, onlar əs-S.-ni azad fikirlilikdə, şiəliyin təbliğində və «başqa azmalarda» mühakimə edir. Salahəddin oğluna sevimli dostunu edam etməyi əmr edir. Atası ilə uzun mübahisə və əngəllərdən sonra əz-Zahir əmri yerinə yetirməyə məcbur olur: əs-S.-ni Hələb qalasında ya boğdular, ya da ucu şiş alətlə öldürdülər. Başqa rəvayətə görə o, xörək yeməkdən imtina edib, aclıqdan öldü. Əs-S.-nin düşmənləri bundan sonra onu «öldürülmüş» (əl-məqtul) adlandırdılar və bu ləqəb onun adı üzərində möhkəmləndi. Əs-S.-nin ardıcılları onu «din uğrunda əzabkeş» (əş-şəhid) adlandırmağı üstün tuturdular.

Ə.S.-nin təlimində (bax: əl-işraq) Zərdüştiliyin qaydalarının güclü təsiri hiss olunur. Əs-S. onun rəmzi və anqelologiyasını geniş surətdə işlədirdi.

Əs-S.-nin rəyinə görə əl-Bistami (vəf. 874), əl-Həllac (922-də qətl edilib) və əl-Xəraqani (vəf. 1033-34) mistik ekstaz təbliğçisi – sufilərdir.

Əs-S. istəyirdi ki, onun təlimində «qərb» və «şərq» «müdrikliyi» birləşsin. İbn Sina və rasional dərketmənin tərəfdarlarının başqa nümayəndələri ilə mübahisə aparan əs-S. mistik hissetmənin üstün olduğunu iddia edirdi.

Bir sıra müsəlman və Avropa alimlərinin rəylərinin əksinə olaraq əs-S. İslamın düşməni deyildi. Onun 20-yə yaxın ərəb və fars dillərində əsəri var. Onun təliminin əsas qaydaları Ət-Təlvihat, Əl-Müqavəmat, Əl-Məşəri′ va-l-mütərahat, Qıssət əl-qürbə əl-ğərbiyyə və s. traktatlarında verilmişdir. Onun «proqramlaşdırılmış» əsəri «Kitab hikmət əl-işraq» XVIII əsrə qədər çox diqqətlə öyrənilib və şərh edilib. Onların ən məşhurları əş-Şəhrəzurinin (XIII əsrin sonu XIV əsrin əvvəli), Qütbəddin əş-Şirazinin (vəf. 1311) və Molla Sədranın (vəf. 1640) şərhləridir. A.Horbenə görə əs-S.-nin ardıcılları (işraqiyyun) İranın ilahiyyat dairələrində indi də var.

**Ədəbiyyat:** İslam, 215; bax, əl-işraq məqaləsi haq. ədəbiyyata.

**Əs-Söhrəverdiyyə** – XII əsrin sonu-XIII əsrin əvvəlində İraqda Mesopotomiya ərəb sufi məktəbi çərçivəsində yaranan sufi qardaşlığı, lakin

onun yaradıcılarının böyük hissəsi ərəb deyildi. Ənənəyə görə əs-S. müsəlman sufiliyində olan 12 ana qardaşlığından biridir, bu sünniliyin şafei məzhəbindən olub, öz ruhani şəcərəsini Ziyaəddin Əbu-n-Nəcib əs-Söhrəverdidən (1097-1168) Əhməd əl-Qəzali (vəf. 1126) və əl-Cüneyd əl-Bağdadi (vəf. 910) yolu ilə Əli ibn Əbu Talibə aparıb çıxarır. Əs-S. şəhər qardaşlığı olub öz üzvlərini sənətkar-tacir əhalisi arasından və savadlı feodal cəmiyyəti təbəqəsindən cəlb edirdi. Əs-S.-nin müstəqil mistik fəlsəfə və ruhani-dini təcrübə (təriqə) kimi banisi Şihabəddin Əbu Hafs Ömər əs-Söhrəverdi (1145-1234-35) olmuşdur. Bu məsələdə ona Əhməd əl-Qəzalinin şagirdi - möizəçi, müdərris, Bağdaddakı Nizamiyyə mədrəsəsinin müdiri - Söhərverdinin əmisi Əbunnəcib əs-Söhrəverdi təsir etmişdi; Əbu Hafs əvvəllər onun Dəclə çayı sahilindəki ribatında oxumuşdu, o, öz silsiləsini 13-cü nəsildə Əbubəkrə aparıb çıxarır. Mülayim görüşlü sünni möizəçisi və sufi tərbiyəçisi olan əs-Söhrəverdi sufiliyin nəzəriyyəçisi deyildi, o, görkəmli müəllim və tərbiyəçi (şeyx ət-təlim və-t-tərbiyə) idi. Şagirdlər hər tərəfdən onun yanına Bağdada, onun mühazirə oxuduğu, xəlifə ən-Nasirin (1180-1225) onun üçün tikdirdiyi Mirzəbaniyyə ribatına gəlirdilər. Onların içərisində məşhur fars şairi Sədi Şirazi (vəf. 1292) də var idi. Əbu Hafs şafeiliyə aid bir sıra kitab və nəsihətnamə yazmışdır, o cümlədən sonrakı bütün sufi nəsilləri üçün əxlaq və təcrübə məsələlərinə aid normativ əsər olan «Avarif əl-məarif» əsərini. O, fəal həyat tərzi keçirir, uzun müddət oruc tutmaqdan və zahidlikdən imtina edirdi və ali hakiimiyyət orqanları ilə daimi əlaqə saxlayırdı. O, bir neçə dəfə xəlifə ən-Nasirin tapşırığını yerinə yetirmək üçün diplomatik səfərlə Konyadakı Səlcuq sultanı Key Qubadın (1219-1236), Qahirəyə Əyyubi əl-Məlik əl-Adilin (1200-1218) və Buxaraya Xarəzmşah Məhəmmədin (1200-1220) yanına getmişdi. Ən-Nasir ona Bağdadın bütün sufilərinin rəsmi rəhbəri-şeyx əş-şuyux rütbəsini də vermişdi. Əbu Hafs istər yüksək, istərsə aşağıdan (yavaşdan) deyilən zikri qəbul etsə də, həqqaya getməyə qarşı çıxırdı ki, o, şəriətə sığışmır.

Hindistan istisna olmaqla, əs-S.-nin özünün nüfuzu və çoxsaylı adrıcıllarına baxmayaraq, qardaşlıq heç yerdə təşkilat kimi qeyd oluna bilməmişdi. O, ancaq çoxlu qollar, qruplar, icmalar və sufizmin bəzi görkəmli xadimlərinin «qeydolunma məntəqəsi» kimi qaldı.

Əs-S. qardaşlığı XIII əsrin I yarısında Hindistanda (Sind, Pəncab, Moltan, Hücərat) geniş yayıldı və tezliklə (çiştiyyə ilə yanaşı) Şihabəddin əs-Söhrəverdinin bir sıra şagirdlərinin fəaliyyəti sayəsində ən nüfuzlu qardaşlıqlardan biri oldu. Qardaşlığın belə nüfuz qazanmasında əsas rolu sultan İltutmuşun hökmranlığı vaxtı (1211-1236) Dehlinin şeyxülislamı şeyx Nurəddin Mübarək Qəznəvi (Dehlidə 1235 vəf. ed.), həqqaya getmənin həris yayımçısı qazi Həmidəddin Nahori (vəf. 1274) və şeyx

Bəhaəddin Zəkəriyyə (1182-1262) oynamışdılar. Bəhaəddinin nəvəsi Rüknəddin Fəzlullah vaxtı (vəf. 1335) Hindistan əs-S.-si Dehli sultanlığında özünün ən yüksək pilləsinə qalxmışdı. Ümumiyyətlə əs-S. öz ənənəsini davam etdirib, hökmdarlarla yaxın əlaqədə idilər.

Əvvəllər Hindistanda əs-S. gəlmə müsəlman azlığı ilə həmrəylikdə mühüm rol oynadı. Sonralar onlar bütün ölkəyə yüzlərlə qruplar şəklində yayılaraq, yerli əhalinin dini hisslərinə yaxınlaşaraq missioner işlərini görürdülər. Eyni zamanda əs-S. yerlilərin də dini təsirlərinə məruz qalıb, yoq təlimindən zahidliyi, nikahsızlığı və ətyeməzliyi qəbul edirdilər. XVII əsrdə bu qruplar bi-şər′ - şəriəti gözləməyən adı aldılar. Əs-S.-nin ən mühüm qolları bəhaiyyə, pir-cəmaliyyə, məxdumiyyə, şəttariyyə, işkiyyə, miranşahiyyə, qövsiyyə, cəlaliyyə, dövlətşahiyyədir. Əs-S. dünyagörüşü aspektində əsasən Əbu Həmid əl-Qəzali, əmi, qardaşoğlu əs-Söhrəverdilər və İbn Ərəbi təlimlərinin doktrinasını əsas tuturdular.

**Ədəbiyyat:** İslam, 215-216; Awarif əl-məarif, 3-17; Djami. Nafahat, 478-479; 544-545; Dara Şekuh. Səfinat, 113 b-124.; Cəlalabadi. Tariq, 372-378; Xəzinat, 2, 2-118; Əhməd. Sufi and Sultan, 142-144, 145, 147, 150; Rizvi. Muslim revivalist. 22-28; Brown. Darviches, 158-161; Trimingham. Orders, Index, App. B; Schimmel. Dimensions, 244-246, 351-354.

**Sultan** («hökmranlıq», əzəmət) – dünyəvi müstəqil hökmdarın titulu (adı). Quranda S. sözü ilk mənasında («hökmranlıq», «əzəmət») işlədilir (14:10/11-12, 11/13) 15:42 və s.); hədislərdə (xüsusilə «S. – Allahın yer üzündə kölgəsidir» ifadəsində), hekayə tipli mənbələrdə (X əsrin sonunadək) – «siyasi hakimiyyət», o cümlədən xəlifənin hakimiyyəti mənasındadır. Bununla yanaşı X əsrdə «əlahəzrət sultan» işlədilmişdir. Səlcuqilər vaxtı «sultan» titulu daha yüksək hesab edilir, İran şahənşahı kimi qəbul edilirdi.

XI əsr fəqihləri (məs., əl-Məvardi) S. istilahı altında dövlət hakimiyyətini başa düşürdülər, yarım əsrdən sonra əl-Qəzali bu istilah altında ruhani başçı, imam (xəlifəyə) əks olaraq, ancaq dünyəvi hakimi nəzərdə tuturdu.

Hesab edilirdi ki, S. yüksək titulunu ancaq xəlifə verə bilər, lakin onu tez-tez kiçik hakimlər də daşıyırdılar. Böyük sufi şeyxlərini də sultan adlandırmağa başladılar.

XVI əsrdən osmanlılar bütün qərb müsəlman aləmini öz hakimiyyətləri altına birləşdirəndən sonra Avropa, Asiya və Afrikanın əhəmiyyətli hissəsi üçün S. titulu onlarla bağlı idi. Sünnilər üçün onlar icma başçıları kimi həm də siyasi hakimlər, ruhani rəhbərlər idilər ki, bu da XVIII əsrdə son Abbasilərin xilafəti onlara verməsi haqqında rəvayətin yaranmasına gətirib çıxartdı.

Səlcuqlardan sonra İranda S. titulu İran «şahı» tərəfindən sıxışdırıldı, onu ancaq bəzi kiçik asılı hakimlər daşıyırdılar. İstisna olan onun son Qacar I Əhməd tərəfindən (1909) qəbul edilməsi idi.

**Ədəbiyyat:** İslam, 213; Бартольд. Əsər. 6, 17-78; А.С.Тверитинова. Фальсификационная версия о турецком халифате. – Изв. ИООН АН Тадж. ССР, 1954, 5, 167-180; H.Busse. Chalif und Grobkönig: Die Buiden in İraq (945-1055). Beirut, 1969.

**Əs-Surə** («sıra», «dərəcə») – Quranın 114 yerə bölünən hər bir hissəsinin adı – surə. Quranın mətnində S. «birincidərəcəli», «ən mühüm» mənasını verir. Əl-Quran, əl-hədis, ayə, əl-Kitab və s. ilə yanaşı S. Məhəmmədin (s) aldığı ayrıca, adətən qısa «İlahi kəşfləri» bildirir (məs: Q. 10:37/38-38/39; 52:33-34; 13:38-39). Nəticədə S. texniki məna kəsb edib, «Quran mətninin hissəsi», Quran «fəsili» mənasını verir.

Fatihə və Yusuf surələri istisna olmaqla S.-lər tam vəhdət təşkil etmir, ayrı-ayrı «kəşflərdən» və onların hissələrindən ibarətdir ki, onları Məhəmməd (s) ömrünün müxtəlif vaxtlarında qəbul edib demişdir. Hər S.-nin bir və ya iki adı vardır, onlar Məhəmməd peyğəmbərin (s) yaşadığı vaxt istifadə olunmuşdur. S.-nin adı yaxşı yadda qalan söz, ifadə, epizod, əsas qəhrəman və ya hekayə, hərdən isə surənin ilk sözünə görə verilirdi.

Bəzi S.-lər (xüsusilə, Fatihə, əl-Baqarə, əl-İxlas) müsəlman ayinində mühüm rol oynayırdı. Bəzi S.-lərin yığımı-toplumu (onların sayı əsasən 7 olur) müqəddəs qüvvə kimi istifadə olunur. 1, 16, 92, 96, 112, 113, 114-cü surələr sehr gücü olan S.-lər kimi istifadə olunur.

**Ədəbiyyat:** İslam, 214; Лэйн. Нравы, 217-222; Резван. Исследования, 219-222; Jeffery. Vocabulary, 180-182; Bell-Watt. Introduction. Index; A.T. Welch. Al-Kur`an. 1. – EI, NE, 5, 400-402.

**Əs-Süfriyyə** – süfrilər, üç əsas xarici icmalarından biri, Bəsrədə (İraq) VII əsrin II yarısında yaranmışdır. Bu icmanın banisi Zeyd b. Əsfər sayılır, icma, adını onun atasının adından götürmüşdür (süfr əsfərin cəmidir). Yəzid b. Müaviyənin hakimiyyəti vaxtı (680-683) Bəsrə ətrafında əs-S. Əbu Bilal Mirdasın başçılığı altında üsyan qaldırdılar. 681-ci ildə Mirdasın qətlindən və Bəsrədə onun tərəfdarları qırılandan sonra S.-nin ruhani başçısı və rəhbəri Saleh b. Müsərrih oldu, o, Əməviləri devirməyə və varlıların hakimiyyətindən qisas almağa çağırırdı. 695-ci ildə Dəclə çayının yuxarı tərəflərində əs-S. üsyan qaldırdılar. Salehin aldığı yaradan 896-cı ildə vəfatından sonra S.-nin başçısı Şəbib b. Yəzid oldu. S. Orta İraqda yayıldı, onlar əl-Mədaini tutdular və orada möhkəmləndilər. İki döyüşdə çoxlu itkilər verən Şəbib Kermana çəkilib, əzraqilərlə birləşmək istədi. Çayı keçərkən Şəbib boğuldu, onun həlakından sonra S. tez bir vaxtda məhv edildi (697).

Əs-S. icmasının yaranması xaricilər arasında dini-siyasi ixtilaflarla bağlıdır. Xaricilər kimin «imansız» olduğu və onlara necə münasibət bəsləmək barədə ixtilafa gəldilər. S. əzraqilər kimi üsyanlarda iştirak etmədiklərinə görə öz dinindən olanları imansız adlandırmır, əsir arvad və uşaqları öldürmürdülər. S.-nin xaricilərin başqa icmaları kimi öz dini nüfuzları var idi. Əbu Bilal Mirdasın həlakından sonra onlar Əli ibn Əbu Talibin qəddar düşməni, məşhur şair-sufi, S. təliminin dini-siyasi təbliğçisi İmran b. Hittanı (703) öz imamları kimi tanıdılar.

**Ədəbiyyat:** İslam, 214-215; əl-Əş'əri. Məqalat, 101; əl-Bağdadi. Əl-Fərq, 90-93; аш-Шахрастани. Книга о религиях, 124-125.

**<u>Süleyman</u> -** Quran surəti, qədim mömin və müdrik çar, Bibliya Solomonu, Davudun oğlu, İsrailin üçüncü çarı. Qurana görə S. atası ilə təbəələrinin mübahisələrini həll edərkən, atasını üstələyir, sonra onun taxt-tacına varis olur. S. müdrik idi, Allah Təala gizli şeyləri - hevanlar və quşların dilini bilmək bacarığını ona vermişdi. O, Allahdan aldığı sehr elmini də bilirdi. S. Allahın itaətkar və mömin bəndəsi idi və müasirləri kimi Babilistanda pozğun mələklər Harut və Marutun yanında cadu elmini axtarmırdı. Allah Təala külələri S.-na tabe edib, cin və şeytanları ona xidmət etməyə məcbur etdi. Onlar S. üçün dənizin dibindən sərvət çıxarıb gətirir, onun üçün iqamətgah tikirlər və s. S.-ı Bibliyanın bir neçə kitabının müəllifi hesab edirlər.

Bir dəfə yaxşı atlara baxıb, mömin işlərdən və namazdan geri qalır, lakin günahını başa düşüb atları kəsməyi əmr edir. Başqa dəfə Allahın dinindən geri qaldığı üçün Allah tərəfindən onun taxt-tacı əlindən alınır, o peşman olur. Allah taxt-tacı ona qaytarır. Əzəmətli və varlı Sav çariçasını Allaha iman gətirməyə dəvət edir, o, S.-nın dinini qəbul edir. S. əsasına söykənərək (ayaq üstə qalmış halda) ölür, qurd əsanı yeyib qurtarır, onda onun bədəni yerə sərilir (düşür). Ancaq bundan sonra cinlər azad olduqlarını bildilər (2:102/96; 4:163/161; 6:84; 21:78-79, 81-82; 27:15-44/45; 34:12/11-14/13; 38:30/29-38/37).

S. böyük çar və sehrbaz idi, islamaqədərki Ərəbistanda məşhur idi. Onun haqqında hekayətlər Məhəmmədin (s) müasirləri olan şairlərin (əl-Ə'şa, Ümeyyə b. Əbi-s-Salt) şeirlərində əks edilirdi. Quran bu hekayətlər haqqında çox az məlumat verir, ancaq onun güclü olmasının Allahdan olduğunu təkid edir. Onun güc mənbəyi Allah tərəfindən ona hədiyyə edilən və üzərində Allahın adı yazılan zümrüd qaşlı üzükdə idi. Onun əmri ilə cinlər və şeytanlar çoxlu binalar, o cümlədən Yerusəlim məbədini və əl-Aqsa məcidini tikmişlər. S. inamsızlığa düşən vaxt cinlərdən biri üzüyü oğurlayaraq taxt-tacı əlinə alır, 40 gün S. fəqir kimi dolaşır. Bir dəfə üzük suya düşür, balıq onu udur, S. balığı tutub, üzüyü onun qarnından çıxarır.

Onun kişilik qüvvəsindən çox danışırlar, onun min arvadından min oğlu olacağını deyərək öyünməyinə görə o, Allah tərəfindən cəzalanır, onun cəmisi bir şikəst oğlu olur, o, səhvini başa düşərək, çox dua edib yalvardıqdan sonra Allah onun oğluna şəfa verir.

S. surəti, onun cinlilərlə etdiyi möcüzələr, uçan xalçası, varlı sarayları müsəlman folklorunda əks olunur. Onun altıguşəli möhür rəmzinə indi də abidələr, qablar, sikkələr üzərində rast gəlinir.

**Ədəbiyyat:** İslam, 212-213; ət-Təbəri. Tarix, 1, 572-594; yenə o. Təfsir, 19, 87-106, 22, 47-52, 23, 47-52; əs-Sə'ləbi. Qısas, 161-185; əl-Kisə`i. Qısas, 267-296; G.Salzberger. Die Salomo-Sage in der semitischen Literatur. B., 1907; Horovitz. Untersuchungen, 116-119; Speyer. Erzählungen, 372-404; Walker. Bible Characters, 123-129; Sidersky. Les origines, 112-126; Gaudefroy-Demombynes. Mahomet, 372-375; Paret. Kommentar, 344; Beltz. Sehnsucht, 171-175; J. Walker. Sulaiman. –EI, 4, 561-563; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 248.

**Əs-Süləmi** Əbu Əbdürrəhman Məhəmməd b. Hüseyn (937 və ya 942-1021) – sufiliyin Xorasan məktəbinin görkəmli nümayəndəsi, çoxlu «klassik» sufi əsərlərinin müəllifi. Nişapurda qədim sufi ənənələri ilə bağlı olan ailədə anadan olmuşdur. Əs-S. xirqəni atasından almışdır, lakin onun bir sufi kimi formalaşmasına əsas təsiri onun ana babası İsmail b. Nüceyd göstərmişdir, o, mülayim məlaməti idi. Hədis və fiqhi əs-S. əs-Sibqi, əl-Əsammə, əd-Dərəkutni və s.-nin yanında öyrənmişdir. Onun sufi müəllimlərinin arasında məşhur sufilər əs-Sarrac, ən-Nəsrabazi, əs-Su'luki və başqaları var idi. Əs-S. çox səyahət etmişdir, İraq, Suriya, Hicaz və Xilafətin şərq vilayətlərini gəzmişdir. O, uzun müddət Bağdadda yaşayıb Nişapura dönür, evini və kitabxanasınını sufilərin ixtiyarına verir, onun vəfatından sonra da sufilər onlardan istifadə edirdilər. Orada yaranan sufi iqamətgahı (duvayra sufiyyə) onun adını daşıyırdı.

Əs-S.-nin adına 100-dən çox əsər yazırlar, ondan 30-a yaxını qalıb. Ən çox məşhur olanı IX-X əsr asket və mistikləri (zahid və sufi) haqqında qiymətli məlumatları özündə cəm edən, bu janrda bizə gəlib çatan ən erkən əsər sufi tərcümeyi-halı külliyyatı Təbəqat əs-sufiyyədir. Sufi dairələrində həm də əs-S.-nin sufi əxlaqı və «psixologiyası»na aid traktatları da məşhurdur: «Uyub ən-nəfs və müdavatuhə», «Ədəbü-s-söhbə», «Risalətü-l-məlamətiyyə» və s. Əs-S.-nin Quranın təhlilinə həsr etdiyi ən böyük əsəri (Tə`vil) «Həqaiqü-t-təfsir»i fəqihlər tərəfindən kəskin tənqid edildi. Oraya əs-S.-nin Cəfərü-s-Sadiq (ə), İbn Abbas, sufi teosof ət-Tüstəri, ən-Nuri və əl-Həllaca yazılan ekzetik fiikrləri daxil idi. Əs-S.-nin Təfsiri şiə və sufi ezotorizmin yaxınlıq və ümumi köklərini əyani surətdə göstərirdi.

Əs-S. yeni yaranan sufi elmlərinin (ulum həzihi-t-taifə, ilm ət-təsəvvüf) təşəbbüsçüləri və klassifikatorlarından biri oldu. Sufizmin islamda mövcud olmağa haqqı olduğunu sübut etməyə çalışan əs-S. dəlil üçün Qurana, Peyğəmbərin (s) sünnəsinə, erkən sünni müəlliflərinin fikirləri və həyat tərzinə müraciət edirdi. Tərcümeyi-halçılar onun «sufi hədislərini təhrif etdiyini» və «pis rəvayətçi» olduğunu qeyd edirlər. Həmbəli İbn əl-Cövzi əs-S.-ni çox kəskin tənqid edirdi.

Əs-S. özündən sonra çoxlu şagird qoymuşdu, o cümlədən onun işlərini davam etdirən əl-Kuşeyri və ondan hədisləri öyrənən Xorasan alimi-tarixçi əl-Beyhəqini. «Mülayim» sufi ideoloqu kimi əs-S. əs-Sərracla əl-Kuşeyri azasında əlaqələndirici bənd olmuşdu. Əl-Kuşeyri vasitəsilə onun ənənəsi əl-Qəzaliyə keçmişdi. Əl-Qəzali «Təbəqatın» müəllifini çox yüksək qiymətləndirmiş, onun sufi təfsirinə haqq qazandırmışdı.

**Ədəbiyyat:** İslam, 213;  əl-Bağdadi. Tarix Bağdad, 2, 248-249; əz-Zəhəbi. Təzkirə, 3, 248-250; İbn əl-İmad. Şəzərat, 3, 196-197; əs-Süləmi. Təbəqat; yenə o. Adab al-suhba. Ed. M.J.Kister. Yerusəlim, 1954; yenə o. `Uyub ən-nəfs və müdavatuhə. Tədqiq M. Əbd əl-Munim Həfəci və Əbd əl-Əziz Şərəf. Beyrut, 1981; Hartmann. Risalat: Massignon. Essai, 359-412; GAS, 1, 671-674; Бертельс. Суфизм, 219-224; P.Nwyia. Le Tafsir mystique attribue a Ga′far Sadiq. – MUSJ, 1968, 43/4, 180-230; Böwering. Mystical Vision; al-Ghazali. Al-Risalat al-laduniyya. – JRAS. 1938, 2, 190.

**Sülh** («yoluna qoyma», «razılıq») – müsəlmanların fəth etdikləri vilayətlərin əhalisi ilə bağladıqları S. müqaviləsi: şəhərlə bağlanan müqavilənin şərtləri bütün ölkəyə və ya şəhərə tabe olan əyalətlərə də aid idi. Müqaviləni hərbi rəis və bir neçə din xadimi və ya şəhərə hal-hazırda başçılıq edən şəxslər imzalayırdılar. Ərəb tarixçiləri tərəfindən qalan bəzi müqavilə mətnləri bəzi istisnalardan başqa müqavilə bağlayanların ikinci tərəfinin nümayəndələrinin heç bir adlarını çəkmirlər; adətən cizyə və ya xəracın verilməsinə riayət edilməsi, müsəlmanlara hərbi əməliyyatlarda kömək etmək, onlara üç gün ərzində yemək və yataq vermək şərti ilə onların həyatları və əmlaklarınının toxunulmazlığına zəmanət verilməsi xatırlanır. Vergilərin miqdarı adətən mətnlərdə verilmir, ancaq Quteybə b. Müslimin Səmərqəndlə (712-ci ildə) bağlanan müqavilə haqqındakı mətndə verginin miqdarı haqqında təfsilatı ilə danışılır. VIII əsrdə müxtəlif bölgələr üçün müsəlman xəzinə apparatının təsdiqi ilə S. heç bir rol oynamadı və IX əsrdə o, tamam unuduldu.

**Ədəbiyyat:** İslam, 213-214.

**Əs-Sünnə** («adət», «misal», «yol», «təriqət», tam forması: sünnət rəsul Allah - «Allahın elçisinin sünnəsi») – Məhəmmədin (s) həyatının sünnəsi,

timsalı hər bir müsəlman icması üçün, hər bir müsəlman üçün nümunə, qanun, insan həyatının və cəmiyyətin bütün problemlərinin həlli üçün materialın mənbəi kimidir.

Sünnə Qurana izahlı əlavələr verir və dini əhəmiyyətinə görə Qurandan sonra ikinci yer tutur. O, təxminən VII əsrin II yarısından meydana gəlmiş və sonrakı iki əsrdə inkişaf etdirilərək həcmcə böyümüşdür.

S. Məhəmmədin (s) əməlləri (fi'l), onun dedikləri (qoul) və (demədiyi razılığından) bəyənməsindən (təkrir) ibarətdir. S. Məhəmmmədin (s) silahdaşları tərəfindən şifahi olaraq ötürülür, sünnilərdə hədis, şiələrdə xəbərlər kimi qeyd edilirdi. S. bütün cərəyanlar tərəfindən qəbul edilir və o, Qurandan sonra Allaha hansı hərəkətin xoş gəlməsi haqqında məlumatın mənbəyi hesab edilir. S. Quran mətnini başa salır və onun mənasını tamlaşdırır. Ənənəçilər S.-nın qanunlarına tabe olmağı müsəlmanın həyatının əsas mövzusu hesab edirlər. S.-nin öyrənilməsi müsəlman dini təhsilinin əsas hissəsidir.

S.-nin əksi bid'ə (dinə əsassız əlavələretmə, yenilikgətirmə) sayılır. Bu mənada sünnilər (əhl əs-sünnə və-l-cəmaə) özlərini şiələrə qarşı qoyublar, guya onlar (şiələr) İslama «icazəverilməz» (qəbulolunmaz) yenilik gətirmişlər. Şiələr isə hesab edirlər ki, məhz onlar S.-ni – Peyğəmbərin (s) dediklərini düz yerinə yetirirlər.

Məhəmmədin (s) vəfatından sonra S. icma və Xilafətin çoxlu həyat məsələlərini həll etməyə imkan verdi, ona görə də onun əhəmiyyəti özünü hiss etdirirdi. IX-X əsrlərdə, xüsusilə hənbəlilərin fəaliyyəti sayəsində S.-ni az qala Quranla bərabər hesab etməyə başladılar. Quran və S.-nin əlaqəsi problemi dinin əsaslarına (üsulu-d-din) aid traktatlarda mühüm yer tutur. Müasir müsəlman «fundamentalizmi» hətta məişətdə də S.-ni izləməyə böyük diqqət verir, geyim tərzi, saqqalın ölçüsü və s.-ni müəyyənləşdirir.

Bəzən S. məfhumu Allah S.-sini (Quran), Məhəmməd (s) S.-sini və (keyfləri istəyən kimi) guya iki ilk xəlifənin S.-sini özündə cəmləşdirir. Müsəlmanlarda adi danışıqda S. düzgün, uyğun gələn mənasında işlədilə bilər. Bir neçə müsəlman ölkəsində oğlan uşaqlarının «müsəlmanlaşdırılması» da S. adlanır ki, bu da «yol», «təriqət» mənasında işlənən S.-nin Peyğəmbər (s) yolu olduğunu bildirir.

Sünnə adı ilə toplanan hədislər 6 külliyyatda cəmlənmişdir ki, onların ən mötəbəri Buxarinin «Əl-Cami əs-Səhih» kitabı sayılır ki, o, 7275 hədis ehtiva edir.

**Ədəbiyyat:** İslam, 214; İbn Əli Yə'la. Təbəqat əl-hənəbilə, 1, 241-246; əş-Şəhrəstani. Əl-Miləl, 1, 38-40; yenə o. Din haqqında kitab, 222-223; Watt. Philosophy, 72-81; J.Schacht. Sur I`expression «Sunna du Prophete». – Melanges d`orientalisme offertes a Henri Masse. Tehran, 1963, 361-365; A.J. Wensinck. Sunna. – EI, 4, 601-603; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 248.

# Ş

**<u>Əş-Şafei, Əbu Abdullah Məhəmməd b. İdris</u>** (767-826) - fəqih, mühəddis, sünni şafei məzhəbinin banisi. 767-ci ildə Qəzzada (Fələstin) qüreyşi hərbi rəis ailəsində doğulmuşdur. Ş.-nin Haşimi kimi Məhəmmədə (s) uzaqdan qohumluğu çatırdı. Bəzi rəvayətlərə görə anası Əli ailəsindən idi. Uşaqkən atası ölmüş, anası onu Məkkəyə atasının tanınmış qohumlarının yanına aparmışdı. Burada o, daim Müslim əz-Zəngi (vəf. 796) və Süfyan b. Üyeynə (vəf. 811) kimi görkəmli ilahiyyat alimləri, dil, hədis, fiqh biliciləri arasında olmuşdur. 20 yaşında Malik b. Ənəsin yanında oxumaq üçün o Mədinəyə gedir. Malik onu tam təmin edib, özünün köməkçisi edir. 795-ci ildə Malikin vəfatından sonra əs-Ş. Məkkəyə qayıdır və Nəcranda (Cənubi Ərəbistan)-Yəməndə vali təyin edilir, 2 il orada qulluq edir. Zeydi imam Yəhya b. Abdullaha yaxılığına görə tutulub, (o vaxtlar xəlifənin iqamətgahı yerləşən) Rakkaya gətirilir. Orada Məhəmməd əş-Şeybani ilə tanış olur və iki il onun yanında oxuyur. 35 yaşında əş-Ş. Bağdad və Məkkədə müstəqil müctəhid kimi çıxış edir. Öz təbliğatında o, hənəfi və maliki məzhəblərinin prinsiplərinin qarşılıqlı əksliklərini ataraq, onları birləşdirib öz məzhəbini yaratmaq istəyirdi. Təzə məzhəb tezliklə çoxlu ardıcıl cəm etdi. 814-15-ci ildə onu şiəliyə meyillilikdə təqsirləndirən xəlifə əl-Mə`munla toqquşmadan sonra əş-Ş. Misirə gedir və orada Malik ibn Ənəsin tələbəsi kimi alimlər dairəsində yüksək yer tutur. Əş-Ş. 820-ci ildə Qahirədə (Fustat) vəfat edir və orada Muqəddəm dağının ətəyində dəfn olunur, Səlahəddin Əyyubi orada böyük bir mədrəsə tikdirmişdir, onun məzarı ziyarət yerinə çevrilir. Onun əsas əsəri şagirdi Yaqub əl-Büveyti tərəfindən yazılmış fiqhin əsasları haqqında olan yeddi cildlik Kitab əl-ummdur, başqa şagirdi ər-Rəbiyə b. Süleyman isə ona əlavələr edərək təzədən onu başqa şəkildə nəşr etdirmişdir. Əş-Ş. həm də Müsnədü-l-imam əş-Şafei hədislər külliyyatını tərtib etmişdir. Hədislərin tərtibatı haqqında İxtilaf əl-hədis əsərini yazmışdır. Əş-Ş. hüquq mənbələrini sistemləşdirən birinci şəxsdir (üsulu-l-fiqh), o bu məfhumları Risalə fi elm əl-üsul əsərində onların qarşılıqlı münasibətlərini aydınlaşdırmışdır. Əş-Ş.-nin baxışları onun çoxsaylı şagirdləri və ardıcılları (Əhməd b. Hənbəl, Davud əz-Zahiri, Əbu Saur əl-Bağdadi, Əbu Cəfər ət-Təbəri və s.) vasitəsilə fiqhin məsələlərinin həllinə böyük təsir etmişdir. Ş.-nin tədris fəaliyyəti ilə məşğul olduğu əsas yer Bağdad və Qahirə, X əsrdə Ş.-lərin əsas yurdları isə Məkkə və Mədinə idi. Dəməşq, Kerman, Buxaranın bütövlüklə, Xorasanın isə böyük bir hissəsinin qaziliyi onların əlində idi. Hazırda Ş. məzhəbi Cənubi Ərəbistan, Bəhreyn, Malayya adaları, Tanzaniya, Dağıstan və bəzi Orta Asiya bölgələrində hakim durumdadır.

**Ədəbiyyat:** İslam, 295; əl-Bağdadi. Tarix Bağdad, 2, 56-73; Əbu Zəhra. Tarix əl-Məzahib, 1, 227-279; The İrshad al-arib ila ma`rifat al-adib or Dictionary of Learned Men of Vaqut. Ed by. D.S.Margoliouth. 6. Leyden-London, 1913, 367-398; GAL, 1, 178-180, SBd., 1, 303-305; GAS, 1, 484-490; W.Heffening. Al-Shafi`i.-EI, 4, 252-254; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 249-250.

**Əş-Şafeiyyə** - şafeilər, VIII-IX əsrlərdə imam Məhəmməd əş-Şafei (vəf. 820) tərəfindən yaradılan məzhəbin ardıcılları. Ş. məzhəbi eklektikdir (bir-birinə zidd hərəkətləri birləşdirmək istəyən), belə ki, o, hənəfi və maliki məzhəblərinin çox güclü təsiri altında yaranıb, onların xüsusiyyətlərini qəbul etmişdir. Onun əsas prinsipləri belədir: Quran və sünnəyə bir mənbə kimi baxılır, sünnə Quranı ancaq tamamlayır, müqayisə etmək və orta qərar verməyə parallel material vermir. Bununla belə mədinəlilərin hədisləri sözsüz qəbul edilir. İcma Quran və sünnəyə əlavədir, ancaq mədinəli müctədhidlərin qərarları nəzərə alınır. Əl-qiyasla mühakimə lazımi material toplamaq üçün geniş istifadə olunur. Əl-istihsan (ən yaxşı qərarlar) rədd edilir. Lakin malikilərdən əl-istislahı (müstəqil mühakimə əsasında qərar qəbul etmə) qəbul ediblər. Sadəliyə görə əş-Ş. Suriya və İraqda hənəfi və maliki məzhəblərini tez sıxışdırdı və Misirdə mövqeyini möhkəmləndirdi. Hazırda Ş. Suriya, Livan, Fələstin, İordaniyada, Cənubi Ərəbistan, Tanzaniya, Dağıstanda hakim mövqe tutur, İraq, Pakistan, Hindistan, Malayziya və İndoneziyada çoxsaylı ardıcıllları var, İran və Yəməndə sünnilərin əsas hissəsini təşkil edir.

**Ədəbiyyat:** İslam, 296; Əbu Zəhra. Tarix əl-məzahib, 2, 274-280; Mahmassani. Falsafat de-tashri, 29; W.Heffening. Al-Shafi'i.-EI, 4, 272;

**Şahid** - şahid. Ş.-in məhkəmə prosesində iştirakı ənənəvi məhkəmə əməliyyatının mühüm hissəsidir. Ş. hər iki tərəfdən məhkəməyə çağırıla bilər və o, əks tərəfdən səbəbsiz rədd oluna bilməz. Onu şahidlik etməyə məcbur etmək olmaz, ancaq onun bundan imtina etməsi dini vacibətin pozulması kimi qəbul edilir. Hər kəs Ş. ola bilər, lakin başqa din sahibi dinlə əlaqədar məsələdə, asılı olduğu ağasının, hamisinin və ya böyük qohumunun işində şahidlik edə bilməz. Həqiqəti müəyyən etməyə iki Ş. kişinin rəyi kifayətdir. Bir kişi Ş. iki qadın və ya kəniz Ş.-i əvəz edə bilər. Uşağın doğulması haqqında şəhadətə bir kəniz də bəsdir. Yalan şahidliyə görə Ş. cinayətə cəlb olunur. IX-X əsrlərdən Ş.-ə xüsusi tələblər qoyulurdu, bəzilərinə görə o, qazi keyfiyyətlərinə malik olmalı və ya ləyaqətli olmalı idi. Onların siyahısı hakimiyyət tərəfindən təsqid olunurdu.

Ş.-in ifadəsi gözü ilə görəni və ya birinin gördüklərini bildirməsi həm də dini və hüquqi mənada şahidlikdir.

Dində şahidlik islami iman iqrarıdır - «Allahdan başqa İlah olmadığına və Məhəmmədin Allahın elçisi olduğuna şəhadət verirəm».

Hazırda peşəkar notariusun və müxtəlif qarşılıqlı zəmanət formalarının inkişafı ilə Ş. öz əhəmiyyətini itirir.

**Ədəbiyyat:** İslam, 296-297; əl-Məvardi. Əl-Əhkam, 108-128; Мец. Ренессанс, 189-190; Лэйн. Нравы, 125-128; Tyan. Histoire, 1, 361-372; Schacht. İntroduction,193; W.Heffening. Shahid.-EI, 4, 281; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 255.

**Əş-Şaziliyyə** (və ya şaduliyyə)-şazililər, Şimali Afrikada böyük sufi qardaşlığı. Onun banisi öz ruhani silsiləsini Şeyx İbn Xərəzim (vəf. 1236) vasitəsilə məşhur Əbu Mədyana aparıb çıxaran məğribli Əbülhəsən əş-Şazilidir (1196 və ya 1197-1258). Təxminən 1218-ci ildə o, müsəlman Şərqinə yollandı, orada rifaiyyə sufi qardaşlığının şeyxi Əbülfəth əl-Vasiti ilə görüşür. Əl-Vasitinin yanında təlim kursu keçib, şərq sufiliyi ilə yaxından tanış olan əş-Şazili Qərbə dönür. Əbu Mədyanın şagirdi məşhur sufi İbn Məşiş (1238-də qətl olunub) ona böyük təsir göstərir.

İbn Məşişin həlak olmasından sonra əş-Şazili Tunisə gedib, bir neçə il orada gəzəri sufi təbliğatçısı olur. Səyahəti zamanı istirahət vaxtı o, Tunisin Şazil kəndi yaxınlığındakı zaviyədə qalır. Əş-Şazilinin fəaliyəti yerli fəqihlərin onu təqib etmələrinə səbəb oldu, o, İskəndəriyyəyə gedib, orada zaviyə təşkil etdi. Əvvəl yerli din xadimləri ona qarşı çıxsalar da, möizəci və mömin olmasına görə (o hər il Məkkəyə ziyarətə gedirdi) onların hörmətini qazandı. O, həccdən qayıdarkən Qırmızı dənizin sahilində Şimali Misirin Kumeytra kəndində vəfat edir. Osmanlı hakimlərinin cəhdi ilə XVI-XVII əsrlərdə onun qəbri üzərində arxitektura kompleksi (məscid, hamam, mədrəsə və s.) tikildi və ora indi də ziyarət edilir.

Əş-Şazilinin təlimi əl-Cüneyd və başqa «mülayim» sufilərin ideyası kimi olub, Şimali Afrikaya uyğunlaşdırılmışdı. Tunisdəki tanışlarını yazılı və şifahi çıxışları ilə o, düzlüyə, hakimiyyətlə ünsiyyətdə olmamağa, şəriəti əda etməyə, Peyğəmbər (s) sünnəsinə düz əməl etməyə və dünya malına nifrət etməyə dəvət edirdi. Onun baxışları məlamətiyyə sufilərinin baxışları ilə uyğun idi. O, öz ardıcıllarını xüsusi paltar geyinməyə, ailədən ayrılıb özünü tam sufiliyə xidmətə həsr etməyə çağırmırdı.

Əvvəllər əş-Ş. özləri üçün ribat tikmir, ayrı-ayrı zaviyələrdə qeyri-mütəşəkkil surətdə yaşayırdılar. Əş-Ş.-nin geniş yayılması və çiçəklənməsinə görə o, öz banisinin iskəndəriyyəli şagirdləri Əbu-l-Abbas əl-Mursi (vəf. 1287) və xüsusilə də, onun varisi Tacəddin b. Ataullah əl-İskəndəriyə (vəf. 1309) borcludur. İbn Ataullah əş-Ş.-nin bütün irsini yığıb, hazırlayıb, özününün Miftəh əl-fələh, Lətaif əl-minən, Ət-Tənvir və xüsusilə də Əl-Hikəm əsərlərində onları işıqlandırdı. Onun sayəsində əş-Ş.-

nin ideyaları Misir, Tunis, sonra isə (XX əsr) Məğribdə geniş yayıldı. Əş-Ş.-nin hörməti Misirdə o qədər yüksəldi ki, 1308-ci ildə İbn Ata Allaha sufizmin əlehdarı olan hənbəli ibn Teymiyyəni müvəqqəti olaraq zindana saldırmaq müyəssər oldu. Əş-Ş.-nin ardıcılları Misirdə əl-vəfaiyyə qardaşlığını yaradan məşhur sufi Məhəmməd Vəfa və oğlu Əli (vəf. 1404) oldu. XVI əsrdə şazili sufi Əli b. Meymun (vəf. 1511) Suriyada zaviyə təşkil etdi. Ümumiyyətlə, isə əş-Ş. Qərb müsəlman aləmində yayılmış qardaşlıqdır. Əlcəzair, Tunis, Mərakeşdə əş-Ş.-dən bəhrələnən saysız-hesabsız (əl-arusiyyə, əz-zərruqiyyə, əl-cəzuliyyə, əl-həbibiyyə və s.) çoxsaylı qardaşlıqları yarandı. Bunların üzvləri cürbəcür əcaib işlər görürdülər: od, şüşə qırıqları udur, köz üzərində yalın ayaqla gəzir, ağ-qara sehrlə məşğul olur, insan, cin, heyvanları qarğışlayırdılar.

Bütün bunlar fəqih və mülayim sufilərin qəzəbinə səbəb olurdu. Bunların təsiri ilə hakimiyyət, xüsusilə də Osmanlı hakimiyyəti əş-Ş.-ni təqib etməyə başladı.

Bəzən qeyd edilmiş qardaşlıqlar mövcud olduqları yerlərdə siyasi məsələlərə qoşulur, ölkənin azad olmasına çalışırdılar. Əş-Ş. Sudandan tutmuş Maliyədək yayıldı. Ş. təbliğatçısı Səid b. Məhəmməd əl-Mə'rufun (vəf. 1904) sayəsində əş-Ş. Kamor adalarına yayıldı və hakimiyyətə çevrildi. Hazırda Mərakeş, Tunis, Əlcəzair, Sudan və Afrikanın başqa ölkələrində əş-Ş. və onun qolları öz mövqelərini azca itirsələr də, mövcuddurlar. Başqa qardaşlıqlardan fərqli olaraq, əş-Ş.-də başçı irsi deyil, təriqətin nüfuzlu üzvləri arasından seçilir.

**Ədəbiyyat:** İslam, 287-288; İbn Ata`Allah əl-İskəndəri. Ləta`if əl-minən. Tunis, 1304 h.; yenə o. Kitab əl-hikəm.-İbn Acıba. İkaz əl-himan. Qahirə. (b.q.); yenə o. Miftəh əl-fələh. Qahirə , 1321 h.; yenə o. Ət-Tənvir fi iskat ət-tədbir. Qahirə, 1321 h; İbn `İyad. Əl-Məfaxir əl-□aliyə fi -l-mə`asir əş-şaziliyyə. Qahirə, 1353 h.; Abd əl-Qadir Zəki. Ən-Nəfxə əl-aliyə fi aurad əş-şaziliyyə. Qahirə, 1321 h.; Rinn. Marabouts, 211-282; Trimingham. Orders, 47-51, 84-90, 106-108, 291; Nwyia. İbn Abbad, İndex; E.Dermenghem. Le sulte des saints dans I`Islam maghrebin. P., 1954; Anawati, Gardet. Mystique, 70-71, 201, 203, 221-223; K.L.Brown. The discerditing of a sufi movement in Tunisia.- Dilemmas, 146-168; M.Gilsenan. Trajektories of contemporary sufizm. – Yenə orada, 187-198; A.Cour. Al-Shadhili.-EI, 4, 246-247; D.S.Margoliouth. Shadhili.-Yenə orada, 247-249; R. Le Tourneau. Darkawa.-EI, NE, 2, 160; M.Ben. Cheneb. Al-Djazuli.-Yenə orada,527-528; J.-L. Michon. `İsawa.-EI, NE, 4, 97-100.

**Əş-Şeybani**, Əbu Abdullah Məhəmməd b. Fəqih, müsəlman hüququnun kodifikatorlarından biri. Vasitdə (İraq) mövla ailəsində doğulmuşdur. 14-dən 18 yaşa qədər Əbu Hənifinin dərslərində iştirak etmişdir, sonra bir neçə

vaxt Əbu Yusufun yanında oxumuşdur. 20 yaşında Kufənin baş məscidində möizə ilə çıxış etmişdir. Süfyan əs-Sauri (vəf. 777-78) və Əbdürrəhman əl-Övzainin (vəf. 774) materiallarından istifadə edərək hədisləri öyrənir. Üç il ərzində Malik b. Ənəsin mühazirələrini dinləmişdir. İraqa dönən kimi Bağdadın ən nüfuzlu fəqihlərindən biri olur. 792-93-cü il Zeydi imam Yəhya b. Abdullahı dəstəkləməklə xəlifə ər-Rəşidin qəzəbinə gəlir. Lakin sonralar, xəlifə öz iqamətgahını Fərata köçürməyi qərara alanda o, əş-Ş.-ni öz yeni paytaxtı Raqqanın qazisi təyin edir. 805-ci ildə Xorasana gedəndə əş-Rəşid əş-Ş.-ni özü ilə orada qazi təyin etmək üçün apardı. Lakin əş-Ş. getdiyi yerə çatmamış və vəzifəsinə başlamamış Rey yaxıınlığında vəfat etdi.

Öz əsərlərində əş-Ş. özünün ilk müəlliminin irsini cəhdlə toplayırdı, baxmayaraq ki, onun görüşləri çox vaxt müəlliminінki ilə uyğun gəlmirdi. O, fiqhə aid Əl-Məbsut toplusunu (onun ikinci adı-Kitabu-l-əsl fi -l- furu) və ona əlavə Kitab əz-ziyadəti, fiqhə dair böyük arayış kitabçası (bələdçi) Kitab əl-cami əl-kəbir və kiçik arayış kitabçası Kitabu-l-came əs-səğiri tərtib etmiş, hərbi hüquqi məsələləri şərh edən, bizə ancaq şərh kimi Əs-Sərahsi şəklində gəlib çatmış Kitabu-s-siyər əl-kəbir, habelə, məhz Əbu Hənifənin irsinə həsr edilmiş Kitabu-l-āsār, qanunları yan keçəndə hiylələr və onların qabağını kəsmək haqqında Kitabu-l-məxaric fi-l-hiyəl (bu əsərin əş-Ş.-nin olmasına şübhə var) və başqa kiçik həcmli əsərlər yazmışdır.

Əş-Ş. Malik b. Ənəsin Əl-Müvəttəsinin iki redaktəsindən birinin tərtibatçısı və şərhçisidir. Əş-Ş.-nin şagirdlərindən ən məşhuru şafei məzhəbinin banisi Məhəmməd əş-Şafei hesab edilir.

**Ədəbiyyat:** İslam, 288-289; əl-Bağdadi. Tarix Bağdad, 2, 72-182; Əbu Zəhra. Əbu Hənifə, 208-219; GAS, 1, 421-433; GAL, 1, 171-173, SBd., 1, 288-291; W. Heffening. Al-Shaibani.-EI, 4, 271-272.

**Şeyx** - şeyx, qoca, ağsaqqal, pir; qəbilə, nəsil, ailənin başçısı, Ərəbistanda qəbilənin başçısının titulu. Böyük dini nüfuzlar, dini fənnlərin biliciləri, sufi qardaşlıqları və ticarət-sənətkar birliklərinin müəllim və mürəbbilərin, məşhur möminlərin, ümumiyyətlə, çox hörmətli ağsaqqalların fəxri adı idi. Bəzi şəxslərə bu ad birbaşa verilir. Gündəlik istifadədə isə 50 yaşdan keçən adamlara və yaşlı atalara şamil edilir. Bu gün nəzakət təbiri olub, eyni zamanda möhtəşəm, hörmətli sifətlərini də ifadə edən bu ünvan böyük qürurla daşınır. Məsələn, X əsrdə islahatçı Əbu Yəzid Şeyx əl-möminin (möminlər şeyxi), Mədinə valisi Şeyxü-l-həram, şəhərin bələdiyyə rəisi Şeyxü-l-bələd ləqəbini daşıyırdılar. Şeyxü-l-iradə, Şeyxü-l-iqtida, Şeyxü-l-intisab, Şeyxü-t-təlqin, Şeyxü-t-tərbiyə və s. ünvanları da var idi. Əş-Ş.-ü-l-Buxari və Müslim daim bu adı daşıyıblar. Ş. sözü bəzən vəzifəli şəxlərin mürəkkəb titullarına da daxil olur: Ş.-ü-l-cəməl (ziyarət başçısı), Ş.-ü-l-bələd

(polis rəisi), Ş.-ü-l-islam və s., və ya fərdi titula daxil olur: əş-Ş.-ü-r-Rəis (İbn Sina ) və s. Ş.-ü-t-tərbiyə müridlərin tərbiyəsi ilə məşğul olan şeyxdir.

**Ədəbiyyat:** İslam, 289; A.Cour. Shaikh.-EI, 4, 295-296; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 251-252.

**Şeyxülislam (Şeyx əl-İslam)** – «İslamın ağsaqqalı, başçısı, müəllimi», «dini rəhbər» deməkdir. Ş. X əsrin II yarısından cəlalülislam, izzülislam, seyfülislam və s. kimi şərəf ünvanlarından biri kimi meydana çıxıb. Fiqh alimi Əsəd ibnu-l-Furat İbn Xəldun tərəfindən şeyxulfətya adlandırılmışdır. Bütün bu ünvanlardan yalnız Ş. böyük ərazidə yayıla bilmişdir. XII əsrdə bu ünvanı Fəxrəddin Razi, sonralar Şeyx Səfiəddin Ərdəbili və kəlamçı ət-Təftəzani də daşımışlar. Fəxri titul kimi, X əsrdən başlayaraq, o, bu və ya başqa fəqih və sufiyə verilirdi («Fəqih» ərəbcə «bilən», «başa düşən» deməkdir). Onlar XIII əsrdən sonra fiqh məsələləri ilə məşğul olub, mühakimələr yürüdürdülər. Məmlük sultanları vaxtı Misir və Suriyada nüfuzlu müftilər ona iddia edirdilər. Titulun belə istifadəsi Türkiyədə XX əsrə qədər sünni və şiə müftilərinə aid edilirdi, bu, Orta Asiya, Krım, Volqaboyu və Qafqazda XX əsrədək davam etmişdir. İranda Ş. şəriət məhkəməsinin sədridir, molla və müctəhidlərdən ibarət olan məhkəmələr hər böyük kəndə qədər var idi. Səfəvilər dövlətində şahın təyin ediyi baş qazi «Ş.» adlanırdı. Son illər isə Ş.-lar seçilirlər.

Konstantinopolun müftisinin bu titulu daşıması XVI əsrdə Osmanlı imperiyasında onun dini-siyasi rolunu göstərir. Paytaxt müftisinin təsirinin artması I sultan Səlim dövründə (1512-1520) başlamış və məşhur müftilər Zəmbilli Əli Cəmali Əfəndi (1501-1525) və Əbussuudla (1545-1574) bağlıdır. Tədricən Ş. təkcə dini nüfuzların və alimlərin başçısının titulu oldu. Ş. o saray mərasimlərində, sultanın dəfnində, onun varisinin andiçməsində və taxtaçıxması mərasimində mühüm rol oynayırdı. Ş.-ın əsas vəzifəsi sultanın siyasi və sosial qərarları haqqında fətva vermək idi. Ali məhkəmə vəzifələrinin dəyişməsi onun xasiyyətnaməsi əsasında yerinə yetirilirdi. XVIII əsrdən Osmanlı imperiyasında Ş.-ın ayrı idarəyə başçılıq etməsinə və nazirliyin tərkibində olmasına baxmayaraq onun statusu və təsiri aşağı endi. Ş. vəzifəsi Türkiyə Respublikasının yaranması ilə əlaqədar olaraq 20-ci illərdə ləğv edildi. Ş. rütbəsi əsasən dövlət başçılarının məsləhəti, zəmanəti ilə verililirdi. Son illərdə isə Ş. həmin rütbəyə seçki yolu ilə (konfrans, toplantıda) seçilir.

Zaqafqaziyada XIX əsrin əvvəllərindən işlədilən bu ad rus imperatoru tərəfindən şiə icmasının başçısına verilirdi. 1918-20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətində «Məşixət İslamiyyə» İdarəsinin başçısı Ş. adlanırdı. 1921-1991-ci illərdə SSRİ Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi, 1991-dən bu günə qədər Azərbaycan Respublikasında Qafqaz Müsəlman-

ları İdarəsinin başçısına verilir. O, Qafqazın şiə müsəlmanlarının birbaşa dini rəhbəridir. Ərazinin sünni müsəlmanlarına isə Ş.-ın birinci müavini-müfti başçılıq edir.

**Ədəbiyyat:** İslam, 289-290; Бартольд. Əsər, 6, 316; J.H.Kramers. Shaikh al-İslam.-EI, 4, 296-299; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 253-254.

Qafqazda Ş. vəzifəsi 1823-cü, müfti vəzifəsi isə 1832-ci ildə yaradılıb. Ş. dünyəvi hakimiyyət tərəfindən təyin olunan ən yüksək dini vəzifədir. Qafqazda rus çarı tərəfindən bütün aşağı zümrələr onun tabeliyinə verilmişdi. İlk Ş. Məhəmməd Hüseynzadə rus çarının əmrinə görə Qafqaz müsəlmanlarını müridizmə qarşı mübarizəyə, müsəlmanlar içərisində qarşıdurmalara çağırmalı idi, lakin o, həmişə bunun əksinə çalışırdı. Sonuncu Ş. Allahşükür Paşazadə isə SSRİ prezidenti Mixail Qarbaçovu Bakıya qoşun yeridib, qırğın törətdiyinə görə quldur və qaniçən adlandırdı. İrəvanda yaşayan Qafqaz Müsəlmanlarının II Ş.-ı Fazil İrəvaninin dini hökmləri Naxçıvan, İrəvan, Tiflis, Dərbənd, Mahaçqala, Bakı, Gəncə, Lənkəran, hətta Qars əyalətində yerinə yetirilirdi.

1823-cü ildə Qafqaz şiələrinin dini rəhbərliyi yaradıldıqdan bu günə qədər Qafqazda 12 Ş. olmuşdur. Bunlar Axund Məhəmmədəli Hüseynzadə (1760-1852, fəaliyyət illəri 1823-1846), Axund Fazil İrəvani (1782-1865, fəal. il. 1847-1862), Axund Əhməd Hüseynzadə (1812-1887, f. il. 1862-1884), Axund Mirzə Tahirzadə (1837-1893, f. il. 1885-1893), Axund Əbdüssəlam Axundzadə (1843-1907, f. il. 1895-1907), Axund Məhəmmədhəsən Mövlazadə (1853-1932, f. il. 1907-1909), Axund Məmmədəli Pişnamazzadə (1853-1937, f. il. 1909-1918), Axund Ağa Əlizadə (1871-1954, f. il. 1918-1920, f. il. 1944-1954), Şeyx Mirmöhsün Həkimzadə (1882-1967, f. il. 1954-1966), Axund Əliağa Süleymanzadə (1885-1978, f. il. 1968-1976), Axund Mirqəzənfər İbrahimov (1909-1979, f. il. 1978-1979) və Axund Allahşükür Paşazadə (1949, f. il. 1980 hazırkı dövr) olmuşlar.

**1-ci Ş. Axund Məhəmmədəli Hüseynzadə** (1760-1852). 1823-cü ildə o dövrün ən böyük din xadimlərindən olan Axund Məhəmmədəli Hüseynzadə Rusiyanın Qafqaz canişininin fərmanı ilə Ş. təyin edildi, lakin ona geniş səlahiyyət verilmədi və dini idarə də yaradılmadı. 1872-ci ilə qədər həm Ş., həm də müfti ayrı-ayrılıqda fəaliyyət göstərib, dini məsələləri tənzimləyən fitva veririrdilər. Buna görə də M. H. dini məsələlərə tam rəhbərlik edə bilmirdi. Həm də Ş.-dan din sahəsində yuxarı sayılan təbrizli müctəhid Ağa Mir Fəttah Təbatəbai Tiflisə dəvət olunaraq, Qüzey Qafqazın müctəhidi oldu. Çar Rusiyasının siyasətinə görə Ş.-ın müctəhidə tabeçiliyinə icazə verilmirdi, ona görə də onlar arasında ixtilaf yaranır,

zərbə dinə dəyirdi. 1850-ci ildə onlar arasında münaqişə kəskinləşdi. Rus canişini çardan müctəhidliyi ləğv etməyi xahiş etdi.

M. H. 1760-ci ildə Salyanda doğulub, orada və Gəncədə ibtidai dini təhsil almışdır, 1790-cı ildə Bağdada gedib orada Bağdad Universitetinin ilahiyyat və tarix fakültəsində oxuyur. 12 il oxuduqdan sonra o Tiflisə gəlib oranın Şah Abbas məscidinin rəisi və baş axundu seçilir. Uzun illər orada işləyən H. Şərqi-Qərbi Azərbaycan, Borçalı, Dağıstan əyalətlərində məşhurlaşır. Məhz bu nüfuz sayəsində o, 1823-cü ildə Qafqazın Ş. təyin olunur. Xasiyyətcə həlim və təbiətən mülayim olan Axund M. dövlət məmuru kimi sayılsa da, o, heç kimi cəzalandırmır, rus canişininin əmrlərinə narazılq edirdi. 1834-cü ildə Qafqazın Yelizavetpol (Gəncə) quberniyasında yerləşən İmamzadənin torpaqları «sənədsiz» olduğu üçün müsadirə edildi, Ş.-ın kəskin etirazından sonra 1844-cü ildə torpaqlar qaytarıldı. O, Şeyx Şamilin rəhbərlik etdiyi müridizm hərəkatına da rəğbət bəsləyirdi.

1828-ci il Türkmənçay müqaviləsinədək Ş. vəzifəsi Tiflis məscidinin axunduna həvalə olunduğu üçün məmurlar M.-yə həm «Tiflis tatar axundu, həm «Gürcüstanın Müsəlman ruhanilərinin rəhbəri», həm də «Qafqaz Ş.»-ı kimi müraciət edirdilər. O, rus dili və ədəbiyyatına da dərindən bələd idi.

İslam dinində yüksək dini titula malik olanların din sahəsində savadlı olanlara «Əbu Turab» ləqəbi vermək hüququ var idi. Qafqazda bu hüququ olan ancaq M.H. idi. 1846-cı ildə İraqda dini təhsil almış bakılı Mirzə Axundzadə Tiflisdə H.-nin yoxlamasından sonra ondan həmin ləqəbi alır və ömrününün sonunadək onu «Əbu Turab» çağırmışlar və o, Əmircan məscidinin baş axundu olmuşdur. M.H.-nin fəlsəfə, tarix, astronomiya, riyaziyyat, din və başqa elmlərə aid bir çox əsərləri olmuşdur: «Ruslar üçün islama dair sorğu kitabı», «Ağızdan ağıza keçmiş hədislər», «İslamın möcüzələri», «Qiyamətdə ölülərin dirilməsi», «Qəlb qidası» və s.

Ş.-ın rus siyasətinə qarşı fəaliyyəti imperiyanı narahat etsə də, onun xalq arasındakı nüfuzuna görə ona toxunmurdular.

Qafqaz canişini Vorontsov H.-nin müavini Fazil İrəvanidən istifadə etmək istəsə də, o, H.-nin öz razılığı ilə istefaya getməsindən sonra Ş.-lığa razı olacağını deyir. Qarşıdurma yaranacağından ehtiyat edən M.H. 1846-cı idlə istefa verir. Azərbaycanın görkəmli din xadimi, Qafqaz müsəlmanlarının ilk Ş.-ı A.M.H. 1852-ci ildə vəfat edib, Tiflisin Müsəlman qəbiristanlığnda dəfn edildi.

**Qafqaz müsəlmanlarının Ş.-ı Axund Fazil İrəvani** 1782-ci ildə Azərbaycanın İrəvan şəhərində doğulub. İlk təhsilini orada mollaxanada alandan sonra 20 yaşlı F. Qahirənin «Əl-Əzhar» Universitetinə göndərilib, 45 yaşında İrəvana qayıdıb. Uzun müddət İsfəhan və Təbrizdə axundluq

edib, şərq tarixi və dini elmlərə aid bir neçə risalənin müəllifi kimi İranda ad qazanıb. Sonra İrəvan Göy Came məscidinin baş axundu işləyib.

Çar Rusiyası tərəfindən İrəvana çağırılıb, Qafqaz müctəhidi təyin edilən Mir Fəttah Təbatəbai bacardığı qədər burada təfriqə saldı. 1843-cü ildə iç üzü acılandan sonra I Nikolay onu təbəəlikdən çıxardıb, ölkədən qovdu, iki oğlu öldürüldü. Belə bir vaxtda İrəvanda müctəhid F. İ. var idi.

Ömürünün 23 ilini İslam dinini Mir Fəttah kimilərdən qorumağa sərf edən M.Hüseynzadəyə kömək və idarəni genişləndirmək lazım idi. 1843-cü ildə F. İ. Ş.-ın müavini təyin edilir.

O, idarənin fəaliyyətini xeyli genişləndirir, diyarın müsəlman əhalisi ruhani idarələrinə bölünür, şəriət məhkəmələri yaradılır, ruhanilərin sınaq imatahanları keçirilir, onlara vəzifə maaşları təyin edilir, onlara dövlət məmuru saləhiyyəti verildi. Mir Fəttahla birlikdə müctəhidlik də ləğv olunduğu üçün onun səlahiyyətləri də Ş.-a həvalə olundu. 1846-cı ildə M. Hüseynzadə Ş.-lıqdan istefa verdi və F. İ. Qafqazın II Ş.-ı seçildi. Qurumun saxlanıb genişləndirilməsində və islahatlar keçirilməsində onun böyük rolu oldu:

İdarənin fəlaiyyətinə prokurorluq nəzarəti ləğv edildi;

Yüksək ruhani şəxslərin təyin edilməsini idarə özü həyata keçirnəyə başladı;

Nikah məsələsi savadlı axundlara tapşırıldı;

Qazilərin səlahiyyətləri genişləndi, bütün şəriət münaqişlərinə mahal qazisi baxırdı.

Ş.-ın dini məsələlərdə fitva vermək hüququ olması da F.İ.-nin fəaliyyəti sayəsində oldu. Qazandığı nüfuza görə, o, I, II, III dərəcəli «Müqəddəs Georgi» ordenləri və İran hökümətinin mükafatları ilə təltif olunmuşdu.

Öz dövrünün ən görkəmli yaradıcı şəxslərindən biri F.İ.-nin çoxlu əsərləri olmuş, onlar tərcümə olunaraq Təbriz, Peterbuqr, Berlin, Paris, İrəvanda çap olunmuşdur.

«Paklıq kitabı» 1883-cü ildə Təbrizdə fars dilində çap olunub, «Tarixi İrəvan» əsəri İrəvan və Qərbi Azərbaycan əyalətlərinin tarixinə aid olub, lakin əlyazması itib, «Qızılgül və bülbül» əsəri İrəvanda Azərbaycanca yazılıb, Avropa dillərinə tərcümə olunub, nəşr edilmişdir. 1812-cü ildə isə kitab erməni dilində «Qızılgül və bülbül» haqqında əxlaqi roman, rus dilində isə «Qızılgül və bülbül» haqqında alleqorik povest adı ilə Xocens Marker Gegamyanın müəllifliyi altında çap edilib. Kitab Parisdə 1826, 1832-33-də fransız dilində, sonra isə alman dilində çap edilir. Ermənilər özləri əsərin Geqamyan deyil, İ.-yə aid oldğunu təsdiq etmişlər.

F. İ.-nin Ş. kimi Ruhani İdarəsinə çoxlu səlahiyyət alması canişin Paskeviçi çox narahat edirdi və o, hər yolla bu səlahiyyətləri azaltmağa çalışırdı. Kazan Universitetinin professoru, sonradan pravoslav məzhəbini

qəbul etmiş Mirzə Kazım bəy Qafqazda ruhanilərin idarə olunması üçün layihə hazırlamışdı. Ruhanilərin siyasi baxımdan zərərsizləşdirilməsini güdən layihənin bəndlərindən:

a) Ayrıca Zaqafqaziya müsəlman ruhaniliyi yaradılsın.
b) Ruhanilərin fəaliyyəti yalnız maddi vəziyyətə bağlansın.

Ş. M.Hüseynzadə, F. İ. və Əhməd Hüseynzadə bu layihəyə qarşı çıxıb ruhanilərin buxovlanmasına dözə bilməzdilər. İrəvaninin istefa verəcəyindən narahat olan canişin və çar komissiyası güzəştə getdi. Ruhanilərin sayının idarədə 7-yə çatdırılması, onların maaşının məmurlarkı qədər olması yalnız 5 aprel 1872-ci idlə çar fərmanı ilə Əhməd Hüseynzadənin Ş.-lığı dövründə həyata keçdi. F. İ. özünün ən böyük uğurunu Molla Əhməd Hüseynzadəni öz yerinə hazırlamağını hesab edirdi. O, 1862-ci ildə istefa verib doğma İrəvana getdi, orada yaşadığı müddətdə dini mədrəsə açdı, Şərqin böyük tarixçisi və din xaidmi Mühəqqiq İrəvani, Şərqin tanınmış alimi, ayətullah Hacı Mirzə Məhəmməd və başqaları kimi çoxlu sayda din xadimləri yetişdirdi. İrəvandakı «Şeyxülislam məhəlləsi» və «Karvansara» uzun müddət onun adını daşımışdır.

**<u>Qafqazın III Ş.-ı Əhməd</u>** Qafqazın I Ş.-ı Məhəmmədli Hüseynzadənin oğlu idi. O, 1812-ci ildə Salyanda anadan olmuş, atası ilə Tiflisə köçmüş, Qafqaz müsəlman ruhani məktəbinə, sonra isə ali dini təhsil almaq üçün İraqa göndərilmişdi. Yüsək dini rütbələrlə Tiflisə dönən Ə. orada və Gəncə qəzalarında dini vəzifələrdə işləmiş, sonra Ş.-ın müavini, 1862-ci ildə ayda 1600 rubl məvaciblə Zaqafqaziya Ş.-ı təyin edilmişdir.

Ə. H. demokratik fikirli bir ziyalı olmuş, M.F. Axundovla dost olmuş, Qori seminariyasında Azərbaycan şöbəsinin açılmasında onunla yaxından iştirak etmişdir. Ş. A.A.Bakıxanov, M.Ş.Vazeh, H.B,Zərdabi, S.Ə.Şirvani və b. görkəmli şəxslərlə dostluq əlaqəsi saxlamışdır. O, S.Ə.Şirvanini həbsdən qurtarmış, ona işə düzəlməyə kömək etmişdi. Ə. H. Türkiyədə ad qazanmış Əli bəy Hüseynzadənin babası idi. Əli bəy 1918-ci ildə Demokratik Azərbaycan dövlətinin qurucularından biri olmuşdur, Ş. dinlə yanaşı bir neçə ədəbi və tarixi əsərlər də yazmışdır: «Dilguşə», «Tərbiyətü-l-ətfal», «Müəllimu-l-ətfal fi təriqə təlimi ətfal», «Bəsailu-nas fi məmləkəti Qafqaz», «Tarixi ədəbiyyati türk» və s. Bunların bəziləri 1870-1875-ci illərdə çap olunub. Azərbaycan ədəbiyyatından bəhs edən «Müəllimu-l-ətfal fi təriqə təlimi ətfal», «Türk ədəbiyyatı tarixi» əsərləri isə AMEA Əlyazmalar İnstitutunda saxlanılır. XIX əsr Zaqafqaziya Ş.-ları və onların əsərləri haqqında çoxlu məlumatlar isə Tiflis və İrəvan arxivlərində saxlanılır.

Ə. H. ali ruhani məktəb açmaq istəsə də, buna nail ola bilməsə də, ümumiyyətlə, gənclərin, xüsusilə də oğlu Hüseynin savadlı böyüməsinə kömək etmişdir. O, 1887-ci idlə Tiflisdə vəfat etmişdir.

**<u>IV Ş. Axund Mirzə Həsən Tahirzadə</u>** 1837-ci ildə Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini ailədə, sonra isə Şuşa qəza məktəbində almışdır. Elm və maarif həvəskarı M.H. ruhani təhsili almaq üçün İrana göndərilir. Təbrizdə təhsil alıb «axund» rütbəsinə yüksəlir, Qarğarbazar kəndində (Füzuli rayonunda) məktəb açıb, uşaqlara dərs deyir.

Din xadimlərinin Türkiyə və İranla əlaqəsi Rusiyanı narahat etdiyi üçün Rusiya onları öz tərəfinə çəkib, onları müxtəlif medallarla təltif edir, onları ələ almaq istəyirdi. Belə bir vaxtda Rusiyada Avropa mədəniyyəti ilə tanış olmaq məqsədilə M. H. 1878-ci il 31 martda Peterburq Universiteti rektorunun adına ərizə ilə müraciət edir və səs çoxluğu ilə Şərq fakültəsinin fars dili və ədəbiyyatı kafedrasına fars dili müəllimi vəzifəsinə seçilir. Orada fransız və rus dillərini də mükəmməl öyrənir, xüsusi qabiliyyətinə görə çarın mühafizə korpusuna ştatla molla təyin olunur, 1879-cu ildə xəstələnib Şuşaya qayıdır. Yüksək bacarığı və savadına görə Tiflisdə olan Qafqaz Müsəlmanları Ruhani İdarəsinə yüksək vəzifəyə təyin olunur. 1880-cı ildə Gəncə quberniyasının Şuşa, Zəngəzur, Cavanşir qəzalarının qazisi və Şura Məclisinin sədri seçilir. Bu vəzifələrdə uğurla çalışan A. M.H.T. 1885-ci ildə Qafqazın Ş.-ı və Şiə idarəsinin sədri təyin edilir və ömürünün sonunadək bu vəzifədə çalışır. Təbabətin əsaslarını yaxşı mənimsəyən M. H. vəba vaxtı insanlara həm tibbi yardım edir, həm də xəstəxanada müalicə olunmağın vacibliyi haqqında möizələr edirdi və bununla bir çox insanlar xəstəlikdən nicat tapdı.

Görkəmli alim, Ş.A.M.H.T. 1893-cü il iyunun 21-də vəfat etdi və Tiflisdəki müsəlman qəbristanlığında dəfn olundu.

**<u>V Ş. Axund Əbdüssəlam Axundzadə</u>** 1843-cü ildə Salyan şəhərində ruhani ailəsində anadan olmuşdur. Ərəb, fars və türk dillərini atası ona öyrətmiş, 12 yaşlı Ə.-ın atası vəfat edib, zəngin kitabxanadan başqa heç şey ona qoymamışdı. 18 yaşında o, artıq bir neçə elmə sahib oldu və 1861-ci ildə anasının məsləhəti ilə Tiflisə - Ş. Əhməd Hüseynzadənin yanına gedir və mədrəsədə müəllimliyə götürülür. Savadını artıran Ə.-ı 1878-ci ildə Qori seminariyasına Azərbaycan dili və şəriət müəllimi kimi dəvət edirlər. Orada işlədiyi vaxt rus dilini və onun vasitəsilə Avropa tarixini, riyaziyyat, astronomiya, musiqi, fiqh və başqa elmləri öyrənir. Məşhur Azərbaycan generalları Talışinski, Talışxanov, Şıxlinski onun dostları idilər. Axundov, N.Ə.Qayıbov, F.Köçərli, S.M.Qənizadə ilə tez-tez görüşüb söhbətləşərdi.

1893-cü ildə Qafqaz müsəlman dünyasının böyük mütəfəkkiri Ş. Mirzə Həsən Tahirzadə vəfat etdi, 1895-ci ildə A. Ə.A. Qafqaz müsəlmanları Ruhani İdarəsinin sədri təyin edilir. A. bu vəzifədə ehtiyatla, Rusiya qayda-qanunlarından xalqın xeyrinə istifadə edərək, 1907-ci ilə qədər işləyir. O, III dərəcəli «Stanislav», III və II dərəcəli «Anna» ordenləri ilə təltif

edilmişdi. İran tərəfindən isə IV və III dərəcəli «Şiri Xurşid» ordenləri ilə təltif olunmuşdu.

Ə. A. 1905-ci il erməni - müsəlman davasında Rusiyanın planı olduğunu xalqa başa salıb, «Daşnaksütyun» partiyasını münaqişəyə səbəbkar kimi lənətləyir.

Ə.A.-nin elmin bir çox sahələrinə aid 20-yə yaxın əsəri olmuşdur. «Müqəddəs peyğəmbərlərin tarixi» kitabı AMEA Əlyazmalar İnstitutu tərəfindən 1992-ci ildə çap olunmuşdur. XX əsrin əvvəllərində isə onun bir çox kitabı Tiflis, Təbriz və Tehranda nəfis şəkildə nəşr edilmişdir. Əlyazmalar İntitutunda onun bir sıra çap olunmuş və olunmamış əsərləri saxlanır.

Ş. Ə.A. 1907-ci ildə 64 yaşında Tiflisdə vəfat etmiş, oradakı müsəlman qəbristanlığında dəfn edilmişdir. Onun yaradıcılığı Azərbaycan xalqı üçün M. F.Axundov yaradıcılığı qədər əhəmiyyətlidir.

**VI Ş. Axund Məhəmmədhəsən Mövlazadə Şəkuvi** 1853-cü ildə Şəkinin Gəncəli məhəlləsində anadan olmuşdur. Əvvəl Şəki mollaxanasında, sonra Gəncə mədrəsəsində və İraqda ali dini təhsil almış, rus, ərəb, fars, türk dillərini mükəmməl bilmiş, Quranı çox gözəl avazla oxumuş, şəriət qaydalarından yaxşı möizələr etmişdir. Tiflisdəki Şeyxülislam məktəbində dərs demiş, Cəbrayıl və Gəncə qəzasına, sonra Tiflis və Kutaisi şəhərlərinə qazi təyin edilmiş və Qafqaz Müsəlmanları Şiə Ruhani idarəsininin İdarə Heyətinə üzv seçilmişdir.

1941-ci ildə hicri-miladi təqvimini çap etdirən M. insanları savadlı olmağa çox səy göstərirdi. O, azadlıq fikirlərinə görə çar üsul-idarəsi tərəfindən xəbərdarlıq almışdı.

İran, İraq və Səudiyyə Ərəbistanına elmi səfərlər edib biliyini dərinləşdirən M. axund rütbəsi almış, Ş. Əbdüssəlamın vəfatından sonra 1907-1909-cu illərdə onu əvəz etmişdir.

Mütərəqqi fikirlərinə görə çar Rusiyası M.-ni Ş. vəzifəsinə təsdiq etmək istəmirdi. Nəhayət, 1903-ci ilin əvvəllərində İdarə Heyətinin iclasında onu Ş. seçdilər. Bu isə Rusiyanı qane etmədi. 1909-cu ildə Qafqaz canişininin təqdimatı ilə M. Ş.-lıqdan azad edilib, dini məsələlərdən uzaqlaşdırıldı.

Ərəb, fars və türk dillərini mükəmməl bilən M. bu dillərdə çoxlu kitablar yazıb çap etdirmiş və onlar İran, Türkiyə və ərəb ölkələrində yayılırdı.

Onun 1908-ci ildə Tiflisin «Qeyrət» nəşriyyatında çap olunan Təfsir «Quranı» ən qiymətlilərindən biri hesab olunur. «Kitabu-l-Bəyan fi Təfsiriu-l-Quran» əsəri 1991-ci ildə Bakıda Ruhani idarəsinin təşəbbüsü ilə nəşr olunmuşdur. XIX əsrin axırlarında yazdığı bu kitab ona şöhrət gətirmişdi.

Ş.-lıqdan uzaqlaşdırılandan sonra M. öz torpağında təsərrüfatla məşğul olub, açdığı «Qeyrət» mətbəsində işləyirdi. Sovet impersiyası onun zəngin kitabxanasını talan edib yandırdı. Ş. 1932-ci ildə 79 yaşında vəfat etdi və Tiflisin müsəlman qəbirstanlığında dəfn olundu.

**VII Ş. Axund Məhəmmədəli Fərəculla Pişnamazzadə** 1853-cü il mayın 15-də Gəncə şəhərində anadan olmuşdur. İlk təhsilini Gəncə mədrərəsində almış, sonra Təbrizə göndərilmiş, 1893-ci ildə Tiflisə qayıdıb şəhadətnamə almışdır. 1892-ci ildə Gəncə Came məscidinə baş molla təyin olunmuşdur. 1893-cü ildə Tiflis Vilayət ruhani məclisinin üzvü, 1895-ci ildə Gəncə Vilayət Ruhani məclisinin sədri seçilir. A. P. Gəncədə işə başlayan kimi «Məktəbi xeyriyyə» adlı yeni tədris ocaqları acdırdı, onlarda dünyəvi elmlərə daha çox fikir verilirdi. Sonralar belə məktəblərin sayı ona çatdırıldı. Çar rejiminə qarşı açıq danışdığına görə P. 37 nəfərlə 1890-cı ildə həbs edilib, Türküstana sürgün edilmiş, iki ildən sonra əfv edilmişdi.

1905-ci ildə «Difai» partiyasının yerli şöbəsi yaradılır, sədri P. seçilir. «Difai» erməni quldurlarına sərt cavab verirdi.

1906-cı ildə P.-yə etimad göstərib, onu ikinci dəfə Gəncə vilayətinin qazisi təsdiq edirlər. Əvvəlki mütərəqqi fəaliyyətini davam etdirdiyinə görə onun evində ikinci dəfə axtarış aparılır, «Difai» partiyasının sənədləri tapılır və o, bu dəfə Kazana sürgün edilir. Sürgün vaxtı da o, öz maarifçilik ideyalarını yaymaqda davam edirdi.

1909-cu ildə sürgün vaxtı qurtardıqdan sonra o, Tiflisə qayıdır və iyulun 20-də Qafqaz Müsəlmanları Şiə Ruhani İdarəsinin üzvü seçilir. O vaxt Ş. Mövlazadə istefa vermişdi. Çar rejimi A. P.-ni «göz qabağında» saxlamaq məqsədilə onun Ş. seçilməsinə razı olur, lakin ona təsir etmək üçün imperator fərmanı təsdiqləmir. P. vəzifəsindən istifadə edərək, inqilabi fəaliyyətini genişləşdirir. Bu vaxt Türkiyə I Dünya müharibəsinə qoşulur və Rusiyaya qarşı cihad elan edir. Rusiya isə din xadimlərindən buna qarşı mübarizə aparmağı tələb edirdi. P. «Tiflisskiy listok» qəzetinə müsahibədə «Rusiyada müsəlmanlar təqib edilmir, qanunlar tərəfindən himayə edilirlər. Müqəddəs müharibə bizim aramızda tərəfdar tapa bilməz» demişdi ki, çar sakitləşsin. O, 1914-cü ilin noyabrında Mövlazadə Tiflisə gəlib P. və müfti Hüseyn Əfəndi Qayıbovla görüşür. 1915-ci ilin yanvarında Daxili İşlər İdarəsinin təqdimatına görə imperator artıq 6 il Ş. işləyən P.-ni Zaqafqaziya Ş.-ı təsdiq etdi. Bundan sonra P.-nin ermənilərə qarşı Demokratik Azərbaycan Cümhurriyəti uğrunda mübarizəsi də güclənir.

1915-ci ildə Ərdəhan və Qars mahallarında döyüşlərdə valideynlərini, başçılarını itirmiş çoxlu uşaq, körpə uşaqlı analar və qocalar Bakının küçələrində dilənirdilər. P. Tiflisdə «Yeniyetmələr evi» açıb onları oraya cəm etdi.

1918-ci ilin may ayının 28-də Milli Şura Tiflisdə Azərbaycan xalq Cümhuriyətinin yarandığını bəyan edir. Müstəqillik elan olunandan sonra hər iki Dini idarə-şiə və sünni Tiflisdə öz fəaliyyətinini dayandırır. Azərbaycan Hökuməti Güney Qafqaz Ruhani İdarəsini Azərbaycanın müvəqqəti paytaxtı Gəncə şəhərinə köçürməyi qərara alır. 1 sentyabr 1918-ci ildə hər iki İdarə «Məşixət» idarəsində birləşdi.

P. 1918-ci ilin 30 oktyabrında hökümətə Azərbaycanda türk tipli Məşixət yaratmağı təklif etdi. Hələ özünə gəlməmiş hökümət ancaq 1920-ci ilin martında bu məsələyə baxdı. P. artıq 10 dekabr 1918-ci ildə istefa vermişdi. İdarə Bakıya köçürülərkən artıq 65 yaşlı Axund P. öz doğma şəhərində qaldı.

1920-ci il aprelin 28-də Azərbaycanda bolşevik hökuməti – «Şura» qurulur və çox keçmədən P.-ni həbs edir. N.Nərimanov məlumat alan kimi onun azad olunmasını əmr edir. 1925-ci ildə N.Nərimanov vəfat etdikdən sonra P. yenidən sorğu-suala tutulub incidilir. Bütün Azərbaycanda məscidlər, mədrəsələr dağıdılır, din xadimləri həbs edilir, öldürülür, sürgün edilirdilər. Gəncədən Şeyx Həsən Mollazadə, onun qardaşı, şəriət müəllimi Mirzə Abbas Mollazdə, məşhur ədib Firudin bəy Köçərli, Axund Məhərrəm Əfəndi Ağdaşlı, Axund Zərif Əfəndi, ilahiyyat müəllimi Məsumə Musabəyova və bir çox başqaları 1920-ci il iyun ayının 16-da XI Qızıl Ordunun xüsusi şöbəsi tərəfindən Nargin adasında məhkəməsiz güllələnirlər. P. isə iki dəfə sürgündə olduğu üçün ona bir az mülayim yanaşılsa da, evində axtarışlar aparılır, kitabları müsadirə edilir, fəaliyyətinə qadağa qoyulur.

Təqiblər və həmkarlarının repressiyasına dözməyən P. 1937-ci ildə 84 yaşında vəfat edir və Gəncədə İmamzadə qəbirstanlığında dəfn olunur.

**Qafqazın VIII Ş.-ı Axund Ağa Cavad oğlu Əlizadə** olmuşdur. A. Ə. (1871-1954) 22 oktyabr 1871-ci ildə Bakının Pirşağı kəndində ruhani ailəsində anadan olmuşdur. Atası uşaqlarına təhsil vermək üçün Bakıya köçüb, A.-nı (Zeynalabidini) Məhəmməd məscidindəki «Qüdsi mədrəsəsinə» qoyur. Mədrəsədə atasından öyrəndiyi ərəb, fars dillərini kamilləşdirir, dünyəvi elmləri mükəmməl öyrənir. Oğlunun böyük istedadı olduğunu görən ata onu Bağdada, təhsilini davam etməyə göndərir. Bağdad Universitetinin ilahiyyat fakültəsində oxumasına baxmayarq o, astronomiya, riyaziyyat və tibb elmlərini də mənimsəyir. Buradakı dini təlim onu qane etmədiyi üçün o, Nəcəf Ali Dini Universitetində təhsilini daha da kamilləşdirməyə gedir. A. orada oxumaqla yanaşı məşhur din xadimləri, ziyalılarla görüşüb, mübahisəli məsələlərdə öz fikirlərini deyib, sübut edirdi. 1896-cı ildə 25 yaşında Ağa Nəcəf Ali Dini Universitetini bitirib «Axund» rütbəsini alır, Bakıya qayıdıb, əvvəl İçərişəhərdə məsciddə, 1903-cü ildə isə Təzəpir məscidində axund təyin edilir, 1904-cü ildə Qafqaz

Müsəlmanları Şiə Ruhani İdarəsinin üzvü seçilir. Bu vaxt Bakının nefti sayəsində bura axışıb gələnlər çoxalırdı. Ermənilər budan istifadə edib təşəbbüsü ələ almaq isəyirdilər. Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri Əbdüssəlam Axunzadə və A. A. Ə. daşnakların fəaliyyətini neytrallaşdırmaqda çox əmək sərf etdilər.

A.Ə. 1907-ci ilin yayında Bakıda «Səadət» Müsəlman Ruhani Cəmiyyətini açdı. Nəcəf bəy Vəzirov, İsa bəy Aşurbəyov, H.Z.Tağıyev Cəmiyyətin fəaliyyətində iştirak edirdilər. Sentyabrda isə «Mədrəseyi Səadət» məktəbi açıldı. Əli bəy Hüseynzadə məktəbə direktor təyin edildi.

A. Ə.-nin «Səadət» cəmiyyəti siyasiləşmişdi. Bolşeviklər çar rejiminə qarşı mübarizə edən «Səadətin» fəaliyyətini qadağan etdilər. Onda onlar gizli işə keçdilər. A. həm də Müfti Mustafa Əfəndinin Əhrar partiyası, Müsavat və Demokratik partiyaları ilə də fəaliyyət göstərirdi.

1918-ci ilin may ayının 28-də Azərbaycan Xalq Cumhuriyyəti quruldu, A. Ə. Bakı qəzasına üzv seçildi. Ruhnai İdarəsi Bakıya köçəndən sonra uzun illər sürgündə olmuş, təqib və təzyiqlərə məruz qalmış Ş. Pişnamazzadə 1918-ci ilin dekabrın 10-da xəstəliyinə görə istefa verdi. Ruhani İdarəsi «Məşixət-i İslamiyyə» adı ilə yenidən qurulub, fəaliyyətə başlamışdı. Məhəmməd Cəfər Axundzadə, Əbdülxalıq Əfəndizadə, Şeyx Həsən Sadıqzadə, Ələddin Sübhanqulov və b. görkəmli din xadimləri Məşixətə üzv seçildilər. Milli hökümətin dini etiqad və sosial təminat naziri Musa Rəsulbəyovun əmri ilə artıq yetkinlik yaşında olan A. A. Ə. Məşixətə Ş. təyin edildi. O vaxt onun atası Hacı Cavad Əlizadə Bakı quberniya dini məclisinin sədri idi.

Demokratik Respublika Ş. və müftiyə nazir müavini səlahiyyəti, din xadimlərinə isə yüksək maaş verdi. 1920-ci il aprelin 28-də Qızıl Ordu Azərbaycanı işğal etdi. Mayın 12-ə kimi A. Ə. Şeyxülislam vəzifəsində qaldı, 15-də isə Xalq Maarifi Komitəsi bütün dini işləri ləğv etdi. Din xadimləri təqib edilib Sibirə sürgün edilir, məscidlər, pirlər dağıdılırdı. 1931-ci ildə respublikada nəşr olunmağa başlanan «Mübariz Allahsızlar İttifaqının» jurnalı oxucu rəğbəti qazanmadı. Təqiblər Böyük Vətən Müharibəsinədək davam etdi. 1943-cü ildə SSRİ Ali Soveti xalqı faşistlərə qarşı cihada qaldırmaq məqsədilə fəaliyyətinə 1920-ci ildə xitam verilmiş Qafqaz Müsəlmanları Ruhani İdarəsini bərpa edi.

A. Ə. 23 il idi ki, ev dustağı idi, ona dindarlıqla məşğul olmaq qadağan edilmiş, kitabxanası dağıdılıb yandırmışdı. 1920-ci ildə onun evində axtarış aparan bolşeviklər haşiyələrdə axundun qeydi olan Marksın əsərini tapıb, özləri ilə Mərkəzi Komitəyə aparırlar. Bu, onu sürgündən qurtardı. 1930-1940-cı illər arasında evlərdə Quran saxlamaq qadağan olunmuşdu. Bu şəraitdə xalq arasında nüfuzlu və «KQB»-nin işinə uyğun Ş. vəzifəsinə adam tapmaq çətin idi. A. Ə. bir neçə şərtlərlə Ş.-lığa razılıq verdi. 1944-cü

il mayın 28-də dini qurultayda A. Ə. yenidən Ş. seçildi, müfti onun müavini oldu, idarə Məşixət yox, Qafqaz Müsəlmanlarının Ruhani İdarəsi adlandı. Eyni vaxtda ölkədə üç yerdə də ruhani idarə yaradıldı.

1. Sibir Müsəlmanlarının Ruhani idarəsi (Ufa).
2. Orta Asiya və Qazağıstan Ruhani İdarəsi (Daşkənd).
3. Şimali Qafqaz və Dağıstan Müsəlmanlarının Ruhani İdarəsi (Mahaçqala).

Bakıda İdarəyə bina ayrılmadığından A. Ə. öz evində İdarəyə yer verməyə məcbur oldu. 1937-ci ilə qədər Azərbaycanda 1600-dən çox məscid bağlanıb, dağıdılmışdı.

1952-ci ildə Zaqorskda müharibədən sonra sülh məsələlərinə həsr olunmuş ilk dəfə çağrılan konfransa Ş. A. Ə. də nümayəndə heyəti ilə dəvət olundu. Mayda isə SSRİ-də ilk dəfə olaraq bütün dini birliklərin sülhün müdafiəsinə həsr olunmuş konfransı çağrılır. A.Ə. hər iki konfransda çıxış edib, həmin ay Vyanadakı Sülhü Müdafiə Konqresində Sovet müsəlmanları adından nitq söyləmişdi, onun beynəlxalq aləmdə nüfuzu yüksəlmişdi.

1954-cü il dekabrda fədakar elm xadimi Ş. A. Ə. 84 yaşında vəfat etdi.

**IX Ş. Mirmöhsün Həkimzadə** oldu. O, 1882 ci il Şamaxıda İmamlı məhəlləsində, görkəmli din xadimi Şeyx Əlinin ocağında doğulmuşdur. Xorasan və Nəcəfdə dini təhsil alan Şeyx Əli İmamlı məscidinin axundu və Şamaxı şəhəri şiə icmasının başçısı idi. M.-ün anası seyyidə Mina xanım da tanınmş seyyidlər nəslindən idi. M. gözünü açandan Qurani Kərimi görmüş, onun avazla oxunmasını eşitmişdi. İlk dini təhsilini evdə alıb, ərəb və fars dillərini mollaxanada mükəmməl öyrənən M.-ü atası Məşhədə ali ruhani təhsil almağa göndərir. 7 il oxuduqdan sonra o, Xorasan üləmalarına müvəffəqiyyətlə imtahan verib əvvəlcə axundluq, sonra isə şeyxlik rütbəsi qazanır.

32 yaşlı M. 1914-cü ildə Şamaxıya qayıdır. Müasir dünyagörüşlü Həkimzadəni mükəmməl biliyinə görə hamı sevirdi. Tezliklə o, İmamlı məscidinin axundu təyin edilir.

1918-ci il Stepan Şaumyan və Stepan Lalayanın Şamaxıda törətdikləri qırğından baş götürüb, Sabirabada qaçan M. həmyerlisi Kərbəlayi Əbdülhüseynin qızı Məleykə ilə evlənir və bir müddət Sabirabad məscidinin axundu olur. Onun möizələrinə həddən artıq insan toplanırdı. O, Nizami, Xaqani, Nəsimi, Füzulini demək olar ki, əzbər bilirdi.

1928-ci ildə allahsızlar gecə onun evinə basqın edib, hər şeyini müsadirə etdilər, özünü Bakıya gətirib, altı ay «Tağıyev türməsində» (sonralar Karamel fabriki) saxlayandan sonra günahsız olduğuna görə buraxıb, əsərlərini yandırırlar. Bu hadisədən sonra M. Bakıya köçüb müxtəlif yerlərdə fəhlə işləməyə məcbur olur.

1943-cü ildə dini idarə təşkil olunandan sonra repressiyadan sağ qalmış M. H. Ş.-ın müavini təyin olunur.

1954-cü ildə Ş. Ağa Əlizadə vəfat etdikdən sonra ZMRİ qurultay çağırdı və hamı bir səslə M.H.-ni Ş. seçdi. O, 12 il bu vəzifədə ləyaqətlə işləyir. Dində ayrıseçkiliyə qarşı çıxır, Daşkənd və Buxara dini İnstitutlarına tələbələr göndərilməsinə nail olmuşdu. O, üç dəfə Ümumdünya Sülhü Müdafiə komitəsinin ali mükafatını almış, ömrünün sonunadək, Ş. olmuşdu.

Şamaxı müsibətləri və repressiya zülmlərini görmüş Ş. M. H. 1967-ci ildə 85 yaşında dünyasını dəyişdi. İki il heç kim bu istedadlı din xadiminin yerinə oturmaq istəmirdi. Nəhayət, 1968-ci ildə Zaqafqaziya Müsəlmanlarının VI Qurultayı çağrıldı.

**X Ş.** 1885-ci ildə Bakının Novxanı kəndində dindar ailəsində doğulan **Əliağa Süleymanzadə** olmuşdur. İlk təhsilini kənd mədrəsəsində alan Ə.Süleymanzadə əvvəl Quranı, sonra isə Sədinin «Gülüstan» və «Bustan» əsərlərini əzbərləyir. Novxanı məscidinin axundu Hacı Məhəmmədəmin onun dinə marağını nəzərə alıb, oğlu Ağaməmmədlə birlikdə onu İran və İraqa ali rühani təhsili almağa göndərir. 1902-ci il İrana yola düşən iki yoldaş orada, sonra Nəcəfdə və Mədinədə 12 il oxuyub imtahan verirlər. Vətənə qayıdarkən Ağaməmməd yolda xəstələnib vəfat edərkən Ə.-ya vəsiyyət edir ki, atama deyersən məni bağışlasın, bacım Ummulbanunu sənə versin, səninlə bizim evin çırağını işıqlandırsın.

O, Vətənə qayıtdıqdan sonra Bakının bir çox məscidlərində axundluq edir. Onun möizələri bu gün də köhnə bakılıların yaddaşından silinməmişdir. O vaxtlar ermənilərin azərbaycanlılara qarşı hücum dövri idi. A. Ə. xalqı onlara qarşı mübarizəyə çağırırdı.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra bütün din xadimləri kimi A. Ə. da «NKVD»-nin nəzarətində idi. Təəssüfləndirici haldır ki, sürgün və ya güllələnmə cəzasi ilə yatanların hamısının müstəntiqi ermənilər idi.

1943-cü il islahatı ilə əlaqədar Ə. təqibdən canını qurtarır, ona hətta, Ş. vəzifəsini təklif edirlər, o isə qəbul etmir. 1968-ci ildə Zaqafqaziya müsəlmanlarının VI Qurultayı çağrılır. Nəhayət, Mirmöhsün Həkimzadədən sonra iki il boş qalan vəzifəyə 83 yaşlı A.Ə. şeyxülislamlığa təyin olunmağa razılaşır və 10 il bu vəzifədə şərəflə işləyir.

1970-ci il Daşkənd və 1977-ci il Moskva Konfranslarında Ş. Ə. S.-nin məktubları oxundu və rəğbətlə qarşılandı.

1978-ci ildə o, 93 yaşında vəfat etdi və Bakıda dəfn olundu.

**XI Ş.-ın** seçilməsi geniş müzakirə ilə oldu. O vaxt gənc Allahşükür Paşazadə Ş. Əliağanın müavini və ən yaxın köməkçisi idi, Ş. vəzifəsinə layiq idi.

Lakin çox gənc olduğundan ona daha çox təcrübə toplamaq fikri ilə o, özü də hələ bu vəzifəyə getmək istəmədi. Ona görə öz hazırlığı ilə fərqlənən Göyçay məscidinin axundu **Mirqəzənfər İbrahimov** Ruhani İdarəsinə Ş. seçildi. Onun ali dini təhsili olmasa da kamil biliyə malik idi. Əvvəllər o, bir müddət milisdə işləmişdi. İti hafizəli və düz əqidəli olduğu üçün dini məclislərdə eşitdiklərini tam qavrayırdı. Quranı mükəmməl öyrənib, Quba şəhərində mollalıq edir. Sonra Ş. Əliağa Süleymanzadənin qəbulunda olub, ona imtahan verir və onun xeyr-duası ilə Quba məscidinə axund təyin olunur. Daha sonra isə Göyçay məscidinə axund təyin edilir. O, Qafqaz R.İ.-nin Ş.-ları arasında dini ali təhsili olmayan yeganə Ş. idi. Lakin o, açıq fikirli olub, bütün millətlərin gec-tez İslamı qəbul edəcəyini israr edirdi. Deyilənlərə görə onu dinləyən çoxlu xristian müsəlmanlığı qəbul etmişdi. Ş. Mirqəzənfər 1979-cu ildə qəflətən vəfat etdi, o Bakıda dəfn olundu.

Qafqaz Müsəlmanları Ruhani İdarəsinin **XII Ş.-ı** Lənkəranın Cil kəndində 1949-cu ildə doğulmuş, ilk dini təhsilini isə dövrün görkəmli din xadimi Masallı rayonunun Babaser kəndində Şeyx Qüdrətin yanında almış **Allahşükür Paşazadə** oldu (Şeyx Qüdrətin oğlu Hacı Əhməd Təzəpir məscidinin axundu, görkəmli din xadimidir, Allahşükür Paşazadə ilə birlikdə Daşkənddə Ali Ruhani İnstitutunda təhsil alıb).

A. P. uşaqkən Quranı əzbərləmiş, 1966-cı ildə 16 yaşında «Quran bilicisi» kimi Özbəkistanın Buxara şəhərinə gedib, «Mir Ərəb» mədrəsəsinə daxil olur. 1972-ci ildə Sovet İttifaqında yeganə Ali Ruhani İnstitutuna daxil olub 1975-ci ildə oranı bitirir, 9 illik dini təhsildən sonra mükəmməl bir ruhani kimi Azərbaycana qayıdır.

Üç il Ş.-ın məsul katibi, 1978-ci ildə Təzəpir məscidinin axundu və bacarıqlı olduğuna görə Ş.-ın müavini təyin olunur. 1978-ci ildə ustadı Əliağa Süleymanzadənin vəfatından sonra Ş. Mirqəzənfər də QMİ-nin əsas işlərini A.-ə həvalə etdi. Onun vəfatından sonra isə Ş.-lığa namizəd ən layiqli, savadlı və nüfuzlu şəxs 30 yaşlı A. P. idi.

1980-ci ildə Qafqaz Müsəlmanları Qurultayı çağrılır, A. P.-də SSRİ miqyasında ən nüfuzlu Dini İdarəyə Ş. seçilir. O, fəaliyyətinin ilk illərindən beynəlxalq aləmdə tanınmağa başlayır. 1983-cü ildə İordaniya İslam Mədəniyyəti Kral Akademiyasının müxbir üzvü seçilir.

Ümumdünya İslam Konqresi Rəyasət Heyətinin üzvü olan Ş. A.P.-də həm də 1986-ci ildə Bakıda keçirilmiş «Müsəlmanlar sülh uğrunda mübarizədə» Konfransının daimi fəaliyyət göstərən Beynəlxalq Komissiyasının sədridir. 1988-ci ildə «Xalqlar dostluğu» ordeni ilə təltif edilmiş, 1889-cu ildə SSRİ xalq deputatı, daha sonra müstəqil Azərbaycan Respublikasının millət vəkili seçilmişdir. 1992-ci ildən tarix elmləri doktorudur. 1994-cü ildə «Şöhrət», 1999- cu ildə isə «İstiqlal» ordenləri ilə

təltif olunub. 2001-ci ildə Rusiyanın I dərəcəli «Müqəddəs Vladimir», Gürcüstanın «Şərəf» ordenləri ilə təltif olunub. 2004-cü ildə MDB ölkələri Dinlərarası Sülhyaratma Şurasının fəxri həmsədri seçilmişdir. Ərəb, fars, türk, özbək, talış, püştü, rus dillərini bilir. MƏR-nın «Elm və sənət ordeni» Şeyxülislamın xüsusi çəkiyə malik olan mükafatıdır.

20 yanvar hadisələrində Polyanskinin kabinetinə dəvət olunan Şeyx şəhidlərin Dağüstü Parkda dəfninə qadağa qoyan Yazovla görüşməyib. Polyanskiyə deyir: «Ona de ki, biz şəhidlərimizi babalarımızın sümükləri qalmış Dağüstü Parkda dəfn edəcəyik»! Yazov Şeyxin qətiyyəti qarşısında geri çəkilir.

Şeyx Qorbaçovu lənətləyərək, bütün Dünyaya müraciət edir. Şəhidlərin dəfninə başçılıq edib, qoşunların tezliklə Bakıdan çıxarılmasını tələb edir.

Ermənistan-Azərbaycan müharibəsinin həlli üçün də Ş. P. beynəlxalq yığıncaqlarda əlindən gələni edir. İslam Konfransı Təşkilatı (İKT) 1993-cü ildə Ermənistanın təcavüzkar dövlət kimi zəbt etdiyi Azərbaycan torpaqlarından dərhal çıxarılmasını tələb etdi.

1994-cü il dekabrda Şeyx Kasablankada keçirilən İKT-nın BMT-dən Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələrə əməl olunmasını tələb etməyə nail oldu.

Azərbaycan informasiya blokadasını yarandan sonra Qafqaz Xalqları Ali Dini Şurasının sədri Ş. A.P.-nin təşəbbüsü ilə Ümumdünya İslam Xalq Rəhbərliyi İdarə Heyətinin növbəti toplantısı Bakıda keçirildi, onun Qafqaz regionu üzrə nümayəndəliyi yarandı və onun mənzil qərargahının Bakıda açılması qərara alındı.

1936-cı ildə partladılan Bibibheybət məscidinin bərpası üçün 1980-ci ildə Şeyxin təklifinə qarşı Şeyxə xəbərdarlıq edildi, 1990-cı ildə Şeyx yenidən hökümətə müraciət etdi, 1995-ci ildə «Qələbə tağı» söküldü, Həkimə xanım, VII imamın 3 nəvəsi və Hacı Heybətin qəbirləri aşkar edildi. 1997-ci il iyulun 23-də Məhəmməd Peyğəmbərin (s) mövhudu günü Bibiheybət məscidinin bərpasına başlandı və bir ilə başa çatdı.

Bakıda ilk dini ali ruhani məktəb də Şeyxin arzusunun məhsuldur və artıq Bakı İslam Universitetinin Mingəçevir, Zaqatala, Lənkəran və Sumqayıt şöbələri var (Hazırda bu şöbələr nə üçünsə ləğv edilib, Universitet fəaliyyət göstərir).

Milli Məclis 1992-ci ildə «Dini etiqad azadlığı haqqında» qanun qəbul etdi ki, hər kəs istədiyi vaxt Həccə gedə bilər.

Sovet dövründə talan edilən Quranı xalqa çatdırmaq üçün 1992-ci ildə akademik Ziya Bünyadov və professor Vasim Məmmədəliyevin (artıq akad.) tərcüməsi və Şeyxin məsləhətçi redaktorluğu ilə Qurani Kərim Azərbaycan dilinə çevrildi və 100 min tirajla nəşr olundu. 1990-cı ildə

QMİ.-nin orqanı olan «İslam qəzeti» nəşr olunmağa başlandı. Bütün bunlar Şeyxin rəhbərliyi ilə həyata keçirdi.

Nəhayət, QMRİ nəzdində akad. V.Məmmədəliyevin sədrliyi ilə Elmi-Dini Şura yaradılır. 1994-cü ildə Ümumiqafqaz Ali Dini Şurasına A.P. sədr seçilir.

A.P.-nin 1991-ci ildə «Qafqazda İslam», 1992-ci ildə «İslamda ummət və şüubilik», 1998-ci ildə «Quranın təfsiri və tərcüməsi tarixi» kitabları nəşr olunur. Ona tarix elmləri doktoru adı verilir.

A.P. 1993-cü il 25 martda ABŞ, mayda Misirin nümayəndə heyəti ilə görüş, iyulda İordaniyanın paytaxtı Əmmam şəhəri, dekabrda Sudanın paytaxtı Xatrum şəhəri, 1994-cü il fevralda İstanbul, 1995-ci il oktyabrda Ankara və başqa mötəbər məclislərdə Ermənistanın işğalçılıq siyasətini pisləyib, dinləyiciləri Azərbaycanı dəsdəkləməyə çağırırdı. Şeyx yorulmadan Azərbaycan Respublikasının rifahı üçün çalışır.

**Əş-Şeyxiyyə** (və ya əl-həsəniyyə) - şeyxilər.

1. XVI əsrin 30-80-ci illərində Qərbi Xorasanda (İran) mövcud olan şiə sufi qardaşlığı. Onun banisi Mazandaran dərvişi Şeyx Xəlifə Şeyx Balu-i Amolinin müridi idi, lakin onun dünyagörüşündə çatışmazlıqların olduğunu görüb, müəllimini tərk edir və bir müddət şeyx Aləuddövlə Simnaninin xanəgahında istinadgah tapır. Sonra isə Xorasandakı Beyhaq vilayət mərkəzi Səbzəvardakı came məscidində yerləşir və orada kiçik möizələrlə çıxış etməyə başlayır. Şeyxin möizələri üçün münbit zəmin Beyhaq əhalisinin çoxunun şiə olması idi, buna görə də onun tezliklə çoxlu müridləri oldu. Onun düşmənləri-sünni fəqihləri onu məsciddə «dünyəvi çıxışlar» etməkdə, ilaliyyatçıların qadağalarına tabe olmamaqda və gizli fəaliyyət göstərməkdə günahlandırıb fətva verdilər. 1335-ci ildə Şeyx Xəlifə gizli olaraq öldürüldü və 1342-ci ilə qədər Ş. qardaşlığının başçısı onun müridi Həsən Curi oldu, o, Xorasan əhalisini Şeyx Xəlifənin təriqətinin ardınca getməyə çağırırdı. Həsən Curi müridləri gizli fəaliyyətə və onları üsyan qaldırmağa çağırırdı.

Ş. qardaşlığının ictimai əsasını sənətkarlar və ən kasıb kəndlilər təşkil edirdi. Lakin oraya başqa təbəqələrin nümayəndələri də qəbul edilirdi. Ş.-nin sərbadarlar hərəkatında ictimai rolunun böyük olması haqqında iki fikir var. Petruşevskiyə görə belədir, İ.Obenə görə isə, Həsən Curi özü üsyanda iştirak etmədiyi üçün onun belə də əhəmiyyəti yoxdur. Petruşevskinin fikri daha əsaslıdır. Həsən Curinin monqol hökmdarlarına göndərdiyi məktublara görə onlar xalq hərəkatı qalxacağından qorxub ölkəyə hücum etmədilər.

Sərbadarlar dövlətinin hakimlərinin qardaşlığın şeyxləri ilə münasibəti pis idi, onlar ikincilərin təsirlərindən qurtarmaq üçün Xondəmirin yazdığına görə Şeyx Həsən Curini Sərbadar dövlətinin əmiri Məsudun (1342) əmri ilə

öldürüldülər, 30 il sonra isə onun varislərindən və müridlərindən biri Dərviş Əzizin qətlini təşkil etdilər.

Ş. qardaşlığı XIV əsrin 80-ci illərinədək mövcud idi, sonra isə Sərbadar hakimi onu qadağan etdi. Qardaşlığın ruhani irsiliyi sonradan şeyx Bəyazid əl-Bistaniyə, ondan da altıncı imam Cə`fəru-s-Sadiqə keçdi.

**Ədəbiyyat:** İslam, 290; Петрушевский. Земледелие, 409-466; yenə o, Ислам, 350-361; D.Born. Die Geschichte der Serbedare nach Chondemir (Gelesen am 31. August 1849), (St.-Pbg.) 141-182; J.Aubin. Aux origines d`un mouvement populaire medieval le cheykisme du Bayhaq et du Nichapour.-S1, 1976, 5/2, 213-224.

2. XIX əsrdə İranda yayılmış şiə ilahiyyat məktəbləri-kəlamçılar. Ş. dinin və hədislərin əsaslarının yeni izahlarını verirlər: 12 imam, ilahi iradənin zühur etdiyi yer və Allahın arzusunun şərhçiləri olub, xilqətin vacib səbəbidirlər. Əgər bunlar olmasaydı, Allah heç bir şeyi yaratmayacaqdı. Onlara qarşı günah işlətmək Allaha qarşı günah işlətməkdir. Lövhi məfhuz, bütün Yer və göyləri əhatə edən imamın qəlbidir.

Ş.-nin banisi şeyx Əhməd b. Zeynəddin əl-Əxsa`i (1753-1826) Ərərbistanda doğulub, orada da dini təhsil alıb. 20 yaşında İraqdakı şiə müqəddəs yerlərinə ziyarət edir və orada müctəhidlərdən dini elmlərdən dərs demək icazəsi alır. Bəhreyn, sonra isə Bəsrədə yaşayır. 1806-cı ildə İranda Məşhəddəki 8-ci şiə imamı Əli ər-Rzanın məzarını ziyarət edir, sonra Yəzddə məskunlaşır və orada ilahiyyatdan dərs deyir. Yerli əhalinin hörmətini qazanır, Tehranda Fətəli şah Qacarın qəbulunda hörmətə layiq görülür. Onun məşhurluğu və şiə doktrikasınını qeyri ənənəvi şərhi imami ilahiyyatçılar tərəfindən hücumla qarşılandı. O, 1814 cü ildə Kermanşahda (İran) məskunlaşır. 1824-də Qəzvində dini mübahisə nəticəsində onun müctəhidlərdən son ayrılması baş verdi. Onun ruhani varisləri iranlı şagirdləri Seyyid Kazım Rəşti, Hacı Məhəmməd Kərim xan Kermani və Molla Məhəmməd Maməkanidirlər.

Ş. çoxlu rəvayətlərin olması və tamamilə tənqidin olmamısının əleyhinə idilər.

Ş. doktrinasına görə 12 imam Allahın iradəsini yerinə yetirənlərdilər, onlara qarşı günah işlətmək Allaha qarşı günahdır. Ş.-nin esxatologiyasını-öləndən sonra insan cisminin dirilməsini qəbul etmədiyinə görə tənqid edirdilər. Onların rəyincə insanın iki cismi var: biri müvəqqəti elementlərdən olub insan öləndən sonra torpağa dönür, o biri maddi deyil, görünməz aləmdədir, o, bu Dünyada dirilib Cənnət və ya Cəhənnəmə gedir.

Mehdinin gözlənilən gəlişi, imamlar və Bab elan olunan Seyyid Əli-Məhəmməd Şirazinin peyğəmbərlik missiyası haqqında onların ideyaları İranda Babilər hərəkatı üçün zəmin yaratdı. Ş.-in Babilər hərəkatında

iştirakı haqqında məlumat yoxdur. Əksinə şeyx Əhmədin şagirlərindən biri 1847-ci ildə Təbrizdə Babı günahlandıran komissiyaya daxil idi. Lakin XIX əsrin ortalarında Babilərə tətbiq edilən represseiya Ş.-ə da şamil edildi, onlar isə dövlətə qarşı çıxışlar etdilər.

**Ədəbiyyat:** İslam, 290-291; Cl. Huart, Shaikhi.-E1, 4, 279-280; A.Bausani. Al-Ahsa`i.-EI NE, 1, 304; yenə o. Bab.-E1, NE, 1, 856-858; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 252-253.

**Şeytan (cəmi-şəyatin)** - gizli, xəbis bir qüvvəni və ruhu ifadə edən bu söz lüğətlərdə «təkəbbürlü və asi olan cin və insan» mənasına uyğun gəlir. Ərəb mənşəli olub, İblislə qarşılqlı surətdə bir-birinə təsir edir. Quranda İblis və Ş.-nın adları bir neçə dəfə çəkilir. Adəmin yaradılışı hadisəsində ilk insana səcdədən imtina edənin İblis olduğu qeyd edilsə də, Cənnətdən qovulma hadisəsinin səbəbkarı Ş.-dır. Bizcə, bunlar eyni şər qüvvə olub, bir-birilərinin sinonimidir.

Şeytanlar özlərinin ağası İblis-əş-Ş.-la birlikdə Qiyamət günü Cəhənnəm əzabına düçar olacaq pis, Allaha və insanlara düşmən ruhların kateqoriyasıdır. Ş.-lar İblisin əlində insanları aldadıb, onları mömin işlərdən yayındırmaq və günah işlər görməyə sövq etməkdə əsas silahdır. Od və ya tüstüdən yaranmış Ş.-lar İblis tərəfindən yaradıla bilərlər. Onların adları ola bilər və müxtəlif xarici forma ala bilərlər. Ş.-lar rup şəklində müxtəlif ölkələrdə yaşayırlar, xüsusilə də öz əzəmətləri ilə Hindistan və Suriyada məşhurdular. Ş.-lar Quranda (alçaq, rəzil) istilahı ilə lənətlənirlər (15:17). Rəvayətlərə görə Ş.-lar müqəddəs tarixin surətlərini həmişə günah və səhv etməyə sövq etmişlər. Onların bir hissəsi Süleyman peyğəmbərə ( ə) tabe olmuş, sonradan yenə öz kafirlik işlərinə qayıtmışlar. Onlar insanlara namaz qılmağa mane olur, Allahı unutmağa məcbur edir, onlara cadugərliyi öyrədirlər və s.

Hər bir insanın özünün Ş. və mələyi olduğu hesab olunur, hər ikisi insanın qəlbi uğrunda mübarizə aparırlar. Ş. onların şəhvani cəhdlərini, ləzzət istəklərini, qəzəb, hirs, paxıllıq və s.-sini onu Allah yolundan çaşdırmaqda istifadə edir, bəzən insan bunu hiss etmir. Ş.-ı qovmaq üçün Allahı köməyə çağırıb, əuzu bi-illahi min əş-şeytani lə'ini-r-rəcim və ya Quranın ayələrini (2:268/271) demək (oxumaq) lazımdır.

Müsəlman ilahiyyatçıları Ş.-nın cinlərlə əlaqəsini müzakirə etmişlər. Ən çox yayılan nöqteyi nəzərə görə Ş.-lar cinlərin ən çox inadkar və kafir (inanmayan) olanlarıdır. Başqa rəyə görə, onlar kafir olan və Cəhənnəmdə cəza alanlardır, o biri dəstə isə Allaha inanan və Cəhənnəmdən can qurtarandırlar. Quran və ilahiyyat əsərlərində əş-Ş. və İblis tez-tez bir-birini əvəz edir, belə ki, Ş.-lar İblisin iradəsi və əmrini yerinə yetirənlərdirlər.

Başqa tərəfdən bunlar yəhudi-xristian şeytan-satana və onun qoşunlarıdır , onlar islamaqədərki Ərəbistada da var idilər, Quran onları Dünyadakı şər və dinsizliyi başa salmaq üçün gətirmişdir.

**Ədəbiyyat:** İslam, 289; ət-Təbəri. Tarix, 1, 78-119; yenə o. Təfsir, 14, 11; əl-Qəzali. İhya, 3, 25-41; İbn əl-Cövzi. Təlbis, 23-39; Lisan əl-ʹərəb, 17, 104-106; Tac əl-ərus, 9, 253-254; Horovitz. Untersuchungen, 87; Eichler. Die Dschinn; Gaudefroy- Demombynes. Mahomet, 315-320; Beltz. Sehnsucht, 156-163; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 254-255.

**Şəʹban** (Hindistan və Pakistanda-şəbi barat) müsəlman ay təqvimli ilinin 8-ci ayı. İslama qədər Ş.dörd müqəddəs aydan biridir (Q. 9:36), belə ki, qədim Ərəbistan təqviminə görə o, yayın uzun günəşli gününə düşürdü. Bu vaxt yeni ilin başlanğıcında bir çox xalqlarda mərhumları yad etmək, günahları yüngülləşdirmək mərasimləri, o cümlədən oruc tutmaq adət idi.

Orta əsr İslamında orucluğun Ş. və ya Rəcəb ayında olması haqqında mübahisələr olurdu. Bunu hədislərlə də təsdiq emək istəyirdilər ki, bu bidəʹdir. Ş.-ın 15-i gecəsi islamaqədərki Ərəbistanda çox yayılmış xalq bayramı –leylət əl-bərā`a («yaradıcı gecə», «azad olma»-günahların bağışlanması gecəsi) qeyd edilirdi.

Müsəlman xalq inanclarına görə Ş.-ın 14-dən 15-ə keçən gecə həyat ağacı titrəməyə başlayır, onun yarpaqlarında bütün canlı insanların adları yazılmışdır. Hesab edirlər ki, titirəyişdə kimin yarpağı düşürsə, o, ilin sonunadək öləcək. Bu gecə Allah göyün «aşağı təbəqəsinə» enib, möminlərin dualarına cavab olaraq onların günahlarını bağışlayır.

Leylət bərā □ada Yasin surəsini oxumaq qəbul olunub. Hindistan və Pakistanda fəqirlərə yemək verilir, şirniyyat paylanır.

13-15-ci günlər «ağ gecələr» (günlər) adlanır və bir çox ölkələrdə oruc tutulur.

Ş.-ın 3-cü günü əl-Hüseynin, 5-ci günü isə əl-Həsənin doğulduqları günlər sayılır. 15-i Ş. isə qiblənin Yerusəlimdən Məkkəyə keçməsi gün hesab edilir.

Ş.-ın hörmətli olmasını onun «müəzzəm» titulu ilə qeyd edilməsi də göstərir.

**Ədəbiyyat:** İslam, 287; Бируни. Памятники, 368, 378-379; Лэйн. Нравы, 367-368; Grünebaum. Festivals, 52-54; Kister. Studies, XII; G.Narducci. Notte di mezzo Sha □ ban. –La Rivista d`Oriente (B.m), 1933, №; 2-3; Wensinck. New-Year, 6-11, yenə o. Sha`ban.-Sh.EI, 508;

**Əş-Şəhadət** - 1. La ilahə illə I-lah və Məhəmədun rəsulu I-lah (Allahdan başqa İlah yoxdur, Məhəmməd onun elçisidir) ibarəsi ilə ifadə olunan islam dininin rəmzinin birinci və ən mühüm qaydası, İslamın ilk iki

ehkamını əhatə edir. Dində Ş. islami imanın iqrarıdır. Ş. - başqa sözlə «Kəlimə tayyibə» həm dua, həm də namazın bir hissəsi kimi ilk müsəlmanların başqa insanlardan, ilk növbədə isə bütpərəst-çoxallahlılardan seçilməsi formulası kimi meydana gəlib. Döyüş zamanı Ş. hərbi şüar kimi istifadə olunduğuna görə buradan şəhid İslamın düşmənlərinə qarşı vuruşda ağızlarında Ş. qətl olunan məzlum, ilk növbədə döyüşçüyə deyilir.

2. Hər hansı bir fakt üçün verilən şahidin Ş.-i. Ş.-in həqiqi olması üçün o, birbaşa, (yəni başqa adamın sözündən yox) iki kişi və ya dörd arvadın ağzından çıxan olmalıdır.

Qulun Ş.-i qadının Ş.-inə bərbərdir. Bir məzhəbə görə başqa din sahibinin Ş.-i müsəlmanın Ş.-inə bərabərdir, ancaq o, öz dininin rəmzinə and içməlidir. Başqa məzhəb isə onu heç qəbul etmir. Ş. qaydası Əbu Yusuf tərəfindən ətraflı izah olunub (VII əsr). Ş. (şahidlik) indi həqiqəti təyin etmək üçün istifadə olunan ən mühüm üsullardan biridir.

3. Din uğrunda əzablı ölüm (bax: şəhid)

**Ədəbiyyat:** İslam, 296; Əbu Yusuf. Əl-Xərac; əş-Şeybani. Əl-Cami əs-səğir, 92-95; Zahid ibn Ali. Corpus juris, 186-194; Tyan. Histoire, 1, 357-361; Schacht. İntroduction, 192-195; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 255.

**Şəhid** (cəmi şühəda) - Özünü dinə görə qurban verən, əzablı ölümlə həlak olan, qətlə yetirilən, torpağının azadlığı uğrunda həlak olan.

Hədislərə əsasən Ş.-lər öz imanlarını kafirlərə qarşı mübarizədə ölümləri ilə sübut edirlər. Ona Cənnət vəd olunub, o, oraya qəbir sınağı və müsəlman məhşərini (əl-bərzəx) keçmədən, qüsulsuz gedə-dəfn oluna bilər. Ş.-in bütün Yer üzərindəki günahları bağışlanır və o, Cənnətdə Allahın taxtı yanında yüksək mövqe tutur.

Sonralar bütün zorakılıqla öldürülənlər (insan, heyvan tərəfindən ölüdürülənlər, təbii fəlakətdə, epidemiyada ölənlər, boğulanlar, zəhərlənənlər, Həccdə ölənlər və s.) şühəda adlanırdı.

Din uğrunda həlak olmağın şöhrəti, Ş.-ə vəd olunan Allaha yaxınlıq (xüsusilə də şiələrdə) bu şərəfə nail olmağa cəhd etməyə səbəb olurdu. Bəzən mömin ilahiyyatçılar belə cəhdə qarşı çıxmaq üçün belə ölümü İslamın intihar hesab etdiyini deyirdilər. Lakin İranda İraqla müharibə vaxtı şəhidlik çox geniş yayılmışdı və ailələrə başsağlığı deyil, təbriklə xəbər verilirdi. Şiə ruhaniləri daim indiki vəziyyəti İslamın əvvəlində olan imam əl-Hüseyn (ə) - şəhidlik şahının ölümü ilə müqayisə edirlər. Şiələrin ən məşhur şüarlarından biri «Dünya Kərbəla (hər yer Kərbəla), hər gün Aşuradır». Şiələrdə imam əl-Hüseynin, onun qohumları, ardıcıllarının və başqa Ş.-lərin, xüsusilə də imamların əzabları haqqında çox geniş ədəbiyyat

var. Müasir şiə nəzəriyyəçiləri şiə icmasının daim şəhadət halında yaşadıqlarını iddia edirlər və bunu gələcək nəsillərə ötrürürlər. Müasir rəyə görə Ş. İslamı başa düşüb, onu qəbul edən, tək Allahın həqiqiliyinə şəhadət verən, o Dünyaya və onun ədəbidiliyinə inanan, bununla da bu Dünyaya bağlılıqdan azad olan, ölümdən qorxmayan, cihadda iştirak edən, şəhadəti qəbul edəndir.

**Ədəbiyyat:** İslam, 296; Əli Şəri′əti. Şi′ə. Tehran, 1979; Mahmud Taliqani. Cihad və şəhadət. Ba inzimam-i «İnqilab-i islami-yi İran» .(Б.т.б.г.); A.J.Wensinck. The Oriental doctrine of the martyrs. Amsterdam, 1921. (Mededelingen Akademie Amsterdam. 53, Ser. A. № 6); W.Heffening. Shahid.-EI, 4, 279-280.

**Əş-Şəhrəstani,** Əbülfəth Məhəmməd b. Əbdülkərim (1075-1153) - şafei ilahiyyatçı və fəqih, din və dini-fəlsəfi sistemlərinin nüfuzlu tarixçisi. Mənşəcə (İrandan, Xorasanın şərqində) Şəhrəstan şəhərindəndir, farsdır, ənənəvi müsəlman təhsili almışdır, Nişapurda və Qurgəncdə öz vaxtının məşhur alimlərinin hədis, fiqh və kəlam haqqında mühazirələrini dinləmişdir. O, çox səyahət edib və Xilafətin müxtəlif tərəflərində alimlərlə disputlar keçirməklə məşhurlaşdı. Lakin onu filosoflar və batinilər-ismaililərə yaxınlığına görə tənqid də edirdilər. 1116-cı ildən üç il müddətində Bağdadın məşhur Nizamiyyə mədrəsəsində mühazirələr oxumuşdur. O, doğma şəhərində vəfat etmişdir.

Əş-Ş.-nin dini-siyasi baxışlarını bir cürə müəyyənləşdirmək mümkün deyil. O, bir tərəfdən əş′əri (Kitab nihayətü-l-iqdam fi elmi-l-kəlam), digər tərəfdən ismaili-nizari idi və öz mühazirələrində heç vaxt Quran və Məhəmməd peyğəmbərə (s) müraciət etməmişdi. Onu Quranı fəlsəfi cəhətdən şərh etmək cəhdinə görə tənqid edirdilər (Məfatihu-l-əsrar və məsabihu-l-əbrar, 1146). Öz ismaili baxışlarını əş-Ş. 1192-ci ildə tərtib etdiyi Kitabu-l-müsāra′a polemik əsərində Əbu Əli İbn Sinanı görkəmli filosof kimi qəbul edərək, ona qarşı metafizikanın yeddi sualını qoyur, onu təkzib edib, öz təyinatını vermişdir. Onun ideyaları, işlətdiyi istilahlar ismaili təlimindən irəli gəlir.

Göstərilən üç əsərdən başqa əş-Ş.-nin ilahiyyat, fəlsəfə və dinin tarixinə aid ondan çox əsərinin adlarını qeyd edirlər: Kitab təlxis əl-əqsam liməzahib əl-ən′am, Kitab ğayət əl-məram fi elm əl-kəlam, Kitabu-l-irşad ilə əqaidi-l-ibad, Kitabu-l-mənahic və -l-bəyyinat, Kitabu-l-aqtar fi-l-üsul, Kitab şərh surət Yusuf, Kitabu-əl-məbdə və -l-mə′ad, Kitab dəqaiq (və ya nihayət) əl-eyham, Tarixü-əl-hukəma (və ya əl-fələsifə), Kitab şubuhat Aristutalis və İbn Sina və nəqdihə, Kitabu-l-cüz` əlləzi lə yətəcəzzə`u və s.

Əş-Ş.-nin ən məşhur əsəri Kitabu-l-miləl və -n-nihəldir ki, o, 1127-ci ildə yazılaraq, vəzir Səncər Mahmud b. Müzəffər əl-Xarəzmi (1127-1132)

və ya ələvi naqibi Tirmiz Əli b. Cəfər əl-Musəviyə həsr olunub. Kitabın məşhurluğunu onun bir neçə dəfə fars dilinə tərcümə olunması da göstərir, ən erkən tərcümə olunan teymuri hakimi Şahruh üçün 1440-cı ildə olandır.

Kitabu-l-miləl və -n-nihəl iki hissədən ibarətdir. Birinci hissə İslamın daxili tarixinə aid olub, ilahiyyat məktəbləri və kiçik icmalardan bəhs edir. Əş-Ş. isə ilahiyyatın əsas problemlərini göstərməyi tövsiyə edirdi. O, dörd əsas problemi qeyd edib ki, onlar da dörd böyük məktəbin (qadirilər, sifətilər, xaricilər və şiələr) yaranmasına səbəb olub. Onlardan da 73 kiçik icma yaranıb.

İkinci hissədə isə yəhudi, xristian, maniheyi, zərdüşti, sabii, bəhmənilərin dini və dini-fəlsəfi təlimləri görkəmli yunan və müsəlman filosoflarının baxışları, müxtəlif bütpərəst ayinləri tərəfdarlarının görüşlərinin şərhdir. Əş-Ş.-nin əl-Bağdadi (vəf. 1037) və İbn Həzmdən (vəf. 1064) fərqi mübahisədən çəkinib sübut olunmuşu şərh etməkdir. Yuxarıda qeyd olunan əsər əslində ilk orta əsr Yaxın Şərq və Aralıq dənizi boyu xalqlarının dini fəlsəfi ensiklopediyasıdır.

Müsəlman tarixşünaslığı üçün birinci dərəcəli abidə olan Kitabu-l-müləl bir neçə dəfə Avropa, Misir, Türkiyə, Hindistanda nəşr olunub. O, fars, türk, alman, ingilis və rus (I hissə) dillərinə tərcümə olunmuşdur.

**Ədəbiyyat:** İslam, 297-298; аш-Шахрастани. Книга о религиях.

**Əş-Şə′rani** (və ya əş-Şə′ravi), Əbdülvəhhab b.Əhməd (1493-1565), məşhur Misir sufisi və ilahiyyatçısı. Saqiyət Əbi–Şə′ra kəndindəndir. O, öz mənşəyini Zeydilər sülaləsi, sonra da ələvi Məhəmməd bin əl-Hənəfiyə bağlayır. Erkən yetim qalan əş.Ş. Qahirəyə köçüb ömrünün axırınadək orada yaşayır. Onun ata əvəzinə ilk müəllimi şeyx əl-Həmri (vəf. 1532) olmuşdur. Əş-Ş.-yə sufi fiqhini bir müddət Qahirənin baş qazisi olmuş görkəmli Misir fəqihi Zəkəriyyə əl-Ənsari öyrətmişdir. «Sufi elmlərinin» əsasları ilə də əş-Ş. əl-Ənsarinin əl-Quşeyrinin «Risalə fi-t-təsəvvüf» əsərinə yazdığı şərh vasitəsilə tanış olmuşdur. Sufi təcrübəsində isə onun müəllimləri Əli əl-Həvvas və onun şagirdi Əfzələddin əl-Əhmədi olmuşdur. Öz əsələrində əş-Ş. onları çox tərifləyir. İbn Ərəbinin baxışları ona çox böyük təsir etmişdi. Qahirədə o, tez məşhurlaşdı. Şeyx əl-Həmri məscidindən o, Umm Hund mədrəsəsinə gedir və onun yanına sadə adamlarla yanaşı görkəmli vəzifə başçıları da gəlirdirlər.

Varlı qazi Əbdülqədir əl-Məğazili onun üçün mədrəsə tikib, özünün bir neçə torpaq sahəsini ona vəqf edib, əş-Ş. və onun nəslinə ordan alınan gəliri vermişdi. Bu, əş-Ş.-yə əliaçıqlıqla sədəqə verməyə, dilənçiləri, əlilləri, habelə özünün çoxsaylı müridlərini yedirməyə imkan verirdi ki, bu da onu daha da məşhur edirdi. Onun şöhrəti fəqihlərin qısqanclığına səbəb olurdu, lakin vəzir Əli-paşa və bir neçə əmir onu müdafiə edirdi. Əş-Ş.-nin xatirəsi

Qahirədə bir neçə əsr unudulmadı. 1774-cü ildə onun məzarı üzərində onun adına məscid tikildi, məscidin olduğu küçə və ətraf məhəllə bu gün də əş-Ş. adlanır.

Əş-Ş. müxtəlif müsəlman elmlərinə -hədis, fiqh, sufilik və s. aid 60-dan çox əsər yazmışdır. Əl-Quşeyri və əl-Qəzalinin şagirdi olan əş-Ş. əş′əri kəlamı təbliğatçısı və sufiliyin «mömin bəndəsi» kimi çıxış edirdi. İbn Ərəbinin ona böyük təsirinə baxmayaraq, onun vəhdət əl-vücudunu qəbul etmirdi. O, hər şeydə Allaha təvəkkül etməyi birtərəfli başa düşənləri mühakimə edirdi, çünki bu, sufilikdə «çoxlu tüfeyli dilənçi və hazıryeyənlərin» yaranmasına səbəb olurdu.

Fiqh sahəsində əş-Ş.-nin xidməti onun tərəzi (mizan) nəzəriyyəsini hazırlamasındadır. O, qeyd edirdi ki, dörd sünni məzhəbi arasındakı mübahisələr şəriət qaydalarının mütləqlik dərəcəsinə aiddir. Onların hamısının fikirləri düzdür, ancaq biri bu, o birisi isə başqa bir fikri ya sərt və ya yumşaq deyir. Bir məzhəbdə olan vacib deyil ki, ondakı bütün qaydalara tam əməl etməlidir, əgər bu, ona ağır gəlirsə o, başqa məzhəbdəkinə müraciət edə bilər. İlahi atributlar məsələsində o, İbn Ərəbi ilə həmrəy idi.

Əş-Ş. sadə xalq-sənətkar və kəndlinin əməyinə çox hörmət edib, hökumət məmurları və onlara yaxın ilahiyyatçı və sufi şeyxləri tənqid edirdi. Lakin özü haqqında da, yüksək fikirdə idi (Lətaifu-l-minan).

**Ədəbiyyat:** İslam, 291; Şmidt. Abd əl-Vəhhab; M.Smith. Al-Sha′rani the mystic.-MW. 1939, 29, 240-247; Abd al-Wahhab ash-Sha′rani. II Libro doni dei - Kitab lata'if al-minan. Napoli, 1972; Trimingham. Orders, 220-225; M.Winter. Sosiety and religion in early Ottoman Egypt: studies in the writings of Abd al-Wahhab al-Shar′ani. New Brunswick, 1981.

**Əş-Şəria-şəriət** («düz, doğru yol»: icbari, nüfuzlu, qərara alınmış qanun- qaydalar, təlimat) - Quran və sünnə tərəfindən möhkəmləndirilmiş qaydalar kompleksi, külliyyatı, onlar inamı təyin edir, müsəlmanların əxlaqi dəyərlərini və vicdan azadlığını formalaşdırır, habelə onların hərəkətlərini tənzimləyən konkret qaydalar mənbəyi kimi çıxış edir.

İslam ənənəsi Ş. məfhumunu Quranda onun işlənməsi ilə bağlayır (45:18/17). Quranda bu kökdən olan şərə′a felinə-qanunlaşdırmaq, nəyi isə mütləq etmək mənalarına da tez-tez rast gəlinir (42:13/11).

İslam ideologiyasında onun əş-şər′, əş-şir′a və ət-təşri′ islami (islamiyyə) sinominləri var ki, bunlar da Allah tərəfindən qanuniləşdirilmiş həyat tərzidir. Buna görə onu çox vaxt dini qanun adlandırırlar. Ş. qanunlarının mənbəyi Allah tərəfindən Quranda verilmiş və Peyğmbər (s) tərəfindən xalqa çatdırılmışdır, deməli onların mənbəyi Quran və sünnədir.

Din xadimləri Quran və sünnənin həyatın bütün Ş. sahəsinə aid birbaşa və ya bilavasitə cavab olduğunu söyləyirlər. Lakin onlar tam dəqiqiliyi ilə, konkret bir məsələyə aid deyil. Belə məsələləri həll etmək üçün əl-ictihadın köməyinə müraciət olunur. Ş. qanunları isə Quran və sünnədə ümumi şəkildədir. Bəzən Ş.-i əl-fiqhlə eyniləşdirilər. Hüquqşünaslıq əl-fiqhi Ş. elmi, biliyi, hüquq əl-fiqhi isə Ş.-in qaydaları kimi çıxış edir. Bəzən isə Ş. və əl-fiqh bir-birinə qarşı qoyulur, əl-fiqh Ş. sahəsinin qurtardığı yerdə başlayır.

Müsəlman ideologiyasına görə Ş. Quran və sünnədəki dini ehkamı (əl-əqaid), əxlaqı, ənənəvi qaydaları (əl-ibadət) və insanların qarşılıqlı əlaqələrini (əl-muəmalat) özündə cəm edir. Buna görə də Ş. əl-fiqhdən daha geniş bir məfhumdur. Ş. və hüquq əl-fiqhi ancaq mübahisəsiz və aydın məsələlərdə (qətiyyət əd-dələlə) uyğun gəlir. Ş. əksliklər, ağ ləkələr və səhvlərdən xalidir, lakin hüquq əl-fiqhi və hüquqşünaslıq əl-fiqhi bunlardan xali deyil.

Müctəhidlər 1869-1877-ci illərdə Osmanlı imperiyasında vətəndaş və prosessual kodeksləri rolu oynayan əl-fiqhin bütün mənbələrini öyrənmək əsasında 99 qaydanı Məcəllət əl-əhkam əl-ədliyyəyə-əl-fiqhin qaydalar külliyyatına daxil etmişlər. Onların əl-ictihad nəticəsində yarandığına baxmayaraq onlar Ş.-in başqa qaydaları ilə müqayisədə daimi və dəyişməz hesab edilir. Müasir islam ideologiyasına görə hüquq əl-fiqhi Ş.-in elementi deyil və onunla heç uyğun gəlmir. Ş. əl-fiqhin mənbəyinin əsası rolunu oynayır.

Tarixi və ictimai baxımdan İslam həyat tərzinə Quran və sünnədə olan ümumi təlim kimi yanaşmaq olar. Orada müsəlmanın ehkam, əxlaq, daxili aləmi, əqidə və dini görüşünə toxunulur. Başqa cür desək Quran və sünnənin qaydaları Ş.-in mövzusunu təşkil edir, o isə öz növbəsində əl-fiqhin (hüquq, hüquqşünaslıq) ideya mənbəyi rolunu oynayır. Belə olduğu halda Ş. təkcə fiqhlə deyil, başqa dini fənnlərlə də bağlıdır. Ş.-də namaz, qüsul, oruc, zəkat, dini vergilər, şəxsi mülk, daşınan və daşınmaz əmlak, həcc və cihad haqqında təfsilatlı təlimatlar var.

**Ədəbiyyat:** İslam, 292-294; İbn Xəldun. Müqəddimə (Б.т.б.г.), 444; Петрушевский. Ислам, 125; Массе. Ислам, 83-109; Сюкияйнен. Право, 71-64; M. əl-Qəzali. Fi-l-əqidə va -ş-şəriə. Qahirə, 1959; M.S. əl-Əşmavi. Usul əş-şəriə. Beyrut, 1983; İ.Goldziher. Le dogme et la loi de İ`İslam. P., 1920; J.Schacht. Shari`a.-Sh EI, 524-529; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 255.

**Şərif** (cəmi əşraf, şürəfa, «tanınmış», «xeyirxah») - Məhəmməd peyğəmbərin (s) nəsillərini bildirən istilah (sinonimləri seyyid, mir, əmir-İran, Türkiyə, Hindistan; həbib – «sevimli» - Ərəbistan, Sumatra; səbzpuş –

«yaşıl geyimli»-Hindistan. Bəzən bu istilahla əl-Həsən və əl-Hüseynin nəsillərini qeyd edirdilər.

Əvvəlcə bu istilahla müsəlman əyanları-məşhur ailə başçıları qeyd edilirdilər. Şiə təbliğatı nəticəsində Ş. istilahı ən çox Məhəmməd peyğəmbərin (s) nəsillərinə -əhlu-l-beytə verilməyə başaldı. Bu təqdimat dini nüfuzluların razılıq rəyi ilə təsdiqləndi, lakin əhlu-l-beyt məfhumunun həcmi haqqında çox kəskin mübahisə gedirdi.

Ş.-ə hörmət edilməsi vacib idi. Bu, Quranla da əsaslanır (42:23/22) və Məhəmməd peyğəmbərin (s) özünə hörmət etməyin nəticəsi idi. Ş.-i incidən şəxsə nifrət edilir, onun incitdiyi şəxs isə bunu çox da şişirtməli deyildi. Heç bir Ş. Qiyamət gününün cəzasını çəkməyəcək, namazda onlar qeyd olunur, onların ən yaxşıları vəli sayılırdı. Ş.-lər başlarına yaşıl zolaqlı calma (Misir paşası əs-Seyyid Məhəmməd əş-Şərif-1596) qoyurdular. Ş.-lər sədəqə ala bilməzdilər. Onların içərisindən onlara başçı-naqib seçililirdi. IX əsrdən böyük şəhərlərin öz naqibləri təyin olunurdular, onlar baş naqib-naqibü-n-nüqəbaya tabe idilər. O, şəcərəni yaxşı bilməli idi ki, Ş.-lərin şəcərəsinin həqiqilyini yoxlaya bilsin, baş naqib Ş.-lərin işləri və hərəkətlərinə nəzatət etməli, onların maraqlarını qorumalı və vəqflərini idarə etməli idi. O, həm də məhkəmə işi və başqa işlərə baxırdı.

Orta əsrlərdən Ş.-lər bütün müsəlman aləminə yayıldı. Bəziləri isə Təbəristan, Deyləm, Qərbi Ərəbistan, Yəmən, Mərakeş və başqa əyalətlər və dövlətləri müxtəlif müddətlərə idarə etməyə imkan əldə etmişdilər. Lakin onların çoxu kasıb yaşamış və yaşayır.

**Ədəbiyyat:** İslam, 294; Мец. Ренессанс, göst.əs. Westermarck. Pagan Survivals, Index; Hodgson. Venture, Index; C.van Arendonk. Sharif.-Sh EI, 529-533.

**Şəth** (cəmi şətahāt və ya şəthiyyat; şətaha feli «hərəkətdə olmaq», «çayın sahilləri tərəfindən suyun sıxışdırılıb coşdurulması-sufinin vəcd vaxtı özünə nəzarəti itirəndə dediyi söz və ya vəcdin özü». Sufi nəzəriyyəçiləri felin «içəridəki hisslərin xaricə çıxması» mənasına görə onu Allahı görərkən (müşahədət əl-haqq) özünün «mənim»ini öldürərək (fəna an nəfsihi), Onunla birləşməyi (ittihad) əlaqələndirirdilər. «Həsrolunmamışlar» bunu hiss edə bilməzdirlər.

Vəcd çıxışlarından ən çox məşhuru əl-Bistami (vəf. 875), ət-Tüstəri (vəf. 896), əl-Həllac (vəf. 922), əş-Şibli (vəf. 946), Əbu Səid b. Əbi -l-Xeyr (vəf. 1048) və başqalarınındır. Ənə -l-Haqq-Mən Haqqam (Allaham) deyən Həllacı edam etdilər, o biriləri də öz cəzalarını aldılar.

Sufilər və onları xoşlayan ilahiyyatçılar vəcd deyimini şərh etməkdən ya imtina etmək və onları «xüsusi» (xəvvas) saymaq və ya onları İslamın «mömimləri» hesab etməyi məsləhət görürdülər, bu açıq çəkişməyə gətirib

çıxardırdı (əs-Sərrac). Onlar vəcd vaxtı deyiləni (şəthi) sufinin deyil, Allahın dediyini söyləyirdilər. Əl-Qəzali, əl-Cüneyd, İbn Ərəbi və s. bunu kəskin tənqid edirdilər. Şəthiyyatdan poeziyada da istifadə edirdilər (əl-Həllac, İbn əl-Fərid, Rumi və s.). Ümumiyyətlə isə, vəcd çıxışı sufilərə dinləyiciləri özlərinə cəlb etmək üçün idi.

**Ədəbiyyat:** İslam, 294-295; əs-Sərrac. Əl-Luma', 375-409; əl-Bağdadi. Əl-Fərq, 246-247; əs-Səfədi. Əl-Vafi, 175-177; əl-Qəzali. İhya, 1, 32-34; əl-Cürcani. Ət-tə'rifat, 86; İbn Xəldun. Müqəddimə, 18, 79; Massignon. Essai, 108-109, 119-120; yenə o. Ana al-Haqq. Nwyi. Ibn Abbad. Index; C.W.Ernst. Words of Ectasy in Sufism. N.V., 1985; L.Massignon. Shath-ShEI, 533.

**Əş-Şibli**, Əbubəkr Dulaf b. Cəhdar (b. Cəfər) (861-946) - Bağdad sufisi, əl-Cüneyd və əl-Həllacın ən yaxın şagirdi və ardıcılı. Səmərrada doğulub, atası xəlifənin baş hacibi, əmisi İskəndəriyyədə əmirul-üməra idilər. Əş-Ş. özü də xəlifə Müvəffəqin yanında hacib olmuşdur. 40 yaşında Şimali İranda yerləşən Dəmavəndə vali təyin olunur, lakin gözlənilmədən təyinatdan imtina edir, «peşman olur», məşhur Bağdad sufisi Xeyr ən-Nəssacın məsclisində sufiliyi qəbul edir. Əvvəlcə o, əl-Həllacın «qatı» sufiliyinə rəğbət bəsləyirdi. Lakin əl-Həllacın təqib olunması və çətin həyatı onu öz baxışlarını dəyişib əl-Cüneydə xas ehtiyatlı mövqe tutmağa məcbur etdi. Məlumat var ki, əş-Ş. əl-Həllacdan üz döndərib, seçilmişlərin «sirrini» yaydığına görə onu günahlandırır. Əl-Həllacın edamından sonra əş-Ş.-nin hərəkətləri qeyri-adi oldu. O, bahalı paltarlarını, buxurlarını yandırıb, özünü əldən salırdı və s. Onun bu hərəkətlərinə görə Bağdad hakimiyyəti onu dəli hesab edərək, ciddi qəbul etmirdi. Görünür, əş-Ş.-nin tanınmış əcdadları və maliki məzhəbinə aid olması ona kömək olmuşdu.

Tərcümeyi-halçıların rəylərinə görə əş-Ş. hüquq və Quran elmlərində ən görkəmli nüfuzlardan geri qalmır, hətta onları ötürdü. Son əsərlərində o, Allaha yaxınlaşmaq üçün dünyəvi həyatdan əl çəkib, özünə nəzarət etməyi məsləhət görür. Onun ən tanınmış şagirdləri Əli əl-Xusri və Əbülqasım ən-Nəsrabazidir. Onun tərcümeyi-halına, deyimləri və şeirlərinə bütün nüfuzlu sufi traktatlarında rast gəlmək olar. Öz məşhurluğuna o, özünün original baxışlarına görə yox, qəribə hərəkətləri və fikirləri, görkəmli adamlarla yaxınlığı və sufiliyin tarixindəki məşhur hadisələrə borcludur. Onun Bağdadda olan qəbri indi də ziyarət edilir.

**Ədəbiyyat:** İslam, 300; əs-Sərrac. Əl-Lum'a, 395-406; əs-Süləmi. Təbəqat, 337-348; əl-Bağdadi. Tarix Bağdad, 14-389-397; əl-Quşeyri. Ər-Risalə, 33-34; Abdulla b. Əs'ad əl-Yəfi`i. Mir`ət əl-cənan, 2, Heydərabad, 1337 h., 317-319; Massignon. Passion, 1, 41-43; əl-Hujwiri. Kashf, 155-156, Index; Əmmar. Təzkirə, 2, 342-343; İbn Khallikan. Dictionary, 1, 511-513; GAS, 1, 660.

**Əş-Şiə** («tərəfdar», «dəstə», «partiya») - şiələr, Əli b. Əbi Talib və onun nəsillərini Məhəmməd peyğəmbərin (s) qanuni varisləri və ruhani əvəzedicilərini hesab edən müxtəlif qrup və icmalar. Məhəmməd peyğəmbərin (s) vəfatından sonra onun tərəfdarları (Səlman əl-Farisi, Əbuzərr əl Qifari, əl-Miqdad və s.) Əlinin (ə) varisliyi uğrunda mübarizəyə qalxıb əmirəlmöminliyin Peyğəmbər (s) ailəsində qalmasının vacibliyini irəli sürüb Əbubəkrə beyəti qanunsuz elan etdilər. Mübarizə gedişində VII əsrin ikinci yarısında əmirəlmöminliyin Peyğəmbərin ən yaxın qohumu və ruhani varisi Əliyə verilməsini tələb edənlərin (əş-şiə) dini-siyasi qrupu yarandı. Və beləliklə, VII əsrin ikinci yarısında İraqda xəlifə Əlinin tərəfdarları arasında siyasi bir cərəyan kimi şiəlik yarandı. Sonra bu mübarizə sülalə çərçivəsindən çıxdı və müsəlman aləminin taleyinə böyük təsir etdi.

Əlinin (ə) qətlindən sonra onun tərəfdarları imamətliyin Peyğəmbər ailəsinə verilməsi uğrunda mübarizəni davam etdirdilər. Əli tərəfdarlarının bir hissəsi onun Peyğəmbərin (s) ən yaxın qohumu olduğu və şəxsi keyfiyyətlərinə görə, digər hissəsi (Qənbər, Abdulla b. Səba və s.) imamətin ilahi olduğuna və Peyğəmbərin (s) Əlini özünün ruhani varisi (vəsi) təyin etdiyi üçün onun əmirəlmöminin olmasını düzgün hesab edirdilər.

Ş.-lərin məğlubiyyəti (əl-Hüseynin şəhid olması, əl-Muxtarın çıxışının dağıdılması) onların ancaq dini mübarizə aparmasına imkan verirdi. Sünnilər və xaricilərdən fərqli olaraq (onlar imamı seçmək yolu ilə deyil, təyin etmək istəyirdilər) Ş.-lər imamlığın İlahidən gəldiyi və onun ancaq Əli (ə) nəslindən olmasını qanuni hesab edirdilər. Bundan əlavə hədislərdə Peyğəmbərin (s) vida həccindən qayıdarkən Qədir Xumda Əlini (ə) öz vəsisi təyin etməsi də bunun üçün əsas idi. Bu fikirlər Əməvilər hakimiyyətindən narazı əhali arasında tez yayılırdı. Bu təbliğatlar öz işini gördü. Əməvilər devrildi, lakin hakimiyyətə haşimilərin başqa bir qolu, Peyğəmbərin (s) qohumları Abbasilər gəldilər. Ələvilər mübarizəni davam etdirsələr də, onların bir hissəsinin Abbasilərə meyl etdikləri üçün şiə hərəkatı zəiflədi. Artıq VIII əsrdə şiə hərəkatı «mülayim» və «qatı» şiələrə ayrıldı. Ş.-in «mülayim» qoluna zeydilər və imamiləri aid edirlər. «Qatı» Ş.-lərə isə ələvi imamlarının İlahidəngəlmə olduqlarını iddia edənlər və ismaililər aid edilirlər. İsmaililərin təlimi hətta müstəqil din səviyyəsinə çatmışdı, bunlar da çoxsaylı icmalara parçalandı.

Hz. Əlidən başlayaraq Ş-lərin 12 imamı olmuş, onların əksəriyyəti müxtəlif üsullarla İslam xəlifələrinin fitvası ilə qətlə yetirilmişlər. Onların sonuncusu Məhəmməd Mehdi Sahibü-z-Zaman (873-cü ildə doğulub) Ş. etiqadına görə Allah tərəfindən qeybə çəkilib və Onun izni ilə zühur edib, Dünya üzərində əmin-amanlığı, haqqı bərqərar edəcəkdir.

Ş-lər Hz. Əlinin məqbərəsi olan Nəcəf Əşrəfə, İmam Hüseynin və qardaşı Əbülfəzl Abbasın məqbərələri olan Kərbəla və İmam Rizanın

məqbərəsi olan İranın Məşhəd şəhələrinə ziyarətə gedirlər. Ş-lərin ən geniş yayılmış qara bayramı Məhərrəm ayının onu-Aşura günüdür.

Bütün İslam tarixi boyu Ş.-lər dəyişən uğurla Əli (ə) nəsli üçün mübarizə aparmışlar. Onların ən mübarizləri zeydilər və ismaililər idilər ki, Təbəristan, Yəmən, Misirdə imami dövlətləri (imamətlər) qurdular.

Hazırda İran xalqının əksəriyyəti, İraqın çoxu, Azərbaycanın xeyli hissəsi, Livan, YƏR, Bəhreyn, Pakistan, İndoneziyanın, Hindistanın və Əfqanıstanın mühüm hissəsi şiədir, müsəlman ölkələrinin hamısında demək olar ki, şiə icmaları var. Son zamanlar antişah inqilabı ilə əlaqədar olaraq İran və xüsusilə də Livanda Ş.-lərin siyasi fəaliyyəti artmışdır.

**Ədəbiyyat:** İslam, 298; ан-Наубахти. Шиитские секты; əl-Əş′əri. Məqalat, 5-85; аш-Шахрастани. Книга о религиях, 131-173, 220-237; əl-İsfəhani. Məqalat, Петрушевский. Ислам; İrfan. Dirasat, 9-65; E.A.Резван. Термин ши′а в Коране (к истории понятий «сетка», «религиозно-политическая группировка»).-ŞXYA və MTP, 1983, 1, 200-206; R.Strothmann. Shi`a.-Handwörterbuch, 684-692; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 256-257.

**Şirk** - Allaha şərik qoşmaq, çoxallahlılıq, yəni Allah yanında başqa bir Tanrıya tapınmaq. Müsəlmanların Allah haqqında konsepsiyası təkallahlılıqdır. Allahla yanaşı başqa ilahlara, şeylərə və ya insanlara ibadət etmək ən böyük (kəbirə) günah və küfr hesab edilir, şirk edənlər (müşriklər) lənətlənirlər. Quranın sonrakı surələrində Ş. haqqında mühakimələr vardır (2:221/220; 6:108; 10:28/29; 9:3 və s). Adətən başqa din sahibləri, filosoflar, «dualistlər» və «mulhidlər» çoxallahlı sayılırdılar. Ş. müsəlman icması içərisində böyük mübahisəyə səbəb olur. Sunnilər şiələri Ş.-də günahlandırırlar. IX əsrin birinci yarısında mötəzililər ənənəçililəri çoxallahlı adlandırırdılar, onlar isə əksinə, hər ikisi - ənənçiləri və əl-müşəbbihələri - antropomorfistləri. Əl-Qəzali deyirdi ki, Allaha nəyə görəsə ibadət etmək də Ş.-dir. Hənbəlilər ayağa durub salam verməyi, ruhani nüfuzları tərifləməyi, məzarları ziyarət etməyi (baş əyməyi) pisləyirdilər. Onların hazırladıqları nəzəriyyəni vəhhabilər qəbul etdilər. Ona görə Ş.-in beş növü vardır:

1) Ş. əl-elm-(elmu-l-qeyb): bütün peyğəmbər və müqəddəsləri tanımaq;

2) Ş.-ət-təsərrüf-Qiyamət günü Məhəmməd peyğəmbərin (s) kömək edə bilməsi;

3) Ş. əl-ibadə - Allahdan başqa kim və ya nəyə isə ibadət etmək, təzim etmək (qəbirlər, başdaşları);

4) Ş. əl-′adə-tale və «səfeh» adətlərə, yaxşı və ya pis günlərə inanma, tütyə gəzdirmə;

5) Ş. fi-l-ədəb - Məhəmməd (s), Əli (ə) və başqa dini nüfuzların adları ilə and içmək.

Sufilər isə «özünü Allaha həsr etməyə» (ixlas) mane olan hər şeyi Ş. sayırdılar. İbn Ərəbinin şagirdi ət-Tilimsani ancaq sufinin təkallahlılıq ideyasının təbliğini həqiqi sayıb, həyasızlıqla Quranı da Ş. elan etmişdi. İndi də bəzi məzhəblər Ş.-dən sui-istifadə edirlər.

**Ədəbiyyat:** İslam, 300; Hughes. Dictionary, 579-580; W.Bjrökman. Shirk.-EI, 4, 408-410; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 257.

**Şirkət** (sinonimi şərikə- «yoldaşlıq», «cəmiyyət»-iki və daha artıq adamın birləşərək ümumi (ticari, sənət və ya başqa) işi birgə görmək üçün xüsusi müqavilə növü (əğd). Ş.-in hər bir üzvü (şərik) onun mülkiyyətindən istifadə edərək, onun mükəmməlliyi üçün çalışır. Burada gəlir və ya zərər bərabər bölüşdürülür və ya müqaviləyə əsasən edilir. Bəzi məzhəbə görə qoyuluş da, zəhmət də eyni olmalıdır. Başqa məzhəblərə görə isə bu zəruri deyil, lakin qoyuluşu hesablamaq və onun hissəsini bilmək lazımdır. Qoyuluşlar zərərə gedərsə və ya şəriklər Ş.-dən çıxarlarsa, Ş. ləğv olunur.

Dörd növ Ş. var: 1) Tam Ş., burada üzvlər bərabər pay (qoyuluş) verib imkanlarında da bərabərdirlər, bir sənət ilə məşğul olub və ya bir ticarət edirlər və azad müsəlmanlardırlar. 2) Tam olmayan Ş., burada qarşılıqlı razılışma lazımdır, qoyuluşun bərabərliyi tələb olunmur; 3) Məqsədli Ş., burada ümumi kapital olmaya bilər, amma ümumi iş var, bu kreditlə aparıla bilər. 4) Ş.-cəmiyyət, icma; burada müxtəlif peşə sahibləri ümumi iş üçün toplaşırlar (çəkməçilər, duluzçular, dəmirçilər və s.). Bəzi məzhəblərə görə sonuncu iki növ Ş. qəbul edilə bilməz, çünki orada ümumi kapital qoyuluşu yoxdur.

Ş. qaydası hazırda islam ölkələrində bütün iqtisadi sahələrdə fəaliyyətdədir.

**Ədəbiyyat:** İslam, 300-301; Zaid ibn Ali. Corpus juris, 177-178; əl-Qəzali. İhya, 2, 58-59; W.Heffening. Shirka.-EI, 4, 380-381.

**Şis** - müsəlman rəvayətlərinin surəti (personajı), Hz. Adəmin (ə) üçüncü oğlu, o, Habilin qətlindən 5 il sonra Adəmin 130 yaşı olanda doğulub, Bibliyada Sif qeyd olunub. Mömin insan, peyğəmbər olub, Allahdan vəhy alıb, Məkkədə yaşayıb, müntəzəm olaraq həcc ayinlərini yerinə yetirmişdir, Kəbə binasını gil və daşdan (yenidən) tikmişdir. Adəm peyğəmbər (ə) dünyasını dəyişərkən onu özünə varis və vəsiyyətinin icrasına məmur təyin etmişdi. Ona günün hər saatında ibadət etməyi öyrətmiş, gələcək Tufandan ona xəbər vermişdi. Habilin uşaqları olmadığı (Qabil onu gənc ikən öldürmüşdü) və Qabilin övladı Tufanda qeyb olduğu üçün bütün insanların

şəcərəsi Şisdən başlayır. Vəfat edəndə 912 yaşı vardı. Vəfat edəndə oğlu Enos ona varis oldu.

Ş. Məkkə yaxınlığında Əbu Qubaya (Qubeys) dağının mağarasında valideynləri Adəm və Həvvanın yanında dəfn olunmuşdur.

Ş. haqqında rəvayətlər müsəlman mifologiyasında qnostika sektası setlərin təsiri altında yayıldı. Onlar əsasən Ərəbistana aid idilər. Ş. druzlar və sufilərin mifologiyasında mühüm yer tutur.

Rəvayətə görə, Adəm xəstələnəndə Cənnət yağı və zeytun istəyir və Şisi Allahın yanına göndərir. Allah ona: «Kəşkülünü aç» deyib, Adəmin istədikləri ilə kəşkülü doldurur. Adəm bədənini yağla ovub, bir-iki zeytun yeyib sağaldı. Adəm saqqalsız, Şis saqqallı idi, ona «müəllim» deyirdirlər. Bədən quruluşu və əxlaqi cəhətdən atasına oxşayırdı. Ömrünün çoxunu doğulduğu yerdə-Suriyada keçirmişdi. Camaatın bir hissəsi peyğəmbər kimi ona, digər hissəsi isə Qabilin uşaqlarına itaət edirdilər. Verilən nəsihətlər sayəsində onların bir qismi Şisə itaət etməyə başladı, o biri qismi isə üsyan etdi.

**Ədəbiyyat:** İslam, 301; ət-Təbəri. Tarix, 1, 152-168; əs-Sə`ləbi. Qısas, 27-28; əl-Kisə`i. Qısas,79-81; C1. Huart.-Shith.-E1, 4, 415; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 257-258.

**Şüeyb** - Quran surəti, Allah tərəfindən əvvəlcə Quranda adı çəkilən əshabu-l-əykə («kol-kos əhli»), sonra isə əhl Mədyan (Mədyan əhalisi) adlananlara göndərilən (mürsəl) peyğəmbər, Quran hekayələrinə görə o, səyahət edərək ancaq Allaha təzim etməyə, çəki və ölçüdə dəqiqlik etməyə, ticarətdə adamları aldatmamağa dəvət edirdi. Əvvəllər peyğəmbərlərə inanmayanları Nuh, Hud, Saleh, Lut peyğəmbərlərin ümmətlərinin talelərini yada salmağa çağırırdı. Mədyan əhalisinin az bir hissəsi Ş.-ə inanır, qalan isə onu dəli, cadugər və yalançı sayırdı. Onu mənşəyinin aşağı təbəqədən olması üçün məzəmmət edir, daşqalaq edib, Vətəndən qovmaqla hədələyirdilər. Allaha inananlardan atalarının dininə qayıtmağı tələb edirdilər. Onlar kimin haqlı olduğunu ayırd etmək üçün Allahı köməyə çağırmaqdan imtina etdilər. Buna görə də Allahın cəzası- «vaşivən», «sarsıntı» gəldi. Ş.-ə inanmayanlarının hamısı öldü, «səhər onlar evlərində ölmüş halda idilər» (7:85/85-93/91; 11-84/85-95/98; 15:78; 26:176-191; 29:36/35-37/36:38:13/12; 50:13).

Ş. haqqında Quran hekayaləri peyğəmbərlərə inanmayanların cəza almaları haqqında başqa hekayələrlə bağlıdır. Onlar Ərəbistan peyğəmbərləri Saleh (ə) və Hud (ə) peyğəmbərlər haqqında rəvayətlərə stilistik cəhətdən daha yaxındırlar. Onlarda Məhəmməd peyğəmbərin (s) talehi haqqında çox şeylər var. Bundan əlavə orada Ş. peyğəmbərin (s) xalqının təcrübəli və bacarıqlı tacirlər olub, dünyanı səyahət edən insanlar olduğu haqqında xəbər də vardır. Quranda Nabatey çarlığının məhv olması

haqqında da məlumat var. Mədyanının xatırlanması, Ş. və Musanın tarixlərindən çıxış edən Quran şərhçiləri səhvən Ş.-i «çox qoca», Musanın kürəkəni, Bibliya İoforu kimi təqdim etmişlər. Ş. müsəlman ədəbiyyatında çox da məşhur deyildir.

**Ədəbiyyat:** İslam, 301; ət-Təbəri. Tarix, 1, 365-371: yenə o, Təfsir, 8, 166-168; 166-168; 12:60-66, 19, 65-68; əs-Sə′ləbi. Qısas, 93-94; Horovitz. Untersuchungen, 93, 119-120; Speyer. Erzählungen, 251-254; Paret. Kommentar, 165-166, 241-242, 278; Tr.Buhl. Shu′aib.-EI, 4, 418-419; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 258-259.

# T

**<u>Talaq («buraxma», «boşama»)</u>** – nikahın ləğvi üçün ən çox yayılmış forma. Bu boşama (talaq) sözünün ər tərəfindən, hətta səbəbini açmadan deməsi ilə arvad bütün ər-arvadlıq vəzifələrindən tam azad olur. Lakin bununla bərabər ərindən aldığı əmlak (mehr) onda qalır, ər onu iddə müddətinin qurtarmasına qədər təmin etməlidir, bundan sonra o, yenidən ərə gedə bilər. Əgər bu dövr ərzində ər-arvad öz əlaqələrini yenidən qursalar, onda boşama etibarsız sayılır. Lakin iddə müddəti keçərsə, nikah yenidən öz adi qaydası ilə təzələnə bilər. Əgər ər-arvad üç dəfə boşanmışsa, onda onların nikahı adi qaydada ola bilməz, arvad başqası ilə evlənib və boşanmalı, ya da hazırki ərindən dul qalmalıdı ki, onun əvvəlki əri ilə nikahı bağlansın. Əgər talaq sözü 9 dəfə deyilibsə, yeni nikah heç cür bağlana bilməz.

İslamda T.-la yanaşı boşanmanın başqa növləri də vardır: fəsh – bu, arvad tərəfindən irəli sürülən boşanma növüdür, burada ər nikah müqaviləsinin hansı bəndinisə yerinə yetirmir, lakin razılaşma əldə edilsə, bu, etibarsız sayılır; hul′-arvad tərəfindən verilən boşanma, burada nikah təzələnə bilməz, arvad əmlakı (mehr) itirir və ərə ′ivad (əvəz) – kompensasiya verir ki, bunu da onlar özləri və qazi təyin edir: li′an-qarşılıqlı mühakimə – ər arvadı xəyanətdə günahlandırır, ancaq sübut edə bilmir, arvad isə ərini iftirada günahlandırır, burada boşanma axırıncı olur, arvad mehrini itirir, ər boşanmadan sonra doğulan uşağı qəbul etməyə bilər. Bunlardan başqa fiqh tərəfindən qəbul edilməyən boşanmalar da var: zihar – burada ər arvadını bacısı və ya anası kimi qəbul edir, d.d., onunla əlaqəyə girməyi haram sayır; ′ilə` – ər arvadla əlaqəyə girməməyə and içir, ancaq onu buraxmır. Bu hər iki halda əlaqə yaratmaq üçün peşmançılıq keçirib, kəffarə verilməlidir, yoxsa arvadın fəsh boşanmasına ixtiyarı var.

Hazırda bütün islam dövlətlərində söylənilən boşamalar bir az yumşaldılmış formada mövcuddur.

**Ədəbiyyat:** İslam, 222-223; əş-Şeybani. Əl-Cami əs-səğir, 39-49; Zaid ibn Ali. Corpus juris, 206-217; Sədp əş-şəria. Müxtəsər, 69-91; Abu Zahra. Family Law, 148-149; Sterm. Marriage, 127-150; J.Schacht. Talak – ShEI, 564-571.

**<u>Talut</u>** – Quran surəti, İsrail çarı, Calut üzərində qələbə çalan Bibliya Səulu. Qurana görə öz üzərlərində çar olmasını istəyən israillilərin Peyğəmbəri T.-u onlara çar təyin edir. Əvvəlcə onlar onu məşhur və varlı olmadığı üçün yararlı saymadılar. Məhz T.-un Allahın istədiyi olduğunun sübutu israillilər üçün gətirilən Musa və Harun dövrünün xatirələri ilə Nuhun gəmisinin qayıdışı oldu. Caluta qarşı ordu ilə çıxış edən T. öz

döyüşçülərini sınaqdan keçirtdi və ancaq onun əmrinə tabe olanlarla yoluna davam edib, keçdikləri çayın suyundan içmədi. Beləəri az oldu, onlar döyüşə girməyə qorxurdular, lakin Allah onlara qələbə bəxş etdi, düşmənlər qaçdılar və Allah Calutu Davuda öldürtdü (2:247/248-251/252).

T. və Calut haqqında Quran hekayəti Mədinə dövrünə aid olub, azsaylı müsəlmanları çoxsaylı düşmənlərə qarşı mübarizəyə ruhlandıran «tarixi» misaldır. O, həm də Bədr döyüşü üçün (624) «tarixi» paralleldir, onda bir ovuc müsəlman çoxlu Məkkə döyüşçülərinə qalib gəldi. Qurandansonrakı rəvayətlərə görə Bədrdə müsəlmanlar T.-un döyüşçüləri qədər idi.

T. haqqında Quran hekayəti Bibliyaya gedib çıxır, lakin ondan çox fərqlənir. T. Quranda adı olan yeganə Bibliya surətidir ki, özünün Bibliya prototipinə gedib çıxmır. Döyüşçülərin sınağı epizodu Qedeon haqqında Bğibliya hekayətinə gedib çıxır.

**Ədəbiyyat:** İslam, 223; ət-Təbəri. Tarix, 1, 547-562; yenə o. Təfsir, 2, 393-403; əs-Sə'ləbi. Qısas, 149-154; əl-Kisə`i. Qısas, 250-258; əl-Beydavi. Təfsir, 1, 128-129; Horovitz. Untersuchungen. Mahomet, 371; Paret. Kommentar, 52-53; Belts. Schacht, 167-168; B.Heller. Talut. – EI, 4, 695-996.

**Tə'āt (tə'a-nın cəmi): «tabe olma», «qulaq asma»,** - Allaha tabe olma, itaət etmə, əməli, dini vəzifəni yerinə yetirmə. Orta əsr sünni ilahiyyatçıları T.- nı «ilahi əmrini yerinə yetirmə» (müvafəqatu-l-əmr) kimi müəyyən edib, onu bir neçə dərəcəyə bölürdülər.

İnsanı Allah qarşısında mömin edən və ona Cənnəti vəd edən ən yüksək dərəcə dinin əsaslarmı (üsul əd-din) bilməkdir; bunlar təkallahlığı, ilahi ədaləti, talehi, əbədi ilahi atributları və s.-ni, dini qaydaların beş əsasını - İslamın əsaslarını (ərkan şəriət əl-islam, təkallahlılıq təlimini, Məhəmmədin (s) peyğəmbərlik missiyasını, zəkatı, namazı, orucu, həcci) qəbul etməkdir. Şəriət tərəfindən yazılmış bu dini vəzifələrin yerinə yetirilməsi həm də ibadət adlanır. T.-nın növbəti dərəcəsi dildə dediyin dini tələbləri əməldə göstərmək, təkcə yazılı vəzifələri (fəraid) deyil, əlavələrinə (nəvafil) də əməl etmək, hər cür günahdan qaçmaqdır. Müsəlman ilahiyyatçıları insanın bu Dünyadakı hallarını (cizyədən azad olmağı, əsirlikdən azad olmağı, müsəlman kimi dəfn olmağa hüquqi olmağı və s.) və o Dünyadakı hallarını (əbədi Cəhənnəmdə olmaqdan qurtulmaq, Cənnətə daxil olmaq qaydaları və s.) T.-nın dərəcələri hesab edirdilər.

**Ədəbiyyat:** İslam, 216-217; əl-Bağdadi. Üsul əd-din, 251-252, 267-269.

**Təbəqat** – (təbəqənin cəmi, «dərəcə», «nəsil») – «nəsillərin tərcümeyi-halı», eyni dövrdə yaşayan şəxslər. Mühəddis İbn əs-Salaha (1181-1245) görə onlar (T.) «eyni cür», «bir-birinə uyğun olan» (əl-qövm əl-

müşəbbihun) adamları bir «dərəcəyə» aid edirlər. Beləliklə, T.- bir-birini əvəz edən «dərəcələrin» və ya «nəsillərin», insanların yığımıdır.

Ərəb tarixşünaslığında T. bioqrafik janrın xüsusi qolu hesab olunur, orada material ən erkən vaxtdan ta ən axır vaxtlaradək (Məhəmmədin silahdaşlarının nəsillərindən – əshablar, sonra onların şagirdləri və s. başlayaraq) nəsillərlə xronoloji şəkildə yerləşib.

T. ədəbiyyatı hədis haqqında tələbatı yerinə yetirməyə yönəlmişdir. Bizə qədər gəlib çıxan T. tipli əsərlərin ən erkənlərindən biri İbn Sədin (784-845) «Kitabu-t-təbəqatu-l-kəbir»i sayılır. Əsərdə hədisləri ötürən 4250 nəfərin (əshablardan tutmuş) tərcümeyi-halı cəmlənmişdir.

İslamın erkən vaxtı T. əsasən hədislərin biliciləri və hüquqşünaslara həsr olunurdu. Lakin mədəni və elmi inkişafın tələbləri sonradan müxtəlif sənətlər və rütbə sahibləri şair, ədib, katib, vəzir, qrammatiklər, həkimlər, müdriklər, möizəçilər, hafizquranlar, fəqihlər, sufilər və s. şəxslərin nəsillərinin xronoloji seriyalarının meydana gəlməsinə imkan yaradırdılar.

**Ədəbiyyat:** İslam, 217; O.Lotti. Ursprung und Bedeutung der Tabakat, vornehmlich der des İbn Sad. – ZBMG. 1869, 23, 593-614; W.Heffeninq. Tabakat. – EI, Suppl., 230.

**Təcəlli** (cəmi təcəlliyyāt) – «Allahın təcəllisi» – «görünməsi», həyata Allahın «görünüşü», hərfi mənada «böyük olma». Quranda ona ancaq fel formasında təcəllə (göründü) rast gəlinir, Onun dağa görünməsindən bəhs edilir və bunun nəticəsində dağ «külə dönür» (7:143/139). Ənənəyə görə T. istilahını ilk dəfə müqəddəs görünüşü bildirmək üçün Bəsrə zahidi Rabah b. Əmr əl-Qeysi (vəf. 796) işlətmişdir. T.- nin belə məfhumu məşhur sufi ekzeqeti Səhl ət-Tüstərinin (vəf. 896) təlimində inkişaf etdirildi. O, təcəllini üç yerə bölürdü: a) ilahi mahiyyətinin təcəllisi (təcəlli əz-zat) və ya ilahi kəşf (mukaşəfə); b) ilahi mahiyyətinin öz atributlarında təcəllisi (təcəlli sifət əz-zat) və ya nurlandırma (maudi′ ən-nur); c) ilahi əmrinin təcəllisi (təcəlli hukm əz-zat) və ya gələcək (sonrakı) həyat (əl-Axirət va mə fihə). Birinci və ikinci hallarda söhbət görünür, «ilahi təcəllisinin» müxtəlif aspektlərindən gedir ki, Allah insanlar qarşısında Qiyamət günü təcəlli edib, onların ürəklərini «günəş kimi nurlandıracaq». Bu xoşbəxt görüntü Allahın «seçilmiş dostlarına» (övliya Allah) onun təkliyini (tövhid) qəbul etdikləri üçün hazırlanıb.

Əl-Həllaca görə Allah həmişə insanlara əşyalarla və ya ətraf mühitin hadisələri ilə görünür (yətəcəllə), lakin Onu ancaq az seçilmiş insanlar «tanıyırlar». Allahın ətraf mühitdə onun yanında olmasını bir an da unutmayan və hər şeydə onu dərk edən (görən) insan sonda öz fərdi insani keyfiyyətini (nəsut) itirir və ilahiyyətə (lahut) qərq olur.

T. istilahını sufilər – «varlığın vəhdəti» (vəhdətü-l-vücud) haqqında təlimin tərəfdarları geniş surətdə istifadə edirdilər. Bu təlimdə Allah dünya varlığının saysız-hesabsız obrazlarında təcəlli edən (əl-mütəcəlli) vahid transendent mahiyyət (ər-zat) kimi zühur edir. T.-nin bir neçə səviyyəsini göstərirlər: a) İlahi mahiyyətin özündə təcəllisi (təcəlli əz-zat li-zatihə), o həm də «ilk ilahi təcəlli» adlanır (əl-təcəlli əl-əvvəl), o həm də «ən müqəddəs izhar» (əl-feyzü-l-əqdəs), «ilahi təklik» (əl-əhadiyyə) və s. adlanır. İlahi özünü öz kamilliyində və bölünməzliyində seyr edir, O, varlığın atributları və çoxtərəfliliyinin «mümkünlüyünü» özündə cəmləşdirir. b) İlahinin Öz atributlarında təcəllisi (ət-təcəlli əs-sifəti), o həm də «ikinci ilahi təcəllidir» (ət-təcəlli əs-səni), «müqəddəs izah» (əl-feyzü-l-müqəddəs) və s.

İbn Ərəbi, əl-Kaşani, Əbdül-Kərim əl-Cili, Heydər Amuli və «vəhdətü-l-vücud» haqqında təlimin başqa tərəfdarlarına görə hər bir mahiyyət hər hansı atributun və ya Allahın adının təcəllisi olduğu üçün Onun vücudu ilə eyni olduğu haqqında nəticəyə gəlmək olar.

Allah isə öz növbəsində həmişə insanın önündə ona lazım olan surətdə (fi surət hacatihi) peyda olaraq onun diqqətini Özünə cəlb edib, başqa şeylərdən yayındırır. Həqiqətə yetmiş (mühaqqəq) sufinin halı belədir.

**Ədəbiyyat:** İslam, 214-220; Əxbar əl-Həllac, göst.; İbn Ərəbi. Əl-Futuhat, 2, 65-66, 70-71; əl-Kaşani. İstilahat, 155-156; ət-Təhanavi. Kəşşaf, 294-296; Amoli. La philosophie, Index; Yahia. Histori, 2, 489; Böwering. Mystical Vision, Index; W.Chittick. Sadr ad-din al-Qunawi. – IPQ. 1981, 21/2, 180.

**Ət-Təcsim** (cəssəmə – «təcəssüm etdirmək» felindən olub) – təcəssüm etdirmə, Allahı cismani şəkildə təsəvvür etmə tez-tez ət-təşbihin sinonimi kimi istifadə olunur. Ət-T.-in ardıcıllarını əl-mücəssimə adlandırırlar.

**Ədəbiyyat:** İslam, 220.

**Ət-Təcvid** – Quranın avazla orfoqrafik oxunuşu, belə oxunuşun qaydaları və müvafiq Quran fənni (ilm ət-T). Ət-T. ta qədimdən Quran oxusunun incəsənət ifası olmuşdur və bunu əsasən oxucu-deklamasiyaçı-əzbərçilər (qari-cəmi qurra) yerinə yetirmişlər ki, bu da nəsildən-nəsilə keçən bir sənət kimidir; onun sadə elementlərini ibtidai (dini) məktəblər və mədrəsələrdə öyrədirlər. Üç cür ət-T. göstərirlər: asta-asta oxuma (tərtil), tez-tez oxuma (haqr) və orta oxuma (tədvir). Ət-T.-ə çoxlu traktatlar həsr olunmuşdur, onlarda klassik ərəb dilinin (Quran dilinin xüsusiyyətlərini nəzərə almaqla) fonetikasının tam təsviri, samitlərin assimilasiya və dissimilasiyası, samitlərin qonşu saitlərə təsiri, ibarə və məna vurğuları və s. verilmişdir ki, bunlarla gözəl oxu alınır.

**Ədəbiyyat:** İslam, 220; Moh. Ben Cheneb. Tadjwid. – EI, 4, 601.

**Təfsirü-l-Quran (və ya ət-təfsir)** – Quranın izahı, şərhi. Elmu-l-Quran və-t-T.-Quranın izahı və şərhinə aid elmlə bağlı əsərlər müsəlman dini doktrinasının yaranmasında ən mühüm rol oynadılar. Spesifik formada onlar ərəb-müsəlman cəmiyyətində əsas ideologi və siyasi mərhələləri əks etdirirdilər. Artıq Məhəmmədin (s) iyirmiillik peyğəmbərlik fəaliyyəti gedişində onun Quranın mətnini təşkil edən möizələrinin məzmunu əhəmiyyətli dərəcədə dəyişikliyə uğradı: bəzi əvvəl deyilmiş ayələr təzələri ilə əvəz edildi, başqaları yeni şərh kəsb etdilər. Mətnin spesifikasına görə çoxlu ayələrin məzmununu İslama yeni gələnlər başa düşmürdülər. Bütün bunlar Məhəmməddən (s), əvvəl deyilmiş «vəhylərə» yenidən şərh verməyi tələb edirdi. Məhəmmədin (s) dinləyiciləri çoxlu ayələrin deyilməsi şəraitini, Peyğəmbərin (s) öz opponentləri ilə mübahisəsi səbəblərini yaddaşlarında saxlayırdılar. Bunsuz çoxlu Quran ayələri az başa düşülərdi. Peyğəmbər (s) dövründən uzaqlaşdıqca və İslam ictimai-mədəni sahədə yayıldıqca bu şərhlərin əhəmiyyəti yüksəldi.

Əvvəlcə T.əl-Q. əsasən şifahi formada edilirdi. Ayrı-ayrı ayələr və surələr məsciddə tez-tez cümə xütbəsindən sonra şərh edilirdi. Gəzəri hekayəçilər və möizəçilər (qussas) şəhərlərin bazar və küçələrində çıxış edib öz şərhləri ilə Quran mətnlərini genişləndirir, onları parallel materiallarla zənginləşdirirdilər. Ən çox insan cəlb edən möcüzələr, peyğəmbərlər və qədim xalqlar haqqında məlumatlar idi.

T. əl-Q.-nın inkişafı sünnənin yaranması ilə bağlıdır. «Sünnə Quranı izah edir» (əs-sünnə tüfəssiru-l-Quran) prinsipinin həyata keçirilməsi VIII əsrin II yarısında Quran mətninin şərhi ilə bağlı hədislər toplusunun, sonralar isə ümumi hədislər toplusunda xüsusi bölmələrin yaranmasına səbəb oldu (məs: Əs-Səhih əl-Buxari). Məhəmmədin (s) tərcümeyi-halı da (bax: Sirə) əhəmiyyətli dərəcədə Quranın təfsirinə həsr olunmuşdu. İlk ərəb leksikoqrafik və qrammatik əsərlər də əhəmiyyətli dərəcədə Quranın şərhinin tələbatı ilə bağlı idi. Elmu-l-Quran və-t-T.-in yaranması Quranın inkişafı ilə sıx əlaqədə baş verirdi. Quran əsas «möcüzə», əsas ilahi işarə (ayə), İslamın dini doktrinasının əsas dəlili (bax: İcaz əl-Quran) idi. Məhəmmədin (s) peyğəmbərliyinin sübutu (burhan) elan edildi. Müsəlman ənənəsinə görə T. əl-Q. cərəyanının banisi Məhəmmədin (s) əmisi oğlu Abdulla b. Abbasdır (tərcüman əl-Quran, vəf. 686).

Ələvilərlə Abbasilər arasındakı ideoloji mübarizənin Əməvilər hökmranlığının sonuna yaxın kəskinləşməsi T. əl-Q.-ı Xilafətdə hökmranlıq uğrunda mübarizədə alətə çevirdi. Eyni vaxtda sünni əl-Məkkinin (642-722) və Əli (ə) tərəfdarları əl-Cu'fi (vəf. 745-746), əs-Suddinin (vəf. 745-ə qədər) təfsirləri meydana çıxdı. Şiə şərhlərinin ənənəsi Əlvilərin mərkəzi olan Kufədə inkişaf edirdi. Əlvilər Ömər və Osman vaxtı bir sıra ayələrin təhrif edilməsini söyləyirdilər.

Bu ideoloji mübarizədə şərhçilər əhlu-z-zahiri (Quranın hərfi şərhi) və əhlu-əl-batiniyə (gizli şərh) bölündülər. Bu mübahisədə T.- təvil məfhumları haqqında müxtəlif fikirlər söylənirdi: T. üləmalara, Məhəmmədin (s) silahdaşlarına, təvil Allaha və fəqihlərə (ət-T. lı-s-sahabə və-tə`vil li-l-füqəha) aiddir və s. Eyni zamanda Quranın şərh edilməsinin istənilməməsi, hətta qadağan edilməsi fikri meydana gəlir. O, Ömər tərəfindən möhkəmləndirilir ki, Müqəddəs Kitab düzgün şərh edilməyə bilər.

Sələflərinin çoxlu əsərlərini öz çoxsaylı şərhlərinə cəlb etmiş ət-Təbəri (838-923) bir kompromis qərar hazırlamışdı. O, Quran mətnlərini üç yerə bölmüşdü: 1) insanların başa düşə bilmədikləri: onların həqiqi mənasını ancaq Allah bilir; 2) Peyğəmbərin özünə gedib çıxan, ənənəvi izaha söykənən şərh edilə bilinənlər; 3) dilçilik cəhətdən çətin şərh olunanlar, onlar filolqların köməyi ilə həll edilir.

Abbasilərin hakimiyyətə gəlməsi ilə Əli (ə) tərəfdarlarının təqibi Quranın şərhinin ələvi tendensiyasının ləğvinə gətirib çıxartdı. Ələvi siyasətini yürüdən Məmun vaxtı (818-833) o, yenidən canlandı.

T.- təvil məfhumları ətrafındakı mübahisə mötəzililərin öz düşmənləri ilə mübarizəsində əks etdi. Bu dövrün T.-i Quranın «yaradılmış» və ya» yaradılmamış» olması haqqında kəskin ideoloji mübahisədə də alət kimi xidmət edirdi. Ən mühüm mötəzili T.-i əz-Zəməxşərinin (1074-1144) əsəridir ki, sonralar bəzi düzəlişlərlə sünnilər tərəfindən də qəbul edildi.

T.- tə`vil kateqoriyası çərçivəsində Quranın sufi şərhinə qarşı mübahisə də gedirdi (bax: tə`vil).

Müsəlman aləminin dini-siyasi tarixi Qurana şərhlərdə sonralar da əks edirdi. Belə ki, axırıncı imam Məhəmməd b. əl-Həsənin (ə) «qeybi» ilə əlaqədar olaraq şiə əhatəsində ayələrin şərhinə həsr olunmuş bir sıra esxatoloji mövzulu əsərlər meydana gəldi.

Bəzən bir T.-də bir neçə nöqteyi-nəzər olur. Məsələn, Fəxrəddin Razinin (vəf. 1209) məşhur T.-inin antimötəzili və antizahiri istiqamətləri vardır.

Göstərilən əsərlərlə yanaşı Quranın nüfuzlu şərhlərinə əs-Sə'ləbi (vəf. 1035), əl-Beydavi (vəf. 1286), əl-Məhəlli (vəf. 1459), əs-Suyuti və əl-Cəlalinin əsərlərini də daxil etmək olar.

Quranın şərhində həm şiələr, həm də sünnilər öz fikirlərinə uyğun məna axtarırdılar (əl-Vaqidi, vəf. 1075, əl-İraqi vəf. 1175, əs-Süyuti və s.). T.-lər başqa müsəlman xalqlarının dillərində də yaranırdı. Quranın tərcüməsinə uzun müddət icazə verilmədiyi üçün Quranın şərhi, faktiki başqa dilə tərcüməsi ərəb dilini bilməyən müsəlmanların Quranın mətni ilə tanış olması üçün mühüm rol oynayırdı.

Müsəlman reformist ekzeqetikası XIX-XX əsrlərdə inkişaf edərək müsəlman cəmiyyəti ilə Avropa fəlsəfi və elmi fikri arasındakı toqquşmanı

dəf etdi. Quranın şərhinin köməyi ilə ekzeqetlər Quranda olan elmi nailiyyətlər və ictimai görüşləri irəli çəkib, onun nüfuzunu aşağı salmaq istəyənləri əngəlləmək və müsəlmanların geniş oxucu kütləsinə müasir elmi baxışları çatdırmaq və onlar üçün başa düşülən etmək idi. Ər-Razi, Əmin əl-Huli (vəf. 1965), əl-Kəvakibi (1849-1903), Təntavi Cövhəri və ən müasir Mustafa Mahmud və ′Aişə Əbdür-Rəhman bint əş-Şatinin əsərlərində bu fikirlər geniş yer tapmışdır. «İslam inqilabının» və «üçüncü yolun» ideoloqu Seyyid Qütbün (vəf. 1966) yaratdığı T.-də «Müsəlman qardaşlar»nın ictimai proqramının əsaslandırılmasına rəğbət bildirilir.

T. ideoloji mübarizədə də, xüsusilə də iran şiələri tərəfindən istifadə edilir. T. təbliğat məqsədilə avropa dillərinə tərcümə edilir. Sünni aləmində daha çox tanınan müasir nüfuzlu T.- M. Abdonun (1849-1905) T. əl-Mənarı və R.Ridanın (1865-1935) T.-idir. T. əl-Mənarın əsas hissəsi T. əl-Cəlaliyyədəndir. Müəlliflər Quran təfsirləri içərisindən ən çox hədislər tərəfindən təsdiq olunanları götürürdülər ki, onlar gedib birbaşa Peyğəmbərə (s) çıxır.

**Ədəbiyyat:** İslam, 232-234; Петрушевский. Ислам, 118-122; Прозоров. Шиитская историография, 21-23; Goldziher. Richtungen; Wansbrough. Studies; J.J.G.Jaussen. The interpreation of the Koran in modern Egypt. Leyde, 1974; yeni mənbə və ədəbiyyatın nəşri haqda bax, A.Rippin. The present status of tafsir studies. – M. W. 1982, 72, ¾, 224-238; yenə o. The exegetical genre asbab an-nuzul: a bibliographical and terminological survey.- BSOAS, 1985, 48/1, 1-15; yenə o. Al-Zuhri: Naskh al-Quran and the problem of early tafsir texts. – BSOAS, 1984, 47.

**Ət-Təftəzani,** Sə′dəddin Məs`ud b. Ömər (vəf.1390) son dövr kəlamın görkəmli nümayəndəsidir. Nisə şəhəri yaxınlığındakı Təftərzani kəndində doğulub, əl-İci və Qütbəddin ər-Razinin yanında təlim alıb, otuz ilə yaxın gəzib, Məvaraənnəhrin müxtəlif mədrəsələrində dərs deyib, sonra Teymurləngin dəvəti ilə Səmərqəndə gəlib, ömrünün axırınadək onun sarayında yaşayıb. Ət-T. kəlam, məntiq, həndəsə, poetika və ərəb dili qrammatikasında geniş biliyi ilə məşhur idi. Onun kəlama dair yazdığı xülasələr sonrakı yüzilliklər ərzində çox şöhrət qazandı, onlara çoxsaylı şərhlər yazılmışdı. Təhzibu-l-məntiq və-l-kəlam əsəri əd-Dəvvaninin və əl-Kürdüstaninin şərhlərində qalmışdır, Məqasid fi elm əl-kəlam (və ya Məqasidu-t-talibin, müxt. Əl-Məqasid) ət-T.-nin özünün bizə gəlib çatan şərhlərində qalmışdır.

**Ədəbiyyat:** İslam, 235; ət-Təftəzani. Şərh əl-məqasid. İstanbul, 1888; əd-Dəvvani Camal əd-din. Şərh təhzib əl-məntiq və-l-kəlam. Qazan, 1888; Müxtəsər əl-əllamə Sə′d əd-din ət-Təftərzani alə təlxis əl-miftəh li-l-imam

əl-xətib əl-Qəzvini. 1-4, Qahirə, 1899-1901; ət-Təftəzani. Təkrib əl-məram fi şərh təhzib əl-kəlam. Qahirə, 1900; yenə o. Şərh.

**Təharət (cənəbə)** («təmizləmə», sinonimi təthir – İslamın qaydalarından biri, insanı natəmizlikdən (cənəbə) çıxartma. İki cür T. var – daxili (günah, cinayət və ya pis iş görəndən sonra qəlbin təmizlənməsi) və xarici (bədən, paltar, ayaqqabı, məişət əşyaları və s.). Daxili T. peşmançılıq – tövbə, günahı yumaq (kəffarə vermək) və mömin həyat keçirməklə əldə edilir. Xarici T. aşağıdakı kimi keçirilir: 1) natəmiz işlər gördükdən sonra tam qüsul etmək; 2) namazdan qabaq dəstəmaz almaq (vudu); 3) Xüsusi hallarda torpaqla təyənnüm etmək; 4) xüsusi çubuqla dişlərin təmizlənməsi (təsvik); 5) tualetdən sonra təharət (istinca); 6) paltar və ayaqqabıların yuyulub təmizlənməsi (məsh). T. ayinlərinə yaşayış yerini, qabları təmizləmək, çirklənmiş yerləri və meyyiti yumaq da daxildir.

T.-in zəruriliyi və üsullarının yerinə yetirilməsi müxtəlif məzhəblər tərəfindən müxtəlif cür yerinə yetirilir və onların arasında ixtilafa səbəb olur. T. yerinə yetiriləndə niyyət tutulur, ya ürəkdə, ya da səslə deyilir.

**Ədəbiyyat:** İslam, 235; əş-Şeybani. Əl-Əsl, 23-121; Malik b. Ənəs. Əl-Müvəttə, 7-45; əl-Qəzali. İhya, 1, 122-127; ət-Ta`i. Tə`lim, 11-15; A.S.Trittoni. Tahara.- Sh.EI, 559-560.

**Ət-Təhəccüd** - (təhəccədə felindən olub «yuxusuz qalmaq», «yuxusuzluq» deməkdir) – gecə namazı və ya Quranın gecə oxunması. Ət-T. təcrübəsi (üsulu) istilahın özü kimi Quranda qeyd edilmişdir (17:79/81; 51:17; 25:64/65; 76:25/26; 11:114/116; 73:1-4). Görünür Məkkə dövrü gecə namazı icbari sayılırmış və müsəlmanlar gecənin mühüm bir hissəsini namaza sərf edirdilər. Lakin Mədinədə bu vacibiyyət ləğv edildi (Q. 73:20). Bununla bərabər gecə namazları qılınırdı, xüsusilə də, təravih adlanıb, ramazan ayında qılınanlar. Tərvihə (təkdə) 20 və ya 36 rəkət ola bilər, hər 4 rəkətdən sonra istirahət (təravihə) edilir. Əl-fitr və əl-adha bayramları gecələri namaz ihyau-l-leyl («gecəni yuxusuz keçirmək») adlanır.

Axırıncı axşam namazına (salatu-l-′işə) təksaylı rəkətlər artırılması vitr adlanır və qılınması qiymətləndirilir.

Rəkət sayı cüt olan namaza isə şəf deyilir. Vitr və ya şəfi gecənin istənilən vaxtı qılmaq olar, ancaq bir dəfə. Gecə namazına azan iki dəfə verilir və onda «namaz yuxudan yaxşıdır» deyilir.

**Ədəbiyyat:** İslam, 235; Лэйн. Нравы, 97-98, 340; Sell. Fatih, Index; A.J.Wensinck. Tahadjdjud. – EI, 4, 607-608; yenə o. Tarawih. – Oradaca, 644-665; yenə o. Witr. – Oradaca, 1139-1140.

**Ət-Təkbir** – Allahu-əkbər (Allah ən böyükdür) dua ifadəsinin (təkrarən) deyilməsi. Ət-T.-in çoxsaylı təkrarı – müsəlman ayinlərinin xarakter xüsusiyyətlərindən biridir. Ət-T. Quranda təsdiq olunan (74:3; 17:111) ayin təcrübəsinə və erkən müsəlman rəvayətlərinə gedib çıxır. Ət-T. namaza dəvət edən azana (4 dəfə) iqaməyə (2 dəfə) daxil olur və namazlar vaxtı isə çox sayda təkrar olunur. O, həm də qurban və ya başqa heyvan kəsiləndə də deyilir.

Ət-T. ifadəsinə sehirli (maqik) əhəmiyyət verilir, o, bir bəzək elementi kimi dini abidələrin, yaşayış binalarının üzərinə həkk olunur, kalliqrafiyada geniş istifadə olunur. Erkən və orta əsr, hətta müasir İslamda ət-T. müsəlman döyüşçülərini vuruşa çağırış kimi (ura!) də istifadə edilmiş və edilir. Müasir müsəlman dini-siyasi qrupaları ət-T.-i şüar kimi istifadə edirlər.

**Ədəbiyyat:** İslam, 221; Лэйн. Нравы, 98-100, 199-214; Sell. Faith, 257-265; K.Gragg. «Greater is God». Contemporaty takbir: Muslim and Chiristian. - M W . 1981, 71, 27-39; A.J. Wensick. Takbir . – EI, 4, 627.

**Ət-Təqiyyə** (təqiyyə, «ağıllı olma», «ehtiyatlı olma»; sinonimi kitmən – «gizlətmə», «örtmə») – onun texniki mənası şiə məzhəbinin rəhbər əsaslarından biri olan «öz imanını (dinini) ağılla gizlətmə» dir. Müsəlman ilahiyyatçılarına görə ət-T. üçün əsas Quran və sünnədir; onların dediyinə görə çox zəruri olanda Quran zahirən dindən imtina etməyə (16:106/108), kafirlə yoldaşlıq etməyə (3:28/27), ayin qaydalarını pozmağa (6:119; 5:5) icazə verir. İlahiyyatçılar Peyğəmbərin (s) silahdaşı Əmmar b. Yasiri misal gətirirlər, ona işgənmcə verilərkən o, zahirən İslamdan döndüyünü desə də, qəlbdə Allah və onun Rəsuluna (s) iman saxlayırdı.

Artıq Quranın erkən şərhçiləri ət-T.-yə baxışlarında əks mövqe tutdular: səhv edənin bağışlanması başqalarının hüququnun tapdalanması idi. Sünnilər üçün zahirən dindən imtina etmək əslində nəzəri bir şey idi. Sünni – hənəfilər ancaq ölüm qorxusu olanda ət-T.-nin köməyinə müraciət etməyin mümkünlüyünü deyirdilər, burada o, qəlbində öz fikrində qalmağını qeyd etməlidir. Sünni ilahiyyatçısı – zahiri İbn Həzm (vəf. 1064) qeyd edir ki, «ehtiyat üzündən» zahirən dinə inanmadığını demək olar. Xaricilərin müxtəlif icmaları ət-T.-yə müxtəlif şəkildə yanaşırlar. Əzraqilər heç bir şəkildə ət-T.-nin köməyinə müraciət etməyi qəbul etmirdilər, süfrilər mümkün olduğunu deyirdilər, ancaq cözdə, əməldə yox və s.

Ət-T. təcrübədə şiə islamında xüsusi bir yer tutur. Zeydilərdən başqa bütün şiələr onu qəbul edirlər. Çox vaxt təqib olunan şiələr ət-T.-ni rəhbər prinsiplərdən biri edib, onu 6-cı imam Cəfər əs-Sadiqə (vəf. 765) aparıb çıxarırdılar. Bir çox əsaslı fikirləri şiələr onun adına yazırlar: «Ət-T. mənim və atalarımın dinidir», «Dinin onda doqquzu ət-T.-dədir, kimdə ət-T.

yoxdursa, onun dini də yoxdur» və s. Bu imam təsdiq edir ki, Allah insanların işlərini onların məramına görə idarə edir. Orta əsr şiə ilahiyyatçıları ət-T.-nin o qədər şəxsi deyil, o qədər ictimai əhəmiyyəti olduğunu qeyd edirdilər. Ət-T. məsələlərinə Kitab hüquq əl-ixvanın ayrı-ayrı fəsilləri həsr olunub. Ət-T.-nin zəruri olduğunu təsdiq etmək üçün imami fəqihləri Məhəmməd peyğəmbərin (s) dediklərinə istinad edərək «ət-T.-siz mömin başsız bədən kimidir»i misalını gətirirlər və Quranın ayələrinin alleqorik şərhini (41:34; 3:27/28 və s.) göstərirlər.

Təcrübədə ət-T.-nin işlənməsi böyük fərqlər yaradırdı. Şiə ilahiyyatçıları üçün əsas qanun burada imamların dedikləri olurdu. Cəfəri Sadiqin adına yazılan ət-T. «düz», ona əks olan isə «səhv» - sirri açmaqdır. Bu ifadəni sonradan əl-əmr bi-l-məruf və-n-nəhy ani-l-münkər (xeyrə əmr etmək, şərri qadağan etmək) ifadəsinə bərabər tutdular. «Ət-T. qan tökülməsinə gətirib çıxarmamalıdır, o hər şeyə tətbiq edilə bilər, şərab içməkdən başqa» fikrini də Cəfəri Sadiqə aid edirlər.

Orta əsr şiə fəqihləri ət-T.-nin vacibi (fərz) olduğunu təsdiq etməyə və onun tətbiq sahəsini konkretləşdlirməyə çalışırdılar. Ət-T.-nin zəruriliyi şiələrə bir çox hallarda çətin vəziyyətdən çıxmağa kömək edirdi, lakin qəlblərində onlar öz din düşmənlərinə lənət oxuyurdular. Bu prinsipi ən çox «qatı» şiələr (druzlar, hurufilər, Əli-Allahilər və ismaililər) yeridirdilər.

İmamilərin İranda qələbəsi ilə ət-T. prinsipinin praktiki əhəmiyyəti öz yerini nəzəri təlimata verdi. Müasir imamilər ət-T.-ni üsuli-d-din və ya ehkama (əqaidə) deyil, fruuddinə – dinin (qollarına) aid edirlər. Buna baxmayaraq İraq müctəhidləri əl-Müzəffər və Kəşif əl-Qita və İran müctəhidi Ayətulla Xomeyni ət-T.-yə islam prinsipi və «Peyğəmbər (s) ailəsinin» «rəmzi» (şi'ar) kimi xüsusi əhəmiyyət verirdilər. Cəfər əs-Sadiqə əsaslanaraq Xomeyni qeyd edir ki, ehtiyat üçün fəsad və dində əyriliyə aparan şərdən başqa hər şeyə icazə verilir. Fəsad və şər-müqəddəs yerlərin dağıdılması, Quranın xarab edilməsi, İslamdan imtina etmək sayılır.

Hazırda müasir müsəlman aləmində, şiələrin azlıq təşkil etdikləri ölkələrdə (Livan, Pakistan, Əfqanıstan və s.) ət-T. prinsipi qüvvədədir.

**Ədəbiyyat:** İslam, 221-222; Wensinck. Concordance, 7, 820; əl-Müfid. Əvail, 96-97; yenə o. Şərh, 66-67; аш-Шахрастани. Книга о религиях, 113-115, 121, 125, 141, 148; Петрушевский. Ислам, 268-269; Fəyyaz. Tarix əl-imamiyyə, 166-168; I.Goldziher. Das Prinzip der takiyya in Islam. – ZDMG. 1906, 60, 213-226; E.Kohlberg. Some İmami – Shi'i views on taqiyya. – JAOS, 1975, 95/3, 395-402; E.Meyer. Anlab und Anwendungsbereich der Taqiyya. – DI. 1980, 52/2, 246-280; R.Strothmann. Takiya. – EI, 4, 680-681.

**Ət-Təqlid («dalınca getmə», «bənzətmə»)** – fiqhin xüsusi məsələlərinin həllində hər hansı bir məzhəbin müctəhidinin nüfuzunun dalınca getmə. VIII əsrdə ət-T. Məhəmməd peyğəmbərin (s) silahdaşlarından kiminsə dərnəyinin üzvü olanı bildirir, sonralar isə belə silahdaşın ardıcıllarının dərnəyinə üzv olanı bildirir. X əsrin ortalarından «ictihadın» qapılarının yavaş-yavaş bağlanmağa başlamasından və onun dərəcələrini çətin əldə etmək mümkün olandan ət-T. «müctəhid olmayan fəqihin nüfuz səviyyəsi» mənasını alır. Ət-T. T. əl-xass (alimlər səviyyəsi) və T. əl-amm (adi bilik səviyyəsinə) bölünür. T. əl-xass üç dərəcəyə bölünür: 1) T. ət-təxric – öz məzhəbinin müctəhidinin öyrətdikləri əsasında şəriətin müəyyən yerlərini lazımi dərəcədə aydınlaşdıra bilməyənlərin qərar çıxarmaq səviyyəsi; 2) T. ət-tədric-üstün tutulan seçim səviyyəsi, onlara artıq müctəhidlərin hazırladıqları qərardan ən yaxşısını seçənlərdir; 3) T. ət-təqdir – qiymətləndirmə səviyyəsi - onlar özlərindən əvvəlkilərin işlərini yaxşı öyrənib, onların arqumentlərinin sistemlərini dərk edib, onların işlərini izah edən, onlara şərh yaza bilənlər və özlərindən heç bir şey əlavə etməyənlər və s.-lər aiddirlər. Ət-T.-in hər hansı bir dərəcəsinə iddiaçı öz fikirlərini və ya yazılı əsərlərini elmi məclislərdə təsdiq etdirməlidir. Ali ruhani məktəbləri və ilahiyyat fakultələrinin məzunları (buraxılış tələbləri) imtahan verəndən sonra T. ət-təqdir dərəcəsini daşıyırlar.

Müasir ictimai-siyasi ədəbiyyatda ət-T. istilahı «konservatizm» (mühafizəkarlıq), islam reformatorlarının əsərlərində isə «gerilik» mənasını almışdır.

**Ədəbiyyat:** İslam, 222; Əbu Zəhra. Tarix əl-məzahib, 1, 119-121; Mahməssani. Falsafat al-tashri, 97-98; J.Schacht. Taklid. – ShEI. 562-564.

**Tələbü-l-elm** – elmin öyrənilməsi, arxasınca gedilməsi, elmə can atma. T. əl-E. hər bir müsəlmanın vacibi vəzifələrindən elan olunmuşdur, əsasən hədis və fiqhin öyrənilməsinə yönəldilmişdir; T. əl-E.-in konkret forması və həyata keçirilməsi İslamın bu sahədə və ictimai-tarixi şəraitdə elmin təyin edilməsindən asılı idi. T. əl-E. üçün səyahət (rihlə) məsləhət görülür, onun uyğun gələn yaş dövrü isə gənclik illəri hesab edilirdi, əslində isə yaş dövrü üçün məhdudiyyət yox idi.

**Ədəbiyyat:** İslam, 222.

**Tənasüh** (tənasüh əl-ərvah) – ardıcıl keçid, ruhun köçürülməsi. Müsəlman ilahiyyat və doksoqraf ədəbiyyatında ruhun köçürülməsi haqqında müxtəlif təlimlərin ardıcılları ümumən əshab (əhl) ət-tənəsuh və ya ət-tənəsuhiyyə (tənasühilər) adı altında məşhurdurlar.

Ruhun köçürülməsinə inam çox qədim xalqlar, o cümlədən hindlilər arasında geniş yayılmışdı. Ruhların köçürülməsi haqqında təlim

ümumiyyətlə, yunan – ellin fəlsəfəsi, xüsusilə də, Sokrat fəlsəfəsinə və maniheylərin dini-fəlsəfi sisteminə daxil oldu. Ruhun köçürülməsi baxışı görünür qeyd olunan mənbələrdən müxtəlif formada hər şeydən əvvəl İslama daxil olmuşdur. Əvvəllər ilk İslama yad olan ruhun köçürülməsi fikri «qatı» şiə alimlərində, xüsusilə də qeysanilərdə inkişaf etdirildi.

«Qatı» şiələrin təlimlərində ruhların köçürülməsi haqqında baxışda ilahi ruhun insan cisminə «tənasühü» - «köçürülməsi» hulul ilə tez-tez qarışdırılmışdır, buna görə tənasühiləri həm də əshab əl-hulul və ya hululiyyə (hululilər) də adlandırırdılar, tənasüh istilahı isə başqa – ilahi ruhun (işığın, zərrənin) insanlara yayılması mənasını almışdı.

Ruhun köçürülməsi ideyasını ismaililər, nüseyrilər, druzlar, mötəzililər habitilər və s. təbliğ edirdilər. Ən geniş yayılmış fikir – ruhların bu dünyada köçürülməsi fikri idi. Ruhlar öz cismani örtüyünü (qəlib) köhnə paltar kimi dəyişir.

Sünni ilahiyyatçıları onların rəyinə görə Allahın əzəmətini azaldan və Quranın şahidliyini imtina edən tənasühiləri kəskin mühakimə edirdilər.

**Ədəbiyyat:** İslam, 223-224; ан-Наубахти. Шиитские секты, 138-146; əl-Bağdadi. Üsul-əd-din, 232-237; yenə o. Əl-Fərq, 272-276; аш-Шахрастани. Книга о религиях, göstər.; B.Carra de Vaux. Tanasukh. – EI, 4, 702-703.

**Ət-Tənzih** («təmizlənmə», «bütün pis və alçaqlıqlardan imtina etmə») – müsəlman ilahiyyatı istilahı (müq.et.Q. 43:11/9). Mötəzililər ət-T. məfhumuna Allahın mahiyyətindən fərqlənən atributlarının (əs-sifət) mövcudluğunun inkarını daxil etmişdilər, fələsifə isə müsbət atributları daxil etmişdilər. Ət-T. istilahının antonimi ət-təşbih istilahıdır. Sifətilər və əl-müşəbbihələr ət-T.-i ət-tə′til kimi qiymətləndirirdilər. Ət-T.-in sinonimi kimi təqdis və təsbih istilahları çıxış edir. Təsbih hərdən konkret mənada – yəni Allahın hər hansı bir şərikinin olmasını inkar edən mənada işlədlir.

**Ədəbiyyat:** İslam, 224; ət-tə′til və ət-təşbih haq. məqal. bax.

**Təriqə** (cəmi turuq; «yol», «təriqət») – həqiqətin sufi idrakının üsulu. «Yol» (tariq) mənasında Quranda rast gəlinir (46:29/30). Tarixi aspektdə T. sufizmin texniki istilahı kimi əhəmiyyətli dərəcədə inkişafa uğramışdır.

1. IX-XI əsr müsəlman sufizm nəzəriyyəçilərinin rəyinə görə (əl-Muhasibi, əl-Cüneyd, əl-Bağdadi, əl-Kələbazi, əs-Sərrac, əs-Süləmi, əl-Hücviri) bu dövrdə T. mənəvi-etik halları və psixoloji üsulların bir külliyyatı kimi təcrübi (ancaq hərdən nəzəri) üslubu bildirirdi.

2. XI-XII əsrin ortalarında Xorasanda sabit şagird tərkibi olan iqamətgahlar-dərnəklərin əsasında meydana gəlib, sonra bütün müsəlman aləmində yayılan «müəllim» (şeyx, mürşid, pir) – şagird (mürid) institutları

yarandı. Bu cəmiyyətin mərkəzi (baş) şəxsiyyəti tərbiyəçi idi. O, şagirdin mistik yolun dərkedilməsində yeganə bələdçisi idi. Bu mərhələdə T. Yolun öyrənilməsi məktəbi oldu. T.- mistik Yolun ümumi sisteminin xüsusi müxtəlifliyidir (tariq, suluk). Bu mərhələdə sufiliyin transformasiyası baş verdi, elit sufiliyindən o, xalq kütlələrinin sufizmi oldu.

3. XII əsrin sonuna ruhani irsiliyin arasıkəsilməz geneoloji zənciri-silsilə İnstitutu və ya mistik isnad yarandı, o mistik dərketmə Yolunun xüsusi üsullarının təsdiq edilməsində əsas rol oynadı. Bu İnstitutun yaranması təhsil məktəblərinin təşkilat sistemi və iyeraraxiya strukturasının yaranmasını əhəmiyyətli dərəcədə tezləşdirdi. Bu, sufi qardaşlıqlarının yaranmasına gətirib çıxartdı, onların üzərində əvvəlki ət-T. qalmışdı. Beləliklə, T.-qardaşlıq, T.-üsul, silsilə və formal təşkilatın birliyidir. Sufilər mistik Yol (adı) altında bütün xüsusi mistik təlimlər və təcrübi üsulların külliyyatını başa düşürdülər, onlar T.-qardaşlıq sistemində hazırlanır və onun vasitəsilə başqalarına ötürülürdü.

Ənənəyə görə XII-XIV əsrlərdə sufilikdə 12 əsas (üsul) və ya ana qardaşlığın yarandığı hesab olunur: rifaiyyə, yəsaviyyə, şaziliyyyə, şöhrəverdiyyə, çiştiyyə, kubraviyyə, bədəviyyə, qədiriyyə, mövləviyyə, bekdaşiyyə, xəlvətiyyə, nəqşbəndiyyə-xacəqan (bəzi müəlliflərin variantlarında: dasuqiyyə, sədiyyə, bayramiyyə, səfəviyyə), bunlar, sonralar müstəqil T. olmuş bütün çoxsaylı budaqlara başlanğıc vermişdi. Onlar Xorasan, Mesopotamiya, Məvaraənnəhr və Məqrib mistik ənənəsi çərçivəsində yaranmışdılar. Ən erkən qardaşlıq görünür rifaiyyə olmuşdur, o, T. tərəfindən hələ onun faktiki banisi Əhməd ər-Rifainin (1106-1182) sağlığında tanınmışdı. Bununla bərabər təşkilati strukturun (quruluşun) olmaması bir srıa T.-nin, məs. Söhrəverdiyyənin ərəb aləmində qardaşlıq olmasına imkan vermədi. Ayrı-ayrı T.-lərin birləşmə prosesi bizim vaxtımızda da davam edir.

XV-XVIII əsrlərdə quruluşun daim bürokratikləşməsi və mərasimin qanuniləşdirilməsi nəticəsində T.-nin əsasını təşkil edən prinsipdə köklü dəyişikliklər oldu: «tərbiyəçi-şagird» münasibəti – «müqəddəs-üzüyola» əlaqəsi ilə əvəz edildi. İndi mürid o qədər şeyxə-tərbiyəçiyə deyil, qardaşlığın daxili işlər üzrə rəhbərliyinə tabe idi. Zikrin əhəmiyyəti artır və T.-lər arasında əsas fərqləndirici işarə olur. Qardaşlığın əsas xüsusiyyətləri: 1) böyük-kiçik məsələsi – T.-nin rəhbəri şeyxə bərəkət və vilayət varisi kimi hörmət və tam tabeçiliyin olması. 2) tam inkişaf etmiş vahid təşkilatın olması, onun əsasında iyerarxiya tabeçiliyi qoyulmuşdur. 3) İki cür ardıcıllar: tam hüquqlu və assosiasiyalı üzvlər və s.

İranda XI əsrdə T.-qardaşlıq mənasında təriqət və silsilə istilahları işlənirdi.

**Ədəbiyyat:** İslam, 224-225; əl-Hücviri. Kəşf, 218-341; Təbəqat əs-sufiyyə. Əməli Piri Həzrət şeyx əl-islam xacə Abdulla Ənsari Həravi. Batəhqiq və təliq və təxşiyi Əbd əl-Həyy Həbibi (Kabil), 1341/1962; əl-Qəzali. Dirilmə, 93-121; Dəh qaide-yi Həmədani. EAŞILŞ əlyazması, S. 1092, 60a-63a; Rəşahat, 18-54; əl-Kaşani. İstilahat, 61; əş-Şə′rani. Təbəqat; Ибн Джувеуч. Путешествие, göstər. («xanaqa» rubrik-da); Awarif əl-məarif; əs-Süləmi. Təbəqat, göstər; İbn Bətutə. Travels. Index; Djami. Nafahat, 7-31; Dara Şekuh. Safinat; Петрушевский. Ислам, 342-347; О.Ф.Акимушкин. К вопросу о роли суфийских орденов в традиционном мусульманском обществе. – Ислам и его роль в современной идейно-политической борьбе, M.-Daş. 1980, 381-385; Zərrinqub. Ərziş, 83-122, 157-185; Anawati. Gardet. Mystique, 66-73; Muhammedanizm. An Historical Survey by H.A. R.Gibb. L., 1949, 147-164; Brown. Parvishes, Index; Amoretti. Proposito; de Yong. Sufi Orders; Schimmel. Dimensions, 231-241; Popovic. Orders; M.Gilsenan. Trajektories of contemporary Sufism. – Dilemmas, 198; Turker. Model; Trimingham. Orders, Index; L. Massignon. Tarika. – EI, 4, 667-672; Qardaşlıqlar haq. hazırki nəşr. məqal.bax.

**Təsbih** – sübhanə-l-lahi (Allaha eşq olsun), «Allah safdır», «Allah pakdır» ifadəsinin deyilməsi; bu, həm də təsbehi çevirərkən təkrarlanır; həm də əşya kimi təsbehin adıdır (ona sübhə, misbahə də deyilir). Gündəlik danışıqda təəccüb, qorxu, pis niyyət və ya əməlin rədd edilməsi üçün deyilir. İlahiyyatçıların rəyinə görə T. Allahın yoldaşı – şəriki və ya hər hansı zəifliyi olmasını inkar edir.

**Ədəbiyyat:** İslam, 231.

**Ət-Təsəvvüf** – sufilik, İslamda mistik – asketik cərəyan. Bu istilahın və onunla eyni kökdən olan istilahların mənşəi haqqında bir neçə ehtimal var – mütəsəvvif (sufi, «sufilik edən»), sufi (cəmi sufiyyə: ət-T.-ün ardıcılı, sufi). Sufi müəllifləri onun mənşəyini tez-tez SFV – «təmiz, günahsız olmaq» kökünə aparıb çıxardırlar, çünki əhlu-s-suffə («oturacaq və ya eyvan əhli») ifadəsini Peyğəmbərin (s) az təminatlı çox sadiq və Allahdan qorxan ardıcılları üçün işlədirdilər. Qərbi Avropa alimləri XX əsrə qədər ət-T.-ün (sufiliyin) yunan o`fi – «müdrüklüyündən» yararlandığını söyləyirdilər. Hazırda orta əsr müsəlman müəllifləri tərəfindən deyilmiş rəy hamı tərəfindən qəbul edilir, orada deyilir ki, sufi suf - «yun» sözündən götürülmüşdür, çünki qaba yun geyim əvvəldən də asket-dərvişin, «Allah adamının», mistikin adi atributu sayılmışdır. Görünür İslama qədər və İslamın yayılmağa başladığı h. I əsrdə sufilərin xələfləri-zahidləri, Suriyada və Şimali Ərəbistanda müxtəlif sektalara mənsub olan gəzəri xristian

monarxlarını və tərkidünyaları sufi adlandırırdılar. İslamda sufi (əs-sufi) nisbəsini isə ilk dəfə VIII əsrin II yarısında özünəməxsus asketik əqidəsi olan kufəli kimyagər Cabir ibn Həyyan və tanınmış mütəsəvvif kufəli Əbu Haşimlə bağlı işlənmişdir.

1. Ət-T.-ün yaranması və formalaşması

Ət-T.-ün başlanğıcını qoyan asketik hal İslamla demək olar bir vaxtda meydana gəldi. Hər halda, ənənə onu Məhəmmədin (s) bəzi silahdaşlarının adına yazır (Əbu-d-Dərdə`, Əbuzərr, Hüzeyfə (VII əsrin II yarısında vəfat etmişlər). Lakin asket-mistik cərəyanın formalaşması VIII əsrin ortalarına təsadüf edir. Adətən onlara hədis toplayanlar, gəzəri hekayəçilər, təbliğatçılar, Quran qarelərı və s. qoşulurdular. Ancaq o vaxt ət-T. və əs-sufi istilahları hələ yayılmamışdı, onların yerinə zühd, zahid və ya abid istilahları işlədilirdi. İslamda zühdi – sufi təmayülün yaranıb inkişaf etmə səbəbələri arasında müsəlman icmasının ilk iki yüzilliyi dövründə siyasi qarışıqlığı göstərmək olar.

Erkən sufilərin, d.d., zahidlər və abidlərin xarakterik cəhətləri Quran mətni üzərində düşünmək, gündəlik həyatda onun qaydalarına və Peyğəmbər (s) sünnəsinə riayət etmək, çoxsaylı namaz qılmaq, bütün dünyəvi ləzzətlərdən imtina etmək və s. idi.

İlahiyyatçı mötəzililərin abstrakt düşüncələri və yaxud nüfuzları, müqəddəs mətnlərin «hərfini» izləyən ənənəçilərin əksinə olaraq sufi təlimi əvvəldən antroposentrikdir: onlar insan qəlbinin ən kiçik hərəkətlərini də dərindən analiz edirdilər. Təsadüfi deyil ki, ət-T.-ün banilərindən biri-incə qəlbli psixoloq, «ürəklər və düşüncələr» (əl-qulub va-l-xəvatir) haqqında və insan niyyətləri haqqında «elmin» yaradıcısı əl-Həsən əl-Bəsri sayılır. Bəsrə asketləri – əl-Həsən əl-Bəsrinin şagirdləri Rabah b.Əmr, Rəbiə əl-Ədəvi, əd-Daraninin (VIII əsrin sonu IX əsrin başlanğıcı) çıxışları və möizələrində Allaha əvəzsiz məhəbbət və onun üçün darıxmaq və onunla yaxınlaşmaq motivləri yaranırdı.

IX əsrdə bir neçə sufi məktəbləri yarandı, onlardan ən nüfuzlusu Bağdad və Xorasan məktəbləri idi.

Ət-T. çox tez elitar və ezoterik xüsusiyyət aldı. Bu cəhətdən o, şiəlik və ismaili ezoterizm xüsusiyyəti qəbul etmişdi. Sünni nüfuzlarının ət-T.-ə şübhəli münasibətləri sufiləri ehtiyatlı olub kompromis həll axtarmağa vadar edirdi: onlar Quran və sünnəyə yaxınlıqlarını yorulmadan qeyd edir, sərt çıxışlardan çəkinir və öz əqidələrini maskalayırdılar, belə mövqenin göstəricilərindən biri Bağdad sufisi əl-Cüneyd idi (vəf. 910). Sufiliyin «qatı» tərəfdarları isə əl-Bistami və əl-Həllac idi.

Erkən ət-T.-ün ictimai bazasını şəhərlilər: kiçik ticarətçilər, sənətkarlar və s. təşkil edirdilər. İlahiyyat təhsilli adamlar isə onların içərisində az idi.

2. Ət-T.-ün leqallaşması və «sufi elminin» yaranması

X-XI əsrlərdə sufi həyat tərzi çox məşhurlaşdı və ət-T. tərəfdarlarının sayı artdı, xüsusi sufi ənənəsi yarandı, o, İslamdan başqa ideyalar və dini cərəyanla fərqlənirdi. Bu vaxt (X əsrin sonu – XI əsrin əvvəli) ət-T.ün «klassik qaydaları» meydana gəldi ki, ondan da bizə əs-Sərrac ət-Tusinin (vəf. 988) Kitabu-l-lum'ası, əl-Kələbazinin (vəf. 990 və ya 998) Kitabu-t-Təərrüfü, Əbu Talıb əl-Məkkinin (vəf. 998) Kitabu-l-qulubu, əs-Süləminin (vəf. 1021) Risalə əl-məlamətiyyə, Ədəbu-s-suhbə və s. traktatları, əl-Quşeyrinin (vəf. 1072) Risalə fi-t-Təsəvvüf, əl-Hücivirinin (vəf. 1072, 1076-77 arasında) fars dilində Kəşfu-l-məhcubu, əl-Ənsarinin (vəf. 1089) adına yazılmış Mənazilü-s-səirin və başqalari bizə gəlib çatmışdır. Erkən sufilərin tərcümeyi-halı yazılmışdı ki, onlardan ən məşhuru əs-Süləminin Təbəqat əs-Sufiyyə və Əbu Nüeymənin (vəf. 1038) Hilyət əl-övliya əsərləridir, özü də sonuncu əsərdə erkən sufilər arasında Peyğəmbərin (s) və Əlinin (ə) silahdaşlarının adları çəkilir. O əsərlərin içərsində ən görkəmli yeri əs-Süləminin Quranın ezoterik şərhinin sufi ənənəsini əks etdirən Həqaiq ət-təfsir əsəridir.

3. Ət-T. müsəlman icmasının dini həyatında

Ət-T.-ün əməllərində möminlərə təsir etmək uğrunda mübarizədə rəqibləri sünni ilahiyyatçıların müqavimətinə baxmayaraq, XII-XIII əsrlərdə ət-T. ümumiyyətlə müsəlman icmasının dini həyatında mühüm elementə çevrilir. Ət-T.-ün ideyalarının tam leqallaşmasında böyük xidmət sufilər tərəfindən hazırlanmış dinin mənəvi-estetik qaydalarının dəyərini və mənanın dərindən dərketmə üsullarını qəbul edən əl-Qəzaliyə aiddir. O, sufi təcrübəsinin bəzi əsas məsələlərini – zikri, «tənhalığı» (xəlvət) və s. inkar etmirdi. Ət-T. məşhur Bağdad hənbəlisi Əbdül-Qədir əl-Cilaninin (vəf.1166) möizələrinin əsasını təşkil edirdi. Ət-T.-ün nüfuzu ilə hakimiyyət də hesablaşırdı. Sufi «müqəddəslərinin» məzarları ziyarət yerinə çevrilirdi. Bəzi bütpərəst vilayətlərə İslam sufi dərvişləri vasitəsilə təlqin edilirdi.

XII əsrin ortaları – XIII əsrin əvvəllərində zaviyələr ətrafında, xüsusilə də şəhərlərdə sufi qardaşlıqları yaranmağa başladı. İlk dəfə Bağdadda yaranan söhrəverdiyyə və qədiriyyə qardaşlıqları tezliklə bütün müsəlman aləminə yayıldı. Onların faktiki yaradıcıları o qədər onların banisi Ömər əs-Söhrəverdi (vəf. 1234-35) və Əbdülqədir əl-Cilani deyil, o qədər onların şagirdləri və ardıcılları idilər. Hakimiyyət qardaşlıqların dəstəyini almaq üçün tez-tez onlara üstünlüklər verir və onların fəaliyyətlərini maliyyələşdirirdilər (məs. Əş-Şə'rani, Ömər əs-Söhrəverdi). Çoxları isə hakimiyyətlə əlaqədən qaçırdılar (çiştiyyə). Onlar çox halda xalqa, sənətkarlara yaxın olurdular. Onlar xalqa yaxın olmaq üçün «icazə verilməyən yeniliklər» edirdilər ki, bunu da sünnilər tənqid edirdilər (İbn əl-Cövzi, İbn Teymiyyə və s.). Lakin əl-Qəzalidən sonra sünni

ilahiyyatçıların çoxu sufi nəzəriyyəsi və praktikasının əsas qanunlarının çoxunu qəbul etməyə məcbur oldular. Yerlərdə bəzən sufizmə başqa dinlərin də təsiri olurdu. Hindistanda XIV-XVI əsrlərdə sufi ideologiyasında buddizmin və hinduliyin nişanələri var idi.

4. ət-T.-ün intellektuallaşması

Ət-T.-ün ideyalarının müsəlman cəmiyyətinin müxtəlif təbəqələri və ictimai qrupları arasında geniş yayılması ilə əlaqdəar olaraq XII-XIII əsrlərdə aydın surətdə onun daxili təbəqələşməsi baş verir. Sufi intellektual elitanın içərisində mütəkəllim və filosofların ideyalarını tam mənimsəmiş doktrinalar yarandı. Bu doktrinaların müəllifləri əs-Söhrəverdi əl-Məqtul (vəf. 1191), İbn Ərəbi (vəf.1240), İbn Səb'in (vəf. 1268-69 və ya 1271), Əbdürrəzzaq əl-Kaşani (vəf. 1329), Əbdülkərim əl-Cili (vəf. 1428) və başqaları idilər. Ümumiyyətlə fəlsəfi ət-T. XIII-XIV əsrlərdə çiçəklənmə dövrünə çatdı, sonralar isə öz imkanını itirdi.

5. ət-T.-ün «çoxtərəfliliyi»

Ət-T.-ün çevikliyi və onun yad təsirlərə «açıqlığı» onu olduqca yekcins olmayan cərəyana çevirmişdi. Öz tarixi boyu ət-T. üsyançıların və Mehdi hərəkatının ideologiyası olmuşdur. Ət-T. müsəlman nüfuzlarının əksəriyyəti tərəfindən tanınandan sonra onun himayəsi altında müxtəlif «qatı» təmayüllü icma və cərəyanlar – əl-hurufiyyə, əhli-haqq və s. fəaliyyətə başladılar. Anadoluda, sonra Balkanlarda, Orta Asiyada və İranda qarışıq sufi-şiə doktrinasına qulluq edən qardaşlıqlar genişlənməyə başladılar (bekdaşiyyə, mövləviyyə, nurbəxşiyyə, nemətullahiyyə, kubraviyyə, xəlvətiyyə, zəhəbiyyə). XIV-XVII əsrlərdə şiə mütəfəkkirləri ət-T. fəlsəfi irsinə müraciət edib, sufi ruhani iyerarxiyasının başçısını (əl-qütb) və ya «kamil insanı» «gizli» imamla eyniləşdirib, İbn Ərəbini və onun sufi ardıcıllarını öz müəllimləri hesab edirdilər (Heydər Amuli, Mir Daməd, Molla Sədra).

6. Ət-T. yeni və ən yeni dövrdə

Ət-T. inkişaf etdikcə bürokratikləşirdi. Təriqənin başçısı artıq öz işlərini xəlifə və müqəddəmlər vasitəsilə idarə edirdi ki, bu da əsas qardaşlığın çoxlu ikinci dərəcəli turuqlara (təki təriqə) bölünməsinə gətirib çıxarırdı, onlar isə təsir göstərmək üstündə bir-biri ilə mübarizə aparırdılar. Şeyxlər hakimiyyətin dəstəyini almaq üçün onlardan asılı olurdular. Bunlara qarşı məlamətiyyə ənənəsi yaranmağa başladı.

XIX–XX əsrin əvvəlində ət-T. müsəlman ölkələrinin siyasi-dini həyatında mühüm rol oynamaqda davam edirdi. Lakin ona hər yerdə Şərqdə olan ümumi ictimai sekulyarizasiya pis təsir edirdi. Bir çox ərəb ölkələrində gənclər ət-T.-ü öz ölkələrinin geri qalmasında günahlandırırdılar. Sufi şeyxlərini passivlikdə, hətta imperialistlərlə əlbir olmaqda mühakimə

edirdilər. Ona görə də bir sıra müsəlman ölkəsində qardaşlıqların fəaliyyəti ya qismən, ya da tamamilə qadağan edildi.

Ət-T. əvvəlki əhəmiyyətini itirsə də, geri qalmış şəhər və kənd əhalisi arasında hələ təsiri qalmışdı. Onun fəaliyyətdə olmasını XX əsrdə yeni turuqların yaranması göstərir: Əlcəzairdə əl-ələviyyə (banisi Əhməd əl-Ələvi, vəf. 1934), Tunisdə əl-mədəniyyə (banisi Məhəmməd əl-Mədəni, vəf. 1959, Miisrdə əl-həmidiyyə-əş-şaziliyyə (banisi Sələmə ər-Radi, vəf. XX əsrin 50-ci ill. axır).

Qərbi Avropa, Amerika və Yaponiya şərqşünasları müsəlman ölkələrinin tarixində ət-T.-ün rolunu ümumiyyətlə obyektiv qiymətləndirsələr də, bəzən xristian doktrinalarının onlara təsirini şişirdirlər. Bir sıra Qərbi Avropa ölkələri və ABŞ-da ət-T.-ün «modernləşdirilməsi» doktrinasını dəstəkləyirdilər.

**Ədəbiyyat:** İslam, 225-231; A.Afifi. Əl-Mələmətiyyə və-s-sufiyyə və əhl əl-futuvvə. Qahirə, 1945; yenə o. Ət-Təsəvvüf. Əs-Saurə ər-ruhiyyə fi-l-islam. Qahirə, 1963; Bədəvi. Şətəhat; Abd əl-Qadir Mahmud. Əl-təlsəfə əs-sufiyyə fi-l-islam. Misir, 1966-1967; İbrahim Xəlil. Ət-Təsəvvüf əl-islami beynə-d-din və-l-fəlsəfə. Misir, 1975; Mübarək. Ət-təsəvvüf; Hilmi. İbn Teymiyyə; Бертельс. Суфизм; Петрушевский. Ислам, 214-239; Кныш. Проблемы; R.A.Nicholson. The mystics of islam. L., 1914; yenə o. Studies; Massignon. Passion; yenə o. Essai; Arberry. Doctrine; yenə o. Sufizm; An Account of the Mystics of islam. L., 1963; F.M.Pareja (en collaboration avec. L., Hertling, A.Rausani, Th. Bois). Islamologie. Beyrouth, 1957-1963; E.Andrae. Islamische Mystiker. Stutgart, 1960; T.Burckhardt. Introduction aux doctrines esoteriques de I`Islam. Alger lyon, 1965; E.Bannerth. Le role de la mystique chez musulmans. – Islam; Civilisation et religion. P., 1965, 144-171; M.Mole. Les mystiques musulmans. P., 1965; H.Corbin. Historie de la philosophie islamique. P., 1964; yenə o. En Islam; Nwyia. Exegese; Sehimmel. Dimensions; Anawati. Gardet. Mystique; Gramlich. Dervis-chorden; L., Bakhtiar. Sufis; expression of the mystical quest. L., 1976; F.Meier. Hurasan und das Ende des klassischen Sufik.- Accademia Nazionale Dei Lincei. Roma, 1971, 368, 545-570; yenə o. Soufisme et declin culturel dans I`historie de I`Islam. – Actes du symposium international d`histoire de la civilisation musulmane (Bordeaux, 25-29 juin, 1956). P., 1977, 217-245; Laoust. Les schismes; Turner. Model: həm də bax: Pearson. Index, «Sufizm» bölməsi; İslam, qısa məlumat kitabı, B. 1985, 108-110; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 284-287; Э.Ю.Гасанова. Социология религии и мусульманского мистицизма- тасаввуфа в Турции XX в., Баку, 2006, 159-160, 162, 164 (sonralar Э.Гасанова Социология религии).

**<u>Ət-Təşbih</u>** («səbbəhə» - «oxşatmaq», «müqayisə etmək» felindən olub oxşatma, bənzətmə deməkdir, dar mənada – Allahı insan qiyafəsində təsəvvür etmə. Qərb islamşünaslığında ət-T. antropomorfizm kimi başa düşülür. Lakin müsəlman ilahiyyat və doksoqrafik ədəbiyyatında bu istilah daha geniş mənada – Allahın hər şeyi ilə müqayisəsində işlənir, buna görə də bu ilahiyyatçılar da antropomorfistlərə aid edilir. Ət-T. ideyasının «həşvilərin» - «rəvayət tərəfdarlarının» arasında meydana gəlməsi hesab edilir. Ət-T.-in ilk təbliğatçılarından Müqatil b. Süleyman əl-Bəlxi (vəf. 767), Qəhməs b. əl-Həsən (Bəsrədə 766 vəf.et.), Davud əl-Cəvaribi, Əhməd əl-Hüceymi və s. olmuşlar. Orta əsr doksoqrafları iki növ ət-T. qeyd edirdilər: 1) Allahın zatını cismə, o cümlədən insan bədəninə oxşatmaq; 2) İlahi atributları (əs-sifət) cism, o cümlədən insan atributlarına bənzətmək. Birincinin təbliğatçılarına «qatı» şiələri, haşimi və kərrami şiələrini aid edirdilər. Bunları həm də əl-mücəssəmə adlandırırdılar. İkinci növ ət-T. ilk İslamın ardıcılları – həşvilər, «rəvayətlərin tərəfdarları» arasında geniş yayılmışdır. Ümumiyyətlə isə, ət-T. məfhumu ət-tə′til məfhumuna – Allah haqqında asbstrakt, atributları olmayan baxışlara qarşı idi. Sonuncunun yaradıcıları müəttililər – mötəzililər idilər.

**Ədəbiyyat:** İslam, 235-236; İrfan. Dirasət, 197-200; R.Strothmann. Tashbih. – EI, 4, 742-744; həm də əl-müşəbbihə məqaləsinə bax.

**<u>Ət-Tə′til</u>** – müsəlman ilahiyyatçılarının bir şeydən məhrum olma-etmə haqqında təlimi xarakterizə etmək üçün işlətdikləri istilah: 1) aləm öz Yaradıcısından məhrum olur (tə′tilü-l-aləm ani-s-səni′) – aləmin təsadüfən yarandığını söyləyən «bəzi daxirilərin» təlimlərindəki kimi və ya 2) Yaradan məxluqdan məhrum olur (tə′tilü-s-səni′ ani-s-sun′) daxirilərdəki kimi, aləmin əbədi olduğunu söyləyən və ya 3) Yaradan atributlar, adlar və sifətlərindən və ehkamlardan məhrum olur (tə′tilü-l-bəri′ ani-s-sifət və-l-əsma və-l-əhkam) «bəzi qədim filosofların, həm də «qatı» şiələr və batinilərin təlimlərindəki kimi və ya 4) Yaradan əsas və müsbət məna kəsb edən atributlardan məhrum olur (tə′tilü-l-bəri′ ani-s-sifəi-z-zətiyyə və-l-mənəviyyə) şərq peripatetikləri təlimindəki kimi (məs. İbn Sina), onlar Allaha ancaq əlaqəsi olan (sifətü-l ifadə) və mənfi (sifətü-s-səlb) atributları verirdilər və ya 5) Yaradan özünə xas olan əbədi, əsl atributlardan məhrum olur (tə′tilü-l-bəri′ ani-s-sifəti-l-əzəliyyə əz-zətiyyə əl-qaimə bi-zətihi) mötəzililərin ət-tövhid haqqında təlimindəki və ya 6) Quran mətninin və sünnənin mövzusu öz mənasından məhrum olur (tə′til zəvahiri-l-kitab və-s-sünnə ani-l-məani əlləti dəllət aleynə) başqa sözlə müqəddəs mətnlər rəmzi-alleqorik şərh edilir (ət-tə`vil). Mütəfəkkirlər bu haqda öz nöqteyi-nəzərlərini ət-təşbihə əks olan ət-tənzih kimi ortaya qoyurdular.

**Ədəbiyyat:** İslam, 231; əl-Maqdisi. Əl-Bəd` 1, 143-144; əl-Cüveyni. Əş-Şamil, 319-321; əş-Şəhrəstani. Nihayət əl-iqdam, 123-130.

**Təvaf** («dövrə vurma», «ətrafına fırlanma») – əl-Kəbənin ətrafına fırlanma. T. ayini İslama cahiliyyə təcrübəsindən (davar) keçmişdir (gəlmişdir). Ənənəyə görə T.-ın əsas qaydaları Məhəmməd (s) tərəfindən «vida həcci» zamanı 632-ci ildə qoyulmuşdur.

T. «kiçik ziyarətin» (ümrə) zəruri elementidir, «Böyük həcc» vaxtı iki dəfə yerinə yetirilir – Məkkəyə daxil olanda (T.-u-t-təhiyyə) və ayinlər qurtarandan sonra (T.-u-l-vəda). Bundan başqa möminlik əməli kimi Məkkə əhalisi və qonaqlar tərəfindən hər vaxt yerinə yetirilə bilər (xüsusilə, cümə T.-ı və Ramazanda T. hörmətli sayılır).

T. etmək üçün zəvvar əl-Məcsid əl-Hərama sağ ayaqla «Bab əs-Səlam» qapısından daxil olmalıdır. Əl-Kəbənin şiaml-şərq küncündə yerləşdirilmiş «Qara daşa» yaxınlaşanda zəvvar onu öpür (təqbil) və ya əli ilə ona toxunur və onu dodaqlarına toxundurur (istiləm). T.-ı əl-Kəbə divarına yaxın saat əqrəbinin əks istiqaməti ilə yerinə yetirmək lazımdır. «Qara daşa» təzim edəndən sonra əl-Kəbənin yeddi dəfə təvafı başlayır. T. zamanı «İraq» və «Yəmən» künclərinə təzim edilir (öpülür, əllə toxunulur, xüsusi formula oxunur). T. dua oxumaqla yerinə yetirilir. Yeddi dəfə T.-dan sonra onu başlayan yerə gəlib Allaha, Peyğəmbərə (s) dualar edilib, namaz qılınır.

Yuxarıda göstərilən ayinlərin çoxu islamaqədərki təcrübədən gəlmişdir. Dualar oxunması, namaz qılınması yenilikdir. Əl-Kəbənin təvafından sonra əs-Səfa və əl-Mərvada səy etmək başlayır.

**Ədəbiyyat:** İslam, 217-218; əl-Qəzali. İhya. 1, 224-226; Guillaume. Muhammed, 649-652; Gaudefroy-Demombynes. Pelerinage, 205-224; Hacı Abutalıb Əbdül Müttəlib oğlu. Ziyarət. Bakı, 1990, 12.

**Təvəkkül** (təvəkkələ – «təvəkkül etmək», «ümid bağlamaq») – felindəndir, Quran mənşəlidir (3:122/118, 159/153; 5:23/26; 9:51; 14:12/15; 25:58/60; 65:3 və s.), özünü Allah iradəsinə tabe etməyi (vermək) bildirir, xüsusən də yaşayış üçün vəsait əldə etməkdən imtina edib, Allahın göndərəcəyinə ümid etmək.

T. təcrübəsi müsəlman zahidləri və sufiləri arasında geniş yayılmışdı. Quran materialına əsaslanaraq, onlar T.-ü imanla bağlayırdılar, onların rəyincə yalnız Allaha səmimi surətdə inanan gündəlik həyat qayğılarından (Ona qulluq etmək və Onun haqqında düşünmək üçün) imtina edə bilər.

Sufilikdə T. istilahı ilə sufi yolunun (tariq) ilk məqamlarından birini adlandırmağa başladılar, bu, öz iradəsindən imtina etmək, Allahı insanların yeganə xeyirxahı və hamısı, mövcud olmağın mənbəyi qəbul etməkdir.

Təcrübədə T.-ə riayət etmək sufinin bütün işlərdən əl çəkməsi, könüllü fəqirlik, hətta dilənçilik etməsi ilə ifadə olunur. Fəqihlərin və ilahiyyatçıların çoxu bu mənada kompromisə gedərək deyirdilər ki, T. işdən tam ayrılmaq demək deyil: ticarət etmək və işləmək də olar, ancaq gündəlik dolanmaq xatirinə.

**Ədəbiyyat:** İslam, 217; əl-Kələbazi. Ət-Təarruf, 71-73; əl-Məkki. Kut əl-qulub, 2, 2-28; əs-Sərrac. Əl-Lumə′, 51-53; əs-Süləmi. Əl-müqəddimə fi-t-təsəvvüf və həqiqatihi. Bağdad, 1984, 25-36; əl-Hücwiri. Kəshf, İndex; İbn Ərəbi. Əl-Fütuhat, 2, 199-202.

<u>**Tə'vil**</u> («mənbəyə, başlanğıca qayıtma») – Quranın və ya sünnənin rasional və ya rəmzi alleqorik şərhi. T. istilahı Qurandan götürülmüşdür və şərhçilərin rəyinə görə 8 halda «yuxu yozması» mənasını verir (təbir ər-ruyə, 12 surə), qalan 9 halda isə – «nəticə», «aqibət» mənasını verir. T.-in təfsirə qarşı qoyulması birbaşa və mütləq olmamışdır. Bu istilaha müsəlman icmalarının qəbul etdiyi ekzeqetik əsərlərdə, məs, Beydavidə (vəf. 1286) rast gəlinir.

T.-in ardıcılları mötəzililər idilər. Qurana (3:7/5) əsaslanaraq onlar başqa şərhçilər kimi ayələri «açıq», «aydın» (muhkəmət) və «aydın olmayan», «metoforikə» (mütəşəbbihat) bölürdülər. Mötəzili T.-i «hərfçilərin», xüsusən də hənbəlilərin kəskin tənqidinə məruz qaldı, onlar Quranın mətninin hər cür tənqidi və analzini rədd edirdilər.

«Mülayim» şəiələr və ismaililər T.-i guya öz dini və siyasi məqsədləri üçün istifadə edirdilər. Peyğəmbərin (s) vəfatından sonra onlar Quran mətnlərinin şərh edilməsi üçün ancaq onların imamlarının hüququ olduğunu söyləyirdilər.

«Mülayim» şiələr T.-i Quranda Əli (ə) və başqa imamlar haqqında gizli işarələrin tapılması və müsəlman icmalarının talehində onların birinci dərəcəli rolunun olduğu ilə əlaqələndirirdilər. Bununla bərabər onlar sünniləri, ən çox xəlifə Osmanı və Əməvi canişini əl-Həccacı imamlar haqda qabaqcadan Müqəddəs yazıda verilmiş xəbərləri təhrif etdikləri üçün günahlandırırdılar. İsmaili T.-i isə «İxvan əs-Səfa» nın ezoterik konsepsiyasını bölüşdürürdü.

«Mülayim» şiələrdən fərqli olaraq ismaililər deyirdilər ki, T.-ə bacarığı olan ancaq onların imamları və onların biliklərinə varis olanlardır – filosoflardır (əl-Fərabi, İbn Sina, İbn Rüşd və s.). Teosof və «ruhani» T.-inin yaranması ənənəsini Abdulla b. Abbas (vəf. 686) və şiə imamı Cəfər əs-Sadiqin (ə) (vəf. 765) adı ilə bağlayırlar. Quranın ən çox məşhur sufi şərhçiləri əl-Xərraz (vəf. 899), ət-Tüstəri (vəf. 896), ən-Nuri (vəf. 907), əl-Cüneyd (vəf. 910) və əs-Süləmi (vəf. 1021) olmuşlar.

Doktrial sufilikdə, xüsusilə İbn Ərəbi və əl-Kaşanidə T. bir növ filosofluq etmək üsulu idi. Onlar öz fikirlərini təsdiq etmək üçün Quranın və sünnənin materiallarına söykənirdilər. Onların opponentləri «hərfçilər» isə İbn Ərəbinin Nuh surəsinin şərhini öz şərhlərilə tutuşdurub, onun tamam əks olduğunu göstərirlər.

İbn Ərəbi və onun ardıcıllarının sufi qnoselogiyasında Dünyanın ətraf mühiti T.-inin əsas qayəsi idraka söykənir. Kainat nəhəng Qurana bənzədilir və onu ancaq sufi dərk edə bilər ki, bu bilik də ona yuxarıdan verilib.

Sufi T.-i sünni ilahiyyatçılarının əksəriyyəti tərəfindən kəskin tənqid edilirdi. Onlar sufiləri öz T.-ni ismaililər və filosoflardan götürdüklərinə görə günahlandırırdılar.

**Ədəbiyyat:** İslam, 218-219; İbn Ərəbi. Təfsir, yenə o. Fusus, 68-74; əl-Kaşani. Şərh; əl-Hüseyn b. əl-Əhdəl. Kəşf əl-qita` an həqaiq ət-tövhid. Əhməd Bəkir Mahmudun nəşri. Tunis, 1964; P.Nwyia. le tafsir mystique attribue a Ga`far Sadiq. Ed critique. – MUSJ. 1968, 43, 179-230; Hallaj. Al-Tawasin; əl-Həbib əl-Fikki. Ət-təvil: Ususuhu və məanihi fi-l-məzhəb əl-ismaili. Qadi ən-Nu`man. Tunis; Nasr Həmid Əbu Zeyd. Əl-İtticah əl-'aqli fi-t-təfsir. Beyrut, 1982; yenə o. Fəlsəfət ət-tə`vil: Dirasə fi tə`vil əl-Quran ində İbn Ərəbi. Beyrut, 1983; Goldziher. Richtungen; Massignon. Essai, 45-49; Wansbrough. Studies, 227-246; R.Deladriere. Niveaux de conscience selon al-Qashani. – BEO. 1977, 29, 115-120; Nwyia. Exegese; Gril. Personnage; Böwerig. Mystical Vision; R.Paret. Tawil. – EI, 4, 763.

**Ət-Tə'zir** («saxlama» - tutma) – ictimai qaydaları pozmağa görə (hakimiyyətə tabe olmamaq, özünü pis aparmaq və xuliqanlıq etmək, bazarda oğurluq etmək, dələduzluq etmək və s.) cəza. T. hakim, məhkəmə və ya polis rəisi (möhtəsib) tərəfindən qərara alınır. T. şallaq və ya çubuqla 5-dən 39-a qədər zərbə və ya 6 aya qədər həbs və ya cərimə etməkdən ibarətdir. Şallaq və ya çubuqla döymə cəzası qərar verilən kimi yerinə yetirilir. İctimai mühakimə, qazi və hakimin töhməti, günahın ağırlığı və günahkarın şəxsiyyətindən asılı olaraq, tərbiyəedici söhbət və s. təsir vasitələri T. kimi ola bilər. T. üçün icbari tövbə və üzr istəmə, daha ağır hallarda isə kəffarə vermək vacibdir.

**Ədəbiyyat:** İslam, 221; Əbu Yusuf. Əl-Xərac, 178-213; Meydani. Penal Law, 231-232; Schacht. Introduction, 187; W. Heffening. Tə`zir. – EI, 4, 769-770.

**Tə'ziyə** – (təziyə – «yastutma») – imami şiələrdə dini şəbih – üçüncü şiə imamı əl-Hüseyn b. Əlinin (ə) şəhid olmasının (Kərbəlada 10 oktyabr 680-cı ildə şəhid edilib) yad edilməsi. T. məhərrəm ayında saxlanır (qeyd

edilir). Məhərəmin onuncu günü-Aşuranı T.-nin kulminasiyası hesab etmək olar. Bu gün şəbehlər göstərilir, sinə, zəncir, baş vuranlar (çərtənlər) öz işlərini görürlər. Sonra İmanın üçü, yeddisi, qırxı qeyd edilir. T.-lər davam edir. Şiə ənənəsinə görə, xüsusi təziyə «məclisləri» (məcalis) birbaşa əl-Hüseyn şəhid olduqdan sonra başlayır. T. ənənəsinin yaranmasında mühüm rolu «tövbə edənlər» hərəkatı (ət-təvvabun) oynadı. Əl-Yaqubinin yazdığına görə kufəlilər satqınlıqları üçün peşman olaraq «müqəddəs ailənin» əsirlərini ağlamaq və özlərini döyməklə qarşıladılar. Suriyadan geriyə - Mədinəyə qayıdanda əl-Hüseynin qohumları gözətçilərdən Kərbəlada dayanacaq etməyi xahiş etdilər və orada onlar faciəli hadisələrin 40 günlüyünə ilk dəfə təziyə qurdular.

Əməvilər vaxtı əl-Hüseyn və onun yaxınlarının hər il yad edilməsi Mədinədə şiə imamlarının evlərində gizli keçirilərdi (Belə tə′ziyələr Azərbaycanda da keçirilir). Bu müddətdə T. ənənəsi yarandı, «yastutma» mövzusu şiə poeziyasında möhkəm və mühüm yer tutdu. T.-nin qeyd edilməsi ilə şiələr hökumətin «ikiüzlülüyünü» və «qəddar hökmdarların» ədalətsizliyini qamçılayırdılar.

İlk Abbasilər siyasi məqsədləri üçün T. məclisləri və mərasimlərini açıq keçirməyə nəinki icazə verdilər, hətta onları qiymətləndirirdilər. Lakin antişiə siyasəti aparan əl-Mütəvəkkilin dövründə (847-861) əl-Hüseynin məzarı dağıdıldı və T. qadağan edildi.

Şiə hökmdarları isə T.-ni rəğbətləndirirdilər. İraqda Builərin (Büveyhilər) hökmranlığı vaxtı T. rəsmi olaraq azad keçirilmək statusu qazandı. 963-cü ildə Bağdadda ilk dəfə rəsmi surətdə T.-ni qeyd etdilər. T. təcrübəsi və adətləri Suriyada Həmdanilər, Misirdə – Fatimilər, İranda – Səfəvilər vaxtı meydana gəldi.

IX əsrdə ilk dəfə əl-Hüseynin tarixindən epizodları avazla ifa edən peşəkar zorəxanlar, mollalar meydana gəlməyə başladı. X əsrin əvvəlində Bağdadda, Hələbdə və Qahirədə T. keçirmək üçün xüsusi evlər (əl-hüseyniyyə) yarandı.

T. hörmətli şiələrin evlərində başlayır, axşama yaxın əl-hüseyniyyələrə və ya başqa ictimai yerlərə yığışıb, orada əl-Hüseynin dəstəsinin Mədinədən (Məkkədən) İraqa-Kufəyə gəlməsinin şəbehini göstərirdilər.

Ümumi Aşura ilə bağlı T.-dən başqa evlərdə də ilin müxtəlif vaxtlarında -ramazanda, səfərdə və ya hacətin yerinə yetirlməsinə görə boyunalma T.-ləri keçirilir.

İranda məscidlər və ya xüsusi hazırlanmış yerlərdə (təkiyələr, hüsyeniyyələr) çadırlar qurulur, rəmzi şəhidlər üçün tabutlar düzəldilir. Şəbehdən əvvəl sinə vuranlar, zəncir vuranlar, baş vuranlar (çərtənlər), mərsiyə deyənlər özlərini nümayiş etdirirlər (Belə qeydetmələr Azərbaycanda da var).

T.-nin məzmun forması şiə İslamının ideyasının və onun əsas doktrinası – ali hakimiyyətin (imamətin) Əli (ə) nəslində irsi olduğunun təbliğinə xidmət edir.

Şiə aləmində T. mövzusunda ədəbiyyat geniş yayılmışdır. Poeziyada T. janrı yaranmışdır.

**Ədəbiyyat:** İslam, 220-221; Ayoub. Suffering, 148-158; Ta′ziyeh: Ritual and Drama in İran. Ed. By Peter J.Chelkowski. N.I. 1979.

**Ət-Ticaniyyə** – XV əsrin sonunda yaranmış nüfuzlu Şimali Afrika sufi qardaşlığı. Ət-T.-nin banisi Əlcəzairin cənubunda yaşayan, varlı olmayan bir bərbər ailəsindən olan Əhməd ət-Ticani (1737-1815) olmuşdur. İbtidai ilahiyyat təhsilini alan ət-Ticani sufi «klassiklərinin» əsərləri ilə tanış olub, əl-qadiri, ən-nasıri, əl-xəlvəti və s. şeyxlərinin yanında təlim alıb. Məkkə və Mədinəni ziyarət edəndən sonra ət-Ticani doğma yerlərə qayıdıb, Əlcəzairin Sidi-Əbi-Səmhun vadisində yerləşdi və ilk dəfə orada (1781-1782) müstəqil möizə ilə elə çıxış etdi ki, elə bil bu, Peyğəmbərin (s) şəxsi tərbiyəsi idi. 1789-cu ildə o, Türkiyə hakiminin təqibindən qorxaraq Sidi-Əbi-Səmhun vadisini tərk edir, Mərakeş sultanı Süleyman tərəfindən Fəsdə yaxşı qarşılanır. Sultanın dəstəyinə baxmayaraq ət-Ticani və tərəfdarları əvvəlcə Fəsin əhalisi tərəfindən düşmənçiliklə qarşılandı. Bu, «köhnə» sufi qardaşlıqlarının şeyxləri və yerli dini nüfuzlar tərəfindən ət-Ticaninin iddialarına qarşı düzəlmişdi. Buna baxmayaraq əl-qadiriyyə və əş-şaziliyyə qardaşlıqlarına qarşı ət-T.-ni alət kimi istifadə etmək istəyən sultanın köməyi ilə ət-Ticani tərəfdarları Fəsdə qalıb orada zaviyə tikə bildilər. Oradan ət-Ticani Əlcəzair, Tunis, Mərakeş, Mavritaniyanın bütün yerlərinə nümayəndələr göndərib qardaşlığın təsir əhatəsini genişləndirirdi.

Vəfatından qabaq ət-Ticani özünün ən yaxın silahdaşı Əli ət-Təmmasini qardaşlığın başçısı təyin etdi. Ət-Ticaninin vəfatından birbaşa sonra qardaşlıq iki bir-birinə qarşı mübarizə aparan qruplara parçalandı: ət-Ticaninin oğlanları yaşayan mərkəzi Ayn-Madidə olan qrup və ət-Təmmasinin yaşadığı Təmmasindəki qrup. Nəhayət ət-Ticaninin oğulları qardaşlığa başçılığı ələ aldılar, lakin onlar arasındakı mübahisə uzun illər davam etdi.

Ət-Ticani özü yazılı bir şey qoymayıb. Lakin onun yaxın silahdaşı Əli Xarəzim hələ onun sağlığında Cəvahir əl-məani traktatını yazdı. Oraya qardaşlığın banisinin həyatı, onun ümummüsəlman və sufi nəzəriyyəsi və praktikası, sufi poeziyası və s. müxtəlif məsələlər haqqında fikirləri daxil edilmişdi. Əli Xarəzim XVI əsr məşhur Mərakeş sufi hərəkatçısı Məhəmməd b. Əbdüssəlam əl-Qadirinin «Əl-Məqsəd əl-Əhmədin həyatı» kitabından geniş istifadə etmişdi. 1927-ci ildə bu plaqiatın üstü açıldı və ət-T. Məğrib və Misir dini nüfuzları tərəfindən kəskin tənqidə məruz qaldı.

Ət-T.-nin ardıcıllarının qalan iki kitabı Məhəmməd b. əl-Müşrinin (vəf. 1809-10) Kitabu-l-cāme′ li-l-ulumi-l-fəidə və Məhəmməd əs-Süfyanın (vəf. 1843) Kitabu-l-ifadə əl-əhmədiyyə əsərləridir ki, hələ nəşr olunmayıblar.

Söylənilən əsərlərdə ət-Ticaninin dünyagörüşü original deyil, ən çox ona təsir edən isə İbn Ərəbi olmuşdur. İbn Ərəbinin ezoterik nəzəriyyəsinə əsaslanan ət-Ticani özünü «ali qütb» (qütb əl-əqtab) və «Məhəmməd vilayətinin xətmi» adlandırmışdı. Buna əsasən o, özünü tam «günahsız» adlandırırdı ki, bir çox müsəlman nüfuzları hətta Peyğəmbərə (s) o ləqəbi verməkdən imtina edirdilər. Ət-Ticani silsiləsindən imtina edib, təlim və namazı (aurad) birbaşa Məhəmməddən (s) aldığını iddia edirdi. O, hətta öz müridlrəinə Qiyamət günü kömək etməyə vəd edirdi. Ə-T.-lər özlərini «ilahi seçilmişlər», qalan müsəlmanları «azmış» adlandırırdılar, onlar xristianları da belə sayırdılar.

Ət-T.-nin banisi və ardıcılları sufilər kimi zahidliyə və təvəkkülə əhəmiyyət vermir, ət-Ticani özü keyflə yaşayır, xeyriyyəçiliyə pul sərf etmirdi. Bu bir daha onun Məğribin varlıları arasında olduğunu göstərir.

Ət-T.-nin əsas namazları (aurad) ət-Ticaninin vəsiyyət etdiyi Salatu-l-fətih və Cövhəratu-l-kamaldır ki, I-si gündə iki dəfə qılınır, II-si təntənəli hallarda həqqayagetmə ilə – cümə günləri qılınır.

Ət-T.-nin banisinin vəfatından sonra onun yuxarı təbəqəsi Osmanlı hakimyyətindən asılı olmayan siyasət yürütmək istəyirdilər. Bu, hökumət qoşunları ilə qarşıdurmaya gətirib çıxartdı, bunun nəticəsində ət-Ticaninin böyük oğlu həlak oldu (1827), kiçik oğlu Məhəmməd əs-Səğir qardaşlığa başçılıq edib, əmir Əbdülqadirə fransız qəsbkarlarına Əlcəzairi zəbt etməyə qarşı mübarizədə kömək etməkdən imtina etdi. Burada onun əl-qadiriyyə qardaşlığına mənsub olması az rol oynamadı. Əbdülqadirin ət-T.-ni hərbi yolla tabe etmək istəyi uğursuz oldu. Məhəmməd əs-Səğir fransız qəsbkarları ilə əməkdaşlıq etməyə başladı. Onun ardıcılları və Təmmasindəki qardaşlıq rəhbərləri də onun yolunu davam etdirdilər.

Tunisdə çoxsaylı ət-T. iqamətgahları, onların şeyxləri Türk hökumətinin, sonra isə fransız hakimiyyətinin dəstəyindən yararlanırdılar. Eyni zamanda ət-T.-nin Mərakeşdəki əksər ardıcılları Ayn-Madidəki şeyxin cəhdlərinə baxmayaraq, fransızlarla əməkdaşlıqdan imtina etdilər.

Artıq XIX əvvəllərində əsrin ət-T. təlimi Mavritaniya əhalisi arasında geniş yayılmışdı. Qardaşlığın Müqəddəmi Məhəmməd əl-Hafiz böyük əzəmətli Mavritaniya İdav Əli qəbiləsini ət-T.-nin ardıcılı etmişdi. Qardaşlığın dini və siyasi lideri Hacc Ömər (1864-cə öldürülüb) Qərbi Afrikada əhəmiyyətli dərəcədə əraziləri tabe edə bildi – demək olar ki, o, Tican dövləti yaratmışdı. Hacc Ömər Seneqal və Niqer çayları vadilərində bütpərəst qəbilələrə qarşı mübarizəsini cihad adlandırdı. Hacc Ömərin torpaqları zəbt etməsi və «imansızlarla» mübarizəyə çağıran antixristian

təbliğatı fransızları ət-T.-yə qarşı hərbi əməliyyatlara başlamağa məcbur etdi. Ömər Niger çayı vadisinə geri çəkildi. Ömərin ölümündən sonra Qərbi Afrikada ət-T.-nin rəhbərliyi onun oğlu Əhmədə (vəf. 1895) keçdi, onun vaxtında fransızlar Tican dövlətini ləğv edib, onun ərazilərini ələ keçirdilər. Sonralar dini-siyasi motivlərə görə ət-T. bir neçə kiçik qardaşlığa parçalandı ki, onun da ən böyükləri həmailiyyə və yaqubiyyə qardaşlıqları idi.

XX əsrin 20-ci illərində Mərakeş, Əlcəzair və Tunisdə müsəlman fundamentalizminin ət-T.-yə qarşı geniş mühakimə kompanyası başladı, onlar ət-T.-nin ilahiyyatçı (əs-sələfiyyə) qaydalarını təkzib edirdilər.

Ət-T.-yə qarşı kompaniya onun mövqelərini sarsıtdığına baxmayaraq, qardaşlığın indi də ərəb aləmində və Afrikada çoxlu ardıcılları var.

**Ədəbiyyat:** İslam, 236-237; Əli Xarəzim b. Bərədə. Cəvahir əl-məani və buluğ əl-əməni fi fayd sidi Əbi-l-Abbas ət-Ticani, 1-2. Qahirə, 1927; Abd ər-Rəhman b. Yusuf əl-İfriqi. Əl-Ənvar ər-rəhmaniyyə li-hidayət əl-firqə ət-ticaniyyə. Qahirə, 1356 h; İbn Mə Yə`bə. Muştəhə əl-hərif əl-cani fi rədd zələqat ət-Ticani əl-cani. Qahirə, 1927; Rinn. Marabouts, 416-451; Jamil Abun-Nasr. The Tijahiyya: A.Sufi Order in the Modern World. Oxf.1965.

**Ət-Tirmizi,** əl-Hakim Əbu Abdullah Məhəmməd b. Əli (vəf.IX əsrin axırı) – şərqi İran sufiliyinin böyük nümayəndəsi. Termez şəhərində anadan olmuşdur, «tərcümeyi-halına» görə 8 yaşından dini elmlərlə məşğul olmuşdur, 28 yaşında Məkkəni ziyarətə getmişdir. Ziyarətdən qayıtdıqdan sonra ət-T. sufilik Yolunda durmuşdur, insanlardan uzaqlaşır, sufi traktatlarını öyrənir. Onun sufi müəllimlərinin arasında məşhur Xorasan şeyxləri Əbu Turab ən-Nəhşəbi, Yəhya əl-Cəlla`, Əhməd b. Hadraveyhi və başqalarının adını çəkmək olar. Ət-T.-nin həyatında onun arvadı böyük rol oynamışdır, o, ərinin baxışlarına tam şərik idi. Ət-T.-nin möizələri və əsərləri, hər şeydən əvvəl «İlə-ş-şəri'a və Xətmu-l-övliya» əsərində onun müsəlman ayinləri, Allaha məhəbbət, sufilərin müxtəlif kateqoriyaları, «peyğəmbərlərin mövcud olan möhürləri» ilə yanaşı «övliyaların möhürləri» haqqında fikirlər barəsində düşüncələri fəqihlər və varlı hakimlərin narazılığına səbəb oldu. Təqiblərdən canını qurtarmaq üçün o, əvvəlcə Bəlxə, oradan Nişapura gedir və orada çoxlu tərəfdar toplayır. Siyasi vəziyyət dəyişəndə ət-T.-nin düşmənləri ölkəni tərk etməyə məcbur olandan sonra o, doğma şəhərə qayıda bildi. O, oradaca öz şagird və ardıcılları əhatəsində vəfat etdi. Onların içərisində Əbu Əli əl-Cuzcani və Əbubəkr əl-Bərrakın adlarını qeyd etməyə dəyər.

Ət-T.-nin sufiliyin tarixi üçün əhəmiyyəti sayı səksənə çatan əsərlərindədir. Onlarda ruh, onun «halları» və «hərəkətləri», özünükamilləşdirməyin

yolları və alçaq instinktlərin cilovlanması, təmizlənmə kimi iztirab çəkmək və s. haqqında yazılanlar sonrakı sufi psixologiyasına çox böyük təsir göstərdi. Ət-T. hesab edirdi ki, insanın ala bildiyi ən yüksək bilik sufi biliyidir (mərifət və ya hikmət), o, onu insanların qəlbində olan «ilahi nurla» eyniləşdirirdi. Ət-T.-yə görə şəriətin hallarını şərh və tətbiq etməyə gətirib çıxaran adi bilikdən (elm) fərqli olaraq sufi bilik şeylərin və nəhayət «ilahi zatın» özünün gizli mənasını dərk edir. Elmi oxumaqla öyrənmək olursa, mərifət Allahın öz seçilmişlərinə bəxş etdiyi mərhəmətdir. Elmin sahəsi və vaxtı məhduddur, mərifətin isə hüdudu yoxdur. «Mərifət» ancaq qəlbi bu Dünyaya bağlılıqdan təmizlənən və fikri-zikri Allaha yönələnə məxsusdur. Belə insanları ət-T. sufi «övliyaları» hesab edirdi.

Ət-T. övliyalar haqqında sufi görüşlərini nəzəri əsaslandıran birinci şəxsdir, faktiki olaraq o, övliyaları rəsullar və peyğəmbərlərlə eyniləşdirirdi. Onun bu fikrini İbn Ərəbi inkişaf etdirib, öz əsərlərində onun traktatlarından iqtibaşlar vermişdir.

Tədqiqatçılara görə ət-T. bütpərəst, xristian və manihey təlimlərini bitirmişdir, onun əsərlərində bu, görünür. Ona görə də onun müaisrləri onu əl-Həkim (Mütəfəkkir) adlandırmışlar.

**Ədəbiyyat:** İslam, 237-238; əs-Süləmi. Təbəqat, 212-215; əl-Quşeyri. Ər-Risalə, 29; əs-Subqi. Təbəqat, 2, 20; əz-Zəhəbi. Təzkirə, 2, 218-219; ət-Tirmizi. Xətm; al-Hujwiri. Kashf, 141-142, 210-241; Əmmar. Təzkirə, 2, 91-99; Massignon. Essai, 286-294; O.Yahya. L`oeuvre de Tirmidhi. – Melanges, 3, 411-450; N.Heer. Some bioqraphical and bibliographical notes on al-Hakim al-Tirmidhi. – The World of Islam: Stadies in honour of Philip Nitti L., 1959, 121-134; M. al-Geyoushi. Al-Tirmidhi`s Theory of Gnosis. – IQ, 1971, 15/4, 164-188; B.Radike. Der Mystiker al-Hakim at-Tirmidi, ein islamischer Theosoph des 3/9 Jahrhunderts. Freiburg, 1980.

**Ət-Tövhid** (ət-tauhid; vahhadə felindən olub «nəyi isə bir, yeganə etmək, nəyi isə tək hesab etmək» deməkdir) – monizm, monoteizm – təkallahlılıq. İslamda ət-T. hər şeydən əvvəl şərikliyi (şirk) rədd edən və «Allahdan başqa İlah yoxdur» ibarəsinin mənasını verir. Nəzəri ilahiyyat səviyyəsində ət-T. Allahın zatının Onun sifətləri, Yaradanın məxluqla münasibətlərinin aydınlaşdırılması planında həll edilirdi. Mötəzililər ət-T. məfhumuna Allahın zatı və Onun əbədi atributlarından fərqlənən reallıqların inkarını daxil edirdilər. Əş'ərilər və sifətilər ət-T.-i Allahın təkliyinin qəbul edilməsi kimi qəbul edirdilər. İbn Teymiyyə başqa hənbəlilərlə birlikdə ət-T. məfhumuna daxil edirdi: 1) İlahi təbiəti ancaq Allaha aid edirdi (tövhidu-l-uluhiyyə); 2) Onun yeganə Xaliq və Mürşid (tövhidu-r-rububiyyə) olduğunu qəbul edirdi; 3) insanın özünü tam Allaha verməsi və Ona inanması (təslimu-l-mər` zətihi li-Llah) (tövhidu-l-

ubudiyyə). Ət-T. məfhumunun şirkin inkar edilməsi kimi sıravi möminlərin malı sayılan (tövhidu-l-ammə) sufilikdə ət-T.-in üç əsas forması seçilirdi: 1) insan iradəsinin Allahın iradəsində (tövhid iradi) əriməsi (təzvib); 2) Allahın eşqinə tutulan insanın Onun vücudunda özünü öldürməsi (fəna) (tövhid şühudi); 3) Allahdan başqa, mövcud olmayan heç bir şeyi dərk etməmək (tövhid vücudi). Ət-T.-in həm də tövhid əl-müşahədə adlanan bu sonuncu forması İbn Ərəbinin təliminə xas idi, sonralar o, vəhdət əl-vücud haqqında təlim kimi qiymətləndirilməyə başladı. Fələsifə üçün ət-T. zatın ən böyük vəhdətidir. İlahiyyat planında zatın bu böyük vəhdəti onlar tərəfindən Allahla eyniləşdirilirdi, Onun adi atributlarını isə onlar metafizik mənada mümkün hesab edirdilər.

**Ədəbiyyat:** İslam, 232; əl-Həkim. Əl-Mü′cəm, Ət-Tövhid məqaləsi; M.A.Ansari. The Doktrine of one actor: Junayd`s view of tawhid. – M.W. 1983, 37/1, 35-36.

**Ət-Tövrat** – Musanın Tövratı (Beşkitabı), Allah tərəfindən Musaya göndərilmiş müqəddəs yazı. Quranda ət-T. demək olar ki, həmişə İncillə bir yerdə gəlir, bu da ət-T.-da deyilənin həqiqi olduğunun sübutu kimidir. Bu, hər iki kitabın həqiqiliyini isə Quran təsdiq edir. Təsdiq altında isə hər şeydən əvvəl Köhnə Ətiqin İsa haqqında peyğəmbərliyidir. Qurana əsasən ət-T.-da və İncildə yəhudi olmayan Əhməd adlı (ən-nəbi əl-ummi) «peyğəmbərin» gələcəyi haqqında xəbər vardır (7:157/156; 61:6, həm də bax: 3:3/2, 48/43, 50/44, 6558; 5:43/47, 110; 9:111/112). Ət-T.- müqəddəs kitabdır, yəhudilər onunla yaşayır və hərəkət edirlər, orada insanlar üçün qanunlar və işıq var. Peyğəmbərlər onunla möminləri idarə edirdilər, sonralar isə müqəddəs kitabın ancaq bir hissəsini yadda saxlayan ravvinlər və kitabsevənlər ondan istifadə edirdilər. Orada cana-can, gözə-göz qisasına çağırış var (5:44/48-46/50). Quran, yəhudiləri ət-T.-ı təhrif etməkdə günahlandırır (5:66/70, 68/72; 62:5) ki, onlar müqəddəs mətnlərdə olmayan qadağaları onlara şamil edirlər (3:93/87). Ət-T. Məhəmmədin (s) xeyrinə yəhudilərlə mübahisədə şahid kimi cəlb edilir. T.-ın Qurandakı sitatları hərdən onun mətninə təxminən uyğun gəlir (5:44/48), hərdən isə T.-da deyil, Zəburda çox uzaq parallelini tapa bilir (48:29). Zəbur Quranda adı qeyd olunan ikinci müqəddəs yəhudi kitabıdır (4:163/161; 17:55/57; 21:105 və s.). Hər iki kitab haqqında məlumat görünür xristian dairəsinə gedib çıxır. Quranın çoxlu tarixi hekayələri və işarələri Bibliya mətnlərinə gedib çıxır: onlar Qurana aqad, xristian ədəbiyyatı və Ərəbistan rəvayətləri vasitəsilə gəlmişlər. T.-dakı mətnlərdə aydın olmayan fikirlər, düzgün və uydurma sitatlara tez-tez hədislərdə də rast gəlinir. Onlarda ilk müsəlmanların yəhudilərlə T.-ın həqiqi məzmunu haqqında mübahisələrinin izləri qalmışdır.

Orta əsr müsəlman müəllifləri İslamı qəbul edən xristian və yəhudilərin tərcümələri və nəql etmələri vasitəsilə Köhnə Ətiqin mətnləri ilə çox yaxşı tanış idilər və bu mətnləri Bibliya surətləri haqqında Quran hekayələrini şərh etmək üçün geniş istifadə edirdilər. VIII-X əsrlərdə T. bir neçə dəfə ərəb dilinə tərcümə edilmişdi: yunan dilindən (məs. Huneyn b. İshaq), qədim yəhudi dilindən (Səadiyyə Həun), hətta latıncadan (İspaniyada). Sonralar onu qibti, Suriya, qədim yəhudi dillərindən xristianlar, samarilər öz tələbatlarına görə tərcümə etdilər. Təqribən IX əsrdən müsəlmanlar Məhəmmədin (s) peyğəmbərliyi haqqında olan və Quranda olan T. mətnlərini tərcümə etməyə başladılar (7:157/156). Bunlar varlıq 16:9-12; 17:20; 21:21, İkili qanunlar 18:18, 33:2, 12 və s.-dir.

**Ədəbiyyat:** İslam, 231-232; А.Я.Гаркави. Утверждение мусульман об упоминании Мухаммада в Пятикнижии Моисея. – ЗВОРАО. 1896, 9, 199-205; M.Steinscehneider. Die polemische und apologetische Literatur in arabischer Schprache. Lpz., 1877; yenə o. Die arabische Literatur der Unden. Frankfurt. Erzählungen; J.Horovitz. Tawrat. – EI, 4, 764-766;

**Ət-Tusi,** Nasirəddin Əbu Cəfər Məhəmməd b. Məhəmməd (1201-1273-74), filosof, təbiətşünas, dini-siyasi xadim. (Tus şəhəri yaxınlığındakı) Cəhrunda doğulub. Dini və fəlsəfi elmlərin təliminə 1216-cı ildə Nişapurda başlamış, 1222-ci ildə monqollar oranı tutduqdan sonra, Tusda davam etdirmişdir. 1228-1255-ci illərdə ismaili hakimlərinin, o cümlədən Nasirəddinin və onun oğlu Müinəddinin yanında xidmət etmişdir. O, Nasirəddinə Əxlaq-e-Nasiri, Müinəddinə astronomik traktat Əl-Müiniyyəni ithaf etmişdir. 1255-1273-cü illərdə o, monqol hakimləri Hülakü və Əbəkənin yanında məsul dövlət vəzifələri tutmuşdur, Bağdadda vəfat etmişdir.

Onun Təcrid, Qavaidu-l-əqaid və Əl-Fusul əsərləri (sonuncu fars dilində) fiqh və kəlama həsr edilmişdir. Kəlam məsələlərini ət-T. peripatetik fəlsəfə sahəsində həll edərək, İbn Sinanın ənənələrini davam etdirirdi. İbn Sinanın Əl-İşarət və-t-tənbihat əsərinə ət-T. Həll muşkiləti-l-İşarət adlı şərh yazmış, Fəxrəddin Razi ilə mübahisəsində isə onun baxışlarını müdafiə etmişdir. Ət-T. sufiliyə maraq göstərmişdir, bəzi mənbələrə görə o, dövrün məşhur sufiləri ilə yazışmışdır. O, tibb, fizika, riyaziyyat, xüsuilə də nücuma aid əsərləri və həm də Marağadakı rəsədxanənin yaradıcısı kimi məşhur idi. Bir filosof kimi şiə dairələrində böyük nüfuza malikdir.

**Ədəbiyyat:** İslam, 238; М.Диноршоев. Философия Насираддина Туси. Düş., 1968; Z.Səfa. Xacə Nasirəddin ət-Tusi. Tehran, 1957; Ə. əl-Ə`sam. Nasirəddin ət-Tusi. Beyrut, 1975;

**Ət-Tusi,** Şeyxu-t-Taifə Məhəmməd b. əl-Həsən Əbu Cəfər (995-1067) – məşhur şiə ilahiyyatçısı və fəqihi, imami icmasının tanınmış nüfuz sahibi, imami (cə′fəri) fiqhinin kadifikatorlarından biri. Xorasanda doğulub, 20 yaşında İraqa gedib, beş il məşhur imami şeyxi əl-Müfidin, üç il İbn əl-Qədəirinin yanında təlim almışdır. Özünün dərin peşəkar biliyi sayəsində ət-T. Bağdadda imami icmasının mübahisəsiz lideri oldu. Abbasi xəlifəsi əl-Qaim bi-əmrillah ilahiyyat kafedrasını ona tapşırdı. Onun mühazirələrində təkcə tələbələr deyil, alimlər də iştirak edirdilər. Onun yanında oxuyanların sayı 300 nəfərə çatırdı. 1055-ci ildə Səlcuqlar Bağdadı tutduqdan sonra paytaxtda şiələr və sünnilər arasında çəkişmə başladı. Ət-T. Nəcəfə qaçdı, onun evi qarət edilib, yandırıldı. Əmlakı ilə birlikdə onun kitabxanası da yandı. Axırıncı 12 ilini o, Nəcəfdə keçirdi, orada da vəfat etdi. O, həyətində dəfn olundu, sonralar onun evi məscidə çevrildi. İndi o, Nəcəfdə çox hörmət edilən məscidlərdən biridir. O, şəhərin şimal darvazalarının yaxınlığında olub, onun adı ilə – Bab ət-Tusi kimi məşhurdur.

Şiə alimləri ət-T.-ni 47 əsərin müəllifi hesab edirlər. Onlardan 13-ü qalmışdır. Bütün sonrakı nəsl şiələri ət-T.-nin əsərlərinə şiə ehkamı və fiqhi üzrə ən düzgün material kimi baxırlar. Onun «Şəra′i` əl-islam»ı indiyədək dərslik kimi (əl-mərcə′ li-t-tədris) tədris edilir. İmami (cə′fəri) fiqhinin metodologiyasının, fiqhin mütləqi ictihad metodunun hazırlanmasında Ət-T.-yə xüsusi rol veriblər. Onun Təkzib əl-əhkam və Əl-İstibsarı şiə aləmində fiqh üzrə qanuni sayılan dörd hədis toplusundan (əl-üsulu-l-ərbəa) ikisidir. Ət-T.-nin qalmış əsərlərindən aşağıdakıları göstərmək olar: Təlxisu-ş-şafi fi-l-imamə – orada imamət haqqında imami təlimi müfəssəl izah olunub; Ət-Tibyən fi təfsir əl-Quran-Quranda ilahiyyat məsələlərinin şiə şərhi; Əl-Fihrist – şiə müəlliflərinin ən erkən və kamil biblioqrafik külliyyatı.

Şiə aliminin adı və onun əsərləri müasir İranda hörmətlə qarşılanır. Tehranda onun 1000 illiyini təntənəli surətdə qeyd ediblər.

**Ədəbiyyat:** İslam, 238; ən-Nəcaşi. Ər-Ricəl, 316; ət-Tehrani. Təbəqat, 5, 161-162; GAL., 1, 405, SBd, 1, 706-707.

**Tüleyhə** - (Təlhanın kiçildilmiş forması) – Təlha b. Hüveylid – Məhəmməd peyğəmbərin (s) vəfatından sonra müsəlman rəvayətlərinə görə özlərini ona oxşadaraq peyğəmbər elan etmiş və Ərəbistan əhalisinin bir hissəsini müvəqqəti olaraq İslamdan ayırmış yalançı peyğəmbərlərdən biri.

T. əsəd qəbiləsinin hərbi rəhbərlərindən biri idi, o 626 və 627-ci ilddərdə müsəlmanlara qarşı döyüşlərdə iştirak etmişdir. Gələcəkdən «xəbər verməklə» məşhur idi. 631-32-ci ildə gözlənilmədən səhrada quyu tapdıqdan sonra özünü peyğəmbər elan etdi. O deyirdi ki, trans (huşu

getmə) vaxtı Allahdan gələcək qələbələri, xüsusilə də İraq və Suriyanın fəthləri barədə ona mələkə xəbər verirdi. Əsəd, fəzər və teyylərin bir hissəsini başına toplayıb, guya Məhəmməd peyğəmbərlə (s) danışıqlar aparmaq isətyirdi. Onun Mədinədə İslamı qəbul etməsi, sonra isə ondan imtina etməsi məlumatı öz təsdiqini tapmır.

Məhəmmədin (s) vəfatından sonra T. 632-ci ildə Xalid b. Validin qoşunları tərəfindən məğlub olub qaçıb gizlənir, sonra İslamı qəbul edib Suriya və İraqın fəthində iştirak edir, 642 və ya 645-də həlak olur.

**Ədəbiyyat:** İslam, 238; əl-Balazuri. Futuh, 95-97; ət-Təbəri. Tarix, 1, 1687, 1975, 1882, 1891; İbn əl-Əsir. Usd, 3, 65; Yaqut. Mü'cəm, 1, 602, 6, 484; Пиотровский. Мухаммад; yenə o. Движение; V.Vacca. Tulaiha b. Khuwailid. – EI, 4, 899-900.

**Türbələr.** Türbə-ərəbcə turbət - torpaq sözündəndir. Bizdə o, müqəddəs yer-torpaq- məqam, pir, ocaq, ziyarətgah və s. kimi işlədilir. Pir və ocaq adlanan abidələr haqqında məlumat verilmişdir, indi də türbələr haqqında. T. haqqında ayrıca kitab əşr olunmuşdur (M.Nemətova). Biz onların bəziləri haqqında məlumat verəcəyik.

**Şeyx Zahid türbəsi.** Seyyid Cəmaləddinin müridi olan Şeyx Zahid ləqəbli şəxs əslində Tacəddin İbrahim əz-Zəncanidir. O, 1300-1301-ci ildə vəfat etmiş və Lənkəranın Siyəvurd kəndində dəfn olunmuşdur. Siyəvurd kəndini tez-tez su basdığına görə Şah İsmayılın atası Şeyx Heydər onun məzarını indiki Şıxəkəran kəndinə köçürdür və kəndin adı Şeyx Zahidin adına görə elə adlandırılıb.

Tacəddin İbrahim Allaha çox yaxın şeyx olduğuna görə ona Şeyx Zahid ləqəbi verilmişdi. Onun üç oğlu və Bibifatma adlı bir qızı var idi. O, Bibifatmanı Şah İsmayılın babası şeyx Səfiəddinə (1252-1334) ərə vermişdi. Şeyx Zahid vəfat edərkən yaratdığı dərviş cəmiyyətinə başçılığı oğlu Şeyx Cəmaləddin Zahidiyə yox, kürəkəni Şeyx Səfiəddinə həvalə etdi və Şeyx Səfiəddin nəsli «Səfəviyyə» adlanan yeni cəmiyyətin başçıları oldular.

**Ədəbiyyat:** Azərbaycanın dini-tarixi abidələri. Bakı, 2005, 195; Azərbaycanın məscidləri, 180.

**Baba Səmənd türbəsi**

Rəvayətə görə vaxtilə yeddi qardaş İslamı təbliğ etmək üçün Lerikə gəlirlər. Onlardan biri Baba Səmənd Tükəvilə kəndində vəfat edib və orada dəfn olunub, həmin yer türbə kimi tanınır. Rəvayətə görə türbənin həyətindəki palıd ağacının yarpaqlarından Aşura günü qan damır.

**Babagil türbəsi** Lənkəran-Lerik yolu üzərindədir. Onun əsil adı Nizaməddin Əmir Şahsevən olub, Şeyx Zahid Gilaninin müridlərindəndir.

O, qardaşları Baba Məhəmməd, Baba Həsən, Baba Davud, Baba Rəhman və s. ilə əvvəllər «Asnaqdran-Dəmirçilər» adlanan kəndə gəlirlər və burada İslamı təbliğ edirlər, tədricən kəndin öz adı unudulur və Babagil (Babagilin kəndi) adlanır. Babagil (Nizaməddin) I Şah Təhmasib vaxtı yaşamış, Biyəpuş ordularına qarşı vuruşda vəfat etmiş, yola yaxın yerdə dəfn olunmuş, qəbri ziyarət yerinə çevrilmişdir. Təxminən 10 il əvvəl ziyarətgah əsaslı surətdə inşa edilib. AMEA Tarix İnstitutunun Elmi arxivində Babagil türbəsindən götürülmüş 6 sənəd vardır. Onlarda Babagil türbəsinin vəqflərinin Babagilin övladlarının olmasına aid məlumat var.

**Ədəbiyyat:** Azərbaycanın dini-tarixi abidələri; Azərbaycanın məscidləri, 198.

**Baba Samid türbəsi** Salyan rayonunun Şıxlar kəndindədir. Türbə 1585-ci ildə Sultan Hacı Bəkdaş oğlu Baba Samidin qəbri üzərində Şirvan Bəylərbəyi Abdullaxan Ustaclu tərəfindən tikdirilmişdir. Baba Samidin atası Sultan Hacı Bəkdaşinin əsli Xorasandan idi. O, 1455-56-cı ildə Anadoluya gəlib, orada Yanıçar ordusu yaradır. «Bəkdaşiyyə» cəmiyyətinin yaranması da soy kökü imam Rzaya (ə) gedib çıxan Sultan Hacı Bəkdaşinin adı ilə bağlıdır. Baba Samid türbəsi respublikamızın böyük ziyarətgahlarından sayılır.

**Şirvanşahlar türbəsi**

Şirvanşahların ailəvi türbəsi düzbucaqlı olub, xaricdən çoxbucaqlı ulduzlara bənzədilmiş altıtinli günbəzlə tamamlanmışdır.

Giriş üzərindəki kitabə türbənin Şirvanşah Xəlilullah tərəfindən anası və oğlu üçün 839 (1435-36)-cu ildə tikdirildiyi bildirilir. Giriş tağının oxu üzərində 12 dəfə Əli, portalın yuxarısında Quran ayələri, timpanlarında isə iki medalyonda-(həm düz, həm də müəkkəs) iki dəfə təkrarlanan «Memar Əli» həkk olunmuşdur. Kitabələrə əsasən orada I Xəlillahın başqa ailə üzvləri də dəfn olunub.

**Seyid Yəhya Bakuvi türbəsi**

Xalq arasında «Dərviş türbəsi» kimi tanınan Seyid Yəhya Bakuvi türbəsi Şirvanşahlar Memarlıq kompleksinin cənub hissəsindədir. Mənbələrə görə o, Şirvanşah Xəlilullahın saray alimi olmuşdur. Şamaxıda doğulmuş S.Yəhya sufiliyin «xəlvəti» təriqətinin başçısı Şeyx Sədrəddinin tərəfdarına çevrilir. Onun vəfatından sonra S.Yəhya Bakıya gəlir və ölənədək burada yaşayır. Mənbələrin məlumatına görə o, 868 (1464)-cı ildə vəfat etmiş və saray kompleksinin ərazisində dəfn olunmuşdur. Onun 30-dək sufiliyə aid əsəri dövrümüzədək gəlib çatıb (Manisa, İstanbul, Kniyada).

Səkkizguşəli formada olan türbə səkkiztinli çadırvari tavanla (günbəzlə) örtülüdür. Türbə yerüstü və yeraltı hissədən ibarətdir - aşağıda məzar yerləşir, yuxarıda isə ibadət, ziyarət edirlər.

**Diri Baba türbəsi**

Qobustan rayonunun Mərəzə kəndi yaxınlığında, yüksək qaya divarında 1402-ci ildə Şamaxı xanı İbrahim xan tərəfindən yonulmuş sal daşlardan tikdirilmişdir. Türbə ikimərtəbəlidir. Birinci mərtəbə ibadət üçündür. İkinci mərtəbədə isə məzar yerləşir. Qapı və şəbəkəli pəncərələr tağvaridirlər. Türbənin aşağısı dördkünc, yuxarısı isə səkkizguşəlidir. Divarlar nəbati ornamentli kitabə ilə bəzədilmişdir. Dövrünə görə çox görkəmli abidədir.

**Şeyx Cüneyd türbəsi**

Qusarın Həzrə kəndindədir. Çox güman kəndin adı elə Həzrət Şeyx Cüneydin müqəddəs adından götürülmüşdür. Türbə düzbucaqlıdır, Şeyx Cüneydin qəbri üzərindəki sənduqə nəfis işlənmiş ağac şəbəkə ilə çərçivələnmişdir. Türbənin qərb qapısı üzərindəki 7 sətirlik kitabədə onun 951 (1544-45)-ci ildə Şah Təhmasibin vəziri Xacə Fəxrəddin Ağa Məhəmmədin səfəvi şeyxlərindən biri və Ərdəbil hakimi olmuş Şeyx Cüneyd üçün tikdirdiyi bildirilir. Şeyx Cüneyd və Şeyx Heydər Sultan titulu ilə qeyd ediliblər.

**Möminə Xatun türbəsi** Naxçıvanda Atabəy Şəmsəddin Eldəgizin oğlu Məhəmməd Cahan Pəhləvanın hərəmi Zahidə Xatun (hörmət əlaməti olaraq Möminə Xatunun) məzarı üzərində 1186-87-ci ildə ucaldılan türbədir. Türbə üzərində Məhəmməd Cahan Pəhləvanın da burada dəfn olunduğu haqqında məlumat vardır. Bu gün də öz gözəlliyini saxlayan türbənin memarı Əcəmi Naxçıvanidir. Türbənin divarları və günbəzi kitabələrlə bəzədilmişdir. Türbə el arasında «Atabəy günbəzi» kimi tanınır.

**Ədəbiyyat:** Azərbaycanın məscidləri, 115, 130, 213.

**Ət-Tüstəri, Əbu Məhəmməd Səhl b. Abdulla** (təx. 818-896) – erkən ekzeget və mütəfəkkir. Tüstər (Şüştərdə) ərəblər və ya fars məvalilərinin ailəsində doğulmuşdur. Sufi tərbiyəsini öz əmisi Məhəmməd b. Səvvardan almışdır. Gənc ikən Bəsrə və Abadana getmiş, orada şeyx Əbu Həbib Həmzə əl-Abadaninin yanında oxumuşdur. 834-cü ildə o, Məkkəyə ziyarətə gedir və orada məşhur Zu-n-Nun əl-Misri ilə görüşür və sufi rəvayətinə görə onun şagirdi və mənəvi varisi olur. Tüstərə qayıdandan sonra ət-T. 20 il ərzində zahidlik həyatı keçirir: daim oruc tutur, tək qalır, gecələr yuxusuz qalır və s. Ancaq (860-da) Zu-n-Nunun vəfatından sonra o, açıq möizə ilə çıxış etməyə cürət elədi və bunun nəticəsində tez bir zamanda çoxsaylı tərəfdar və düşmən qazandı. Siyasi əyintilərlə (səffari qarışıqlığı, zincilərin üsyanı) çətinləşmiş sonuncuların düşmənçiliyi ət-T.-ni Bəsrəyə köçməyə məcbur etdi, qalan ömrünü o, orada dini məşğələlər və moizələrdə keçirtdi.

Ət-T.-nin adına yazılmış əsərlər (sayı təx. ondur) əslində onun dediklərinin, möizələrinin, Quranın hissələrinə şərhlərinin qeydiyyatıdır ki, onun şagirdləri tərəfindən yerinə yetirilmişdir. Quranı alleqorik şəkildə şərh edən ət-T. bir sıra fikirlər söyləmişdi ki, onlar sufi qnoseologiyası, kosmoqoniyası və psixologiyasında böyük rol oynadı. Onun baxışlarına görə Kainatın başlanğıcınadək insanların ruhları və Allah arasında «müqavilə-əhd» (misaq) bağışlanmışdı; ruhlar İlahini özlərinin Allahı qəbul etdilər (K. 7:171) və özlərini onun mərhəmətinə tapşırdılar. Bunun əvəzinə onlara Qiyamət günü və əbədi olaraq Cənnət səadəti vəd edilmişdi ki, bu da Allahın görünməsi səadəti kimi (müşahədətu-l-haqq) bir şey idi. Ət-T.-yə görə peyğəmbərlər və «övliyalar» insanlara göndərilblər ki, Onu yada salsınlar. Onların timsalı Məhəmməd (ə) idi, o, insanların qəlbəlrini işıqlandırdı. Allah görünməz olaraq hər bir insanın qəlbindədir, bu böyük «sirrdir» ki, bunu ancaq seçilmişlər bilirlər. Kim ki, daxilindəki «ilahiyyat»ı reallaşdıra bilir, şəxsi iradəsi və «məninden» imtina edir, o, İlahi zatını dərk edib, Onunla qovuşur. Ət-T.-nin bu və başqa qaydalarını sonrakı sufilər öz əsərlərində istifadə edirdilər: əl-Həllac, Əbu Talib əl-Məkki, əs-Süləmi, əl-Quşeyri; və inkişaf etdirirdilər - əl-Qəzali, İbn Ərəbi və başqaları. Ət-T.-nin şagirdi Məhəmməd İbn Səlim və onun oğlu Əhməd İbn Səlim Bəsrədə Əs-Səlimiyyə ilahiyyat məktəbini yaratdılar. Məktəb sonrakı nəsillər üçün ət-T.-nin baxışlarını qoruyub saxladı.

**Ədəbiyyat:** İslam, 238-239; ət-Tüstəri. Təfsir əl-Quran əl-ʹəzim. Misir, 1329/1911; əs-Süləmi. Təbəqat, 199-205; əl-Quşeyri. Ər-Risalə, 18-19; əş-Şəʹrani. Təbəqat, 1, 66-68; Muslim Saints, 153-160; al-Hujwiri. Kashf, 139-140, 195-210; Massignon. Essai, 294-300; Böwering. Mystical Vision.

# U

**Uhud (Öhüd, Ühüd)** - Mədinədən 5 km. şimala dağ, onun ətəklərində 625-ci il martın 23-də müsəlmanlara qarşı Bədrdəki məğlubiyyətlərinə görə qisas almaq istəyən məkkəlilərin vuruşu oldu. Məkkəlilərin qoşunu 2200-3000 döyüşçü, o cümlədən 200 atlı və 800 zirehlidən ibarət idi. Məhəmməd (s) isə onlara 700 nəfər piyada (onlardan ancaq 100-ü zirehli idi) ilə cavab verməli idi. Müsəlmanların dəstəsi Məhəmmədin (s) planına əsasən gecə U.-dan cənubda düşərgə salmış məkkəlilərin arxasına keçib, dağla onların arasında qaldılar, dağ onları atlıların hücumundan qoruyurdu, zəif cinahı 50 oxatan qorumalı idi. Məkkəlilər itki verib düşərgələrinə çəkiləndə müsəlmanların bir qismi hərislik edərək, qənimət yığmağa başladılar, oxatanlar da həmçinin. Məkkə süvarisinə başçılıq edən Xalid b. əl-Valid bundan istifadə edib, müsəlmanların arxasına keçdi və müsəlmanlar böyük itki verdilər. Bir dəstə məkkəli döyüşçü tərəfindən əhatə olunan Məhəmməd (s) yaralandı və az qaldı əsir düşsün, 70 adam şəhid oldu (onlardan 4-ü mühacirlər idi, o cümlədən Peyğəmbərin (s) əmisi, əmisi oğlu və 68 ənsar). Məkkəlilər 19 döyüşçü itirdilər. Görünür, müsəlmanlar döyüş qabiliyyətini itirməmişdilər, çünki məkkəlilər gecə ikən Məkkəyə əkilmişdilər. Bu döyüş Məhəmmədin (s) nüfuzuna ağır zərbə oldu, çünki müsəlmanlar onun rəhbərliyinin onlara yüngül qələbə gətirəcəyinə ümid edirdilər. Onun məzəmmətlərə cavabı və uğursuzluğun səbəbinin izahı üçün Quranın ayələri cavab verirdi (3:152/ 145- 175/169).

**Ədəbiyyat:** İslam, 247; Əl-Vaqidi. Məğazi, 198-250; İbn Sə′d. Təbəqat, 2/1, 25-35.

**Ummu-l-Vələd** - («uşağın anası») – Ummu-l-İbndən («oğul anası»); azad qadından fərqli olaraq, ağasından oğlan uşağı doğmuş kəniz. İslama qədər və onun ilk illərində U.-l-V. başqa qullardan seçilmirdi, onları satmaq, dəyişmək, bağışlamaq və s. olardı. Onların statusunun dəyişməsi Ömər b. əl-Xəttabla (634-644) bağlıdır, o, onları satmaq və ya bağışlamağı qadağan etdi. Ağa kənizin doğduğu uşağı öz oğlu olduğunu qəbul edirdisə, kəniz, U.-l-V. olurdu. Əgər ağa bunu qəbul etmirdisə, onda kəniz və onun oğlu qul qalırdılar. Ağasınıın sağlığında U.-l-V. ancaq onun üçün kəniz olaraq qalırdı, ağa öləndən sonra isə azad olurdu. İşgüzar əlaqələrdə U.-l-V. şərti azad edilmiş qullara bərabər tutulurdu (mukətəb, müdəbbər). Uşağın olduğu halda U.-l-V.-in vəziyyəti barədə yekdil bir fikir yox idi: bir məzhəbə görə o azad, o biri məzhəbə görə isə, qul qalırdı. Kəniz satıldıqdan sonra iddə müddətində onun hamilə olduğu müəyyən edilirdisə, o, U.-l-V. kimi sabiq ağasına qaytarılırdı, satış müqaviləsi ləğv edilirdi.

Hazırda qulluq institutu ləvğ olunduğu üçün U.-l-V. statusu da keçmişdə qalıb.

**Ədəbiyyat:** İslam, 241; əş-Şeybani, Əl-Əsl, 237-246; Malik b. Ənəs. Əl-Müvəttə. 242-243; Mahmassani. Falsafat al-tashri, 112; Wensinck. Handbook, 142; J.Scacht. Umm al-walad.-E I , 4, 1096-1099.

**Urs** (sinonimi-valimə) nişan, adetmə şənliyi. Nikah mərasimi mərhələsi, bu vaxt nikah müqaviləsi elan olunur (siqə), mehr və ya onun bir hissəsi (sədəq) ödənilir. U. nikah başlanmasının formal təzahürüdür. Lakin U.-dan faktiki nikah əlaqəsinə girməyə qədər çox vaxt keçə bilər, belə ki, nikah olunanlar uşaqlıq dövründən çıxmadıqlarına görə U. ləğv edilə bilər.

**Ədəbiyyat:** İslam, 242; zəvac məqaləsinə bax.

**Uşr** (cəmi uşūr: «ondabir») - vergi və ya 1/10 miqdarda yığma, ondabir hissə.

1. Xəlifə (imam) tərəfindən, fəth olunmuş və ya bağışlanmış torpaqlardan müsəlmanlar tərəfindən kənd təsərrüfatı məhsullarından və ya əkilməsinə xərac vergisi qoyulmayan torpaqlardan (bostan məhsullarına adətən uşr vergisi qoyulmur) alınan vergi. Lakin bu, vəziyyəti təxminən göstərə bilir. Belə ki, U. torpaqlarının texniki üsulla suvarılan yerlərindən 1/20, xərac torpaqlarının az gəlirli yerlərindən 1/20 vergi alınırdı. Hüquqşünasların rəyinə görə U. kənd təsərrüfatı məhsullarından zəkatdır. Odur ki, xərac torpaq sahibləri xəracdan başqa U. da verməli idilər.

2. Əhlu-l-hərbdən 1/10 miqdarda ticari vergi alınırdı, bu, bəzən az, bəzən çox olurdu.

3. Qanuni zəkatdan başqa müsəlmanlardan alınan hər cür ticari yığımlar (adətən cəmdə uşūr, sinonimi maks, mukūs).

**Ədəbiyyat:** İslam, 247; Yəhya b. Adəm. Əl-Xərac, 44-50, 78-86; Lokkegaard. Taxation, 72-91; A.Grohmann`. Uchr-EI, 4, 1137-1139.

# Ü

**<u>Üləma (alimin cəmi – «bilən», «alim»)</u> -** təhsilin ənənəvi forması, şəriət və ayinlərin yerinə yetirilməsi sahəsində İslamın nəzəri və praktiki, tarixi-dini rəvayətlər və əxlaqi-hüquqi şəriət qanunlarının ilahiyyat bilicilərinin ümumi adı.

Ü. sözünün mənası elm istilahının müxtəlif mənalarına uyğun gəlir, baxmayaraq ki, elm İslamda dinin dəyişməz şərtidir, Ü. istilahı ilə bütün möminləri deyil, ancaq öz savadı və elmləri ilə seçilənləri çağırırdılar. Bir tərəfdən elm sisteminin çətinləşməsi ilə əlaqədar olaraq Ü. bütün yaşda və ixtisasda olan elm adamlarına deyilirdi. O biri tərəfdən dini biliyə üstün pillə verilir, dini alimlərə Ü. rütbəsi Allah sözünün şərhçiləri və Peyğəmbərin (s) varisləri kimi üstünlüklərinə görə verilirdi. Ü. istilahının işlənməsində ardıcıllıq yox idi və o, başqa istilahlarla bir yerdə mühəddis, fəqih, mütəkəllim və ya qazi, müfti, imam, xətib, müdərris və s.-yə verilirdi. Ü. adlanmaq üçün həmişə mübarizə gedirdi: əvvəl Quran və hədis bilicilərini, fəqihləri bu şərəfə layiq bilmirdilər. Sonra onlar aparıcı rol oynamağa başlayanda Ü. mütəkəllimləri tanımaq istəmirdilər. Ü. ədib, filosof və sufilərə qarşı da qoyulurdu. Ü. müxtəlif çoxsaylı qruplara-İslamın müxtəlif təşkilat və cərəyanları, icma ilahiyyat-hüquqi məktəbləri, sənətkarlıq və yaşayış yelərinə görə bölünürdü. Bəzən Ü. qrupları birləşərək şəhər icmalarına, hakimiyyət və dövlət tərəfdarlarına qarşıduranlara başçılıq edirdilər. Lakin bu, ötəri hal olaraq, daimi deyildi. Ü.-nın istilah kimi VII-XV əsrlərdə işlənməsi hər dəfə dəqiqləşdirilməlidir.

XVI əsrdə Osmanlı imperiyasının sünni və Səfəvi İranının şiə alimləri Ü. ünvanı üstündə siyasi mübarizə aparmağa başladılar. Sonradan kapitalist Avropasının təzyiqi ilə zəifləyən və ya az qala aradan qaldırılan Ü. müsəlman ölkələrində vilayətlər səviyyəsində birləşib, öz ölkələri və xalqlarının aparıcı ictmai qüvvələri kimi çıxış edirdilər. Sonralar isə Ü. içərisində təbəqələşmə getdi, antimüstəmləkəçilik hərəkatı və milli dövlətlərin yaranması gedişində bir-birinə əks proseslər gücləndi.

**Ədəbiyyat:** İslam, 239-240; Бартольд. Əsər, 6, 310, 619-623; Роузентал. Торжество знания, 59, 234, 286, 305-323; Дорошенко. Духовенство; A.Algar. Religion and State in İran. 1785-1906; The Role of the Ulama in Qajar Period. Berkeley and Los Angeles, 1969; The Ulama in Modern History; Studies in memory of U.Heyd Ed. by G.Baer. Yerusalem, 1971; Macdonald . Ulama. -Sh EI, 599-600.

**<u>Ümmə</u>** - dini icma. Ü. istilahının mənası Məhəmməd peyğəmbərin (s) təbliğat fəaliyyəti gedişində yaranırdı ki, bu Quranda da öz əksini tapmışdı.

Onun əsas aspektləri Peyğəmbərin (s) Məkkədəki dövründə yarandı (620-622). Quranda Ü. dünya əhalisinin cəmini təşkil edən insan cəmiyyətlərinin mənasını verirdi. Ayrı-ayrı cəmiyyətlər ümumi din (İslam) və yazı (ərəb dili) ilə birləşib, əhlu-l-kitab və Ü. adlanırdı (16:120/121; 11:48/50).

Ü. sözü əmmə - «əvvəl gəlmək», «qabaqda olmaq» felinə yaxındır (Buradan imam- «misal», «oxşarlıq nümunəsi» irəli gəlir). Quranda insanlığın tarixi bir dini icmanın (Ü.) durmadan başqası ilə əvəz edilməsidir. Buradan Ü. istilahında ruhani irslik mənası olduğunu qeyd edirlər (Ü. İbrahim, millət İbrahim).

Mədinə surələrində Ü. istilahı əsasən müsəlman və yəhudiləri təşkil edən Mədinə icmasını ifadə edirdi. Ü.-nin bütün üzvləri valə` civarla (himayə ilə) bağlı idi (8:72/73), mövla (vali) Allahın himayəsi altında idi (3:68/61; 47:11/12). Ü. üzvlərinin himayəçisi (vali) Allah iradəsinin ötürücüsü olan Məhəmməd peyğəmbər (s) özü oldu.

Məhəmməd peyğəmbərin (s) ömrünün sonuna yaxın demək olar bütün Ərəbistan əhalisi Ü.-yə daxil olmuşdular. Peyğəmbərin (s) vəfatından (Allahın icmanın işlərinə Peyğəmbər (s) vasitəsilə) «birbaşa müdaxiləsi» kəsiləndən) sonra Ü. əl-İslam Ali suvernitetin yerdəki aparıcısı oldu. Ərəb fütühatları və başqa xalqların islamlaşdırılması gedişində Ü. istilahı müsəlman cəmiyyətini bildirirdi.

VII əsr ərzində müsəlman icmalarını (Ü. əl-İslam) onların yaşadıqları yerlə (dər əl-İslam) və Xilafətlə eyniləşdirirdilər. Xilafətin hüdudlarından hətta kənarda yaşayan müsəlman da Ü.-yə aid idi. Milli vətəndaşlıq haqqında baxış müsəlman ölkələrində ancaq XIX əsrin sonunda yarandı. Buna qədər müxtəlif ölkərlərin müsəlmanları hüquqi cəhətdən müsəlmanların bir icmasının üzvü hesab edirdilər.

Ayrı-ayrı ərəb ölkələrində millətlərin yaranması təmayülü də Ü. istilahıının işlənməsində əksini tapdı.

**Ədəbiyyat:** İslam, 241-242; Резван. Исследования, 224-228; Denny. Ummah; yenə o. Ummah in the Constitution of the Medina.-JNES, 1977, 36/1, 39-47; L.Massignon. Umma et ses sunonymes; Notion de Communaute sociale en İslam.-REI, 1941-1946, 151-157; A.H.İbrahim. La Omma on la communaute d`une lange a l`autre. - Peuples mediterraneens, P., 1981, 15 3-21; C.A.O.Niewenhuijze. The Ummah-an Analitic Approach.-St l. 1959, 10,5-22; H.Kruse. The Development of the Consept of Nationality in Islam. New Delhi, 1965,2, 7-16; M.Kalby. Ummah: Identite regionale et conflits politico-culturels: cas du Maroc medieval.-Stl. 1963, 58; Y.Oda.The consept of «Ummah» in the Quran: an Elucidation on the basic nature of the Islamic Holy community.-Orient. Tokio, 1984,20,93-108;U.Rubin. The «Constitution of Medina»: some-notes.-Stl. 1985, 62,12-18.

**Ümrə** - kiçik Həcc ziyarəti. İlin bütün vaxtı yerinə yetirilə bilər. Ramazan, rəcəb ayları və (böyük həcclə bir yerdə zi-l-hiccə ayında ) yerinə yetirilməsi yaxşı hesab edilir. Ehram bağlama mərasimindən sonra zəvvar əl-Məscid əl-Həramın ərazisinə daxil olur, Kəbəni təvaf edib, namaz qılır, Zəmzəm suyu içib, əs-Səfa və əl-Mərva təpələri arasında səy edir. Ü.-dən sonra həcc yerinə yetirilmirsə, zəvvar ehramdan çıxır. İslamaqədərki Ü. bahar ayı olan rəcəbdə yerinə yetirilir və mövsümi mərasim hesab edilirdi. Ü.-nin elementləri görünür ehram bağlama, təvaf və qurban kəsilməsidir (mənasik). Əs-Səfa və əl-Mərvadakı səy Ü.-yə daxil deyildi (Q. 2:158/153). Ü.-nin Həcclə 632 ci ildə birləşdirilməsi bütpərəstliyin əsas mərasimlərini islamlaşdırmaq istəyən Məhəmməd peyğəmbərin (s) dini siyasətinin təzahürü idi. Ü. şəxsi möminlik üçün yerinə yetirilir, Həccdən fərqli olaraq onu hökmən əmələ gətirmək vacib deyil.

Əslində Peyğəmbər (s) Allahın əmri ilə yeni yaratdığı islam dinini hər cür yabançı şeylərdən xali yaratmaq istəyirdi.

**Ədəbiyyat:** İslam, 242; Gaudefroy-Demombynes. Pelerinage, 192-200; R.Paret. Umra-EI, 4, 1101-1103.

**Üsulu-d-Din** («dinin əsasları, sütunları, kökləri») - İslamın əsas ehkamlarından biri. Müsəlman ehkamının formalaşmasına İslamda ilk ehkam sistemi olan IX əsrin I yarısında tam formalaşmış mötəzili ehkamı güclü təsir etmişdir. Mötəzililərin ehkam sisteminin beş əsas kökünə uyğun olaraq şiə-sünni ilahiyyatçıları da beş əsas ehkam düzəltdilər: 1) Təkallahlıq haqqında təlim - ət-tövhid; 2) İlahi ədalətə, Allahın haqq işinə inam - əl-ədl; 3) Məhəmmədin (s) və əvvəlki peyğəmbərlərin peyğəmbərlik missiyasını qəbul etmək - ən-nübüvvə; 4) Məad, Qiyamət günü və o Dünyaya inam - əl-məad və ya əl-Qiyamət; 5) İmamət - xilafət haqqında təlim. Dörd ehkamı həm şiələr, həm də sünnilər qəbul edirlər. İmamət məsələsində isə sünnilər şiələrə inanmırlar, imaməti qəbul etmirlər. Şiələr isə Məhəmmədin (s) əmisi oğlu və yetirməsi, qızı Fatimənin əri olan Əli və onlardan törəyən 11 nəfəri Peyğəmbərlərin (s) varisləri və müsəlmanların imamları, onların başçıları hesab edirlər.

Müsəlman ilahiyyatında Ü. id-D. dinin ümumi prinsipləri və onun üsulları haqqında təlimi bildirir. İlahiyyat ədəbiyyatında Ü. id-D. istilahı və ya üsul əd-diyanə ilahiyyat sisteminin izahında giriş kimi tez-tez elm əl-kəlamın yerinə işlədillir.

Buradan da əl-Əş'ərinin (vəf.935) adına yazılan Əl-İbanə an üsuli-d-diyanə, əl-Bağdadinin ( vəf. 1037) Üsulu-d-Din fi elmi-l-kəlam və s. əsərləri irəli gəlir. Belə ki, əl-Bağdadi qeyd edilmiş əsərdə dinin 15 «üsulunu» təsvir edib, onların hər birini də 15 «məsələyə» bölüb, əş-

Şəhrəstani (vəf. 1153) Nihayətu-l-iqdam fi elmi-l-kəlam əsərində ilahiyyat sistemini 20 «qaydada» (qavaid) təqdim edir.

Müsəlman Şərqinin müasir ölkələrinin ruhani mərkəzlərində (məs:Əl-Əzharda) dinin (ilahiyyat) əsaslarını (üsul) öyrənən xüsusi fakültələr (külliyyat üsuli-d-din) vardır.

**Ədəbiyyat:** İslam, 243; əl-Bağdadi. Üsul əd-din. L.Gardet. Din, 5; Üsul al-din-EI, NE, 2, 295-296.

**Üsulu-l-Fiqh** («əl-fiqhin əsasları, kökləri») - əl-fiqhin mənbələri, hüquq elmi, əl-fiqhin əsaslarının nəzəriyyəsi və metodologiyası, hüquqşünaslıq.

Klassik İslam konsepsiyasına görə Ü. əl-F. əl-fiqhin nəticələrinin sistemləşdirilməsinin başlanğıcında xüsusi elm kimi birbaşa yaranmadı, çünki möminlərin ilk nəslinin ona ehtiyacı yox idi.

Lakin Peyğəmbərin (s) vəfatından sonra hüquqi qaydaların Quran və sünnə əsasında formalaşdırılmasına ciddi tələb yarandı. Çünki yeni nəsil hüquqşünasları Peyğəmbərin (s) hüquqi məsələlərinin həllinin şahidi və dərin bilikli deyildilər. Hüquqşünaslar tərəfindən hüquq qaydalarının axtarışlarının müxtəlif üsullarının azad surətdə istifadə edilməsi (ər-rəy) oxşar məsələlərinin həllində əsaslı dəyişikliyə gətirib çıxarırdı. Bütün bunlar əsaslı mənbələrdən əl-fiqhin dəqiq qanunlarını hazırlamağa təkan verdi.

Artıq VIII əsrin ikinci yarısnda əl-fiqhin işlənilməsinə iki aparıcı yanaşma əmələ gəlmişdi. Onlardan biri Peyğəmbərin (s) sünnəsinə söykənən (mədrəsət və ya əshab əl-hədis), ikincisi isə əl-fiqh məsələlərinin həllində rasional qaydalara əsaslanırdı. Belə qaydalar Məhəmməd b. İdris əş-Şafeinin (vəf. 820) traktatı Ər-Risalədə sistemləşdirilmiş, hərtərəfli əsalandırılmış və Ü. əl-F. nəzəriyyəsinin əsası olmuşdur.

Quran və sünnənin əl-fiqhin az konkret qaydalarını (qətiyyətu-d-dələlə) təsdiq etdiyinə və onların çoxunun rasional üsullarla əldə edildiyinə görə Ü. əl-F. nəzəriyyəsi əl-ictihad təlimi haqqında təlimin hazırlığı olmadan inkişaf edə bilməzdi. Bu təlimin Ü. əl-F. haqqında baxışlarla sıx əlaqəsi onunla təsdiq edilir ki, İslam mütəfəkkirləri (məs: əş-Şəhrəstani, vəf. 1153) tez-tez Ü. əl-F. istilahı yerinə üsulu-l-ictihad istilahı işlətmişlər.

Bundan başqa, məzhəblər hərəsi məsələyə bir cür yanaşırdılar. Məsələn, malikilər bütün müctəhidlərin konsensusunu deyil, ancaq çox savadlı Mədinə əhalisinin fikrini əsas götürürdülər. Zahirilər və bəzi hənbəlilər ancaq Peyğəmbər (s) ardıcıllarının əl-icmasının fikirlərini əsas götürürdülər, cəfərilər isə imamət konsepsiyanı əsas tuturdular.

Hər məzhəbin Ü. əl-F. konsepsiyası haqqında öz baxışları vardır. Müxtəlif məzhəblərin ardıcıllarının bu fənnə dair baxışları heç də bir-biri ilə uyğun gəlmir və bu da Ü. əl-F.-ə aid əsərlərdə öz əksini tapır. Müsəlman hüquqşü-

naslığı və İbn Xəlduna gedib çıxan təsnifata görə belə əsərlər üç yerə bölünür: 1) Birincilərə - əsasən əl-fiqhə aid mənbələrin şərh olunduğu əsərlərdir.

1) Belə əsərlər əsasən Şafei məzhəbinə aiddir: İmam əl-Hərəmeyn adı ilə tanınan Əbdül-Məlik əl-Cüveyninin (vəf. 1085) Əl-Burhan, Əbu Həmid əl-Qəzalinin (vəf. 1111) Əl-Mustasfa min elmi-l-üsul, Fəxrəddin ər-Razinin (vəf. 1209) Əl-Məhsul fi üsul, Seyfəddin əl-Amidinin (vəf. 1233) Əl-İmam fi üsulu-l-ehkam, Abdulla b. Ömər əl-Beydavinin (vəf. 1286) Minhəcu-l-vüsul ilə elmi-l-üsul əsərləri. Onlardan əlavə bu kateqoriyaya başqa məzhəblərin də əsərlərini aid etmək olar: mötəzili Əbu-l-Hüseyn Məhəmməd əl-Bəsrinin (vəf. 1044) Əl-Mötəməd fi üsuli-l-fiqh, zahiri İbn Həzmin (vəf. 1064) Əl-Ehkam fi üsuli-l-ehkam, maliki Əbu Əmr Osman b. Əl-Hacibin (vəf. 1249) Müntəhə əs-su`l va l-əməl əsərləri.

2) Başqa kateqoriya hənəfi məzhəbinə aid olanların əsərləridir. Bunlar Əbu Zeyd Abdulla b. əd-Dəbbusinin (vəf. 1038) Əl-üsul, Əli b. Məhəmməd əl-Bəzdəvinin (vəf. 1089) Əl-üsul, Abdulla b. Əhməd ən-Nəsəfinin (vəf. 1310) Əl-Mənar, Məhəmməd Əmin b. Abdinin (vəf. 1836) Haşiyə nəsəməti-l-əsxər əsərləridir. Buraya Şafei Əbdürrəhim b. əl Həsən əl-İsnavinin (vəf. 1370) Ət-Təmhid fi təxrici-l-furu alə-l-üsul və maliki Şihabəddin Əbu-l-Abbas Əhməd b. İdris əl-Kərəfinin (vəf. 1285) Tənkidu-l-fusul fi elmi-l-üsul əsərlərini də daxil etmək olar.

3) Buraya yuxarıdakı hər iki yanaşmaya aid əsərlər aiddir. Onlara hənəfi Sədr əş-şəria adı ilə tanınan Übeydulla b. Məsudun (vəf. 1346) Tənkih əl-üsul, şafei Tacəddin Əbdül-Vəhhab b. Əli əs-Subqinin (vəf. 1369) Cəm′ əl-cəvami′ və hənəfi İbn əl-Hümam adı ilə tanınan Məhəmməd b. Əbdülvahid Kəmaləddinin (vəf. 1456) Ət-Təhrir əsərləridir. Ü. əl-F. haqqında əsərlər içərisində görkəmli hüquqşünas, maliki Əbu İshaq əş-Şatibinin (vəf. 1388) Əl-Müvafəqat və əl-İ′tisam əsəri xüsusi yer tutur.

**Ədəbiyyat:** İslam, 243-247; əş-Şafei, Ər-Risalə; yenə o. Kitab əl-umm, 7, Qahirə, 1978; Əbu l-Hüseyn Məhəmməd əl-Bəsri. Kitab əl-mutəməd fi üsul əl-fiqh. 1-2, Dəməşq, 1964-1965; Əbu-l-Həsən Əli b. Məhəmməd b. Həbib əl-Məvardi. Ədəb əl-qadi. 1, Bağdad, 1971; Əbu Həmid əl-Qəzali. Əl-Mustəsfə min elm əl-üsul. 1-2, Beyrut; Əbu İshaq əş-Şatibi. Əl-Muvafəqat fi üsul əş-Şəria. 1-4, Beyrut; İbn Xəldun. Müqəddimə, 435-436, 452-458; Məhəmməd Əmin b. Abidin. Haşiyə nəsəmət əl-əsxər. İstanbul, 1883; А.Э.Шмидт. Очерки истории ислама, как религии.-Мир ислама. СРВ., 1912, 1/1-2, 42-55, 185-197; Петрущевский. Ислам, 123-132; А.С.Боголюбов. К вопросу о рационалистическом принципе ар-рай в раннемусульманской правовой науке.- Арабские страны: История, экономика. М., 1974, 25-28; Сюкияйнен. Право. 31-89; M.əl-Xudəri. Üsul əl-fiqh. Qahirə, 1938; Əbdül-Vəhhab Xəllaf. Məsadir ət-təşri əl-islami fimə lə nass fihə. Qahirə, 1955; M.A.əz-Zərqa`. Əl-Fiqh əl-islami fi saubihi

əl-cədid; Əl-Mədxəl əl-fiqhi əl-amm. 1-2, Dəməşq, 1968; M.S.Mədkur. Mənəhic əl-ictihad fi-l-islam. Küveyt, 1974; B.əz-Zuheyli. Üsul əl-fiqh əl-islami. 1-2, Dəməşq, 1986; J.Schacht. The Origins of Muhammadan Jurisprudence. Oxf. 1950; Vesey Fitzgerald. Nature; M. Khaddiri. An introduction.-Al-Shafii. Muhammad ibn İdris. İslamic Jurisprudence; Shafii's Risala. Transl. with introd. by Majid Khadduri. Baltimore, 1961, 3-54; Schacht. İntroduction; yenə o. Usul-Sh EI, 611-615.

**Üzeyr** - Quran surəti, İsrail oğullarına göndərilmiş bir peyğəmbər, yəhudilər onu Allahın oğlu elan edərək, müsəlman rəvayətlərinə görə, həqiqi təkallahlığa qarşı eynilə xristian cinayəti etmişdilər. Quranda o, bir dəfə xatırlanıb: «Yəhudilər dedilər: Üzeyr-Allahın oğludur». Və xristianlar dedilər: «İsa-Allahın oğludur» (9:30)

Adətən Ü.-i Bibliya Ezre peyğəmbəri ilə eyni tutulur, baxmayaraq ki, V-VII əsr məşhur yəhudi materialları Ezreni yəhudi müqəddəs tarixinin sayılan şəxsiyyətlərindən hesab etmirlər. Ola bilsin ki, Ərəbistanda yaxşı məlum olmayan Ezreni hörmətlə sayan naməlum yəhudi sektası olub.

Qurandansonrakı rəvayətlər Ü.-lə Ezreni bir səslə eyniləşdirirlər. Orada deyilir ki, israillilər (Nuhun) gəmisini və Tövratın mətnini itirdikdən sonra onlar onu Ü.-dən öyrəndilər, ona isə o biliyi Allah nazil etmişdi. Gəmi qayıdandan və Tövratın mətnini əldə edəndən sonra gördülər ki, Ü.-in dedikləri ilə onlar üst-üstə düşür. Heyrətə gələn israillilər Ü.-i İlahi - Allahın oğlu hesab etdilər.

Rəvayətə görə Ü. savadlı bir adam idi. Son dərəcə mütəssir olan Ü. Allahdan Tövratı yenidən ona öyrətməyi diləmişdi və Allah onun xahişini yerinə yetirmiş, sonra o, onu öz qövmünə öyrətmişdi. O, vaxtının çoxunu dağlarda ibadətdə keçirirdi. Ü. bu vaxt hələ gənc idi. Bir dəfə şəhərə gələndə qövmünün çoxunun öldürüldüyünü görür. Onlar Tövratın bir hissəsini düşməndən xilas edib basdırmışdılar. Ü. öz qövmünə Tövratı öyrədir. Yəhudilərin Ü.-rə hörməti artır.

**Ədəbiyyat:** İslam, 239; ət-Təbəri. Tarix, 1, 670; yenə o. Təfsir, 10, 787-80; əs-Sə'ləbi, Qısas, 195-196; əl-Beydavi. Təfsir, 1, 384; Horovitz. Untersuchungen, 127-128; Speyer. Erzählungen, 413; D.Künstlinger. `Uzair ist der Sohn Allah's. – OLZ. 1932, 381-383; B.Heller. Uzair.-EI, 4, 1150-1151, Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 297-298.

**Əl-Üzzə («qüvvətli», «qüdrətli»)** - qədim Ərəbistanın qadın Allahı, V-VI əsrlərdə Ərəbistanın bir çox yerində, xüsusılə Hicaz, Hirə, Nabatiyyədə hörmətlə qeyd edilirdi. Əl-Ü. ola bilsin Zöhrə ulduzunun mücəssəməsi kimi sayılıb. Ona əsas təzim mərkəzi Məkkə yanındakı (Nəhlə) Hurad vadisidir, o (Taifdən Məkkəyə) Suriya və İraqa gedən ticarət yolunun

başındadır. Əl-Ü. məbədi (Əl-Üzzə əs-Səidə) «qoruq ərazilərində» yerləşirdi, üç müqəddəs şeyi vardı – 3 müqəddəs samura (akasiya - ağcaqayın) ağacı, müqəddəs daş və bina. Məbəd ağcaqayın ağaclarından birinin içində idi. Müqəddəs daş və qurban qanlarının saxlandığı Ğabğab mağarası da oradadır. Orada qurban kəsir, Allahdan işarə istəyir, ora müntəzəm surətdə ziyarət edilirdi. Əl-Ü. Qüreyşilərin himayədar Allahı idi, o, o biri allahlardan gənc olsa da, onlar onu üçlük ilahilikdə (əl-Ü., əl-Lat, Mənat) başçı sayırdılar. Guya onların üçü də Allahın qızları, bəzən o ikisi əl-Ü.-nin qızları sayırlırdı. Peyğəmbərlik dövründən qabaq guya Məhəmməd əl-Ü.-nin ziyarət mərasimində olmuş, qurban kəsmişdir. Məkkə möizələrinin birində o, guya üç ilahənin - «səma quşlarının» mövcud olduğu və Allah qarşısında onların insanları himayə edənlər olduğunu demişdi. Lakin tezliklə bunun Şeytan təhriki olduğunu elan etmiş və təzə vəhy gəlmişdi ki, əl-Lat, əl-Ü. və Mənat yoxdur (53:19-23) (Əslində isə bu uydurma bir şeydir). Bu, məkəllilər və Məhəmmədin (s) əqrabasına xoş gəlmədi. Onlar Məhəmmədlə şiddətli münaqişəyə girdilər. Əbu Süfyan h. 3-cü ildə Məhəmmədə (s) hücum edəndə Ü. ilə əl-Latın timsalları (kiçik heykəl) onunla idi. Ü.-nin onlar üçün Məkkənin əsas ilahəsi olduğu Əbu Süfyanın sözlərindən aydın olur: «Ü. sizinlə deyil, bizimlədir». Əbu Talibin vəfatından sonra qəbilə başçısı olan və Məhəmmədin (s) əmisi Əbu Ləhəb Əbd əl-Ü. adını daşıyırdı və özünü əl-Ü.-nin müdafiəçisi hesab edirdi. Yəsribdə möhkəmlənən müsəlmanlara qarşı mübarizə aparan qüreyşilər əl-Ü.-ni köməyə çağırırdılar.

Məkkəni aldıqdan sonra Məhəmmədin (s) əmri ilə Xalid b. Vəlid əl-Ü. məbədini dağıdıb ağacları kəsdi, rəvayətə görə axırıncı ağacı əl-Ü. çılpaq qara qadın qiyafəsində özü qorumaq istəyirmiş.

**Ədəbiyyat**: İslam, 239; İbn əl-Kəlbi. Əl-Əsnam, 17-27, 44; ət-Təbəri. Tarix, 1, 1648; yenə o. Təfsir, 27, 34-37; əş-Şəhrəstani. Əl-Miləl, 2, 237; əl-Beydavi. Təfsir 2, 93; A.Q.Lundin. Üzzə.-Dünya Xalqlarının əsatirləri, 2, 545; yenə o. «Дочери бога»; Fr.Buhl. Al- `Uzza.- EI, 4, 1157-1158; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 291.

# V

**<u>Vasan</u> -** (Cənubi Ərəbistanda vsn – «orta dayaq», «büt») – islamaqədərki Ərəbistanda dinsizlərin sitayiş etdikləri əsas obyektlərdən biri. V. termini ilə yanaşı həm də nusub (cəmi ənsab) və sənəm (cəmi əsnam) terminləri işlədilirdi. Ənsab – bütlərə həsr olunmuş qurbanların qanları axıdılan daşlar, qəbirüstü və müqəddəs ərazilərini (himə) ayıran daşlardır. Belə daş Allah kimi də sayılra bilərdi, ancaq daimi sitayiş obyekti kimi az istifadə olunurdu. Hər yeni dayanacaq yerində köçərilər özlərinə ilahi kimi yeni daş seçirdilər. B.e. IV əsrinin ortalarında əsasən nabatey, suriya-fələstin nüfuzunun təsiri altında «yonulmamış daş» - nusub – (Ərəbistanının oturaq cəmiyyətinə ilahi heykəl surəti) sənəm və ya vasan kimi keçdi. Sözün mənaca təhlili göstərir ki, sənəm sözü daxili Ərəbistan əhalisinə aramilərdən, V. isə Cənubi Ərəbistan vasitəsilə həbəşlərdən gəlmişdir. Bu iki istilahın mənaları arasındakı fərq dəqiq seçilmir. İbn əl-Kəlbi iddia edirdi ki, sənəm sözü taxta və ya metaldan düzəldilmiş büt, V. isə heykəl mənasını verirdi. Lakin islamaqədərki poeziyada, Quranda (müq. et. 6:74 və 29:17/16) və müsəlman rəvayətlərində (hədislərdə) V. və sənəm istilahları bir-birini əvəz edirlər.

İslamaqədərki Ərəbistanda çoxlu tayfa Allahları (ilahları) var idi ki, onları müxtəlif tayfaların nümayəndələri ziyarət edirdilər. Belə sayılırdı ki, İlahi öz pərəstişkarı ilə himayədarlıq, asılılıq əlaqələri ilə bağlıdır (bax, məs: Quran 22:23), həm də bu məsuliyyətlər qarşılıqlı idi – ilahiliyin həm də köməyə ehtiyacı var idi (müq.et. 46:7/8). Allah haqqında çoxlu Quran təsəvvürləri guya genetik olaraq bu bütpərəst təsəvvürlərlə bağlıdır. Belə hesab edirdi ki, guya ilahi bütün təhqiri xəstəliyə (cüzam və ya dəliliyə) gətirib çıxarır. Ayinin ritual tərəfi əsasən qurbankəsmə, bütün ətrafına fırlanma, onların önündə fala baxma ilə qurtarırdı (bax: Quran 8:35, orada ritual fit və əlçalma haqqında danışılır). Mərasimə xidmət edənlər xüsusi şəxslər olurdu ki, onların işləri adətən nəslən ötürülürdü. İslamaqədərki Ərəbistanda ən böyük ibadətgah əl-Kəbə idi, onun ətrafında çoxlu sayda bütlər qoyulmuşdu. İslamın yaranması ərəfəsində ən məşhur bütlər əl-Lat (daşdan idi), əl-Üzzə (müqəddəs ağacdan idi), Mənat (bax: 53:19-20) və Xubəl (rəvayətə görə Suriya və ya Ərəbistanın şimal rayonlarından gətirilmiş baş heykəl idi). Xubəl Məkkə ibadətgahının baş İlahisi idi.

VI-VII əsrlərin ərəfəsində Ərəbistan bütpərəst ayinləri böhran keçirirdi. O, ilahi bütlərə hörmətin kəskin aşağı düşməsində, ali, başqalarından daha güclü təsəvvürün meydana gəlməsində (müq. et. 21:57-58/58-59) özünü göstərirdi – orada İbrahimin baş bütdən başqa bütün bütləri sındırmasından bəhs edilir. Bu, Ərəbistanda yəhudilik və xristianlığın yayılmasına zəmin

yaratdı və genetik olaraq İslamdan əvvəl gəlmiş yerli - qeyri-müəyyən təkallahlığın (hənifilik) yaranmasına gətirib çıxartdı. İslam hacc mərasimləri və «Qara daşa» ehtiramla yanaşmağı, Ərəbistana aid bəzi bütpərəst ritualları (mənəsik) saxladı.

**Ədəbiyyat:** İslam, 46-47; İbn əl-Kəlbi. Əl-Əsnam; İbn əl-Kəlbi. Книга об идолах; Fahd le pantheon, yenə o. Pivination; H.A.R. Gibb. Pre-islamic monotheizm in Arabia.- HTR, 1962, 55/4; Watt. Belief, 327-333; M.Höfner. Die vorislamischen Reliqionen Arabins. J.Waardenburg. Changes in Belief in Spiritual Beings. Prohethood and the Rise of İslam. – Struggdes of Gods. Ed. H.G.Kippenberg. Berlin, New-York, Amsterdam, 1984, 259-291.

**Vasil. b. Ata Əbu Hüzeyfə əl-Gəzzəl (699-748)** – mötəzililiyin əsaslarını qoyanlardan biri. Mədinədə doğulub, sonra Bəsrəyə köçüb, orada əl-Həsən əl-Bəsrinin dərnəyinin (məclisinin) fəal üzvü olur. Böyük günah işlədərək insanın halının təyin edilməsi fikrində V.b.A. əl-Həsən əl-Bəsrinin məclisini öz həmfikirləri ilə birlikdə tərk edərək (i′təzələ) mötəzililiyin təməlini qoydu. Öz təlimini yaymaq üçün o, Xilafətin bütün əyalətlərinə – Məğrib, Xorasan, Yəmən, əl-Cəzirə və əl-Ərməniyyəyə öz emissarlarını göndərdi. Onun emissarları həm də Əməvilərə qarşı təbliğat aparırdılar ki, bu da Əməvi sülaləsinin süqutuna kömək etdi.

Tədqiqatçıların rəyinə görə V.b.A. mötəzili kəlamına yol açıb, mötəzili ilahiyyat doktrinasının əsasını qoydu. V.b.A.-nın ilahiyyat tezisləri mötəzililiyin beş əsas tərkib hissəsinə daxil oldu. Onun siyasi mövqeyi (tavaqquf) xaricilər və murciiləri rədd etmək, Əli və onun düşmənləri arasındakı (Cəməl) «dəvə» (656-cı il) və Siffin (657-ci il) döyüşlərində tərəflərdən birinin haqlı olmadığını xarakterizə etmək idi. V.b.A. Allahın insan şəklində təsəvvür edilməsinə qarşı çıxıb, Quran təbirlərini simvolik mənada şərh edirdi. Belə ki, «Öz əlimlə yaratdım» təbiri onun rəyinə görə «öz hakimiyyətimlə» deməkdir, çünki əliaçıqlıq açıq əllə, xəsislik isə bağlı əllə işarə olunur (bildirilir). Ümumiyyətlə, V.b.A. və onun ardıcıllarının ilahi atributlar haqqındakı təlimi xristian ehkamçısı İoan Damaskin və yunan fəlsəfəsinin birbaşa təsiri altında idi ki, bu haqda Şəhrəstani qeyd edir.

Əl-Cahizə görə (vəf.868-69-il.) V.b.A. «azanlar» (mülhidun), xaricilər, «qatı» şiələr, həşvilər kateqoriyasını təsnifata bölən birinci doksoqraf olmuşdur. O, bir neçə əsərin – Əl-Mənzilə beynə-l-mənziləteyn, Ət-Tövhid va-l-ədl, Təbəqat əhli-l-ilm va-l-haqq, Əs-Səbil ilə mərifəti-l-haqqın - müəllifi olmuşdur. Axırıncı əsər müsəlman hüquq tarixində çox mühüm rol oynamışdır. V.b.A orada ilk dəfə olaraq həqiqəti dərk etməyin (əl-haqq) dörd üsulunu (vucuh) təyin etmişdir: Yazma (kitab natiq), bir səslə qəbul edilmiş (xəbər muctəmə aleyhi) səhih rəvayət, mücərrəd sübut (höccət aql)

və icmanın bir səslə qəbul etdiyi rəy (icma minə-l-ümmə). Bu «dərketmə pinsipləri» müsəlman hüququ kodifikatorlarını, xüsusilə də əş-Şafeini (vəf. 820-ci il) fiqhin dörd mənbəinin (üsul) təyin edilməsində ruhlandırırdı.

**Ədəbiyyat:** İslam, 48; İbn ən-Nədim. Əl-Fihrist, 202-203; əl-Bağdadi. Əl-Fərq, 117-129; аш-Шахрастани. Книга о религиях, qeyd.ol.; İbn əl-Murtaza. Təbəqat, qeyd ol.; van Ess. Une lecture.

**Əl-Vəhhabiyyə** – vəhhabilər. İslam dinini yeni anlayışla qəti qaydalara bağlayan hərəkat kimi ortaya çıxdıqdan sonra siyasi mahiyyətə bürünən bir məzhəb. Bu hərəkatın tərəfdarları Ərəbistanda XVIII əsrin ortalarında guya erkən İslam dövrü qayda-qanunlarına qayıtmağa çağıran, bu qayda-qanunları mütləqləşdirərək çağdaş müsəlman cəmiyyətinin dirçəltməli və rəhbər tutmalı olduğu həyat prinsipləri səviyyəsinə yüksəldən vəhhabilər idi. Səudiyyə ilahiyyatçıları Məhəmməd ibn Əbdülvəhhabın təlimini İslamda müstəqil bir məzhəb-cərəyan və ya firqə hesab etmir və «vəhhabilik» sözünü işlətməkdən çəkinmirlər, ancaq özlərinin vəhhabi olduqlarını boyunlarına almırlar. Onların fikrincə, guya sözügedən təlim sadəcə İslamın təməl prinsiplərinə çağırışdır. Onun banisi Məhəmməd b. Əbd əl-Vəhhab 1703-04-cü ildə əl-Uaynədə, qazi ailəsində doğulmuş, dini təhsil almış, gənc vaxtlarında Ərəbistanı və qonşu ölkələri çox gəzmişdir, sonra öz təlimini yaymağa başlamışdır. Onun doğulduğu Nəcd Mədinənin şimali-qərbindən Bəhreynə qədər uzanmış sahə olub, Hindistan, Yəmən, İraq, İran, Suriyadan qaçıb gəlmiş müxtəlif təbiətli insanların məskəni idi. Saxta peyğəmbərlər Müseylimə, Səcah, Tüleyhə və s. də buradan çıxmışdılar (Qarışıq və səbatsız insanlar). Onun təliminin əsası guya təkallahlığı (tövhid) təqdim etmək idi: Allah - yeganə xəlqetmə mənbəidir və ancaq O, insanlar tərəfindən ibadət edilməyə layiqdir; lakin müsəlmanlar bu prinsipdən yan keçərək, müqəddəslərə baş əyib, müxtəlif yeniliklər gətirirlər (bid`ə). V.-nin rəyinə görə İslamın bid`ədən tənzimlənməsi, müxtəlif abidərləri ibadətdən və s.-dən imtina etmək yolu ilə onun əvvəlki qanunlarına qayıtmaq lazımdır. Peyğəmbərin (s) vəfatından sonra yaranan islami adət və ənənələri bütövlükdə rədd etdiyinə görə Məhəmməd ibn Əbdülvəhhab ciddi müqavimətlə rastlaşdı. Ehkam sahəsində İbn Əbdülvəhhab əsasən İbn Teymiyyə və İbn əl-Qəyyumun dalınca gedirdi; ümumiyyətlə onun təlimi hənbəli prinsiplərinin qatı təbirini ifadə edirdi. İctimai-siyasi sahədə V. sözdə ictimai tarazlığı, qardaşlığı, bütün müsəlmanların birliyini təbliğ edir, islamın mənəvi-etik prisniplərinə riayət etməyə çağırır, təmtəraq, tamahkarlıq və s.-ni pisləyirdilər; mühüm yer çoxallahlılara və erkən islam prinsiplərindən «dönənlərə» qarşı cihad haqqında ideyaya ayrılırdı: (İbn Əbdülvəhhab hesab edirdi ki), belə müsəlmanlar – «çoxallahlılar» çox dərəcədə cahiliyyə dövrünün

adamlarıdırlar. Erkən V. üçün iman məsələlərində və öz siyasi düşmənləri ilə mübarizə təcrübəsində ekstremizm, qatı fanatizm xarakterikdir.

İbn Əbdülvəhhabın təbliğatı bir sıra Ərəbistan qəbilələrinin şeyxləri, o cümlədən əd-Dir`ə əmirləri – Al-Səud tayfa nümayəndələri arasında dəstək tapdı. O, 1744-ci ildə əmir Məhəmməd ibn Səudla qohumluq əlaqəsi qurub, vəhhabi (səudi) dövlətinin yaranması üçün zəmin yaratdı. XVIII əsrin 40-cı illərinin ortalarından İbn Əbdülvəhhab Ərəbistan yarımadasında siyasi mübarizəyə başlayır, onun təlimi tezliklə Al-Səudun Ərəbistanı onların hakimiyyəti altında birləşdirmək mübarizəsi bayrağına, sonra da ilk Səudilər dövlətinin siyasi ideologiyasına çevrilir. XIX əsrin əvvəllərinə vəhhabizm Ərəbistan yarımadasının çox hissəsində möhkəm mövqelər qazanmışdı, sonra isə Hindistan, İndoneziya, Şərqi və Şimali Afrikada yayılmağa başladı.

V. ziyarət yerlərini, məscidləri, Peyğəmbər (s) və Əbu Bəkrin doğulduğu evlərin qübbələrini, Xədicənin türbəsini və s. sökdüklərinə görə onlara «məscid sökənlər» adı verilmişdir. Məkkədə Kəbədən və Məqami İbrahimdən başqa bütün qübbə və ziyarət yerlərini sökmüşdülər. Onlar Peyğəmbərin (s) xatirələrini əzizləməyi şirk hesab edirlər. Əhli-beyt və Əliyə vurulmaq, onları sevmək, Əli övladını məsum saymaq şirkdir. V. özlərindən başqa məzhəb üzvlərini kafir hesab edib, onların ailərini və qanlarını özlərinə halal bilirlər. Amma Məhəmməd ibn Əbdülvəhhab öz şəhər əhlinə ənsar, başqa yerlərdən gələnlərə isə mühacirun deyirdi.

Hazırda vəhhabizm Səudiyyə Ərəbistanının rəsmi siyasi ideologiyasının əsasıdır, onun ardıcılları Ərəb Əmirliklərində, fars körfəzində, bir sıra Asiya və Afrika ölkələrində vardır.

(V. ilə maraqlananlar «Признания англилийского шпиона» və Abutalıb Məmmədovun «Vəhhabilik» kitablarını oxuya birlərlər).

**Ədəbiyyat:** İslam, 51; Məcmuat ət-tauhid ən-nəcdiyyə. Qahirə, 1375 h; Məcmuat əl-hədis ən-nəcdiyyə. Qahirə, 1375 h.; Hüseyn bin Hənnəm. Tarix Nədc. Qahirə, 1949; Usman bin Bişr. Ünvan əl-məcd fi tərix Nəcd. Məkkə, 1349 h. А.М.Васильев. Пуритане ислама. М., 1967; Abutalıb Məmmədov. Vəhhabilik (tarixi, ideya sələfləri və əsas prinsipləri. Bakı, 2008, 15; Элман Араслы. Королевство Саудовская Аравия (скачок из средневековя в XXI век). Эр-Рияд, 2003, 29; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 306-311.

**Vəhdətü-ş-Şühud** (fars. Vahdəti-ş-şühud; «şahidliyin birliyi», «düşüncənin birliyi») – öz sufi fəlsəfi təliminin mənasına görə qütbləşməyə uyğun olan sufi istilahıdır.

1. Əl-Həllacın ardıcılları onun insan haqqındakı təlimini belə adlandırırdılar – iki başlanğıcın vəhdəti – İlahi (lahut) və insan (nəsut):

Allah «sahiblik edir» və ya özünü sufinin ürəyində və ya qəlbində (latifətu-l-qalb və ya latifətu-r-ruh) «dərk edir»; sufi isə öz növbəsində, özü Allahı özündə «dərk edir», bununla belə özünün substansiv keyfiyyətlərini itirmir və elə bil maddi aləmdə Onun insan ipostası olur.

2. Elə bu adı sufi Əbdül-Kərim əl-Cilinin (1365-1428) «kamil insan» haqqında təlimi daşıyır, orada o, İbn Ərəbinin ideyalarını inkişaf etdirmişdir: kamil sistem – mikrokosdur, onda ilahi Varlığın (əz-zat) atributları (sifət) təqdim olunur. Allah «seyr edir» və Özünü ancaq Özünün təcəlliyatı (manifestasiyası) ilə dərk edir. Özünü insan təbiətində dərk edən Allah onun sayəsində Özünə çevrilir (özəlləşir); «kamil insanda» Allah və insan birləşir.

3. Fars sufisi Əla`əddövlə əs-Simnani kimi tanınmış, kubraviyyə qardaşlığının üzvü şeyx Rüknəddin Əhməd b. Məhəmməd əl-Biyabanaki (1261-1336) tərəfindən hazırlanmış və İbn Ərəbinin «varlığın vəhdəti» haqqındakı təliminə qəti mənfi münasibət göstərən görüşlər və mövqelər sistemi. Əlaəddövlə öz təlimini Kitab əl-məşəri′ əbvab əl-qüds, Kitab əl-urva li əhl əl-halva (ərəbcəsi və farscası) və Safvat əl-urva kimi əsərlərində şərh etmişdir. Əlaəddövlənin artıq ölümündən sonra V. əş-Ş.-un göstərdiyi görüşlərinin əsasında Allahın mütləq transsendentliyi haqqında mövqe durur. Sufi Mütləqin mövcudluğunun sübutunu almaq halında deyil. İbn Ərəbinin Allahın təzahürü və ya təcəllisi (manifestasiya) haqqında fikirləri ilə razılaşan əs-Simnani, eyni zamanda onun ideyasını rədd edirdi ki, hər bir varlıq atributun və ya Allahın adının təzahürüdür (bununla xüsusilə də varlığın vəhdəti aydınlaşdırılır) və buna görə də ilahi Varlıqla ümumilik təşkil edir. O, Allah tərəfindən insana verilən «daxili təmizlik» (safə`) keyfiyyəti kimi başa düşdüyü insan təbiəti və Allahın ümumiliyinin yeganə mümkünlüyünü qəbul edirdi. Mistisizm ilə silahlanmış insanlığın hədəfi (təkcə kamil insanın yox) ondan ibarətdir ki, bu keyfiyyətdən istifadə edərək, mütləq Varlığı (əl-vucudu-l-mutlaq) əks etdirən güzgü olsun. Əs-Simnaninin rəyinə görə Varlığın (əl-vucud) Gerçəkliyə (əl-haqq) bənzədilməsi xəlq olunmuşun (əl-xəlq) unudulmasına və hərəkətin fetişizminə gətirib çıxarır. Varlıq o qədər Allahın (əz-zət) mahiyyəti deyil ki, o qədər «yaşamanı yaradan hərəkət» (f′il-l-icad) kimi özünü göstərir. Bununla bərabər Varılığa o, mütləq Allaha aid olan, lakin Onun mahiyyətindən ayrılmış atribut kimi baxırdı. Mütləq Varlıq (əl-vücudu-l-mutləq) əbədi olaraq Allahın (vücud əl-haqq) əməlidir (f′il), o isə «məhdud Varlığın» (vucudu-l-muqayyəd) yaradıcısıdır və Allah tərəfindən öz istəyi ilə yaradılıb. Əs-Simnani tövhidi «Allahla ünsiyyətdə olmaq», «Allahla görüş», «Allahın görünməsi» kimi başa düşürdü, lakin o, tövhidi ittihad kimi, daha doğrusu «Allahla qarışmaq», «birləşmək», «Allahda həll olmaq» kimi başa düşməyi qəti surətdə rədd edirdi. Məhz buna görə də o, mistik dərketmənin Yolundan ibarət olan triadanı dəyişdi, daha doğrusu şəriət-

təriqət-həqiqətin yerinə həqiqət-təriqət-şəriəti təklif etdi və iddia edirdi ki, həqiqi biliyə malik olmaq ancaq sünnə və şəriətin qayda və qanunlarına dinmədən riayət etməklə mümkündür.

İbn Ərəbinin təlimi ilə yanaşı əs-Simnaninin təlimi İranda (XVI əsrin ortalarına qədər), Məvaraənnəhrdə, Şərqi Türküstanda və Şimali Hindistanda sufi konsepsiyasının inkişafına o qədər əhəmiyyətli dərəcədə təsir göstərmişdi ki, sufilərin çoxu özlərini ya vucudi-vahdətəl-vucud tərəfdarları, ya da şuhudi-V.əş-Ş. tərəfdarları adlandırırdılar.

V.əş-Ş.-un tam formalaşdırılması ilə adətən bağlı olan ikinci şəxs ikinci minilliyi yeniləşdirən (mucəddid-i əlf`i səni) adlandırılan hind Şeyxi Əhməd Fərruxi Sirhindidir (1564-1624). Əvvəllər İbn Ərəbi təliminin ardıcılı olan şeyx Əhməd sonradan onun qatı əleyhdarı olub, əs-Simnani ideyalarının tərəfdarı oldu. O, həmin ideyaları o qədər inkişaf etdirməsə də, onları Hindistan və Əfqanıstandakı nəqşbəndiyyə qardışlığı arasında uyğunlaşdırır və yayırdı və bu ideyaları tamamilə «möminlik» məcrasına salmaq istəyirdi. Əhməd Fərruxi öz görüşlərini özünün çoxsaylı məktubları-göndərişlərində - (məktubāt) yazıb ortaya qoymuşdu. Onun rəyinə görə vəhdət əl-vucudun əsasında «Hər şey Odur» (həme u-st ) postulatı durur, lakin V. əş-Ş. isə «Hər şey Ondandır» (həme′ əz u-st) prinsipinə uyğundur ki, bu da sünnə və şəriətə uyğun gəlir. Allah ilə «birləşməyə» (ittihad) aparan bütün mistik «hallar» və «aydınlaşdırmaları» o, xəyal və ilğım hesab edirdi. Onun rəyinə görə mistik kamillyiyin son hədəfi Allaha xidmətdir (′abdiyyət), o sufiyə «varlığın vəhdəti», (vucudiyyət) və «ümumi görüş» (zilliyyət) mərhələlərini keçərkən nazil olur. Əhməd Fərruxa görə yuxarıdan dini xəbərlər insanın payına onda düşə bilər ki, o şəriətə çox ciddi riayət etsin.

**Ədəbiyyat:** İslam, 48-50; Əla əd-dövlə Simnani. Kitəb əl-′urva li əhl əl-halva «Məclis» (Tehran) kitabx. əlyaz., №1834 (fars dil.); Şeyx Əhməd Fərruxi Sirhindi. Məktubat. 1. Lakhnan, 1886; Bədr əd-din b. Şeyx İbrahim Sirhindi. Həzrət əl-qüds. EAŞİLŞ, V 3322, 132b-152b; Djami. Nafahat, 504-519, 565-568; Knış. Murovozzrenie, 85-92; Mole. Les Kubrawiya; Rizvi. Muslim revivalist, 38-39, 258-260; H. Lauddt. Die Briefwechsel zweischen Kaşani und Simnani über wahdat al wugud. – DI, 1973, 50/1, 29-81; F.Meier. Ala al-Dawla al-Simnani. – EI, NE, 1, 346-347.

**Vəhdətu-l-Vücud** («birlik və varlığın birliyi») İbn Ərəbinin təliminin adlandırıldığı istilah, baxmayaraq ki, o özü bu istilahı işlətmirdi. V.əl-V.-un mənbələri haqqında məsələ axıradək həll olunmamışdır. Onda neoplaton emanasion doktrinası, qnostizm, germetik və xristian fəlsəfəsi ilə paralelləri görmək olar. V.əl-V.-un birbaşa əsasını bütün bu təlimlərin, habelə kəlam

və fəlsəfənin elementlərini özündə cəmləyən sufi metafizika və teosofiyası təşkil edir.

V.əl-V.-a görə yaradıcılığın səbəbi Mahiyyət (əz-zat), Reallıq (əl-haqq), Təklik (əl-əhadiyyə) adlanan hansısa səmavi və müstəqil Mütləqin kainat (əl-xalq) tərəfindən özünügörmə və özünüdərketmədə yaradılana can atmaqdan ibarətdir. Bu canatma hüdudsuz və mücərrəd Mütləqilin Dünya mətləblərində təzahür etməyə (yətəcəlli) və onda «özünü» məhdudlaşmamağa (təqəyyüd), «özünü konkretləşməyə» (təəyyun) çağırır. Mütləqin təzahürü özü-özünə baş vermir, o özu əsrlərlə Mütləqdə olmuş «nümunələrin» (a′yən səbit) «imkanlıların» razılığı ilə baş verir. Kainatın təzahürlərində və mahiyyətilərində realizə olunan Mütləq hər hansı dərəcədəsə «özü varlılığını» (əl-ğinə) itirir, çünki dünya onun mövcud olması üçün zəruri üsul və ipostas olur. Öz məntiqi korrelyatına (mə`lux) nail olan Mütləq müəyyən adları və atributları, xarici konkret varlığı olan ilahi cizgiləri alır və bununla da Mütləq ibadət və hökm obyektinə çevrilir. Eyni zamanda o, yeganə real varlıq olaraq qalır, Dünya isə – onun «əksi» (şəbəh), xəyalı olur, onların mənbələri ilə əlaqəsi olmadan məna kəsb etmirlər. Mütləqin kainatda təzahürünün dialektikası V.əl-V.-un Yaradanına görə kənardan özünü bütün təfsilatlarda təqdim etməyə çalışan və «özünün təqdimini kənarda «göstərən» insan təxəyyülünün işini xatırladır.

İlahi kimliyinin atributları kainatda ayrı-ayrı şəkildə (munfəsələn) yerləşir. Yalnız insanda onlar bir yerə yığılır, «konspektdə olduğu kimi» (müxtəsər), daha uyğun təcəssüm olunur. Buna görə də «kamil insanda» Mütləq özünü bütövlükdə tanıyır (dərk edir); insan onun «özünüdərketməsi», «ilahi obrazı – surəti» olur. Allah məxluq antinomiyası V.əl-V.-un yaradıcısıdır və onun ardıcılları mühakimə subyektlərinin qəbul etdikləri nöqteyi-nəzərləri fərqlər kimi aydınlaşdırırdılar: bir tərəfdən hamısı (əl-əmr) – Allahdır, o biri tərəfdən – Dünyadır, mahiyyət və ya mənbə (əl-ayn) birdir.

İbn Ərəbi hesab edirdi ki, varlıq daimi transformasiya prosesindədir: hər hansı ayrı bir anda Allah əvvəl görünəndən fərqli olaraq «yeni bir oborazda - surətdə» görünür (fi ş′ən. Q. 55-29). Buradan da Allah haqqında insan mülahizələri və təsəvvürlərindəki qaçılmaz fərq irəli gəlir. Hər adam tərəfindən Allahın görünməsinin qəbul edilməsi onun hazırlığı ilə (istedad) təyin edilr ki, o da öz növbəsində onun əbədi timasalı kimi verilmişdir. Ağıl ilə Allahı dərk edən insan hökmən Allahın görünməsinin hər hansı bir formasına isə «bağlanır» (′aql) və başqa cürə Allahın görünmə təsəvvürlərini rədd edir. Yalnız həqiqi «qnostik» (′arif) Allahı Onun bütün ipostasları və dəyişmələrində (təqəllub) başa düşür və ona görə də Onun haqqında hər bir mühakimənin doğru və səlahiyyətli olduğunu qəbul edir.

V. əl-V.-da yaranmış (məxluq) «ilahi istəyinin yaradıcısının» məhsuludur (məşiə`, əl-əmru-t-təkvini), buna görə də məşiə nöqteyi-nəzərindən bütün mövcud olanlar və baş verənlər Allahın «istəyi» ilədir. Lakin həyatda «istəklə» yanaşı habelə ilahi qanunlar vasitəsilə «Allah qulları» kimi canlı məxluqun həyatnı tənzimləyən və Allahdan gələn «qanunverici iradəsini» izhar etmə (əl-iradə, əl-əmru-t-təklifi) də mövcuddur.

Müstəqil iradə və qabaqcadan müəyyənetmə məsələsində V.əl-V.-un yaradıcısı, «şərhçiləri və ardıcılları» orta mövqe tutmuşlar: Allah insanları və onların əməllərini yaratsa da O, bunu əsassız olaraq deyil, timsallarda olan öz «biliyi» ilə ciddi uyğunluqda edir.

V.əl-V.-un yaradıcısının istifadə etdiyi mühakimələr və sübutların üslubu əsasında alleqorik şərh (ət-tə′vil) yerləşir. İdraketmə prosesi Mütləqin kaleydoskopik dəyişən varlığının bütün tərəflərini açan həqiqətin zühuru, müqəddəs mətnlər, yuxular və s.-nin arasıkəsilməz (hətta qatı iradi) interpretasiyası ilə eyniləşdirilir.

İbn Ərəbinin şərhində V.əl-V.-un təliminə onun vəziyyətinin və terminologiyasının «dialektliyi» və «axıcılığı» halları ilə şərtlənən qəsdən tam deyilməmə və ikimənalılıq xasdır. V. əl-V.-un şərhçiləri onun fikirlərini sona çatdıraraq, onları məntiqi-rasionalist ruhda qəbul edərək, bir qədər vurğuların (aksent) yerini dəyişib, təlimin mahiyyətini dəyişdirdilər. Sonralar İbn Ərəbinin təlimindəki sözün tam deyilməməsi və sistemsizlik, onun şərhçilərinin müxtəlifliyi orta əsr müəlliflərinin əsərlərində və bizim vaxtımızda isə müsəlman və Qərbi Avropa tədqiqatçılarının əsərlərində V.əl-V.-un qiymətləndirilməsində ixtilaflara səbəb oldu.

V. əl.V. doktrinası müsəlman ilahiyyatının, fəlsəfəsinin və «filosof» sufiliyinin inkişafına çox böyük təsir etdi. Onu qəbul edib inkişaf etdirən təkcə böyük sünni mütəfəkkirləri əl-Kaşani, Əbdülkərim əl-Cili, əl-Qeysəri, Cami deyil, həm də şiə filosofları Heydər Amuli, Mir Daməd, Molla Sədra idi. Xüsusilə də təlimin çox ardıcılları Kiçik Asiya, İran, Şimali Hindistanda var idi. V.əl-V-un əleyhədarları İbn Teymiyyə, İbn Xəldun, İbn Hacər əl Asqalani, Suriya, Misir və Məğribin çoxlu fəqihləri idilər. Bu təlimə qarşı (1336-cı ildə vəf. etmiş) nüfuzlu sufi Əlaəddövlə Simnani çıxış etmişdir. Alternativ rolunda o, sonralar vahdət əş-şuhud («düşüncə vəhdəti») adı almış doktrinanı ona qarşı irəli sürmüşdür. Bu iki təlimin ardıcılları arasındakı ideya mübarizəsi hələ indi də tam sakitləşməyib və çox yüzilliklər boyu şərq müsəlman dünyasının intellektual həyatını təyin edir. Çoxlu müasir müsəlman mütəfəkkirləri V.əl-V.-u panteizmlə eyniləşdirirlər və onun yaradıcısını Spinoza hesab edirlər.

**Ədəbiyyat:** İslam, 48-49; İbn Ərəbi. Fusus; yenə o. Fütuhat; İbn Arabi. Bezels; yenə o. L Arbre du monde: shajarat al kawn. Introd., trad . et notes par M.Gloton. P., 1982; Ismail Hakki Bursevis translation of and

commentary on «Fusus al-hikam» Muhyiddin Ibn Arabi. Rendered into English bu Bulent Rauf with the help of R.Brass and H.Tollemache. 1. Oxford an Istanbul, 1986; Əl-Kitəb ət-təzkəri; Кныш. Мировоззрение. Yenə o. Основные источники для изучения мировоззрения Ибн Араби: «Фусус ал-хикам» и «ал-Футухат ал-маккиййа» Автореф.канд.дис. Л., 1986; Nyberq. Schriften; M.Asin Palacios. El Islam cistianizado estudio del Sufismo a traves de las obras de Abenarabi de Murica. Madrid. 1931; Afifi. The Mystical Philosophy; Corbin. Imagination; Izutsu. Study, 1; S.H.Nasr. Free muslim sages: Avicenna. Sohrawardi, Ibn Arabi. Harvard, 1964; yenə o. Sufi essays, 97-103; Gramlich. Derwischorden, 2, 3-138; Ğ.Takeshita. An analysis of İbn Arabis «İnsha al-dawair» with particular reference to the doctrine of the «Third Etity». – JTES, 1982, 41/4, 243-260; Ğ.Sells. İbn Arabis «Garden among the flames»; a revaluation. – HR. 1984, 23/4, 287-315; T.Heer. Al-Jamis treatise on Existence. – Theology, 223-256.

**Vəhy** («təlqin», «kəşf-vəhy») – ilahi vəhy. Quranda V. təfəkkürdə surət və ideyanın ani təzahürü və onların ətrafdakılara xəbər verilməsi əmri və ya onlara uyğun hərəkət etmək deməkdir. Bu təzahürün psixoloji təbiətinin elmi şərhi tam dəqiqliyi ilə hələ yoxdur. Əvvəllər Məhəmməd elə bilirdi ki, Allah onunla danışır və Allah özü xəyallarda onun yanına gəlir (bax: Q., 53:6-10). Sonra gələcək peyğəmbərdə ilahi əmrləri xəbər verən ruh haqqında ideyalar əmələ gəldi, bu xəbərlər Allahın elçiləri mələklər, nəhayət, Cəbrail haqqında idi, bunlar Məhəmmədə Allahın iradəsini çatdırırdılar (42:51-52/50-52; 2:97/91). V. bir fikrin və ya əmrin Allah tərəfindən bir peyğəmbərə ilham olunması (hər vasitə ilə verilməsi, çatdırılması) idi. Əslində bunu da Cəbrail (ə) yerinə yetirirdi.

Müsəlman ehkamı yaranan zaman bölünməyən Quran məfhumu V.-dən daha kiçik məfhumlar ayrılmağa başladı. Belə ki, ət-Təbəridə termin V. peyğəmbərlərə aid işlədildikdə ilham kimi verilir. Fəxrəddin ər-Razidə belə bölgü daha dəqiq aparılır. O, V. məfhumunun V. ənənəvi, V.-ilham (söhbət peyğəmbərlərdən gedəndə), V. təlqin və röya V.-inə, Allahla birbaşa ünsiyyət (Musa) V.-i və vasitəçi yolu (vasitəsilə) olan V.-ə bölür.

Erkən İslam ehkamında V. haqqında təsəvvür Quranın yaradılmış olması haqqındakı mübahisələrdə V. peyğəmbərin eşitdiyi Allah sözüdür. Əşərilər səslərdən ibarət olan, sözlər və səslərlə deyilməyən, eşidilən «ürək sözləri» arasındakı fərq haqqında danışırlar. Onlar mötəzililərlə razılaşırdılar ki, birincilər yaradılıblar, lakin mötəzililərdən fərqli olaraq ikinciləri əbədi hesab edirdilər.

Müsəlman mistiklərinin əsərlərində, habelə şiələr arasında «peyğəmbərlik» (nübüvvə) ilə «müqəddəslik» (vilayət) arasındakı fərqlərin aydınlaşdırılması və əsaslandırılmasına çalışmaq geniş yayılmışdı. Bu fərqin

əsaslarından birini onda görürdülər ki, peyğəmbərliyə «ilahi kəşf» (vəhy), müəqqədəsliyə isə «ilahi ilham» uyğun gəlir. Əl-Qəzaliyə görə, «müqəddəs» (vəli) peyğəmbərə məlum olmayan biliyə malik ola bilər, lakin ilahi qanunlar onun üçün əlçatmazdır. İlham əl-vəli ilə V. ən-Nəbi arasındakı əsaslı fərq ondadır ki, birincisi vəlinin özünə aid olub, onun özü üçün əhəmiyyətlidir, ikincisinin isə ictimai əhəmiyyəti vardır, o bütün insanlar üçün təyin edilmişdir.

**Ədəbiyyat:** İslam, 50; ət-Təbəri. Təfsir, 6, 405; əl-Qəzali. İhyə, 3, 16-17; əl-Bağdadi. Üsul əd-din, 14-15; R.Rida. Əl-Vəhy əl-muhəmmədani. Qahirə, 1933, 22. Винников. Легенды. Бартольд. Cor. 6, 615-616; R.Bell. Muhammads visions.-M.W. 1934, 24, 145-154; A.Guillaume. Prophecy and divination among the hebrews and other semites. N.Y.L., 1938; Watt. Muhammad at Mecca, 13-15; Bell-Watt. İntraduction, 20-25; Jadaane. Revelation; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 311.

**Vəqf** (cəmi övqaf, vuquf; sinonimi xubs) – müəyyən (olunmuş) məqsədlər üçün təyin edilmiş ayrılmaz (özgələşdirilə bilinməyən) əmlak. İslam ölkələrində dini və xeyriyyə məqsədilə dövlətin, yaxud ayrı-ayrı şəxslərin könüllü bağışladığı əmlak. Daha geniş mənada-müsəlmanlara ödənilən pay-xarac, müsəlmanlar tərəfindən fəth edilmiş yerlər (torpaqlar). Daha dar və ümumi istifadə etmək mənasında V.-i təyin edənin razılığı ilə bütünlüklə və gəlirin bir hissəsi və ya ərzağından istifadə olunan əmlak. Müsəlman fəqihlərinin rəyinə görə belə əmlak o andan bağışlayanın şəxsi mülklüyündən çıxır, lakin onun bağışlandığı adamın da şəxsi mülkünə çevrilmir (mənquf aleyhi), beləki, bu alqı-satqı aktı deyil və artıq müsəlman hüququ tərəfindən qəbul edilmiş şəxsi mülkiyyətin verilməsi hüquqi forması olan vərəsəlik ilə verilmə deyil, burada şəxsi mülkiyyət hüquqi əməliyyatı elə bil dayandırılır (vaqafə).

V. ayrıca iqtidarsız (xəstə, çarəsiz) şəxsə verilə bilər (iqtidarsız zimmiyə olunan vərəsə doğrudur, ağıldan kəm müsəlmana isə doğru deyil), habelə dəqiq müəyyən edilmiş şəxslərin qrupuna da (o cümlədən uşaqlar və nəsillərin hamısı və ya bir nesəçinə), habelə bəzi xeyriyyə məqsədlərinə verilə bilər; bu axarıncı forma (vaqf xeyri) adətən elə V. kimi başa düşülür.

V. edənin yalnız (gəlir) verən və istifadə olunmayan xüsusi mülkiyyəti V. oluna bilər (yeməyi, paltarı, pulu vəqf etmək olmaz); V.-in ciddi müəyyən olunmuş təyinatı vardır, əyər məsələn, o, uşaqlara V. olunubsa, onlar öləndən sonra V. onların varislərinə keçmir, kasıblara verilir. V. aktı yazılı (hakim və şahidlər tərəfindən təsdiq edilir) və ya şifahi (məsciddə camaat qaşırısnda elan olunur) şəkildə həyata keçir və o vaxtdan da qüvvəyə minir və onu yaradan tərəfindən geriyə alına bilinmir (Əbu Hənifə bəzi hallarda bunun mümkünlüyünü qeyd edirdi). V.-in təxirə salınması

ancaq vəsiyyətnamədə ola bilər, o da, təbii ki, vəsiyyət edənin vəfatından sonra qüvvəyə minir, lakin bu halda (qulları vəsiyyətnamə ilə azad edəndə də) V. üçün verilən əmlak V. verənin mülkünün 1/3 –dən çox olmamalıdır.

V. edən V. vəsaitinin xərclənməsi üçün müxtəlif ölçü və qədər göstərə bilər və V.-i idarə edəni (mütəvəlli) təyin edə bilər. Osmanlı imperiyasında yaxşı gəlir götürmək üçün özünü və ya öz uşaqlarını mütəvəlli təyin etmək təcrübəsi geniş yayılmışdı (öz xeyrinə V. təyin etmək olmaz).

X əsrə qədər dini-xeyriyyə V.-lərinin yayılma dərəcəsi haqqında məlumatlar çox azdır: XI əsrdən başlayaraq mədrəsə, müxtəlif iqamətgah və məzarların intensiv surətdə yaradılması və onlarda V. bəxşişlərinin toplanması ictimaiyyətin həyatında mülkiyyətçi sinifi kimi görünməyə başlayır. Müxtəlif və çox vaxt xırda əmlakın bölünməsi zərurəti vahid idarətetmə tələb edirdi və faktiki olaraq bir müəssisənin vaqifi həmin V.-in mütəvəllisini təmsil edən hüquqi şəxsə çevirirdi (baxmayaraq ki, bu kateqoriya müsəlman hüququna tanış deyildi). V.-in vəsaitlərinin düzgün xərclənməsinə ali nəzarəti qadi əl-qudat və va xüsusi qəyyum (nazir) həyata keçirirdi. Sonra Misirdə (Fatimilər vaxtı) V.-i ölkə miqyasında (masştabında) idarə edən müəssisə (divan övqaf və ya divan xubus) yarandı.

V. Azərbaycanda da geniş yayılmışdı. XII-XIII əsrlədə Şirvanda Pirsaat çayı sahilindəki Pir Hüseyn xanəgahının çoxlu V.-ləri var idi. Bibiheybət məzarlığına bağışlanmış V.-lərin sayı da çox idi.

V.-in dini müəssisələrin əsas dolanışıq mənbəyinə çevrilməsi (təqribən XII əsrdə) müsəlman ayinləri ilə bağlı olanları - şərti olaraq müsəlman ruhaniləri adlandırıla bilənləri xüsusi ictimai qrupda professionallaşmağa və qüvvətlənməyə imkan yaratdı. XIX əsrdə osmanlı imperiyasının 1/3 hissəsi V. kateqoriyasına aid idi. Hazırda müsəlamn ölkələrində V.-i idarə edən xüsusi nazirliklər vardır.

**Ədəbiyyat:** İslam, 45; M.Əmin. Əl-Auqaf va-l-hayət əl-ictiməiyyə fi Mısır, 648-923/1250-1517. Qahirə, 1980; Б.П.Наливкин. Положение вакуфного дела в Туркестанском крае. Таш., 1904; Бухарский вакф XIII в. Факс. Изд. Текста, пер.с. араб. и перс., введ. и коммент. А.К.Арендса, А.Б.Халидова, О.Д.Чехович. М., 1979 (ППБ, ЛП); А.Г.Периханян. Общество и право Ирана в парфянсикий и сасанидский периоды. М., 1983; E.Clavel. Rite musulman le waqf ou habous (rite hafite et malekite). 1-2. P., 1895-1896; Sh.Bidair L`institution des biens dits habous ou waqf. P., 1924; Cl.Cahen.Quelques reflexions sur le waqf ancien. – M.K.B., 25, 38-40; W.Heffening. Waqf.- EI, 4, 1187-1194; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 311.

**Vəli (cəmi övliya) -** Allahın dostu, müqəddəs V.-nin mənası daha genişdir; Peyğəmbərə bərabər tutulan şəxs. Quranda V. termini (istilahı)

Allah və peyğəmbərə görə «hami», «havadar» deməkdir, insanlara görə isə Allahın himayəsi altında olanlar» deməkdir. Hədislərdə VLY «yaxın olmaq» kökü ilə əlaqədar başqa məna kəsb edərək Allahın «yaxını», «dostu», hətta «sevimlisi» kimi (vəliyyu Allah) başa düşülür. Bu mənada V. artıq mühəddislər və zahidlərin erkən şərhlərində istifadə olunur.

Dindarların təsəvvürlərinə görə V. möcüzələr yarada bilir, gələcəkdən xəbər verir, fövqəladə hadisələrin qabağını ala bilir, xəstələri sağaldır və s. Əslində bunların çoxunu ancaq Allah edə bilər.

Erkən dövr sufisi Zu-n-Nun əl-Misrinin (IX əsr) dediklərində V. istilahı aydınca təsəvvüfi çalar alır. Erkən dövr sufiləri ət-Tüstəri, əl-Cüneyd və əl-Xərraz (IX-X əsrlər) övliya - dini təcrübə və Allah haqqında biliklərə tam yiyələnmiş insanlardır: qeybin sirrləri onlara bəllidir, onlar Allahı müşahidə edə (muşəhədət əl-Haqq) bilirlər. V. haqqında təlim ər-Xərrazda və xüsusilə də əl-Həkim ət-Tirmirzidə ətraflı şəkildə şərh olunub. Əl-Xərraz qeyd edirdi ki, peyğəmbər öz missiyasının xüsusiyyətinə görə mütləq təkcə Allaha deyil, həm də ilahi əmrləri çatdırdığı insanlara da müraciət edir. V. isə peyğəmbərdən aşağı olsa da, tam surətdə Allaha «köklənib», onun dili yorulmadan Allah deyir, qəlbi isə Onun böyüklüyünü dərk edir. Ət-Tirmizi övliyaları ilahi qanunlara danışıqsız riayət edib, öz-özünə kamilləşənlərə və «Allahın əsl dostlarına» (övliya Allah haqqan) bölürdü. Ət-Tüstəridə isə bu kateqoriyalar «can atan», «axtaran» (muridun) və «Allahın istəyənləri» (muradun) adlanırdılar. Birincilər, bütün sadiqliyi ilə (sidq) Allaha tərəf can atmaları öz təbiətləri və eqoist arzuları ilə birdəfəlik əlaqəni kəsmək qüvvəsində deyillər. İkincilərə isə, Allah özü onlara şəxsi ibtidadan qurtulmağa və ilahi atributlarını mənimsəməklə onun yerdəki köməkçisi olmağa kömək edir. Əl-Xərraz və ət-Tirmizinin əsərlərində «müqəddəslik» (vilayə) və peyğəmbərlik (nübüvvə) fərqləri haqqında məsələ müzakirə olunur. Ət-Tirmizi xüsusilə qeyd edirdi ki, övliyaların da peyğəmbər kimi Allah haqqında bilikləri tam mənimsəmiş «müqəddəsin» «möhürü» (xətm) vardır. X əsrin əvvəllərindən bu iddialar çox qızğın mübahisəyə səbəb oldu. «Mülayim» sufilərin çoxu (əl-Hücviri, İbn Xəfif, əl-Quşeyri və b.) «müqəddəslərin» peyğəmbərlərdən üstün olmalarını qətiyyətlə rədd etdilər. Eyni zamanda onlar hərdən övliyaları mələklərdən üstün tuturdular.

İbn Ərəbinin təlimində vilayətin başa düşülməsində sufi və şiə ənənələri birləşirdi. Onun üçün peyğəmbərlik yeni dini qanunun (nubuvvət ət-təşri′) təqdim edilməsi ilə bağlı olan «müqəddəsliyin şəxsi təzahürüdür». V.-nin peyğəmbərlərin missiyasını yerinə yetirməyi məcburi deyil, amma hər bir peyğəmbər mütləq V.-dir. Bütövlükdə onun fikirləri bir-biri ilə uyğun gəlir və bunu onun düşmənləri qeyd edərək deyirlər ki, övliyalar peyğəmbərlərdən (ə) üstündürlər. Burada iki növ «müqəddəslik» fərqlənir: bütün dinlər üçün ümumi vilayə (vilayə ammə) və xüsusi, ancaq İslama aid

olan Məhəmməd vilayəsi. Birincinin «möhürünü» İbn Ərəbi İsanı, ikincisininkini isə - ali sufini, qütbü hesab edirdi. Sonrakı dövr şiə fəlsəfəsi (Heydər Amuli) İbn Ərəbinin övliyalar haqqında təlimini ümumiyyətlə qəbul etmişdir, tək bircə qeydlə: «müqəddəslərin möhürləri»ni 1-ci və 12-ci imamlar adlandırılmışdı.

X əsrdən başlayaraq sufizmdə övliyaların görünməz iyerarxiyası haqqında təsəvvürlər möhkəmlənməyə başlayır: lakin tabeçiliyin vahid sistemi yaranmışdı. İyerarxiyada «müqəddəslərin» ümumi sayı 356, hərdən 500-dür, o, həm də «böyük havadardır» (əl-qövs əl-ə′zəm), onun dalınca bəzi sufi müəlliflərdə «iki rəhbər» (imaməni) gəlir, başqalarında isə 4, 5 və ya 7 dayaq (övtəd-autəd) gəlir. Sonra yeddi «seçilmiş» (əxyar) gəlir, yaxud 40 (bəzən 7) «müavin» (abdəl-budələ), onlardan sonra - 12, 70 və s. «rəhbər» (nüqəba), sonra 8, 70, 300 və s. «xeyirxah» (nücəba) və sonra da iyerarxiyanın sonuna qədər. Hər hansı bir V.-nin ölümü ilə iyerarxiya hərəkətə gəlir: onun yerini ondan aşağıda duran «müqəddəs», bu «müqəddəsin» yerini isə ondan aşağıdakı və s. tutur. İyerarxiyanın üzvlərini hərdən «qeyb adamları» (ricəl əl-qeyb) adlandırırdılar. İstisna deyil ki, sufi iyerarxiyası imamət və «ithaf olunmuşlar» iyerarxiyası haqqında şiə təliminin ismaililərdən qəbul edilmiş dəyişmiş mənasıdır.

İyerarxiyanın hər bir üzvü müəyyən vəzifələr yerinə yetirir: qütb Dünya-kainata «başçılıq edir», imamlar bu və o Dünyanın idarə olunmasına «cavabdehdirlər», övtəd (autəd) Dünyanın tərəflərinin bərabərliyini idarə edir, abdal Dünyanın yeddi iqliminin işlərini idarə edir, nüqəba insanların qayğılarının ağırlığını öz çiyinlərində daşıyır, onlar böyük-müqəddəs xadimlərin hərəkətlərinin sirrlərini bilirlər və s. İbn Ərəbidə iyerarxiyanın yüksək üzvləri daha kiçik övliyalar arasında bölünmüş bütün biliklərə malikdirlər. İyerarxiyanın bütün arif üzvlərinin bilikləri kainatın əsl hakimi və tam kamil «qnostiki»-arif olan qütbdə cəmlənmişdir. Görünməz iyerarxiya sufi qardaşlığının yarandığı və inkişaf etdiyi dövrdə övliyalar arasında real mövcud olan əlaqələri hər hansı bir dərəcədə əks etdirirdi: demək olar hər kənddə və ya məhəllədə (kvartal) mənəvi «vəsiyyətnamə» və hər hansı bir şeyxdən asılı olmayaraq möizə etmək hüququ alan və öz növbəsində öz mənəvi şəcərəsini (silsilə) bir sufi qardaşlığının eponiminə çatdıran V. var idi. Digər tərəfdən iyerarxiya, görünür sufi qardaşlığının özünün çətinləşmiş strukturunu da əks etdirirdi, orada şeyx (pir) ardıcıllarının sayının artması ilə əlaqədar olaraq tez-tez öz müridlərinin hazırlanmasını həyata keçirməyə və öz köməkçiləri xuləfə və müqəddəmlər ilə təriqəyə başçılıq etməyə məcbur olurdu.

Xalq İslamında övliyalara möcüzə yaradanlar (bax: kəramət), Allah «bərəkətinin daşıyıcıları», müxtəlif sənətkarlıq himayədarları və tərəfdarı kimi baxırdılar. Özlərinin xalqa yaxınlığı, dini azadlığı, asketik həyat

tərzinə görə övliyalar «rəsmi» qazi və fəqihlərdən daha çox hörmət sahibi idilər, buna görə də hakimiyyət adamları hər cürə onların dəstəyini almağa can atırdılar. Bu onunla nəticələndi ki, çoxlu «müqəddəslər» müxtəlif hakimlərin maddi himayəsində yaşayırdılar və böyük xüsusiyyətçilərə çevrilmişdilər. Bununla bərabər, övliyalar təz-tez milli-azadlıq hərəkatının başında durub, müstəmləkəçilərə qarşı fəal mübarizə aparırdılar (Əlcəzairdə Əbdülqadir, Liviyada sənusiyyə təşkilatı və s. hərəkatları).

«Müqəddəslərin» ayinlərinin və onların qəbirlərinin (hörmətlə sayılması) geniş yayılması (onlar həm də ilahi bərəkətinin mənbəyi hesab edilirdilər) İran, Əfqanıstan, Türkiyə, Pakistan, Şimali Afrika və Yəməndə öz yerini aldı.

**Ədəbiyyat:** İslam, 46; ət-Tirmizi. Xətm; əs-Sərrac. Əl-Lumə′, 31-332, 422-424; əl-Quşeyri. Ər-Risalə, 4-9; al-Hujwiri. Kashf, 210-241; İbn Ərəbi. Fusus, 1, 48-56, 134-138; yenə o. Əl-Fütuhat, 2, 3-139, əl-Kaşani. İstilahat, 54; Amoli. La philosophie, Index; Лэйн. Нравы, 67-85; Westermarck. Pagan Survivals, 120-124; Grünebaun. Festivals, 67-85; Nwiya. Exegese, 237-242, İndex; Corbin. En Islam, 1; Chodkiewicz. Sceau; B. Carra de Vaux. Wali,- El, 4, 1109-1111; Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, 311.

**Vəsi** (cəmi övsiya) – ruhani vəsiyyəti yerinə yetirən. Müsəlman ənənsinə görə guya Abdulla b. Səba adlı birisi birinci sübut etmişdir ki, hər bir peyğəmbərin öz ruhani vəsiyyətini yerinə yetirəni olumşdur: Aaron Musa peyğəmbərin, Pyotr İsa peyğəmbərin, Əli ibn Əbu Talib Məhəmməd peyğəmbərin V.-si olmuşlar. Əslində Abdulla b. Səba adlı şəxs tarixdə olmayıb və bu Seyf ibn Ömər tərəfindən uydurulmuş fikirdir. Şiə imamət doktrinasında Ələvilərin «seçilmiş olduqları» məfhumu möhkəm yer tutur. Peyğəmbər əleyhissəlam Allahın öz birbaşa qərarı ilə Əlini (ə) öz vəsisi seçmişdi. V.-lik haqqında daha fəal təlimi imamətliyə öz seçki iddialarının Peyğəmbərlə (s) qohumluğa görə deyil, ondan ruhani (mənəvi) vəsiyyət almaqla əsaslandırmağa çalışan qeysani icmaları hazırlayıb təbliğ edirdilər. V.-lik haqqında sonrakı görüşlərin inkişafı imamilər – isnəaşərilər arasında baş verdi. Onların təliminə görə hər altı peyğəmbərdən birinin (Adəmdən tutmuş ta Məhəmməd (s) peyğəmbərədək) bir-biri ilə əlaqəsi olan 12 V.-si olmudur. Axırıncı 12-ci V. Əli və onun nəslindən olan 11 imam Məhəmməd peyğəmbərin (s) vəsiləri olmuşlar. Bunlar «Peyğəmbərin silahdaşları (əshabu-l-ənbiya)», «dini qanunların qoruyucuları» (əshabu-ş-şəriə) - dirlər. Hər peyğəmbərə Allah tərəfindən vəhy nazil olurdu, onun sirrin peyğəmbər öz V.-sinə açırdı ki, o, (sirr) insanlar üçün Allahın «sübutu» (əl-höccət) olsun. V.- imamdır, eyni zamanda vəhyi şəhr edən – danışandır (ən-

natiq) və sakitdir (əs-sakit) – icmanı vəhyi istənilən kimi şərh etməkdən və səhv etməkdən çəkindirən dini qanunun qoruyucusudur.

**Ədəbiyyat:** İslam, 47; ан-Наубахти. Шиитские секты, 134-136, 147-148; Amoli. La fhilosophie, 239-242.

**Vəsiyyət** (cəmi vasayə; türk. vasiet, fars. vəsiyyət , azərb.-vəsiyyət).

1. Ölməmişdən əvvəl şəxsin son istəyi-V., nəsihət-tapşırıq. V. Quranda göstərilmişdir, başqa hər hansı akta şamil olunanlar ona da şamil edilir, daha doğrusu V. edən həqiqətən ağlı başında olmalıdır və nədən imtina etdiyini özü həll etməlidir. V.-in obyekti mülkiyyətin bütün növləri - əlaqələr, əməli tapşırıqlar, qohumlara tapşırıqlar və «axırıncı istək» məfhumuna daxil olan çoxlu başqa şeylərdir. V.-ə görə daşınar və daşınmaz əmlakın hamısının bir yerdə üçdə birindən çoxundan imtina etmək olmaz. Varislər arasında vərəsə (miras) kimi bölünənlərin üçdə ikisini miras qoyan qeyd edə bilər ki, kim üçün nə qoyur (əgər bu zərər gətirmirsə və başqa varislərin hüququna toxunmursa).

V. ilə əmlakdan məhrum olan artıq vərəsəlik payından gözünü çəkməlidir. Belə hal olarsa, vəsiyyət olunmuş şeylərin bölünməsi hamılıqla bir yerdə, ancaq qalan varislərin razılığı ilə ola bilər.

V. şifahi və ya yazılı formada edilir, bu halda iki şahidin iştirakı və ya təsdiqi lazımdır. V. ölməzdən çox əvvəl də edilə bilər və vərəsə verən onu istənilən vaxt dəyişə və ya rədd edə bilər. Əgər V. düzgün tərtib edilməyibsə, qaziyə şikayət edilə bilər, o, onu həll edə, səhvi düzəldə və ya V.-i tam rədd edə bilər, bütün imtina edilənləri vərəsə verilmiş əmlaka əlavə edə bilər.

Hazırda şəriət qanunlarının güclü olduğu yerlərdə vəfat etməmişdən əvvəl V.-in tərtib edilməsi hər yerdə həyata keçirilir, lakin V.-in tərtib edilmə qaydası, onun şərtləri, cəlb olunan şəxslər və başqaları yerli adətlərdən asılı olaraq müxtəlif şəkildə olurdu, belə ki, müsəlman aləminin müxtəlif rayonlarında fərqlər olduqca böyük idi.

**Ədəbiyyat:** İslam, 47; əş-Şeybani. Əl-Cami, 121-124; Sədr əş-şəriə. Müxtəsər, 228-231; Əl-Əhkam əş-şə′riyyə, 88-95; Abu Zaxra. Family Law, 175-178; G.Schacht.Wasiya. – ShEI, 632.

2. Şiə doqmasında (ehkamında) V. imam tərəfindən öz varisini «aydın şəkildə göstərən» (ən-nass) ruhani vəsiyyətdir. Əməvilərə qarşı təbliğat dövründə V. kəlməsi altında Peyğəmbər (s) tərəfindən verilən və Əli (ə) nəslindən olan növbəti imama V. olunan xüsusi biliklər nəzərdə tutulurdu. Həqiqi imam o imam sayılırdı ki, gizli biliklər ona V. edilsin. Bu görüşdən çıxış edən imamətliyə iddia edən Abbasilər və onların emissarları təkid edirdilər ki, Əli ibn Əbu Talibin nəvəsi Əbi Haşim bin əl-Hənəbiyyə

Ələvilərin saxladığı «sarı lülə kağızı» Abbasi Məhəmməd bin Əliyə V. etmişdir və bu onların Peyğəmbərdən (s) vərəsə kimi aldıqları gizli biliklərin sübutudur.

**Ədəbiyyat:** İslam, 47-48; ан-Наубхати. Шиитские секты, 29-30, 136, 147-148.

3. Elmi və ilahiyyat ədəbiyyatı janrı. V.-i ya müəllif özü yazıb, orada fəaliyyətinə yekun vururdu, ya da ki, onu ən yaxın şagirdlərdən biri tərtib edib öz müəlliminin əsas fikirlərini orada cəmləyirdi, məsələn Əbu Hənifənin V.-i, İbn Sinanın V.-i, İbn Ərəbinin V.-i və s.;

**Ədəbiyyat:** İslam, 48.

**Vəzir** (ərəb-fars sözüdür) – dövlət inzibati aparatının başçısı. Quranda bu söz əvvəlki mənasındakı «köməkçi» kimi işlədilir (20:29/30; 25:35/37); elə bu mənada da o, Məhəmməd peyğəmbərin (s) xələfini seçəndə qeyd olunmuşdur – mühacirlər ənsarlara demişdilər: «Bizdən əmir, sizdən isə vəzir». Abbasilərin birinci V.-i Əbu Sələmə bu titulu fəxri ləqəb «sülalənin köməkçisi-müavini»nin əsas tərkib hissəsi kimi daşıyırdı. Yalnız əl-Mənsur (754-775) dövründə V. inzibati aparatın başçısı kimi meydana gəlir. Orta əsr ərəb (sonra fars) tarixi və ədəbi əsərlərində V. Sasanilərin vuzurq framandarı adlanır (bozorq fərmandar). Ola bilsin belə eyniləşdirməyin əsası «V» və «vuzurq»un səslənməsi və Abbasilərin V. və vuzurq formalarının funksiyalarının tam bir-birinin eyni olmasıdır. V.-in inzibati dövlət aparatının başçısı kimi meydana gəlməsi şübhəsiz Abbasilər vaxtı İran mədəni ənənələrinin yaranması ilə bağlıdır.

V.-in əsas fəaliyyət dairəsi inzibati-maliyyədir, ordu və ədliyyə onun səlahiyyətinə daxil deyildi, lakin onun real hakimiyyətinin həcmi konkret vəziyyətlər və V.-in özünün şəxsiyyətindən asılı idi. X əsrdən V.-lər bütün böyük hakimlərin yanında meydana gəlir, xüsusilə də Xilafətin Şərq hissəsində, Qərbdə isə belə səlahiyyətli şəxslər başqa adlar daşıyırdılar.

Əl-Məvardi (XI əsrin birinci yarısı) V.-i icmanın (xəlifənin) öz hakimiyyətinin (vilayət) bir hissəsini onun üzərinə qoyduğu bir adam kimi təqdim edir – bu necə deyərlər tam səlahiyyətli vəzirlik (vizara ət-tövhid) və ya öz əmrlərini ali icra edən – «icraçı vəzirlik» (vizaratu-t-tənfiz)–dir. Birincisi o, xəlifənin ona verdiyi səlahiyyətlər həcmində müharibələrin aparılması və şikayətlərə baxılmasına qədər (məzəlim) müstəqil qərarların qəbul edilməsi kimi dövləti idarə etmək hüququnu almışdı, ikincisi isə ancaq xəlifənin əmrlərini yerinə yetirirdi. Tam səlahiyyətli V., neçə ki imam, yalnız tək ola bilərdi və hökmən müsəlman olmalı idi: icraçı V.-in işləri (vəzifələri) iki şəxs arasında bölünə bilərdi, onları müsəlman olmayan

da yerinə yetirə bilərdi. Eyni vaxtda həm səlahiyyətli, həm də icraçı V.-in olması mümkün idi.

Osmanlı İmperiyasında bir neçə V. var idi, onlardan ancaq böyük V. (ulu vəzir) sultana məruzə edə bilərdi. III Əhməd vaxtı (1703-1730) təkcə bir şəxs V. titulunu daşıyırdı, sonra bu titul böyük əyalətlərin paşalarına verilirdi, real V. fəaliyyətini isə təkcə böyük V. həyata keçirirdi, o eyni vaxtda sultanın möhür saxlayanı idi.

**Ədəbiyyat:** İslam, 44; əl-Mavrid. Əl-Əhkəm, 33-47; Мец. Ренессанс, 80-97; S.D.Goitein. The origine of the vizirate and its true character. – Studies, 168-296; M.M.Bravmann. The original meaning of arabic wazir. – DI, 1961, 37, 260-263, 1962, 8, 314; yenə o. Background, 220-227; F.Babinger.Wazir. – EI, 4, 1229-1230.

**Vudu** (yuma – dəstəmazalma) - İslamın adi haldan dua etmə halına və namazdan əvvəl yerinə yetirilən halına keçidi müəyyən edən təmizlik aktı. V. Quranda tövsiyə olunmuşdur. V. məsələlərini fiqhin ibadət bölməsinə aid edirlər, onun yolları əş-Şeybani tərəfindən (VIII əsrdə) yazılmışdır. V. təmiz su ilə ardıcıllıqla əlləri yumaq, ağız və boğazı yaxalamaq, burunu təmizləmək, üzü, gözü yumaq, saçları islatmaq, qulaqları, boynu və ayaqları dizə qədər yumaqdan ibarətdir. Bu əhli sünnədə vacib sayılır. Şiələr isə ayaqlarını, boyunlarını, başlarını və qulaqlarını yumayıb, başları və ayaqlarına məsh çəkirlər. Bunları edərkən namaza başlamaq niyyətin olduğunu təsdiqləyən duaları ya eşidilən şəkildə, ya da özlüyündə oxumalısan. V. fizioloji hallarda - qan və ya çirk axdığı vaxt, qusmada, abırsız şeylərə toxunanda, dəstəmaz alıb, namaz qılmamış başqa işlə məşğul olanda - yatıb və ya huşunu itirəndə, cinsi əlaqədə olanda batil olur. Bütün bunlardan sonra V. təkrarlanmalıdır. V. hər namazdan əvvəl yerinə yetirilməlidir, lakin əgər insan bir namazdan o birinə öz dəstəmazlı halının pozmadığına əmindirsə, o biri namazı da V.-suz qıla bilər. Əgər insan sudan istifadə edə bilmirsə (xəstədirsə, su yoxdursa və s.) V.-nu təyəmmüm əvəz edir.

Bizim vaxtımızda bütün müsəlman qruplarında V. kiçik dəyişiklərlə eyni surətdə yerinə yetirilir.

**Ədəbiyyat:** İslam, 51; əş-Şeybani. Əl-Asar, 1-10; Sadr aş-şəri'a. Müxtəsər, 2-5; Wensinsk. Handbook, 258-263; J.Shacht. Wudu. – EI, 4, 1234.

# Y

**<u>Yaqub</u> -** Quran sürəti, mömin insan, İbrahim nəslindən olan peyğəmbər, Yusufun atası, Bibliya Yakovu. Quranda İbrahimin nəslindən olan kimi adı İshaqla yanaşı çəkilir. Onun möminliyi və peyğəmbərlik vəzifəsi Allahın bütün İbrahim (Avraam) nəslinə xeyir-duasının təbiri kimi təsvir olunur (2; 136/ 130, 140/134; 6: 84; 19:49/50; 21-72; 29-27/26). 37-ci surədə (37:113) Y. və İsava işarə olunması ehtimal olunur və onun nəslində isə uğurlu və açıq-aydın özünə zərər verən motiv də vardır», o, həm də Yusuf haqqında hekayənin axırıncı hissəsində xatırlanır: Y. oğlanlarına Misirə bir dərvazədən girməməyi əmr etdi: onun korluğunu onun üzünə atılan Yusifin köynəyi açdı (12: 67-68, 93-96). Quranda Y.-un ikinci adı-İsrail də xatırlanır. O, əsasən israililərin bənu israil adlarının tərkibində istifadə olunur. O, özü bu adla ancaq bir dəfə adlanıb. «İsrail oğullarına hər cür yemək icazə verilirdi, təkcə İsrailin özünün özünə ət-Tövrat nazil edilənə qədər haram etdiyindən başqa (3:93/87). Bu ayə «Varlığın kitabı»nda olan (32:32) budun damarlarını yeməyin (haram) qadağan olmasını aydınlaşdıran mövzunu nəzərdə tutur. Yakov mələklə mübarizədə öz budunu əzir və bu mübrizə üçün o, yeni – İsrail adı alır.

Müsəlman hədislərində isə ancaq deyilir ki, İsrailin budunun damarlarında xəstəlik vardı, buna görə də ona qadağa vardı. Onun adı isə əsra- «gecə getmək» felinə gedib çıxır, belə ki, o, öz qardaşından gizlənərək naxırla ancaq gecə hərəkət edirdi.

Bu qadağa haqqında Quranda dəfələrlə təkrar olunan ideya ilə əlaqə vardır ki, yəhudilərin yeməklərindəki qadağa, onlara ilahi vəhy (kəşflə) əvvəl nazil olunmayıb, lakin sonradan onların günahlarına görə qoyulmuşdur.

Qurandansonrakı rəvayətlərdə və şərhlərdə Y. və İsavın hələ analarının qarnındakı mübarizə haqqında hekayəyə xüsusi diqqət yetirilir, guya birinci dünyaya gəlməli olan Y. - bu İsav güclə yana sıxışdırır. Yusufun tarixi ilə bağlı çoxlu süjetlər gətirilir. Y. oğlanlarının cinayəti haqqında hekayəni möcüzəli şəkildə danışan canavardan öyrənir, uzaqdan hiss edir ki, oğlu sağdır və s.

Belə hesab etmək qəbul olunub ki, guya Məkkə dövrünün əvvəlində Məhəmməd (s) Y.-u İbrahimin oğlu bilirmiş. Quran mətnlərnin müvafiq yerlərini böyük yəqinliklə İbrahimin (ə) oğulları deyil, nəsilləri arasındakı sadalama kimi başa düşmək lazımdır.

**Ədəbiyyat:** İslam, 119-120; ət-Təbəri. Tarix, 1, 353-413; yenə o. Təfsir, 1, 439-443, 4, 2-5; əs-Sə'ləbi. Qısas. 61-65, 75-76: əl-Kisəi. Qısas, 153-155, əl-Beydavi. Təfsir, 1, 165-166; Horovitz. Untersuchungen, 91,

135-138: Speyer. Erzählungen, 170, 192-193, 213, 216-220; Paret. Kommentar, 75, 145; A.J.Wensick. İsrail.-EL, 2, 543; B.Heller Yakub. - yenə orada, 4, 1246-1247.

**Yasin** - Quranın 36-cı surəsinin əvvəlində gələn ərəb əlifbasının iki hərfindən yaranan ad. Bəzən onu «ya insan» ibarəsinin qısaldılmış forması kimi şərh edirlər, lakin bu və başqa surələrin əvvəlində olan hərflər nə müsəlman ənənəsinə, nə də elmə hələlik bəlli deyil. Hesab edilir ki, Y. surəsi insanların fiziki əzablarını yüngülləşdirir, buna görə də onu can verənin başı üstündə, dəfn zamanı və ümumiyyətlə, dini mərasimlərdə və bayramlarda, cümə axşamları müsəlman öz mərhumlarının qəbri üstə və ya evlərində oxuyurlar. Bu surənin yazılmış vərəqlərini adamlar müqəddəs şey kimi üzərlərində gəzdirirlər. O, kişilərə ad kimi də qoyulur. Rəvayətə görə, Məhəmməd peyğəmbər (s) onu «Quranın qəlbi» (qəlb əl-Quran) adlandırmışdır.

Surə Məkkə dövrünün ortalarına aiddir və Quranın təbliğinin bütün əsas motivlərini özündə cəmləyir. Onların içərisində: Məhəmməd peyğəmbəri (s) qəbul etməyən dinsizləri söymə və Peyğəmbəri (s) çoxdan və gizli dəstəkəyənlərə daha çox inanmağa çağırış var. Nəsihətnamədəki hekayələrdə hansısa kəndin əhalisi (əshabu-l-qaryə) onlara moizə etməyə göndərilən Allah dinini qəbul edənlərə inanmayaraq, onları daşqalaq edib öldürən kənd əhalisinin məhv edilməsi haqqında danışılır. Hekayədə guya iki xristian həvarisi haqqındakı tarix istifadə olunub, onları Antioxiyada tutmuşdular, onları ora göndərilən üçüncü həvari Pyotr xilas etdi. Surədə Quran üçün adi olan Allahın əzəməti, həyatda nə varsa onun yaratdığı, onun diriltmək bacarığı, insanları Nuh kimi xilas etməyi haqqında bilgilər vardır, Allahın hər şeyi bacardığının yenidən təsdiqi ilə qurtaran Axirət Məhkəməsinin, Cənnətin və Cəhənnəmin qısa təsviri də vardır. Y. surəsinin xüsusi məşhurluğu ola bilsin orada dəfələrlə təkrarlanan insanların və təbiətin dirilməsi motivləridir.

**Ədəbiyyat:** İslam, 119; Крачковский. Коран, 584; ət-Təbəri, Təfsir, 22, 97-104, 23, 2-22; əl-Beydavi, 2, 156; Paret. Kommentar, 410-414.

**Yəcuc və Məcuc** - Quran surətləri, Yerin ən uzaq şərqində yaşayıb, insanlara düşmən olan məxluqlardır. Bibliyanın Qoq və Maqoqu. Quranda Zü-l-Qərneynin tarixi haqqında nəql edilir ki, «o, iki maneə arasındakı yerə çatdıqda» orada yaşayan insanlar «iki maneə» arasında divar tikməyi xahiş edirlər ki, «onları yer üzünə bədbəxtlik yayan» Y. və M.-dan qorusun. Allahın köməkliyi ilə Zü-l-Qərneyn iki dağ arasında divar tikib, aralarını qaynar dəmirlə doldurdu. O vaxtdan Y. və M. «onun üstünə qalxa bilmədilər və onda dəlik aça bilmədilər». Onda Zü-l-Qərneyn dedi ki,

dünyanın axırından bir az əvvəl bu divar külə dönəcək (Q-18:93/92-98/97); Y. və M. üçün insanlara tərəf yol açılacaq və onlar hər yüksəkliyə can atacaqlar» (21:96).

Qurandansonrakı rəvayətə görə Y. və M. çox böyük ölçülü məxluqlardır. Onların bəzilərinin çox yekə qulaqları vardır ki, onlarla bədənlərini örtə bilirlər. Hər gecə onlar Zü-l-Qərneynin tikdiyi divarın altından lağım atırlar, lakin Allah səhərə onların bütün elədiklərini məhv edir. Dünyanın axırı ərəfəsində Y. və M. bütün Yeri istila edib, çoxlu insan öldürəcək, bütün böyük çay və göllərin sularını içəcək, sonra da göylərə güllə atmağa başlayacaqlar. Onda Allah göydən Y. və M.-un burun, ağız və qulaqlarını dolduran qurdlar göndərərək, onları məhv edəcək.

Bibliya Y. və M. surətləri Qurana guya Suriya xristian əfsanələrinədək gəlmişdir və öz növbəsində Bibliyada onlar «Aleksandr haqqında romanın» motivləri ilə əlaqələndirilirlər. Bibliyada çox yer tutan Y. və M.-rı saxlayan divarın motivinin məşhurluğu görünür müsəlman coğrafiyaçıları və səyyahlarına yaxşı tanış olan Çin köçərilərinin hücumundan qoruyan Böyük Çin səddinin surəti ilə möhkəmlənmişdir.

**Ədəbiyyat:** İslam, 119; ət-Təbəri. Təfsir 16, 12-23; əs-Sə'ləbi. Qısas. 206-207- əl-Qəzvini. Əcaib, 448; əl-Beydavi. Təfsir, 573, 624, Nöldeke. Beitrage; Freidlaender. Chadhirlegende; Horovitz. Untersuchungen; 150-151; Gaudefroy- Demombynes. Mahomət, 366, 369-370; Paret. Kommentar, 320- Beltz. Sehnsucht, 175-176, 186, A.J.Vensinsk.Yadjudi waMadjudj - EI, 4, 1236-1237.

**<u>Yəhud</u> -** yəhudi. İstilah Quranda Mədinə dövründə meydana gəlib və Məhəmmədin (s) müasirləri və ya ümumiyyətlə yəhudiləri bildirir, adətən nasara (xristianlar) ilə yanaşı gəlir (3:67/60;5: 18/21,82/85; 9:30 və b .) Mədinəyə qədər yəhudi müqəddəs tarixinə çoxsaylı istinadlara əsasən bənu İsrail «İsrail oğulları» istilahı işlənmişdir. Quranda Y.-lərə ikili münasibət öz əksini tapmışdır. Bir tərəfdən onlar da müsəlmanlar kimi təkallahlığın eyni prinsiplərini dəstəkləyir, onu İbrahimin (Avraam) missiyası ilə bağlayırlar, İslam sanki yəhudilik tərəfindən itirilmiş ciddi təkallahlığı təmizləyib bərpa etmişdir, Y.-lər «Əhlu-l-kitab – Kitab əhli» kateqoriyasına aiddirlər. Məkkədə və Mədinədə qaldığı vaxtın əvvəllərində Məhəmməd (s) Yəsribin (Mədinə) və Şimali Afrikanın çoxlu vadilərinin əhalisinin mühüm hissəsini təşkil edən Y.-lər arasında silahdaşlar və ardıcıllar tapmaq nəzərdə tuturdu. Onlara müraciət Qurana mənəvi cəhətdən yaxın olan adamlara müraciət kimi idi. Lakin Yəsribin Y.-ləri Məhəmmədi (s) peyğəmbər hesab etmədilər, onu inamsızlıqla və məsxərə ilə qarşıladılar, sonra açıq-açığına onunla düşmənçilik edib, Qüreyşilərlə ittifaqa girdilər. Nəticədə hicrətin ilk illərində müsəlmanlarla yəhudilik dininə qulluq edən yəsriblilərlə bir

sıra toqquşmalar oldu, bunlar qaünuqa, qureyzə və Bənu nadir qəbilələrinin Mədinədən qovulmasına, sonra isə Y. mərkəzləri Xeybər, Fədək və s.-yə hərbi yürüşlərə gətirib çıxardı.

Ərəbistanın Y. icmalarının müsəlmanlara qarşı düşmənçiliyi də Quranda öz əksini tapdı, Allah öz Peyğəmbərinə (s) onlarla necə rəftar etməyi öyrədirdi. Mədinə dövründə dini planda Məhəmməd (s) Allahın əmri ilə yəhudilik və xristianlıqdan ciddi surətdə fərqlənən İslam dini kimi ciddi bir din yaradırdı, bu da onu əvvəlki dinlərdən daha çox səbəbli edirdi. Elə o vaxt Y.-ləri Üzeyri ilahiləşdirməkdə günahlandırmaq meydana gəlir (9: 30).

Quranın ümumi dini konsepsiyası Y.-ləri Kitab əhli kimi imanlılar və imansızlar kimi orta vəziyyətdə qoyur. İbrahim (Avraam) Y.-lərin və ərəblərin ümumi ulu babası sayılır, müsəlmanların Y.-lərlə çoxlu ümumi ehtiram edilən şəxsiyyətləri və müqəddəs yerləri var (məs): Qüds (Yerusəlim), İbrahimin (əl-Xəlildə) Hebron məqbərəsi və s. Müsəlman hüquqi nəzəriyyəsinə görə Y. əhlu-z-zimmə – müsəlman dövlətinin himayəsində olan insanlar kateqoriyasına daxildirlər. Y. icmaları onların daxili işlərinə qarışmayan müsəlman hakimləri ilə bütün əlaqələrini həyata keçirən öz rəhbərlərinə tabe idilər.

Orta əsrlərdə Y.-lər müsəlman dünyasının bütün rayonlarında, hətta Cənubi Ərəbistanda mövcud idilər, baxmayaraq ki, guya Məhəmməd (s) Ərəbistan yarımadasını İslam dinindən başqa bütün başqa din nümayəndələrindən təmizləməyi əmr etmişdi. Y.-lərə münasibət müsəlman ölkələrində dözümlü idi, nəinki onlarla eyni dindən olan Avropada.

Müsəlman ölkələrində, xüsusilə də VIII-IX əsrlərdə İslamı qəbul etmiş və öz dinini saxlamış Y.-lər çox vaxt yüksək inzibati vəzifələr tuturdular. Y. tacirləri orta əsr müsəlman ölkələrinin iqtisadi həyatında mühüm rol oynayırdılar. Orta əsrlərdə müsəlman ölkələrində Y. icmalarında aktiv mədəni fəaliyyət davam edir, ilahiyyat və fəlsəfə məktəbləri inkişaf edir, bədii ədəbiyyat yaranırdı. Dini sərhədlərə baxmayaraq bu insanların mədəniyyəti onları əhatə edən xalqların mədəniyyətləri ilə qarşılıqlı fəaliyyət göstərirdi. Əvvəllər, VIII-XI əsrlərdə, ərəb-müsəlman mədəniyyəti Y. icmasının çoxlu tarixi görüşləri, əfsanəvi süjetləri və ilahiyyat ideyaları ilə qidalanırdı. Tədricən əks proses baş verdi – müsəlman rəvayətləri, bədii ədəbiyyat, qrammatik təlim, fəlsəfi ideyalar Y.-lər arasına sirayət edirdi. Orta əsrlərdə Y.-lərin Yaxın Şərqdə iştlətdikləri dili ərəb dili oldu. Y. şrifti ilə olsa da işgüzar yazışmalaların mühüm hissəsi ərəb dilində aparılır, hekayələr və əfsanələr yazılır, özünəməxsus ədəbiyyat mövcud idi.

Müsətəmləkəçilik dövründə Avropa dövlətləri Y. və xristian icmalarını müsəlman Şərqi ölkələrinə nüfuz etməsindən öz maraqları üçün istifadə etməyə başladılar. XX əsrdə ərəb ölkələrinin Y. icmaları arasında sionist təbliğatı geniş yayıldı, bu da çox halda icmalararası münasibətlərin qəti

surətdə kəskinləşməsinə gətirib çıxarırdı. 1948-ci ildə İsrail dövləti yaradılandan sonra ərəb və müsəlman ölkələrinin Y.-lərinin çoxu oraya köçərək İsrail əhalisinin xüsusi təbəqəsini təşkil etdilər ((sefarid nəsilləri və şərq Y. icmalarının üzvləri, məs; Yəmən icması). Azsaylı Y. icmaları bu gün də bəzi müsəlman ölkələrində, məs: Mərakeş, İraq, Suriyada mövcuddur.

**Ədəbiyyat:** İslam, 120-121; Мец. Ренессанс, 38-58; Tritton. The Caliphs; Fattal, Statut: S.P.Goitein. Jews and the Arabs. N.Y., 1955; H.Speyer. Yahud. – EI, 4, 1240-1242.

**Yəhya** - Quran personajı (surəti), peyğəmbər və mömin insan, Zəkəriyyənin oğlu, İncil İoann Krestiteli. Quranda o, İsa (ə) və İlyas (ə) pey-ğəmbərlərlərlə bir cərgədə mömin adlandırılır (6:85). Y.hələ uşaqlıqdan ağıllı, dindar, Allahdan qorxan, təmkinli, valideyinləri ilə mülayim idi. O, Allahın həqiqət «sözünün» -d.d, İsa (ə) və onun missiyasının təsdiqi idi (3: 38/33-41 /36; 19:1-15).

Rəvayətdə Y.-nın sonrakı həyatı haqqında söhbət gedir. O, İsanın (ə) rəsulluğu haqqında ilk xəbər verəndir, o, İsaya kömək edirdi, sonra isə qətl edildi. Müsəlman rəvayəti Y.-nın qaynar qanı motivini xüsusi vurğulayır, o, onun başı olan boşqabda və onun qəbri üstə qaynayırdı. Y. peyğəmbərin başının dəfn olunduğu yer Dəməşqdə, Əməvilər məscidində müsəlmanlar tərəfindən hörmətlə ziyarət edilir.

Quran hekayəsi əsasən Lukadan İncilə gedib çıxır, ola bilsin hətta ondan «iqtibas» da gətirir (19:7-7/8): «..... hansının ki, adı Yəhyadır. Biz əvvəl onu eyni adlı etməmişik (müq. et …1:61). Y. haqqında Quranda həm Məkkə, həm də Mədinə dövrü yaranmış hekayə onun doğulmasına həsr olunub və Allahın əzəmətinin sübutuna, onun öz sadiq qullarına hətta qocalıqda da uşaq vermək bacarığına xidmət edir.

Qurandansonrakı rəvayətlər İoann Krestiteli xüsusi hörmətlə yad edən həm xristian materiallarını, həm də bəzi mandey rəvayətlərini özündə birləşdirir.

**Ədəbiyyat:** İslam, 120; ət-Təbəri, Tarix, 1, 705-720: yenə o. Təfsir, 3, 170-177, 16, 35-45, əs-Sə'ləbi. Qısas, 211-214; əl-Beydavi. Təfsir, 1,154, 576-578, Horovitz. İntersuchungen, 151-153; Gaudefroy-Demombynes. Mahomot, 383-384; Beltz. Sehusucht, 137-139; B.Carra de Vaux. Yahya-Ed, 4, 1242-1243.

**Yunus** – Quran personajı (surəti), peyğəmbər, bibliya İonası, həm də sahib əl-hut («balinanın yoldaşı») və Zu-n-nun («balıqla olan») adlanır; onun adı ilə Quranın bir surəsi adlanıb (10). Quranda yazılır ki, qəzəblənmiş Y. gəmiyə qaçaraq fikirləşir ki, Allah dənizdə onu tapa bilməz. Gəmidə püşk atdılar, Y. uduzdu və balina onu uddu, lakin peşman olaraq

Allahı onu bağışlamağa çağırdı və xilas olundu. Onu (balina) səhraya atdı, o, orada az qala ölsün, lakin orada bitən ağacın yarpaqları onu (istidən) xilas etdi və o, yenidən Allaha inanmağı təbliğ etməyə başladı və yüz min adam arasına göndərildi. Onun təbliğat apardığı şəhərin sakinləri əvvəl dinsizliyə görə ölümə məhkum edilmişdilər, sonra isə bağışlanmışdılar, nəhayət ki, onlar (Allaha) inandılar (21:87-88; 68:48-50; 37:139-148; 10:98; 6:86; 4:163/161).

Şərhlər və rəvayətlər aydınlaşdırırlar ki, Y. İraqın şimalında - Ninəvada Tanrının təbliğində müvəffəqiyyət qazanmırdı. Öz missiyasının çətinliyindən oradan qaçıb, gizli olaraq gəmiyə girir. Lakin gəmi yerindən tərpənə bilmirdi, bu o demək idi ki, gəmidə qaçqın var. Püşk göstərdi ki, bəlanın günahkarı Y.-dur və o, dənizə atılır, onu orada balina udur. Balığın qarnında qalan Y. Allahın işinin müvəffəqiyyətinə inanmamaqda peşman oldu və xilas olundu. Sahilə atılmış, əldən düşmüş Y.-u səhrada rəvayətə görə antilopa yedirdir.

Quranda Y.-un adı birbaşa gəlmir, ondan əvvəl təsviri qeydlər gəlir: Sahib əl-hut, Zu-n-nun. Hekayənin xüsusiyyəti – motivlərin qısaca sayılması – onu göstərir ki, Y.-un tarixi oxuculara yaxşı tanışdır. O haqda Quranda xüsusi qeyd vardır – Y.-un möizə etdiyi şəhər peyğəmbərlər tarixinin Quran sxeminə görə baş verməli olan hadisə – dinsizliyə görə məhv edilmişdir (10:98). Hekayə Bibliya əfsanəsinə gedib çıxır, lakin onun izləri xristianlar arasında da vardır (məs: Y.-un açıq mühakimə edilməsi). Peyğəmbərin əməlinin mühakiməsi Y. haqqında hekayəni peyğəmbərlər haqqında Quran hekayələri kütləsindən ayırır. Onun əsas ideyaları – peyğəmbərin təbliğ etdiyi adamların deyil, onun özünün tənbehi, Allahın rəhmdilliyi və hər şeyə qadirliyidir. Bu hekayə Məhəmmədi (s) səbr etməyə çağıran ibrətamiz nümunə kimi birbaşa istifadə olunmuşdur: «Öz Allahının qərarına qədər döz və balinanın yoldaşı kimi olma!» (68:48). Sufilər üçün Y. cismani səylərlə böyüdülmüş qəlb rəmzidir.

Hazırda İraqda, Nəbi (peyğəmbər) Yunusun Mosul yaxınlığında (qədim Ninəva xarabalıqlarında) yerləşən «müqəddəs» qəbri böyük şöhrət qazanmışdır.

**Ədəbiyyat:** İslam, 121; ət-Təbəri. Tarix, 1, 882-889; yenə o. Təfsir, 17, 60-66, 23, 63-68, 29, 28-30; əs-Sə'ləbi. Qısas, 229-232; əl-Kisəi. Qısas, 296-301; İbn Ərəbi. Təfsir, 2, 86; əl-Beydavi. Təfsir, 1, 350-351, 622-623; əl-Kaşani. Şərh, 209-213; Horovitz. Untersuchungen, 155; Speyer. Erzählungen, 407-410; Gaudefroy – Demombynes. Mahomet, 380-381; Paret. Kommetar, 344; Beltz. Sehnsucht, 129-130; C.Castillo. Jonas en la legenda musulmana. – Al-Qantara. Madrid, 1983, 4, 89-100; B.Heller. Yunus.b. Mattai.- EI, 4, 1273.

**<u>Yusuf</u> -** Quran surəti, müqəddəs (sıddıq) və peyğəmbər, Bibiliya İosifi. Quranın 12-ci surəsi onun adı ilə adlanıb, orada onun tarixi tam təfərrüatı ilə təsvir olunub.

Uşaq ikən Y. yuxuda Günəş, Ay və ulduzların ona baş əydiyini görür. Atası (Yaqub) ona yuxusunu (anadan ögey) qardaşlarına danışmamağı əmr etdi, bunu öz analarından eşidib onlar atalarının sevimlisini öldürmək istəyirdilər, atalarını Y.-u onlarla heyvanları otarmağa aparmağa razı saldılar, lakin onu öldürməyi qərara alıb, quyuya atdılar, onun qanlı köynəyini isə gətirib, onu canavar parçaladığını dedilər. Oradan keçən karvanın adamları Y.-u tapıb, onu Misirdə qul kimi satdılar, orada o, ağa evində böyüdü. Ağanın arvadı çox gözəl olan gənci yoldan çıxarmağa çalışırdı; qaçmağa cəhd edən gəncin köynəyindən arvad tutarkən köynək arxadan çırıldı, sonra isə gəncin ondan imtinasından qəzəblənərək ərinə dedi ki, Y. onun namusuna toxunub. Lakin Y.-un günahsızlığı köynəyin qabaqdan deyil, arxadan cırılmasına görə sübut olundu. Şəhərdə şayələr yayıldı ki, ağa arvadı gənci azdırmağa cəhd edir. Ona görə arvad şəhərin qadınlarını evinə dəvət edib, onlara meyvə və bıçaq verdi ki, doğrayıb yesinlər, sonra Y.-a əmr etdi ki, onların yanından ötüb keçsin. Onun (Y.-un) gözəlliyindən özlərini itirmiş qadınlar bıçaqla əllərini kəsdilər, bundan sonra ağanın arvadının həvəsinin səbəbini bildilər.

Aşkar günahsızlığına baxmayaraq Y. həbsxanaya atıldı, orada o, Allahın ona verdiyi sirri bilmək, xüsusilə də yuxuları şərh etmək bacarığını biruzə verdi. O, öz həbsxana yoldaşlarının yuxularını düz yozaraq, birinin azad olunacağı, digərinin isə çarmıxa çəkilərək, edam ediləcəyini söyləmişdi. Azad olan şəxs Y.-a onun sözlərini hökmdara çatdırıb, onu həbsdən qurtaracağına söz verdi, lakin sonra yaddan çıxartdı, ancaq bir də çar gördüyü qəribə yuxunu öz yaxınlarından (kahinlərdən) yozmağı tələb edəndə xatırladı. Məsləhətə qulaq asandan sonra çar Y.-u çağırıb onun günahsızlığını təyin edib, onu azad edir və öz xəzinədarı təyin edir.

Bir dəfə Y.-un qardaşları Misirə gəlirlər. Qardaşlar tərəfindən tanınmayan Y. onlardan öz kiçik qardaşlarını özləri ilə gətirməyi tələb etdi, yoxsa onların mallarının Misirdə alınmaycağını dedi; onlardan alınan mallar isə gizlicə yenə onların qablarına qoyuldu. Y.-un atası Yaqub öz sevimli oğlu Beniamini buraxmaq istəmədi, ancaq oğlanlarının yalvarışı onu razı saldı və o, onlara Misirə (Qahirəyə) bir deyil, müxtəlif darvazalardan girməyi tapşırdı. Misirdə Y. öz kiçik qardaşının yükündə çar dolçasını gizlətməyi əmr etdi, sonra isə onun itməsini elan etdi. Onu tapdılar və Yaqubun oğlu oğurluq üstündə həbs olundu. Böyük qardaş Beniaminsiz qayıtdıqlarına görə onları bərk danlayacağını deyib, Misirdə qaldı. O biri qardaşlar atalarının yanına getdilər və təzədən Y.-un yanına qayıdıb qardaşlarını buraxmağı xahiş etdilər. O vaxt Y. özünü tanıtdırıb,

köynəyini onlarla atasına göndərdi, atası köynəyi gözünə sürtdü, onun Y.-dan sonra tutulmuş gözləri açıldı və o, Misirə, sevimli oğlunun yanına getdi. Y. atasını hörmətlə qarşıladı və dedi ki, onun indiki inkişafı və böyüklüyü uşaqlıqda gördüyü yuxunun yozumudur (12:4-103). Bundan sonra Y. daha iki dəfə Quranda xatırlanır: mömin və peyğəmbər kimi, sağlığında isə ona inanmırdılar (6:84; 40:34/36).

Qurandansonrakı rəvayətlər və şərhlərdə Quranda olmayan məlumatlar verilir. Məs: X əsrdən meydana gəlmiş və sonradan geniş yayılmış ağanın arvadının adının Zülyexa olması və onun Y.-un sevgilisi olması süjeti orta əsr müsəlman İran və Hind şairlərinin mövzusuna çevrildi.

Y.-un dünyəvi məhəbbəti ilə Allaha sıx bağlılığı sufilərin əsərlərində geniş surətdə istifadə olunmuşdur.

Y. surəti və onun haqqında hekayə Quranda xüsusi yer tutur. Y. surəsinin öz mətni bu hekayənin çox mühüm əhəmiyyəti olduğunu qeyd edir; o, çox gözəldir (12:3). Bununla əlaqədar olaraq onun dili Quranın dili - ərəb dilidir (12:2). Surə demək olar ki, bir ritmdə, bir üslubda, ideyaca başqa peyğəmbərlər haqqındakı hekayələrdən fərqlənən gözəl hekayə timsalında yazılmışdır. Surədə əsas ideya xətti Allahın Y.-u sınaqlara çəkməsi və onun Allaha inamı və qələbəyə gətirilməsidir. Bu surəni Quranın ən gözəl yeri sayıb, onu bütöv Tövratdan üstün tuturdular. İddia edirdilər ki, bu surəni Allah hər bir peyğəmbərə göndərmiş, lakin yəhudilər onu gizlətmişlər, ancaq Məhəmməd (s) peyğəmbər onu insanlara elan etdi. Həddən artıq bədiiliyinə və Quran üslubundan fərqləndiyinə görə bəzi şiələr onu Quran mətninin qeryi-düzgün hissəsi hesab edirlər.

Çoxlu müsəlman nüfuzlarının iddiasına görə Y. haqqında vəhyin (kəşfin) ilk dinləyiciləri Məhəmməd (s) ilə əlaqədə olan yəsriblilər olmuşlar. Çox güman ki, bu surədə Peyğəmbərin (s) hicrət ilə bağlı əhvalatı – qohumlarla didişmə, məcburi hicrət, Allahın sınaqları öz əksini tapmışdır. Lakin surənin mətni Quranın başqa «peyğəmbər» tarixlərinə nisbətən Məkkə hadisələri və mübahisələri ilə birbaşa palallelləri azdır.

**Ədəbiyyat:** İslam, 121-122; ət-Təbəri. Tarix, 1, 371-414; yenə o. Təfsir, 12, 89-141, 13, 2-60; əs-Sə'ləbi. Qısas, 58-80; əl-Kisəi. Qısas, 155-179; İbn Ərəbi. Təfsir, 1, 155-168; əl-Beydavi. Təfsir, 1, 451-474; əl-Kaşani. Şərh, 109-115; D.Künstlinger. Die Suratu Jusufa. – Hagedem, 1907, 151-170; I.Schapiro. Die haggadischen Elemente im erzahlenden Teil des Korans. B., 1907; Horovitz. Untersuchungen, 154; Speyer. Erzählungen, 187-224; Sidersky. Les origines, 52-68; F.Ferwerda. Joseph`s Kamis in the Koran. – MW, 1937, 27/2, 186-188; H.Priebatscoh. Die Josephges-cichte in der Weltliteratur. Breslan, 1937; Gaudefroy – Demombynes. Mahomet, 377-380; Paret. Kommentar, 246-256; Beltz. Sehnsucht. 197-116; B.Heller. Yusuf b. Yakub. – EI, 4, 1275-1277.

# Z

**<u>Əz-Zahiriyyə</u> -** zahirilər, əz-Zahiri (vəf. 883-cü il) adlanan Davud b. Əli əl-İsfəhaninin hüquq məktəbinin (məzhəb) davamçıları. İbn Nədimə görə Davud bin Əli hüquqi təcrübədə müstəsna olaraq «zahirə» söykənən (əz-zahir, onun ləqəbi də buradan idi) ilk fəqih idi, o, Quranı və sünnəni «hərfi» başa düşür və onların mətnlərində gizli mənanı (əl-batin) görmək imkanını, onları alleqorik və rassionallıqla şərh etməyi rədd edirdi. Hüququn metodoloji məsələlərində (üsulu-l-fiqh) zahiri fəqihləri məntiqi-rasionalist üsulların (rəy, istihsan, istihsab və s.) istifadə edilməsinin fəal əleyhdarları idilər. Sonralar onlar, çox məhdud şəkildə qiyası (bənzəyişə görə fikir yürütmək) və icmanı (birgə rəyi) qəbul edirdilər.

Əz-Z. məzhəbi X-XIII əsrlərdə müsəlman dünyasında çox geniş yayılmışdı. İraqda Z. (orada onları məzhəbin banisinin adı ilə davudilər adlandırırlar) öz cərəyanlarının təlimini təşkil edib, öz təlimlərini İraqın sərhədlərindən kənarda fəal təbliğ edirdilər.

Zahiri məzhəbinin ardıcılları Xilafətin şərqində olduqları kimi (xüsusən də Xorasanda) qərbdə də var idilər: Əndəlüsdə məşhur zahiri ilahiyyatçı İbn Həzm (vəf. 1064-cü il) yaşayırdı. XII əsrin sonunda Əlmohadlar (əl-Muvahhidun) vaxtı əz-Z. məzhəbi rəsmi hüquqi məktəb tərəfindən tanındı. Bununla bərabər XV əsrdən sonra Z.-lər tədricən yox oldular.

Daha geniş mənada Quranın «xarici», «aydın» mənasını irəli sürüb, onun alleqorik şərhinə müraciət etməyənlərin hamısını Z., daha çox əshab əhli-z-zahir adlandırırlar.

**Ədəbiyyat:** İslam, 76-77; Goldziher. Die Zahiriten; R.Strothmann. Al-Zahiriya. – EI, 4, 1290-1292.

**<u>Zat</u> -** mahiyyət, zat, subyekt. İlahiyyat kontekstində Z. filosoflar və mütəkəllimlərdə mahiyyət, Allahın zatı mənasını bildirir ki, bu da onun atributları (sifət) ilə əlaqələndirilir.

**Ədəbiyyat:** İslam, 75.

**<u>Zaviyə (cəmi zəvāyə «künc»)</u>** – sufi və mərabut hücrəsi, iqamətgahı. Yüz illər ərzində bu istilahın mənası dəyişmişdir. İlk halda Z.-məsciddə və ya onun ərazisində otaqdır, orada oxumaq, yazmaq və Quran elmləri öyrədilirdi.

Sonralar sufi şeyxinin moizə ilə çıxış etdiyi və müridləri öyrətdiyi yeri belə adlandırdılar. Z. istilahı Şimali Afrika və Əndəlusdə daha çox yayılmışdı, oralarda sufi hücrələri sufiliyin təbliği və yayılmasında böyük

rol oynayırdılar. Z.-də, sufi avtoreteti yanında hazırlanan mürid adətən vətənə qayıdandan sonra orada şəxsi Z. təşkil edirdi.

XII-XIV əsrlərdə sufi qardaşlıqlarının (turuq) yaranma və inkişaf etməsi ilə iqamətgahların vəzifələri əhəmiyyətli dərəcədə genişləndi. Onlar qardaşlığın təşkilati və iqtisadi əsası oldular, sufi təlimləri və İslamın təbliği onlar tərəfindən həyata keçirilirdi. Bu vaxtdan aşağıdakılardan ibarət olan quruculuq komplekslərini Z. adlandırmağa başladılar: a) üzərində adətən günbəz tikilən Z.-nin yaradıcısı olan yerli müqəddəsin məqbərəsi; b) kiçik məscid; c) Z. şeyxinin və onun ailəsinin yaşadığı ev; ç) Quran oxunması və müridlərin təlimi  üçün ayrılan otaqlar; e) müridlərin hücrələri, qəriblər üçün qonaq evləri - yol adamları və səyahət edən dərvişlər orada pulsuz sığınacaq və yeməklə təmin olunurdular. Z.-nin yanında adətən kiçik qəbirstanlıq olurdu, orada Z. adamlarını və ya (vəsiyyətinə görə) dünyəvi adamları da dəfn edirdilər.

Sufi iqamətgahları möminlərin və yol adamlarının ianəsi və onlara yazılmış vəqf əmlakından alınan gəlir hesabına dolanırdılar. Z.-nin əsasən karvansara (nəzzələ) rolunu oynayan yerlərdə onu hökumət maliyyələşdirə bilərdi. Lakin, orta əsr müəlliflərinin qeyd etdiklərinə görə, belə iqamətgahlar da sonda sufilərin təsiri altında olurdu, belə ki, səyahətçilərin çoxu sufilər olurdu. Sufilər çox razılıqla uzaq iqamətgahlarda qalırdılar, çünki onlar orada maneəsiz olaraq öz kollektiv həqqaya getmələrini (zikr, səm'a) həyata keçirirdilər, (şəhərdə) isə bu şəhər fəqihləri tərəfindən çox sərt qarşılanırdı. Sufilərin və ya mərabutların Z.-sini tez-tez «dünyəvi» adamlar ziyarət edirdilər, onlar «ilahi bərəkətlə» eyni cəmiyyətdə olmaq ümidi ilə hədiyyələr gətirirdilər, hesab edildiyi kimi bərəkət sufi «müqədddəsi» (vəli) və ya şərifinin məqbərəsindən gəlirdi. Onlardan bəziləri (dünyəvi adam) uzun müddət Z.-də qalıb «dinləyici» (tələbə) olurdular. Yeni Z.-nin tikilməsi qardaşlığın «missioner» (xeyriyyəçilik) fəaliyyətinin əsas üsulu idi. Güclü qardaşlıqların eyni zamanda əhəmiyyətli dərəcədə böyük olan ərazilərdə yerləşdirilmiş yüzə qədər iqamətgahları var idi. Mərkəzi Z.-də yerləşən qardaşlığın başçısı yerli Z.-lərin şeyxlərini və ya müqəddəmlərini təyin edirdi, onlar qeyd-şərtsiz ona tabe idilər. Ərazisində hər hansı bir qardaşlığın Z.-si yerləşən köçəri tayfa orada yaşayanlara torpağı əkib-becərməyə və məhsulu yığmağa kömək edirdi. Artıq ərzaq və başqa gəlirləri mərkəzi Z.-yə göndərirdilər. XIX əsrdə sufi iqamətgahları Avropa müstəmləkəçilərinə qarşı mübarizənin mərkəzlərinə çevrildi. Onlar düşmənin hücumunu saxlaya bilən kiçik qollara çevrilirdilər.

Bütövlükdə Z.-lər eyni zamanda dini məktəb, namaz qılıb, dua edilən yer və qəriblərin qonaq qalan yeri, lazım olanda isə qala rolu oynayırdı. Z.-lərin xristian monastırları ilə uyğunluğu haqqında bir çox müsəlman müəllifləri, xüsusilə də İbn əl-Cövzi (XII əsr) və İbn Bətutə (XIV əsr) qeyd

etmişlər. Sufi iqmatgahlarının həyat və adətləri sünni fəqihləri tərəfindən tənqid obyektinə çevrilmişdilər, onlar orada «icazəverilməz yenilik» (bid`ə) nöqsanı və hər şeyin mümkünlüyü beşiyini, xristianların təqlidi və s.-ni görürlər. Bu ondan irəli gəlir ki, Z. institutu sufiliyin kütlələrə təsirinin keçiricisi rolunu müvəffəqiyyətlə oynayırdı. Sufiliyin əleyhədarları etiraf edirdilər ki, sufi iqamətgahları məscidlərlə rəqabət aparırdılar. Məğrib tarixinin ayrı-ayrı vaxtlarında, mərkəzi hakimiyyət zəifləyəndə Z. şeyxləri böyük vilayətlərin tam hakimi olurdular.

Z.-lərin savadlılığın yayılmasında, onların köçəri tayfalar arasındakı ixtilaflardakı sülhməramlı missiyalarını çoxlu Avropa tədqiqatçıları və səyahətçiləri qeyd etmişlər.

Çoxlu Şimali Afrika Z.-ri Fransa və İtaliya müstəmləkəçiləri tərəfindən dağıdılmışdır. Bizim günlərimizdə müsəlman aləmində onların təsiri o qədər də böyük deyil (bax: ribat, xanəgah).

**Ədəbiyyat:** İslam, 72; İbn əl-Cövzi. Təlbis, 175-176; Шмидт. Абд-ал-Ваххаб, göstər; Dozy. Supplement, 1, 615-616; Rinn. Marabouts; G.Narçais. Les monuments arabes de Tlemsen. P., 1903; yenə o. Notes sur es ribats en Berberie. – Melanges R.Basset. P., 1925, 396-430; Bel. Religion, 351-356, 364-373; Nwyia. İbn `Abbad, İndex.

**Zeyd b. Əli** – beşinci şiə imamı Məhəmməd əl-Bağırın (vəf.732-ci il) qardaşı – şiə məzhəbinin əsas qollarından biri zeydilər (əz-zeydiyyə) –nin banisi. «Peyğəmbər ailəsinin» nəslindən olduğuna görə imamətliyə haqqı olan Z.b.Ə. 739-cu ildə Kufədə əməvilərə qarşı üsyana başçılıq etdi. Məhəmməd əl-Bağırın fəaliyyətsizliyindən narazı şiələr enerjili Zeydin ətrafında toplanıb, onu imam kimi tanıdılar. Lakin on aydan sonra üsyan yatırıldı, Z.b.Ə. özü 6 yanvar 740-cı ildə döyüşdə həlak oldu. Onun meyyiti Kufədə xaç üzərində çarmıxa çəkildi, kəsilmiş başı isə Dəməşqə xəlifə Hişama göndərildi. Z.b.Ə.-nin həlakından sonra onun ardıcılları xüsusi dini-siyasi qrupa ayrılıb, Əli nəslindən olan imamın başçılığı altında teokratik (ruhani) dövlət qurmağa çalışdılar.

Z.b.Ə. imamətə öz iddiasını onunla əsaslandırırdı ki, əl-Həsən və əl-Hüseyndən sonra Əli və Peyğəmbərin (s) qızı Fatimənin nəslindən olan hər hansı bir şəxs imam ola bilər. İmamətliyə hüququ tanımaq üçün həlledici şərti o iddiaçının əldə silah tutaraq, çıxış etməsini hesab edirdi. Bu mənada Z.b.Ə. şiələrdənsə xaricilərə daha yaxın idi, şiələrin imamları, xüsusilə də Cəfər əs-Sadiq (ə) silahlı çıxışlardan çəkindirirdi.

Mötəzili məktəbinin yaradıcılarından biri olan Vasil b. Atanın (vəf.748-ci il) şagirdi olarkən Z.b.Ə. mötəzililərin imamətin «geridə buraxılmış» ən ləyaqətli - afdal (Əli nəzərdə tutulur) olduğu vaxt (məfdul) (Əbubəkr və Ömər nəzərdə tutulur) olduğunun mümkünlüyü haqqında təlimini qəbul

etmişdi. Onun əl-qədər haqqında görüşləri mötəzili görüşləri ilə oxşar idi. Bu şərait onun (Z.b.Ə.-nin) mötəzili görüşlərini ardıcılları arasında yaymağa kömək edirdi. Zeydilər hesab edirlər ki, zeydilər hüququnun əsasında qoyulan hüquq qaydaları məcmusunun (məcmu əl-fiqh) yaradıcısı Z.b.Ə.-dir.

**Ədəbiyyat:** İslam, 72-73; əl-İsfəhani. Məqatil, 86-102; аш-Шахрастани. Книга о религиях, 137-139.

**Zeyd b. Sabit (təxm. 615-təxm. 665) -** Məhəmmədin (s) katib-mirzəsi, Quranın yazılı mətninin tərtibçisi. Xəzrəc nəslindən olan Yəsribli Z.b.S. Məhəmmədin (s) Yəsribə köçməsinə qədər Quranın bir neçə surəsini əzbər bilirdi. Sonra o Məhəmmədin (s) mirzəsi oldu, ondan gələn bir neçə «vəhyi» yazıb, onun məktublaşmalarını aparırdı. Suriya dilində yazır, arami dilini, ola bilsin qədim yəhudi dilini də bilirdi.

Məhəmməd peyğəmbərin (s) vəfatından sonra xəlifə Əbu Bəkr və Ömər ona Quranın tam yazılı mətnini tərtib etməyi tapşırdılar, sonra onlar səhifələrə (suhuf) yazıldı. Z.b.S. Quranın tərtib edilməsində öz şəxsi biliklərini (hesab edirdilər ki, o bütöv Quranı əzbər bilir), Məkkə və Mədinədə mövcud olan ayrı-ayrı hissələr və ayələrin qeydlərini və həm də Məhəmməd peyğəmbərin (s) sirdaşlarının əzbər bildiklərini cəlb etmişdi.

Xəlifə Osman vaxtında, birbaşa 650-ci ildən sonra Z.b.S.-ə üç məkkəli - Abdulla b. Zübeyr, Səad b.əl-As və Əbdürrəhman b. əl-Harislə birlikdə Quranın rəsmi yazılı mətnini tərtib etmək tapşırıldı, xəlifə onu bütün müsəlmanlar üçün yeganə düzgün və məcburi elan etdi. Bu mətnin əsasında (mushaf) əsasən Z.b.S. tərəfindən yazılmış mətn durur və işin əsas icraçısı məhz o olmuşdur. O, həm də mülkiyyətin (fəraid) bölünməsi qaydalarının bilicisi sayılırdı. Z.b.S. Ömər vaxtı nəsillərin divanını tərtib edənlərdən biri idi, Yərmukdə əldə edilən qənimətin bölünməsinə başçılıq etmişdi, Osman vaxtı Mədinənin qazisi və xəlifə xəzinədarı olmuşdu.

**Ədəbiyyat:** İslam, 73; İbn Saad. Təbəqat, 2/2, 115-117; İbn əl-Əsir. Əsərləri. 2, 221-223; İbn Hacər. İsabə, 3, 399; Nöldekc. Geschichte, 2, 54; Blachere. İntroduction, 27-34, 52-70; A.J.Wensinck. Zaid b. Thabit. – EI, 4, 1194-1195.

**Əz-Zeydiyyə – zeydilər,** Zeyd b. Əlinin imamətliyini qəbul edən, daha «mülayim» şiə qollarından olan dini-siyasi qrupların ümumi adı. Zeydi cərəyanının şiə hərəkatının ümumi məcrasından ayrılması VIII əsrin 30-cu illərinə təsadüf edir, bu vaxt şiə imamlarının siyasi passivliyindən narazı olan Kufə şiələrinin bir hissəsi imamətə öz hüququ olduğunu qılıncla sübut etmək istəyən Zeyd b. Əlinin cəhdini dəstəklədi. Üsyan dağıldıqdan, Zeyd b. Əlinin (740-cı il) və sonra onun oğlu Yəhyanın həlakından sonra Z. bir

neçə qrup və ya icmaya parçalandı, onlardan ən məşhurları caruilər (və ya surxubilər), butrilər (və ya salihilər) və süleymanilər (və ya cəririlər) idilər. Bütün Z. onda eyni fikirdə idilər ki, Peyğəmbərdən (s) sonra imamətə «ən layiqlisi» Əli ibn Əbu Talibdir.

Əl-Həsən və əl-Hüseyndən sonra imamət Əli və Fatimənin nəslində qalır və «zülmkarlara» (daha doğrusu şiələrin nəzərincə qanunsuz hökmdarlara) qarşı çıxmaq əl-Həsən və əl-Hüseyndən sonra hər həqiqi möminin borcudur. İmamətliyin qanuniliyi meyarına gəlincə bu məsələdə Z. arasında bir rəy yox idi. Əksəriyyət (birinci növbədə Zeyd b. Əli üsyanının fəal iştirakçıları olan caruilər) hesab edirdilər ki, imamın tanınması şərti onun imamət üçün mütləq açıq çıxış etməsi vacibdir. İcmaya rəhbərlik eləməyə lazım olan bilikdə «Peyğəmbər ailəsi üzvləri» eynidir tezisindən çıxış edən Z.- caruilər belə nəticəyə gəldilər ki, imamətə iddiaçının «layiqli»liyinin obyektiv və həlledici göstəricisi onun əldə silah, yüksək hakimiyyətə öz hüququ olduğunu sübut etməyi bacarmasıdır. Z.-in başqa bir hissəsi (xüsusilə süleymanilər) belə rəyin tərəfdarı idilər ki, hətta iki nəfərdən, lakin tərbiyəli müsəlmandan ibarət olan imamı «məclis» (şura) seçməlidir. Z.-rin öz aralarında və onlarla başqa şiələr arasındakı fərq ilk xəlifələrə olan münasibətdə idi. Butrilər (salihilər) imaməti «keçmiş» qəbul edərək, Əbubəkr və Ömərin hakimiyyətini qanuni sayırdılar. Caruilərsə Zeyd b. Əlinin özünün rəyinə əks olaraq onların hakimiyyətini qeyri-qanuni, onlara and içənləri isə imansız adlandırırdılar. Z.-lər arasında ən çox «mülayim»ləri butrilər idilər, onlar Osmanı imansızlıqda günahlandırmırdılar, (caruilərin bir hissəsinin əksinə olaraq) ölülərin Qiyamət gününə qədər qayıdacaqlarını qəbul etmirdilər, «Peyğəmbər ailəsinin» fövqəladə bilikli olmaları haqqında tezisi rədd edirdilər.

Z.-in ilahiyyatçı baxışları əhəmiyyətli dərəcədə mötəzili ilahiyyatçıların təsiri altında formaldaşmışdı, baxmayaraq ki, erkən mərhələdə onların Allahın mahiyyəti, ilahi atributlar, iman və imansızlıq, alın yazısı və iradə azadlığı münasibətləri haqqındakı fikirləri müxtəlif idi. Z. hərəkatının siyasi müvəffəqiyyəti onlar arasında olan ziddiyyətləri həll etməyə və onların öz xüsusi ehkamlar sistemini hazırlamağa imkan verirdi. Ehkam məsələlərində Z. bütün şiələrdən ən «mülayim» mövqe tuturdular, onlar sünnilərə qarşı dini dözümlülük göstərirdilər. İmamətə zeydi baxışı sünni baxışları ilə uyğun gəlir. İmamın Əli nəslindən olmalı olduğunu qəbul edən Z. imamətin ilahi təbiətini rədd edib, hesab edirdilər ki, imam əldə silah açıq çıxış edən hər bir Əli tərəfdarı ola bilər. Bundan əlavə, onlar (xaricilər kimi) müxtəlif müsəlman ölkələrində eyni vaxtda bir neçə imamın olmasını qəbul edirdilər. Başqa şiələrin, birinci növbədə imamilərin əksinə olaraq, onlar «gizli» imam, öz imanını «ağılla gizlətmək» (ət-təqiyyə), «ilahi rəyinin dəyişməsi» (əl-bədə`) haqqında təlimi qəbul etmirdilər. Onlar

antropomorfizmi və şərtsiz qabaqcadan təyin etməni rədd edirdilər. Bütün bunlar sünni islamının Z.-ə loyal münasibətinin əsasını təşkil edirdi, baxmayaraq ki, onlar silahlı çıxışlarını siyasi prinsipə qaldırmışdılar. Bir neçə dəfə xalq hərəkatının başında duran Z.-nin siyasi fəaliyyəti xilafətin müxtəlif tərəflərində bir neçə zeydi dövlətinin yaranmasına gətirib çıxartdı: Şimali Afrikada İdrisilər dövləti (789-926), Yəməndə (901-1062) və Təbəristanda Zeydilər dövlətləri (863-64-928). Hazırda Z.-in çox hissəsi Şimali Yəməndə cəmlənmişlər, orada onlar əhalinin çox hisəsini təşkil edirlər. Z. icmaları Cənubi Yəməndə, Səudiyyə Ərəbistanında, Pakistanda və başqa ölkələrdə də vardır.

**Ədəbiyyat:** İslam, 73; ən-Naşi əl-Əkbər. Məsail əl-imamə, 42-45; ан-Наубахти. Шиитские секты, 153-155; əl-Əş'əri. Məqalat, 67-75; аш-Шахрастани. Книга о религиях, 136-143; R.Strothmann. Das staatsrecht der Zaiditen. Strasburg, 1912; W.Medelung. Der İmam əl-Qasim ibn İbrahim und die Glabenslehere der Zaiditen. B., 1965; yenə o. İmama. – EI, NE, 3, 1193-1995.

<u>**Zeynəb bint Əli b. Əbi Talib**</u> - Peyğəmbərin (s) nəvəsi, onun qızı Fatimeyi Zəhranın qızıdır. Rəsulullahın (s) vəfatından təqribən beş il əvvəl doğulub. Zeynəb ağıllı, gözəl danışıq qabiliyyəti olan bir qız idi. Atası onu əmisi oğlu Abdulla b. Cəfərlə evləndirdi. Ondan Z.-in Əli, Abbas, Ummu Kulsum və Ovn əl-Əkbər adlı uşaqları oldu. Z. anası Fatimeyi Zəhradan və Əsma bint Umeysdən hədislər söyləmişdir. Z.-in özü haqqında isə Məhəmməd b. Amf, Atat b. əs-Saib və Fatimə bint Hüseyn b. Əli hədislər söyləmişlər.

Z. qardaşı Hüseynlə Kərbəlayə gəlmişdi. Hüseyn Kərbəlada çadırları (xeymələr) quranda çuxur yerdə qurmağı tapşırdı. Z. soruşdu ki, qardaş, biz Məkkədən bura gələrkən yol boyu çadırları yüksəkliklərdə (sərin olmaq üçün) qurdururdun, burda niyə çökəklikdə qurdurursan? İmam Hüseyn gərgin bir şəslə bacısına dedi: Qoy arvad-uşaq bizim necə əziyyətlə şəhid olduğumuzu görməsinlər. Hazırda Kərbəlada İmam Hüseyn məscidinin (imamın məqbərəsi məscidin içərisindədir) cənubi-qərb qapısı xanım Z. məqamına açılır. Z. xanım orada təpə (təll) üstə durub döyüşü izləyirmiş (Ondan bir az şimalda isə çökək yerdə - o vaxtkı xeymələr quurlan yerdə (xeymələri əks etdirən) tikintilər tikilib: İmam Hüseynin ailəsinin xeyməsi, Səccadın kiçik namaz qılan yeri, Qasim otağı və s.) Döyüş 72 adam (imam Hüseyn və ən yaxın adamları) şəhid olandan sonra qurtarır, qalanları da əsir tutub (Z.-də onlarla) Dəməşqə - Yezidin hüzuruna aparırlar. Z. xanım İbn Ziyad və Yezidə utandırıcı sərrast cavablar verib, bacısı Fatiməni ərəb əyyaşın əlindən və qardaşı oğlu Zeynulabidini ölümdən xilas edir.

**Ədəbiyyat:** İbn İshaq. Siyər, İstanbul, 1988, 314.

**Zəhəbiyyə** - 1. Sonrakı fars mənbələrində bütün kubraviyyə qardaşlığının adı.

2. Məşhədi Şihab əd-din Abdulla Bərzişabadi tərəfindən XV əsrin 30-40-cı illərində Xorasanda yaradılan, müstəqil şiə qardaşlığı kimi təşkil olan kubraviyyə qolu. Z.-nin ruhani şəcərəsi Məruf əl-Qarhi (vəf. 816-cı il), əl-Cüneyd əl-Bağdadi (vəf. 910-cu il), Nəcməddin əl-Kubra (1145-1221) və İshaq əl-Huttəlani (1423-cü ildə öldürülüb) vasitəsilə səkkizinci imam Əli ər-Rzaya gedib çıxır və qardaşlıq əl-Cüneydin «ayıqlıq haqqında təlimini» dəstəkləyirdi. Əvvəl kənd, sonra şəhər qardaşlığı olan Z. İran sərhəddindən kənara çıxmamışdı.

Z.-nin tarixi iki mərhələdən ibarətdir: bunlardan birincisi yarandığından qardaşlığın axırıncı başçısının (qütb), silsiləyə rəhbərlik etməyə rəsmi surətdə investitura almış, şəcərəsi Z.-nin banisinə gedib çıxan, 1785-ci ildə vəfat edən Ağa Məhəmməd Haşimi Dərvişi Şirazinin ölümünə qədər olan mərhələdir. Yazılı qaydalara (ənənələrə) görə kubravi İshaq əl-Huttəlani həlak olmazdan əvvəl xəlifələrin başçısı (xəlifətü-l-xuləfə) mənsəbinə Nurbəxş adlanan seyyid Məhəmməd b. Məhəmməd əl-Əxsaini (1392-1464) təyin etmişdi. Onun qolunun müridlərinin çoxu bu qərara tabe oldular, az bir hissəsi buna əks çıxıb xəlifətü-l-xuləfə kimi Abdulla Bərzişabadini tanıdılar. Bu parçalanma nəticəsində iki müstəqil şiə qardaşlığı – nurbəxşiyyə və zəhəbiyyə yarandı. Mənbələrə görə Z.-nin özünə ad qoyması onun yaranmağından əhəmiyyətli dərəcədə gec olmuşdur. Nurulla Şüştəri (1547-1610) Z.-nin adqoymasını bilmirdi və o müşahidə etmişdi ki, Xorasanda Bərzişabadinin tərəfdarlarını sufi adlandırırlar, Nurbəxşin tərəfdarlarını isə nurbəxşiyyə adlandırırlar. Adqoymanın meydana gəlməsinin bir neçə şərhi mövcuddur. Çox güman ki, o, silsilət əz-zəhəb («qızıl zəncir») istilahından götürülmüşdür, onunla şiə imamlarının varislik silsiləsini qeyd etdikləri kimi, Z. rəhbərlərinin ruhani silsiləsini də qeyd edirdilər. Qardaşlıq Xorasandan bütün İrana yayıldı, XVIII əsrdən Z.-nin rəhbərinin əsas zaviyə və iqamətgahı Şirazda yerləşirdi.

İkinci mərhələ – XVIII əsrin axırından bizim günlərimizədəkdir: Z.-nin ruhani silsilə rəhbəri kimi birbaşa investitura almayan, lakin onun yuxusuna girən Əli ər-Rzanın istəyinə əsaslanaraq özünü Z.-in başçısı elan edən Ağa Mirzə Əbdünnəbi Şirazidən (vəf. 1815-ci il) tutmuş Z.-nin 36 (və ya 34)-cı qütbü Ağa Mirzə Cəlaləddin Məhəmməd Şərif Məcdül-Əşrəfə (vəf. 1913-cü il) qədər. Ona iki xətt gedib çıxır: a) Şərifilər, bu xəttin 4-cü qütbü Hacc Şəmsəddin Pərvizidir, iqamətgahı və əsas hücrəsi Şirazdadır; b) bu xəttin (1963-cü ildən) 3-cü qütbü vahidül-övliya Gəncəviyandır; Əhmədiyyə iqamətgahı və zaviyəsi Şirazdadır. Qardaşlığın rəsmi adı – Tariqe-yi Aliyə Zəhəbiyyə Mustafaviyyə Murtazaviyyə Ridaviyyə Məhdaviyyə Kubraviyyədir.

XIX əsrin ikinci yarısından başlayaraq Z. öz baxışlarının yayılmasında və üzvlərin ələ alınmasında fəallığı ilə əhəmiyyətli dərəcədə fərqlənirdi. XX əsrin 70-ci illərində onun 3 minə yaxın üzvü var idi və Şirazdakı mərkəzlərlə yanaşı Tehranda da xanəgahı var idi.

Z. Əli b. Əbi Talibin ibadətini dəstəkləyərək hesab edir ki, Peyğəmbərin (s) və «müqəddəsin» ipostası onda cəmlənib və öz keyfiyyətlərinə görə o, Məhəmməddən (s) üstündür; elə bu qədər cəhdlə də, onlar «gizli» imamı tanıyırlar. Şəriətin qaydalarının ciddi surətdə yerinə yetirilməsi – onlar üçün sufilik yolu ilə dərketmənin əsasıdır. Buna görə də Z.-də şeyx-rəhbərin şəxsiyyəti başqa qardaşlıqlarda olduğu kimi o qədər də əhəmiyyətli deyil. O, əsasən neofitlərin yuxularını və qarabasmalarını şərh edir. Z.-nin fəaliyyətdə olan qütbü natiq adlanır; təkcə o özü mistik kəşflərdə olan gizli mənanı şərh etmək hüququna malikdir. Onun əvəzinə gəlib, onun yerini tutanı samit adlandırırlar (ismaililərdə ancaq islahatlar götürülüblər, onların mənası yox). Z.-nin rəyinə görə imamlar və bəzi peyğəmbərlər Allah tərəfindən onlara verilən vilayət-i şəmsi və ya vilayət-i külliyyəyə, daha doğrusu hələ doğulmamışdan onlara qoyulan tamamilə səhvsiz biliyə malikdirlər. Z.-in rəhbərləri (əktəb) öz növbələrində vilayət-i kəməri və ya vilayəti-i süziyə malikdirlər, çünki onlar ay günəşin şüalarını əks etdirdiyi kimi, «gizli» imama xas olan gizli biliyi əks etdirirlər, deməli onlar o şəxsin cövhəridirlər ki, onlara onun adından insanlara doğru yol göstərməyə müstəsna hüquq verilmişdir.

Z.-də yüksək (cəlı) kollektiv zikr olduğu kimi, fərdi və fikri zikr (xəfi) də istifadə olunur. Z.-nin təlimi asta və ya dinməz zikr vaxtı (surət-i fikriyyə) rəhbərin və ya qütbün surətini xatırlamağı qəti qadağan edirdi, fikirdə imam Əli ər-Rizanın (ə) surəti canlanmalı idi. Bu surət uzun müşahidə nəticəsində və zikr yerinə yetirilən vaxt kəşf kimi deyil, zikr edəndən sonra yatan vaxt yuxu görmək kimi olmalıdır. Buna görə Z.-də yuxu görməyə və rəngli-işıqlı rəmzə xüsusi əhəmiyyət verilir.

Z. xəlvətə çəkilmək və oruc tutmaq üçün ildə iki qırxgünlük (ərbəin) keçirir: Hüseynilər 11 məhərrəmdən 21 səfərədək və Musəvilər isə – 1 zi-l-qədədən 10 zi-l-hiccəyə qədər. Bundan başqa Z.-nin bəzi üzvləri əlavə olaraq rəcəb, şaban, ramazan aylarında (7, 8 və 9-cu qəməri aylarında) və ya hər ay üç gün (birinci, on beşinci və axırıncı günlər) oruc tuturlar. Z.-nin dərvişi saqqal saxlamır və uzun bığ qoymur, rastlaşanda və kollektiv zikr vaxtı bir-birinin əlini sıxmaq qəbul olunub (hüzn günləri istisnalıq təşkil edir). Z. üzvünə (hər hansı bir zikr vaxtı) dilənmək və qızışdırıcı (təsirləndirici) vasitələrdlən istifadə etmək qəti qadağandır. Qardaşlığın rəmzi – «Ya Əli» ibarəsidir, o, iki dor ağacı olan yelkənli gəmi şəklində yazıdır. Nuhun gəmisinin alleqoriyasıdır, yelkəndə onun haqqında hədisin mətni yazılıb.

**Ədəbiyyat:** İslam, 75-76; əş-Şüştəri. Məcalis, 151a – 152b; Şirvani. Bustan, 323; Məsum-Əlişah. Təraiq, 2, 137, 154; Müdərris. Reyhanət əl-ədəb, 2, 283, 5, 184-185; Müdərrisi. Silsiləha, 148-178, Gramlich. Derwischorden, İndex; Mole. Les Kubrawiya, 126.

**Zəkat** – imkanlı müsəlmanlardan imkansız müsəlmanların xeyrinə (müsəlman qanunları ilə tənzimlənən) alınan vergi. Müsəlman hüquqşünasları bu istilahı «təmizlənmə» kimi şərh edirlər (vergisi ödənən – «təmizlənən» mal-dövlətdən istifadə edilməsi günahsızdır). Avropa tədqiqatçıları onda qədim yəhudi dilindəki zəkutla («səxavətli») eyniyyət görürlər; sözün orfoqrafiyası (uzun a-nın vavla verilməsi) onların əlaqəsi olduğunu bildirir, lakin onun suriya dilindən xristian ərəblər vasitəsi ilə keçməsi də istisna deyil. Genetik cəhətdən Z. əldə edilmiş qənimətin bölünməsi və tayfanın bir növ qarşılıqlı yardım «fondunun» yaradılması islamaqədərki tayfa adəti ilə bağlıdır.

Məkkə surələrində Z. xeyirxah iş, maddi kömək, ehsan kimi bildirilir. İcmanın imkansız üzvlərinin xeyrinə vaxtaşırı vergi yığılması çox güman, birbaşa hicrətdən sonra həyata keçmişdir. Lakin, yardım almağa hüququ olanların siyahısının ancaq vaxta görə axırdan əvvəlki surədə (9:60) gəldiyinə görə əhəmiyyətli dərəcədə zəkat miqdarı ilk dəfə bədəvilərlə müqavilə bağlayandan sonra daxil oldu (630-cu il, Məkkəyə daxil olandan sonra). Onlardan alınan zəkatın miqdarı görünür, vahid prinsipə görə deyil, hər dəfə ayrı-ayrı alınırdı.

Məhəmməd peyğəmbərin (s) vəfatından sonra Z. verməkdən boyun qaçırılması ər-riddənin səbəblərindən biri oldu. Z.-ın nizama salınması yəqin ki, I Ömərin hökmranlığının əvvəlinə aiddir.

Z.-ı ancaq yaşlı, imkanlı müsəlmanlar ödəyirdilər: 1) əkin yerlərindən; 2) üzümlüklər və xurma bağlarından (bostan məhsulları haqqında fikirlər müxtəlifdir); 3) mal-qaradan; 4) qızıl-gümüşdən; 5) əmtəə-maldan. Əkin məhsulunun Z.-a düşən minimum nisbəti 5 vask (975 kq)-dır, 5 dəvə, 20 inək, 40 qoyun (atlar və qullara görə Z. ancaq onlar satılanda verilirdi, qızıl və gümüş – 20 dinar və ya 200 dirhəm, əmtəəyə-uyğun gələn qiymət. Kiçik əyarlı sikkələr onlarda olan qiymətli metalın həcminə görə qəbul edilirdi. Qadın bəzəkləri, silahların qızıl və gümüş bəzəkləri hesaba alınmırdı (onlardan Z. alınmırdı).

Əkinçilik məhsullarından 1/10 qədər Z.yığılması məhsul yığılan kimi həyata keçirilirdi, qalanlarından isə 1/40 qədər təqvim ili başa çatana qədər yığılırdı. Yığılan məbləğ qazinin sərəncamında olurdu və il ərzində və ancaq onun yığılacağı əyalətdə bölünürdü; ancaq qazi üçün müəyyən olunan şeylər istisnalıq təşkil edirdi. Z.-dan yardım almaq hüququ aşağıdakılara aid idi: imkansızlar, kasıblar, zəkat toplayanlar, mükafata layiq

şəxslər (çox qeyri-müəyyən kateqoriya), mükətəblər, borclarını qaytara bilməyənlər, qazilər, evlərinə qayıtmaq üçün vəsaiti olmayan müsafirlər.

Z. vaxtaşırı olaraq, tam onunla uyğun gəlməsə də, sədəqə – «könüllü ianə» kimi qeyd edilirdi. Əkinçilik məhsullarından verilən Z. çox vaxt 'üşr - 1/10 adlanırdı, güman ki, o, qazinin sərəncamına daxil olmurdu, lakin bu məsələ hələ tədqiq edilməlidir, eyni ilə bəzi qanunçuların təsdiq etdiyi kimi, xərac torpağı olan müsəlman ondan Z. - 'üşr verməlidir. Görünür Z. sayılan qızıl, gümüş, qiymətli daş-qaşlar istehsalı, dəniz məhsulları və dəfinələrin beşdəbir hissəsi (xums) də adətən dövlət xəzinəsinə daxil olurdu. Çox vaxt Z. mənasında mal-qara, pul və əmtəədən alınan vergi nəzərdə tutulur.

**Ədəbiyyat:** İslam, 74; Əbu Yusuf. Əl-Xərac, 90-94; əl-Mavərdi. Əl-Əhkam, 195-217; J.Schacht. Zakat. – EI, 4, 1302-1304.

**Zəkəriyyə – Quran surəti** (salihun) möminlərindən biri, Yəhyanın atası, İncildəki Zaxariya (İoan Krestitelin atası). Quranda yazılana görə Z. püşklə Məryəmin tərbiyəçi – qəyyumu seçilir, o, görür ki, Məryəmin otağında hər gün kimsə tərəfindən göndərilmiş təzə meyvələr olur. Soruşur ki, ya Məryəm, bu belə hardandır? Məryəm deyir ki, bu Allahdandır, o istədiyinə hər şey verir. Onda Z., Allahdan ona oğul verməyə yalvarır: «İlahi! Mənim sümüklərim zəifləyib, saçım ağarıb, mən Sənə müraciətimdə naumid olmamışam. İlahi! mən, məndən sonra gələn yaxınlarımdan qorxuram, arvadım isə dogmayandır; Mənə Özündən varis ver!» (Q. 19:4/3-5). Z.-nin yanına mələklər gəlib dedilər ki, sənin Yəhya adlı oğlun olacaq, Z. tərəddüt etdi, ona işarə verildi. O, üç gün danışmaq imkanından məhrum olundu və (ancaq) işarələrlə başa salırdı (Q. 3:37/32 – 41/36; 6:85; 19:1-15; 21:89-90).

Qurandansonrakı rəvayətlərdə Məryəmin qəyyumu üçün necə nüşk atıldığı və necə püşk Z-.yə düşdüyü danışılır. Qızın otağında (fəsildən asılı olmayaraq) qışda yay, yayda isə qış meyvələri peyda olurdu: bu Z.-nin ümidini gücləndirdi. Üç günlük lallıq ona Allahın işarəsi kimi verilmişdi. Oğlu həlak olandan sonra təqibçilərdən ağacın koğuşunda gizlənir, lakin onu İblis ələ verir. Düşmənlər ağacı kəsib, onu Z. ilə birlikdə mişarladılar.

Quran hekayəsi sanki İncildəkinin davamıdır (Zuka 1, 5-25), onun əsas meyarı Allahın hər şeyi bacaran olması və Onun təbiət üzərində hakimiyyəti olmasıdır. Bu hadisə Məkkə və Mədinə surələrində də ətraflı izah olunur, lakin Yəhyanın İsanın Mədinədəki misiyası haqqında xəbərçisi rolu çox qeyd olunur. Hadisənin sonrakı detalları İncil və xristian rəvayətlərinə əsaslanır. Z. haqqında bölməyə bir neçə motiv yəhudi rəvayətlərindən – başqa Zaxariya – Bibliya peyğəmbəri haqqında olandan düşüb. Məgər bütün səmavi kitabların hamısının mənbəyi Allahdan deyilmi? Niyə

Məhəmməd Peyğəmbər vəhylə aldıqlarını İncil və ya Tövratdan götürməli idi?

**Ədəbiyyat:** İslam, 74; ət-Təbəri Tarix. 1, 711-713; yenə o. Təfsir, 3, 165-179, 16, 32-45; əs-Sə'ləbi. Qısas, 209-217; əl-Beydavi. Təfsir, 1, 153-155; 576-577; B.Helber. İslamische Jesaja-Legende. İslamische Zachariya – Legende. - MG WJ. 1936, 53; yenə o. Zakariya. – EI, 4, 1301-1302.

**Əz-Zəməxşəri** - Cərullah (hərfən Allahın qonşusu «Allahın yanında olan», «Allah tərəfindən himayə olunan») və Fəxr Xarəzm (Xarəzmin Fəxri) adlanan mötəzili ilahiyyatçısı, hənəfi məzhəbinin hüquqşünası, filoloq və ədib Mahmud b. Ömər Əbu-l-Qasim (1075-1144) Zəməxşər şəhərində varlı olmayan ailədə doğulmuşdur, savadı və Quran oxumağı atasının rəhbərliyi altında öyrənmişdir. İbtidai məktəbə də (kuttəb) getmişdir, hələ uşaq ikən onun sınmış ayağını kəsmişdilər və o taxta protezlə gəzirdi. Atası qərara aldı ki, əlil oğul dərzilik sənətini öyrənməlidir, lakin yeniyetmə «şəhərə», daha doğrusu Xarəzmin paytaxtı Qurgəncə getməyə icazə verməyi xahiş etdi, orada o, yaxşı xətti olduğuna görə əmək haqqı yeri tapdı. Əz-Z.-nin qalan bütün həyatı Qurgənclə (onun dağıntıları Kunə-Urqençənin cənub ətrafında yerləşir) bağlıdır, oradan o, hərdənbir xeyli müddətə hara getsə də, yenə də bu şəhərə qayıdırdı. O, orada da vəfat edib və dəfn olunub.

Qurgəncdə əz-Z.-nin müəllimləri Əbu Əli əl-Ə`mə (əl-Həsən b. Əl-Müzəffər ən-Neysəburı), İsfəhandan gəlmiş Əbu Mudar Mahmud b. Cərir əd-Dabbi (Qrammatikaçı) əl-Əcrumi (vəf. 1113) olmuşlar, sonuncu istedadlı şagirdinə təkcə ərəb dili və ədəbiyyatını öyrətmək deyil, ona maddi cəhətdən də kömək edirdi və əz-Z. onu daim təşəkkürlə yad edirdi, şeyx əl-Həyyati ona fiqhi öyrətdi, imam Rüknəddin Mahmud əl-Üsuli və Əbu Mənsur ilahiyyatı öyrətdilər (bu sonuncu iki nəfər tezliklə özləri əz-Z.-nin təfsir üzrə şagirdləri oldular.

Artıq gənc yaşlarında əz-Z. bir neçə filoloji əsər yazmışdı və o, öz xidmətlərini Səlcuq sultanları sarayındakı görkəmli əyanlara təklif etmişdi, o, öz mədhiyyə qəsidələrini onlara göndərirdi. Məlumata görə o, çox güman ki, Xarəzmşahlar sarayında qırx ildən çox bir müddətdə «vəzirlər və çarlarla oturub-durub və dünyanın nemətlərindən ləzzət alıb». 1133-cü ildə əz-Z. qorxulu (ağır) xəstəlik keçirir və həyat tərzini dəyişir, tənhalığa və pəhrizə keçir, boş vaxtını ədəbi işə və dərs verməyə sərf edir. O, iki dəfə həccə gedib, bir neçə il orada yaşayır və şərif İbn Bəhhasla dostluq edir. Həcc yolu o, Bağdad, Dəməşq və başqa şəhərlərdə olub, görkəmli alimlərlə (əd-Dəmğani, İbn əş-Şəcəri, əl-Cəvaliki) görüşmüşdür.

Xarəzm, Məvaraənnəhr və Xorasanda çoxlu filoloqlar, ədiblər və ilahiyyatçılar onun şagirdləri olmuşlar: Əbu-l-Müəyyəd əl-Müvəffəq b.

Əhməd əl-Məkki (Əxtab Xavarizm – Xarəzmin ən yaxşı xatibi), Əbdür-Rəhim b. Ömər ət-Tərcümani, Məhəmməd b. Əli-l-Qasim Bəycuk əl-Baqqali əl-Adəmi, Əbu-l-Həsən Əli b. Məhəmməd əl-Kumrani, Əbu Əmr Əmir b. Əl-Həsən əs-Simsar, Əbu Cə`d Əhməd b. Mahmud əş-Şati, Əbu Tahir Səman b. Əbdül-Məlik əl-Fəqih və s.

Əz-Z.-nin qalan əsərləri içərisində (təx. 20, adlarına görə tanınan təx. 50) kitabı qrammatika, leksikoqrafiya və ədəbiyyata aiddir: məhz ilahiyyata aid onun Qurana yazdığı Əl-Kəşşaf şərhini hesab etmək olar, o, onu 20 fevral 1134-cü ildə Məkkədə özünün yaradıcılığının kamil vaxtı başa çatdırdı. Bu əsərin açıq mötəzili meyli aşağıdakılarda görünür: girişdə Quranın xəlq edilmiş olduğunun qeyd edilməsi; əz-Z. əsasən İraq və İranın VIII-X əsrlərdə Əmr b.Übeyd, Əbu Bəkr əl-Əsamm, əz-Zəccac, əl-Cahiz, qazi Əbdül-Cabbar və bu kimi nüfuzlu mötəzili alimlərinə söykənir; təkallahlılığı (tövhid), Allahın adilliyini və başqa ilahi atributları əz-Z. raisonalist kimi şərh edirdi; o, Quranda guya mötəzililərin sevdikləri fikirlər olan Allahın «vəd» və «təhdidləri» (va′d), «a′ralığ hal» (əl-mənzilə beyn əl-mənziləteyn), «xeyr işlər görmək və bəyənilməyəndən çəkinmək göstərişi» haqqında yazılan yerləri tapmışdır; o, Quranın mətninin dəqiq filoloji şərhinə çox üstünlük verir ki, bu da mötəzililərə çox xasdır və o, bu şərhi özünün rəy mövqelərini əsaslandırmaq üçün istifadə edir. Əz-Z.-nin bu əsəri bizə gəlib çatan yeganə kamil mötəzili təfsiridir; onun ətrafında çoxlu tənqidi ədəbiyyat yarandı (təzədən işlənən mötəzili ideyalarından təmizlənən təkziblər); hətta əz-Z.-nin əleyhədarları da onun talantı və ardıcıllığına yüksək qiymət verildilər, onun dilçilik və stilistik müşahidələri yüksək tutulur və onun əxlaqi nüfuzu nöqsansız sayılırdı.

**Ədəbiyyat:** İslam, 74-75; M. əs-S. əl-Cüveyni. Mənhəc əz-Zəməxşəri fi təfsiri əl-Quran va beyn i′cəzihi. Qahirə, 1959; Б.З.Халидов. Замахшари (о жизни и творчестве) – Семитские языки. М., 1965, 2, 542-556; Б.З.Халидов, А.Б.Халидов. Библиография аз-Замахшари, составленная его современником ал-Андарасбани.- ППВ (ежегод.), 1973, 1979, 203-212; Ə.M. əl-Hufi. Əz-Zəməxşəri. Qahirə, 1966.

**<u>Zəmzəm</u> -** əl-Məscid əl-Həramın ərazisindəki (Kəbənin altında) müqəddəs quyu. Z. suyuna müxtəlif keyfiyyətlər aid edirlər: o xəstəliyi müalicə edir, aclıq hissiyatını yatırır, susuzluğu dəf edir və s. Möminliyin əsas nişanəsi möminin bükülərək qəbrə qoyulduğu kəfənin Z. suyunda isladılması və ya Z.-də (intihara səbəb olan) quyunun sularında ölmək sayılır (Əslində İslam intihara pis baxır). Mövcud olan baxışlara görə Z. müsəlman aləminin məşhur məscidlərinin yeraltı kanalları və quyuları ilə əlaqəlidir.

Z.- Məkkə və şəhər yaxınlığında olan bir neçə quyulardan biridir. Rəvayətə görə o, İsmailin (açdığı) bulaqdır. Z.-in əl-Kəbəyə yaxın olması

ona hələ İslama qədər xüsusi münasibət yaratmışdı. Müsəlman qaydaları Z. suyundan gələn bərəkəti qanuniləşdirdi. Rəvayət Z.-in tarixini İbrahim peyğəmbər tərəfindən səhrada qoyulan Hacərlə onun oğlu İsmailin çöllərdə avara qalmaları rəvayəti ilə bağlayır. Hacər su tapmaq ümidi ilə yeddi dəfə əs-Səfa və əl-Mərva dağları (təpələri) arasında o yan bu yana qaçır; oğlunun yanına qayıdanda orada bulaq qaynadığını, axdığını görür, onu Allahın əmrilə Cəbrail (ə) açmışdı. Sonralar unudulmuş Z. quyusu Allahın əmri ilə Məhəmməd peyğəmbərin babası Əbdül-Müttəlib tərəfindən açılmışdır, o, bununla Qüreys qəbiləsindən öz tayfası üçün Z. suyuna rəhbərlik etmək hüququnu (siqayə) qazandı.

Məhəmməd peyğəmbər (s) və «mömin» xəlifələr vaxtı Z.-in nüfuzu Əməvilər xilafəti vaxtı şübhə altına alındı. Əbdül-Məlik (685-705) müqəddəs Sabir dağında olan başqa mənbədən su götürməyə sərəncam verdi. Oradan dağ-dərə üzərindən Məkkəyə su kəməri çəkdilər. Bu yenilik düşmənçiliklə qarşılandı. Lakin ancaq 759-cu ildə Abbasi xəlifəsi əs-Səffahın əmri ilə Z.-in statusu bərpa olundu.

Z.-də yuyunmaq (dəstəmaz almaq), onun suyundan içmək hacc və ümrənin mühüm elementlərindəndir, Z.-lə bağlı olan xüsusi bir ibadət mövcuddur, o bütpərəst ibadətinin məhsuldarlıq kultuna gedib çıxır. Şaban ayının 13-dən 14-ə keçən gecə böyüklər və kiçiklərdən ibarət kütlə Z.-in ətrafına toplanırlar. Z.-in mühafizəçisi – saqi (əslində saqi su paylayan deməkdir) onları su ilə isladır (üstlərinə su atır). Bu vaxt onların hamısı ağlamalı və Allaha tərif deməlidirlər. Hesab edilir ki, bu vaxt quyunun suyu aşıb daşmalıdır.

Zəvvarlar çox vaxt zəm-zəmiyyə adlanan xüsusi qablarda Z. suyunu özləri ilə vətənlərinə aparırlar.

**Ədəbiyyat:** İslam, 75; Gaudefroy – Demombynes. Pelerinage, 26-71; B.Carra de Vaux. Zamzam. – EI, 4, 1212-1213.

**Zəvac («nikah bağlama»: sinonimləri nikah, urs)** - bərabərhüquqlu nikah. İslamda nikah qaydası islamaqədərki ailə-hüquq kompleksi əsasında yaranmışdır və İslamın ilk əsrlərində ətraflı surətdə işlənmişdir. İslamda nikah Allaha xoşgələn iş sayılır, belə ki, hər kəsə, hətta tam hüququ olmayan və bacarıqsızlara da nikah bağlamağa icazə verilir, onlar üçün bu məsələləri sahibləri, qəyyumları, vasitəçiləri həll edir. Müsəlman xristian və ya yəhudi ilə evlənə bilər, müsəlman qadın isə ancaq müsəlmana ərə gedə bilər. Nikah üçün məhdudiyyətlər çox azdır, lakin məsləhət görülür ki, nikahları kəsilənlər yaşca və ictimai vəziyyətlərinə görə uyğun olsunlar. Birinci nikahda bəzi ölkələrdə qızın razılığı tələb olunmurdu (təcrübdədə çox vaxt bunun əksi görünür), atanın və ya qəyyumun razılığı kifayət idi, dul və ya boşanmış qadın isə razılığı inanılmış adamı vasitəsi ilə özü verir. Evlənənlər arasında qan qohumluğu (yan xətlərlə) üçüncü dərəcədən yaxın olmamalıdır. Birbaşa

düzxətli qohumların evlənməsi isə ümumiyyətlə qadağandır. Süd qohumluğu (evlənərkən) ikidərəcəlidən yaxın olmamalıdır. Bu xüsusiyyət saxlandıqca qohumluğa bərabər tutulur. Öz qulu və ya kənizi ilə evlənmə qadağandır (lakin bəzən belə hallar olurdu), ağanın kənizi ilə yaşamasına (yatmasına) icazə verilir. Qullar arasında nikaha yol verildiyi kimi, başqasının qulları ilə nikaha da icazə verilir, ancaq bunlar ağanın razılığı ilə olmalıdır.

Z.- ın birinci mərhələsi razılaşma, elçilik (xitbə)-dir, burada oğlan özü və ya onun inandığı adam qızın atası, qəyyumu və ya inandığı adama niyyətini bildirir (təklif edir). Elə onda da nikah müqaviləsinə (siqə) ərin arvad üçün verəcəyi şeylər (mehr) və başda şərtlər haqqında razılığa gəlirlər. İkinci və üçüncü mərhələlər – gəlinin nişanlı oğlanın evinə ötürülməsi (zifəf) və toy şənliyidir (urs, valimə). Bu mərhələlər yerlərini dəyişə bilərlər, belə ki, qız hələ kiçikdirsə onun ər evinə köçürülməsi onun 13-15 yaşına çatmasına qədər təxirə salınır (əvvəllər bundan tez də olurdu). Valimə vaxtı siqə elan olunur, mehr və ya onun bir hissəsi (sadaq) ödənilir. Bütün bu mərhələlərdə birbaşa xərclər və gəlinə kompensasiyadan (mut'a) başqa Z. hər-hansı bir nəticə olmadan dayandırıla bilər. Axırıncı mərhələ – faktiki nikah əlaqələrinə girməkdir, bundan sonra Z. baş tutmuş hesab olunur. Z.-ın icbari şərti mehrin ödənilməsi, arvadın saxlanması və onunla onun ailəsinin ictimai vəziyyətinə uyğun dolanmaq tərzi, ər-arvadlıq borcunun yerinə yetirilməsi və uşaqların saxlaması hesab edilir. Bərabərhüquqlu nikahda olan arvadlar, daha doğrusu mehr ödənilənlər – dörd nəfərdən çox olmamalıdırlar. Buna görə də artıq dörd arvadı olan və yeni bir nikaha girmək istəyən kişi əvvəlki arvadlarının birini boşamalıdır. Nikahda olan arvad tam hüquqi səlahiyyətini saxlayır, ərin onun mülkiyyətinə heç bir hüququ yoxdur və ər arvadın işlərini ancaq onun inandığı şəxs kimi apara bilər.

Z. ənənəsi evlənənlərin ailələlərinin imkan və ictimai vəziyyətləri, yerli adətlərdən asılıdır. Hazırda nikah müsəlman ölkələrinin çoxunda nikah notariusu (mə`zun) tərəfindən təsdiq edilməlidir. İslamın bir çox ölkələrində çoxarvadlılığı məhdudlaşdırmağa yönəlmiş, hətta onu qadağan edən tədbirlər qəbul edilir, əslində isə belə nikahların ümumi faizi heç vaxt yüksək olmamışdır.

**Ədəbiyyat:** İslam, 71-72; əş-Şeybani. Əl-Cəmi əs-səğir, 32-38; Sədr əş-Şəri'a. Müxtəsər, 60-69: Linant de Bellefondes. Traite, 2; Stern Marriage, 75-92; Abu Zahra. Family Law, 132-149; J.Schacht. Nikah, - EI, 3, 912-914; W.Heffening. 'Urs. – Yenə orada, 4, 1124-1133.

**Zındıq - (cəmi zənadiqə)** – bu istilahla mübahisəli ilahiyyat ədəbiyyatında təkallahlı olmayan din ardıcıllarını, əsasən «dualistləri» - maniheyləri, məzdəkiləri, xürrəmiləri adlandırırdılar; daha geniş mənada «Allaha inanmayan», inananın (mömininin) əksi. Z. sözü İslama İranın sasani

dövrünün leksikasından gəlmişdir: məzdəkilər Avestanın yeni, alleqorik şərhini yaradan başqa cür düşünənləri Z. adlandırırdılar. Z. istilahının İslamda geniş surətdə işlənməsi onun dini xüsusiyyətindən daha çox siyasi xüsusiyyətli olması ilə izah edilir. Din üçün deyil, ilk növbədə dövlət hakimiyyəti üçün təhlükə hesab edilən Allaha inamsızlığı (zəndəqə) olanları Z. elan edirdilər (baxmayaraq ki, formal olaraq dində «yolunu azanları» Z. elan edirdilər). Fəqihlər zəndəqəni Peyğəmbərə (s) söyüşlə bərabər tutub Z.-ləri edamla cəzalandırırdılar. İslamda birinci Z., zəndəqəni təbliğ etdiyinə görə (Quranın yaradıldığını ilk deyən, 742-43-cü ildə İraqda asılmış) Z. Cə′d b. Dirhəm olmuşdur. Xəlifə əl-Mehdinin (775-785) hakimiyyətində xüsusi hakim-zəndəqə işlərinə baxan (sahib və ya arif əz-zəndəqə) vəzifə təsis edilmişdi. Bu siyasətin ilk cəza çəkənlərindən biri, odu gildən üstün tutaraq İblisə haqq qazandıran, «odu torpaqdan üstün tutmaqda» günahlandırılılan şiə şair Bəşşar b. Burd (əl-Mehdinin əmri ilə 783-cü ildə edam edilib) oldu. Bəşşarın müasiri, dünyanın iki başlanğıcı – İşıq və Zülmətdən olub, sonradan qarışdıqlarını təbliğ edən Saleh b. Əbdülquddus  Z. kimi asılmışdır.

«Möminlərin müdafiəçisi» roluna fəal iddiaçı olan hənbəlilər Z.-ləri beş kateqoriyaya bölürdülər. Onlar təkcə maniheyləri və məzdəkiləri «dualizmdə» günahlandıraraq Z.-lərə aid etmək deyil, «qatı» şiələri, sufiləri, müəttiliələri də onlara aid edirdilər. «Qatı» şiələri (onlarla oxşarlığa görə «mülayim» şiələri onlarla birlikdə) ilahi şüalanmanı qəbul etdiklərinə görə hənbəlilərin rəyinə görə Yaradanla yaranan arasındakı bərabərliyi qəbul etməyi hesab etdiklərinə görə, sufiləri Allahla «vəhdətə» görə, müəttilələri Yaradanı inkar etdiklərinə və Dünyanın dörd elementin (ünsürün) birliyi olduğunu təsəvvür etdiklərinə görə Z. adlandırırdılar. Adətən, onların hamısını İslamın yazdığı qanunlardan azad olmağa çalışdıqlarına görə günahlandırırdılar.

İslam tarixində Z.-lərin əleyhinə çoxlu açıq məhkəmə olmuşdur: onları Qərbdə malikilər, Osmanlılar vaxtı hənəfilər keçirmişlər (başqa «yolundan azmışlar»la yanaşı). Z.-lərin «Təkzibi» orta əsr mübahisəli ədəbiyyatın geniş yayılmış mövzusu idi. Z. istilahı müasir publisistikada da işlənir: tradisionalistlər və ya «fundamentalistlər» onu (onların rəyincə) İslamın qayğısına lazımi qədər qalmayanlar üçün işlədirlər.

**Ədəbiyyat:** İslam, 78; İbn ən-Nədim. Əl-Fihrist, 401-402; Bədəvi. Əl-İlhad, 27-40; G.Vajda. Les zindiqs en pays d`İslam au debut de la periode ab-baside. – RSO. 1938, 17; 173-229; Fr. Gabrieli. La «Zandaqa» au 1-er siesle abbaside. – Elaboration, 23-38; L.Massignon. Zindik. – EI, 4, 1329-1330.

**Zikr** – (cəmdə əzkār; «xatırlatma», «yaddaş») – Allahın adını şərəfləndirmək kimi yadasalma. Z.-in mənaları: a) Allahın adını xatırlama; b) dua oxuyanın eşidilən səslə Allahı zikr etməsi; c) Allahın zikrinin ritualı və

texnikası. Bu sözə Quranda tez-tez rast gəlinir, sufilərə gəlincə, onlar üç təlimata xüsusi əhəmiyyət verirlər (Q. 18:24/23; 33:41 və 13:28). Erkən nüfuzlar (Səhl ət-Tüstəri, əl-Həllac və əl-Kəlabazi) Z.-i xüsusi qeyd edirdilər, onu bütün sufi Yolunun əsaslandığı (söykəndiyi) dayaq hesab edirdilər, çünki Z.-in müntəzəm olaraq yerinə yetirilməsi «yolçunu» Allaha yaxın olan hala və Ona qapılmaya (istidrak) gətirib çıxarırdı. Sufizmin bu mərhələsində Z.- «axtarana» (müridə) onu İlahi mahiyyəti dərketməyə hazırlamaq məqsədi ilə psixoloji təsiretmə üsuluna uyğun olan Allahın adının (adlarının) zikrinin xüsusi üsuludur. XII əsrin axırı – XIV əsrlərdə sufi qardaşlığının (təriqə) meydana gəlməsi və inkişaf etməsi ilə əlaqədar olaraq Z. çətin ayinə çevrilir, onun mərasimi xüsusi təlimatlarla diqqətlə hazırlanırdı. Z.-i yerinə yetirmək üçün xüsusi ritmik hərəkətləri bilmək, oturuş qaydalarını bilmək (cələsə), təlimatda göstərilən kimi tənəffüs etməyi bacarmaq (həbs ən-nəfs, həbs-i dəm) – Z. formasını yerinə yetirərkən, nəfəs alıb-verərkən bədənin hərəkətilə uyğunlaşdırmağı bacarmaq lazımdır. Təşkilati quruluşla yanaşı Z. qardaşlığın əsas fərqləndirici əlaməti oldu.

Z. ya hündür-yuxarı, uca (cəli, cəhr, əlaniyyə), ya da sakit-aşağı səslə (xəfi) yerinə yetirilir. Hər iki təcrübənin tərəfdarları Qurana əsaslanırlar (17:110). Qardaşlıqlarda Z.-in parallel olaraq iki adəti var idi: a) fərdi və ya şəxsi Z., o, ayrıca hücrədə, başı örtülü, bərk-ucadan, pıçıltı və ya ürəkdə deyilməklə yerinə yetirilir; b) kollektiv Z., o, yuxarı-uca səslə, icmanın ümumi iclasında yerinə yetirilir (adətən cümə axşamı) və ya həqqaya gedən vaxt (səm'a; hadra-iştirak etmə, Peyğəmbərin (s) qiyabi olaraq oarada iştirakı nəzərdə tutulur). Hər iki Z.-in hədəfi birdir – sufidə ekstatik huşitirməyə (vəcd, fəqd əl-ihsas) nail olmaq. Buradan bəzi qardaşlıqlarda kofe, alkoqol və narkotika kimi şirnikdirici vasitələrdən istifadə etmək təcrübəsi meydana gəldi. Z.-in nəzərədə tutulan sayını səhv salmamaq üçün (adətən onlar yeddi addırlar) təsbehlər (subhə, misbahə) istifadə olunur. Vəcd halına tez daxil olmaq üçün bütöv bir texniki üsullar sistemi hazırlanmışdır: səs, musiqi, rəqs, ritmin nəfəsalma tezliyinin və bədən vəziyyətinin dəyişməsi – bütün bunlar bir məqsədə qulluq edirdi- bütün varlığın Allahın adının sonsuz təkrar deyilməsinə cəmləşdirilməsi. Z.-in dini mərasimə qoşulmaq ritualına (ayininə) mühüm əhəmiyyət verilirdi. Təlqin əz-zikr, bu vaxt iqamətgahın şeyxi Z.-in qardaşlığa qəbul olunan şəxsi yeni üzvünə tam məxfi olaraq və ya kollektiv surətdə yerinə yetiriləsi formula və üslubunu başa salırdı.

**Ədəbiyyat:** İslam, 77; əl-Qəzali. İhya, 1, 262-269, 3, 16-17; Xülasə, 319-330; Risalə-i əhval-i səlikin. EA ŞİLŞ əlyazması, V. 2414, 4b-20b; Cəlalabadi. Tarix, 89-90, 196-199, 346-382; Петрушевский. Ислам, 320, 324-325; Massignon. Essai, 50, 105, 194, 284; Trimingham. Orders, İndex;

Anawati, Gardet. Mystique, 187-256; Hodgson. Venture, 2, 210-214; Schimmel. Dimensions, 167-178, Add, 1; L.Gardet. Dhikr. – EI, TU, 2, 223-227.

**Zina** – (sinonimi sifəh) kişinin qadınla qeyri-qanuni cinsi əlaqəsi. Z. haqqında məsələ Quranda aydın surətdə şərh olunub, orada kişiyə haram olan hər hansı bir qadınla onun cinsi əlaqəsi (onların hər ikisi bunu bilirlərsə) Z. hesab edilir, kəbində olanlarla subay olanların Z.-ları arasında fərq var. Kəbinli olanların Z.-sında onları daşqalaq (rəcm) edirlər, kəbinli olmayanların Z.-sında onlara 100 çubuq (hədd) vururlar, vəziyyətə görə qullara onlar yaşadıqları yerdən qovulur, cərimə olunur, tövbə edirlər və s. Birinci halda azad və ya qul kişi və qadınlar bir cürə tənbeh edilirlər. İkinci halda – bəzi məzhəblərə görə 50 çubuq vurulur. Azad qadına bəzi məzhəblərə görə 100, qul qadına isə 50 çubuq vurulur; başqa məzhəblərə görə azad qadına 50 (kişinin tənbehinin yarısı), qul qadına isə 25 (azad qadının tənbehinin yarısı) çubuq vurulur. Z.-nın sübutu qazi qarşısında and içərək şahidlik edən dörd tam hüquqlu şəxsin təqdim etdiyi ittiham üzrə qəbul edilir ki, onlar başqa dolayı yolla olan dəlil və şübhələrə əsaslanmayıb, özləri Z. hadisəsini görüblər. Başqa halda ittiham böhtan kimi qiymətləndirilir. Adam özü-özünü qazi qarşısında dörd dəfə and içməklə Z.-da ittiham edə bilər və onda onu tənbeh edirlər. Z.-ya görə cəzanı bağışlamaq və ya yüngülləşdirmək olmaz, ancaq Z.-da günahkar olanlar qazi qarşısında nikah bağlamaq istəsələr, onlar hər hansı bir cəzadan azad olunurlar. Başqa dindən olan qadına evlənən və Z.-da günahkar olan müsəlman bəzi məzhəblərə görə evli kimi daşqalaq olunmalı, başqa məzhəblərə görə isə subay kimi çubuqla döyülməlidi. Bəzi məzhəblərə görə nə vaxtsa Z.-ya görə cəzalandırılanlar ancaq belələri ilə kəbinə daxil ola bilərlər, başqa məzhəblərə görə isə cəza və tövbə onların günahlarını təmizləyir. Öz arvadını Z.-da tutmuş ər onu məhkəməyə vermədən evdə ölənə qədər bağlı qıfıl altında saxlaya bilər.

Köhnə osman hüququ Z.-ya görə çubuqla döyməni böyük pul cəriməsi ilə dəyişməyə icazə verirdi.

**Ədəbiyyat:** İslam, 78; Əbu Yusuf. Əl-Xərac, 193-196; əş-Şeybani. Əl-Cami 'əs-səğir, 65-68; 199-201; Sədr əs-şəriə. Müxtəsər, 199-201; Stern. Marriage, 92-94; Wensinck. Handbook, 267; Heyd. Studies, 95-97; J.Schacht. Zina. – EI, 4, 1328.

**Ziyarət** – peyğəmbərlərin, müqəddəslərin (övliya), şiə imamlarının qəbirlərini, Şimali Afrikada isə həyatda olan sufi şeyxlərini Z. etmək.

Z. təcrübəsi İslamda müqayisə edilən dərəcədə sonrakı vaxtlara aiddir. O, müsəlman «müqəddəs» ayinlərinin yaranıb inkişaf etməsi ilə əmələ gəldi. İlk İslamın əksinə olan bu ayin yerli dini inamların təsiri altında

meydana gəldi. (Əslində müqəddəs sayılan yerləri Z. əvəllər də olmuşdur. Misal üçün Əshabi Kəhf mağarasının Z. edilməsi və s.) Buradan Z.-in iki əsas xüsusiyyəti irəli gəlir: a) ziyarət olunan yerin irsiliyi və islamaqədərki ayin rituallarının xüsusiyyəti (çox vaxt eyni yer dini məqsədlə həm müsəlmanlar, həm xristianlar, həm də yəhudilər tərəfindən ziyarət edilirdi); b) İslam ölkələrində yayılmış Z.-in çoxlu müxtəlif növləri vardı.

«Müqəddəslərin» ayinləri kimi Z. təcrübəsi lap əvvəldən İslamın təmizliyini qoruyanların rolunda çıxış edən sünni üləmalar tərəfindən müqavimətlə qarşılandı və «yenilik gətirmə (bid`ə)» elan olundu. Z. haqqında məsələnin müzakirəsi hədislər, hənbəli əqidələri, İbn Teymiyyənin əsərləri, dini təcrübə və vəhhabilərin əsərlərində öz əksini tapdı. Z.-in qeyri-qanuniliyinin bizim günümüzə qədər iddia edilməsinə baxmayaraq, hesab edilir ki, o, dini nüfuzların (icma) razılığı ilə işıqlandırılmışdır. Hətta belə rəy var ki, bəzi xüsusi hörmət edilən şeyxlər, «müqəddəslər» və ya imamlar (məsələn, Nəcəfdə Əli (ə) və ya Kərbəlada əl-Hüseynin (ə) qəbirlərinin Z.-i Məkkədə kiçik həcc (ümrə) ziyarətinə bərabər tutulur. Hədislərə görə Peyğəmbər (s) qəbristanlığı tez-tez Z. etməyi tövsiyə edirdi, çünki qəbristanlığı Z. insana axirət Dünyasını xatırladıb, onu saflaşdırır, pis əməllərdən çəkindirir.

Hörmətli şəxslərin qəbirlərini Z. adətən onların doğum (mövlud) və ya vəfat günündə həyata keçirilir və dini bayram kimi qeyd olunur. Hesab edilir ki, qəbir üstə dua oxunması, qəbirə əl sürtülməsi bərəkət gətirər, gündəlik işlərdə kömək edər.

Z. adəti adətən qəbir üstündə ayrı-ayrı Quran surələrini (xüsusilə də Fatihə və Yasin surəsini) oxumağı, müqəddəs üçün dua oxumağı, qəbiri təvaf etməyi, ağac budaqlarını rəngbərəng parçalarla və s. ilə bəzəməyi, sədəqə verməyi və qəbir üstündə qurban kəsməyi özündə cəmləşdirirdi.

Z.-in xüsusi növü-həcc ayinini yerinə yetirəndən sonra Mədinədə Məhəmmədin (s) qəbrini ziyarət etməkdir. Z. istilahı sadəcə olaraq adi insanın dəfn olunduğu yeri ziyarət etməyi bildirmək üçün də istifadə oluna bilər.

**Ədəbiyyat:** İslam, 77; Гольдциер. Культ святых; Лейн. Нравы, 204-211; Wensinck. Handbook, 89-90; Donaldson. The Wild Rue, 55-68; Laoust La profession, 89; Grünebaum. Festivals, 67-84; Change, №3408, 3425, 3438, 3450, 3491; A.J.Wensinck. Ziyara. – Sh EI, 660.

**Zühd (zəhədə) – «özünü nədənsə saxlamaq», nədənsə «imtina etmək» felindəndir** - «imtina», «üz döndərmə» deməkdir, İslamın etik məfhumlarından və sufiliyin texniki istilahlarından biridir, sufilik yolunun zəruri mərhələsini bildirir; tez-tez asketizm kimi tərcümə olunur və bu

keyfiyyətə malik olan şəxs zahiddir (cəmdə zuhhad, zahidun), Q. 12:20 – asketdir (tərki dünyadır).

VIII əsrdə Z. əvvəllər olan nisk («dindarlıq», «zahidlik») istilahını əvəz etdi və qənaətdən («istəklər üzərində mülayimlik və nəzarət»), vara'dan («dini qanunla icazə verilən və qadağan olunanın fərqləndirilməsində çox dəqiq ehtiyatlılıq») daha böyük məna verdi. Hicrətin birinci əsrlərində asketik əhval-ruhiyyə geniş yayılmış, çox və ya az dərəcədə, demək olar ki, İslamın bütün cərəyanlarını əhatə edirdi. Z. mövzusu artıq erkən hədis məcmuələrində izlənilir. Z. haqqında material həmçinin aqioqrafik (yerli) ədəbiyyatda və X-XIII əsrlər sufi «tədris» əsərlərində də var.

Z. məfhumu müəyyən konsepsiyada zühhad (əl-Həsən əl-Bəsri, Süfyan əs-Sauri, İbrahim b. Ədhəm və başqaları) kimi tanınan görkəmli erkən müsəlman mömin xadimləri arasında yaranmışdır, onun sonrakı inkişafı isə sufi ənənələri məcrasında baş vermişdir.

Z.-ün sünni anlamı, xüsusilə də ona böyük əhəmiyyət verən hənbəlilikdə ehtirasları yatırmağı, dünya nemətindən imtina etmək, yuxu və yeməyi azaltmaq, kasıblıq, bu Dünyada güclülərin himayəsindən imtina etmək (buna az riayət olunurdu), yaxşılığı qəbul, pisliyi inkar etməyi nəzərdə tutur. Z.-ün qətiliyini pisləyənlər və onu mülayimliyə dəvət edənlərə də rast gəlinir. Orta əsr müsəlman müəllifləri – möminlərin əksəriyyəti öz adlarının sonunda zahid ləqəbini yazırdılar.

Sufilikdə Z. təcrübəsi təzahürün son həddinə qədər gedirdi; bütün ötəri şeylərdən imtina etmək, qəlbi Allahdan fikri yayındıra bilən hər şeydən təmizləmək və öz fikirlərini Onun üzərində cəmləşdirmək. Z.-ün belə təcrübəsi çox vaxt tam laqeydliyə, məhrumiyyətə və tam kvietizmə gətirib çıxardırdı.

Sufini bu yolda güdən yoldançıxmaların təhlükəsinin dərk edilməsi (gizli lovğalıq, özü-özü qarşısında ikiüzlülük və s.) əl-Mühasibinin müqəddiməsi və məlamətiyyə məktəbinin daxili özünümüşahidə üsullarını qavraması sufi konsepsiyasında yeni, ezoterik səviyyədə Z.-əz-zühd fi-z-zühd («özünü saxlamada özünüsaxlama») yaratmağa gətirib çıxarırdı. Onun mahiyyəti ondadır ki, Dünyaya (bəşəri Dünyaya) bağlılığından azad olan sufi özünüsaxlamaqdan özünü saxlayır, özünüsaxlama istəyinin özünü yox edir. Bununla o, əl-Qəzalinin əl-istiqna bi-Allah (Allahdan razılıq) adlandırdığı hala çatır. Bu vəziyyətə çatdıqdan sonra o, qorxmadan dünyəvi həyata diqqət yetirə bilər, belə ki, artıq onun cazibəsini dəf etmişdir və indi axirəti («o biri Dünyanı») dərk edən yolu davam edə bilər.

Z. və zahid məfhumları indi də müsəlman aləmində işlədilir və əsasən imanlı həyat və mömin insanı bildirir.

**Ədəbiyyat:** İslam, 80; əl-Məkki. Kut əl-qulub, 1, 220-256; Əbu Nueym. Hilyət: əl-Qəzali. Voskresenie, 195-203; İbn əl-Cövzi. Təlbis, 150-160; Бертельс. Суфизм, 16-17; Петрушевский. Ислам, 313-317;

A.П.Петросян. О термине зухд. – ПП и ПИКНВ, 1986, 2, 145-149; Goldziher. Arabische synonymik der Askese. – DI, 1918, 8, 204-213. T.Andrae. Zuhd und Mönchtum: Zur Frage von den Bezeihungen zwischen Christentum und İslam. – MO, 1931, 25,296-327; Nwyia. Exegese, 216-220; J.Mc Hugo. Some Notes on the Concept of zuhd in the Sufi Manuel Literature of the 10th to 12th Centuries A.D. 1/2. Purvadech, 1980, 99-108; L.Kinberg. What is meant buy zuhd. – St. I. 1985, 61, 27-44; L.Massignon. Zuhd. – EI, 4, 1341-1342.

**Zülfüqar - zü-l-faqar (zü-l-fiqar; Zü—füqar, «şırımlı», «dalğavari aralanma») -** Məhəmməd peyğəmbərin (s) qılıncı. Məhəmmədə (s) qədər məkkəli Münəbbih b. Həccaca məxsus olan, islamaqədərki Ərəbistanın məşhur qılınclarından biri. Məhəmməd peyğəmbər (s) Bədr vuruşunda əldə edilmiş qəniməti bölərkən qılıncı özünə götürülmüşdü. Peyğəmbərin (s) vəfatından sonra qılınc Əliyə (s) çatdı, rəvayətlərdə onun (Peyğəmbər kəramətindən) fövqəladə gücə və sehirli xüsusiyyətlərə malik olduğu göstərilir. O cümlədən o, sanki uzunlaşa və ya qısalaşa bilirmiş.

**Ədəbiyyat:** İslam, 79; əl-Balazuri. Ənsab əl-əşrəf. 1, Qahirə, 1959, 521; ət-Təbəri. Tarix, 1, 1359; Schwarzlose. Die Waffen, 152; Gaudefroy-Demombynes. Mahomet, 123, 327; E.M.Mittwoch. Dhu-l-Fakar. – EI, NE, 2, 233.

**Zü-l-Kifl («Allahdan payı, zəmanəti, himayəsi olan», «əvəz edən», «zamin»)** – Məhəməddən (s) əvvəl gələn peyğəmbərlərin adları çəkilərkən qeyd olunan Quran surətinin ləqəbi; «dözümlülərdən», «seçilmişlərdən» (Q. 21:85; 38:48) epitetləri də ona aiddir. Mətndən belə nəticəyə gəlmək olar ki, söz qədim peyğəmbərlər haqqında gedir.

Şərhçilər onu müxtəlif peyğəmbərlərlə, ən çox Yezekillə eyniləşdirirlər. Belə bir iddia yayılıb ki, bu Əyyub (İova) oğlu Bişrdir, o, Suriya və Kiçik Asiyada dini təbliğ edir və insanlar arasında Allahın onların hər birini, əyər özü istəməsə, ölməyə qoymadığını yayırdı. Başqa bir rəvayətdə Z.-l-K. əl-Yasu peyğəmbərin xələfidir və o, gecə-gündüz oruc tutub, namaz qılacağına və heç vaxt hirslənməyəcəyinə söz vermişdi; İblisin əngəllərinə baxmayaraq o, bunları yerinə yetirir. Bu və ya başqa şərhlər KFL kökünün mümkün olan müxtəlif mənalarından yaranıb və onlar Quran mətninin mənası ilə uyğun gəlmir.

İraqda əl-Hillə yaxınlığında Z.-l.K.-in məqbərəsi sayılan ziyarət yeri vardır. Onun başqa yerlərdə də olduğunu söyləyirlər, məsələn Termezdə.

**Ədəbiyyat:** İslam, 79; ət-Təbəri. Təfsir, 17, 58-60; əs-Sə′ləbi. Qısas, 92-93, 147-148; əl-Beydavi. Təfsir, 1, 622; Lisan əl-ərəb, 14, 110; Tac əl-ərus, 8, 29; Horovitz. Untersuchungen, 113; J. Walker. Who is Dhu-l-Kifl?

– M. W.1926, 16, 399-401; Goldziher. Dhu`l-Kifl. – EI, 1, 1003-1004; G.Vajda. Dhu`l-Kifl. – EI, NE, 2, 242.

**<u>Zülm («qanunsuzluq»)</u>** – insanlar arasında müəyyən edilmiş münasibətlər normasının qərəzli surətdə pozulması: sıxışdırma, məcburetmə, incitmə, təhqiretmə, zorakılıq, əmlakı zəbtetmə və s. Z. Quranda cəzaya layiq olan cinayət kimi qəti surətdə pislənir. Adətən Z. məfhumu ilə hakimlərin öz təbəələrinə, varlıların icarədarlara, sahibkarların işçilərinə, nökərlərinə, qullara, yaşlı qohumların kiçik qohumlara, məmurların xalqa etdiyi pislik, habelə hakim və hökmdarların qanunsuz qərarlarını bildirir. Z. qanun pozuntusu kimi bütün məzhəblər tərəfindən bir cür mühakimə edilir, lakin ona və ona müqavimət göstərmək yollarına olan münasibət müxtəlifdir. Qanunçuların əksəriyyəti hesab edirlər ki, ədaləti ancaq sülh yolu ilə əldə etmək lazımdır, yoxsa, əvvəla Z. kimi görünən həm incidənin, həm də incidilənlərin səhvi ola bilər, ikincisi Z.-dən ziyan çəkən özlüyündə mənəvi hüququnu saxlayır; üçüncüsü, itaətsizlik və qiyam Z.-dən olan zərəri üstələyən ağır nəticələrə gətirə bilər və ədalətin bərpasına isə gətirib çıxamaya bilər. Yox, əyər qiyam baş versə, hökmdar qiyamçıları susdurmazdan əvvəl özü üçün aydınlaşdırmalıdır ki, qiyamın səbəbi Z. olmayıbmı? Əgər belə isə, onda qiyama səbəb olan zülmkar cəzalandırılmalıdır. Qiyamçılar isə sakitləşmişlərsə və silahı yerə qoyublarsa, əfv edilməlidirlər. Z.-ə dözmək, nəinki ona qarşı mübarizə aparmaqdan və yaxud artıq qurulmuş ictimai intizama qəsd etməkdən daha üstündür rəyi islam təsəvvürlərini tam qane etmiş və hazırda da qane edir və İslamın əsas etik prinsiplərindən biridir.

**Ədəbiyyat:** İslam, 79-80; əl-Məvardi. Əl-Əhkam, 128-164; Hugher. Dictionary, 717.

**<u>Zü-n-Nun əl-Misri, Əbu-l-Fayd Sauban b. İbrahim (təq. 796-860-1)</u>** **-** Misirdə erkən sufizmin ən çox tanınmış nümayəndəsi. Əhmimdə (Yuxarı Misir) çoxuşaqlı nubiyalı – məul ailəsində doğulmuşdur. Onun müəllimi hansısa Qahirəli Sə′dun olmuşdur. Ömrünün çox hissəsini Z.-n-N. Qahirədə keçirilmiş, çoxlu moizə etmiş, səyahət etmiş, Məkkə, Dəməşq, Antioxiyada olmuşdur. Misirdə məşhur olan maliki fəqihi və tarixçi Əbdülhəkəm Z.-n-N.-u sufizmi təbliğ etdiyinə görə mühakimə edib, sufilik təlimini «qəbahətli yenilik» (bidə`) kimi təhlil edirdi. Quranın yaranması haqqındakı mötəzili əhkamının əleyhdarı olan Z.-n-N. hakimiyyət tərəfindən təqiblərə məruz qaldı. Ölümünə az qalmış o, xəlifə əl-Mütəvəkkilin Səmərradakı iqamətgahına aparılmışdı. Xəlifə öz əsirinin gözəl danışığına və möminliyinə vurulmuşdu (məftun olmuşdu), ona görə onu azad etdilər. Bir müddət o, Bağdadda yaşadı və yerli sufilərlə ünsiyyətdə oldu, çoxlu şagirdləri oldu. Misirə qayıdan kimi o, vəfat etdi və Cizədə dəfn olundu, onun qəbri hələ də durur.

Z.-n-N.-un adına sayı on beşə çatan əsərləri, aforizmləri, və'zləri (moizələri -ədi'yə) və şer parçaları var. Onlar nəsihətamiz, təsəvvüf-ekstat xüsusiyyətlidir, onlarda zahidlik həyat tərzini seçmiş «müqəddəslərin» (övliya) üstünlüyü və ali məqsəd Allaha yaxınlaşmaq uğrunda sufi idealı təriflənir. Ona yol «qnosis» (mə'rifədən - bilikdən) olub, dünyəvi işlərdən çəkinərək, özünükamilləşdirmə, zatı-əsli (mahiyyəti) əzmək və s. ilə əldə edilir. Sufi ənənəsi Z.-n-N.-nu mistik yolun «dayanacaqlar və hallar» (məqamat və əhval) haqqında təliminin banisi hesab edir. O, yorulmadan ilahiliyin transsendetliyini qeyd etmiş, onun haqqında antropomorfik fikirləri rədd etmişdir. Z.-n-N.-un şeirlərində Allaha məhəbbət tərənnüm edilir, «aşiq» sufinin mübtəla olduğu iztirablar təsvir olunur.

Son dövr sufilərinin, xüsusilə də əs-Söhrəverdinin əsərlərində Z.-n-N. «pifaqorçu» yunanlardan gələn «əbədi müdrikliyin» daşıyıcısı kimi təsvir olunur. Z.-n-N.-un mənəvi varisi kimi Səhl ət-Tüstərini tanıyırlar. Əl-Cüneyd, əl-Mühasibi və ət-Tüstəri ilə yanaşı Z.-n-N. da böyük sufi nüfuzu sayılır: əksər məşhur sufi traktatlarının müəllifləri ona söykənmişlər. Z.-n-N.-un ideyaları sonrakı müsəlman sufilərinin nəsilləri tərəfindən əxz edilib və inkişaf etdirilib. Sufi tərcümeyi-hal külliyatlarında (əl-Hüciviri, Cami, Əttar) zahid, möcüzəçi və əlkimyaçı Z.-n-N.-un şəxsiyyəti hətta xariqüladə şəkildə təqdim olunur.

Müsəlman müəlliflərinin əksəriyyəti Z.-n-N.-nu hədislərin «inanılmış» söyləyicisi kimi hesab edirdilər.

**Ədəbiyyat:** İslam, 79; əs-Süləmi. Təbəqat, 23-32; Əbu Nueym. Hilyət, 9, 331-395; əl-Bağdadi. Tarix Bağdad, 8, 393-397; əl-Quşeyri, Ər-Risalə, 10-11; əl-Hujwiri. Kashf, İndex; `Əttar, Təzkirə, 1, 114-134; Bawering. Mystical Vision, 50-58; GAS. 1, 643-644; M.Smith. Dhu`l-Nun əl-Misri. – EI, NE, 2, 242.

**Zü-l-Qərneyn** («ikibuynuzlu») – Quran surətinin ləqəbi. Allahın böyük hakimiyyət verib Şərq və Qərbə uzaq yürüşlərə göndərdiyi adam. Qərbdə o, günəşin batdığı «bəd mənbəyə» qədər gedib çıxmış, orada yaşayanlar arasında pisləri cəzalandırıb, yaxşıların həyatını yüngülləşdirmişdi. Sonra o, günəşin çıxdığı yerə yollandı, orada o, «günəşdən mühafizə olunmayan adamlarla» qarşılaşdı, «iki maneə arasında olan yerədək» gedib çıxdı, orada danışığı güclə başa düşən insanlar yaşayırdı. Onlar Z.l-Q.-nə vergi verməyə hazır idilər, təki o, onları «yer üzünə bədbəxtlik yayan» Yəcuc və Məcucdan qorusun. Z.l-Q. iki dağ arasında hasar tikdirdi, blokların arasını isə əridilmiş dəmirlə doldurdu və o vaxtdan Yəcuc və Məcuc nə o hasara çıxa bildilər, nə də onu dağıda bildilər (Q.18:83/82-102).

Z.-l-Q.-nin böyük çar olması haqqında şərhçilərin fikirləri bir-birinin üstünə düşür. Bəziləri üçün o, Makedoniyalı İskəndər, başqaları üçün isə

Yəmənin Himyər çarıdır. Onun ləqəbini məcazi mənada aydınlaşdırırlar – belə ki, o, Rumu və Farsı tutmuşdu və ya onun alnında balaca buynuzlar və ya şişlər var idi. Onun müxtəlif çarlarla apardığı müharibələrdən bəhs edirlər ki, onun qərbə hücumu əbədilik mənbəini tapmaq üçün edilirdi.

İslamaqədərki Ərəbistan rəvayətləri belə oxşar ləqəb daşıyan bir neçə surət tanıyırlar. Onlardan biri Ləhmi çarı əl-Münzir, o birisi isə Yəmən çarı əl-Əkrandır (onlar da «buynuzludurlar»). Lakin bu ləqəbin ən çox yayılması Makedoniyalı İsgəndərlə bağlıdır, görünür bu sikkələr üzərində onun buynuzlu Yupiter – Amonun surətinə oxşar surəti həkk olunduğuna görədir. Quranın hekayəti bu surətə – daha dəqiq Suriyanın «İskəndər haqqında roman» rəvayətinə gedib çıxır. Qoşabuynuz mövzusu isə qədim Şərqin mifologiyasında çox geniş yayılmış əzəmət, bolluq və hakimiyyət rəmzlərindən biridir (Musanın alnındakı şişləri də müq.et.). Bu tarixçənin Quran variantı Z.-l-Q. haqqında suallara cavab üzərində qurulub və o, Allahın əzəmətinin bir daha sübutuna xidmət etməlidir. O, belə məna verir ki, hamının tanıdığı böyük çarın elədikləri nə varsa, ona Allah tərəfindən bəxş edilmişdir.

İskəndər haqqında rəvayətlərin hekayələr toplusu ilə yanaşı onun Quran surəti orta əsr müsəlman xalqlarının ədəbiyyatında onun haqqında külli miqdarda mənsur və mənzum hekayətlərin yaranmasının əsası oldu. Nizami və Nəvainin poemaları xüsusilə geniş yayılmışdı.

**Ədəbiyyat:** İslam, 78-79; İbn Hişam. Tican, 81-93, 433-439; ət-Təbəri. Təfsir, 16, 7-28; əs-Sə'ləbi. Qısas, 202-208; əl-Beydavi. Təfsir, 1, 572-575; Lisan əl-ərəb, 17, 211; Tac əl-ərus, 9, 306-307; Е.Э.Бертельс. Роман об Александре и его главные версии на Востоке. М.-Л., 1948; Nöldeke. Beitrage. Horovitz. Untersuchungen. 111-113; W.M.Watt. İskandar. – EI, NE, 4, 133.

## İstifadə olunmuş mənbə və ədəbiyyatın siyahısı
## Mənbələr


1. Əbu Yusuf. Əl-Xərac.-Kitab əl-xərac li-l-qadi Əbu Yusuf b. İbrahim sahib əl-imam Əbi Hənifə. Qahirə, h. 1346.
2. Əbu Nuaym. Hiylət.-Hiylət əl-övliya və təbəqat əl-əsfiya li... Əbu Nuaym. 1-10. Qahirə 1351-1387 /1932-1938.
3. Əbu Übeyd. Əl-Əmval.-Kitab əl-əmval li-l-imam əl-azim əl-Hafiz Əbu Übeyd. əl-Qasim b. Səllam... Təshih və şərhi Məhəmməd Həmid əl-Fiki. Qahirə, h. 1353.
4. əl-Əzraqi. Əxbar Məkkə.- Geschichte und Beschreibung der Stadt Mekka von... el-Azraki. Hrsg. von F. Wüstenfeld. Lpz., 1858.
5. Anonim. -XI əsr ərəb anonimi. Mətnin nəşri, tərcümə, giriş və şərh P.A.Qryaznevicindir. M. 1960.
6. Əmmar. Təzkirə. – The Tadhkiratul-Awliya («Memoirs of the Saints») of Muhammad ibn Ibrahim Fariduddin Attar. Ed. in the original persian with preface, indices and variants by Reynold A. Nicholson with a Critical introd. by Mirza Muhammad b. Abdul-Wahhab-i Qazwini. 1-2. London- Leide, 1905.
7. Əflaki. Mənakib.-Səms əd-din Əhməd Əflaki. Mənakib əl-arifin. LONBAH əl. Yazısı, C. 2466.
8. Əxbar əl-Həllac.-Akhbar al-Hallaj. Texte ancien relatif a la predication et an supplice du mystique musulman al-Hosayn b. Mansour al Hallaj public et traduit par Louis Massiqnon et Paul Kraus. P., 1936.
9. əl-Əhkam əş-şər′iyyə.-Əl-Əhkam əş-şər′iyyə fi-l-əhval əş-şəxsiyyə alə məzhəb əl-imam Əbi Hənifə ən-Numan. 1-ci nəşr. Qahirə, 1327/1909.
10. əl-Əş`əri. Məqalət.-Kitab məqalat əl-islamiyyin və-xtilaf əl-müsəllik. Təlif əl-imam Əbi-l-Həsən Əli b. İsmail əl-Əş′əri. Visbaden, 1963.
11. əl-Bağdadi. Tarix Bağdad.-Tarix Bağdad ey mədinə əs-Səlam li-l-Xafiz Əbi Bəkr Əhməd b. Əli əl-Xatib əl-Bağdadi. 1-14. Misir, 1349/1931.
12. əl-Bağdadi. Üsul əd-din.-Kitab üsul əd-din. Təlif əl-imam əl-ustəz Əbi Mənsur Əbd əl-Qahir b. Tahir ət-Təmimi əl-Bağdadi. 1. İstanbul, 1346/1928.
13. əl-Bağdadi. Əl-Fərq.-Kitab əl-fərq beynə -l-firaq li... Əbd əl-Qahir. b. Tahir əl-Təmimi əl-Bağdadi. Qahirə, 1964.
14. əl-Beydavi. Təfsir.-Beidhawii commenatrius in Coranum ex codd. parisiensibus dersdensibus et lipsiensibus. Ed. H.O.Fliisher. 1-2. Lipsae, 1846-1848.
15. əl-Balazuri. Futuh.-Liber expugnationis regionum, auctore İmamo Ahmed ibn Jahya ibn Djabir al-Beladsore, quen e codice Leidence et codice Musei Buttanici ed. M.J. de Goeje. Lugduni Batavorum, 1886.

16. Biruni. Памятник. - Абурайхан Бируни (973-1048). Избранные произведения. 1. Памятники минувших поколений. Пам. 1957.
17. Burhan-i qati. - Бурхан- и кати. – Талиф-и Мухаммад Хусейн б. Халаф Табризи… Ба ихтимам dukur Мухаmmad Muin. 1-5. Тегеран, 1342/1963.
18. Bustan əs-siyahə.-Zeyn əl-abidin-i Şirvaniyi Məst Əli-şah. Kitab-i bustan əs-siyahə. Tehran, 1315/1898.
19. əl-Buxari. Əs-Səhih. – Le Recueil des Traditions mahometanes par Abou Abdollah Mohammed ibn İsmail el-Bokhari. Publ. par M. Ludolf Krehl. 1-4. Leyde, 1862-1908
20. Əl-Vaqidi. Məğazi. - History of the Muhammed’s campaigns, by Abdo Abd allah Mohammad bin Omar əl-Wakidy ed. by A. von Kremer of the Austrian Consulate general at Alexandria. Calcutta, 1856 (Bibliotheca Indica. № 110, 112, 113, 121, 139).
21. əl-Qəzali. Əl-Vaciz. – Kitab əl-vaciz fi fiqh məzhəb əl-imam əş-Şafei. Təlif Əbi Həmid əl-Qəzali. 1-2. Misir, h. 1317.
22. əl-Qəzali. Воскрешение .- Əbu Həmid əl-Qəzali.-Воскрешение наук о вере (İhya ulum əd-din): Seçilmiş fəsillər. Ərəb. Dil. Tərcm. tədqiq.
23. Əl-Qəzali. İhya. - Kitab ihya ulum əd-din. Təlif. Əbi Həmid Məhəmməd b. Məhəmməd əl-Qəzali. 1-4. Misir, Əl-Əzhar mətbəəsi. h. 1302.
24. əl-Qəzali. Təhafut.-Algazel. Tahafot al-falasifat. Texte arabe etabli et accompagne d`un sommaire latin et d`index par M. Bouyges. Beyrouth, 1927.
25. əd-Damiri. Həyat.-Kitab həyat əl-heyvan əl-kubra li... Kəmal əd-din əd-Dəmiri. 1. Misir, [b.q.].
26. Dara Şekuh. Səfinat.-Dara Şekuh. Səfinat əl-övliya. LOИBAN əlyazması, c. 521.
27. Dövlətşah.-The Tadhkiratu`sh-shu'ara (Memoirs of the Poets) of Dawlatshah bin Alaud- Dawla Bakhtisshah al-Ghazi of Samarqand. Ed. By E.G. Brawne. London-Leide, 1901.
28. Cəlalabadi. Tariq.-Tariq əl-irşad litəkmil əl-mu`minin və-l-auləd. Əz Miya Fəqirallah Hisaraki Cəlalabadi. Kabul, h. 1359.
29. əl-Cili. Əl-İnsan.-Kitab əl-insan əl-kamil fi mə`rifət əl-əvaxir va-l-əvail. Təlif Abd əl-Kərim əl-Cili. Misir, h. 1328.
30. əl-Cüveyni. Əş-Şəmil.-Əl-Cüveyni. Əş-Şəmil fi usul əd-din . İskəndəriyyə, 1969.
31. əl-Cürcani. Ət-Tə`rifat. - Kitab ət-tə`rifat li... Əli b. Məhəmməd əl-Cürcani. Misir, h. 1321.
32. əl-Cürcani. Şərh.-Şərh alə-məvaqif li-l-İci. Təlif... Əli b. Məhəmməd əl-Cürcani. İstanbul, h. 1286.

33. əz-Zəhəbi. Təzkirə.-Əz-Zəhəbi. Təzkirət əl-huffaz. 1-4. Heydərabad. [i.y.].
34. İbn Əbi Yə`lə. Təbəqat əl-hənabilə.-Təbəqat əl-hənabilə li-l-qadi Əbi-l Hüseyn Məhəmməd b. Əbi Yə`lə. 1-2. Beyrut, [i.y.].
35. İbn Ərəbi. Muhadarat əl-əbrar. –Kitab muhadarat əl-əbrar və müsamərat əl-əxyar fi-l-ədəbiyyat va-l-navadir va-l-əxbar li... Muhyiddin b. Ərəbi. 1-2. Beyrut [i.y.].
36. İbn Ərəbi. Təfsir.-İbn Ərəbi. Təfsir əl-Quran. 1-2. Qahirə, h. 1317.
37. İbn Ərəbi. Fusus. – Fusus əl-hikəm lişeyx əl-əkbər Muhyiddin b. Ərəbi əl-mutəvəffi sənə 638 hicriyyə və -t-təliqat aleyhi bikələm Əbi-l-Əli Afifi. 1-2. Beyrut, 1980.
38. İbn Ərəbi. Əl-Futuhat.-Kitab əl-məkiyyə əlləti fətəha-llahu alə-ş-şeyx... əl-mə`ruf bi İbn Ərəbi. 1-4. Beyrut, [i.y.].
39. İbn əl-Əsir. Usd.-Usd əl-qəba fi mə`rifət əs-səhabə li-l-imam İzzəddin Əbi-l-Həsən Əli.. əl-məruf bi İbn əl-Əsir. 1-5. Tehran, h., 1342-1377.
40. İbn Bəttə. Əl-İbənə.-H.Laoust. La profession de foi d.`ibn Batta (Traditioniste et jurisconsulte musulman d`ecole hanbalite mort en İran a Ukbara en 387/997). Damas, 1958.
41. İbn əl-Cövzi. Mənakib.-İbn əl-Cövzi. Mənakib əl-imam Əhməd b. Hənbəl. Beyrut, [i.y.].
42. Ibn əl-Cövzi. Təlbis.-Təlbis İblis li-l-hafiz əl-imam Cəmaləddin Əbil-Fərəc Əbd ər-Rəhman b. Əl-Cövzi. Beyrut, h. 1368
43. İbn Cübeyr. Путешествие.- Ибн Джубайр. Путешествие. М., 1984.
44. Ibn əl-İmad. Şəzərat.-Şəzərat əz-zəhəb fi əxbar mən zəhəbə... li... Əbd əl-Hayy b. əl-`İmad əl-Hənbəli. 1-8. Beyrut, [i.y.].
45. İbn Qəyyum. Hadi.-Kitab hadi əl-ərvah ilə biləd əl-əfrah li... İbn Qəyyum əl-Cövziyyə. Qahirə, h. 1357.
46. İbn Kəlbi. Əl-Əsnam.-Kitab əl-əsnam an Əbi-l-Munzir Hişam b. Məhəmməd b. əs-Sa`ib əl-Kəlbi bi təhqiq əl-ustəz Əhməd Zəki. Qahirə, 1924.
47. İbn Kəlbi. Книга об идолах.- Hişam ibn Məhəmməd əl-Kəlbi. Книга об идолах (Kitab əl-əsnam). Vl. V. Polosinanın ərəb dilindən tərcümə, ön söz və qeydləri ilə M., 1984 (ППВ, LXVIII).
48. İbn əl-Murtaza. Təbəqat.-Die Klassender Mutaziliten von Ahmad ibn Yahya ibn al Murtada. Hrsg. von S`usanna Diwald-Wilzer. Wiesbaden, 1961.
49. İbn ən-Nədim. Əl-Fihrist.-Kitab əl-Fihrit li-n-Nədim. Tehran, 1971.
50. İbn Rəcəb. Zeyl.-Kitab əz-zeyl alə təbəqat əl-hənəbilə li ibn Rəcəb... Zeynəddin Əbi-l-Fərəc Əbd ər-Rəhman b. Şihabəddin Əhməd əl-Bağdadi. 1-2. Beyrut, 1952.

51. İbn Sə′d. Təbəqat.-İbn S`aad. Biographien Muhammeds, seiner Gefahrten und spateren Träger des İslams bis zum Jahre 230 der Flucht. Hrsg. Von EşSachanç im Verein mit . Brockelmann, J.Horovits, J. Lippert, B. Meissner. E. Miftwoch, F. Schwally, K.V.Zettersteen. 1-9. Leiden, 1904-1928.

52. Ibn Teymiyyə. Ər-Radd.-İbn Teymiyyə. Ər-Radd alə-l-məntiqiyyin. Bombey, 1949.

53. İbn Hacər. İsabə.-Kitab əl-isabə fi təmyiz əs-səhabə li... Şihabəddin Əbil-Fadl Əhməd b. Əli b. Hacər əl-Asqalani. 1-8. Misir, h., 1323-1325.

54. İbn Xəldun. Müqəddimə.-Müqəddimə İbn Xəldun. Prolegomenes d`Ebn-Khaldoun publ. par E.Quatremere. P., 1858-1868 (Notices et extraits des manuscrits de la Bibliotheque İmperiale et autres bibliotlheques publ. par L`İnstitut İmperial de France. 16-21).

55. İbn Hənbəl. Müsnəd.-Müsnəd... Abdullah Əhməd b. Məhəmməd b. Hənbəl. 1-6. Misir. h. 1313.

56. İbn Hişam. Sira.-Das Leben Muhammed`s nach Muhammad ibn İshak bearbeitet von Abd əl-Məlik ibn Hischam. Hrsg. Von F.Wüstenfeld. 1-2. Leipzig. Göttingen, 1858-1860.

57. İbn Hişam. Tican.-İbn Hişam. Kitab ət-tican fi muluk himyər an Vahb. b. Münəbbih va Əxbar Abid b. Şəriyə. Səm`a, 1980.

58. əl-`İdvi. Məşəriq.-Məşəriq əl-ənvar fi feyz əhl i`tibar. Tə`lif... Həsən əl-`İdvi əl-Həmzəvi. Qahirə, h. 1303.

59. əl-İstəxri. Məsalik.-Viae regnorum: Descriptioditionis moslemicae auctore Abu İshak əl-Farisi al-İstakhri. Ed. M.J.de Geoje. Lugduni Batavorum, 1870.

60. əl-İsfəhani. Məqatil.-Məqatil ət-talibiyyin li-Əbi-l-Fərəc əl-İsfəhani. Nəcəf, 1965.

61. Yaqut. Mücəm.-Yacut`s geographisches Wörterbuch, aus den Handschriften zu Berlin, St. Peterburg, Paris, London und Oxford… Hrsg. Von F. Wüstenfeld. 41-6. Lpz., 1868-1873.

62. Yəhya b. Adəm. Əl-Xərac.-Le livre de L`impot foncier de Yahya ibn Adam public d`apres le manuscrit unique appartenant a M.Charles Schefer par Th. W.Juynboll. Leide, 1896.

63. əl-Qadi. Dəqaiq.-Kitab dəqaiq ıl-əxbar fi zikr əl-cənnə va-n-nar. Təlif... Əbd ər-Rəhim əl-Qadi. Qahirə, h., 1303.

64. əl-Qəzvini. Əcaib.-Zakariyya el-Cazwini`s Kosmogrphie. Hrsg. von F.Wüstenfeld. Göttingen, 1849.

65. əl-Kələbazi. Ət-Tə`arruf. - Abu Bakr al-Kalabadi. Kitab at-Ta`arruf li madhhab ahl al-tasawwuf. Ed. A.Arberry. Cairo, 1934.

66. Kərbəlai. Rövzət.-Hafiz Hüsyen Kərbəlai. Rövzət əl-cinan və cənnət əl-cinan. Ba təshihi Sultan əl-Qurrai. 1-2. Tehran, 1344/1965, 1349/1970.

67. əl-Kaşani. İstilahat.-Əbdürrəzzaq əl-Kaşani. İstilahat əs-sufiyyə. Təhqiq Məhəmməd Cəfər. Qahirə, 1981.

68. əl-Kaşani. Şərh.-Kitab əl-fadil va-l-alim əl-kamil əş-şeyx Əbdürəzzaq əl-Kaşani alə Fusus əl-hikəm li-l-ustəz əl-kəbir əş-şeyx Əbdürəzzaq əl-Kaşani alə Fusus əl-hikəm li-l-ustəz əl-kəbir əş-şeyx Muhyiddin b. əl-Ərəbi. Misir, h. 1321.

69. əl-Kisəi.Qisas.-Vita probhetarum auctore Muhammed ben Abdollah al-Kisasi ex codicibus, qui in Monaco, Bonna, Lugduni-Batavorum, Lipsid et Gathana asservantur. Ed.-İsaac Eisenberg.Lugduni-Batavorum 1992.

70. Крачковский. Коран. - Tərc., şərh. İ.Y.Kraçkovskinindir. M., 1963.

71. Qudəmə b. Cəfər. Əl-Xərac.-Chapter One-Eigteen of Part Seven from Kitab al-kharaj wasina `at al-kitabahby qudma b. Jafar al-kitab (Pages 77-103 from manuscript № 1076 in Koprülü Library, İstanbul). Leiden-London, 1965.

72. əl-Quşeyri.Ər-Risalə.-Ər-Risalə əl-quşeyriyyə fi ilm ət-təsəvvüf li Əbi-l-Qasim əl-Quşeyri. Bulaq, h. 1284.

73. Lisan əl-Ərəb. -Lisan əl-ərəb li-l-imam əl-əllamə Əbilfadl Cəmalləddin Məhəmməd b. Mükərrəm əl-məruf bi ibn Mənzur əl-ifriqi əl-Misri. 1-20. Bulaq h. 1300-1307.

74. əl-Mavərdi. Əl-Əhkam.-Maverdii constitutiones political. Ex recesione M. Engeru Accedunt adnotationis et glossarium. Bonnae, 1853.

75. Məqamat-i xacə Nəqşbənd.-Əbu-l-Möhsin Məhəmməd-Bəkir b. Məhəmmədəli. Məqamat-i həzrəti xacə Nəqşbənd. Buxara. h. 1327.

76. əl-Mqdisi. Əl-Bəd`.-Le Livre de la Cretion et de L` Histoire d`Abou Zaid A.b.Sahl al-Balkhi. Publ. Et trad. Par Cİ. Huart. 1-6. P., 1988-1919.

77. əl-Məkki. Kut əl-qulub.-Kitab kut əl qulub fi məamilə əl-məhbub va vasf tariq əl-mudir ilə məqam ət-tövhid li seyyidinə... Əbi Talib Məhəmməd b. Əbi –l-Həsən Əli b. abbas əl-Məkki. 1-2. Misir, h. 1310.

78. Malik b. Ənəs. Əl-Müvəttə.-Kitab əl-Müvəttə li-l-imam Məhəmməd. Kazan, 1909.

79. əl-Məs`udi. Muruc.-Macoudi. Les Prairies d`or. Texte et traduction par C.Barbier de Meynard et Pavet de Courteille. 1-9. P., 1869-1877.

80. Məsuməli Şah. Təraiq. - Məsuməli Şah Nimətallahi əş-Şirazi. Təraiq əl-həqaiq. 1-3. Tehran, h. 1313-1319.

81. Əl-Məturudi. Ət-Tövhid. -Əl Məturudi. Kitab ət-tövhid. Beyrut, 1970.

82. Mahmud Çuras. - Şah Mahmud ibn Mirzə Fazil Çuras. Xronika. Tənqidi mətn, tərc, şərh, göstər. O.F.Akimuşkikinindir. M.1976.

83. Əl-Müfid. Əvail.-Əvail əl-məqalat fi-l-məzahib va-l-muxtarat. Təlif…əş-Şeyx əl-Müfid Məhəmməd ən-Numan. Təbriz.h.1371.

84. əl-Müfid. Şərh.-Şərh əqaid əs-sədduk ey təshih əl-i′tiqad. Təlif… əş.Şeyx əl Müfid Məhəmməd b.Nü′man, 2-ci nəşri. Təbriz, h.1371.

85. əl-Mühasibi. Kitab ət-təvəhhüm.-Al-Mühasibi. Kitab al-tavahhum. Trad de Larabe et annote par A.Roman. P., 1978.

86. ən-Nəcaşi. Əl-Ricəl. Kitab ər-ricəl li-Əbi-l-Abbas Əhməd b.Əli ən-Nəcaşi [y.y.i.y].

87. ən-Nəsəfi. Əqaid. Əl-Əqaid-ən nəsəfiyyə li-Umar b. Məhəmməd ən-Nəsəfi-Məcmu muhimmət əl-mutun yəştəmilu alə sittə va sittinə mətn fi muxtəlif əl-funun va-l-ulum. 4-cü nəşri. Qahirə, 1369/1949, 27-34.

88. ан-Наубахти. Шиитские секты. Əl-Həsən ibn Musa ən-Naubəxti. Şiitskie sektı. Ərəb.tərc, tədq və şərh S.M.Prozorovundur. Ş.1973 (PPV, XLIII).

89. ən-Naşi əl-Əkbər. Məsail əl-imamə.Ən-Naşi əl-Əkbər. Məsail əl-imamə va Muktətafat min əl-Kitab əl-övsat fi-l-məqalat. Beyrut, 1971.

90. Nuzhət əl-qulub.Nuzhat al-Qulub. Composet by Hamd Allah Mustavfi of Qazvin in 740 (1340) ed. by Le Strange. London-Leyden, 1915.

91. Parsa. Ənis ət-talibin.Məhəmməd Parsa əl-Buxari. Ənis ət-talibin va uddət əs-salikin. Len.Döv.Univ. əl yazısı, № 386, 168a-227a.

92. Rəşəhat.Fəxrəddin Əli b. Hüseyn Kaşifi Vaiz. Rəşəhat ayn əl-həyat. Lakhnau, Navalkişor,1897.

93. Risale-yi qüdsiyyə.Xacə Məhəmməd Parsa. Risale-yi qüdsiyyə. Məqamat-i xacə Nəqşbənd, 37-137.

94. əs-Sə'ləbi. Qısas.Kitab qısas əl-ənbiya əl-musəmmə bil-arais. Təlif…Əbi İshaq Əhməd b.Məhəmməd b.İbrahim əs-Sələbi.Misir, h.1324.

95. Sədr əş-şəria. Müxtəsər-Müxtəsərul viqayət və ya qıs. Viqayət. Hənəfi məktəbi müsəlman qanunçuluğu təlimi. Nəsri Mirzə Aleksandr Kazım-Bəy. Kazan, 1845.

96. əs-Sarrac. Əl-Luma'.-The Kitab əl-Luma fi-l-Tasawwof of abu Nasr Abdallah b. Abi al-Sarraj al-Tusi Ed. for the firse time, with critical notes abstract of contents, qlossary, and indices by R.A.Nicholson. Leyden, London, 1914.

97. əs-Səfədi, Əl-Vafi.İbn Aibak as-Safadi. Das biographischo Lexion. Hrsg.von S.Dedering. 4.Wiesbaden, 1959.

98. əs-Sicistani.Əl-Mu'ammarin. Kitab əl-muəmmarin min əl-ərəb va tərəf min əxbarihim bi təshih va tə'liq…Əbi Xatim Səhl b.Məhəmməd b.Usman əs-Sicistani əl-Bəsri [y.y.i.q].

99. Siyasət-namə. Siyasət-namə. Təlif-i xacə Nizaməlmülk.Tehran 1346/1967.

100. əs-Subki. Təbəqat.Təbəqat əş-şafeiyyə əl-kubra li…Əbi Nasr Əbdulvəhhab b. Təqiəddin əs-Subki 1-b Misir, h 1324.

101. əs-Süləmi. Təbəqat.Abi Abd al Rahman Muhammad b. al Husain… al-Sulami. Kitab. Tabaqat əl-Sufiyya. Texte arabe avec une introduction et index par Pedersen. Leiden, 1960.

102. əs-Söhrəverdi. Məcmuə. Şihabəddin Yəhya Söhrəverdi. Oeuvres philosophiques et mystiques. Textes edites avec Prolegomenes en francias par Henry Corbin. 1-3. Teheran, Paris, 1976-1977.

103. ət-Təbəri. Tarix. – Annales quos cripsit Abu Djafar Mohammed ibn Djarir at Tabari cum al aliis ed. M.J. de.Goeje, series 1-3. Lugdini Batavorum, 1879-1901.

104. ət-Təbəri. Təfsir.-Kitab cəmi əl-bəyan fi təfsir əl-Quran. Təlif…Əbi Cəfər Məhəmməd b.Cərir ət-Təbəri. 1-30. Bulaq, H 1323-1329.

105. Tac əl-ərus.-Şərh əl-qamus əl-musəmmə Tac əl-ərus min cavahir əl-qamus Əbi-l-Feyyiz əs-Səid Məhəmməd Murtaza əl-Huseyni əl-Vasiti ər -Zabidi əl-Hənəfi. 1-10. Qahirə h.1306-1307.

106. ət-Tai. Tə'lim. -Əbdül Cabbar ət-Tai. Tə'lim əs-salat. Bağdad [y.].

107. ət-Təftəzani. Şərh.-Ət-Təftərani. Şərh əqaid ən-Nəsəfi.Kazan, 1910.

108. ət-Təhənavi. Kəşşaf.-Kəşşaf istilahat əl-funun. Təlif əş-şeyx Məhəmməd Əli b.Əli ət-Təhənavi. 1. İstanbul, h.1317.

109. ət-Tehrani. Təbəqat.-Əş-Şeyx Ağa Bozorq ət-Tehrani. Təbəqat ə'lam əş-şiə. 4-5. Tehran, 1971.

110. ət-Tirmizi. Xətm. – Al-Tirmidi. Kitab hatm al-awliya. Ed par O. Yahya Beyrouth, 1965.

111. Xəzinat.- Qulam Sərvər Lahuri. Xəzinat əl-əsfiya. 2-ci nəşri. 1-2. Kanpur, 1902.

112. əl-Hakim. Əl-Mücəm. - S. əl-Hakim. Əl-Mücəm əs-sufi. Beyrut, 1981.

113. Xandəmir. Həbib.-Tarix-i Həbib əs-siyar fi əxbar əfrad bəşər. Təlif-i Qiyasəddin b.Humaməddin məşhur ba Xandəmir. Ba müqəddəmey-i Cəlaləddin Humai. 1-4.Tehran, 1333/1954.

114. əl-Hücviri. Kəşf.-В.А.Жуковский. Раскрытыие скрытого за завесой (Кяшф ал-мяхджуб) Абул-л-Хасана Али Османа ибн Али аль-Джуллаби аль-Худжвири аль Газнави. Перс. текст, указ. и предисл. Л., 1926.

115. Xülasə. Xülaseyi-i şərh-i tə'arruf. Ba təshih duktur Əhməd, Əli Racai. Tehran, 1349/1970.

116. əş-Şeybani. Əl-Asar.-Kitab əl-asar li-l-imam əl-hafiz … Məhəmməd b.əl-Həsən əş-Şeybani.1. Kəraçi, 1385/1965.

117. əş-Şeybani. Əl-Asl.-Kitab əl-asl li-l-imam Əbi Abdullah Məhəmməd b. Əl-Həsən əş-Şeybani əl-mutəvaffi sənə h. 189, 1-2. Heydərabad, 1386-1388 h.

118. əş-Şeybani. Əl-Cami əs-səğir.-Kitab əl-cami əs-səğir fi-l-fiqh li… Məhəmməd b. Əl-Həsən əş-Şeybani. Misir., h 1302.

119. əş-Şə'rani. Təbəqat.-Ət-Təbəqat əl-kubra li…Abdəlvəhhab əş Şə'rani. 1-2. Misir, h.1315.

120. əş-Şafei. Ər-Risalə.-Məhəmməd b. İdris əş-Şafei. Ər-Risalə fi ilm əl-üsul. Qahirə, 1940.

121. Əş-Şəhrəstani. Kniqa o reliqiyax. – Məhəmməd ibn Abdəlkərim əş-Şəhrəstani. Книга о религиях и сектах (Kitab əl-miləl va-n-nihəl). 4/1. Ислам. Пер. с араб. введ. и коммент. С.М.Прозорова М., 1984 (ППВ, LXXV).

122. Əş-Şəhrəstani. Əl-Miləl.-Kitab əl-miləl va-n-nihəl li-l-imam Əbilfəth Məhəmməd b.Abd Əl-Kərim əş-Şəhrəstani. Təhqiq-Məhəmməd Gilani. 1-2. Qahirə, 1381-1961.

123. Əş-Şəhrəstani. Nihayət əl-iqdam.-Al-Shahrastani. Kitab nihayatu-l-iqdam fi ilmi-l-kalam. Ed. With a transl. by A.Guillaume L., 1934.

124. əş-Şibli. Aqam əl-mərcan.-Kitab aqam əl-mərcan fi əhkam əl-cann. Təlif…Bədrəddin Əbi Abdullah Məhəmməd b. Abdullah əş-Şibli əl-Hənəfi. Misir, h.1326.

125. Şirvani. Bustan.-Zeynəlabidin Şirvani Məstəlişah. Bustan əs-siyahə. Tehran, h.1315.

126. əş-Şüştəri. Məcalis.-Məcalis əl-möminin. Təlif-i Nurullah b. Şərif əl-Hüseyni əl-Mərəşi əş-Şüştəri. Tehran, h. 1268, 1299 (litoqrafiya).

127. Abdel-Kader.-The Life, personality and writings of al-Junayd. A Study of a thrid/ninth century mustic wiht an edition and translation of his writings by Ali Hassan Abdel-Kader. L., 1962.

128. Amoli La philosophie-Sayyed Haydar Amoli (VIII$^{e}$/XIV$^{e}$ siecle). La philosophic shi'-ite. 1. Somme dis doctrines esoteriques (Jami' al-asrar). 2. Traite de la connaisance de I'etre (Fi ma'rifat al-wojud). Textes publies avec une double introduction et index par Henry Corbin et Osman Yahia. Teheran, Paris, 1969.

129. Aubin. Materiaux.-Materiaux pour la biographie de Shah Nimatullah Vali Kermani. Textes persans publies aves introduction par Jean Aubin Teheran-Paris, 1956.

130. Awarif al maarif.-Die Gaben der Erkenntnisse des Umar as-Suhrawardi. Ubersetzt und eingeleitet von R.Gramlich. Wiesbaden, 1978.

131. Djami. Nafahat.-The Nafahat al-Ons min Hadarat al Qods, of the Lives of the Soofis by Mawlana Nooraddin Abd al-Rahman Jami. Calcutta, 1859.

132. Cuillaume. Muhammed.-The Life of Muhammed. A Translation of İshaq's Sirat Rasul Allah with introduction and notes by a.Guillaume. L., 1955.

133. Hallaj. Al-Tawasin. - Hallaj. Kitab al-tawasin. Ed. et introd. par P. Nwyia. Ed.nouvelle. - MUSJ. 1972, 47, 183-237.

134. al-Haravi. Guide-Al Haravi Ali b. Abi Bakr. Guide des lieux de pelerinage. Texte arabe etabli par J.Sourdel-Thoumine. Damas, 1953.

135. Hudud al-'alam.-Hudud al-'alam «The regions of the world»: A persion geography 327 A.H.-982 A.D.Transl and explained by V.Minorsky with the preface by V.V.Bartold transl.from the russian. Oxf., 1937.

136. al-Hujwiri. Kashf. -The Kashf al-Mahcub: The Oldest persion treatise on sufizm by Ali b. Uthman al Jullabi al-Hujwiri. Transl from the text of the Lahore Edition, compared with miss in the İndia office and British Museum. New ed bu Reynold A.Nicholson. L. 1936.

137. İbn Arabi. Bezels.-İbn al-Arabi. The Bezels of Wisdom. Transl. And introd by R.W.Austin. Preface by Titus Burchhardt N.Y.1980.

138. İbn Battuta. Travels.-Travels of İbn Battuta. Transl. H.A.R.Gibb. 1-2. Hakluyt society ser. L., 1958, 1962.

139. İbn Jubayr. Travels.-The Travels of İbn Jubayr. Ed.from a Ms. in the University Library of Leyden by W.Wright.Second ed. revised by M.J. de Goeje. Leiden – London, 1907.

140. İbn Khallikan. Dictionary. İbn Khalliuan's Biographical Dictionary. Transl. from the Arabic by, Bn Mac Guckin de Slane. 1-4, P., 1842-1871.

141. Muslim Sints. -Muslim Saints and Mystics: Episodes from the Tadhkirat al-auliya by Faridaddin Attar. Transl. bu A.J.Arberry.London-Boston, 1966.

142. Wüstenfeld. Die. Chroniken.-F.Wüstenfeld. Die Chroniken der Stadt Mekka. 1-4. Lpz, 1857-1861.

143. Zaid ibn Ali. Corpus juris. – «Corpus juris» di Zaid ibn Ali (VIII sec. cr). Testo arabo publ…con introd, storica, apparato critico e indici analitici da Eugenio Griffini. Milano, 1919.

# ƏDƏBİYYAT


1. Бартольд. Соч. – В.В.Бартольд. Сочинения 1-9., М, 1963-1977.

2. Бертельс. Суфизм – Е.Э.Бертельс. Избранные труды. Суфизм и суфийская литература. М., 1965.

3. Босворт. Династи. -К.Э.Босворт. Мусульманские династии: Справочник по хронологии и генеалогии. Пер. сангел.примеч. Т.А.Грязичева. М., 1971.

4. Винников. Легенды. -И.Н.Винников. Легенды о призвании Мухаммеда в свете этноградфии. – С.Ф.Ольденбургу: Сборник статей. М., 1934, 125-146.

5. Гибб. Историография. – Х.А.Р.Гибб. Мусульманская историография. Пер.с.англ. Т.А.Грязничева-Х.А.Р.Гибб. Арабская литература: Классический период, М., 1960, 117-156.

6. Гольдциер. Культ святых. – И.Гольдциер. Культ святых в исламе (Мусульманские эскизы) М., 1938.

7. Гордлевский. Бахауддин Накшбанд.-В.А.Гордлевский. Бахауддин Накшбанд Бухарский. - Избранные сочинения. 3. М., 1962, 369-386.

8. Григорян. Философия. – С.Н. Григорян. Средневековая философия народов Ближнего Востока. М., 1966.

9. Демидов. Суфизм. – С.М.Демидов. Суфизм в Туркмении (эволюция и пережитки) Аш., 1978.

10. Дорошенко. Духовенство.- Е.А. Дорошенко. Шиитсокое духовенство в современном Иране. 2- изд, М., 1985.

11. Жузе. Му'тазилиты. – П.К.Жузе Му'тазилиты (течение в исламе в IX в). Казань, 1899 (Миссионерский противомусульманский сборник, 22).

12. Иванов. Бабидские восстания.- М.С.Иванов. Бабидские восстания в Иране: 1848-1852. Л, 1939.

13. Иванов. Очерк. – М.С.Иванов. Очерк истории Ирана. М., 1952.

14. Ислам. -Ислам: религия, общество, государство. М., 1984.

15. Ислам в истории народов Востока.-Ислам в истории народов Востока. М., 1981.

16. Касымжанов. Аль-Фараби.-А.Х.Касымжанов. Абу Наср аль – Фараби. М., 1982.

17. Кныш. Мировоззрение.-А.Д.Кныш.Мировоззрение Иби Араби.- Религии мира, 1984.

18. Кныш. Проблемы. – А.Д.Кныш. Некоторые проблемы изучения суфизма. – Ислам, 87-95.

19. Кузнецова. Иран.-Н.А.Кузнецова. Иран в первой половине XIX века. М, 1983.

20. Лундин. «Дочери бога». - А.Г.Лундин. «Дочери бога» в южноаравийских надписях и в Коране. – ВДИ. 1975, 2, 124-131.

21. Лэйн. Нравы. – Э.У. Лэйн. Нравы и обычаи египетян в первой половине XIX в., М., 1982.

22. Массэ. Ислам. – А.Массэ. Ислам: Очерк истории. М., 1961.

23. Медников. Палестина. – Н.А.Медников. Палестина от завоевания её арабами до крестовых походов по арабским источникам. 1. Исследование источников. С.П.Б., 1902. Приложения. 2(1-3). С.П.Б, 1897.

24. Мец. Ренессанс. -А.Мец. Мусульманский ренессанс. 2-е изд., М., 1977.

25.Миклухо-Маклай. О происхождении. – Н.Д.Миклухо-Маклай. О происхождении «Дополнения» к «Тазкират ал-аулийа» Аттара.-КСИВ. 1956, 22, 1927.

26. Мусульманский мир. - Мусульманский мир: 950-1150, М, 1981.

27. Петрушевский. Земледелие.- И.П. Петрушевский. Земледелие и аграрные отношения в Иране XIII-XIV веков. М.-Л., 1960.

28. Петрушевский. Ислам. – И.П.Петрушевский. Ислам в Иране в VII-XV веках (курс лекций). Л., 1966.

29. Пиотровский. Движение.- М.Б. Пиотровский. Пророческое движение в Аравии VII в.-Ислам, 19-27.

30.Пиотровский. Мухаммед. – М.Б. Пиотровский. Мухаммед, пророки, лжепророки, кахины. - Ислам в истории народов Востока, 9-18.

31. Проблемы. – Проблемы арабской культуры. Памяти академика И. Ю.Крачковекого. М., 1987.

32. Прозоров. Доктрина.- С.М.Прозоров. Шиитская (имамитская) доктрина верховной власти.-Ислам, 204-2011.

33. Прозоров. Правоверие. – С.М.Прозоров. К вопросу о «правоверии» в исламе: покнятние ахл ас-сунна (сунниты). Проблемы, 213-218.

34.Прозоров.Шиитская историография-С.М.Прозоров.Арабская историческая литература в Ираке, Иране и Средней Азии в VII-середипе X в.: Шиитская историография.М., 1980.

35. Резван. Исследования. – Е.А.Резван. Исследования по терминологии Корана: сура,'абд (ибад, 'абид) [Аллах], умма-16:121/120.-Проблемы, 219-231.

36. Религии мира, 1984.-Религии мира: История и современность. Ежегодник. 1984. М., 1984.

37. Ринка. История. -Ян Ринка. История персидской и таджикской литературы. Пер.с.чешского. Ред. и автор. предисл. И.С.Брагинский. М., 1970.

38. Родионов. Марионеты. – М.А.Родионов. Марионеты: Из этноконфессиональной истории Восточного Средиземноморья М., 1982.

39. Роузентал·Торжество знания.- Ф.Роузентал. Торжество знания: Концепция знания в средневековом исламе. Пер.с.англ. С.А.Хомутова М., 1978.

40. Сагадеев. Ибн Рушд.– А.В.Сагадеев. Ибн Рушд (Аверроэс) М., 1973.

41. Сагадеев. Ибн Сина. – А.В.Сагадеев. Ибн Сина (Авиценна)·2-е изд., М., 1985.

42. Семенов. Бухарский шейх. – А.А.Семенов. Бухарский шейх Бахауддин. 1318-1389.(К его биографии). -Восточный сборник в честь А.Н.Веселовского. М., 1914, 202-211.

43. Семенова. Салах ад-дин. Л.А. Семенова. Салах ад-дин и мамлюки в Египте ·М., 1966.

44. Сюкиянен. Право.-Л.Р. Сюкиянен. Мусульманское право: Вопросы теории и практики ·М., 1986.

45. Тверитинова. Версия. А.С.Тверитинова. Фальсифицированная версия о турецком халифате.- Изв. ИООН АН Тадж. ССР 1954, 5.167-180.

46. Шмидт. Абдал-Ваххаб-А.Э.Шмидт. Абдал Ваххаб аш-Ша'рани (973-1565) и его книга рассыпанных жемчужин. С.П.Б., 1914.

47. Абу Захра. Абу Ханифа.- М.Абу Захра. Абу Ханифа: Хайатиху ва асруху-арауху ва фикхуху. Каир, [i.y.]

48. Абу Захра. Ас-Садик.-М.Абу Захра. Ал-Имам ас-Садик: Хайатуху ва асруху-арауху ва фикхуху [Каир, б.г.].

49. Абу Захра. Тарих ал-мазахиб. - М.Абу Захра.Тарих ал-мазахиб ал-исламиййа 1-2, Каир, [i.y.].

50. Бадави. Ал-Илхад.-А.Бадави. Мин тарих ал-илхад фи-л-ислам. Бейрут, 1945.

51. Бадави. Мазахиб.- А.Бадави. Мазахиб ал-исламиййин. 2-е изд. 1. Бейрут, 1979.

52. Бадави. Шатахат.- А.Бадави. Шатахат ас-суфиййа. Каир, 1949.

53. Галиб. Ал-Харакат ал-батиниййа. М.Галиб. Ал-Харакат ал-батиниййа фи-л-ислам. Бейрут, [i.y.].

54. Зайдан. Тарих.- Дж. Зайдан. Тарих ат-тамаддун ал-ислами.1.-2. Каир, 1935, 1947.

55. Зарринкуб. Арзиш.-А.Зарринкуб. Арзши-и мирас-и суфиййа. Тегеран, 1344/1965.

56. Ирфан.Дирасат.-Абдал-Хамид Ирфан. Дирасат фи-л-фирак ва-л-'акаид ал-исламийа. Багдад, 1387/1967.

57. ал-Китаб ат-тизкари.-Ал-китаб ал-тизкари: Мухйиддин Ибн Араби. Фи-з-зикра ал-ми’аийа ал-самина лимиладихи 1165-1240. Каир, 1969.

58. Мубарак. Ат.Тасаввуф.-З.Мубарак. Ат-Тасаввуф ал ал-ислами фи-л-адаб ва-л-ахлак. Бейрут [i.y.].

59. Мударрис. Рейханат ал-адаб.- Мухаммад-Али Мударрис. Рейханат ал-адаб фи тараджум ал-ма'руфин би-л-кунйа ау ал-лакаб. 1-8. Тебриз. h.1347.

60. Мударриси. Сильилаха. - Нураддин Мударриси. Чахардахуми. Силсилаха-йи суфийа-йи Иран. -Тегеран, х.1360.

61. ан-Нашшар. Наш'ат.-А.ан-Нашшар. Наш'ат ал-фикр ал-фалсафи фи-л –ислам. 7-е изд. Каир, 1977.

62. Талиби. Хаваридж.-А.Талиби. Ар'ау-л-хаваридж ал-каламийа. 1-2. Алжир, 1398/1978.

63. Файйад. Тарих ал-имамийа.-А.Файйад. Тарих ал имамийа ва аслафихим мин аш-ши′а. 2-е изд. Багдад, 1975.

64. Фарузанфар. Рисала.-Бади' аз-заман Фарузанфар. Рисала дар тахкик-и ахвал ва зиндигани-йи маулана Джалаладдин Мухаммад машхур ба Мавлави. -Тегеран, 1315 [1936].

65. ал-Хаким. Ал-Усул.- М.Таки ал-Хаким. Ал-Усул ал-'амма ли-л-фиких ал-мукаран. Бейрут, [1963].

66. Хилми. Ибн Таймийа.- М.Хилми. Ибн Таймийа ва-т-тасаввуф. Алксандрия, 1982.

67. Хуласа. -Хуласа-йи шарх-и та′арруф. Ба тасхих Ахмад Али Раджаи. Тегеран, 1349/1970.

68. Mahmassani. Falsafat al-tashri.-Falsafat al-tashri fi al-İslam. The Philosophy of Juricprudence in İslam by S.Mahmassani. Transl. by Farhat J.Ziadeh, Leiden, 1961.

69. Abbot. Studies.-Studies in Arabic Literary Papyri. 2. Qu’ranic Commentary and Tradition by Nabia Abbot. Chikago, 1967.

70. Abu Zahra. Famili Law. - Law in the Middle East, 132-178.

71. Afifi. The Mystical Philosophy.-A.Afifi. The Mystical Philosophy of Muhyiad-Din İbn al-’Arabi. Cambrige, 1939.

72. Ahmad. Sufi and Sultan.-A.Ahmad. The Sufi and the Sultan in pre-mu - ghal myslim İndia.-Dl.1963, 38/1-2, 142-153.

73. Akten.-Akten des VII. Kongresses für Arabistik und İslamwissenschaft. Gottingen, 15. bis 22, August 1974. Hrsg. von A.Dietrich. Gottingen, 1976.

74. Algar. Bibliographical notes. – H.Algar. Bibliographical notes on the Nagshbandi tarigat.-Essays on İslamik philosophy and science ed·by G.F.Hourani. Albany, 1975, 254-259.

75. Algar. Dhikr.- H.Algar. Silent and vocal dhikr in the Nagshbandi order.- Akten, 39-46

76. Algar. Observations. – H.Algar. Some observations on religion of Safavid Persia.-İSt. 1974, 7, 1-2.

77. Allard. Le probleme. – M.Allard. Le probleme des attributs divins dans la doctrine d'al As′ari et de ses premiers disciples. Beirut, 1965.

78. Amoretti. Proposito.-B.Scarcia Amoretti. A proposito di una possibile versione del «Trattato dei dieci principi» di Nağm al-Din al-Kubra.-RSO. 1974, 48, 99-108.

79. Anawati, Gardet. Mystique. – G.C Anawati, L.Gardet. Mystique musulmane: Aspects et tendences, experiences et techinques. 3-e ed.P, 1976.

80. Andrae. Ursprung.-T.Andrae. Der Ursprung des İslams und das Christentum. Uppsala-Stockholm, 1926.

81. Arberry. Doctrine.-A.J.Arberry. The Doctrine of the Sufis. Cambridge, 1935.

82. Ayoub. Suffering.-M.Ayoub. Redemptive Suffering in İslam: A Study of the Devotional Aspects of Ashura in Twelvers Shi'ism. The Hague, 1978 (Religion and Society. 10).

83. Baldick. Literature.-J.Baldick. Medieval sufii literature in prose.-History of Persian Literature from the begining of the İslamic period to the present day with contributions by G.Morrison, İ.Baldick and Sh.Kadkani. Leiden- Köln, 1981, 85-109, 113-132.

84. Beck. Gestalt. – E.Beck. Die Gestalt des Abraham am Wendepunkt der Entwicklung Muhammeds: Analyse von Sure 2, 118(124)-135(141).-Le Museon. Louvain, 1952, 65, 79-94.

85. Bel. Religion.-A.Bel. La religion musulmane en Berberie: Esquisse d'histoire et de sociologie religieuses. 1.Etablissement et developpement de L'İslam en Berberie du VII$^{e}$ au XX$^{e}$ siecle P, 1938.

86. Bell-Watt. İntroduction. – W.M.Watt. Bell's İntroduction to the Qur'an: completely revised and enlarged. Edinburgh, 1970.

87. Beltz. Sehnsucht.-W.Beltz. Sehnsucht nach dem Paradies. B, 1979.

88. Birge. Bektashi Order. – J.K.Birge. The Bektashi Order of Dervishes. L., 1937.

89. Blachere. İntroduction.-R.Blachere. İntroduction au Coran. P, 1947.

90. Böwering. Mystical Vision. – G.Böwering. The Mystical Vision of Existence in Classical İslam: The Qur'anic Hermeneutics of the Sufi Sahl al-Tustari (d.283/896) B., N.Y., 1980.

91. Bravmann. Background. -M.M.Bravmann. The Spiritual Background of Early İslam. Leiden, 1972.
92. Brown. Darvishes. -The Darvishes or Oriental Spiritualism by John P.Brown.Ed. with an İntroduction and Notes by H.A.Rose.L., 1968.
93. Browne. History. -E.G.Brown. A History of Persian Literature under Tartar Domination (A.D.1265-1502). Cambridge, 1920.
94. Caetani. Annali. – L.Caetani. Annali dell'İslam. 1-2. Milano, 1905-1907.
95. Change. – Arab culture and society in change. Apartially annotated biblilgrapnly of books and articles in English, French, German and İtalian. Beirut, 1973.
96. Chodkiewicz. Sceau – M.Chodkiewicz. Le sceau des saints: prophetie et saintete dans la doctrine d'İbn 'Arabi. P.,. 1986.
97. Cook. Dogma. – M.Cook. Early Muslim Dogma: a Source – Critical Study. Cambridge, 1981.
98. Corbin. En İslam. – H.Corbin. En İslam iranien: Aspects spirituels et philosophiques. 1-4. P, 1978.
99. Corbin. İmagination. – H.Corbin. L'imagination creatrice dans le soufisme d'İbn 'Arabi. P., 1958.
100. Creswell. Account. – K.A.Creswell. A short account of early muslim architecture. Penguin boks, 1958, 17-40.
101. Denny. Ummah. – F.M.Denny. The meaning of Ummah in the Qur'an. – HR. 1975, 15/1, 34-70.
102. Dilemmas. -İslamic Dilemmas. Reformers, Nationalists and İndustrialization: The Southern Shore of the Mediterranean. Ed.by E.Gellner. Berlin, N.Y., Amsterdem, 1985.
103. Diamand. Handbook. – M.S.Diamand. A Handbook of Muhammadan art. N.Y., 1947.
104. Donaldson. The Wild Rue. – B.A.Donaldsan. The Wild Rue: A Study of Muhammadan Magic and Folklore in İran L., 1938.
105. Doutte. Magie. – Magie et religion dans L'Afrique du Nord par E.Doutte. Alger, 1909.
106. Dozy. Supplement.. R.Dozy. Supplement aux dictionnaries arabes. 1-2. Leyde, 1881.
107. Eichler. Die Dschinn. Teufel und Engel im Koran von P.A.Eichler. Lpz., 1928.
108. Eickmann. Die Angelologie. Die Angelologue und Dimonologue des Korans im Vergleich zu der Engel –und Geisterlehere der Heiligen Schrift von Dr. Walther Eickmann. N.Y., Lpz., 1908.
109. Eisenberg. Abraham – J.Eisenberg. Abraham in der arabischen Legende. [y.m.d.], 1912.

110. Eisenberg. Moses.-J.Eisenberg. Moses in der arabischen Legende [y.i.m.d].

111. Eklund. Resurrection. – R.Eklund. Life between Death and Resurrection according to İslam. Uppsala, 1941.

112. Elaboration. – L'elaboration de L İslam: Colloque de Strasbourg. 12, 13-14 juin 1959 P., 1961.

113. van Ess. Die Erkenntnislehe. – J.van Ess.Die Erkenntnislehre des Adudaddin al-İgi. Wiesbaden, 1966.

114. van Ess. Une lecture. – J. van Ess. Une lecture a rebours de L'histoire du Mutazilisme. – REI, 1979, 67/1, 40-65.

115. Fahd. Divination. – T.Fahd. La divination arabe: Etudes religieuses, sosiologiques et folkloriques sur le milieu natif de L'İslam. Strasbourg-Leide, 1966.

116. Fahd. Le panteon. – T.Fahd. Let panteon de L'Arabie Centrale a la veille de L'hegire. P., 1968.

117. Fasa'i. – History of Persia under Qajar Rule. Trans. from the Persian of Hasan-e Fasa' is Farsnama-ye Naseri by H.Busse. L., 1972.

118. Fattal. Statut.-A.Fattal. Le Statut legal des nonmusulmans en pays d'İslam. Beyrouth, 1958.

119. Friedlaender. Chadhirlegende. – Die Chadhirlegende und der Alexanderroman. Eine sagengeschichtliche und literarhistorische untersuchung von. Friedlaender. Lpz., B., 1913.

120. Gardet. Anawati. İntroduction. -L.Gardet, G.C.Anawati. İntroduction a la theologie musulmane. P., 1994.

121. Gätje. Koran.-H.Gatje. Koran und Koranexegese Zurich und Stuttgart, 1971.

122. Gaudefroy-Demombynes. Mahometi. – M.Gaudefroy-Demombynes. Mahomet. P., 1969.

123. Gaudefroy-Demombynes. Pelerinage. – M.Gaudefroy-Demombynes. Le pelerinage a la Mekke: Etude d'histoire relegieuse P., 1923.

124. Gilsenan. Trajectories. – M.Glisenan. Trajectories of contemporary Sufizm. – Dilemmas, 187-198.

125. Goitein. Society. – S.D.Goitein. A Mediterranean Society: The Jewish communities of the Arab world as portrayed in the documents of the Cairo Geniza. 2. Los Angeles, 1971.

126. Goldziher. Richtungen. -I.Goldziher. Die Richtungen der islamishen Koranauslegung. Leiden, 1920.

127. Goldziher. Vorlesungen. – I.Goldziher. Vorlesungen über den Islam. Heidelberg, 1910.

128. Goldziher. Die. Zahiriten. – Die Zahiriten, ihr Lehrsystem und ihre Geschichte. Beitrag zur Geschichte der muhammedanischen. Teologie von Dr.gnaz Goldziher Lpz., 1884.

129. Gramlich. Derwischorden. - R.Gramlich. Die schitischen Derwischorden persiens. 1-3. Wiesbaden, 1965, 1976, 1981.

130. Gril. Personnage. -D.Gril Le personnage coranique de Pharaon d'apres Ibn Arabi. – BEO. 1977, 29, 179-187.

131. Grünbaum. Beiträge. -M.Grünbaüm. Neue Beiträge zur des semitischen Sagenkunde. Leiden, 1893.

132. Grünebaam. Document.- G.E. von Grünebaum. A tenth centry document of arab literary theory and criticism: The Section of poetry of al-Bagillani's I'jaz al-Qur'an. Chicago, 1950.

133. Grünebaum. Festivals. – G.E.Grünebaum. Muhammadan Festivals. U.Y., 1951.

134. Handwörterbuch. -Handwörterbuch des Islam. Leiden, 1941.

135. Hartmann. Risalat.-R.Hartmann. As-Sulami's Risalat al-malamatija.-D1. 1918, 8, 157-203.

136. Heyd. Studies.-U.Heyd. Studies in Old Ottoman Criminal Law. Ed.by V.L.Menage. Oxf., 1973.

137. Hodgson. Venture.-The Venture of İslam: Conscience and History in a World Civilization. M.G.S. Hodgson.1-2. Chicago and London, 1974.

138. Horovits. Himmelsfahrt. – J.Horavitz. Muhammeds Himmelsfahrt.-D1, 1919, 9, 159-183.

139. Horovitz. Untersuchungen. – Koranische Untersuchungen von Josef Horovitz, B., Lpz., 1926.

140. Hourani. Rationalism.-G.Hourani. Islamic Rationalism: the Ethics of Abd al-Jabbar. Oxf., 1971.

141. Hughes. Dictionary. – A Dictionary of Islam being a Cyclopaedia of the Doctrines, Rites, Ceremonies and Customs, together with the Technical and Theological Terms of the Muhammadan Religion by Thomas Patrick Hughes. L., 1895.

142. Izutsu. Study. – T.İzutsu. A comparative study of the key philosophical concepts in Sufism und Taoism. 1-2. Tokio, 1966.

143. Jabre·La notion. -F.Jabre. La notion de la Ma'rifa chez Ghazali. Beyrouth, 1958.

144. Jadaane. Revelation. – J.Jadaane·Revelation et inspiration en Islam.- St.1967, 26, 23-47.

145. Jeffery. Vocabulary. – The Foreign Vocabulary of the Qur'an. By A.Jeffery. Baroda, 1938.

146. Kister. Studies. – M.J.Kister Studies in Jahiliyya and Early İslam·L, 1980.

147. Lambton. State. – A.K.S.Lambton State and Government in Medieval İslam. N.Y., 1981.
148. Lane. Manners. – F.W.Lane. An Account of the Manners and Customs of the Modern Egyptians written in Egypt during the Years 1833 – 1835. L., 1860.
149. Laoust. Le hanbalisme. – H.Laoust. Le hanbalisme sous le caliphat de Bagdad (241/855-656/1258) – REI. 1959, 30, 67-128.
150. Laoust. Les premieres professions. -Laoust. Les premieres proffessions de foi hanbalites. – Melanges, 3,7-35.
151. Laoust. La profession. – H.Laoust. La profession de foi d'İbn Batta (Traditionniste et jurisconsulte musulman d'ecole hanbalite mort en İrak a 'Ukbara en 387/997). Damas, 1958.
152. Laoust. Les schismes. – H.Laoust. Les schismes dans L'İslam. P, 1983.
153. Law in the Middle East. -Law in the Middle East. Ed. by M.Khadduri and H.J.Liebesny. With a Foreword by J.R.H.Jackson. 1. Origine and Development of İslamic Law. Wash., 1955.
154. Levi-Provençal. Histoire. -E.Levi-Provençal·Hitoire L'Espagne musulmane 1-3. P., 1953.
155. Linant de Bellefondes. Traite. – Y.Linant de Bellefondes. Traite de droit musulman compare. 1-2. P., 1955.
156. Littmann. Ahmad il-Bedawi. – E,Littmann. Ahmad il-Bedawi: Ein Lied auf den ägyptischen Nationalheilingen. Mainz, 1950.
157. Lokkegaard. Taxation. – F.Lokkegaard. İslamic Taxation in the Classic Period: With Special Reference to Circumstances in İrag. Copenhagen, 1950.
158. Mahmasani. Transactions. – S.Mahmasani.Transactions in the Shari'a. – Law in the Middle East, 179-202.
159. Makdisi. Ash'ari. G.Makdisi. Ash'ari and the Ash'arites in İslamic Religious History. – Stl. 1962, 17, 37-80; 1963, 8, 19-39.
160. Makdisi İbn Agil. – G.Makdisi. Ibn Agil et la resurgence de L'Islam traditionaliste au XI siecle. Damas, 1963.
161. Makdisi. Rise. – G.Makdisi. The rise of colleges: İnstitutions of learning in İslam and the West. Edinburgh, 1981.
162. Massignon. Ana al-Haqq. -L.Massignon. «Ana al-Hagg»: Etude historique sur une formule dogmatique de theologie mystique d'apres les sources islamiques. Par L.Massignon. – D1. 1912, 3, 248-257.
163. Massignon.Essai.-Essai sur les origines du lexique techique de la mystique musulmane par L.Massignon. P., 1954.

164. Massignon. Passion. – La passion d'al – Hosayn-ibn Mansour ol-Hallaj martyr mysique de L'İslam execute Bağdad le 26 mars 922. Etude d'histoire religeuse par L.Massignon. 1-2 P., 1922.

165. Maydani. Penal Law. – R.Maydani. Uqubat: Penal Law. – Law in the Middle East, 223-235.

166. Melanges. – Melanges Louis Massignon. 2-3. Damas, 1956-1957.

167.Mole.Dare Mansour.-M.Mole.Autour du Dare Mansour: L'apprentissage mystique de Baha al-Din Nagshband._REI 1959, 1, 35-66.

168. Mole.Les Kubrawiya.-M.Mole.Les Kubrawiya entre Sunnisme et Shüsme aux huitieme et neuvieme siecles de l'hegire. – REI. 1961, 29, 107 passim.

169. Mole. Professions. – M.Mole. Professions de foi de deux Kubrawis: Ali-i Hamadani et Muhammad Nurbahs. – BEO. 1961-1962, 17, 133-204.

170. Nasr. Sufi Essays. – S.H.Nasr. Sufi Essays. N.Y., 1973.

171. Nicholson. Enquiry. – R.A.Nicholson. A Historical enquiry concerning the origin and development of sufism. – JRAS. 1906, 321-326.

172. Nicholson. Studies. -R.A.Nicholson. Studies in İslamic Mysticism. Cambridge, 1921.

173. Nöldeke. Beitrage. – Th. Nöldeke Beitrage zur Geschichte des Alexanderromans. Wien, 1890.

174. Nöldeke. Geschichte. – Th.Nöldeke. Geschichte des Qorans. 2. Aufl, bearb. von Fr. Schwally. 1-3 Lpz., 1909-1929.

175. Nwyia. Exegese. – P.Nwyia. Exegese coranique et langage mystique Beyrouth, 1970.

176. Nwyia. İbn Abbad.-P Nwyia. İbn Abbad de Ronda (1332-1390) un mystique predicateur a la Qarawiyin de Fes. Beyrouth, 1961.

177. Nyberg. Schriften. – H.S.Nyberg.Kleinere Schiften des İbn Arabi. Leiden, 1919.

178. Paret. Kommentar.-Der Koran. Komentar und Konkordanz von R.Paret. B., 1971.

179. Patton. Ahmad ibn Hanbal. – M.Patton. Ahmad ibn Hanbal and the Mihna. Leiden, 1897.

180. Pearson. İndex. – J.D.Pearson. İndex İslamicus. Cambridge.

181. Popoviç. Orders. – O.A.Popoviç. The contemporary situation of the muslim mystic orders in Yugoslavia. Dilemmas. – 240-254.

182. Predication. – Predication et propagande an Moyen Age: İslam, Byzans, Occident, P., 1983.

183. Proceedings.-Proceedings, 9 th, Congress of the Union Europeenne d'arabisants et d'islamisants. Amsterdam, 1978, Leiden, 1981.

184. Rahman. The Eternity. – F.Rahman. The Eternity of the World and the Heavenly Bodies in Post – Avicennian Philosophy. – Essays on İslamic Philosophy and Science. N.Y., 1975.

185. Ringgren. Studies.-H.Ringgren. Studies in Arabian Fatalism. Uppsala, 1955.

186. Rinn. Marabouts. – L.Rinn. Marabouts et Khouan. Alger, 1884.

187. Rizvi. Muslim revivalist. – Saiyid Athar Abbas Rizvi. Muslim revivalist movement in northern İndia. Agra, 1965.

188. Rudolph. Die Abhangikeit. – W.Rudolph. Die Abhangikeit des Qorans von Juatentum und Christentum. Stuttgart, 1922.

189. Schacht. Background. – J.Schacht. Pre-İslamik Background and Early Development of Jurisprudence. – Law in the Middle East, 28-56.

190. Schacht. İntroduction. -An İntroduction to İslamic Law by Joseph Schacht. Oxf., 1964.

191. Schacht. New Sources. – J.Schacht. New Sources for the History of Muhammadan Theology. – D1. 1953, 1, 23-42.

192. Schacht. The Schools of Law – J.Schacht. The Schools of Law and Later Developments of Jurisprudence. – Law in the Middle East, 57-84.

193. Schimmel. Dimensions. – A Schimmel. Mystical Dimensions of İslam. The University of North Carolina Press, 1975.

194. Schmidt. Die Occupatio. – F.F.Schmidt. Die Occupatio im islamischen Recht. – D1. 1910, 1, 300-353.

195. Schwarzlose. – Die Waffen. -F.W. Schwarzlose. Die Waffen der alten Araber aus ihren Dichtern dargestellt. Lpz., 1886.

196. Sell. Faith.-The Faith of İslam by E.Sell. 2 d ed., revised and enlarged. L., l, 1896.

197. Le shi'isme imamite. – Le shi'isme imamite: Colloque de Strasbourg (6-9 mai, 1968), P., 1970.

198. Sidersky. Les origines. – D.Sidersky. Les origines des legendes musulmanes dans le Coran P., 1935.

199. Snouck - Hurgronje. Feest. – C.Snouck-Hurgronje. Het Mekkaansch Feest. Leyden, 1880.

200. Snouck – Hurgronje. Mekka. – C.Snouck-Hurgronje. Mekka. 1-2. Haag, 1888-1889.

201. Sourdel. Vizirat.- D.Sourdel. Le virirat Abbaside de 749 a 936. 1-2. Damas, 1959-1960.

201. Speyer. Erzählungen. – H.Speyer. Die Biblischen Erzählungen im Qoran. Gräfenhainichen, 1931.

203. Stern. Marriage. – G.A.Stern. Marriage in Early Islam. L, 1919.

204. Storey, PL. – Ch.A.Storey. Persian Literature. A bio – bibliographical survey. 1-2. L., 1927-1973.

205. Studies.-Studies in İslamic History and İnstitutions by S.D.Goitein. Leiden, 1966.
206. Theology. – İslamic Philosophical Theology.Ed.by P.Morewedge. N.Y., 1979.
207. Trimingham. Orders.-J.S.Triningham. The Sufi Orders in İslam. Oxf., 1971.
208. Tritton. The Caliphs. – A.S.Tritton. The Cahiphs and their non-muslim subjects: A critical study of the covenant of Umar. Oxf., 1930.
209. Turner. Model. – B.S.Turner. Towards an Economic Model of Virtuoso Religion. – Dilemmas, 49-72.
210. Tyan. Histoire. – Histoire de L'organisation judiciaire en pays d'İslam par E.Tyan. Preface de E.Lambert. 1-2. P., 1938, 1943.
211. Tyan. Judicial Organization. – E.Tyan·Judical Organization. – Law in the Middle East, 236-278.
212. Veccia Vaglieri.Origine·-L.Vessia Vaglieri.Sulla origine della denominazione «sunniti». - Studi orientalistici in onore di Giorgio Levi Della Vida. Rome, 2, 1956, 473-580.
213. Vesey – Fitzgerald. Nature. – S.G.Vesey – Fitzgerald. Nature and sources of the Sharia. – Law in the Middle East, 85-112.
214. van Vloten. Dämonen. – G.van Vloten. Dämonen, Geister and Zauber bei den alten Arabern. Mittheilungen aus Djahiz al-Haiwan. Wien, 1893.
215. Waardenburg. Changes. – J.Waardenburg. Changes of Belief in spiritual beings, prophethood and the rice of İslam. – Struggles of Cods. Ed. H.G.Kippekberg. Berlin, New York, Amsterdam, 1984, 259-291.
216. Waardenburg. Periodization. – I.Waardenburg. Towards a periodization of earliest İslam according to its relation with other religions. – Proceedings, 304-326.
217. Valker. Bible Characters· – İ.Walker. Bible Characters in the Koran Paisley, 1931.
218. Wansbrough. Studies· – Quranic Studies: Sources and methods of scriptural İnterpretation. By J.Wansbrough. Oxf., 1977.
219. Watt. Belief. – W.M.Watt. The Qur'an and belief in a «High God». – Proceedings, 327-333.
220. Watt. Free Will. – W.M.Watt. Free Will and Predestination in Early İslam. L., 1948.
221. Watt. Muhammad. – W.M.Watt. Muhammad: Prophet and statesman L., 1969.
222. Watt. Muhammad at Mecca. – W.M.Watt. Muhammad at Mecca L., 1953.

223. Watt. Muhammad at Medina. – W.M.Watt. Muhammad at Medina. Oxf., 1956.

224. Watt. Period. – W.M. Watt. The Formative Period of İslamic Tought. Edinburg, 1973.

225. Watt.Philosophy.W.M.Watt. İslamic Philosophy and Theology. Edinburgh, 1962.

226. Wellhausen. – Skizzen. J.Wellhausen. Skizzen und Vorarbeiten. 1-6. B., 1884-1899.

227. Wensinck. Concordance. – A.J.Wensinck. Concordance et indices de la tradition musulmane: Les six livres, Le Musnad d'al-Darini, le Muwatta de Malik, le Musnad de Ahmad ibn Habal Par A.J.Wensinsk. 1-7. Leiden, 1936-1969.

228. Wensinck. Greed. – A.J.Wensinck. The Muslim Greed. Cambridge, 1932.

229. Wensinck. Handbook. – A handbook of early Muhammadan tradition alphabetically arranged by A.J.Wensink. Leiden, 1927.

230. Wensinck. New-Year. – A.J. Wensinck. Arabic New-Year. Amsterdam, 1925.

231. Wensinsk. On the relation. – A.J.Wensinck. On the relation between Ghazali's cosmology and his mysticism. Amsterdam, 1933.

232. Westermarck. Pagan Survivals. – E.Westermarck. Pagan Survivals in Mohammadan Civilization. L., 1933.

233. Wolff. Eschatologie. – M.Wolff. Muhammedanische Eschatologie, Lpz., 1872.

234. Wollson. The Philosophy. – H.A.Wolfson. The Philosophy of the Kalam. Cambridge (Mass). – London, 1976.

235. Yahia. Histoire. -O.Yahia. Histoire et classification de L'oeuvre d'İbn Arabi. 1-2. Damas, 1964.

236. de Yong. Sufi Orders. – F.de Yong. The Sufi Orders in XIX-th and XX-th centry Palestine. – St.L. 1983, 58, 149-181.

237. Ziya Bünyadov. Dinlər, təriqətlər, məzhəblər. Bakı, 2007.

238. Э.Ю.Гасанова. Социология религии и мусульманского мистицизма – тасаввуфа в Турции XX в. Баку, 2006.

239. Həşim Həsənoğlu. Azərbaycanın dini tarixi abidələri, ziyarətgahları, seyidlər, övliyalar. Bakı, 2005.

240. Hüseynqulu Məmmədəli. Qafqazda İslam. Bakı, 201.

241. Лейла Меликова. Истоки и основные мировоззренческие аспекты бахаизма. Баку, 2011.

242. İslam (qısa məlumat kitabı). Bakı, 1985.

243. Hacı Abutalıb Əbdül Müttəlib oğlu. Ziyarət. Bakı, 1990.

244. Əmmar Abbasov. Kəbənin açarlarının epiqrafikası AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun beyn. elm. konfr.-nın araşdırmalarının xüsusi buraxılışı. Yaxın və Orta Şərq: dünəni, bu günü, sabahı. Bakı, 2011.

243. Археология Азербайджана. Москва, 1972.

244. Azərbaycan Respublikası məscidlərinin ensiklopediyası. Bakı, 2001.

245. Yılmaz İldırım. Kərbəla vageəsi.

246. Cavad Mühəddisi. Müslim ibn Əqi. 210.

247. Babaxan Niyazi. Mövlana Məcid Əfəndi. Bakı, 204.

## QISALDILMIŞ SÖZLƏR

BDU – Вестник древней истории.М.

DAН – Доклады Академии Наук СССР. Серия B.

ЗВОРАО – Записки Восточного отделения (Имп.) Русского археологического общества. СП., Пг.

ИАН СССР – Изветия Академии Наук СССР.М – Л.

Изв. ИООН АН Тадж·ССР – Известия Института общественных отношений Академии Наук Таджикской ССР.

КСИВ – Краткие сообщения Института востоковедения АН СССР. М.-Л., М.

КСИНА – Краткие сообщения Института пародов Азии АН СССР. М.

ЛОИВАН – Ленинградское отделение Института востооведения АН СССР.

МИТТ, 1 – Материалы по истории туркмен и Туркмении. 1. М.-Л., 1939.

МКВ 25 – XXV Международный конгресс востоковедов: Доклады делегации СССР. М., 1960.

ММИИ – Маджаллат ал – маджма ал-илм ал-ираки. Багдад.

ММЛAD – Маджаллат маджма ал-луга ал-арабийа фи Димашк·Дамаск.

МНМ – Мифы народов мира. 1-2 М., 1980.

НАА – Народы Азии и Африки. История, экономика, культура. М.

ПВ – Проблемы востооведения·М.

ПЛНВ – Памятники литературы народов Востока.

ППВ – Памятники письменности Востока.

ППВ (ежег) – Письменные памятники Востока. Историко филологические исследования. Ежегодник.М.

ПП и ПИКНВ – Письменные памятники и проблемы истории культуры народов Востока. Годичные сессии ЛО ИВАН СССР.М.

ПС – Палестинский сборник. М.-Л.

AAWB – Abhandlungen der Deutschen Akademie der Wissenschaften Berlin. Philologisch – historische Klasse.

AION – Annali dell’ İnitstuto Orientale di Napoli.

AJAS – American Journal of Arabic Studies. Leiden.

Annales. ESC – Annales: Economis, Societes, Civilisations. P.

AOr – Archiv Orientalni. Praha

Arb. – Arabica. Leiden

AT – A.Aarne. The Types of the Folktales. Translated and Enlarged by S.Tompson. Helsinki, 1961.

BEO – Bulletin d'etudes orientales. Damas.
BSOAS – Bulletin of the School of Oriental and African Studies, University of London.
D1 – Der İslam. Strassburg – Berlin, B.
EI – The Encycloealdia of İslam. 1-4. Leyde – london, (1908), 1913-1934.
EI – Enyzlklopaedie des İslam. 1-4. Leiden-Leipzig, (1908), 1913-1994.
EI, NE – The Encyclopedia of İslam. New ed.Leiden – London.
EI, NE – Encyclopaedie de L'İslam. Noyvelle ed.Leiden. London.
GAL – C.Brockelmann. Geshichte der Arabischen Litteratur. 1-2. Weimar- Berlin, 1898-1902.
GAL, SBd – GAL, Supplementbände. 1-3. Leiden, 1937-1942.
GAS – Geschichte des arabischen Schrifttams von Fuat Sezqin. 1-7. Leiden, 1967-1979.
GMS – E.J.W Gibb Memorial Series.
HR – History of Religions·Chicago.
HTR – Hartford Teological Review.
İBLA – İnstitut de belles – letters arabes (Revue). Tunis.
İC – İslamic Culture. Heyderabad.
İJMES – İnternational Journal of Middle Eastern Studies. L. – N.Y.
İPQ – İnternational Philosophycal Quarterly. Bronx.
İQ – İslamic Quarterly. L.
İr.St – İranian Studies (Journal of the Society for İranian Studies). Chestnut Hill.
İSt – İslamic Studies. Karachi-İslamabad.
JA – Journal asiatique. P.
JAOS – Journal of the American Oriental Society. New York – New Haven.
JBBRAS – Jornal of the Bombey Branch of the Royal Asiatic Society.
JESHO – Journal of the Economic and Sosial History of the Orient·Leiden.
JNES – Journal of Near Eastern Stadies. Chicago.
JPaLOS – Journal of the Palestine Oriental Society. Jerusalem.
JRAS – Journal of the Royal Asiatic Society of Great Britiain and İreland. L.
JSS – Jornal of Semitic Studies·Manchester.
MGWJ – Monatsschrift für Geschichte und Wissenchaft des Judenthums Lpz.
MİDEO – Melanges d'İnstitut Dominicain d'Etudes Orientales du Caire.
MO – Le Monde Orientale. Uppsala.

$MS_t$ – İ.Goldziher. Muhammednische Studien. 1-2. Halle, 1998-1890.
MUSJ – Melanges de L'Universite St.Joseph.Beyrouth.
MW – The Muslim World. Hartford, Conn.
OLZ – Orientalistische Literaturzeitung. Lpz.
Or – Oriens. Leiden.
PMHM – Cl. Cahen. Les peuples musulmans dans L'histoire medievale Damas, 1977.
REİ – Revue des etudes islamiques. P.
REJ – Revue des etudes juives. P.
RH – Revue Historique. P.
PHR – Revue de L'histoire des religions. P.
RO – Rocznik Orientalistyczny. Lwow (Krakow).
ROC – Revue de L'Orient chretien. P.
RSO – Rivista degli Studi Orientali. Roma.
SBAF Berl. – Sitzungsberichte der Deutschen Akademie der Wissenschaften zu Berlin. Klasse für Sprachen, Literatur und Kunst.
SHEİ – Shorter Encyclapaedia of İslam. Leiden, 1953.
SI – Studia İranica.P.
StI – Studia İslamica. N.Y.,P.
WZKM – Wiener Zeitschrift für die Kunde des Morgenlandes.
ZA – Zeitschrift für Assyriologie und verwante Gebiete. Hrsg. von.C.Bezold Berlin – Weimar – Strassburg.
ZDMG – Zeitschrift der Deutschen Morgenlandischen Gesellschaft. Lpz., Wiesbaden.
ZS – Zeitschrift für Semitistik und verwandte Gebiete. Lpz.
[б.г.] без года
[б.г.и.м.] без года и места
[i.y.] ili yoxdur
[i.y.y.] ili, yeri yoxdur
[y.m.d.] yeri məlum deyil
[y.i.m.d.[ yeri, ili məlum deyil
[d.d.] daha doğrusu

**Azərbaycan Milli Elmlər Akademiyası**
**ak. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu**

# İSLAM
# ensiklopedik lüğət

Çapa imzalanmışdır: 18.12.2013
Ç.v.: 40, 5
Sifariş: 18
Tiraj: 000

“ MA Kompani”nin mətbəəsində çap olunmuşdur.
Ünvan: Bakı ş. F.Yusifov 16/8